

# GÖRKƏMLİ ®
# ADAMLARIN
# HƏYATI

*Biografiya seriyası*

Əsası 1890-cı ildə
F.Pavlenko tərəfindən qoyulmuş və
1933-cü ildə M.Qorki ilə
davam etdirilmişdir

BURAXILIŞ
1205

(1005)

Hüseynbala Mirələmov
Viktor Andriyanov

# HEYDƏR ƏLİYEV

MOSKVA
MOLODAYA QVARDİYA
2006

BAKI 2018

Görkəmli ®
ADAMLARIN
HƏYATI

*Bioqrafiya seriyası*

Hüseynbala Mirələmov
Viktor Andriyanov

# HEYDƏR ƏLİYEV

Bakı, NURLAR Nəşriyyat-Poliqrafiya Mərkəzi,
2018, 672 s. + 64 s. foto-şəkil

Müstəqil Azərbaycanın inkişafının əsasını qoyan, SSRİ kimi nəhəng dövlətin idarəçiliyində ikinci səlahiyyətli şəxs olan dahi siyasətçi Heydər Əliyevin 95 illik yubileyi münasibətilə işıq üzü görən bu kitabda Ulu Öndərin şərəfli və mənalı ömür yoluna arxiv materialları, eləcə də doğmaları, dostları və həmkarlarının xatirələri əsasında nəzər salınıb. Bu kitab 2006-cı ildə Moskvanın "Molodaya qvardiya" nəşriyyatında "Görkəmli adamların həyatı" seriyasında işıq üzü görən "Гейдар Алиев" monoqrafiyasının əsasında Viktor Andriyanovun vəfatından sonra digər həmmüəllif Hüseynbala Mirələmov tərəfindən yenidən işlənmiş və əlavələr edilmiş dördüncü nəşrdir. Ruhun əbədiliyi baxımından, əsl İNSAN qürubundan doğulan Günəş kimidir. İnanırıq ki, kitabın yeni nəşri oxucuların böyük marağına səbəb olacaq, onların Heydər Əliyev şəxsiyyəti haqqında biliklərini daha da zənginləşdirəcəkdir.

ISBN: 978-9952-508-93-2

© H.Mirələmov, 2018

## ÖN SÖZ

Bəzən dünyada elə təsadüflər olur ki, onları kortəbii baş vermiş hadisələr hesab edirlər. Halbuki bunlar həyatın aşkar həqiqətləridir. Və təəssüf ki, çoxları taleyin bu gerçəkliyini görə bilmir.

1944-cü il noyabrın 27-də Moskvaya, Sovet Sosialist Respublikaları İttifaqı Xalq Komissarları Sovetinin sədri İosif Vissarionoviç Stalinlə danışıqlara yollanan, «Döyüşən Fransa» hərəkatının rəhbəri, Fransa Respublikası Müvəqqəti hökumətinin başçısı və ölkənin gələcək prezidenti Şarl de Qoll yolüstü Bakıda dayanmalı olmuşdu. Sovet Sosialist Respublikaları İttifaqında bu ucaboy və ali qonağı müttəfiq dövlətin başçısı kimi qəbul edirdilər. Sovet İttifaqına iki həftəlik səfərində generalı Stalinin şəxsi göstərişi ilə Xalq Komissarları Soveti sədrinin müavini Aleksey Nikolayeviç Kosıgin müşayiət edirdi. Uzun illərdən sonra Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin sədri Aleksey Kosıgin Parisə rəsmi səfərə yollanacaq və diplomatik protokolun bütün qaydalarına rəğmən Orli hava limanında Sovet hökumət başçısının pişvazına şəxsən Prezident de Qoll gələcək. Lakin bu, başqa bir hadisə, başqa bir əhvalatdır...

Bakıda generalı bütün rəsmi mərasim qaydalarına uyğun ehtiramla qarşıladılar. Bayraqlar, himnlər, fəxri qarovul... Rəsmi qonağı qarşılayanların arasında vəzifə səlahiyyətinə görə dövlət təhlükəsizlik xidmətinin gənc leytenantı, əyninə mülki plaş geymiş və başına dəbdə olan şlyapa qoymuş Heydər Əliyev də vardı.

Sonralar Heydər Əliyevin söylədiyinə görə, onun nəzərləri ani də olsa De Qollun baxışları ilə qarşılaşmışdı.

Həmin axşam məşhur fransalı qonaq «Koroğlu» operasını dinləmiş, ertəsi gün isə qatarla Stalinqrada yola düşmüşdü, çünki hava tutulduğundan təyyarələrin uçuşu təxirə salınmışdı.

Bu hadisəni xatırlatmaq ona görə maraqlıdır ki, dünyada tanınan hər iki şəxsiyyətin siyasi taleyində oxşar məqamlar çoxdur. Hər ikisi uzun illər uğurlu dövlət fəaliyyətindən sonra işdən kənarlaşdırılıb. "Paris didərgini" haqqında deyirdilər ki, o nitqini itirmiş peyğəmbər kimi meydanı tərk etmişdi və səsi-sədası eşidilmirdi.

Qorbaçov əyyamının Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunda Heydər Əliyevi dinləmək və eşitmək istəmədilər. Və o da çıxıb getdi...

1958-ci ilin may ayında Kolombe malikanəsində tənha yaşayan general de Qoll Fransanın çağırışıyla Parisə qayıtdı.

1990-cı ilin iyul ayında Azərbaycanın çağırışıyla Heydər Əliyev özünün Moskvadakı qürbət həyatından ayrılaraq vətənə döndü.

Geri dönəndə hər ikisinin 67 yaşı vardı. Bu yaşda adətən nəvələrlə əylənir və memuar yazmaqla məşğul olurlar. Lakin iş elə gətirdi ki, ürəkaçan ailə qayğıları və xatirələrlə bağlı məsələlər təxirə salınmalı oldu. Onlar dar gündə öz vətənlərini xilas etmək üçün qayıtdılar. Biri – Fransanın birliyini və müstəqilliyini, o biri isə – Azərbaycanın bütövlüyünü və suverenliyini təmin etmək naminə.

Heydər Əliyev siyasətçi kimi sovet sisteminin dəyərləri əsasında formalaşmışdı.

Beynəlmiləlçilik haqqında səslənən şüarlar onun üçün gəlişi gözəl sözlər deyildi: «Beynəlmiləlçi olmaq üçün təkcə öz millətini düşünmək lazım deyil, bütün millətlərin mənafeyini, onların ümumi azadlığını və hüquq bərabərliyini öz millətindən yüksək tutmağı bacarmaq lazımdır» (Vladimir İliç Leninin tam külliyyatı, C.45). Sovet siyasətçisi və dövlət

xadimi Heydər Əliyev haqqında tam səmimiyyətlə demək olar ki, o, işdə beynəlmiləlçi idi.

Lakin XX əsrin sonlarında o, Şarl de Qollun milli amilin bütün digər ideyalar, nəzəriyyələr, şüar və prinsiplərdən öndə olduğu barədə fikrini özü üçün yenidən kəşf etdi.

Bəli, tarix göstərdi ki, milli ideya bir çox başqa mətləblərdən daha önəmlidir. Realist siyasətçi Heydər Əliyev üçün buradan bir qənaət hasil olunurdu: dövlətin qurtuluşu eyni zamanda millətin qurtuluşudur.

...Karlovı Varı. Tixaya Sadovaya küçəsi. Burada, şəfalı bulaqlarla zəngin olan məşhur Mlin (yəni Dəyirman) sütunlarından yüz metr aralı sovet nomenklaturasının xoşladığı «Bristol» sanatoriyası yerləşir. Qoca bağban qızılgülləri suvara-suvara burada Kosıgini, Əliyevi, Şerbitskini, marşal Konevi gördüyünü söyləyir...

Hündür meydançadan yaraşıqlı rus kilsəsinin mavi günbəzləri görünür – oradan zəng sədaları eşidilir; başqa tərəfdən çox ulduzlu sanatoriya və otelləri olan dəbdəbəli kurortun mənzərəsi canlanır.

Yaşlı bağbanla təsadüfi söhbət, onun məhrəmanə şəkildə «hələlik» («aqoy») deyə uğurlaması tezliklə unudula bilərdi, əgər axşam Moskvanın televiziya proqramında onun səmimiyyətlə xatırladığı adamların simaları görüntüyə gəlməsəydi. Televiziyada «İzvestiya»nın və Mərkəzi televiziyanın siyasi icmalçısı, diplomat, keçmişdə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin məsləhətçisi, iki baş katib – Brejnev və Andropovun ən yaxın köməkçilərindən biri Aleksandr Bovinin xatirəsinə həsr olunmuş süjet, müxtəlif illərin fotoşəkilləri, telexronika və s. nümayiş etdirilirdi.

Budur, böyük bayram masası arxasında Yuri Vladimiroviç Andropov, sağ tərəfində Əliyev, solda Qromıko və Qorbaçov əyləşmişlər... Görünür, indicə hansısa zarafatyana bir atmaca səslənmişdir: Heydər Əliyev və Yuri Vladimiroviç ürəkdən uğunur, hətta sərt xasiyyətli, Qərbdə «Cənab Yox»

ləqəbi ilə tanınan Sovet Sosialist Respublikaları İttifaqının xarici işlər naziri Qromıko da gülümsünür. Siyasi Büronun «adi» üzvü, hələ Sovet İttifaqı Komnist Partiyası Mərkəzi Komitəsində ikinci şəxs olmayan (Brejnevin ölümündən sonra Mixail Sergeyeviç yanıqlı qalsa da, ölkənin «ikinci» vəzifəsi Konstantin Ustinoviç Çernenkoya həvalə edilmişdi) Qorbaçovun da sifətində xəfif bir təbəssüm var.

2004-cü ilin aprel günlərində Çexiya qəzetləri ağızdolusu Böyük Avropadan yazırdılar: «Çexiya və üstəlik doqquz ölkə mayın 1-də Avropa Birliyinə daxil olmuşdu. «Dnes» (əvvəllər «Mlada fronta» adlanan) qəzeti oxuculara bildirirdi ki, biz indi 455 milyonuq, ərazimiz 3,9 milyon kvadrat kilometrdir, 25 dövlətik...»

Gecə, düz saat on ikidə Karlovı Varı üzərində salyut gurladı, qaranlıq səma al-əlvan atəşfəşanlıqdan nura boyandı. Çexiya bayram edir. Litva, Latviya, Estoniya, Sloveniya şənlənir...

Avropa bu ölkələr arasındakı sərhədləri götürür. Daha doğrusu, onları Şərqə doğru çəkir.

Dünyanın yeni siyasi xəritəsində ötən əsrin 80-ci illərində dünyada məhsul istehsalının beşdə bir hissəsinə sahib olan Sosialist Birliyi ölkələri. Varşava müqaviləsi dövlətləri və Qarşılıqlı İqtisadi Yardım Şurası artıq yoxdur. Avropa Birliyinin 25 ölkəsinin cəmləşdiyi bu xəritədə vaxtilə Sovet İttifaqının tərkibində olan və aralarında Azərbaycanın da yer aldığı yeni dövlətlər var.

İki min il əvvəl müdriklərdən biri belə söyləyib ki, Allah kimsəyə keçid dövründə yaşamağı nəsib etməsin. Sadə insanın bu həyəcanı, bu narahatlığı bütün zamanlar üçün eyni dərəcədə başa düşülməlidir. O, həmişə çalışır ki, öz komasının, ya da daxmasının bir küncünə sığınıb tufanın sovuşmasını gözləsin. Bu da başadüşüləndi.

Az-çox dünyagörüşü və təcrübəsi olan adam təbiətdəki bəzi əlamətləri müşahidə etməklə baş verəcək tufanı əvvəlcədən müəyyən edə bilir. Deyək ki, leysan yağışdan əvvəl

çox vaxt tozanaq qopur. Eynən böyük siyasətdə də belə olur – hərçənd ki, siyasətdə yaxınlaşan fəlakəti qabaqcadan hiss etmək bacarığı çox az adama nəsib olur...

Andropov, Qromıko, Əliyev və Qorbaçovun bir qədər əvvəl haqqında danışdığımız televiziya çəkilişi 1982-ci ilin noyabrından əvvəl və 1983-cü ilin axırından, yəni Yuri Vladimiroviçin yatağa düşdüyü vaxtdan sonra aparıla bilməzdi. Qəribədir ki, bu kadrları məhz 2004-cü ilin aprel günlərində, yəni qarşımızdakı kitabı yazmaq fikrinə düşdüyümüz zaman ikimizdən biri görmüşdü.

Çox vaxt deyirlər ki, tarixin gələcəklə bağlı dəqiq düsturu, «hazır hökmü» yoxdur. Amma buna baxmayaraq, hadisələrin bu və ya digər inkişaf yönümünü, hətta ssenarisini müəyyənləşdirmək mümkündür. Sovet İttifaqının taleyi necə ola bilərdi, əgər... Variantlar çoxdur. Ümumi qənaət isə ondan ibarətdir ki, Sovet İttifaqı süquta məhkum deyildi.

ABŞ-ın Sovet Sosialist Respublikaları İttifaqındakı keçmiş səfiri Cek Metlokun 2005-ci il iyulun 5-də «İşgüzar çərşənbə axşamı» həftəlik jurnalına verdiyi müsahibəyə nəzər salaq: «Fakt faktlığında qalır: kommunist rejiminin zəifləməsi və dağılması Qərbin təzyiqi nəticəsində yox, Qorbaçovun islahatları sayəsində baş verdi. Əgər bu islahatlar uğurlu olsaydı, Sovet Sosialist Respublikaları İttifaqı xilas ola bilərdi. Sovet Sosialist Respublikaları İttifaqının dağılması heç də soyuq müharibənin və yaxud Qərbin hansısa səylərinin qaçılmaz nəticəsi deyildi».

Əlbəttə, cənab Metlokun cidd-cəhdlə inkar etdiyi «Qərbin təzyiqi» də öz rolunu oynamışdı.

Ağıllı-başlı islahatlar aparmaqla, cəmiyyətin inkişaf təmayülləri diqqətlə nəzərə alınmaqla ölkə yeniləşə-yeniləşə inkişaf edə bilərdi. Lakin hakimiyyəti həyatda əsas qayələrini dəniz daşları tək mamır basmış, az qala yüz il boyu dəyişdirilmədən saxlanan köhnə düsturlara kor-koranə əməl edən ehkamçılar idarə edirdilər. Baş katib vəzifəsinə keçən Qorbaçov cəmiyyətə, ölkəyə yeniləşmə və sürətli inkişaf

vəd edirdi. Hərçənd ki, çox tezliklə özünün böyük dövlətinin miqyasları ona darısqal görünməyə başladı. O, özünün yeni düşüncə konsepsiyasını böyük tərkibdə nəinki Sovet İttifaqına, Sosializm Birliyi ölkələrinə, hətta bütün dünyaya sırımaq istədi. Halbuki, doğma ölkəsinin daxilində vəziyyət günü-gündən pisləşirdi. Lider hansı işdən yapışırdısa, naqqallığına salıb hər şeyi bada verir, yarıda bilmir, ona etiraz bildirməyə cəsarət edənləri isə rədd edirdi.

«Mən «Perestroyka» (yenidənqurma) ifadəsini eşidən kimi o saat dedim: bu «katastroyka»dır (yəni oyunbazlıq, dağıdıcılıq), – deyə filosof, yazıçı Aleksandr Aleksandroviç Zinovyev jurnalist Viktor Kojemyak ilə müsahibəsində o dövrü belə xatırlayır. – 1988-ci ildə mənim «Qorbaçovizm» adlı kitabım nəşr olunmuşdu».

Burada onu da əlavə edək ki, bu kitab Almaniyada nəşr olunmuşdu. Partiya bu böyük alimi sonra məhz bu ölkəyə sürgün etmişdi. Yalnız neçə il keçəndən sonra o vətənə qayıda bildi. «...Qərbdə çıxışlarımdan birində mənə Sovet sisteminin ən zəif yeri barədə sual verdilər. Mən cavab verdim ki, Sovet sisteminin ən zəif yeri əslində ən möhkəm hesab olunan partiya aparatıdır. Zalda gülüşmə qopdu. Mən əlavə etdim ki, bəli, partiya aparatı, Siyasi Büro və Baş katib. Onlar istəsələr, yarım ilə ölkəni dağıda bilərlər. Elə də oldu («Pravda» qəzeti. 18 avqust 2005).

Uzaqgörən siyasətçilər – heç şübhəsiz, böyük idarəçilik təcrübəsinə, siyasi fəhmə malik, insan qəlbinin istəklərini duyan, anlayan Heydər Əliyev də belələrindən idi – görürdülər ki, bəli, «proses getdi» (Qorbaçovun formulu) və bu «proses» İttifaq dövlətinin dağılmasına doğru yol alıb. Artıq Rusiyanın özündən qoparmalı olacaq balaca «vaqon»lar haqqında söz-söhbət gəzirdi. Söhbət rusların, rusiyalıların vahid dövlət tərkibində yüz, iki yüz, üç yüz il birgə yaşadığı xalqlardan, müttəfiq respublikalardan gedirdi. Hər hansı başqa bir dövlət tərkibində ölkənin dağıdılmasına çağıran siyasətbazların aqibətini məhkəmə həll edərdi. Sovet İtti-

faqında isə başı dumanlandırılmış kütlə onları sevinclə qarşılayaraq əlləri üstə gəzdirirdi.

Respublikalarda separatçı təmayüllər baş qaldırırdı. Onları bir tərəfdən hakimiyyətə və varlanmağa can atan yerli elitalar qızışdırır, digər tərəfdən isə açığını deyək ki, sıxışdırılmış milli mənafelər növbəti yanlış addımlara təhrik edirdi. Öz bayrağı, himni, konstitusiyası olan respublikalar, əslində, çox az müstəqilliyə malik idilər. Kadrları «qırmızı» paytaxt təyin edirdi. Bu paytaxt yalnız öz istədiklərini mükafatlandırır, ucaldır və endirir, cəzalandırır və əfv edirdi. Və birdən o da məlum oldu ki, bəzi məsələləri onsuz da həll etmək mümkündür. Bəs, görəsən nəyi? Moskva yüyəni hara qədər boş buraxır? Yenidən onu öz əlinə almazmı?

Hakimiyyət uğrunda mübarizəyə ən müxtəlif qüvvələr qoşulurdu: xarici xeyriyyəçilərdən qidalananlar da, populistlər də, tələm-tələsik maskalanmış haram kapital da. Hər bir müttəfiq respublikanın – Moldovanın, Gürcüstanın, Ukraynanın, o cümlədən də Azərbaycanın özünəməxsus xüsusiyyətləri vardı. Əlbəttə, bununla yanaşı bir çox başqa amillər də – tarixi, sosial, xarici siyasət də bu prosesdə rol oynayırdı. Məsələn, Moldovada rumuniyapərəst dairələrin fəallığı aşkar görünürdü. Litvada hər şeyi antirus «Sayudis» idarə edirdi. Ukraynada keçmiş əmək qvardiyası – aldadılmış şaxtaçıları siyasət meydanına atmışdılar ki, qoy tarana gedib sovet hakimiyyətini yıxsınlar.

Azərbaycanda Moskvanın əmrinə əsasən çoxdan burada olmayan, başqa cür desək, hələ ölkəyə qayıtmamış Heydər Əliyevlə haqq-hesab çürüdürdülər. Respublikada dərəbəylik hökm sürürdü.

Tarixdə şəxsiyyət, insan və hakimiyyət kimi anlayışlar adamları zaman-zaman düşündürüb. Bəzən bu, hökmdarlara, rəhbərlərə onların vaxtı-vədəsi gələnədək «rəiyyət»dən gizlədilən şəxsi həyatlarının xırdalıqlarına göstərilən maraq sırf «obıvatel» marağından fərqlənmir. Əksər hallarda isə bu xüsusiyyət adamlarda həqiqəti anlamaq istəyindən irəli gə-

lir. Nədən hansısa öndərlərə «gərdişi-dövran» tabe olur və onlar sınaqlara sinə gərərək, öz xalqlarını, ölkələrini Böyük Pyotr, Franklin Ruzvelt, Atatürk, Stalin, Çörçill, Qandi, de Qoll kimi ucaldırlar?.. Nədən digərlərini eyni olaylar, gur axın aciz bir talaşanı apardığı kimi öz ardınca sürükləyir? Və bu təqdirdə taclar başlardan qoparılıb tolazlanır: Rusiya imperatoru II Nikolayın, Avstriya kralı Frans-İosifın, alman kralı Vilhelmin, Sovet Sosialist Respublikaları İttifaqının birinci və sonuncu Prezidenti Mixail Qorbaçovun tacı kimi...

Heydər Əliyev on dörd il Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə başçılıq edib – sovet dövründə bu, respublikanın rəhbəri demək idi; beş il sovet hökumətində ikinci şəxs və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olub; on ildən artıq başında durduğu müstəqil Azərbaycanın postsovet dönəmində yaradılması və təşəkkül tapması da onun adıyla bağlıdır.

Heydər Əliyevin böyük siyasətə qayıdışı bir çox cəhətdən general de Qollun «başını itirmiş» Fransada hakimiyyətə qayıdışını xatırladır. Onların fəaliyyət göstərdikləri siyasi mühit və şəraitin bütün fərqlərinə baxmayaraq, bu iki tarixi şəxsiyyətin müqayisəsi ən başlıca cəhəti aşkara çıxarır; onlar üçün həlledici meyar öz ölkələrinin mənafeyi olmuşdur. Yeri gəlmişkən, məhz Əliyevin sərəncamı ilə 1999-cu ilin martında de Qollun qırx dördüncü ildə qonaq kimi qaldığı binanın üzərinə xatirə lövhəsi vurulub. Bakılılar Neftçilər prospektində yerləşən həmin möhtəşəm binanı yaxşı tanıyırlar; onun yanında XII əsrin memarlıq abidəsi – məşhur Qız qalası ucalır. Beləliklə də, uzaq və yaxın keçmiş bir-birinə qovuşur.

İstedad və iradə Əliyev şəxsiyyətinin ali keyfiyyətləridir. İlk növbədə özünə qarşı ən yüksək səviyyədə tələbkarlıq və mütəşəkkillik. Bir adamı dinləmək və eşitməklə «xalq», «millət» adlanan böyük anlayışın birləşdirdiyi bütün insanların istək və məqsədlərini anlamaq qabiliyyəti onda bir daha özünü büruzə verirdi. Onun simasında böyük siyasət-

çinin peyğəmbər uzaqgörənliyi və sərkərdə şücaəti cəmləşirdi. Dərin savad və fitrətdən gələn incə estetik duyumu olan, alicənab və ürəyində kin saxlamayan bu insan bilmədən səhv edənləri bağışlamağı bacarırdı, lakin naşılar, simasızlar, təmənna güdənlər onun mərhəmətinə ümid bəsləyə bilməzdilər.

Anadan olanda adını Heydər qoydular. Mənası – öndə gedən, başçı deməkdir. Biz onun necə boya-başa çatmasından, doğma Naxçıvanında, daha sonra bütün Azərbaycanda – qoca Xəzərdən qarlı-vüqarlı dağlaradək – Sovet İttifaqı adlanan ölkədə qarşısında açılan dünyanın ona necə görünməsindən, bənzərsiz siyasətçi və dövlət xadimi, milli lider, xalqın öndəri olmasından bəhs edəcəyik.

## I fəsil

## «MƏN NAXÇIVANDA DOĞULMUŞAM...»

*10 may 1923-cü il, Naxçıvan*

Tərcümeyi-halında yazırdı:

«Mən, Əliyev Heydər Əlirza oğlu, 1923-cü il mayın 10-da Naxçıvanda anadan olmuşam...». Hər dəfə bu sətirləri yazdıqda – Bakıda, Leninqradda, Moskvada, – Araz sahilindəki sakit və mehriban, doğma şəhər gözləri önündə canlanırdı. Əsrləri, minillikləri yola salmış bu şəhərin may ovqatı məscid üzərində açılan bahar asimanı kimi safdır, ülvidir və sanki dünyaya yeni gələn bir insanın valideynlərinə bəxş etdiyi ümid işığıdır.

Belə bahar günlərinin birində Əlirza və İzzət Əliyevlərin ailəsində dördüncü övlad dünyaya göz açdı. Körpəyə İzzət xanımın azərbaycanlıların Zəngəzurdan didərgin salındığı zaman həlak olmuş qardaşı Heydərin adını qoydular. O Heydərin yaşı həmişəlik iyirmi üç olaraq qaldı... İllər ötəndən sonra Əliyevlər ailəsində Əyyub Abbasovun «Zəngəzur» romanı əldən-ələ keçdi. Çünki bu iki qalın cilddə yazılanları oxuyan Şəfiqə eynən bu hadisələri, analarının da ona danışdığını qardaşlarına söyləmişdi.

– Yanılmırsan, Şəfiqə, – deyə Həsən təsdiqlədi. – Bu kitabı yazan adam didərginlik ağrısını çox dəqiq göstərmişdir.

«Andronik Uzunyanın əsgərləri kəndə aşağı tərəfdən daxil oldular. Yamacın ətəyində bir neçə ev alışıb-yandı. Comərd təkid eləyirdi ki, adamlar nəyi bacarırlarsa götürüb dağlara çəkilsinlər.

Haray-həşir, arvadların hönkürtüsü, uşaqların ağlaşması kəndi başına almışdı. Sanki qayalar da Zəngəzur torpağında baş verən müsibətə laqeyd qala bilmirdi. Atlar, yüklənmiş ulaqlar, qorxudan böyürən öküzlər, inəklər – hər şey bir-birinə qarışmışdı. Kənddə qalan yalnız dərd-sərdən ağlı çaşmış və öz həyatını evindən ayrı təsəvvür etməyən qocalar idi».

Bu – ədəbiyyatdır. Həqiqətdə isə XX əsrin əvvəllərində Yelizavetpol quberniyasının Zəngəzur qəzasında 326 kənd vardı. Azərbaycan tatarlarının (o vaxt imperiya məmurları azərbaycanlıları belə adlandırırdılar) qonşuları olan ermənilər, ruslar və kürdlər pambıq əkini ilə məşğul olur, qoyun sürülərini birgə otarır, hərə öz ibadətgahında – kilsəsində, məscidində ibadət edirdi. Bu bərəkətli torpaqda hər şey bol idi – meyvə bağlarında dadlı alma, armud, üzüm, ərik, şaftalı yetişirdi; çoxsaylı geniş otlaqlarda mal-qara, qoyun-quzu sürüləri otlayırdı. O dövrün xronikasında belə yazılmışdı: əsrin əvvəllərində Zəngəzurda 123 997 adama 83 min baş iri buynuzlu mal- qara, 83400 baş qoyun, 4000 baş keçi düşürdü... İpəkçilik inkişaf edir, mis hasilatı artırdı.

Bəli, nə qədər ki, insanları milli ayrı-seçkilik, milli münaqişələr, qarşılıqlı qəzəb, kin-küdurət bir-birindən ayırmamışdı, bu diyarda hər şey bol idi.

Yaşadığı müsibət İzzət xanımın qəlbində silinməz qanlı izlər buraxmışdı. O, öz dərdini uşaqlarından gizlətsə də, qızları (qızlar adətən həssas olur) neçə dəfə analarının xəlvətə çəkilib için-için ağladığını görmüşdülər.

Naxçıvanda gözəllik müsabiqələri keçirilsəydi, heç şübhəsiz, İzzət xanım birinci gözəl sayılardı. Lakin bu diyarda qəbul olunmuş əxlaq qaydaları belə bir sərbəstliyə yol verməzdi. İzzət xanım öz valideynləri Cəfərqulu və Sarabəyim

kimi, valideynlərinin valideynləri kimi, müqəddəs «Qurani-Kərim»də yazılmış qaydalara uyğun yaşayırdı, hətta oğulları belə onu heç vaxt başıaçıq görməmişdilər.

Bir dəfə Şəfiqə otaqda anasının saçlarını darayırmış. Qapı döyülür. O, – «Yəqin, Heydər qayıdıb», – deyir və tələm-tələsik sevimli kəlağayısını başına çəkir.

İstər Azərbaycanda, istərsə də Rusiya və Ukraynada olsun, böyük ailələrdə evin-ocağın əsas yükünü həmişə ana çəkir. Bakının neft mədənlərində fəhlə işləmiş və sonra Naxçıvana qayıtmış ataları dəmiryolunda işə düzəlmişdi. Heydər anadan olanda Əlirza Əliyevin köhnə dostu, parovoz maşinisti dəmir maşınından elə qulaqbatırıcı fit verir ki, Araz qırağında otlayan qoyun-quzu hürküşüb az qala çaya töküləcəkmiş...

Elin adət-ənənəsinə uyğun ən yaxın adamları plovlu, şərbətli süfrə başına dəvət etmişdilər.

Gur səsi həyət-bacanı başına alan körpənin Həsən, Hüseyn adlı iki qardaşı və Surə adlı bir bacısı vardı. Sonralar Allahın kəramətilə daha dörd övlad – Aqil, Cəlal, Şəfiqə, Rəfiqə dünyaya gəldi. Ailədə beş oğlan və üç qız böyüməyə başladı.

## Tarixin bir günü

10 may 1923-cü il... Artıq çox-çox uzaqlarda qalan bu gün görəsən Sovet Respublikaları İttifaqında, Azərbaycanda və dünyada nə ilə yadda qalmışdır? Bakı, Naxçıvan qəzetlərini vərəqləyib, o vaxt nədən yazdıqlarını bilmək istədik.

Almaniyada fəhlə nümayişləri dalğalanır. Sovet həmkarlar ittifaqları Rur hövzəsinin tətil edən şaxtaçılarına 500 000 pud çörək göndərməklə onlara qardaş yardımlarını göstərirlər. İlk yardım eşalonlarını Bakı neftçiləri ilə Donbas şaxtaçıları təşkil edir. Onlar yazırdılar: «Biz – Sovet Sosialist Respublikaları İttifaqının zəhmətkeşləri fəhlə sinfinə mənsub olan qardaşlarımızı ağır vəziyyətdə tək qoya bilmərik».

Amerikalılar rus ağqvardiyaçılarının ABŞ-a gəlməsinə etiraz edirlər. Moskvada «professor Timiryazevin xatirəsini ehtiramla yad edirlər». Bütün İttifaq boyu «hava donanmasının gücləndirilməsi üçün» pul yığırlar. Bakının özəl tikiş emalatxanalarının fəhlələri də 22 milyon 280 min rubl yığıb təhvil vermişlər (o zamanlar «limon» adlanan milyonluq kağız pullar işlədilirdi. Hesabdar Aleksey Markoviçin cibindən 16 milyard mil kağız pul «çıxarılmış», Ziba Məmməd qızı adlı birinin evindən 45 milyardlıq ev əşyaları «çırpışdırılmışdır». Bax, beləcə, milyarder və milyoner vətəndaşlar tarixə düşmüşlər). Bir daha hava donanması haqqında – beş manat dəyərində üç istiqrazından keçən Süleyman, Eydelşteyn və Oqanezov yoldaşlar sağ olsun; daha bir belə istiqrazı Əzizbəyov adına xəstəxananın partiya özəyi vermişdir. İlin sonunadək Sovet Azərbaycanı aviatorlara respublikada toplanan vəsait hesabına quraşdırılmış iki təyyarə təhvil vermişdir. Birini «Qırmızı Bakı», o birisini isə həlak olmuş Bakı komissarlarının xatirəsinə «26-lar» adlandırmışlar. «26-lar»-dan biri də məlum olduğu kimi, Məşədi Əzizbəyov idi. Onu və yoldaşlarını ingilislər 1918-ci ilin sentyabrında Türkmənistan səhralarında güllələmişdilər. Komissarların adına verilmiş təyyarə göyə qalxanda Bakıda artıq onların abidəsi qoyulmuşdu. Layihənin müəllifləri istedadlı memarlar Yakulov və Şuko idi. Vladimir Alekseyeviç Şuko Moskvadakı məşhur «Lenin adına Sovet Sosialist Respublikaları İttifaqı Kitabxanasının» layihəsinin də müəllifı idi. Həmin ərəfədə «Bakinski raboçi» qəzetində Yeseninin məşhur «İyirmialtılar haqqında ballada»sı artıq dərc olunmuşdu. Sergey Yesenin bu şeiri özünün yaxın dostu, gözəl rəssam G.Yakulova həsr etmişdı: «Dərin məhəbbətlə – gözəl rəssam G.Yakulova». Onları həyatda çox şey bağlayırdı.

Yesenin gələcək həyat yoldaşı, cazibədar rəqqasə Aysedora Dunkan ilə Moskvada Georgi Yakulovun «Bolşaya Sadovoya, 10» ünvanındakı mənzilində tanış olmuşdu. Pəncərələrindən «Sadovı koltso» aydınca seyr edilən bu mənzil-

də Leninə güllə atmış Fannı Kaplan da yaşamışdı; «Qudok» qəzetinin əməkdaşı, gecələr özünün məşhur «Ağ qvardiya»-sını yazmaqla məşğul olan Mixail Bulqakov da bu kommunal evdə məskunlaşmışdı.

Tarixin bir-birinə dolaşmış kələfini açdıqca açmaq olar. Ona görə də mətləbi uzatmadan sadəcə qeyd edək ki, Bakı həm Yesenin, həm də Yakulov üçün yeni bir yaradıcılıq kəşfi idi.

Qayıdaq 1923-cü il may ayının qəzet səhifələrinə.

...Bakı sovet-partiya məktəbinin yüz on müdavimi «proletariat və kəndli kütlələrinin içinə atılıb sinfi şüuru ələ almaq və minlərlə zəhmət adamını maarifləndirmək» üçün marksizmin əsaslarını öyrənirdi.

Partiyanın fabrik-zavod rayon komitəsi (yəni Azərbaycan Kommunist Partiyasının, çünki başqaları artıq yox idi) firqəyə qəbul olunan yoldaşların siyahısını dərc edərək adları çəkilənlərə qarşı hər hansı irad və etirazı olanlardan materialları raykoma göndərmələrini xahiş edirdi.

Azərbaycanın Xalq Maarif Komissarlığı ilə Rusiyanın Maarif Komissarlığı arasında 1922-ci ilin dekabrında imzalanmış müqavilənin səmərəliliyini zaman göstərdi. Moskvanın, Petroqradın(o zaman hələ şəhərin adı dəyişdirilib Leninqrad qoyulmamışdı) və Sovet Rusiyasının başqa şəhərlərinin məşhur ali məktəbləri ilə Azərbaycan ali təhsil müəssisələri arasında kitab, dərs ləvazimatı və kadr mübadiləsi aparılırdı. Azərbaycanın ilk ali təhsil müəssisələrinin – politexnik institutunun, universitetin kafedraları əsasən rus alimlərinin köməyi ilə formalaşdırılırdı. Məhz bu rus alimlərinin fəal yardımı nəticəsində 1923-cü ildə Azərbaycanın «Öyrətmə və Araşdırma Cəmiyyəti» yarandı. Altı ildən sonra bu təşkilatın bazasında Dövlət Elmi-Tədqiqat İnstitutu təşkil olundu və bir müddət sonra bu institut Azərbaycan Elmlər Akademiyasına çevrildi.

Xalq Komissarları Sovetinin 1923-cü il 22 aprel tarixli qərarına əsasən Azərbaycan maarif və ədliyyə komissarı, daxili

işlər komissarının müavini təlimat hazırlayıb imzalamışlar: «Azlit» nəzdində repertuar komitəsinin icazəsi olmadan heç bir əsər kütlə qarşısında ifa və ya nümayiş edilməyə buraxıla bilməz».

Afişalar bakılıları Hərbi Dənizçilər Teatrına (keçmiş «Pel-Myül») «Qusar məhəbbəti» tamaşasına; «Erməni artistlərinin Rostov kollektivi»nin «Silva»nı ifa etdiyi Dövlət Azad «Satir-Aqit» Teatrına, Peterburq Akademik (keçmiş «Marünski») Teatrının artisti İ.V.Yerşovun konsertinə dəvət edirdilər.

Bundan başqa qəzetlər Suraxanıda təzə bazarın təntənəli açılışına çağırır – «bazarda satış və yer üçün ödəniş alınmayacaq»; yenicə açılmış əla ailəvi «Teatral» restoranına dəvət edir; hərrac və «bufet, bilyardxana və bərbərxananın icarəyə verilməsi üçün müsabiqə» keçirildiyini bildirirdilər.

Ural dağ-mədən sindikatının Bakıdakı nümayəndəliyi bağlanmış, əvəzinə «fəaliyyət dairəsinə bütün Qafqaz, Zaqafqaziya, Türküstan, keçmiş «Bukeyev orda»sı bölgəsi və İran daxil olan» vilayət kontoru açılmışdır.

1923-cü ilin may ayından Zaqafqaziya Əmək Xalq Komissarlığı «zəruri ərzaq və tələbat mallarının yerli bazar qiymətləri üzrə dəyərini» dərc etməyə başlamışdır. Məlumat ayda dörd dəfə verilirdi: 1,8, 15 və 22-si tarixlərində.

Hərdən Əlirza Əliyev depodan artıq əldən-ələ keçmiş bu qəzetləri evə gətirib ömür-gün yoldaşına üz tutub deyirmiş: «Gəl, ay arvad, baxaq görək, nə var, nə yox».

## Ata ocağı

Dəmiryolu işçiləri arasında zərbəçi sayılan Əlirza Əliyevə torpaq sahəsi ayırdılar. Uşaqların hərəsi öz gücünə görə çalışırdı, kimisi bostanda kömək edir, kimisi də qoyun-quzu otarırdı. Onlar ömürlərinin erkən çağlarından çörəyi alın tərilə qazanırdılar. Çünki Naxçıvanın özünəməxsus sərt təbiəti tənbəlliyi bağışlamırdı.

İzzət xanım təbiətə yaxşı bələd idi, gül-çiçəkdən, meyvə və otlardan nə lazım olsa hazırlayırdı. Qonşu qadınlar ondan məşhur mürəbbələrinin sirlərini öyrənməyə gələrdilər.

Boyu az qala on metrə çatan gözəl göycə ağacı həyətdəki albalı və alma ağaclarına sanki yuxarıdan aşağı baxırdı. Bu ağac martda çiçək açır, iyulun sonu, avqustun əvvəllərində alçaya oxşar, amma o qədər turş olmayan çəhrayı-yaşıl və açıq qırmızı meyvələrilə adama "gəl-gəl" deyirdi. Həsən göyçə ağacına gavalı qələmi peyvənd eləmişdi. Uzun illər boyu bu ağac uşaqları sevindirirdi.

Əliyev ocağının ilk sahibi ötən əsrin əvvəlində İrandan bir armud qələmi gətirmişdi.

– Əntiqə bar gətirərdi, – Heydər Əliyevin kiçik bacısı Şəfiqə xanım xatırlayır, – ilk qar yağana qədər onlara dəyməzdik. Sonra dərib otaqda asılı saxlayardıq. Hər armud 300-500 qram gələrdi və bütün qışı qalardı.

Şəfiqənin daha bir uşaqlıq xatirəsi onların Naxçıvandakı həyatına ilıq bir işıq salır.

... Sübh çağı; ağsaqqallar günün bu vaxtına «çeşt» deyərdilər. İzzət, qayçı və ələk götürüb həyəti haşiyələyən qızılgüllərə sarı gedir. Güllərə əl uzatmaq asan deyil: tikanlar aman vermir. Ləçəklər zərifdən zərifdir. İzzət ələyi altda tutub, gülləri qayçılayıb üzür. Sonra ləçəkləri şəkər şirəsi süzülmüş tavaya atır, şirə olmasa, onlar quruyar. Şəkər tozuyla qarışdırılmış, ovxalanmış ləçəklərə darçın, zəncəfil qatır. Bu mürəbbə soyuqdəymə, mədə xəstəlikləri üçün əvəzsiz dərman sayılırdı.

Ləçəklərin bir qismini İzzət kölgəlikdə qurudar, sonra pal-paltarın, tumanların, çadraların qatları arasına qoyardı. Anasının ağ tumanı, eləcə də çəhrayı, parlaq çiçəklərlə naxışlanmış ağappaq koftası Şəfiqənin yaxşı yadındadır:

– Anam bu dəstini yuyanda, ütünü kömürlə qızdırıb paltarını ütüləyəndə yanında durub həvəslə tamaşa eləyirdim. Hər bir qırışı ütüləyib koftasını sandığa qoyar, üstünə qızılgül ləçəkləri səpərdi. Örtməmişdən əvvəl çadrasına

gülab çiləyərdi. Payızda sandığa bir neçə heyva qoyardı ki, onların ətri pal-paltara hopsun; mərhəmətin, xeyirxahlığın onun canına-qanına hopduğu kimi. Onun dilindən heç vaxt acı söz eşidən olmamışdı. Öz yoldaşına «səni görüm ocağın sönsün!» – deyə qarğıyan satıcı qadınla biryolluq salam-kəlamını kəsmişdi.

Əlbəttə, ananın sehrli səliqə-sahmanını ilk növbədə qızları görüb- götürürdü. Amma oğullar da ibrət alırdı. Heydər Əliyevin geyim-kecimindəki təbii incəlik, zövq və səliqə də ata-ana ocağından gəlirdi.

Sovet hakimiyyətinin dördüncü ilində – yeni sovet hakimiyyəti başqa respublikalara nisbətən Azərbaycana daha gec gəlmişdi, – Naxçıvanda da yeni məişətin əlamətləri göründü; Möminəxatun məqbərəsinin yaxınlığında Həsənin Heydəri apardığı, sonralar isə Heydərin də öz növbəsində Cəlalı, kiçik bacılarını yola saldığı uşaq bağçası yerləşirdi.

Atabəy Məhəmməd Cahan Pəhləvanın ömür-gün yoldaşının sərdabəsi üzərində böyük memar Əcəminin türbə ucaltdığı zamandan yeddi əsr yarım ötmüşdür. Bu abidənin qədim daşları o qədər olayların şahidi olmuşdu ki, daha heç nəyə təəccüblənmirdilər.

Böyüdükcə Heydər sinif yoldaşlarıyla birlikdə mavzoleyin seyrinə dalmağı, onun göylərə tuşlanmış cizgilərini rəsm etməyi xoşlayardı. Naxçıvan başdan-başa tarixin canlı salnaməsidir. Əcəminin yaratdığı bir başqa məşhur abidə də – Yusif ibn Küseyirin məqbərəsidir. Arazın üzərindən o taya, İrana uzanan körpülər, karvansara xərabələri... və Telman adına klub, – alman proletariatı rəhbərinin ağlına gəlməzdi ki, onun adı yazılmış lövhə yenidən təmir edilib qurulmuş ibadətxananın qapısına vurulacaq (Münhendə, Hamburqda keçirilən nümayişlərin əks-sədası gör hara gəlib çatmış, gör «Rot front!» hayqırtısı ilə qaldırılan fəhlə yumruğu özünə haralarda havadar tapmışdı).

Naxçıvanda həm də Pionerlər evi açılmışdı və buranı Heydər Əliyevin qardaşı, məşhur iqtisadçı alim, Milli Elm-

lər Akademiyasının müxbir üzvü Aqil Əliyev sonralar da xoş duyğularla xatırlayırdı: «Orada hər şey yaxşı təşkil olunmuşdu. Dərslərdən sonra evə qayıdıb bir tikə çörək yeyən kimi gedəcək yerimiz bəlliydi: «haydı, Pionerlər evinə!» Burada hər kəs üçün bir maraqlı məşğuliyyət tapılırdı».

Şübhəsiz ki, Heydər Əliyevin doğma mədəniyyətə, memarlıq, teatr sənətinə dərin marağı onun boy atdığı mühitin zəngin təsirindən yaranmışdır.

Əliyevlər ailəsinin ən böyük övladı Həsən gənclik çağlarından təbiət vurğunu idi, saatlarla ətrafdakı səfalı yerləri gəzib-dolanardı. Onu «Vurğun səyyah» da adlandırmaq olardı. Lakin böyük qardaşın romantik duyğularla dolu olan qəlbi daha çox elmin ciddi ilham pərisi ilə hesablaşırdı. O, sonralar Kənd Təsərrüfatı Akademiyasını bitirmiş, alim olmuş, partiya işçisi – Mərkəzi Komitənin kənd təsərrüfatı üzrə katibi kimi fəaliyyət göstərmişdi. Azərbaycanda onu bu gün də böyük ehtiramla yad edirlər.

Əliyevlər ailəsində «humanitarlar» və «texnikapərəstlər» tən yarıya bölündülər. Hüseyn kiçik yaşlarından karandaşla, fırça və boyalarla şəkil çəkməyi sevirdi. Uşaqlıq arzusu onu İ.Repin adına Leninqrad Rəssamlıq Akademiyasına gətirib çıxartdı. Ömrünün sonunadək molbertdən ayrılmadı. Surə jurnalistikanı, Aqil iqtisadiyyatı seçdi və elm aləmində də, işgüzar dairələrdə də nüfuz qazandı. Cəlal məşhur bioloq, Azərbaycan Milli Elmlər Akademiyasının akademikidir. O, yeni buğda növləri icad etmiş, Şəfiqə və Rəfiqə pedaqoq olmuşlar.

Heydər qardaşı Hüseyn kimi incəsənətlə məşğul olmaq arzusundaydı. Yaşıdlarının xatırladıqlarına görə, o, yaxşı şəkillər çəkər, məktəb tamaşalarını tərtib edər, teatrı sevərdi.

Heydərin və qardaşlarının aləmində doğma Naxçıvan açıq səma altında böyük bir muzey idi. Uşaqlıq marağı onları qədim və müəmmalı mağaralara, qoynunda ötən yüzilliklərdən miras qalmış qırıntılar tapılan dərə-təpələrə çəkib aparardı. Paslı nizənin iti başlığı ana yurdu yadellilərdən

qorumuş mərd ərənlərdən xəbər verirdi. Haradasa uzaqlarda, əsrlərin qaranlıq dərinliklərində Azərbaycanın elmə məlum olan ən qədim adı Midiya-Atropatena gizli qalmışdı. Sonralar texnikumda tarix müəllimi gələcək pedaqoqlara bu adın necə dəyişdiyini açıqlayırdı:

– Qədim farslar «Ader-badaqan» ifadəsi işlədirdilər, ərəblər «Adərbaycan» və «Azərbaycan» deyirdilər, yəni «Odlar yurdu».

Ancaq bunu Azərbaycan uşaqları müəllimsiz də bilirdilər, ona görə ki, bu od hər evdə var idi: neft ocaqda yanırdı. Quruyub qatılaşmış neftlə – qırla evlərin damını qırlayırdılar. Ağ neftlə lampaları doldurur və bu lampalar qaranlıqda nur saçırdı. Onların şüşələrini isə göz bəbəyi kimi qoruyurdular.

Neft lampasının tutqun işığı yarıqaranlıqda öz işləri ilə məşğul olan uşaqların siluetini canlandırırdı. Şəfiqə gəlinciyi ilə oynayır, Hüseyn və Heydər şəkil çəkirdilər. Böyük qardaş ən çox mənzərə şəkli çəkməyə həvəsliydi, kətan üzərində mavi torana bürünmüş dağları çəkməyi xoşlayardı. Heydəri isə xəyalı uzaq əsrlərə, cəsur igidlərin yadellilərə sinə gərdiyi əsrlərə aparırdı.

Əlində karandaş işlədikcə gözləri önündə qəhrəmanlarm surətləri canlanır: oğluna «qırx il qul kimi ömür sürməkdənsə, bir gün azad yaşamaq yaxşıdır», – deyən IX əsrin azadlıq savaşının öndəri Babək; XV yüzilliyin əvvəllərində cahangirlərə meydan oxuyan, üsyan edən qoç Koroğlu, «Şahnamə»nin əfsanəvi personajları – bahadır Rüstəm Zal, comərd Səyavuş...

Bir zamanlar Rusiya ordusunda canla-başla xidmət etmiş sərkərdələrin, Naxçıvan xanlarının adları xalqın yaddaşında yaxşı qalmışdı, hərçənd ki, bu barədə yeni hökumətin mətbuatı yazmırdı. Bu adamlar barədə danışmamaq daha məqsədəuyğun sayılırdı. Amma hər bir ailədə naxçıvanlı Kəlbəli xanı, onun oğulları Ehsan xanı, Şıxəli bəyi, nəvələri İsmayıl xanı, babasının adını daşıyan Kəlbəli xanı və nəticəsi – cə-

surluğuna görə yeddi ordenlə mükafatlandırılmış Hüseyn xanı böyük hörmət və ehtiramla xatırlayırdılar. Naxçıvan xanlarının nəslindən beş nəfər Rusiya ordusunun generalı rütbəsinə yüksəlmiş, Georgi nişanı ilə təltif edilmişdi. General-yavər, kavaleriya qvardiyası korpusunun komandiri Hüseyn xan Naxçıvanski 1917-ci il Rusiya inqilabından sonra Kerenski hökumətinə sədaqət andı içməkdən imtina etmiş və Petroqradda istefaya çıxmışdı. 1919-cu ilin fevralında isə yeni sovet hökuməti onu və onun kimi bir çox professional hərbçiləri güllələyir. Bu acı xəbər cəbhə meydanlarını yarıb Naxçıvana yetişəndə Əlirza Əliyev köksünü ötürüb kədərlə demişdi: «Allah rəhmət eləsin».

...Məktəb dram dərnəyində Heydər ən çox sevdiyi qəhrəmanların rollarını ifa edərdi. Məktəblilər, tələbələr milli və dünya klassiklərindən – Məmmədquluzadənin, Şekspirin, Qriboyedovun əsərlərini tamaşaya qoyardılar. Telman adına klubda kino göstərirdilər. «Ən vacib incəsənət növü» hələ lal olsa da, uşaqlar xoşladığı filmlərə dönə-dönə baxardılar. Sonra da Naxçıvanda geniş yayılmış «sanka»larda qovhaqovla şütüməyə başlayardılar. Heydərin, Aqilin, Cəlalın da belə diyircəkli «maşın»dan vardı.

Heydər Əliyevin mənsub olduğu nəsil tarixi sarsıntılar dönəmində həyata qədəm qoymuşdu. Çar imperiyası yenicə tarmar olmuşdu. Onun ardınca, özünü tanıtmağa macal tapmamış Azərbaycan Demokratik Respublikası dağılmışdı. Az sonra Azərbaycan Sovet Sosialist Respublikasına çevrilərək Zaqafqaziya Federasiyası tərkibində (Azərbaycan, Ermənistan, Gürcüstan daxil olmaqla) Ukrayna, Belarus, Rusiya ilə bərabər yeni dövlət – Sovet İttifaqı yarandı. Bu birliyi ağ günlərə inam bəsləyən və bütün dünyanı bəxtəvər etmək fikrinə düşən xəyalpərvər banilər qurmuşdular.

– Görəsən, niyə bəzi görüşlər ömürlük yaddaşlara hopur, bəziləri isə əriyib suya dönən yaz qarı kimi silinib gedir?

– Baxır, hansı görüşlər, – deyə müdrik Dövlət Heydəroviç cavab verir (onu Böyük Vətən müharibəsinin veteran-

ları, rus cəbhə dostları belə adlandırırdılar). Azərbaycanın əməkdar müəllimi Dövlət Heydər oğlu Məmmədov bütün ömrünü uşaqlara həsr etmişdir. Onun ömründə yalnız bir «böyük tənəffüs» – dörd illik Böyük Vətən müharibəsi dövrü olmuşdur ki, həmin müharibədən üç yüz min azərbaycanlı soydaşı geri qayıtmamışdı.

1936-cı ilin bürkülü avqust ayında atasının onu dostu Zeynalabdingilə, qonşu Göydərə kəndinə yollaması Dövlətin indi də yadındadır. Cəhənnəm istisindən küçədə ins-cins gözə dəymirdi. O, yüyürərək özünü tələm-tələsik doqqazdan həyətə saldı. Orada Naxçıvandan gəlmiş yaraşıqlı bir gənc qonaq da var idi.

– Heydər, – deyə cavan onunla əl tutur. Ev yiyəsi əlavə edir:

– Bu mənim Naxçıvanda olan qardaşım Əlirzanın oğludur.

Beləcə, onlar tanış olurlar. Tezliklə də həmin avqust ayında Naxçıvan Pedaqoji Texnikumuna daxil olan zaman dostlaşırlar.

Az sonra o uzaq illəri yaxşı xatırlayan bir başqa adamla da görüşmək bizə nəsib oldu. Bu, qocaman müəllim Lətif Hüseynzadə idi. O, Heydərə, Dövlətə, onların yaşıdlarına ana dilindən dərs demişdi.

Onun Bakının adi, liftsiz, poçt qutuları yaman kökdə olan, giriş yolu səliqəyə salınmamış beşmərtəbəli binadakı mənzilinin zəngini vurduğumuz dəqiqəyədək bu görüşün baş tutacağına inanmırdıq. Lakin qapının arxasında səliqə-sahmanlı artırma, iş otağında isə tavanadək qalaqlanmış azərbaycanca, rusca, farsca, türkcə kitablar və kompyuter gördük. Həmsöhbətimizin sərrast yaddaşı varmış, hərçənd arabir yaxşı eşitmirdi və bu zaman onun oğlu professor Rüfət dadına çatırdı.

Öz müəlliminin yüz yaşı tamam olanda, yəni, 2003-cü ildə, Heydər Əliyev ölkənin ən qocaman pedaqoqu, tanınmış ədəbiyyatşünas alim Lətif müəllimə səmimi təbrik mək-

tubu göndərmiş və müəllimlərdən birinci olaraq onu «İstiqlal» ordeni ilə mükafatlandırmışdı.

– Heydərin o vaxt on üç yaşı vardı, pedtexnikuma isə on dörd yaşdan qəbul edirdilər. Onu atası gətirmişdi. Dedi, oğlum müəllim olmağı arzulayır. Mən o zaman tədris hissəsinin müdiri işləyirdim. «Yaxşı, gəl, bir söhbətləşək»,- deyə uşağa üz tutdum.

Heydər inamla bütün suallara cavab verir və «zavuç» onu texnikumun direktoru Kazım Talıblının yanına aparır. «Bu oğlan Azərbaycan ədəbiyyatını, tarixi yaxşı bilir, mütaliəni sevir, nitq qabiliyyəti var. Zənnimcə, ondan yaxşı müəllim olacaq», – deyir. Direktor riyaziyyatdan da mükalimə aparmağı təklif edir. Riyaziyyat müəllimi, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin məzunu Tofiq Bəktaşi də (Naxçıvandan sonra Bakıda nəzəri mexanikadan dərs deyib) abituriyentdən razı qalır.

– Heydər elə ilk günlərdən ən yaxşı tələbələrimizdən oldu,

– Lətif müəllim sözünə davam edir. – Hətta yuxarı kursların ötkəm tələbələri də ona böyük hörmət bəsləyir, üzünə də, arxada da, gələcəyini bilirmiş kimi, ona «general» deyirdilər.

Dərslərarası fasilələrdə tələbələr texnikumun həyətinə axışırdılar. Qızlar kənara çəkilib sakitcə pıçıldaşır, oğlanlar isə dərhal dəstələrə bölünüb oynayırdılar. «Mən kiminləyəm, mən kiminləyəm», – səsləri eşidilirdi.

– Yalnız Heydər soruşurdu: «Kim mənimlədir?» – bunu qocaman müəllimə Zərqələm Əliyeva xatırlayır. Maraqlı müşahidədir. Özü də o bu detalı hafizəsində qoruyub saxlayıb. Bir çox məzunlar xatırlayır ki, o zaman texnikumda yaxşı kabinetlər, laboratoriyalar, hərbi-idman kompleksi, kino qurğusu vardı. Tələbələr bütün asudə vaxtlarını idmana sərf edirdilər – tullanma, qaçış, turnik, voleybol, tir. Uşaqlar sıra qarşısında «Voroşilov atıcısı» nişanı alanda əməlli-başlı qürurlanır, sevinirdilər.

Heydər Əliyev ömründə ilk mükafatı hələ o zaman almışdı. O, hərbi təlimlə də, idmanla da, Şamil Qazıyevin dərnəyində rəssamlıqla da məşğul olmağa vaxt tapırdı. Gənc rəssamların əsərləri şəhər sərgilərində göstərilirdi.

Ordu mövzusu ən geniş yayılmış mövzulardan biri idi. «Biz hamımız o zaman böyük vətənimiz Sovet Sosialist Respublikaları İttifaqını müdafiə etməyə hazırlaşırdıq, – deyə Dövlət Məmmədov xatırlayır. Bizim rəsmlərimizdə qırmızı ulduzlu təyyarələr şığıyır, sovet tankları hücuma keçirdi... 1937-ci ildə isə bütün ölkə böyük ruh yüksəkliyi ilə Aleksandr Sergeyeviç Puşkini yad edirdi. Onun faciəvi ölümündən yüz il keçirdi. Biz onun şeirlərini əzbərləyirdik və fəxr edirdik ki, Naxçıvanda hələ XIX əsrin sonlarında, Rusiyanın bir çox şəhərlərindən əvvəl Puşkin küçəsi salınmışdı. Texnikumda Puşkinin əsərlərinə çəkilən illüstrasiyaların müsabiqəsi keçirilirdi. Biz, Heydər və onun böyük qardaşı Həsənlə Puşkinin «Yevgeni Onegin», «Ruslan və Lyudmila», «Kapitan qızı» əsərlərinə illüstrasiyalar çəkmişdik. Təəssüflər olsun ki, o şəkillər itib-batıb, indiyəcən qalmayıb. Yaxşı yadımdadır, həmin müsabiqədə birinci yer Heydər Əliyevə, ikinci və üçüncü yerlər isə mənimlə Həsənə verildi».

Öz tələbə yoldaşlarının arasında Heydər Əliyev Lev Nikolayeviç Tolstoyun «Hərb və sülh» romanını orijinaldan oxuyan ilk tələbə olmuşdu. Bunu ona rus dili müəllimi Həsən bəy Qazıyev məsləhət görmüşdü. Sonra Heydər bu böyük yazıçının portretini də çəkmişdi. Dövlət bu kitabın Azərbaycan dilində tərcüməsini oxuyurdu, amma bir bazar günü kitabı yarımçıq qoyub Heydərlə birgə şəhərətrafı kəndlərindəki qohumlarına baş çəkməyə hazırlaşırdı. Yolda hər hansı bir minik vasitəsinə rast gəlməyə ümid etməyən yeniyetmələr piyada getməyi qərarlaşdırmışdılar, onun üçün də səhər tezdən yola çıxmışdılar.

Yol boyu söhbət edirdilər, daha nələrdən danışmırdılar. Təzəcə oxuduqları kitablardakı və baxdıqları filmlərdəki

qəhrəmanlardan, ilk sevgilərindən, kim kimin daha çox xoşuna gəldiyindən.

– Firuzə səndən gözünü çəkmir, – deyə Dövlət dostunu cırnadırdı.

– Zərqələm də səndən, – Heydər də dostundan geri qalmırdı, sancırdı onu. Ürəyi soyumayıb tez əlavə edir: – Mən onun adını Qələmzər qoymuşam.

Dağ kəndində böyüyən Zərqələm gələcəkdə müəllimə olub uşaqlara dərs demək arzusunda idi. Amma bununçün gərək əvvəlcə valideynlərini yola gətirəydi. Çünki onların fikrincə, qız uşağına, ümumiyyətlə, təhsil gərək deyildi. Nənələrinin bildiklərini öyrənsələr, kifayət edər. Lakin Nurs kəndində camaatın dünyagörüşü artıq yavaş-yavaş dəyişməkdəydi və qızcığaz valideynlərini razı sala bildi. O, texnikuma Dövlət və Heydərlə eyni vaxtda daxil oldu. Elə həmin vaxtlarda da onun Naxçıvanda yaşayan əmisi onların evində qalan Zərqələmi Həsən Əliyevlə tanış etmişdi. Əliyevlər bu kənd sakinlərinə o qədər xoş təsir bağışlamışdılar ki, Zərqələmin əmisi Heydərdən qıza öz bacısı kimi nəzarət etməyi xahiş etmişdi.

Heydər bu xahişi tam ciddiyyətlə yerinə yetirirdi. Kənd qızları hər vasitə ilə özlərini şəhər qızlarına bənzətməyə çalışırdılar. Şəhər qızlarının arasında isə həmin ərəfələrdə qısa saç kəsdirmək dəb idi. Heydərin qrup yoldaşları bir-bir hörüklərini kəsdirib yataqxanaya qayıdırdılar. Heydər isə Zərqələmdən xahiş etmişdi ki, çox da dəb dalınca qaçmasın. Zərqələm isə Heydəri sınamaq qərarına gəlmişdi:

– Bilirsən Heydər, – ciddi görkəmlə ona belə demişdi, – mən başqalarından seçilmək istəmirəm. Kimdən əskiyəm ki, mən də saçımı qısa kəsdirəcəm.

Heydər zarafatı qəbul etməmişdi:

– Məndən xahiş ediblər ki, sənə nəzarət edim. Deməli, mənim icazəm olmadan sən bunu edə bilməzsən.

Bu sözlərdən sonra Zərqələm zarafat etdiyini etiraf etmişdi və zarafatının yersiz olduğunu da başa düşmüşdü.

Uşaqlar yolda bu epizodu da xatırladılar. Şəhərin son həyətləri artıq arxada qalmışdı. Yol yavaş-yavaş dağa qalxmağa başladı. İrəlidə qayaların arasında qədimdən bəri müqəddəs yer sayılan «Əshabi-kəhf» ucalırdı. Orada əsrlərdən bəri şəfalı suyu olan bulaq qaynayır. Yüzilliklər boyu insanlar buraya gəlib öz diləklərinin yerinə yetirilməsi üçün Allaha dua etmiş, qurbanlar kəsmişlər.

Heydərlə Dövlət dincəlmək üçün bulağın başında əyləşdilər. Onlar üçün dünyada soyuq bulaq suyu ilə İzzət xanımın bişirdiyi fətirlərdən dadlı sanki heç nə yox idi. Dövlət uşaqlıqda anasını itirdiyindən İzzət xanım onun da qayğısına qalmağı özünə borc bilirdi.

Bu qədim qayaların dibi yayda da sərin olurdu. Çox həssas və güclü təəssüratlı yeniyetmə olan Heydər bir gün əvvəl oxuyub tamamladığı romandan: uzaq keçmişdə baş vermiş müharibədən, 1812-ci ildə yandırılan Moskvadan, yalnız kinoda gördüyü Kremldən həvəslə dostuna danışırdı...

O vaxt kimin ağlına gələrdi ki, bu yeniyetmələrin birinin yolu məhz Kremlə gedib çıxacaq. Deyəsən, təkcə uzaqgörən Lətif müəllim bu gənci həmkarlarından əvvəl qiymətləndirə bilmişdi:

– Bu cavan oğlan böyük adam olacaq, – o, pedaqoq həmkarlarına bu sözü çox demişdi.

Ucqar bir diyar böyük məmləkətin qayğılarıyla yaşayırdı. Naxçıvan respublikasında, Culfada dağ-metallurgiya kombinatı tikilirdi. Cavan uşaqlar onu Sovet ölkəsi üçün Dneprohes, Maqnitka, «Uralmaş» qədər önəmli sayırdılar. Respublika pambıqçılarının, Bakı neftçilərinin uğurlarına fərəhlənirdilər. Səbirsizliklə Naxçıvana işıq çəkilməsini gözləyirdilər; o zaman onların şəhərində hələ elektrik lampaları yox idi, vur-tut on telefon vardı.

Telman adına klubda isə tamaşaçılar İbrahim və Zəroş Həmzəyevləri – respublikanın gələcək xalq artistlərini hərarətlə alqışlayırdılar. Kino qurğusunun mühərriki sanki üfüqləri genişləndirir və onların gözü qarşısında Bakı, Mos-

kva, Leninqrad, hətta ünyetməz Komsomolsk-na-Amure şəhəri canlanırdı...Texnikuma tez-tez sərhədçilər – ruslar, azərbaycanlılar, Ukraynalılar, ermənilər görüşə gəlirdilər. Uşaqlar onlara həsəd aparır, başlarına yığışır, hamılıqla zastavaya yola salırdılar. Məhz o zamanlar Heydərin qəlbində sərhədçilərə qarşı xüsusi ehtiram oyanmış və ömrü boyu da qalmışdı. Sovet Sosialist Respublikaları İttifaqının Dövlət sərhədi lap yaxından keçirdi. Necə deyərlər, əl uzatsan çatardı.

O zaman Arazı aşan körpülər o tayla bu tayı qovuşdurmur, əksinə ayırırdı. Amma bu dərdi o tayda da, bu tayda da sonralar dərindən düşünməyə başladılar. Bunun üçün dünyanın özü dəyişməli idi. Daha doğrusu, insanlar dünyanı dəyişməli idi.

Onilliklər ötüb-keçəcək, dövran dəyişəcək və Heydər Əliyev başılovlu «tarix təzələyənlərin» köpünü yatızdıracaq: «Yaşanmış illərin üzərindən xətt çəkmək olmaz. Çünki onlar yaxşıdımı, yamandımı tarixdir, tarixi isə qaralamağa heç kimin haqqı yoxdur». Bu, onun həm opponentlərinə cavabı, həm də müdrik ağsaqqal öyüdü idi. Onun və mənsub olduğu nəslin öz gəncliyini – tələbəlik, komsomol və əsgərlik çağlarını danmağa, xəcalət çəkməyə heç bir əsası yox idi.

1939-cü ildə fərqlənmə ilə pedaqoji məktəbi (texnikum indi belə adlandırılır) bitirdi. Diplomda yazılırdı: «Vətəndaş Əliyev Heydər Əlirza oğlu 1938/39 ilin tədris planının bütün tələblərini yerinə yetirdiyi üçün ibtidai məktəbdə – I-IV siniflərdə dərs aparmaq hüququna malikdir». Sənəd iki dildə – azərbaycanca və rusca yazılmış və hazırda Naxçıvanda Heydər Əliyev muzeyində qayğı ilə qorunur. Muzeyin stendində tələbə və müəllimlərin birgə fotoşəkli də var. Yuxarı başda, əlbəttə ki, Leninlə Stalinin profilləri, sonra ənənəvi dəyirmi haşiyələrdə müəllimləri görürük.

İmanov, Hüseynov, Zamanov, Abbasov, İsrafilov, Bəktaşi, İskəndər (Böyük Vətən müharibəsində həlak olmuşdur), Axundov, Qriqoryev, Mkrtçyan, Qazıyev... Sadəcə müəllim-

lərin soyadlarına nəzər salanda görürük ki, uşaqlara müxtəlif millətlərdən olan insanlar dərs demişlər; təbii ki, onların sırasında azərbaycanlılar daha çox olmuşdur.

«Şərq qapısı» adlı respublika qəzeti əlaçı məzunların – Heydər Əliyevin və Firuzə Rzayevanın şəkillərini dərc etmişdi. Həmin gün onlar Naxçıvanın ən gözəl küçəsi olan Puşkin küçəsiylə xeyli gəzmişdilər. Küçənin hər iki tərəfiylə kəhrizlər şırıldayır, bu kəhrizlərin üstünə isə salxım söyüdlər sallanırdı. Qayğıkeş naxçıvanlılar bu ağacları «Puşkin söyüdləri» adlandırırdı.

Firuzə onların şəkilləri dərc olunmuş qəzetin üç nüsxəsini aldı.

– Bu qədər qəzeti neynirsən? – deyə Heydər təəccübləndi.

– Mən öz albomuma sənin üç şəklini yapışdıracam, – qız gülümsünüb ona belə cavab verdi.

Artıq solub-saralmış həmin üç şəkillə kənd müəllimәsi Firuzə xanım bütün ömrü boyu tərtib etdiyi xronikanın başlanğıcını qoymuş oldu.

İllər, onilliklər ötdü. Heydər Əliyev Naxçıvana döndü. Moskva intriqalarından sonra bir az özünə gələn Heydər Əliyev muxtar respublikanın rayonlarını gəzməyə başladı. Şahbuz rayonunun Külüs kəndində ali qonağı qarşılamaq üçün böyükdən-kiçiyə, bütün kənd əhli yola çıxmışdı. Kənd rəhbərlərinin müşayiəti ilə Heydər Əliyevin getdiyi yolun kənarında Firuzə Rzayevanın yaylığı da yellənirdi. Heydər Əliyev ona yaxınlaşıb soruşdu:

– Sən Firuzə deyilsən?

– Firuzəyəm, – deyə qadın sevindi.

Texnikumdan sonra onlar cəmisi bircə dəfə, əlli üçüncü ildə görüşmüşdülər. Bir də indi. Həmyerliləri onları əhatəyə aldılar.

– Biz hələ texnikumda dostlaşmışdıq,- deyə Heydər Əliyev mehribanlıqla onun əlini sıxdı, – uşaqlıq, yeniyetməlik dostuyuq. Yeniyetməlik dostları xüsusən əziz olurlar.


АзССР
НАРОДНЫЙ КОМИССАРИАТ ПРОСВЕЩЕНИЯ

# АТТЕСТАТ

Настоящий аттестат выдан Алиеву Гейдару Алирза оглы родивш. в 1923 году

в том, что он окончил полный курс обучения школьного отдела Нахичеванского интернацион. педагогического училища и обнаружил при отличном поведении следующие знания:

| | |
|---|---|
| По родному языку | отлично |
| „ методике преподавания родного языка | отлично |
| „ литературе | отлично |
| „ азербайджанскому языку | — |
| „ русскому языку и литературе | отлично |
| „ методике преподавания русского языка | отлично |
| „ арифметике | отлично |
| „ методике преподавания арифметики | отлично |
| „ алгебре | отлично |
| „ геометрии | отлично |
| „ тригонометрии | отлично |
| „ естествознанию | отлично |
| „ методике преподавания естествознания | отлично |
| „ истории | отлично |
| „ методике преподавания истории | отлично |
| „ географии | отлично |
| „ методике преподавания географии | отлично |
| „ физике | отлично |
| „ химии | отлично |
| „ педагогике | отлично |
| „ школьной гигиене | отлично |
| „ Конституции СССР | отлично |
| „ иностранному (франкузс.) языку | отлично |
| „ рисованию | отлично |
| „ методике преподавания рисования | отлично |
| „ чистописанию | отлично |
| „ физкультуре | отлично |
| „ методике преподавания физкультуры | отлично |
| „ пению и музыке | отлично |
| „ военному занятию | отлично |
| „ практике в школе | отлично |

Гражданин Алиев Гейдар Алирза оглы

как выполнивший установленные учебным планом 1939/40 г. требования, пользуется правом преподавания в начальной школе I-IV классах неполной средней и средней школы.

Müəllimlər:
Учителя:



AzSSR

XALQ MAARİF QOMİSSARİATЬ

# ATTESTAT

Bu attestat 1923 ildə doqulmuş *Hijev* Hejdər Mirza oqluna Naxcəvan şəhər internasional Pedaqoqi məktəbi *məktəb* şumasinin eytyn qursunu *ə'la* əxlaq və aşaqıda gəstərilən əsikdə əstədiji ycyn verilir:

| | |
|---|---|
| Ana dili | ə'la |
| Ana dilinin təlimi metodiqası | ə'la |
| Ədəbijjat | ə'la |
| Azərbajcan dili | — |
| Rus dili və ədəbijjatь | ə'la |
| Rus dilь təlimi metodiqasь | ə'la |
| Arifmetika | ə'la |
| Arifmetika təlimi metodiqasь | ə'la |
| Algebra | ə'la |
| Geometrija | ə'la |
| Triqonometrija | ə'la |
| Təbiijat | ə'la |
| Təbiijat təlimi metodiqasь | ə'la |
| Tarix | ə'la |
| Tarix təlimi metodiqasь | ə'la |
| Geoqrafija | ə'la |
| Geoqrafija təlimi metodiqasь | ə'la |
| Fizika | ə'la |
| Kimja | ə'la |
| Pedaqoqika | ə'la |
| Məktəb gigijenasь | ə'la |
| SSRİ Qonstitusijasь | ə'la |
| Xarici (*franсuz.*) dil | ə'la |
| Rəsm | ə'la |
| Rəsm təlimi metodiqasь | ə'la |
| Rəsmxətt | ə'la |
| Fizqultura | ə'la |
| Fizqultura təlimi metodiqasь | ə'la |
| Nəqmə və musiqi | ə'la |
| Harai iş | ə'la |
| Məktəbdə praqtiqa | ə'la |

Vətəndaş *Hijev Hejdər Mirza oqlu*

1938/39 ilin tədris planь yzrə myəjjən edilmiş tələbləri ədədiji ycyn, ibtidai məktəbdə, tam olmajan orta və orta məktəbin I-IV siniflərində müəllimlik hyququna malikdir.

*25 ijun* — *июня* 1939

№ *2017*

Pedaqoqi məktəb direqtoru:
Директор педучилища
*[signature]*

Firuzə xanım yenə də müəllimlərinin Heydər barədə dediklərini xatırladı.

Heydər Əliyev isə belə cavab verdi:

– Əsas məsələ yüksək vəzifələr tutmaq deyil. Əsas məsələ xalq tərəfindən sevilməkdir...

Lakin kənd yolunun kənarındakı bu görüşə hələ çox qalıb. Hələlik isə şanlı və ağrılı-acılı otuzuncu illər başa çatırdı. Zərbəçi tikintilər və gecə tuthatutları... Qəzet səhifələrindən yox olan Hüseyn Cavid misraları... İndi səhifələri başdan-başa çığır-bağırlı mitinqlərin xəbərləri doldururdu: «Sovet Sosialist Respublikaları İttifaqı Ali Məhkəməsi Hərbi Kollegiyasının trotskist yaramazların faşist bandasına verdiyi hökmü Bakı zəhmətkeşləri yekdilliklə alqışlayırlar. Nümayişçilər başları üzərində yoldaş Stalinin və onun ən yaxın silahdaşlarının minlərlə portretlərini, bayraqlar, transparantlar aparırlar. Alçaq köpəklərin faşist sahiblərilə bir yerdə çəkilmiş karikaturalarından maskalanmış quldur Trotskinin və digər məhkum olunanların iyrənc sifətləri boylanır»[1].

Səməd Vurğun «Komsomol poeması»nın ilk fəsillərini yazır, ideoloji qəliblərə görə «düşmən sinifi»nin nümayəndəsi sayılan Gəray bəyin cəzbedici surətini yaradır. Bundan yalnız neçə illər sonra Zamyatinin «Biz», Platonovun «Çala» və «Çevenqur» romanları oxuculara yol aça biləcəkdi. Təbii ki, hekayətimizin qəhrəmanı düşüncələrin total rəndələnməsinin bütün incəliklərini o zaman dərk edə bilməzdi. Lakin gənc Heydər Əliyev milli musiqi aləti – tara qarşı yönəldilmiş kampaniyadan (Rusiyada hətta skripkaya qarşı da hücuma keçmişdilər) bixəbər də qala bilməzdi; o, Müşfıqin «Oxu tar» şeirini ilhamla oxumuşdu. Qara gələn «otuz yeddi» şairin tarını da daşlara çırpdı.

Onilliklər ötəndən sonra Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev

---

[1] «Molodoy raboçi» qəzeti, Azərbaycan Lenin Kommist Gənclər İttifaqı Mərkəzi Komitəsi və Bakı Şəhər Komitəsinin orqanı. 1937, 2 fevral

Bəxtiyar Vahabzadənin, yasaqlara rəğmən Azərbaycanın parçalanmasından söz açan «Gülüstan» poemasını müdafiə edəcək.

Elə həmin illərdə də Xəlil Rza özünün hiddətli misralarını yazacaq:

*İstəmirəm azadlığı*
*zərrə-zərrə, qram-qram,*
*İstəyirəm qolumdakı*
*zəncirləri qıram, qıram!*

Azərbaycan müstəqil respublika olanda, Prezident Heydər Əliyev ölkənin ən yüksək ödüllərindən birini məhz Bəxtiyar Vahabzadəyə, Xəlil Rza Ulutürkə, kövrək istedad sahibi Məmməd Araza verdi.

Amma hələ ki, otuzuncu illərdi. Heydər Əliyev əla qiymətlərlə pedaqoji məktəbi bitirmiş, tərifnamə, məktəb müəllimi diplomu almışdı. Lakin məktəbdə işləmək ona nəsib olmadı...

Dövlət Məmmədovu əsgərliyə çağırdılar. O, Culfa rayonunun Bənəniyar kəndindəki səkkizillik məktəbə qayıdanda, artıq ordudan tərxis olunmuşdu, sinəsində döyüş orden-medalları cingildəyirdi. Bu məktəbə Heydər Əliyevin kiçik qardaşı Cəlal müəllimlik edirdi.

Heydərin isə öz cəbhəsi vardı. Bu cəbhə barədə hələlik susmaq məsləhət idi...

## II fəsil

# BURA DA CƏBHƏDİR

*22 iyun 1941-ci il, Naxçıvan*

Böyük Vətən müharibəsindən əvvəl Uzaq Şərq sərhəddi haqqında geniş yayılmış «Sərhəd üstə tutqun buludlar gəzir» mahnısını Naxçıvan sərhəd dəstəsinin əsgərləri özlərinin qoşduqları kimi oxuyurdular:

*Araz üstə buludlar tutqun gəzir,*
*Sərt diyarım sükunətə qərq olub...*

Əlbəttə, günəşli bir diyarda qara buludlar haqqında deyilənlər məcazi məna daşıyırdı. Yəni min kilometr uzanıb gedən, əksər hissəsi sərhədyanı ərazi olan çayın sahilində hər gün, hər gecə həyəcan siqnalı gözlənilirdi. Sərhəddin o tayından bandalar basqın edib sərhədləri qarət edir, mal-qaranı qovub aparırdılar. Qaçaqmalçılar öz işində idi. İran və Türkiyə sərhəd mühafızəçiləri Sovet sərhədçi dəstələrini atəşə tuturdular. Dövlət Sərhəd Mühafızəsi və Birləşmiş Dövlət Siyasi İdarəsi qoşunları rəisinin müavini Bobrışev Sovet Sosialist Respublikaları İttifaqı Xarici İşlər Xalq Komissarlığına xəbər verirdi: «1931-ci il iyulun 27-də, saat 10.30 dəqiqədə Naxçıvan sərhəd dəstəsinin Qarabulaq məntəqəsi ərazisində İran aeroplanı sərhədi pozmuş və bizim əraziyə uçub keçmişdir. Ərazimiz üzərindən uçarkən

aeroplan cənub-şərq istiqamətinə (sərhəd boyu) yönəlmiş və Bazbaşı sərhəd məntəqəsi sahəsindən geriyə, İrana qayıtmışdır».

Faşist Almaniyasının Sovet Sosialist Respublikaları İttifaqına hücumundan xeyli əvvəl Tehranda «İran dövlətinin yeni inzibati-ərazi bölgüsü» xəritəsi nəşr edilmişdi. Məclisin qərarıyla çap olunan xəritəyə aid qeyddə deyilirdi: "İran sərhədləri, Türkiyə ilə sərhəd istisna olunmaqla, rəsmi deyildir". Beləliklə, qonşular əslində Sovet – onların anlamında Qafqaz Azərbaycanına, hətta İranın rəsmi sənədlərində fars təbiriylə "Badi Kubə" adlandırılan Bakıya iddialı olduqlarını bildirirdilər. Hitlerçilər İranın özünü məqsədyönlü şəkildə antisovet platsdarmına çevirirdilər. "İkinci Dünya müharibəsi tarixi"ndə qeyd olunur: "Almaniya legionu" bu ölkənin ərazisində bir növ Vermaxtın hərbi birləşməsinə çevrilirdi. İranın Sovet Sosialist Respublikaları İttifaqı ilə həmsərhəd şimal rayonlarında hitlerçilər silah-sursat və partlayıcı maddələr üçün anbarlar quraşdırır; Sovet İttifaqına, ilk növbədə Bakı neft mədənləri və Türkmənistan rayonlarına ötürmək üçün təxribatçı və terrorçu qruplar formalaşdırdılar".

Bir sözlə, qərb sərhədlərində olduğu kimi, cənubdan da barıt qoxusu hiss olunurdu.

Naxçıvanda mülki əhali arasında müharibə xəbərini ilkin eşidən dəmiryolçular oldu. Onları hərbi səfərbərliyə alaraq, artıq əsgəri durumda olduqlarını bildirdilər.

Mitinqdə rus-azərbaycan kəlmələrini qarışdıraraq car çəkən depo partiya təşkilatı katibinin sözlərini Əlirza Əliyev belə başa düşdü: "Bura da sərhəddir və cəbhə xətti sərhəd çayı Arazboyu keçir". Yaxın keçmişdə parovoz ocaqcısı olmuş partiya təşkilatı katibinin dedikləri həqiqətdən uzaq deyildi. O, alovlu, qəzəbli kəlmələri parovozun odluğuna kömür atıb körükləyirmiş kimi püskürürdü:

– Yoldaşlar, yadda saxlayın ki, Arazın o tayında bizim neft mədənlərimizə dişlərini qıcayanlar Hitler qoşunları ilə birləşmək üçün yürüşə hazırlaşırlar!

Həmişə olduğu kimi, o yay da bütün Naxçıvan respublikasında pioner düşərgələri açılmışdı. Onlar təcili olaraq köçürülməli, uşaqlar öz evlərinə qaytarılmalı idi. Düşərgə işçilərinə yardım göstərmək üçün Naxçıvandan bir neçə dəstə təpərli, zirək cavan oğlan göndərdilər.

Veteranlar xatırlayırlar ki, bu dəstələrdən birində on səkkiz yaşlı Heydər Əliyev də vardı. Gələcəkdə məşhur geoloq kimi tanınacaq Fərman Salmanovla tanışlıq da məhz həmin vaxta təsadüf edirdi. Fərman dağlarda yerləşən pioner düşərgəsində dincəlirdi. İyirmi iki iyunda dəstə rəhbərləri uşaqları yürüşə aparmağa söz vermişdilər. Amma o dəhşətli gün səhər düşərgə meydanında düzülmüş uşaqların qarşısına çevik və gülərüz idman müəlliminin əvəzinə özünü itirmiş düşərgə rəisi çıxdı. Titrək səslə elan etdi ki, müharibə başlayıb, Hitler Almaniyası namərdcəsinə Sovet İttifaqına hücum edib, buna görə də düşərgə bağlanır. Hamı təcili evə qayıtmalıdır.

Bəs necə qayıtmalı? Yeganə avtobus xarab olmuşdu. Sıldırımlı yamaclarla təxminən iyirmi kilometr aşağıya enmək lazım idi. Belə bir yolu qət etməyə uşaqların gücü çatmazdı, lakin burada çalışan müxtəlif millətlərin nümayəndələri əl-ələ verib uşaqları xilas etdilər.

...Müharibə başlanandan sonra Naxçıvanın küçələrində nəzərə çarpacaq dərəcədə hərbçilər, hərbi texnika artdı. Hətta ordu işlərindən bixəbər olanlar da hansısa əməliyyata hazırlıq aparıldığını anlayırdılar.

...1941-ci il avqustun 25-dən 26-na keçən gecə Sovet qoşunları 1921-ci il Sovet-İran müqaviləsinə əsasən İrana daxil oldular. Şah ordusunun müqaviməti uzun sürmədi; bu müqavimət ayrı-ayrı sahələrdə avqustun 26-da saat 13-dək davam etdi. Böyük Britaniya qoşunları da eyni vaxtda İranın cənub rayonlarını tutdu. Sentyabrın əvvəlində ingilis və sovet qoşunları Tehrana girdilər. 30 minədək Amerika əsgəri də İranın cənubunda mövqe tutdu...

İran Azərbaycanında baş vermiş hadisələr haqqında[1] son zamanlaradək üstüörtülü və dumanlı yazırdılar. Dilucu deyilirdi ki, orada Azərbaycan Demokratik Firqəsinin başçılıq etdiyi azadlıq hərəkatı genişlənirdi. Bu partiyanın lideri, Azərbaycan Demokratik Məşrutəsinin başçısı Cəfər Pişəvərinin adını və hətta akademik nəşrlərini də "unudurdular".

1945-ci ilin sonlarında yaradılmış Cənubi Azərbaycan Milli Hökuməti cəmi bir il yaşadı. Onun nəzarətində olan ərazidə minlərlə sovet mühəndisi, geoloqu, inşaatçısı, müəllimi, mədəniyyət işçisi çalışırdı.

Güney Azərbaycanın ətrafında cərəyan edən olayların Heydər Əliyevin də həyatına bilavasitə təsiri olmuşdur. Qırx birinci il may ayının 10-da dostları onu ad günü münasibətilə təbrik etdilər. Qarşıda imtahan sessiyası, yay tətili, daha sonra isə üçüncü kurs gözlənilirdi. Lakin sentyabrın birində Sənaye İnstitutunun tələbələrindən kimisi o dövrdə orduya çağırılmış atasını əvəz edərək zavoda getmiş, kimisi hərbi məktəbə təyinat almış, bəziləri isə Əliyev kimi yaşadığı yer üzrə hərbi komissarlığın sərəncamına çağrılmışdı. Elə o vaxt, 23 iyunda Heydər Əliyev Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin işlərini qəbul edir.

Evə gecəyarıdan sonra qayıdardı. Naxçıvanın əl-ayaq çəkilmiş küçələrində addımları ağır-ağır səslənərdi. Hərdən qaranlıqdan patrul peyda olardı: "Sənədlərinizi!"

Həyətlərində geniş taxtlar qoyulmuşdu – köhnə adətə görə naxçıvanlılar yayda açıq havada yatırdılar, evin havası boğanaq olduğuna görə içəridən eşiyə yorğan-döşək,

---

[1] Çağdaş Azərbaycanda İranın bu bölgəsi Cənubi Azərbaycan adlandırılır. 1942-ci il yanvarın 29-da sovet və ingilis qoşunları yeridiləndən sonra Tehranda İngiltərə-Sovet müqaviləsi imzalanmışdır. Tarixçilərin yazdığı kimi, SSRİ və Böyük Britaniyanın bu tədbiri İran ərazısindən antihitler koalisiyasına qarşı müharibədə istifadə olunmasının qarşısını almış və savaş dövründə onlarla əməkdaşlığını təmin etmişdir.

qab-qacaq çıxarılardı. İzzət xanım primusla xörək qızdırar, Heydər üçün süfrə açardı. O, indi evin böyüyünü əvəz edirdi; atası, demək olar ki, daima ezamiyyətə yollanırdı. Həsən ordu sıralarında, Hüseyn Bakıda idi. Cəlal eşidəndə ki, indən sonra təhsilə görə ildə 150 rubl ödənilməlidir, qanı qaraldı. Ailə məşvərətində qərara gəldilər ki, Cəlal Müəllimlər İnstitutunun hazırlıq şöbəsinə daxil olsun. Orada tədris-təlim pulsuz aparılır, üstəlik gündə 50 qram çörək payı da verilirdi.

Bir gün İzzət ana üzünü fərəhlə Heydərə tutub:

– Bu gün Cəlal çörək payını evə gətirib, – dedi. Oğlu minnətdarlıq hissi ilə:

– Sağ ol, anacan, – deyə dilləndi. – Bircə çay bəsimdi.

Heydər süfrə başına keçməzdən əvvəl əllərini yuyan zaman ana ona bir parça gilabı verdi – müharibə illərində azərbaycanlı ailələrdə gilabı əl-üz sabununu da, paltar sabununu da əvəz edirdi.

Bir dəfə sübh tezdən, dan yeri sökülər-sökülməz Əliyevləri yuxudan qonşu həyətdən eşidilən ağlaşma səsi oyatdı. Orada Xurşud xanımgil yaşayırdı. Əri cəbhədə idi, beş balası öhdəsində qalmışdı. İzzət xanım qonşusunu səslədi:

– Ay Xurşud, no.. .olub?

– Uşaqlar acdılar! Yuxuları ərşə çəkilib! İzzət Heydəri çağırdı:

– Oğul, bəri gəl, kömək elə.

Lavaşdan, pendirdən, qənddən, bir sözlə, evdə nə vardısa hamısından pay yığdılar; konserv də qoydular. Aparıb biçarə Xurşuda verdilər.

Hər iki ana kövrəlib ağladı.

Yuxudan oyananda Heydər anasını iki əli ilə başını tutaraq, taxtın qırağında oturmuş gördü. Yəqin ağrılı-acılı fikirlərdən göynəyən ana səhərəcən yata bilməmişdi.

Həmin gün o, hərbi komissarlığa gedib bəxtini bir daha sınamaq istədi; bəlkə cəbhəyə göndərilməsinə nail oldu. Belə səhnələr ölkənin hər yerində baş verirdi. Özləri rəislə-

rindən döyüşən orduya göndərilmələrini xahiş edən hərbi komissarlar eyni xahişlə yanlarına gələnləri dilə tutmaqdan yorulmuşdular.

– Siz elə burada (sərhəddə, milisdə, məktəbdə, şaxtada) lazımsınız.

Heydər Əliyevə də Naxçıvan Hərbi Komissarlığında növbətçi zabit eyni qətiyyətlə "yox" cavabı verdi.

– Bura da cəbhədir. Zaqafqaziya cəbhəsi. Lazım olanda səni də çağırarıq.

## Cənubi Azərbaycanda sovet missiyası

O zaman Azərbaycanda İrana göndərilmək üçün, hərbçilərdən savayı, 3816 nəfər mülki şəxs səfərbər edilmişdi. Həmin sıyahıda 82 partiya işçisi, sovet təşkilatçılarından 100 əməkdaş, 200 çekist, 400 milis əməkdaşı, 245 dəmiryolçu, 42 neftçi-geoloq vardı. Bütün bu dəstəyə – "Cənubi Azərbaycanda sovet missiyası"na Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Əziz Məmmədkərim oğlu Əliyev başçılıq edirdi.

Missiyanın tərkibi və rəhbəri haqqında qərar Kremldə qəbul edilirdi. Əziz Əliyevi də orada 47-ci Ordunun Hərbi Şurasının üzvü təyin etdilər. Həmin ordu qədim Təbrizdə, Cənubi Azərbaycanın paytaxtında yerləşmişdi. Missiya qırx birinci ilin avqustundan qırx ikinci ilin yayına qədər, sovet-alman cəbhəsində hadisələr bütün başqa olayları üstələdiyi dövrdə fəaliyyət göstərmişdi. Üstəlik indi Sovet İttifaqı İran vasitəsilə müttəfiqlərdən hərbi-strateji yardım alırdı. Göndərişlər Fars körfəzindən, bütün İran ərazisindən keçməklə Xəzərədək ötürülür və daha sonra Volqa çayı və ya dəmiryolu ilə daşınırdı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Mircəfər Bağırov Cənubi Azərbaycana yürüşün ən fəal təşkilatçılarından idi. Deyilənə görə, o, Qızıl Ordunun 1939-cu ildə Qərbi Ukraynaya və Qərbi Belarusa

yürüşü ilə analogiya aparırmış; həmin yürüş nəticəsində Ukrayna və Belarus əvvəllər Avstriya-Macarıstan və Polşa tərəfindən qoparılmış tarixi torpaqların hesabına ərazilərini genişləndirmişdilər.

Güney Azərbaycanda vəziyyətlə tanış olmaq məqsədilə Bağırov məxfı olaraq Naxçıvandan Təbrizə getmişdi. Onun kimi yüksək vəzifə sahibləri üçün İranla sərhəd həmişə şəffaf idi.

Bu yerdə bir qədər keçmişə qayıdaq. 1827-ci ilin qızmar yayında, Rusiya-İran müharibəsi zamanı general Paskeviçin qoşunları İrəvanı mühasirəyə alır; daha sonra Naxçıvandan on verst aralı olan Abbas-Abad qalasını hücumla ələ keçirir. Sülh danışıqları başlanır. Rusiyanın Qafqaz ordusu komandanının tapşırığı ilə bu danışıqları Rusiya imperiyası xarici kollegiyasının saray müşaviri, o zaman artıq məşhur şair Aleksandr Sergeyeviç Qriboyedov aparır.

Qriboyedovun İran şahzadəsi Abbas Mirzə ilə danışıqları haqqında Paskeviçə göndərdiyi rəsmi bildirişdən:

“... Mən məcbur oldum deyim ki, müharibədən əvvəl baş verənləri araşdırmağa tapşırıq almamışam, bu, mənim işim deyil.

– Elə siz hamınız deyirsiniz: mənim işim deyil, məgər bu dünyada haqq məhkəməsi yoxdur?

– Siz, zati-aliləri, özünüzü öz işinizə hakim qoymusunuz və onu silah gücünə həll etməyi üstün tutmusunuz. Sizin ağıl-kamalınızı, cəsurluğunuzu, qüdrətinizi inkar etməyərək, yalnız bir şeyi qeyd edərdim: müharibəni birinci başlayan heç vaxt onun nə ilə bitəcəyini qabaqcadan deyə bilməz.

– Düzdür, – deyə Abbas Mirzə cavab verdi.

– Ötən il İran qoşunları qəfildən və yetərincə uzağa doğru, Qafqazın bu tərəfindəki malikanələrimizə girişmişlər. İndi biz, İrəvan və Naxçıvan əyalətlərini keçərək, Araz üstə qərar tutmuş, Abbas-Abadı ələ keçirmişik, mən də oradan gəlmişəm.

– Ələ keçirmişik! Almışıq! Abbas-Abadı sizə mənim qorxaq yeznəm təhvil verib, o, arvaddan da betərdir!

– Bizim hər hansı qalaya qarşı elədiklərimizi siz də eləyin və o qala zati-alilərinizə təslim olar.

– Xeyr, siz qala divarındaca öləcəksiniz, heç kəs sağ qalmayacaq; mənimkilər bunu bacarmadı, yoxsa siz heç bir zaman Abbas – Abadı ala bilməzdiniz.

– Hər necə olsa da, işlərin indiki vəziyyətində artıq üç dəfədir ki, general sizdən barış təklifləri alıb və heç bir bəyanatınız bizim tərəfimizin şərtlərilə uyuşmadığına görə biz danışıqlara başlamayacağıq. Əlahəzrətin hökmü belədir... Bizimlə haqsız olaraq, başlanılan hər bir müharibə sona yetəndə biz həm hüdudlarımızı genişləndirir, həm də onları aşmağa cürət edən düşməni geri otuzdururuq. Bax, buna görə də hazırkı şəraitdə İrəvan və Naxçıvan vilayətlərinin güzəşt edilməsi tələb olunur. Pul da bir silah növüdür ki, onsuz müharibə aparılması mümkün deyil. Bu, alver deyil, zati-aliləri, hətta çəkdiyimiz ziyanların əvəzi də deyil: biz təzminat tələb edərək, düşməni bizə ziyan vurmaq vasitəsindən uzun müddətə məhrum edirik".

Türkmənçay sazişinə əsasən Rusiya və İran arasında sərhəd bundan sonra Arazboyu keçəcəkdi. Şah Rusiyaya iki vilayəti peşkəş edib, böyük məbləğdə təzminata razılıq verməklə, rus səfiri ilə əbədi dostluq barədə əhdü-peyman bağladı.

Naxçıvanda indiyədək general-qubernatorun evi qalır (burada gözəl xalça muzeyi yerləşir); 1827-ci ilin iyul ayında böyük rus şairi və diplomatı həmin binada qərar tutmuşdu. Buradan əngin vadiyə gözəl mənzərə açılır: "...mən tez-tez başımı kağız-kuğuzdan ayırıb durbini böyük vuruşma gedən meydana tuşlayırdım. Hər tərəfdə ora-bura şığıyıb Muravyovun və onun iki yüz kazakının yolunu kəsmək niyyətilə Arazı keçən düşmən suvarilərini görürdüm. O, bəladan əla yaxa qurtardı, heç bir ciddi toqquşma baş vermədi və düzdür, istədiyini görüb aşkarlaya bilməsə də, sağ-salamat qayıtdı".

Bir ildən azca artıq keçəndən sonra qəzəblənmiş kütlə Tehranda Rusiya imperator missiyasını darmadağın etdi. 37 nəfər, onların içində Aleksandr Qriboyedov da həlak oldu. Onu uyuyacağı son mənzilə – dul qalan, gənc hamilə ömürgün yoldaşı Nina Çavçavadzenin gözlədiyi Tiflisə, az əvvəl mühüm dövlət tapşırığı ilə cənuba doğru çaparaq keçdiyi yolla apardılar. Naxçıvanda general-qubernatorun evi arxada qaldı. İyulun 11 – də (köhnə təqvimlə) Gergeri qalasının yaxınlığında cırıldaya – cırıldaya gedən bir araba A.S. Puşkinin qarşısına çıxdı. Yəqin ki, onun "Ərzurum səfəri"ndən aşağıdakı sətirlər sizin yadınızdadır:

"Mən çayı keçdim. Arabaya qoşulmuş iki öküz dikdirli yolla qalxırdı. Bir neçə gürcü arabanı müşayiət edirdi.

– Haradan gəlirsiz? – soruşdum.

– Tehrandan.

– Nə aparırsınız?

– Qriboyedovu.

Bu, qətlə yetirilmiş Qriboyedovun Tiflisə göndərilən nəşi idi".

Araz üzərindən səs-küylə daha bir əsr də ötdü. Uzaq və məchul üfüqlərə durbinlə baxan, bu diyar haqqında məlumatın kasadlığından gileylənən rus şairinin qaldığı general-qubernator evinin üzərində al bayraq qaldırıldı. Şəhər teatrının səhnəsində onun qəhrəmanları – Famusov, Molçalin, Skalozub insanlara üz tutub, azərbaycanca və rusca danışıb anlaşdılar.

Tamaşaya afişaları dostlarının xahişilə pedtexnikum tələbəsi Heydər Əliyev çəkdi. Çatsko rolunda isə səhnəyə özü çıxdı.

*Mənə bir ağızdan dəli dediniz,*
*Bəli, haqlısınız, şəksiz – şübhəsiz,*
*Sizinlə bircə gün qalan bir kəsin,*
*Sizlə birgə nəfəs alan bir kəsin*
*Xarab olmamışsa başı, o, əlbət*
*Od-alov içindən çıxar salamat.*

*Uzaq! Moskvadan! Dönmərəm bura*
*Arxama baxmadan düşüb yollara,*
*Taparam bu kiçik könlümə bir yer.*

...Heydər onunla eyni soyadlı, hərbi geyimli ortaboylu adamı, döşünü ordenlər bəzəyən Əziz Əliyevi üzdən tanısa da, taleyin onları necə rastlaşdıracağını təsəvvürünə gətirə bilərdimi? Qırx ikinci ilin sonunadək İrandakı sovet missiyasını, demək olar ki, yığışdırdılar; yalnız dəmiryolçular gecə-gündüz fasiləsiz çalışırdılar.

Qırx üçüncü il mayın 10-da atası Heydəri iyirmi yaşının tamam olması münasibətilə təbrik etmək üçün iş-gücündən ayrılıb evə baş çəkdi, bir həftə keçər-keçməz yatağa düşdü, daha taqəti qalmamışdı... Mayın iyirmisində Əlirza Əliyevi son mənzilinə yola saldılar. Əliyevlər ocağı ilk itkinin ağrısını yaşadı. Mahiyyətinə varanda demək olar ki, bu, cəbhə itkisi idi.

...Moskva Cənubi Azərbaycanla yenidən 1944-cü ilin yazında məşğul oldu. Martın altısında sovet hökuməti "Cənubi Azərbaycan əhalisinə mədəni və iqtisadi yardımının gücləndirilməsi üzrə tədbirlər haqqında" məsələyə baxdı. Böyük Vətən müharibəsinin müqəddəratı artıq aydın idi, hərçənd qələbəyə qovuşmaqçün min kilometrlərlə odlu-alovlu yollar keçiləcək, milyonlarla qara kağız alınacaqdı. Belə qara kağızlardan birini də Bağırovlar ailəsi aldı: "Sizin oğlunuz, baş leytenant Cahangir Cəfər oğlu Bağırov hərbi andına sadiq qalaraq...". Qırıcı-təyyarəçi Cahangir Bağırov 8 iyun 1943 cü ildə Rusiya səmasında gedən şiddətli döyüşdə həlak oldu. Pulemyotunun gülləsi qurtarıb səsini kəsəndə, o, tarana getdi. Ölümündən sonra onu Lenin ordeni ilə təltif etdilər.

Hələ Krımın, 250 sutka faşist hücumlarını dəf etmiş Sevastopolun, Dneprin sağ sahilindəki Ukrayna torpaqlarının, Belarusun, Baltikyanı ərazilərin, Avropanın azad olunması, dağıdılmış şəhər və kəndlərin bərpası qarşıda idi. İşlərin belə bir ağlasığmaz qarmaqarışıqlığında, hərbi və mülki

qayğıların burulğanında Stalin Güney Azərbaycanı da unutmamışdı. Bəlkə Stalinin bu problematikaya maraq göstərməsinə onun Bakı ilə bağlı gənclik xatirələri və ümumiyyətlə, Qafqaz problemini ozünəməxsus anlamasının təsiri vardı? Yoxsa Tehran konfransı yeni çözümlərə bir yol açmışdı? Bu sualları kitabımızın mətnindən bir kənara qoyuruq, çünki cavab axtarışları bizi əsas mətləbdən uzaqlaşdıra bilər.

İttifaq Xalq Komissarları Şurasının qəbul etdiyi proqrama görə, Təbrizdə onillik Azərbaycan məktəbi açılmalı, nümunəvi aqrotexniki stansiya yaradılmalı, trikotaj – corab fabriki tikilməli idi. 1945-ci il iyunun 10-da Stalin “Şimali İranda sovet sənaye müəssisələrinin təşkili haqqında” məxfi qərar imzaladı. Həmin 1945-ci il 21 iyunda İ.V.Stalin “Şimali İranda neft üzrə geoloji-kəşfiyyat işləri haqqında” Dövlət Müdafiə Komitəsinin 9168 saylı qərarına qol çəkir. Neftçilər İrana – sovet qoşunları qərargahına ezam olunmuş hidrogeoloji dəstənin əməkdaşları qismində yola düşürlər. İranın başqa bölgələrində eynən su ehtiyatları axtarışı bəhanəsilə ingilislər də neft və filiz yataqları axtarırdılar.

Cənubi Azərbaycanda, əlbəttə, Moskvanın razılığı ilə Azərbaycan Demokratik Partiyası (ADP) yaradıldı. M.C.Bağırovun təklifilə Tehranda çıxan “Acır” qəzetinin redaktoru Mir Cəfər Pişəvəri (bir sıra sənədlərdə Seyid Cəfər də adlandırılır) ADP-nin başında durdu.

Bu qeyri-adi şəxsiyyəti Bağırov Molotova, Beriyaya və Malenkova ünvanladığı 1945-ci il 6 iyul tarixli məktubunda görün necə səciyyələndirirdi: “Əsli Cənubi Azərbaycandan olan Pişəvəri Kommunist partiyasının sabiq üzvüdür, uzun müddət Sovet Azərbaycanında məsul partiya – sovet vəzifələrində işləmişdir. 1927-ci ildə Komintern tərəfindən İranda işləməyə keçirilmiş, orada Rza şah hökuməti tərəfindən həbs edilmiş və 10 il həbsxanada qalmış, 1941-ci ildə sovet qoşunları İrana gələndən sonra azad edilmişdir. İki doğma qardaşı Sovet İttifaqında yaşayır. Onlardan biri Sovet Ordusunda xidmət edir, tibbi xidmət kapitanıdır”.

... Cənubi Azərbaycana axın-axın avtomaşınlar gedir, dəzgahlar, azərbaycanca, farsca kitablar, Azərbaycan mahnıları yazılmış vallar daşınırdı. Eləcə də silah daşınırdı, lakin sovet silahı yox, İtaliya, Çexoslavakiya markalı silahlar.

1945-ci il oktyabrın 21-də Bakı hərbi dairəsinin komandanı, ordu generalı İ.İ.Maslennikov və M.C.Bağırov L.P.Beriyaya xəbər verirdilər:

"Ümumittifaq Kommunist (bolşeviklər) Partiyaslı Mərkəzi Komitəsininin İran Azərbaycanı və Şimali Kürdüstan məsələsi üzrə 1945-ci il, 8 oktyabr tarixli qərarının icrası müqabilində bizim tərəfdən aşağıdakılar həyata keçirilmişdir: İran Azərbaycanında muxtariyyət hərəkatının inkişafına mane olan şəxslərin və təşkilatların ləğv edilməsi üzrə işi təşkil etməyə qadir olan Azərbaycan Xalq Daxili İşlər Komissarlığının və Dövlət Təhlükəsizliyi Xalq Komissarlığının 21 təcrübəli əməliyyat işçisi ayrılmışdır. Bu yoldaşlar eləcə də yerli əhalidən silahlı partizan dəstələri təşkil etməlidirlər".

1945-ci il oktyabrın 2-də Azərbaycan Demokratik Partiyasının birinci təsis konfransında Mir Cəfər Pişəvəri partiya rəyasət heyətinin sədri seçildi. Həmin il dekabrın 12-də Azərbaycan Milli Məclisinin birinci sessiyası milli hökuməti formalaşdırdı. Baş nazir Pişəvəri oldu.

Həmin günlərdə də Cənubi Azərbaycana xüsusi hazırlıq keçmiş 80 nəfər əməliyyatçı çekist ötürülür.

Vaşinqtonda isə "Taym" jurnalının İran hadisələrinə həsr olunmuş nömrəsi çıxır. Dərginin üz qabığında Məhəmməd Rza şahın portreti altında "İran şahı. Nüfuzlu dostları onun neftini umur" yazısı verilmişdi. Jurnalda dərc olunan xəritədə dəstəyi Bakıya dirənən oraq Cənubi Azərbaycanı mühasirəyə alır...

Güney Azərbaycanın milli hökuməti siyasi və sosial-iqtisadi islahatların geniş proqramını irəli sürdü. Dövlət dili Azərbaycan dili oldu. Təbrizdə dövlət darülfünunu (universiteti) açıldı. Buraya Bakıdan müəllimlər göndərildi. Yetim və kimsəsiz balalar üçün uşaq evləri açıldı – ikisi oğlanlar,

ikisi də qızlar üçün. Lakin bütün bu planlar yalnız Moskvanın dəstəyi ilə gerçəkləşə bilərdi. Moskva isə Vaşinqton və Londonun iradəsilə hesablaşmaya bilməzdi. Hərbdən sonrakı dünya əslində çoxqütblü idi. Sovet İttifaqı qoşunlarını İrandan çıxarmağa başladı.

Əsgərlər geriyə qayıdırdılar. Onların sıralarında xeyli azərbaycanlı vardı.

– Biz yaxınlarda, Arazın o tayında olacağıq!

– Görüm, Araz yerli-dibli qurusun! – onlara hiddətlə belə cavab verirdilər.

Amma Araz əsrlər boyu olduğu kimi, yenə aramsız axırdı, bir xalqı ikiyə bölmək isə görünür, onun nəsibi imiş.

Moskva öz müttəffiqlərini qorumağa cəhd göstərsə də, iş işdən keçmişdi; İran qoşunlarını öz ölkəsinin şimal bölgələrinə yeridirdi. Azərbaycan Demokratik Məşrutəsi hissələrinin vur-tut "mərmisiz dörd topu və minasız iki minaatanı" qalmışdı. Buna baxmayaraq, Azərbaycan döyüşmək əzmində idi, lakin Moskva yalnız mənəvi dəstək verəcəyini vəd edirdi.

1946-cı il dekabrın 11-də Stalinin şifrəli teleqramını Pişəvəriyə və silahdaşlarına çatdırdılar: "Qavamın"[1] bir baş nazir kimi İranın hər hansı hissəsinə, o cümlədən Azərbaycana da qoşun göndərməyə formal olaraq haqqı var, odur ki, indən belə silahlı müqavimət məqsədəuyğun deyil, lüzumsuz və əlverişsizdir.

Seçkilər zamanı sakitliyi təmin etmək üçün hökumət qoşunlarının Azərbaycana yeridilməsinə qarşı sizin etiraz etmədiyinizi elan edin. Bunu İran xalqının birliyi naminə, onun azadlığı və istiqlalı naminə etdiyinizi bir daha bildirin". Belə də etdilər. Belə də əsaslandırdılar. ... Zəbt olunmuş Təbrizdə bir neçə gün ərzində üç mindən artıq insan güllələndi. Azərbaycan dilində nəşr olunmuş dərsliklər və kitablar tonqallarda yandırılırdı.

---

[1] Qavam-us-səltənə – o zamanlar İranın baş naziri belə adlanırdı (Red.)

Azərbaycan darülfünunu, milli teatr, filarmoniya, muzeylər bağlandı. Milli qəhrəmanların abidələri uçuruldu. İqtidar "konstitusion asayişi" təmin etdi. Bağırovun israrlı tələblərindən sonra Kreml Culfada, Xudafərində, Biləsuvarda və Astarada sərhəd məntəqələri açmağa icazə verdi.

İki gün ərzində sovet sərhədindən 5295 nəfər keçdi. Pişəvəri başda olmaqla bir qrup firqə işçisi müvəqqəti olaraq Naxçıvanda qaldı. Sonra Bakıya köçürüldülər. Pişəvəri Moskvaya yazır, Bağırova yeni təkliflər göndərirdi. "Onu sakitləşdirmək üçün 1947- ci ilin mayında, guya, Cənubi Azərbaycana göndərilmək məqsədilə fədai dəstələri hazırlayan xüsusi məxfi komitə yaradıldı, lakin heç kim göndəriləsi olmadı. 1946-cı il iyulun 3-də Yevlax – Gəncə yolunun 14-cü kilometrində Pişəvərinin avtomobili qəzaya uğradı. Bir neçə saatdan sonra o, rayon xəstəxanasında keçindi".

İnadkar siyasi mühacir Bakıdan 30 km aralı Buzovnadakı bağında torpağa tapşırıldı. Məzarı nəzərə çarpmasın deyə üzərində gül-çiçək əkdilər. Yalnız 1960-cı ilin mart ayında Pişəvərinin nəşini hələ müharibədən əvvəl, 30-cu illərdə Bakıda yaradılmış Fəxri Xiyabanda basdırdılar. Taleyə bir bax, illər keçdi, Əziz Əliyev onun məzarının yaxınlığında dəfn olundu. Onların yaşadıqları hər şey, həyəcanları, düşüncələri, qəlblərini riqqətə gətirən nə vardısa artıq keçmişə, tarixə mənsub oldu...

Dənizdən əsən külək xəzan yarpaqlarını xışıldadır, azca aşağıda Qarabağ mücadiləsinin qəhrəmanlarının abidələri görünür. Qırmızı lentlər nəzərə çarpır. 1991-ci ildə erməni separatçılarının atəşi ilə vurularaq yandırılmış vertolyotda həlak olan respublika rəhbər işçilərinin, Vətən oğullarının – dövlət katibi Tofıq İsmayılovun, daxili işlər naziri, general Məhəmməd Əsədovun, baş prokuror İsmət Qayıbovun, nazirlər soveti sədrinin müavini Zülfi Hacıyevin məzarları...

Milli hökumətin məğlubiyyəti, Azərbaycan Demokratik Məşrutəsinin süqutu Sovet Azərbaycanında da yanıqlı

əks-səda doğurdu. Minlərlə insan – müəllimlər və həkimlər, neftçilər və inşaatçılar, geoloqlar və sənət ustaları, partiya işçiləri və hərbçilər Arazın o tayındakı qardaş və bacılarına köməklərini əsirgəməmişdilər...

Bu barədə susurdular.

Cənubi Azərbaycanda baş verən hadisələrə bilavasitə yaxın olması cavan Heydər Əliyevin həssas qəlbinə də böyük təsir göstərmişdi.

1944-cü il yanvarın 27-də Heydər Əliyev Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Dövlət Təhlükəsizliyi Komitəsinin xalq komissarı müavininin adına ərizə yazır. Bu sənədin tam mətninə diqqət yetirək:

"Dövlət Təhlükəsizliyi Xalq Komissarlığı sistemində əməliyyat işində işləməyə böyük həvəsim var.

Ona görə, məni Azərbaycan Sovet Sosialist Respublikası Dövlət Təhlükəsizliyi Xalq Komissarlığının məktəblərindən birinə qəbul etməyinizi xahiş edirəm".

Kalliqrafik xətt, imza, tarix... Ancaq belə sistemdə işləmək üçün təkcə arzunun, hətta böyük istəyin olması kifayət etmir. Dörd ay yoxlamalar aparılır, bütün detallardan "abituriyent"in xəbəri belə olmur. Heydər Əliyev 1944-cü ilin mayından Sovet İttifaqı dövlət təhlükəsizlik orqanlarında xidmətə başlayır. O vaxt onun 21 yaşı təzəcə tamam olmuşdu.

Sovet Azərbaycanında, xüsusən sərhədyanı rayonlarda insanların qəlbinə hakim olan duyğuları milli ruh yüksəkliyi adlandırmaq olar. Sonralar tərəzinin gözü əks tərəfə əyildi – Cənubi Azərbaycanda baş vermiş faciəni bütün azərbaycanlılar ümummilli fəlakət kimi yaşadılar. Bu barədə o vaxt açıq-aşkar yazılmasa da, böyük əksəriyyət belə düşünür, belə danışırdı.

...Azərbaycan Respublikasının gələcək prezidenti 1945-ci ilin mayında Azərbaycan Dövlət Təhlükəsizliyi Komissarlığının operativ işçilərin ixtisasartırma kurslarında seminarda idi. Pedaqoji texnikum kimi bu kursları da Heydər Əliyev

fərqlənmə ilə bitirir və yenə də Naxçıvana qayıdır, çox keçmədən isə ilk mükafatına – "Əmək rəşadətinə görə" medalına layiq görülür.

Azərbaycan Milli Təhlükəsizlik Akademiyasının rektoru Ziya Yusifzadənin başı üzərində Heydər Əliyevin portreti asılıb. Bu bir vaxtlar birgə işlədikləri şəxsə (Ziya Yusifzadə Heydər Əliyevin rəhbərliyi altında çalışıb) sadəcə hörmət əlaməti deyil. Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin keçmiş sədri Ziya Yusifzadə artıq bir neçə il idi ki, təqaüdə çıxmışdı və bu vaxt Heydər Əliyev onu yanına çağırıb Azərbaycanın təhlükəsizlik orqanları və sərhəd qoşunları üçün kadr yetişdirməkdən ötrü Milli Təhlükəsizlik Akademiyası yaratmaqda kömək etməyi xahiş etdi. Azərbaycanda son illərə qədər müstəqil dövlət üçün vacib olan belə bir təhsil müəssisəsi yox idi. Akademiyanı yaratmağı üzərinə götürə biləcək kadrlar barədə düşünəndə Heydər Əliyev ilk olaraq keçmiş həmkarı Ziya Yusifzadəni xatırladı. Onlar 1955-ci ildən birgə işləmişdilər. Moskva Xarici Dillər İnstitutunun məzunu, Respublika Nazirlər Sovetinin gənc kadrı Ziya Yusifzadəni təhlükəsizlik orqanlarında işləməyə o zaman dəvət etmişdilər və o öz taleyini bu təşkilata bağlamışdı. Yeni kadr öz təyinatını məhz Heydər Əliyevin rəhbərlik etdiyi şöbəyə almışdı.

– Heydər Əliyev o saat mənim xoşuma gəldi, – həmin günü Ziya Yusifzadə belə xatırlayır. – O, özünü insanlara sevdirə bilirdi. Bir sözlə, qızıl parçasıydı.

Uzun illər ərzində onlar çiyin-çiyinə işlədilər, müxtəlif əməliyyatları birgə hazırladılar... İki dəfə Ziya Yusifzadə "onun təkidiylə" Türkiyə və İngiltərədə xüsusi ezamiyyətlərdə oldu.

Ziya Yusifzadə Heydər Əliyevdən sonra doqquz il – 1980-89-cu illər ərzində respublikanın Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik etdi. Əlbəttə, belə təcrübəsi olan bir mütəxəssis akademiyanı yaratmağa qadir idi. Prezident doğru seçim etmişdi və şəxsən özü birbaşa Ziya Yusifzadənin mənzilinə zəng vurmuşdu. Ziya müəllim əvvəlcə yaşı-

nın keçdiyini əsas gətirərək bu məsuliyyəti öz boynuna götürmək istəməmişdi...

– Siz ki, yaxşı bilirsiniz, ona etiraz etmək mümkün deyildi, – Yusifzadə daha bir yüngül siqaret yandırır və siqaretin tüstüsü akademiya rəisinin otağına yayılır.

Sonra isə biz akademiyanın nəzdində yaradılmış muzeydə Heydər Əliyevə həsr olunmuş guşəyə gedirik, bir vaxt gizli saxlanılan, indi isə Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi tərəfindən açıqlanmış işləri nəzərdən keçiririk və addım-addım, səhifə-səhifə çekist Heydər Əliyevin bioqrafıyasını – operativ işçidən tutmuş Dövlət Təhlükəsizlik Komitəsinin sədrinə qədər, leytenantdan general-mayora qədər xəyalımızda canlandırmağa çalışırıq.

6 iyul 1950-ci ildə Leninqradda Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Nazirliyinin Operativ rəhbər işçilər hazırlayan məktəbində bayram əhval-ruhiyyəsi vardı. Məzunlara məktəbi uğurla bitirdikləri barədə diplomlar verilirdi. Bir illik kursant həyatı arxada qalmışdı, irəlidə isə yeni təyinatlar vardı. Məktəbin direktoru polkovnik Pinçuk ilk olaraq səhnəyə leytenant Heydər Əliyevi çağırır.

– Yoldaş Heydər Əliyev, sizə Dövlət Təhlükəsizlik Nazirliyinin məktəbini fərqlənmə ilə bitirməyiniz barədə şəhadətnamə təqdim edilir.

Ayrılıq ərəfəsində məzunlar Böyük Pyotrun heykəli önündə şəkil çəkdirirlər. Çox gözəl fotoşəkil alınır.

Buraxılışdan bir neçə gün sonra, 21 iyul 1950-ci ildə xüsusi poçt xidməti baş leytenant Heydər Əlirza oğlu Əliyevin xasiyyətnaməsini Bakıya çatdırdı:

“Baş leytenant Heydər Əlirza oğlu Əliyev 1949-cu ilin mayından 1950-ci ilin iyuluna qədər Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Nazirliyinin Leninqraddakı Ali operativ işçilərin hazırlıq məktəbində təhsil almış və özünü yalnız yaxşı cəhətdən göstərmişdir. Təhsilinə ciddi yanaşmış, tədris materialı üzərində səylə çalışmış, onu dərindən öyrənmişdir. Sinif və seminar imtahanlarına ciddi

şəkildə hazırlaşmış, dərsdən əlavə vaxtlarında isə öz siyasi ideya və ümumtəhsil səviyyəsinin artırılması üzərində bütün bacarığından yararlanmışdır.

Bunun nəticəsində tədris proqramı üzrə zaçot və imtahanlardan yüksək qiymətlər almışdır. Təhsil müddəti ərzində Heydər Əliyev dərs əlaçısı olmuş, buna görə də ona məktəbin adından təşəkkür elan edilmişdir. Onun şəkli məktəbin şərəf lövhəsinə vurulmuşdur. Təhsil müddəti ərzində yoldaş Əliyev sosial-iqtisadi fənlər sahəsində geniş biliklər əldə etmiş, öz mədəni və ümumtəhsil səviyyəsini yüksəltmiş, çekist işi məsələləri üzrə biliklərini artırmışdır. Operativ məsələlərin həllində lazımi, düzgün qərarlar qəbul edir, operativ şəraitdə vəziyyəti sərbəst və düzgün qiymətləndirə bilir, operativ sənədləri hərtərəfli və əsaslı tərtib edir".

Bunun ardınca məktəb direktoru əlavə edirdi ki, yoldaş Əliyev öz yüksək səviyyəli təhsilini ictimai və partiya işilə uzlaşdıra bilmişdir. Daha sonra isə onun şəxsi keyfiyyətlərindən danışır: intizamlıdır, mənəvi cəhətdən möhkəmdir, fərasətlidir, məişətdə sadədir, ədəblidir.

Nəticə: "Vəzifədə irəli çəkilməyə layiqdir".

Bu gənc, enerjili çekist Azərbaycanda da diqqəti cəlb etdi və mərkəzdən göndərilən bu nüfuzlu xasiyyətnaməni nəzərə aldılar. Naxçıvana qayıdandan dərhal sonra Heydər Əliyev muxtar respublikanın Dövlət Təhlükəsizlik Nazirliyinin 5-ci şöbəsinin rəisi təyin edildi, bir ay sonra isə 26 avqust 1950-ci ildə onu Bakıya dəvət etdilər. Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizlik Nazirliyinin 2-ci şöbəsində bölmə rəisinin müavini təyin olundu.

Amma bu, uzun çəkmədi…

Heydər Əliyevin xüsusi xidmət orqanlarında yüksəlişi elə də çox diqqət çəkməyən adi bir hadisədən başladı. Bakı aerodromunda heç nə ilə seçilməyən bir qrup yoldaşı gətirmiş təyyarə endi. Onları qarşılayanlar dərhal farağat duruşu almasından bəlli olurdu ki, bunlar adi qonaqlar deyillər. Bir-

başa trapa sürülən par-par parıldayan limuzinlər isə Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət Təhlükəsizlik Komitəsinə məxsus idi.

Respublikanın bütün rəhbərliyi qonaqları yüksək səviyyədə qəbul etdi – Moskvadan gələn dövlət təhlükəsizliyinin generalları öz azərbaycanlı həmkarlarının təftişinə gəlmişdilər. Elə gəldiklərinin səhəri günü təftişə gələnlərin yanına xidmət rəhbərləri ilə birgə daha mühüm əməliyyatların iştirakçılarını dəvət etməyə başladılar. Axşam, o zamanlar deyildiyi kimi, gecikmiş nahar zamanı qonaq generallar təəssüratlarını bölüşməyə başladılar.

«Əlbəttə, əməliyyatın mahiyyəti haqqında danışmaq olmazdı, – deyə DTK-nın 2-ci Baş İdarəsinin keçmiş rəisi Yevgeni Pitovranov söhbətə başlayır. – Ancaq Eytinqon mənə dedi: gənc əməliyyatçı Əliyevə diqqət yetir – iranlılara qarşı çox bacarıqla işləyir».

Əliyevin hansı bacarığı ilə seçildiyi o zaman açıqlanmadı. Meksikada Trotskinin məhv edilməsinin təşkilatçısı və uzun illər dövlət təhlükəsizlik orqanının məhvetmə və təxribat xidməti rəhbərinin müavini işləmiş general Eytinqonun sözü isə çox qiymətli idi. Amma Pitovranovun gənc əməliyyatçı Heydər Əliyevlə yaxından tanış olmasına elə də çox vaxt lazım gəlmədi. «Kadrlar idarəsindən yanıma yeddi səkkiz nəfər göndərmişdilər. Xahiş etmişdilər ki, onlarla söhbət edim və bu kadrların xidmətdə irəli çəkilməsinə münasibətimi bildirim. Demək olar, hamısı müsəlman respublikalarından gəlmiş milli kadrlar idi. Heydər Əliyev də onların arasında idi. O, elə ilk baxışdan mənə çox hazırlıqlı və maraqlı göründü. Yaxşı xatırlayıram, onunla bir saata yaxın söhbət etdik. Bu gənc oğlanın ağlına və qətiyyətinə şübhə etmək mümkün deyildi. Çekist dili ilə, desəm, ağlının çevikliyinə də söz yox idi.

Kadrlardan telefon açdılar:

– Necədir?

– Təəssüratım onun xeyrinədir, – deyirəm, – adam savadlıdır, mütaliəlidir, ağıllıdır, qətiyyətlidir və prinsipialdır.

Bizim işimizdən yaxşı baş çıxarır. Özlərində şəraiti bilir və orada düzgün istiqamət götürür. Onu cəsarətlə Azərbaycanda əks-kəşfiyyat şöbəsinin rəisi təyin etmək olar. Məncə, o yaxşı işləyər. Ona bel bağlamaq olar.

Mənim zəmanətim qəbul edildi və Əliyev bu vəzifəyə təyin olundu. Moskvaya yolu düşəndə o həmişə mənim kabinetimə gələrdi və öz işlərindən danışardı. Şərqsayağı, məni diqqətsiz qoymazdı.»

İkinci şöbə əks-kəşfiyyatla məşğul idi. Respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini və sədri təyin olunana qədər on beş il ərzində Heydər Əliyev məhz bu məsuliyyətli sahə ilə məşğul olmuşdu. Onun xidmət siyahısında biri-birinin ardınca lakonik qeydlər peyda olur: 2-ci şöbənin rəisi təyin olunub... "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunub... "Fəxri təhlükəsizlik işçisi" nişanı ilə mükafatlandırılıb... Xüsusi tapşırığı ləyaqətlə yerinə yetirərkən qətiyyətlilik və təşəbbüskarlıq göstərdiyinə görə qiymətli hədiyyə ilə mükafatlandırılıb... Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik xidmətində uğurlu fəaliyyətinə görə "Qızıl ulduz" ordeni ilə təltif olunub...

1967-ci il oktyabrın 26-da Sovet Sosialist Respublikalar İttifaqı Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri Yuri Vladimiroviç Andropovun təqdimatıyla Azərbaycan Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri Heydər Əlirza oğlu Əliyev "General-mayor" rütbəsi alır. Attestasiyada belə deyilirdi:

"Yoldaş Əliyev 1944-cü ildən təhlükəsizlik orqanlarında çalışır, 1945-ci ildən isə rəhbər vəzifələrdədir. Uzun müddət Azərbaycan Dövət Təhlükəsizlik Komitəsində 2-ci şöbənin rəisi vəzifəsində çalışıb. 1965-ci ildən Azərbaycan Dövət Təhlükəsizlik Komitəsinin sədr müavini olub, 1967-ci ilin iyunundan isə Azərbaycan Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində çalışır.

Tələb olunan təşkilatçılıq bacarığına malikdir. Respublikadakı operativ şəraiti və milli xüsusiyyətləri gözəl bildiyi

üçün, tabeçiliyindəki işçiləri qarşıda duran vəzifələri yerinə yetirmək üçün düzgün fəaliyyət yoluna istiqamətləndirir.

Respublikaya gələn xarici vətəndaşlar arasındakı agentlərin, kəşfiyyatçıların ifşa olunmasıyla bağlı respublika Dövət Təhlükəsizlik Komitəsində mütəmadi və aktiv tədbirlər görülür. Agentura aparatının təkmilləşdirilməsiylə bağlı da əhəmiyyətli işlər aparılır.

Dövlət Təhlükəsizlik Komitəsinin periferiyalı orqanlarının işinə də xüsusi diqqət yetirilir. Xidməti problemlərin həll olunmasında yoldaş Əliyev prinsipiallıq və inadkarlıq nümayiş etdirir. Daha mürəkkəb tədbirlərin keçirilməsində şəxsən özü iştirak edir.

Operativ tədbirlərin uğurla keçirilməsinə görə bir neçə dəfə mükafatlandırılıb, 1962-ci ildə isə "Qızıl Ulduz" ordeni ilə təltif edilib. Şəxsi keyfiyyətləri: zəhmətkeş, iradəli və prinsipial rəhbər işçidir.

Komitənin şəxsi heyəti, partiya və sovet fəalları arasında böyük nüfuza malikdir, Azərbaycan Kommunist Partiyasi Mərkəzi Komitəsininin üzvü və Azərbaycan Ali Sovetinin deputatı seçilib.

Bütün bunları nəzərə alaraq, yoldaş Heydər Əliyevə növbəti hərbi rütbə – "general-mayor" rütbəsi verilir".

Ertəsi gün, oktyabrın 27-də bu təqdimatı Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti nəzərdən keçirdi (985 nömrəli protokol) və 30 oktyabr 1967-ci ildə Yuri Vladimiroviç Andropov Heydər Əlirza oğlu Əliyevə "general-mayor" rütbəsinin verilməsiylə bağlı Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin 136 nömrəli sərəncamını imzaladı...

Lakin biz xeyli irəli getdik. Yenidən müharibədən sonrakı Bakıya qayıdaq və Heydər Əliyevin öz yaşıdı, doktor Zərifə Əliyeva ilə tanışlığından danışaq.

## III fəsil

# HEYDƏR VƏ ZƏRİFƏ

Şərq poeziyası saf, fədakar, sədaqətli məhəbbət haqqında əfsanələri əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə çatdırmışdır. Tahir və Zöhrə... Xosrov və Şirin... Leyli və Məcnun... Onların bir-birinə sədaqətinin gücü qarşısında hər şey acizdir, fitnə-fəsad da, hədə-qorxu da, paxıllıq da, xainlik də.

*Eşq olduğu yerdə məxfi olmaz,*
*Eşq içrə olan qərar bulmaz.*
*Eşq atəşinə budur əlamət*
*Kim, baş çəkə şöleyi-məlamət,*
*Hüsn afəti-esq olub dəmadəm,*
*Gəldikcə iradət oldu möhkəm. ...*
*Rəf oldu hicabi-şahidi-raz,*
*Eşq oldu məlamət ilə dəmsaz*
*Gərd ayineyi-nişatə düşdü,*
*Minbəd iş ehtayatə düşdü...*

Dahi Nizami "Leyli və Məcnun" poemasında kövrək sevgi duyğularının cücərməsindən belə bəhs edir.

Heydər Əliyev həmin misraları gənclik illərindən əzbər bilir, könül verdiyi Zərifə xanıma dönə-dönə təkrarlayırdı.

Elmin, maarifin xüsusi vüsətlə yüksəldiyi bir zaman, XX əsrin ortalarında tale Heydər Əliyevi və Zərifə Əliyevanı – hələ ailə qurmamış eyni soyadlı iki sevgilini – məhəbbət sı-

naqlarına çox çəkdi. Əminik ki, bu süjet də Leyli və Məcnunun hissləri kimi, klassik məhəbbət dastanı kimi yazılmağa layiqdir. Haçansa bu barədə böyük səhnədən və ya ekrandan bəhs ediləcək. Hərçənd, sağ olsun istedadlı rejissor Vaqif Mustafayev ki, "Böyük məhəbbət hekayəti" adlı sənədli film yaratmış, Heydər Əliyevin səmimi məhəbbət etirafını incə zövqlə lentə almışdır. Film müəllifinin lütfkar icazəsilə biz Heydər Əliyevin Zərifə xanımla tanış olması, ülfət bağlaması, dəyişkən siyasi ab-havadan gələn maneələrlə rastlaşmasına baxmayaraq, ürək istəyilə ailə qurmaq haqqını qorumaları barədə lentə alınmış xatirələrinə istinad edəcəyik.

Heydər Əliyev – fotoşəkillərdən də göründüyü kimi – gəncliyində yaraşıqlı, boy-buxunlu, yetkin çağlarında, hətta yaşlı vaxtlarında da cəlbedici, zəhmli, əzəmətli ərənlərdən olub; Bakı gözəlləri də, Moskva, Leninqrad xanımları da ona diqqət yetirməmiş deyildilər. Amma onu yaxşı tanıyanların əksəriyyətinin təsdiq etdiyinə görə o, heç vaxt özü ilə ötəri oyun oynamağa yol verməzdi.

– Mən başa düşürəm niyə, – qocaman müəllim Lətif Hüseynzadə belə izah edir. – Heydər təbiətcə sevgisinə sadiq aşiqlərdən idi. O öz ömür yoldaşını çox sevirdi. Yəqin, bu elə bir nadir haldır ki, yarıya bölünmüş almanın hər iki parası xöşbəxtlikdən bir-birinə qovuşmuşdu...

Böyük, səmimi hissləri nümayiş etdirmək məqbul sayılmır. Onlar çox vaxt yad gözlərdən gizlədilir. Lakin hələ qızlıq çağlarından bir-birinə isnişmiş, sonra ərə getmiş, ana olmuş rəfiqələr görüşüb, hal-əhval tutanda hər şeydən əvvəl bilirsiniz bir-birinə hansı sualı verirlər?

– Zərifə, xoşbəxtsənmi?

Püstə xanım Əzizbəyova (evdə onu "Zinoçka" çağırardılar) Stefan Sveygin "Naməlum qadının məktubu" hekayəsini oxuduqdan sonra təəssüratlarını necə bölüşdüklərini, necə açıq və səmimi danışdıqlarını xatırlayırdı:

– Sən belə sevə bilərdinmi? – deyə Zinoçka rəfiqəsindən soruşur.

– Bütün ömrünü sevgilinə həsr etməyi bacarardınmı?

– Əgər mən sevsəm, məhəbbətim necə olur-olsun – istər acı, istər şirin – onu bütün ömrüm boyu qoruyub yaşadacağam.

Heydər Əliyev də bu suala eynilə belə cavab verə bilərdi. Yəqin ki, hər birimiz kor adam görmüşük. Budur, belə bir insan səkinin kənarını çəliklə döyəcləyə-döyəcləyə yol gedir, keçiddə ayaq saxlayır... Çox vaxt bir rəhmdil bəndə tapılır, əlili küçənin o tayına ötürüb öz işlərinin dalınca tələsir. Başqa birisi üçün isə belə təsadüfi rastlaşma ömürlük iz qoyan sarsıntıya çevrilir. Zərifə Əliyevanın həyatında da belə hal baş vermişdi.

Böyük Vətən müharibəsi illərində Bakıda onlarla hospital yerləşdirilmişdi. O şəfa ocaqlarından 500 min əlil, şikəst keçmişdir. Hospitallardan biri Dövlət Universitetinin keçmiş binasında yerləşirdi. Məktəbli qızlar, tələbələr yaralılara qulluq edir, onların yaralarını yuyub təmizləyir, hərəkətsiz qalanları qaşıqla yedizdirib, içirdirdilər. Zina (Püstə Əzizbəyova) şeir oxuyur, Zərifə akkordeonda çalırdı.

"Yadımdadır, pəncərənin yanında ağır sınıqları olan, dərisi yanıq, hərəkətsiz bir təyyarəçi arxası üstə yatırdı. Yeməkdən imtina edir, hətta gözlərini belə açmaq istəmir, palatada baş verənlərə tamamilə laqeyd qalırdı. Zərifə onun çarpayısı qarşısında xeyli dayanır, ailəsi haqqında sorğu-sual edir, cəbhədən yeni xəbərləri söyləyirdi. Sən demə, onun evində az qala bizim yaşımızda qızları qalıb, o, ailəsinə yük olmaq istəmir, buna görə də onlara heç nə yazmırmış. Bir müddət ötəndən sonra o, evinə ünvanladığı ilk məktubu Zərifəyə diqtə elədi və biz o məktubu poçt qutusuna atdıq. Beləliklə, Zərifənin palatada bir "peşəsi" də artdı – yaralıların diqtəsilə məktub yazıb onların doğmalarına yollayırdı".

Yəqin, yüksək dərəcədə məsuliyyət hissi, köməyə möhtac olana əl tutmaq, can yandırmaq onda o zamanlardan formalaşmışdı.

Bir dəfə hospitalda növbətçilikdən sonra rəfiqələr evə tələsirdilər. Qızların qarşısına cavan, yaraşıqlı bir qadın çıxdı. O, qəddini qeyri-adi tərzdə dik tutaraq, başını qaldırıb yeriyirdi, divara yaxın olmağa çalışırdı.

"Zərifə həyəcanla əlimi sıxıb, şəhadət barmağını dodaqları üstə qoydu, aralanan zavallının ardınca baxa-baxa: "Gördün? – dedi, – kordur... Bilirsən, çoxdan fikirləşirəm ki, həkim olum. Axı bizimkilərin hamısı həkimdi: atam da, anam da, böyük bacım da, Tamerlan da. Mən də okulist olmaq, insanlara dünyanın ən böyük, əvəzsiz neməti, həyat nuru, görmək qabiliyyətini qaytarmaq istəyirəm".

İllər ötdü. Zərifə Əliyeva tibb aləminin məşhur həkim-oftalmoloquna çevrildi. Ən başlıcası, xəstələr tərəfindən sevilən mütəxəssis oldu. Böyük konqreslərin birində o, akademik, tanınmış tarixçi, keçmiş rəfiqəsi Püstə Əzizbəyova ilə rastlaşdı.

– Zərifə, qırx dördüncü ildə gördüyümüz o kor qadın yadındadımı?

– Hər şey yadımdadır. Bütün apardığım cərrahiyyə əməliyyatları da... Qələbə günündə görüşməyimiz də...

O gün səhər tezdən bakılılar Dənizkənarı bulvara axışırdılar. Sanki bütün şəhər ora yığışmışdı. Sonralar akademik Əzizbəyova xatırlayırdı:

"... Elə bil bütün Bakı dəniz kənarına çıxmışdı. Bir-birini tanımayan adamlar qucaqlaşır, bayramlaşır, ağlaşır, doğmalarını, əzizlərini yad edirdilər. Biz, izdihamın içindən sivişə-sivişə Kukla Teatrından çəpəki səmtdə indi də ucalan xoşladığımız ağaca tərəf getdik. Və orada Zərifə qara geyimli, qara kəlağayılı bir ağbirçəyin qarşısında dayanıb duruxdu. Adətən tanımadığı adamlardan çəkinən Zərifə ərklə ona yanaşıb qucaqladı, mülayim səslə dedi: "Anacan, qara örpəyini başından aç, bu gün bayramdı". Qadın ağladı. Zərifə onu bağrına basıb: "İtirdiyin kimdir, ərindimi?" – soruşdu. "Yox, oğullarım ... Üç balam, üç ciyərparəm".

Onların yanında ucaboy bir cavan oğlan ayaq saxlayıb mehriban və sakit səslə "Ağlama, ay ana", – dedi.

Bakıda bu əhvalatı bir məhəbbət dastanı kimi danışırdılar, söyləyirdilər ki, Zərifə ilə Heydərin ilk görüşü məhz o zaman baş vermişdi. Son dərəcə gözəl təsirli süjetə inanmaq istəsək də, əfsus ki, həmin gün bizim cavan qəhrəmanlarımız görüşə bilməzdilər. Heydər Əliyev Zərifə ilə yalnız qırx yeddinci ildə, Kislovodskda tanış olmuşdu. O özü bunu belə xatırlayırdı:

– Böyük qardaşım Kislovodska dincəlməyə gedəndə məni də dəvət etdi... Orada heç kimi tanımırdım, qardaşımınsa çoxlu tanış-bilişi vardı. Gözümə bir qız dəydi, sonra tanış olduq. Məlum oldu ki, böyük qardaşım onun ailəsini, atasını yaxşı tanıyırmış. Mənim tanışlığım qısa olsa da, bu qız nədənsə ürəyimi tərpətdi...

Bu tanışlıqdan az sonra baş leytenant Əliyevi perspektivli bir zabit kimi Leninqrada, Sovet Sosialist Respublikaları İttifaqı DTN-nin rəhbər kadrlarının hazırlanması üzrə məktəbinə göndərdilər. Böyük qardaşına yazdığı məktublarında o, sözarası "Kislovodsk tanışı"nın hal-əhvalı, işi-gücü ilə maraqlanırdı. Həsən Heydəri intizarda qoymurdu, çünki Zərifənin qardaşı Tamerlan vasitəsilə gənc doktor Əliyevanın ilk addımlarından yaxşı xəbərdar idi.

Kəşfiyyat kursunu fərqlənmə ilə bitirən Heydər Əliyev əvvəlcə Naxçıvana qayıdır, lakin çox keçmir ki, artıq bu barədə yazdığımız kimi o, Azərbaycan Dövlət Təhlükəsizlik Nazirliyinə təyinat alır. Nəzərə alaq ki, artıq onun 27 yaşı vardı. Doğmaları, yaxınları Heydəri dilə tuturdular: artıq ailə qurmaq vaxtıdır. "Mən özüm də ailə qurmaq haqqında düşünürdüm. Bu təbiidir. Adətən Azərbaycan adətlərinə görə ana, qohum-əqraba qızgördü keçirirdilər. Mənə evlənmək üçün təklif edilənlərin içində çox yaxşı, gözəl qızlar da vardı. Amma görünür, mənim Zərifəyə qarşı hisslərim o dərəcədə güclü idi ki, onunla yenidən görüşmək istədim".

Heydər günlərin bir günü ara-sıra zəngləşdiyi Tamerlanla rastlaşır. Xəzərin sahilində gəzişərkən Tamerlan dostunu evlərinə dəvət edir.

– Səni atamla tanış eləyərəm, o dəfələrlə sizin yerlərdə olub...

Həkim, tibb elmləri doktoru Əziz Məmmədkərim oğlu Əliyevi hələ sağlığında "cəmiyyətin loğmanı" adlandırırdılar. 30-cu illərdə o, Azərbaycanın səhiyyə naziri olmuş, Böyük Vətən müharibəsi başlanan dövrdə İranda sovet missiyasına başçılıq etmiş (bu barədə bir qədər əvvəl söhbət açmışıq), Dağıstan Vilayət Partiya Komitəsinin katibi vəzifəsində çalışmışdı. İki dəfə – 1942 və 1944-cü illərdə Lenin ordeni ilə təltif olunmuşdu. 1950-ci ildə isə Moskvada birillik kursları bitirdikdən sonra onu Sovet Sosialist Respublikaları İttifaqı Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsininin inspektoru təyin etmişdilər. Partiya dairələrində bu vəzifə start meydançası hesab olunurdu. İnspektorları böyük təyinatlar gözləyirdi. Görəsən, yaşı əllini adlamış, Dağıstanın və Azərbaycanın partiya orqanlarında uzunmüddətli iş təcrübəsi olan bir kadrı irəlidə nə gözləyirdi? Variantlar çoxdur. Lakin onu gözlənilmədən Bakıya çağırdılar...

Tamerlan öz dostunu atasına təqdim etdiyi vaxt Əziz Məmmədkərim oğlu artıq elmə qayıtmışdı və Elmi-Tədqiqat Ortopediya və Cərrahi Bərpa İnstitutunun direktoru idi. Ev yiyəsi qonağı bu ocağın adətincə səmimi və gülərüzlə qarşıladı. Çay təklif elədi və gülümsəyərək Zərifənin tezliklə gələcəyini bildirdi...

Əziz Əliyev respublikada ən parlaq ziyalılardandı. O, mədəniyyətə, musiqiyə dərindən bələd idi. Rəsmi vəzifəsindən asılı olmayaraq, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev (Ümumittifaq miqyasında tanınmış müğənni Müslümün babası), Azərbaycan universitetinin rektoru Əbülfəz Qarayev, sevimli və əfsanəvi şair Səməd Vurğun, görkəmli alim, respublika Elmlər Akademiyasının ilk prezidenti Mirəsədulla Mirqasımov onunla ülfət bağlamış, xoş ünsiyyətdə olmuşlar. Xalq komissarı Əziz Əliyevi, başqalarından fərqli olaraq, tribunada az-az görərdilər.

O, "parlaq nitqlər söyləməyi" xoşlamırdı. Konkret işlərlə məşğul olurdu – yeni tibbi xidmətlər təşkil edir, tibbi təhsil

ocaqları üçün ana dilində dərsliklər yazır, istedadlı gəncləri axtarıb tapır və İttifaqın aparıcı ali təhsil müəssisələrinə göndərirdi. 20-ci illərdə Rusiyadan Azərbaycana gəlmiş mütəxəssislərin təcrübəsinə əsaslanıb yeni tibbi xidmət müəssisələri təşkil edirdi.

Bu mütəxəssislərin arasında Fyodor Nikolayeviç İlyin də vardı. Bakıda onu "Qadın allahı" adlandırırdılar. Bu insanın həyatı ilə maraqlananlara 2005-ci ildə Bakıda dərc olunmuş cəbhəçi-yazıçı İvan Tretyakovun yazdığı "Qadın allahı" kitabını oxumağı tövsiyə edirik. Maraqlananlar kitabxanalarda İlyinin öz kitablarını da tapa bilərlər. Bu kitablar yalnız tibbə aid deyil. O, 1904-1905-ci il Rus-Yapon müharibəsi cəbhəsindən canlı detallarla dolu cəbhə oçerkləri yazmışdır. 1928-ci ildə isə Moskvada Teo Eli təxəllüsüylə yazdığı "Yeni həyat vadisi" adlı elmi-fantastik povest ayrıca kitab şəklində dərc olunmuşdur. Altmışıncı illərdə isə o vaxt "Literaturnıy Azerbaydjan" jurnalının baş redaktoru olan İvan Tretyakovun ön sözü ilə bu kitabı Bakıda da nəşr etmişlər. Lakin Fyodor Nikolayeviçin əsas işi doğuşa yardım, analara və uşaqlara kömək idi. 1920-ci ildə o, Azərbaycan Dövlət Universitetində tibb fakültəsinin Mamalıq və ginekologiya kafedrasına rəhbərlik etməyə başlamışdı. O vaxt bütün respublikada cəmisi iyirmi ginekoloq həkim vardı. Sonradan bu fakültənin bazasında formalaşan Nəriman Nərimanov adına Azərbaycan Tibb Universitetinin qırxa qədər buraxılışı oldu, minlərlə məzun həkim adı aldı və onların hamısında böyük rus alimi və humanisti Fyodor Nikolayeviç İlyinin ruhunun bir hissəsi yaşayır. Onu indiyə qədər Azərbaycanda xoş hisslərlə xatırlayırlar.

...1942-ci ilin sentyabrında Stalinin rəhbərlik etdiyi Dövlət Müdafiə Komitəsinin qərarı ilə Əziz Əliyev Dağıstana rəhbər təyin olundu. Stalinin imzaladığı sənəddə deyilirdi:

"Vilayət Partiya Komitəsinin rəhbəri N.İ. Linkun vəzifəsindən azad edilsin və Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsininin sərəncamına ezam edilsin.

Yoldaş Əziz Əliyev Azərbaycan Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi vəzifəsindən azad edilərək Dağıstan Vilayət Partiya Komitəsinin katibi təyin edilsin".

Əziz Əliyev, eyni zamanda, Mahaçqala müdafiə komitəsinin sədri, 47-ci ordunun hərbi şurasının və Bakı hava hücumundan müdafiə qüvvələrinin hərbi şurasının üzvü təyin olunur.

1942-ci il sentyabrın 23-də Dağıstan Vilayət Partiya Komitəsinin plenumunda Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin kadr idarəsinin rəisi Kiselyov Əziz Əliyevi Dağıstan kommunistlərinə təqdim etdi. Həmin həyəcanlı günlərdə alman faşistləri Stalinqrada və Qafqaza soxulmağa can atırdılar. Moskvanın nümayəndəsi Kiselyov tribunadan coşurdu: "Necə olur ki, Dağıstanda yüzlərlə dezertir, onlarla quldur dəstəsi peyda olub dinc sakinləri, kolxozçuları, partiyanın məsul nümayəndələrini, sovet işçilərini soyur. Bu yaxınlarda Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının Xasavyurd rayon partiya komitəsinin sədri yoldaş Lukin quldurlar tərəfindən qətlə yetirilib. Başqa rayonlarda da partiya, sovet işçilərinə qarşı terror aktları qeydə alınıb. Quldur dəstələri və dezertirlər kolxozlarımızı dağıdırlar".

Bəli, yeni birinci katibi böyük və ağır işlər gözləyirdi və o, bu işlərin öhdəsindən ləyaqətlə gəldi.

Əziz Əliyev üç ili müharibəyə təsadüf edən altı il ərzində Dağıstana rəhbərlik etmişdir. Bu gözəl diyarla vidalaşanda, onun böyük fəxrlə: "Bizim təşkilat yüksək nizam-intizam, yetkinlik, birlik nümayiş etdirərək Böyük Vətən müharibəsi illərində vilayətin bütün zəhmətkeşlərinin birliyinə nail olmuş, sovet hökuməti və Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitə tərəfindən dəfələrlə yüksək mükafatlarla təltif edilmişdir" – deməyə tam haqqı vardı.

150 min dağıstanlı könüllü olaraq Qızıl Ordu sıralarına yazılmışdı. Onlardan çoxu faşistlərlə ağır döyüşlərdə həlak

olmuşdu. Könüllülərin arasında məşhur avar şairi Rəsul Həmzətovun iki qardaşı, yəni şair Həmzət Sadasın oğlanları da vardı.

Rəsul Həmzətov xatırlayır ki, şeirlərini dinlədikdən sonra Əziz Məmmədkərim oğlu qəfildən ona Moskvada, Qorki adına Ədəbiyyat İnstitutunda oxumağı təklif etmişdi: "Sən mütləq təhsilini davam etdirməlisən". Rəsul Həmzətovun böyük istedadı məhz Moskvada cilalandı, daha da gur parladı.

Bəlkə də, Əziz müəllimin evində Həmzətov və onun yaşıdları haqqında eşitdiyi bu əhvalat illər ötəndən sonra respublika Kommunist Partiyası Mərkəzi Komitənin birinci katibi Heydər Əliyevi istedadlı uşaqları "əyalət"dən paytaxtın təhsil ocaqlarına göndərmək qənaətinə gətirmişdi; bəlkə də, özü bu fıkrə gəlmişdi. Hər halda, onların bu istəkləri üst-üstə düşürdü. Bu gün bəzi ölkələrdə sovet və Rusiya diplomlarını etibarsız sayırlar. Lakin bu keçib gedəcək... Ən başlıcası qalacaq, böyük və dərin mənada anladığımız məktəb: yeri gəlmişkən, ömür yolu Bakıdan başlayan akademik Landau məktəbi, akademik İoffe, akademik Alferov məktəbi kimi düşündüyümüz danılmaz örnəklər əbədidir. Sovet İttifaqında ən yaxşı təhsil ocaqlarının qapıları Donbass qəsəbəsindən gəlmiş şaxtaçı balasının da, Azərbaycanın ucqar kəndindən və ya Özbəkistanın ucqar qışlağından gələn gəncin də üzünə açıq idi, özü də minnətsiz-filansız, pulsuz-parasız...

Əziz Əliyevin həyatı övladları üçün ən ibrətamiz örnək olub. Onların dördü də – Ləzifə, Tamerlan, Cəmil və Zərifə – tibb elmləri doktoru kimi ali, elmi dərəcəyə yüksəliblər. Zərifə Əziz qızı İttifaqın ən nüfuzlu oftalmoloqu, Cəmil isə onkologiya üzrə Azərbaycan EA-nın üzvü seçiliblər.

Mübahisə etmirik. Bütün mübahisəli hallarda tutarlı dəlil emosional giley-güzar, ahu-zar yox, faktlardır. Beləliklə, Zərifə xanım atasının, ərinin nüfuzundan faydalanıb, ya yox?

Belə bir səhnəni təsəvvür edin. Polşanın daxili işlər nazirinin iki müavini ailələri ilə Bakıya istirahətə gəlirlər. Onları Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik

Komitəsi sədrinin müavini Filipp Denisoviç Bobkov müşayiət edir. Protokol üzrə yüksək rütbəli qonaqları respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Əliyev qəbul etməlidir. Lakin o, xarici ezamiyyətdədir. Qonaqlara şəhəri Zərifə xanım göstərir. Proqrama görə rayon partiya komitələrindən birinə baş çəkməliydilər. O, qonaqları təmtəraqlı görüşə ötürüb özü maşında qalır.

– Sizi burada gözləyəcəyəm. Mən nə partiya işçisi, nə də Mərkəzi Komitə əməkdaşıyam, – deyir.

Bu, insan etikasının ibrətamiz nümunəsidir. Zərifə xanım üçün hər hansı ünsiyyət zamanı ən əsas şərt həkim etikası idi. O bu barədə çox düşünər və əksər hallarda da müəllimlərinə, xüsusilə F.N.İlyinə istinad edərdi. Həkim etikasına həsr etdiyi kitabının bir fəsli də belə adlanır: "Fədakarlar günəş kimi lazımdır". Fatma Abdullazadə yazır: "Çexovun kəlamına müraciət etməsi onun bütövlükdə rus mədəniyyətinə münasibətini müəyyənləşdirir. O, bütün ömrü boyu Çexov və Raxmaninov yaradıcılığına bəslədiyi hədsiz sevgini saxlamışdı".

Heydərlə Zərifənin tanışlığı Əziz Əliyevin yuxarılar tərəfindən qəzəbə tuş gəldiyi illərə təsadüf edir. "İqtidarın xoşlamadığı, gözdən salınan, qəzəbə gəlmiş siyasi xadimin qızı və təhlükəsizlik sisteminin böyük ümidlər doğuran əməkdaşı – bu cavan insanların ömürlük qovuşmaları üçün nələrdən keçdikləri onların şəxsi sirri olaraq qalacaq", – deyə Fatma Abdullazadə qeyd edir.

Yaxşı ki, Heydər Əliyev həmin sirri özüylə aparmadı. Bu məhəbbət etirafı kino lentə alınaraq, xalqın yaddaşına köçdü.

– Mənim Zərifəyə qarşı hisslərim get-gedə artırdı. Onun tərəfindən də özümə qarşı məhəbbət gördüyüm üçün qərara gəldim ki, taleyimi onunla bağlayım.

Əlbəttə, iş yerində Heydər Əliyevin yuxarıların qəzəbinə tuş gəlmiş siyasətçinin qızıyla görüşdüyündən xəbərdar idilər. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi-

nin birinci katibi "hakimi-mütləq" M.C.Bağırovun təkidilə Əziz Əliyevi hökumətdən kənarlaşdırdılar. Ailə üzərində də qara buludlar gəzməyə başladı. Əziz müəllimin ömür-gün yoldaşı Leyli Hacı Cabbar qızı respublika Kompartiyasının XIII qurultayına nümayəndə seçilmişdi. Səhər Leyli xanım geyinib-kecinib qurultaya yollandı və gözlənilmədən evə qayıtdı.

Evdəkilər heyrətləndilər:

– Nə oldu? Qurultay nə tez başa çatdı?

– Yox, qurultay davam edir, amma Bağırov məni qovdu, – Leyli xanım candərdi gülümsəməyə çalışdı. – Dedi ki, mandatını təhvil verib çıx.

Bu əhvalat ətrafında söz-söhbət fantastik bəzəmələrlə bütün Bakıya yayıldı. Tanış-biliş, dostlar, hətta qohumlar da Əziz Əliyev ailəsindən yan gəzirdilər. Evdə telefon zəngləri get-gedə seyrəlirdi.

Heydər Əliyev xatırlayırdı:

– Bir neçə gündən sonra Zərifə xanımla görüşdüm. O dedi ki, biz daha görüşə bilmərik. Soruşdum: "Niyə?" Dedi: "Bilirsən ki, atamı işdən çıxarıblar. Sən isə orqanda işləyirsən, mənə görə zərər çəkə bilərsən. Düşünürəm ki, əlaqəmiz kəsilməlidir". Mən etiraz elədim: bizim münasibətlərimiz kimin harada işlədiyindən asılı ola bilməz. Bu münasibətlər nə sənin atandan, nə mənim işimdən asılı deyil...

Aramızda səmimi ülfət yaranmışdı. O, məni çox sevirdi, mən də onu. Ona görə dedim: sən narahat olma. Cavab verdi ki, özünə görə narahat deyil, onsuz da atası artıq işdən çıxarılıb. "Mən sənə görə nigaranam. Elə ola bilər ki, bu sənin işinə təsir göstərsin".

Heydər Əliyev bu vəziyyət haqqında Zərifədən daha çox xəbərdar idi. Onun atasını izləyirdilər. Telefonlarına gecə-gündüz qulaq asırdılar. Aydındır ki, Heydərin zəngləri, Zərifə ilə söhbətləri qeydə alınırdı. Odur ki, respublika təhlükəsizlik naziri Yemelyanovun hüzuruna çağırış Heydər üçün gözlənilməz olmadı.

– Biz bir qədər iş haqqında danışdıq. Sonra isə o məndən soruşdu: “Sən filan qızla görüşürsənmi?” – “Bəli”, – dedim. – “Bəs bilmirsənmi, onun atası Əziz Əliyev tutduğu vəzifədən azad edilib?” –“Bilirəm”. – “Yoldaş Bağırov onun haqqında çox pis fıkirdədir”. – “Mənim bu barədə məlumatım yoxdur”.

Rəis karyerasına mane ola bilər deyə, gənc zabitə Zərifə Əliyeva ilə ünsiyyəti kəsməyi məsləhət gördü. Ayrılarkən hədələdi də: “Yoxsa orqanlarda işləyə bilməyəcəksən”.

Dövlət təhlükəsizlik orqanlarından çıxarılmaq birdəfəlik “dəftərin bağlandı” demək idi. Əmək kitabçası və ya hərbi biletində belə qeyd olan adamı heç yerə qəbul etmirdilər. Heydər Əliyev nəinki vəzifəsini, hətta iş yerini də itirə bilərdi, – axı o həm də ailənin çörək gətirəniydi. Anası, kiçik bacı-qardaşları onun öhdəsində idi.

– Amma yenə də mən öz fıkrimdə qaldım və Zərifə ilə münasibətimi üzmədim. O zamanlar Bakı indiki kimi işıqlı şəhər deyildi, biz yad gözlərdən kənarda xudmani guşələr tapırdıq”, – bunu xatırlayarkən Heydər Əliyev xəfifcə gülümsünürdü, gənclik illərinə qayıtmağın onunçün necə xoş olduğu duyulurdu.

Daha çox Qubernator deyilən parkda görüşərdilər. XIX əsrdə salınmış bu köhnə parkda cavan cütlüklərin naməhrəm baxışlardan yayına biləcəkləri qaranlıq xiyabanlar çox idi.

– Bağın girəcəyində trolleybus dayanacağı vardı. Görüşlərimizi bu dayanacağa təyin edirdim. Mən cavandım, cəsur idim, heç nədən qorxmurdum, xidməti qaydalara görə tapança ilə gəzirdim. Zərifə cavan qız idi, həm də gözəl. Bilirsiniz, gözəl qızlar diqqəti cəlb edirlər, onlara ilişə də bilərlər... Mən trolleybus dayanacağına gəlib onu gözləyirdim. Sonra bağa yönəlirdik.

Lakin cavan çekistin fəndləri onu general Yemelyanovun məzəmmətindən sığortalaya bilmədi.

– Siz niyə bizim tələblərimizə əməl etmirsiniz? – deyə Əliyevin neçə illər sonra işləyəcəyi kabinetin yiyəsi soruşdu.

– Bilirsinizmi, – uzun sürən sükutdan sonra Əliyev dilləndi, – biri var iş, biri də var insan həyatı. Mən öz işimi sevirəm və siz məni bir işçi kimi qiymətləndirirsiz. Burada narahatçılığa əsas yoxdur. Amma həyatının ikinci, bəlkə də, mənimçün daha vacib tərəfi – mənim ailəm, mənim hisslərim, mənim məhəbbətimdir. Mən o qızı sevirəm. O da məni sevir. Mən ondan necə ayrıla bilərəm? Bu, heç cür ağlıma sığmır. Ona səbəbini söyləməliyəm, ya da deməliyəm ki, onu sevmirəm. Yaxud səndə hansısa məni açmayan nöqsanlar var, ona görə də səninlə ayrılmalıyam. Mən orqanlarda qalmaq üçün sevdiyim insanla ayrılmalı olduğumu deyə bilmərəm.

Əliyevə elə gəlirdi ki, Yemelyanov onu başa düşmüşdü. Lakin Heydər yaşında övladları olan iş yoldaşı Yemelyanov və dövlət təhlükəsizliyi naziri Yemelyanov arasında fərq vardı. Nazirin səsi sərtləşdi:

– Biz sənin işin haqqında məsələni həll etməli olacağıq. Çox güman ki, onu itirəcəksən...

Əlbəttə, elə də olacaqdı, Əziz Əliyev, ardınca da qohum-əqrəbası, övladlarının dostları uzaq soyuq diyarlara sürgün ediləcəkdi... Lakin 1953-cü il martın birinə keçən gecə dünyaya görünməyən qüvvələr tarixin növbəti səhifəsini çevirdilər.

Moskvada, bağ evində Sovet İttifaqını və dünyanın yarısını idarə edən bir insan huşunu itirdi. Mühafizəçilər cürət edib ona yaxınlaşanda artıq nəfəsi kəsilmək üzrə idi. Martın beşində bütün dünyaya elan olundu ki, İosif Vissarionoviç Stalin vəfat edib. Dörd aydan sonra Beriyanın, ardınca da onun respublikalardakı "əsabələrini" tutub mühakimə etdilər.

Azərbaycanda isə istintaqa M.C.Bağırov və dövlət təhlükəsizlik naziri Yemelyanov cəlb edildi. Daha Heydərlə Zərifənin gizli görüşmələrinə ehtiyac qalmadı.

– Görüşlərimiz leqallaşdı, – Heydər Əliyev kəşfiyyatçıların peşə dilindən bu sözü gülə-gülə işlətdi. – İkimiz də xoşbəxt idik. İndi bütün bunları bilərək, deyin görüm, məhəb-

bətimin köklərinin nə qədər dərin olduğunu sübut etməyə dəyərmi?

Bizim sevgimiz, məhəbbətimiz çətin sınaqlardan keçdi. Bizi ayırmaq istəyirdilər, amma biz dönmədik. O da dönmədi, mən də... Mənim səmimi məhəbbətin gücünə inamım təsdiqləndi. Və bundan sonra biz otuz il xoşbəxt yaşadıq. Bizim iki gözəl övladımız var – qızımız Sevil və oğlumuz İlham... Lakin çox təəssüflər olsun ki, Zərifə xanım həyatdan tez getdi...

Soyuq, yağmurlu Moskvaya, 1985-ci ilin o faciəvi aprel gününə biz hələ qayıdacağıq; hələlik Bakıda, Heydərlə Zərifənin bayram süfrəsinə qonaqlar yığışıb çay içir, o zaman ən bahalı sayılan "Mişka na severe" konfetlərindən dadırdılar.

Bir dəfə Zərifə Püstə Əzizbəyova ilə rastlaşanda rəfiqəsinin anasının hal-əhvalını soruşdu.

"Cavab verdim ki, şəkər xəstəliyi ucbatından anam sürətlə görmə qabiliyyətini itirir. Cavabım heç bir təhrikə əsas vermirdi. İki-üç gün sonra qapı zəngi çalınanda, açıb gözlərimə inanmadım. Astanada Zərifə durmuşdu: "İşə gedirdim... anamın gözləri barədə dediklərin yadıma düşdü. Bağışla, vaxtım çox azdı, amma hər halda İzzət xanımın gözlərini yoxlamaq istəyirəm". Qəribədir, anam Zərifəni uzun illərdi ki, görmürdü, amma səsindən, ya da intuisiyadan onu tanıdı: "Ay qızım, nə əcəb səndən?.." Zərifə xanım ağbirçək ana üçün əlindən nə gəlirdisə əsirgəmədi – öz ürəyinin istəyincə elədi".

1977-ci ildə Zərifə Əliyeva Moskvada Gelmqolts adına göz xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda "Azərbaycan kimya sənayesinin bəzi müəssisə işçilərinin görmə orqanlarının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etdi. Yeri gəlmişkən qeyd edək ki, Heydər və Zərifə xanım Əliyevlərin oğlu İlham da həmin il Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna qəbul olunmuşdu. Moskva 1-ci Tibb İnstitutunda isə onun gələcək xanımı Mehriban Paşayeva təhsil alırdı. Zərifə xanım oftalmologiya

barədə elə maraqla danışırdı ki, Mehriban da həmin peşəni seçməyə qərar verdi.

– Təəssüf ki, – deyə o xatırlayır, – mən Zərifə xanımla çox az ünsiyyətdə ola bildim. 1983-cü ildə biz tanış olduq, 1985-ci ildə isə o vəfat etdi. Bu istedadlı və cazibədar qadını mən indi də çox böyük ehtiramla xatırlayıram.

Zərifə xanım professional göz patologiyası problemi ilə dərindən məşğul olurdu. Sənayedə yeni istehsalat sahələri açılırdı, bəs bunlar işçilərin səhhətinə necə təsir edir?

Bu barədə Rusiya Tibb Elmləri Akademiyası akademiki, göz xəstəlikləri Elmi Tətqiqat İnstitunun direktoru Mixail Krasnov demişdir:

– Elmimizin Zərifə Əziz qızını ən çox cəlb edən bu sahəsində vəziyyət hətta bir qədər paradoksal şəkil alırdı. İnsanı əmək yaratmışdır, lakin onun şüurlu ömrünün üçdə bir hissəsini keçirdiyi istehsalatda xüsusi yaşam şəraiti də əmələ gəlmişdi. Sanki bütün bunlar aksiomadır, o cümlədən göz və görmə məsələsində də. Tam dəyərli əmək üçün görmə qabiliyyəti nəinki vacibdir, hətta müasir cəmiyyətdə buna tələbat ildən-ilə artır. Bununla əlaqədar indiyə kimi bu mövzuda ümumiləşdirilmiş elmi əsərlər yoxdur. Zərifə Əziz qızının sosial duyumuna malik olmaq gərəkmiş ki, olduqca zəhmətli, mürəkkəb, nəcib, lakin daima şükranlıq gətirməyən qayənin xidmətinə öz istedadını həsr edəsən. Zərifə Əziz qızının səyləriylə ilk dəfə professional görmə patologiyası üzrə elmi-tədqiqat laboratoriyası yaradılmışdır.

Mütəxəssislərin rəylərindən işin professional cəhəti haqqında bir neçə səhifəlik qısa xülasələr toplamaq olar. Onların başlıca məğzi yalnız tibbi aspekt deyil, həm də Zərifə xanımın araşdırmalarının sosial önəmliliyi və bir də onun insani məziyyətləridir.

"Xoşbəxtəm ki, uzun illər boyu Zərifə xanımla işgüzar, ailəvi və dostluq şəraitində görüşmək mənə nəsib olmuşdur, – bunu Gelmqolts adına Göz Xəstəlikləri İnstitutunun direktoru K.V.Trutneva yazırdı: – Rəhmətlik ərim professor

İvan İvanoviç Şerbatov Əliyevlər ailəsilə məndən əvvəl tanış idi. Və ilk dəfə ondan Zərifə Əziz qızı, Heydər Əliyeviç və onların o vaxt hələ balaca olan uşaqları İlya və Seva (İlham və Sevil – müəlliflər) haqqında xoş sözlər eşitmişdim".

Professor O.Dobromıslovanın yadında çox kiçik, lakin səciyyəvi detallar qalmışdır... Dobromıslova öz ərilə (o da professor idi) Bakı yaxınlığındakı sanatoriyalardan birində dincələrkən onları Əliyevlər ailəsinə qonaq dəvət edirlər.

"Vədələşdirilmiş vaxtda biz onların evlərinə qədəm qoyduq və mən ilk dəfə Zərifə Əziz qızını gördüm. Bəstəboy, çevik hərəkətli xanım dərhal rəğbət doğurdu. Sadə ipək don incə vücudunu kip tutmuşdu, kiçicik ayaqlarına "bosonoşka" geymişdi. İri, qara, şərqlilərə məxsus işıqlı gözlərində ürəyi isidən mehribanlıq vardı".

Dostluq görüşü uzun sürdü, Dobromıslovanın əri Raxmaninovdan çaldı, boya-başa çatmış uşaqlardan söhbət açdılar.

"Şam süfrəsindən sonra biz getməyə hazırlaşanda axşamdan xeyli keçmişdi. Bu zaman Zərifə Əziz qızının əri işdən qayıtdı. Otağa cəld addımlarla girdi; ucaboy, qədd-qamətli idi. Sifətindən yorğun olduğu duyulurdu. Biz mürəxxəs olmağa tələsdik. Bu an Zərifə xanım mehriban təbəssümlə gəlib onu qarşıladı. Boyca ondan xeyli uca olan ərinə yanaşıb ayaq barmaqları üstə qalxdı və nəvazişlə yanağından öpüb nəsə pıçıldadı. Yəqin, qonaqların kimliyini bildirdi. Ev yiyəsi nəzakətlə bizi salamlayıb bir qədər də qalmağımızı, onunla oturub Azərbaycan çayı içməyimizi xahiş etdi. Bu məqamda bütün ailə tam tərkibdə masa başına yığışdı və ailəyə məharətlə dirijorluq edən bəstəboy xanımın rolu xüsusən aydın duyuldu".

Bir-iki gündən sonra Zərifə xanım ailəsiylə Bolqarıstana yollandı. Ardınca Dobromıslovların da məzuniyyəti sona yetdi. Yaşlı adamlar o zaman təyyarəyə, qatara bilet almağın necə çətin olduğunu xatırlayırlar. Sanatoriyalarda, istirahət evlərində biletlər siyahıyla satılır, sərbəst dincələnlər isə ax-

şamdan kassalar qarşısında növbə tuturdular. Zərifə xanım Bolqarıstandan Bakıdakı tanışlarına zəng vurub tapşırır ki, moskvalı qonaqları üçün biletləri təxsis edib onları yola salsınlar...

Akademik N.Puçkovskaya da həyati bir detalı xatırlayır. Oftalmoloqların qurultayında iştirakçılardan birinin ayağı zədələnir. Təbii ki, onu ən yaxşı Bakı xəstəxanalarında yerləşdirir və ən nüfuzlu həkimləri məsləhət üçün dəvət edirlər. Amma bu azmış kimi, Zərifə xanım, öz doğma yurdundan çox-çox uzaqlarda yatağa düşmüş həmin insan üçün xəstəxanada maksimum rahatlıq yaratmaq məqsədi ilə öz evindən nə lazımdırsa gətirir.

Zərifə xanımı tanıyanların hamısı onu xoş sözlərlə yad edirlər. Aleksandr Sergeyeviç Dzasoxov söyləyir: “Mən onu Əliyevlər ailəsinin Bakıda – Zuğulbada qonağı olarkən görmüşdüm. Zərifə xanım nadir xeyirxahlılığı ilə fərqlənirdi. O, tibb elmləri doktoru elmi adına tam uyğun gəlirdi. Onlar xoşbəxt ailə sahibi idilər. Əfsus ki, Heydər Əliyev 1985-ci ilin aprelində Moskvada ömür yoldaşını itirdi. Onun bu faciədən necə sarsıldığının şahidi olmuşam. Əminliklə deyə bilərəm ki, Zərifə xanım Əliyevlər ailəsinin yetişməsində, gözəl övladların – şərqşünas-alim Sevilin, Rusiyaya dostluq münasibəti bəsləyən, bu gün Heydər Əliyevin işini davam etdirərək müstəqil Azərbaycana başçılıq edən İlhamın tərbiyəsində mühüm rol oynamışdır”.

Hətta daimi qonaqlar, ən yaxın qohumlar da hər hansı bir ailənin həyatını ancaq kənardan görürlər. Yalnız “son məhsul” olan uşaqlara əsasən ailənin əslində necə olduğu barədə fikir yürütmək olar. Əlbəttə, hərəsi öz sahəsində işə böyük vaxt sərf etdiklərinə görə Heydər də, Zərifə də uşaqların tərbiyəsinə istədikləri qədər vaxt ayıra bilmirdilər. Uşaqları ailədə hökm sürən qarşılıqlı məhəbbət, hörmət və azərbaycanlı ailələrə xas olan ailə başçısına böyük ehtiram ab-havası tərbiyə edirdi. Uzun illər sonra Sevil Əliyeva “Atanızın yanında özünüzü sərbəst apara bilirdinizmi?” sualına belə

cavab vermişdi: “Hətta biz, ailə üzvləri də hesab edirdik ki, onun yanında özümüzü çox da sərbəst apara bilmərik. Məncə bu, bizim ona bəslədiyimiz böyük hörmət və ehtiramdan irəli gəlirdi”.

Sevil xanım hesab edir ki, o, bütünlüklə atasına bənzəyir.

– Sizə kimsə kömək edir? – deyə 1995-ci ildə “Panorama” qəzetinin jurnalisti ondan soruşanda Sevil xanım ona qətiyyətlə belə cavab vermişdi:

– Uşaqlarla yalnız özüm məşğul oluram, çünki heç kim uşaq üçün anasını əvəz edə bilməz.

– Yəqin ki, bu xüsusiyyətinizi də rəhmətlik ananızdan götürmüsünüz. Deyirlər, o da çox gözəl evdar qadın olub.

– Mən evdar qadın ifadəsini heç sevmirəm. Bu ifadə nə mənə, nə də anama uyğun gəlir. Sadəcə, anam özünü bütünlüklə bizə və atama həsr etmişdi. Amma buna baxmayaraq, o, ciddi elmi və ictimai işlərlə də məşğul olmağa vaxt tapırdı.

– Bəs siz hansı xüsusiyyətlərinizə görə ananıza bənzəyirsiniz? – deyə reportyor tutduğunu buraxmır.

Və Heydər Əliyevin, Zərifə Əliyevanın qızına layiq cavab eşidir:

– Bir çox xüsusiyyətlərimə görə anama oxşayıram. İş ondadır ki, anamla atam da bir-birinə xasiyyətcə çox bənzəyirdilər.

Həyatda belə təsadüflər nadir hallarda olur, onunçün də mən hesab edirəm ki, eyni zamanda həm atama, həm də anama bənzəyirəm. Belə valideynlərin övladı olduğuma görə fəxr edirəm. Eyni sözləri İlham Əliyev barədə də söyləmək olar. Onun ən çox yaddaqalan uşaqlıq xatirəsi anasının isti əlindən tutub məktəbə getməyi olub. İlhamın hələ altı yaşı tamam olmamışdı, məktəbə getməyi çox istəyirdi, amma qorxurdu ki, birdən onu götürməzlər.

Hər gün Bakının gözəl bir guşəsində, köhnə həyətlərin ortasında yerləşən altı nömrəli məktəbə getdiklərini anası həmişə xatırlayırdı. Və nənə olandan sonra söz vermişdi ki, nəvəsi Leylanı da eyni məktəbə məhz bu cür aparacaq...

– Anam vəfat edəndə, – deyə İlham Heydər oğlu xatırlayır, – mənim böyük qızımın hələ heç bir yaşı da tamam olmamışdı.

Qızlarımın öz nənələrini görməmələrini böyük itki hesab edirəm. Anamın vəfatından sonra mənim, eyni zamanda bizim ailənin həyatı çox dəyişdi. Mən əvvəlki vaxtlardakı kimi daha səmimi-qəlbdən gülə bilmirəm. İllər keçsə də, həyatımda hansısa sevindirici hadisə baş verirsə, mən təəssüflənirəm ki, anam bunu görmədi, o indi sağ olsaydı, çox sevinərdi.

... Öz qayınanası İzzət xanıma o, doğma anası kimi baxırdı. 1956-cı ilin yazında Heydər Əliyevin anası ağır diaqnozla xəstəxanada yatanda ona ürəkdən acıyırdı. Qonşu palatada Səməd Vurğun yatırdı. İzzət xanımın yanında çox vaxt Rəfiqə qalırdı. Heydər, Zərifə və onun qardaşı Tamerlan anaya, demək olar ki, hər gün baş çəkirdilər.

Bir dəfə gəlib görürlər ki, İzzət xanımın yatdığı otağın, adətən yarıaçıq qalan qapısı möhkəm örtülüb. Məlum olur ki, ötən gecə Səməd Vurğun vəfat etmiş və həkimlər İzzət xanımın bu ağır itkidən xəbər tutmasını istəməmişlər.

O zamanlar Şəfiqə Lənkəranda dərs deyirdi. Ona xəbər verirlər: "Anan səni görmək istəyir". Şəfiqə üçyaşlı qızcığazını götürüb avtobus dayanacağına tələsir... Uşağı özüylə xəstəxanaya aparmayıb dostlarının evində qoyur. Palatada artıq Heydər, Cəlal, Aqil və Rəfiqə ananın başına yığışmışdılar.

İzzət xanım Şəfiqəyə üz tutur:

– Bəs balan hanı, ay Şəfiqə?

Cavabı eşidib təşvişə düşür:

– Qayıt dalınca!-Tez ol! Onlar zökəmlidir, uşaq yoluxa bilər... Get, ay Şəfiqə, balandan muğayat ol!

Onlar daha görüşmədilər...

"Son bir ayı hər gecə yuxuma girirdi, – deyə Şəfiqə o günləri belə xatırlayır, – gümrah, sağ-salamat... Anam mənim gözyaşlarımı silirdi..."

## IV fəsil

# “BU PEŞƏNİ GƏNCLİYİMDƏN SEÇMİŞƏM”

*1980-ci il, 21 dekabr, Bakı*

Həmin gün yolun o tayında yerləşən, bir qədər tutqun görünən pedaqoji institunun tələbələrinin kinoya baxmağa, rəqs etməyə qaçıb gəlməyi xoşladıqları Dzerjinski adına klubda (indiki Şəhriyar adına sarayda) rəqs-filan yox idi. Bakıda hamıya yaxşı tanış olan bu sütunlu, monumental binada respublikanın Fövqəladə Komissiyası – Dövlət Təhlükəsizlik Komitəsi orqanlarının 60 illiyi qeyd olunurdu. Qara “Volqa”lar ara vermədən binaya “yan alır”, rəislər düşüb içəri keçirdilər. Məsələdən agah olanlar Moskvadan yoldaş Andropovdan təbrik məktubu gəldiyini, məruzə ilə Heydər Əliyevin özünün çıxış edəcəyini deyirdilər.

Belə də oldu. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Sovet Sosialist Respublikalar İttifaqı Dövlət Təhlükəsizlik Komitəsinin sədri, ordu generalı Y.V.Andropovun təbriki oxundu.

Yuri Vladimiroviç “düşmən xüsusi xidmətlərinin və başqa düşmən ünsürlərin dağıdıcı fəaliyyəti müqabilində siyasi sayıqlığı səylə artırmağı” tövsiyə edirdi. Sonra Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi bürosu üzvlüyünə namizəd, Azərbaycan Kommunist Partiyası

Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev kürsüyə qalxdı.

Hardasa antik dövrün memarlığını xatırladan bu möhtəşəm sütunlu binada Heydər Əliyev çox olmuşdu. Dzerjinskinin profili cizgilənmiş qalın kağız dəvətnaməni ilk dəfə alarkən necə qürur hissi keçirdiyini də hər dəfə bu binaya gələndə xatırlayırdı. Gör neçə illər ötüb, hətta təşkilatın adında da nə qədər dəyişikliklər baş verib: Fövqəladə Komissiya – Xüsusi Baş Siyasi İdarə – Xalq Daxili İşlər Komissarlığı – Dövlət Təhlükəsizlik Nazirliyi – Dövlət Təhlükəsizlik Komitəsi...

Kürsüyə qalxıb adətincə min iki yüz nəfərlik nəhəng salona bir an nəzər saldı.

– Əziz yoldaşlar! Bu ilin aprel ayında respublikamızın zəhmətkeşləri ölkənin bütün qardaş xalqları ilə birlikdə Azərbaycan Sovet Sosialist Respublikaları İttifaqının və Azərbaycan Kommunist Partiyasının yaranmasının 60 illiyini qeyd etdilər. Bu yaxınlarda, dekabrın 20-də Ümumittifaq Fövqəladə Komissiyası – Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Komitəsi orqanlarının 63-cü ildönümü tamam oldu. Bu gün isə Azərbaycanda sovet hakimiyyətinin qələbəsinin ertəsi günü yaradılmış respublikamızın Fövqəladə Kommissiya – Dövlət Təhlükəsizlik Komitəsi orqanlarının 60 illiyinə həsr olunmuş təntənəli iclasa yığışmışıq...

O, köhnə adətincə öz çıxışlarını az qala son dəqiqəyədək özü işləyib “rəndələyirdi”. Bu dəfə də, köməkçilərinin hazırladıqları kiçik vərəqləri dönə-dönə nəzərdən keçirərək əlavələr edir, cümlələri dəqiqləşdirir, mütləq sərrast sözləri arayıb seçirdi.

1980-ci il və eyni zamanda onuncu beşillik başa çatırdı. Ölkənin tarixində bu, heç də ən yaxşı beşillik deyildi. Ölkə iqtisadiyyatı bərbad halda idi. Yalnız iqtisadiyyatımı?! İki gündən sonra, dekabrın 23-də Moskva ictimaiyyəti Aleksey Nikolayeviç Kosıgini, 16 il ölkənin Nazirlər Sovetinə başçılıq etmiş bir insanı, böyük ümidlər vəd edən islahatların müəl-

lifini son mənzilə yola salırdı. Həmin ilin payızında Aleksey Nikolayeviçi istefaya göndərmişdilər; iki aydan sonra infarkt onun ömrünə nöqtə qoymuşdu.

Yığıncaq, plenum və qurultaylar gedən salonların divarları arxasında növbələr uzanıb gedir, lətifələr danışılır, gündəlik qayğılarla, məişət söhbətləri ilə dolu başqa bir həyat yaşanırdı... Elə söhbətlərdə “dəmir Feliks” “seyf” mənasında işlədilirdi, amma bəhs etdiyimiz məclisdə bu cür zarafata yol verəni dərhal bayıra atardılar.

– Bu salonda bu gün mən Azərbaycan çekistlərinin demək olar ki, bütün nəsillərinin nümayəndələrini, – Əliyev qarşısındakı yazılı vərəqlərə baxmırdı, – odlu-alovlu iyirminci illərdə dövlət təhlükəsizlik orqanlarında fəaliyyətə başlamış, otuzuncu illərdə orada fəal çalışmış, Böyük Vətən müharibəsində iştirak etmiş, arxa cəhbədə təhlükəsizliyin təminatçısı olmuş insanları görürəm. Burada orqanlara müharibədən sonrakı illərdə gələnlər də, cavan çekist nəsli də var. Və bu gün sizin hamınıza öz şəxsi təbriklərimi və ən xoş arzularımı çatdırmaq istəyirəm.

Salonda vaxtilə Heydər Əliyevlə təhlükəsizlik orqanlarında Xalq Daxili İşlər Komissarlığı, Dövlət Təhlükəsizlik Nazirliyi və Dövlət Təhlükəsizlik Komitəsində çalışmış sabiq iş yoldaşları da az deyildi. Zarafat deyil, əsrin dörddə birini xidmətə həsr etmişdi: bunun da beş ili respublika Dövlət Təhlükəsizlik Komitəsinin rəhbər vəzifələrində keçmişdi – sədrin birinci müavini və sədr olmuşdu. Bu insanlar ilk Azərbaycan çekistlərindən estafeti qəbul edərək sonrakı nəsillərə çatdırmışdılar.

Tarixə çox həssascasına yanaşan Heydər Əliyev respublika Fövqəladə Kommissiya – Dövlət Təhlükəsizlik Komitəsi orqanlarının 60 illiyinə həsr edilmiş sənəd və materiallar toplusu nəşr etmək təklifini irəli sürdü. Kitaba “Azərbaycan Fövqəladə Komissiyanın fəaliyyəti haqqında qısa məlumat hesabatı (1921 may – 1922 may)” adlı unikal tarixi sənəd də daxil edildi. Həmin sənədi 1922-ci il aprelin 28-də İkinci

Ümumazərbaycan Sovetlər qurultayının nümayəndələrinə paylayırdılar.

Onun bir neçə səhifəsinə ötəri də olsa nəzər salaq:

"Sovet hakimiyyətinin bərqərar olduğu ilk ayda inqilab düşmənləri Azərbaycan Sovet Sosialist Respublikasının bir sıra qəzalarında avam kütləni hökumətə qarşı çıxışlara təhrik etmişdilər. Gəncə, Qarabağ, Zaqatala, Nuxa və Azərbaycanın başqa əyalət rayonlarındakı qiyamlar, xalq kütlələrinin avamlığından, mütiliyindən öz çirkin istismarçı məqsədləri üçün sui-istifadə etmiş ən alçaq bəy-xan irticasının çıxışlarından başqa bir şey deyil".

Sonrakı məlumatlardan aydın olur ki, yeni hakimiyyət məğlub edilmiş düşmənlərini boş-boşuna buraxmışdır; eynilə Oktyabr rəhbərləri inqilabdan sonra çar generallarının zəhmətkeş xalqa qarşı vuruşmayacaqları vədinə inanaraq onları buraxdıqları kimi. Cənablar öz sözlərinə xilaf çıxdılar. Generallar Don çayına sarı yollanıb Ağ qvardiyanı formalaşdırmağa başladılar. Azərbaycanda da belə oldu.

Respublikaya yalnız quldurlar təhlükə yaratmırdılar. Bakıda məskunlaşan sabiq türk zabiti Xəlil Şakirzadə "İttihadi-İslam" partiyasını təşkil etmişdi. Kitabda panislamist partiya kimi səciyyələndirilən təşkilat, yerlərdə özəklər yaradaraq qiyam hazırlayırdı. İlk əvvəl "Sovet Azərbaycanının görkəmli türk rəhbərlərini öldürmək və hər yerdə vəlvələ salmaqla bütün respublika boyu üsyan qaldırmaq" nəzərdə tutulurdu. "Artıq üsyan planı vardı və qətlə yetiriləcək bir sıra yoldaşların siyahısı tutulmuşdu". Lakin sui-qəsdin üstünü açmaq mümkün oldu. 1921-ci il iyulun 2-nə keçən gecə çekistlər sui-qəsd başçılarını həbs etdilər.

"Əliyev" Azərbaycanda geniş yayılmış soyaddır. Hələ ilk çekistlərin sırasında Babaəli Yoldaş oğlu Əliyev adlı bolşevik fəhlə varmış. İlk döyüş sınağından 1907-ci ildə Bakı tətili zamanı keçmişdir. O vaxt çar polisi muzdlu qoçuları fəhlələrin üstünə basqın etməyə vadar edir. Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının şəhər komitəsi müsəlman yoldaşlarını

fəhlələrin imdadına göndərir. Onların arasında Baba Əliyev də var idi. İnqilabdan sonra o, çekist olur.

Xalq işinə inam bəsləyən bir çox insanlar – azərbaycanlılar, ruslar, gürcülər, ukraynalılar və digər başqa millətlərin nümayəndələri təhlükəsizlik orqanlarına qatılırdılar. Bakıda az qala bütün millətlərin nümayandələri yaşayırdı. Neçə il ötdükdən sonra da Azərbaycanda, məsələn, respublika Fövqəladə Komissarlığının sədr müavini və əməliyyat şöbəsinin rəisi Qaberkornu yad edirdilər.

S.M.Kirov artıq Leninqradda (Vilayət Partiya Komitəsinin I katibi, Mərkəzi Komitə siyasi bürosunun üzvü kimi) işləyərkən milliyyətcə alman olan həmin yoldaşı rəsmi yazılarının birində belə səciyyələndirirdi: "Bu kağızı təqdim edən yoldaş Qaberkorn köhnə partiya üzvü, yaxşı işçidir, Qafqazda – Bakıda, Tiflisdə prokurorluq və s. sahələrdə çalışmışdır. Təkrar edirəm – yaxşı işçidir".

Moskvanın "Dom na Naberejnoy"u kimi Bakının da adına "Dəniz qırağı" deyilən öz məşhur binası var. Moskvadakı bu cansıxıcı bina yaşayış evidir və Yuri Trifonovun eyniadlı povestində haqqında söhbət açılır. Vaxtilə Kremlə baxan bu evdə yaşayanların əksəriyyəti 30-cu, 40-cı illərdə repressiyanın qurbanı olmuşlar. Bakıda, Dəniz kənarında Dövlət Təhlükəsizlik Komitəsinin yerləşdiyi həmin binada Heydər Əliyev az qala 25 ilə qədər işləyib. Lakin o, həmin binaya gəlməmişdən əvvəl ora haqqında xoşagəlməz söz-söhbətlər gəzirdi. Hər bir ölkəyə zəruri olan dövlət təhlükəsizlik sistemi fərqli düşüncə sahiblərini amansızcasına təqib edir, tez-tez repressiyalara məruz qoyurdu. Çoxsaylı mətbu nəşrlərdə, açılmış məxfi sənədlərdə, xatirələrdə bu barədə bəhs edilmişdir. Əlbəttə, Azərbaycan da istisna deyildi.

1956-cı ildə Bakıda açıq məhkəmə prosesi keçirilirdi. Azərbaycanda 1937-1938-ci illərdə aparılan repressiyaların günahkarları mühakimə edilirdi. Proses açıq sayılsa da, Heydər Əliyevin xatırladığına görə, Dzerjinski adına kluba "yalnız xüsusi buraxılışlarla" daxil olmaq mümkün idi.

Əks-kəşfiyyat şöbəsinin rəisi (1953-cü ilin axırlarında təyin edilmişdi) kimi onun da buraxılış vəsiqəsi vardı. Məhkəmədə tükürpədən, dəhşətli etiraflar səslənir, bir zaman arxivlərdə gizlədilən sənədlər oxunurdu. Sonra onları yenə ört-basdır elədilər; yəni nə qədər eyni şeyləri çeynəmək, qurdalamaq olar. İnsanlar isə həqiqəti bilmək, haqsız suçlandırılanların, məhv edilən doğmalarının, əzizlərinin adlarını təmizə çıxarmağa can atırdılar.

**15 iyul 1997-ci il, Bakı**

– O zaman, bir cavan mütəxəssis kimi arxiv materialları ilə, o cümlədən 1937-1938-ci illərin və sonrakı dövrün sənədləri ilə tanış olaraq öz-özümə sual verirdim: Sovet hakimiyyətini yıxmağa cəhd göstərən bu antisovet, millətçi qruplar kimlər idi? Onların bir qismi həbs olunmuş, ya güllələnmiş, uzaq Sibirdə həlak olmuşdur. Amma bir başqa hissəsi həbs edilməmişdi. Lakin arxiv materiallarında onların adları antisovet millətçi qrup və təşkilatların üzvlərinin siyahısında idi. Onda mən fikirləşdim: əgər onlar antisovet əks-inqilabi təşkilatların üzvləriydisə, bəs niyə azadlıqdadırlar? Əgər belə deyilsə, onda bəs niyə adları bura düşüb? O qədər uydurulmuş, ədalətsiz işlər vardı ki, baş açmaq çətindi.

Gündəlik qeydlərinə bənzəyən bu sözlər, böyük haqsızlıqla qarşılaşıb ziddiyyətlər düyününü açmağa, səbəb-nəticəni araşdırmağa cəhd edən bir insanın acı etiraflarını xatırladır. Əslində də belə idi... Prezident olaraq Heydər Əliyev təklikdə yox, dinləyiciləri ilə – Azərbaycanın milli təhlükəsizlik orqanları əməkdaşlarıyla birgə həqiqəti üzə çıxarmağa çalışırdı. 1997-ci ildə xüsusi fərmanıyla 28 martı Azərbaycan Respublikası Milli Təhlükəsizlik Orqanları işçilərinin peşə bayramı günü elan etdi.

Azərbaycan Demokratik Respublikasının təhlükəsizlik qurumu 1919-cu ilin məhz 28 martında yaradılmışdı. Və indi peşə bayramı günündə o, həmkarlarına, milli təhlükə-

sizlik orqanları işçilərinə, onun üçün "gənclik illərindən çox əziz və maraqlı olan peşə" sahiblərinə üz tuturdu. Fikirlərini səsləndirir, ürəyini açaraq onları birgə düşünməyə və fəaliyyət göstərməyə çağırırdı.

– Keçmiş Xalq Daxili İşlər Komissarlığının ən böyük səhvlərindən biri o idi ki, orada işləyənlərin əksəriyyəti çox dar düşüncəli adamlardı. İntizamdan başqa onları əslində heç nə maraqlandırmırdı. Əksəriyyəti mədəniyyətdən, ədəbiyyatdan uzaq idi. Ədəbiyyata, mədəniyyətə, musiqiyə, tarixə yaxşı bələd olmayan insanlar peşəkar təhlükəsizlik işçiləri də ola bilməzlər. Bilirsinizmi, təhlükəsizlik işçisi sadəcə xəfiyyə deyil. O, yüksək mədəniyyətə malik olmalı, şairlə də, bəstəkarla da, yazıçıyla da, alimlə də, sadə vətəndaşla da ünsiyyətdə olmağı bacarmalıdır. Əks təqdirdə o ağı qaradan, yaxşını yamandan, adi səhvi cinayətdən ayıra bilməz.

... 1950-ci ildə cavan çekist Heydər Əliyev görkəmli Azərbaycan ədibi və alimi Salman Mümtazın işi üzrə materialları axtarmağa cəhd edir. Xalq Daxili İşlər Komissarlığının qocaman işçilərindən biri ona deyir ki, Salman Mümtazın, Hüseyn Cavidin evlərindən götürülən kitabların dustaqxana yerləşən içəri həyətdə gözətçilər tərəfindən yandırıldığını öz gözləri ilə görüb. O, bu vəhşiliyin qarşısını almaqda aciz olub...

Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin arxivində indi də "Azərbaycan Sovet Sosialist Respublikası Cinayət Məcəlləsinin 68, 72, 73 – cü maddələri üzrə təqsirli bilinən Hüseyn Cavidin 29438 nömrəli işi" saxlanılmaqdadır. Dindirilmələrin, üzləşdirmələrin stenoqramları və protokollarıyla, müxtəlif məktublarla dolu olan bu qovluq bir zamanlar respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri Heydər Əliyevin masasının üstündə də olub. Biz səhifə-səhifə məktubları, protokolları vərəqləyirik və böyük Azərbaycan şairinin faciəvi taleyinin Heydər Əliyevin gözü önündə necə canlandığını təsəvvür etməyə çalışırıq.

*27 may 1937-ci il.*

Hüseyn Cavid. 1892-ci ildə doğulub, azərbaycanlıdır, bitərəfdir, Azərbaycan Sovet Sosialist Respublikası vətəndaşıdır, 1918-ci ildə "Müsavat" partiyasının üzvü olub. Türkiyədə ali təhsil alıb. Müsavat hakimiyyəti dövründə müsavatçı "Yaşıl qələmlər" ədəbi birliyinin üzvü olub. Şairdir, Teatr Texnikumunda dərs deyir.

Azərbaycan Sovet Sosialist Respublikası Xalq Daxili İşlər Komissarlığının Dövlət Təhlükəsizlik İdarəsinin 4-cü şöbəsindəki məlumatlara görə, Hüseyn Cavid bir sıra müsavatçılarla əks-inqilabi əlaqədə olub, onlarla əks-inqilabi söhbətlər aparıb".

Bunun ardınca müstəntiq əvvəllər həbs olunmuş və dindirilmiş adamların, şahidlərin ifadələrinə istinad edir. "Pantürkist təşkilatın üzvlərindən mənim tanıdığım adamlar bunlardır: ... 9. yazıçı Hüseyn Cavid..." hər bir ifadənin altında kiminsə soyadı var. Lakin biz bu məhbuslardan ifadələrin hansı vəhşi üsullarla alındığını təsəvvür etdiyimizə görə bu adların üstündən keçirik.

"Bu yazılanlar əsasında, – deyə müstəntiq nəticə çıxarır, – Hüseyn Cavidin həbs olunmasını və cinayət məsuliyyətinə cəlb olunmasını məqsədəuyğun hesab edirəm".

Cavid adının qarşısına qoyulmuş qara işarədən hələ bixəbər idi. Şeir yazırdı. Uşaqlarını – oğlunu və qızını dəniz kənarına gəzməyə aparırdı. Yazıçılar İttifaqına daha nadir hallarda baş çəkirdi – oradan hər gün kimsə yoxa çıxırdı.

1937-ci il iyunun 31-də onu da apardılar.

Məhbus anketində peşəsiylə bağlı qrafada yazılır: şair.

Bu ilahi vergini, taleyin verdiyi missiyanı ondan heç kim ala bilməzdi. Hətta "Azərbaycan Yazıçılar İttifaqı üzvlərinin və namizədlərinin ümumi iclası" da.... Həmkarlar yekdilliklə "Azərbaycan Yazıçılar İttifaqına bir sıra müsavatçı, pantürkist, millətçi, əks-inqilabi elementlərin soxulmasına" etiraz bəyanatına imza atdılar. "İnsan qəlbinin mühəndisləri" Hüseyn Caviddən savayı daha iyirmiyə qədər həmkarlarından imtina etdilər. Gənc şair Səməd Vurğuna isə "millətçi və

ictimai cəhətdən yad olan ünsürlərlə tamamilə əlaqəni kəsmək və özündən müştəbehliyi tamam yığışdırmaq" tövsiyə olunurdu.

Müstəntiqlər tez-tez dəyişdirilib; az qala hər protokol tamam ayrı xətlə doldurulub. Görünür, vəziyyətin ağası olan əməliyyat işçilərinin özləri də tez-tez "xalq düşməni" kateqoriyasına daxil edilib cəzalandırılırdılar.

5 iyun 1937-ci il. Dindirmənin protokolundan.

"SuaI: İstintaq müəyyən edib ki, siz məxfi əks-inqilabi, millətçi təşkilatın üzvü olmusunuz. Bunu etiraf edirsinizmi?

Cavab: Qətiyyətlə rədd edirəm".

1914-cü ildə artıq məşhur şair olan Hüseyn Cavid Tiflisdə olarkən onu bir məsələylə bağlı jandarm idarəsinə çağırmışdılar. İyirmi beş il sonra Xalq Daxili İşlər Komissarlığının müstəntiqləri bu epizodu da tarixin yaddaşından tapıb çıxartmışdılar.

"Sual: Təkrar edirəm, Tiflis jandarm idarəsində çar mühafızə idarəsinin rəisi sizə hansı kəşfıyyat tapşırıqları vermişdi?

Cavab: Casusluq işi üzrə Tiflis jandarm idarəsinin rəisi mənə heç bir tapşırıq verməyib.

Sual: – Siz bütün istintaq boyu əks-inqilabi millətçi təşkilata üzv olduğunuzu rədd etmisiniz. Bəs bundan sonra həqiqəti deyib, istintaqa kömək edəcəksinizmi?

Cavab: Təkrar edirəm ki, mən, Hüseyn Cavid heç bir əks-inqilabi təşkilata üzv olmamışam".

Müstəntiq üzləşdirmələr zamanı yazılmış ifadələrə istinadən təkid edir: "Düzünü deyin". Cavid ləyaqətlə özünü müdafiə edir: "Mən heç bir əks-inqilabi təşkilatın üzvü olmamışam. Mənim 1926-cı ilə qədər yazdığım əsərlərdə bəzi səhvlər olub, bunu etiraf edirəm: 1. Öz əsərlərimdə mən sovet reallığından uzaq olmuşam, sovet tematikasından istifadə etməmişəm. 2. Öz əsərlərimi xalq kütlələrinin anlamadığı bir dildə yazmışam. 3. Mən sovet partiya işçilərinin sovet reallığından yazmaq barədə təkliflərini rədd etmişəm və bu

səhvləri etiraf edirəm. Amma son illər bu səhvlərimi ardıcıl olaraq düzəltmişəm”.

Protokolun kənarlarında istintaq nəticəsində əyilməyən, qürurunu saxlayan Cavidin cavablarının altından qırmızı qələmlə xətt çəkilib. Çətin ki, müstəntiqlər, yaxud elə prokurorun özü belə bir səhlənkarlığa yol verəydi. Əlbəttə ki, bu qeydlər artıq bu sənədin, “24938 nömrəli işin” tarixi əhəmiyyət kəsb etdiyi vaxtlarda aparılıb. 1952-ci ilə qədər bu sənədə bəzi sorğulara cavab olaraq hələ müraciət edilirdi. 21-23 iyun 1952-ci ildə Naxçıvan Muxtar Vilayəti Dövlət Təhlükəsizlik Komitəsinin Ordubad rayon şöbəsinin rəisi A. Q. Əfəndiyev də nəzərdən keçirənlərdən biri idi. Arxiv sənədi ilə tanış olan əməliyyat işçilərinin nəzarət vərəqində yazılıb: “İş, bizim agentin bu iş üzrə keçdiyini dəqiqləşdirmək üçün arxivdən götürülüb. Qeyd: Bizim agent bu iş üzrə keçmir. Arayış tərtib olunub”.

Hüseyn Cavid heç kimi ittiham etməmişdi. Heç kəsi satmamışdı. Bütün ittihamları da rədd etmişdi; həm siyasi, həm də “onun lirikasındakı tamam bədbin pessimizm, düşkün eqoizm” kimi ədəbi ittihamları.

9 may 1938-ci il. Azərbaycan Sovet Sosialist Respublikası prokurorunun müavini və xüsusi işlər üzrə müvəkkil Pinkisin qərarından:

“İstintaq müəyyən etmişdir ki, əks-inqilabi müsavatçı mövqedə dayanan Hüseyn Cavid Bakıdakı gizli əks-inqilabi millətçi təşkilatın üzvü olmuş və bu təşkilatın fəalları ilə sıx əlaqə saxlamışdır. ... ədəbiyyat və dramaturgiya sahəsində sovet tematikasını inkar etməklə praktiki əks-inqilabi fəaliyyət göstərmişdir...

Göstərilən ittiham üzrə Hüseyn Cavid özünü müqəssir bilməsə də, şahidlərin ifadələri vasitəsilə “ifşa” edilmişdir. Buna görə də Hüseyn Cavidə qarşı Azərbaycan Sovet Sosialist Respublikası Cinayət Məcəlləsinin 72-73-cü maddələri əsasında irəli sürülmüş ittihamı sübut olunmuş hesab edirəm və Sovet Sosialist Respublikaları İttifaqı Xalq Depu-

tatları İcrayə Komitəsinin xüsusi komissiyasına baxılmaq üçün göndərilməsinə razılıq verirəm”.

Belə görünür ki, iş artıq görülüb. İrəlidə yalnız “üçlük” və hökm qalıb. Lakin görünür, müttəhimin inadkarlığı hansısa müstəntiqi narahat edib və iş baxılmaq üçün yenidən istintaqa göndərilib.

*8 mart 1939-cu il.*

“Dövlət Təhlükəsizlik İdarəsinin 2-ci şöbəsinin rəisinin köməkçisi, Dövlət Təhlükəsizliyi leytenantı S.Məmmədov: “Müttəhim Hüseyn Cavid əks-inqilabi təşkilatın üzvü olmaqla və gənc sovet yazıçıları arasında əks-inqilabi millətçi təbliğat aparmaqla bərabər, ifşa olunmuş əks-inqilabi millətçi təşkilatın rəhbərlərinin bildirdiyinə görə, xarici burjua dövlətlərindən birinin xeyrinə casusluq fəaliyyətiylə də məşğul olmuşdur. Buna görə də müttəhimə əlavə ittihamlar irəli sürülmüş və həbs qətimkan tədbiri qüvvədə saxlanılmışdır”.

Martın 11-də Hüseyn Cavidin xanımı Müşkünaza ərinin həbsi zamanı alınmış pulları qaytarılır: sovet istehsalı olan altı ədəd gümüş manatlıq sikkə və on səkkiz ədəd əlli qəpiklik sikkə. Cəmi on beş manat.

Növbəti dindirmədə müstəntiq bu barədə Cavidə məlumat verir. Amma bundan əvvəl ona istintaqın başa çatmasıyla bağlı protokol təqdim olunur.

“Müttəhim qeyd etdi ki, yüz iki səhifəlik cinayət işi mənə təqdim edilib və mən bu materiallarla tanış olmuşam. İstintaqa heç bir şey əlavə etmək istəmədi. Casusluq fəaliyyətiylə məşğul olduğunu da boynuna almadı”.

Bu ifadə – “casusluq fəaliyyətiylə məşğul olduğunu boynuna almadı” demək olar ki, hər səhifədə təkrar olunur.

Hüseyn Cavidin həyat amalını təsdiq edən bu ifadə 1939-cu il iyunun 2-də keçirilən məhkəmədə də onun tərəfindən təkrar olundu. Məhkəmənin hökmü: “1937-ci il iyunun 4-dən hesablanaraq səkkiz il müddətinə islah- əmək müəssisələrində cəza çəkməlidir”.

Qərar barədə xəbər tutan Müşkünaz xanım Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə və Sovet Sosialist Respublikaları İttifaqının Ali Məhkəməsinə məktub yazdı: ona cavab verdilər ki, "Hüseyn Cavid haqlı cıxaraq ittiham olunur və şikayətlər qəbul olunmur". O, öz ərinin taleyindən xəbərsiz dünyadan köçdü. Stalinin ölümündən bir il sonra, siyasi məhbuslar həbs düşərgələrindən buraxılan zaman şairin qızı Turan Cavid Dövlət Təhlükəsizlik Komitəsinə məktub yazıb atasının taleyi ilə maraqlandı. "24938 nömrəli işin nəzarət vərəqində belə bir qeyd də var: Turan Cavidin öz atasının taleyi ilə maraqlanması əsasında..."

Bəlkə də kapitan Heydər Əliyev bu işi məhz həmin vaxt açmışdı. Böyük şairin bəraət almasına bir ildən bir az çox vaxt qalırdı. 1956-cı il fevralın 23-də onun barəsində çıxarılan hökm ləğv edilmiş və Cavid də minlərlə günahsız cəzalandırılan məhbus kimi ölümündən sonra bəraət almışdı. Həmin günlərdə Heydər Əliyev ilk dəfə Hüseyn Cavidin cənazəsinin vətənə qaytarılması barədə düşünmüşdü.

Heydər Əliyev Cavidin bir çox şeirlərini əzbərdən bilirdi. Ömər Xəyyamdan Azərbaycan dilinə etdiyi tərcümələri də çox qiymətləndirirdi. Eyniadlı dramda Cavid filosof və şair olan qəhrəmanının diliylə acı və təsirli sözlər deyirdi:

"Mən insanlara işıq saçan peyğəmbər ola bilərdim". Hüseyn Cavidin "Xəyyam" dramı 1935-ci ildə işıq üzü görmüşdü. Bəlkə Cavid peyğəmbərcəsinə öz taleyinin acı aqibətini əvvəlcədən hiss edirmiş?

– Əlbəttə, – deyə Heydər Əliyev söhbətinə davam edir, – bu insanlar Salman Mümtazda olan o nadir kitabların dəyərini hardan bilərdilər?.. Hüseyn Cavidin, Əhməd Cavadın, Mikayıl Müşfiqin işləri üzrə istintaq aparanlar onların səviyyəsinə çata bilərdilərmi? Yox! Çünki onların əksəriyyəti savadsız idi...

Bilirsiniz, mən bunları bir də ona görə xatırlayıram ki, bəzən çox dardüşüncəli müasirlərimizə də rast gəlinir, onlar çox kobud, mədəniyyətdən uzaq olurlar, hesab edirlər

ki, yüksək vəzifə tuturlar və bu, onlara hər şeyi verir. Lakin vəzifə insana heç nə vermir, olsa-olsa səlahiyyət verir. Qalan şeylər onun ağlından, biliyindən, mədəniyyətindən asılıdır. Əgər bütün bunlar varsa, o, vəzifə səlahiyyətlərini dövlət mənafeyinə sərf edə bilər. Yoxdursa, edə bilməz, sadəcə insanları şikəst edər.

Belə "məhdud düşüncəli" vətəndaşlar elə hey respublika Dövlət Təhlükəsizlik Komitəsi sədrinə, sonra da Mərkəzi Komitə birinci katibinə dissidentləri sıxışdırmağı, ünlü bir şairi həbs etdirməyi, daha kimlərisə gedər-gəlməzə yollamağı israrla təklif edirdilər...

Əliyev bunlara yol vermədi. O, bir çox istedadlı insanları, indi Azərbaycanın fəxr etdiyi sənətçiləri təqiblərdən qorudu.

Həmin illərdə Moskvada, Leninqradda dissidentlərlə, Kiyevdə "millətçi"lərlə necə canfəşanlıqla mübarizə aparılmasını xatırlayaq... Məsələn, istedadlı şair Vasili Simonenkoya azərbaycanlı sənətdaşları kimi həyan olan, canyandıran bir yoldaşın tapılmadığına yalnız təəssüflənmək, acımaq olar. Orada hətta O.Qonçar kimi sənətkarı "zamanla" ayaqlaşmağa məcbur etmək istəyirdilər; burada isə gözümçıxdıya salmadan, təmkinlə, səbirlə yaralı yerlərə toxunan söz ustalarını, ziyalıları dinləyir, anlayır, dostcasına məsləhətlər verirdilər...

Cəsarətlə qeyd etmək lazımdır ki, o illər Azərbaycanda ədəbiyyat, incəsənət və digər sahələrdə də intibah dövrü başlandı!

– Bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, dövlət təhlükəsizlik orqanlarında rəhbər vəzifələrdə işlədiyim, Azərbaycan Respublikasının başçısı olduğum zaman Azərbaycan xalqının milli mənafeyinə zidd olan heç bir addım atılmamışdır.

Heydər Əliyev ilk dəfə bu sözləri respublika milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı qeyd olunan təntənəli yığıncaqda demişdir.

– Yuri Vladimiroviç Andropovla Heydər Əliyevin ilk görüşü 1967-ci ildə baş vermişdir. O vaxt Əliyev respublika Dövlət Təhlükəsizlik Komitəsi sədri vəzifəsini icra edirdi. O, Andropovun müavini təyin olunmuş Semyon Sviqunu əvəz edirdi. Çox keçmədi ki, Əliyevi Sviqunun yerinə təsdiqlədilər. O, artıq çekistlər arasında iradəli, əzmkar rəhbər, bir sıra parlaq kəşfiyyat və əks-kəşfiyyat əməliyyatlarının təşkilatçısı kimi tanınmışdı. Bir xarici agentin ("Duel") bizim tərəfə cəlb edilməsini, Amerikanın "Duqlas" təyyarəsi ilə Azərbaycan ərazisinə atlamış və paraşütlə atıldıqdan sonra yaxalanan əcnəbi "qonaqların" « hansı yuvanın quşu » olduqlarını aşkarlanmasını, bir sıra xarici ölkələrə uğurlu məxfi ezamiyyətlərini bu sıradan misal çəkmək olar. Heydər Əliyevin Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində çalışdığı illər ərzində işləyib hazırladığı və həyata keçirdiyi çoxsaylı əməliyyatlardan ikisi – "Alagöz" və "Naturalist" üzərində ətraflı dayanmaq istərdik.

1955-ci ildə Azərbaycan çekistləri Qərb ölkələrindən birinin casusunu ifşa etmişdilər. Bu insanın həyat yolunu qiymətləndirən, onun xarici kəşfiyyatla əməkdaşlıq etməsini səmimi-qəlbdən boynuna almasını, sovet dövləti qarşısında günahını yumaq istəməsini nəzərə alan kapitan Heydər Əliyev belə qərara gəldi ki, "Sabir"i öz tərəflərinə çəkə bilər. Beləliklə, "Alagöz" əməliyyatının ideyası yarandı, onun fikrinə görə, "Sabir" xaricə "qaçıb" orada bir neçə xüsusi tapşırığı yerinə yetirməliydi.

1956-cı ilin avqustunda onu xaricə keçirdirlər. O tayda "Sabir" bütün sınaqlardan uğurla çıxdı və onu Sovet İttifaqı tərəfə, əsasən də Zaqafqaziyaya keçirmək üçün agentlər hazırlanan məktəbə göndərdilər. İki il sonra onu Yerevana ezam etdilər. Yerevanın parklarından birində "Sabir" xarici agentlə görüşüb o biri həmkarları ilə əlaqə saxlamaq üçün iki gizli "nöqtə" müəyyənləşdirməliydi. Plan düşünüldüyü kimi yerinə yetirildi və agent birdəfəlik xaricə yola salındı. "Alagöz" əməliyyatı uğurla başa çatdırıldı. "Naturalist" adı

altında qeydiyyatdan keçən məxfi əməliyyatı isə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini polkovnik Heydər Əliyev 9 sentyabr 1965-ci ildə təsdiq etmişdi. "Naturalist" ləqəbi Qərbi Almaniyadan gələn bir turistə təbiətə göstərdiyi hədsiz marağa görə verilmişdi. Məlum olmuşdu ki, İkinci Dünya müharibəsi illərində o, Almaniyanın kəşfiyyat orqanlarında çalışmışdır. Sovet iqtisadiyyatının təhlili ilə məşğul olmuş, İngiltərəyə qarşı əks-kəşfiyyat əməliyyatlarında iştirak etmişdi. Əlbəttə, professional kəşfiyyatçı olan keçmiş mayorun, əzəli düşmənin sovetlərə hansı vasitələrlə xidmətə cəlb edilməsi barədə ətraflı söhbət bizim əhvalatın mövzusundan kənara çıxır. Bircə onu qeyd edək ki, "Naturalist" hələ Almaniyaya getməmişdən əvvəl bəzi maraqlı məlumatlar vermişdi: məsəl üçün Qərbi Almaniyanın yeni tank modelləri barədə, AFR-dəki İngiltərə hərbi hissələrinin strukturu haqda, faşist Almaniyasının kəşfiyyat idarələrindən müasir Almaniya kəşfıyyat idarələrinə işləməyə keçən kadrlara dair və s. Evə qayıdan "Naturalist" uzun müddət qiymətli informasiya ötürməkdə davam edirdi.

Bu yalnız iki hadisədir. Halbuki belə əməliyyatlar onlarla, yüzlərlə idi. Belə əməliyyatlarda professional çekist olan Heydər Əliyevin bir çox qiymətli keyfiyyətləri üzə çıxmışdı – dəqiq psixoloji təhlil və hesablamalar, insanı öz tərəfinə çəkmək bacarığı. Əlbəttə ki, onun özü də bu əməliyyatlar zamanı riskə getməli olurdu. Öz tərəfinə çəkdiyi agentin iflasa uğraması onun karyerasına mənfı təsir göstərə bilərdi. Lakin Heydər Əliyevin çekist karyerasında belə hadisələr olmamışdı. Bakıda və Moskvadakı həmkarları getdikcə onunla daha çox hesablaşırdılar.

1962-ci il fevralın 7-də Azərbaycan Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin İkinci şöbəsinin rəisi Heydər Əliyev Moskvadan rəsmi təlimat alır.

"Nəzərinizə çatdırırıq ki, 1961-ci il noyabr ayının sonlarında Amerika kəşfiyyatının xüsusi agenti Livana gələrək orada Daşnaksutyun partiyasının rəhbərləriylə görüşlər ke-

çirib. Görüşlərdə Daşnaksutyun partiyasının Sovet Sosialist Respublikaları İttifaqına qarşı əməliyyatlarda fəal iştirak etməsi, Sovet Sosialist Respublikaları İttifaqı hökumətinin xaricdəki ermənilərin Sovet İttifaqı ərazisinə keçməsinə qadağa qoymasına qarşı tədbirlər görülməsi, həmçinin 1961-ci ildə casusluq fəaliyyətlərinə görə həbs olunmuş daşnakların azad edilməsi üçün mühüm addımlar atılması müzakirə olunmuşdur.

Bundan əlavə, qərara alınıb ki, Sovet Sosialist Respublikaları İttifaqına repatriasiya olunan ermənilərin arasına casusluq və pozuculuq fəaliyyəti aparmaq üçün müəyyən agentlər yeridilsin, casusluq məqsədiylə Sovet Sosialist Respublikaları İttifaqına turist qrupları göndərilsin, ermənilərin Sovet Sosialist Respublikaları İttifaqına repatriasiyasına yardım edən şəxslərə maneçilik törədənlərə qarşı terror tədbirləri həyata keçirilsin. Bu tədbirləri daşnaklar ermənilər yaşayan bütün sərhədyanı ölkələrdə, ələlxüsus da İranda həyata keçirmək niyyətindədirlər. Çünki İranın Sovet Sosialist Respublikaları İttifaqı ilə böyük sərhəd zolağı var və İranda çoxsaylı erməni icmaları yaşayır".

Təbii ki, polkovnik Əliyev öz işində bu informasiyaları da nəzərə alırdı. Çünki bu, doğru-dürüst faktlardır.

Daha bir neçə fakta nəzər salaq. Böyük Vətən müharibəsi, İkinci Dünya müharibəsi milyonlarla insanın həyatını alt-üst etdi. Cəbhə şəraitində insanların həyatı, taleyi müxtəlif cür cərəyan edirdi. Kimlərsə vuruşaraq qan tökə-tökə Berlinə, Praqaya kimi gedib çıxmışdı, kimlərsə mühasirəyə düşmüş, əsir götürülmüşdür. Alman faşistləri əsirlərdən və düşmən tərəfə keçənlərdən milli ordu hissələri formalaşdırırdılar: satqın general Vlasovun Rusiya azadlıq ordusu, Ukrayna üsyançılar ordusu, Türküstan diviziyası... Şübhəsiz ki, bu hərbi hissələrdə xidmət edənlərin çoxu vətən xainləri idilər. Lakin heç də hamısı belə deyildi. Bir çoxları əsirlikdən qaçıb İtaliya, Fransa, Çexiya, Yuqoslaviya, Norveç partizanlarına qoşulmuş, illər boyu onlarla çiyin-çiyinə vuruşmuşdular. Belə

partizanlardan biri – məşhur Mehdi Hüseynzadənin taleyi ilə üç Bakı çekisti – A.Məmmədov, H.Əliyev və V. Banserov məşğul olurdu. Mehdi Hüseynzadə barədə ilk materiallar müharibədən dərhal sonra ortaya çıxdı. Artıq 1951-ci ilin oktyabrında Azərbaycanın Dövlət Təhlükəsizlik Komitəsindən yuxarı instansiyalara belə bir məlumat daxil oldu:

"Sovet Sosialist Respublikaları İttifaqına repatriasiya olunan keçmiş 162-ci alman-Türküstan diviziyasında xidmət etmiş xainlərin işi ilə məşğul olarkən Hüseynov Mehdi adlı bir nəfərin qəhrəmanlıq fəaliyyəti və faciəli ölümü Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin diqqətini cəlb etmişdir. Aparılan tədbirlər nəticəsində onun şəxsiyyəti dəqiqləşdirilmişdir: Hüseynzadə Mehdi Hənifə oğlu. 1918-ci ildə Bakıda doğulub. Azərbaycanlıdır. Şahidlər onun qəhrəmalıqlarını təsdiq edən ifadələr vermişlər".

Bu sənəd yalnız dörd ildən sonra ictimaiyyətə açıqlandı. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi mərkəzi instansiyalara Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verilməsiylə bağlı müraciət etdi. Lakin jurnalist Ruqiyyə Əliyeva "Azərbaycanlılar Avropa müqavimət hərəkatında" kitabında qeyd edir ki, mərkəzdə Mehdi Hüseynzadə barədə materiallar kifayət qədər səhih hesab edilməmiş və 1956-cı ilin fevralında geri qaytarılaraq, yeni şahid ifadələriylə, yeni sənədlərlə zənginləşdirilməsi təklif edilmişdi.

Ağır və uzun araşdırmalar baş leytenant Mehdi Hüseynzadənin döyüş yolunu canlandırmağa imkan vermişdi. O, Stalinqrad ətrafından öz bacısı Hürriyyətə yazırdı: "Bilmirəm, sağ qalacam, yoxsa yox, amma söz verirəm ki, mənim ucbatımdan heç vaxt başıaşağı gəzməyəcəksiniz, mənə görə heç vaxt xəcalət çəkməyəcəksiniz. Əgər həlak olsam da, əsl qəhrəman kimi həlak olacağam".

Döyüşlərin birində ağır yaralanan Mehdi əsir alınır. Doğmalarına verilən xəbərdə isə onun itkin düşdüyü deyilir. Amma almanlar əsiri müalicə etdikdən sonra Türküstan di-

viziyasına göndərirlər. Mehdi məhz bu diviziyadan qaçaraq Yuqoslaviya partizanlarına qoşulur. Onun adı ilə bağlı çoxsaylı cəsarətli əməliyyatlar var. Silahdaşlarının “Mixaylo” adlandırdıqları sovet partizanının başına almanlar 300 min marka mükafat qoyubmuşlar. Döyüşlərin birində Mehdi həlak olur. Partizan dostları onun cənazəsini özlərinin nəzarət etdiyi ərazilərə aparır və avtomatlardan açılan yaylım atəşləri altında Sloveniyanın Çepovene kəndində dəfn edirlər.

1957-ci ilin yanvarında Azərbaycan Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə Mehdi Hüseynzadənin qəhrəmanlıq fəaliyyəti ilə bağlı ətraflı sənədlər təqdim etdi. Mərkəzi Komitə isə öz növbəsində bu sənədləri yenidən Moskvaya yolladı. 11 aprel 1957-ci ildə Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin rəyasət heyəti Mehdi Hənifə oğlu Hüseynzadəyə ölümündən sonra “Sovet İttifaqı Qəhrəmanı” adı verdi. Həmin gün qəhrəmanın döyüş dostları, qohumları və ümumən bütün Azərbaycan xalqı üçün böyük bir bayram idi. Bu bayramı isə respublikaya, xalqımıza çekistlər A. Məmmədov, H. Əliyev və V. Banserov bağışlamışdılar.

Yeri gəlmişkən, bu, Heydər Əliyev nəslindən olan çekistlərin məşğul olduqları işin yalnız bir nümunəsidir. Onlar bu və ya digər adamı qorumağa, yanlış addımdan çəkindirməyə, səhv fikirdən daşındırmağa çalışırdılar. Söhbət o vaxt da, sonralar da çekistlərin profilaktik iş adlandırdıqları tədbirlərdən, yəni yolundan sapmış, çaşmış adamlara düzgün istiqamət, yol gostərməkdən, cinayət törətməyə imkan verməməkdən gedir.

Respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri Əliyevin cinayət cəzasından xilas etdiyi cavan alimlər, sənət xadimləri sırasında Azərbaycanın gələcək prezidenti Əbülfəz Elçibəy də olmuşdur. Sovet dövründə o, radikal millətçiliyi ilə fərqlənirdi. İllər keçəndən sonra müstəqil respublikaya başçılıq edərkən, böyük siyasətin mürəkkəb və ziddiyyətli

dolanbaclarında o, tarazlı yol tapa bilməyib iqtidar yükünə tab gətirmədi.

Lakin bunlar sonralar baş verəcək. Hələlik əllinci illər sona yetir. Əliyev respublika Dövlət Təhlükəsizlik Komitəsinin İkinci bölməsinə (əks-kəşfiyyata) başçılıq edir. Aydındır ki, belə təyinatlar Moskvada həll olunur. Onun Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Komitəsinin İkinci Baş İdarəsi rəisinin müavini Filipp Bobkovla tanışlığı bu illərə təsadüf edir. Filipp Denisoviç Əliyevdən cəmi iki yaş cavandır. Yetkinlik çağında bu fərq əsla duyulmurdu. Sıravi zirehvuran əsgər olan atası kimi o da cəbhəyə könüllü yollanmış, onunla bərabər Sibir könüllüləri diviziyasında vuruşmuşdur. Atası Denis Bobkov oğlunun gözləri qarşısında, Pskov torpağında, Bolşiye Qrivni kəndinin yaxınlığında həlak olmuşdur. On doqquz yaşlı "starşina" Bobkov qələbəni Kurlyandiyada, sinəsində III dərəcəli "Şöhrət" ordenilə qarşılamışdır. 1945-ci ildə o, Leninqraddakı "Smerş" əks-kəşfıyyat məktəbinə təyinat alır (həmin adı Stalin qoymuşdu: "Smert şpionam", yəni "Casuslara ölüm" deməkdir). Təhlükəsizlik orqanlarında düz qırx beş il çalışmışdır!

Heydər Əliyevlə general Bobkov arasında ilk vaxtlardan xoş, səmimi münasibət yaranmışdı.

– İlk tanışlığımız tezliklə əsl yoldaşlığa çevrildi, – deyə Filipp Denisoviç xatırlayır. – Açığını deyim: aramızda heç bir açıq-saçıq münasibət olmayıb. Biz onunla son günlərinədək ağayana dostluq etmişik.

Əliyev xidməti işləri ilə əlaqədar tez-tez Moskvada olurdu. İttifaq əks-kəşfiyyat rəisinin müavini Bobkov respublikadan gələn həmkarıyla birlikdə əməliyyatları planlaşdırırdı.

– Hansı əməliyyatları, Filipp Denisoviç?

Müsahibimiz suala dərhal cavab vermir. Biz dolayı yolla ondan bir şey öyrənmək istəyirik:

– Bəlkə evdəki arxivinizdə nəsə qalıb?

Bu suala verilən cavab qılınc çalmaq kimi ani olur:

– Bütün kağız-kuğuz Dövlət Təhlükəsizlik Komitəsində qalıb. Mən yalnız xatırladığımı söyləyə bilərəm.

Rusiyanın "Novosti" informasiya agentliyi idarə heyəti sədrinin müşaviri Bobkovun işlədiyi kabinetin pəncərəsi "Sadovoye koltso" prospektinə baxır. Otaqda elə bir uğultu – səs var ki, pəncərəni örtməli oluruq, yoxsa diktofona nəsə yazmaq mümkün deyildi.

– Əllinci illərin axırı – altmışıncı illərin əvvəllərində tamamilə yeni problemlərlə məşğul olmalıydıq. Sovet ali məktəblərində, o cümlədən Bakıda, dünyanın bir çox ölkələrindən gələn tələbələr oxumağa başlamışdı. Əlbəttə ki, Amerika kəşfiyyatı bu mühitdən faydalanmağa çalışırdı. Artıq ilk mərhələlərdə ali təhsil müəssisələrimizə göndərilən bir neçə nəfəri aşkarlamışdıq. Onlar şəraiti öyrənir, əslində kəşfiyyatı maraqlandıran informasiya toplayırdılar. Bundan başqa, onların vəzifələrinə iğtişaş, qalmaqal törətmək də daxil idi, bu da Sovet İttifaqında oxumağın guya təhlükəli olması barədə yanlış təsəvvür yaratmalıydı. Mövzu çox ciddi olduğundan Azərbaycana marağımız bu yöndə də gücləndi. Biz Əliyevlə dəfələrlə görüşür, işin necə daha yaxşı aparılmasını, ölkəmizdə təhsilin uğur qazanması üçün necə münasib ab-hava yaradılmasını götür-qoy edirdik. Bir sözlə, əks-kəşfiyyat bu işdə heç də az rol oynamırdı.

Yeri gəlmişkən, o zaman Lumumba adına Xalqlar Dostluğu Universiteti açılmışdı. Elə ilk çağlarda Moskvada səfirliklərdəki rezidentura ilə bilavasitə işləyən və tələbələr arasında təxribatlar hazırlayan üç agenti üzə çıxarmışdıq. Təbii ki, strateji obyektlərin qorunması, sənayedə, nəqliyyatda təhlükəsizlik, iqtisadi sirlərin mühafizəsi, fövqəladə halların qarşısını almaqla da məşğul olurduq.

Bəri başdan demək istəyirəm: mən Əliyevi təcrübəli bir professional kimi gördüm. Heydər bizim dairəmizdə nüfuz sahibi idi – bu tək mənim yox, bir çox başqa həmkarlarımızın da rəyidir. Uzağa getmirəm, elə Oleq Mixayloviç

Qribanovun adını çəkə bilərəm, ciddi əks-kəşfıyyatçı, sovet kəşfıyyatının başçısı, çox hörmətli çekist idi. O, Əliyevi bir professional olaraq – respublika əks-kəşfıyyat aparatının rəisi kimi yüksək qiymətləndirirdi. Əks-kəşfiyyat rəisinin birinci müavini Şerbak Fyodor Alekseyeviç olduqca peşəkar, böyük təcrübəyə, dərin professional biliyə malik əks-kəşfiyyatçı... – o da Əliyevə böyük hörmət bəsləyirdi. Başqalarını da deyə bilərəm, amma söylədiklərimdən də aydındır ki, Əliyev Təhlükəsizlik Komitəsində çox hörmətli adam idi. Bu hörmət, onun namizədliyi Respublika Dövlət Təhlükəsizlik Komitəsi sədrinin birinci müavini vəzifəsinə irəli sürülərkən dəstəklənəndə də özünü göstərdi.

1964-cü il dekabrın 25-də respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri, general-mayor S.Sviqun Azərbaycan Sovet Sosialist Respublikası Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin İkinci şöbəsinin rəisi podpolkovnik Heydər Əlirza oğlu Əliyev barədə yazılmış xasiyyətnaməyə imza atdı.

“Tam məxfi” qrifli sənəddə deyilirdi: “Yoldaş Əliyev təcrübəli çekist, rəhbər işçi və təşəbbüskar əməkdaşdır. Qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi üçün tabeçiliyində olan işçiləri tam səfərbər etməyi bacarır. Heydər Əliyev yoldaşın rəhbərlik etdiyi operativ heyət bir sıra böyük uğurlara imza atmışdır. Sovet Sosialist Respublikaları İttifaqının Dövlət Təhlükəsizlik Komitəsi ilə birgə kapitalist ölkələrindən gələn xarici vətəndaşlarla bağlı bir çox ciddi çekist əməliyyatlarında şəxsən iştirak etmişdir. Agentura ilə şəxsən işləyir. Tabeçiliyindəki işçilərlə münasibətlərini çox düzgün qurur. Topladığı təcrübəni onlarla bölüşür.

1963-cü ildə Heydər Əliyev xaricə qaçmaq istəyən bir dövlət cinayətkarının axtarılıb tapılması, ələ keçirilməsi əməliyyatlarını uğurla təşkil edib həyata keçirmişdir. 1962-64-cü illərdə onun rəhbərlik etdıyi heyətin profılaktik tədbirləri nəticəsində sovet vətəndaşları arasında yayılmağa başlamış bir çox arzu olunmaz tendensiyaların qarşısı alın-

mış, yolunu azmış sovet vətəndaşları düz yola qaytarılmışdır. Şəxsi keyfıyyətləri: prinsipialdır, özünə qarşı tələbkardır, obyektivdir, vaxta baxmadan gərgin işləyir. Komitənin əməkdaşları arasında böyük nüfuza malikdir.

Çekist işində təcrübəsi və təşkilatçılıq qabiliyyəti olan Heydər Əliyev Azərbaycan Sovet Sosialist Respublikası Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini vəzifəsinə irəli çəkilməyə layiqdir".

– Bu, məsul vəzifədə də özünü ən yaxşı cəhətdən göstərdi, – deyə general Bobkov sözünə davam edir. – Münasibətlərimiz daha da möhkəmləndi, çünki Əliyev respublikada, məhz mənim mərkəzdə məşğul olduğum məsələlərə nəzarət edirdi. Bu, həm milli münasibətlər, həm dini, həm xarici turizm məsələləri idi. O, respublikalar arasında dediyim sahələrə başçılıq edən çox az rəhbərlərdən idi ki, millətlərarası problemlərə incə və həssaslıqla yanaşırdı. Mən bunu qiymətləndirirdim.

Bobkov və Əliyev birlikdə millətlərarası münasibətlər kompleksi üzrə böyük sosioloji tədqiqat həyata keçirmişdilər. O zaman Y.VAndropovun dəstəyi ilə yaranan Sosial-Siyasi Tədqiqatlar İnstitutunda qapalı sosioloji araşdırmalar şöbəsi yaradıldı.

– Tədqiqatlar bircə nüsxədə çap olunurdumu?

– Əlbəttə, yox, – deyə Bobkov zarafatyana verdiyimiz sualı təbəssümlə qarşılayır – biz onları Mərkəzi Komitəyə göndərirdik, amma təəssüf ki, işləyib hazırladıqlarımız heç də həmişə dəstəklənmirdi.

Podpolkovnik, polkovnik və nəhayət, general rütbəsinə yüksələn Heydər Əliyevin məqalələri Dövlət Təhlükəsizlik Komitəsinin məxfı toplusunda dərc olunurdu. O, bütün ölkədəki həmkarları üçün maraqlı olan düşüncələrini onlarla bölüşür, Azərbaycan çekistlərinin keçirdiyi uğurlu əməliyyatları təhlil edir, "sərhədyanı ölkələrin kəşfiyyatları ilə mübarizə" işindəki təcrübəsindən söhbət açırdı. 1968-ci il mayın 6-da general-mayor Heydər Əliyev Kiyevdə İttifaq

çekistləri qarşısında məruzə ilə çıxış edir. Onun məruzəsinin mövzusu "Azərbaycan Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin təcrübəsi əsasında sərhədyanı kapitalist ölkələrindən gələn sərhəd pozucuları və düşmən agenturası ilə mübarizə praktikası" idi.

Azərbaycan Milli Təhlükəsizlik Nazirliyində yaradılmış Heydər Əliyev muzeyində respublika Dövlət Təhlükəsizlik Komitəsinin o vaxtkı sədrinin kabineti olduğu kimi bərpa edilib və qorunub saxlanılır. İnventar nömrələri üstündə olan həmin stol, stul, kreslo, təqvim, üstündə Sovet Sosialist Respublikaları İttifaqının gerbi olan telefon, divarda relyefli xəritə: Azərbaycan və əsas sərhədyanı ölkələr. Bəzən hətta uzun illər davam edən bir çox əməliyyatlar məhz bu xəritənin önündə düşünülmüşdü.

"Tam məxfi" qrifı altında olan sənədlərin çoxu indiyədək açıqlanmır. Amma Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Komitəsinin bəzi açıqlanmış sənədlərindən az da olsa nəsə öyrənmək mümkündür. Məsələn, 1965-ci il dekabrın 10-da Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini general-polkovnik Zaxarov Azərbaycan çekistlərinin keçirdiyi bir çox əməliyyatları yüksək qiymətləndirmişdi: "Xarici kəşfıyyat agentinin ifşa olunmasında göstərilən təşəbbüs və inadkarlığa görə polkovnik Heydər Əlirza oğlu Əliyev və polkovnik Dmitri Andreyeviç Beliçenko Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Komitəsinin Fəxri fərmanı ilə təltif olunmuşlar...". Həmin sənəddə başqa əməkdaşların qiymətli hədiyyələrə layiq görüldükləri də bildirilir.

Partiyanın Mərkəzi Komitəsinə Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Komitəsisi tərəfindən göndərilən sənədlərin birində "millətçi ünsürlərin düşməncəsinə fəaliyyəti" təhlil edilirdi. 1966-cı il 17 yanvar tarixli 2/9 – 299 saylı belə bir sənədi Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini S.Bannikov imzalamışdı.

Hesabatda deyilir:

"Ölkənin ayrı-ayrı rayonlarında, xüsusən Ukraynada, Zaqafqaziya və Baltikyanı respublikalarda burjua millətçilərinin düşmənçilik fəaliyyətinin aktivləşməsi müşahidə olunur. Burjua millətçiləri kadrların seçilməsi və saxlanmasına, xüsusən ziyalılar və gənclər arasında siyasi cəhətdən korafəhm olan şəxslərin öz ideyalarının təsirinə salınmasına, partiyamızın milli siyasəti məsələsinin əksinə millətçilik ədəbiyyatının və uydurmaların yayılmasına xüsusi diqqət yetirirlər. Siyasi cəhətdən fərasətsiz olan şəxslərin antisovet millətçi ruhunda köklənməsinin qarşısının alınmasında, məsləkdaşların ideya-siyasi cəhətdən hazırlanmasında və möhkəmlənməsində, düşüncələrində millətçilik elementləri olan insanları öz tərəflərinə çəkməklə yeni kadrlar hazırlanmasında leqal imkanlardan, məsələn, gənc şair və yazıçılarla görüşlərdən, yaradıcılıq gecələrindən, milli yazıçıların, şairlərin yubileylərindən, bədii özfəaliyyət dərnəklərindən geniş istifadə etməyə başlamışlar".

Bunun ardınca bir sıra misallar gətirilirdi – Ukrayna, Estoniya, Ermənistan, Azərbaycan və s. respublikalardan.

"1965-ci ildə, həmçinin Bakı şəhərində özünü "Azərbaycan milli dilinin müdafiə komitəsi" adlandıran antisovet millətçi qrup aşkar edilmişdi. Qrupa 70-ə qədər 20 yaşından 27 yaşınadək adam, o cümlədən 6 Sovet İttifaqı Kommunist Partiyası üzvü və 20-dən artıq komsomolçu cəlb edilmişdi. Azərbaycan dilinin qorunması pərdəsi altında qrup rəhbərləri Sovet Sosialist Respublikaları İttifaqından çıxmaqla müstəqil dövlət yaradılması və respublika ərazisindən rusların, ermənilərin köçürdülməsi barədə fikir söyləyirdilər. Qrup iştirakçıları onların tələblərini dəstəkləmək çağırışı ilə Azərbaycan xalqına müraciət etmək üçün radiostansiyanı və televiziya mərkəzini ələ keçirməyi zəruri sayırdılar.

Onların həmçinin 1965-ci il noyabrın 7-də, yaxud 1966-cı il mayın 1-də müvafiq şüarlarla nümayişə çıxmaq və çıxışlarının pozulacağı halda mövcud quruluşa qarşı silahlı mü-

barizəyə başlamaq niyyətləri olmuşdur. Əlbəttə, şüurlu olaraq Sovet hakimiyyətinə qarşı mübarizə yolunu tutmuş ən aktiv millətçilərin mütəşəkkil düşmənçilik fəaliyyəti Dövlət Təhlükəsizlik Komitəsi orqanları tərəfindən onların həbsi ilə dayandırılmışdır.

Bəsit siyasi baxışları burjua təbliğatının təsiri və antisovet ünsürlərin təhriki ilə formalaşmış bu şəxslərin böyük əksəriyyəti sovet dövlətinin milli siyasətinin mahiyyətini yetərincə anlamamaları ucbatından belə ziyanlı millətçi mövqe tutmuşlar. Odur ki, onlarla profilaktik tədbirlər aparılmışdır"[1].

Babkov deyir:

– Əliyev Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi sədri vəzifəsinə təsdiq olunanda o, Vitali Krasilnikovun özünə müavin təyin edilməsini xahiş etdi. O mənim tabeliyimdə işləyirdi. Etibarlı, çox yaxşı adam idi. Razı oldum, o zaman artıq beşinci idarənin rəisi olmuşdum, münasibətlərimiz yaxşı olaraq qalırdı. Heydər Əliyev Moskvada olanda həmişə mənə baş çəkərdi.

Çekistlər konstitusiyalı quruluşu qorumalı, silahlı mübarizə yolu tutub hakimiyyəti ələ keçirməyə cəhd edənlərin qarşısını almalıdırlar. Lakin bir çox hallarda partiya komitələrinin, nəhəng ideoloji aparatın bacarmadığı işləri həyata keçirmək də çekistlərin öhdəsinə düşürdü. Bu barədə Heydər Əliyev də həyəcanla danışırdı:

"1967-68-ci illərdə xarici erməni millətçi təşkilatlarının, xüsusən "Daşnaksutyun"un respublikamıza qarşı fəaliyyətinin xeyli canlandığı müşahidə olunur. Bir sıra kapitalist ölkələrindən respublikanın sovet idarələrinin və qəzet redaksiyalarının ünvanlarına millətçi səciyyəli müxtəlif tələb və müraciətlər olan jurnal və qəzet məqalələri göndərilirdi. Xaricdəki daşnak dairələri respublika həyatından ayrı-ayrı

---

[1] RQANN.F.5. Op.33.D235. I. 62-65

faktları təhrif olunmuş formada təqdim edirlər" (H. Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1968-ci il 28 avqust tarixli plenumundakı çıxışından).

Kütləvi-informasiya vasitələri gündən-günə, müntəzəm olaraq partiya ilə xalq birliyindən, sarsılmaz xalqlar dostluğundan dəm vururdular. Cəmiyyətdə isə get-gedə, altdan-altdan artan problemlər yığılırdı. Nələr baş verirdi cəmiyyətdə? Bir sıra şəhərlərdə – Muromda, Temirtauda, Novoçerkasda kütləvi etiraz püskürmələrinin səbəbləri nədir? Ölkədə hansı siyasi proseslər yetişməkdədir? Sovet hakimiyyətinin ideoloji düşmənləri həmin proseslərdə necə iştirak edirlər?

Bu suallara aydınlıq gətirmək yeni, beşinci adlanan ideoloji təxribata qarşı mübarizə məqsədilə yaradılmış idarənin – adına Beşinci İdarə də deyirdilər – öhdəsinə düşürdü.

Babkovu "beşinci"yə göndərəndə ona xeyir-dua verən Yuri Vladimiroviç Andropov deyirdi ki, əsl ideoloji müharibə gedir, gündəmdə "kim kimi?" məsələsi durur.

– Biz sovet dövlətini möhkəmləndirmək əzmindəyik, ideoloji rəqiblərimiz isə onu dağıtmaq üçün var qüvvələrini sərf edirlər, – həmin gecə Andropov "Lubyanka" meydanındakı geniş kabinetində öz mülahizələrini belə açıqlayırdı.

Görüş 20:00-da başlamışdı, indi isə saatın əqrəbləri 23.00-ı haqlayırdı. Yuri Vladimiroviç bütün görkəmi ilə mükalimənin qeyri-rəsmi olduğunu göstərirdi: pencəksiz əyləşib hərdən fıkrə gedərək çiyinbağlarını dartışdırırdı.

– Biz onların planlarını, iş metodlarını bilməli, ölkədə baş verən prosesləri görməli, insanların ovqatlarına bələd olmalıyıq. Bu çox vacibdir. Biz ən müxtəlif qaynaqlardan, istər leqal idarələr, sosioloji təsisatlar, ya mətbuat məlumatları olsun, istərsə də xüsusi xidmətlərimizin xəbərləri olsun, fərqi yoxdur, hamısından faydalanmalıyıq. Zahirdə olan hadisələrdən savayı gizli hərəkətverici qüvvələr də var... Daxili, dərinlikdəki prosesləri aşkarlamağı və yaxşı anlamağı öyrənmək çox vacibdir...

On beş il ötəcək və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinın Baş katibi Andropov deyəcək: nəhayət, "Biz hansı cəmiyyətdə yaşayırıq?" sualına cavab verilməlidir.

Həmin sual Mərkəzi Komitəyə ünvanlanmış məktubların birində də səsləndirilirdi: "İlk öncə aydınlaşdırmaq lazımdır ki, biz hansı ölkədə yaşayırıq..."

Heyrətamiz təsadüfdür.

## Biz hansı ölkədə yaşayırıq

1965-ci ilin lap sonunda Xruşşovdan sonrakı, yeni tərkibli Mərkəzi Komitə "Pravda", "Komsomolskaya pravda" və "Literaturnaya qazeta" redaksiyalarına "müstəsna səciyyəli" məktubların icmallarını Mərkəzi Komitəyə göndərməyi tapşırdı.

1966-cı ilin yanvarında "Literaturnaya qazeta"nın baş redaktoru A.Çakovski və "Komsomolskaya pravda"nın baş redaktoru B.Pankin dövlətimizə və ictimai həyatımıza aid yanlış fıkirlər deyilən" məktublardan parçaları Mərkəzi Komitəyə çatdırdılar. Yanvarın 11-də "Pravda" hesabat verdi. İlk səhifələrdə eyni dərkənarlar yazıldı: "Arayışda göstərilən faktlarla tanış olduq. Material sovet adamlarının siyasi sayıqlığını artırmaq haqqında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitənin sənədinin hazırlanmasında istifadə olunmuşdur". Ardınca imzalar: Mərkəzi Komitənin təlimatçısı, bölmə müdiri, təbliğat və təşviqat şöbəsinin müdir müavini...

Göstəriş: "Arxivə". Möhür: "Məxfi. Xüsusi qovluq".

### *"Pravda"ya məktublardan*

Moskva, imzasız.

"V.İ.Leninin ölümündən sonra Kommunist Partiyası xeyli sağa uzaqlaşıb və bu bataqlıqdan çıxa bilmir.

Bizdə haqq-ədalət yoxdur, tənqid yoxdur. Stalin idarəçiliyi eləcə də qalıb. İdarələrin başında fırıldaqçılar oturub. Bütün partiyaçılar imtiyazlardan faydalanır, xalq isə təhkimçi vəziyyətində əlləşməyə məcbur olan "İvan"ların durumundadır.

Həmkarlar İttifaqları öz əhəmiyyətini itirib, fəhlələri müdafiə etmirlər.

Ali Sovet də önəmini itirib. Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin Rəyasət Heyəti yalnız partiyanın göstərişi ilə təltif etmək hüququna malikdir. Bütün partiya kulta çevrilib. Partiya pensiya haqqında qanunda böyük ədalətsizlik hökm sürür. Niyə kimlərsə böyük təqaüd alır, o birilərinsə dolanışığı yoxdur? Lenin yoluna dönməyin vaxtı çatmayıbmı? Həmkarlar İttifaqları və Sovet Sosialist Respublikaları İttifaqı Ali Soveti öz yerlərini tutmalıdır.

Xalq nəzarəti öndə olmalıdır, onda fırıldaqçılar rəhbər vəzifələrə yol tapa bilməzlər".

* * *

Kaluqa, imzasız.

"Qəzet səhifələrində mədəniyyətdən, yüksək mətləblərdən yazmaq ayıbdır... İnsanlara azacıq rahat yaşayış şəraiti verin. "İnsan insanın dostudur" deyirlər, əslində isə bu "dostlar" bir-birini vurur, kəsir... Quldurları qoruyan belə qanunları çıxaranları sadəcə lənətləyirsən. Mən bu məktubu Kaluqadan – dekabrın 10-dan 17-dək bir həftə ərzində neçə-neçə vəhşi basqınların baş verdiyi yerdən yazıram. Sovet gənclərinin pozğunluğu heç bir sərhəd tanımadan hər şeyi açıq-saçıq danmaq vəziyyətinə çatıb, adamları isə bu heyvanları tərbiyələndirməyə məcbur edirlər.

Bir baxın, Kosmos şəhərini nə kökə salıblar, bu hamı üçün rüsvayçılıqdır. Kim, adamların küçələrdə heç olmasa rahat, geri qanrılmadan gəzməyi üçün şərait yaradacaq?

* * *

Leninqrad, imzasız.

“Düşünürəm ki, əksəriyyətin fikrini ifadə edirəm. Xalq hakimlərinin seçkiləri ilə bağlı komediya kimə gərəkdir? Və bütün seçki sistemi bizdə başdan-başa yalan və aldatmadır. Kimin artıq seçilmiş adamları riyakarlıqla yenidən seçməkdən zəhləsi getmir? Ona görə də onlar sessiyalarda həmişə tutuquşu kimi oturmuş və otururlar, nəyi səsə qoyurlarsa, hər şeyə səs verirlər. İndi sağ olanların lal razılığı ilə Stalin dövründə məhv edilmiş minlərlə fəhlə sinfinin amalına sonsuz sədaqət bəsləyən işıqlı, pak adamların kökü kəsilib.

Əlli illik (sovet hakimiyyətinin 50-ci ildönümü – müəl.) ərəfəsində işlərimiz heç də parlaq deyil. Xalq bunu bilir, görür və nəyinsə dəyişəcəyinə inanmır”.

* * *

Voronej, Zamkov P.İ.

“Niyə alimlər və yazıçılar Leninin yeni iqtisadi siyasət haqqında tarixi qərarının üstündən sükutla keçirlər? Axı, o qərar ölkədə inqilabdan sonra sənayenin, xüsusən kənd təsərrüfatının çiçəklənməsini təmin etmişdi. “Yeni İqtisadi Siyasət” vaxtında özəl bazarlarda bir yaşlı cöngənin dirisinin qiyməti cəmi 12-13 rubl idi, bizim zamanımızda isə ... bu qiymətə heç xoruz da ala bilməzsən.

Mənim anlamıram ki, niyə Stalinin kolxoz sistemi təriflənir. Axı, o özünü doğrultmadı. Köhnə səriştəli taxılçıların əlində müasir texnika olsaydı, biz kapitalist ölkələrini çoxdan ötüb keçmişdik...”

### *“Komsomolskaya pravda”ya məktublardan*

İmzasız, ünvansız.

“1965-ci il 20 iyun tarixli « Trud» qəzetində “Günəş kimə işıq saçır” məqaləsini oxudum. Onun yanında “Seçilmişlər üçün” başlıqlı bir yazı da var, orada deyilir: “Burjua Qərbin-

də də dincəlirlər, orada da yay günəşi səxavətlə nur saçır. Amma kimlərə?"

Şəkildə sahibləri öz çimərliklərində özünü günə verən, kef eləyən şəxsi yaxtalar əks olunub. Bu varlıları milyonlarla həmvətənlisinin öz məzuniyyətini necə, harada keçirəcəyi narahat etmir. Fikirləşdim ki, Qərblə Sovet Sosialist Respublikaları İttifaqı arasında hansı fərq var? Nəticəyə gəldim ki, heç bir".

* * *

Leninqrad, imzasız.

"Onilliklər boyu ölkənin sadə camaatı amansızcasına istismar edilir. Özünüz fikirləşin, 50-150 rubl məbləğində maaş hansı həyatı təmin edə bilər? Son dərəcə yüksək qiymətlər müqabilində... Bəs kolxozçular: müti, hüquqsuz həyatlarında onlar necə "xoşbəxtdirlər"?.. Onlar hətta "Yuri günü"ndən də məhrumdurlar... O, kolxozdan çıxıb istehsalatda işləyə bilməz, onun pasportu yoxdur, ona heç bir arayış vermirlər və heç kim, heç yerdə onu qəbul etməz".

### *"Literaturnaya qazeta"ya məktublardan*

Novosibirsk vilayəti, V.Babin.

"... Biz hamımız burada birlikdə düşünüb-daşınır, partiyamızın siyasətini kollektiv şəkildə müzakirə edirik... Rəhbərlərin əmək haqqı fəhlələrinkindən artıq olarsa, demək bürokratiya, mənsəbpərəstlik qaçılmazdır. Mənəvi tənəzzül, pozğunlaşma, fahişəlik və istismar da. Bütün rəhbərlərin, aşağı-yuxarı, bütün vəzifəli şəxslərin əmək haqqı fəhlələrin maaşından artıq olmamalıdır...

... Stalinin vaxtında təkcə şəxsiyyətə pərəstişin bünövrəsi qoyulmadı. Stalin yeni bir sinif – sosialist burjuaziyasını da yaratdı, sosialist burjuaziyasının diktaturasını yaratdı. Xalqımız "yalançı bərabərlik" istəmirsə, burjuaziyanı da istəmir.

...Partiyamızda namuslu qüvvələr var və onlar mübarizə etmişlər. Bu mübarizə Stalinin ölümündən sonra qismən öz təsirini göstərmişdir. Lakin bu burjua qüvvələrinin məcburi güzəşti imiş. İndi aydın olur ki, Xruşşovun şəxsiyyətinə pərəstiş süni olaraq, özü də bütün Mərkəzi Komitənin günahı ucbatından yaranmışdır. Aydındır ki, çatışmazlıqların günahı təkcə Xruşşovda yox, bütün Mərkəzi Komitə üzvlərindədir. Bizim burjuaziya üçün öz siyasətini bir adamın nüfuzu vasitəsilə yeritmək əlverişlidir. Və burjuaziyanın kollektiv "mudrikliyi" bu bircə şəxsiyyətdən keçirilirdi. İndi təhlükə var ki, ölkəmiz daha harın burjuyluğa keçsin, yenidən repressiyalar dövrü gəlsin; Stalin – Beriya dövrü. Bəs niyə partiyamızdakı namuslu qüvvələr tam və qəti qələbəyə nail ola bilmədilər? Ona görə ki, Stalinin mühakiməsi zəif, burjuy harınların maaşlarının ixtisarı isə çox cüzi idi. Ona görə ki, bu məsələlər partiyadan, xalqdan xəlvət həll olunurdu, partiya və xalqa arxalanmırdı.

... Hazırda partiyanın – Mərkəzi Komitənin xalqın həyatını yaxşılaşdırmaq qayğısı bu istiqamətdə gedir: direktorların əmək haqqı ayda 300 rubldan 600-ə qaldırılır, sıravi kolxozçularınkı isə 30 rubldan 40 rubla qədər.

... İndi xalqımızda kommunistlərə xas ruh yüksəkliyi yoxdur. Xalqımız əsl sosializm həsrətindədir. Bəli, XX qurultaydan sonra hələ yeni külək əsməyib. Hələ demokratiya yoxdur. Yüksək maaşlı iqtidar işçilərimiz əslində bütün xalqın yox, yüksək məvacibli qövmün, burjuaziyanın nümayəndələridir...

... Partiyanın indiki Mərkəzi Komitəsi görün, nə qədər səhvlər buraxmışdır. Və onların hamısı elmi baxımdan əsaslandırılmışdır. Səhvlər çoxdur, amma bəla bunda deyil. Bəla ondadır ki, xalq görür ki, partiyanın Mərkəzi Komitəsində vicdan yoxdur. Naqis burjua siyasətini qorumaq, doğrultmaq naminə əllaməçilik etmək lazım deyil. Bütün siyasəti dəyişmək lazımdır. Bizim hamımız görürük ki, partiya Mərkəzi Komitəsi üçün heç bir müqəddəs,

kommunist amalı yoxdur. Biz Mərkəzi Komitə üzvlərini ən yaxşı kommunistlər, ən müqəddəs insanlar sanırdıq, sonra bildik ki, onlar ölkənin ən varlı insanlarıdır... Xalq hesab edir ki, kommunist son dərəcə təmiz və vicdanlı olmalı, zərrə qədər eqoizmi olmamalı, insanları sevməli, insanlara, yaxınlarına, doğma xalqına səadət bəxş etməlidir. Bəs birinci, rəhbər kommunist necə olmalıdır? Lenin, Dzerjinski kimi... Yalan və repressiya o vaxt aradan qalxar ki, sosialist burjuaziyası olmasın, zəngin və kasıb, yuxarılar və aşağılar olmasın".

...İllər keçəcək, Baş katib vəzifəsinə keçən Y.V.Andropov bu fikri eynilə təkrarlayacaq: "Əvvəla, aydınlaşdırmalıyıq ki, görək biz hansı ölkədə yaşayırıq..." Bunu müəyyən etməyə, vəziyyətə aydınlıq gətirməyə Andropov macal tapmadı... Onu əvəz edən Çernenkoya da bu yükü qaldırmaq müyəssər olmadı. Qorbaçovun "yenidənqurması" isə daha çox "yenidənqırma" adıyla tanındı və gördüyü işlər "qaşı düzəldəndə gözü çıxarmağa" oxşadı...

... Hər ayın 20-də Azərbaycanın Dövlət Təhlükəsizlik Komitəsi işçilərinə maaş verilirdi. Səbirsizliklə gözlədikləri bu günə zarafatcıl həmkarlar öz aralarında "Çekist günü" deyirdilər. Elə həmin gündəcə partkoma gedib üzvlük haqqını ödəyirdilər. Partiya Komitəsinin katibi polkovnik V.Bıstrov bir gün Dövlət Təhlükəsizlik Komitəsinin yeni sədri Heydər Əliyevin yanına gedir.

Gəlişinin məqsədini bilən Əliyev ona üz tutub deyir:

– Yoldaş Bıstrov, kommunistlər üzvlük haqqı vermək üçün özləri yanınıza gəlməlidirlər. Qayıdın kabinetinizə, mən özüm yanınıza gəlib üzvlük haqqını verərəm.

General Heydər Əliyev Azərbaycan Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinə düz iki il rəhbərlik etdi. Yuri Vladimiroviç Andropov onun fəaliyyətini Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Komitəsinin xüsusi əmrilə (N° 166. 27 noyabr 1966) yüksək qiymətləndirmişdi.

“General – mayor Heydər Əlirza oğlu Əliyev təhlükəsizlik orqanlarında iyirmi beş il fəaliyyət göstərib. Bu müddət ərzində, o, sıravi operativ işçidən respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədrinə qədər böyük yol keçmişdir. Rəhbər vəzifələrdə olarkən yoldaş Əliyev bütün gücünü, enerjisini, bacarığını dövlətimizin təhlükəsizliyinin təmin olunmasına yönəldib, özünü çox yaxşı təşkilatçı kimi göstərib.

Hal-hazırda yoldaş Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir.

ƏMR EDİRƏM:

Təhlükəsizlik orqanlarında uzunmüddətli və səmərəli fəaliyyətinə görə general-mayor Heydər Əliyevə təşəkkür elan edilsin və o, məxsusi qiymətli hədiyyə ilə mükafatlandırılsın.

Y.V.ANDROPOV<br>
Sovet Sosialist Respublikaları İttifaqı<br>
Nazirlər Soveti yanında Dövlət<br>
Təhlükəsizlik Komitəsinin sədri”

## V fəsil

# RESPUBLİKA RƏHBƏRLİYİNDƏ

*14 iyul 1969-cu il, Bakı*

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 14 iyul 1969-cu il tarixli plenumunun 16 nömrəli protokolu: «Tam məxfı» qrifi ilə yeddi makina səhifəsindən ibarət sənəd. Gündəlikdə olan məsələ: "Təşkilati məsələ. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi haqqında".

Məlum məsələdir ki, belə təşkilati məsələlər Moskvanın göndərdiyi yüksək qonağın iştirakı olmadan keçirilə bilməzdi. Bakıya Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi İvan Vasilyeviç Kapitonov gəlmişdi. İlk olaraq söz ona verilir.

Sizlərə məlumdur ki, – deyə Kapitonov zala müraciətlə sözə başlayır, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində son on ildə yoldaş Vəli Yusifoviç Axundov işləyirdi. Vəli Yusifoviç respublikanın iqtisadi və mədəni inikişafı üçün əlindən gələni etmiş, partiya təşkilatı və ideologiya sahəsində böyük işlər görmüşdür. Əfsuslar olsun ki, son vaxtlarda yoldaş Axundovun səhhətində problemlər yaranıb və o, özü də başa düşür ki, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi kimi yüksək vəzifənin öhdəsindən gəlmək

onun üçün çətindir. Bu səbəbdən də yoldaş Axundov Sovet İttifaqı Komnist Partiyası Mərkəzi Komitəsi ərizə ilə müraciət edərək, onu tutduğu vəzifədən elmi işə keçirməyimizi xahiş etmişdir.

Tibb elmləri doktoru və akademik Axundovun istəyinə böyük hörmətlə yanaşıldı. Plenumdan əvvəl, elə həmin gün o respublika Elmlər Akademiyasmın vitse-prezidenti vəzifəsinə seçildi.

– Təbiidir ki, – deyə Kapitonov davam edir, yoldaş Vəli Axundovu Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsindən və büro üzvlüyündən azad etməklə bərabər onun varisini də müəyyən etmək lazımdır. Bu vəzifəyə təyin edilmək üçün çoxsaylı namizədlər nəzərdən keçirilmişdir. Bu da təbiidir, çünki respublikada çoxsaylı bacarıqlı kadrlar vardır.

Bu məsələ çox ciddi şəkildə və hərtərəfli öyrənildikdən sonra respublikanızın Dövlət Təhlükəsizliyi Komitəsinin sədri yoldaş Heydər Əliyevin namizədliyi üzərində dayanmışıq.

Yəqin ki, zaldakıların heç biri üçün bu informasiya gözlənilməz olmamışdı. Vəli Axundov həqiqətən də üç aya yaxın idi iki, xəstəydi və Moskvada müalicə olunurdu. Brejnevlə görüşdə elmi işə keçirilməymi xahiş edərkən, o, hətta tibbi arayışını da göstərib demişdi ki, vəzifəmin öhdəsindən layiqincə gəlməyə səhhətim imkan vermədiyinə görə vicdan əzabı çəkirəm. Təbii ki, Axundov öz varislərinin adını da çəkmişdi. Amma bu dəfə seçimi o etmirdi.

Heydər Əliyev sonralar xatırlayırdı ki, hələ 1969-cu ilin əvvəllərində Moskvadan köhnə dostlarından biri ona zəng vurmuşdu. O, Əliyevə demişdi:

– Heydər, sən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə yeganə real namizədsən.

Xəbər Əliyev üçün gözlənilməz olmuşdu. Ola bilməz, inanmıram ki, məni belə bir yüksək vəzifəyə təyin etsinlər. Əgər belədirsə, nəyə görə mənim xəbərim yoxdur?

– Vaxt gələr, bilərsən. İndi isə yeni vəzifənə hazırlaş. Bu zəngdən üç ay sonra Heydər Əliyevi Moskvaya, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibiylə görüşə çağırdılar. O, özü bu həyati əhəmiyyətli görüşü belə xatırlayır:

"Kremldə Brejnevin iş otağına dəvət olundum. Leonid İliç məni xoş təbəssümlə qarşıladı. Aramızda belə bir söhbət oldu:

– Yoldaş Əliyev, biz qərara gəlmişik ki, sizin namizədliyinizi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə təqdim edək.

– Bunu özüm üçün böyük şərəf hesab edərəm, yoldaş Brejnev, amma mən bu vəzifəni istəmirəm.

– Necə yəni istəmirəm? Brejnev artıq dostyana "sən"müraciətinə keçdi. Biz sənə belə bir mühüm vəzifəni etibar edirik.

– Respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmaq ağır işdir. Buna görə də istəmirəm.

Amma Leonid İliç mənim etirazlarıma məhəl qoymadı. Aydın oldu ki, o, özü-özlüyündə artıq qərar qəbul edib. Siyasi Büroda da mənim namizədliyim müzakirə edilərək yekdil qərara gəlinib ki, indiki halda respublikanın rəhbərliyinə yalnız Əliyev məqsədəuyğundur".

Bu sətirlər Kremldəki həmin söhbətdən uzun illər ötəndən sonra qələmə alınıb. O günləri xatırlayan Əliyev qeyd edirdi: "Mənim Dövlət Təhlükəsizlik Komitəsindəki fəaliyyətimin üstünlüyü şəxsi işimin təmizliyi, qazandığım etimad və azərbaycanlıların hörməti idi. Mən elə düşünürdüm..."

Moskva öz seçimini etdi. Bakı da bu seçimi razılıqla qəbul etmişdi. Lakin hansı qeyd-şərtlərlə? İşdən gedən birinci katibin – V. Y. Axundovun öz varisinə verdiyi qiymətə nəzər salmaq məncə maraqlı olar:

"Yoldaş Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmaq üçün bütün siyasi və işgüzar keyfiyyətlərə malikdir. O, kifayət qədər savadlı,

erudisiyalıdır, qısa zaman ərzində böyük həcmli işlərə öyrəşmək üçün yetərincə hazırlıqlıdır. Bir kommunist kimi saf əqidəli, obyektivdir. Bütün bunlarsa onun kadrlara düzgün və obyektiv yanaşmasına imkan verəcək. İndiki vəziyyəti və keçmişimizi nəzərə alsaq, deyə bilərik ki, kadr məsələləri Azərbaycanda ən əhəmiyyətli məsələdir. Biz Heydər Əliyevi təmiz, saf əqidəli kommunist kimi tanıyırıq"[1].

Heydər Əliyev isə birinci katib seçilən kimi ilk olaraq bunları dedi:

"Mənə təzəcə tapşırılan bu vəzifənin bütün məsuliyyətini dərk edirəm. Qarşıma qoyulan öhdəliklərin çətinliyini, ağırlığını anlayıram və var qüvvəmlə çalışacağam ki, mənə göstərilən etimadı doğruldum. Bu işlərin öhdəsindən layiqincə gəlməkçün ilk olaraq Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin bütün heyətinin, büro üzvlərinin, partiya, sovet və təsərrüfata rəhbərlik edən bütün işçilərin və xalqın köməyinə ümid bağlayıram. Mənə elə gəlir ki, bizim gələcək uğurlarımızın rəhni yalnız aktiv, birgə zəhmət ola bilər"[2].

Əliyevin birinci katib seçilməsi həm respublikada, həm də onun hüdudlarından kənarda, Sovet Sosialist Respublikaları İttifaqında və xaricdə böyük əks-səda doğurdu. Praqa hadisələrindən bir il ötürdü, sovet tankları "Praqa baharı"-nın qısa tarixinə nöqtə qoymuşdu. Kreml ideoloqları bütün xətlər üzrə "qaykaları" möhkəmlətməklə məşğul idi və Dövlət Təhlükəsizlik Komitəsi sədrinin yüksək partiya iearxiyasının başına gətirilməsi hamı üçün – partiya və liberal kadrlar üçün bir siqnal idi.

O vaxtdan bəri Heydər Əliyev dəfələrlə zarafatla qeyd etmişdi ki, onun şəxsi təqvimində də Bastiliyanın alınması günü var. Əlbəttə ki, 1789-cu il Paris hadisələriylə analogiya şərtidir. Bizim hekayətimizin qəhrəmanı hakimiyyət qa-

---

1 Azərbaycan Respublikası Siyasi Partiyalarının və Hərəkatlarının Mərkəzi Dövlət Arxivi F.l Q 56. İş 4. s. 5

2 Yenə orada F.l. Q.56. İş 4. s.16

lalarını hücumla almayıb. Yeni vəzifə ( yeni və daha böyük miqyaslı məsuliyyət) onun etdiklərinin və edə biləcəklərinin etirafı kimi həmişə özü onun ayağına gəlib. Hamı əmin olub ki, təbiətən istedadlı olan bu adam daha böyük miqyaslı işlər görməyə qadirdir. Leonid İliçlə görüşü və respublikanın rəhbəri seçilməsiylə bağlı xatirələrini Heydər Əliyev belə bitirir: “Taleyimdəki bu dəyişiklik mənə öz xalqıma, millətimə daha çox, daha yaxşı xidmət göstərməyim üçün şərait yaratdı”.

Əliyevin Leonid İliçin yanından çıxdıqdan sonra görüşdüyü ilk adam Filipp Denisoviç Bobkov oldu. Üstündən neçə onillər ötsə də o görüş bütün detallarına qədər indiyədək general Bobkovun xatirindədir.

“Qəfildən xəbərdarlıqsız-fılansız Əliyev mənim yanıma gəldi. İlk baxışdan görünürdü ki, yaman həyəcanlıdır.

– Filipp Denisoviç, sizinlə məsləhətləşmək istəyirəm. Olarmı ki, tapşırasnız, heç kim bizə mane olmasın. Əlbəttə, mən razılaşıb telefonları söndürdüm.

Heydər Brejnevin yanından indicə gəldiyini bildirdi: “Məni respublikanın rəhbəri seçmək istəyirlər. Gəldim ki, səninlə danışım, məsləhətləşim. Orqanlardan çıxıb getmək istəmirəm, hərçənd ki, artıq razılıq vermişəm”.

Elə bu vaxt daxili telefonla Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini Semyon Kuzmiç Sviqun mənə zəng vurdu.

– Mənə bax, Filipp Denisoviç, Heydər Əliyevi görməmisən?

– Nə olub ki?

– Qapıdan mənə dedilər ki, komitənin binasına daxil olub.

Amma heç yerdə tapa bilmirəm.

Heydər əlini yellətdi ki, mənim burda olduğumu demə.

– Görsəm deyərəm ki, sizin yanınıza getsin.

Sonra biz ikilikdə söhbətimizi davam etdirdik.

– Əlbəttə ki, mən, – deyə Əliyev daxili narahatlığını bölüşməyə başladı, – Brejnevin təklifindən imtina edə bil-

məzdim. Bu, böyük etimaddır. O, ilk olaraq hansı mühüm sahələrlə məşğul olmağı, respublikanın geriliyini aradan qaldırmaq üçün cəmiyyətimizi yeyib-dağıdan korrupsiya ilə mütləq ciddi mübarizə aparmağın gərəkli olduğunu bildirdi".

**"Söyləyin, o, təmiz adamdırmı?"**

Onlar bir də neçə il sonra Bakıda görüşdülər. Bobkov soruşdu:

– Rüşvətxorluğa qalib gələ bildinmi?

Heydər Əliyev cavab verdi:

– Hələlik ona təminat verə bilərəm ki, Azərbaycan Mərkəzi Komitəsində heç kim rüşvət almır.

Bəs Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsində? Sadəlövh sualdır. Elə həmin Bobkov «Dövlət Təhlükəsizlik Komitəsi və hakimiyyət» kitabında yazır: "Brejnevə ağlasığmaz bahalı hədiyyələr verirdilər; məsələn əziz Leonid İliçə Gürcüstanda qızıl samovar vermişdilər. Özbəkistanda respublikanın birinci katibi Şərəf Rəşidov Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü Kirilenkoya xanımı və qızı üçün məxsusi aşılanmış qaragül dərisindən kürklər hədiyyə etmişdi".

Hamı, daha doğrusu, demək olar ki, hamı rüşvət alırdı. Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini kimi informasiyalı bir adamın dediyinə görə, almayan cəmi bir neçə adam vardı: A.N.Kosıgin, Y.N. Andropov...Onların da ətrafına təmiz, düzgün əxlaqlı təşkilatçı adamlar toplaşmışdı. Respublikalarda da belələri az deyildi. Ukraynada Vladimir Vasilyeviç Şerbitski, Aleksandr Pavloviç Lyaşko, Belorusiyada Pyotr Mironoviç Maşerov, Azərbaycanda Heydər Əliyev, Sverdlovskda Nikolay İvanoviç Rıjkov, Krasnoyarsk vilayətində Vladimir İvanoviç Dolgix, Saratovda Vladimir Kuzmiç Qusev kimiləri yeni formasiyaya məxsus partiya və dövlət xadimləriydilər.

Onlar xalqa xidmət etməyi adi öhdəçilik kimi boş bir şey yox, həqiqətən yüksək ideal hesab edirdilər.

Azərbaycana rəhbərlik etməyə başlayanda Heydər Əliyev, demək olar ki, respublikanın kadr korpusunu artıq yaxşı tanıyırdı. Kimləri vəzifədən uzaqlaşdırmağın lazım gəldiyini, hansı sahələri möhkəmlədəcəyini əvvəlcədən bilirdi. Vəzifəyə təyin etmək üçün yeni kadrı ona təqdim edəndə ən birinci sual bu olurdu: "Deyin görüm, o, düzgün, təmiz adamdırmı?" Yalnız bundan sonra təqdim olunan kadrın ixtisas göstəriciləri, insanlarla işləmək bacarığı və savadı ilə maraqlanırdı. Onun üçün namizədin təmiz adam olması əsas idi. Əks halda rüşvətxorluq halqasını qırmaq qeyri-mümkün idi. Azərbaycanda altmışıncı illər üçün tipik olan bir hadisə: sovxoz direktorunu rüşvətxorluq üstündə işdən çıxarırlar. Elə o saat da başqa bir rayonda eyni vəzifəyə təyin edirlər. Kommunist Ramiz Tahir oğlu Tahirov Mərkəzi Komitəyə yazır:

"Xahiş edirəm ki, mənim bu kiçik məktubumu diqqətlə oxuyasınız. Məncə, fikirlərim bizim xalqımız, dövlətimiz, partiyamız üçün çox vacibdir..." Laqeyd olmağı bacarmayan bu adam məhv edilmiş üzüm, ərik bağları haqqında, hər il 20-30 hektar sahəyə qarpız əkib pulunu öz cibinə qoyan işbazlar barədə ürək ağrısı ilə yazırdı. O bildirirdi ki, bu, dövləti və xalqı aldatmaqdan başqa bir şey deyil.

Başqa bir rayonda kolxozçular dələduzluqda ad çıxarmış bir kolxoz sədrini qəbul etməkdən qəti imtina etmişdilər. Rayon partiya komitəsinin katibi keçirilən iclasa milis çağırmışdı. Kolxozçular isə qışqıraraq ona cavab vermişdilər: "Biz qəzet, jurnal oxuyuruq. İndi ayrı zamandır, daha hədə – qorxu ilə, milisin təzyiqi ilə kolxoz sədri seçmirlər..." Səfəvilər dövründə (XVI əsr) valini soruşanda deyirdilər: "Sizin vilayəti kim yeyir?" Bəli, idarə edir yox, məhz yeyir....

Lakin Mərkəzi Komitənin birinci katibi Heydər Əliyev tamam başqa cür düşünürdü. Onun fikrincə, partiya işinə perspektivli, gənc, enerjili, professional cəhətdən yaxşı hazırlığı olan və təmiz adamlar lazım idi.

Rayonlara rəhbər təyin edəndə Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibinin ilk məsləhəti belə olurdu: – Nəzərə alın ki, hamı raykomun katibinə baxır. Onun necə danışmağı, necə oturub-durmağı, hətta maşına əyləşməyi həmişə diqqət mərkəzində olur. Raykom katibi vəzifəsində olsanız da, özünüzü partiya çinovniki kimi yox, sadə adam kimi aparın.

O vaxt Bakıda on rayon, deməli on rayon partiya komitəsinin I katibi (raykom) vardı. Sonralar Heydər Əliyevə irad tuturdular ki, guya, o, yalnız öz naxçıvanlılarını irəli çəkir. Lakin Bakının raykom katibləri arasında bir nəfər də olsun naxçıvanlı yox idi. Məsələn, Oktyabr (indiki Yasamal) rayonuna bakılı, Qaradağ rayonuna milliyyətcə rus, Kirov rayonuna isə erməni rəhbərlik edirdi. Daha bir kadrı Şamaxıdan dəvət etmişdilər. Yox, burada qohumbazlıqdan söhbət gedə bilməzdi. Onların hər biri özlərini elmdə, istehsalatda təsdiq etmiş, cəmiyyətdə nüfuz qazanmış insanlar idi.

Təmizliyinə əmin olduğu kadrlar barədə yazılan anonim məktublara da Heydər Əliyev heç vaxt ciddi əhəmiyyət vermirdi. Yəqin ki, özü də yuxarılardan özünə qarşı eyni münasibəti gözləyirdi. Lakin Moskvada işlədiyi müddət ərzində Mərkəzi Komitəyə və Nazirlər Sovetinə onun haqqında anonim məktublar gələndə bircə Nikolay İvanoviç Rıjkov bu məktublara yox, Heydər Əliyevin özünə inanmışdı.

## Hər şeyi kadrlar həll edir

Siyasətçi, dövlət adamı və ya ictimai xadim, təsərrüfatçı vəzifə pillələriylə nə qədər yuxarı qalxırsa, o qədər tez-tez kadrlarla bağlı qərarlar qəbul etməli olur. Bu böyük oyunda səhv addımlar da istisna deyil. Bu səhvlərdən nə prezidentlər, nə imperatorlar, nə də baş katiblər sığortalanıblar. Kadr siyasəti barədə professorlar, alimlər çoxsaylı kitablar yazıblar, ağıllı məsləhətlər veriblər. Amma insanın şüuru belə qurulub: o çox vaxt yalnız şəxsən tanıdığı adamlara etibar edir.

Məhz bu səbəbdən Brejnevin vaxtında onunla şəxsən işləmiş Dnepropetrovsk kadrları, Yeltsinin vaxtında Ural kadrları, Putinin vaxtında Peterburq kadrları Moskvaya dəvət olunur, irəli çəkilirdilər.

Respublikaya rəhbərlik etməyə başlayan Heydər Əliyev də əsasən öz çekist həmkarlarına bel bağlayırdı. Mərkəzi Komitənin büro üzvləri və öz katibləriylə kadr məsələlərini müzakirə edəndə, o, Dövlət Təhlükəsizlik Komitəsinin əks-kəşfiyyat idarəsinin rəis müavini Ziya Məmməd oğlu Yusifzadəni Mərkəzi Komitənin inzibati orqanlar şöbəsinə müdir təklif etmişdi. Heydər Əliyev Ziya Yusifzadənin insani və işgüzar keyfiyyətlərini hələ komitədə həmkar olduğu vaxtlarda qiymətləndirə bilmişdi. Əmin idi ki, o, respublikanın bütün hüquq-mühafizə orqanlarının tabe olduğu Mərkəzi Komitənin inzibati orqanlar şöbəsinin işinin öhdəsindən uğurla gələcək. Beləliklə, Mərkəzi Komitənin üzvlüyünə namizədlərin sırasına Ziya Yusifzadənin adı da əlavə olundu. Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi müddətdə o, ali partiya rəhbərliyinə daxil deyildi, buna görə də Mərkəzi Komitənin üzvlüyünə namizədliyi onun karyerasında bir yüksəliş kimi qiymətləndirilirdi. Hamı zəng vurub onu təbrik edirdi.

Bir-iki gün gözlədikdən sonra Ziya birinci katibə zəng vurdu:

– Heydər Əliyeviç, məni nəyə görə Mərkəzi Komitə üzvlüyünə namizəd seçdilər? Zənglərin əlindən işləmək olmur.

Cavab qısa oldu:

– Bir azdan biləcəksən.

İki gün sonra Heydər Əliyev onu öz kabinetinə çağırıb yeni vəzifəyə təyin olunması barədə məlumat vermişdi. Birinci katib əmin idi ki, Ziya Yusifzadə razılıq verəcək. Amma Ziya öz karyerasının istiqamətinin dəyişəcəyini görüb az qala yalvarmağa başladı. Xatırlatdı ki, təhlükəsizlik orqanlarında işə başlamazdan əvvəl də xeyli düşünmüşdü, axırda özünü bu sənətə həsr etmək qərarına gəlmişdi.

– İndi-indi bu işə alışıram, sizə məlum olan əməliyyatları aparıram. Yenidən fəaliyyət sahəsini dəyişib, bilmədiyim işdən yapışmaq məni qorxudur. Heydər Əliyev keçmiş həmkarına baxıb deyir:

– Maraqlıdır.

Həqiqətən də maraqlı situasiya yaranırdı. Ziya Yusifzadənin Mərkəzi Komitənin üzvlüyünə namizəd seçilməsiylə bağlı birinci katibin təklifini katiblik dəstəkləmişdi. Bəs indi onun nüfuzu necə olsun? Bəs partiya intizamı? Əliyevi başqalarının söhbətlərindən tanıyan adamlar elə hesab edirdilər ki, o, öz qərarlarını dəyişməyi xoşlamır və onunla bu xüsusda mübahisə etməmək daha məsləhətdir. Əlbəttə, bu fikir tam elə deyil və Ziya Yusifzadənin təyinatının baş tutmaması heç də yeganə fakt deyil, amma hər halda bunun özü də sübut edir ki, həmsöhbətinin arqumentləri inandırıcı, həqiqətə uyğun olarsa, Heydər Əliyev öz qərarını dəyişə bilərdi. Bəs onun nüfuzuna xələl gəlmədimi? Partiya inzibatçılarının başqa səbəb olmayanda istinad etdikləri partiya intizamı pozulmadımı? Ritorik suallardır.

– Yaxşı,- deyə Heydər Əliyev Yusifzadənin işi olan qovluğu kənara itələdi, – bəs indi neyləyək? Özün bilirsən ki, burada təmiz, düzgün adamlara necə böyük ehtiyac var. Başa düşürəm. Ona görə də bu vəzifəyə başqa bir ləyaqətli insanı seçməyinizi xahiş edirəm.

Yusifzadə Dövlət Təhlükəsizlik Komitəsində fəaliyyətini davam etdirdi, böyük intellektual potensialını əks-kəşfiyyat və kəşfıyyat işlərinə sərf etdi və general-leytenant rütbəsinə qədər yüksəldi.

Sələfı Heydər Əliyevlə söhbətində "bizim bütün kadrlara eyni münasibət göstərməyin" vacibliyini demişdi. Prinsipcə belə olmalıdır, nə demək olar. Yəni obyektiv ol, insanları işə olan düzgün münasibətinə görə qiymətləndir. Daha keçmiş hakimiyyətə şəxsi sədaqətə görə yox.

Yeni birinci katib tezliklə hiss etdirdi ki, "bizim bütün kadrlarımıza eyni münasibət" mümkün olmayacaq və partiya ko-

mitələrinin, nazirlik və təşkilatların, ali məktəblərin rəhbərliyində rüşvətxorlara, dələduzlara, işbazlara yer qalmayacaq. Daxili İşlər Nazirliyinə professional kəşfiyyatçı, büllur kimi təmiz insan olan Arif Heydərov rəhbərlik etməyə başladı. Əlbəttə, kəşfiyyat öz istedadlı, bacarıqlı kadrından məhrum olmaq istəmirdi, amma Andropov kömək etdi, Arif Heydərovu Türkiyədən geri çağırıb daxili işlər naziri təyin etdilər.

Biz arxivdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin baxdığı onlarla işi vərəqləmişik. Belə görünür ki, vəzifəsindən, rütbəsindən asılı olmayaraq, hamıya eyni tələbkarlıqla yanaşılıb. Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini İqor Sinitsinin fıkrinə görə, Heydər Əliyev korrupsiyaya nifrətinə və bir çox işgüzar keyfıyyətlərinə görə Yuri Vladimiroviç Andropova çox bənzəyirdi.

Bəzi faktlara nəzər salaq:

"Bizə göndərilən faktlara və məktublara əsasən müəyyən edilmişdir ki, Partiya Təşkilatı Komitəsinin sədr müavini C.N. Bağırov özünü kommunist və partiya işçisi kimi gözdən salan bəzi nalayiq hərəkətlərə yol vermişdir. Bağırov məvacibinə uyğun həyat tərzi keçirməmiş və bunları ört-basdır etmək üçün bir çox dələduz hərəkətlərə yol vermişdir. Belə ki, o, bahalı avtomobil, bağ sahəsi almış və orada böyük malikanə, qaraj və hovuz tikdirmişdir. İstifadə edilmiş tikinti materiallarının əksəriyyəti də sənədsizdir.

Kommunistə və partiya işçisinə yaraşmayan hərəkətlərinə, mənəvi pozğunluğuna, öz vəzifə səlahiyyətlərindən şəxsi məqsədləri üçün istifadə etdiyinə görə Bağırov Camal Nəsrəddin oğlu (1961-ci ildən partiya üzvü. Partiya biletinin nömrəsi – 02800043) Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin şöbə müdiri vəzifəsindən azad edilsin və partiya sıralarından kənarlaşdırılsın.

Şamaxı rayonunda Pedaqoji Texnikumda kütləvi rüşvətxorluq, bundan əlavə ayrı-ayrı vəzifəli şəxslərin dövlət əmlakını mənimsəməsi hallarının üstü açılmışdır. Azərbay-

can Kommunist Partiyası Mərkəzi Komitəsi Şamaxı Rayon Partiya Komitəsinin katibi S.A.Sayılov yoldaşı vəzifəsindən azad etmiş və Rayon Partiya Komitəsində kompleks yoxlama tədbirləri apararaq, raykom katibinin "partiya məsuliyyətiylə bağlı məsələyə baxılması barədə sərəncam vermişdir".

Eyni hallar Kirovabad və Xaçmaz rayon partiya komitələri üzrə, Respublika Tikinti və Tikinti Materialları Sənayesi İşçilərinin Həmkarlar İttifaqı Komitəsi, M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutu, Respublika Prokurorluğu üzrə də müəyyənləşdirilmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi inanırdı ki, rüşvətxorluq və korrupsiya ilə yalnız bu cür açıq mübarizə aparmaq lazımdır. Hərçənd ki, belə açıq mübarizəyə görə o, Moskvanın və digər respublikalardakı həmkarlarının müəyyən təzyiqi ilə də üzləşməli olurdu. Heydər Əliyev özü bu barədə belə deyirdi:

"Yadımdadır, 1975-ci ildə biz bir raykom katibini işdən azad edib, partiyadan çıxarıb, işini hüquq-mühafizə orqanlarına vermişdik və bu məsələylə bağlı bütün materialları respublika qəzetlərinin birində çox geniş şəkildə dərc etdirmişdik. Həmin ərəfədə mənimlə görüşən qonşu respublikalardan birinin Mərkəzi Komitəsinin birinci katibi soruşdu ki, niyə belə edirsiniz? Bu yaxınlarda bir çox rayon partiya komitələrinin katibləri mənim yanıma gəlmişdilər. Onlar deyirdilər ki, Əliyev belə etməklə ümumilikdə raykom institutunu gözdən salır. Mən ondan soruşdum ki, sizin özünüz bu fikirlə razısınız? O dedi ki, razı deyiləm. Amma belə məsələləri ictimaiyyətə çatdırmağın da tərəfdarı deyiləm.

Mənsə cavab verdim ki, ikisini, üçünü, beşini cəzalandırıb, bunu bütün respublikanın nəzərinə çatdırıram ki, digərləri ibrət götürsünlər, belə neqativ addımlar atmaqdan çəkinsinlər"[1].

---

[1] 11 mart 2001, Bakı, Skandinaviya və Rusiya jurnalistlərinə verdiyi müsahibədən

...Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqına (ÜİLKGİ) ikinci katibi olan Boris Pastuxovun Heydər Əliyevlə tanışlığı da sözü gedən 1970-ci illərə təsadüf edir. Boris Nikolayeviç Bakıya, Azərbaycan komsomolçularının qurultayına gəlmişdi. Heydər Əliyevin partiya rəhbəri kimi fəaliyyətini yüksək qiymətləndirən Pastuxov, onun gənclərə böyük qayğı ilə yanaşdığını xüsusi qeyd edir.

Əliyev gənclərlə yaxından məşğul olmaq çağırışını ilk növbədə özünə ünvanlayırdı. Respublikanın ilk Lenin təqaüdçü gənclərinin və Moskvaya göndərilən bacarıqlı tələbələrin sırasında istedadlı riyaziyyatçı Fatma Abdullazadə də vardı.

İndi riyaziyyat elmləri doktoru olan Fatma xanım Prezidentin özü də bunu unutmamışdı.

Boris Pastuxov xatırlayır:

– Biz Azərbaycan komsomolçularının qurultayında kosmonavt Patsayevlə birgə iştirak edirdik. Sonralar o, Dobrovolski və Volkovla birgə uçuş zamanı həlak oldu. Mənə ən maraqlı gələn isə o idi ki, Heydər Əliyev bu kosmonavtla ünsiyyətə böyük maraq göstərir, onu həmişə qeyri-formal şəraitdə kosmonavtika barədə sorğu-suala çəkirdi. Mən ilk dəfə o vaxt başa düşdüm ki, bu insan hər şeylə maraqlanır, onda zərrə qədər də tənbəllik yoxdur.

## Yerinə yetirilmiş borc

1971-ci il martın 30-da Moskvada Sovet İttifaqı Kommunist Partiyasının XXIV qurultayı açıldı. Aprelin biri, səhər iclasında Heydər Əliyev çıxış edir. O, ilk dəfədir ki, qurultayın tribunasındadır. Özünü çox sərbəst aparır, kifayət qədər inamlıdır. O, respublika sənayesinin ümumi inkişafdan geri qalmasının aradan qaldırılmasından və bir il əvvəl Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsində, Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetində qəbul olunmuş “Azərbaycan Sovet Sosialist Respublikasında xalq

və kənd təsərrüfatı sahələrinin inkişafına dair tədbirlər planı"nın həyata keçirilməsindən danışır:

– Bu beşillikdə Azərbaycanda yüzə qədər yeni sənaye müəssisəsinin tikilib istifadəyə verilməsi planlaşdırılır. Bu, ötən "beşillik"dəkindən demək olar ki, iki dəfə çoxdur. Respublikamızda maşınqayırma sənayesinin yeni sahələri yaradılacaq, neftayırma sənayesi, dəmiryol nəqliyyatı rekonstruksiya ediləcək, kimya, yeyinti və digər sənaye sahələrinin yüksək sürətlə inkişafına təkan veriləcək. Beş il sonra isə o, artıq XXV qurultayın tribunasından fəxrlə deyirdi:

– Böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycanın qarşısında qoyulmuş vəzifələr uğurla həyata keçirilmişdir. İqtisadiyyatın uzunmüddətli geriləməsi aradan qaldırılmış və onun inkişafında dönüş yaranmışdır. Uzun illər ərzində ilk dəfədir ki, əsas iqtisadi göstəricilər üzrə beşillik plan artıqlamasıyla yerinə yetirilmişdir. Azərbaycan xalq təsərrüfatının inkişafında əvvəllər görünməyən yüksək göstəricilər əldə etmişdir.

2000-ci ilin mayında Azərbaycanın Prezidenti Gəncə şəhərinə gəlmişdi. O, Gil-Torpaq Emalı Birliyinin işçiləriylə də görüşdü. Bu istehsalat birliyi ilk məhsulunu 1969-cu ildə istehsal etmişdi. Hiss olunurdu ki, o vaxtkı əlamətdar hadisəni xatırlamaq Heydər Əliyev üçün nə qədər xoşdur.

Həmin görüşdə Prezident demişdi:

– 1969-cu ildə mən respublikanın rəhbəri seçilmişdim. O vaxt bu kombinat yarımçıq vəziyyətdəydi. Tikinti-montaj işləri başa çatdırılmamışdı, bəzi sexlər isə hələ heç tikilməmişdi. Bununla bərabər, kombinat işə başlamışdı. O vaxtlar kombinatın vəziyyəti, tikintinin gedişatı, demək olar ki, hər gün müzakirə olunmurdu. Proseslər çətinliklə gedirdi. Yaxşı ki, indi burada çox yüksək ixtisaslı kollektiv formalaşdırılıb; mühəndislər, texniklər... Amma o vaxt belə deyildi. İstehsalatın qaydaya salınması üçün kadrlar az idi. Kadrların çoxunu Rusiyadan və Sovet Sosialist Respublikaları İttifaqının başqa vilayətlərindən dəvət edirdik.

Maraqlıdır ki, otuz il keçməsinə baxmayaraq, Heydər Əliyev kombinatın o vaxtkı direktorunun soyadını da xatırladı: Yamov.

Xülasə, zavod istifadəyə verildi, lakin bundan sonra ortaya elə problemlər çıxdı ki, layihələndirmə zamanı onları unutmuşdular: əgər unutmamışdılarsa da, müəyyən qədər maddi vəsaitə qənaət etmək üçün bu problemləri nəzərə almamışdılar. Çünki təmizləyici qurğulara o vaxt bir o qədər də əhəmiyyət verən yox idi. Zavod işə düşdükdən sonra bütün şəhər, ilk növbədə isə Nizami Gəncəvinin yaxınlıqda yerləşən məqbərəsi toz dumanına bürünməyə başladı. İlk olaraq mədəniyyət və incəsənət xadimləri həyəcan siqnalı verdilər. Mütəfəkkirin bu fikirlərini xatırlatdılar:

*Bu ana torpağa baş əysən əgər,*
*Onun hər qarışı sənə verər zər.*

– Yadımdadır, – deyə Heydər Əliyev xatırlayırdı, – şair Rəsul Rza, Süleyman Rüstəm, bəstəkar Qara Qarayev, Fikrət Əmirov və başqa bir neçə nüfuzlu mədəniyyət xadimi mənə məktubla müraciət etdilər. Onlar Nizami məqbərəsinin belə acınacaqlı hala düşməsindən narahatçılıqlarını bildirirdilər. Ziyalılar fıkirləşirdilər ki, əgər burada belə böyük bir müəssisə tikilibsə, yəqin ki, onu harasa köçürtmək mümkün olmaz, elə isə Nizaminin məqbərəsi bir başqa yerə köçürülsün, yoxsa tamamilə bərbad vəziyyətə düşəcək. Dəqiq yadımdadır, qarşıma iki çıxış yolu qoyulmuşdu: ya kombinatı dayandırmaq, ya da məqbərəni başqa yerə köçürtmək. Bu cür kombinatları hər il tikmək mümkündür, amma Nizami bizim üçün elə qiymətli xəzinədir ki, onu heç nə ilə müqayisə etmək olmaz. Buna görə də məqbərənin yerinin dəyişdirilməsi bizimçün mənəvi cəhətdən də çox ağır idi və biz heç vaxt bu addımı ata bilməzdik.

Yerində bu məsələni həll etmək mümkün olmadı. Mərkəzi Komitənin birinci katibi kömək üçün Moskvaya müraciət etdi. Onu paytaxtda Sovet Sosialist Respublikaları İttifaqı

Nazirlər Sovetinin sədri Aleksey NİkolayeviÇ Kosıgin qəbul etdi və birbaşa dedi:

– Əgər hər hansı bir işi başlamısınızsa, yarımçıq saxlamayın, başa vurun. Yoxsa hər dəfə gəlib şikayət edirsiniz ki, oranı toz basdı, buraya duman gəldi...

Kosıgin Əliyevə Kirovabad kombinatıyla bağlı hadisəni danışdı.

...50-ci illərin əvvəllərində Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Mircəfər Bağırov Moskvaya, İosif Vissarionoviç Stalinin yanına gəlib Daşkəsəndən gətirdiyi alunit nümunələrini ona göstərir və böyük qürurla qeyd edir ki, bu mineraldan qlinozem – gil-torpaq alınır. Gil-torpaq olmadan isə hamıya məlumdur ki, alüminium – qanadlı metal istehsal etmək mümkün deyil. Dünya praktikasında qlinozemi adətən boksitlərdən əldə edirlər. Sovet Sosialist Respublikaları İttifaqında isə boksitlər çatışmadığından xarici ölkələrdən idxal edilirdi.

Bir sözlə, Stalin Bağırovun Azərbaycanda strateji cəhətdən vacib olan gil-torpaq istehsal edən müəssisənin yaradılması təklifini qəbul edir və o vaxt Nazirlər Soveti üzrə köməkçisi olan Kosıginə bu məsələ ilə məşğul olmağı tapşırır.

– Mən də məşğul olmağa başladım, – deyə Kosıgin sözünə davam edir. – Layihələr hazırlandı, oraya mütəxəssislər göndərildi, indi isə siz mənim yanıma hər dəfə bir şikayətlə gəlirsiniz.

O uzaq illərdəki görüşünü yadına salan Prezident tez-tez özünə sual verirdi ki, görəsən mən səhv etməmişəm ki?

– Yox, səhv etməmişəm. Çünki alunit həqiqətən də təbiətin bizə bəxş etdiyi əhəmiyyətli bir sərvətdir və biz ondan istifadə etməliyik. Lakin elə yüksək səviyyəli texnologiyalardan istifadə etməliyik ki, istədiyimiz xammalı əldə etməklə bərabər, ətraf mühiti də zəhərləməyək.

Mərkəzi Komitənin birinci katibinin göstərişiylə respublikanın görkəmli alimlərindən və mütəxəssislərindən ibarət

nüfuzlu bir komissiya yaradılır. Beləliklə, Azərbaycan ədəbiyyatının korifeyini yaxınlığındakı yeni sənaye nəhəngi ilə "barışdırmaq" mümkün oldu. İndi Gəncədən çıxarılan gil-torpaq emal edilmək üçün Rusiyaya və Tacikistana aparılır. Müəssisənin gözəl perspektivləri var, həm də respublika üçün əhəmiyyətli olan yeni iş yerlərinin açılması deməkdir.

2000-ci ilin həmin may günlərində Heydər Əliyev Cihazqayırma İstehsalat Birliyində də oldu. Burada başqa sənaye məhsullarıyla yanaşı, soyuq və isti su sayğacları da istehsal olunurdu. Yenə də Heydər Əliyev 70-ci illəri xatırladı:

– 1975-ci ildə biz Azərbaycanın cihazqayırma sənayesinin inkişafı üçün çox əhəmiyyətli olan bir qərar qəbul etdik. Əslinə qalanda, bu qərar bizim yox, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin və Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin qərarıydı, bizsə bu qərara uyğun olaraq, Azərbaycanda bir çox cihazqayırma müəssisələri yaratdıq. Həmin qərarın fəaliyyət planında bu zavodun inkişafı da nəzərdə tutulmuşdu... Zavodun böyük gələcəyi var. Bu, məni çox sevindirir, çünki vaxtilə mən bu zavodun tikilməsi və moderiləşdirilməsi üçün çox işlər görmüşdüm. Bu gün bir daha əmin oluram ki, zəhmətim hədər getməyib, indi öz bəhrəsini verir. Bu zavodun məhsulları həm Azərbaycana, həm də xarici bazara çox lazımdır.

İndi bir çoxları sovet dövrünü yalnız qara rənglərlə təsvir edir. Yadımdadır ki, 1990-cı ildə Moskvada Sadovoye Koltso ətrafına yığılmış nümayişçilər "73" rəqəmini transparanta yazıb üstündən də qırmızı xətt çəkmişdilər. 73 rəqəmi sovet hakimiyyətinin rəmzi kimi yazılmışdı.

Amma tezliklə bu adamlar ayıldılar. Ölkədə elmi-tədqiqat institutları bağlandı, elmi işçilər, elmlər namizədləri, doktorlar ixtisara salındı. Elə bil ki, bu adamlara bazar iqtisadiyyatında öz yerlərini göstərirdilər – buyurun, gedin metro stansiyalarında siqaret, saqqız satın, pal-paltar alveriylə məşğul olun....

Heydər Əliyev heç vaxt öz keçmişindən imtina etməyib. Azərbaycanın yetmiş illik sovet tarixini qiymətləndirərkən, o, inamla deyirdi: "Bu illərdə Azərbaycanın maarifi, təhsili, mədəniyyəti, iqtisadiyyatı böyük sürətlə inkişaf etmişdi. Azərbaycanın siması dəyişmişdi, respublikamız möhkəmlənmişdi və Azərbaycanda böyük intellektual potensial yaradılmışdı".

Bu, həqiqətən də belədir. Yetmiş illik sovet dövrünün təqribən beşdə bir hissəsini – on dörd ilini Azərbaycana Heydər Əliyev rəhbərlik etmişdir. O, iqtisadiyyatın, elmin böyük sıçrayışla irəli getməsinə, öz xalqının mənəvi yaddaşını dirçəltməyə nail olmuşdu. Söhbətin bu yerində dəqiq statistik məlumatlara nəzər salmaq yerinə düşər: Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda 1155 kitabxana, 1316 klub, 849 məktəb, 44 muzey istifadəyə verilmişdi. 1971-ci ildə respublikada Cəmşid Naxçıvanski adına hərbi təmayüllü ilk internat-məktəbin yaradılması da onun adıyla bağlıdır. Azərbaycanın görkəmli generalının adını daşıyan bu məktəb hal-hazırda hərbi lisey kimi fəaliyyət göstərir. Bu liseyin əsl hərbi təhsil ocağı kimi formalaşmasına ciddi nəzarət edən Heydər Əliyev onu müəyyən mənada, öz yetirməsi hesab edirdi. Əlbəttə ki, bu da uzaq gələcəyə hesablanmış bir addım idi. Heydər Əliyev hiss edirdi ki, gələcəkdə doğma respublikaya öz hərbi kadrları lazım ola bilər.

Eyni zamanda, bu addım "azərbaycanlılar yalnız alveri bacarırlar" deyən bədnam qonşulara inamlı cavab idi. Bəli, azərbaycanlılar ticarəti yaxşı bacarırlar və bu hörmətli peşə ilə fəxr edirlər, çünki bəşər yaranandan bəri insanların ticarətsiz yaşaması mümkün deyil.

Amma bununla bərabər, azərbaycanlılar ta qədimdən anda sadiq və cəsarətli əsgər, məğrur döyüşçü olublar. Təəssüf ki, Rusiyada bir çoxları bilmirlər ki, hələ iki yüz il əvvəl, Krım müharibəsində rus qoşunlarının sırasında dörd azərbaycanlı polku da böyük şücaətlə vuruşmuşdur. Azərbaycanlı döyüşçülər Birinci Dünya müharibəsi və Böyük Vətən

müharibəsi cəbhələrində də özlərini yalnız yaxşı tərəfdən göstərmişlər. Onlardan yüz iyirmisi Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüşdür.

Mixail Qusman 70-ci illərdə Azərbaycan komsomolunun Mərkəzi Komitəsində işləmişdir. Sonralar Moskvaya köçmüş, İTAR-TASS informasiya agentliyində fəaliyyətə başlamışdır. Hal-hazırda dünyanın ən məşhur agentliklərindən olan İTAR-TASS-ın baş katibinin birinci müavini vəzifəsində çalışır. Onu da qeyd edək ki, Tver bulvarında yerləşən bu binanı TASS-çı veteranlar "Əliyev binası" adlandırırlar, çünki Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetində işlədiyi vaxt məhz Heydər Əliyevin sərəncamı ilə burada İTAR- TASS agentliyi üçün yeni bina tikilməsinə başlanmışdı. Mixail Solomoroviç Qusmanın kabinetində elə indinin özünə qədər Azərbaycanın böyük xəritəsi asılıb.

– Axı, bu mənim vətənimdir, – Qusman baxışlarını xəritəyə zilləyir, – mən indi də Azərbaycanda baş verən hadisələri çox diqqətlə izləyirəm. Bilirsiniz, illər keçəndən sonra insan bir çox hadisələrə tamam başqa gözlə baxır, o cümlədən də hərbi təmayüllü internat-məktəbin yaranmasına. Azərbaycanlı uşaqların hərbi xidmətə onsuz da çox həvəsi yox idi. Əlbəttə, o vaxt heç kimin ağlına da gəlmirdi ki, bir neçə il sonra Qarabağda vuruşmaq lazım gələcək. Amma Heydər Əliyev bu qərarı qəbul edəndə fikirləşmişdi ki, respublikaya ixtisaslı hərbi kadrlar gərəkdir. Bu nə idi? Uzaqgörənlik? Yaxud o, başa düşürdü ki, müstəqil dövlət bunsuz yaşaya bilməz? Mənə elə gəlir, o hiss edirdi ki, bu hərbçi kadrlar gələcəkdə onun xalqına çox lazım olacaq.

Mixail Solomonoviç Qusman qonaqların qabağına qurudulmuş albalı qoyur, ara-sıra telefon zənglərinə cavab verərək söhbətinə yekun vurur:

– Əlbəttə, Heydər Əliyev yalnız hərbi kadrların yetişdirilməsiylə məşğul olmurdu. Mənə elə gəlir ki, o, komsomol komitəsinin katiblərinin hamısını şəxsən tanıyırdı. İndi menecerlərin, idarəçilərin yetişdirilməsi barədə çox danışırlar.

Sovet İttifaqında bu funksiyanı, dövlət kadrlarının yetişdirilməsini komsomol yerinə yetirirdi. Məhz buna görə Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi komsomol komitələrinin liderlərinə, onlann fəaliyyətinə xüsusi diqqət yetirirdi. Təəssüf ki, biz bu təcrübəni keçmiş dövrdən indiki zamana gətirə bilmədik.

1975-ci ilin oktyabrında Bakıda sovet ədəbiyyatı günləri keçirilirdi. Azərbaycanın paytaxtına Sovet Sosialist Respublikaları İttifaqının ən tanınmış şair və yazıçıları gəlmişdilər. Onlar oxucularla görüşlər keçirmiş, müxtəlif tədbirlər təşkil etmiş və ən sonda Səməd Vurğunun ev-muzeyinin açılış mərasimində iştirak etmişdilər. Səməd Vurğunun şeirlərini Heydər Əliyev gənclik dövründən çox sevirdi.

Mərkəzi Komitənin birinci katibinin təşəbbüsüylə 1982-ci il martın 23-də Azərbaycanın başqa bir görkəmli ədibinin – Cəfər Cabbarlının da ev-muzeyi açıldı. Bir qədər əwəl isə Şuşada olan Heydər Əliyev böyük Azərbaycan şairi Molla Pənah Vaqifın məqbərəsinin açılışında da iştirak etmiş, çox təsirli bir nitq söyləmişdi.

Görəsən, o vaxt kimsə təsəvvür edirdimi ki, on ildən sonra erməni vəhşiləri Sovet ordusu əsgərlərinin köməyi ilə Azərbaycanın qədim və müqəddəs şəhəri Şuşanın üzərinə od-alov yağdıracaq və işğalçılar humanist şairin məqbərəsini yerlə yeksan edəcəklər....

...Respublikaya rəhbərlikdə keçən on dörd il... Maraqlıdır, görəsən, lider Azərbaycanın inkişafına dair konkret plana malik idi, yoxsa, öz intuisiyasına inanaraq qarşısına çıxan problemləri addım-addım dəf edirdi. Fikrimizcə, mübahisə etməyin yeri yoxdur. Yəqin ki, planlı iqtisadiyyat Azərbaycanın inkişafını da ümumittifaq kontekstindən ayrı tutmurdu. Altmışıncı illərin sonlarına yaxın respublika bir çox iqtisadi göstəricilərinə görə İttifaqın inkişafından geri qalırdı. İqtisadiyyatın bir çox sahələrini inkişaf etdirmək, yeni iş yerləri açmaq lazım gəlirdi. Ən başlıca vəzifə isə neft sənayesini böhrandan çıxartmaq idi. Altmışıncı illərin sonunda

neft hasilatı 1,3 milyon ton, qaz hasilatı isə 659 kubmetr aşağı düşmüşdü.

Neft, qaz və kömür istehsalının vəziyyəti Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin xüsusi olaraq diqqət mərkəzində idi. Energetika məsələlərinə Nazirlər Sovetinin sədri Kosıgin şəxsən özü baxırdı. Heydər Əliyevin fəaliyyətinin həmin dövrünə işıq salmaq üçün "Azərbaycan nefti dünya siyasətində" adlı çox dəyərli kitaba müraciət edəcəyik. Kitabda qeyd edilir ki, "Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev neft sənayesinin geriləməsinin və bu əhəmiyyətli sənaye sahəsindəki gərginliyin əsl səbəblərini açmağa nail olmuşdu".

Heydər Əliyevlə bağlı zəngin xatirələri olan Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, tanınmış neftçi-geoloq, akademik Xoşbəxt Yusifzadə söhbətə bir qədər uzaqdan başladı:

Heydər Əliyevlə ilk tanışlığım 1968-ci ildə oldu. Türkiyənin o zamankı baş naziri Süleyman Dəmirəl Moskvada keçirdiyi rəsmi görüş və danışıqlardan sonra Azərbaycana gəlmişdi. O vaxt hörmətli qonağı Qum adasına müşayət edən rəsmi şəxslərdən biri də Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinin sədri Heydər Əliyev idi. Tanışlığımız buradan başladı... Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1970-ci ilin dekabrında keçirilmiş plenumu yaxşı yadımdadır. Bu Heydər Əliyevin Mərkəzi Komitənin birinci katibi seçilməsindən sonra keçirilən ilk plenum idi. Heydər Əliyev plenumdakı məruzəsində ötən beşillikdə neft sənayesinin işini də dərindən təhlil edərək, iqtisadiyyatın bu başlıca sahəsində yaranmış geriliyin və gərgin vəziyyətin əsl səbəblərini göstərdi, görüləcək işlərin konkret proqramını verdi...

1970-ci ildə Azərbaycanın Neft Sənayesi Nazirliyi ləğv olundu və onun əvəzində "Xəzərdənizneft" və "Azneft" istehsalat birlikləri yaradıldı. Məhz Heydər Əliyevin tapşırığı ilə Xoşbəxt Yusifzadə "Xəzərdənizneft" İstehsalat Birliyinin

baş geoloqu vəzifəsinə təyin olundu. O, yeni birinci katibin o vaxt Azərbaycanın neft sənayesi üçün gördüyü işləri indi də unutmur:

Respublikaya rəhbərliyə başladığı ilk günlərdən Heydər Əliyev həm dəniz, həm də quruda neft və qaz hasilatının ən müxtəlif problemləri ilə maraqlanır və onların həllinə yardım göstərirdi. Bunun nəticəsində də dənizdə geoloji-kəşfiyyat işlərinin səmərəliliyi sürətlə artırdı. Onun respublikaya rəhbərliyinin qısa dövründə səkkiz yeni neft-qaz yatağı kəşf edildi. Artıq 1975-ci ildə ümumi neft və qaz hasilatının həcmi 27,1 milyon tona (şərti-yanacaqla) çatdı və 1941-ci ildəki ən yüksək neft və qaz hasilatı səviyyəsini ötüb keçdi...

Ölkənin fəxri olan bu sənaye sahəsində bəs əvvəllər nələr baş verirdi? Geoloji kəşfiyyat işləri geriləyir, mövcud resurslar dağıdılır, istehsalatda qəzaların sayı artırdı. Buruqlar sıradan çıxırdı. Bununla belə, on il ərzində respublikanın sənayesinə qoyulan maddi vəsaitin qırx beş faizi neft hasilatı sənayesinə yönəldilirdi. Lakin 1966-cı ildən başlayaraq neft hasilatı ildən-ilə azalırdı. H. Əliyev respublikanın rəhbəri təyin olunandan sonra bir çox savadlı mütəxəssislərlə, istehsalatçılarla, mühəndislərlə, təcrübəli briqadirlərlə məsləhətləşdi. Ümumi fikir belə idi ki, neft sənayesinin başlıca problemi qazma işlərinin geriləməsiylə bağlıydı.

1966-70-ci illər ərzində quyuların ümumi qazma həcmi bir milyon metrə qədər azalmışdı. Qazılan quyuların otuz bir faizi layihədə nəzərdə tutulan dərinliyə qədər çatdırılmamışdı. İş vaxtının çox hissəsi qəzaların aradan qaldırılmasına sərf olunurdu. Bu rəqəmləri verərkən biz yuxarıda adı çəkilən kitaba istinad edirik.

Böyük hazırlıq prosesindən sonra Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi neft sənayesi işçilərinin böyük müşavirəsini keçirdi. Bu, ümumiyyətlə neft və neft hasilatı ilə əlaqədar zəngin təcrübəsi və biliyi olan insanların toplaşdığı böyük bir iclas idi. O zaman Heydər Əliyev neft mütəxəssislərinə üzünü tutaraq demişdi:

– Mühəndis-texniki heyətdən, "Xəzərdənizneft" və "Azərneft"in geoloqlarından, hər iki birliyin rəhbər işçilərindən ilk növbədə tələb olunan odur ki, köhnə yataqlarda istismar şəraitini yaxşılaşdırmaqla, neft hasilatının sabit səviyyəsini təmin etsinlər, ələlxüsus, mezazoy qatlarına diqqət yetirsinlər ki, neft və qaz hasilatı artsın. Ələlxüsus da dənizdə neft və qaz yataqlarının işlənməsinə diqqət yetirmək lazımdır".

Heydər Əliyev kabinet məmurlarından deyildi. Düzdür, o, birinci katib vəzifəsinə uyğun olaraq, iş gününün böyük hissəsini iş stolunun arxasında oturmalı olurdu. Lakin onu mütəmadi olaraq neft mədənlərində, neft emalı zavodlarında, həmçinin alimlərin laboratoriyalarında görmək olurdu. Onun səfərləri qətiyyən diletant bir məmurun və ya yüksək səviyyəli qonağın gəzintisinə bənzəmirdi. O, bilmədiyi şeyləri soruşmaqdan da heç vaxt çəkinmirdi. Məşhur alimlər Azad Mirzəcanzadə, Artur Rəsizadə[1] ilə məsləhətləşir və artıq həyatdan köçmüş böyük kimyaçı alim, Sovet Sosialist Respublikaları İttifaqı Elmlər Akademiyasının müxbir üzvü, respublika Elmlər Akademiyasının akademiki Yusif Heydər oğlu Məmmədəliyevin əsərlərinə müraciət edirdi. Yusif Məmmədəliyev kimi insanlar haqqında deyirlər ki, onlar işdə alışıb yanırlar. Müharibə illərində, o, aviasiya yanacağına yüksək keyfiyyətli əlavələrin metodikasını işləyib hazırlamış, buna görə Stalin mükafatına layiq görülmüşdü (sonralar bu mükafatın adı dəyişdirilərək Dövlət mükafatı adlandırıldı). Onun daha bir kəşfı "Molotov kokteyli" adı altında Böyük Vətən müharibəsinin tarixinə daxil olmuşdu. Faşist tanklarını odlara bürüyən bu maddə qarışığından hətta XXI əsrin barrikadalarında da istifadə olunduğu üçün o bu gün də məşhurdur.

Rəqəmləri adətən darıxdırıcı adlandırırlar. Lakin istehsalatdan danışanda, rəqəmsiz keçinmək mümkün deyil. "Azərneft" İstehsalat Birliyi qaz hasilatı üzrə doqquzuncu beşilliyin planını üç il yarıma, neft hasilatı üzrə isə dörd il səkkiz

---

[1] Hal-hazırda Azərbaycan Respublikasının baş naziri

aya yerinə yetirmişdi. İndi isə artıq yeni üfuqlər fəth etməyin vaxtı çatmışdı. Heydər Əliyevin təşəbbüsüylə Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi 1974-cü ildə Xəzər dənizinin dərin qatlarında geoloji kəşfiyyat işlərinin sürətləndirilməsiylə və dərin qatlarda işləmək üçün yeni qazma avadanlıqlarının istehsalı ilə bağlı sərəncam hazırlayır.

"Ötən əsrin 70-ci illərinədək Xəzər neftçilərinin sərəncamındakı texniki vasitələr bizə dənizin dərinliyinin yalnız 40 metrə qədər olan sahələrində işləməyə imkan verirdi, – deyə Xoşbəxt Yusifzadə sözünə davam edir. Xəzərin Azərbaycan sektorunda suyun dərinliyi 40 metrə çatan perspektivli sahələrdə bütün neft-qaz yataqları o vaxtadək, demək olar ki, artıq aşkar olunmuş, dənizdə neft və qaz çıxarılması imkanları xeyli azalmışdı.

Heydər Əliyevin təşəbbüskarlığı və iradəsi, keçmiş İttifaqın neft və qaz sənayesinin rəhbərləri ilə danışıqları, Sovet Sosialist Respublikaları İttifaqı rəhbərləri ilə görüşləri, Azərbaycanda neft və qaz sənayesinin perspektivliyinin elmi dəlillərlə sübutu ona gətirib çıxardı ki, Sovet Sosialist Respublikaları İttifaqı Neft Sənayesi Nazirliyi Xəzərin böyük dərinliklərində görüləcək işlər üçün vəsait və texnika ayırdı. Nəticədə, ötən əsrin 70-80-ci illərində müxtəlif təyinatlı gəmilərin – ağır yük qaldıran kran gəmilərinin, borudüzən, seysmik, sərnişin gəmilərinin sayı 450-ni keçdi. Xəzər dənizində 2500 ton gücündə «Azərbaycan» kran gəmisi işə başladı. Bundan əlavə, ilk vaxtlarda dərinliyi 70 metr olan sahələrdə geoloji-kəşfiyyat işlərinin aparılması üçün "Xəzər" tipli üzən qazma qurğularının, sonralar isə dənizin dərinliyi 200 metrə qədər olan yerlərində işləmək üçün "Xəzərdənizneft" və "Şelf" tipli üzən yarımdalma qazma qurğularının, eləcə də "Süleyman Vəzirov" borudüzən gəmisinin alınması nəticəsində Xəzərin daha böyük dərinliklərində zəngin neft və qaz ehtiyatlarına malik yataqların kəşf edilməsinə imkan yarandı. 80-ci illərdə bu qurğuların sayı 11-ə çatdı. Nəticə-

də dənizin 80-350 metr dərinliyində yerləşən, bu gün ARDNŞ-in hasil etdiyi neftin 60 faizini verən "Günəşli" yatağı kəşf edildi. İndi adları bütün dünyada məşhur olan "Azəri", "Çıraq" və "Kəpəz" yataqlarının kəşfı də həmin qazma qurğularından istifadə edilməsi nəticəsində mümkün oldu.

Dünyada tayı-bərabəri olmayan dərin dəniz özülləri zavodunun məhz Azərbaycanda inşa edilməsi üçün sovet dövləti rəhbərliyinin icazəsinin alınması və bu nəhəng müəssisənin müvəffəqiyyətlə tikilib işə salınması Heydər Əliyevin iradəsinin, prinsipiallığının nəticəsi idi. Bircə rəqəmə diqqət yetirin: 450 milyon ABŞ dolları! O vaxtlar üçün bu çox böyük vəsait hesab olunurdu. Zavodun inşa edilməsi üçün o vaxt sovet hökumətinin bu qədər maliyyə vəsaiti ayırmasına nail olmaq ağlasığmaz idi.

Bakı Dərin Dəniz Özülləri zavodunun sayəsində Xəzər dənizində kəşf olunmuş "Günəşli" yatağında indiyədək 14 özül tikilmişdir. Bu isə 244 qaz istismar və suvurucu quyuların qazılmasına imkan vermişdir. Həmin zavod indi də neft və qaz yataqlarının kəşfində və istismarında həlledici rol oynayır. Belə ki, Mərkəzi, Qərbi, Şərqi Azərinin hər birində dünya səviyyəsində yeni qazma-hasilat və texnoloji özüllərin tikilməsində və quraşdırılmasında, misli görünməmiş işlərin yerinə yetirilməsində böyük dönüş yaranması bunu deməyə əsas verir. Hazırda bu özüllər vasitəsilə qazılmış 22 quyudan orta hesabla gündə 74 min ton neft, 16,4 mln. kubmetr qaz hasil olunur".

Minlərlə insanın gərgin əməyi öz bəhrəsini verir. Bir çox yeni neft və qaz hasil edən qurğular istifadəyə verilmiş, neft-qaz emal edən zavodlar moderaləşdirilmişdi. 1961-ci ildə istifadəyə verilmiş və respublikada yeganə olan qaz emalı zavodu tam gücü ilə fəaliyyətə başladı. 1986-cı ildə aparılan rekonstruksiyadan sonra zavodun istehsal gücü 6,5 milyard kubmetr qaza qədər yüksəldi.

Məişət kondisionerləri zavodunu öncə L.İ. Brejnev üçün çox doğma olan Zaporojye şəhərində tikdirmək planlaşdırı-

lırdı. Müharibədən sonrakı ilk illərdə Leonid İliç "Zaporojyepolad" zavodunda işləmişdi, gecə-gündüz çalışaraq zavodun bərpası üçün əlindən gələni etmişdi. İttifaq nazirləri Brejnevin bu şəhərə bağlılığını bildiklərinə görə kondisioner zavodunu məhz orada tikməyi qərarlaşdırmışdılar.

Heydər Əliyev əvvəlcə Baybakovla məsləhətləşdikdən sonra Leonid İliçin yanına getdi. Leonid İliç onun arqumentlərini qəbul etdi və zavodu Bakıda tikmək qərara alındı. Onun inşası üçün Yaponiya istehsalı olan avadanlıqlar, yüksək texnologiyalar alındı və yüz minlərlə Bakı kondisioneri Sovet Sosialist Respublikaları İttifaqına və xarici ölkələrə yayıldı. Zavod 1975-ci ildə tikilib istismara verildi. Bu münasibətlə keçirilən mitinqdə birinci katib çıxış edərək dedi: "Azərbaycan sənayesinin inkişafı fəhlə sinfinin çoxsaylı nailiyyətləriylə zəngindir. Amma bu gün fəxrlə deyə bilərik ki, respublikamızın sənaye tarixində heç vaxt belə əmək hünəri göstərilməmişdir.

Həmin illərin daha bir neçə əhəmiyyətli tikintisini qeyd edək: "Ulduz" adlı Elektrik Avadanlığı zavodu, Bakı Şampan Şərabları zavodu, Bakı Dərin Özüllər zavodu (bu zavodun tikintisi Həştərxanda planlaşdırılmışdı və avadanlığa 500 milyon dollar xərclənmişdi), "Elektroterm" zavodu, ayaqqabı fabrikləri, Lənkəran Konserv zavodu və s. Yeni müəssisələr Azərbaycanın müxtəlif regionlarında, Dağlıq Qarabağda, Gəncədə, Bakıda, Naxçıvanda tikilirdi...

On il ərzində Azərbaycanda iyirmi iki milyon kvadratmetr yaşayış sahəsi tikilib zəhmətkeşlərin ixtiyarına verilmişdi. Bakının yeni memarlıq kompleksləri bəzəməyə başlamışdı: Respublika Ali Sovetinin binası, "Moskva", "Abşeron", "Gənclik" mehmanxanaları, Kosmik Araşdırmalar İnstitutu, yazıçıların Şüvəlandakı Yaradıcılıq evi, Dəmiryol vağzalı və Dəniz limanı...

Prezident sonralar o illəri belə xatırlayırdı:

"O illər bizim respublika üçün çox uğurlu oldu. Bir çox vaxtlarda mən işimi qurtarandan sonra da evə getmir, sa-

atlarla kabinetimdə əyləşib respublikanın gələcək inkişafı üçün daha hansı tədbirlərin görülməsinin vacibliyini düşünürdüm. İstəyirdim ki, vəzifəmin mənə verdiyi səlahiyyətlərdən istifadə edib, xalqın güzəranını bir qədər də yaxşılaşdırım. Bunun üçün iki şey vacib idi: Azərbaycanın Kommunist Partiyasına düzgün və uğurlu rəhbərlik etmək və öz avtoritetini, nüfuzunu getdikcə daha da möhkəmlətmək. Mənə elə gəlir ki, bunların hər ikisinə nail olmuşam".

Moskvanın mərkəzi mətbuatında Heydər Əliyevi yeni tipli partiya rəhbəri adlandırırdılar. Bu, həqiqətən də beləydi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsindəki fəaliyyətini qiymətləndirərkən Heydər Əliyev fəxrlə deyə bilərdi:

"Mən və ətrafımda toplanmış kommunist həmkarlarım bu on dörd il ərzində Azərbaycan üçün böyük işlər görmüşük".

Əliyevi Moskvada da qiymətləndirirdilər. Ən əsası isə onu həmyerlilərinin çox gözəl dəyərləndirməsiydi.

– Bizim Culfa rayonunda məhsulun çox az olmasına baxmayaraq, hər il buğda əkirdilər, – deyə Dövlət Məmmədov xatırlayır, – bir hektardan üc sentner məhsul götürürdülər. Nə qədər etiraz etsək də, heç kimə heç nə sübut edə bilmirdik. Deyirdilər ki, plan belə qoyulub, verməlisiniz. Lakin Heydər Əliyev birinci katib seçiləndən sonra hər şey dəyişdi. Heydər Əliyevin sərəncamına əsasən bizim rayonumuzda da təbii şəraitə uyğun olaraq üzümçülük inkişaf etdirilməyə başlandı. Həm respublika, həm də yerli camaat üçün bu daha sərfəli idi. Üzü-mü biz Sovet Sosialist Respublikaları İttifaqının şimal rayonlarına göndərirdik. Mənim doğma kəndimdə altmış dörd ailə avtomobil aldı, bir çoxları zəhməthaqqı hesabına ikimərtəbəli imarətlər tikdirdilər, yaxşı mebel əldə etdilər.

Naxçıvan gözümüzün önündə dəyişirdi. Müasir tipli "Təbriz" mehmanxanası tikildi, Araz çayının üstündə su elektrik stansiyası istifadəyə verildi. Yeni tekstil kombinatı işə düşdü, mədəniyyət sarayı açıldı.

Bu hələ çəkdiyimiz bir misaldır, bunların sayını istənilən qədər artırmaq da olar...

Arxiv sənədlərinə müraciət edib başqalarını da əlavə edək:

...1970-ci ildən etibarən Azərbaycanda bütün məktəblərdə birinci sinifdən rus dili tədris olunmağa başlandı. İki il sonra Mərkəzi Komitənin bürosu respublikanın orta məktəblərində rus dilinin tədrisinin yaxşılaşdırılması üçün kompleks tədbirlər planını təsdiq etdi.

..1973-cü il martın 13-də Mərkəzi Komitənin bürosu böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının altı yüz illiyinin qeyd olunmasıyla bağlı bayram tədbirlərinin planını nəzərdən keçirdi.

...Bakıya üçüncü içməli su xəttinin çəkilməsiylə bağlı məsələyə baxıldı...

...Sərəncama əsasən 9 may 1973-cü ildə Bakıda Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin abidəsi qoyuldu. (“Mixaylo” adı ilə tanınan partizanın təmiz adının necə qaytarılmasını yəqin xatırlayırsınız.)

İndi isə, əziz oxucu, həmişə zarafatı sevən bakılılara qoşulub birgə gülək. “Azərbaycanfılm” kinostudiyası qəhrəman partizan haqqında “Uzaq sahillərdə” adlı bədii fılm çəkmişdi. Filmdə baş qəhrəmanı gözəl aktyor Nodar Şaşıqoğlu oynayırdı. Axtarış tədbirlərini həyata keçirən alman faşistləri postlara belə bir həyəcan siqnalı verirlər: “Mixaylo şəhərdədir”. Heydər Əliyev isə şənbə və bazar günləri şəhərə çıxmağı, mağazalara, kafelərə baş çəkməyi, xalqa necə xidmət göstərildiyinə nəzarət etməyi sevirdi. Bu gəzintilər zamanı ticarətçilər arasında pıçhapıç başlanırdı. Elə həmin günlərdə Bakıda belə bir ifadə yayılmışdı: “Mixaylo şəhərdədir”.

Bundan xəbər tutan Heydər Əliyev başqalarından çox gülmüşdü.

1975-ci il yanvarın birində respublika televiziyasının ikinci telekanalı işə düşdü, Şəki şəhərində Dövlət Dram Teatrı təsis edildi, Bakıda İnşaat Mühəndisləri İnstitutu açıldı.

Bütün bunlar əlbəttə ki, birinci katibin hədsiz zəhmətinin bəhrəsi idi.

1976-cı il aprelin 9-da ölkədə 26 Bakı komissarlarından biri olan Məşədi Əzizbəyovun 100 illik yubileyi qeyd olunur. Respublikanın siyasi, ictimai və mədəniyyət xadimlərinin yığışdığı iclasda Heydər Əliyev özü şəxsən məruzə edir. Peterburq Universitetinin məzunu olan bu istedadlı sənaye təşkilatçısı, əqidəli kommunist, "ilk azərbaycanlı mühəndis"in keçdiyi şərəfli həyat yolu barədə onun köhnə silahdaşları, ölkənin başqa respublikalarından gələn qonaqlar və Məşədi Əzizbəyovun oğlu böyük fəxrlə danışırlar. Bundan bir az əvvəl isə Bakının ən görkəmli yerlərindən birində Məşədi Əzizbəyovun heykəlinin açılışı olur. Heykəlin açılışında Heydər Əliyevin ardınca qəhrəmanın nəvəsi, görkəmli tarixçi-alim, akademik Püstəxanım Əzizbəyova da öz sələfı barədə xoş sözlər deyir.

1978-ci il martm 25-də Mərkəzi Komitənin bürosu "Azərbaycan Sovet Sosialist Respublikası Elmlər Akademiyasında təbii resursların kosmik araşdırmalarının inkişafı haqqında" sərəncam imzaladı...

Beləcə, gündən-günə, aydan-aya iqtisadiyyat, mədəniyyət, elm, təhsil; gündəlik və perspektiv məsələlər; gənclərin və veteranların problemləri; ticarət və məişət xidməti; Bakıda metro tikintisi; klassiklərin yubileyləri, "Sovet Zaqafqaziya xaqlarının melodiyaları" festivalı və yoldaş Tretyakovun mənzil məsələsi ortaya çıxır və həll edilirdi.

## "Yoldaş Vəkilov, arzu edirəm ki..."

"Azərbaycan ictimaiyyəti böyük rus yazıçısı Lev Nikolayeviç Tolstoyun yüz əlli illik yubileyini böyük təntənə ilə qeyd etdi", – 1978-ci ilin may ayında Bakı qəzetləri belə yazırdı. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi üçün də bu gün sadəcə yuvarlaq bir təqvim günü deyidi. Axı Tolstoy, Qoqol, Puşkin Azərbaycanda istər

inqilabdan əvvəl, istərsə inqilabdan sonra təkcə yubileylərdə, bayramlarda xatırlanmırlar. Onları burada o vaxt da böyük həvəslə oxuyublar, indi də oxuyurlar; həm rusca, həm azərbaycanca.

Tolstoyun yubileyinə həsr olunmuş məlumatların arasında belə bir kiçik informasiya da vardı: bakılı Vəkilovlar ailəsi Tolstoyun Yasnaya Polyanadakı ev- muzeyinə yazıçının o vaxt öz dəst-xətti ilə yazdığı məktubu hədiyyə edib. Bu, rus ordusunun generalı İbrahim ağa Vəkilovun xanımı Yelena Yefımovanın məktubuna Tolstoyun göndərdiyi cavab idi. Yelena Yefimova yazıçıya öz həyat tarixçəsi haqqında rus qızı ilə azərbaycanlı oğlanın eşq macərası, müsəlman oğlan ilə pravoslav qızının nigahına şəxsən çar Aleksandrın icazə verməsindən yazmışdı. İndi onların oğlanları Boris və Qleb artıq böyüyüblər. Rusiyada əqidə azadlığı elan edilib. Kiçik Vəkilovlar mü-səlmanlığı qəbul etməkçün valideynlərinin xeyir-duasını istəyirlər. Beləliklə, onların anası məsləhət üçün böyük rus yazıçısına müraciət edir. Lev Nikolayeviç də onun sualını cavabsız qoymur.

“Yelena Yefımovna, böyük yazıçı məktubda belə yazırdı, mən sizin oğlanlarınızın Azərbaycan xalqının maariflənməsinə yardım etmək istəklərini alqışlayıram”. Sonra isə yazıçı din barədə indi də aktual olan düşüncələrinə yekun vuraraq yazır: ”Mənə elə gəlir ki, siz mənim fıkirlərimi oğlanlarınıza deyəcəksiniz və bu fıkirlər onların gözəl niyyətlərinin həyata keçirilməsinə yardımçı ola biləcək. Dinin əsas ilahi mətləblərini açan məqamlarını artıq, lazımsız mövhumatdan təmizləmək işinə kömək etmək insanın özünə seçdiyi ən şərəfli işdir. Əgər sizin oğlanlar həqiqətən də özlərini, öz həyatlarını bu şərəfli işə həsr etsələr, onların həyatı mənalı və bəhrəli olacaq”.

Tolstoyun xeyir-duası ilə Vəkilovların böyük oğlu Borisi Fariz, kiçik oğlu Qlebi isə Qalib adlandırdılar. Qalib İbrahim oğlu hərbçi oldu və Belomor- Baltiysk kanalına göndərildi. O,1931-ci ildə Bakıya qayıdanda kanalda artıq ağ paraxod-

lar üzməkdəydi. 1937-ci ildə onu həbs edərək güllələnməyə məhkum etdilər. Fariz İbrahim oğlunu isə düşərgəyə göndərdilər. O yalnız 1956-cı ildə evinə qayıda bildi.

Onların familiyası çox da geniş yayılmış soyad deyil. Ona görə də başqa Vəkilovlarla rastlaşanda, biz onların hansı nəsildən olmaları ilə maraqlandıq, istədik bilək ki, onlar İbrahim ağa ilə Yelena xanımın nəvə və ya nəticələri deyillər ki?!

Belə şeylər tarixdə çox olur. Bir tarixçənin izi ilə gedirsən, amma əvəzində tamam ayrı bir tarixçənin, Əliyevin taleyi ilə kəsişən maraqlı hadisələrin üstünə çıxırsan. Azərbaycanda və Sovet Sosialist Respublikaları İttifaqında ən məşhur dəniz neftçilərindən olan Telman Vəkilovla görüşümüzdə də belə bir hal baş verdi. Onun adını 1934-cü ildə atası qoymuşdu, Hitler həbsxanalarında öldürülən əqidəli, dönməz alman kommunisti Ernest Telmanın şərəfinə. Vəkilovların "Tolstoy" xəttinə onun heç bir aidiyyəti yoxdur. Amma...

İnsanın yaddaşı həyatındakı dönüş anlamını həmişə qoruyub saxlayır. 11 sentyabr 1979-cu il Telman Vəkilovun həyatında məhz belə anlardandır. Həmin tarixdə o, bütün gəncliyinin (Moskvadakı beş illik tələbəlik dövrünü çıxmaq şərtiylə) keçdiyi Bakı şəhəri ilə vidalaşırdı. Paytaxtda Vəkilovu yeni təyinat gözləyirdi: Sovet Sosialist Respublikaları İttifaqı qaz sənayesi nazirinin müavini. Düzdü, o şəxsən özü Moskvaya can atmırdı, böyük karyera üçün canfəşanlıq etmirdi və düşünürdü ki, bacarıqlı adamı onsuz da gec-tez dəyərləndirəcəklər. Günlərin birində Vəkilov Qum adasındakı Dəniz Qazma İşləri İdarəsinə rəis təyin olunur. O, təcrübə və biliklərə yiyələnərək istehsalat birliyinə rəhbərlik etməklə yanaşı dəniz geologiyası üzrə dissertasiya da müdafiə etdi, elmlər namizədi oldu, Sovet Sosialist Respublikaları İttifaqının işgüzar dairələrində onu dənizdə neft və qaz hasilatı üzrə ən bacarıqh mütəxəssis, böyük alim kimi tanıyırdılar. Beləliklə, o, yeni təyinata tam layiq idi. İndi Vəkilov

təkcə doğma respublikada yox, böyük bir ölkənin ərazilərində neft və qaz hasilatı ilə məşğul olmalıydı... Həmin illərdə Azərbaycan neftçiləri Xəzərdə yeni yataqlar kəşf edirdilər, geoloqlar Barens dənizində, Saxalin adasında yeni neft yataqları tapmışdılar. İsveç, İngiltərə şirkətləri, beynəlxalq konsernlər artıq dənizdə uğurla fəaliyyət göstərirdilər. Əvvəllər olduğu kimi, bu dəfə də rəqibləri ötüb keçmək lazım idi. Mərkəzi Komitədəki söhbətdə Telman Hüseyn oğlu açıq şəkildə bildirmişdi: “Bu işin öhdəsindən gələ biləcəyimə əmin deyiləm. Ancaq günü sabahdan gecə və gündüz işləyəcəyimə söz verirəm”.

1979-cu il sentyabrın 11-də Vəkilov Heydər Əliyevlə görüşdü. Mərkəzi Komitənin birinci katibi onu çağırmamışdı. Vəkilov özü zəng vurub Moskvaya getməzdən əvvəl Heydər Əliyevi görmək istəmişdi.

– Buyur, gəl, – Heydər Əliyev telefonda cavab vermişdi. Vəkilov ilk dəfə bu otaqda “Xəzərdənizneft” istehsalat birliyinə direktor müavini təyin ediləndə olmuşdu.

– İndi dəqiq xatirimdə deyil ki, Heydər Əliyeviç o zaman mənə hansı sualları verirdi. Amma dəqiq bilirəm ki, o, məni öyrənirdi, – Telman Hüseyn oğlu onların ilk görüşünü xatirində canlandırmağa çalışır. – O vaxt Mərkəzi Komitəyə həyatımın ən böyük imtahanına gedirmiş kimi gedirdim. Əlbəttə ki, həyəcan keçirirdim, amma Heydər Əliyeviç danışmağa başlayan kimi sakitləşdim. Amma... Onun yaşıla çalan gözləri elə bil adamın daxili dünyasının ən gizli nöqtələrini belə işıqlandırırdı, ən mübhəm fikirləri də oxuyurdu. Onun baxışları qarşısında düşündüyünü danışmaq məsləhət idi.

Budur, həmin otaqda daha bir görüş. Kabinet sahibi qonağın qarşısına çıxıb, onu gülərüzlə qarşılayır, yeni təyinat münasibəti ilə təbrik edir, uğurlar arzulayır. Özünü xan, knyaz hiss edən başqa partiya xadimləri elə bununla kifayətlənərdilər. Əliyev isə protokol söhbətiylə kifayətlənmədi. Vəkilovu səmimi söhbətə çəkdi.

– Siz bilirsiniz ki, birlikdə işləyəcəyiniz adamlardan iki-üç qat üstün olmalısınız?

– Nə qədər üstün olmalı olduğumu dəqiq bilmirəm, Vəkilov cavab verir. – Amma əskik olmamağa çalışacam. Məni peşəkar adam kimi tanıyırlar, intriqalara heç vaxt baş qoşmuram.

– Nəzərə alın ki, siz nazirlikdə heç kəsi tanımayacaqsınız, amma sizi hamı tanıyacaq. Ehtiyatlı olun. Qızlar da sizin dalınızca düşəcək, deyə Heydər Əliyev gülümsünür.

– Bu vaxta qədər ilişməmişəm, çalışaram bundan sonra da ilişməyim, Telman Hüseyn oğlu da gülümsünür. Balıq məsələsindən xəbəriniz var?

Bu sual izahatsız da aydın idi. Həmin ərəfələrdə "Balıq mafiyası", Balıqçılıq Nazirliyindəki korrupsiya barədə söhbətlər bütün Sovet Sosialist Respublikaları İttifaqına yayılmışdı.

– Sizi başa düşürəm, lakin məni belə bir təhlükə gözləmir.

Mən belə işlərlə məşğul olmuram.

– Sizə daha da irəli getməyi arzulayıram, yoldaş Vəkilov, deyə Heydər Əliyev sözünü bitirdi.

Xidməti işlərlə əlaqədar Bakıya gələndə Telman Vəkilov həmişə birinci katibə baş çəkirdi. Amma bir dəfə həyəcan siqnalına gəldi. Aeroportdan birbaşa dənizə – yanğın baş verən yerə üz tutdu.

İnsanlar uzun illər, hətta əsrlər boyu yanğınla mübarizə apararaq meşə, çöl yanğınlarının öhdəsindən gəlməyi öyrəniblər. Sualtı neft və qaz yataqlarının kəşfindən sonra dəniz yanğınları da ortaya çıxdı. Bunlar digər yanğınlardan qat-qat təhlükəli və qorxulu idi.

Sovet qəzetləri bu barədə susurdular. Hətta bütün dünyanın bildiyi fövqəladə hadisələri də xalqdan gizlətməyə çalışırdılar. Sovet qəzetlərinə, televiziya və radiosuna inansaydıq, Sovet Sosialist Respublikaları İttifaqında heç vaxt nə böyük yanğınlar baş verirdi, nə sənaye qəzaları, nə də başqa ağır faciəvi hadisələr.

Xəzər dənizindəki yanğının aradan qaldırılmasıyla bağlı əməliyyata rəhbərliyi Sovet Sosialist Respublikaları İttifaqı Qaz Sənayesi nazirinin müavini Telman Vəkilova tapşırmışdılar.

– Mən bütün İttifaqdan dörd yüzə qədər fontançı topladım, – deyə həmsöhbətimiz o günləri xatırlayır.

Vəkilov ilk həyəcan siqnalı verilən kimi özünü Bakıya çatdırdı. Əlbəttə, gələndə bilmirdi ki, həm özü, həm də Sovet Sosialist Respublikaları İttifaqının müxtəlif yerlərindəki mədənlərdən yığılmış peşəkarlar bu yanğınla üç ay mübarizə aparacaqlar. O saat hiss etdi ki, əməliyyatın texniki tərəfi çox səliqəylə təşkil olunub, amma işçilərin məişəti... Bir çox hallarda qəza zonasına köməyə gələnlərin ərzaqla, yataqla təminatı çox böyük problemlər yaradırdı. Burada da belə oldu. Telman Vəkilov gələn kimi partiyanın rayon komitəsinə zəng vurub kömək istədi, onunla gələn dörd yüzə qədər mütəxəssisi yerləşdirməyi, ərzaqla təmin etməyi xahiş etdi. Amma Suraxanı Rayon Partiya Komitəsində çiyinlərini çəkdilər: “Öz probleminizdir, özünüz də həll edin”.

Vəkilov izahat vermədi, birbaşa birinci katibin nömrəsini yığdı. Hər şeyi Heydər Əliyevə danışdı. “Telefonda gözlə”, deyə Heydər Əliyev cavab verdi. Vəkilov onun o biri telefonla necə danışdığın eşidirdi: “Siz, deyəsən, işləməkdən yorulmusunuz. Yubanmadan əməliyyat yerinə gedin. İnsanların məişətini, ərzaq təminatını qaydasına salın. Onlar sizin rayonunuz, həm də bütün Azərbaycan üçün işləyirlər”.

– Hə, Əliyevin reaksiyası ani və güclü oldu, – Vəkilov bunu xüsusi vurğu ilə deyib sözünə davam edir. – Söhbəti bitirəndə xahiş etdi ki, onu bütün məsələlərdən agah edim, əlavə nə kömək lazım olsa, xəbər verim.

Onu da qeyd edək ki, birinci katib telefon söhbətləri ilə qane olmamış, dəfələrlə hadisə yerinə gəlmişdi. Nəhayət, üç aydan sonra yanğını tam söndürməyə müvəffəq oldular. Xəzərdə neft hasilatı başlanandan bəri ilk dəfəydi ki, belə

yanğından sonra üzən qazma qurğusunu xilas etmək mümkün olurdu.

Amma təəssüflər olsun ki, Vəkilov Moskvada nəzərdə tutduğu işləri görə bilmədi. Sovet Sosialist Respublikaları İttifaqı neftçiləri o vaxt Qərbi Sibir yataqlarının istismarına başlayırdılar.

Vəkilov Mərkəzi Komitədə deyirdi:

– Siz bütün dəniz yataqları üçün mənə cəmisi iki milyard rubl ayırmısınız. Amma səkkiz xarici ölkə birləşərək təkcə Şimal dənizinin istismarına otuz səkkiz milyard dollar vəsait ayırıb. İldə yüz milyon ton neft hasil edirlər. Əgər maddi vəsait qoyulmasa, heç nə alınmayacaq.

Sonralar Mərkəzi Komitənin katibi Vladimir İvanoviç Dolgix öz xatirələrində bu barədə yazırdı: "Bir vaxtlar Nazirlər Soveti və Dövlət Plan Komitəsi dənizdə, şelflərdə neft hasilatına başlamaq barədə düşünürdülər. Bu prinsip etibarilə işgüzar təklif idi, amma böyük maddi vəsait tələb edirdi. Bununla bağlı bir sıra elmi-tədqiqat institutları yaradılmalı, dənizdə qazma qurğularının istehsalı qaydaya salınmalı, dəniz platformalarında neft hasilatı üzrə təcrübəli mütəxəssislər yetişdirilməliydi. Həmin vaxtlarda biz Qərbi Sibir yataqlarının istismarına hələ təzəcə başlayırdıq. Bu da böyük maddi ehtiyat və işçi qüvvəsinin səfərbər olunması demək idi. Bu məsələ Dövlət Plan Komitəsində də, Nazirlər Sovetində də, Mərkəzi Komitədə də uzun müddət müzakirə olundu və son nəticədə qərara alındı ki, dənizdə böyük həcmli işlərə başlamaq hələ tezdir, çünki quruda görüləsi işlər çoxdur".

Bir sözlə, Vəkilov öz fikrində haqlı idi, amma onu düzgün başa düşməmişdilər. Bir məsələ onun rahatlığını əlindən almışdı.

– Hansısa acı bir təəssüf hissi hələ də məni rahat buraxmır, – deyə Telman Vəkilov etiraf edir. – Bakıya qayıtmağı qərara alanda Heydər Əliyeviçə baş çəkməyə vaxt tapmadım. O, artıq Moskvada işləyirdi. Düzü, ona qarşı diqqətsizlik etdim.

Azərbaycanda Vəkilov Dövlət Qazlaşdırma Komitəsinə rəhbər təyin olundu. Həvəslə işə başladı, xeyli çalışdı, amma epoxaların dəyişən vaxtında işdən kənarda qaldı, öz fıkirlərinin, ideyalarının çoxunu reallaşdıra bilmədi. Dostları onu ali məktəbə dərs deməyə dəvət etdilər.

Köhnə, dəbdən düşmüş, amma indi də tez-tez istifadə olunan belə bir ifadə var: reputasiya. Bu insanın tanınması, ətrafdakıların onu necə görməsinin göstəricisidir. Telman Vəkilovun reputasiyası isə onun peşəkarlığı, biliyi, ləyaqət hissi əsasında formalaşıb və bir də alicənablığı ilə. Məhz bu keyfıyyəti Heydər Əliyev insanlarda hər şeydən artıq qiymətləndirirdi.

1976-cı ilin martında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin XXV qurultayında Heydər Əliyevi Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizəd seçirlər. İlk dəfə azərbaycanlı kadr mərkəzi partiya qərargahına daxil edilir. Heydər Əliyevin karyerasında bu yeni mərhələ respublikanın iqtisadi, sosial, milli problemlərinin həllinə böyük imkanlar açırdı... Həm də ərazi bütövlüyünün müdafiəsi üçün.

1977-ci ildə Sovet Sosialist Respublikaları İttifaqında böyük hay-küylə yeni konstitusiya qəbul olundu. Qəzetlər konstitusiya layihəsi barədə tez-tez yazsalar da, onu müzakirə etsələr də, komissiyalardakı münaqişələrin üstündən səssiz keçirdilər. Bu komissiyalara respublikaların nümayəndələri, adlı-sanlı ictimai xadimlər və hüquqşünaslar daxil idilər. Sədri Leonid İliç Brejnev olan komissiyanın ünvanına Dağlıq Qarabağın Ermənistan Sovet Sosialist Respublikaları İttifaqına verilməsi tələbləriylə bağlı çoxsaylı "təşkil olunmuş" məktublar gəlməyə başladı. Hətta belə bir təklif də irəli sürüldü: "ictimai rəy nəzərə alınaraq, bu məsələ komissiyanın gündəliyinə çıxarılsın".

Heydər Əliyev sonralar Azərbaycanda yeni seçilmiş Milli Məclisin deputatları qarşısında proqram çıxışı zamanı bu situasiyanı belə xatırlayırdı:

“Konstitusiya layihəsi hazırlandığı bir il ərzində komissiyanın ünvanına gələn çoxlu sayda məktublarda tələb edirdilər ki, Dağlıq Qarabağ Azərbaycandan alınıb Ermənistan Sovet Sosialist Respublikasına verilsin. Hətta bu məsələni komissiyanın müzakirəsinə çıxarmaq cəhdləri də olmuşdu.

Olan hadisələri danışıram, məni düz başa düşün. O vaxt bunun qarşısını ala bildim. Nə qədər çətin olsa da, öz iradəmin, inadımın köməyi ilə Azərbaycan xalqının başının üstünü almış bu fəlakəti dəf edə bildim. Buna baxmayaraq, Dağlıq Qarabağda məsələni yenə də qızışdırdılar. Ona görə də mən respublikanın rəhbəri seçiləndən sonra, etiraf edim ki, Dağlıq Qarabağın inkişafı üçün daha münasib ab-hava yaradır, onun iqtisadiyyatının inkişaf etdirilməsinə diqqət yetirirdik”.

Prezident deputatlara baş verən fəlakətlərin günahkarlarını axtarmamağı məsləhət gördü. O bildirdi ki, Azərbaycan xalqı birləşməli və hələ də öz həllini tapmamış bu fəlakətdən birlikdə çıxış yolu axtarmalıdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini biz irəlidə ətraflı nəzərdən keçirəcəyik, ona görə də bu məsələni hələlik kənara qoyub, Heydər Əliyevlə birlikdə onun iş otağına daxil olaq. Birinci katibin stolunun üstündəki təqvim açıqdır: 28 iyun 1978-ci il. Heydər Əliyevin iş günü zəngdən başlayır. Zəng vurub respublikanın daxili işlər naziri Arif Heydərovun ad gününü ürəkdən təbrik edir. Onun əlli iki yaşı tamam olur, həyat yolunun yarısı arxada qalsa da, böyük bir hissəsi hələ irəlidədir. Axşam, o, Zərifə xanımla birgə əllərində gül dəstəsi Arif Heydərovun bağına gəldilər.

Bir dəfə söhbət əsnasında Heydər Əliyevi yaxından tanıyan Ziya Yusifzadə demişdi: “Heydər Əliyevin yaxın dostları yox idi... Əlbəttə, Arif Heydərovu çıxmaq şərti ilə”.

Onlar təhlükəsizlik orqanlarında demək olar ki, eyni vaxtda xidmətə başlamışdılar. Amma biri Naxçıvanda, di-

gəri isə Bakıda. Bakıdan Arif Heydərovu və onunla birgə bir neçə gənci Krasnavodskdan, Aşqabaddan dolama yolla Moskvaya, texnikuma yolladılar. Bir müddət sonra Heydərovun atası da xidməti bir məsələ ilə bağlı Moskvada oldu. Əlbəttə, vaxt tapıb oğluna baş çəkməyə də getdi. Oğlu isə bu vaxt artıq Moskvadan xeyli uzaqda, cəbhədəydi. O, könüllü olaraq vuruşan ordu sıralarına daxil olmuşdu. Amma evdəkiləri narahat etməmək üçün bunu onlara bildirməmişdi. Hər ay evdəkilər ondan məktub alırlar ki, hər şey yaxşıdır, texnikumda oxuyuram, axşamlar Moskvanı gəzirəm. Onun əvvəlcədən yazıb qoyduğu bu məktubları vaxtaşırı dostları Bakıya yollayırdılar. Arif Heydərov öz hərbi hissəsiylə Berlinə qədər gedib çıxdı. Reyxstaqın divarına öz imzasını həkk etdi. Daha iki il hərbi kəşfıyyatda işlədi. Onların qrupu Saksoniyada fəaliyyət göstərirdi.

Sonra Dövlət Təhlükəsizlik Komitəsində fəaliyyət, uzun müddətli xarici ezamiyyətlər. Arif Heydərov Ankarada konsulun yanında işləyirdi. Onların – Ariflə Adilə xanımın ikinci oğulları da məhz orada – Ankarada dünyaya gəlmişdir.

Adiləni doğum evindən buraxanda Arif təcili bir işlə əlaqədar İstanbula getmişdi. O vaxtlar "İzvestiya" qəzetinin Türkiyədə xüsusi müxbiri və Arif Heydərovun yaxın dostu Azad Şərifov həmin günləri belə xatırlayır:

– Mən "xoşbəxt ata" rolunu oynadım, uşağı ilk olaraq qucağıma götürüb xəstəxanadan çıxartdım. Oğlanı bizim ümumi dostumuz, Tibb İnstitutunun prorektoru Maqsud Əlizadənin şərəfinə Maqsud adlandırdıq. Sonralar Maqsud Əlizadəni iş otağında qətlə yetirdilər.

Görəsən faciəvi hadisələr arasında bir əlaqə varmı? Balaca Maqsudun atası Arif Nəzər oğlu Heydərovu da öz kabinetində milis formasında bir şəxs güllələmişdi. Bu hadisə 1978-ci ildə, ad günündən bir müddət sonra baş vermişdi. Heydər Əliyevin xahişi ilə Moskvadan təcili olaraq neyrocərrahlar briqadası dəvət edilmişdi. Amma artıq gec idi.

Bu xain atəş bütün Azərbaycanı sarsıtmışdı. Heydər Əliyev ən yaxın dostunu, silahdaşını, yoldaşını itirdi. Bu, onların ümumi işinə açılan atəş idi.

Dzerjinski adına klubda vida mərasimi, Fəxri Xiyabanda dəfn mərasimi. Son vida sözləri:

– Respublikamıza ağır itki üz verib. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Azərbaycan Ali Sovetinin deputatı, Azərbaycan daxili işlər naziri, general-leytenant Arif Nəzər oğlu Heydərov vəzifə borcunu yerinə yetirərkən faciəli şəkildə qətlə yetirilib, Heydər Əliyev dostu ilə vidalaşarkən belə deyirdi. Biz bu gün respublikamızın ən yaxşı adamlarından birini, dönməz kommunist, vətənpərvər, beynəlmiləlçi bir şəxsi, Azərbaycan xalqının layiqli oğlunu torpağa tapşırırıq. Bu gün bütün Azərbaycan göz yaşı içindədir, kədərimizin həddi-hüdudu yoxdur.

Arif Heydərovu atasının – məşhur neftçi, bir vaxtlar Azərbaycan Sovet Sosialist Respublikası Ali Soveti Rəyasət Heyətinin sədri olmuş Nəzər Heydərovun yanında torpağa tapşırdılar. Atası 1967-ci ildə həyatdan getmişdi. Bu ağır xəbəri Arif Türkiyədə, xüsusi ezamiyyətdə olarkən almışdı. Moskvadan, Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Komitəsinin Birinci Baş İdarəsinin rəbbərliyindən ona başsağlığı məktubu gəlmişdi. Müsəlman adəti üzrə mərhumun yaxınları onun üçünü, yeddisini və qırxını qeyd edirlər və hər cümə axşamı mərhum yad edilir. Yenidən Türkiyəyə ezamiyyətə uçan Arifin əvəzinə başsağlıqlarını onun dostu Heydər Əliyev qəbul edirdi.

– Heydər yaxşı gündə də, pis gündə də bizimlədir, – o vaxt bu sözləri Adilə Heydərova rəfiqəsi Zərifə xanıma demişdi.

Onların Ariflə toyundan cəmisi dörd il keçirdi. Bu toyu Heydər Əliyev idarə edirdi. Zarafatlar edir, dostunun sevincinə şərik olmağa çalışırdı.

Adilə Heydərova ailə həyatı qurduqdan sonra texnikumda dərs deyirdi. Əri faciəvi surətdə həlak olandan sonra

onun iki oğlu qaldı – böyüyünün on dörd, kiçiyinin on yaşı vardı. Artıq Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev onlara atalarını əvəz edirdi. Murad da, Maqsud da ali təhsil aldılar. Böyük oğlu Maqsud Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib diplomat oldu, kiçiyi Murad isə DİN-də işləyirdi. Hazırda o, Gömrük Komitəsində çalışır. Analarını isə Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının sədri seçdilər.

Bakının küçələrindən biri və DİN-in Ali kursları bu gün Arif Heydərovun adını daşıyır. Xəzər dənizində "General Heydərov" tankeri üzür. Qeyd edək ki, Arif Heydərov küçəsi Heydər Əliyev prospekti ilə paraleldir. Onlar ölümlərindən sonra da yan-yanadırlar.

Akademik Primakov bizimlə söhbətində Heydər Əliyevlə bağlı fikirlərini belə açıqlayır:

– Şübhəsiz ki, o, dahi şəxsiyyət idi. Azərbaycan üçün Heydər Əliyev çox iş görüb. Onunla Gürcüstanın birinci katibi Eduard Şevardnadze arasında üstüörtülü bir rəqabət gedirdi və bu yarışmada Heydər Əliyev, onun rəhbərlik etdiyi Azərbaycan şəksiz qələbə qazanırdı. Çünki Heydər Əliyev daha intizamlı, inadkar və təşkilatçılıq baxımından çox mütəşəkkil bir rəhbər idi.

Mən Heydər Əliyevlə tez-tez görüşürdüm deyə hal-hazırda Rusiyanın Sənaye-Ticarət Palatasının prezidenti olan Yevgeni Maksimoviç Primakov söhbətinə davam edir. Bir dəfə hətta üç gün onun yanında, Mərdəkanda istirahət də etmişəm. Biz dənizdə çimir və söhbət edirdik.

– Yəqin ki, dənizdəki fırtına haqqında, dalğaların necə nizamla sahilə can atmaları barədə danışmırdınız?

– Təbii ki, – Yevgeni Maksimoviç gülümsünür, – bu söhbətlər dövlətlərin taleləri haqqında, yüksək vəzifəli kadrlar, Azərbaycan və ümumiyyətlə, Sovet Sosialist Respublikaları İttifaqı barədə idi.

Primakovla Əliyevin açıq söhbət etmək üçün məhz dəniz sahilini seçmələri də aydındır. Azərbaycanda deyirlər

ki, hətta divarların da qulaqları var. Xəzər isə nə xəbərçilik eləyəcək, nə satacaq, nə də rəsmi məlumat yazacaq.

– Əlbəttə, Heydər Əliyeviç o vaxt heç də hər məsələ barədə fıkirlərini açıq demirdi, amma məsələlərə münasibətlərimizi açıq şəkildə biri-birimizə bildirirdik. Heydər Əliyev proqressiv adam idi və bu proqressivlik onda ciddi tələbkarlıqla vəhdətdə özünü büruzə verirdi. Bu düzgün yoldur və mən də bunu şübhə altına almıram. O, özündə demokratizmlə sərt nizam-intizamı birləşdirirdi. Onun rəhbərliyi dövründə Azərbaycan həm iqtisadi, həm də sosial sahələrdə böyük dəyişikliklərə imza atdı. Məlum məsələdir ki, bu dəyişikliklər, bazar qanunları ilə yox, qəbul olunmuş planlı təsərrüfat qaydalarına uyğun həyata keçirilirdi.

Yevgeni Maksimoviç xatırlayır ki, bir dəfə Heydər Əliyevin keçirtdiyi müşavirə onu heyrətə gətirmişdi. Bakıdan Moskvaya uçmamışdan əvvəl Heydər Əliyev Mərkəzi Komitənin büro üzvlərini aeroporta yığmışdı.

Məni heyran edən onun qoyduğu tapşırıqların səhihliyi idi – qışqırıqsız, hay-küysüz, söyüşsüz. Hərçənd ki, danlanmağa əsas verən bir-iki adam vardı. Lakin bu cəhətdən Heydər Əliyeviç səbrli, təmkinli idi. Eyni zamanda, məsuliyyətsiz kadrları çox sərt sorğu-suala tutmağı, danlamağı da bacarırdı. Xudahafızləşəndə bircə kəlmə dedi: “Qayıdıb yoxlayacağam”. İndi hünərin var onun dediyini yerinə yetirmə.

## Qoy ədalət zəfər çalsın

18 oktyabr 1981-ci ildə Moskvada dərc olunan “Literaturnaya qazeta”da Sovet Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvlüyünə namizəd, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevlə müsahibə dərc olunmuşdu. Müsahibə aşağıdakı başlıq altında verilmişdi: “Qoy ədalət zəfər çalsın”. O illərin ən populyar qəzetlərindən birinə çevrilmiş “Literaturnaya qazeta”nın bu nömrəsi əldən-ələ ötürülür-

dü. Həmin müsahibə bu gün də öz aktuallığında qalmaqdadır.

– Heydər Əliyeviç, sovet ictimaiyyəti yaxşı bilir ki, Azərbaycan Sovet Sosialist Respublikası son iki beşillikdə iqtisadiyyat, sosial və mədəni yaradıcılıq sahəsində diqqətəlayiq müvəffəqiyyətlər qazanmışdır. Bu müddətdə sənaye istehsalının həcmi 2,2 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 2,1 dəfə artmışdır. 1970-1979-cu illər ərzində sənaye istehsalının ümumi həcmi 1945-ci ildən 1969-cu ilədək olan bütün dövrdəkindən 1,3 dəfə çox olmuşdur.

Bu müvəffəqiyyətlər xeyli dərəcədə respublika Kommunist Partiyasının və Hökumətinin Azərbaycanda mənəvi-psixoloji iqlimi sağlamlaşdırmaq uğrunda qətiyyətli mübarizəsi ilə əlaqədardır. Sovet İttifaqı Komnist Partiyası Mərkəzi Komitəsinin oktyabr (1964-cü il) plenimundan sonra partiya həyatının Lenin normalarının, rəhbərliyin Lenin prinsiplərinin inkişaf etdirilməsi və bunlara ciddi riayət edilməsi ölkəmizin həyatında mühüm amil olmuşdu.

"LQ"yə gələn məktublarda oxucular Azərbaycan kom-munistlərinin əməli fəaliyyəti nümunəsi əsasında sosialist həyat tərzini təkmilləşdirməkdə sovet qanunçuluğunun rolu və əhəmiyyəti barədə söhbət açmağı xahiş edirlər.

– Bəli, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin oktyabr (1964-cü il) plenumu partiyanın və ölkənin həyatında yeni mərhələnin başlanğıcı olmuşdur. Bizim respublikamızda bu plenumun nəcib təsiri hiss edilirdi.

Azərbaycan partiya, sovet və təsərrüfat orqanlarının fəaliyyətində 50-60-cı illərdə yığılıb qalan nöqsanların aradan qaldırılması prosesinin, saysız-hesabsız sui-istifadə faktlarına, kommunist əxlaqının antipodlarına qarşı mübarizə prosesinin başlandığı 1969-cu ildən sonra xüsusilə aydın hiss edilmişdir.

Mənə elə gəlir ki, respublikada qanunçuluğun bərpa edilməsi və möhkəmləndirilməsi "Literaturnaya qazeta" oxucularını məhz geniş mənada maraqlandırır. Hərçənd bizdə gu-

rultulu ifşalar da olmuşdur, adları illər uzunu toxunulmaz sayılan və qanundan üstün tutulan adamlara şiddətli cəza da verilmişdir. Yeri gəlmişkən deyim ki, burjua şərhçilərini hər şeydən çox məhz bu cəhət maraqlandırır. Kommunist Partiyası Mərkəzi Komitəsinin avqust plenumundan, respublikanın həyatındakı ciddi nöqsanları Azərbaycan zəhmətkeşlərinə düzgün və açıq bildirən plenumdan düz on gün sonra burjua mətbuatı hay-küy qaldırmış və cinayət xarakterli sensasiyaların sorağında dayanmışdı.

Qeyd etmək istəyirəm ki, biz "qanunçuluq" deyəndə cinayət məcəlləsindən çox cəmiyyətimizin əxlaq kodeksini nəzərdə tuturuq. Özü də bu baxımdan hüquq pozuntuları, onların profılaktikası bizim üçün təkcə hüquqa aid məsələ deyildir. Bu, sosial və mənəvi məsələdir, çünki söhbət ən əvvəl insan uğrunda mübarizədən, sovet adamınının hüquqlarına hörmətdən, ləyaqət və şərəfmin qorunmasından, onda ən yaxşı vətəndaşlıq keyfıyyətləri, yüksək əxlaq prinsipləri tərbiyə edilməsindən gedir.

Azərbaycan partiya təşkilatının işi məhz belə bir mövqeyə əsaslanır və məhz bu mövqe böyük əksəriyyəti həyatda, əməkdə yüksək əxlaq prinsiplərini rəhbər tutan zəhmətkeşlər tərəfindən qızğın surətdə bəyənilmişdir. Lakin vəzifədən sui-istifadə, rüşvətxorluq, gözdən pərdə asmaq, halal zəhmətə xor baxmaq şəraitində kütlələrin təşəbbüskarlığı zəifləməyə bilməzdi, mənəvi narahatlıq hökm sürməyə bilməzdi sonradan bu narahatlıq əhalinin bir çox təbəqələrində məyusluq, laqeydlik əhval-ruhiyyəsi doğurmuşdu. Azərbaycan iqtisadiyyatının orta İttifaq göstəricilərindən mütəmadi geri qalmasının başlıca səbəblərindən biri də elə bu idi. Biz xalqa kömək edib onda haqq-ədalətə, sosializm cəmiyyəti həyatnın və bu cəmiyyətin idarə olunmasının Lenin prinsiplərinin sarsılmazlığına inam oyatmalı idik. Bu, çoxcəhətli bərpa işinin canıdır, zəncirin elə bir halqasıdır ki, ondan yapışaraq bütün zənciri çəkib çıxarmaq mümkün idi. Ağır, çətin proses idi. Mən "idi" sözünü heç də ona görə de-

mirəm ki, indi vəziyyət idealdır, ona görə deyirəm ki, bu prosesin pozulmazlığı real həqiqətə çevrilmişdir. Son on ildə iqtisadiyyatın, mədəniyyətin əsaslı yüksəlişi, sosial inkişaf buna sübutdur.

– Bəli, buna yol açmaq, çox ehtimal ki, asan deyildi. Lənkəran Şəhər Partiya Komitəsinin birinci katibi vəzifəsinə lap yaxınlarda seçilmiş Dilruba Camalova şəhərdə və rayonda indiki vəziyyətlə altmış doqquzuncu il ərəfəsində mövcud olmuş vəziyyətin adamı heyrətə gətirən fərqini bariz misallarla göstərdi. O bir müəllim kimi həmişə ictimaiyyətçi olmuşdur. Plenumlarda və fəallar yığıncaqlarında gurultulu mücərrədlik, döşünə döyüb əqidədən ağızdolusu danışan əqidəsizlərin riyakarlığı ikrah oyadırdı.

"Lənkəran rayonu partiya, sovet və təsərrüfat orqanlarının fəaliyyətində ciddi nöqsanlar haqqında" Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin yetmişinci ilin iyul qərarından sonra şəhər partiya komitəsinin birinci katibi İsa Əliyeviç Məmmədov, – o indi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi vəzifəsinə irəli çəkilmişdir, – başda olmaqla büronun yeni heyətinin səmərəli fəaliyyəti sayəsində yaxşılığa doğru dönüş yarandı.

Başqa bir misal, Şamaxı Rayon Partiya Komitəsinin birinci katibi Feyruz Mustafayev bu rayonda işə raykomun keçmiş katibinin "fəaliyyəti" nəticələrini aradan qaldırmaq, yəni həm rayonun iqtisadiyyatının yüksəltmək, həm də həyat sərvətləri haqqında adamların yanlış təsəvvürünü düzəltmək lazım gəldiyi bir şəraitdə başlamışdı. O, az vaxt içərisində hər iki vəzifənin öhdəsindən gəlmişdir. Ən çətin rayonlardan biri respublikanın qabaqcıllar sırasında yer almışdı.

Biz şəhərlərdə və kəndlərdə zəhmətkeşlərlə söhbət etdikdə hər yerdə səmimiyyətlə deyirdilər ki, müvəffəqiyyətlər yaxşı idarəetmə və səriştəli rəhbərliklə bağlıdır. Respublikanın həyatının özünəməxsus xüsusiyyətlərini nəzərə alaraq bilmək istəyirik ki, yerlərdə bu cür işçilər necə tapıldı?

– Belə işçilər həmişə olmuşdur. Mən əvvəllər də demişəm ki, əgər biz adamların böyük əksəriyyətinin namusla yaşayıb işlədiyinə inanmasaydıq və bunu dönə-dönə yəqin etməsəydik, heç bir dəyişikliyə nail ola bilməzdik. Amma di gəl ki, israfçılıq, səhlənkarlıq, gözdən pərdə asmaq üzündən çox vaxt onların əməyi zay olurdu. Prinsipial, namuslu kadrlar əksər hallarda irəli çəkilmirdilər, onlara qabiliyyətinə uyğun iş verilmirdi.

Siz indiki rəhbər işçilərdən bir keçmiş müəllimənin adını çəkdiniz, bir də çoban nəslindən olan keçmiş çobanın. Mən Mustafayev yoldaşı nəzərdə tuturam. Onun irəli çəkilməsi son illərdə Azərbaycan üçün səciyyəvi haldır. Sovxozun çobanı, uçotçusu, mühasibi, partkom katibi və direktoru, sonra trest müdiri, daha sonra raykomun birinci katibi. Özü də bioqrafıyasının hər mərhələsində mükafata layiq görülmüşdür. Sosialist Əməyi Qəhrəmanıdır, partiyanın XXVI qurultayının nümayəndəsidir.

Mən rəhbər vəzifələrdə fərasətsiz, nadürüst, təsadüfı adamların yaxşı təşkilatçılıq qabiliyyəti, yüksək mənəvi keyfıyyətləri olan bacarıqlı, fədakar adamlarla əvəz edildiyinə dair çoxlu misal gətirə bilərəm. Ən əhəmiyyətli cəhət isə budur ki, biz fəhlələri, kolxozçuları rəhbər vəzifələrə cəsarətlə irəli çəkirik. Dəniz neft mədənləri idarəsinin buruq ustası, Sosialist Əməyi Qəhrəmanı İsrafıl Hüseynov iki ildir ki, Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədridir; qabaqcıl fəhlə, Sosialist Əməyi Qəhrəmanı Yaqub Rüstəmov Mingəçevir toxuculuq kombinatındakı toxuculuq dəzgahı başından Yüngül Sənaye İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri vəzifəsinə irəli çəkilmişdir; sovxoz briqadiri Təhmasib İbrahimov Lənkəran Şəhər Partiya Komitəsinin katibi seçilmişdir; inşaatçılar briqadiri İlyas Quliyev respublikanın ikinci böyük şəhəri olan Kirovabadın xalq deputatları Soveti icraiyyə komitəsinin sədri seçilmişdir. Üstəlik, hamısı göstərilən etimadı doğruldur.

Biz kadr hazırlığına xüsusi əhəmiyyət veririk. Buna görə də təsadüfı deyil ki, iqtisadi və sosial-mənəvi sahələrdə qayda yaratmaqla bərabər, ali məktəblərə də əl atdıq. Ali məktəblərin işinə Kommunist Partiyası Mərkəzi Komitəsinin fəal surətdə qarışması ona görə vacib idi ki, professor-müəllim heyəti arasında rüşvətxorluq, proteksionizm, qohumbazlıq geniş yayılmışdı.

Bu vəziyyət ali təhsilli kadrlar hazırlığı işinə ciddi xələl gətirmiş və gənclərin tərbiyəsinə çox böyük mənəvi ziyan vurmuşdu.

Biz belə bir vəziyyətlə də üzləşdik: ayrı-ayrı ali məktəb müəllimləri, rəhbər işçilər öz övladlarını ali məktəblərə "valideyn" ixtisasları üzrə düzəltməyə çalışırdılar. Biz bu cür hərəkətləri məhdudlaşdırmalı olduq. İnzibati orqanların işçilərinin övladlarını dövlət universitetinin hüquq fakültəsinə götürməyi isə tamamilə qadağan etdik.

– Deməli belə! Heydər Əliyeviç, axı, məlum bir aforizmdə"Tanrı dahilərin övladlarını dahi xəlq eləməyib" deyilsə də, ziyalı nəsilləri həmişə olub və olacaqdır. Axı, bizdə sovet ziyalı nəsilləri indi-indi çoxalmağa başlayıb. Ailənin mənəvi marağı mühitində böyüyən uşağın öz babalarının, atalarının işini davam etdirməsi məgər pisdir?

– Biz sizinlə müxtəlif şeylərdən danışırıq. Gəlin, müzakirəmizin mövzusunu dəqiqləşdirək. Ziyalını səciyyələndirən ən əvvəl nədir? Ali təhsil diplomu, yoxsa elmlər namizədi, doktorluq diplomu? Zənnimcə, yox. Ziyalının başlıca keyfıyyəti cəmiyyətə fədakarlıqla xidmət etməkdir. Yeri gəlmişkən deyim ki, Rusiya tarixində ziyalıların faciəli aqibətinə dair misallar çoxdur; silk sədləri qoymurdu ki, bu ziyalılar xalqa sərbəst xidmət etsinlər, onların işlərinin istedadlı davamçıları olsun. Onlar bu sədləri öz imkanları daxilində aşıb keçirdilər. Canlarının hayına qalmayaraq, mədəniyyət yaymaq kimi bir məramla "xalq içinə" əldən-ayaqdan uzaq qəzalara, çarizmin milli ucqarlarına gedirdilər. Övladlarında onların işini davam etdirmək qabiliyyəti görəndə

özlərini xoşbəxt sanırdılar. Bəli, işinin! Belə bir qabiliyyət görməyəndə isə övladlanını elə sahəyə yönəldirdilər ki, öz şəxsi imkanlarından istifadə edib özlərinə və xalqa daha çox fayda verə bilsinlər. Çünki onlar nəslin şərəfini yüksək tuturdular, övladlarını, müasir dillə desək, naqislik kompleksindən qoruyurdular.

Bizim dövrümüzdə, cəmiyyətə, fəhlə-kəndli dövlətinin mənafeyinə sərbəst xidmət etmək yolunda bütün maneələrin dağıdılıb məhv edildiyi bir zamanda isə bəzən elə diplomlu meşşanlar ortaya çıxır ki, xalq etimadından, xalq pulundan özlərinin xeyrinə istifadə edirlər.

Övladlarını, nəvələrini, qohum-əqrəbasını öz kafedrasına, laboratoriyasına, institutuna düzəldən, üstəlik, qabil olsalar da, olmasalar da dissertasiya hazırlamağa, elm pillələri ilə yuxarı qalxmaq üçün onlara imtiyazlı şərait yaradan professorlara, hətta akademiklərə ziyalı deməyə adamın necə dili gələr?

Hüquq fakültəsinə gəlincə, burada da bizim qərarımız sağlam olmayan bir meyillə bağlı idi. Biz aşkara çıxarmışdıq ki, bu fakültəyə qəbul olunan tələbələrin böyük əksəriyyəti milis, prokurorluq, məhkəmə, hüquq kafedraları, partiya və sovet orqanları işçilərinin balalarıdır. Əsasən sui-istifadə ilə əlaqədar olan belə bir vəziyyət, daha artıq dərəcədə isə onun zərərli nəticələri, inzibati orqanların tərkibində bir növ qohumbazlıq və "irsiyyət" şəraitinin yarada biləcəyi təhlükə bizi narahat edirdi.

Mən həmin təhriflərin əleyhinə çıxanda ilk vaxtlar qulağıma belə sözlər gəlib çatırdı ki, bəs bu cür sərt tədbirlər nəyə lazımdır, axı, həkim, müəllim, hüquqçu alim nəsilləri olmuşdur – baba, ata, oğul... Bəs nə üçün indi bunu qadağan edirik? Bu suala cavabım belədir: bəli, olmuşdur və ola da bilər, yalnız yüksək mənəviyyat zəminində, yalnız istedada görə. Şahmatçı, neftçi, poladəridən, taxılçı sülaləsinə mənim dərin hörmətim var və bu sülalələri yüksək qiymətləndirirəm. İşə namuslu münasibətə əsaslanan varislik nəsillərdə

əsl ziyalı keyfiyyətləri yaradır – həm fiziki, həm də əqli əmək adamlarında.

Leonid İliç Brejnevin indi bütün sovet xalqı tərəfindən böyük maraqla oxunan "Xatirələr"ində nəsildən-nəslə keçən bu cür ziyalılıq, ailə şərəfı nümunəsi verilmişdir: "Hər zaman olduğu kimi Brejnevin anası ilə tanışlıqdan öz məqsədləri üçün istifadə etmək istəyən adamlar da, hər cür şikayət və ərizələri "yerinə" çatdırmaq üçün ona zorla verməyə çalışırlarmış. Deməliyəm ki, onun ağlına və nəzakətinə, çox böyük təvazökarlığına mat qalmışam. Anam bu barədə mənə heç nə demirdi, kənardan, başqalarından eşidirdim. Belə hesab edirdi ki, mənim işlərimə qarışmağa ixtiyarı yoxdur. Xatirini nə qədər əziz tutduğumu, onu nə qədər sevdiyimi bilirdi, amma bunu da bilirdi ki, əgər xahişinə əsasən kiməsə, məsələn, mənzil işində kömək eləsəm, deməli, başqalarının, anama ağız açmağı ağlına gətirməyən və ya buna imkan tapmayan adamların hesabına etmiş olacağam. Həmin adamların isə köməyə, bəlkə də, daha çox ehtiyacı var".

Brejnev yoldaşın kitabları bizim hamımıza sosializm işinə sədaqət hissi, öz fıkir və əməllərimizi ən yüksək meyarla, kommunist ideyalılığı meyarı ilə ölçmək bacarığı aşılayır, hər kəsi öyrədir ki, gündəlik həyatında, əməli işində cəmiyyət qarşısındakı vətəndaşlıq məsuliyyətini həmişə yadda saxlasın...

Hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə. Bu, sosializmin qanunudur. Lakin bir halda ki, həmin qanun təhrif edilir, biz vəziyyəti düzəltmək üçün sərt tədbirlərə əl atırıq. Beləliklə, ziyalı ailələrinin ənənələri yox, "əl əli yuyar, əl də üzü" kimi qarşılıqlı himayədarlığa əsaslanan ailəçilik, proteksionizm və qohumbazlıq zərbəyə məruz qahr. Biz bunun kökünü kəsəcəyik. Bilmək istəsəniz, elə bu özü probleme məhz sinfi münasibətdir...

*– Lakin bunlar heç də yerli xüsusiyyətlərdən doğan qüsurlar deyil. "Tifilinin qeydinə qalıb" onu "nüfuzlu" instituta düzəltməyə, övladının can-başla işləmək qabiliyyətinə malik olmadığını yaxşı*

*bilə-bilə onun üçün "isti" yer tapmağa cəhd göstərən valideynlər çoxdur. Bu, əsl bəladır. Belə cavanlara "atabalası" deyirlər. Bir söz kimi yazılır. Bəlkə də qanunla ümumi ciddi tələblər müəyyən etmək lazımdır...Mən də həmin bəladan danışıram. Amma qanun çıxarmaq... Əlavə bir qanun nəyimizə gərəkdir? XXVI qurultayda deyildiyi kimi, bizdə yaxşı qanunlar az qəbul edilməmişdir, məsələ onların dəqiq və sözsüz həyata keçirilməsindədir. Hər hansı qanun yalnız o zaman yaşayır ki, yerinə yetirilsin, özü də hamı tərəfindən və hər yerdə. Konstitusiya var, kommunizm qurucusunun əxlaq kodeksi var, vətəndaşlıq borcu var, sovet həyat tərzinin mənəvi prinsipləri var. Konkret praktika da bütün bunların əsasında yaranır.*

*Məsələn, biz bağ binaları tikməyi, şəxsi avtomobil almağı, alimlik dərəcəsi üçün dissertasiya müdafiə etməyi rəhbər partiya işçilərinə və vəzifəli şəxslərə qadağan etməyə məcbur olmuşuq... Uzr istəyirəm, Heydər Əliyeviç, biz ki qanunçuluqdan danışırıq! Bu isə, mülayim desək...*

Mülayim sözlər axtarmayım. Bəli, bu, iradi qərardır. Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi kimi mən təklif etdim, həmkarlarım razılaşdılar.

60-cı illərdə Bakıda bağ binaları tikintisi geniş miqyas almışdı. Kim tikdirirdi? Əsasən rəhbər işçilər, ziyalılar. Nəticəsi nə olmuşdu? Bir çox hallarda sui-istifadə: müəssisə və tikintilərin texnikasından, nəqliyyat vasitələrindən, inşaat materiallarından, işçi qüvvəsindən qanunsuz istifadə edilməsi. Üstəlik, bağ binaları tikilməsi xüsusi mülkiyyətçilik psixologiyasının, fərdiyyətçilik əhval-ruhiyyəsinin dirçəlməsinə təkan verir, ictimai borcun yaddan çıxarılmasına səbəb olur. Biz bəzi rəhbər işçilərə şiddətli cəza verdik, hətta partiyadan da xaric etdik. Bağ binaları tikintisini qadağan etməyinizdən heç kim zərər çəkmədi, cəmiyyətə isə bunun xeyri oldu. Zavod direktoru üçün bağ yox, zavodun bütün kollektivi üçün pansionat, profılaktoriya. Biz, bax bunu əsas götürürük. Son illərdə bu cür pansionatlar, istirahət evləri, – o cümlədən rəhbər heyət üçün, – az tikilməmişdir. Respublika ictimaiyyəti bizim tədbirlərimizi bəyənmişdir.

Fərdi avtomobillər almanın qadağan edilməsi avtomobil alveri faktları ilə əlaqədardır. Həm də belə faktlar çoxalmışdır. Biz avtomobil alıb-satmaq üstündə də bir çox məsul işçiləri cəzalandırmalı olduq.

Mən təcrübəmizi kor-koranə götürüb tətbiq etməyi məsləhət görmək fikrindən uzağam. Belə qərarları biz özümüzdə yaranmış kəskin vəziyyətə uyğun olaraq qəbul etmişik. Rəhbər işçilərin adına az da olsa ləkə düşməməlidir. Bəs alimlik dərəcələri! Axı, biz həmişə cəmiyyəti elmi qaydada idarə etmək zərurətindən danışırıq, Əgər partiya işçisi və ya nazir həm də alimdirsə... – Güman edirəm ki, şairin çox riyakarlıqla, lakin dəqiq şəkildə dəyişdirilmiş misralarına bələdsiniz: "Alim olmaya da bilərsən, amma namizəd olmağa borclusan". İndi biz elmsiz keçinə bilmərik. Kim idarəetmə ilə məşğul olursa, elmlərin, xüsusilə ictimai elmlərin əsaslarına yiyələnməlidir. Üstəlik, öz əməli fəaliyyəti ilə elmə töhfə verməli, cəmiyyətdə cərəyan edən hadisələri təhlil etməyi və bir anlıq qərarlar deyil, dərin qərarlar qəbul etməyi bacarmalıdır. Biz bütün rəhbər işçilərdə bu keyfiyyətlərin olmasını istəyirik. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi təbliğat və təşviqat şöbəsinin müdiri Əfrand Firudinoviç Daşdəmirov sizinlə üzbəüz əyləşib. Hələ qırx yaşı yoxdur, amma fəlsəfə elmləri doktorudur, professordur. Mərkəzi Komitə aparatına alim kimi gəlib və öz partiya işini elmi işlə əlaqələndirir. Bu, bizə fayda verir. Hər bir qaydanın əsaslandırılmış istisnaları da var. Yoxsa qayda ehkama çevrilər.

Lakin Sumqayıt Şəhər Partiya Komitəsinin keçmiş birinci katibi Balakişiyevin texnika elmləri namizədi alimlik dərəcəsi almasını əsla normal vəziyyət hesab etmək olmaz. Axı, o, partiya işinə keçməzdən əvvəl elmi tədqiqatla məşğul olmamışdı, heç mühəndis də işləməmişdi, ömründə istehsalatda çalışmamışdı. Buna görə də yoxlamanın nəticələri təəccüb doğurmur. Bu nəticələr oyanan şübhəni təsdiq etmişdir: Balakişiyev əslində dissertasiyanın müəllifi olmamış, özgə

əməyindən istifadə etmişdir. Balakişiyev sovet alimi adına yaraşmayan hərəkətlərinə görə Sovet Sosialist Respublikaları İttifaqı Ali Attestasiya Komissiyasnın 1981-ci il 12 avqust tarixli qərarı ilə alimlik dərəcəsindən məhrum edilmişdir. Daha əvvəl Balakişiyev işdəki ciddi nöqsanlarınına görə vəzifədən götürülüb sıravi işə göndərilmişdir.

Lakin bu, yeganə hadisə deyildi. 60-cı illərdə rəhbər işçilər arasında alimlik dərəcəsi almağa aludəçilik dəb düşmüşdü. Biz belə bir nəticəyə gəldik ki, bunun nə elm üçün əməli faydası var, nə də partiya, dövlət fəaliyyəti üçün. Zərəri, mənəvi ziyanı isə çoxdur. Rəhbər işçilər öz vəzifələrindən sui-istifadə edirdilər, alimlərin sıraları isə zibillənirdi. Qadağan etməyimizin səbəbi bax budur.

Belə mənəvi yasaqlara dair gətirilən misallar, bəlkə də, gözlənilməzdir. Lakin əmək kollektivində mənəvi yasaq özlüyündə o qədər də nadir hadisə deyildir. Bu, şərəf və vicdan haqqında sosialist anlayışlarından irəli gəlir, müəyyən şəraitdə konkretlik kəsb edir. Həm də kollektivə başçılıq edən rəhbərin qarşısına xüsusi tələblər qoyur. Rəhbər işçinin mənəvi siması, mənəvi nümunəsi adamların tərbiyəsində mühüm amildir. Əgər rəhbər işçi, məsələn, tribunadan xırda burjua psixologiyasının qalıqlarını qamçılayıb lənətləyirsə, şəxsi həyatında isə öz vəzifəsindən sui-istifadə edirsə, sərvət toplamaqla, qızıl almaq, alver etməklə məşğul olursa, həyatda əşyadan və puldan başqa heç bir sərvət tanımayan adamdan yüzqat təhlükəlidir.

Heydər Əliyeviç, hətta Qərbdə sosializmi tez-tez «sosial təminatlar quruluşu» adlandırırlar. Özü də bizdə hər bir adam bunu hər gün yəqin edə bilər. Bununla belə, görürsən, adamlar artıq ehtiyatlar yaradırlar. Buna səbəb nədir? Onları qorxudan bəlkə beynəlxalq vəziyyətdir? Beynəlxalq vəziyyət nə qədər gərgin olsa da, onun buraya heç bir dəxli yoxdur. Gərgin beynəlxalq vəziyyət normal vətəndaşda sülhün, öz yaxın adamların müqəddəratı üçün təşviş oyadır, öz evini, öz Vətənini müdafiə etmək əzmi yaradır. Mən sadə

əməkçilərlə görüşəndə tez-tez bunun şahidi oluram. Onlar partiyamızın və hökumətimizin sülhü qoruyub saxlamaq qabiliyyətinə özlərinin möhkəm inamını da ifadə edirlər. Leonid İliç Brejnev dəfələrlə qeyd etmişdir ki, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və Sovet dövləti sülhü qoruyub saxlamaq, sürətlə silahlanmanın qarşısını almaq, təcavüzkarları dəf etmək üçün bütün lazımi tədbirləri görəcəkdir.

Ehtiyat toplayanların psixologiyası məni də maraqlandırır. Bəzən onların açıq-saçıq cavablarını eşidirsən. Bakı şəhəri Şaumyan Rayon İcraiyyə Komitəsinin keçmiş sədri, qızıl pul alıb yığmaqda ifşa edilmiş Əhmədov Kommunist Partiyası Mərkəzi Komitəsi bürosunun iclasında beləcə də demişdi: "Dar gün üçün". Onlar layiq olmadıqları yeri tutar-tutmaz öz "dar günləri" üçün qorxmağa başlayırlar. İnamsızlıq, nigarançılıq, labüd uğursuzluq hissi bu bədbəxtləri qarabaqara izləyir. Əgər onların keçmişinə baxsaq, indicə haqqında danışdığımız əhvalatlara hökmən rast gələrik: ali məktəbdə yer rüşvətlə alınıb, diplom pula alnıb, dissertasiya da, "gəlirli yer" də və i.a.

Bumeranq geri qayıdır. Bəla burasındadır ki, o, nəinki həyatımızın qanununu pozan adamın şəxsi taleyinə, həm də çoxlu başqa adama zərbə vurur, dayaqlarımıza və prinsiplərimizə zərbə vurur, ədalətə və paklığa inamsızlıq yaradır. Məndə belə bir təəssürat oyandı ki, sizdə rüşvətxorluq cinayətin hər hansı başqa növünə nisbətən daha çox nifrət oyadır. Şair Fikrət Qoca isə hətta deyir: "Rüşvət kürəyimizə sancılan xain bıçağıdır..." Nə üçün məhz rüşvət?

Ona görə ki, rüşvət universal cinayətdir. Bütün başqa eybəcərliklər onun ətrafında dolanır. Rüşvətxor əlaltından dublyonka, palto satmır, dövlətin mənafeyini satır, öz fəaliyyətini satır, başqa birisi isə pul verib bunları alır. Şairin aforizmi mübaliğə deyildir. Keçmişin mənfur qalığı yaşayırsa, bunun təqsiri hər birimizin üzərinə düşür, hətta təmiz, pak adamın da, hətta rüşvət alanlara və rüşvət verənlərə nifrət

edən adamın da. Şəxsi təmiz olmaq və şəxsi çiyrinmək hələ vətəndaşlıq ləyaqəti deyildir. Vətəndaşlıq fəallıq deməkdir, şərə qarşı mübarizə aparmaq bacarığı və arzusu deməkdir. Publisistlərdən neçə illərdi ki, Rubinovun "Brilyant əllər" məqaləsi kimi bir çıxış gözləyirdim. Lakin "Literaturnaya qazeta" şəxsi gəlir haqqında hesabat formasını tapmağı yalnız təklif etməklə kifayətlənib, bunun üçün tədbirlər hazırlanmasına çalışmasa, yarı yolda qalmış olar.

Yəqin ki, siz publisistlər də bəzən çətinlik çəkirsiniz. İfşa edilmiş və hələ ifşa edilməmiş oğrular, rüşvətxorlar, görünür, çığır-bağır salırlar ki, siz "rəhbərin nüfuzunu" sarsıdırsınız. Bizdə də belə şeylər olur. Lakin biz sosialist qanunçuluğuna ən ciddi əməl edilməsi uğrunda mübarizə aparmaq, xidmət mövqeyindən hər hansı şəkildə sui-istifadə edilməsinə qarşı mübarizə aparmaq, cəmiyyətimizin mənəvi sərvətləri uğrunda mübarizə aparmaq haqqında partiyanın göstərişlərini unutmuruq.

Leonid İliç Brejnev demişdir: "Bu cür hallara qarşı mübarizədə əmək kollektivinin rəyindən də, mətbuatın tənqidi çıxışından da, inandırma metodlarından da, qanunun gücündən də – ixtiyarımızda olan bütün vasitələrdən tamamilə istifadə edilməlidir". Sizin tanınmış bir hüquqçunuz demişdir: "Zəhmətsiz gəlirlə yaşayan adam "zəhmətli" gəlir haqqında arayışı pul ilə həmişə ala bilər". Bunu yoxlamaq asandır. Həm arayış alanı, həm arayış verəni lazımınca cəzalandırmaq da. Başlıcası isə budur ki, şərin kökünü kəsmək üçün görülən konkret tədbirlər özlüyündə əlahiddə bir məqsəd deyildir. Bunlar qanunun pozulmasına qarşı ümumi dözülməzlik sisteminə möhkəm daxil olmalıdır. Qəzetin çıxışı fəal həyat mövqeyinin təzahürü nümunələrindən biridir. Real tədbir görülməsə, fəal mövqeyin heç bir faydası yoxdur. Fəal vətəndaşlıq mövqeyinin yaradılması dövrümüzdə bütün ideoloji işin özəyidir.

1979-cu ilin aprelində Bakıda "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual

problemləri” mövzusunda Ümumittifaq elmi-praktik konfransının keçirilməsi bu baxımdan böyük hadisə olmuşdur. Belə konfranslar kommunizm ideallarnın bərqərar edilməsinin əməli təcrübəsini, mənfı hallara qarşı mübarizə təcrübəsini ümumiləşdirməyə, ictimai elmlərin müəyyən dərəcədə geri qalmasına son qoymağa kömək edir: ictimai elmlər hələ çox zaman məsələləri, tutaq ki, etika problemlərini mücərrəd fəlsəfı səviyyədə, Vladimir İliç Leninin “adi adamların əməli hərəkatı” adlandırdığı hərəkatdan ayrılıqda araşdırır. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Mərkəzi Komitə katibi Mixail Andreyeviç Suslov da bu yaxınlarda ali məktəblərin ictimai elmlər kafedraları müdirlərinin Ümumittifaq müşavirəsində məhz sxolastik nəzəriyyəbazlığa, xırda məsələlər ətrafında mənasız diskussiyalara aludəçilikdən qətiyyətlə əl çəkmək lüzumundan danışmışdır.

Elmi-texniki inqilab, rifahın yüksəlməsi, asudə vaxtın çoxalması, savadın artması kimi mütərəqqi hadisələrin müasir həyata gətirdiyi bir çox ziddiyyətlər kompleks qaydada – mənəvi, sosial, siyasi cəhətdən idarə olunmasa, mənfı nəticələr də verə bilər.

Sosializm cəmiyyətində bu prosesdə əsas rolu əmək kollektivi öz öhdəsinə götürür və onun əhəmiyyətinin getdikcə artması Konstitusiyada qeyd edilmişdir. Əmək kollektivində yalnız əmək alətləri deyil, insani münasibətlər də mükəmməl olmalıdır. Bakı məişət kondisioneri zavodu bu cür ahəngdar əlaqənin timsalı ola bilər. Müəssisənin partiya təşkilatı iqtisadi, təşkilati və ideoloji amillərin təsiri sistemini əməli şəkildə işləyib hazırlayaraq sosialist ictimai istehsalının humanist məqsədlərini hər bir əməkçiyə aydın göstərir. Yaxud neftçi kollektivlərini, xüsusilə dəniz neftçiləri kollektivlərini götürək. Orada hər şey yüksək mənəviyyata əsaslanır. Leonid İliç Brejnev çox obrazlı şəkildə demişdir: ”Dəniz neftçilərinin əməyi ikiqat qəhrəmanlıqdır”.

İdeyanın kütlələrə hakim kəsildikdən sonra maddi qüvvəyə çevrildiyi haqqında Marks müddəasının düzğünlüyünü əyani şəkildə görüb yəqin etmək olar. – Respublikanın iqtisadi müvəffəqiyyətləri arxasında biz Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi xəttinin mənəvi cəhətdən bəyənildiyini, rəhbər partiya, sovet işçilərinin zəhmətkeşlərin həyatını daha da firavanlaşdırmaq, dolğunlaşdırmaq və ülviləşdirmək niyyətlərinin səmimiliyinə etibar edildiyini görürük.

Respublikanın nailiyyətləri partiya və dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Sovet Sosialist Respublikası onuncu beşillik planı vaxtından əvvəl yerinə yetirdiyinə görə üçüncü Lenin ordeni ilə təltif olunmuşdur. 1980-ci il və bütün beşillik üçün Ümumittifaq sosializm yarışının yekunlarına görə respublika dalbadal on birinci dəfə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin, Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının və Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinin Qırmızı bayrağı ilə mükafatlandırılmışdır.

Leonid İliç Brejnev 1978-ci ilin sentyabrında Bakıya gəlmişdi. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi respublikanın müvəffəqiyyətləri ilə tanış olduqdan, onun şanlı əməkçiləri ilə görüşdükdən sonra təəssüratına bu sözlərlə yekun vurmuşdu: "Azərbaycan iri addımlarla irəliləyir!"

Biz bu tərifdən ruhlanaraq respublikanın irəliləyişinin ləngiməməsindən ötrü əlimizdən gələni edirik. Biz iqtisadiyyatı böyük sürətlə yüksəltməyi nəzərdə tutmuş, on birinci beşillik üçün gərgin planlar müəyyənləşdirmiş və elə birinci ildən yaxşı nəticələrə nail olmuşuq.

Cari ildə hava şəraiti əlverişli olmasa da, tarla əməkçiləri yenidən görkəmli qələbə qazanmışlar. Dövlətə bir milyon 13 min ton pambıq satılmışdır ki, bu da keçən il tədarük edilmiş rekord həcmdən 129 min ton çoxdur; bir milyon 608 min

ton üzüm satılmışdır ki, bu da rekord il olan 1980-ci ildəkindən 210 min ton çoxdur. Azərbaycan ölkədə ən iri üzüm istehsalçısına çevrilmişdir.

Brejnev yoldaş bizi böyük nailiyyətlər münasibətilə ürəkdən təbrik edib göstərmişdir ki, hər il planların və sosialist öhdəliklərinin tamamilə və artıqlamasilə yerinə yetirilməsi, məhsuldarlığın, bütün kənd təsərrüfatı məhsulları istehsalının və dövlətə satışının durmadan artmasının təmin edilməsi respublika əməkçilərinin yaxşı ənənəsinə çevrilmişdir.

Sənaye və tikinti də yaxşı sürətlə inkişaf edir. Bu il məhsul artımının 81,4 faizi əmək məhsuldarlığının yüksəldilməsi hesabına əldə olunmuşdur. Keyfiyyət nişanlı məhsul istehsalının həcmi 29,5 faiz artmışdır.

Respublikanın və bütün ölkənin iqtisadi müvəffəqiyyətləri ona görə fərəhlidir ki, bunlar xalqın rifahının yüksəlməsi deməkdir, çünki XXVI qurultayda deyildiyi kimi, konkret adama konkret qayğı partiyanın iqtisadi siyasətinin əzəli məqsədi və son məqsədidir. Lakin istehlak mədəniyyəti tərbiyə etməyi yaddan cıxarmaq olmaz. Bu, sosialist həyat tərzinin bir ünsürüdür. Bayaqdan haqqında danışdığımız ziyalıların fəallığı üçün burada geniş meydan vardır. Əsl ziyalı rifahın mənasının və məzmununun, şəxsi və ictimai qarşılıqlı münasibətin başa düşülməsinə kömək etməyə çalışır. Başqa bir ziyalı isə vəzifəyə keçəndən sonra öz meşşan instinktlərinə meydan verir. Deməli, iki yol var: müasir əşyaların köməyi ilə yüksəlmək yolu. Bir də əşyaların ucbatından uçuruma yüvarlanmaq yolu.

Biz fəal həyat mövqeyinin formalaşdırılmasma bu qədər böyük əhəmiyyət verərkən təkcə sosial cəhətdən fəal şəxsiyyətin ictimai proseslərin idarə olunmasına kömək etdiyini yox, həm də bu şəxsiyyətin özünün yeni həyat sərvətləri əldə etdiyini, yeni sevinclərə qovuşduğunu nəzərdə tuturuq.

Siz dediniz ki, insanın fəal mövqeyi konkret hərəkətlərdə təzahür edir. Amma məlumdur ki, adamın başına öz hərəkətləri üçün heç də həmişə çələng qoymurlar.

Azərbaycan kinostudiyasının "İstintaq" fılmində, – yeri gəlmişkən deyim ki, o, moskvalılara böyük təsir bağışlamışdır, – müstəntiq Seyfi əsl cinayətkarları – keçmiş vəzifəli şəxsləri üzə çıxarıb ifşa etmək üçün əlindən gələni edir. Filmin yaradıcıları – ssenari müəllifi Rüstəm İbrahimbəyov və rejissor Rasim Ocaqov ″qanun hamı üçün qanundur″ prinsipini publisistcəsinə kəskinləşdirmişlər. Lakin bu prinsipin zəfər çalması üçün fılmin qəhrəmanın nəinki təzyiqə, hədələrə sinə gərir, həm də istintaqın bəzi prosessual normalarına etinasızlıq göstərməyə məcbur olur. Güman etmək olar ki, bunun üçün cəzalandırılacaqdır. Qanun hamı üçün qanundur! Şair demişdir ki, "xeyirxahlığın gərək yumruğu olsun". Lakin ədliyyənin də yumruğu var.

Yaxud da, bir halda ki, misalları incəsənət əsərlərindən gətiririk, Eldar Ryazanovun çoxdan çəkilmiş, lakin köhnəlməyən "Avtomobildən özünü qoru!" filmini yada salaq. Hakimlər və iclasçılar rəğbət hissinə güc gəlib hədsiz təmənnasızlığına görə hətta sevən qadının da «səfeh » adlandırdığı Yuri Detoçkin barədə hökm çıxarırlar. Doğrudur, qanun-qaydanı bu cür "pozanlara" münasibət müxtəlifdir. Ələlxüsus qanunun quru hərfının keşiyində dayananlar arasında. Bir hüquqçu təəssüflə demişdir ki, Smoktunovski "anarxisti" məlahətli qəhrəmana çevirmişdir.

Mənimsə Yuri Detoçkindən xoşum gəlir! Əlbəttə, səhvi ondadır ki, təkbaşına iş görür. Lakin yəqin ki, başqa cür hərəkət etmək əlindən gəlmir. Seyfinin də əlindən gəlmirdi. Hər adam səhv edə bilər. Hər şey onun hansı mənəvi mülahizələri rəhbər tutmasından asılıdır.

Filmin yaradıcıları ictimaiyyətin diqqətini fırıldaqçılara qarşı daha fəal mübarizə aparmaq lüzumuna cəlb etmiş, onların vəziyyətə uyğunlaşmasının yeni növlərini göstərmişlər. Detoçkin və Seyfi kimi adamların sayəsində mənfi hallara qarşı mübarizə daha müvəffəqiyyətlə gedir. Belə adamlar mübarizə formalarını və metodlarını seçməkdə səhv etsələr də, sayca laqeydlərdən daha çox olsalar yaxşıdır.

Yazıçılar, şairlər, kinematoqrafçılar sürətlə dəyişən həyatla qanunlar arasında olan ziddiyyətləri konfliktli vəziyyətlərdə göstərirlər. Ziddiyyətlər təkcə hüquqşünaslığa yox, adət edilmiş təsəvvürlərə, köhnəlmiş ənənələrə, ilk nəzərdə sarsılmaz görünən davranış qaydalarına da aiddir. Beləliklə, sənətkarlar öz vətəndaşlıq mövqelərini ifadə edərək cəsarətlə parlaq bədii əsərlər yaradırlar.

Ədəbiyyatın həyatdan geri qalmasına yalnız təəssüf etmək olar. Mən ən əvvəl Azərbaycan yazıçılarını nəzərdə tuturam. Bizdə kommunist əxlaqının antipodlarına qarşı Azərbaycan kommu-nistlərinin indiki mübarizəsini əks etdirən, cəsur və vicdannlı müasir cəngavərlərin obrazları olan əsərlər hələ az yaradılır. Halbuki real həyatda belə adamlar çoxdur!

Bir halda ki, söhbət ədəbiyyatdan düşdü, deməliyəm ki, sosialist realizmi ədəbiyyatı mənfı hallara qarşı mübarizədə, kommunizm ideallarının bərqərar edilməsi uğrunda mübarizədə, bütün dünyada sülhün qələbəsi uğrunda, dağıdıcı şər qüvvələr üzərində insan idrakının təntənəsi uğrunda mübarizədə həmləvərlik, hətta davakarlıq kimi bir keyfıyyətə malik olmalıdır.

Fəzilətlərin zirvələrə doğru yolu həmişə daşlı-kəsəkli olmuşdur! Qətiyyətli adamların sevinc hissi süst, ətalətli, “mənə dəxli yoxdur” mövqeyi tutan adamlara, xüsusilə fırıldaqçılara, dələduzlara, xalq malını oğurlayanlara heç bir zaman nəsib ola bilməz. Belələrinin iztirablarına kimsə şərik olmaz, onların çəkdiyi labüd cəzanı heç kim hədsiz dərəcədə şiddətli cəza saymaz.

Şərə qarşı mübarizənin zirvəsində vəziyyət kəskinləşir. Sonra nisbətən dinc şərait yaranır və yüksək mənəviyyat bütün həyata istiqamət verir. Biz idealist deyilik və iddia etmirik ki, xeyirin şər üzərində əbədi mütləq qələbəsinə nail olacağıq. Lakin tərəzinin haqq-ədalət, qanunçuluq, ideyalılıq qoyulan gözünün ağır gəlməsinə nail ola bilərik və olmalıyıq. Sarsıntılar vardır və yenə də olacaqdır, lakin bunlar

dərhal qanunun, rəhbərliyin, ictimaiyyətin diqqətini cəlb edəcəkdir.

Biz həyat tərzimizin əxlaq prinsiplərini bərqərar etmək uğrunda mübarizədə ictimai rəyin öyrənilməsinə və nəzərə alınmasına xüsusi əhəmiyyət veririk. Deməliyəm ki, bu, işdə çox köməyimizə yetir.

Aşkarlıq, görülən tədbirlər və onların nəticələri haqqında müntəzəm olaraq geniş məlumat verilməsi, bunun üçün mətbuat orqanlarından, radio və televiziyadan səmərəli istifadə olunması sosialist demokratiyasını inkişaf etdirməkdə, kütlələrin sosial fəallığını yüksəltməkdə çox mühüm amildir.

Lap bu yaxınlarda Mərkəzi Komitə bürosunda biz Bakının Nərimanov rayonunda hüquq qaydalarının mühafizəsində və hüquq pozuntularına qarşı mübarizədə olan ciddi nöqsanlar haqqında məsələ müzakirə etdik. Hüquq-mühafizə və sovet orqanlarının rəhbərlərinə şiddətli cəza verməli olduq. Mərkəzi Komitənin bu məsələyə dair qərarını respublika mətbuatında dərc etdik. Sonra Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi yanında ictimai rəyi öyrənmə və sosioloji tədqiqatlar mərkəzi zəhmətkeşlərə müraciət edib qərarda deyilənlər barəsində öz mülahizələrini bildirməyi xahiş etdi. Minlərlə təklif, məsləhət alınmışdır. Hamısında da qərarımız bəyənilir.

Təkliflərin və məsləhətlərin bir çoxu əməli cəhətdən məqsədəuyğun olması ilə fərqlənir. Məsələn, milis, məhkəmə, prokurorluq işçilərinin əhali qarşısında hesabatları qayda şəklini almışdır.

Bütün bunlar partiya və dövlət intizamının, kommunist əxlaqı normalarının pozulmasına qarşı barışmazlıq şəraiti yaradır, mənfı hallara qarşı fəal mübarizələr, sosialist həyat tərzi prinsiplərinin bərqərar edilməsi uğrunda mübarizlər tərbiyə edir.

Sovet İttifaqı Kommunist Partiyası qurultaydan-qurultaya möhkəmlənir və sosialist həyat tərzini təkmilləşdirmək problemlərinin həll olunmasında, cəmiyyətin idarə edilmə-

sinə dair Lenin prinsiplərinin inkişaf etdirilməsində, sovet demokratiyasının inkişaf etdirilməsində, kommunizm ideallarının bərqərar edilməsində partiyanın xətti dərinləşir, konkret adama, onun həm maddi, həm də mənəvi rifahına qayğı daha da konkretləşir.

Biz yabançı, yamaq kimi görünən nə varsa, hamısından təmizlənmək prosesinin zəruriliyindən, "qanun hamı üçün qanundur" prinsipinin pozulmazlığından, ən əvvəl konstitusiya mənasında və mənəvi mənada pozulmazlığından məhz buna görə inamla danışırıq.

Heydər Əliyeviç, poeziyanın ülvi sözləri ilə müvəffəqiyyət arzulamaq lap yerinə düşər.

Nizami demişkən:

*"Qoy ədalət zəfər çalsın,*
*Zülm məhv olub, alçalsın.*
*Şərəflənsin qoy səxavət,*
*Mərdlərə halaldır şöhrət".*

Bəli, XII əsrin böyük Azərbaycan şairi Nizami Gəncəvi demişdir:

*"Təmkinli ol, lovğalığı, sərvəti*
*At, yanıb tonqalda qoy külə dönsün!*
*Əgər istəyirsən ürəyin gülə,*
*Qoyma pis niyyətlər fikrinə gələ.*
*Nalayiq əməllər görsən harada*
*Odlu nəfəsinlə yandır, məhv elə!"*

Söhbəti aparmışdır: Antonina QRİQO "Literaturaaya qazeta", 18 noyabr 1981-ci il.

**2 dekabr 1982-ci il, Bakı**

Heydər Əliyev birinci katib kimi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin sonuncu büro iclasını bu sözlərlə açdı:

– İndi isə biz bir təşkilati məsələyə baxmalıyıq. Siz bilirsiniz ki, mən Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin sədr müavini seçilmişəm və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosuna üzvlüyə namizədlikdən Siyasi Büronun üzvlüyünə qəbul edilmişəm. Deməli, bu gün biz Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə kimin seçiləcəyini qərarlaşdırmalıyıq...

Heydər Əliyev Moskvada qəbul edilmiş sənədi oxuyaraq, sözünə davam etdi:

– Məncə, bu sənədə əsasən "Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsindən və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Büro üzvlüyündən azad edilməsi barədə" qərar qəbul etməliyik. Lakin bu qərarı səsverməyə qoymamışdan əvvəl mən bir neçə söz demək istəyirəm. – Heydər Əliyev həmkarlarını gözdən keçirtdi. Ən əvvəl onu deyim ki, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu və Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin 7-ci sessiyasının qərarı ilə yoldaş Əliyevin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə qəbul edilməsi və Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin sədr müavini seçilməsi Azərbaycanın partiya komitəsinə, bizim xalqa, respublikaya göstərilən böyük etimadın nəticəsidir. Hamı bir fikirdə yekdildir ki, bu, Azərbaycan partiya komitəsinin uğurlu fəaliyyətinə, kommunizm quruculuğunda Azərbaycan zəhmətkeşlərinin göstərdiyi iqtisadi nailiyyətlərə verilən yüksək qiymətdir. Şəxsən mənə də böyük etimad göstərilib. Sizi əmin edirəm ki, bu etimadı doğruldacaq və partiyanın, Mərkəzi Komitənin, Siyasi Büronun yeni tapşırıqlarını həyata keçirmək üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Bu gün 1969-cu il iyulun 14-ü, mənim Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçildiyim günü xatırlayıram. Artıq on üç il yarımdır

ki, biz birlikdə işləyirik və mən bu vəzifəni yerinə yetirirəm. İndi isə bu böyük işdən, bu böyük müddətdən sonra partiya, dövlət xətti ilə bu təyinatını, sözsüz ki, mənim qarşıma çox böyük və məsuliyyətli öhdəliklər qoyur. Mən qarşımda böyük, ağır, mürəkkəb işlərin durduğunu görürəm. İnanıram ki, yeni vəzifəmdə də əvvəlki kimi uğurla çalışa biləcəyəm, Sovet Sosialist Respublikaları İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən göstərilən bu etimadı doğruldacağam.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda öz fikirlərimi daha geniş şəkildə açıqlayacağam. Amma indi qeyd etmək istəyirəm ki, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin bürosu, katibliyi çox səhih, dəqiq, məhsuldar işləyir. Bu illər ərzində böyük işlər görülüb, respublika böyük uğurlar əldə edib. Biz uzunmüddətli geriləməni qısa müddətdə aradan qaldırmağa nail olmuşuq. Respublikamız ümumittifaq miqyasda ən qabaqcıl mövqelərdədir. On iki ildir ardıcıl olaraq respublikamız sosializm yarışında qələbələr çalaraq ölkənin Keçici Qırmızı Bayrağıyla mükafatlandırılır. Bu illər ərzində respublikamız üç dəfə Sovet İttifaqının ordenləriylə – Oktyabr İnqilabı, Xalqlar Dostluğu ordenləriylə mükafatlandırılıb. Beşillik planın vaxtından əvvəl yerinə yetirilməsiylə bağlı isə bu yaxınlarda şəxsən Leonid İliç Azərbaycanı Lenin ordeniylə təltif edib. Respublikada çox gözəl, sağlam mənəvi-siyasi, mənəvi-psixoloji atmosfer hökm sürür. Beynəlmiləlçilik, qardaşlıq ruhu həmişə yüksəkdə tutulur. Sözün qısası, yoldaşlar, bizim respublika yüksəklərə, çox yüksəklərə qalxıb.

Bütün bunlar sözsüz ki, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibliyinin, Mərkəzi Komitə bürosunun fəaliyyətinin nəticəsidir. 1969-cu il iyulun 14-dən bu yana hansı işlər yerinə yetirilibsə, bunların hamısının planı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi büro-

sunun iclaslarında işlənib, hazırlanıb, qəbul edilib. Ümumilikdə respublikanın uğurunu müəyyən edən hər bir addım, hər bir iş, hər bir tədbir böyük-kiçikliyindən asılı olmayaraq, bizim hamımızın – həm Mərkəzi Komitənin bürosunun, həm də katibliyinin kollektiv işinin, düşüncəsinin və səylərinin məhsuludur. Onun üçün də, mən bu gün böyük məsuliyyətlə deyə bilərəm ki, bizim Kommunist Partiyası Mərkəzi Komitəsinin həm bürosu, həm də katibliyi Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin, partiyanın qurultay və plenum qərarlarının tələb etdiyi səviyyədə işləyib. İndi ayrılmaq məqamında, büronun bu son iclasınnda sizi əmin edirəm ki, bütün bu dediklərimi böyük fəxr və vüqar hissiylə təkrar etdim.

Mən ilk olaraq Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin büro üzvlərinə bütün bu illər ərzindəki birgə, kollektiv, məhsuldar, fəal işimizə görə təşəkkürümü bildirirəm. Əziz yoldaşlar, əvəzsiz köməyinizə, məni dəstəklədiyinizə, mənə qarşı diqqətinizə görə sizə minnətdarlıq edirəm.

Biz bir çox kəskin məsələləri prinsipial olaraq həll etmişik. Hər hansı məsələ barədə fikir müxtəlifliyi olub, amma biz həmişə ortaq məxrəcə gəlib ən düzgün nəticənin üzərində dayanmışıq, birgə hərəkət etmişik. Ən əsası isə odur ki, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi bürosunun və katibliyinin işində sağlam atmosfer yaratmağa nail olmuşuq. Əvvəllər bizim Kompartiyanın həm katibliyində, həm də bürosunda qarşılıqlı anlaşma, sağlam atmosfer yox idi və bu, ümumilikdə bizim respublikanın işinə böyük ziyan vururdu. Hamı öz şəxsi maraqlarını üstün tuturdu. Konyuktur yanaşma, intriqalar, qruplaşmalar, parçalanmalar və bir çox başqa mənfi hallar baş alıb gedirdi. Biz çox tez bir zamanda bu mənfi tendensiyaları aradan qaldırdıq və aydan-aya, ildən-ilə dediyim bu sağlam atmosferi bərqərar etməyə çalışdıq, Mərkəzi Komitənin fəaliyyətində buna nail olduq. Əlbəttə ki, bütün bu nailiyyətlərə görə biz Mərkəzi

Komitənin işindəki bərqərar olmuş kollegiallıq prinsiplərinə minnətdar olmalıyıq.

Yenə də təkrar edirəm, indi bizim Mərkəzi Komitə partiya əsasları üzrə çox sağlam, dəqiq, düzgün tərzdə fəaliyyət göstərir. Və məncə, bu əsaslar onun gələcəkdəki uğurlu fəaliyyətinin də təminatçısıdır. Məhz buna görə də mən Mərkəzi Komitənin bütün işçilərinə təkrar-təkrar minnətdarlığımı bildirirəm, hamınızın – Kommunist Partiyası Mərkəzi Komitəsinin katibliyinin hər bir işçisinin, Mərkəzi Komitənin bürosunun hər bir üzvünün, büro üzvlüyünə hər bir namizədin fəaliyyətini yüksək qiymətləndirirəm. Bizim Mərkəzi Komitənin bürosunun, katibliyinin iclaslarının demək olar ki, hamısında Mərkəzi Komitənin şöbə müdirləri, partiya-ideoloji təşkilatların rəhbərləri iştirak edir və mən bu gün Mərkəzi Komitə aparatının bütün işçilərinə, Mərkəzi Komitənin şöbə müdirlərinə və bizimlə bu uzun illər boyu səmərəli şəkildə əməkdaşlıq etmiş yoldaşların hamısına Mərkəzi Komitənin fəaliyyətinin məhsuldar, uğurlu, səmərəli olmasına öz töhfələrini verdiklərinə görə dərin təşəkkürümü bildirirəm. Çox sağ olun, əziz dostlar, yoldaşlar. Mən əminəm ki, qazanılmış böyük təcrübənin, möhkəmlənmiş fəaliyyət ənənələrinin, işgüzar prinsiplərin əsasında Mərkəzi Komitənin bürosunun və katibliyinin işi bundan sonra da uğurla davam etdiriləcək və büronun, katibliyin hər bir üzvü, hər bir partiya, sovet və təsərrüfat orqanının işçisi qazanılmış nailiyyətlərin bir qədər də möhkəmləndirilməsi, qazanılan təcrübənin artırılması üçün bundan sonra da əlindən gələni edəcəkdir. Əminəm ki, bizim təməlimiz, özülümüz o qədər möhkəmdir ki, Azərbaycan partiya təşkilatında 1969-cu ilə qədər mövcud olmuş mənfi tendensiyalar daha heç vaxt təkrar olunmayacaq.

Əziz dostlar, yoldaşlar, həmkarlar, mən sizə, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin iyirmi altıncı qurultayının, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin yanvar plenumunun, Azərbaycan Kommunist

Partiyası Mərkəzi Komitəsinin otuzuncu qurultayının və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumlarının qərarlarını daha da uğurla həyata keçirməyinizi arzu edirəm».

Böyük-kiçikliyindən asılı olmayaraq partiyanın Mərkəzi Komitəsinin bürosunun iclaslarında adətən alqış səslənmir. Lakin bu dəfə çıxış qurtarandan sonra hamı sanki biri-birindən xəbərsiz sürətlə əl çalmağa başladı... Bu an kimsə təşəbbüsü öz üzərinə götürməliydi və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibi Yuri Puqaçov söz aldı. Bir az həyəcanlı, amma çox səmimi çıxış etdi. Bildirdi ki, Heydər Əliyevə böyük etimad göstərilib, amma bizim aramızda da onun yeri görünəcək, onsuz bizim üçün çox çətin olacaq... Bu vəzifəyə yeni namizədin adını da məhz Puqaçov açıqladı: «adi insanlarla, kommunistlərlə, Mərkəzi Komitə üzvləriylə, Mərkəzi Komitənin büro üzvləriylə uzun müzakirələrdən sonra son qərar qəbul edilmiş və bu qərar barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə, onun katibliyinə, Siyasi Bürosuna və şəxsən yoldaş Yuri Vladimiroviç Andropova məruzə edilmişdir».

Bu müddət ərzində yeni birinci katib Kamran Bağırovla Moskvada söhbət aparılmış, şəxsən Andropov onunla görüşmüşdü. Əlbəttə ki, məsələ faktiki olaraq Moskvada həll olunmuşdu, amma qaydalar bunu tələb edirdi: ona görə büronun üzvləri səs verir, plenum seçirdi.

Bir neçə il keçəcək və yetmişinci illəri «durğunluq dövrü» adlandıracaqlar. Amma soruşan gərəkdir ki, kimlər daha çox durğunluq halındaydı ? Kimə haqq verilib ki, bütöv bir epoxaya, milyonlarla zəhmətkeşin əməyinə belə alçaldıcı bir damğa vursun ? Əlbəttə ki, nə Baykal-Amur magistralının tikintisində, nə Qərbi Sibirin, Xəzər dənizinin neft mədənlərində, nə Donbasın, Kuzbasın, Karaqandanın şaxtalarında heç bir durğunluqdan əsər-əlamət də yox idi. Azərbaycanın təsərrüfatlarından da durğunluq rütubətinin iyi gəlmirdi.

Burada Əliyevin rəhbərlik etdiyi on beş ilə yaxın bir müddət ərzində adambaşına düşən yerli məhsulun həcmi demək olar ki, iki dəfə, ümumi istehsal gücü isə iki dəfə yarım artmışdı. Milli gəlirin artımı 1969-cu ildəki ümumi istehsal həcminə bərabər idi. Sənaye istehsalı təxminən üç dəfə, əmək məhsuldarlığı iki dəfə, xalq istehlakı mallarının istehsalı üç dəfə artmışdı. Bu illər ərzində sənaye məhsullarının istehsal həcmi əvvəlki 50 ildəki həcmə bərabər idi. İki yüz əlliyə yaxın zavod, fabrik, sex tikilmiş, iki milyondan artıq insan mənzil şəraitini yaxşılaşdırmışdı. Bu illər ərzində respublika demək olar ki, ikinci Bakını tikmişdi, şəhər əvvəlkindən iki dəfə böyük idi.

Azərbaycan neft məhsulları, neftçıxartma avadanlığı, polad borular, rəngli metallar, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil şinləri, mineral gübrələr, saxsı məmulatlar, xalça və xalçaçılıq məmulatlarının istehsalı üzrə Sovet Sosialist Respublikaları İttifaqında qabaqcıl yerlərdən birini tutmuşdu. Azərbaycanda istehsal olunan üç yüz əlli adda məhsul dünyanın altmış beşdən çox ölkəsinə ixrac olunurdu. Respublikada elektrotexnikanın, maşınqayırma sənayesinin yeni sahələri yaradılmış, neft emalı zavodlarında böyük miqyaslı rekonstruksiyalar aparılmış, Bakıda isə yeni metropoliten stansiyaları tikilmişdi.

Azərbaycanın təcrübəsi, nailiyyətləri, ən əsas da onun qeyri-adi lideri bütün dünyanın, xüsusilə, Yaxın Şərq, Afrika, Latın Amerikası ölkələrinin diqqətini cəlb etmişdi. Sovet İttifaqının Asiya və Afrika ölkələri ilə Həmrəylik Komitəsinin sədri Aleksandr Dzasoxov Sovet Sosialist Respublikaları İttifaqının yaranmasının altmış illiyi ərəfəsində (1982-ci il) Bakıda «Postkolonial dünyanın gənc müstəqil dövlətlərinin milli azadlıq hərəkatlarına Sovet Sosialist Respublikaları İttifaqının siyasi, diplomatik, iqtisadi və mənəvi yardımına həsr olunmuş böyük beynəlxalq forum» keçirməyi təklif etmişdi. Konfransa əllidən çox ölkənin yüksək vəzifəli nü-

mayəndələri, milli azadlıq hərəkatlarının liderləri gəlmişdilər. Hazırda Rusiya Federasiyasının Federal Məclisinin üzvü Aleksandr Dzasoxovun dediyinə görə, ali qonaqlar Heydər Əliyevlə görüşdən, beynəlmiləlçi, çoxkonfessional şəhər olan Bakı ilə tanışlıqdan, şəhərdə tarixlə müasirliyin, beynəlmiləl yaşayış formalarının, yüksək səviyyəli sənayenin, elmin vəhdətindən vəcdə gəlmişdilər.

Əliyev çalışırdı ki, Azərbaycan sovet respublikaları arasında layiqli yer tutsun, respublikanın nümayəndələri ümumittifaq miqyasda olan vəzifələrə irəli çəkilsinlər, əlbəttə ki, öz savadlarına, təşkilatçılıq qabiliyyətlərinə uyğun olaraq. Məsələn, tacik şairi və beynəlxalq səviyyəli ictimai xadim Mirzə Tursunzadənin vəfatından sonra, Asiya və Afrika ölkələri ilə Həmrəylik Komitəsinə kimin rəhbərlik edəcəyi məsələsi qalxdıqda Heydər Əliyevin təşəbbasü ilə Azərbaycanın böyük ədibi, məşhur romanların müəllifı, görkəmli alim, ensiklopedik biliyə malik yazıçı və ictimai xadim Mirzə Əjdər oğlu İbrahimov bu vəzifəyə təqdim olunmuş və yekdilliklə komitənin sədri seçilmişdi.

Amma həmin illərə nə qədər çirkab yaxmışdılar; həyatları boyu heç bir faydalı iş görməyən, heç yerə bircə mismar belə çalmayan «yenidənqurma mühəndisləri», onların « nökərcikləri » görülən işlərə və insanlara şər atmışdılar. Əliyev respublika partiya təşkilatının yetmişinci illərdəki fəaliyyətinə qara yaxanların qarşısına konkret rəqəmlərlə, faktlarla çıxırdı.

– Necə sübut etmək olar ki, sizin göstərdiyiniz rəqəmlər saxta deyil? – deyə jurnalist və teleaparıcı Andrey Karaulov Heydər Əliyevdən soruşmuşdu.

– Mənim qeyd etdiyim bütün rəqəmlər yalnız rəsmi statistikadan götürülüb. Əgər rəsmi statistikanı inkar etmək istəyirsənsə, gərək bunu da rəqəmlərlə sübut edəsən. Axı, belə rəqəmlər yoxdur. Onlar mövcud deyil. Başqa rəqəmlər ola da bilməz, ona görə də mən nə deyirəmsə, hamısı həqiqətdir.

– Yaxşı, bəs sizin özünüz necə, hansısa nazirliklərin, idarələrin, rayon təsərrüfatlarının fəaliyyətində saxta rəqəmlərə rast gəlmisinizmi?

İstər məndən əvvəl, istərsə də mənim rəhbər olduğum dövrdə bütün ölkədə olduğu kimi, Azərbaycanda da müxtəlif təsərrüfat sahələrində belə hallar müşahidə olunurdu... Biz öz fəaliyyətimizə də məhz belə neqativ hallarla, həmçinin gözdən pərdə asanlarla mübarizədən başladıq. Onları tam aradan qaldıra bildikmi? Yox. Belə hallar indi də özünü göstərir. Belə neqativ hallar, saxta rəqəmlər rayonların, tikintilərin, kolxozların, sovxozların fəaliyyətində müşahidə olunurdu. Mərkəzi Komitəyə məlum olan belə faktlar büroda çox ciddi şəkildə müzakirə olunurdu. Biz elə düşünürdük ki, bu tədbirlərlə bir çox rəhbər işçiləri belə addımlardan çəkindirə bilərik. Əlbəttə, biz bu cür neqativ halların tamamilə aradan qaldırılması üçün çalışırdıq. Qeyd edim ki, bu mübarizədə biz heç kimə güzəştə getmirdik.

Bu kitab üzərində işlədiyimiz zaman tanış olduğumuz sənədlər Əliyevin sözlərini tam təsdiqləyir.

## VI fəsil

# «SƏN BÜTÜN SOVET İTTİFAQINA LAZIMSAN, HEYDƏR»

*Baş katibin son gəlişi*

1982-ci il iyul ayının sonlarından avqust ayının son günlərinə qədər Leonid İliç Brejnev Krımda xarici qonaqları – Sosialist Həmrəyliyi ölkələrinin liderləri Qustav Qusak (Çexoslovakiya), Erix Honekker (Almaniya Demokratik Respublikası), Voytsex Yaruzelski (Polşa), Yumjagiyn Sedenbalı (Monqolustan) qəbul etmişdi...

Sentyabrın iyirmi dördündə isə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi, Sovet Sosialist Respublikaları İttifaqı Ali Soveti Rəyasət Heyətinin sədri Leonid İliç Brejnev Bakıya uçmuşdu. O zaman bütün qəzetlər yazırdı ki, «Baş katib Azərbaycan Sovet Sosialist Respublikasının Lenin ordeni ilə təltif edliməsi mərasimində iştirak edəcək. Respublika bu ordenlə sosialist quruculuğu yollarında, onuncu beşillikdə sənaye və xalq təsərrüfatı məhsullarının istehsalı sahəsində qazandığı nailiyyətlərinə görə təltif edilmişdir». Azərbaycan bu böyuk ordenə hələ iki il əvvəl layiq görülmüşdü, lakin Heydər Əliyev ordeni şəxsən Leonid İliçin özünün təqdim etməsində israrlıydı və o, öz istədiyinə nail oldu.

Dörd günlük gərgin səfər proqramı hətta gənc adam üçün də ağır və çətin işdir. Ətrafda baş verən hadisələri dumanlı

şəkildə dərk edən xəstə, qoca Baş katib üçün isə bu, əlbəttə ki, daha ağır idi. Yəqin ki, yadına gələn bircə o idi ki, on il əvvəl daha gənc, daha gümrah olduğu zaman bu şəhərin vağzalından düşüb ətrafa nikbinliklə göz gəzdirmişdi. Alqış sədaları altında perrona düşməyi, vağzalətrafı meydandakı insan dənizinin onu salamlaması, ətrafa boylanaraq iki qaragöz qızın da gül dəstəsi verməsi və bu şəhərin istiliyi ona yaman xoş gəlmişdi. Rusiya televiziyası belə gümrah Brejnevi heç vaxt göstərmir. Bir neçə nəslin yaddaşına Brejnev qoca, halsız, ahıl, xəstə bir adam kimi həkk olub.

İndi isə yoldaş L.İ.Brejnevin Azərbaycana gəlişindən bəhs edən qəzet səhifələrini vərəqləyərək, şahidləri dindirək və dörd günlük bu səfəri olduğu kimi gözümüzün önündə canlandıraq.

... Təyyarənin trapı önündə Leonid İliç Brejnevi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi birinci katibi, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi bürosunun üzvlüyünə namizəd yoldaş Heydər Əliyev, Azərbaycan Sovet Sosialist Respublikası Ali Soveti Rəyasət Heyətinin sədri Q.A.Xəlilov, respublika Nazirlər Sovetinin sədri H.N.Seyidov və Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin üzvləri səmimi-qəlbdən salamladılar. Fəxri qarovulun rəisi yoldaş Brejnevə rəsmi raport verdi. Sovet Sosialist Respublikaları İttifaqının və Azərbaycan Sovet Sosialist Respublikasının himnləri səsləndirildi.

Milli adət-ənənəyə uyğun olaraq hörmətli qonağa Azərbaycan torpağının yetişdirdiyi məhsullardan təqdim edildi. Pionerlər ona çiçək dəstələri verdilər.

Aeroportdan şəhərə qədər bütün yolboyu, küçələrdə, meydanlarda transparantlar, şüarlar tutmuş minlərlə Bakı sakini sevimli Leonid İliçi ürəkdən salamlayırdı...

Ertəsi gün, 1982-ci il sentyabrın 25-də qəzetlər məhz belə yazırdılar və bu, həqiqət idi. Azərbaycanın paytaxtı da təmtəraqlı qəbul məsələlərində o biri respublikalardan geri qalmırdı. Eynən bu cür qəbulları Baş katib üçün başqa

şəhərlərdə – Tbilisidə, Daşkənddə, Kiyevdə və sair yerlərdə də keçirmişdilər. Bu da «inkişaf etmiş sosializm»in dəst-xətti idi. İndi isə gəlin, ucsuz-bucaqsız maşın kortejini izləyək. Maşın karvanı aeroportdan şəhərəcən olan yolu qət edərək, o vaxt Leninin adını daşıyan böyük və gözəl dənizkənarı meydanda dayandı.

Jurnalistlər bu təntənəli manifestasiyanı təsvir edəndə öz emosiyalarını güclə saxlayırdılar:

...Şeypurlar səslənir. Toplaşanlar Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Leonid İliç Brejnevi və respublikanın rəhbərlərini böyük alqışlarla qarşılayırlar. Yoldaş Brejnev, Əliyev, Xəlilov, H.N.Seyidov respublikanın məşhur adamlarının toplaşdığı hökumət tribunasına doğru addımlayırlar.

Bakı Xalq Deputatları Sovetinin qərarı elan edilir: Azərbaycanın paytaxtı Bakı şəhərinin bütün zəhmətkeşlərinin ümumi rəyinə görə, Azərbaycanın iqtisadiyyatı, mədəniyyəti, elmi, incəsənəti və sosial həyatına daimi qayğı ilə yanaşdığı üçün dərin minnətdarlıq əlaməti olaraq Leonid İliç Brejnevə Bakının fəxri vətəndaşı adı verilmişdir. Meydanı yenə də alqış sədaları bürüyür. Sovet Sosialist Respublikaları İttifaqının xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Rəşid Behbudov və buruq ustası, Sosialist Əməyi Qəhrəmanı S.Nağıyev Leonid İliç Brejnevə Bakının fəxri vətəndaşı diplomunu və medalını təqdim edirlər. Gənc leninçilər yenə də Leonid İliçə çiçək dəstələri verirlər. Əməkçilərin, ziyalıların, gənclərin nümayəndələri Leonid İliçi yeni fəxri ad alması münasibəti ilə təbrik edirlər. İncəsənət ustaları və özfəaliyyət dərnəklərinin üzvləri milli rəqsləri ifa edir, böyük vətənimizdəki xalqlar dostluğunu, beynəlmiləlçiliyi vəsf edən mahnılar oxuyurlar...

Sovet İttifaqı Teleqraf Agentliyinin müxbirləri sentyabr günəşinin istisində Baş katibin Bakıya səfərinin ilk gününü belə təsvir edirdilər. Ümid edirik ki, uzun sitatlara görə oxucular bizim günahımızdan keçərlər. Bu çıxarışlar həmin

dövrün atmosferini hiss etmək üçündür, hadisələri və əsərimizin qəhrəmanını müxtəlif rakurslardan görməyə imkan verir. Əlbəttə ki, ev sahibi olan Heydər Əliyev üçün bu anlar, bu saatlar xüsusi önəm daşıyırdı.

«Qonağı çox olan ev sahibinin ürəyi böyük olar» – bir rus məsəlində təxminən belə deyilir (ona görə təxminən ki, məlum olduğu kimi atalar sözləri tərcümə olunmur). Azərbaycanda da buna bənzər atalar sözləri çoxdur. Ənənəyə görə, azərbaycanlılar ən yaxşı nemətlərini qonaq üçün saxlayırlar. Əlirza ilə İzzət xanım da uşaqlarını məhz belə tərbiyə etmişdilər. Əgər böyük bir ailənin cəmi iki otağı varsa, onun birini mütləq qonaq üçün hazırlayır, ən yaxşı yataq, ən yaxşı yorğan-döşək qonaq üçün salınırdı. Bir dəfə balaca Heydər qardaşı ilə Naxçıvandan kəndə, hansısa bir qohumlarının evinə qonaq gedibmişlər. Heydər Əliyev sonralar bunu belə xatırlayırdı: «Bizi dəhlizdə qəbul edib yemək verdilər, amma qonaq otağına buraxmadılar. Bəs oranı kimin üçün hazırlayırdılar? Qonaq üçün. Orada bir çarpayı, ipək yorğan-döşək, yumşaq yastıqlar vardı. Özləri isə döşəməyə bir xalı da salmamışdılar. Mən fikirləşdim, yaxşı, evə ayda-ildə bir dəfə qonaq gəlirsə, deməli bu otaq il uzunu boş qalır. Ev sahibi isə il uzunu belə çətin şəraitdə yaşayır, o otağa isə toxunmur. Bu da bir psixologiyadır. Bəlkə də, bu bizim milli adət-ənənə ilə bağlıdır – yaxşı şeylərin hamısı qonaq üçün...

...İllər ötəcək və jurnalistlərdən biri Əliyevə Leonid İliç Brejnevin Bakıya həddən artıq tez-tez gəlməsini və onun şərəfinə hazırlanan təntənəli qəbulları xatırladacaq.

– Çox səfeh sözdür, – deyə Heydər Əliyev daxilən etiraz edir. – Məgər ölkənin birinci adamının Azərbaycan Respublikasına tez-tez gəlməyinin, biz azərbaycanlıların mahiyyətcə qonaqpərvər olmağının nəyi pisdir ki? Bütün dünya telekanallarının, radiostansiyalarının diqqət mərkəzində olmağın nəyi pisdir ki? Ən əsası da, Baş katibin hər səfərini bəhanə gətirərək mərkəzi büdcədən yeni böyük tikintilər üçün vəsait qopartmağın nəyi pisdir ki?

Onu da qeyd etmək lazımdır ki, Brejnevin həmin son səfəri zamanı ev sahibləri adi qarşılama proqramı ilə məhdudlaşmadılar: bəli, əbədi məşələ və Leninin heykəli önünə əklil qoyuldu, Böyük Vətən müharibəsi veteranları ilə görüş də oldu. Amma bundan sonra Leonid İliçi dənizin dərinliklərində neft quyuları qazmaq üçün nəzərdə tutulan «Şelf-2» – üzən qazma qurğusuna, kondisionerlər zavoduna apardılar. Bazar günü isə Leonid İliç Brejnev Azərbaycan Respublikasına Lenin ordenini təqdim etdi. Bu məqamda yenə də SİTA-nın reportajlarına nəzər salaq:

«...İclası açan yoldaş Heydər Əliyev Leonid İliç Brejnevi səmimi-qəlbdən və hərarətlə salamladı. O qeyd etdi ki, Sovet Sosialist Respublikaları İttifaqının yaranmasının altmış illik yubileyi ərəfəsində, sovet insanlarının beynəlmiləlçilik və qardaşlıq bayramı olan bu gözəl vaxtda yoldaş Brejnevin Azərbaycana gəlməsi respublikamız üçün böyük şərəf və etimaddır. Yoldaş Heydər Əliyev bildirdi ki, Leonid İliçlə görüşərkən Bakı sakinlərinin nümayiş etdirdikləri səmimi sevinc hissləri və bu zalda hökm sürən bayram əhval-ruhiyyəsi, təmtəraq bizim hamımızın, bütün Azərbaycan zəhmətkeşlərinin Leonid İliç Brejnevə böyük məhəbbətinin və Sovet İttifaqı Kommunist Partiyasının daxili və xarici siyasəti ilə həmrəyliyimizin nümunəsidir».

Leonid İliç Brejnev başda olmaqla Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvləri yekdilliklə iclasın fəxri rəyasət heyətinə seçilir. Söz yoldaş Leonid İliç Brejnevə verilir. Hamı ayağa qalxıb uzunmüddətli alqışlarla Baş katibi salamlayır.

Sinəsində beş Qızıl ulduz olan yorğun qoca ayağa qalxıb ağır-ağır addımlayaraq tribunaya yaxınlaşır. Əlindəki kağızları açıb qarşısına düzür:

– Əziz yoldaş Əliyev! Əziz yoldaşlar!

Dünən biz Azərbaycan Respublikasını Sovet Sosialist Respublikaları İttifaqının ən böyük mükafatı olan Lenin ordeni ilə təltif etmişik. İndi isə biz kəskin və partiya sərtliyi ilə...

Brejnev çox ləng danışır, onun süni dişləri üçün çətin tələffüz olunan «Azərbaycan» sözündə hər dəfə çaşırdı. Onu da deyək ki, öz rəhbəri haqqında saysız-hesabsız lətifələr danışan ölkənin vətəndaşları Leonid İliçin bu qüsuruna çoxdan öyrəşmişdilər və hətta bəzi oyunbazlar onun bu danışıq tərzini ustalıqla yamsılayırdılar da.

Lakin bu dəfə əzəmətli zalda elə bil külək əsdi: gözlənilməz hadisə baş vermişdi. Baş katib Mərkəzi Komitənin sabahkı plenumu üçün hazırlanmış məruzəni oxuyurdu... Brejnevin ikinci sırada oturan köməkçisi Aleksandrov – Agentov cəld tribunaya tərəf atıldı. Amma natiq buna əhəmiyyət vermədi. Özünü itirən köməkçi əllərini yana açıb, gözlərini ona dikilən baxışlardan qaçırıb öz yerinə oturdu. Nəhayət, Əliyev Brejnevə yaxınlaşıb qulağına nəsə pıçıldadı və qarşısındakı mətni dəyişdi.

Baş katib sakit tərzdə:

– Hə, olan işdi, – dedi. Onunla birgə mərasim iştirakçıları nəhayət rahat nəfəs alıb əl çaldılar. Zalı alqış sədaları bürüdü.

Leonid İliç yeni mətni demək olar ki, səhvsiz oxudu, yalnız bir dəfə çaşıb «Azərbaycan nefti» əvəzinə «Əfqanıstan nefti» dedi.

– Böyük məmnuniyyət hissi ilə bildirirəm ki, dövlətə taxıl məhsullarının satışı üzrə sosialist öhdəçiliyini bütün respublikalar arasında yenə birinci Azərbaycan Respublikası artıqlamasıyla yerinə yetirib. Əziz yoldaşlar, dostlar, icazə verin bu əmək nailiyyətinə görə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi adından sizə dərin minnətdarlığımı bildirim. Bu uğurların ən əsas səbəbi nədir? – deyə natiq özü-özünə sual verdi və qalın qaşlarının altından salonu nəzərdən keçirib, yenidən standartdan fərqli, iri hərflərlə yazılmış mətnə baxdı. – Uğur Heydər Əliyeviç Əliyev başda olmaqla, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin və onun bürosunun prinsipial, ardıcıl və tükənməz enerji ilə partiya xəttini həyata keçirməsindədir.

Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsinin artıq on dördüncü ili idi. Onun həm özünün, həm də respublikanın həyatında böyük bir mərhələ arxada qalmışdı. Rəhbərin həqiqətən də fəxr etməyə haqqı vardı. Azərbaycan Respublikası sovet dövlətinin qoyduğu iqtisadi və sosial inkişaf planını ildən-ilə daha da uğurla yerinə yetirirdi. Respublikada hər il yeni zavodlar işə salınırdı. Neft hasilatı da artaraq, ildə on dörd milyon tona çatmışdı və bunun üçdə iki hissəsi Xəzər dənizinin dərinliklərindən çıxarılırdı. Sosial planlar reallığa çevrilməkdəydi...

Bazar ertəsi Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin büro üzvləriylə görüşən və görüşdə lazımi nitqini oxuyan Leonid İliç Brejnev yubanmadan Moskvaya uçdu. O, artıq son aylarını yaşayırdı.

Noyabrın beşində Brejnev Kremldə, Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin Rəyasət Heyətində Böyük Sosialist İnqilabının altmış beşinci ildönümünə həsr olunmuş təntənəli iclasda iştirak etdi və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, Moskva şəhər Partiya Komitəsinin birinci katibi Viktor Qrişinin məruzəsini mürgüləyərək dinlədi. Viktor Viktoroviç Qrişin Baş katib Brejnevin vəsfində əlvan rəngləri əsirgəmədi:

– Öz məruzələrində, çıxışlarında, yazdığı əsərlərdə Leonid İliç Brejnev marksist-leninçi nəzəriyyəni fundamental ümumiləşdirmələr və nəticələrlə zənginləşdirmişdir. Sovet vətəndaşları ölkə iqtisadiyyatında xalqın rifahının yüksəldilməsinə yönəlmiş müsbət dəyişiklikləri və onların reallaşdırılmasında partiyanın gördüyü işi haqlı olaraq məhz Leonid İliçin adıyla bağlayırlar. Leninçi ənənələrə böyük sədaqət Noyabrın yeddisində keçirilən parad və nümayişdə Brejnev Qızıl meydandakı tribunada dayanıb nümayişçiləri salamladı. Kremlin Qurultaylar sarayında isə kiçik nitq söyləyib çoxpilləli bir tost dedi:

– Bizim Leninçi partiyanın şərəfinə! Bizim xalqlar dostluğunun şərəfinə! Bizim Sovet Sosialist Respublikaları İttifaqı-

nın şərəfinə! Yer üzərində möhkəm sülh və əmin-amanlığın şərəfinə! Hər bir sovet ailəsinin xöşbəxtliyi və rifahı şərəfinə! Bu zalda əyləşənlərin hamısının cansağlığı şərəfinə!

Bu, onun həyatında son tost oldu. Cümə günü, 1982-ci il noyabrın on ikisində sovet qəzetlərinin hamısının birinci səhifəsi matəm əlaməti olaraq qara haşiyə ilə dərc olundu.

...Həqiqi və alovlu vətənpərvər, böyük inqilabçı, kommunizm uğrunda yorulmaz mübariz, müasir dövrümüzün böyük dövlət və siyasət xadimi Leonid İliç Brejnev vəfat edib.

Ardınca isə onun ölümü barədə tibbi arayış və ölümün səbəbləri açıqlanırdı...

Dəfn mərasimi üzrə dövlət komissiyasının məlumatı: Leonid İliçin dəfn mərasimi 15 noyabr, bazar ertəsi saat on ikidə Qızıl meydanda olacaq.

Noyabrın on ikisi Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun plenumu yığışıb Yuri Vladimiroviç Andropovu Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi seçdi. Elə həmin gün plenum iştirakçıları Sütunlu salona gəlib Leonid İliçlə vidalaşdılar. Böyük şəkilin mərkəzində Andropov və Tixonov, solda Şevardnadze, Əliyev və o zaman Sovet Sosialist Respublikaları İttifaqı Ali Soveti Rəyasət Heyəti sədrinin birinci müavini Kuznetsov dayanmışdılar.

Sovet Sosialist Respublikaları İttifaqı və Sovet İttifaqı Kommunist Partiyası rəhbərliyində dəyişikliklər artıq çoxdan zərurətə çevrilmişdi. Ətrafda baş verənləri dumanlı şəkildə dərk edən «qocalar» neçə ildi ki, böyük bir dövləti idarə etməkdəydilər. Daha doğrusu, dövləti onlar yox, onların ətrafındakı sıx «kütlə» idarə edirdi.

Brejnev 1974-cü ildə Uzaq Şərqə səfəri zamanı artıq möhkəm xəstələnmişdi. Vəziyyəti getdikcə daha da pisləşməkdəydi. Müvəqqəti ayılmalar zamanı onun özü də artıq getmək vaxtının çatdığını başa düşür, amma hər şeyin olduğu kimi qalmasını istəyən ətrafdakılar Baş katibi bu addımdan çəkindirirdilər. «Sizi, Leonid İliç heç kəs əvəz edə bilməz».

Andrey Pavloviç Kirilenko da neçə müddət idi ki, prostatdan əziyyət çəkirdi. Mərkəzi Komitənin katibi və Siyasi Büronun üzvü olsa da, artıq çoxdan idi ki, iclaslarda iştirak etməyə taqəti qalmamışdı.

Çernenko da müalicə olunurdu. Ustinovla Qromıko artıq yetmiş yaşı adlamışdılar...

Leonid İliçin səhnədən getməsinə iki il qalmış köhnə bolşeviklər Mixail Andreyeviç Suslovu, partiya iyerarxiyasında 2 N-li adamı, Starıy ploşadda təqribən yarım əsr ömür keçirmiş «boz kardinal»ı o dünyaya yola saldılar. Deyilənə görə, onunla hətta Stalin də hesablaşırmış. Suslov o insanlardan idi ki, Stalindən sonra Kremldə başlayan hakimiyyət davasında Molotovu, Malenkovu, Kaqanoviçi və «onlara birləşən Şepilovu» (artıq lətifəyə çevrilmiş, rəsmi partiya sənədlərindən götürülmüş formula) kənarlaşdırmaqda Xruşşova kömək etmişdi. 1964-cü ilin aprelində Xruşşovun 70 yaşı tamam olanda hamıdan qabağa düşüb əziz Nikita Sergeyeviçin istirahətə getməyini elan etdi. On ildən sonra o, eynən beləcə partiya qəzəbi ilə Xruşşovu ifşa etdi və Brejnevə odlu-alovlu tərif yağdırdı.

Bir sözlə, hakim dairələrdəki dəyişiklik ölkəyə hava-su kimi lazım idi. Bu barədə kəskin, sərt şəkildə və açıq-aydın sözü Yuri Vladimiroviç Andropov dedi. O artıq iyirmi ilə yaxın idi ki, Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik edirdi və eyni zamanda Mərkəzi Komitənin katibi idi, iclaslara da çox vaxt o sədrlik edirdi. Bu səbəbdən də vəziyyəti hamıdan yaxşı bilirdi.

Andropovun ölkədə keçirilməsi vacib olan konkret reformalar və dəyişikliklər haqqında dəqiq işlənib hazırlanmış planı vardımı, yoxdumu? – indi bu suala dəqiq cavab vermək çətindir. Əliyev bu xüsusda belə deyirdi: «Andropovun gizli saxladığı planlar çox idi və bu planların hamısı şifr olaraq qaldı». Ancaq hər şeydən əvvəl müəyyən etmək lazım idi ki, «bizim yaşadığımız cəmiyyətin mahiyyəti» nədən ibarətdir.

Elm adamları sistemə ad qoymaq üçün muxtəlif sözlər düşünürdülər: inkişaf etmiş sosializm, real sosializm, yetkin sosializm... Amma sən demə, bu sistemin özünün də kamilləşməyə hələ çox ehtiyacı vardı. Vaxt keçdikcə ölkənin qarşısında daha kəskin gündəlik məsələlər dururdu: insanları yedizdirib-içizdirmək, geyindirmək, mənzillə təmin etmək, təhsili qaydasına salmaq, Əfqanıstandakı müharibəni yoluna qoymaq və s.

**22 noyabr 1982-ci il, Moskva**

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin növbəti plenumunda Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin müavini Nikolay Konstantinoviç Baybakovun «1983-cü ildə Sovet Sosialist Respublikaları İttifaqının sosial-iqtisadi inkişafının Dövlət Planı» və Sovet Sosialist Respublikaları İttifaqı maliyyə naziri Vasiliy Qarbuzovun «1983-cü il üçün Sovet Sosialist Respublikaları İttifaqının Dövlət büdcəsi» haqqında məruzələri dinlənildi.

Rəsmi xəbərlərdə isə deyilirdi ki, plenum təşkilati məsələlərə də baxmışdır:

«Mərkəzi Komitənin plenumu yoldaş H.Ə.Əliyevi Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosuna üzvlüyə namizədlikdən üzvlüyə qəbul edilməsi barədə qərar qəbul edib.

Mərkəzi Komitənin plenumu yoldaş A.P.Kirilenkonu səhhətiylə əlaqədar, öz xahişi ilə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi və Siyasi Büronun üzvlüyündən azad edib.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu yoldaş N.İ.Rıjkovu Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi vəzifəsinə seçib».

Əlavə edək ki, Əliyev və Rıjkov məhz Andropovun təqdimatı ilə seçilmişdilər. Bir neçə gün əvvəl, bazar günü (Yuri

Vladimiroviç həm Dövlət Təhlükəsizlik Komitəsində, həm də Mərkəzi Komitədə artıq çoxdan idi ki, bazar günləri də işləyirdi) Andropov Kremldəki kabinetində Əliyevlə görüşmüşdü. Qaydalara uyğun olaraq bütün qəzetlərdə Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun yeni üzvünün böyük şəkli və haqqında kiçik bioqrafik məlumat çap olunmuşdu.

«Yoldaş Əliyev 1923-cü ildə fəhlə ailəsində anadan olub. 1945-ci ildən Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvüdür. S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib.

Naxçıvan Muxtar Respublikası Xalq deputatları sovetinin şöbə müdiri vəzifəsində işləyib. Sonra isə Dövlət təhlükəsizlik orqanlarında fəaliyyətə başlayıb, sıravi operativ işçidən Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə qədər yüksəlib.

1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin XXIV, XXV, XXVI qurultaylarında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü seçilib. 1976-cı ilin martından etibarən Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvlüyünə namizəddir.

Sosialist Əməyi Qəhrəmanıdır. Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin deputatıdır».

Tarixçi və publisist Roy Medvedevin sərrast ifadəsi ilə desək, «Kremlin səmasında yeni ulduz parlamağa başladı». İllər ötəndən sonra Sovet Sosialist Respublikalar İttifaqının xarici işlər naziri və Sovet Sosialist Respublikalar İttifaqı rəhbərliyində ən hörmətli, nüfuzlu siyasətçi olan Andrey Qromıko o vaxt beynində parlamış bir fikri açıqlamışdı. O, boynuna almışdı ki, «Heydər Əliyev Moskvaya gələndə mən düşünmüşdüm ki, Sovet Sosialist Respublikalar İttifaqına məhz bu cür gənc və enerjili bir rəhbər lazımdır».

Əfsuslar olsun ki, Andropovla Çernenkodan sonra növbəti yeni lideri müəyyənləşdirmək məqamı çatanda Qromıko bu düzgün fikrini açıqlamamışdı...

Zahirən hər şey əvvəlki qaydasında idi. Ancaq zahirən. Hələ də Brejnev xatırlanır, Mərkəzi Komitənin, Sovet Sosialist Respublikaları İttifaqı Ali Soveti Rəyasət Heyətinin və Nazirlər Sovetinin «Leonid İliç Brejnevin xatirəsinin əbədiləşdirilməsi haqqında» qərarı dərc olunur, şəhər və rayonların adları dəyişdirilib L.İ.Brejnevin adına qoyulur, zavodlar, kolxozlar, ali məktəblər, orta məktəblər, meydanlar və 30-cu illərdə Leonid İliçin xidmət etdiyi «Tədris Tank Diviziyası» onun adını daşımağa başlayırdı.

Ölkədə isə gələcək inkişafın əsas aparıcı istiqaməti siyasi quruluşun ana xəttinə uyğun tənzimlənirdi. Və ilk dəfə olaraq – sonralar Qorbaçovun öz adına çıxmaq istədiyi «sürətləndirmə» prosesi həyata keçirilməyə başlanmışdı.

Yeni Baş katib Yuri Andropov iqtisadiyyatın inkişaf tempinin sürətləndirilməsi, milli gəlirin, kənd təsərrüfatı və sənaye məhsullarının mütləq həcminin artırılması, əmtəə dövriyyəsinin yüksəldilməsi barədə danışırdı. Brejnevin ölümündən cəmi iki həftə keçirdi, amma əsas söz-söhbət görülən yox, hələ görüləsi olan işlər barədəydi. Bir neçə əsas məqamı diqqətinizə çatdıraq.

Yuri Vladimiroviç iclas iştirakçılarının diqqətini belə bir fakta çəkdi ki, «beşilliyin ilk iki ili ərzində plan tapşırıqları bir çox göstəricilər üzrə yerinə yetirilməmiş qalıb. Bir çoxları, deyəsən, heç işə necə başlamağı da bilmirlər, – deyə yeni Baş katib davam edir, – Gərək belə yoldaşlara hansı köməyi göstərmək barədə düşünək». Yenə də son zamanlar tez-tez eşidilən «sürətləndirməli» sözü səslənir. İqtisadiyyatın, planlaşdırmanın, təsərrüfat mexanizmlərinin kamilləşdirilməsi prosesini sürətləndirmək lazımdır.

Baş katib isə hesab edir ki, «elə iqtisadi və təşkilati şərait yaratmaq lazımdır ki, keyfiyyətli, məhsuldar əməyi, təşəbbüskarlığı və işgüzarlığı stimullaşdırsın». Ancaq vaxtı çat-

mış məsələlərin həlli üçün hazır reseptlər yoxdur. Düzdür, cavab tapmaq üçün yerli və dünya təcrübəsini birləşdirmək, ən yaxşı praktik işçilərin və alimlərin biliklərini öyrənib onlardan faydalanmaq lazımdır.

Baş katib iqtisadiyyatın əsas sahələrinin – yanacaq-energetika kompleksinin, qara metallurgiyanın, dəmiryol nəqliyyatının inkişafının başlıca problemlərini təhlil edir. Dəmiryollarında vəziyyət olduqca pis idi. Nazirlər Sovetinin sədrinin birinci müavini Heydər Əliyevə vəzifəsinə uyğun olaraq bir çox başqa sahələrlə yanaşı, məhz bu sahəylə də məşğul olmaq tapşırılır.

Mərkəzi Komitənin plenumundan dərhal sonra Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin sessiyası keçirildi. Onuncu çağırışın yeddinci sessiyası.

Eyni gündə, eyni vaxtda – noyabrın 23-də, saat 16-da Kremlin Böyük Qurultaylar Sarayında İttifaq Sovetinin, Ali Sovetin palatasında isə Millətlər Sovetinin ilk iclası keçirildi.

Qəzetlərin yazdığı kimi, deputatlar və qonaqlar yoldaş H.Ə.Əliyevi, M.S.Qorbaçovu, V.V.Qrişini, A.A.Qromıkonu, D.A.Kunayevi, Q.V.Romanovu, N.A.Tixonovu, D.F.Ustinovu, V.V.Şerbitskini, P.N.Demiçevi, V.İ.Dolgixi, T.Y.Kiselyovu, M.M.Solomentsevi, İ.V.Kapitonovu sürəkli alqışlarla qarşıladılar.

« Staraya ploşad » mətbuata məhz bu qaydanı diktə etmişdi: əlifba sırası ilə əvvəlcə Siyasi Büronun üzvləri gəlir, sonra üzvlüyə namizədlər, nəhayət, qvardiyanı Mərkəzi Komitənin katibliyi tamamlayır. Lakin bu sıralama çoxlarının xoşuna gəlmir. «Axı, nəyə görə siyahı məhz Əliyevlə başlamalıdır, Qorbaçov isə yalnız ikincidir. Haqqmızı tapdalayırlar, Mixail Sergeyeviç!»

Sovet İttifaqıyla bərabər onun Kommunist partiyası da on beş ildən artıqdır ki, tarixin səhifələrinə köçüb. Siyasi Büronun tam tarixi isə hələ də əlimizdə yoxdur. Partiya qurultaylarında Mərkəzi Komitəni, Mərkəzi Komitənin plenumlarında isə Siyasi Büronu seçirdilər. Bəli, hər şeyi idarə edən,

istiqamətləndirən, hər şeyi bilən əsas hakimiyyət məhz Siyasi Büroya məxsus idi. Siyasi Büronun özündə isə Baş katibin ətrafında hakimiyyətin əsas nüvəsi – Baş katibin son dərəcə etibar etdiyi yaxın adamları toplaşırdı. Stalinin son illərində bu nüvəyə Beriya, Malenkov, Molotov, Xruşşov daxil idi: Brejnev isə Ustinovun, Qromıkonun, Andropovun, Suslovun məsləhəti olmadan heç bir qərar qəbul etmirdi. Qorbaçov isə hamıdan çox Yakovlevə, Şevardnadzeyə, Medvedyevə inanırdı...

Siyasi Büro 1919-cu ilin martında yaradılıb. O vaxt büroya cəmi beş Mərkəzi Komitə üzvü daxil idi. Onun funksiyası xüsusi qeyd olu-nurdu: təxirə salınması mümkün olmayan məsələlərin həlli üçün qərarlar qəbul etmək. Siyasi Büronun ilk beşliyi belə olub: Xalq Komissarları Sovetinin sədri Lenin, hərbi və dəniz işləri xalq komissarı Trotski, milli məsələlər üzrə xalq komissarı Krestinski, Moskva Xalq Komissarları Sovetinin sədri Kamenev. Tarixçi Yuri Jukovun yazdığına görə, Siyasi Büronun fərdi tərkibi göstərir ki, bu kiçik qrup partiyaya rəhbərliyi yox, ölkəyə rəhbərliyi həyata keçirən dövlət orqanıdır.

Stalin bu xətti inkişaf etdirib otuzuncu illərdə hakimiyyətin formal da olsa, müstəqil sayılan iki qolunu – sovetləri və partiyanı tam birləşdirdi. Qorbaçov yenidənqurması hakimi-mütləq olan Siyasi Büronu diskussiya klubuna çevirənə qədər bu orqan öz funksiyasını saxlamışdı.

Rıjkovla Əliyev eyni plenumda Siyasi Büronun üzvü seçilmişdilər və bu da onların arasında müəyyən yaxınlıq yaradırdı. Yoldaşlar onları təbrik edir, xoş arzularını bildirirdilər. Onlar da əl verib bir-birini təbrik etdilər. Əliyevin partiya karyerasında bu, sadəcə layiq olduğu növbəti yüksəliş idi. Rıjkov isə heç vaxt özünü partiya işində təsəvvür etmirdi: «Axı mən istehsalat adamıyam».

Təbii ki, onlar bir-birini çoxdan tanıyırdılar. Müxtəlif iclaslarda, qurultaylarda, plenumlarda görüşürdülər. Əvvəllər məşhur «Uralmaş»ın (Ural maşınqayırma zavodu)

baş direktoru vəzifəsində çalışan Rıjkov son vaxtlar Sovet Sosialist Respublikaları İttifaqının Dövlət Planlaşdırma Komitəsində sədr müavini işləyirdi. Maddi vəsaitlər, resurslar onun əlindəydi və respublika rəhbəri də müxtəlif işlərlə bağlı bu idarəyə tez-tez baş çəkirdi.

Dövlət Plan Komitəsinə Stalinin məşhur Xalq Komissarları nəslindən olan qocaman Nikolay Konstantinoviç Baybakov rəhbərlik edirdi. Baybakov Bakıda doğulmuş, burada neft mü-həndisi ixtisasına yiyələnmiş və işgüzar dairələrdə bacarıqlı mütəxəssis kimi tanınmışdı. Otuz yaşı tamam olduqdan sonra, o, Volqaboyu regionda böyük bir trestin rəisi, nəhayət, bütün neft sənayesinin rəhbəri olmuşdu. 1942-ci ilin noyabrında Sovet Sosialist Respublikaları İttifaqı Neft Sənayesi Xalq Komissarının birinci müavini N.K.Baybakovu Stalinin yanına çağırırlar.

– Yoldaş Baybakov, – deyə Stalin özünəməxsus tərzdə ona müraciət etdi, – siz yubanmadan Qafqaza uçmalısınız. Kimi istəyirsiniz, özünüzlə götirün. Neftə görə başınızla cavabdehsiniz. Siz necə tikməyi bilirsiniz, indi isə necə dağıtmağı öyrənməlisiniz. Əgər Hitlerə bircə ton da neft saxlasanız, biz sizi güllələyəcəyik. Amma əgər siz mədənləri məhv etsəniz və almanlar oraya gəlib çıxa bilməsələr, onda biz neftsiz qalacağıq. Belə olan təqdirdə biz sizi yenə də güllələyəcəyik.

Baybakov soruşur:

– Başqa heç bir alternativ yoxdur?

Stalin belə cavab verir:

– Bunun üçün, cavan oğlan, çiyinlərinizdə başınız var, fikirləşin. Yubanmadan cənuba uçun və bütün məsələləri Budyonnı ilə həll edin.

Baybakov Stalinin şəxsi tapşırığının öhdəsindən müvəffəqiyyətlə gəldi.

Xruşşov dövründə dikbaşlığına görə onu – Rusiya Sovet Federativ Sosialist Respublikasının Dövlət Plan Komitəsinin sədrini yüksək vəzifədən çıxarıb Krasnodar Xalq Təsərrüfatı

Sovetinə rəhbərlik etməyə göndərmişdilər. Ancaq bir müddət sonra yenidən Moskvaya qaytarmışdılar. Xruşşovun istefasından sonra isə Brejnevlə Kosıgin ona Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Plan Komitəsinə rəhbərlik etməyi tapşırırlar. Amma harada çalışmasından asılı olmayaraq, Nikolay Konstantinoviç heç vaxt öz kiçik vətənini unutmurdu.

Nikolay Rıjkov xatırlayır:

– Baybakov Azərbaycana həmişə yaxşı münasibət bəsləyirdi. Uzun illər ərzində respublikanı Sovet Sosialist Respublikaları İttifaqının Ali Sovetində təmsil edənlərdən biriydi. Heydər Əliyeviç isə Moskvada olarkən həmişə Nikolay Konstantinoviçin yanına gələrdi.

Bu görüşlərə Dövlət Plan Komitəsinin rəhbəri adətən öz dörd müavinindən birincisini – Nikolay Rıjkovu da çağırırdı.

İndi isə Mərkəzi Komitənin həmin unudulmaz plenumundan sonra Rıjkovla Əliyev artıq çiyin-çiyinə işləməli olacaqdılar. Rıjkov Mərkəzi Komitədə iqtisadi məsələlərə baxırdı, Heydər Əliyev isə Nazirlər Sovetinin sədrinin birinci müavini idi.

Bəzən deyirlər ki, Heydər Əliyev özündən sonra heç bir sənəd qoymayıb və onun bioqrafiyası – doğulduğu il, valideynlərinin mənşəyi əvvəldən sonacan quraşdırmadır. Bu versiya ilə qətiyyən razılaşmaq olmaz. Andropovun idarəsi (Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi) öz kadrlarının bütün həyatını rentgen şüalarından da yaxşı öyrənirdi. Əminliklə deyə bilərik ki, Baş katib özüylə bərabər Siyasi Büroya gətirdiyi kadrın onuncu nəslinə qədər hər şeyi bilirdi: əlaqələrini, ətrafını, vərdişlərini, sağlamlığını, xarakterik xüsusiyyətlərini, maraq dairəsini və s...

Yeri gəlmişkən, o xasiyyətnamələrdə Əliyevin intellektual potensialına və əxlaqına verilmiş yüksək qiymət barədə sözlərə diqqət yetirin: şəxsi həyatda iddiasızdır, davranış və həyat tərzi idealdır.

Nazirlər Sovetinin sədri Nikolay Aleksandroviç Tixonov Brejnevin dövründən işləyirdi və Yuri Vladimiroviç Andropov nəyə görəsə onu dəyişdirmədi, yalnız Heydər Əliyevi onun birinci müavini təyin etdi. O, Heydər Əliyevi, bəlkə də, ölkənin ikinci adamı olan Tixonovun xələfi kimi görürdü. Bu, boş fərziyyə deyil. Bizim həmsöhbətlərimizdən bir çoxu, Kreml mətbəxinə yaxşı bələd olan adamlar bu fikri təsdiq edirlər.

– Əminəm ki, Nazirlər Sovetinin sədri postunda Yuri Vla-dimiroviç Andropov Tixonovu yox, başqa bir kadrı görürdü, bu fıkri Nikolay Semyonoviç Konarev bildirir. İndi, o, Rusiyanın ən böyük nəqliyyat-ekspedisiya şirkəti olan «İntertrans» Qapalı Səhmdar Cəmiyyətinə rəhbərlik edir. Bundan əvvəl isə doqquz il Sovet Sosialist Respublikaları İttifaqının nəqliyyat naziri olub və bu vəzifəyə 1982-ci ildə Andropovun təqdimatıyla təyin olunub. – Bəli, Nazirlər Sovetini daha geniş siyasi təfəkkürə malik, aktiv, mobil və idarəçilik təcrübəsi çox olan bir kadr idarə etməliydi. Yəqin ki, bu məqamda milli məsələ də nəzərə alınırdı. Çoxmillətli bir dövlətin hakimiyyətində təkcə ruslar olmamalıydı. Yuri Vladimiroviç kadrları hamıdan yaxşı tanıyırdı. Və mən bütün faktları təhlil edəndən sonra belə bir fıkrə gəlmişəm ki, Əliyevin Kremlə gətirilib Nazirlər Soveti sədrinin müavini vəzifəsinə təyin edilməsinin daha uzaq bir perspektivi vardı. Əfsuslar olsun ki, tale Andropova öz planlarını reallaşdırmaq üçün çox az vaxt ayırmışdı...

Əliyevin Nazirlər Sovetinə təyinatı, deyəsən, Tixonovun bir o qədər də xoşuna gəlməmişdi. Bir vaxtlar onun özü Kosıginin müavini işləmişdi və metodiki olaraq öz rəisini gözdən salıb sıxışdıraraq məqsədinə yol açmışdı. İndi də Tixonov Əliyevi özünə rəqib görürdü. Əliyev Baş katibin tam etibar etdiyi adam idi və istənilən vaxt o, Nazirlər Sovetinin sədri vəzifəsinə təyin edilə bilərdi. Tixonov o biri müavinlərindən qorxmurdu – Baybakovla Arxipov onun yaşıdı idilər, həm də partiya rəhbərliyində o qədər də parlayan kadrlar

deyildilər. Nazirlər Sovetindən cəmi iki şəxs – Tixonovun özü və Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvüydü və belə görünürdü ki, müavinlərin içində Əliyev o birilərindən daha yüksəkdə olmalıydı. Amma ezamiyyətə, yaxud məzuniyyətə gedərkən Tixonov heç vaxt öz vəzifəsini Əliyevə həvalə etmirdi. Əlbəttə, bütün bunlar Heydər Əliyevin xətrinə dəyirdi, amma o, bunu heç vaxt büruzə vermirdi.

Kremldə, Nazirlər Sovetində beş il – Andropovdan Qorbaçova qədər bütün bir epoxanı əhatə edən beş il.

– Bizim yollarımız həmişə kəsişirdi, – deyə Nikolay İvanoviç Rıjkov xatırlayır. – Əliyev nəqliyyat məsələləri ilə, yüngül sənaye ilə, başqa sahələrlə məşğul olurdu, mən isə Mərkəzi Komitənin katibi kimi Dövlət Plan Komitəsinin, Qiymətlərə Nəzarət Komitəsinin və başqa strukturların işinə nəzarət edirdim. Yeni vəzifələrimizdəki ilk iş günlərindən etibarən biz sıx əlaqədə işləməyə başladıq. Həm Mərkəzi Komitədə, həm də Nazirlər Sovetində tez-tez görüşürdük. Bəzən hansısa sənədlər üzərində birlikdə işləyirdik, işin gələcək perspektivlərini birgə müzakirə edirdik.

Heydər Əliyev öz təmkinli görkəmiylə o vaxt da mənim xoşuma gəlirdi. Çox səmimi, ünsiyyətə meyilli adam idi, qapalı, özündənrazı, lovğa insan deyildi. Sakit təbiəti vardı, yerinə düşən yumoru çox sevirdi. Bir insan kimi onunla işləmək çox asan idi.

Nazirlər Soveti: gündəlik qayğılar

Nazirlər Sovetinin və onun sədr müavininin, Siyasi Büronun üzvü olan bir şəxsin gündəlik qayğıları. Üstəlik də Siyasi Büro üzvü, daha dəqiq desək, üstəlik də yox, ilk növbədə Siyasi Büro üzvü. Görəsən, bu qayğılar nədən ibarət idi? 1983-cü ilin ilk aylarının xronikasına nəzər salaq.

3 yanvar 1983-cü il, bazar ertəsi. SKK-nın (Varşava Müqaviləsi Ölkələrinin Siyasi Konsultativ Komitəsi) işində iştirak etmək üçün Moskvadan Praqaya böyük bir nümayəndə heyəti yola düşür. Nümayəndə heyətinin rəhbəri Yuri

Vladimiroviç Andropovla birgə Nazirlər Sovetinin sədri N.A.Tixonov, xarici işlər naziri A.A.Qromıko, müdafiə naziri D.F.Ustinov, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi K.V.Rusakov da Praqaya gedirlər.

Tam proqram üzrə yolasalma mərasimi. Qəzetlər protokola uyğun olaraq yola salanların adlarını sadalayırlar – Əliyevdən Rıjkova qədər. Şəkillərdə o, sağdan birincidir. İki il sonra Nikolay İvanoviç Rıjkov bir az mərkəzə doğru yerini dəyişəcək. Əliyev isə Tixonovun arxasındadır. Qorbaçov şəkildə yoxdur. Bəlkə də, məzuniyyətdədir.

«Sosialistiçeskaya industriya» qəzetinin elə həmin sayında ilin ən böyük tikintilərinin xəritəsi verilib – atom elektrik stansiyasının beş yeni bloku, üç yeni su elektrik stansiyası, Yakutiyada və Krasnodar vilayətlərində ildə iyirmi milyon ton kömür verəcək yeni şaxtalar, Urenqoy-Ujqorod (4,5 min km) və Urenqoy Novopskov (1,5 min km) qaz kəmərləri, polad emalında yeni sahələr, Çerepovets metallurgiya kombinatında dünyanın ən böyük domna sobası... Bu, təkcə ağır sənayedir. Hələ üstəlik şəkər emalı zavodları, ət kombinatları, konditer fabrikləri, tekstil sənaye müəssisələri, yaşayış binaları, poliklinikalar, sanatoriyalar və müasir dövrün tələbatı olan müxtəlif məişət cihazları – misalçün, videomaqnitofon istehsalı...

Filipp Denisovis Bobkovun xatırladığı kimi, 1980-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi xüsusi komissiya yaratdı. Yoldaşlar bir neçə dəfə toplaşdılar və hamı qətiyyətlə əleyhinə çıxış etdi: «Bu, bizə lazım deyil. Qoy gömrükçülər və sərhədçilər öz işlərini görsünlər – videokasetləri sərhəddə müsadirə etsinlər». Ümumi rəy belə idi və Sovet Sosialist Respublikaları İttifaqı rabitə naziri Q.A.Şamşin, Sovet Sosialist Respublikaları İttifaqı mədəniyyət nazirinin birinci müavini U.İ.Popov, Sovet Sosialist Respublikaları İttifaqı Teleradio Komitəsinin sədri S.K.Lapin də bu fikirdə idilər. Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin ölkədə videotexnikanın istehsalını təşkil etmək təkli-

fını yalnız Sovet Sosialist Respublikaları İttifaqı xarici işlər nazirinin birinci müavini Q.M.Kornienko və bəzi qeydlərlə, Dövlət Kino Komitəsinin sədri F.T.Yermaş müsbət qarşıladı.

İki il keçdi. Y.V.Andropov Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi seçilən günün səhəri komissiya yenidən yığıldı. Bu dəfə nəhayət ki, videotexnika haqqında məsələni Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinə təqdim etmək qərarı qəbul olundu. Nazirlər Sovetinin iclasını Heydər Əliyev aparır. Sovet sənayesi videotexnika istehsalına başlayır.

9 aprel 1983-cü il. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu 2000-ci ilə qədərki dövrü də əhatə edən «Sovet Sosialist Respublikaları İttifaqının uzunmüddətli energetika planı»nı müzakirə edir. Koordinal məsələlərin müzakirələri zamanı Əliyev həmişəki kimi düşünülmüş, ölçülüb-biçilmiş təkliflər verir.

12 aprel. Nazirlər Soveti və Ümumittifaq Həmkarlar İttifaqının Mərkəzi Şurası Ali Sovetin müzakirəsinə «Müəssisələrin, idarələrin, təşkilatların idarə edilməsində əmək kollektivlərinin rolunun yüksəldilməsi barədə» Sovet Sosialist Respublikaları İttifaqının qanun layihəsini çıxarır. Ölkənin ictimai həyatı üçün yeni olan bu sənəddə də, Əliyevin düşüncələrinin, fıkirlərinin, dəqiq təkliflərinin izlərini görmək mümkündür.

18 aprel. Kənd təsərrüfatının inkişafına və Ərzaq proqramının reallaşmasına həsr olunmuş ümumittifaq müşavirəsi.

22 aprel. Siyasi büro 1983-85-ci illərdən 1990-cı ilə qədərki dövr ərzində Baykalyanı və Uzaq Şərq vilayətlərinin yanacaq-enerji bazasının yaxşılaşdırılması ilə bağlı məsələlərə baxır.

Axşam Kremlin Qurultaylar sarayında Leninin anadan olmasının 113 illiyi ilə bağlı təntənəli mərasim keçirilir. Bütün Kreml rəhbərləri rəyasət heyətində əyləşiblər. Bu yaxınlara qədər Stavropol Vilayət Partiya Komitəsinin katibi olmuş Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitə-

sinin katibi Mixail Sergeyeviç Qorbaçov məruzə ilə çıxış edir. Baybakov bizimlə söhbətdə xatırlayır ki, 1976-cı ildə Stavropol Vilayət Komitəsinin gənc birinci katibi onun yanına, Dövlət Plan Komitəsinə gəlib qoyunçuluğun inkişafıyla bağlı öz təkliflərini bildirmişdi. O vaxtlar Sovet Sosialist Respublikaları İttifaqında bir qoyundan 2,6 kq yun qırxılırdı, Avstraliyada isə bu rəqəm 10 kq idi (hal-hazırda 90 yaşı olmasına baxmayaraq, Baybakov indi də bütün bu rəqəmləri dəqiq xatırlayır). Qorbaçov söz verirdi ki, öz vilayətində bu rəqəmi 6 kq-a qədər qaldırsın. Mən sərəncam verdim ki, onun proqramının qəbul olunmasına yardımçı olsunlar, – deyə Baybakov sözünə davam edir. – Həmin vaxtlar mənə kənd təsərrüfatı üzrə müavin lazım idi. Qorbaçov da daxil olmaqla bu vəzifəyə dörd nəfəri təqdim etmişdilər. Ona təklif etdim ki, mənim yanıma gəlib kənd təsərrüfatı ilə məşğul olsun. O, «Məgər mən belə bir məsuliyyətli işin altına girə bilərəmmi?» – deyib etiraz etdi və dərhal yoxa çıxdı. İki il gözləyəndən sonra isə öz məqsədinə nail oldu: onu Mərkəzi Komitəyə seçdilər. Bir müddət sonra isə Mərkəzi Komitənin katibi oldu.

Qorbaçov həmin iclasda Lenini və leninçiliyi, kommunizmi və Kommunist partiyasını ağızdolusu tərifləyir... Gələcək baş katibin öz partiyasından, sadiq qalacağına and içdiyi ideallardan üz döndərəcəyinə cəmisi səkkiz il qalır. Kimin ağlına gələrdi ki, hər şey dəyişəcək!..

Həmin məruzəni indi nəzərdən keçirəndə bayağılığı hiss etməmək mümkün deyil. İqtisadiyyatda insan amili haqqında fikir gözə dəydi və «intizamı möhkəmləndirmək hamının işidir», yeni Baş katibə səliqə ilə istinad edib «yoldaş Andropovun göstərdiyi kimi» növbəti ifadəsinin arxasında gizləndi... Qorbaçov bəyan edirdi:

– Biz əminik ki, ideyalar mübarizəsində yenə də ən həqiqi və humanist ideya olan marksizm-leninizm qələbə çalacaq. Bizə, kommunistlərə isə tarix tərəfindən bəşəriyyətin ən qiymətli incisi – Marks, Engels, Lenin kimi dahi mütəfəkkirlə-

rin ideya mirası həvalə olunub və biz onu göz bəbəyimiz kimi qorumalıyıq....

10 may 1983-cü il. Heydər Əliyevin altmış yaşı tamam olur. Ona ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adı verilir və Qızıl medalla təltif olunur. Qəzetlərdə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin, Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin, Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin təbrikləri dərc edilib. Təbrik edənlərin arasında Denis İvanoviç Bobkov da vardı. O xatırlayır: «Yadımdadır, Heydər Əliyev Yuri Vladimiroviç Andropovun təbrik məktubunu necə böyük fəxrlə göstərirdi. Məncə, bu, onun əməyinə verilən ən böyük qiymət idi».

Bu qürurun arxasından, bir qədər də uşaqlıq xarakterinə bənzər pak cizgilər boylanırdı. İllər ötəndən sonra Azərbaycan Prezidenti Heydər Əliyev böyük görüşlərin birində etiraf etmişdi ki, hamı öz zəhmətinin qiymətləndirilməsini istəyir. «Mən də həmişə bunu arzulamışam».

Yeri gəlmişkən qeyd edək ki, Heydər Əliyev, onu daha yaxşı tanıyanların dediyinə görə, heç də şöhrətpərəst adam – görkəmli lüğətçi Dalın kitabında deyildiyi kimi «vəzifəyə seçilməyə, şöhrətə, tərifə ehtiraslı və buna görə də əxlaqi dəyərlərə yox, görkəmə görə hərəkət edən» adamlardan olmayıb. O bütün həyatı boyu şöhrətə görə işləməyib.

Heydər Əliyevin gündəlik işlərinin təqvimində çox vaxt dəmiryol nəqliyyatı ilə bağlı problemlər xüsusi qeyd olunurdu. Bu, Andropovun şəxsi tapşırığı idi. Baş katib tez-tez Sovet Sosialist Respublikaları İttifaqının xəritəsinə baxıb, «bizim ölkədə dəmiryolları həm iqtisadi, həm strateji, həm də ümummilli rol oynayır və bizim ölkənin xalqlarını birləşdirir» sözlərini təkrarlamağı xoşlayırdı.

Buna baxmayaraq, son illər dəmiryolları pis işləyirdi. Odur ki, nəqliyyat naziri Pavlevskini Siyasi Büroya dəvət edirlər. O isə aydın, məntiqi bir izah verə bilmir, kənarda günahkar axtarmağa başlayır. Sonda Andropov belə qərara gəlir: «Biz bu cür nazirlə işləyə bilmərik».

29 noyabr. Plenumdan bir həftə sonra nəqliyyat naziri vəzifəsinə Nikolay Semyonoviç Konarevi təyin edirlər. Belə adamlar barədə deyirlər: «O, dəmiryolunda böyüyüb». İşləyib, oxuyub; oxuyub, işləyib; ən əsası isə işi bilir və təmiz adamdır. Yol bölməsinin rəisi, Cənub dəmiryolunun rəis müavini, sonra isə rəisi, nazir müavini, birinci müavin vəzifələrində çalışıb... Andropovun yanına da nazir müavini kimi dəvət olunur.

Kabinetdə Siyasi Büro, demək olar, tam heyətlə əyləşib, yalnız respublikalardan olan yoldaşlar yox idi.

– Yoldaş Tixonov sizin Nəqliyyat Nazirliyinə rəhbərlik etməyə razılıq verdiyinizi dedi, Yuri Andropov aramla danışırdı. – Biz bu qərarı təsdiq edirik. Siyasi Bürodan isə nəqliyyat məsələlərinə yoldaş Heydər Əliyev nəzarət edəcək. Bizə sualınız yoxdur ki?

– Var, – Konarev cavab verdi. – Mənim bir sualım var.

Əgər bundan sonra da dəmiryol nəqliyyatına münasibət əvvəlki kimi olsa, onda biz artıq doxsanıncı illərdə iqtisadiyyatın inkişafı ilə ayaqlaşa bilməyəcəyik.

Ardınca isə Nikolay Semyonov bir neçə statistik rəqəm də sadaladı. 1970-ci ildə nəqliyyat şəbəkəsi səksən min yeni vaqon alıb. 1980-ci ildə bu rəqəm yetmiş minə enib. İşin həcmi isə iyirmi beş faizə qədər artıb. Vaqon parkı on beş faiz azalıb.

Bu halda yükdaşımaların keyfiyyətini necə yüksəltmək olar? Lokomativ parkında və relslərdə də vəziyyət yaxşı deyil. Əllinci illərin əvvəllərində dəmiryoluna büdcənin on bir faizi sərf olunurdu, indi isə bu rəqəm 4,2 faizə enib. Düzdür, atom energetikası, kosmik araşdırmalara xüsusi diqqət lazımdır, amma əgər dəmiryolu daşımaları həyata keçirmək iqtidarında olmasa, nə olacaq? Bu müzakirədə Dövlət Plan Komitəsinin sədri Nikolay Konstantinoviç Baybakov da iştirak edirdi. Son sözünü Andropov məhz ona ünvanladı: görünür, XII beşillik haqqında hər şey əvvəlcədən düşünülmüş və ölçülüb-biçilmişdi. «On ikinci beşillik nəqliyyatın inkişafı, nəqliyyat beşilliyi olmalıdır».

Bir neçə gündən sonra Heydər Əliyev yeni nəqliyyat naziri Konarevi öz yanına dəvət etdi: köməkçilərinə həvalə etmədi, özü zəng vurdu.

– Söhbətimiz dörd saata qədər davam etdi, – deyə Konarev xatırlayırdı.

Bəli, dörd saatın içində onlar bütün dəmiryol təsərrüfatının, bir-biri ilə sıx bağlı olan bütün başqa xidmətlərin işini səhifə-səhifə, problem-problem araşdırdılar. Yalnız söhbətin əvvəlində 3-4 dəqiqə Heydər Əliyev xatırlatdı ki, onun özü də dəmiryolçu ailəsindəndir, atası Naxçıvan dəmiryol stansiyasında usta işləyib və hər parovoz üçün narahat olub...

Dövlət Plan Komitəsinin sədr müavini, ölkədə dəmiryol nəqliyyatı və ümumiyyətlə, nəqliyyat üzrə ən böyük mütəxəssislərdən hesab olunan Viktor Yefımoviç Biryukovla da söhbət eynən bu cür işgüzar şəkildə keçdi.

...Nikolay Semyonoviç Konarev hələ nazir müavini işlədiyi vaxt bazar günlərinin birində nazirlik üzrə növbətçi dayanmışdı. Birdən telefon zəng çaldı.

– Danışan Kosıgindir. İşlər necədir?

– Hər şey yaxşıdır, Aleksey Nikolayeviç, elə bir problem yoxdur.

– Necə yaxşıdır ki, Riqa limanından taxılın daşınmasını təmin edə bilməmisiniz?

Limanlar xaricdən gələn taxıl məmulatlarını gəmilərdən boşaldıb çatdıra bilmirdilər. Gəmilər Riqa, Leninqrad, Murmansk limanlarında dayanıb gözləməyə məcbur olurdular. Dəmiryol vaqonları çatışmırdı.

– Tədbir görün və iki gündən sonra mənə məruzə edin, – Kosıgin sözünü bitirdi.

İki gün sonra tapşırığı yerinə yetirən Konarev Nazirlər Sovetinin sədrinin qəbul otağına zəng vuranda ona deyirlər ki, Kosıgin Latviyada məzuniyyətdədir. Deməli, Pribaltikadan zəng vururmuş. O, istirahətdə də işdən ayrıla bilmirdi....

Rusiyanın müasir gerçəkliyindən bir epizod da yada düşür. Baş nazir Kasyanov əsas nazirliklərdən birinin rəh-

bərini qəbul edir. Bu rəhbər, onu narahat edən məsələlərin çox olmasına baxmayaraq, baş nazirin vaxtının hər dəqiqəsinin qiymətli olduğunu nəzərə alıb, çox yığcam danışır. Birdən baş nazirin istirahət otağından Rusiyada oliqarx adlandırılan bir nəfər çıxıb deyir: «Mişa, mən çox tələsirəm, gedək». Uşaqlar ehtiraslı gözlərlə pul qazanmağa tələsirdilər. Müəssisələrin, iqtisadiy-yatın, regionların problemlərinə vaxt hardaydı. O şey maraqlıdır ki, gəlir gətirir. Pul!.. Pul vaxtıdır. Onlar üçün fərq etməz nə işlə məşğul olurlar, nə ilə alver edirlər – təki pul çıxsın. Rusiya nefti ilə və ya Rusiya kömürü ilə. Rusiyanın səması ilə və ya onun dənizi ilə. Kim onlarla deyil, hamısını – istefaya, təqaüdə və ya nə vaxtsa parovozları göndərdikləri yerə – xılta yola salırlar.

Konarevin yaddaşına daha bir əhvalat həkk olunub. Qərbi Sibirdə neft hasilatı gündən-günə artırdı. Onu ixrac etmək üçün paralel olaraq nəhəng neft kəmərləri, dəmiryolları tikir və yeni teplovozları istismara cəlb edirdilər. Onlar üçün mühərrikləri Kolomensk və Xarkovdakı zavodlarda hazırlayırdılar. Dövlət komissiyası Kolomensk dizel mühərrikini seçsə də, o, uğursuz alınmışdı. Nəhayət, məsələ gəlib Kosıginə çıxdı. Dəmiryol naziri Pavlovski Nazirlər Sovetinin iclasına Konarevi göndərir. Nikolay Semyonoviç yenidən öz mütəxəssisləri ilə danışıb və nəticədə qəti qərara gəlir ki, Kolomensk dizel mühərriki hazır deyil. Yerlərdəki dəmiryolçular da buna əmin idilər.

– Necə yəni hazır deyil? – deyə hökumət başçısının müavini Kirilin gənc nazir müavininin sözünü ağzında qoyur.

Yeri gəlmişkən, Pavlovski öz müavinini Kosıginin yanına iclasa göndərəndə, sənədə qol çəkdiyini ona demir. Onun göstərişi tamam başqa cür olur: «Kolomensk mühərrikinə razılıq vermə».

– Aleksey Nikolayeviç, – deyə Kirilin qəzəblənmiş tərzdə soruşur, – bu necə olur ki, nazir qol çəkir, onun müavini razı deyil?!

Böyük zala bir sakitlik çökür. Kosıgin bir Konarevə, bir Kirilinə baxıb, yüngülcə qımışır:

– Bilirsiniz nə var, yoldaş Kirilin, – mənim üçün əhəmiyyəti yoxdur kim qol çəkib və nəyə çəkib. Mənim üçün həqiqət vacibdir. Gəlin, indi Tomskdan deponun rəisini dinləyək.

Kosıgin həqiqəti beləcə axtarıb tapırdı. Əliyev, Konarev, Biryukov məhz belə fədakarlıqla işləyirdilər....

Əliyevlə Konarevin dörd saatlıq söhbəti ərzində dəmiryolunun bütün problemləri müzakirə olundu.

Konarev xatırlayır:

– Əliyevin timsalında mən hər şeyə maraq göstərən həmsöhbətlə yanaşı, həm də geniş miqyasda düşünə bilən ağıllı dövlət xadimini gördüm. O, əsas məsələləri ikinci dərəcəlilərdən çox dəqiqliklə ayırırdı, o həlqəni tapırdı ki, ondan tutub, bir klassikin diliylə desək, bütün zənciri dartıb cıxartmaq olardı. Mən hiss elədim ki, çox işıqlı təfəkkürə malik bu insan sadəcə texniki problemlərin üstündə dayanmırdı, bu problemlərin arxasındakı insanları görə bilirdi.

İndi çox az adam bilir ki, dəmiryolçular o vaxt Böyük Vətən müharibəsinin iştirakçısı hesab olunmurdular. Onlar bomba və mərmilərin gurultusu altında cəbhəyə yük çatdırırdılar, odun-alovun içinə girirdilər, amma belə bir laqeyd münasibətlə üz-üzə qalmışdılar....

– Mən elə bir kitab nəşr etdirmək istədim ki, – deyə Konarev davam edir, – orada cəbhəçi dəmiryolçuların xatirəsi yad edilsin. Və belə bir kitab nəşr olundu. Kitab belə adlanır: «Dəmiryolçular Böyük Vətən müharibəsi illərində». Bu kitab sükan arxasında, buxar sobasının qarşısında dayanaraq döyüşən insanlar barədədir. Təsəvvür edin, dəmiryol stansiyalarına və qovşaqlarına iyirmi minə qədər hava hücumu olub, yüz on beş min kilometrlik dəmiryol sahələri yenidən bərpa olunub. Bu, böyük zəhmətdir. Mən bu kitabın bir nüsxəsini də Heydər Əliyeviçə bağışlamışdım...

Xüsusi dəstələrdə xidmət edən dəmiryolçuların «Vətən müharibəsi iştirakçısı» statusunu almaları üçünsə hələ bir neçə il də gözləmək lazım gəldi.

Başqa məsələlərlə bərabər Əliyev Nazirlər Sovetində Operativ Məsələlər üzrə Komissiyaya (OMK) da rəhbərlik edirdi. Bu komissiyanın iclaslarında neft və qaz sənayesi inşaatı nazirinin birinci müavini Yuri Petroviç Batalin də müntəzəm iştirak edirdi. Sonralar, o, Dövlət Əmək Komitəsinin sədri və Nazirlər Sovetinin sədr müavini vəzifələrinə qədər yüksəlmişdi. Yuri Batalin dediyimiz komissiyanın işini belə xatırlayır:

– Komissiyada həlli zəruri olan ən müxtəlif məsələlər qal-dırılırdı. Qaz sənayesi, Sibirdən mərkəzə çəkilən beş yeni qaz kəməri, eksporta işləyəcək Urenqoy-Pomarı-Ujqorod qaz kəməri bu komissiyanın xüsusi nəzarətindəydi.

Beşilliyin əsas vəzifələri – bu tikintilər haqqında partiya sənədlərində belə deyilirdi. Batalin neft və qaz sənayesi müəs-sisələrinin tikintisi nazirinin birinci müavini kimi bilavasitə bu işlə məşğul idi.

– Komissiyanın hər həftə keçirilən iclaslarına nazir, adətən, məni göndərirdi, – deyə Yuri Petroviç söhbətini davam etdirir. – Bu iclasları Heydər Əliyev aparmağa başlayanda, mən yaxşı mənada heyrət etdim. Necə gözəl idarə edirdi. Nizam-intizamla, işini bilən bir mütəxəssis kimi. Müxtəlif fıkirləri diqqətlə dinləyir, müqayisə edir, yalnız bundan sonra qərar qəbul edirdi. Bütün işlərdə onun böyük təcrübəsi və gözəl intuisiyası müşahidə olunurdu.

Komissiyanın iclaslarında müxtəlif sahələr üzrə çoxlu məsələlər müzakirə edilirdi. Onları tələsik qiymətləndirmək çətin idi. Belə olan halda kompromis tapmaq üçün işçi qrup təşkil edilirdi. Bir çox hallarda isə heç buna da vaxt çatmırdı. Məsəl üçün, yolun tikintisinə gəlməli olan borular gecikdirilir. Niyə? Zavod yubandırır? Bəlkə dəmiryolu? Yubanmaya kimlər səbəb olub? Həqiqət haradadır?

Operativ Məsələlər üzrə Komissiyanın daimi məşğul olduğu məsələlərdən biri də qaz borularındakı və mədənlərdəki «keçidlər» idi. Sverdlovskdan Tümenə və Tümendən Tobolska qədərki dəmiryol xətti həmişə normadan artıq yüklənmiş olurdu. Stansiyaları genişləndirir, əlavə xətlər çəkirdilər. Buna baxmayaraq, yenə də problemlər kifayət qədər idi. Köhnə təcrübə köməyə gəldi: neft və qaz boru kəmərlərinin tikintisinə borular və başqa yüklər aparan eşalonların arxasınca müharibədə olduğu kimi, dispetçer nəzarəti təyin edildi. Bu işdə Heydər Əliyev də fəal iştirak edirdi. Bundan sonra Neft və Qaz Sənayesi Müəssisələrinin Tikintisi Nazirliyi problemlərdən qurtardı. Əliyev nizam-intizamlı, tələbkar, məsuliyyətli və təcrübəli rəhbər olduğundan kimin həqiqətən işlədiyini, kiminsə gözdən pərdə asdığını o saat hiss edirdi və düzgün qərar çıxarırdı. Mən bura böyük psixoloji hazırlığı, sözlərin arxasındakı mahiyyəti dəqiq görmək bacarığını da əlavə edərdim.

Komissiya sədri adətən dəqiq, aydın qərarlar çıxarırdı. Məntiqi və təmkini ilə seçilirdi. Emosiyalar coşanda yubanmadan söndürürdü. Hiss olunurdu ki, Heydər Əliyev komissiyanın iclaslarına çox diqqətlə, ciddi şəkildə hazırlaşırdı. Bu onun rəhbərlik üslubuna uyğun idi.

– Mən Heydər Əliyevin öz səlahiyyətlərinə uyğun Nazirlər Sovetində, hökumətin tapşırığıyla sədrlik etdiyi bir çox iclaslarda iştirak etmişəm, – deyə Yuri Batalin davam edir. – Az qala ölkənin bütün maliyyə problemləri bizim Dövlət Əmək Komitəsinə axırdı. Problemləri həll etməkçün isə maliyyə vəsaiti lazım idi. Məsələn, rayon əmsallarının tətbiqi, regionların müxtəlif sənaye, təsərrüfat sahələrinin stimullaşdırılması, müəllimlərin məvaciblərinin artırılması və s.

Bəs pulu hardan tapmalı? Dövlət Əmək Komitəsi təklif irəli sürür, Maliyyə Nazirliyi isə etiraz edirdi. Bu münaqişə müəllimlərin əmək haqlarının artırılması ilə bağlı idi. Dövlət Əmək Komitəsi Mərkəzi Komitənin və Nazirlər Soveti-

nin məktəb haqqında qərarına əsaslanaraq öz təkliflərini hazırladı. Maliyyə Nazirliyi etiraz etdi ki, artıq tələb edirsiniz. Mən maliyyə naziri Qarbuzovun yanında və Dövlət Plan Komitəsində müxtəlif iclaslarda oldum. Öz mövqeyimizi müdafiə etdim. Çünki bu mövqe dərindən əsaslandırılmış, düşünülmüş bir mövqe idi, biz onu respublikaların təcrübəli müəllimləriylə, Pedoqoji Elmlər Akademiyasıyla, partiya və sovet orqanlarıyla razılaşdırmışdıq. Düzdür, tələblər böyük idi, amma bizcə, mən belə düşünürdüm, məsələnin optimal həllini tapmışdıq. Lakin Maliyyə Nazirliyinə bu da çox görünürdü.

Heydər Əliyevin apardığı növbəti iclaslardan birində ehtiraslar qızışdı. Mən Dövlət Əmək Komitəsinin təklifləri barədə məruzə edərkən, qəfildən Qarbuzov qalxıb Heydər Əliyevdən də icazə istəmədən məni kəskin şəkildə tənqid etməyə başladı. Mahiyyət etibarı ilə arqumentləri yox idi. Belə hallarda adətən şəxsi münasibətlərə keçirlər. Qarbuzov da belə etdi: «Siz bu mövzuda heç nə anlamırsız. Belə təklifləri yalnız diletantlar irəli sürə bilər».

Batalin pauzanı gözləyib öz çıxışına davam etdi. Qarbuzov sakitləşməyib yenə də onun sözünü kəsdi. Batalin hələ də özünü saxlayırdı. Lakin maliyyə naziri üçüncü dəfə ayağa qalxıb «sən hələ cavansan, təcrübəsizsən, belə tribunaya çıxmamışdan əvvəl yaşlı, təcrübəli yoldaşlardan çox şey öyrənməlisən» deyəndə Batalin ona belə bir replika atdı:

– Öyrənməliyəm? Sizdən?

– Tutalım ki, məndən, – nazir cavab verdi.

– Sizdən nə öyrənim? Kobudluğu, mədəniyyətsizliyi, yoxsa həyasızlığı?

Qarbuzov belə təzyiq gözləmirdi. Batalinsə ürəyini boşaltdı:

– Əgər öyrətmək istəyirsinizsə, öyrədin, kobudluq etməyin. Həm də bu, birinci dəfə deyil. Məgər başa düşmürsünüz ki, siz partiyanın Mərkəzi Komitəsinin üzvü kimi bizlər üçün nümunə olmalısınız?

Həqiqətən də, Qarbuzov öz arxasında maddi dayaq və böyük nüfuzun durduğunu hiss etdiyinə görə başqaları ilə yuxarıdan aşağı danışa bilirdi.

Zalda hamı donub qaldı. Qarbuzov yerindən sıçradı.

– Yoldaş Qarbuzov, əyləşin, – Heydər Əliyev sakitcə dilləndi. Lakin nazir səsinin tonunu bir az da qaldırdı. Əliyev bir daha ona müraciət etdi:

Yoldaş Qarbuzov, oturun və qulaq asın. Əgər əsaslı dəlilləriniz varsa, buyurun, deyin. Əks təqdirdə belə əsəbiləşməyə ehtiyac yoxdur.

İclas qurtardı. Hamı dağılışdı. Batalin öz iş yerinə qayıtdı. Birdən hökumət telefonu zəng çaldı. Heydər Əliyev idi.

– Siz Qarbuzovu yerində otuzdurmaqda düz elədiniz, yoldaş Batalin. O, kobudluq etdi. Amma siz də özünüzü təmkinli aparın və gələn dəfə cavab verəndə özünüzdən çıxmayın.

Bu zəng Batalinin yadından çıxmadı. Çünki bu da Siyasi Büro üzvünün təklikdə verdiyi bir məsləhət, bir dərs idi.

Batalinin daha bir müşahidəsi: Heydər Əliyev həmişə maliyyə qurumunun imkanlarıyla konkret sahənin tələbləri arasında balans yaratmağa çalışırdı.

Batalinin özü də Nazirlər Soveti sədrinin müavini olanda Heydər Əliyevi lap yaxından tanımaq imkanı qazandı. O, inşaat və daha bir neçə sahəyə məsul idi. O vaxt Nazirlər Sovetinin sədri kreslosunda Nikolay Rıjkov əyləşmişdi. Batalinin xatirələrinə görə, Nazirlər Sovetinin rəyasət heyətində Heydər Əliyev həmişə öz mövqeyini əsaslandırmağa çalışırdı. O, bir çox partiya rəhbərləri kimi «mən belə düşünürəm, mən belə hesab edirəm» deyib məsələyə nöqtə qoymurdu. Yox, Əliyev onlar kimi vəzifəsinin nüfuzuna güvənib belə addımlar atmırdı. O, dəqiq nəticələr sistemiylə işləyirdi.

Heydər Əliyev hələ gənclik yaşlarından səriştəli və öz sahəsini dərindən bilən mütəxəssislərə hörmət edirdi, onları qiymətləndirirdi. İndi də o, inşaatçı Batalini qiymətləndirdi.

Əgər komissiyanın hansısa iclasında inşaatla bağlı məsələ müzakirə olunurdusa, Heydər Əliyev mütləq Batalinin də iştirak etməsini xahiş edirdi: «İstəyirəm şəxsən siz özünüz də iştirak edəsiniz, Yuri Petroviç. Birlikdə biz mütləq əsaslandırılmış bir qərar çıxara bilərik».

1983-cü ilin may ayının sonlarında Siyasi Büro İttifaq res-publikalarının orta və ali məktəblərində rus dilinin tədrisinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirləri müzakirə edirdi. Bu, çox vacib bir məsələ idi. Estoniyadan, Gürcüstandan, Litvadan, Qırğızıstandan sovet ordusuna çağırılan gənclər rusca demək olar ki, danışa bilmirdilər. Azərbaycanda və əlbəttə ki, Ukrayna ilə Belorusiyada vəziyyət daha yaxşı idi. Qeyd edək ki, Heydər Əliyev rus dilini mükəmməl bilirdi və həmişə həmsöhbətlərini təəccübləndirirdi. Viktor Yefimoviç Biryukov bu xüsusda xatırlayır:

– Mən onun rus dilini necə mükəmməl bilməsindən heyrətə gəldim. Birgə sənədlər üzərində işləyəndə həmişə onun səyinə və istedadına valeh olurdum. O, hər bir ifadəni diqqətlə oxuyur və sanki götür-qoy edirdi: «Burada feli bağlama tərkibi olsa, daha dəqiq olardı». O öz işini səylə yerinə yetirirdi. Deyərdim, hətta xüsusi istedadla.

Siyasi Büro rus diliylə ona görə məşğul olurdu ki, bu çoxmillətli ölkədə rus dili xalqlararası ünsiyyət vasitəsiydi. Onu bilmək həyati zərurət daşıyırdı.

1 noyabr 1983-cü il. Heydər Əliyev Vyetnama yola düşən Sovet İttifaqı Kommunist Partiyası nümayəndə heyətinə başçılıq edir. Bu səfərdə Nikolay İvanoviç Rıjkov da iştirak edirdi. O, nümayəndə heyətinin başçısı kimi Heydər Əliyevin işini çox yüksək qiymətləndirir. Vyetnamda iki ölkə arasında iqtisadi və elmi – texniki sahələrdə uzunmüddətli proqram qəbul edilir.

20 noyabr. Heydər Əliyev Siyasi Büronun «Xalq istehlakı malları istehsalının və məişət xidmətinin genişləndirilməsi üzrə kompleks tədbirlər planı»na rəhbərlik üzrə komissiyasının işinə qatılır.

3 dekabr. Sovet Sosialist Respublikaları İttifaqı Hava məcəlləsinin həyata keçirilməsilə bağlı «Sovet Sosialist Respublikaları İttifaqının hava hərəkətinə vahid nəzarət sistemi»nin yaradılması üçün hökumətin hazırladığı tədbirlər planı Siyasi Büro tərəfindən qəbul edilir. Heydər Əliyev bu planın hazırlanmasında öz köməyini əsirgəmir.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu 26 dekabra təyin edilir. Yuri Vladimiroviç Andropovun bu plenumun başlanğıcına qədər xəstəxanadan çıxacağı gözlənilir. Əfsus. Plenum iştirakçılarına Baş katibin çıxışının yalnız yazılı mətnini verirlər. Məhz bu başlıq altında da çıxış ertəsi gün qəzetlərdə dərc olunmuşdu: «Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi, yoldaş Yuri Vladimiroviç Andropovun plenumdakı çıxışının mətni».

«Çox təəssüflər olsun ki, məndən asılı olmayan bəzi müvəqqəti səbəblər üzündən plenumun iclasında iştirak edə bilməyəcəyəm. Lakin mən gələn ilin planının əsasını təşkil edəcək bütün materiallarla yaxından tanış olmuşam... Öz çıxışımın mətnini göndərirəm».

Əliyev bu vida çıxışını böyük narahatlıq və kədər hissiylə oxuyur. Hamı bu mətni Andropovun vəsiyyəti kimi qəbul edirdi. Budur, Andropov sanki Heydər Əliyevə ruhlandırıcı salam göndərir:

«... Nəqliyyatın işi də partiya və sovet təsərrüfat orqanlarının sonsuz diqqətini tələb edir. Əlbəttə, son vaxtlar bu sahədə bir çox müsbət tendensiyalar, irəliləyişlər müşahidə olunmaqdadır. Amma məncə, nəqliyyatda başqa sahələrdən daha çox gizli ehtiyatlar var və onları qısa zamanda tapıb hərəkətə gətirmək lazımdır».

…İki ay tamam olmamış Mərkəzi Komitənin plenumu yeni Baş katibi seçməli oldu: Konstantin Ustinoviç Çernenko.

– Heyf ki, yoldaş Yuri Vladimiroviç Andropov bizim partiyamıza, dövlətimizə az, çox az rəhbərlik edə bildi.

O vaxt heç kim bilmirdi ki, onun xələfinə ayrılmış müddət daha qısa olacaq.

Yuri Vladimiroviçi topların yaylım atəşinin sədaları altında dəfn etdilər. Zavodlar, çay və dəniz nəqliyyatı isə düz üç dəqiqə ərzində matəm fiti verdilər.

Bu kədərli günlərdə Heydər Əliyev 1967-ci ildəki ilk görüşdən başlayaraq Andropovla görüşlərini tez-tez anırdı. Sanki uzun illər ötmüşdü üstündən. Nə qədər uzaq görünürdü bu görüş. Andropov onda hələ orta yaşlarındaydı – təzəcə əllini adlamışdı. Heydərinsə qırx dörd yaşı vardı. İkisi də ucaboylu, qədd-qamətli...

Heydər Əliyev xatırlayır:

– Brejnevin dəfnindən sonra biz Andropovla ikilikdə görüşdük. O mənə dedi: «Sənə ehtiyacım var, istəyirəm ki, sən Moskvada işə başlayasan».

Brejnevə dediyim kimi, indi də Andropova dedim: «Yox, mən imtina edirəm. Özümü Azərbaycansız, Azərbaycandan kənarda təsəvvür edə bilmirəm. Doğma vətənimdən ayrılmaq mənə çətindir».

Amma Andropov israr etdi: «Azərbaycan artıq səninçün dar bir məkandır. Sən bütün Sovet Sosialist Respublikaları İttifaqına lazımsan, Heydər. Sən mənim Baş katib seçilməyimə səs vermisən, indi bəs mənə kömək etmək istəmirsən?».

Əlbəttə, azərbaycanlılar Kremldə öz həmyerlilərinin olmasıyla fəxr edirdilər. Başqa işləriylə bərabər Heydər Əliyev Sovet Sosialist Respublikaları İttifaqının İslam ölkələriylə münasibətlərinə də himayəçilik edirdi. Bu ölkələrdə ona çox böyük ehtiramla yanaşırdılar. Vacib diplomatik tapşırıqlarla o, dəfələrlə Misirdə, Suriyada, Livanda, Pakistanda, İordaniyada, İraqda olmuşdu.

«1984-cü ildə məni təcili olaraq Suriyaya göndərdilər, – deyə Heydər Əliyev yada salırdı. – Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin verdiyi informasiyaya görə, Prezident Hafiz Əsədlə onun qardaşı Rifət Əsəd arasında nara-

zılıq yaranmışdı. Rifət Əsəd Suriyanın xüsusi xidmət orqanlarına rəhbərlik edirdi.

Suriyada hakimiyyət başçısının dəyişdirilməsi Kremlə sərf etmirdi. Mən təcili Dəməşqə yola düşdüm. Artıq xəstəxanadan çıxmış Hafiz Əsədlə görüşdüm. Xəstə olmasına baxmayaraq, bizim görüşümüz səkkiz saat çəkdi. Bir az sonra isə o, çılğın qardaşını ölkədən İspaniyaya sürgün etdirdi. Beləliklə, problem həll olundu və Siyasi Büro rahatlıqla nəfəs aldı».

Suriyanın keçmiş vitse-prezidenti, 2012-ci ildə ölkəsindən qaçmış Fərrux Əş-Şəra da bu yaxınlarda nəşr etdirdiyi kitabında Heydər Əliyevin 1984-cü ildə bu ərəb ölkəsini vətəndaş müharibəsindən necə qurtarması haqqında hadisəni təfərrüatı ilə kitaba daxil etmişdir. Fərrux Əş-Şəra yazır: «Sovet İttifaqı Suriyadakı hakimiyyət böhranını tənzimləməmişdən əvvəl, Dəməşqdə prezident Hafiz Əsədlə qardaşı Rifət Əsəd arasında münaqişə baş verdi. 1984-cü ildə, indiki prezident Bəşər Əsədin atası prezident Hafiz Əsədin səhhətində qəflətən problemlər yarandı. Rifat Əsəd qardaşının bu vəziyyətindən istifadə edərək hakimiyyəti ələ almaq istəyirdi. Rifətin tərəfində olan silahlı qüvvələr prezidentin xəstəlik üzündən nəzarət edə bilmədiyi ölkədə yaranan boşluqdan istifadə edərək, Dəməşqdə vəziyyətə nəzarət etməyə başladılar.

Nəticədə, Dəməşq qarşı-qarşıya durmuş iki cəbhəyə böləndü: bir tərəfdə ələvilərin dəstəklədiyi Rifətin qoşunları, qarşı tərəfdə isə onun qardaşına sadiq qalan hərbi qüvvələr. Hafizin xəstəlikdən müalicə aldığı belə bir məqamda, Suriyanın paytaxtı sürətlə qarşıdurmaya yaxınlaşırdı».

Sovet hökuməti qərara gəlir ki, Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevi Suriyaya göndərsin. Əliyev Dəməşqə gəlir və ölkədəki daxili vəziyyəti öyrənmək üçün Rifət Əsədlə görüşmək istədiyini bildirir. Əş-Şəra bildirir ki, prezident Hafiz Əsəd Heydər Əliyevin bu xahişinə qarşı çıxmır. Hafiz

Əsəd həmin illərdə vitse-prezident vəzifəsində olan Fərrux Əş-Şəradan xahiş edir ki, Heydər Əliyevi həmin görüşə müşaiyət etsin.

«O illərdə Heydər Əliyev Nazirlər Soveti sədrinin birinci müavini olmaqla yanaşı, həm də İslam ölkələri ilə əməkdaşlığa məsul şəxs idi. Sovet kəşfiyyatının əldə etdiyi, məxfi məlumatlara əsasən Hafiz Əsədlə qardaşı Rifət Əsəd arasında ciddi münaqişə var idi. Sovet İttifaqı regionda vətəndaş müharibəsinin baş qaldırmasından ehtiyat edirdi. Məhz, bizim indi müşahidə etdiyimiz müharibədən. Sovet hökuməti yüksək dövlət məmuru və keçmiş kəşfiyyatçı zabiti Dəməşqə göndərdi. Əliyevin Hafiz Əsədlə səkkiz saatlıq görüşü oldu. O, Əsədi müharibədən qaçmaq və sülh naminə bəzi addımlar atmağa inandıra bildi. Nəticədə Əsəd qardaşları sülh bağladılar və Rifət Avropaya yola düşdü. Bu məsələnin həllində rəhmətlik Əliyev özünü misilsiz dipölomat və təcrübəli siyasi xadim kimi apardı. Lakin, sonralar Sovet Sosialist Respublikaları İttifaqının prezidenti Mixail Qorbaçov qısqanclıq üzündən Əliyevi vəzifədən uzaqlaşdırdı».

Sovet Sosialist Respublikaları İttifaqının Suriyada səfiri vəzifəsində uzun müddət Aleksandr Dzasoxov işləmişdi. 1998-2005-ci illərda Şimali Osetiyanın prezidenti olmuş bu adam bizə dedi: «Suriyanın Prezidenti Hafız Əsəddən Heydər Əliyev barədə çoxlu xoş sözlər eşitmişdim».

Amma onun Heydər Əliyeviç haqqında söhbəti bununla bitmir. Sonralar siyasi elmlər doktoru, YUNESKO işləri üzrə RF komissiyasının sədr müavini, Beynəlxalq məsələlər üzrə Rusiya Şurasını vitse-prezidenti Aleksandr Dzasoxov «Qafqaz xəbərləri» portalının müsahibəsində deyir:

– Mən uzun illər Heydər Əliyevlə yaxından tanış olmuşam. Bizim çox səmimi və yaxşı münasibətlərimiz vardı. İstər qısa, istərsə uzun çəkən görüşlərimiz də bizim üçün maraqlı olurdı. Əliyev şəxsiyyətdir. O siyasətə tamam başqa sahədən gəlmişdi. O peşəkar kəşfiyyatçı idi və general rüt-

bəsi almışdı. Onu Azərbaycanın rəhbəri seçəndə bəzi adamlar onun inkişaf edən, nüfuzlu, sənaye, mühəndis, elm və neft respublikasını saxlaya biləcəyinə şübhə edirdilər. Ancaq belələri çox az idi.

Mən onun imkanlarına inanırdım, çünki o təkcə Qafqazı yox, həm də bütün ölkəni yaxşı bilirdi. Heydər Əliyeviçin qonşu ölklər – Türkiyə və İrandakı vəziyyət haqqında da kifayət qədər məlumatı var idi. O tabeçiliyində olan insan və ya Moskvadan gəlmiş qonaq olmasına fərqə qoymadan müsahibinin fikrinə hörmətlə yanaşar və onu diqqətlə dinləyərdi. Onun suallara qabaqcadan hazırlanmış və yeganə düzgün cavabı yox idi. Onun öz baxışı, öz fikri vardı və həmişə bunu yoxlamağı, müqayisə aparmağı, diskussiya etməyi lazım bilirdi.

Mənim iştirakımla, elə mənim təşəbbüsümə əsasən Azərbaycanda bir neçə tədbir keçirilmişdi. Bunlardan biri 1970-cı illərdə Böyük Oktyabr Sosialist inqilabının növbəti yubileyinə həsr edilmişdi. Böyük bir forum idi və 70 ölkədən nümayəndələr gəlmişdi. Əksəriyyəti fəaliyyətdə olan dövlət rəhbərləri, bütün dünyada məşhur olan partiya liderləri idi. Əliyev əsas məruzə ilə çıxış etdi və məsələnin tam məğzini açıqladı, Azərbaycanın simasında sovetlər adlandırılan sivilizasiya dövründə xalqın nəyə qadir olduğunu inandırıcı şəkildə, illüstrasiyalarla, faktlarla nümayiş etdirdi.O müasir Azərbaycan tarixinin son onilliyində çox az məlum olan bir sıra maraqlı faktlar göstərdi.

Əliyev incəsənət və mədəniyyət xadimlərinə diqqətlə yanaşırdı. Heydər Əliyeviçin Azərbaycanda işlədiyi dövrdə və Moskvada çalışdığı illərdə o respublikadan çıxan dünyalarca məşhur bütün ulduzlar özlərinin böyük müasirlərinin diqqətini üzərlərində hiss etmişdilər.

Keçmiş Sovet Sosialist Respublikaları İttifaqının elə bir respublikası yoxdur ki, Aleksandr Sergeyeviçin bu fikri ilə bağlı maraqlı bir əhvalata şahidlik etməsin. Ancaq Heydər Əliyev təkcə Azərbaycandan yox, Sovet İttifaqının bütün

guşələrindən çıxmış istedadlı insanlara dar gündə əl uzatmasın və yardım göstərməsin.

## Heydər Əliyev Yuriy Salominə necə kömək etdi

Sovet Sosialist Respublikaları İttifaqının xalq artisti, Rusiya Sovet Federativ Sosialist Respublikasının mədəniyyət naziri, tanınmış sovet və rus aktyoru, teatr və kino rejissoru, istimai və dövlət xadimi Yuri Solomin xatirələrinin birində yazır: «Bir neçə il əvvəl Malıy teatr Bakıda qastrol səfərində idi. Publika bizə qarşı çox səmimi idi. İnsanlarla dolu salonlarda keçən tamaşalar sürəkli alqışlarla qarşılanırdı. Sonralar Azərbaycan mətbuatı bizim haqqımızda çox yazdı. Ünvanımıza ən xoş və səmimi sözlər oxuduq.

Şəxsən mənim üçün bu, Azərbaycana ilk səfər deyildi, Bakıya qastrol debütüm 60-ci illərə təsadüf etmişdi. Məhz o zaman bizim Heydər Əliuyeviçlə ilk görüşümüz baş tutdu. Malıy teatrın kollektivi teatr ustadları Yelena Qoqoleva, Mixail Çaryov və Mixail Jarovun rəhbərliyi altında Qəbul evinə banketə dəvət edilmişdi. Banketi bizim şərəfimizə Heydər Əliyev təşkil etmişdi.

Qonaqlığın şirin yerində Əliyev səhnəyə çıxdı və söylədi ki, o Malıy teatrın kollektivinə Azərbaycanın fəxr etdiyi bir insanı təqdim etmək istəyir. Sonra gənc müğənni Müslüm Maqomayevi publikaya təqdim etdi. Müslüm elə bu günlərdə İtaliyadan qayıtmışdı. Bəxtimiz gətirmişdi. Müslümün səsini ilk dəfə, bəlkə də hamıdan əvvəl eşidən insanlardan olduq. Heç unutmaram o, Fiqaronun partiyasını çox əla ifa etdi və bu, onun geniş publika qarşısında ilk çıxışı idi.Tamaşaçılara isə onu Əliyev şəxsən özü təqdim etmişdi. Bizim kollektivə bundan yaxşı hədiyyə təsəvvür etmək belə çətin idi.

Mənim Heydər Əliyevlə bağlı bir neçə xatirəm də var. Tbilisidə bizim konsert verəcəyimiz binanın qarşısında bay-

ram nümayişi keçirilirdi və biz çıxışda bir qədər gözləməli olduq. Elə bu zaman Eduard Şevardnadze və Heydər Əliyev bizə yaxınlaşdılar.Teatr və musiqi ilə bağlı çox isti bir söhbət başladı. Mən Heydər Əliyevə Bakıda onun Müslümü bizə necə təqdim etdiyini xatırlatdım.Həmin konsertin bəzi məqamlarını müzakirə etməyə başladıq, musiqidən və kinodan danışdıq.

Üçuncü dəfə isə Heydər Əliyev çox çətin bir məqamda mənim dadıma çatdı.İş belə oldu. Mən Krımda səyyah Mikluxo-Maklay haqqında "Onun həyatının sahilləri" adlı film çəkirdim. Çəkiliş qrupumuzla birlikdə Simferepoldan Yaltaya getməli idik. Yaşayış yeri ilə bağlı çətinlik meydana çıxdı: bizə heç vəchlə lazım olan sayda mehmanxana yer ayırmaq istəmirdilər. Filmdə çəkilən hörmətli və sevimli aktyorlar demək olar ki, açıq səma altında qalmışdılar. Heydər Əliyeviçə teleqaram vurduq. O, həmin dövrdə artıq Moskvada Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Büronun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini işləyirdi və mədəniyyət məsələlərini yönəldirdi. Bir sutkadan sonra yaşayış yeri tapıldı, üstəlik bizə rekevizitləri bir şəhərdən başqa şəhərə daşımaq üçün maşın da təklif etdilər. Mən bunu heç zaman unutmaram! Heydər Əliyeviç özünü son dərəcə həssas insan kimi göstərdi.

## Özgə uşaqları

Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin fəaliyyəti dairəsinə iyirmiyə yaxın nazirlik və təşkilat daxil idi. Nəqliyyatdan əlavə, o, kitab nəşri, kinematoqrafiyanın maddi-texniki bazası, səhiyyə və uşaq evləriylə də məşğul olmalıydı. Uşaq evləri məsələsini yazıçı Albert Lixanovun məktubuna əsasən Çeraenko şəxsən özü Heydər Əliyevə tapşırmışdı. Həm də bu, elə bir hal idi ki, rəsmi tapşırıqla daxili maraq üst-üstə düşmüşdü.

Heydər Əliyev hələ çekist fəaliyyəti zamanı müharibə nəticəsində yetim və kimsəsiz uşaqlarla üz-üzə gəlmişdi. Bakının və Naxçıvanın uşaq evlərində dəfələrlə olmuşdu. Bilirdi ki, Sovet Sosialist Respublikaları İttifaqı Xalq Deputatları Sovetinin sədri N.A.Voznesenski 1945-ci ildə «Sənaye müəssisələrinin nəzdində uşaq evlərinin yaradılmasına dair» bir sərəncam imzalamışdı.

Kolxozların və sovxozların nəzdində çox vaxt da kəndlilərin hesabına, uşaq evləri əvvəllər də yaradılmışdı. Məsələn, Azərbaycanda beləydi. Xalq Daxili İşlər Komissarlığının şəhər və bölgə şöbələrində kimsəsiz və yetim uşaqlarla məşğul olan şöbələr yaradılmışdı. Komsomol təşkilatı da bu işdə uşaq evlərinə yardım edirdi. 1946-cı ildə Azərbaycan gəncləri uşaq evləri üçün doxsan iki stul, üç yüz qırx səkkiz boşqab, iki yüz yetmiş beş qaşıq, min yeddi yüz iyirmi beş kitab, üç yüz beş dəftər toplamışdılar. Gənclər bəzən özlərinin son dəftər-kitablarını da uşaq evlərinə göndərirdilər. Yüzlərlə dəftər-kitabın arasında Heydər Əliyevin verdikləri də vardı.

Zaman keçdikcə ölkədə kimsəsiz, evsiz-eşiksiz küçə uşaqları problemi həll olundu. Amma yetimlər müəyyən mənada yaddan çıxmışdı. Partiya və dövlət rəhbərlərinin çox kiçik bir qismi yolunu uşaq evlərindən, internat-məktəblərdən salırdı. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev üçün uşaq evlərinə, internatlara və qocalar evlərinə mütəmadi səfərlər neft mədənlərinə, pambıq tarlalarına edilən səfərlər kimi adi bir hal idi. Heydər Əliyev bir dəfə memarları yanına çağırıb uşaqlar üçün isti və rahat bir uşaq evinin layihəsini hazırlamağı tapşırmışdı.

Rusiya Uşaq Fondu İdarə Heyətinin sədri, yazıçı Albert Anatoliyeviç Lixanov sözün əsl mənasında, bütün ömrünü yetimlərin, kimsəsiz uşaqların müdafiəsinə həsr etmişdi. Çernenko Baş katib seçiləndən sonra Lixanovun komsomoldan tanıdığı köhnə tanışı Viktor Pribıtkov onun köməkçilə-

rindən biri təyin olunmuşdu. O da Lixanovun narahatçılığını bölüşürdü və məsləhət görmüşdü ki, Baş katibin adına məktub yazsın.

Bir neçə gündən sonra Lixanov məktubu yazıb gətirdi. O, həyatının lap başlanğıcından çətin vəziyyətə düşmüş uşaqlar haqqında yazırdı. Lixanov bildirirdi ki, onların tərbiyəsi məsələsiylə bütün cəmiyyət məşğul olmalıdır və yetimlər koordinal yardım tələb edir. Bu yardımı həyata keçirmək üçün o, qırx beş bənddən ibarət düşünülmüş fəaliyyət proqramı təklif edirdi. İlk olaraq isə Azərbaycandakı təcrübəni nümunə gətirirdi:

«Məktəb tikintilərinin geniş miqyas aldığı bir şəraitdə ölkəmizdə yeni uşaq evləri demək olar ki, tikilmir. Uşaq evləri köhnə, bəzi hallarda isə inqilabdan əvvəlki tikililərdə yerləşir. Müasir uşaq evinin elmi cəhətdən əsaslandırılmış konsepsiyası yoxdur. Həmin konsepsiyanı yaradandan sonra yeni uşaq evlərinin tikintisinə başlamaq lazımdır. Bu məsələdə ilk və unikal nümunə Bakı şəhərində həyata keçirilmişdir. Orada yoldaş Əliyevin ciddi nəzarəti altında bir neçə il əvvəl yeni nümunəvi uşaq evi tikilmişdir.

Məncə, böyük sənaye mərkəzlərində və ucqar bölgələrdə uşaq evlərinin tikilməsi məqsədəuyğun deyil. Ucqar bölgələrdə ixtisaslı pedoqoji kadrlar çatışmır, mərkəzlərdə isə valideynlik hüquqlarından məhrum edilmiş valideynlər qeyri-sağlam mikromühit yaradılmasında aktiv iştirak edirlər.

İdeal variantda uşaq evləri əsasən böyük mərkəzlərdən əlli-yüz kilometr aralı, yaxşı yolu olan yerdə yaradılmalıdır. Bu halda mərkəzin mədəni mühitindən ayrılmadan uşaqları yarımkənd atmosferində gözəl tərbiyə etmək imkanı yaranır».

Lixanov məktubunu bu sözlərlə bitirirdi: «Müharibə illərində bəzi raykomlar iş günlərini məhz uşaq evlərinə baş çəkməklə başlayırdılar. Bu aydındır. Orada ümumxalq fəlakətindən zərər çəkən uşaqlar vaşayırdı. İndi başqa zaman-

dır və balaca yetimlərin problemlərinə tamam başqa rakursdan baxmaq lazımdır.

Partiya həmişə birinci olaraq uşaqların köməyinə gəlib, inanıram ki, bu problem də partiya tərəfindən təxirə salınmadan həll olunacaq».

Bir həftə sonra Baş katibin köməkçisi Pribıtkov Lixanova zəng vurub bildirdi ki, Çernenko məktubun üstünə öz müsbət rəyini yazıb.

Konstantin Ustinoviç Çernenko bu məsələylə məşğul olmağı məhz Heydər Əliyevə tapşırmışdı. Ola bilsin, Baş katib uşaq evi ilə bağlı məktubda göstərilən nümunəyə diqqət yetirmişdi, ola bilsin də abituriyentlər, hərbi təmayüllü internat-məktəbi üçün vəsait almaq yönündə Mərkəzi Komitədə Əliyevin necə qətiyyət göstərdiyini unutmamışdı. Hadisələrin sonrakı gedişatını Lixanov belə xatırlayır:

«Bir neçə gün sonra Sovet Sosialist Respublikaları İttifaqı maarif nazirinin müavini Lyubov Kuzminiçna Balyasnaya mənə zəng vurub dedi ki, Mərkəzi Komitəyə məktubunuza görə təşəkkür edirəm. Məncə, bunun çox köməyi olacaq.

Açığı deyim ki, bu zəng məni yaman sevindirmişdi. Amma buna baxmayaraq, soruşdum:

– Lyubov Kuzminiçna, məgər Nazirliyin özü bunu edə bilmirdi?

– Əlbəttə ki, yox, – o, qəti şəkildə bildirdi. – Bizim məktubumuza adi məmur məktubu kimi baxacaqdılar. Siz isə məşhur yazıçısınız, cəmiyyətin adından çıxış edirsiniz.

Situasiyanın nəzəri təhlilinə görə bu qadına qarşı məndə rəğbət hissi yarandı; gülümsündüm, onun sözünə həm inanmaq, həm də inanmamaq olardı.

Daha bir neçə gündən sonra isə məni Mərkəzi Komitəyə, Heydər Əliyevin yanında keçirilən iclasa çağırdılar. O vaxt Əliyev Nazirlər Soveti sədrinin birinci müavini idi. Onun kabinetindəki uzun stolun arxasında artıq xeyli adam oturmuşdu. Biri-biriylə yaxından tanış olan adamlar nə barədəsə müzakirələr aparırdılar. Əliyev isə kabinetin yuxarı başın-

dakı stulunda əyləşib telefon söhbətini bitirirdi. Köməkçisi məni onun yanına apardı və təqdim etdi. Əliyev xoş təbəssümlə gülümsünüb əlimi sıxdı və stol arxasında əyləşənlərə tərəf dönüb məni onlara təqdim etdi:

– Bu hörmətli yazıçımız Lixanovdur, xahiş edirəm onu sevin və ehtiram göstərin.

Ümumi stolun arxasında əyləşdim. Kabinetdə əyləşənlər məni maraqla süzməyə başladılar. Onların çoxunu tanımırdım, ilk dəfəydi ki, görürdüm. Jurnal redaktoru olsam da, Moskvada çox vəzifə sahiblərini tanısam da, Kreml iclaslarında bircə dəfə də iştirak etməmişdim. Qarşımda sanki tamam başqa bir aləm açılmışdı. Düzünü deyim, özümü burada necə aparmağı da bilmirdim.

Etiraf etmək lazımdır ki, Heydər Əliyev sıxıldığımı görüb mənə əməlli-başlı kömək etdi. Onun qısa, lakin ətraflı çıxışı Balyasnayanın fikirləriylə üst-üstə düşdü. Əliyev bir neçə dəfə mənə istinad edib dedi ki, Lixanov tanınmış yazıçıdır, ictimaiyyətin adından çıxış edir. Və davam edərkən onunla söhbətimizin ikinci hissəsini bir növ təkzib etdi: Çox təəssüf ki, bu işlərə, yetim uşaqlarla işə məsul olan nazirlik, özü məsələ qaldırıb heç bir tədbir görmür, bu sahədə heç nə etmək istəmir.

Sonra Heydər Əliyeviç bildirdi ki, Baş katib yetim uşaqlara yardım proqramının işlənib hazırlanmasını Nazirlər Sovetinə tapşırıb. Kimlərinsə adını çəkdi, hansısa təşkilatları qeyd etdi, təşkilati məsələləri detallarına qədər çözdü. Üç dəfə təkrar etdi: məktubun müəllifiylə müzakirələr aparın, detalları onunla razılaşdırın. Sonda isə mənə tərəf dönüb soruşdu:

– Növbəti dəfə nə vaxt bizim iclasda iştirak edə bilərsiniz?

Bax, bunu gözləmirdim. Güman edirdim ki, mənim bu işdə rolum sadəcə bir qonaq rolu olacaq. İndi isə mənə belə sual verirdilər. Sualın cavabını bir müddət düşünməli oldum. Əliyev isə sualı təkrar edib gülümsündü:

– Burada məmurlar əyləşib, sizsə kənar sahənin adamısınız. Sizin üçün nə vaxt rahat olsa, iclas təyin edək və onlar gəlsinlər. Nə vaxt bura gəlməyə vaxtınız olar?

– İstənilən vaxt, – deyə tez-tələsik cavab verdim. – Çox sağ olun.

Necə deyərlər nağılda hər şey tez başa gəlir, həyatda isə yox. Mən uzun müddət Nazirlər Sovetindən zəng gözlədim, amma zəng vuran olmadı. Təzədən Əliyevə zəng vurmaq isə yaxşı deyildi. İki ay sakitlik oldu, bilmirdim neyləyim. Pribıtkov isə məni sakitləşdirirdi:

– Əgər bu iş Əliyevə tapşırılıbsa, sən tamamilə arxayın ola bilərsən.

Nəhayət, Kremldən zəng vurdular:

– Bu gün filan saatda Nazirlər Sovetində iclas olacaq. Xahiş edirik ki, siz də iştirak edəsiniz.

Vaxtından xeyli əvvəl gəldim və mənə qərar layihəsini verdilər. Vərəqlədikcə təəccübdən donub qaldım. Az qala halım pisləşəcəkdi. Mənim təkliflərimdən əsər-əlamət qalmamışdı. Katibə dedim ki, iclasdan əvvəl Heydər Əliyeviçlə görüşmək istəyirəm.

Məni içəri dəvət etdilər. İçəri girən kimi özümü saxlaya bilməyib salamsız-kəlamsız dilləndim:

– Axı belə olmaz. Siz hər şeyi kəsib doğramısınız, azaltmısınız. Belə olmaz.

Əliyev gülümsündü və təxminən belə dedi:

– Narahat olmayın. İndi biz stol arxasına əyləşəcəyik, mən sizə söz verərəm və hər şeyi lazımi qaydaya salarıq.

İclas başlandı. Əvvəlcə maliyyə nazirinin birinci müavini daxil olmaqla üç nazir müavini çıxış etdi. Onlar Əliyevin üzünə gülümsünərək bir ağızdan qeyd edirdilər ki, hazırlanan bu gözəl qərarın unikal proqram layihəsi yetimlərə qayğı sistemini kifayət qədər yaxşılaşdıracaq, humanistləşdirəcək və s.

Əliyev onlara sözlərini deməyə imkan verdikdən sonra dedi:

– İndi isə Mərkəzi Komitəyə müraciətin müəllifi olan tanınmış yazıçı Lixanovun rəyini dinləyək, – və mənə baxıb gülümsündü.

Əvvəlki natiqlərin pafoslu çıxışları, dedikləri səfeh sözlər, axmaq fıkirlər məni lap özümdən çıxartmışdı. Məsələn, deyirdilər ki, uşaq evlərində hər uşağa düşən gündəlik ərzaq payını 20 qəpik dəyərində artırmaq lazımdır. Bununla onların səhhəti yaxşılaşacaq. Arqumentləri isə bundan ibarət idi ki, hər bir uşaq evində xeyli uşaq yaşayır və hər uşağa ayrılan xərc iyirmi qəpik artırılsa, görün ümumi xərc nə qədər artacaq. Bu adamlar kimin üçün qənaət edirdilər, kimlərin hesabına qənaət edirdilər – bunu mən yaxşı anlamırdım. Bəlkə də, bu məmur xüsusiyyətlərinin nümayişi idi, yəni onlar dövlətin hər qəpiyinin qiymətini bilirlər, onun üstündə əsirlər. Amma bu canyananlıq çox saxta alınırdı, çünki söhbət məhz dövlətin uşaqlarından gedirdi. Bundan başqa, məndə məşhur dietoloqların, uşaq qidalanması üzrə mütəxəssislərin yazılı rəyləri – bu insafsız adamlara qarşı yaxşı tutalğac vardı. Burada verilən meyvə-tərəvəzin, sıyıqların miqdarı, keyfıyyəti, vitamin normaları, bir sözlə, bu qərar üçün gərəkli olan bütün arqumentlər vardı. Söhbət isə valideynləri tərəfindən atılmış yüz minlərlə uşaqdan gedirdi. Dövlətdən başqa onların qayğısına kim qalmalıydı ki? Əgər dövlət bu balaca vətəndaşların taleyi üçün məsuliyyət daşıyırsa, hansı tədbirləri görməlidir? Qənaət etməlidir, xəsislik yolunu tutmalıdır? Ruhsuz, cansız və kimə məxsus olması bilinməyən abstrakt «büdcə»ni qorumalıdırmı? Məgər bu büdcə ölkənin gələcəyi olan bu körpələrə məxsus olmamalıdırmı? Öncə bu uşaqları, qocaları, xəstələri yedizdirin, içizdirin, sonra başqa işlər barədə düşünün.

Öz vətəndaşları qarşısında məsuliyyət daşıyan Vətən mənə elə gəlir ki, belə düşünüb hərəkət etməlidir.

Qısası, hər uşağa nəzərdə tutulan maddi vəsaiti 20 qəpikdən 1 rubl 20 qəpiyə qaldıra bildim. Təsərrüfat, istehsa-

lat təcrübəsi üçün paltarlara ayrılan vəsaiti isə 10 rubldan 200 rubla qaldırdıq. Çünki uşaq evlərinin çoxu şəhərlərdən kənarda yerləşirdi və uşaqlar təcrübəni qapalı, isti sexlərdə yox, açıq havada, tarlada, bostanda günün, yağışın, küləyin altında, traktorun, kombaynın yanında keçirdilər. Buna görə də onlara qalın işçi paltarı, sırıqlı-pencək, sırıqlı-şalvar, qalın dəri çəkmələr mütləq lazım idi...

Beləliklə, mən Əliyevin nəzarəti altında çıxış edənlərin dediklərini bənd-bənd altını üstünə çevirdim və fıkirlərimi isbatladım. Əliyev də mənim bütün fıkirlərimi bəyəndi. Yalnız birindən başqa. Hələ 1984-cü ildə mən V.İ.Lenin adına uşaq fondu yaratmağı tövsiyə etmişdim. Bayaqdan bəri uşaqların geyiminə pul ayırmaq istəməyən maliyyə nazirinin müavini birdən yerindən qalxıb dilləndi:

– Bəs xaricdə buna nə deyəcəklər? Belə çıxır ki, biz öz yetim uşaqlarımızın qayğısına qala bilmirik?

Deyəsən, mənim məruzəmdəki «xeyriyyəçilik» sözü ona xoş gəlməmişdi.

Heydər Əliyev mənə baxıb üzr istəyirmiş kimi dedi:

– Hələ biz bu addımı atmağa hazır deyilik.

Mən əldə etdiklərim üçün sevinirdim və düzü qorxdum ki, fondla bağlı məsələ siyasi müstəviyə çıxa bilər. Onda bu işlər Nazirlər Sovetinin, yəni Heydər Əliyevin nəzarətindən çıxacaqdı. Aydın məsələ idi ki, xeyriyyə fondu yaradılması haqqında fıkir, istər uşaqlar üçün olsun, istər Leninin adını daşısın, istər təşkilat deyil, ictimai cəmiyyət olsun, Suslov kimi bir partiya bürokratının əlinə düşsə, yetimlər haqqında qərar, ümumiyyətlə, ləğv oluna bilərdi. Bunu isə mən istəmirdim.

Görünür, mənim aparat dəhlizlərinə, müxtəlif məmurların kabinetlərinə ayaq döyməməyim üçün Heydər Əliyev işi elə qurdu ki, qərarın yeni variantını elə oradaca nazirliklərin nümayəndələriylə razılaşdırdım. Və möcüzə – 1985-ci ildə qərar qəbul olunaraq elan edildi. Mən sevincimdən az qala ağlayırdım.

İndiki dillə desək, yetim uşaqların iqtisadi vəziyyəti kordinal olaraq dəyişildi. Yemək-içməyin və geyim-kecimin həcmi artdı. Uşaq evləri sakinlərinin görkəmi də dəyişdi. Gödəkçələr, donlar, köynəklər təzələndi, gözəlləşdi. Onlar artıq adi «ev» uşaqları kimi geyinib-keçinirdilər, onlar kimi qidalanırdılar. İşçi personalın məvacibi xeyli artırıldı. Ümumiyyətlə isə, əvvəllər adı xəcalətlə çəkilən yetimlər birdən-birə diqqət mərkəzinə düşdülər. İş elə quruldu ki, müxtəlif təşkilatlar, idarələr, müəssisələr uşaq evlərinə, internatlara himayədarlıq etməkçün az qala növbəyə durmalı oldular. Hamı nəsə yardım etmək istəyirdi: damı düzəltdirmək, ərzaq məhsulları ilə təmin etmək, uşaqları teatrlara, muzeylərə aparmaq və s. Uşaq evlərindəki uşaqlar üçün belə yerlərə giriş artıq havayı idi.

Mərkəzi Komitə mənim daha bir ideyamı qəbul etdi, uşaq evlərinin çoxsaylı təcrübəli, qocaman tərbiyəçiləri, müəllimləri, həkimləri, müdirləri, xidmətçi personalın üzvləri müxtəlif orden və medallarla təltif edildilər. Uşaqların tərbiyəsi ilə məşğul olan insanların nüfuzu xeyli artmış oldu, onlar cəmiyyətdə tanınan, hörmətli şəxslərə çevrildilər».

Aylar keçdi. Baş katib kürsüsünə M.S.Qorbaçov oturdu. Çoxdan təqaüdə göndərilən Tixonovun yerinə Nikolay İvanoviç Rıjkov təyin edildi. Onun Nazirlər Sovetindəki çoxsaylı qayğılarına yetim uşaqların problemləri də əlavə olundu. Şənbə günlərinin birində, Rıjkov yazıçı Lixanovu öz kabinetinə çağırdı. Albert Anatoliyeviç Lixanovun qeydlərindən yenə bir neçə sətri misal gətirək:

«Mən sənədlərlə, fotolarla, mövcud problemlər yazılmış kağızlarla dolu olan qalın qovluğu qoltuğuma vurub Nazirlər Sovetinə gəldim. Bundan əlavə, uşaqların ümumi problemləriylə bağlı kiçik bir məktub da hazırlamışdım.

Kremldəki kabinetində Nikolay İvanoviç Rıjkov məni tək yox, həyat yoldaşı Lyudmila Sergeyevna ilə birgə qarşıladı. Dedi ki, bura Stalinin həmin məşhur kabinetidir, hər şey onun vaxtında olduğu kimi saxlanılıb. Kabinet sahibi öz

xanımıyla birgə rahat olmaq üçün stolun bir tərəfində əyləşdilər, məni isə üzbəüzdə oturmağa dəvət etdilər.

Təbii ki, əvvəlcə yaman həyəcan keçirirdim. Belə görüşlər mənim həyatımda əvvəllər olmamışdı və yəqin ki, bundan sonra da olmayacaqdı. Məsələ ondadır ki, Nikolay İvanoviç kimi son dərəcə tərbiyəli, sadə və təmiz insanlara ölkə rəhbərliyində nadir hallarda təsadüf edilir.

Rıjkov dərhal dedi ki, uşaqların problemləriylə bağlı məqalələrimi oxuyub. Bundan əlavə, Heydər Əliyev də mənim barəmdə ona çox danışıb. Beləliklə, Rıjkov 1984-cü ildə yazdığım məktubdan və o vaxt hökumət tərəfindən çıxarılan qərardan xəbərdar idi.

O unudulmaz görüş həddən artıq uzun – üç saat qırx dəqiqə davam etdi. Mənim iki şəxs qarşısında çıxışım yavaş-yavaş dostyana müzakirəyə, səmimi söhbətə çevrildi. Nikolay İvanoviç müharibə dövründə işləməyə başlamasından, tələbəlik illərində çəkdiyi əziyyətlərdən danışdı. Lyudmila Sergeyevna da öz uşaqlıq illərindən danışdı. Onlar təmkinlə, tələsmədən, həmsöhbətinə ehtiramla danışırdılar və onda mən həqiqətən hiss etdim ki, biz eyni nəslin övladları, yetirmələriyik.

O vaxtlar Rıjkovun Qorbaçovla münasibəti çox yaxşı idi və sonralar öyrəndim ki, həmin görüşün ertəsi günü o, mənim barəmdə Qorbaçova danışıb. Və onlar razılaşıblar ki, yetimxanalarla, uşaq evləriylə bağlı yeni qərarın hazırlanmasına yenə də məni cəlb etmək lazımdır. Bundan əlavə, qərarın hazırlanması üçün Nazirlər Sovetinin mütəxəssislərindən ibarət kiçik bir komissiya da təşkil olundu. Komissiyaya rəhbərlik isə Heydər Əliyevin sosial məsələlər üzrə müavini Viktor İvanoviç Vlasova və mənə həvalə olundu.

O vaxt, 1987-ci ildə təşkil olunmuş Sovet (indiki Rusiya) Uşaq Fondu indiyədək fəaliyyət göstərir. Onun hesabında çoxsaylı xeyriyyə işləri, mərhəmət aksiyaları, minlərlə xilas olunmuş insan həyatı var. Bütün bunlar fondun fəaliyyətinin hələ kiçik bir hissəsidir. Amma bəla ondadır ki, yetimlə-

rin sayı yenə də gündən-günə artmaqdadır. Və indi yəqin ki, Rusiyada elə bir məmur yoxdur ki, yetim və atılmış uşaqların taleyi Çernenkonun, Əliyevin, Rıjkovun qəlbini kövrəltdiyi kimi, onları da kövrəltsin.

Azərbaycanda Heydər Əliyev Fonduna ölkənin birinci xanımı, respublikanın Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva rəhbərlik edir. Fondun çoxplanlı işi barədə ayrıca söhbət etmək istərdik. Bu Fonda Heydər Əliyevin uzun və maraqlı ömür yolu, fəaliyyətiylə bağlı böyük materiallar toplanmışdır. Hazırda elmi araşdırmalar aparılır, maraqlı saytlar açılır. Amma indi biz Fondun fəaliyyətinin yalnız bir tərəfini, yalnız uşaqlara, gələcək nəslə, onların ən zəif və yaralı hissəsi olan əlil, xəstə və yetimlərə qayğıyla bağlı gördüyü işləri qeyd etmək istərdik.

Belə problemləri həll edərkən Heydər Əliyev Fondunun işçiləri uzaqgörən, perspektivli, strateji layihələr həyata keçirirlər. Bunlardan birini sözün həqiqi mənasında təhsil üzrə ümummilli layihə adlandırmaq olar. Bu layihə kənd məktəblərinin siniflərindən başlayıb. Fondun «kənd məktəblərini yaxın gələcəkdə yüksək səviyyəyə qaldırmaq» təklifi bütün ölkədə əks-səda verib. Belə məktəblərin məzunlarından hər hansı birisə gələcəkdə Heydər Əliyev Universitetinə daxil olacaq. Bizim günlərdə – XXI əsrin ilk illərində bu Universitetin konsepsiyası hələ hazırlanmaqdadır. Amma inanırıq, çox keçməyəcək bu Universitet yaradılacaq və o, Şərq mədəniyyətində, təhsilində Qərbdə Kembric və Sarbonnanın tutduğu yeri tutacaq.

## Yaddaş və yaddaşsızlıq

1984-cü ilin iyununda Sovet Sosialist Respublikaları İttifaqının neft və qaz sənayesi müəssisələrinin tikintisi naziri Vladimir Çirskov Mossovetə Sovet Sosialist Respublikaları İttifaqının ilk neft və qaz sənayesi naziri Kortunovun ya-

şadığı mənzilin qarşısında xatirə lövhəsi vurulması barədə xahiş məktubu göndərdi. Bir ay sonra özünü paytaxtın sahibi hesab edən, Moskva Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri Promıslovdan belə bir cavab məktubu gəldi:

«Sovet Sosialist Respublikaları İttifaqı neft və qaz sənayesi müəssisələrinin tikintisi naziri V.Q.Çirskov yoldaşa:

Hörmətli Vladimir Qriqoryeviç!

Sizin A.K.Kortunovun xatirə lövhəsinin vurulması haqqında xahişinizə cavab olaraq Mossovet İcraiyyə Komitəsi bildirir ki, «Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin və Nazirlər Sovetinin 12 aprel 1983-cü il 318 №-li «1983-85-ci illər üçün memorial abidələrin və başqa artıq tikintilərin inşasına dövlətin maddi vəsaitini sərf etməmək barədə» sərəncamına əsasən direktiv orqanların icazəsi olmadan bu qəbildən olan abidə və xatirə lövhələrinin qoyulmasına icazə verilmir.

Bundan başqa, A.K.Kortunovun adı artıq əbədiləşdirilib, Novoçerkask İnşaat-Mühəndisləri İnstitutuna və Buxara Qaz Sənayesi Texnikumuna onun adı verilib. Qəhrəman nazirin xatirəsi artıq əbədiləşdirildiyi üçün bir də paytaxtı narahat etməyin».

Dövlətin xəzinəsini gör necə qoruyurlar? Artıq bircə qəpik də xərcləmək olmaz.

Xoşbəxtlikdən hökumətdə paytaxtın işlərini, konkret olaraq Promıslovun səhvlərini düzəldə bilən bir adam vardı. Daha bir sənədi də nümunə gətirək:

«Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin müavini Heydər Əliyev yoldaşa.

*18.02.1982.*

Sovet Sosialist Respublikaları İttifaqının ilk neft və qaz sənayesi naziri, Sovet İttifaqı Qəhrəmanı A.K.Kortunovun xatirəsinin əbədiləşdirilməsi üçün Sizdən xahiş edirik ki, Moskva XDS İcraiyyə Komitəsinə sərəncam verəsiniz ki,

onun 1956-73-cü illərdə yaşadığı Qorki küçəsi 8 ünvanda xatirə lövhəsi vurulsun.

A.K.Kortunov 1941-ci ilin avqustundan Böyük Vətən müharibəsinin cəbhələrirdə olub. Alman-faşist qəsbkarları ilə döyüşlərdə göstərdiyi mərdlik və qəhrəmanlığa görə ona Sovet İttifaqı Qəhrəmanı adı verilmiş, 4 dəfə Lenin ordeni, iki dəfə Qırmızı Əmək Bayrağı ordeni, III dərəcə Suvorov və Aleksandr Nevski ordenləri, çoxlu medallarla təltif edilmişdir.

1948-ci ildə Sovet Ordusu sıralarından tərxis olunan A. Kortunov xalq təsərrüfatında rəhbər vəzifələrdə çalışmışdır. Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti yanında Baş Neftqaztikintinin Tuymarinsk ərazi tikinti idarəsinin rəisi, Baş Cənubneftqaztikintinin, Baş Neftqazsənayetikintinin rəisi, neft sənayesi müəssisələrinin tikintisi nazirinin müavini olub.

1955-ci ildə neft sənayesi müəssisələrinin tikintisi naziri təyin olunub, sonra Başqazın rəisi – Sovet Sosialist Respublikaları İttifaqı naziri, qaz sənayesi üzrə Dövlət İstehsalat Komitəsinin sədri – Sovet Sosialist Respublikaları İttifaqı naziri, Sovet Sosialist Respublikaları İttifaqı qaz sənayesi naziri, 1972-ci ildən ömrünün sonuna qədər isə Sovet Sosialist Respublikaları İttifaqı Neft və Qaz Sənayesi Müəssisələrinin Tikintisi naziri vəzifəsində çalışıb.

Sovet İttifaqı Kommunist Partiyasının XXII, XXIII, XXIV qurultaylarında A.Kortunov Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü seçilib, altıncı, yeddinci və səkkizinci çağırış Sovet Sosialist Respublikalar İttifaqı Ali Sovetinin deputatı olub.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin ağır sənaye və energetika şöbəsi də Kortunovun Moskvada yaşadığı evin qarşısına xatirə lövhəsi vurulmasına tərəfdardır. V.Q.Çirskov».

Bu məktubu oxuduqdan sonra Sovet Sosialist Respublikalar İttifaqı Nazirlər Soveti sədrinin birinci müavininin

hansı hisslər keçirdiyini demək çox çətindir. Amma dəqiq məlumdur ki, bu məktubu oxuyan Heydər Əliyev köməkçilərindən nəyə görə Mossovetin özünün bu məsələni həll etmədiyini soruşub. Ona Promıslovun cavab məktubunu göstəriblər. 1985-ci il aprelin 23-də Heydər Əliyev Sovet Sosialist Respublikalar İttifaqı Nazirlər Sovetinin sərəncamını imzalayır: Moskva şəhəri, Qorki küçəsi 8 (indiki Tverskaya – müəl.) ünvanına A.K.Kortunovun xatirə lövhəsi vurulsun».

Moskvaya gələn hər bir insan istər-istəməz şəhərin yaradıcısı olan knyaz Yuri Dolqorukinin abidəsi önündə ayaq saxlayır. Atlı knyazdan azca aralı «Araqvi» restoranı və Azərbaycan Beynəlxalq Bankının şöbəsi yerləşir. O biri tərəfdə isə gecəyarıya qədər işləyən və moskvalıların çox sevdiyi «Moskva» kitab mağazası var. Bir az aşağıda isə həmin memorial lövhə vurulub: «Bu evdə 1956-1973-cü illərdə neft və qaz sənayesi müəssisələri inşaatının təşkilatçısı, Sovet İttifaqı Qəhrəmanı Aleksey Kiriloviç Kortunov yaşayıb».

Heydər Əliyev mavi gözlü bu gözəl insanı yaxşı tanıyırdı və hətta bir görüşündə ona Nazim Hikmətdən məşhur bir misranı da oxumuşdu: «Mavi gözlü bir pəhləvan vardı». Həm İttifaq miqyaslı tədbirlərdə, həm də Azərbaycana səfərləri zamanı onunla yaxından tanış olmuşdu və Heydər Əliyev onun strateji baxışlarını, özünü bütün varlığı ilə işinə həsr etməsini, sadəliyini yüksək qiymətləndirirdi. Belə insanları məgər unutmaq olarmı?

## BAM onun qəlbində yurd salmışdı

Dəmiryol nəqliyyatı gündən-günə yeniləşməkdə, təzələnməkdəydi. İyirminci əsrin ən böyük nəqliyyat tikintilərindən olan Baykal-Amur magistralınm tikintisi davam etməkdəydi. Sakit okeana aparıb çıxarmalı olan ikinci magistral xətt üç min yüz əlli kilometr idi və bu xəttin yan-yörəsində stansiyalar, qəsəbələr, şaxtalar, fabriklər, şəhərlər, meşə təsərrüfatları yaradılırdı.

1984-cü il iyulun 5-də Mərkəzi Komitənin Siyasi Bürosu yoldaş Heydər Əliyevin «Baykal-Amur magistralının tikintisindəki bəzi problemlərlə bağlı» məruzəsini dinlədi.

Qeyd edildi ki, ümumilikdə magistralın tikintisi yüksək sürətlə davam edir. Sərt təbii-coğrafi şəraitə baxmayaraq, böyük həcmli iş görülmüş, çoxsaylı körpülər, tunellər və başqa tikililər inşa edilmişdir. İnsan ayağı dəyməyən bir çox ərazilərdə yeni yaşayış massivləri, qəsəbələr, şəhərlər salınır. Bütün bunlar fəhlə və mühəndis-texniki heyətin, yerli partiya, komsomol, həmkarlar ittifaqı təşkilatlarının birgə və məqsədli fəaliyyəti, digər respublika, vilayət zəhmətkeşlərinin məqsədyönlü fəaliyyətinin nəticəsidir.

Həmin il, yəni 1984-cü ildə tikintinin kollektivi Böyük Oktyabr inqilabının altmış yeddinci ildönümünə – bu böyük bayrama qədər magistralın əsas dəmiryol xəttinin açılacağına və vaxtından bir il əvvəl bütün magistral boyu qatarların hərəkətə başlayacağına söz veriblər.

Diqqət yetirək: 1984-cü ilin noyabrı. Əliyevin məruzəsinə görə Siyasi Büro qeyd edir ki, «...vaqon-lokomotiv təsərrüfatlarının, trassın mühəndis təminatının, yaşayış sahələrinin, uşaq müəssisələrinin, xəstəxanaların, ticarət müəssisələrinin, ictimai iaşə obyektlərinin tikintisi çox ləng gedir».

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu məsul nazirlik və müəssisələrin rəhbərlərinə sərt şəkildə tapşırıq verdi ki, Baykal-Amur magistralının istifadəyə verilməli olan obyektlərinin vaxtında tikilib qurtarmasını təmin etsinlər.

1984-cü il sentyabrın 30-da qəzetlər BAM-dakı qarşı-qarşıya gələn xətlərin birləşdirilməsi barədə xəbər verdilər. «Sosialistiçeskaya industriya» qəzeti qürurla car çəkirdi: «Baykaldan Amura qədər dəmiryolu artıq tikilib qurtardı. Ümumittifaq zərbəçi gənclər tikintisinin tacı qoyuldu. Dünən Balbuxta keçidində şərqdən və qərbdən bir-birinə tərəf gələn yol montyorları Aleksandr Bondarm və İvan Varşavskinin briqadaları 3150 kilometrlik magistral yolu

birləşdirməyə müvəffəq oldular. Həm də vaxtından bir il əvvəl».

Reportyor yalan demirdi. Həqiqətən də, Tayqada, adı çəkilən keçid məntəqəsində şərqdən və qərbdən çəkilən relslər bir-birinə qovuşmuşdu. Telekameralar son halqanın – «qızıl halqa»nın necə qaynaq edildiyini çəkmişdilər.

Amma heç kim demədi ki, Şimali Muysk tuneli hələ də hazır deyil. Oradan dolama yol çəkilirdi. Layihəçilər və tədqiqatçı-mühəndislər səhv etmişdilər: yolu sərt qayalara istiqamətləndirmişdilər. Yeraltı çay inşaatçıların yolunu kəsmişdi. Dünyanın heç bir tuneli Severo-Muysk tuneli qədər yüksək vəzifəli rəis görməmişdi. Nazirlər, partiya işçiləri, alimlər gəlib bu obyektə baxmışdılar. Tuneldə qəzanın baş verməsi xəbəri gələn kimi ilk olaraq Heydər Əliyev, nəqliyyat naziri Nikolay Semyonoviç Konarev, Dövlət Plan Komitəsinin sədr müavini Viktor Yefimoviç Biryukov hadisə yerinə gəlmişdilər. Qeyd edək ki, Biryukovun o vaxt artıq yetmiş iki yaşı vardı, lakin bu hündür, gümrah insanın ardınca onun nisbətən gənc həmkarları özlərini güclə çatdırırdılar.

Həmin unudulmaz ezamiyyətdən artıq iyirmi ilə yaxın vaxt keçir. Biryukovun indi doxsandan çox yaşı var, amma o hələ də detalların təsvirində əvvəlki kimi dəqiqdir, heç nəyi yadından çıxarmayıb.

...İrkutskdan Şimali Muyska qədər onlar xüsusi qatarda gəlmişdilər. Heydər Əliyev Siyasi Büro üzvü kimi xüsusi vaqonda, nümayəndə heyətinin o biri üzvləri isə ikinci vaqonda gəlirdilər. Səhər erkən əynində idman geyimi olan Biryukov qatardan çölə çıxır.

– Dünən otlar yaşıl idi, bu gün isə gümüşü rəngə çalır. Ay dad, deyəsən, qar yağıb axı. Özü də avqust ayının ortasında, – o, gənclərə məxsus ruh yüksəkliyi ilə dillənir.

Qonşu vaqondan Əliyev də idman geyimində çıxır.

– Heydər Əliyeviç, – deyə Biryukov üzünü ona tutur. Əks-səda ətrafa yayılır. – Gəlin, çatın!

– Gəlirəm! – Əliyevin cavabı eşidilir.

Xoşbəxt əhval-ruhiyyədə olan bu iki sağlam, gümrah kişi ətir saçan otların, günəşin ilk şüalarının, tayqa sakitliyinin gözəlliyindən təsirlənərək cığır boyu yavaş-yavaş qaçmağa başlayırlar.

Sonra isə hər iki tərəfdə selovlarda guruldayan dağ sularının səsi altında tunel boyu üç kilometrlik keçid. Bir müddət sonra Nazirlər Sovetinin sədri Nikolay Rıjkov da bu tunelə baş çəkmişdi və marşrutu obrazlı şəkildə belə təsvir etmişdi: «Sanki gur şəlalənin içiylə gedirsən».

Məhz Heydər Əliyevin xüsusi vaqonunda çağırılan iclasda ilk dəfə dolama yolla dəmiryolu çəkmək təklifi səsləndirildi. Əks halda yolu qapamaq mümkün deyildi. Nikolay Semyonoviç Konarev həmin unudulmaz günlərə qayıdanda, indi də həyəcanlanır:

– Keçirdiyimiz ən kəskin hiss təəssüf hissi idi. Axı, bu niyə belə oldu? Niyə qəza baş verdi? Minlərlə insanın çəkdiyi zəhmət hədər getdi. İndi də təcili olaraq yeni çıxış yolu tapmaq lazımdır. Yoxuşun hündürlüyü on iki metrdən artıq olanda bu yerdə dəmiryol xətti çəkməyə icazə verilmir, – deyə bir mütəxəssis kimi Konarev işin incəliklərini izah edir. – O vaxtın normativlərinə görə bu rəqəm ən yuxarı hədd kimi götürülürdü. Şimali Muysk tunelinin ətrafında çəkiləcək dolama yolda isə yoxuş on səkkiz metr idi. Çox mübahisələrdən, müzakirələrdən sonra dəmiryolunun çəkilişinə icazə verildi.

Əliyev də yerində məsələdən hali olandan sonra Konarevin dolama yol çəkmək təklifini qəbul etdi. Lakin son qərarı hökumət verməliydi. İşlərin böyük miqyasını nəzərə alan hökumət başçısı Nikolay Rıjkov özü hadisə yerinə baş çəkməyi qərara aldı. O da hər şeyi öz gözüylə görəndən sonra dolama yolun çəkilməsi təklifi ilə razılaşdı. Tuneldə isə işlər daha iyirmi il davam etdirildi.

Tunelin inşaatçıları ilə xudahafizləşən xüsusi vaqonun sərnişinləri şərq istiqamətinə yol aldılar. Yeni stansiyalar, tikililər, sexlər...

Həmin qatarda çəkilmiş şəkillərdən birində belə bir qeyd var: «BAM. Urqal stansiyası ilə tanışlıq. Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev. 1984-cü il».

Heydər Əliyev adamların arasındadır, açıq rəngli pencəyinin yaxalığında deputat nişanı parıldayır. Dəmiryol qoşunlarının rəisi general Koqatko Heydər Əliyevə böyük bir albom bağışlayır. Yəqin ki, bu albomda Urqal şəhərini, burada tikintilərin necə başlanmasını əks etdirən şəkillər toplanmışdı. Dəmiryolçu paltarında olan Konarev və kənardakı adamlar əl çalırlar. Arxa planda sərnişin vaqonu görünür.

On il əvvəl bura, o vaxt adı olmayan bu stansiyaya Donbassdan eyniadlı «Donbass» qatarı gəldi. Sonra daha dörd qatar yanaşdı. Onlar tikinti materialları, kranlar, maşınlar və mənzil, elektrostansiya, klub tikmək üçün digər avadanlıqlar gətirmişdilər. Sənədlərə görə vaqonlarda ümumi çəkisi on üç min ton olan avadanlıq vardı. Deməli, gələcək şəhər təkərlərin üstündəydi. Bir azdan burada evlər, küçələr peyda oldu. İlk küçəyə ukraynalı kommunist Artyomun adı verildi. Eynən Donetskdə olduğu kimi.

Heydər Əliyev BAM səfəri zamanı hər addımda yeni salınmış şəhərlər, qəsəbələr görürdü. Bu yaşayış məntəqələrini İttifaq respublikaları, vilayətləri öz maddi vəsaitləri, canlı qüvvələri hesabına tikdirmişdilər. Niyu şəhərini Gürcüstan, Olekmu şəhərini Tacikistan, Eterkanı Moldaviya, Duqda stansiyasını Volqoqrad vilayəti... Əlbəttə ki, Azərbaycanın da BAM-da öz şəhəri vardı. Magistralın qərb sahəsinin iki yüz on kilometrliyindəki Ulkan şəhəri Azərbaycanın hesabına tikilmişdi. Orada, uzaq tayqa vilayətində, sürətlə axan Kirenqa çayının sahilində gözəl bir şəhərcik salınmışdı: səliqəli evlər, məktəb, uşaq bağçası, tibb məntəqəsi, ictimai ticarət obyekti və s... Heydər Əliyev hələ Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində işləyərkən bu tikintini ciddi nəzarətdə saxlayırdı. Məhz o, təklif etmişdi ki, vağzalın və bir neçə başqa tikilinin

layihələri çəkilərkən Azərbaycan memarlığının elementlərindən istifadə olunsun.

İndi bu uzunmüddətli və ağır ezamiyyət zamanı Heydər Əliyev qəlbən yüksək iftixar hissi keçirirdi. Düzdür, qarşıda görüləsi işlər hələ çoxdur, amma artıq görülmüş işlərə nəzər salanda, bu işdə iştirak etmiş hər bir insanda fəxarət və qürur hissi yaranırdı.

Qayıdanbaş nümayəndə heyəti Moskvaya Vladivostokdan uçdu. Siyasi Büronun üzvünə İL-62 təyyarəsində ayrı salon təşkil olunmuşdu. Lakin Heydər Əliyev hər yerdə özünü başqalarından üstün tutmağı sevən lovğa məmurlardan deyildi. O, yanına çağırdığı bir neçə həmkarı üçün stol açmağı xahiş etdi.

– Deməli belə, yoldaşlar, bu gün mən tamada olacam. Viktor Yefımoviç Biryukovun söylədiyinə görə, həmin gün Heydər Əliyev onların hər biri haqqında deməyə xoş və isti sözlər tapdı.

Heydər Əliyev hökumətin ən kiçik məmurları ilə belə ünsiyyət qurmağı, onları dinləməyi bacardığı üçün hamının qəlbində özünə qarşı isti və səmimi münasibət oyatmışdı. Ölkənin regionlarına səfərləri zamanı bu nüfuzunu və etibarını daha da artırırdı. Baykal-Amur magistralına səfəri zamanı baş vermiş bir hadisə artıq bütün ölkəyə yayılmışdı. Şəhərlərin birində gəzərkən vətəndaşlardan biri mühafizəçilərin gözündən yayınaraq, dövrəni yardı və Əliyevə öz xahişini çatdırdı. Məlum məsələdir ki, bundan dərhal sonra mühafizə orqanları bu adamı saxlamışdılar. Heydər Əliyev şam yeməyi zamanı yerli məmurlara üz tutub deyir: «Siz o kişini buraxın, getsin evinə». Və ağıllı, bəsirətli və həyatı bilən insanın şöhrəti bütün ölkədə dastana çevrildi.

...Bir neçə onillik keçib getdi. Azərbaycanın paytaxtında iyirmi dörd ölkənin dəmiryol idarələri rəhbərlərinin böyük müşavirəsi keçirilirdi. Azərbaycan Prezidenti Rusiyanın nəqliyyat naziri Nikolay Aksyonenkonu qəbul edirdi. Birgə layihələr müzakirə olundu, Rusiyanın dəmiryollarında

vəziyyət barədə danışıldı, Baykal-Amur Magistralının adı çəkildi. ...Necə bilirsiz, Baykal-Amur magistralı haqqında son məlumatları eşidən Heydər Əliyev həmsöhbətindən nə barədə soruşdu? Əlbəttə ki, həmin tunel barədə.

– BAM-dakı o tuneli təmir edə bildilərmi?

– Bu il martın 30-da xətti birləşdirmişik (görüş 2001-ci ilin iyun ayında baş vermişdi). İlin axırınacan yolu yoxlayıb sonra qatarları buraxacağıq. Yaddaqalan tarixdir, artıq iyirmi beş il keçib.

– Mən orada olmuşam, – deyə Heydər Əliyev xatırladı. – Həm şərq, həm də qərb tərəfın gəzmişəm. O vaxt on beş kilometrlik tunelin hər iki tərəfindən cəmi üç-dörd kilometri qazılmışdı. Mən gedəndə orada heç avtomobil yolu da yox idi.

Şərqdən və qərbdən üç kilometrlik yol dizə qədər suyun, palçığın içindəydi. Bura magıstralın ən çətin sahələrindon idi. Adi yol üçün on beş kilometr nədir ki? Heç nə. Baxın, BAM 1974-cü ildə tikilməyə başlayanda plan üzrə on il vaxt ayrılmışdı. Mən 1984-cü ildə, on il sonra oraya getmişdim. Düz on gün BAM-da oldum. Moskvadan Bratska dəmiryoluyla, oradan isə Vladivostoka, Naxodkaya qədər getdim, bütün stansiyalara baxdım. Bəli, on beş kilometr adi tunel üçün bir o qədər də böyük məsafə deyil. Amma orada təbii şərait çox mühüm şərtdir. Mən dəfələrlə komissiyanın iclasını çağırdım. Orada çoxlu mütəxəssis, seysmoloq, akademik vardı. Bəziləri deyirdi ki, gəlin, tikintini dayandıraq, ora yüksək aktivliyi olan seysmik zonadır. Deyirdilər ki, tuneli tiksəniz də əvvəl-axır dağılacaq.

– Bu tikinti bütün dünya üçün yaxşı bir dərs oldu, – deyə Nikolay Aksyonenko əlavə etdi. – Orada hər yerdən qonaqlar olurdu, Amerikadan, Yaponiyadan... Tunellərin qazılması üçün unikal texnologiyalar kəşf edilib. Biz qoyulan məqsədi yerinə yetirə bildik.

– Təbrik edirəm. Bu işdə mənim də zəhmətim olub.

O adam xoşbəxtdir ki, belə böyük yolların, belə nəhəng tikintilərin inşaatı barədə danışılanda fəxrlə «Orada mənim

də zəhmətim var» deyə bilir. Bu, yaradıcı insanların hüququdur. Dünya isə Heydər Əliyevin təbirincə desək, öz varlığına və inkişafına görə məhz yaradıcı insanlara borcludur.

Əslində, Heydər Əliyeviç «Orada mənim də zəhmətim var» deməklə, olduqca böyük təvazökarlıq edirdi. Çünki, Heydər Əliyeviç Baykal Amur magistralının sayəsində işə düşdüyü və bu gün belə Rusiyanın nəhəng nəqliyyat arteriyalarından birinə çevrilməsində misilsiz xidmətləri olan şəxsiyyətlərdən biridir. Bunu, vaxtı ilə bu insanla o nəhəng tikintidə olmuş Rusiyanın ən sadə adamları belə yaxşı xatırlayırlar.

Onlardan biri, çox-çox sonralar artıq müstəqil Azərbaycanın Moskvadakı səfirliyinə gəlib Heydər Əliyeviçlə bağlı son dərəcə unikal fotoşəkilləri və bu şəkillərin plyonkalarını təklif etmiş, əvvəllər İrkutsk şəhərində çalışmış, sonralar isə Nijni Novqoroda köçmüş fotoqraf Valeri Qriqoryeviç Karasyovdur.

Karasyov o zaman İrkutskda yerli qəzetlərin birində çalışırdı. Belə bir fotojurnalistin 1984-cü ildə Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü Heydər Əliyeviçlə səfərə çıxması sırf təsadüfdən baş vermişdi. Karasyov heç zaman unutmadığı həmin tarixi günləri belə xatırlayır:

«...Adətən gənclər özlərini göstərmək üçün imkanlar axtarırlar. Bizim gənclik illərində də özünü göstərmək istəyənlər Baykal Amur magistralına yollanırdılar. Bu tikinti çoxlarına ad, şan-şöhrət, çoxlarına xoş xatirələr verdi. Mənə isə bir jurnalist olaraq yüksək dövlət vəzifələrində çalışan görkəmli adamlarla görüşmək fürsəti verdi. Bu görkəmli adamlardan biri Heydər Əlirza oğlu Əliyev idi.

...Ust-Kutdan Vladivastoka qədər olan bütün bu səfəri çəkmək mənə sırf təsadüfdən nəsib oldu: Sover İttifaqı Teleqraf Agentliyinin müxbiri Heydər Əliyevin təyyarəsinə gecikmişdi. Orada olan qəzetimizin rəhbərliyi mənə müra-

ciət etdi: «Siz bizimlə gedə bilərsinizmi?" Mən razılaşdım. Beləcə bu komandaya düşdüm. Bu neqativlər artıq 20 il olar ki, məndədir. Bu il Moskva Dövlət Universitetinə qəbul olunmuş nəvəmlə Moskvaya gəldim. Azərbaycan səfirliyinə gedərək dedim: «Məndə Heydər Əlirza oğlu Əlyevlə, Baykal Amur magistralında olduğum vaxt çəkdiyim onlarla neqativ var». Onlar dərhal maraq göstərdilər və mən bu neqativləri səfirliyin mülkiyyətinə verdim. Əgər onlar bunları cəmiyyətə təqdim edərlərsə, düşünürəm, bu, Heydər Əliyeviçin ruhuna ən gözəl hədiyyə olar.

Dövlət xadimi, çox maraqlı insan, son dərəcə diqqətcil, qulaq asmağı bacaran, məsuliyyətli məqamlarda, bir jurnalist kimi məni belə heyrətə salan, mühüm və düzgün qərarlar qəbul etməyi bacaran şəxsiyyət. İclasların birində belə sual ortaya çıxdı- relslər birləşdi, bəs indi neynəyək? Minlərlə insan sarbəst qaldı. Heydər Əlirzaoğlu deyir: «Gəlin, bizdə olan bütün qüvvələri, texnikanı toplayaq və tikintini şimala, Yakutyaya tərəf davam etdirək». Müəyyən müddətdən sonra tikinti Berkakitə, oradan Yakutiyaya davam etdirlməyə başlandı. İndi artıq bu yol işləyir. Mən hesab edirəm ki, bu, məhz Heydər Əliyevin müdrik qərarının nəticəsidir.

Bu gün biz neftin hesabına yaşayırıq. Bizim gələcəyimiz isə Baykal Amur magistralının hesabına yaşayacaq. Orada hər şey var: neft, qaz, tamamilə üzdə olan mis yataqları... Nə yaxşı Baykal Amur Magistralının qurulmasında iştirak etmişəm. Dövlət komissiyasının sədri Heydər Əliyeviç olduğu üçün onun müdrik qərarları bu işdə müstəsna rol oynamışdır».

Karasyovun səfirliyə təqdim etdiyi neqativlərdən Moskvadakı "Ukrayna" mehmanxanasının konfrans zalında "Heydər Əliyev. Naməlum fotoşəkillər" adlı fotosərgi düzənləndi. Yüzlərlə Əliyevsevərin iştirak etdiyi həmin sərgidə Rusiya Humanitar Dövlət Universitetinin rektoru tarix elmləri doktoru Yefim Pivovar sərgidəki çıxışında de-

yir: “Bu, mübahisəsiz, qeyri-adi insan, Azərbaycan xalqının ümummilli lideri olan Heydər Əlirza oğlu Əliyev haqqında nə qədər çox öyrəniriksə, bir o qədər çox bu şəxsiyyətin tarixdəki çoxşaxəli fəaliyyətinin şahidi oluruq. Fotosənədlər həmişə tarixi təhlilin mühüm elementlərindən biri olub. Heydər Əliyeviç Azərbaycanin dövlət rəhbəri kimi öz fəaliyyətinin bütün mərhələlərində müstəsna rol oynayıb. Ancaq o Sovet İttifaqının, bütün ölkənin tarixində də çox böyük rol oynayıb. Bu fotoşəkillər həmin usanmaz, səmərəli fəaliyyətin daha bir sübutudur. O zaman görülən işlərin istənilən kimi alınmaması onun günahı deyildi. Bu insan öz əməyi və öz fəaliyyəti ilə çalışırdı ki, hər şey yaxşı alınsın. Bu fotoşəkillər, bizim böyük ölkəmizin müxtəlif guşələrində onun insanlarla görüşləri bunun daha bir sübutudur. Fəaliyyət və əməyin bu fotosalnaməsi bizi bir daha dövlətin lideri kimi onun fəaliyyətinə, o dövrə qaytarır. Bu təcrübə sonradan Əliyeviçin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə lazım gəldi. Dövlətin başında olkəsinə rəhbərlik etməkdə, öz xalqını başa düşməkdə son dərəcə böyük təcrübəsi olan insan durdu. Çox nadir hallarda olur ki, hakimiyyət sükanının arxasında təkcə bu ölkədə deyil, bütün dünyada böyük təcrübəsi olan insan durur. Bu cəhətdən Azərbaycanın bəxti gətirdi ki, onun belə lideri var idi. Bu xətti indi onun oğlu davam etdirir və bu da çox vacibdir. Mənə elə gəlir ki, uğurların təməlində duran elə budur.”

* * *

Baykal-Amur magistralı, Sovet Sosialist Respublikaları İttifaqının, indi isə Rusiyanın mühüm strateji obyekti, Avrasiya məkanını Sakit okeanla birləşdirmək məramı ilə tikilən dəmiryol nəqliyyat xəttidir. Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini kimi Heydər Əliyev bu tikintinin icrasına nəzarət edirdi. 4324 kilometr dəmiryol xətti, onlarla çayın üzərindən salınmış 2230 körpü, 200 dəmiryol stansiyası, nəqliyyat xətti boyu şəhərlər

və qəsəbələr. Ancaq Baykal-Amur magistralı, Sovet Sosialist Respublikaları İttifaqının bütün nəqliyyat şəbəkəsinə nəzarət etmək tapşırılan Heydər Əliyeviçin vəzifələrindən biri idi. O sərnişin biletlərinin yeni avtomat satışı sistemini tənzimləsinə, vaqonların reyslərə hazırlanması vəziyyətinin yaxşılaşdırılmasına, yolda sərnişinlərə yarıtmaz xidmətlə mübarizə aparmağa məcbur oldu. Heydər Əliyeviçlə işləmiş adamlar, onun bu sahədə kreativ, mürəkkəb, bəzən populyar olmayan və riskli qərarlar qəbul etdiyini qeyd edirlər. Nəsillər bu gün də onun idarəçiliyini qiymətləndirirlər. Məhz ona görə də 2008-ci ildə Anqo şəhərində BAM-ın nəhəng stansiyalardan birinə Heydər Əliyevin adı verildi.

Biz Əliyevin nəqliyyatdan başqa məşğul olduğu o biri sahələr – təhsil, səhiyyə, yaxud kinematoqrafıya barədə də ətraflı məlumat verə bilərdik. Qeyd edək ki, kinematoqrafiya ilə Heydər Əliyev şəxsən Andropovun tapşırığı ilə məşğul olurdu. – Mən diqqətli adamam, bir işlə məşğul olmağa, hər hansı bir sahə üzrə sənədlər hazırlamağa başlamamışdan əvvəl həmin sahəni dərindən, hərtərəfli öyrənməyə çalışıram. Düzdür, mənim kinematoqrafiyadan xəbərim vardı, amma onun maddi-texniki bazasını və başqa incəliklərini də öyrənmək lazım idi, – Heydər Əliyev öz «kinoepopeyasını» belə xatırlayırdı: – Kino xadimləriylə sərəncamın layihəsi hazırlanana qədər çoxsaylı görüşlər keçirtdim. Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Kinematoqrafıya Komitəsinin sədri Yermaşa dedim ki, sən öz yanında ölkənin ən tanınmış kinematoqrafçılarını topla, mən də bu iclasda iştirak edəcəm. Bu, 1984-cü il idi... Biz bir neçə saat ərzində söhbət etdik. Sonra isə birlikdə o dövr üçün fundamental olan bir sənəd layihəsini hazırladıq – Sovet Sosialist Respublikaları İttifaqı kinomatoqrafıyasının inkişafı proqramı məhz o vaxt qəbul olunmuşdu.

...Bəli, onun bütün işlərə bu cür xüsusi, diqqətlə yanaşma xüsusiyyəti vardı. Kremldə məhz belə usta adamlar çatışmırdı.

İndi Şimali Osetiyanın prezidenti olan, həmin dövrlərdə Kremlin palatalarından keçmiş, necə deyərlər, oddan-sudan adlamış Aleksandr Dzasoxov Heydər Əliyevin Kremldəki illərini belə qiymətləndirir: «Qafqaz XX əsrdə bizim dövlətimizin tarixi üçün çoxlu görkəmli şəxsiyyətlər verib və onların parlaq nümayəndələrindən biri Heydər Əliyevdir. Biz Əliyevin yeni imkanlarını, onun çox böyük potensiala malik olduğunu aydın gördük.

İllər gəlib keçir, zaman çox şeyi dəyişir, ancaq Heydər Əliyev şəxsiyyətinə maraq azalmır, əksinə daha da artır. Onu hər yerdə tanıyırlar –Sibirdə də, Uralın o tayında da, Şimalda da və Qafqazda da.

Rusiyanın özündə bir vaxtlar keçmiş sovet respublikaları ilə əməkdaşlıq məsələlərinə dar çərçivədə və pessimizmlə yanaşanda, Əliyev bunu qıcıqlanmadan, səbirlə qəbul edirdi. Ancaq onun perspektivə baxışı, dözümü və siyasi mədəniyyəti kifayət qədər idi. O başa düşürdü ki, 1990-cı illər arxada qalacaq, hər şey öz axarına düşəcək. Heydər Əliyev, Sovet Sosialist Respublikaları İttifaqı dağılandan sonra meydana gəlmiş dövlətlərin bəzi yeni liderlərindən fərqli olaraq, böyük səbr nümayiş etdirirdi. O tarixi şəxsiyyət oldu və Rusiya-Azərbaycan münasibətlərini qoruyub saxlaya bildi».

## Əbədi parlayan ulduzun şöləsi

*(məncə belə daha azərbaycanca səslənir)*

İndi isə əziz oxucu, biz sizə Heydər Əliyevin həyatının ən ağır günlərindən biri haqqında danışmaq istəyirik. 1985-ci il aprelin 17-də Heydər Əliyev, oğlu İlham, qızı Sevil və yaxınları Zərifə Əliyevanı dəfn edirdilər.

Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü və Nazirlər Sovetinin sədr müavini seçiləndən sonra, o, Moskvaya tək gəlmişdi. Zərifə xanım hələlik Bakıda qalıb elmi araşdırmalarını tamamlamaq niyyətindəydi.

İndi artıq uzaq keçmişdə qalmış Böyük Vətən müharibəsindən əvvəlki illərdə Zərifə xanım Moskvanı Heydərdən əvvəl görmüşdü. Ucqar Naxçıvanda yaşayan Heydər Əliyev üçünsə Sovet Sosialist Respublikaları İttifaqının paytaxtını görmək hələ əlçatmaz bir arzu olaraq qalırdı. Zərifənin valideynlərinin imkanları daha böyük idi və onlar öz qızlarını Moskvaya, dostlarının yanına göndərmişdilər. Zərifə xanım Moskvadan böyük və xoş təəssüratlarla qayıtmışdı, gözəl saçlarına isə zərif bir özbək araxçını bərkidilmişdi. O vaxt onun cəmisi on altı yaşı vardı, həyat hələ qarşıdaydı.

– Moskvanı mən o vaxt özümçün kəşf etmişəm, – Zərifə zarafatla ərinə deyirdi. – İndi isə növbə sənindir.

Zərifə xanım Leninqrada, O.P.Dobromıslovaya yazırdı:

«Mən hələ Bakıda qalıram. Öz işimi, böyük əziyyətlə yaratdığım laboratoriyanı atmaq istəmirəm. Orada bu saat çox faydalı işlər görülür. Bir çox işlərim yarımçıq qalıb, onları heç kimə etibar edə bilmərəm, gərək özüm yekunlaşdırım».

Başqa bir məktub: «Mən hələ də Bakıdayam. İli başa vurub sonra Moskvaya getmək istəyirəm. Bütün ailəmiz artıq oradadır. Uşaqlar üçün və nəvəm üçün yaman darıxıram».

30 yanvar 1985-ci il. Məktub Moskvadan yazılıb:

«Artıq Moskvaya gəlmişəm. Məni çox yaxşı qarşıladılar. İşlə bağlı sərfəli təkliflər çoxdur, amma hələ qəti qərar qəbul etməmişəm... Düşünməyə hələ vaxt var». Vaxt isə qısalırdı, Zərifə xanımın ölümünə iki il yarım qalırdı.

O, tibb elmləri doktoru, professor Z.M.Skripniçenko ilə birgə elmi araşdırmalarla məşğul olmağa hazırlaşırdı. Növbəti görüş 1984-cü ilin qışında dövlət bağlarında oldu. «Onun xəstə halını, solğun bənizini görəndə adamın ürəyi sıxılırdı. Hərçənd onun davranışı, əhval-ruhiyyəsi qətiyyən sürətlə yaxınlaşan faciədən xəbər vermirdi. Bakı Məişət Kondisionerləri zavodundakı araşdırmalardan iftixarla danışırdı... Maraqlı söhbətə yalnız arabir fasilə verilirdi və Zərifə xanım məni artıq xeyli artmış ailə üzvləriylə tanış edirdi. Onun danışığında, davranışında sonsuz hərarət və sevgi

hiss olunurdu. Sevil cazibədar balaca Zərifədən sonra daha bir oğul dünyaya gətirmişdi, İlhamın xanımı Mehriban isə onlara bir qız nəvəsi bəxş etmişdi. Körpəsini qucağında tutan Sevil nəvazişlə anasına baxır və gözlərindəki narahatçılığı gizlətməyə çalışırdı, balaca Zərifə isə nənəsinin yanından çəkilmək istəmirdi. Moskvadan gələn İlham hamıdan əvvəl anasını çox böyük nəvazişlə salamladı. Düzdü, evdə narahatlıq hiss olunurdu, amma heç kəs Zərifənin səhhətinin belə çıxılmaz vəziyyətə düşəcəyini ağlına gətirmirdi».

Onlar sabah yenidən yığışıb müzakirələri davam etdirmək fikrindəydilər, amma ertəsi gün Zərifə xanımı xəstəxanaya apardılar. Bu, onların son görüşü oldu.

Professor Skripniçenko Zərifə xanımın məzarının üstünə gələ bildi.

– Onun məzarı üstündə kədərlə düşünürdüm ki, dostlarımı itirməyi həyat mənə lap çoxdan, hələ Böyük Vətən müharibəsinin cəbhələrində öyrətməyə başlamışdı, amma buna adət etmək mümkün deyil. İllər keçdikcə hər yeni itkinin ağrısını daha da bərk hiss edirsən.

O uzaq cəbhə illəri məni bir şeyə vərdiş etdirib: əgər dostun həyatdan gedibsə, yubanma, əvvəl görməyə macal tapmadığın işi indi başa çatdır. Onun üçün də Zərifə xanımın son arzusunu yerinə yetirməyi, birgə yazdığımız kitabı bitirib onun işıq üzü görməsini təmin etməyi özümə borc bildim. Və əlimdən gələni etdim ki, bu böyük zəhmət hədər getməsin, geniş oxucu kütləsi və mütəxəssislər Zərifə xanımın bu kitabdakı fikirləriylə tanış ola bilsinlər.

Professor Skripniçenko sözünün üstündə durdu.

– Həkim olduğuna görə Zərifə xanım xəstəliyinin nə qədər ağır olduğunu yəqin ki anlayırdı. Həkimlər yaxşı bilirlər ki, xəstəlik insanı necə dəyişir. Bəzi adamlar özünə qapanır, bəziləri gecə-gündüz yalnız xəstəliyi barədə danışırlar, bəziləri isə vasvası, hətta ətrafdakılara qarşı qəzəbli olurlar.

Zərifə xanım isə necə vardısa, elə də qalmışdı. Ən çox isə ona görə fıkir çəkirdi ki, onu sevən insanlar bu xəstəliyə

görə narahatlıq keçirirlər. Bunu Zərifə xanım özünə bağışlaya bilmirdi.

Deyirdilər ki, onu onkologiya mərkəzinə göndəriblər. Zərifə xanımı professor Bloxin müayinə edib. Son sözü belə olub: «Heç olmasa, iki həftə əvvəl gətirsəydiniz...».

Bu, məhz belə olub, ya başqa cür, indi bunun əhəmiyyəti yoxdur. Ən ağırı budur ki, Zərifə xanım çox tez, cəmisi altmış iki yaşında həyatdan köçüb. Onu 1985-ci il aprelin 17-də dəfn etdilər. Yağış yağırdı. Kropotkinski küçəsindəki Alimlər evinə əklillər gətirirdilər.

Səhər Boris Pastuxov Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəni və katibliyini toplayaraq bildirdi: «Uşaqlar, kim istəsə gedə bilər, istəməyənlər getməsin».

Katiblik tam heyətlə dəfndə iştirak etdi.

– Biz demək olar ki, hamıdan tez gəlmişdik, – Boris Nikolayeviç o kədərli günü belə xatırlayır. – Kimlərin gələcəyini bilmirdik. Birdən gördük ki, Mərkəzi Komitəni Komsomol Komitəsinin bütün bürosu başsağlığı verməyə gəldi. Heydər Əliyev heç vaxt bu haqda danışmayıb, amma gənclərin ehtiram göstərib başsağlığına gəlməsi ona xeyli təsəlli vermişdi və o, bunu unutmamışdı.

Alimlər evinin zalındakı portretdən bizə Zərifə xanımın geniş açılmış şən gözləri baxırdı. Zərifə xanımı tanıyanlar onun heyrətamiz dərəcədə mənalı, qara gözləri olduğunu qeyd edirdilər.

Leninqradlı alim Dobromıslova deyir:

– Şərqlilərə məxsus qara gözləri, mehriban baxışları onu başqalarından fərqləndirirdi. Onun gözləri gah gülür, gah sevinir, gah heyrətlənir, gah da narazılığını bəyan edirdi. Lakin onun gözlərində heç vaxt biganəlik ifadəsi görmək olmazdı. Zərifə xanımın iri, çox ifadəli, sanki «danışan gözləri» vardı.

Professor Şulpina isə belə deyir: «Onun böyük, qara gözləri insanın qəlbinə nüfuz edirdi».

Hələ 1924-cü ildə çəkilmiş uşaqlıq şəklində balaca Zərifənin iri, qara gözləri o birilərinin gözlərindən seçilirdi. Saçları səliqəylə vurulmuş balaca qızcığaz yumşaq oyuncağı sinəsinə sıxmışdı. Onun böyük qara gözləri uzaq zamanların dərinliklərində şöləlınən bir ulduzun işığı kimi bizə zillənib.

Dəfndən düz bir həftə sonra, artıq son illər ərzində üçüncü olan yeni Baş katibin dövründə Heydər Əliyev Leninin anadan olmasının 115 illiyinə həsr olunmuş təntənəli iclasda məruzə etməliydi. Qorbaçov ona məruzədən imtina etməyi məsləhət görürdü. Deyirdi ki, eybi yox, gələn il məruzə edərsiniz.

– Yox, – Heydər Əliyev etiraz etdi, – öhdəsindən gələrəm.

Yeni Baş katibi 1985-ci il martın 11-də seçmişdilər. Ukrayna Kommunist Partiyasının birinci katibi Vladimir Vladimiroviç Şerbitskidən başqa hamı plenumda iştirak edirdi. O, yolda idi, Amerikadan ezamiyyətdən qayıdırdı.

Qromıko Qorbaçovun «hədsiz yaradıcı enerjisini» və başqa xüsusiyyətlərini qeyd edib, onu Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi scçməyi təklif etdi. Etiraz edən olmadı.

Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin sədri Tixonov yarınmaq üçün kompliment deməyə imkan tapdı: «Qorbaçov ilk Baş katibdir ki, iqtisadiyyatdan yaxşı başı çıxır» (Nikolay Aleksandroviç yeni çarın mərhəmətinə ümid bəsləyərək göz görə-görə yaltaqlanırdı). ABŞ Prezidenti Corc Buş (böyük – red.) Qorbaçovla Maltadakı danışıqlardan sonra Kremldən gəlmiş müsahibinin iqtisadi savadını tamam başqa cür qiymətləndirmişdi. Baş müşavirlərinə deyirmiş: «Aman Allah, o ki iqtisadiyyatdan heç bir şey bilmir».

Qorbaçovun ustalıqla qurduğu pərdəarxası «portfet bölgüsü»ndə Əliyev iştirak etməmişdi. Hərçənd ki, özünün təşkilati bacarığına, hədsiz təcrübəsinə, işgüzar keyfiyyətlərinə görə Əliyevin Baş katib olmağa da tam hüququ vardı. Məşhur publisist Artyom Borovik yazır: «Heydər Əliyev onun

bu vəzifəyə seçilməsinin heç cür mümkün olmadığını israr edənlərə nahaq yerə inanmışdı. Tixonov belə hesab edirdi ki, Heydər Əliyevin bu yüksək vəzifəyə seçilməsinə «dini əqidəsi və milliyyəti» mane olur. Mən belə hesab edirəm ki, – deyə Borovik sözünə davam edir, – Heydər Əliyev Rusiyanın maraqlarını başqalarından daha artıq müdafiə edirdi. Baxın, görün, Qorbaçov Sovet Sosialist Respublikaları İttifaqının başına nə gətirdi, Yeltsin Rusiya ilə nə etdi? Əliyev yəqin ki, düşünülmüş islahatlar yoluyla gedəcəkdi və onda bizim dövlətin və özümüzün taleyi tamam başqa cür olacaqdı».

Xatırladaq ki, Qromıko da Heydər Əliyevi Sovet Sosialist Respublikaları İttifaqı miqyaslı bir siyasətçi kimi görürdü. Lakin qalibin mərhəmətinə sığınıb səsini çıxartmadı və Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin Rəyasət Heyətinin sədri vəzifəsinə seçildi.

*22 aprel 1985-ci il, Moskva*

Sovet təqvimində 22 aprel xüsusi bir gün idi, həmin gün V.İ.Leninin doğum günü qeyd olunurdu. Təntənəli konsertlər, Mavzoleyin qarşısına əklillərin qoyulması, gurultulu iclaslar... Leninin anadan olmasının 115 illiyinə həsr olunmuş təntənəli iclasda Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev «Leninin ideya və əməllərinin tarixi həqiqətləri» adlı məruzə ilə çıxış etdi.

Bu, onun paytaxtda belə bir miqyasda ilk çıxışıydı. Əlbəttə ki, məruzə Mərkəzi Komitənin sənədi kimi qəbul edilir. Amma bu tipli məruzədə də Heydər Əliyevin özünəməxsus yanaşmasının izlərini görmək mümkündür.

Əliyevin o vaxtkı məruzəsini oxuyanda görürsən ki, epoxanın dağılmasından sonra da, bir çox baxışlarından imtina etməmiş, düşüncələrinin çoxuna sadiq qalmışdı. Heydər Əliyev sonralar da rus xalqı, rus dili haqqında böyük eh-

tiramla danışır, bu dilin digər Sovet Sosialist Respublikaları İttifaqı xalqlarının, millətlərinin dillərini zənginləşdirdiyini, bu xalqlar üçün dünya ədəbiyyatının, mədəniyyətinin geniş üfüqlərini açdığını qeyd edirdi. Bu dilin vasitəsiylə onlarla millətə, xalqa məxsus milyonlarla insan dünya mədəni irsiylə tanış olur, özləri də bu mədəni irsə öz töhfələrini verirlər.

Müstəqil Azərbaycanın Prezidenti olandan sonra da Heydər Əliyevin Rusiyaya, rus xalqına, rus dilinə munasibəti, demək olar ki, əvvəlki kimi qalmışdı.

İşgüzar adamlar bunu çoxdan müşahidə ediblər – kim daha iş çox apara bilirsə, ona daha çox iş tapşırırlar. Əliyev də bu vəziyyətə düşmüşdü. Nazirlər Sovetində və Siyasi Büroda ona həvalə edilmiş vəzifələrdən savayı, Qorbaçov və o vaxt Mərkəzi Komitədə ikinci adam olan Liqaçov ona yeni-yeni tapşırıqlar verirdilər. Bu tapşırıqlardan biri də məşhur olan qalmaqallı antialkoqol kampaniyasıyla bağlıydı. Bu işlə bağlı sənədlərin hazırlanmasını Rıjkova, Əliyevə və Rusiya Sovet Federativ Sosialist Respublikasının Nazirlər Sovetinin sədri Solomentsevə tapşırmışdılar.

– Biz bu sənədin üzərində əsaslı surətdə işlədik, – deyə Nikolay İvanoviç Rıjkov xatırlayır. – Sənəd Mərkəzi Komitənin katibliyi və Qorbaçovun özü tərəfindən bəyənildi.

Rıjkovun fikrincə, Qorbaçovu sərxoşluqla mübarizəyə Liqaçovla Solomentsev təhrik etmişdilər. Özü-özlüyündə mövzunun zəruriliyi heç kimdə şübhə doğurmurdu. Sərxoşluq, alkoqolizm cəmiyyətə, həqiqətən də, böyük zərbə vururdu. Minlərlə ailə dağılırdı. Narahatlıq aydın və başa düşülən idi, amma məsələyə başqa tərəfdən yanaşanda, tamam fərqli hadisələr ortaya çıxırdı. Belə bir atalar məsəli var: «Dəlini Allaha dua etməyə məcbur etsən, vurub alnını partladar». Alkoqolsuz, sağlam həyat tərzi uğrunda mübarizədə də eynən belə oldu.

Rıjkovun fıkrincə, Qorbaçovu və onun ətrafını, yəqin ki, sərxoşluqla mübarizədən daha çox, bu kampaniyadan qazanacaqları siyasi dividendlər maraqlandırırdı.

Amma əfsus! Sorxoşluqla mübarizə aparanlar da bütün fanatiklər kimi ifrata varmnaqdan özlərini saxlaya bilmədilər. Yenidənqurma vaxtı «araq-çaxır» mağazalarının qarşısındakı növbələri görməyənlər, yəqin inanmazlar ki, növbə gözləyən insanların sırası kilometrlərlə uzanır, mağazalara əməlli-başlı hücum çəkilirdi. Şəhər və kəndlərdə araq çəkənlərin sayı durmadan artırdı. Araqsız, çaxırsız qalan adamlar mağazalara axışıb içində spirt olan başqa şeyləri – odekolonları, lasyonları alıb içirdilər. Məhz elə o vaxt, çaxır istehsalı üçün əkilmiş üzümlükləri buldozerlərlə süpürüb tullayır, yerində başqa bitkilər əkirdilər.

Aleksandr Timofeyeviç Qavrilov bu süjetə maraqlı və xarakterik bir ştrix də əlavə edir. Bir dəfə Heydər Əliyevin köməkçisi Qavrilovun yanına köhnə tanışı, Moldaviyanın Nazirlər Sovetinin sədri Ustiyan gəlib deyir:

– Saşa, bizə üzümlüklərin qırılması barədə sərəncam gəlib. Axı, biz onları onilliklər boyu yetişdirmişik, əziyyət çəkmişik.

Xahiş edirəm, şefın yanına get, hər şeyi ona danış.

Qavrilov xatırlayır:

– O zaman elə bil mənə nəsə qəribə bir cəsarət gəldi. Heydər Əliyevin yanına keçib hər şeyi danışdım. Amma o, çiyinlərini çəkib başını yellətdi ki, heç nə eləmək mümkün deyil.

İndi artıq hamı bilir ki, antialkoqol kampaniyası Mərkəzi Komitədə əsas işlərin başlanmasından iki-üç il əvvəl düşünülmüşdü. Və bu işi Mərkəzi Komitənin qocaman üzvü, Partiya Nəzarəti Komitəsinin sədri, sərtliyi və eyni zamanda ehtiyatlılığı ilə tanınan Pelşeyə tapşırmışdılar. Amma Arvid Yanoviç başa düşürdü ki, bu işdə qəti, sərt addımlara yol vermək olmaz.

Nikolay İvanoviç Rıjkov o günləri belə yada salır: «Pelşenin vəfatından sonra bu komissiya bir neçə il yığılmırdı. Və birdən-birə bu komissiyanı «ayıltdılar» və komissiya sərt tədbirlər həyata keçirməyə başladı. Amma ürəyimizdə hamımız başa düşürdük ki, nəyisə düz eləmirik».

Artıq Nazirlər Sovetinin sədri olan Rıjkov bir dəfə Heydər Əliyevə zəng vurub xahiş etdi ki, onun yanına gəlsin. Heydər Əliyeviç üzr istədi: «Mən indi iclas aparıram, yarım saata qurtaracam. İclas başa çatan kimi gələrəm».

Əliyev gələndə Rıjkov hansı məsələylə məşğul olduğunu soruşdu.

– Kefirin alkoqollu içki olub-olmadığını müzakirə edirdik, – deyə Əliyev cavab verdi.

Rıjkov bilirdi ki, bu, partiyada ikinci adam olan Liqaçovun tapşırığı idi. İndi bu, gülməli görünür, amma o vaxt heç kim gülmək hayında deyildi.

Bizimlə söhbətdə Nikolay İvanoviç Rıjkov etiraf etdi: Mən elə əvvəldən antialkoqol kampaniyasının əleyhinəydim. Amma Siyasi Büronun üzvü kimi, orada qəbul olunan qərarları icra etməliydim. Mənə Heydər Əliyeviçlə işləmək xoş idi. Həm Mərkəzi Komitədə, həm də Nazirlər Sovetinin sədri seçiləndən sonra. Xarici ezamiyyətlərdə, müxtəlif insanlarla kontaktlarda adamın bir çox gözlənilməz xüsusiyyətləri üzə çıxır. Səfər vaxtı bir daha əmin oldum ki, Heydər Əliyeviç uzaqgörən siyasətçi və xeyirxah, ünsiyyətə meylli bir insandır. Onunla işləmək çox asan idi.

1985-ci ilin sentyabrında məni Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin sədri seçdilər. Bilirdim ki, Tixonov Heydər Əliyevə qarşı həmişə ədalətsizlik edirdi. Nazirlər Sovetində də hər yerdə olduğu kimi müəyyən qruplaşmalar vardı və Tixonov məzuniyyətə gedəndə heç vaxt öz yerinə Heydər Əliyevi qoymurdu. Həmişə öz dostu və müavinlərindən biri Arxipova etimad göstərirdi. Hərçənd ki, Arxipov heç Siyasi Büronun üzvü də deyildi. Mən başa düşürdüm ki, bu, Siyasi Büronun üzvü olan Heydər Əliyevin yaman xətrinə dəyirdi. Onun üçün də elə ilk iclasdaca vəzifə bölgüsü aparanda dedim: «Bu gündən etibarən mən olmayanda məni Heydər Əliyev əvəz edəcək».

– Siz bunu əvvəlcədən Heydər Əliyevə söyləmişdiniz?

– Yox.

– Bəs, Heydər Əliyevin buna münasibəti necə oldu?

– Mən hiss elədim ki, onun ürəyi rahatlandı. Çöhrəsinə bir işıq gəldi, özündə bir arxayınlıq hiss etdi. Hər şey yerini tutdu. Nazirlər Sovetində onun ətrafında formalaşmış inamsızlıq buzu əriməyə başladı.

Nikolay Rıjkov bu addımı atanda Qorbaçovla heç məsləhətləşməmişdi də. Əslində Qorbaçov da hakimiyyətinin ilk vaxtlarında Əliyevə qarşı içindəki paxıllıq və qəzəbi büruzə vermirdi. Yalnız hakimiyyətdə müəyyən addımlar atandan sonra onun Əliyevə qarşı təqib və təziyqləri güclənməyə başladı.

– Tədricən, addım-addım o Əliyevə mənfi münasibət göstərməyə başladı. Çox-çox sonralar, o hadisələri xatırlayıb təhlil etməyə vaxt tapanda, mən bu qərara gəldim ki, Qorbaçov bütün vasitələrlə Brejnevin irəli sürdüyü adamları rəhbər vəzifələrdən uzaqlaşdırmağa çalışırdı. Əliyev isə Brejnevin irəli verdiyi kadrlardan idi. Onun, təkcə Əliyevə qarşı yox, Şerbitskiyə, Kunayevə və başqalarına qarşı inamsızlığı da bundan qaynaqlanırdı.

Mən həmişə demişəm ki, Əliyev birinci müavin kimi çox yaxşı işləyirdi.Dəqiq, aydın və heç bir ambisiyası olmayan adam idi. Baxmayaraq ki, o məndən əvvəl Siyasi Büroda idi, yaşda da məndən böyük idi, bununla belə o mənə qarşı çox nəzakətli idi. Bizim münasibətlərimiz heç nəyə bulaşmamışdı. Onun Nazirlər Sovetindəki işi barədə nə deyə bilərəm? O, yaxşı işləyirdi, hətta çox yaxşı işləyirdi. Əliyev sistemli adam idi, o biri rəhbər işçilər kimi heç vaxt dağınıq, qatmaqarışıq, məsuliyyətsiz iş görmürdü. Səliqə-sahman, nizam-intizam ona xas idi. Ona hansısa bir işi tapşırırdınsa, tamamilə arxayın ola bilərdin, bu tapşırıq mütləq yerinə yetiriləcəkdi.

Bizim aramızda heç vaxt hansısa konflikt, daxili nifaq yaranmırdı. Elə vaxt olur ki, kabinetdə stol arxasında oturub həmkarlarla mehriban söhbət edirsən, amma bayıra çıxan kimi adamın qarasınca min cür söz deyirlər. O, belə şeylərdən uzaq idi.

Bir-birimizə çox yaxşı münasibət bəsləsək də, aramızda bir pərdə vardı. Birgə yeyib-içmirdik, ailəvi dostluq etmirdik – Nazirlər Sovetində ümumiyyətlə, belə bir adət yox idi. Mən beş il ərzində öz kabinetimdə bircə qədəh araq da içməmişəm. Heydər Əliyevlə də aramızda yalnız işgüzar münasibətlər vardı. Mən onun işindən çox razı idim.

Mərkəzi Komitədə elə hallar olurdu ki, baş katiblər məzuniyyətdən qayıdanda öz yerlərinə qoyduqları adamların çıxardığı qərarları ləğv edirdilər. Amma bizdə, Nazirlər Sovetində belə şeylər olmurdu. Hansısa mübahisəli məsələ müzakirə olunanda Heydər Əliyev zəng vururdu, həll olunan məsələ barədə mənim də rəyimi öyrənirdi.

Heydər Əliyev çox incə insan, əsl diplomat idi. Şəxsi söhbətlərdə o kartları açırdı, içində olan hər şeyi söyləyirdi, əgər şərait rəsmi idisə, o zaman belə hesab edirdi ki, partiya üzvü kimi Siyasi Büronun qərarını yerinə yetirməlidir. Əlbəttə, bəzən o obyektiv hesab etdiyi məsələləri Qorbaçova söyləyirdi, ancaq çox ustalıqla.

Antialkaqol kampaniyası ilə bağlı, məsələn üzümlükləri, o cümlədən Azərbaycanda da, məhv etməyə başlayanda mən də etiraz etdim, Əliyev də. Hətta müşavirədə biz bu məsələyə şübhə ilə yanaşdığımızı da ifadə etdik. Ancaq, təəssüflər olsun ki, Əliyevlə mən azlıqda qaldıq. Onlar isə hər şeyi sağa, sola qadağan etdilər, hətta şərabı da. Mən o zaman söylədim: «Belə təəssürat oyanır ki, biz içki düşkünüyük, siz isə ayıq-sayıq». Əslində isə, mənim fikrimcə hər şey tərsinə idi.

Biz onunla ikilikdə görüşəndə, öz aramızda deyirdik: bunlar neyləyirlər axı? Artıq kefiri alkoqollu içki hesab etməyə başlayıblar! Ona görə də, Əliyev hər şeyi gözəl başa düşürdü, ancaq intizama tabe idi».

Rıjkov memuarlarında da qeyd edir ki, Heydər Əliyev özünün ciddiliyi ilə də onun xoşuna gəlirdi, «amma bununla belə çox ünsiyyətcil, xeyirxah və bəsirətli olduğu üçün onunla işləmək asan idi. Onu heç zaman özünə qapanmış,

insanlardan qaçan, təkəbbürlü görməzdin. Əksinə, həmişə təmkinli, bəzən isə zarafatcıl olurdu.

Buna iki səbəb var idi. Birincisi, valideyn tərbiyəsi, ikincisi, həyat təcrübəsi. O çox böyük bir məktəb keçmişdi. Başa düşürdü ki, təkəbbürlü adam heç vaxt uğur qazana bilməz, həmişə insanları özündən uzaqlaşdıracaq. Lakin, ətrafda hamıya «nə buyurursunuz?" deyən döşəmə əskisi də həyatda heç nə əldə edə bilməz və hər şeyi dalğalara, dənizlərə axıdıb tökəcək. Heydər Əliyev çox gözəl bilirdi ki, harada çaxmaqdaşı kimi sərt və mətin durmaq lazımdır, harada, necə deyərlər, mundirdə düymələri bir qədər boşaltmaq olar.

Azərbaycana hakimiyyət olimpinə yeni qayıdışına gəldikdə isə, Rıjkov keçmiş həmkarının keçdiyi bu möhtəşəm yolda qazandığı müstəsna uğurları belə dəyərləndirir: «O böyük təcrübə toplamışdı və Respublikanı çox yaxşı tanıyırdı. Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetində isə o nəhəng bir ölkə miqyasında dövlət idarəçiliyi metodlarının bütün mümkün metodlarını mənimsədi. Əlbəttə, bütün bunlar izsiz ötüşə bilməzdi.

Mən sonralar onun fəaliyyətini kənardan izlədim, həmçinin bir neçə dəfə Heydər Əliyevlə görüşdük də. O çox savadlı adam idi. Aydın məsələdir ki, o respublikaya lazım olan metodlardan istifadə etdi. Nə qədər xüsusi mülkiyyət lazımdır, nə qədər dövlət mülkiyyəti? Tam əminəm ki, o öz nəhəng təcrübəsinə söykənib bütün bunları dəqiq hesablaya bilmişdir.

O, artıq prezident kimi Moskvaya gələndə, burada – Vorobyov dağında, qonaq evlərində qalırdı. İki dəfə telefon açıb məni yanına dəvət etdi. Mən gəlirdim, otururduq, çay içirdik. Sadəcə belə yoldaşcasına söhbətləşirdik. Mənə onun respublikasından heç nə lazım deyildi, ona məndən, çünki artıq istefada idim.

Yox, Qorbaçovun qarasına danışmırdıq. Biz – Əliyev də, mən də müxtəlif vaxtlarda Qorbaçovu sınamışdıq. Ona görə beləsinə vaxt sərf etməyə dəymirdi. Həyatdan danışırdıq.

Əliyevlə Qorbaçovun hərəkətlərini müqayisə etmək maraqlı olar. Konkret nümunədə onları müqayisə edək, onların ümumittifaq əhəmiyyətli iqtisadi problemlərlə necə məşğul olmalarına fikir verək:

Tümen Baş Geologiya İdarəsinin müdiri, Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Fərman Salmanov xatırlayır: «Qorbaçov hakimiyyətə gələndə xalq ondan çox şey gözləyirdi, amma o, bu ümidləri doğrulda bilmədi.

Kadrların hazırlanması, seçimi və irəli çəkilməsi mexanizmi işlənib hazırlanmamışdı. Kadrların işgüzar keyfiyyətləri əvvəlki kimi ikinci plandaydı. Ən əsas, rəhbərə şəxsi sədaqət, dostbazlıq, qohumbazlıq, yerliçilik idi. Qorbaçovun vətəni Stavropoldan Moskvaya xeyli kadr gətirilmişdi.

Mən 1985-ci ilin sentyabrında Qorbaçovun Tümen vilayətinə səfəriylə bağlı lətifəyə bənzər bir hadisəni tez-tez yada salıram. Onun səfəri ərəfəsində vilayətə bir neçə vaqon konfet gətirmişdilər. Qəfildən bu konfetlərin satışına qadağa qoyuldu. Bilirsiz niyə? Məlum oldu ki, bu konfetlərin adı «Mişka na Severe»dir; tərcümə etsək – «Mişka Şimalda»dır. Yerli yaltaqlar qorxdular ki, Mixail Sergeyeviçin vilayətdə olduğu vaxtda «Mişka...» adlı konfetlərin satışı onu təhqir etmək kimi qiymətləndirilə bilər. Bu cür qənaətlərə, hətta Saltıkov-Şedrin qələminin yaratdığı Qlupova şəhərinin rəhbərləri belə həsəd aparardılar.

Ümumiyyətlə, Qorbaçovun Tümen səfəri mənim içimdə çox mənfı təəssürat yaratdı və bu barədə o vaxt öz gündəliyimdə də qeyd etmişdim.

«5 sentyabr. Nijnevartovsk aeroportu. Qonağı vəzifəli şəxslərin böyük bir qrupu qarşılayır: V.İ.Dolgix, B.N.Yeltsin, N.K.Baybakov, B.E.Şerbina və başqaları. Təyyarə gəlib yerə endi. Mixail Sergeyeviç Qorbaçovla Raisa Maksimovna Qorbaçova təyyarədən yerə endilər. İki gün əvvəl onların gəlişi üçün Moskvadan təyyarəylə xüsusi yapon avtobusu gətirmişdilər, elə bil ki, Baş katibi yerli avtobusa mindirmək qəbahət idi.

Axşam Nijnevartovsk Şəhər Partiya Komitəsində iclas keçirildi. Şəhər partiya komitəsinin katibi S.İ.Denisov, Mahal Partiya komitəsinin katibi V.A.Çurilov kiçik informasiya ilə çıxış etdilər. Onlardan sonra Qorbaçov sözü mənə – Tümen Baş Geologiya İdarəsinin rəisinə verdi. Mən geoloji kəşfiyyat işlərinin vəziyyəti və perspektivləri barədə danışdım, neft və qaz sənayesinin əmtəə bazasının daha da inkişafıyla bağlı bəzi rəqəmləri misal gətirdim. Qorbaçov bir neçə dəfə sözümü kəsdi və Baybakovla Dolgixi geoloqlara yaxşı kömək etmədiklərinə görə tənqid etdi.

Sonda Qorbaçov çıxış, etdi: «Geoloqlar məni bu vilayətin geoloji-kəşfiyyat işlərinin perspektivlərinə inandırmağa müvəffəq oldular. Mən bu perspektivləri hiss edirdim və geoloqların işindən də razıyam. Çox sağ olun, yoldaşlar, amma bu sahəyə mütləq kömək etmək lazımdır».

Onun zəhmətimizi belə yüksək qiymətləndirməsi bizi çox ruhlandırdı. Gecəylə bizim hamımız Urenqoy şəhərinə uçduq. Siz təsəvvür edə bilməzsiniz, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibini xalq küçələrdə necə böyük sevinclə qarşılayırdı. Çox gözəl, günəşli bir hava vardı. Şəhərin mərkəzində, neçə min adamın yığışdığı yerdə Qorbaçovu aparan maşın korteji dayandı. Baş katib maşından düşüb insanlarla söhbət eləməyə başladı. Yaşlı bir qadın ona sual verdi ki, bəs Böyük torpaqda (ölkənin yaşayış üçün yararlı ərazilərində – red.) bizim şimal sakinləri üçün mənzil tikintisi nə yerdədir?

Mən Mixail Sergeyeviçin cavabını eşidəndə təəccübümdən donub qaldım. O, tam ciddi şəkildə cavab verdi: «Böyük torpaqda mənzili neynirsiniz? Baxın, görün burada necə gözəl iqlim var. Yaxşısı budur burada daha çox mənzil tikin».

Məgər Qorbaçov bilmirdi ki, Urenqoy Şimal qütb dairəsinin yaxınlığında yerləşir? Rusiyanın Avropa hissəsindən, Ukraynadan, Belorusiyadan, Azərbaycandan işləməyə gələn insanlar burada daim yaşayıb işləyə bilmirlər. Bura tundra

zonasıdır, havada oksigenin faizi aşağıdır, ona görə də burada heç normal bitkilər, ağaclar da bitmir.

Ertəsi gün Qorbaçov öz dəstəsiylə Tümenə qayıtdı. Siz görəydiniz aeroportda nələr baş verirdi. Moskvadan Qorbaçovla xanımını gəzdirsin deyə təyyarəylə dörd ədəd xüsusi «ZİL» markalı minik avtomobili gətizdirmişdilər. Yolları bağlamışdılar. Respublika küçəsində maşınların yolunu əks istiqamətə çevirdilər. Yaltaqlar yaman əldə-nayaqdan gedirdilər – Baş katibin rənglənmiş, köhnə evləri görməməsi üçün onu şəhərin ucqarlarıyla aparırdılar. Bütün bunlar məni yaman əsəbiləşdirmişdi. Axı, əvvəllər dövlətin ikinci şəxsi Kosıgin Tümendə dəfələrlə olmuşdu. Moskvadan yapon avtobusları, xüsusi «ZİL» maşınları da gətirməmişdilər. Hər şey sadə və işgüzar şəkildə təşkil olunmuşdu.

Burada isə təmtəraqdan adamın gözü qamaşırdı. Qorbaçov hələ cəmisi dörd ay idi ki, Baş katib seçilmişdi, amma indidən belə bir cah-cəlala, təmtərağa həvəs göstərirdi.

Axşam Tümenin partiya-təsərrüfat aktivində Qorbaçov çıxış etdi. Onun məruzəsini eşidəndə qulaqlarıma inanmadım. O, iki gün əvvəl Nijnevartovskda söylədiklərinin tam əksini dedi. Mənim kefim tamam pozuldu. Uzun mühakimələrdən sonra belə qərara gəldim ki, Qorbaçov sadəcə Moskvadakı bürokratik aparat üzvlərinin tərtib etdiyi məruzəni üzündən oxuyur. Mənim iki gün əvvəl ona dediklərim isə deyəsən, tamam yadından çıxmışdı. Nə verdilərsə, onu da oxudu. Nədənsə, Brejnevin Bakıya səfərini, ona verilən kağızları çaşdırıb tamam başqa bir çıxışı heç nə başa düşmədən üzündən oxumağını və Əliyevin onun qarşısındakı kağızları dəyişdirməyini xatırladım.

Gecə səhərə qədər düşünəndən sonra bu qərara gəldim ki, yeni Baş katib böyük boşboğazdır. İqtisadiyyatdan, siyasətdən bir o qədər başı çıxmasa da, ambisiyaları həddən artıq böyükdür. Neqativ xüsusiyyətləri də kifayət qədərdir.

Belə keyfiyyətlərə malik olan bir kadr çətin ki, böyük ölkəni ağıllı idarə edə bilsin və biz onun hakimiyyəti dövründə çətin ki, uğura nail olaq.

Elə də oldu: iqtisadiyyat gündən-günə uçuruma yuvarlanırdı istehsalatın sürəti aşağı düşməyə başladı, neft sənayesi isə həyəcan siqnallarını verməyə başladı. Bütün ölkə zəhmətkeşlərinin səyləri nəticəsində yüksək həddə qaldırılan neft hasilatı getdikcə aşağı düşməyə başladı. Sonda bircə onu deyə bilərəm ki, bizim xalqın yaxşı və firavan yaşaması üçün mütləq ağıllı və dövləti idarə etməyi bacaran rəhbərləri olmalıdır».

Fərman Salmanov haqlıydı. Ən maraqlısı isə budur ki, nə üçünsə istənilən sistemdə – totalitar, demokratik, sosialist, kapitalist – hakimiyyətə, səriştəsiz, buna haqqı olmayan insanlar gələ bilər?! Axı, belələrini hakimiyyətə heç yaxın da buraxmaq olmaz.

Rusiyanın müasir tarixində də, Azərbaycanın postsovet tarixində də və başqa xalqların tarixində də buna çoxlu nümunələr göstərmək olar.

## 31 avqust 1986-cı il, Novorossiysk

1986-cı il avqustun 30-da saat 22.10 radələrində Novorossiysk yaxınlığında sərnişin teploxodu «Admiral Naximov»-la yük gəmisi «Pyotr Vasev» toqquşmuşlar. İtkilər var. Xilasetmə işləri aparılırdı...

Təxminən belə bir xəbər avqustun 31-nə keçən gecə bir çox əsas instansiyalara – Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə, Nazirlər Sovetinə, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinə, Dəniz Donanması Nazirliyinə və s. yayıldı... Radio və televiziya hələ heç bir rəsmi xəbər açıqlamamışdan əvvəl xalq arasında artıq çoxsaylı şayiələr yayılmağa başlamışdı. Əlbəttə ki, ilk olaraq xarici radiostansiyalar bu hadisəyə əks-səda verdilər.

Rıjkov gecəyarı Əliyevə zəng vurdu:

– Heydər Əliyeviç, siz bu hadisəylə bağlı təşkil olunan Dövlət Komissiyasının sədri təyin olunursunuz. Adamları seçin...

Heydər Əliyev yəqin ki, həmin gecə heç yata bilmədi. Əgər bilsəydi ki, qarşıda onu on beş yuxusuz gecə gözləyir, bəlkə də, bir az mürgüləyərdi. Amma yatmaq istəmirdi. Onun yadına üç il əvvəlki ilk bu cür ezamiyyəti düşdü. O vaxt Volqa çayında, Ulyanovsk şəhərinin limanında turistlərlə dolu «Aleksandr Suvorov» sərnişin teploxodu körpünün dirəkləriylə toqquşmuşdu. Teploxodun kinozalında həmin vaxt komediya göstərirdilər. Bir çox tamaşaçı zala uşaqlarıyla gəlmişdi. Ekrandakı qəhqəhələr adamların ahu-fəryadına qarışmışdı. Teploxodun üst göyərtəsi və kinozalı sınıb tökülmüş və idarəsini itirən teploxodu çayın axarı aparmışdı. Hadisə yerində aparılan araşdırma nəticəsində qəzanın səbəbi aşkar edildi: sərxoşluq...

Adətən Əliyev Nazirlər Sovetinə səhər saat doqquza yaxın gəlirdi. Həmin gün isə daha tez gəldi. Özünün nəqliyyat işləri üzrə köməkçisi Vladimir Sergeyeviç Uxova tapşırdı ki, komissiyanın tərkibiylə bağlı sərəncam hazırlayaraq hamını xəbərdar etsin.

– Siz də bizimlə birgə uçacaqsınız.

Reallıqda qeyri-formal bürokratik reqlamentə uyğun olaraq Siyasi Büronun üzvü faciənin baş verdiyi yerə yalnız səhər uça bilərdi. Ondan yalnız müvafiq xidmətlərin səmərəli işini təşkil etmək tələb edilirdi: zərər çəkənləri və onların qohumlarını yerləşdirmək, hadisənin təhqiqatına başlamaq və başqa mexinizmləri işə salmaq. Bunun üçün ən çoxu üç gün də kifayət edirdi. Əliyev qəzanın baş verdiyi yerdə 15 gün qaldı…

Uxov evə baş çəkməyə macal tapmadı, yalnız zəng vurub xəbərdar etdi ki, «on gündən sonra qayıdacaq». Ezamiyyətdə lazım ola biləcək dəyişək paltar və bəzi xırda-para şeyləri almaq üçün Qızıl Meydanı adlayıb univermağa getdi. Avqustun 31-dən sentyabrın birinə keçən gecə «Vnukovo-2»

aeroportundan Novorossiyskə xüsusi hökumət təyyarəsi uçdu.

Əliyevlə üç il birgə işlədiyi müddətdə Uxov rəhbərini yaxşı tanıya bilmişdi. Vladimir Sergeyeviç xatirələrini çözələyir:

– Onun qətiyyətli, sərt adam olduğunu əvvəl də bilirdim. Amma Volqada, parça-parça olmuş «Suvorov» teploxodunun yanında mən anladım ki, onun xarakteri bütünlüklə kritik situasiyalarda – iradəni, düşüncəni və emosiyaları bir yumruğa yığıb qəti şəkildə hərəkət etmək üçün lazım olan məqamlarda, özünü daha bariz göstərir. Onun inadı, ağlı və sərtliyi problemi həll edirdi. Mənə elə gəlir ki, adi günlərdə Heydər Əliyeviç elə bil sıxılır, onun möhtəşəm daxili enerjisi sanki özünə yol axtarırdı və o, axşam saat ona, on birə qədər işdən ayrılmırdı.

Bəzən elə olurdu ki, ona bilavasitə bizim idarəyə aid olmayan işlər tapşırılırdı. Biz bunu onun özünə deyəndə Heydər Əliyeviç əsəbiləşmirdi. O hesab edirdi ki, hökumət başçısı, Baş katib istənilən tapşırığı verə bilər, bizim vəzifəmizsə onu yerinə yetirməkdən ibarətdir.

...İlkin məlumatlara görə, «Admiral Naximov»un göyərtəsində cəmi 1234 adam, onun da 888-i sərnişin və 346-sı ekipaj üzvü olub. Teploxod toqquşmadan sonra yeddi-səkkiz dəqiqə ərzində batıb. 836 sərnişini xilas etmək mümkün olub. Bəs o birilərinin aqibəti necə olub?

İki həftəlik Novorossiysk ezamiyyəti – dənizin özü boyda bir kədər kimi yadda qaldı. Hər gün öz doğmalarını, yaxınlarını itirən insanlarla görüşürsən. Suyun dibindən teploxodun içində əsir olmuş insanların meyitləri çıxanlır: bir təsəvvür edin, birinci üç gün ərzində yetmiş doqquz, sentyabrın 4-nə qədər yüz on altı meyit çıxarılır. Onlarla problem bir-birinə qarışıb.

Heydər Əliyevə yalnız işlərə ümumi rəhbərliyi təklif etmişdilər: komissiyada kifayət qədər nüfuzlu adamlar, mütəxəssislər vardı – dəniz donanması naziri, Azərbaycan

Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini, Mərkəzi Komitənin nəqliyyat və rabitə şöbəsinin müdiri – onlar detalları aydınlaşdırıb lazımi tədbirlər görə bilərdilər.

Yox, – deyə Heydər Əliyeviç təkid etmişdi, – mən hər gün insanlarla görüşəcəyəm, həm də dövlət komissiyasının üzvləriylə təmasda olacağam, onların cavabdeh olduqları məsələləri necə yerinə yetirdiklərinə də nəzarət edəcəyəm.

Dövlət komissiyası gündə iki dəfə – saat 10.00-da və 17.30-da iclas keçirirdi.

«...Və hər gün axşam saat 19.00-da komissiyanın sədri Heydər Əliyev ölənlərin qohumları, yaxınları ilə görüşür. Onlara görülən işlər barədə məlumat verir, yaranan problemləri yerindəcə operativ şəkildə həll edir», – «Trud» qəzeti bu hadisə barədə hazırladığı reportajında belə yazırdı.

Əslində Əliyevin hər gün həlak olanların ailə üzvlərilə görüşüb, onların ağrı-acısını üstünə götürməyə borclu deyildi. Hətta istəsən belə, sovet reallıqlarına görə belə işlərlə siyasi kapital qazanmaq mümkün deyildi. Ancaq Əliyevi burada saxlayan sadəcə bu insanların faciəsi və acısı idi. Hadisənin şahidlərindən biri xatırlayır: görüşlərin birində qoca bir kişi özünü Əliyevin qarşısına atdı. O həyat yoldaşını və qızını itirmişdi. Hər ikisini dəfn etmək üçün Vətənlərinə, Leninqrada aparmışdılar. Lakin yerli hakimiyyət orqanları onları bir qəbristanlıqda dəfn etməyə icazə verməmişdilər. Heydər Əliyev dərhal Leninqrad hakimiyyətinin rəhbərləri ilə əlaqəyə girərək bu dramanı həll etdi. Həmin günlərdə bu adi gündəlik hadisələrdən biri idi. Ancaq fakt faktlığında qalır ki, ağır və faciəli günlərdə (qarşıda belə fəlakətlər isə hələ çox baş vermişdi) sovet rəhbərlərindən heç biri Əliyevin insanlara göstərdiyi mərhəmət və canıyananlıq göstərməmişdi…

Məlum oldu ki, teploxodun təhkim edildiyi Qara Dəniz Gəmiçiliyi İdarəsi heç gəmidə nə qədər sərnişinin olduğunu da dəqiq bilmir. Və bu, adi hal hesab olunurdu. Kapitanlar sən demə, qaydaların əleyhinə olaraq, gəmilərinin bir-biri-

nin yanından necə keçəcəkləri barədə əvvəlcədən sanki köhnə faytonçular kimi danışıq aparıbmışlar. Üç-dörd gün suda qalan meyitlər kənara çıxarılanda istidən artıq çürüməyə başlayırdılar. Onun üçün də öncə buz dolabları olan qatarlar, sonra isə yubanmadan tabutlar gətirildi. Uxov xatırlayır:

– Heydər Əliyev hamıdan son dərəcə sərt haqq-hesab tələb edirdi. Hansısa bir tapşırığı yerinə yetirilmədiyi üçün o, dəniz donanması nazirinin müavinini dərhal vəzifəsindən kənarlaşdırdı. Hamı bundan dərs götürdü.

Ən çətini isə çıxarılan cəsədlərin arasında öz əzizlərini tapa bilməyən və yenə də sudan kimlərinsə çıxarılmasını gözləyən insanlarla söhbət etmək idi. Öz həyatlarını təhlükə qarşısında qoysalar da, operatorlar sualtı çəkilişlər apara bildilər. Budur, kamera batmış gəminin bortuna sıxılmış və oradan çıxarılması mümkün olmayan bir qadın meyitinə yaxınlaşır. Sualtı axın onun uzun saçlarını yüngül külək kimi yellədir. Adama elə gəlir ki, bu saat başını geri atacaq. Ekran qarşısında donub qalan gənc bir oğlan bu qadını görən kimi öz sevimli Nataşasını tanıyır.

– Siz onu çıxara biləcəksinizmi? – deyə oğlan boğuq səslə soruşur.

Ona belə cavab verirlər:

– Çalışacağıq, əlbəttə, əgər bu, dalğıcların həyatı üçün təhlükə törətməsə. – Bir nəfər dalğıc artıq həlak olub.

Heydər Əliyevsə komissiyanın iclaslarının birində əminliklə deyir:

– Biz araşdırıb öyrənmişik ki, qəzanın səbəbi – «Pyotr Vasev» və «Admiral Naximov» gəmilərinin kapitanlarının xidməti vəzifələrinə məsuliyyətsiz və cinayətkarcasına laqeyd yanaşmasıdır. Görülən işlər barədə Əliyev mütəmadi olaraq Rıjkova məlumat verirdi. Uxovun sözlərinə görə, hətta bir-iki dəfə Qorbaçovun özü də zəng vurmuşdu, deyirdi ki, gəlmək istəyir.

Amma bu, bir o qədər də inandırıcı görünmürdü. Baş katib yəqin ki, öz istirahətini yarımçıq qoymayacaqdı. May

ayında Çernobıla baş çəkməkçün vaxt tapmamışdı, sentyabrda Novorossiysko gəlmədi. Başqalarının kədərindən kənarda yaşamaq çox rahat mövqedir. Yalnız həssas, kövrək qəlbə malik olan şairlər belə hesab edir ki, «özgənin dərdi olmur» (ifadə Konstantin Simonovun şeirindəndir). Siyasətçilər də belə hesab edir: həm də böyük siyasətçilər, cılızlar yox.

Həmin yay Qorbaçov avqustun 20-dən sentyabrın 20-nə qədər istirahət etdi. Geri qayıdanda isə Kubanda və Stavropolda oldu, elektoratla çox şən, qayğısız söhbətlər etdi. Həmin vaxtda isə Rıjkov Ukrayna və Belorusiya rəhbərliyinin bir qrupu ilə Çernobılda atom elektrik stansiyasında baş verən qəza zonasına baş çəkir, Heydər Əliyev Novorossiysk qəzasının nəticələrini aradan qaldırmaqla məşğul olurdu.

Aleksey Nikolayeviç Kosıgin 1942-ci ilin yanvarında blokada şəraitində olan Leninqradda iki yeniyetmənin qardaşlarınınmı və ya qonşularınınmı uzandığı xizəyi soyuq buz bağlamış küçələrlə necə dartdıqlarının şahidi olmuşdu. O vaxtlar üçün tipik səhnədir. Meyitləri bütün şəhər boyu belə daşıyırdılar. Nəsə Kosıgini bu qəmli mərasimin qarşısında durub onlardan kimi dəfn etməyə apardıqlarını soruşmağa məcbur etmişdi. Uşaqlar cavab verməyə macal tapmamış, Aleksey Nikolayeviç görmüşdü ki, xizəkdə uzadılmış oğlan uşağının göz qapağı tərpənir. Ola bilsin, həyatla vidalaşdığı bu son məqamda, az qala unudulmuş, atasının səsinə oxşar səs eşitmişdi. Aleksey Nikolayeviç uşagı qucağına götürmüş və balaca özünə gəlməyə başlamışdı. Kosıgin göstəriş verir ki, oğlanı isitsinlər, yedizdirsinlər, sonra isə qardaşları ilə birgə Leninqraddan köçürsünlər.

Dövlət Müdafiə Komitəsinin tapşırığı ilə o zaman Kosıgin 500 min leninqradlını və Böyük torpaqda çox zəruri olan dəzgahları, kranları, motorları və bütöv zavodları köçürməli idi. Nəhəng, mürəkkəb dövlət tapşırığı və təsadüfi hadisə. Blokadada olan şəhərin taleyi və bir insanın taleyi... Kosıgin onlara fərq qoymamışdı.

Əliyev də belə idi. Buna ən müxtəlif adamlar, o cümlədən Baş nazirin müavininə gündəlik poçtu çatdıran, onun tapşırıqlarını qeyd edən və onunla birlikdə ezamiyyətlərə gedən köməkçilər də şahiddirlər.

Uxovdan soruşuruq:

– Sizcə, Novorossiyskdə Əliyevi ən çox təsirləndirən nə oldu?

– İlk növbədə toqquşma faktının özü. Bilirsiniz, sağlam düşüncəyə görə bu toqquşma olmamalıydı. Toqquşma üçün heç bir real zəmin yox idi. Sakit dəniz, ulduzlu səma. Sərnişin teploxodunda bütün işıqlar yanır – həm bortda, həm də göyərtədə. Müasir naviqasiya cihazları. Teploxod limandan çıxanda ona xəbər verilmişdi ki, qarşıdan yük gəmisi gəlir. Yük gəmisinə də sərnişin teploxodunun limandan çıxması barədə xəbər verilmişdi. Qanuna görə yük gəmisi teploxoda öz kursuyla getməyə yol verməliydi. Yük gəmisi bunu etməmişdi, çünki bunun üçün o, öz kursundan bir ncçə kilometr yayınmalı, kənara çəkilib dolama kursla getməliydi. Kapitanlar qaydalara zidd olaraq, üzbəüz gələrkən biri-birindən necə yan keçəcəkləri barədə əvvəlcədən danışıb razılaşırlar. «Pyotr Vasev» yük gəmisinin kapitanının üçüncü köməkçisi radara baxaraq xəbərdarlıq edir: «Biz toqquşa bilərik, axın bizi ona tərəf aparır».

«– Heç nə olmaz, yanından sivişib keçərik», – deyə kapitan onu arxayınlaşdırır.

İki kapitanın laqeydliyi və özündənrazılığı belə böyük faciə ilə nəticələnmişdi.

Bu qədər də səhlənkarlıq olarmı? Olay insanı hiddətləndirməyə bilmirdi. Məsuliyyətsizlik üzündən nəhəng «Naximov» məhv olur; sonsuz insan kədəri... Yenə də məsuliyyətsizlik. Məlum olur ki, sahil xidmətlərinin heç birində gəmidəki sərnişinlərin və ekipajın dəqiq siyahısı yoxdur: müxtəlif dolayı yollarla bu siyahıları bərpa etmək lazım gəlir.

Əliyev orada, demək olar ki, yatmırdı. Onun köməkçisi Uxov da onun kimi. Vladimir Sergeyeviç gecə saat üçə qə-

dər protokolları hazırlayır, səhər tezdən isə hər şey yenidən başlayırdı. Heydər Əliyev hər səhər saat doqquzda mehmanxanadan Qara Dəniz Gəmiçiliyinin binasında yerləşən xilasetmə qərargahına gedirdi...

Sovet dönəmində, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun tərkibində olarkən Heydər Əliyevin populyarlığını tam mənada dərk etmək üçün həmin dövrün kontekstini bilmək və o illərin rəhbrlərinin qavrayış stereotiplərini başa düşmək lazımdır. Texnogen fəlakətlərin baş verdiyi yerlərə təcili getmək, ölkənin nəhəng tikintilərində şəxsi nəzarət, müxtəlif peşə sahibləri və elita ilə onların anladığı dildə danışmaq – bütün bunlar normal siyasi və inzibati təcrübə deyildi. O illərdə belə fəallıq minimum, sovet cəmiyyəti üçün qeyri-adi bir şey idi və bu Əliyevin partiya vertikalındakı rəqiblərini qəzəbləndirirdi. Ali sovet rəhbərləri üçün seçim elə də böyük deyildi. Əgər sən xidmətlərin müqabilində yüksək postda oturmusansa, ya kabinetdən çıxmayıb ümumi axına qoşulmalısan ki, sənin üçün hər şey əla getsin, ya da özündə güc və cəsarət tapıb "ön cəbhəyə" çıxırsan, orada xoşağəlməz hallarla qarşılaşırsan, böhrana düşürsən, hakimiyyət sisteminin inersiyası ilə üzləşirsən, öz işini əlavə çətinliklərlə yükləyirsən və bununla yanaşı, şəxsi mənəvi aləmini nümayiş etdirirsən. Əliyev ikinci variantı seçmişdi, çünki onun həyat amalı belə idi. Bütün təziyqlərə və sistemin pərdəarxası qınaqlarına baxmayaraq, sonadək – məslkində, ardıcıllığında, bütölüyündə qaldı, xarakterindəki mübarizliyini, əzmini itirmədi.

On beşinci gün Qorbaçov sərəncam verdi ki, Heydər Əliyev komissiyaya rəhbərliyi Mərkəzi Komitənin nəqliyyat və rabitə şöbəsinin rəisi Pasternaka həvalə edib Moskvaya qayıtsın.

– «Naximov»un məsələsinə Siyasi Büroda baxacağıq. Görəsən, bu sərəncam nəylə bağlı idi? Moskvada Əliyevi daha vacib işlər gözləyirdimi? Məgər orada onsuz keçinə bilmirdilərmi? Buna əmin deyiləm. Məncə, bunun səbəbi

tamam ayrı idi. Qorbaçovun Krasnodar vilayətinə səfəri, görüşləri, çıxışı planlaşdırılırdı. Heydər Əliyevin Novorossiyskdə gördüyü işlər, ümumiyyətlə, «Naximov» hadisəsi isə ona əsaslı şəkildə mane olurdu. Avqustun 17-də Baş katib təyyarəylə vilayətə uçub gəldi və hava limanından birbaşa vilayətin rayonlarından birinə getdi. SİTA-nın müxbirləri yazır: «Baş katib yolüstü Novotitarovskaya stanitsasında maşınları saxladıb yerli əhali ilə görüşdü. İstirahətdən gələn və günün altında qaralmış Baş katib kəndlilərdən soruşdu:

– Bizim ölkədə apardığımız dəyişikliklərdən razısınızmı?

Razıyıq, – jurnalistlər camaat içindən eşidilən bu səsi də qeydə aldılar.

... Oktyabrın 30-da Heydər Əliyev Siyasi Büroda «Admiral Naximov» gəmisində baş verən qəzanın səbəbləriylə bağlı yaradılmış komissiyanın yekun nəticələri barədə məruzə etdi.

Həmin gün səhərdən Siyasi Büronun iclas zalının divarlarında Qara dənizin, Novorossiyskin xəritələrini asmışdılar. Bu xəritələrin fonunda yoldaşlar əvvəlcə gələn ilin büdcəsi və planı barədə danışdılar, sonra Mərkəzi Komitənin nəzdindəki Partiya Nəzarəti Komitəsinin hesabatını dinlədilər. Nəhayət, Qorbaçov sözü Əliyevə verdi. Heydər Əliyeviçin məruzəsi qısa və konkret oldu.

Əslində çox şey elə əvvəlcədən aydın idi: kapitanların cinayətkarcasına səhlənkarlığı, gəmiçilikdəki təhlükəsizlik qaydalarının kobudcasına pozulması.

Siyasi Büronun qərarında bildirilir ki, həlak olanların ailələrinə zəruri dövlət yardımı ayrılmışdır. Qəzanın bilavasitə günahkarları – «Pyotr Vasev» və «Admiral Naximov» gəmilərinin kapitanları həbsə alınaraq cinayət məsuliyyətinə cəlb olunmuşlar. Qara Dəniz Gəmiçiliyinin rəisi S.A. Lukyanenko vəzifəsindən çıxanlaraq partiya sıralarından xaric edilmişdir. Sovet Sosialist Respublikaları İttifaqı dəniz donanması nazirinin müavini A.V.Qoldobenko öz vəzifəsindən xaric edilərək partiya töhməti ilə cəzalandırılmışdır. Də-

niz donanması nazirinin ikinci müavini B.A.Yunitsın partiya məsuliyyətinə cəlb edilmişdir. Dəniz Donanması Nazirliyinin kollegiyasına isə gəmiçiliyin təhlükəsizliyinin artırılması və dəniz nəqliyyatında nizam-intizamın möhkəmləndirilməsinə dair ciddi tədbirlər görmək tapşırılmışdır.

Köməkçilər – müşahidə qabiliyyəti olan diqqətli adamlardır. Öz şeflərinin hətta görmədiyi, müşahidə edə bilmədiyi şeyləri də diqqətdən qaçırmırlar. Heydər Əliyevin köməkçiləri Qavrilov və Uxov bir-birindən xəbərsiz görün nəyi xatırlayırlar:

– Bəzən Heydər Əliyevin kabinetinə girirdin və üzünün ifadəsindən hiss eləyirdin ki, düşüncəyə qərq olub, nə barədəsə gərgin şəkildə fıkirləşir.

Köməkçinin otağa gəlməsi onu fikirlərdən ayırır:

– Vladimir Sergeyeviç, bu gün mən Yuqoslaviyanın hökumət başçısıyla görüşməliyəm. Siz bir neçə sənədi mənimçün hazır etməlisiniz: birincisi... ikinci... Niyə qeyd etmirsiniz?

Uxov istəmir etiraf etsin ki, şef onu çağıranda qəbul otağındaydı və bloknotunu öz kabinetində unutmuşdu.

– Mən yadımda saxlayaram, Heydər Əliyeviç.

– Doğrudan?

Heydər Əliyevin özü nə qədər fenomenal yaddaşa malik olsa da, həmişə bloknotda qeydlər edərdi. Tapşırığı düzgün yerinə yetirilməyəndə haqq-hesab çəkirdi.

Aparat işçiləri məzuniyyətə adətən öz şefləri ilə birgə gedərdilər. İş başında Vladimir Sergeyeviç Uxov qalardı. Kolleqaları ona qibtə edərdilər: indi dincələrsən!

– Əlbəttə! – deyə Uxov cavab verərdi. – Məgər siz Heydər Əliyeviçin necə istirahət etdiyini bilmirsiniz?..

Bilirdilər və adət etmişdilər. Əliyev məzuniyyətə həmişə Azərbaycana gedirdi, amma bircə gün də işini unutmurdu. Hər səhər saat onda Moskvaya, Uxova zəng vururdu.

– Sabahınız xeyir, danışan Əliyevdir. Vladimir Sergeyeviç, hansı işlər görülüb?

Ardınca qısa hesabat verilir.

– Bu məsələylə bağlı isə, Heydər Əliyeviç, hələ də qərar yoxdur.

– Saat üçdə mənə zəng vurun.

Axşam saat altı-yeddi radələrində daha bir zəng olurdu. Bəzən telefonçu qız xəbərdarlıq edirdi ki, bu zonada xüsusi müdafiə yoxdur. Bu, o demək idi ki, Heydər Əliyev hardasa ucqar bir yerdədir və adi telefon xəttiylə əlaqə saxlayır, ona görə də hər şeyi açıq şəkildə danışmaq olmaz.

## O, yaxşılığı qiymətləndirməyi bacarırdı

Texnikada belə bir ifadə var: metalın «yorğunluğu». Konstruksiyalar müəyyən dövrə qədər ağırlığa davam gətirirlər. Sonra isə onları köhnəldiyinə görə dəyişmək lazım gəlir, yoxsa körpülərdə, fermalarda, örtüklərdə qəza baş verə bilər. Dəmirin «yorğunluğunu» xüsusi cihazlar vasitəsiylə müəyyən etmək mümkündür. Bəs, görəsən, insanın yorğunluğunu necə bilmək olar? Bunun üçün hələ heç bir cihaz icad olunmayıb.

Rıjkovun yanındakı iclasların birindən sonra Yuri Petroviç Batalin üçüncü mərtəbədəki kabinetinə qalxdı, həmişə maşınlarla dolu olan İvanovsk meydanına ötəri bir nəzər saldı və stol arxasına keçib sənədləri gözdən keçirməyə başladı. Bu vaxt qapı açıldı və Heydər Əliyev içəri daxil oldu. Batalin təəccübləndi: sədrin birinci müavini, Siyasi Büronun üzvü onu kabinetinə çağırmır, özü yanına gəlir. Görəsən, bunun səbəbi nədir? Nə baş verib?

Heydər Əliyev BAM-ın tikintisi barədə, trasda hələ həll olunası problemlər kompleksindən və qeyri-peşəkarların bu problemlərdən yaxşı baş çıxara bilməməsindən danışdı. O, Batalindən xahiş etdi ki, BAM-la bağlı məsələlərin həllini öz üzərinə götürsün.

Batalin etiraz edib bildirdi ki, bu məsələlərin mahiyyətindən baş açmaq mənimçün çətin olacaq.

Heydər Əliyev isə dedi:

– Sizin professional kimi təcrübəniz böyükdür, mütəxəssislər sizə böyük ehtiramla yanaşırlar. Tapşırdığım işlə məşğul olmaq sizin üçün daha asandır.

Başqa heç kimin xəbəri olmayan bu kiçik söhbət bizimçün əhəmiyyətli göründü. Adətən görmüşük ki, hakimiyyətə çatan adamlara elə gəlir ki, bu hakimiyyət bir anda onlan, aqronomluqdan tutmuş dilçiliyə qədər, kosmonavtikadan tutmuş baletə, təsviri sənətə qədər bütün sahələrdə dahi, korifey bir mütəxəssisə çevirir. Məhz belə diletant rəhbərlər bir vaxtlar Sovet Sosialist Respublikaları İttifaqında kibernetiklərin, genetiklərin talelərini həll etmişdilər, çayları şimaldan cənuba axıtmaq proqramı hazırlamışdılar və bir çox başqa biabırçı işlər görmüşdülər. Heydər Əliyevin partiya ierarxiyasında özündən aşağıda olan bir şəxslə belə səmimi danışması təbii ki, çox cəsarətli bir addım idi.

– Mən sizdən sadə bir insan kimi xahiş edirəm ki, bu işi boynunuza götürəsiniz, – deyə Heydər Əliyev söhbətini bitirdi.

Burada heç vaxt bu tonda danışmamışdılar.

Batalin razılıq verdi və qeyd etdi ki, məsələni Rıjkovla da razılaşdırmaq lazımdır. Nikolay İvanoviç Rıjkov da Heydər Əliyeviçi başa düşdü. Beləliklə, Batalin BAM və Şimali-Muysk tuneli üzrə dövlət komissiyasına rəhbərliyi öz üzərinə götürdü.

Əliyevin kurasiyasında olan nazirliklərin, idarələrin siyahısında Dövlətnəşrkomu da (Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi) vardı. Bu idarəyə Boris Nikolayeviç Pastuxov rəhbərlik edirdi.

– Mən Heydər Əliyevlə çox ünsiyyətdə olmuşam. Onu da deyim ki, diqqətdən bir az kənarda qalmış bu sahəyə Heydər Əliyeviç çox diqqət və qayğı ilə yanaşırdı. Poliqrafıyanı, kağız, boya istehsalını müasir əsaslarla yeniləşdirmək, daha dəqiq desək, yenidən yaratmaq lazım idi. O, böyük problemlərin həllindən yapışırdı, düşünülmüş qərarlar qəbul edirdi.

– Məsəlçün?

– Heydər Əliyeviç poliqrafıya sənayesinin müasir tələblərə uyğun şəkildə inkişaf ideyasının reallaşmasında bizə çox yardım etmişdi. Bundan başqa, Heydər Əliyev çox gözlənilməz olan bir təkliflə də bizə tərəfdar çıxmışdı. Biz o vaxt qərara gəlmişdik ki, Puşkinin və Lermontovun kitablarına limitsiz abunə kampaniyasına başlayaq. Puşkinin bu üçcildliyinə bizim fıkirləşdiyimizdən qat-qat çox – on milyon insan abunə yazıldı.

Bəs bu qədər kağızı hardan almalı? Bizim kağızımız beş milyon nüsxəyə qədər çatırdı. Bəs qalanı? Ya gərək abunəçilərdən üzr istəyib pullarını geri qaytaraydıq, ya da ölsək də, ehtiyat kağız tapaydıq. Heydər Əliyeviçin köməyilə kağız tapdıq... Daha bir maraqlı hadisə danışmaq istəyirəm, – deyə Boris Nikolayeviç davam edir. – Mənim əlli yaşım tamam olurdu. Adətən belə yubileylərdə komitə sədrlərini, nazirləri təltif edirlər. Amma bundan bir az əvvəl mən Lenin ordeniylə təltif edilmişdim və müəyyən qaydalara görə təltifdən dərhal sonra yenidən mükafatlandırmaq məqsədəuyğun sayılmırdı, gərək müəyyən vaxt keçəydi. Qısası, hökumət məni qiymətli hədiyyə ilə mükafatlandırdı, – Pastuxov gülümsünür. – Bəli, bu «qiymətli hədiyyə» adi kənd mənzərəsinin təsvir edildiyi bir təsviri sənət əsərindən ibarət idi. Kremlə çağırıldım və Heydər Əliyev bizim kuratorumuz kimi, Nazirlər Sovetinin İşlər İdarəsinin müdiri Smirtyukovla birgə bu tablonu mənə təqdim etdi. Əliyevin kabinetinin pəncərəsi Moskva çayına açılırdı.

Artıq oktyabr ayı idi, havalar soyumuşdu.

Tablonu mənə verib zarafatla dedi:

– Əlbəttə, Boris Nikolayeviç, siz ordenə tam layiqsiniz. Amma hədiyyə elə hədiyyədir. Ordenlərimiz həmişə olub, olacaq, amma şəkil, bəlkə də, heç vaxt olmayacaq.

Ona təşəkkür edib həyatımda ən yaxşı nitqimi söylədim:

– Məncə, hansı tərzdə, nə ilə mükafatlandırılmağın bir o qədər də əhəmiyyəti yoxdur. Əsas budur ki, sənin zəhməti-

ni görürlər, qiymətləndirirlər. Bağışlayın, Heydər Əliyeviç, amma demək istəyirəm ki, mən, bax bu çayın o biri tərəfində, Zamoskvoreçyedə böyümüşəm. Anam fəhlə olub, atam 1942-ci ildə cəbhədə həlak olub və mənimçün – bir vaxtlar Zamoskvoreçyedə uşaqlarla top qovan, dərslərdən qaçan, «Udarnik» kinoteatrında gecə-gündüz kinoya baxan bir dəcəl uşaq üçün indi ən böyük mükafat Kremldə, iki belə böyük şəxsiyyətin qarşısında dayanıb onlardan xoş sözlər eşitməkdir. Çox sağ olun!

Sonra Boris Nikolayeviç ona hədiyyə olunan şəkli götürüb otaqdan çıxır.

İllər ötür və artıq Rusiya xarici işlər nazirinin birinci müavini olan Pastuxov Bakıya gəlir. Görüşlər, danışıqlar başlayır... Əliyev qonağı fantastik yaddaşıyla heyrətləndirir – ilk dəfə tanış olduqları komsomol qurultayını da xatırlayır. O, heç nəyi unutmamışdı.

– Son günədək beləcə qaldı. Heç nəyi unutmurdu. Dünən axşam olanları da, iyirmi il əvvəl baş verənləri də... Mən heyran qalmışdım.

«Bəs siz öz əlli illik yubileyinizi xatırlayırsınız? – deyə Heydər Əliyev sonda Pastuxovdan soruşmuşdu. – Smirtyukovla mən sizə o vaxt bir şəkil hədiyyə vermişdik. – «Hə, xatırlayıram». – «İstəyirsiniz bir də təkrar edim: ordenlər hələ çox olacaq, Boris Nikolayeviç, amma şəkil, bəlkə də, daha heç vaxt olmayacaq...»

– Bu şəkil indiyəcən mənim bağımdadır, divarlardan birini bəzəyir, – deyə Boris Nikolayeviç təsirlənir. – Erkən bahar, Moskva ətrafındakı şam ağacları... İndi də hər dəfə o şəklə baxanda Heydər Əliyeviçi xatırlayıram. O, yaxşılığı qiymətləndirməyi bacarırdı...

Sizin xobbiniz varmı?

Rıjkov, Batalin, Biryukov, Konarev, Pastuxov – bütün bu insanlar Heydər Əliyevə səviyyə etibarilə yaxın adamlardı. Bəs, görəsən, tabeliyində olanlar Heydər Əliyevi necə xatırlayırlar?

Jurnalist, alim və naşir Aleksandr Timofeyeviç Qavrilov üç il ərzində Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin köməkçisi vəzifəsində işləmişdi. Qavrilovla tanışlıqdan əvvəl Heydər Əliyeviç bu vəzifəyə İşlər İdarəsinin əməkdaşlarının seçdikləri namizədlərlə tanış olmuşdu. Kiminsə anketini diqqətlə oxumuşdu, kimisə qiyabi olaraq tanıyırdı, kiıninləsə şəxsi münasibətləri vardı. Və nəhayət, növbə Qavrilova çatır.

Əliyevlə görüşə dəvət olunduğunu biləndə Qavrilov öz köhnə qəzetçi həmkarlarından biriylə məsləhətləşməyi qərara alır. Bu adam Heydər Əliyevi yaxşı tanıyırdı. 1984-cü ilin mayındakı həmin görüşü

Qavrilov indi belə xatırlayır:

«Dostum mənə belə dedi: «Unutma ki, bu insan şərqlidir. Şərq isə bilirsən ki, çox incə yanaşma tələb edir. İkincisi, o, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsindən çıxan bir kadrdır. Onu nədəsə aldatmağa çalışmaq, sadəlövh hesab etmək axmaqlıqdır. Heç buna ehtiyac da yoxdur. O, insan psixologiyasını çox gözəl bilir, Mərkəzi Komitədə və başqa nüfuzlu orqanlarda böyük iş təcrübəsi var. Üçüncüsü, əgər o, bir nəfəri tərifləsə, sən də onu tərifləmə».

– Kimdir ki, o adam?

– Eduard Ambrosyeviç Şevardnadze.

Beləcə, yüngül bir məsləhətdən sonra Qavrilov Heydər Əliyevlə söhbətə gedir. Onun otağı Nazirlər Sovetinin Kremldəki korpusunun ikinci mərtəbəsində yerləşirdi. Bir vaxtlar bu otaqda Vyaçeslav Mixayloviç Molotov oturarmış.

Qəbul otağında katib onu təbəssümlə qarşıladı:

– Heydər Əliyev xahiş edir ki, onu bağışlayasınız. Bu saat onun vacib bir görüşü var. Görüş başa çatan kimi sizi qəbul edəcək.

On dəqiqədən də az bir vaxt keçir və Qavrilovu otağa dəvət edirlər.

– Sonralar mən dəfələrlə əmin oldum ki, Heydər Əliyev dəqiq, hətta deyərdim ki, son dərəcə dəqiq adamdır. Başqalarından da belə dəqiqlik tələb edirdi.

Əliyev stol arxasından qalxıb mənə tərəf əlini uzatdı.

– Xahiş edirəm, əyləşin, Aleksandr Timofeyeviç. Ən əvvəl deyin görüm boş vaxtınızı necə keçirirsiniz, xobbiniz varmı?

– Bilirsiniz, Heydər Əliyeviç, mənim heç bir hobbim yoxdur, – deyə Qavrilov cavab verir.

– Balıq tutmağı necə, xoşlayırsmızmı?

– Yox.

– Bəs, ovla da aranız yoxdu?

– Yox.

– Poçt markaları da yığmırsız?

– Yox.

– Bəs, boş vaxtınızı necə keçirirsiniz?

– Mütaliəni sevirəm, yazmağı xoşlayıram.

– Mən də yazıb-oxumağı sevirəm, – deyə Heydər Əliyev münasibətini bildirir. – Siz yəqin ki, mənim çıxışlarımı oxumusunuz?

Qavrilov başını tərpədir:

– Bəli, oxumuşam.

Mənim yazı üslubumu çox qısa şəkildə necə qiymətləndirə bilərsiniz?

Çox publisistikdir, – Aleksandr Timofeyeviç çox dəqiq şəkildə lazım olan formulu tapır.

– Düzdür!

Lakin onların tanışlığı bununla bitmir.

– Mən sizi demək olar ki, tanımıram, – deyə Heydər Əliyev davam edir. – Ona görə də sizi özümə köməkçi götürməklə müəyyən qədər riskə getmiş oluram.

– Elə mən də riskə gedirəm, – Qavrilov ona eyni tərzdə cavab verir. – Əgər işin öhdəsindən gəlməsəm, öz qərarımı özüm verməli olacağam.

Cavab Əliyevin xoşuna gəlir və onu da qeyd edir ki, birlikdə işlədiyi adamları heç vaxt atmayıb. Əgər kiminləsə nə

səbəbdənsə yolları ayrılıbsa da, elə ayrılıb ki, həmin adam heç nə itirməyib.

– Bunu mən sizə söz verirəm.

– Onda Heydər Əliyeviç, bu, məni qane edir. Həyat özü, ümumiyyətlə riskdir.

Çox gözəl, – Heydər Əliyev gülümsünür, – onda sənədləşməni aparın və işə başlayın.

Qavrilov üç il ərzində Heydər Əliyeviçin köməkçisi vəzifəsində çalışıb. Öz rəisi haqqında isə yalnız xoş sözlər deyir. Əmindir ki, imkan versəydilər, Əliyev ölkə üçün hələ çox işlər görə bilərdi.

İlk görüşlərini Əliyev bu sözlərlə başa çatdırıb:

– Mənim sizə tapşırdıqlarım ikimizin arasında qalmalıdır. Siz də əgər nəyisə şəxsən mənə demək istəsəniz, buyurun, heç vaxt çəkinməyin.

Düzdür, bütün bunlar nazir müavininin katibliyində heç də hamının xoşuna gəlməmişdi; məmurlar arasında rəhbərliyin otağına yol tapmaq üçün həmişə mübarizə gedir, paxıllar həmişə tapılırdı. Amma neyləmək olar ki, insan paxıllığının kökünü kəsmək mümkün deyil. Həm də təkcə paxıllığın yox, tamahkarlığın, ikiüzlülüyün, kinliliyin... Bununla nə dini əxlaq, nə də kommunist ideologiyası bacara bilir. Həm də ki, ümumiyyətlə, dini əxlaq, yaxud kommunist əxlaqı ifadələrini işlətmək düzgün deyil. Sadəcə əxlaq var... Ya da ki, heç yoxdur.

Heydər Əliyeviç öz əməkdaşlarının əyləncələriylə əbəs yerə maraqlanmırdı. Bu, onun əsas suallarından idi. O bilirdi ki, əgər işçisi, tutalım, balıq tutmağa həvəs göstərirsə, deməli, həftənin ortasından etibarən tilovu, soxulcanı fıkrindən çıxara bilməyəcək. Bu isə, təbii ki, işə mane olacaq. Əlbəttə ki, bu xüsusda Heydər Əliyevlə mübahisə edənlər çox olurdu, amma o, bildiyindən dönmürdü və fıkrini əsaslandımaq üçün onlarla misal gətirirdi.

– Saat 08.45-də Heydər Əliyeviç artıq işdə olardı, – deyə Qavrilov xatırlayır. – Yalnız protokol üzrə kimisə qarşılama-

ğa, yaxud yola salmağa getdiyi vaxtları çıxmaq şərtiylə. Mən saat səkkizdən gələrdim. Poçtu nəzərdən keçirərdim, sənədlərə baxardım, ən vaciblərini seçib ayırardım.

09.15-də isə rəsmi iş saatı başlayardı: zənglər, qəbullar, görüşlər, iclaslar. Əliyev iş gününü çox dəqiq planlaşdırardı. Əlbəttə ki, həyat öz dəyişikliklərini edirdi, amma ümumilikdə, hər şey nizam-intizamlı şəkildə gedirdi və bu, böyük təsərrüfatı nizamla idarə etməyə imkan verirdi. Biz şefimizə hörmət edir və bir az da qorxurduq. O, heç kimə qarşı sərt sanksiyalar həyata keçirməzdi, heç kimin üstünə qışqırmazdı. Lakin hamı bilirdi ki, onun tapşırığını yerinə yetirməmək sadəcə mümkün deyil.

Azərbaycanlı həmkarları Qavrilovu dəfələrlə qonaq çağırmışdılar: «Bir biz tərəflərə də gəlin, Aleksandr Timofeyeviç, bir az dincələrsiniz...» Amma Qavrilov imtina etməsə də, getməyə də tələsmirdi. Bilirdi ki, belə səfərlər adətən hansısa öhdəliklərlə sona çatır. O isə vasvası adam olduğundan, heç kimə borclu qalmaq istəmirdi.

Hansısa kanallar vasitəsilə Heydər Əliyev xəbər tutur ki, köməkçisi Azərbaycana səfər etməkdən yayınır. Onu öz yanına çağırır.

– Bura bax, Aleksandr, – bu çox nadir hallardan biriydi ki, şef tabeçiliyində olan işçiyə «sən» deyə müraciət edirdi, – mənə deyirlər ki, sən Bakıda istirahət etməkdən boyun qaçırırsan. Həqiqətənmi imtina edirsiz?

Qavrilov bəhanə edir ki, həkimlər onun həyat yoldaşına Rusiyanın orta iqlim qurşaqlarında istirahət etməyi məsləhət görüb. Əliyev sınayıcı nəzərlərlə ona baxır. Deyəsən, o, bu hərəkətin əsl səbəblərini başa düşürdü, amma üstünü vurmurdu.

– Hər halda, nahaq yerə Bakıya getmirsən. Orada çox gözəl çimərliklər var, – buudan sonra o, Xəzər haqqında az qala poema oxudu, xeyli təriflədi. – Mən çox ölkələrdə olmuşam, çox dənizlərdə çimmişəm. Amma inandırım səni, Xəzər dənizi kimisinə rast gəlməmişəm. Orada bir çox

xəstəliklərdən sağalmaq olar. Bir get, sən də dincəl, Aleksandr...

– Mən söz verdim, – Qavrilov həmin unudulmaz söhbəti yadına salır, – amma yenə də gedə bilmədim. İndi başa düşürəm ki, bu, Heydər Əliyeviçin xətrinə dəymişdi. Səmimi-qəlbdən qonaq çağırırlar, mənsə ev sahiblərinə hörmətsizlik edib imtina edirəm.

Heydər Əliyevlə birgə ezamiyyətlər də Qavrilovun xatirindən çıxmır: Altay, Çuvaşıstan, Volqoqrad... Bu sırf işgüzar ezamiyyətlər idi. Standart iş planı – partiya-təsərrüfat fəallarının qarşısında çıxış, vilayət partiya komitəsində iclas, zavod sexlərinə baxış. Əliyev həmişə iş planına düzəlişlərini edirdi. Tutalım, bazara baş çəkməyi xoşlayırdı, qiymətlərlə maraqlanırdı, piştaxta üstə olanların dadına baxırdı.

Qavrilovun dediyinə görə, səfər şərəfinə təşkil edilən qonaqlıqlarda şef bir, ən uzağı iki qədəh konyak içərdi, artıq yox. Stol arxasında sərt, lovğa görkəmdə oturub susmazdı, canlı, şən söhbətləri sevərdi. Yumoru xoşlayırdı. Daha bir maraqlı detal: o, heç vaxt hədiyyə götürmədiyinə görə, ona heç nə təklif etməzdilər. Bunu hamı bilirdi. Çünki adətən şefin xasiyyətlərindən çox tez xəbər tuturlar.

...Altayda hansısa kəndin yanından keçirmişlər. Məktəbə baş çəkirlər. Onları çox səmimiyyətlə qarşılayırlar, böyük gül dəstələri bağışlayırlar. Zarafat deyil, belə böyük vəzifə sahibi bunların ucqar kəndlərinə baş çəkib. Müəllimlər otağında söhbət gedir. Yaşayışmız necədir, məvacib qane edirmi? İş planı çox ağır deyil ki?

– Şagirdlər sizə gül dəstələri bağışlayırlarmı?- birdən qonaq soruşur.

– Əlbəttə. Sentyabrın biri, səkkiz martda, dərs ilinin sonunda, – deyə müəllimələr cavab verir.

– Sizə elə gəlmirmi ki, bu, bir az rüşvətə oxşayır?- deyə Heydər Əliyev zarafatyana soruşur.

Bir qədər uzun çəkən pauzadan sonra müəllimlərdən biri bu zarafatı cavabsız qoymur:

– Bəlkə də, sizdə, Moskvada bu, rüşvətə oxşayır. Yəqin gül orada çox bahadır. Bizdə isə bütün həyətlər başdan-başa gül-çiçəkdir. Bu güllər kommersiya baxımından heç bir dəyərə malik deyil. Bu, işin birinci tərəfi. İkincisi isə mənəvi tərəfdir. Əgər belə bayram günündə mənə gül bağışlamasalar, elə həmin gün ərizəmi yazıb işdən gedərəm. Deməli, nə valideynlərin, nə də şagirdlərin yanında hörmətim var. Sizə də gülləri biz məhz hörmət əlaməti olaraq bağışlamışıq.

Moskvanın ədəbi dairələrində Heydər Əliyevin hələ Bakıda işlədiyi dövrlərdə belə bir hadisə barədə söhbət yayılmışdı ki, guya o, paytaxta gəlib Yazıçılar İttifaqında Puşkinin şərəfinə yazıçının «Yevgeni Onegin» poemasını əzbərdən oxumuşdu. Ona qulaq asan qonaqlar heyrətə gəlmişdilər, Puşkini belə gözəl bilməyi ilə Heydər Əliyev onları valeh etmişdi (Qeyd edək ki, illər ötəndən sonra Azərbaycan prezidenti olan Heydər Əliyevin təşəbbüsüylə Bakıda böyük rus şairi Puşkinin abidəsi ucaldılmışdır). Bir neçə gün sonra Moskvanın bütün ədəbi dairələri xəbər tutdular ki, Heydər Əliyev Puşkini, Lennontovu, o cümlədən də böyük Azərbaycan şairləri Nizamini, Füzulini, Cavidi əzbərdən bilir...

Bu epizodu xatırlayan Qavrilov qeyd edir ki, Heydər Əliyevin estetik duyumu çox gözəl inkişaf etmişdi. O, memarlığı professional şəkildə qiymətləndirir, təsviri sənəti, teatrı çox gözəl bilirdi. Buna görə də böyük sənət adamları – Qara Qarayev, Müslüm Maqomayev, Niyazi, Tahir Salahov və başqaları onunla ünsiyyətə çox meyl edirdilər. Yeri gəlmişkən qeyd edək ki, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti Tahir Salahov Heydər Əliyevin çox gözəl bir portretini çəkmişdir.

Bu xüsusda Qavrilovun daha bir hadisə yadına düşür. Bir dəfə o, yəni Qavrilov «İki nəfər yelləncəkdə» tamaşasına baxmışdı. Amma dəvətnaməylə yox, adi bir tamaşaçı kimi teatr kassasından bilet almışdı. Ertəsi gün telefon zəng çaldı:

– Salam, Aleksandr Timofeyeviç, danışan Oleq Tabakovdur.

– Salam, Oleq Pavloviç.

– Bağışlayın, biz sizinlə tanış deyilik. Mən zəng vurmuşam ki, tamaşanın sizin xoşunuza gəlib – gəlmədiyi ilə maraqlanım.

Qavrilov böyük sənətkarın bu marağının səbəbini anlayırdı. Ona görə də cavab verdi:

– Adi bir tamaşaçı kimi deyə bilərəm ki, tamaşa mənim çox xoşuma gəldi. Amma rəsmi şəkildə rəy bildirmək üçün hələ hazır deyiləm.

– Bəs öz təəssüratlarınızı Heydər Əliyeviçlə bölüşmüsünüzmü? – deyə tamaşaçıların sevimlisi olan aktyor maraqlandı.

– Yox, o, məndən bu barədə bir şey soruşmayıb. Amma əgər israr edirsinizsə, deyərəm.

– Xahiş edirəm, mütləq deyin. Heydər Əliyevin rəyini bilmək bizimçün çox maraqlıdır.

Məqamı gələndə Qavrilov bu barədə şefinə məlumat verir. Heydər Əliyeviç gülür:

– O, yenə də zəng vursa, nə cavab verəcəksiniz? – və cavab gözləmədən əlavə elədi: – Deyin ki, mən bu tamaşanı görməmişəm. Ona görə də heç bir mənfi rəy verməyəcəm.

Bu tamaşa barədə elə sənət adamlarının özləri də müəyyən xoşagəlməz fikirlər söyləyirdilər. Heydər Əliyevsə bu cavabla teatra hökm çıxarmaqda iştirak etmədiyini göstərmək istəyirdi.

Sənət adamları da bütün bunları bilirdilər və ona görə də ona tez-tez yardım üçün müraciət edirdilər. Hərçənd ki, mədəniyyət məsələləri bilavasitə onun tabeçiliyində olan sahə deyildi. Repertuar siyasəti, yaradıcılıq məsələləri ilə başqa idarə məşğul olurdu. Nazirlər Soveti mədəniyyətin yalnız maddi tərəfi ilə məşğuldu. Rıjkovla birgə Heydər Əliyev Böyük Teatrın maddi vəziyyətinə, kitab nəşrinin, kinematoqrafiyanın inkişafına ciddi diqqət göstərirdi...

Bir dəfə Heydər Əliyevin poçtuna məşhur aktyor Armen Cigərxanyanın məktubu daxil olur: o, mənzil məsələsində

ona kömək etməyi xahiş edirdi. Heydər Əliyev məktubu Mossovetin sədri Promıslova göndərir və kömək etmək lazım olduğunu israr edir. İki ay sonra ev almış Armen Borisoviç Qavrilova zəng vurub onun adından Heydər Əliyevə təşəkkür etməyi xahiş edir.

## Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunda

İndi isə Boris Nikolayeviç Yeltsinin xatirələrinin köməyi ilə Siyasi Büronun hamı üçün qapalı olan «mətbəx»inə baş çəkməyə cəhd edək. Axı, orada nələr baş verirdi?

«İclaslar adətən belə başlanırdı. Siyasi Büronun üzvləri ayrıca bir otaqda toplaşırdılar. Siyasi Büronun üzvlüyünə namizədlər ikinci dərəcəli, Mərkəzi Komitənin katibliyinin üzvləri isə üçüncü dərəcəli iştirakçılar kimi yalnız iclas zalında gözləməli olurdular. Hamı Baş katibin gəlməyini gözləyirdi. Onun ardınca tutduqları mövqelərə uyğun olaraq Siyasi Büronun digər üzvləri iclas zalına daxil olurdular.

...Burada, partiya hakimiyyətinin zirvəsində, Olimpində təbəqələşmə qaydalarına çox dəqiqliklə riayət olunurdu.

Beləliklə, Siyasi Büronun iclası açıq elan edilir. Qorbaçov praktiki olaraq heç kimdən soruşmurdu ki, gündəlikdə olan məsələlərlə bağlı qeydləri var, ya yoxdur. İclas çox vaxt onun danışdığı xatirələrlə başlayırdı – son vaxtlar haralarda olub, kimlərlə görüşüb, o cümlədən də Moskvada nələrlə rastlaşıb.

Mənim Moskvanın Partiya Komitəsinin birinci katibi seçilməyimin ilk ilində belə şeylər, demək olar ki, olmamışdı. Amma növbəti ildən başlayaraq bir çox hallarda məhz bu məsələlərdən başlardı: «Moskvada filan məsələ həll olunmayıb, filan şey mənim xoşuma gəlmədi və s.» Bir sözlə, mənim emosiyamı sınağa çəkirdi.

Bunun ardınca hansısa məsələlərin müzakirəsi başlanırdı. Məsələn, kadr məsələsi, nazirlərin təsdiqi. Bəzi hal-

larda Qorbaçov əvvəlcədən namizədlərlə söhbət aparardı, bəzənsə namizədi birbaşa Siyasi Büroya çağırardı.

...İstənilən məsələnin müzakirəsi Siyasi Büronun gündəliyində olan məsələlərlə bağlı sənədlərə baxılmasından başlanardı. Məncə, bu sənədləri büro üzvlərinə daha tez vermək lazım idi. Düzdür, bəzən bir-iki həftə əvvəldən sənədlər bizə çatdırılardı, amma əksər hallarda iclasdan cəmisi bir-iki gün əvvəl sənədlər bizə təqdim olunardı. Buna görə də ölkənin həyatında prinsipial əhəmiyyəti olan məsələləri araşdırmaq üçün bizim vaxtımız az olurdu, bir-iki günə belə böyük məsələlərin mahiyyətinə nüfuz etmək çox çətindir. Mütəxəssislərlə məsləhətləşmək, sənədləri hazırlayan işçi qrupla detalları dəqiqləşdirmək lazım idi. Amma dediyim kimi, bizə çox az vaxt verilirdi. Bəlkə, qəsdən belə edilirdi, bəlkə də, təşkilati nizamsızlıqdan irəli gəlirdi.

...Adətən giriş sözünü Qorbaçov özü deyərdi. Geniş danışardı, fikirlərini təsdiq etməkçün hazırlanan məktublardan, sənədlərdən sitatlar gətirərdi. Bütün bu prelüdiya aparatın hazırladığı sənəd layihəsinin müzakirəsinin taleyini, demək olar ki, əvvəlcədən həll etmiş olardı. Qorbaçovun belə çıxışından sonra təbii ki, hamı bu sənədin qəbul olunmasına səs verərdi. Nəticədə, belə çıxırdı ki, bütün işləri aparat həll edir. Siyasi Büronun üzvləri isə məsələlərin müzakirəsində formal olaraq iştirak edirdilər.

...Əvvəlcə bizim iclasların lazımsızlığı o qədər də hiss olunmurdu, amma vaxt keçdikcə fəaliyyətimizin daha səmərəsiz olduğu açıq-aydın bilinirdi. Qorbaçov daha çox özündən, öz çıxışlarından həzz alırdı. O, gözəl danışmağı çox sevirdi və bunu məharətlə bacarırdı. Hiss olunurdu ki, «hakimiyyət» onu özünə ram edir, o, reallıq hissini itirir. O, yenidənqurmanın daha sürətlə və geniş şəkildə inkişaf etməsi, daha geniş sahələri və insanları əhatə etməsi xəyalıyla yaşayırdı. Həyatda isə hər şey tamam başqa cür idi. Mən kiminsə onun əleyhinə kəskin şəkildə çıxış etməsini xatırlamıram. Lakin mən onunla bəzən mübahisə edərdim...»

Bəli, Boris Nikolayeviç Yeltsin Siyasi Büroya məhz belə qiymət verir. Bu qeydlər bütün məlum hadisələrdən sonra Yeltsinin hakimiyyətdən kənarda qaldığı bir vaxtda yazılıb. Onun vəzifədən kənarlaşdırılmasıyla bağlı incikliyi o saat hiss olunur. O, özünü nə Qorbaçovdan, nə də Siyasi Büronun o biri üzvlərindən əskik hesab etmir, amma onu xüsusi otağa buraxmırlar, alçaldaraq ümumi zalda gözləməyə məcbur edirlər...

Yeltsinin Siyasi Büronun hər bir üzvünə verdiyi fərdi qiymət də maraqlıdır. O, bir qədər də Qoqolun Çiçikovun dili ilə mülkədarları qiymətləndirməsinə bənzəyir. «Ölü canlar»ın qəhrəmanlarını – Sobakeviçi, Nozdrevi, Plyuşkini xatırlayırsınız?

O vaxt Sovet Sosialist Respublikaları İttifaqı Ali Soveti Rəyasət Heyətinin sədri Andrey Andreyeviç Qromıko, Yeltsinin fikrincə, «sadəcə mövcud» idi. O, «nəsə edirdi», kimlərləsə görüşürdü, çıxışlar edirdi, amma hiss olunurdu ki, mahiyyət etibarilə, həm o, həm də ona tapşırılan işlər heç kimə lazım deyil... Qromıko elə bil ki, keçmişdən, uzaq keçmişdən müasir dövrümüzə atılmışdı. Çünki o, ətrafda baş verən hadisələrdən sanki qətiyyən baş aça bilmirdi, heç nə anlamırdı».

Nazirlər Sovetinin sədri N.Rıjkov da, Partiya Nəzarəti Komitəsinin sədri Solomentsev də, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri Çebrikov da Yeltsinin qeydlərində kifayət qədər tənqid olunurlar.

Lukyanov isə belə xatırlanır:

«O, qeyri-standart situasiyaları idarə edə bilmir. Partiya bürokratlarına xas olan bütün keyfıyyətlər – daxili azadlığın, düşüncə genişliyinin olmaması və s. onun xarakterində özünü büruzə verirdi».

D.T.Yazov – müdafiə naziri. Əsl döyüşçü və sərt adamdır. İşə canyandırandır. Ona dairənin, qərargahın idarəçiliyini tapşırmaq olar, amma müdafiə naziri vəzifəsi üçün hazırlığı kifayət qədər deyil.

V.V.Şerbitski – Ukrayna Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi. Qorbaçov ona toxunmur, ondan çəkinir. Bir vaxt Əliyevdən çəkindiyi kimi.

V.A.Medvedev – Mərkəzi Komitənin katibi, Siyasi Büronım üzvü. Onun ən böyük üstünlüyü mütiliyi və heç bir yeni ideyaya, fıkrə malik olmamasıdır».

Yeltsin öz keçmiş həmkarlarının hamısını təxminən belə xarakterizə edirdi.

Kremldə heç də hamı Qorbaçovla mülicəsinə razılaşmırdı. Rıjkov, Əliyev, Slyunkov, Maslyukov öz nəzər-nöqtələrini cəsarətlə müdafiə edirdilər.

Yuri Petroviç Batalin Heydor Əliyevin Siyasi Büro iclaslarında özünü necə müstəqil aparmasını xüsusi qeyd edir:

– Nazirlər Soveti hansısa məsələni Siyasi Büronun muzakirəsinə çıxaranda orada süni surətdə çıxılmaz vəziyyət yaradılırdı, – deyə Batalin o günləri yadına salır. – Mən görürdüm ki, Heydər Əliyev belə iclasların dramaturgiyasını, hansısa büro üzvlərinin davranışının səbəblərini çox yaxşı anladığına görə öz nəzər-nöqtəsini, Nazirlər Sovetinin mövqeyini həmişə böyük inadla, hətta bəzən sərtliklə müdafiə edərdi.

Yadımdadır, bir dəfə kimsə bunu Heydər Əliyevə irad tutdu. Deyəsən, irad tutan elə Qorbaçovun özü idi: «Heydər Əliyeviç, siz həmişə Nazirlər Sovetinin mövqeyini müdafıə edirsiniz. Axı, siz həm də partiyanın Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvüsünüz».

Heydər Əliyev heç vaxt söz üçün məəttəl qalmırdı. İndi də yubanmadan ləyaqətlə və dəqiq cavab verdi: «Mən hökumət iclaslarında aparıcı mütəxəssislərlə birgə müzakirə edilib qəbul olunmuş təklifləri müdafiə edirəm. Bizim dəqiq mövqeyimiz var. Və əgər bu təkliflər qəbul olunsa, bu, həm də partiyanın maraqlarına xidmət edəcək».

Bir sözlə, partiya bürokratları qarşısında Heydər Əliyeviç hökumətin mövqeyini qətiyyətlə, inamla müdafiə edirdi.

Bir çox hallarda onunla Qorbaçov arasında da ziddiyyətlər olurdu. Bəlkə də, Qorbaçovun onu istefaya göndərməsinin bir səbəbi də məhz bu idi.

– Deməli, Qorbaçov onu özünə rəqib bilirdi?

– Rəqib? Məncə yox, – Batalin cavab verir. – Qorbaçov Əliyevin timsalında qüvvətli opponentini görürdü. Əliyevin onunla müticəsinə razılaşmaması, öz mövqeyini qətiyyətlə müdafiə etməsi onun xoşuna gəlmirdi.

Belə səciyyəvi nümunələrdən biri də Çernobıl faciəsinə münasibətdə özünü göstərmişdi.

Heydər Əliyev xatırlayırdı:

– Həmin gün, şənbə olsa da, mən kabinetimdəydim, şənbə günləri həmişə işdə olurdum. Eşitdim ki, atom elektrik stansiyasında partlayış olub, amma təfərrüatlardan xəbərsiz idim. Nazirlər Sovetinin İşlər İdarəsinin müdiri Smirtyukovdan soruşdum. Axı, mən Sovet Sosialist Respublikaları İttifaqının hökumət başçısının müaviniydim, Siyasi Büronun üzvüydüm, amma nə baş verdiyini dəqiq bilmirdim. O dedi ki, Çernobıl Atom Elektrik Stansiyasında ciddi qəza baş verib. Bu hadisə günün sonunda olub.

Bazar günü işləmədim. Təbii ki, əlavə heç bir məlumat öyrənə bilmədim. Bazar ertəsi səhər isə Qorbaçov Siyasi Büro üzvlərinin iclasını çağırdı. Həm də iclas onun kabinetində keçirilirdi. Saat 10-11 arası zəng vurub məni də çağırdılar, həm də çox cüzi informasiya verdilər.

İsveç, Polşa, Almaniya və bir çox başqa Avropa ölkələri böyük radioaktiv şüalanma barədə informasiyalar yaymışdılar. Artıq Çernobıl faciəsi barədə məlumat, demək olar ki, bütün dünyaya yayılmışdı. Məhz belə vaxtda Qorbaçov iclas çağırmışdı.

Biz hiss edirdik ki, böyük bir faciə baş verib və nəsə tədbir görmək lazımdır. Belə hallar üçün nəzərdə tutulmuş tədbirlər, məncə, kifayət etmirdi. İndi özümü qəhrəman kimi göstərmək istəmirəm, məni düzgün başa düşün. Çıxış edib dedim ki, hadisəylə bağlı yubanmadan rəsmi açıqlama

vermək lazımdır. Həm də bu informasiya həqiqi olmalıdır. Çünki hadisələrin mahiyyəti artıq, demək olar ki, bütün Avropaya məlumdur. Yeqor Liqaçov mənim sözümü kəsib çımxırdı: «Axı siz nə istəyirsiniz? Hansı informasiyanı vermək istəyirsiniz?» Mən dedim: «İstəyirəm ki, hadisə barədə dəqiq informasiya verilsin. Axı biz belə böyük bir hadisəni gizlədə bilmərik».

Sonra Aleksandr Nikolayeviç Yakovlev də söz alıb mənim mövqeyimi müdafiə etdi, düzgün informasiya vermək lazım olduğunu dedi. Sonra biz görüşəndə Yakovlev Liqaçovun hərəkətlərindən narazı qaldığını bildirdi. Dedi ki, görürsünüz, yalnız siz və mən düzgün informasiya verməyin tərəfdarı olduq.

Amma Liqaçov o vaxt çox nüfuzlu idi və hadisələr heç də bizim istədiyimiz kimi cərəyan etmədi....

Ukraynanın Ali Radasının deputatı, məşhur şair Boris Oleynik deyirdi:

«Bu, çox vacib bir detal idi. Qorbaçovun özü Ukraynaya, Kiyevə gəlməkdən qorxurdu. Hətta Şerbitski «1 May» nümayişini təxirə salıb təhlükəli zonadan heç olmasa qocaları, uşaqları evakuasiya etmək fikrini bildirəndə, Qorbaçov yaman qəzəblənmişdi, demişdi ki, sən hədər yerə əhalinin arasında şayiə yayırsan. Heydər Əliyev mahiyyət etibarilə Qorbaçovu məcbur etdi ki, Ukraynada böyük bir faciənin baş verdiyini etiraf etsin. Hərçənd ki, bu etiraf Qorbaçovun siyasi nüfuzuna böyük xələl gətirmişdi... Biz isə Heydər Əliyevin mövqeyini unutmamışıq, onu çox qiymətləndiririk».

Yenə də Valeriy Boldinin xatirələrinə qayıdaq. «Siyasi Büronun iclaslarından birində Qorbaçov Heydər Əliyeviçi yaman sərt, kəskin şəkildə tənqid etdi, bundan sonra Heydər Əliyev infarkt keçirərək xəstəxanaya düşdü və bir-iki il ərzində özünə tam gələ bilmədi. Düzdür, Əliyevi tənqid etmək olardı, amma belə kəskin, sərt, amansız şəkildə tənqid etmək, Siyasi Büronun iclasında hörmətdən salmaq nəyə lazım idi? Axı büroda dostluq, yoldaşlıq, qarşılıqlı hörmət

üzərində qurulan münasibətlər olsaydı, məncə, daha yaxşı olardı. Əliyevi Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda istefaya göndərdilər, Qorbaçovun özü də onun ünvanına xoş sözlər dedi, amma stenoqram dərc olunanda dediyi xoş sözləri oradan çıxartdırdı».

Özünü böyük şəxsiyyət, müdrik rəhbər kimi göstərmək istəyən bir adamın belə hərəkətini nəylə izah etmək olar?

Qorbaçov müasirləri və hətta gələcək nəsillər yanında cidd-cəhdlə reputasiyasının qeydinə qalırdı, onu istədiyi şəkildə formalaşdırmaq üçün çox çalışırdı. Daha bir kiçik, amma çox səciyyəvi epizodu misal gətirək.

23 avqust 1985-ci il. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsində yeni Baş katib Mixail Qorbaçovun rəhbərliyi altında böyük iclas keçirilir. Sovet Sosialist Respublikaları İttifaqının 1986-cı il və on ikinci beşillik üçün iqtisadi və sosial inkişafı planı müzakirə olunur. Dövlət Kənd Təsərrüfatı Texnikası komitəsinin rəhbəri V.Yejevski çıxış edir. Deyir ki, kənd təsərrüfatı texnikasının çəkisini azaltmaq lazımdır.

– Maşınların, traktorların çəkisi bir ton azalarsa, – deyə o, üzünü Baş katibə tutur, – mühərriklər daha az qüvvə ilə işləyəcək və biz il ərzində, Mixail Sergeyeviç, 900 kiloqram dizel yanacağına qənaət etmiş olacağıq. Bundan əlavə, maşınların çəkisinin azalması kənd təsərrüfatı işləri zamanı əkin sahələrindəki torpağı daha az əzməyə, onun məhsuldarlığını artırmağa kömək edəcək. Beləcə, səmərəli profillərin tətbiq olunması burada ikiqat xeyir verəcək. Qorbaçov dillənir:

– Bir dayan görüm, məgər sən Kolpakovun maşın istehsalçılarına və metaldan istifadə edən başqa istehsalçılara nə dediyini eşitmədin?

Qara metallurgiya naziri Serafım Vasilyeviç Kolpakov öz sahəsinin çox bacarıqlı mütəxəssislərindən idi. Amma onun nə dediyi və ümumiyyətlə, maşınların çəkisinin azaldılması indi bizim üçün əhəmiyyətli deyil. Əhəmiyyətli olan işgü-

zar danışıq tərzi məsələsidir. Ölkənin və partiyanın rəhbəri özündən yaşca böyük olan nazirin sözünü çox ədəbsizcəsinə kəsir, bir sozlə, kobudluq edir.

Amma bilir ki, bu detal gərək tarixin səhifələrinə düşməsin. Onun üçün də iclasın stenoqramına Qorbaçovun təkidi ilə dəyişiklik edilir. «Dayan» sözünün əvəzinə «dayanın», «sən eşitdin» əvəzinə «siz eşitdinizmi» və sairə.

Kiçik də olsa, çox xarakterik detaldır.

Qorbaçovu yaxından tanıyan adamların onun haqqında yazdığı xatirələrə nəzər salanda, elə təsəvvür yaranır ki, söhbət iki ayrı-ayrı adamdan gedir. Boldin onu, yumşaq desək, səbrsiz, hövsələsiz adam kimi təqdim edir. Amma onun ikinci köməkçisi, milliyyətcə erməni olan Qeorgiy Xosrovoviç Şahnazarov isə çox həlim bir insan portreti çəkir:

«İnsanlarla münasibətdə Qorbaçov çox ədalətli və yumşaqdır. Onun kiminsə üstünə qışqırmağını eşitməmişəm. Əgər hansı məqamdasa hirslənib özündən çıxırsa da, tez özünü ələ alıb gülümsünür, əlini yellədir və xoşagəlməz epizodu unutmağı xahiş edirdi. Onun ümidlərini doğrultmayan işçilərlə isə çox yumşaq şəkildə, heç bir kin saxlamadan ayrılırdı. Qətiyyən kinli deyil. Öz siyasi rəqiblərinin heç birini nə həbsxanaya saldırmışdı, nə ölkədən qovmuşdu, nə də işsiz qoymuşdu».

Bax, belə bir «mələk» portreti. Oxucular özləri bu təsvirlərin nə qədər həqiqətə uyğun olduğu, yaxud bədbəxtlikdən bu böyük ölkənin başında oturan adamın nə qədər böyük və hiyləgər aktyor olduğu barədə nəticə çıxara bilər. Qeyd edək ki, seçimində öz səhvini ilk olaraq boynuna alan, Sovet Sosialist Respublikaları İttifaqı rəhbərliyində ən böyük nüfuz sahibi, Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin müavini, Sovet Sosialist Respublikaları İttifaqının xarici işlər naziri Andrey Andreyeviç Qromıko olmuşdu. Çernenkonun dəfnindən sonra məhz o, Siyasi Büroda Qorbaçovun Baş katib postuna seçilməsi məsələsini qaldırmış və onun namizədliyini israrla müdafiə etmişdi. Qorbaçova

köməyin əvəzində Siyasi Büronun veteranı Qromıkoya Sovet Sosialist Respublikaları İttifaqı Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsi söz verilmişdi.

Şahnazarovun dediyi «bu bütöv şəxsiyyətin» o biri həmkarları da çox keçmədən ayıldılar. Elan edilmiş yenidənqurma gözlənilən nəticəni vermədi. Belə də olmalıydı, çünki filosof yazıçı Aleksandr Zinovyevin dediyi kimi, yenidənqurma «yenidənqırma» («katastroyka») idi, konkret fəaliyyət proqramı yox idi, yalnız rabitəsiz, düşünülməmiş tədbirlər həyata keçirilirdi. O vaxtın tam mənzərəsi – ölkə boş sözlərin, vədlərin içində boğulur. Qoyulan məqsədlər demək olar ki, hər gün dəyişilirdi – elmi-texniki tərəqqinin sürətləndirilməsi, antialkoqol kampaniyası, möhtəkirliklə mübarizə, kooperativlərin yaradılması, azad, müstəqil seçkilər, bürokratiya ilə çarpışına, hakimiyyətin yenidən sovetlərə verilməsi, sonsuz sülh təşəbbüsləri...

Siyasi Büronun keçmiş üzvü, Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin sədri Anatoli İvanoviç Lukyanov Qorbaçovu belə səciyyələndirirdi: «Hər şeyi, hətta prinsipial məsələləri belə kompromis yolla həll etməyə çalışmaq xasiyyəti, şəraitin və şəxsi müşavirlərinin təzyiqi altında improvizə etmək bir bəla kimi daim insanların başının üstündən asılmışdı. «Hər şey düzələr» kimi laqeyd inam və hadisələrdən daim geridə qalmaq, prezidentin hər sözünün öz-özünə yerinə yetiriləcəyinə arxayınçılıq və başqalarının rəyini dinləməyi bacarmamaq, sözsüz, onun əsas cəhətləri idi...»

Çıxış yolu isə heç cür tapılmırdı. Xalq arasında narazılıq artırdı. Bütün mağazaların qarşısında növbələr düzülürdü, heç nə almaq mümkün olmurdu. Hətta məcburiyyət qarşısında əsas ərzaq məhsulları talonlarla verilirdi. Neft mədənlərində, şaxtalarda talonla verilən göyərmiş toyuqları iki adam arasında bölüşdürürdülər. Düşünülməmiş kadr dəyişiklikləri nəticəsində bəzi İttifaq respublikalarında, o cümlədən Qazaxıstanda milli münaqişələr alovlanmağa başladı. Qazaxıstanın indiki Prezidenti Nursultan Nazarbayevin

bu kitabın müəlliflərinə yazdığı məktubdan sitat gətirmək istərdik:

«Heydər Əliyev Siyasi Büroda yeganə adam idi ki, 1986-cı il Alma Ata hadisələrindən əvvəl Qorbaçovu düşünülməmiş addımlar atmaqdan çəkindirməyə çalışırdı. O israr edirdi ki, istefaya gedən Kunayevin əvəzinə Qazaxıstana kənardangəlmə kadr qoymaq olmaz, mütləq yerli kadrlardan birini təyin etmək lazımdır. Amma ona qulaq asan olmadı və respublika rəhbərliyinə mərkəzdən göndərilən kadrın təyin edilməsi xoşagəlməz hadisələrlə nəticələndi – xalq küçələrə toplaşıb nümayişlər keçirtməyə başladı və nəticədə hüquq-mühafizə orqanlarıyla qanlı toqquşmalar oldu.

Sonralar da Heydər Əliyev Kreml rəhbərliyini milli siyasətdə düşünülməmiş addımlar atmaqdan çəkindirməyə çalışırdı. Zaqafqaziyanı misal gətirirdi və ilk olaraq Qarabağ barədə həyəcan siqnalı verən də məhz o olmuşdu. Mənim fıkrimcə, məhz bu addım, rəhbərliyin səbr kasasını daşdırdı və bundan sonra onu istefaya göndərdilər».

Hər şey məhz belə olmuşdu. Siyasi Büroda Kolbinin Qazaxıstana birinci katib göndərilməsi məsələsinə baxılanda heç kim etiraz etməmişdi. İclasdan sonra isə Heydər Əliyev Qorbaçovun yanına gəlmişdi.

Heydər Əliyevin özü bu epizodu belə xatırlayırdı:

«Bilirsiniz, Mixail Sergeyeviç, uyğun şərait olmadığına görə iclasda sizə bir söz demədim. Amma indi bildirmək istəyirəm ki, insanların psixologiyasını az-çox bilirəm. Məncə, bu səhv təyinat idi. Düzdür, Kolbin çox yaxşı insandır. O, Ulyanovsk Partiya Komitəsinə rəhbərlik edən vaxt özünü çox bacarıqlı rəhbər kimi göstərmişdi, hərçənd ki, bəzən saxtakarlığa da yol verirdi. Bunu hamı bilir. Dediyim odur ki, Kolbini Rusiyanın ən böyük partiya təşkilatına rəhbər göndərə bilərsiniz. O, çox yaxşı işləyəcək. Amma Qazaxıstan üçün o, yararlı deyil. Nəzərə alın ki, səhv addım atırsınız. Qorbaçov təəssüflə və qəzəblə mənə baxıb dedi: «Yaxşı, baxarıq». Beləliklə, mən öz vəzifə borcumu yerinə yetirdim».

Moskvada yaşayıb çalışdığı illəri xatırlayan Heydər Əliyev həmişə deyərdi ki, mən ayıq siyasətçi olduğuma görə düşünülməmiş, elmi cəhətdən, yaxud praktikada sınaqdan keçirilməmiş nəzəri reformaların həyata keçirilməsi ilə razılaşa bilməzdim. «Siyasi Büronun iclaslarında mahiyyətcə avantüra olan bir çox planların əleyhinə kəskin çıxış edirdim və qeyd edim ki, bir çox hallarda Qorbaçovu düşünülməmiş qərarlar qəbul etməkdən çəkindirə bilirdim. Amma mənim əsas «opponent»im olan Yeqor Liqaçovun düşündüyü antialkoqol kampaniyasının qarşısını almaq heç cür mümkün olmadı. Üzümçülüklə məşğul olan respublikalara, o cümlədən də Azərbaycana hədsiz ziyan vuruldu, bütöv üzüm plantasiyaları məhv edildi, zavodlar bağlandı».

Əliyev özünü sərbəst aparırdı, Qorbaçovun dəyişkən fikirlərinə uyğunlaşmırdı, öz fikirlərini, haqlı bildiyi mövqeyini inadla müdafiə edirdi. Məhz buna görə də Qorbaçov və onun əhatəsi Heydər Əliyevdən yaxa qurtarmaq qərarına gəldilər.

Açıq, gizli hücumlar...

Beynəlxalq Gənclər Günü çərçivəsində Heydər Əliyev tərəfindən təqdim olunan təkliflərdən biri də peşə məktəbləri tələbələrinin əl işlərinin sərgisini keçirmək idi. Bu sərgini ÜİXTN-də (Moskvada Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətlərinin böyük sərgi kompleksi) təşkil etməyi planlaşdırırdı. Hazırlıq ərəfəsində Liqaçov göstəriş verdi ki, sərgi Mərkəzi Komitənin himayəsi altında keçirilsin.

Aleksandr Timofeyeviç Qavrilov bunu belə xatırlayır:

– Sərgi açıldı. Yuri Petroviç Batalin çıxış etməyə başladı. Nə barədə isə danışırdı... Heydər Əliyeviç onun sözünə nəsə əlavə etdi. Bunu görən Liqaçov çox sərt bir şəkildə ona baxdı və dedi ki, Batalin məruzə edirsə, bizə başqa məruzəçi lazım deyil.

Siyasi Büronun bir üzvü digər üzvünə qarşı belə kobudluq edir, həm də hamının gözü qarşısında. Mən Liqaçovun

bu replikasını eşidəndə xəcalət çəkdim. Hər halda, Əliyev də onun kimi Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, Nazirlər Sovetinin sədr müavini idi. Lap tutalım Əliyev heç bu vəzifələrin sahibi deyil. Məgər onun Batalinin çıxışına bir-iki kəlmə əlavə etməsində nə qəbahət var ki?

Biz Qavrilovdan soruşuruq:

– Yəqin ki, onlar artıq Siyasi Büroda Əliyevə «hökm» çıxarıbmışlar?

– Hə, eləydi. Qorbaçovla Liqaçov və Yakovlev öz aralarında artıq Əliyev barədə hökm çıxarmışdılar.

Aleksandr Timofeyeviç öz bioqrafiyasından olduqca maraqlı bir epizodu xatırlayır. Heydər Əliyevin katibliyinin rəhbərinə Qavrilovun sərbəstliyi, şefin yanına istənilən vaxt girib çıxmağı bir o qədər də xoş gəlmirdi. Qavrilovun səylərinə baxmayaraq, onların arasında bəzən müəyyən narazılıq qığılcımları yaranırdı. Aleksandr Timofeyeviç hətta dostlarından xahiş etmişdi ki, omın üçün başqa bir iş yeri axtarıb tapsınlar. Bu söhbət Yakovlevə gedib çatır və o, bir dəfə Qavrilovdan soruşur:

– Hə, orada işlər necə gedir? Onunla yola gedirsənmi?

– Özüylə münasibətim çox yaxşıdır, amma ətrafındakılarla müəyyən problemlərim var.

Qavrilov davam edir:

– Hiss elədim ki, dediklərim Yakovlevin heç xoşuna gəlmədi. Yəqin o, mənim Heydər Əliyeviç barədə mənfi fikirlər söyləyəcəyimi gözləyirmiş. Mənimlə Heydər Əliyeviçin arasında isə sırf işgüzar münasibətlər vardı, onun haqqında pis heç bir fikir deyə bilməzdim. Buna əsas yox idi.

– Fikir eləmə, – Yakovlev sözünü bitirdi. – İdeologiya sahəsində sənə həmişə yer tapılar.

Bundan sonra hadisələr belə cərəyan etməyə başladı. Qavrilova Partiyanın Mərkəzi Komitəsinin təbliğat şöbəsində sektor müdiri vəzifəsi təklif etdilər. Amma Yakovlev ona belə dedi: «Mən Heydər Əliyevə zəng vurmaq istəmirəm,

yaxşı deyil. Sən özün ərizə yazıb onun yanından çıx, sonra biz səni dediyim vəzifəyə götürərik».

– Yox, mən bunu edə bilmərəm, – deyə Qavrilov cavab verdi...

Biz Qavrilovla onun indiki kabinetində, «Rossiyskaya qazeta»nın binasının beşinci mərtəbəsində söhbət edirik. Stolunun üstü yeni nəşr olunmuş kitablarla doludur, iki fıncan qəhvəni ortaya qoymaq üçün çox çətinliklə yer tapılır.

Qavrilov sözünə davam edir:

– Şəxsən mən belə düşünürəm: Əliyev Brejnevin vaxtında gəlsə də, ona təqdimatı, zəmanəti Andropov vermişdi. O da Şevardnadze kimi, Brejnevin sevimlisi idi. Amma əslində Əliyev Andropovun kadrıydı. Bir zamanlar Dzerjinskiyə olduğu kimi, Heydər Əliyevə də nəqliyyatı tapşırdılar ki, oranı qaydaya salsın. O, nəqliyyata çox böyük əhəmiyyət verirdi və nəqliyyat naziri Konarevlə çox səlis işləyirdi. Onların arasında çox gözəl dostluq, yoldaşlıq münasibətləri vardı. Qorbaçova, Yakovlevə, Liqaçova belə adamlar lazım deyildi. Bu dəhşətli bir şeydir...

Bir vaxtlar Uinston Çörçill Sovet Sosialist Respublikaları İttifaqındakı siyasi mübarizəni buldokların xalça altında boğuşmasına bənzətmişdi. Qorbaçovla Yakovlev də istənilən metodlardan istifadə edərək öz komandalarını formalaşdırdılar. Liqaçova isə çox güman ki, Heydər Əliyevi nüfuzdan sala biləcək hansısa saxta bir sənəd göstərmişdilər və o da öz növbəsində güclülərə qoşulmağa üstünlük vermişdi.

– Mən hesab edirəm ki, Əliyev Siyasi Büroda çox müsbət rol oynayırdı. O, idarəçiliyin əxlaqi normalarına cidd-cəhdlə riayət edirdi, heç vaxt Nikolay İvanoviç Rıjkova badalaq gəlməyə çalışmamışdı. Onlar əl-ələ verib işləyirdilər.

Əliyevə hücum gizli şəkildə hazırlanırdı. Və böyük siyasətdə olduğu kimi əsas zərbə başqalarının əliylə vurulmuşdu. Zahirən ali məqsədlərlə.

1987-ci ildə bu kitabın müəlliflərindən biri «Sosialistiçeskaya industriya» qəzetində işləyirdi. O zaman baş verən

belə bir hadisə yada düşür: «Bir dəfə baş redaktor Mərkəzi Komitədən gələndən sonra redaksiya kollegiyasını toplayıb bizə tapşırıq verdi ki, Azərbaycanda, Bakıda baş verən mənfi hadisələr barədə informasiyalar toplayaq. Əliyev onda hələ Siyasi Büronun üzvü idi, zərbə isə artıq hazırlanırdı.

Partiya mətbuatında Azərbaycan haqqında tənqidi materiallar seriyası dərc olundu. «Sosialistiçeskaya industriya» qəzetində də bu xüsusda tənqidi materiallara yer verilmişdi. Bu, dolayı yolla da olsa, Əliyevə vurulan zərbə idi, hərçənd ki, zahirən söhbət yalnız böyük şəhərin – Bakının sosial problemlərindən gedirdi; Əliyevin təşəbbüsü ilə Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin qəbul etdiyi «1985-90-cı illərdə Bakı şəhərində şəhər təsərrüfatının daha da inkişaf etdirilməsi haqqında» qərar da yada salınırdı.

1987-ci il mayın 10-u bazar gününə düşmüşdü. Katibliyin üzvləri Heydər Əliyevi ad günü münasibətiylə bazar ertəsi təbrik etdilər. Amma bu təbriklərdə bir az çaşqınlıq vardı. Çünki səhər poçtunda nə Qorbaçovun, nə də Siyasi Büronun digər üzvlərinin göndərdiyi təbriklərdən əsər-əlamət yox idi. «Starıy ploşad»dan heç kəs onu təbrik etməmişdi. Aleksandr Qavrilov xatırlayır:

– Mən başa düşdüm ki, onu vəzifədən uzaqlaşdırmaq istəyirlər. Amma axı, bu gün onun ad günüydü. Neçə illər həmkar olmusunuz. O, Siyasi Büronun üzvüdür, hökumət başçısının müavinidir. Amma nə Qorbaçov, nə də onun əhatəsindəki şəxslər Əliyevi təbrik etdilər. Həmin gün onu ilk təbrik edən çox mərd bir insan – nəqliyyat naziri Konarev oldu. Düzdür, sonra biz sənədləri ona təqdim edəndə, Əliyev dedi ki, Qorbaçov onun maşınına zəng vurub ad gününü təbrik etmişdi.

Həmin bazar ertəsi Əliyev özünü çox pis hiss etdi. Çağırılan həkim dedi ki, onu tez xəstəxanya yerləşdirmək lazımdır. Əliyev isə etiraz etdi.

– Mən sizi mütləq xəstəxanaya yerləşdirməliyəm. Siz öz işlərinizə görə cavabdehsiniz, mən də öz işimə. Təkrar edirəm, təcili olaraq xəstəxanya getməlisiniz.

Heydər Əliyeviç özü «Təcili yardım» maşınına qədər getmək istədi, amma dəhlizdə özündən getdi. Onu maşına qədər xərəkdə aparmalı oldular.

Nəqliyyat naziri Konarev tez-tez onun yanına gəlirdi. Yaxşı, bos Siyasi Bürodakı «silahdaşları»? Doğrudanmı, adi insani hisslər də onlara yad idi? Bəli, deyəsən, məhz belə idi... Yalnız Nikolay İvanoviç Rıjkov Əliyevin yanına, xəstəxanya gəlmişdi. Rıjkovun özü bunu belə xatırlayır:

– İllər ötəndən sonra Heydər Əliyev mənə belə bir etiraf etdi: «Mənə elə gəlmişdi ki, Nikolay İvanoviç «acı həb»in təsirini yumşaltmaq üçün gəlmişdi».

Mən həqiqətən Əliyevə hörmətlə yanaşırdım. Bilirdim ki, yüksək vəzifəli şəxslərdən heç kim ona baş çəkməyə getmir. İndiyədək dəqiq yadımdadır, xarici ölkələrin hansınınsa baş nazirini yola salıb evə qaydırdım və fikirləşdim: niyə mən də kimlərinsə cərgəsinə qoşulmalıyam? O mənim birinci müavinimdir. Sonra xəstəxanaya zəng vurub, hal-hazırda prosedurlar aparılıb-aparılmaması ilə maraqlandım və sürücüyə söylədim: " Maşını döndər, Miçurinkaya gedirik!" Yanına gəldim. Həqiqətən məni görüb çox sevindi və gülərüzlə qarşıladı. Yalnız sonralar etiraf etdi ki, öz zənnində yanılmışdır.

Səhhəti haqqında elə çox danışmadıq. İnsan xəstədir, hələ bir yanında onun xəstəliyini müzakirə edəsən, düz çıxmazdı. Əlbəttə, lətifə də danışmadıq. İşdən danışdıq. İşlər necə gedir, harda yaxşı, harda pisdir.Yaxşı, normal söhbətimiz oldu.

Əlbəttə, Heydər Əliyevə baş çəkməyimi Qorbaçova dərhal çatdırmışdılar. Amma o, elə də axmaq adam deyildi ki, buna görə mənə açıq iradını bildirsin. Hətta üz-üzə də bu görüşdən necə qəzəbləndiyini büruzə vermədi.

Qorbaçov qarşısına belə bir məqsəd qoymuşdu: ətrafını yaxşıca təmizləsin. Və bu işdə Liqaçov ona fəal şəkildə

kömək edirdi. Ətrafdakı meydança addım-addım təmizlənirdi. Bütün bunlar heç yaxşı hal deyildi. Heç...

Nikolay İvanoviç belə bir hadisəni də yadına salır:

– Əliyevin oğlunamı, qızınamı, indi dəqiq yadımda deyil, mənzil lazım idi. Onun ailəsini mən bir o qədər də yaxşı tanımırdım, arvadını cəmisi bir, ya iki dəfə görmüşdüm, amma həyat yoldaşım Lyudmila onun xanımını daha yaxşı tanıyırdı.

Müxtəsəri, onlara mənzil lazım idi və biz qərara gəldik ki, onlara «Oktyabrskaya» mehmanxanasının yanındakı binada mənzil ayıraq. İndi bu mehmanxananın yerində «Prezident-otel» yerləşir... Bina Mərkəzi Komitəyə məxsus idi, amma Nazirlər Soveti ilə Mərkəzi Komitənin İşlər İdarəsi birgə işləyirdilər, bəzən biri-birinə mənzil də ötürürdülər. Bir sözlə, mənzil məsələsi danışılıb razılaşdırıldı. Və birdən Əliyev mənim yanıma gəlib dedi ki, bizə mənzil vermək istəmirlər. Mən Mərkəzi Komitənin İşlər İdarəsinin rəisi Kruçinə zəng vurdum, nə fikirdə olduğunu soruşdum. O, əvvəlcə nəsə bəhanə edib cavabdan boyun qaçırmağa çalışdı. Amma mən əl çəkmədim:

– Qulaq as, axı bu düzgün iş deyil, tərbiyəsizlikdir. Əliyev hələ dünənəcən Siyasi Büronun üzvü idi, indi də Nazirlər Soveti sədrinin müavinidir. Ailəsi artıq köçməyə hazırlaşırdı. Biz səninlə Moskvaya birlikdə gəlmişik, bir yerdə Mərkəzi Komitədə işləmişik. – «Başa düşürəm, Nikolay İvanoviç», – dedi.

«Onda bu nə hoqqadı?»

Nə isə, sonra Smirtyukova zəng vurdum, məsələni yoluna qoyduq...

– Heç şübhəsiz ki, bu işlərin təşkilatçısı Smirtyukovla Kruçin deyildi, əmr yuxarıdan gəlirdi.

– Əlbəttə ki... Daha bir hadisə danışım. Əliyevi artıq bütün vəzifələrdən azad edəndən sonra biz oturub üç saat açıq söhbət etdik. Mən dedim ki, seyfimdə səninlə bağlı sənədlər var. Vərəqləyib göz gəzdirmişəm.

O cavab verdi:

– Nikolay İvanoviç, mən bilirəm onları kim yazıb. Sizdə də, Qorbaçovda da, Yakovlevdə də eyni cızma-qaralardı... Bu, əxlaqsız adamların qisasıdır.

Çay süfrəsi arxasında Nikolay İvanoviç Rıjkov Heydər Əliyevdən dillər əzbəri olan məşhur üzük əhvalatı barədə soruşur:

– Heydər Əliyeviç, deyirlər ki, siz Brejnevə Bakıya gələndə çox qiymətli bir brilyant üzük bağışlamısınız. O, Rəyasət Heyətində oturub bu üzüyü barmağında fırlatmaqla məşğul imiş. Bütün işıqlar Baş katibin üstünə yönəlmişdi və biz hamımız teleekranda üzüyün parıltısını görürdük.

– Nikolay İvanoviç, bütün bunlar şayiədir, – deyə Heydər Əliyeviç cavab verdi. – Bu mənim nəyimə lazımdır, – bunu deyib siyirtmədən bir jurnal çıxartdı. Üz qabığında Brejnevin təyyarəsinin şəkli verilib. Heydər Əliyev və başqa vəzifəli şəxslər Brejnevi trapın qabağında qarşılayırlar. – Mən ev sahibi kimi ədəblə təyyarəyə daxil olub ona dedim: «Xoş gəlmisiniz, Leonid İliç, buyurun, birgə gedək». Adət beləydi. Sizcə, mən elə təyyarəyə daxil olan kimi üzüyü onun barmağına keçirtmişəm? Baxın bu şəklə, mən təyyarədə onu qarşılayanda da, o təyyarədən düşəndə də üzük artıq onun barmağındaydı. O, üzüklə gəlmişdi. Doğrudanmı fikirləşirsiniz, mən o qədər sadolövhəm ki, Azərbaycan torpağına qədəm qoyan qonağa o saat hədiyyə vermək istəyim?

– Ümumiyyətlə, aramızda çox açıq bir söhbət oldu, – deyə Rıjkov davam edir. – Mən ona inandım və bir neçə gün sonra dediyim sənədləri götürüb Qorbaçovun yanına gəldim. Biz onunla hər gün, bəzən də gündə iki-üç dəfə görüşürdük. Baş katib qovluğu görüb gülümsünərək dedi: «Məndə də bu sənədlərdən var». Dedim: «Mixail Sergeyeviç, mən Əliyevlə danışdım». O – «Nə olsun ki?» – dedi. «Məncə, bu kağızları uzaq bir yerə atıb onların varlığını unutmaq lazımdır», – söylədim və belə də etdim. Heydər Əliyevin əleyhinə ya-

zılmış sənədləri bir kənara atdım. Amma Qorbaçov ondakı sənədləri neylədi, bunu bilmirəm.

Baş katibsə bu sənədləri unutmadı. Əliyevə qarşı böyük bir proses hazırlanırdı. Qorbaçovun dediklərini onun köməkçisi Çernyayev belə xatırlayır: «Rəşidovunkundan da böyük bir proses gözlənilir». Əlbəttə ki, bütün bu işlər Heydər Əliyevi cəmiyyət qarşısında nüfuzdan salmaqçün görülürdü. Amma Qorbaçovun istədiyi gurultulu proses alınmadı, çünki Heydər Əliyevin əleyhinə toplanmış faktların heç biri təsdiqlənmədi, hamısı saxta çıxdı. Komissiyanın çoxsaylı yoxlamalarından sonra Yakovlevin özü də bu qərara gəldi. Partiya Nəzarəti Komitosinin sədri Puqo da ona məhz belə məruzə etdi: «Cinayət işi qaldırmağa heç bir ciddi əsas yoxdur».

A.N.Yakovlev çox cidd-cəhdlə bolşevikləri özlərinin olan və olmayan günahlarını etiraf etməyə çağırırdı. Amma nəyə görəsə öz günahlarından, heç olmasa Əliyevə, onun ailəsinə divan tutmasından peşmançılıq çəkmədi. Guya ki, onun bundan heç xəbəri yoxmuş.

Heydər Əliyev təyyarə qəzasında həlak olan məşhur jurnalist Artyom Borovikə bu barədə belə demişdi:

– Bilirsiniz, Artyom, nə yaxşı ki, Zərifə xanım mənim Siyasi Büro üzvlüyündən qovularkən məruz qaldığım təhqirlərin, çəkdiyim iztirabların şahidi olmadı.

Artyomun dediklərini rejissor Vaqif Mustafayev filmində göstərib. Artyom Borovik bu filmdə daha bir detalı danışır: «O, vaxt Heydər Əliyeviç Eduard Şevardnadzeyə zəng vurub demişdi ki, heç olmasa, İlhamdan əl çəkin, onun başını dəyənəkləməyin. O vaxt İlham Əliyevin müəllim olduğu Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu da xarici işlər naziri Eduard Şevardnadzeyə tabe idi.

– Amma buna baxmayaraq, – deyə Artyom Borovik davam edir, – İlhamı institutdan kənarlaşdırdılar. Həm də o vaxt ailənin bütün maddi yükü onun üstündə idi. Ümumiyyətlə, bu ailə ömrü boyu çox əziyyətlər çəkib».

İlham Əliyev hələ altı yaşı tamam olmamış birinci sinfə gedib. On altı yaşı tamam olmamış isə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun tələbəsi olub. Ali məktəbi bitirəndən sonra ona Qərbi Avropa ölkələrindən birində sovet səfirliyində işləməyi təklif ediblər. Belə təyinatlar çox mötəbər iş sayılırdı: Parisdə, Londonda, Romada, Brüsseldə və s. bu kimi şəhərlərdə Sovet Sosialist Respublikaları İttifaqının vəzifəli şəxslərinin övladlarından bir çoxu diplomatik fəaliyyət göstərirdi. Amma İlham, bəlkə də, atasının məsləhətiylə belə bir mötəbər təklifdən imtina edib. Heydər Əliyev həm oğluna, həm də qızına elmlə ciddi məşğul olmağı tapşırmışdı. İlham doğma institutun aspiranturasına daxil olub, «Son illər İngiltərə tarixində müharibə əleyhinə xalq hərəkatları» mövzusunda mükəmməl bir dissertasiya müdafiə edib, tarix elmləri namizədi kimi dərs deməyə başlayıb. Gənc alimi həmkarları çox yüksək qiymətləndirirdilər. Amma atasını vəzifədən kənarlaşdırandan sonra İlhamı da işdən uzaqlaşdırdılar.

– Yəqin ağır idi? – deyə neçə illər ötəndən sonra Bakıdakı «Günay» qəzetinin jurnalisti bu barədə İlham Əliyevdən soruşurdu.

– Çox ağır idi, – İlham gizlətmədi, – mən nəzarət altında yaşayırdım. Təsəvvür edə bilmirdim ki, nə vaxtsa Bakıya qayıda bilərəm. Bizneslə məşğul olmağa başladım, işlərim də pis getmirdi. Buna baxmayaraq. Moskvadan getməli oldura. Azərbaycana gəlmək müınkün deyildi. Bakıda vəziyyət təhlükəli idi. Buna görə də Türkiyəyə üz tutdum. Moskvadakı kompaniyalarıma oradan nəzarət edirdim.

Əliyevin istefasından sonra jurnalistlər Rıjkovdan söz almağa çalışırdılar:

– Siz onunla birgə işləmisiniz. Deyin görək, o pis adamdır?

– Əgər mən desəm ki, o yaxşı adamdır, siz bunu yazacaqsızmı? Bu, sizinçün maraqlı deyil? Mən həmişə demişəm, indi də deyirəm ki, bu adama daş atmayacağam. Bəli, biz birlikdə işləmişik və o, yaxşı işləyib.

Rıjkov «Vnukovo» aeroportunda baş verən bir hadisəni də xatırlayır:

– Uçuş ərəfəsində oturub çay içirdim. Birdən tanımadığım bir azərbaycanlı mənə yaxınlaşıb dedi: «Nikolay İvanoviç, gəlin, bir qədəh şampan içək. Mən sizinlə bizim Heydər Əliyevin sağlığına içmək istəyirəm. Siz ona daş atmayan yeganə adam oldunuz».

Amma bu hadisə çox-çox sonralar olmuşdu. Hələliksə, Qorbaçov «kartları qatışdırırdı», öz ətrafını artıq ikinci, üçüncü dəfə dəyişməklə məşğul idi.

Nəhayət, növbə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin, sonra isə Prezident şurasının üzvü olan akademik Yevgeni Maksimoviç Primakova çatdı. Akademik Primakov əvvəllər Heydər Əliyevin oturduğu kabinetdə əyləşirdi. 1991-ci il hadisələriylə bağlı Primakov yazır:

«Sovet İttifaqı Kommunist Partiyasının XXVIII qurultayından sonra mən bütünlüklə özümü Prezident şurasındakı işimə həsr etdim. Təkcə xarici-iqtisadi əlaqələr məsələləriylə yox, başqa problemlərlə də məşğul olurdum. Qorbaçovla münasibətlərim də çox yaxşı idi, mən çox kəskin və fıkrimcə, təxirəsalınmaz problemləri ortaya qoyurdum. Amma bu problemlərin qoyuluşu müəyyən gərginlik yaradırdı. Etiraf edim ki, məni ən çox əsəbiləşdirən – qanunun hökmranlığının möhkəmləndirilməsinə yönəldilmiş tədbirlərin kifayət qədər qətiyyətli olmamasıydı».

Amma bu hal Qorbaçovu qane edirdi, onun bütün mahiyyəti elə bu idi. Primakovun iradına cavab olaraq, bir dəfə o, demişdi ki, «başqa bir quruluşa keçid dövründə cəmiyyətdə vətəndaş toqquşmaları yaratmaq istəmirəm. Dediyiniz sərt tədbirlər məhz belə toqquşmalar yarada bilər».

Primakov hesab edir ki, Qorbaçov öz fikirlərində yalnız qismən haqlı olurdu. Dövlət çevrilişinə cəhd də elə bu yarımçıqlığın nəticəsi idi. Son nəhayətdə də onların sərt telefon söhbətini Qorbaçov kobud şəkildə bu cür yekunlaşdırmışdı:

– Mən görürəm ki, siz ümumi mexanizmə uyğun gəlmirsiniz.

Qorbaçovdan çox-çox əvvəl oxşar ifadəni öz həmkarlarına ınüraciətdə Stalin işlətmişdi: «Siz sərt döngədə arabadan düşmüsünüz»... Orada «arabadan düşmüsüz», burada isə «uyğun gəlmirsiz»... Yəqin ki, Mixail Sergeyeviçin özü heç vəchlə Stalinə bənzədilməyini istəməzdi. Amma xarakterləri, düşüncələri nə qədər fərqli olsa da, onların hər ikisi öz opponentlərindən eyni sərtliklə yaxa qurtarırdılar. Düzdür, Stalinin opponentləri həbs düşərgələri, Qorbaçovun opponentləri isə «eləcə» infarktla cəzalandırılırdılar. Əliyev kimi, Rıjkov kimi...

Nikolay İvanoviç Rıjkov dəfələrlə Qorbaçovla təklikdə görüşüb onu inandırmağa çalışmışdı ki, Baş katibin iqtisadi kursu ölkəni uçuruma aparır.

– Siyasi Büronun son iclaslarında məsələ hətta qışqır-bağıra, söyüşə qədər böyüyürdü, – deyə Rıjkov xatırlayır. – Onunla daban-dabana zidd gedirdik. Açıq şəkildə bir-birimizi təhqir edirdik. Bir dəfə belə sərt iclasların birindən sonra Qorbaçova zəng vurub dedim ki, daha belə olmaz, Siyasi Büronun iclaslarında kənardan dəvət olunmuş adamlar, müxtəlif sahələr üzrə mütəxəssislər iştirak edir. Onlar bizim aramızdakı bu didişmələrin xəbərini bütün Moskvaya yayırlar. Axı, biz insanıq, belə iclaslardan sonra isə səhərə qədər əsəbdən adamın gözünə yuxu getmir. Mixail Sergeyeviç ertəsi gün – şənbə günü görüşməyi təklif etdi.

Mən onsuz da həmişə şənbə günləri iş başında olardım, o isə yox... Söhbətimiz bitəndə hiss etdim ki, Raisa Maksimovna o biri otaqda imiş.

Mən əmin oldum ki, onunla mövqeyimiz bir-birinə tam ziddir... Yakovlevlə Medvedev də onunladırlar... Bunlar elə adamlar idi ki, ömrü boyu heç bir faydalı iş görməmişdilər, onların adıyla çap olunan kitabları belə oxumamışdılar, hər hansı divara bir çürük mismar da vurmamışdılar.

Bizim həmsöhbətlərimizin dediklərinə görə, Heydər Əliyev həm Mərkəzi Komitədə, həm də Nazirlər Sovetində üzərinə düşən böyük həcmli işlərin öhdəsindən uğurla gəlirdi. O, bu zəhmətinə görə iki dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adına və «Oraq və çəkic» medalına layiq görülmüşdü. Heydər Əliyev Çexovun sözlərini tez-tez təkrar edirdi: «Əsas – işdir, yerdə qalan şeylər düzələr».

Xəstəxanada da özünü bir az yaxşı hiss edən kimi, yenə də işə qayıtmaq istədi. Ona tabe olan nazirləri, idarə rəhbərlərini iclaslara çağırdı. Köməkçilər onun göstərişlərini yazırdılar. Nazirlər Sovetinə qayıdanda isə həmkarlarının şəfqətli baxışlarıyla qarşılaşdı.

– Bizə batmaqda olan adamlar kimi baxırdılar, – deyə Aleksandr Qavrilov söhbətinə davam edir.

Filipp Denisoviç Bobkov özünün kəşfiyyatda və böyük siyasətdəki fəaliyyəti boyu çox şeylərin şahidi olub: yaxşı bilir ki, olimp zirvəsində simpatiya və antipatiya necə yaranır, hansı mürəkkəb qurğular, hansı ittifaqlar qurulur, kim kimə qarşı kiminlə dostluq edir, kimi batırırlar.

Qorbaçovun Əliyevə münasibətinə onun verdiyi qiymət qəti idi:

– Bu tamamilə mənfi münasibətdir. Tamamilə! Belə deyək də, Andropovun Əliyevə olan çox yaxşı münasibətinin tam əksi. Andropov güclü şəxsiyyətlərdən, müstəqil düşünən insanlardan qorxmurdu, onları qiymətləndirir və irəli çəkirdi. Qorbaçov isə belə insanlardan qorxurdu və onlardan canını qurtarırdı – Əliyevdən, Romanovdan, elə Yeltsinin özündən, Rıjkovdan, Batalindən, Kiyevdə – Şerbitskidən, Alma Atada – Kunayevdən.

Yeltsini Siyasi Burodan uzaqlaşdırandan sonra Qorbaçov ona Dövlət Tikinti Komitəsinin sədri postunu təklif etdi. Yeltsin belə hədiyyəni gözləmirdi – Sovet Sosialist Respublikaları İttifaqı naziri! Dərhal da razılıq verdi. Qorbaçov onda dedi: «Ancaq səni bir də siyasətə yaxın buraxmayacağam». O hələ özünü hakimi-mütləq hesab edirdi: buraxmayaca-

ğam! Adamları şahmat taxtasındakı fiqurlar kimi irəli-geri çəkirdi. Ancaq özü artıq ölkəni uduzmuşdu.

Yeri gəlmişkən, o, ölkə haqqında düşünürdümü? Doğrudur, yeri gələndə populyar mahnıdakı bu sözləri təkrarlayırdı: «Qoy yaşasın doğma ölkə...».

Yuri Petroviç Batalin Moskvada Heydər Əliyeviçlə son görüşlərini belə xatırlayır:

– Bu, artıq onun istefasından sonra Miçurinsk küçəsindəki xəstəxanada olmuşdu. Biz həmişəki kimi çox mehriban salamlaşıb söhbət etdik. O vaxt Heydər Əliyevin zahiri görkəmi də çox dəyişilmişdi – xəstəhal, yorğun görünürdü, xeyli arıqlamışdı. Biz bir kənara çəkilib oturduq. Və o, maraqlı bir fikir söylədi. Məzmunu lap dəqiq yadımda deyil, amma təqribən beləydi:

«Hər halda mənim axırıma çıxa bilmədilər, salamat qala bildim. İndi mən dirçələcəyəm, mütləq». Məlum məsələydi ki, o, təkcə fıziki sağlamlığı nəzərdə tutmurdu. Şayiələrə görə, onu fiziki cəhətdən də aradan götürmək istəmişdilər, amma buna nail olmamışdılar.

Belə bir sualın əsl yeridir:

«Hətta istefaya çıxandan sonra belə, görəsən, Heydər Əliyev kimə mane olurdu?» Moskvadakı «tale hökmranları»namı? Əliyev Qorbaçovun, Yakovlevin iç üzünə yaxşı bələd idi, onlara qarşı çıxış edirdi. Ancaq burda iş hər şeydən əvvəl, zorla sırınmış nəzarət servisi ilə məhdudlaşırdı: izləmək, qulaq asmaq və buna bənzər işlərlə. Əliyev bir çoxlarına, o cümlədən Moskvadakı erməni həmkarlarına, məsələn, Sovet Sosialist Respublikaları İttifaqı neft və qaz sənayesi tikintisi naziri Arakelyana deyirdi ki, «əgər mən həmin vaxt Azərbaycanda olsaydım, nə Qarabağ, nə Sumqayıt hadisələri baş verməzdi».

– Buna şübhə yoxdur, – Yuri Petroviç Batalin əlavə edir, – mən buna əminəm. Əliyev Qarabağdakı müharibəni dayandıra bildi. Danışıqlar başlandı. Və danışıqlar nə qədər uzun çəksə də, döyüşlərdən, müharibədən daha yaxşıdır.

Miçurinsk prospektindəki xəstəxanaya Heydər Əliyevlə eyni vaxtda yazıçı Albert Lixanov da düşmüşdü. Albert Anatolyeviç o günləri belə anır:

– Siyasi münasibətlərin ustası olan adamlar bilirdilər ki, artıq Heydər Əliyevlə ünsiyyətdə olmaq təhlükəlidir. Mənsə ona baş çəkməyi qərara aldım. Həmin vaxt onun yanına İlham da gəlmişdi və elə görünürdü ki, nə üçünsə kefi pozulmuşdu. Amma mən gələndən sonra İlham ədəblə xudahafızləşib çıxdı, bizsə axşama qədər ürəkdən söhbət etdik.

Heydər Əliyevin yerləşdirildiyi palata Lixanovu yaman təəccübləndirmişdi. Bura çox darısqal, şəraitsiz bir palataydı.

– Hətta mənim qaldığım palata da bundan yaxşıydı. Amma bir az əvvəl baş çəkdiyim partiya rəhbərlərindən birinin yatdığı palata isə tamam lüks kimi hazırlanmışdı. Öz şəxsi mətbəxi, bufeti vardı. Düzü, Əliyevə görə çox dilxor oldum.

Həmin uzun qış axşamı Heydər Əliyeviç mənimlə çox səmimi, açıq söhbət etdi.

– O, Naxçıvanı, ailəsini, öz həyatını necə qurduğunu, necə irəli getdiyini xatırladı. Hiss olunurdu ki, xatirələrə dalmaq ona zövq verir, – deyə Lixanov qeyd edir. – Sonra müasir dövrümüzə gəlib çatdıq. Heydər Əliyev dedi ki, mənə güclü zərbə vurdular və daha sonra açıq şəkildə Qorbaçovun adını çəkdi. Onu – Əliyevi satan adamlar barədə danışdı, hərçənd ki, siyasət üçün belə satqınlıq adi bir haldır... O, heç kimdən qorxmadan, açıq şəkildə danışırdı, ehtiyatlanmırdı ki, belə yerdə divarların da qulaqları olur.

Bu görüşdən sonra biz, demək olar ki, hər axşam həyətdə gəzintiyə çıxırdıq. Mən görürdüm ki, o, özünə qarşı ədalətsizlikdən yaman pis təsirlənib, amma qətiyyən sınmayıb... Heydər Əliyeviç çox güclü şəxsiyyət və böyük təşkilatçı idi.

Bütün ömrü boyu, o, partiya işinə sadiq qaldı. Və heç nəyin üstündə onun xətrinə dəydilər, onu incitdilər. O, vicdanının çağırışıyla işləyirdi.

İllər keçəcək və Heydər Əliyev haqqında sənədli filmlərdən birinin müəllifi tanınmış kinorejissor və aktyor A.Konçalovski 2006-cı il iyunun 26-da 28-ci Moskva Beynəlxalq kinofestivalında xüsusi nümayiş çərçivəsində "Əliyev" filminin təqdimatı zamanı ürək ağrısı ilə deyəcəkdi: "Mən bu filmdə bizim Azərbaycanı, gözəl dostumuzu itirdiyimizi, böyük bir mədəniyyəti özümüzdən uzaqlaşdırdığımızı söyləyirəm. Bütün bunları Əliyevi Kremldən qovanda itirdik. Mən M.S.Qorbaçov dövrü haqqında öz münasibətimi tamamilə dəyişdim..."

Bir dəfə İskəndəriyyə çarlarından biri Evkliddən soruşmuşdu ki, həndəsəylə tanış olmağın asan yolu varmı?

– Həndəsədə «çar yolu» yoxdur, – deyə Evklid cavab vermişdi.

– İdarəçilikdə də «çar yolu» yoxdur, – Heydər Əliyev bu ifadəni təkrar etməyi xoşlayırdı. – Həmişə öyrənmək lazımdır. İddiaları imkanlarını və biliklərini üstələyən adamlar sonda həmişə məğlubiyyətə düçar olublar.

## VII fəsil

## «MƏN DAŞ, DƏMİR DEYİLƏM, İNSANAM»

*19 oktyabr 1987-ci il, Moskva*

Heydər Əliyev Moskvaya gələndən sonra Kremldə işləmək onun üçün heç də asan olmamışdı. Onun qısqananları kifayət qədər idi. Əvvəlcə Sovet hökumətinin rəhbəri Nikolay Tixonov, açıq-açığına olmasa da, öz postuna əsas namizəd kimi gördüyü bu azərbaycanlını sıxışdırmağa, sonra isə Sovet İttifaqının yeni lideri Mixail Qorbaçov eynən elə bu səbəbə görə ona təzyiq göstərməyə başladı. Andropovdan sonra bu təziyqlərə davam gətirmək elə də asan deyildi. Çünki Kermldə Əliyevi açıq müdafiəyə qalxmağa cəsarəti olan elə bir nüfuz sahibi yox idi.

Nəhayət…

Kremldə Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin sessiyası açılır. Rəyasət heyətində – Ali Sovetin palata rəhbərləri, hökumət və Siyasi Büro üzvləri əyləşiblər.

Bu günü Heydər Əliyev belə xatırlayırdı:

«Bəzən kimlərsə zaldan çıxır, kimlərsə daxil olurdu. Qorbaçov mənimlə üzbəüz oturmuşdu. Birdən o da ayağa qalxıb çıxdı. Sonra Liqaçov ayağa qalxdı və başıyla Rıjkova da işarə verdi ki, onun ardınca gəlsin. Onlar Rəyasət Heyətinin otağına keçdilər. Biz həmin otaqda adətən iclaslara qədər,

fasilələrdə toplaşıb çay içərdik. Bir müddət sonra məni də həmin otağa çağırdılar.

Mənimlə söhbəti Qorbaçov başladı. Dedi ki, «mənim fikrimcə, sən Siyasi Bürodan və Nazirlər Sovetindən getməlisən». Getməyimin səbəbini bilmədiyimi söylədim: «Mən hesab etmirəm ki, getməliyəm. Amma siz, Baş katib kimi belə hesab edirsinizsə, getməyə hazıram». Qorbaçov dedi: «Onda dəqiq deyin ki, biz bilək. Siz öz xahişinizlə gedirsiniz, yoxsa səhhətinizlə əlaqədar?»

Fasilədə evə gəldim. Oğlumla qızım evdəydi. Vəziyyəti onlara başa saldım. Əhsən onlara! Məni sakitləşdirib, dedilər: «Narahat olma, ata, burada qeyri-adi nə var ki...»

Axşam Qorbaçovun yanına gəlib dedim ki, gedirəm. Bəli, mən gedirəm və elan edə bilərsiniz ki, səhhətimlə əlaqədar vəzifəmdən istefa verirəm. O, ayağa qalxıb məni qucaqlayıb öpdü və dedi: «Çox sağ olun, Heydər Əliyeviç!»

Bu söhbət baş verənə qədər onlar artıq iyirmi ilə yaxın idi ki, bir-birini tanıyırdılar. Partiya Mərkəzi Komitəsinin plenumlarında, Ali Sovetin sessiyalarında dəfələrlə görüşmüşdülər. 1972-ci ildə Heydər Əliyev ailəsi ilə birgə Pyatiqorskda dincəlirdi. Günlərin bir günündə Qorbaçov zəng vurub onun necə dincəlməyi ilə maraqlandı, dedi ki, görüşüb söhbət etmək istəyir. Sonra onu Karaçay-Çərkəz Muxtar Vilayətinə dəvət etdi. O vaxt Stavropol Partiya Komitəsinin katibi olan Qorbaçov öz ərazisində dincələn partiya rəhbərlərinin heç də hamısına belə diqqət ayırmırdı.

Əlbəttə ki, ölkənin birinci adamları xüsusi diqqət mərkəzində olurdular: Brejnev, Andropov, Kosıgin... Bir dəfə Qorbaçov Andropova çoxdan hazırladığı bir replikanı atdı:

– Siyasi Büronu ancaq yaşlı kadrlardan təşkil etmək olmaz. Yaxşı meşənin gərək pöhrəliyi də olsun.

Bu incə işarəli obraz Andropovun xoşuna gəlmişdi. Və bir neçə müddət sonra onun köməyi ilə Qorbaçov Siyasi Büroya üzv qəbul ediləndə, həmkarını təbrik edən Andropov həmin ifadəni xatırlayıb demişdi:

– Hə, «pöhrə», indi buyur, işə başla!

Andropovun bu seçimini Heydər Əliyev də razılıqla qarşılamışdı. «Mənim Qorbaçov barədə fikrim müsbət idi, – deyə Heydər Əliyev sözünə davam edir. – Düzdür, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi seçiləndən sonra o, xeyli dəyişmişdi. Bu, təkcə mənim yox, Siyasi Büronun o biri üzvlərinin də fikridir...»

Amma onun Baş katib seçilməsinə hələ xeyli müddət vardı. Hələ Qorbaçov Stavropolda işləyirdi və onlar Kara-çay-Çərkəz Vilayətində Heydər Əliyevlə dostlaşmışdılar. Qorbaçov onların tanışlıq tarixçəsini belə xatırlayır:

«Heydər Əliyeviç mənim xoşuma gəlmişdi. Çox ağıllı insan idi, həm yüksək səviyyədə, həm də adi, anlaşıqlı bir tərzdə düzgün dialoq aparmağı bacarırdı. Bu, keyfiyyət mənə ruhən daha yaxın idi. Ona görə də söhbətimiz tuturdu, yaxından dostlaşmışdıq».

«Bu bizim dostluğumuzun və yaxın münasibətlərimizin başlanğıcı idi», – deyə Heydər Əliyev əlavə edir.

...Ali Sovetin sessiyasından sonra Mərkəzi Komitənin plenumu da öz işinə başladı. 22 oktyabrda qəzetlər belə bir informasiya yaydılar: «Plenum yoldaş H. Ə. Əliyevin xəstəliyi ilə bağlı təqaüdə çıxmasını nəzərə alıb onun Siyasi Büro üzvlüyü vəzifəsindən azad etmək xahişini təmin etmişdir».

Kreml sarayının sirlərindən agah olan adamlar üçün bu, bir o qədər də gözlənilməz xəbər deyildi. Bir neçə il bundan əvvəl Kosıgini olduğu kimi, indi də Əliyevi həkimlər işdən getməyə razı salmağa çalışırdılar: «Əziz Heydər Əliyeviç, artıq təqaüdə çıxmaq vaxtıdır, yoxsa orqanizminiz belə böyük, ağır işə dözə bilmir, qüvvəniz tükənmək üzrədir».

Deyilən sözün alt qatını çox gözəl başa düşən pasient təzyiqə dözmür: «Sizin işiniz məni müalicə etməkdir. Bundan sonra işləyəcəyəm, ya istirahət edəcəyəm o sizin yox, mənim işimdir».

Xəstəxanadan sonra o, yenə də işə başlamışdı. Onun təklifiylə keçirilən müəllimlər qurultayının materialları ilə

yaxından tanış olur, iqtisadiyyatın idarə olunmasında köklü dəyişikliklərlə bağlı Mərkəzi Komitənin iclasının çıxartdığı qərarlara qeydlərini edir. İyunun sonunda köklü dəyişikliklərlə bağlı təklifləri Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu da müzakirə etdi. Elə həmin iclasda da Kunayevi Siyasi Büro üzvlüyündən, Zamyatini isə Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi vəzifəsindən azad etdilər. Aleksandr Nikolayeviç Yakovlev isə Siyasi Büronun üzvlüyünə qəbul olundu. Onda Əliyev yalnız acı-acı gülümsünmüşdü: «Gedişə bax! Yanvarda Siyasi Büro üzvlüyünə namizəd, indi – yarım ildən sonra artıq Siyasi Büronun tamhüquqlu üzvü. Pis deyil».

Sentyabrın əvvəlində Heydər Əliyev yenidən işə çıxdı. Gündəlik qayğılar – Mərkəzi Komitənin iclasları, Nazirlər Sovetindəki yığıncaqlar. 18 sentyabrda Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvləri – H.Ə.Əliyev, L.N. Zaykov, V.P.Nikonov, N.İ.Rıjkov, N.N.Slyunkov «Kimya-87» sərgisinə gəlirlər. Müəyyən detallara, ştrixlərə əsasən Əliyev Qorbaçovun ona münasibətinin dəyişdiyini hiss edirdi.

– Vaxt keçdikcə mən bunu daha da açıq-aydın hiss etməyə başladım. Amma əvvəllər bizim aramızda çox xoş münasibətlər mövcud idi, – Heydər Əliyev rejissor Vaqif Mustafayevin çəkdiyi «Bir paxıllığın tarixçəsi» adlı sənədli filmdə belə deyir.

## Bir paxıllığın tarixçəsi

Həmin filmdə Qorbaçov Heydər Əliyevin istefasının səbəblərini açıqlayarkən belə deyir: «Bu, onun səhhətiylə bağlı idi. Həm də sizə deyim ki, respublikanın da böyük təzyiqi vardı. O, tutduğu yüksək mənsəbin zirvəsindən respublikaya mane olurdu. Bəli, bu çox böyük təzyiq idi. Mən də sonda belə qərara gəldim.

Mən düşünmürəm ki, burada hansısa qaniçənlikdən söz gedə bilər. Ya da düşünülməsin ki, kimsə onunla haqq-he-

sab çəkirdi. Yox. Onunla çox insanpərvərliklə rəftar edilmişdi. Heç kim ona toxunmamışdı, heç kim alçaltmamışdı, şəxsiyyətini tapdalamamışdı. Ətrafda danışılan şayiələrin isə mənə dəxli yoxdur, onlar mənə maraqlı deyil. Bircə onu bilirəm ki, onun qarşısında vicdanım təmizdir».

Oxucu Heydər Əliyevin necə sıxışdırılmasını artıq bilir. Onunla necə rəftar etdiklərindən xəbərdar olanda isə kimin vicdanının təmiz olduğunu özü başa düşəcək.

Mixail Sergeyeviçin Vaqif Mustafayevə verdiyi ilk sual belə oldu ki, siz Heydər Əliyev barədə neçə seriyalı film çəkirsiniz?

– On iki.

– On iki? – eks-baş katib və eks-prezident təəccübləndi. – Mənimlə Genşer (Almaniya Federativ Respublikasının keçmiş xarici işlər naziri) barədə isə cəmi bir seriya çəkiblər.

– Bu, sizin probleminizdir, – deyə rejissor yorğun halda cavab verdi.

Onlar bu filmdə çəkilmək üçün düz üç il Qorbaçovun razılığını almağa çalışmışdılar. Nəhayət, Moskvadan zəng vurdular: «Mixail Sergeyeviç çəkilişlərə razılıq verib. Sizi gözləyir. On dəqiqəlik çəkilişə razıdır».

Vaqif Mustafayevlə operator o saat Moskvaya uçurlar. Təyyarədən enən kimi mobil telefon zəng çalır: «Mixail Sergeyeviç sizinlə görüşə bilmir».

Rejissorun nə keçirdiyini təsəvvür etmək çətin deyil. Nizaminin heykəlinin yanında yerləşən Azərbaycan səfirliyinə yaxınlaşanda telefon bir daha zəng çalır: «Mixail Sergeyeviç razılıq verdi».

Şəhər aerovağzalının yaxınlığında, Leninqrad prospektində yerləşən «Qorbaçov fondu»nun binasına daxil olurlar. Gözlərinə gözəl bir akvarium dəyir.

– Çəkilişi elə burada aparacağıq, – deyə Vaqif qərarlaşdırır. İlk kadrlar – ümumi mövzulara aid təmkinli və sakit söhbət. Nəhayət, Vaqif Mustafayev əsas sualı verir – nəyə görə Baş katib Heydər Əliyevi vəzifədən kənarlaşdırdı?

Vaqif xatırlayır: «Qorbaçov o saat əsəbiləşməyə başladı. Bu əsəbilik operatora da keçdi, kamera onun əlində yüngülcə titrəyirdi. Bizimsə veriləcək suallarımız hələ çox idi».

Bu suallardan biri də Heydər Əliyevin oğlu, o zaman Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun müəllimi olmuş İlhamla bağlı idi. Atası işdən gedəndən sonra onu da institutdan çıxmağa vadar etmişdilər. Qorbaçov dedi ki, bu barədə birinci dəfədir ki, eşidirəm.

«Bir paxıllığın tarixçəsi» filmini Yekaterinburq şəhərindəki kinofestivalda göstərmişdilər və film «Qranpri» almışdı. Qorbaçov İlhamla bağlı məsələdən xəbərdar olmadığını deyəndə qəfildən zalda bir qadın qışqırığı eşidildi: «Yalan deyirsən, əclaf».

Onun arxasında – akvariumdakı balıqlar isə quyruqlarını yelləyirdilər.

Qorbaçovun şəxsi mühafizə dəstəsinin rəisi general Medvedevin dediyinə görə, Baş katib dəyişkənliyinə və xaraktersizliyinə görə o birilərindən çox fərqlənirdi. O, çox etibarsız adamdı, ətrafındakıları belə atırdı, tez-tez dəyişirdi. Gah sağlara, gah da sollara zərbə vururdu. Heydər Əliyev də bu cür zərbə altına düşənlərdən oldu.

Vladimir Medvedev Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi generalıdır. Uzun müddot Brejnevin (on dörd il) və Qorbaçovun (altı il) şəxsi mühafizə dəstəsinə rəhbərlik edib. Brejnevlə Qorbaçovdan sonra iki il yarım müddətində Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin Doqquzuncu idarəsinin ehtiyatında olub (Bu idarə yüksək rütbəli partiya işçilərinin mühafizəsiylə məşğul idi). Iki dəfə Heydər Əliyevin səfərlərini hazırlayıb – birinci dəfə Voloqda və Çerepovetsə, ikinci dəfə isə Vyetnama.

Əlbəttə, Heydər Əliyev Vladimir Medvedevi yaxşı tanıyırdı – həm əvvəlki görüşlərindən, həm də Brejnevin Bakıya səfərləri zamanından. Səfərin hazır olması barədə xidməti məlumatı dinlədikdən sonra dərhal soruşdu ki, işlər necədir, yeni vəzifəyə alışırsınızmı?

«Mən bilirdim ki, Heydər Əliyev Brejnevin sevimlilərindən idi, – deyə general Medvedev xatırlayır. – Bilirdim ki, Mərkəzi Komitənin Siyasi Bürosuna onu Andropovun zəmanəti ilə qəbul ediblər».

Vyetnamda Heydər Əliyev metallurgiya kombinatına baxış keçirməliydi. Nümayəndə heyətinin keçəcəyi marşrutu əvvəlcə general Medvedev keçdi. Marten sobalarının yanındakı metal qırıntıları yığınının içində mərmilər gördü. Zavod rəhbərləri bunları yığışdırmağa etiraz etdilər, dedilər ki, vaxtı keçmiş mərmilərdir, onlar təhlükəli deyil.

Medvedev xatırlayır: «Heydər Əliyevlə Vyetnama gələndə bu mərmi məsələsini ona danışdım və xahiş etdim ki, zavoda baxışdan imtina etsin. Lakin belə şeylər Heydər Əliyevin xarakterinə uyğun deyildi. «Olmaz, – o mənə dedi, – orada bizi camaat gözləyir. Mütləq getmək lazımdır». O, həmişə beləydi. Bu, o demək deyil ki, Əliyev şəxsi təhlükəsizliyinə barmaqarası baxırdı, yox. Sadəcə, belə şeylər onun üçün əsas deyildi, əsas onun gördüyü iş idi».

Bu məqamda daha bir oxşar nümunə göstərmək istəyərdik. Jurnalist Elmira Axundova bir dəfə başqa reportyorlarla birgə xarici səfərlərin birində Prezidenti müşayiət edirdi. Bundan bir az əvvəl, 1995-ci ilin iyulunda Rumıniya və Bolqarıstandan səfərdən qayıdarkən Prezidentin təyyarəsini yalnız xoşbəxt bir təsadüf xilas etmişdi. Kimlərsə terrorçuların yeni hücumlarından ehtiyat edirdi. Belə olan halda elə təyyarədəcə Elmiranın suallarına cavab verən Heydər Əliyev əlavə etmişdi: «Sən heç nədən qorxma, mənə heç nə olmaz. Allah özü məni qoruyur. Çünki mən hələ xalqıma gərəyəm».

Biz hələ Nursultan Nazarbayevin Heydər Əliyevin şəxsiyyətini və fəaliyyətini necə dərin və müfəssəl qiymətləndirməsindən danışacaq, Qarabağ münaqişəsinin necə qızışdığını və partladığını xatırlayacağıq. Hələliksə, artıq fərdi təqaüdçü olan Heydər Əliyevin Mərkəzi Komitənin üzvü seçildiyi Sovet İttifaqı Kommunist Partiyasının XXVII qurultayına qayıdaq. Tərcümeyi-hal arayışında o vaxt üçün son iş

yeri də daxil olmaqla onun partiya və dövlət vəzifələri sadalanır: «...1987-ci ilin oktyabrından 1988-ci ilin noyabrına qədər Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin dövlət müşaviri».

Hörmətli vəzifədir. Tədricən gücü bərpa olunur. O, həmişə olduğu kimi 8.30-da işə, özünün çox da böyük olmayan kabinetinə gəlir və getdikcə daha aydın hiss edir ki, burda onun məsləhətinə ehtiyacı olanlar da var.

Əliyev Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin dövlət müşaviri və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü vəzifəsində çox qalmadı. Sonralar bu vəzifədən də azad olundu. Nüfuzlu və müdrik siyasətçi Aleksandr Sergeyeviç Dzasoxovun rəyi: «Əliyevə qarşı ədalətsizlik etdilər».

Bir dəfə istefadan sonra Heydər Əliyeviç keçmiş katibliyinin rəhbərinə zəng vurub xahiş etdi ki, mənimçün bəzi materialları yığ. Cavabında çox acı bir replika eşitdi: «Siz artıq burada işləmirsiniz».

Onda həmin sənədləri öz təşəbbüsüylə Alesandr Qavrilov hazırlamağa başlamışdı. Bundan o saat xəbər tutmuşdular:

– Siz bu sənədləri kiminçün hazırlayırsınız?

– Heydər Əliyev üçün.

– Unutmayın ki, o, artıq bizdə işləmir.

Buna baxmayaraq, Aleksandr Timofeyeviç şefinin sözündən çıxıb sənədləri hazırlamışdı. «Başqa cür eləmək yaxşı deyildi. Axı, biz hamımız insanıq».

Yaltaqlığın, ikiüzlülüyün, riyakarlığın fonunda adi insani əxlaqın xırda bir ştrixi də xoş təsir bağışlayır.

Çox keçmir ki, Əliyev başqa bağa köçməli oldu. Albert Lixanov xatırlayır:

«Onu daha kiçik olan başqa bağa köçürtdülər... Tutalım, bunun eybi yoxdur, onsuz da Heydər Əliyeviç cah-calal sevən deyildi, bura da uyğunlaşdı. Mühafizəni götürdülər – bunun da eybi yox. Sonra ev xidmətçisini də geri çağırdılar. Axı Heydər Əliyeviçin həyat yoldaşı vəfat etmişdi, bu

xidmətçi isə evi silib-süpürür, yuyub təmizləyir, yemək hazırlayırdı...»

Kremlin Qurultaylar sarayında yaddaqalan bir epizodu xatırlamaq istərdik. Fasilə zamanı vestibülə çoxsaylı partiya katibləri, nazirlər, yüksək çinli hərbçilər toplaşmışdı. Uzun müddət bir-birini görməyənlər görüşür, salamlaşır, zarafatlaşırlar. Və hamı cidd-cəhdlə bir nəfəri – Heydər Əliyevi görməməyə çalışır. Heydər Əliyev artıq nə Siyasi Büronun üzvü, nə də Nazirlər Sovetinin sədr müavinidir. Bir neçə gün əvvəl isə həmin bu adamlar onun ətrafında vurnuxur, özlərini gözə soxmağa çalışır, ona hörmət və ehtiramlarını nümayiş etdirməyə cəhd edirdilər.

Qurultaylar sarayındakı bu xoşagəlməz hal Heydər Əliyevi gözləyən tənhalığın, mənəvi iztirabların hələ prelüdü, başlanğıcı idi. O, hələ bilmirdi ki, özünün irəli çəkdiyi adamları, dostları, tələbələri, ən yaxın əhatəsində olanlar onu bəd ayaqda tək qoyacaqlar, satacaqlar. Sonralar o bu barədə belə deyəcəkdi: «Mənə elə gəlir ki, ən dəhşətlisi insanları yaxşı tanımamaqdır. Mənə qarşı da çoxsaylı ədalətsizliklər edilmişdi. Axı, mən də insanam, nə dəmir, nə də daş parçasıyam, insanam».

Təhqirlərlə, təzyiqlərlə dolu həmin illərdə bu sözlər Heydər Əliyevin etdiyi yeganə etiraf, yaralı ürəyinin yeganə fəryadı idi. Heydər Əliyev daha heç kimə bu barədə bir söz deməmişdi, özünü sındırmamışdı. Güclü insanlar hər şeyi özləri ürəklərində çəkməlidirlər. Onların düşdüyü vəziyyətlərin hansı iradə meqavatlarıyla ölçüldüyünü isə yalnız kardioqramlar bilir…

Qorbaçov yeni düşüncə tərzindən çox danışsa da, əslində özündən əvvəlkilər kimi hərəkət edirdi. Xruşşov Stalini alçaldırdı, Brejnev Xruşşovu, Qorbaçov Brejnevi. Hər əvvəlki epoxaya bir damğa vurulurdu; Stalinin dövrü «Şəxsiyyətə pərəstiş», Xruşşovun dövrü «Volüntarizm», Brejnevin dövrü isə «Durğunluq dövrü» adlandırılmışdı... Keçmişdəki bir çox şeylərdən imtina etmək lazım gəlirdi, buraxılan səhvlərdən

nəticə çıxarmaq və yeni səhvlər buraxmamaq lazım idi. Amma gözünü yumub hər şeyi dağıtmaq əlbəttə ki, düz deyildi.

## Əliyevin və Sovet İttifaqının taleyi

Sovet İttifaqı kimi nəhəng bir dövlətin həm partiya, həm də hakimiyyət vertikalında mühüm vəzifələrdən birini icra edən Heydər Əliyevə təkcə Azərbaycanda deyil, bütün keçmiş Sovet Sosialist Respublikaları İttifaqında böyük xalq məhəbbəti sadə yerdən yaranmamışdı. 5 ildən artıq çalışdığı Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin müavini postunda Heydər Əliyevi yaxşı tanıyan bütün veteranlar onun heyrətamiz iş qabiliyyətini daim qeyd edirlər. Moskva Dövlət Universitetinin analitik informasiya mərkəzinin direktoru Aleksandr Karavaev «Əgər Heydər Əliyev Sovet Sosialist Respublikaları İttifaqının prezidenti olsaydı» yazır: «Onun işi, başqaları ilə müqayisədə, çox ağır idi. Çünki nəzarətində olan sahələr çox mürəkkəb sahələr idi və gərgin əmək tələb edirdi. Ölkənin 12 nazirliyi barbaşa onun nəzarəti altında idi: maşınqayırma sənayesi, ticarət, yüngül sənaye (təkcə bu sahədə 3 min 700 müəssisə var idi və burada 3 milyon insan çalışırdı), nəqliyyat və rabitənin bütün sahələri ilə yanaşı, mədəniyyət və təhsil də onun kurasiyasında idi.1984-cü ildə Heydər Əliyev sovet məktəblərinin islahatı komissiyasına rəhbərlik edirdi, 1986-cı ildə o Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin sosial inkişaf üzrə bürosuna rəhbəri vəzifəsini tutdu. Əliyev onun sahəsinə aid olmayan qarışıq sahələrdə bir çox qeyri-ixtisas layihələrinin reallaşdırılmasında fəal iştirak edirdi. O dövrün Nazirlər Sovetinin və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun onlarla mühüm qərarının altında onun imzasına rast gəlmək mümkündür. Məsələn, Heydər Əliyev Nazirlər Sovetinin operativ məsələlər üzrə Komissiyasına rəhbərlik edirdi və bura hökumət sədrinin müavinləri və bir çox nazirlər daxil idilər. Əliyevin gəlişi ilə bu Komis-

siya faktiki olaraq Nazirlər Sovetinin rəhbər orqanına çevrilmiş, Sovet İttifaqının iqtisadi idarəetməsinin əksər mühüm məsələlərini həll edir, sahə rəhbərlərini məruzə etməyə çağırır və onlara göstərişlər verirdi. Bəzən yuxarılar buna «ikinci Siyasi Büro» deyirdilər. Bütün bunlarla yanaşı Əliyev xarici iqtisadi əlaqələrdə də iştirak edir və Sovet Sosialist Respublikaları İttifaqının Asiya və Yaxın Şərq istiqamətlərində beynəlxalq əlaqələrində əhəmiyyətli rol oynayırdı».

Yeri gəlmişkən, o zaman Baş katibin təkidi ilə bütün dünya diplomatlarının «cənab Yox» kimi tanıdığı Sovet Sosialist Respublikaları İttifaqı xarici işlər naziri Andrey Andreyeviç Qromıkonun postuna təyinat alan Edurd Şvardnadze müsahibələrinin birində deyirdi:

– Mənim Sovet Sosialist Respublikaları İttifaqı xarici işlər naziri təyin olunmağım çox maraqlı hadisə idi. Mən bu vəzifəyə M.S.Qorabaçovun təkidi ilə getdim. O bir neçə dəfə mənə zəng vurdu və mən hər dəfə ona cavab verirdim ki, bu sahədə işləmək üçün heç bir təcrübəm yoxdur. Sonuncu dəfə zəng vuranda Qorbaçov xüsusi tərzdə bildirdi ki, iki gündən sonra Siyasi Büronun iclası olacaq və mən mütləq orada iştirak etməliyəm. Bu iclasda məni Sovet Sosialist Respublikaları İttifaqı Xarici İşlər Nazirliyinin rəhbəri təyin etdilər.Buna qədər Siyasi Büronun üzvü kimi Heydər Əliyevin xarici siyasət sahəsində böyük uğurları vardı. O rəhbərlik etdyi sahələrdəki məsələlərlə bağlı tez-tez xaricdə olurdu və Moskvada xarici qonaqları qəbul edird.

Sovet Sosialist Respublikaları İttifaqı Qərblə düşmən mövqeylərdə idilər. Ancaq soyuq müharibə illərində ABŞ və Qərbin digər ölkələrilə münasibətləri normallaşdırmaq zərurəti meydana çıxdı. ABŞ prezidenti Corc Buşun, ABŞ-ın dövlət katibi Ceyms Beykerin, Sovet Sosialist Respublikaları İttifaqının rəhbəri Qorbaçovun və mənim iştirakımla Maltada keçən ilk görüşdə kapitalist ölkələrilə sosialist ölkələri arasında münasibətlərin yaxşılaşdırılması haqqında sənəd qəbul edildi. Bu sənəddə qeyd edilirdi ki, Sovet Sosialist

Respublikaları İttifaqı və ABŞ daha düşmən ölkələr deyillər və onlar öz aralarında normal münasibətlər yaratmalıdırlar. Bu görüşdə biz yeni münasibətlərin əsasını qoyduq. Xüsusi qeyd etmək istəyirəm ki, bu görüşün hazırlanması və keçirilməsində Heydər Əliyevin böyük rolu vardı. Siyasi Büronun üzvü kimi o Qərblə münasibətlərin normallaşmasına və xarici siyasətin problemlərini həll etməyə çalışırdı. Əliyevin səyləri nəticəsində ikinci sənəddə belə bir ifadə öz əksini tapdı ki, «ABŞ və Sovet Sosialist Respublikaları İttifaqı bundan sonra rəqib yox, partnyordurlar».

Amma Heydər Əliyevin yüksək idarəçilik keyfiyyətləri bütün sahələrdə özünü parlaq şəkildə göstərirdi. Onun Sovet İttifaqında sosial və səhiyyə sahələrində həyata keçirdiyi islahatları Rusiyanın tanınmış ictimai-siyasi xadimləri və məşhur elm adamları bu günün özündə belə ölkənin indiki inkişafının əsaslarından biri kimi qeyd edirlər. Əliyevin təşəbbüsü ilə ölkədə ilk dəfə kompleks diaqnostika mərkəzləri yaradıldı. Məhz onun dəstəyi ilə sovet cərrahlarına açıq ürək əməliyyatları aparmağa icazə verildi. Əliyev sonralar bütün dünyada məşhurlaşan Svyatoslav Fyodrovun Gözün Mikrocərrahiyyə Mərkəzinin yaradılmasına start verdi və onun Volqa çayı boyu üzən teploxodda mobil laboratoriya yaratmasına lobbiçilik etdi. 1987-ci ilin avqustunda Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin «2000-ci ilə qədər sağlamlığın müdafiəsi və Sovet Sosialist Respublikaları İttifaqında səhiyyənin yenidən qurulmasının əsas istiqamətləri haqqında» qərarı dərc edildi. Mütəxəssislər qeyd edirlər ki, bu ölkədə səhiyyənin vəziyyətinə mütərəqqi təsir göstərən, onun maddi-texniki bazasının yenilənməsin imkan verən ən əhəmiyyətli sənədlərdən biri olmuşdur. Rusiyada tibbi texnologiyanın və tibb elminin maddi bazasının hazırki vəziyyətində belə Əliyevin sayəsində yaradılmış ehtiyatdan bəhrələnməkdədirlər. Ölkədə səhiyyə xidməti sisteminin modernləşdirilməsi çərçivəsində hər bir respublikada, vilayətdə mürəkkəb və yüksək səmərəli müasir

avadanlıqla və tibb texnikası ilə təmin edilmiş diaqnostika mərkəzləri şəbəkəsinin, həmçinin bütün respublikalarda onkoloji mərkəzlərin yaradılması nəzərdə tutulurdu.

Heydər Əliyevin aparatı ümummtəhsil və peşə təhsili sahəsində də əsaslı islahatlar layihəsi işləyib hazırlamışdı. 1984-cü il yanvarın 4-də Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Konstantin Çernenkonun başçılıq etdiyi komissiyanın rəhbərliyi altında hazırlanmış Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin «Ümumtəhsil və peşə təhsili sahəsində islahatların əsas istiqamətləri haqqında» qərarı dərc edildi. Layihənin əsas müəlliflərindən biri və məktəb islahatının kuratoru Heydər Əliyev idi. Bir neçə aydan sonra orta təhsilin islahatı qüvvəyə mindi: 1984-cü il aprelin 12-də Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetinin beş qərarı dərc edilərkən pedaqoji kadrların hazırlanmasının təşkili və məktəbəqədər təlim-tərbiyə sistemində bəzi dəyişikliklər də mətbuatda öz əksini tapdı və ona müəllimlərin əmək haqqının artırılması və onların sosial vəziyyətinin yaxşılaşdırılması haqqında ayrıca qərar əlavə edildi.

İbtidai məktəbə startın bir il əvvələ çəkilməsi, 6 yaşdan başlaması, orta ümumtəhsil məktəblərində təhsilin müddətinin 10 ildən 11 ilə qədər uzadılması təklif edilirdi. Məktəblərdə yeni bir fənnin – kompyüter texnikasının və proqramlaşdırılmasının tədrisi irəli sürüldü, məktəblərdə sovet istehsalı olan fərdi kompyüterlərin kütləvi alışına başlandı. İslahat məktəbin və müəllim peşəsinin ictimai nüfuzunu sürətlə qaldırmağa başladı, təhsilin idarəetmə strukturu dəyişdi.

Əliyev layihəsi 1989-cu ilə qədər 7 milyon şagird yerlik ümumtəhsil məktəbi və 800 texniki peşə məktəbinin tikintisini nəzərdə tuturdu. Bunun üçün 11 milyard rubl- Sovet Bankının məzənnəsi ilə 22 milyard dollar ayrılmışdı ki, bunun da 3,5 milyardı müəllimlərin əməkhaqqına yönəldiləcəkdi. Rusiyada bir çox mütəxəssislər Prezident Vladimr

Putinin 2012-ci ilin dekabrında imzaladığı «Rusiya Federasiyasında təhsil haqqında» Qanunu 1980-ci illərdə Əliyevin səyləri ilə əsası qoyulmuş bazanın evolyusiya inkişafı olduğunu qeyd edirlər.

Əlbəttə, Sovet Sosialist Respublikaları İttifaqının ölkənin vətəndaşları, onun elitası və xarici aləm üçün nə demək olduğunu bir kəlmə ilə ifadə etmək çox çətindir və heç mümkün deyil. Şübhəsiz, bu, kontrastların mövcud olduğu, bəzən aqrar rayonlarda çox böyük geriliklə qabaqcıl elmi nailiyyətlərin, hərbi işlə mühəndis-texniki inkişafın çulğalaşdığı, nəhəng bir dövlət idi. Bununla belə, ümumiyyətlə əhali yaşamayan ucsuz-bucaqsız torpaqları olan çox nəhəng dövlət yüksək dərəcədə urbanizasiyaya və texniki gücə malik idi. Sovet şəhərlərinin 40,3 faizi 1945-ci ildən-ağır müharibədən sonra salınmışdı. Ancaq Rusiyanın, Mərkəzi Asiyanın və Qafqazın bir çox rayonları məhz 1970-1980-ci illərdə baş vermiş sıçrayış nəticəsində kifayət qədər yüksək səviyyəli infrastrukturla təmin olunmuşdu. Heydər Əliyevin istər Azərbaycan hüdudlarında, istərsə də böyük Sovet İttifaqı sərhədlərində bu işdə bilavasitə böyük xidmətləri və rolu olmuşdur. Gələcək müstəqil Rusiyanın yanacaq-enerji kompleksinin əsas gücləri məhz bu illərdə kəşf edildi, quruldu və işə salındı. Əlbəttə, bu prosesdə Azərbaycan neftçilərinin oynadığı möhtəşəm rolu da yaddan çıxarmaq ədalətsizlik olardı. Həmçinin, sonralar MDB üçün əlaqələndirici mexanizmə çevrilən vahid enerji və nəqliyyat sistemi də onun səylərilə tikilmişdir. Bütün əsas sosial, iqtisadi, inzibati və hərbi-elmi sistemlər yüksək dərəcəli elmi yanaşma ilə təmin edilmişdi.

«Andropov» modernləşməsinin liderlərindən biri Heydər Əliyev 1983-cü il 18 avqust tarixli «Xalq təsərrüfatında elmi-texniki tərəqqinin tətbiqinin sürətləndirilməsi tədbirləri haqqında» qərarının hazırlanmasında iştirak etmişdi. Sənəddə təsbit olunurdu ki, başa çatmış əksər tədqiqat işlərinin nəticələri ölkə iqtisadiyyatına geniş və sürətli tətbiq edilmir. Yeni növ texnika və texnologiyanın işlənməsi və

mənimsənilməsi müddəti əsassız şəkildə uzadılır. Məsələn, Sovet İttifaqı XX əsrin sonu üçün xarakterik olan böyük miqyaslı informasiya inqilabı yoluna keçid fürsətini əldən verdi. Norbert Vinerin 1948-ci ildəki «Kibernetik» işi uzun illər qadağan edilmişdi. 1970-1980-ci illərdə kompyüter texnikası sahəsində gerilik daha qabarıq nəzərə çarpırdı. 1985-ci ildə Sovet Sosialist Respublikaları İttifaqında 50 min fərdi kompyuter olduğu halda, ABŞ-da onların sayı 30 milyonu keçirdi.

Sənaye məhsullarının attestatsiya sisteminin davamlı təkmilləşdirilməsinə ehtiyac var idi. Lakin bu qərar və Andropovun siyasəti, sovet sənayesi imkan verdi ki, qısa müddətdə, özünün texniki-iqtisadi göstəricilərinə görə dünya səviyyəsinə cavab verən maşın, avadanlıq, cihaz və materialların buraxılışını təmin etsin. Yəni, Sovet İttifaqı Heydər Əliyev kimi rəhbərlər başda olmaqla, Çinin tədrici kommunist transformasiyası yolu ilə gedə bilərdi, lakin, təəssüf ki, bu fürsətdən istifadə edilmədi.

Heydər Əliyevin Nazirlər Sovetindəki fəaliyyəti Sovet İttifaqındakı texnoloji transformasiyanın zəruriliyi çağırışına cavab idi. Müəssisələrin təsərrüfat hesablı və müstəqil iqtisadi planlaşdırılmasının inkişafı, səhiyyədə yeni texnologiyanın tətbiqi və ya məsələn, reproqrafiya (surətçıxarma) industriyasının inkişafına cəhdlər, bütün bunlar ya birbaşa Əliyevin qələmindən çıxmışdı, ya da müvafiq təşəbbüslə çıxış edən insanları bilavasitə o dəstəkləmişdi.

1980-ci illərin ortalarında və sonunda XX əsrin nəhəng geosiyasi fəlakətinin qarşısının alınmasıın sivilizasiyalı fürsəti də Heydər Əliyevlə bağlıdır. Lakin Yuri Andropovun ölümündən sonra bütün kompleks islahatlar bürokratiya və idarələrarası mübarizə atmosferində boğuldu, çox az bir müddət sonra isə yıxılmış siyasi sistemin xarabalıqları altında dəfn olundu.

Heydər Əliyevlə vətəndaşların sovet rəhbərliyinə romantik inam zənciri qırıldı. Ancaq onun Sovet İttifaqı dövründəki işi haqqında o dövrdə yaşayan və Əliyevi müşahidə

etmək fürsəti olan insanların böyük əksəriyyətində ən xoş xatirələr qalmışdır.

Ağır xəstə olan Andropovdan sonra Heydər Əliyevin Sovet Sosialist Respublikaları İttifaqı kimi nəhəng bir ölkənin rəhbəri – Baş katib olmaq imkanları da böyük idi. Bunu həmən illərdə yüksək vəzifələrində çalışmış dövlət xadimlərinin müsahibələrində də aydın görmək olur. «Qafqaz xəbərləri» portalının müxbiri Aleksandr Zasoxovdan soruşur:

– Keçmiş Sovetlər birliyinin bir-çox ölkələrində belə bir fikir dolaşır ki, Heydər Əliyevin istefaya göndərilməsi Sovet İttifaqının dağılmasının bir hissəsi idi. Bu mövqeyi bölüşürsünüzmü?

– Əgər bu məsələnin dərin təhlilini aparsaq, əlbəttə, belə fikir yürütməyə əsaslar tapılar, ancaq bunu əsas səbəb kimi göstərmək lazım deyil. Bizim ölkənin dağılması qanunauyğun proseslərin nəticəsi deyildi. Şəxsiyyətlər böyük rol oynadılar, xüsusilə ölkənin taleyi ilə bağlı fərqli təsəvvürləri olan Qorbaçov və Yeltsin. İndi deyirlər, «biz bilirdik ki, ölkə dağılacaq». Heç kim heç nə bilmirdi. Heç Qərb də bunu bilmirdi.

Həqiqət burasındadır ki, dünyanın nəhəng dövlətinin, Sovet İttifaqının hökumət sədrinin birinci müavini olan Heydər Əliyev dövlət xidmətinin çox müxtəlif və çox mühüm sahələrində yüksək peşəkarlıqla fəaliyyət göstərmişdir. Onun siyasi hakimiyyətdə olmaması, şübhəsiz ölkəyə çox mənfi təsir göstərmişdir. Heydər Əliyevin siyasi hakimiyyətin və hökumətin rəhbərliyində qalmaması üçün heç bir əsas yox idi. Onun hakimiyyətdə olması ancaq ölkənin xeyrinə ola bilərdi. Bu, gün kimi aydındır.

Mixail Smertyukov müsahibələrinin birində qeyd edir ki, xəstə Çernenkonun Baş katib seçilməsi Əliyevin şanslarını aşağa saldı. «Əliyevin keçmiş rəqibi Qriqori Romanov isə ona Mərkəzi Komitəsinin müdafiə sənayesinə nəzarət edən şöbənin kurasiyasını tapşırandan sonra sındı. Qorbaçov da perspektivsiz kənd təsərrüfatında başını qoymalı idi. Ancaq keçmiş kurort katibi «çətənə qoz» çıxdı və Çernenko ölən-

dən sonra yeganə namizədə çevrildi. Bundan sonra Qorbaçov özünün güclü rəqibindən qurtulmağa girişdi».

Mixail Smertyukov xatirlayır ki, Qorbaçov kürsüyə oturar-oturmaz Nazirlər Kabinetinə və Mərkəzi Komitəyə Azərbaycanda hakimiyyətdən sui-istifadə və Heydər Əliyevin bu işlərdə rolu haqqında şikayət məktubları sel kimi axmağa başladı. «Onun haqqında müxtəlif məzmunda anonim və imzalı məktublar çox idi. Mən əvvəlcə bu barədə Tixonova məlumat verdim, o isə dedi: «Bilirsən, onları nə istəyirsən elə, mən bu işlə məşğul olmaq istəmirəm». Mərkəzi Komitəsində isə dedilər ki, onların özündə belə məktublar o qədərdir ki. Sonra mən özüm Heydər Əliyevin yanına getdim və məktibları ona verdim ki, özü oxusun. O məktubları oxuyur və deyirdi: «Doğrudur, bunu mən həbs etdirmişəm. Bunu biz tutdurmuşuq. Bu bax filankəsdir. Bunu işdən qovmuşam. Bunu isə vəzifədən çıxarmışam». O zaman mən ona dedim ki, məktubları sizə saxlayıram. O bildirdi ki, yox, lazım deyil, götür bu məktubları, onlar mənə lazım deyil. Başqası olsa, bəlkə də götürərdi və sonra yandırar, məhv edərdi. O isə məktubları mənə qaytardı və dedi: «Onlarla nə istəyirsən, elə də elə". Sonra onun özü mənə dedi ki, Qorbaçov onu yanına çağırıb və haqqında çoxlu şikayət məktublarının gəldiyini bildirib: «Biz onların araşdırılması üçün komissiya yaradaq, yoxsa sən özün istefaya gedirsən». Əliyev müqavimət göstərdi, ancaq onu çox sıxışdırdılar».

## Divan tutma

Sovet dövründə Stalinin belə bir populyar formulu vardı: «kadrlar hər şeyi həll edir». Qorbaçov da ən əvvəl kadrlarla haqq-hesab çəkməyə başladı – Kunayev, Şerbitski, Əliyev... 1989-cu ilin aprelində isə daha yüzə qədər əməkdaşı Mərkəzi Komitədən xaric etdi.

Anatoli İvanoviç Lukyanov bu illəri qiymətləndirərkən yazırdı: «Baş katib işlərini gördükdən sonra artıq ona lazım

olmayan kadrları uzaqlaşdırmağa çalışırdı. Həm də belə hallarda bizim partiya nomenklaturasının köhnə üsullarından yararlanırdı.

Liqaçovu uzaqlaşdırmaq lazım gəldi: Baş katib onun rəhbərlik etdiyi Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibliyinin iclaslarını çağırmağı dayandırdı. Rıjkovu uzaqlaşdırmaq istədi: onun rəhbərlik etdiyi Nazirlər Sovetinin yerinə formal olaraq Nazirlər Kabineti yaratdı. Eyni prosesi də onun öz başına gətirdilər – Sovet İttifaqını ləğv etməklə onun altından Sovet Sosialist Respublikaları İttifaqı prezidentinin kreslosunu da çəkdilər.

Amma bu hadisələrə hələ iki ildən çox qalırdı. Hələliksə, İttifaqın rəhbər strukturlarında təmizlənmə prosesi gedirdi. Əliyevə qarşı artıq ciddi hücumlar hazırlanmaqdaydı.

Mərkəzi mətbuatda təşkil olunmuş tənqidi yazılar o saat, təkrarən respublika mətbuatında da dərc olunurdu. Elan olunmuş plüralizmə, aşkarlığa baxmayaraq, atılan böhtanlara cavab verməyə imkan vermirdilər. Bakıda Heydər Əliyevin qardaşları – Həsən, Aqil və Cəlal Əliyevlərə qarşı hücumlar başlanmışdı. İqtisad elmləri doktoru, tibb institutunun siyasi iqtisad kafedrasının müdiri Aqil Əliyev ad günündə – 1988-ci il dekabrın 10-da işdən çıxarıldı. Amma bir-iki il əvvəl həmin institutda Aqil Əliyevi alqışlayırdılar, şəninə çoxsaylı təriflər, xoş sözlər deyirdilər, ünvanına xoş sözlər yazılmış təbriklər göndərirdilər.

Bu kağızlar şərəfsizliyin və yaltaqlığın nümunəsi kimi elə indinin özünəcən ofisdə saxlanılır. Böyük elmi işlərin, dərin araşdırmaların, monoqrafiyaların müəllifi olan Aqil Əliyev iki il işsiz qalmışdı.

Özünün 1999-cu ildə nəşr olunmuş «Elm həqiqətdir» kitabında böyük bioloq alim, akademik Cəlal Əliyev yazırdı:

«Bizim həyatımızın tarlasından ağır kotan kimi keçən son onilliklər cəmiyyətin möhkəmliyi, xeyirin şər üzərində qələbəsi barədə düşüncələrimizin nə qədər keçici olduğuna məni inandırdı. Anladım ki, sadəlöhvlüyü, bilməməzliyi uc-

batından taleyini öz çirkin niyyətlərini həyata keçirməkçün hər şeyə hazır olan şöhrətpərəst, tamahkar avantüristlərə, yüngül insanlara, riyakarlara həvalə edən xalqların, millətlərin əmin-amanlığı, rifahı nə qədər kövrək olur.

Mən də bir çoxları kimi siyasətə istəmədiyim halda cəlb edildim. İndi başa düşürəm ki, «sən siyasətlə məşğul olmasan, siyasət səninlə məşğul olacaq» ifadəsi həqiqətə çox yaxın imiş». Belə ki, siyasət akademiki öz laboratoriyasında, həmkarları ilə birgə yeni sərt buğdalar yetişdirdiyi təcrübə sahələrinin geniş tarlalarında da haqlaya bildi. Akademik qardaşının, ailəsinin namusu uğrunda cəsarətlə mübarizəyə başladı. Müxtəlif instansiyalara – Sovet Sosialist Respublikaları İttifaqının Baş Prokurorluğuna, Ali Sovetin Rəyasət Heyətinə, mərkəzi və respublika qəzetlərinin redaksiyalarına, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə, Siyasi Büroya onlarla məktub göndərdi.

Bu məktublara adətən cavab verilmirdi. Yalnız «Smena» juraalı (№19. 1988-ci il) Heydər Əliyevdən üzr istədi: «Səhifələrimizdə dərc olunmuş «Daha bir gecə» adlı yazıda Brejnevin Bakıya səfəri zamanı Heydər Əliyevin ona çox bahalı bir üzük bağışladığı barədə söhbət gedib. Bu epizod üzrə redaksiyanın heç bir maddi dəlil-sübuta malik olmadığını nəzərə alaraq, biz Heydər Əliyevdən və oxucularımızdan üzr istəyirik».

## Qarabağ

1988-ci il fevralın 18-də Qorbaçov özünün yeni köməkçisini təsdiq etdi – alim, politoloq, milliyyətcə erməni olan Georgi Xosrovoviç Şahnazarovu. Az qala elə həmin gün erməni yazıçısı və publisisti Zori Balayan Qorbaçovun qəbuluna düşməyə cəhd etdi. Şahnazarovun erməni hiyləgərliyi nəticəsində Z.Balayan və S.Kaputikyan Baş katiblə görüşdülər.

Bütün ölkədə olduğu kimi, Azərbaycanda da bu görüşdən yalnız televiziyanın «Vesti» xəbərlər proqramı vasitəsilə

məlumat aldılar. Gözləyirdilər ki, Baş katib Azərbaycan ziyalılarının nümayəndələrini də qəbul edəcək. Amma belə olmadı. Həmin vaxtlarda general Bobkov Qarabağdaydı:

«Mən özüm şəxsən şahidi oldum ki, Heydər Əliyev bu muxtar vilayətin inkişafı üçün, millətlərarası münasibətlərin normal bir həddə qalması üçün nə qədər böyük işlər görüb. Hətta ilk qığılcımlar burada demək olar ki, heç bir ağır nəticə vermədi.

İki hadisəni danışmaq istəyirəm: 1988-ci il fevralın 22-də Stepanakert-Ağdam yolunun üstündəydim. Qəzəblənmiş azərbaycanlılardan ibarət kütlə haqq-hesab aparmaq üçün əks tərəfə doğru gedirdi. Kütlənin qarşısına yaşlı bir qadın kələğayısını onların ayaqları altına atdı. Qəzəblənmiş kütlə sakitləşib geri döndü. Məgər bu hadisə az şeyi deyir?

İkinci hadisə. Həmin gün ermənilər iki azərbaycanlını güllələmişdilər. Təsəvvür edin, əgər vilayətdə insanlar bundan xəbər tutsaydı, necə qarışıqlıq düşəcəkdi. Biz azərbaycanlılara müraciət etdik, ən hörmətli şəxsləri yığdıq. Onlara dedik: «Gəlin, öz cəsarətimizi toplayaq və bu kədərin, bu itkinin üstündən adlayaq». Onlar bizimlə razılaşdılar. Ölənləri dəfn etdik və bu hadisədən qəzəb alovunun yaranmasına yol vermədik.

Stepanakertdəki mitinqlərin birində araqızışdıranlar hardansa tabutlar gətirdilər. Mənim yanımda vilayət teatrının aktrisası olan erməni xanımı dayanmışdı. Əfsuslar olsun ki, indi onun adını unutmuşam. O, böyük cəsarət və mərdliklə təxribatçılara qarşı çıxış etdi. Bu təxribatdan da bir şey çıxmadı».

Çox güman ki, bu aktrisa Knarik Poqosyan idi. Qəzetlər Qarabağdan reportaj hazırlayarkən onun haqqında yazmışdılar.

Elə həmin vaxt «Sosialistiçeskaya industriya» qəzeti Sumqayıtda öz həmkarlarını qızışmış kütlənin əlindən xilas edən Alüminium zavodunun fəhlələrindən yazmışdı. Zavodun mühafizə xidmətinin rəisi İsmayıl Əliyev fəhlə

və mütəxəssislərin ailələrini xilas etməkçün onları zavodun sexlərində yerləşdirirdi.

Beləcə, Qarabağ mövzusu 1988-ci ilin fevralında mərkəzi qəzetlərin baş səhifələrinə, teleekranlara çıxdı. Dağlıq Qarabağ Muxtar Vilayətinin rəhbərliyi Azərbaycan Sovet Sosialist Respublikasının tərkibindən çıxmaq barədə qərar qəbul etdi. Bu isə artıq partlayış idi. Bundan sonra başqa etnik konfliktlər halqası da qızışmağa başladı. Moskvada 1985-ci ildə (Qorbaçovun hakimiyyətinin ilk ilində və Sovet Sosialist Respublikaları İttifaqının sülh şəraitində keçən sonuncu ilində) nəşr edilmiş «Demoqrafık ensiklopedik lüğət»ində Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında bu informasiyalar qeyd olunub:

«Vilayət Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində, Kiçik Qafqazin cənub-şərq hissəsində yerləşir. Ərazisi – 4,4 min kv. km, əha-lisi 1983-cü il üçün 170 min nəfərdir. Mərkəzi Stepanakert şəhəridir...

...Əvvəllər müxtəlif türk dövlətlərinin ərazisinə daxil olan Efcu vilayət, XVLI əsrdən etibarən Azərbaycanın mərkəzində yaranmış Qarabağ xanlığının ərazisinə daxil oldu. 1805-ci ildə isə Qarabağ xanlığı Rusiya imperiyasının tərkibinə qatıldı».

Konflikt başlanan ərəfədə Qarabağda ermənilərlə birgə zərbaycanlılar, ruslar və başqa xalqların nümayəndələri də yaşayırdılar.

Muxtar vilayətin iqtisadiyyatı, sosial infrastrukturu, mədəniyyəti bütün Azərbaycanla birgə inkişaf etməkdəydi. Zavodlar, fabriklər, su anbarları tikilirdi. Erməni dilinin tədris olunduğu pedaqoji institut açılmışdı. Düzdür, hər yerdə oduğu kimi, burada da müəyyən problemlər yaranırdı, amma bütün bu problemlər burada yaşayan insanların dostluq və qardaşlıq zəminində həll olunurdu. Ümumiyyətlə, isə Dağlıq Qarabağ Muxtar Vilayəti sosial-iqtisadi göstəricilərinə görə həm Ermənistanı, həm də Azərbaycanı geridə qoyurdu. Məsələn, Stepanakert – Bakı, Stepanakert – Yere-

van aviareysləri açılmışdı və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi H.Əliyevin və Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Dəmirçiyanın razılığına əsasən bu reysləri növbəylə həm erməni, həm də azərbaycanlı pilotlar idarə edirdilər.

**28 iyun 1988-ci il, Moskva**

İstidən boğulan paytaxtda isə XIX Ümumittifaq partiya konfransı açılmışdı. Nitq dinləməkdən yorulan nümayəndələr fasilələrdə Kremlin şam ağaclarının ətrafında kölgəlik axtarır, bir küncə çəkilib siqaret çəkə-çəkə söhbət edir, hərdən də Baş katibin qarasınca deyinirdilər. Ölkə artıq alovlanmağa başlayırdı, lovğa Baş katib isə «ölkədəki yenidənqurmanı daha da dərinləşdirib qaçılmaz etmək» barədə danışırdı.

Son üç ili Baş katib «dönüş ili» adlandırırdı. Amma hansı istiqamətə dönüş? «Partiyanın və zəhmətkeşlərin səyləri nəticəsində ölkənin sosial, iqtisadi, mənəvi uçuruma sürüklənməsinin qarşısı alınıb. Cəmiyyət öz keçmişini, bu gününü və gələcəyini indi daha yaxşı başa düşür».

Amma ertəsi gün eyni tribunadan çıxış edən yazıçı Yuri Bondarev yenidənqurmanı bir təyyarəyə bənzətmişdi. Sadəcə, bu təyyarəni havaya qaldıranda son təyinat yerində eniş zolağının olub-olmadığıyla heç kim maraqlanmamışdı. Və bu, əsl həqiqət idi.

– Yalnız qarşılıqlı razılıq və barışıq nəticəsində bu son təyinat nöqtəsində eniş zolağı tikmək olar, – deyə Yuri Bondarev davam edirdi, – yalnız qarşılıqlı razılaşma və qarşılıqlı güzəştlər. Amma bu yaxınlarda mən gənc bir mexanizatora son dəyişikliklər barədə sual verdim. O mənə bilirsiniz nə cavab verdi? Dedi ki, «dəyişikliklər sizinçün çox maraqlıdır? Məsələn, bizim sovxozda düşüncənin yenidənqurması bu cür həyata keçib: kim ki axmaq idi, indi ağıllı olub şüarlar qışqırır. Kim ki ağıllı idi, əksinə, ağlını itirib, susub

oturub, qəzetlərdən, televiziyadakı xəbərlərdən qorxur. Siz bilirsinizmi, milçəklə insan arasında nə oxşarlıq var? Onların hər ikisini qəzetlə vurmaq olar. Bütün bunları deyəndə, məni yenidənqurmanın əleyhdarı adlandırdılar». Xalq yumoru ilə duzlanmış bu acı, kinayəli cavabı eşidəndə işdəki islahatların sadəcə zahiri görüntü olduğundan qəzəblənən, qeyzlənən bir insanın təəssüfünü hiss etdim. Həm də bizim mətbuatın bir hissəsi yenidənqurmanı mövcud şəraitin destabilizasiyası, inamın və mənəviyyatın təftişi məqsədiylə istifadə etməyə başlayıb.

Elə həmin konfransda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin yeni birinci katibi Əbdürrəhman Vəzirov da çıxış etdi. Qeyd etdi ki, bizim respublikada yenidənqurma böyük çətinliklərlə həyata keçirilir, keçmişin acı mirası həddən artıq böyükdür.

– Respublikanın sosial-siyasi, mənəvi şəraitinə dağıdıcı təsir göstərən ilk növbədə keçmişin mənfur kadr siyasəti olub. Bu kadr siyasəti zamanı yerlibazlıq, qohumbazlıq, tayfabazlıq, yaltaqlıq. saxtakarlıq, vəzifədən sui-istifadə böyük və əhəmiyyətli yer tutub...

Ə.Vəzirovun çıxışında Qorbaçovun siyasi xəttinin davamı açıq şəkildə hiss olunurdu. Heydər Əliyev opponentlərinin bu ittihamlarına cavab verməyə hazır idi, amma ona kim söz verirdi ki? Məgər situasiyadan baş çıxartmaq məqamı gələndə, kimsə onu çağırmışdımı, onunla məsləhətləşmişdimi? Heç kim. Ümid edirdilər ki, vəziyyəti düzəltməyə özlərinin gücləri çatacaq.

Bir vaxtlar məxfi olan bir neçə sənədi misal göstərək.

Birincisi – «Azərbaycan Sovet Sosialist Respublikası və Ermənistan Sovet Sosialist Respublikasında ictimai asayişin bərpası barədə nəzərdə tutulan təxirəsalınmaz tədbirlər barədə» Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin qərarıydı.

«Azərbaycan Sovet Sosialist Respublikasında və Ermənistan Sovet Sosialist Respublikasında Dağlıq Qarabağ Mux-

tar Vilayəli ətrafında yaranan hadisələr geldikcə daha təhlükəli xarakter almaqdadır. Tətil hərəkatı güclənməkdədir, mitinqlərin və yürüşlərin sayı artmaqdadır. Bu mitinqlərin, yürüşlərin iştirakçılarının hərəkətləri getdikcə daha da aqressiv xarakter alır, nəzarətdən çıxır və kütləvi itaətsizliyə keçir.

Hazırkı şəraitdə mövcud qanuni yollarla bu antiictimai hərəkətlərin qarşısını almaq qeyri-mümkün görünür.

Bununla əlaqədar olaraq, müvəqqəti tədbir kimi Sovet Sosialist Respublikaları İttifaqı Ali Soveti Rəyasət Heyətinin ictimai asayişi təmin edən qüvvələrin köməyi ilə belə qanunazidd hərəkətləri təşkil edənlərin, araqızışdıranların və bu cür hüquqazidd hərəkətlərin fəal iştirakçılarının cəmiyyətdən təcrid edilməsinə şərait yaradan xüsusi bir fərmanın qəbul edilməsini məqsədəuyğun hesab edərdik.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin bu sərəncamla bağlı qərar layihəsi də əlavə olunur.

*23 noyabr 1988-ci il.*

*A. Yakovlev, V. Çebrikov, Q. Razumovski, A. Lukyanov»*

Məktubun üstündə Qorbaçovun dərkənarı da var – «Mən razıyam»[1].

İkinci sənəd də həmin gün – 23 noyabrda qəbul olunub. Bu, «Azərbaycan Sovet Sosialist Respublikası və Ermənistan Sovet Sosialist Respublikasında ictimai asayişin bərpasıyla bağlı təxirəsalınmaz tədbirlər haqqında» adlı Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin sərəncamı və Sovet Sosialist Respublikaları İttifaqı Ali Soveti Rəyasət Heyətinin bu məsələylə bağlı müvafiq fərmanıdır. «Bu məsələylə bağlı Sovet Sosialist Respublikaları İttifaqı Ali Soveti Rəyasət Heyətinin fərman layihəsi təsdiq edilsin»[2].

---

[1] Rusiya Dövlət Yeni Tarix Arxivi – RDUTA F. 89. op. 4d. 5.L. 1-5

[2] RDUTA. F 3. Op.102. D.1058. L. 22-29

Və nəhayət adıçəkilən şəxslərin təklif etdiyi təxirəsalınmaz tədbirlərlə bağlı qərar layihəsinin mətni:

«1. Komendant saatı tətbiq edilən yerlərdə, yaşayış sahələrində daxili işlər orqanlarının, daxili qoşunların vəzifəli şəxslərinə, Sovet Sosialist Respublikaları İttifaqı DİN-in səlahiyyətli şəxslərinə öz hərəkətləriylə milli münaqişəni qızışdıran, ictimai asayişin pozulmasına təhrik edən, antiictimai hərəkətlərə sövq edən, adi vətəndaşlara, vəzifəli şəxslərə öz vəzifə səlahiyyətlərini yerinə yetirməyə mane olan şəxslərə qarşı inzibati qaydada otuz günə kimi həbs cəza tədbiri tətbiq etmək hüququ verilsin.

2. Bu qərarın birinci bəndinə uyğun olaraq həbsə alınmış şəxslər təyin olunan qaydalar üzrə Sovet Sosialist Respublikaları İttifaqı DİN-in xüsusi məntəqələrində və Sovet Sosialist Respublikaları İttifaqı DİN-in müəyyən etdiyi digər həbs məntəqələrində saxlanılsınlar.

3. Bu qərar 24 noyabr 1988-ci ildən qüvvəyə minmiş hesab edilsin».

Beləliklə, qərar layihəsi fərman statusu aldı.

Bu kitabın müəlliflərindən biri – bakılı müəllif bu hadisələri yaxından müşahidə etmişdi. İkinci müəllif isə Moskvadan Bakıya ezamiyyətə göndərilmişdi.

## «Mən Qorbaçovla görüşməyə çalışırdım»

Ümumittifaq dərəcəli fərdi təqaüdçü (o zaman belə bir rəsmi deyim vardı) Heydər Əlirza oğlu Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü idi. Əslində fəaliyyətdən kənarlaşdırıldısa da, o, iqtidar sahiblərinə nəyi isə açıqlamağa, məsləhət görməyə, öz tövsiyələrini çatdırmağa cəhd edirdi.

– Qorbaçovla görüşməyə çalışırdım, lakin o məni qəbul etmədi. O vaxt artıq təqaüdçü idim. Köməkçiləri deyirdilər: o məşğuldur, biz məlumat vermişik. Orada verilən cavablar həmişə şablon və çox sadə olurdu – biz məlumat vermişik, o

məşğuldur. Nə vaxt dəvət edəcəyini gözləməlisiniz. Bir gün gözlədim, iki gün, bir ay, heç nə yoxdur. Daha bir dəfə də zəng vurdum. Aydın məsələdir ki, o məni qəbul etmək istəmirdi.

Liqaçovla görüşməyə çalışdım. O da məni qəbul etmədi, amma bir dəfə səhər ertədən sadəcə Mərkəzi Komitəyə gəlib onun qəbul otağında oturdum, yəni bax, beləcə, gözgörəsi, oturub gözləyirəm. O gəlib çıxdı. Mən ona Dağlıq Qarabağdakı vəziyyət haqqında öz baxışlarımı açıqladım. O dinlədi, dinlədi, ağlabatan heç bir şey demədi, – mən isə müəyyən dərəcədə fayda verə biləcəyimi düşünürdüm.

– Siz Liqaçova konkret hərəkətlər planı təklif edirdinizmi?

– ... Ümumiyyətlə, ona deyirdim ki, vəziyyət belədir... on qəti tədbirlər görülməlidir... O da qayıtdı ki, «biz də tədbir görürük». Vəssalam. Yəni mənim iştirakıma heç bir ehtiyac yoxdur, məsləhətlərim də lazım deyil. Onda Razumovskinin yanına getdim. Yeri gəlmişkən, o məni dərhal qəbul etmədi, hərçənd mən Siyasi Büronun üzvü olmuşdum, o isə yalnız Mərkəzi Komitə katibi idi. Yenə danışdım, danışdım, o isə qulaq asırmış kimi görünsə də, başa düşmədim, tövsiyələrim ağlına batdımı, yoxsa hər şey faydasız oldu (Televiziya aparıcısı Andrey Karaulovla söhbətləşmədən).

«Tam məxfi.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi.

Dağlıq Qarabağda və onun ətrafında vəziyyətin kəskinləşməsilə bağlı tədbirlər haqqında.

Dağlıq Qarabağda və onun ətrafında hadisələrin inkişafi Dağlıq Qarabağ Muxtar Vilayətində, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında və bütün Azərbaycan ərazisində azərbaycanlılar və erməni əhalisi arasında kütləvi silahlı toqquşmalara gətirib çıxara bilər. İctimai asayişin və əhalinin təhlükəsizliyinin təmin olunması üçün daxili qoşunların, milis bölmələrinin həyata keçirdiyi tədbirlər yetərli olmaya bilər.

Bununla əlaqədar olaraq artıq indidən Sovet Ordusu bölmələrinin əhalinin müdafıəsi üçün isüfadə olunacaq imkanları nəzərdə tutulmalıdır. Hadisələrin belə fəlakətli inkişafı ehtimalı artarsa, Azərbaycanın və Ermənistanın ayrı-ayrı yerlərində fövqəladə vəziyyət rejiminin lətbiq olunması haqqında təkliflər hazırlanmalıdır.

Bununla bağlı Sovet Sosialist Respublikaları İttifaqı Müdafıə Nazirliyinə (y. D.T.Yazova), Sovet Sosialist Respublikaları İttifaqı DİN (y. V.F.Bakatinə), eləcə də Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin sədri (y. A.İ.Lultyanova) Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin sessiyasında qanunla nəzərdə tutulmuş qaydada baxmaq üçün bəri başdan müvafıq təkliflərin hazırlanmasını tapşırmaq olar.

*29 avqust 1989-cu il.*
*N.Slyunkov, V.Çebrikov»*

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi katibi və Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi sədrinin Qorbaçova ünvanladıqları digər sənəddə «Azərbaycan və Ermənistan rayon və şəhər milis şöbələri və bölmələrindən avtomatik və snayper silahlarının alınması... Azərbaycan və Ermənistan ərazilərində yerləşən buluddağıdan zenit artilleriyası və raket qurğularının Zaqafqaziya hərbi dairə hissələrinə verilməsi»ni təklif edirdilər.

Sənəddə «zorakılıq əməlləri törətmək məqsədilə yaradılmış millətçi və ekstremist silahlı dəstələrin aşkarlanması və zərərsizləşdirilməsi» kimi ümumən ağlabatan bir çox başqa təkliflər də irəli sürülürdü[1].

Həmin dövrədək hər iki respublikanı tərk edən qaçqınların sayı 300 min nəfərdən artıq idi. Kreml İttifaqda baş verən hadisələri artıq idarə edə bilmirdi. Baş katib yalnız orduya bel bağlayırdı.

---

[1] RDMTA. F. 89. Siyahı 10., S. 42. Səh. 1.4

## 21 yanvar 1990-cı il, Moskva

Səhər tezdən Leontyev dalanında yerləşən Azərbaycan Sovet Sosialist Respublikasının Moskvadakı daimi nümayəndəliyinin qarşısında həyəcanlı adamlar toplaşmağa başlamışdı. Onları təşvişə salan Bakıdan gələn bəd xəbərlər idi: şəhərə qoşun yeridilmiş, dinc əhali arasında ölənlər, yaralananlar var... Nə baş verib? Rəsmi məlumata artıq etibar edən az idi. Hamı doğru-dürüst, əməlli-başlı, yetərli məlumat almaq istəyirdi. Məhz o məqamlarda Heydər Əliyev var səsilə öz mövqeyini bəyan etdi.

O, müalicə olunduğu Barvixa xəstəxanasından nümayəndəliyə gəlmişdi. «Yataqda qalmaq vaxtı deyil!» O daha susa bilməzdi.

Əliyevin bəyanatını onlarla telekamera və mikrofon yazırdı.

«Əziz həmvətənlilərim, xanımlar və cənablar!

Sizə məlum olduğu kimi, mən uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmişəm, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, təqaüddəyəm. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan Sovet Sosialist Respublikasının Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilmədim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm.

Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Zöhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi,

başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri var. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm.

Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də ölkənin ali siyasi, partiya rəhbərliyinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın, ümumi Federativ İttifaq olan Sovet Sosialist Respublikaları İttifaqında azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi.

Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı».

Əliyev Azərbaycanda vəziyyətin siyasi tənzimlənmə imkanlarının mövcud olduğunu nəzərə çatdırırdı. «Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəticədə isə yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə sovet ordusunun, Sovet Sosialist Respublikaları İttifaqı DİN qoşunlarının böyük kontingenti yeridilmişdir. Bunun törətdiyi faciələr hamınıza məlumdur.

Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə

bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələrilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişdilər.

Bütün bunlar qabaqcadan nəzərə alınmalı, vacib zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşdur. Yeri gəlmişkən, deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı ucundan, olmayan qiyamı yatırmaq adı ilə Azərbaycana göndərilən rus gənclərinin günahı nədir?

Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər – 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, hava hücumundan müdafıə qoşunları, DİN-in daxili qoşun birləşmələri var. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdırlar.

Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır».

Elə həmin gün Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi, respublikanın Ali Soveti və Nazirlər Sovetinə teleqram göndərmişdir:

«Azərbaycan xalqına!

Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gəlmiş faciədən – dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu

matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram.

Mənim teleqramımın respublika mətbuatında dərc olunmasını, radio, televiziya ilə verilməsini, matəm mitinqində oxunmasını xahiş edirəm.

*Heydər Əliyev*
*21 yanvar 1990-cı il, Moskva».*

Məlum məsələdir ki, respublika mətbuatı, radio, televiziya ürək ağrısıyla yazılmış bu teleqramı ictimaiyyətin nəzərinə çatdırmadı. Mərkəzi mətbuat isə senzura tərəfindən üstündə işlənmiş variantı bəyan etdi. Məktubun tam mətni yalnız xidməti istifadə üçün nəzərdə tutulurdu. «Raboçaya tribuna» qəzetinin arxivində qəzetin Bakı müxbirinin iki yazısı üzə çıxdı. Bu yazılara nəzər salsaq, yanvar hadisələrinin həqiqi lövhəsini görmək olar.

«Təcili. Xidməti məruzə.

«Raboçaya tribuna» qəzetinin baş redaktoru A.P.Yurkova Anatoli Petroviç, axşamınız xeyir. Bu gün axşam bizim bütün ailə üzvləri əsl döyüşün şahidi oldu. Tankçılar və pulemyotçular birbaşa bulvardan Xəzər Dəniz Gəmiçiliyinin buxtanı əhatəyə almış gəmilərini atəşə tuturdular. Biz indi ağır artilleriyanın, tankların, pulemyotların iştirak etdiyi əsl müharibənin iştirakçısıyıq. Dəhşətli səhnədir.

Məni ən çox narahat edən isə iki məsələdir: ordu qəsdən antirus əhval-ruhiyyələrini qızışdırır və Bakıdan rusların kütləvi şəkildə köçməsinə şərait yaradır. Bizdə heç vaxt belə vəziyyət olmamışdı, biz həmişə mehribanlıq şəraitində yaşamışdıq. Məncə, bütün bu tədbirlər qəsdən həyata keçirilir. Fikrimcə, Bakıda yerli əhaliyə qarşı yeni repressiyalar hazırlanır və bu qəddarlığı əsaslandıra bilən səbəblərə ehtiyac var. Əlbəttə ki, bunun üçün «rusların qovulması»ndan gözəl

bəhanə ola bilməz. Hamımız ədalətsiz siyasətin həyata keçirildiyini hiss edirik. Əsl beynəlmiləlçi olan bizlərdən millətçi-şovinistlər düzəltmək istəyirlər.

Bütün bu hadisələrə xalq öz reaksiyasını partiyadan kütləvi şəkildə çıxmaqla bildirir. Dünən Azərbaycanın yaradıcı ittifaqlarının birləşmiş iclası keçirildi. Kommunist partiyasını kütləvi şəkildə tərk etmək barədə qərar qəbul edildi. Bütün müəssisələrdə, kəndlərdə insanlar partiya biletlərini kütləvi şəkildə geri qaytarırlar. Mənə məlum olduğuna görə, Azərbaycanın iki ən böyük sənaye mərkəzlərindən olan Mingəçevir və Əli Bayramlıda bir nəfər də kommunist qalmayıb. Onların hamısı partiya təşkilatının katibiylə birlikdə biletlərini təhvil veriblər. Vəziyyət hadisələri düzgün araşdırmağı və dəqiq qərarların qəbul edilməsini tələb edir.

Təəssüflər olsun ki, mərkəzi mətbuatın Bakıya gələn nümayəndələrini ordu o saat öz himayəsi altına götürür, onları yerləşdirir, fəaliyyətlərinə, yazdıqları informasiyaya nəzarət edir. Buna görə də verilən informasiyalar çox vaxt həqiqətə uyğun olmur, ordunun qəddarlığına haqq qazandıran informasiyalar yayılır. Bu qədər açıq yazdığıma görə məni bağışlayın. Yalan danışmaq nəyə lazımdır ki?»

## «Pravda» atəş açır

İki həftə sonra, fevralın 4-də, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumuna bir gün qalmış «Pravda» qəzeti «Aliyevşina, ili plaç po «sladkomu» vremeni» – «Əliyevçilik və ya «xoş əyyamlar» üçün göz yaşı» məqaləsilə ona arxadan zərbə vurdu. Yenə də yalan və saxtakarlıq.

Elə həmin gün Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə və «Pravda»nın redaksiyasına teleqramlar göndərdi: «Pravda» qəzetində mənə qarşı böhtançı və fitnəkar səciyyə daşıyan məqalə dərc olunması ilə bağlı dərindən hiddətlənmişəm. Xahiş edirəm, mənə təkziblə

çıxış etmək imkanı verməsi üçün qəzet redaksiyasına tapşırıq verəsiniz».

Hansı təkzibdən danışmaq olardı?! Aşkarlıq hüququ yalnız bir tərəfə verilirdi. Məqalə tibb elmləri doktoru V.Əfəndiyevin adıyla yazılsa da, onun özünün bundan heç xəbəri yox idi. Bu barədə o, Mərkəzi Komitəyə də, «Pravda»ya da, Heydər Əliyevə də teleqram yollamışdı;

«Çox hörmətli Heydər Əliyeviç!

1990-cı il fevralın 4-də «Pravda»da mənim imzamla dərc olunmuş (teleqram müəllifı vurğulamışdır – müəlliflər), sırf siyasi səciyyə daşıyan və 1990-cı il yanvarın sonuna aid hadisələri əks etdirən məqalə mənə tanış deyil, mənim tərəfimdən yazılmamış və imzalanmamışdır. Orada səhiyyə, tibbi kadrların hazırlanması və ölkədə durğunluq dövründə sosial-iqtisadi vəziyyət haqqında vaxtilə söylədiyim bəzi müddəalar istifadə olunmuşdur.

*Hörmətlə,*
*tibb elmləri doktoru V.M.Əfəndiyev*
*05.02.90».*

Xatırladaq ki, Əfəndiyevin imzasıyla «Pravda»da məqalə fevralın 4-də çıxmışdı. Ayın beşində isə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu açıldı. Əlbəttə, bu gün təsadüfı seçilməmişdi: yəni yoldaşlar macal tapıb oxuyar və fikirlərini söyləyərlər. «Macal tapanlar» oldu. İyirmi il Mərkəzi Komitədə «tər tökmüş» və «Sovetskaya kultura» qəzetinin baş redaktoru kreslosuna əyləşmiş Albert Belyayevin sözlərinə görə, «Aliyevşina...» məqaləsi hamını sarsıtmışdı. Bax, belə adamlar partiyaya inamı qırırlar».

Belyayev bir az da qabağa gedib rəhbər partiyaçı şəxslərin təkəbbürlü davranışı, yoldaşlarına qarşı kobudluq və ədəbsizliyi, öz vəzifə mövqeyindən şəxsi məqsədlər üçün sui-istifadə etməsi, Sovet İttifaqı Kommunist Partiyası üzvlüyü ilə bir araya sığışmaz kimi ifadələrin plenumun sənədlərinə yazılmasını təklif edirdi.

Bu şərtlərə kim əmma qoyar ki? Əslinə qalsa, bu barədə eynən bu və ya başqa sözlərlə partiya nizamnaməsində də deyilirdi, Və həmin tələblərə partiyaya daxil olarkən Əliyev də, Belyayev də, ona «Əliyevşina»nı təkrar dərc etməyi məsləhət görənlər də əməl etməyə söz vermişdilər...

Məsələ başqa qaynaqlardan köpüklənirdi. Əliyev Qorbaçovun iqtisadi, sosial, milli siyasətini qəbul etmirdi deyə, onu mənəvi cəhətdən sıxışdırıb axırına çıxmaq istəyirdilər.

– Mənə, Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini kimi, – deyə Heydər Əliyev söyləyirdi, – Moskvada içki üçün düzülən növbələrin şəkillərini gətirirdilər. Dəhşət idi! Bu növbələrdəki insanların əhvali-ruhiyyəsi və ölkə rəhbərliyinə qarşı yönəlmiş söhbətlərin məzmunu haqqında informasiya alaraq, biz Qorbaçova və Liqaçova çatdırırdıq, onlar isə bunu məsxərəyə çevirib deyirdilər: eybi yox, indi belədir, sonra dinc duracaqlar. Onlar buna reaksiya vermirdilər. Qətiyyən reaksiya vermirdilər!

1985-ci ildən sonrakı dövrdə ölkə uçuruma doğru gedirdi – iqtisadiyyat, sosial sahə dağılır. İnsanların güzəranı hər hansı dövrdə olduğundan qat-qat betər pisləşir, ölkədə mənəvi-psixoloji iqlim son dərəcəyədək gərginləşir, millətlərarası münasibətlər adi hal alır, Sovet Sosialist Respublikaları İttifaqı dağılır, idarəolunmaz proseslər baş verir. Və bütün bunları Qorbaçov «yenidənqurma» kimi qələmə verməyə çalışır. Gah yenidənqurma «yola düşür», gah «dönüşdədir», gah «ciddi sınaqlar mərhələsinə qədəm qoyur» və ilaxır.

Nə deyəsən? Müharibədən sonra çörək qıtlığı olan bircə dönəmi – Xruşşov dövrünü xatırlayıram. İndi çörək çatışmır. Özü də harada? Paytaxtda. Müharibədən sonra heç bir tütün kasadlığı halları yadıma gəlmir. İndi isə izahat verməyə cəhd göstərirlər. Hansı izahatdan söz gedə bilər? Axı biz əvvəllər indikindən qat-qat az tütün istehsal edirdik, amma böhran baş vermirdi.

... İndi ölkədə millətlərarası münasibətlər olduqca mürəkkəbləşib. Qorbaçov və başqaları hər şeyi keçmişin, Stalinin, durğunluq dövrünün üstünə yıxır, amma heç kim son iki-üç ildə yol verilən səhvləri dilinə gətirmir. Halbuki, millətlərarası konfliktləri yalnız keçmişdə bağlamaq qeyri-obyektlivlik və nadürüstlükdür. Əlbəttə, Stalin dövründə də, sonralar da xətalar olmuşdur, amma haçan, nə qədər səhv buraxıldığına baxsaq, son illərdəkilər bütün dövrləri üstələyər...

Qorbaçov hər addımda özü-özünə zidd çıxır. Fevralın 5-də (1990-cı il – müəlliflər.) Mərkəzi Komitənin plenumundakı məruzəsində (mətni geniş olmasa da) o, yenə də Dağlıq Qarabağ Muxtar Vilayəti hadisələrindən uzun-uzadı danışırdı və yenə də aydın bir şey izhar etmirdi. Yalnız onu bildirirdi ki, indi-indi Dağlıq Qarabağ Muxtar Vilayəti məsələsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli onunçün tamamilə aydınlaşmışdır. Yaxşı, sual olunur, niyə bu barədə iki il öncə deyilməmişdir? Deməli, o vaxt Qorbaçov başqa, orta mövqe tuturmuş, nə sizinkilərin, nə bizimkilərin, yəni gedin, vuruşun, kim-kimi yıxır yıxsın... Məgər belə şey olar? Əgər bu federasiyadırsa, ittifaq dövlətidirsə, – deməli, ittifaq dövləti dərhal öz mövqeyini bildirməli idi. Bu da milli siyasətdə daha bir səhv. Amma unudulmamalıdır ki, yenidənqurmaya qədər Zaqafqaziyada ermənilər və azərbaycanlılar arasında heç bir problem yox idi; Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində 14 il işlədiyim müddətdə mən hər il, bəzən də bir neçə dəfə Dağlıq Qarabağda olurdum və bu muxtar vilayətdən bir nəfər də olsun qarşımda Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsi haqqında məsələ qaldırmamışdı. Başa düşürsünüzmü, heç bir kəs?! Ermənistanda ayrı-ayrı millətçilik ovqatları var idi, orada bəziləri belə planlar hazırlayırdı, lakin onlar Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisi tərəfindən dəstəklənməmişdi» (televiziya aparıcısı Andrey Karaulovla dialoqundan).

Yenidənqurmadan əvvəl ermənilər və azərbaycanlılar arasında problem olmamasını söyləyən Heydər Əliyev bəlkə real vəziyyəti bir qədər bəzəyib-düzəyirdi?

– O illər Azərbaycanda heç bir millətlərarası münaqişə olmamışdır, – ordu generalı Filipp Bobkov təsdiqləyir. O zaman Sovet Sosialist Respublikaları İttifaqı Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi sədrinin birinci müavini olan şəxs nəinki qəzetlərin yazdıqlarını, həm də yazmadıqlarını bilir.

Əliyevin xatırladığı həmin çoxdankı məruzəni dilli-dilavər Baş katibin Dağlıq Qarabağ ətrafındakı münaqişə, «bu qəliz düyünü açmaq» cəhdləri haqqında mülahizələrini yenidən oxuduq. Əsl həqiqətdə məsələnin mahiyyəti haqqında çox az şey var. Daha çox «hər iki respublikada və Dağlıq Qarabağ Muxtar Vilayətinin özündə olan müəyyən qüvvələrdən», gizli iqtisadiyyat təmsilçilərindən, yenidənqurmaya xilaf çıxan, rüşvətxor məmurlardan bəhs edilir. Onların liderliyi ələ keçirməyə, aldadılmış kütlələrin hərəkətlərini dağıdıcı məcraya yönəltməyə müvəffəq olmalarından bəhs edilir. Bəs püskürən yanğınları söndürmək, ölkəni xilas etmək üçün iqtidar neyləmiş, nə iş görmüşdür?

Heydər Əliyev köhnə adətincə gününü qəzetləri nəzərdən keçirməklə başlardı. Plenumlardakı çıxışları oxuyar, düşündükləri̇lə səsləşən sətirlərin altını cizgiləyərdi.

Budur, Kiyev Şəhər Partiya Komitəsinin birinci katibi Korniyenko bir kommunist fəhlənin Qorbaçova ünvanladığı məktubdan çıxarışları səsləndirir: «Biz hayana gedirik? Nə qədər gec deyil, sizə, Mixail Sergeyeviç və bütövlükdə ölkə rəhbərliyinə elə gəlmirmi ki, sosialist dövlətinin taleyi, namuslu zəhmətkeş xalqın taleyi barədə düşünməyin və ən təxirəsalınmaz tədbirlər görməyin vaxtıdır?!»

«Hakimiyyət orqanlarına və partiya rəhbərliyinə qarşı etimadsızlığın apogeyi hələ gəlib çatmasa da, biz təhlükəli səddən artıq uzaq deyilik», – deyə Leninqradda «İjor zavodu» İstehsalat Birliyinin partiya komitəsinin katibi Yuri Arxipov həyəcan təbili çalır.

Sovet İttifaqının Polşadakı səfiri Brovikov «bizim partiya və dövlət rəhbərlərimizin hipertrofik iddialarından, yol verdikləri şəxsi səhvlərdən» söz açır. «Belə bir səhv, ölkədə nizam-intizamı bərqərar etmədən cəmiyyətin total demokratikləşdirilməsini elan etməkdir. İntizam demokratiyasız yaşaya bilər, amma intizamsız demokratiya ağlasığmazdır, çünki onun ictimai-siyasi xaosa çevrilməsi qaçılmaz, daha dəqiq desək, labüddür...»

Heydər Əliyev belə düşünürdü: «Ancaq kar olanlar bu həyəcan səslərini eşitməyə bilərdi. Amma bəlkə onlar – Qorbaçov, Yakovlev... bu səsləri eşitmək istəmirdilər?..»

## Moskva blokadası

1990-cı il mayın 17-də Naxçıvan kommunistləri Heydər Əliyevi Azərbaycan Kommunist Partiyasının XXXII qurultayına nümayəndə seçdilər. Qurultay iyunun 8-də açılırdı. Heydər Əliyev, Naxçıvana doğma yurduna baş çəkə bilsin deyə, təyyarə biletini iyunun birinə aldı.

O xatırlayırdı: «Moskva-Bakı aviareysinə bilet sifariş edər-etməz telefon zəngləri səslənməyə başladı. Əvvəl Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi nəzdində Partiya Nəzarəti Komitəsi üzrə Puqonun müavinləri Slezko və Gerasimov zəng vurdular. Səfərdən daşınmağı məsləhət görürdülər, yəni Azərbaycanda vəziyyət gərgindir və mənim gəlişim atmosferi daha da qızışdırar. Sonra mənimlə alverə başladılar. Yəni onlarda Partiya Nəzarəti Komitəsində Əliyevə qarşı materiallar var. O, Bakıya getməsə, sənədləri arxivə təhvil verəcək, getsə onları üzə çıxaracaqlar... Mayın 30-da Puqo özü zəng çaldı. Məlum oldu ki, bu zəng də həmin niyyətlə edilib. Mən ona dedim: «Qəribədir, siz məni haçandır yad etmirdiniz, hərçənd mən çətin günlər yaşamışdım – xəstə oldum, xəstəxanada yatdım, indi isə canımı qurtarıb vətənə yollanmaq istədiyim vaxtda siz birdən məni yada salmısınız. Sizin bu səfəri qadağan etməyə haqqınız yoxdur».

Bakıda o, kiçik qardaşı Cəlal Əliyevin evində qalmaq niyyətində idi.

Cəlal Əliyevin xatirələrindən:

«Mayın 29-da respublikada çox tanınmış bir adam mənə zəng vurub görüşmək istədiyini bildirdi. Təyin olunmuş vaxtda Elmlər Akademiyasının yanındakı bağda görüşdük. O mənə dedi ki, H.Əliyev gələcəyi təqdirdə onu təhlükə gözləyir. «Təcili olaraq qardaşınıza zəng çalın. Ona çatdırm ki, Bakıya gəlməsin. Yoxsa onu elə təyyarənin trapı yanındaca güllələyəcəklər», – o adam müqəddiməsiz-filansız belə dedi. Hər hansı başqa bir adamdan belə sözlər eşitsəydim, ayrı reaksiya verərdim, amma təhlükə haqqında o zaman kifayət qədər nüfuzlu adam xəbərdarlıq edirdi, ona görə də belə bir nəticənin ehtimalını qulaqardına vurmaq olmazdı. Mən çox çətin vəziyyətdə qaldım, çünki gəlişə yol vermək, ya qarşısını almaq barədə qərarımdan mənə əziz olan bir insanın ömrü asılı ola bilərdi. Lakin yubanmadan qərara gəlməliydim və onda mən «Azərnəşr»in direktoru Əjdər Xanbabayevə zəng vurdum ki, görüşmək barədə şərtləşim.

Ertəsi günü, mayın 30-u səhər saat 10-da onun kabinetində bu məsələni müzakirə edib, Moskva ilə telefon danışığı sifariş etdik. Bizi uzun müddət calaşdırmırdılar. İndi anlayıram ki, əbəs deyilmiş. Yalnız dörd saat ərzində Əjdərin «vertuyka»[1] ilə zənglərindən, Rabitə Nazirliyinin məsul məmurlarına müraciətindən sonra biz bağlantıya nail olduq. Heydərin həyatı üçün nigaran olduğumdan təbii ki, birmənalı qərara gələ bilmirdim və bir saniyə belə tərəddüd etməyən Əjdər Xanbabayevin cəsarət və qətiyyətinə heyrətlənirdim. O, qardaşıma dedi ki, bütün bu hay-küyə və hədə-qorxuya fikir verməyə dəyməz, ziyalılar qətiyyətli əhvaldadırlar və Əliyevi aeroportda qarşılayacaqlar. Yadımdadır, qardaşım artıq səs-küy qaldırmamağı xahiş edirdi, yəni qoy

---

[1] «vertuyka» – hökumət telefonu

məni Cəlaldan başqa heç kəs qarşılamasın. Xanbabayev etiraz etdi: «Mən sizi mütləq qarşılayacağam»...

Həmin günün axşamı yenə Əjdərlə danışmalıydım. Mən onun evinə zəng vurdum. Dəstəyi bir qadın götürdü.

Hönkürtüdən boğula-boğula dedi: «Qardaş, Əjdəri ağır yaralayıblar. Xəstəxanadadır...» Bir neçə saat sonra, huşu qayıtmadan Əjdər keçindi...»

Bu hadisəni Heydər Əliyev belə xatırlayır: «Təbii ki, mən faktları tutuşdurmağa başladım: Mayın 30-da gündüz saat 12-də o mənimlə telefonla tanışmış, axşam saat 9-da isə öldürülmüşdür. Bildiyimə görə, o, sakit, ləyaqətli adam idi, çirkin əməllərlə bağlı deyildi, siyasətlə maraqlanmırdı; uzun illər boyu «Azərnəşr»də işləmişdi. Bu, Azərbaycanda böyük bir nəşriyyatdır. Əjdərin ziyalılar arasında hörməti vardı. Təbii ki, bütün bunlar məndə sual doğururdu; niyə o, məhz həmin gündə və hansı səbəblə qətlə yetirilmişdir?

– Maraqlıdır, güman edə bilərdinizmi ki, ölkə rəhbərliyi, yaxud Azərbaycan rəhbərliyi sizdən o dərəcədə qorxur, ya da xoflanır, əgər belə bir xof vardısa, onun nəticələri hər cürə ola bilərdi?

– Bilirsiniz, məndən qorxub-qorxmadıqlarını demək çətindir, amma ayrı-ayrı ölkə rəhbərlərinin mənə qarşı açıq-aşkar neqativ münasibətini artıq üç ildən çoxdur ki, hiss edirəm. Əfsus ki, mən Azərbaycanın əvvəlki rəhbərləri tərəfindən də hücumlara məruz qalırdım. Özü də tamamilə qeyri-obyektiv hücumlara, lakin indinin özündə də nədənsə mənim doğma torpağıma qayıtmağım böyük bir problemə çevrilib (televiziya aparıcısı Andrey Karaulovla dialoqdan).

Əliyevi faktiki olaraq Moskvada təcrid etmişdilər. Azərbaycan Kommunist Partiyasının qurultayı onsuz keçdi. Ehtimal var ki, həmin qurultay onu Sovet İttifaqı Kommunist Partiyası XXVIII qurultayına nümayəndə seçə bilərdi və beləliklə o, hakimiyyətə qayıda bilərdi.

Heydər Əliyev Bakıya iyulun 20-də gəldi. Güman edirdi ki, onun biliyinə və təcrübəsinə Vətəndə ehtiyac olar. Əv-

vəlcə o, öz köhnə mənzilinə qayıdacağına, yaxud bir başqa mənzil alacağına ümid bəsləyirdi. Lakin Mərkəzi Komitədə onun Bakıda mənzil qeydiyyatına alınmasına ustalıqla bəhanə gətirib etiraz etdilər. İndi yeganə pənah yeri doğma Naxçıvan idi.

Yola çıxmağa qalan iki gün ərzində qohum-əqrəbayla, qardaş-bacılarla, yoldaşlığa sadiq qalmış dostlarla görüşməli, o Qara Yanvar gecəsində şəhid olmuşların məzarlarını ziyarət etməli idi...

Başdaşılarından cavan simalar baxırdılar – on dörd, on səkkiz, iyirmi, iyirmi səkkiz yaşlı şəhidlər... İlham Allahverdiyev, Fərizə Allahverdiyeva, Vera Bessantina, İlqar İbrahimov, Ağabəy Novruzbəyli... Onlar doyunca yaşamalı, övlad bəsləməli, babalıq-nənəlik sevincini görməliydilər... Amma onların daha nə övladları, nə nəvələri olacaq...

Xatirə günündə vaxtından əvvəl qocalmış ata-anaları balalarının son mənzilinə gəlib soyuq daşlara sığal çəkəcək, onların istisini duymaq, ruhunu toxdatmaq istəyəcəklər...

Heydər Əliyev aramla, abidələrin qarşısı ilə addımlayır, şəkillərə diqqətlə baxır, bəlkə kimisə tanıyırmış kimi göz gəzdirir. Yox, o, respublikadan gedəndə bu cavanlar hələ uşaq yaşında idilər. Hərəsi bir evin, bir ailənin sevimlisi idi. Futbol oynayır, Xəzərin sahillərində qaçışır, mavi dalğaların ağuşuna atılırdılar... Odur, sevimli dəniz aşağıda, üfüqlərə doğru uzanır, bərq vurur; indi əlçatmaz, ünyetməz olan dəniz...

## VIII fəsil

# ÖZ XALQINLA BİRLİKDƏ OLMAQ HAQQI

*22 iyun 1990-cı il, Naxçıvan*

Bakıdan doğma şəhərlərinə Heydər və Cəlal Əliyevlər poçt reysi ilə uçurdular. Zahirən romantik bir uçuşdur! Qardaşlar təyyarə salonunda qalaqlanmış qəzet-jurnal dəstlərinə, məktublarla, göndərişlərlə dolu torbalara nəzər salaraq gülümsəyirlər.

Bəlkə də, həmin gün, təyyarədən aşağıda doğma dağları, ilan kimi qıvrılan Arazı görəndə Heydər Əliyev atasının tez-tez təkrar etdiyi bir xalq məsəlini xatırlamışdı:

«Bir nəfərdən soruşurlar:

– Qardaşın necə adamdır?

– Bilmirəm, hələ ki onunla dostluq etməmişəm, – deyir».

Həyat qardaş və bacılarının ona münasibətlərinin möhkəmliyini dəfələrlə sınağa çəkmişdi. Amma indiki kimi çətin bir şəraitdə, yəqin ki, ilk dəfəydi. Amma nə yaxşı ki, qardaşlar bu imtahandan üzüağ çıxdılar.

Cəlal Əliyevin xatirələrindən:

«Naxçıvanda, demək olar ki, heç kəsin Heydər Əliyevin gəlişindən xəbəri yox idi. Aeroportdan bir tanışımızın «Jiquli»sində şəhərə yollandıq. Qardaşımı maşında görən bir yaşlı kişi dedi: «Gör ey, belə bir adamı necə maşında aparırlar!»

Köhnə ata ocağına gəldik. Bir az əvvəl buradan böyük bacımız Surə xanımı son mənzilə yola salmışdılar. Heydər Əliyevin qayıtması xəbəri dərhal şəhərə yayıldı. Xalq həyətimizə axışdı. Dar küçədə qələbəlik yarandı.

Axşamüstü Hüseyn Cavidin məzarına baş çəkdik. Naxçıvanlılar sevinclə Heydər Əliyevi salamlayırdılar. Böyük şairin məzarını baxımsız görəndə Heydərin yaman qanı qaraldı. Sonra mərkəzi meydana üz tutduq, axşam saat 6-7-dək burada 80 minə yaxın adam toplaşmışdı.

Çoxları əllərində Əliyevin portretlərini tutmuşdu; kimi bir ulduzlu, kimi iki ulduzlu, – görünür, kitab anbarlarında köhnə ehtiyatları eşələyib çıxarmışdılar. Heydər Əliyev həyəcanını gizlətmirdi. Üç il davam edən faktiki təcrid olunmadan, təqiblərdən sonra doğma torpaqda belə səmimi, mehriban qarşılanma onu həyəcanlandırmışdı...»

Əliyevi dövrəyə alan sıx izdihamı yara-yara vaxtilə pedtexnikumda onunla birlikdə oxumuş tələbə yoldaşı Dövlət Məmmədov irəliyə çıxdı. Ümumi tanışlarının birindən öyrənmişdi ki, Dövlət Məmmədov məğlub edilmiş saydıqları insana qara yaxmaqda davam edən redaksiyalarla mübarizə aparmış, onların ünvanına yorulmadan «təpik döymüşdü».

– Sağ ol, Dövlət! – Əliyev astadan dedi.

– Nəyə görə ki?! – deyə qocaman müəllim-cəbhəçi dilləndi. – Mən özümə borc bildiyimi eləmişəm. Redaksiyada mənə şəstlə dedilər: «Ay baba, burada nə yanlışlıq var ki?!» Elə bil mütləqi-həqiqəti deyən bunlardı... Dedim: «Axı böhtanla dolu yazılarınızda bir həqiqət olan şey var ki?!» Di gəl, təkzibi dərc eləməkdən boyun qaçırdılar.

– Eybi yox, – dedi Əliyev, – darıxma. Tezliklə həyat özü onları təkzib edər.

Bu meydan hələ heç vaxt belə gur izdiham görməmişdi. Sakinlər ətrafdakı evlərin eyvanlarına çıxmışdılar, dama qalxanlar da vardı. Heydər Əliyevə çətinliklə də olsa, yaxınlaşan Naxçıvan qəzetinin müxbiri öz bloknotunda belə qeyd edir: «Bu böyük şəxsiyyətin qarşısına çıxan insanların fərəh

hissini təsvir etmək mümkün deyil. Heydər Əliyevin çox yığcam qısa çıxışı isə vətən eşqiylə dolu bir ürəyin səsiydi». Amma əfsuslar olsun ki, hələ özünün sərt nüfuzunu saxlayan senzura bu sözlərin üstündən xətt çəkdi.

Heydər Əliyev, meqafonu götürüb, həmyerlilərini salamladı. Çox danışmaq fikrində deyildi. Daha çox yaxınlıqda duranlara üz tutsa da, elə sükut çökmüşdü ki, onu meydanın ən ucqar yerlərində də eşidirdilər. O axşam çıxışı çox çəkməsə də, hər kəlməsi qılınc kimi kəsərli idi. Evə qayıdanda üzü nurlanmışdı: «Doğrudan da, xalq məni unutmayıb».

Yavaş-yavaş görüşünə gələn qonum-qonşu, tanış-biliş dağılışdı. Yalnız doğmalar qaldı – Heydər, Cəlal, bacısı qızı Sənifə özünün qızlarıyla. Cəlal köhnə televizoru qurdalayıb sazlamağa çalışsa da, alınmırdı. Heydər gülə-gülə qayıtdı ki, bu köhnə texnikanın öhdəsindən gəlmək səhrada bağ salmaqdan çətindir...

Sonralar Əliyev etiraf edirdi:

– Mən burada müxtəlif «səs»lərə qulaq asmağı arzulayırdım. Amma evimizdə bir yararlı radioqəbuledici də yoxuydu, yaxşı ki, qonşularda vaxtilə Riqada buraxılan «Vef» markalı radioqəbuledici tapıldı.

İndi Əliyevin ata ocağını yalnız tək-tük fotoşəkillər və xatirələr vasitəsilə təsəvvürə gətirmək olar. Budur, Heydər qapı ağzında dayanıb; budur, Sənifə, nənəsi İzzət xanım kimi, əl-üzünü yuyan dayısının əlinə səhəngdən su tökür.

– O uzaq illərdə dayım həyətimizdəki quyunun suyuyla əl-üzünü yumağı xoşlayırdı. İstidə, bürküdə səhəngdə sərinliyini saxlamış sudan süzərdim, Heydər dayı da ləzzətlə soyuq şırnaqları üstünə çilədərdi; qohumların dediyinə görə, uşaqlıqdan vərdiş eləmişdi. Dayım, ümumiyyətlə doğma ocağı xatırladan hər şeyi sevirdi. Vaxtilə anasının, mənim nənəmin bişirdiyi xörəkləri – düşbərəni, qutabları, dolmanı xoşlayırdı. Bağımızın barını sevirdi. Uzun illər boyu Bakıya, Moskvaya meyvə yollayırdıq. O, elə hesab edirdi ki, Naxçıvan meyvələrinin tayı-bərabəri yoxdur.

Sənifə Soltanova Naxçıvan VVAQ şöbəsinin müdiridir. Respublikada onu şairə kimi də yaxşı tanıyırlar. Onun haqqında vaxtilə «Bakinski raboçi» qəzetinin xüsusi müxbiri Svetlana Mirzəyeva da söz açmışdır. Bu jurnalist xanım, güman ki, Heydər Əliyevlə o zamanlar başqa həmkarlarından daha çox görüşmüş. onun dostluq etdiyi, yardım göstərdiyi insanların, xüsusən sənət və ədəbiyyat xadimlərinin xatirələrini qədirbilənliklə toplamış və maraqlı, səmimi duyğularla aşılanmış bir kitab yaratmış, öz imzasını isə təvazökarlıqla yazıların sonunda, qəzetdə olduğu kimi vermişdir.

Kitabın ön səhifəsi Heydər Əliyevin portreti, onun «İncəsənət mənim bütün həyatımdan keçmişdir...» kəlamıyla başlanır.

Oxucu, yəqin ki, Heydər Əliyevin Naxçıvana gəlişinin ilk günündəcə Hüseyn Cavidin məzarını ziyarət etməsinə diqqət yetirmişdir. Böyük sənətkarın məzarı önündə baş əyərkən o, nələr düşünmüşdü? Hansı hisslər keçirmişdi? Ulu sənətkarın hansı misralarını xatırlamışdı? Bəlkə bunları?

*Bu dərinlikdə bir həqiqət var,*
*Gizlidir gərçi kor beyinlər için;*
*Lakin ülviyyətilə həp parlar,*
*Bəllidir görmək istəyənlər için...*

Bir-iki gün sonra Cavidin muzeyinə baş çəkdi. Burada son dəfə olduğu haçandı? Yəqin, 82-ci il idi. Respublika Cavidin yüzilliyinə hazırlaşırdı. 1882-ci il oktyabrın 24-də Naxçıvanda dünyaya gəlmiş, 1941-ci ilin 5 dekabr günündə Sibir sürgünündə dünyasını dəyişmiş Hüseyn Abdulla oğlu Rasizadə «Cavid» təxəllüsü ilə əbədiyyətə qovuşan mütəfəkkir şair, dramaturq... Taleyin acı oyununa bax, – azadlıq carçısı, sağlığında «Şərqin Şckspiri» adlandırılan ustad dekabrın 5-də – «Stalin Konstitusiyası» günündə ölmüşdür. Meşədə taxta-şalban tədarükündə, Sibir şaxtalarına tab gətirməmişdi? Ya bəlkə həssas qəlbi mənəvi iztirablara dözməyib partlamışdı?..

Cavid («əbədi» deməkdir) muzeyi onun köhnə ata-baba evində yerləşib. Fotolar, sənədlər, XX əsrin başlanğıcına aid məişət detalları: «nöyüt» lampası, Rusiyadan buraya gəlib çıxmış samovar, patefon, zərif armudu stəkanlar... Divardakı taxçalarda qab-qacaq, kuzələr, nimçələr, hər birinin öz təyinatı olan ləvazimat.

Şüşə altında Tayşet Rayon Xalq Deputatları Sovetinin 21 noyabr 1982-ci il tarixli sərəncamını oxuyuruq:

«Azərbaycan Kommunist Partiyası Naxçıvan Vilayət Komitəsi bürosunun 12 oktyabr 1982-ci il tarixli qərarı əsasında Azərbaycan Kommunist Partiyası Naxçıvan Vilayət Komitəsinin katibi yol. Cəfərov Həmid Qara oğluna, İrkutsk vilayəti Tayşet rayonunun Şevçenko kəndinin qəbiristanındakı 59 saylı qəbirdən Azərbaycanın görkəmli şair-dramaturqu Hüseyn Cavid Rasizadənin nəşinin onun vətəni Naxçıvan şəhərində dəfn edilməsi üçün köçürülməsinə icazə verilsin.

*Tayşel Rayon İcraiyyə Komitəsinin sədri*
*V.A.Smirnov».*

Onun həyat yoldaşı Müşkünaz xanımın taleyinə Cavidin heç nədən günahı olmadığını bilmək kimi acı xoşbəxtlik qismət oldu. Yəni əslini axtarsan, o heç vaxt buna şübhə də etməmişdi. Uşaqları Ərtoğrul və Turana da tapşırmışdı ki, atalarının yolunu gözləsinlər. Övladlarına Cavidin adı ilə fəxr etməyi öyrətmişdi. Ərtoğrul özünü incəsənətdə tapmışdı – rəsm çəkir, kinossenarilər yazır, musiqi bəstələyirdi. Böyük Üzeyir Hacıbəyov onu özünün ən istedadlı şagirdlərindən hesab edirdi. 1941-ci ildə Ərtoğrul Cavidi orduya çağırdılar. Həqiqətən səhhətində ciddi problemlər olduğu üçün cəbhəyə aparmadılar. Ancaq arxa cəbhənin hissələrindən birində, Gürcüstanda saxladılar. Çox keçmədi ki, ağır vəziyyətə düşmüş Ərtoğrulu ölmək üçün evə göndərdilər. O artıq qan öskürürdü. Dərman almaq üçün Müşkünaz xanım Cavidin hədiyyəsi olan nişan üzüyünü satmalı oldu. Ərtoğrul 24 yaşının tamamına bir neçə gün qalmış – 1943-cü il oktyabrın 14-də vəfat etdi.

Cavidlər ailəsində nəsə qeyri-adi bir mistika var. Hüseyn – 24 oktyabrda, Ərtoğrul 22 oktyabrda, Turan isə 2 oktyabrda anadan olub.

1982-ci ilin oktyabrında, Cavidin 100 illiyində, 1976-cı ildə Bakıda vəfat etmiş Müşkünaz xanımın və Ərtoğrulun nəşləri Naxçıvana gətirilib. Görkəmli şairin yanında torpağa tapşırıldılar. 2004-cü ildə isə öz vəsiyyətinə əsasən Müşkünaz və Cavidin qızı Turanı da onların yanında dəfn etdilər. İndi onlar doğma torpaqda yenə bir-birilərinə qovuşmuşlar...

Heydər Əliyev onların son mənzili üzərində xəyalən bir mavzoley canlandırırdı. Dağlar kimi uca, məğrur abidə. 1990-cı ildə bu arzunun gerçəkləşmə vaxtı hələ yetişməmişdi. Amma bilirdi ki, o gün gələcək. O gün 1996-cı ilin oktyabrında gerçəyə çevrildi.

Naxçıvan Respublikası ictimaiyyətilə görüşdə Heydər Əliyev dedi:

– Dünən (1996-cı il oktyabrın 29-da) biz Azərbaycan xalqının böyük yazıçısı, şairi, dramaturqu, alim-filosofu Hüseyn Cavidin xatirəsini andıq, onun məqbərəsinin təntənəli açılış mərasimində iştirak etdik. Bu böyük elm və mədəniyyət bayramı idi və yalnız bizim, yəni burada toplaşanların deyil, bütün Azərbaycan xalqının bayramı idi. Dünən bu bayram, demək olar ki, muxtar respublikanın bütün əhalisini ayağa qaldırdı. Hüseyn Cavid məqbərəsi ətrafında, küçələrdə, meydanlarda on minlərlə, yüz minlərlə insan toplaşdı. Hamı xoş əhvalda, fərəhlə bir-birini təbrik edirdi.

Bu, mənim üçün də böyük bayram idi, çünki mən on dörd il bundan öncə qəbul etdiyim qərarın yerinə yetirilməsinə nail oldum.

... Belə bir memarlıq əsərilə, əminik ki, Yusif ibn Küseyir və Möminə xatun məqbərələrini yaratmış böyük memar Əcəmi ibn Əbu Bəkr özü də fəxr edə bilərdi. Həmin abidələr birinci və ikinci minilliklərin qovşağından bizlərə gəlib çatmışdır. İkinci və üçüncü minilliklərin keçid dönəmi onlara gözəl Cavid məqbərəsini əlavə etdi.

*Başqa, pək başqa imdi zövqi-cahan,*
*Dünki peymanələrdə qan coşuyor.*
*Dünki məmurələr bu gün viran,*
*Dünki viranələr bu gün məmur...*
*Həp pozulmuş da dünki peymanlar,*
*Yəni dost olmuş əski düşmanlar.,.*
*(«Dün və bu gün»)*

Bəli, qürbət ellərdə «viranə» qalmış ulu şairin varlığı vətəndə bərqərar oldu, abad oldu, nigaran ruhu rahatlıq tapdı...

... 1990-cı ildə, bütün ittifaqda olduğu kimi, Naxçıvanda da ərzaq qıtlığı hökm sürürdü. Qonşudan-qonşuya soraq çatırdı ki, tanışlardan kimlərdə mal kəsiblər, yollanın, bəlkə, bir-iki kilo ət ala bildiniz. Hərdən Sənifənin kürəkənlərindən hansısa ət «növbəsinə» özünü yetirəndə, evdə hamının tamarzı olduğu bozbaş buğlanırdı...

Heydər Əlirza oğlu bacısı Surənin dəfninə gələ bilmədiyinə görə çox acıyırdı, – o zaman onu Moskvadan vətənə buraxmırdılar. Naxçıvana gələn günün səhərisi məzarlığa baş çəkib təzə qəbrin üstünə özünün gətirdiyi sevimli qızılgül dəstəsini qoydu və həm də atasının məzarı başında dayandı.

Əliyev Naxçıvanda keçirdiyi ilk günlərdə qəzetlər sarıdan xeyli çətinlik çəkirdi. Yerli qəzetlərə Sənifə abunə olmuşdu, Bakı-Moskva qəzetləri isə yalnız günün ikinci yarısında, bəzən də lap ertəsi günü çatdırılırdı. Yenə də qonşunun bağışladığı radioqəbuledici dadına çatırdı.

## Məqsəd artıq dəqiq müəyyən olunub

Moskvadan qayıdandan sonra Heydər Əliyev ilk müsahibəsini «Həyat» qəzetinin əməkdaşı Möhsün Möhsünova və Naxçıvana necə gəlib çıxdığı məlum olmayan Litvanın «Respublika» qəzetinin əməkdaşı Ritas Siyatalisə verdi. Müsahibədən əvvəl sərbəst geyimdə olan Heydər Əliyev yarızarafat-yarıgerçək bildirmişdi: «Müsahibəni bir şərtlə verəcəyəm. Dediklərimi təhrif etməyəcəksiniz».

Üzüm tənəyinin qol-budağı ilə hörmələnmiş rahat eyvanda qonaqları artıq heyva mürəbbəsi ilə çay gözləyirdi – Sənifə bacardığını eləmişdi. Naxçıvan jurnalisti litvalı həmkarı ilə razılığa gəlmişdilər ki, öz suallarına Əliyevdən alacaqları cavabları şərikli istifadə etsinlər. Onların həmsöhbətinin açıq və birbaşa cavablarından da aydın görünürdü ki, onunçün bu fikirləri söyləmək çox vacibdir. Yerliləri, həm də başqaları, fərqi yoxdur, kim olur-olsun, harada olur-olsun, lap elə qoy Litvada həqiqəti bilsinlər. Orada onun adına Avropa mətbuatı diqqət yetirə bilər. Yeri gəlmişkən, elə belə də oldu.

Həmkarlar Heydər Əliyevin Siyasi Bürodan getdikdən sonra necə yaşadığıyla maraqlandılar. Heydər Əliyev isə əvvəlcə hansı şəraitdə Siyasi Bürodan uzaqlaşdırıldığından, sonra respublika və mərkəzi mətbuatda necə böyük təzyiqlərə məruz qaldığından danışdı.

«Mən əvvəlcə dözməyə çalışırdım, – deyə o, danışmağa başladı. – Əlbəttə, başqaları kimi mənə də insanların münasibətlərinin belə dəyişməsi, haqsızlıqlar çox pis təsir edirdi. 1989-cu ilin aprel ayında 110-a qədər Mərkəzi Komitə üzvünün və üzvlüyünə namizədin könüllü olaraq istefa verməsi zamanı başa düşdüm ki, bu, mənimçün son şansdır. Ona görə də plenumda çıxış edib dedim ki, mənim əleyhimə iftira və böhtan kampaniyası başlanıb. Bu, başdan-ayağa ədalətsizlikdir. Mən hesab edirəm ki, ləyaqətlə işləmişəm. Düzdür, səhvlərim və nöqsanlarım da olub, bunsuz mümkün deyildi. Lakin ünvanıma deyilən böhtanlar heç bir əndazəyə sığmır.

Çıxışım uzun müddət üzvü olduğum Siyasi Büronun üzvlərinə, mənimlə çiyin-çiyinə çalışan yoldaşlara heç bir təsir etmədi. Onlar mənim çıxışıma əhəmiyyət vermədilər».

Zərif stəkanlardakı çay soyuyur. Heydər Əliyev sakitcə öz seçimini izah edir: «Mən başa düşdüm ki, mübarizə aparmalıyam». Özü deməsə də, aydın idi ki, bu, öz namusu, təmiz ad-sanı, xalqı uğrunda mübarizə idi. Ardınca çox maraqlı sözlər səsləndi: «Rəhbər işçinin İRADƏSI olmalıdır,

böyük İRADƏSİ. Hər bir rəhbər işçi bütün varlığı ilə dərk etməlidir ki, o, öz xalqının, öz millətinin, öz torpağının keşiyində dayanmalıdır. Yəni sən kənara çəkilib yalnız öz maraqlarını düşünməməlisən. Özünü yalnız bu işə həsr etməlisən. Mən Mərkəzi Komitədə işlədiyim on dörd il ərzində özümü xalqıma, respublikamıza həsr etmişəm. Amma indi heç nəsiz qalmışam. Lakin təəssüf etmirəm. Əgər yenidən siyasi fəaliyyətə başlasaydım, yenidən bu yolu tutardım».

Müsahibəyə yenidən qayıtmazdan əvvəl Əliyevin iki dəfə təkrarladığı və baş hərflərlə verməyi xahiş etdiyi sözə diqqət yetirək: İRADƏ. Bu ifadənin bir çox yozumu, mənası var. Fəlsəfi lüğətdə «iradə» sözü «fəaliyyət üçün məqsəd seçməyə və həyata keçirməyə zəruri olan daxili qüvvə, bacarıq kimi izah olunur. Gündəlik həyatda insanlar iradəli adamı iradəsiz adama qarşı qoyub, müqayisə edirlər. Müdriklər deyib: «iradəsiz adamda qətiyyət olmaz», «iradə hünər deməkdir, hünərsiz qələbə olmaz». Rus atalar məsəlində deyilir: «Ağıl görür, iradə götürmür». – «İradəsiz olmaq, əhəmiyyətsiz olmaq kimidir, – Vladimir İvanoviç Dal belə yazıb. Və əlavə edib: – zəif, qətiyyətsiz, müstəqil olmayan, xaraktersiz». Zəif, qətiyyətsiz, müstəqil olmayan adam ailə üçün də bədbəxtlikdir. Əgər belə adam şəhərin, vilayətin, respublikanın, ölkənin başına gəlib çıxıbsa, necə? Beləliklə, Heydər Əliyevin nə üçün belə bir ifadə işlətdiyi aydın olur: rəhbərin gərək İRADƏSİ olsun! Yoxsa, ən böyük hakimiyyətə sahib olmuş lider başqalarının əlində yalnız «piyada», oyuncaq olar. Qorbaçovun əlində nə qədər hakimiyyət var idi, nə qədər yeni səlahiyyətlər tələb etdi və aldı. – Axırı nə oldu?!

Həmsöhbətlər Heydər Əliyevdən onun Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Büro üzvü olduğu vaxtlardakı fəaliyyətini necə qiymətləndirdiyini soruşurlar.

– Mən uzun illər Bakıda və Moskvada respublika və İttifaq miqyaslı rəhbər vəzifələrdə işləmişəm. Onu da deyə

bilərəm ki, öz xalqıma, Sovet İttifaqına, mənsub olduğum Kommunist Partiyasına namus və vicdanla xidmət etmişəm. Hesab edirəm ki, indi bütün ölkənin, hər bir xalqın, hər bir respublikanın həyatında yeni bir mərhələ başlanıb. Hər bir xalq öz taleyini özü bildiyi kimi müəyyənləşdirməlidir. Həyatımın ötən günlərinə gəldikdə isə deməliyəm ki, keçmiş keçmişdə qalıb. Ümumiyyətlə, bu gün bütün işləri başlı-başına buraxıb keçmişi təftiş etmək mənim xoşuma gəlmir. Bir baxın, artıq altıncı ildir ki, keçmişi amansızlıqla söyürük. Altıncı ildir ki, ölkəmiz siyasi və iqtisadi cəhətdən dağılır. Bütün bu dövrlərdə bizə vədlər «yedirdirlər», nə bilim bu yeni mərhələdir, bu dönüş mərhələsidir, bu kəskin dönüşdür və i.a. Axı nə qədər mərhələ ola bilər. Buna görə də belə hesab edirəm ki, indi hər bir adama, hər bir xalqa, hər bir siyasi təşkilata və siyasi qüvvəyə öz taleyini müstəqil müəyyən etmək imkanı verilməlidir. Bu gün mənim fikrim belədir.

– Kommunist Partiyası haqqında sizin təsəvvürünüz dəyişibmi?

– Çox maraqlı sualdır. Bu məsələyə dialektik nöqteyi-nəzərdən yanaşmaq lazımdır. Amma bir şey aydındır ki, bu gün partiya çox ağır vəziyyətdədir. Əgər sırasında olduğun partiya dağılıbsa, təbii ki, bu hal səni də düşünməyə vadar edir, həm də geniş mənada.

– Bu ilin sentyabrında Azərbaycanda respublika vətəndaşları xalq elçilərinə səs verəcəklər. Güman etmək olar ki, bu dəfə deputallar həqiqi xalq elçiləri olacaqlar. Siz bir siyasi xadim kimi Azərbaycanın yeni Ali Sovetinin başlıca vəzifəsini nədə görürsünüz?

– Əgər həqiqətən əsl xalq deputatları seçiləcəksə (bunu gələcək göstərər, gəlin irəli qaçmayaq), onda müəyyən söz demək olar. İndi isə qısaca deyim ki, mən Azərbaycanın iqtisadi və siyasi suverenliyinin, tam müstəqilliyinin tərəfdarıyam.

Sakitcə otağa daxil olan Sənifə çayları dəyişir. Özlüyündə Heydər dayısının bu gün yaxşı görünməsinə sevinir; yəqin

ki doğma yerlərin havası düşərli olub. Söhbətin mövzusu isə şəxsi həyata yönəlir.

– Vaxtınızı necə keçirirsiniz? Əvvəllər az qala bütün sutkanı işləyirdiniz.

– Bilirsiniz, son iki ildə mənim haqqımda o qədər ədalətsizlik edilib ki, haqsızlıq həyatımı zəhərləyib. Belə bir əhvali-ruhiyyədə olan adam isə özünü toplayıb sistemli bir iş aparmaqda çətinlik çəkir. Bəzən çox mütaliə edirəm, bəzən yazıram.

– Memuar yazırsınız?

– Hələ konkret heç nə demək olmaz, amma bəzi qeydlər edirəm. Sinəm doludur. Onlar gərək yazıla və xalqa çatdırıla. Əgər bu borcumu yerinə yetirmədən dünyadan köçsəm, çox pis olar. Mənim bildiklərimi demək olar ki, Azərbaycanda heç kim bilmir.

– Sizə hal-hazırda nə kimi imtiyazlar verilib?

– Heç bir imtiyaz verilməyib.

– Nə kimi məhdudiyyətlər var?

– Məhdudiyyət ondan ibarətdir ki, öz evində yaşayırsan, heç bir imtiyazın da yoxdur. Pensiyanı alırsan, yaşayırsan.

– Belə çıxır ki, mağazaya da, dükana da, bazara da özünüz gedirsiniz?

– Bəli, bəli.

– Fərdi maşınınız da yoxdur?

– Xeyr, yoxdur. Biz azərbaycanlıyıq. Yay vaxtı mənim və uşaqlarımın Azərbaycana gəlməyi üçün imkan olmayıb. Bakıda nə evim var, nə bağım. Gəlib düşmüşəm qardaşım Cəlalın evinə, onun da balaca-balaca otaqları var. İki gecə divanda yatmışam. İndi də bacım evindəyəm.

– Naxçıvanda bu cür qarşılanmanı gözləyirdinizmi?

– Meydanı nəzərdə tutursunuz?

– Bəli.

– Mənə elə gəlirdi ki, belə də olmalıdır.

– Siz üç gündür burdasınız. Nə qədər qalacaqsınız? Həmişəlik qalmaq istərdinizmi?

– Nə qədər qalacağam? Görək də, necə olur. Başqa yerdə ev verməsələr, elə gəlib burda qalacağam.

– Dünən Nehrəm kəndinin camaatı Sizi Azərbaycan Sovet Sosialist Respublikası Ali Sovetinə deputatlığa namizəd irəli sürdü. Mən inanıram ki, Siz deputat seçiləcəksiniz. Belə olan təqdirdə nə kimi platforma irəli sürmək istərdiniz?

– Platformanı yuxarıda dedim. Siyasi və iqtisadi cəhətdən suveren, müstəqil Azərbaycan uğrunda mübarizə aparmaq.

– Yoldaş Əliyev, Siz bir anlığa mənim yerimə olsaydınız, Heydər Əliyevə ən başlıcı sualınız nə olardı?

– (Xeyli gülür). Hansı sualı verərdim? Çox sual verərdim.

– Başlıca sual?

– Başlıca sual? Soruşardım ki, ay Əliyev, bəzi adamları niyə yaxşı tanımamısan?

– Sizin Moskvada oğlunuz və qızınız var. Onlar nə işlə məşğuldurlar, harada yaşayırlar?

– İndi hamımız bir yerdə yaşayırıq. Həyat yoldaşım beş il qabaq vəfat edib. Ondan sonra mənim istinad nöqtəm ailəmdir. Qızım, oğlum, nəvələrimlə bir yerdə yaşayıram. Oğlum İlham Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirib, ingilis, fransız dillərini bilir. Həmin institutun aspiranturasını qurtarıb, namizədlik dissertasiyası müdafiə edib. Amma mən işdən çıxandan sonra onun da həyatında çətinliklər baş verib.

İxtisasına görə iş vermirlər. Deyirlər ki, sən Əliyevin oğlusan, yazdığı əsərlər bir tərəfdə qalıb. Bu da ona əzab verir. Qızım Sevil də Şərqşünaslıq İnstitutunun aspiranturasını bitirib, ərəbşünasdır, elmlər namizədidir. Həmin institutda işləyirdi. Son vaxtlar işləmir. Beş nəvəm var.

– Deməli, evlənməyiniz haqda şayiələr boş şeydir.

– Onlar şayiə deyil, ağ yalandır. Mən həyat yoldaşım Zərifə xanıma çox sadiq olmuşam. Onun xatirəsi mənim üçün müqəddəsdir. Ailə münasibətlərində ehkamçıyam.

– Sevimli məşğuliyyətiniz?

– Kitabı daha çox sevirəm. Çoxlu kitablarım var. Mədəniyyəti çox sevirəm. Musiqini başa düşürəm, rəssamlığı xoşlayıram. Vaxtilə memar olmaq istəmişəm. Hətta iki kurs memarlıq fakültəsində oxumuşam. Mədəniyyət adamları ilə həmişə yaxın olmuşam. Başqa məşğuliyyətim olmayıb, balıqçılıq, ovçuluq etməmişəm.

– Kimi daha çox oxuyursunuz?

– Azərbaycanın həm keçmiş, həm də müasir yazıçılarının əsərlərini, Qərbi Avropa və rus klassiklərini oxumağı çox sevirəm. Son dörd-beş ildə yaranan əsərləri oxumaq həvəsim yoxdur. Konyukturaçı ədəbiyyatdır.

Bu böyük müsahibə (biz ondan yalnız bir hissəni nəzərinizə çatdırdıq) 1990-cı il iyunun 26-da işıq üzü gördü. Əliyevin Naxçıvana qayıtmasından dörd gün keçirdi. Onun cavablarını indi – on beş il keçəndən sonra oxuyanda görürsən ki, bu, sadəcə Allahın verdiyi ömrü sakitcə başa vurmaq üçün geri qayıdan insanın cavabları deyil, məqsəd artıq müəyyənləşib: Azərbaycanın müstəqilliyi. Müstəqilliyə necə nail olmaq barədə danışmaq hələ tezdir. Amma əsas budur ki, İRADƏ var. Siyasətçi, dövlət xadimi, milli lider iradəsi...

Bakı qəzetləri Heydər Əliyevin qayıdışının üstündən sükutla keçirdilər. Moskva mediası isə əlüstü xəbər verdi; hətta "Komsomolskaya pravda", "İzvestiya", "Arqumentı i faktı" qəzetləri də.

Naxçıvana bir-birinin ardınca məktublar gəldi. Ünvanı dəqiq bilməyənlər sadəcə: "Naxçıvan şəhəri, Heydər Əliyevə" yazırdılar. Bəziləri qayıdışı münasibətilə onu təbrik edir, bəziləri isə belə bir liderin Azərbaycana gərəkliyini vurğulayır, digərləri Bakıda, onun vaxtında Əhmədli kimi nəhəng bir yaşayış massivi və 10 mikrorayon salınan şəhərdə mənzilinin olmamasını eşidib, ona "bizim mənzilimizdə qalın, gen-bol, işıqlı, şəhərin mərkəzindədir, biz qohumlarımızgildə qalarıq" kimi təkliflər verirdilər.

İnsanlar yaxşılığı unutmur, yaxşılıqla cavab verirdilər. Sənifə Soltanova xatırlayır ki, Bakı sakinlərindən biri onla-

rın evlərinə gəlib, öz mənzilinin açarlarını təklif edir: "Buyurun, mənim evim – sizin eviniz". Nehrəm kəndindən bir el ağsaqqalı yenicə tikdirdiyi rahat mülkünü töhfə kimi qəbul etməyi ondan xahiş edir.

Böyük yazıçı, rus ədəbiyyatının bilicisi və pərəstişkarı Cəlil Məmmədquluzadə ötən əsrin əvvəllərində bu böyük kənddə özünün çox cəsarətli nəsr əsərlərini qələmə almışdır. Nikolay Vasilyeviç Qoqolun yubileyində çıxış edən nasir demişdi: "Ey müsəlman qardaşlarım! 100 il bundan əqdəm Rusiyada bir insan dünyaya gəldi. O, rus məmurları haqqında elə bir komediya yazdı ki, onu indi də oxuyanda elə bilirsən Naxçıvana, Şuşaya, Qafqazın bütün kəndlərinə və kiçik şəhərlərinə "müfəttiş gəlir". Əliyevin Azərbaycan Sovet Sosialist Respublikası Ali Sovetin deputatlığına namizədliyinin irəli sürüldüyü Nehrəm kəndində seçicilərlə görüşlərin birində, o, Cəlil Məmmədquluzadənin bu sözlərini xatırladanda, zaldakılar uğunub getdilər. Başqa dairələrdən təkliflər olsa da, Əliyev adamları zarafatı və yumoru qiymətləndirən, dar gündə düşünmədən dayaq olan Nehrəmin üstündə dayandı. Və 1990-cı il sentyabrın 30-da Azərbaycanın xalq deputatı və muxtar respublikanın Ali Sovetinin deputatı oldu.

## Tarixi köklərə, mənəvi qaynaqlara qayıdış

Deputatlar daha çox məktəbə bənzəyən kiçik binanın birinci mərtəbəsindəki salona yığışır. Heydər Əliyev də onların arasındadır. Lakin zalda əyləşməyə macal vermirlər: ağsaqqallar onu Rəyasət Heyətinə dəvət edir və sessiyanı aparmağı təklif edirlər. Alqış sədaları altında o, sadə biçimli səhnəyə qalxır. Həmyerliləri onun tale ulduzuna inanırlar. Həyatın hər üzünü görmüş bu müdrik insandan əzab-əziyyətdən üzülmüş xalqa toxtaqlıq, ümid verə biləcək söz umurlar. Bəs iki minillik tarixində çoxsaylı müharibələr görmüş Naxçıvanı indi nə gözləyir? Keçən minilliklər ərzində əmin-amanlıq illəri çox az olub.

Ağsaqqallar ermənilərlə hələ 1919-20-ci illərdəki müharibəni yaxşı xatırlayırdılar: O vaxt 1920-ci ildə formalaşmış Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının İnqilab Komitəsi burjua Ermənistanına sülh danışıqlarına başlamaq təklifiylə müraciət etmişdi. Cavab ertəsi gün gəldi: “Naxçıvanın Ermənistan hökumətinə itaətini tam təmin etməlisiniz...” Amma Naxçıvan heç vaxt ultimatum qəbul etməmişdi. Döyüşlər daha dörd ay, Ermənistanda sovet hakimiyyəti qurulana qədər davam etdi. 1921-ci ilin əvvəlində Azərbaycan, Ermənistan və Rusiya sovet hökumətləri, nümayəndələrinin iştirakı ilə Naxçıvanda ümumi sorğu keçirildi və hansı respublikanın tərkibində qalmaqları məsələsi həll edildi. Əhalinin 90 faizdən çoxu muxtar respublika hüququ ilə Azərbaycanın tərkibində qalmağa səs verdi. Xalqın bu seçimini Vladimir İliç Lenin də dəstəklədi. 16 mart 1921-ci ildə Rayon Komitəsinin (b) PB-nin Siyasi Bürosu Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində Naxçıvan Sovet Sosialist Respublikasının yaradılmasını təsdiq etdi (1923-cü ildən Naxçıvan Muxtar Vilayəti, 1924-cü ilin fevralından isə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası).

İndi nə olacaq? İndi kimlərlə yolumuz bir olmalı? Bu gözlənilməz müharibədə, ağlasığmaz blokada məntəqəsində hansı qüvvələrə arxalanmalı, kimlərə bel bağlamalı?..

Belə bir qüvvə, Əliyevin qənaətinə görə, xalqın, bütün Azərbaycanın, Naxçıvanın öz tarixi köklərinə, mənəvi varlığına söykənməsi və qayıdışıdır. O, dediyi bu fikrə sonralar dəfələrlə qayıdır və qeyd edirdi ki, – Rusiya bütün müttəfiq respublikalardan əvvəl öz dövlət müstəqilliyini elan etmiş, Sovet İttifaqının dağılması prosesinə başlamışdır. Heydər Əliyevin təklifi ilə muxtar respublikanın adından “sovet sosialist” sözləri çıxarılır. Ali Sovet Ali Məclis adlanır. Muxtariyyət Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağını özünə qaytarır. 10 ildən sonra Moskvanın çox müstəqil bir qəzetinin müxbirinə elə gələcək ki, Naxçıvanda həyat dayanıb: binaların fasadı tökülür, insanlar çox kasıb geyinib.

1990-cı ilin payızında jurnalist Elmira Axundovanı "Literaturnaya qazeta"nın Azərbaycan üzrə müxbiri təyin edirlər. İlk tapşırıqlardan biri Heydər Əliyevdən Naxçıvanda müsahibə almaq olur. Xatırladaq ki, iki il öncə "Literaturka" Əliyev haqqında bədxah böhtannamə çap etmişdi; görünür, bu şər əməldə Rıjkovun öz vicdanına sığışdırmadığı "kompromat" da "kara gəlmişdi". Heydər Əliyev dəlilli – sübutlu təkzibedici cavab yazmış və keçirdiyi infarkta baxmayaraq, özü redaksiyaya gəlmişdi. Onun cavabını çap etməmişdilər.

Elmira Axundova xatırlayır: "Heydər Əliyevin tez-tez vilayət partiya komitəsinə baş çəkdiyini bilib birinci katibin qəbul otağına zəng vurdum və köməkçidən xahiş etdim ki, Heydər müəllimdən "LQ"nin xüsusi müxbirilə görüşməyə vaxtı və istəyinin olub-olmaması barədə soruşsun. Həm də əmin idim ki, mənim soyadım Heydər Əliyevə heç nə deməyəcək, çünki jurnalistikada təzə adam idim və böyük mətbuatda yenicə çıxış etməyə başlamışdım. Lakin gözlədiyimin əksinə olaraq, buyurulmuşdu mənə çatdırılsın ki, "Heydər Əliyev Elmira Axundovaya səmimi hörmətlə yanaşır və onun üçün hər hansı münasib vaxtda tanışlığa şad olardı". Düzü, cavab məni heyrətləndirdi və hətta düşündüm ki, görəsən, o, fəqir bəndənizi hansısa daha sanballı azərbaycanlı jurnalist xanımla səhv salmayıb ki?

Mən bu görüşqabağı təfsilata yalnız ona görə varıram ki bu, siyasət adamının çox diqqətəlayiq məziyyətinə – heyrətamiz hafizəsinə daha bir dəlalətdir. Bir neçə gün sonra mən Naxçıvana uçub gələndən və nəhayət, tanışlığımız baş verəndən sonra Heydər müəllim bir qədər əvvəl "Bakinski raboçi"də çap etdirdiyim məqaləmi xatırlatdı. Sən demə, məhz bu məqalə sayəsində görüşümüz baş tuta bilmişdir. Heydər Əliyev özü bu barədə belə söyləyir – onun sözlərini diktofona yazdığım kimi verirəm:

– 1990-cı ilin yayında, hələ Moskvada olarkən, mən qəzetləri nəzərdən keçirirdim və "Bakinski raboçi"də bir məqaləyə diqqət yetirdim. Məncə, "Biz hamımız keçmişdən

çıxmışıq” adlanırdı. Məqalə öz məntiqliyi, obyektivliyi və inandırıcı bədii məziyyətlərilə diqqətimi cəlb etdi. Təbii ki, müəllifin adıyla maraqlandım. Materialın altında imza vardı: Elmira Axundova. Çalışdım yadıma salım ki, belə bir jurnalisti tanıyırammı, onunla əvvəllər görüşmüşəmmi?

Məqaləni oxuyub, keçmişləri – Azərbaycanda işlədiyim, ədəbiyyat və incəsənət sahəsində hər bir maraqlı, hətta çox önəmli olmayan hadisəni böyük vəcdlə qarşıladığım illəri canlı şəkildə xatırladım. Mən həmişə bizim jurnalistikanı diqqətlə izləmişəm, hər hansı müəllifin, fərqi yoxdur, yaradıcı, elmi və ya intellektual potensialına dəlalət edən qeyri-adi materialı qəzetdə çıxanda qəlbən sevinmişəm. Tez-tez “Bakinski raboçi”, “Vışka”, “Kommunist”in redaksiyalarına zəng çalırdım, redaktorlarla danışır, bu və ya digər məqalə haqqında öz rəyimi bildirirdim, müəlliflərlə maraqlanırdım. Bəzilərini şəxsən tanış olmaq üçün yanıma dəvət edirdim. Buna görə bütün Azərbaycan jurnalistlərini yetərincə yaxşı tanıyırdım. Lakin sizi mən yada sala bilmədim ki, bilmədim...

Məqalə çox xoşuma gəldi, ələlxüsus Azərbaycanda və başqa respublikalarda mətbuatın həddən artıq nihilizmə aludə olduğu, keçmişimizi başdansovdu inkar etmək, birtərəfli işiqlandırmaq yolunu tutduğu şəraitdə. Mən məmnuniyyətlə məqaləni oxudum, yaxınlarıma da verdim oxusunlar və bilirsinizmi, hətta ürəyim yüngülləşdi. Odur ki, siz zəng vurub “Literaturnaya qazeta”nın müxbiri kimi özünüzü təqdim etdikdə mən ikili hisslər keçirdim; bir tərəfdən “Literaturnaya qazeta”nın rəhbərliyinə qarşı inamsızlığım – buna əsasım var. Bu qəzet son zamanlarda bu və ya digər dəstələrin mənafeyini əks edən və reallıqdan uzaq olan xeyli qərəzli məqalələr dərc etmişdir. Digər tərəfdən sizin soyadınız. Bilirsiniz, mən indi jurnalistlərlə görüşə ehtiyatla yanaşıram, çünki bir neçə dəfə “yanmışam”. Onlardan bəziləri, mənimlə söhbətləşib, maraqlandıqları suallara cavabları alıb, sonra özbaşınalığa yol verərək, fikirlərimi təhrif etmişlər. Lakin si-

zin “Bakinski raboçi”dəki məqalənizi xatırlayıb düşündüm ki, bu adam o cür nadürüstlüyə yol verə bilməz...

Bu etirafın mənim üçün nə dərəcədə ruhlandırıcı olduğunu demək artıqdır. Lakin bu həm də məni çox şeylər barədə düşünməyə dəvət edirdi. Heydər müəllimə söz verdim ki, onun etimadından sui-istifadə etməyəcəm və müsahibənin qəzetdə ixtisarsız və təhrifsiz dərc olunması üçün məndən asılı olan hər şeyi edəcəm. Yeri gəlmişkən, vədimə əməl etməyim müsahibəmiz “Literaturka”da işıq üzü görməməsində heç də sonuncu rol oynamadı... Bu müsahibədə Əliyev İttifaqın ali siyasi rəhbərliyinin, o cümlədən M.Qorbaçovun yenidənqurma islahatlarının aparılmasında buraxdığı səhvləri kəskin tənqid edirdi. Çünki onların nəticəsində nəhəng dövlət ümummilli fəlakət həddinə gəlib çatmışdı. Bu müsahibə indi də öz aktuallığını itirməmişdir, o zamanlar isə bomba partlayışı təsiri bağışlayardı, illah ki, Mixail Qorbaçov hələ iqtidar sahibi – Prezident idi və onun istefasına hələ bir ilə yaxın vaxt qalırdı. Heydər Əliyev bəzi yerləri ixtisar etmək, ya “yumşaltmaq”-dan imtina etdi və mən də onunla həmrəy idim”.

## Taleyini xalqı ilə bölüşdü

Tarixi həqiqətlərə sadiq qalaraq demək olar ki, Heydər Əliyevin böyük siyasətə qayıdışı müzəffər yürüş deyildi. O, qarşısında qalaqlanmış şər, yalan, iftira çəpərlərini dağıtmalı, tərəddüd edənləri inandırmalı, tərəfdaşları başına yığmalıydı.

Bir dəfə Nizami muzeyinin əməkdaşı Məhəbbət Mehdiyeva Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi və onun həmkarları üçün ekskursiya aparırmış. Böyük şair və filosof Nizaminin yaradıcılığından vəcdə gələn bu xanım onun əxlaqi-tərbiyəvi nəsihətlərindən danışırdı. Heydər Əliyev diqqətlə qulaq assa da, nazirlərdən bir neçəsi gizlincə saatına baxırdı. Vidalaşanda Heydər Əliyev sanki sonrakı “dar günlərini” görürmüş kimi Məhəbbət Mehdiyevaya dedi ki, vaxt gələcək, siz mənə lazım olacaqsınız.

Bu "gələcək" taleyin hökmü ilə 1990-cı ilin sonunda, 91-ci ilin əvvəlində gəlib çatdı. Azərbaycan Ali Sovetinin deputatı Heydər Əliyev Naxçıvandan Bakıya gələndə qardaşı Cəlalın evində qalırdı. Əlbəttə, iki otaq üç nəfər – Cəlal, xanımı və məktəbli qızı üçün darısqal idi. Əmisi gəlib onların otağında qalanda və bütün günü yazı işləriylə məşğul olanda Cəlalın qızı öz dəftər-kitabını götürüb mətbəxdə məskunlaşmalı olurdu.

Heydər Əliyev həmişəki kimi çıxışlarına səylə hazırlaşır, məqalələri üzərində diqqətlə işləyirdi. Yaxşı, bəs bu yazıları həm rusdilli, həm Azərbaycandilli qəzetlərə təqdim etmək üçün onları kim tərcümə edəcək, makinada kim yığacaq? Ona məsləhət görülən şəxslərdən biri işinin çoxluğunu bəhanə etdi, bir başqası daha makinada yazmadığını dedi. Yəqin ki, nəzarət altında olan siyasətçi ilə yaxın ünsiyyətdə olmaqdan qorxurdular. Bu vaxt Naxçıvan Muxtar Respublikasının Bakıdakı nümayəndəsi Həsən Zeynalov köməyə çatdı. O dedi ki, mənim dayım qızı çox gözəl tərcüməçidir və makinada da işləyə bilir. İndi Nizami muzeyində o qədər də çox iş yoxdur, sizə kömək edə bilər. Bu xanım Məhəbbət Mehdiyeva idi.

Heydər Əliyev muzeyə zəng vurub vəziyyəti qısa şəkildə Məhəbbət xanıma başa saldı:

– Məhəbbət xanım, siz sabah səhər saat səkkizdə gələ bilərsinizmi?

– Gələrəm.

Onların görüşündən əvvəl televiziyada canlı yayımla Ali Sovetin sessiyasını göstərirdilər. Əliyevin üzərinə haqsız ittihamlar tufanı təşkil olundu və yalnız bir səs – şair Bəxtiyar Vahabzadə onu müdafiə etdi.

Məhəbbət Mehdiyeva söz verdiyi vaxtda gəldi. O, Heydər Əliyevin dünənki hadisələrdən dilxor olacağını gözləyirdi. Amma həmişəki kimi işgüzar görkəmdə olan Heydər Əliyev onu təbəssümlə qarşıladı:

– Siz deyəsən nədənsə narahatsınız, Məhəbbət xanım? Evinizdə hər şey qaydasındadırmı? Bir problem yoxdur ki?

– Dünənki sessiyadan sonra səhərəcən yata bilməmişəm.

– Fikir verməyin, Məhəbbət xanım, onlar bundan başqa nə deyə bilərlər ki?

Tərcümə edilməli və yığılmalı olan sənədlər müəyyən ediləndən sonra Məhəbbət xanım onları özüylə muzeyə aparıb orada işləmək istədiyini bildirdi.

– Yox, – Heydər Əliyev etiraz etdi, – bu sənədlər buradan çıxmalı deyil.

Bir neçə gün sonra Məhəbbət xanımın muzeydəki makinası Cəlal Əliyevin evinə gətirildi.

– Heydər Əliyev öz işlədiyi otaqdan yazılarını səhifə – səhifə gətirir, yığılanları isə məndən geri götürürdü.

Yeddi il keçdi. 1997-ci ildə Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin muzeyinin açılışında Heydər Əliyev əməkdaşların arasında Məhəbbət xanımı gördü, bir anlıq çaşıb qaldı və soruşdu: – "Siz məgər burada işləyirsiniz?"

"– Əlbəttə, mən onun nə demək istədiyini anladım, – deyə Məhəbbət xanım xatırlayır. – O elə bildi ki, mən elə o vaxt, 1990-cı ildə də bu sistemdə işlətmişəm. Açığı özümü itirdim, məni soyuq tər basdı. Cavab vermək istərkən MTN-in əməkdaşlarından biri məni qabaqlayaraq dedi: Biz təcrübəli muzey işçisi kimi xanım Mehdiyevanı dəvət etmişik ki, ekspozisiyanı yaratmaqda bizə kömək etsin. Mən üstümdən ağır bir yükün götürüldüyünü hiss etdim".

1991-ci ilin fevral sessiyası təkcə Məhəbbət Mehdiyevanın xatirəsinə həkk olunmamışdı. Azərbaycan Ali Sovetinin həmin sessiyasını seyr edənlər deputatların "yaxın keçmişdə qarşısında farağat durduqları adamı mümkün qədər ağır sözlərlə təhqir etməyə" cəhd göstərdiklərini yaxşı xatırlayırlar. 340 millət vəkilindən tək bir nəfər – şair Bəxtiyar Vahabzadə həmkarlarına vaxtilə Heydər Əliyevin ünvanına yağdırılan gurultulu alqışların bu divarların yaddaşında qaldığını xatırlatdı: "Yıxılana balta çalmaq hünər deyil! – dedi şair. – Yaxşı olardı təcrübəli siyasət xadiminin məsləhətlərinə qulaq asaq".

O vaxt Heydər Əliyev nədən danışırdı? Nə idi qəlbini göynədən? Nə idi tövsiyəsi?

"Mənim Azərbaycana qayıtmağım, xalq deputatı seçilməyim barədə cürbəcür şayiələr yayılıb. Bunlara cavab olaraq bəyan edirəm ki, doğma vətən torpağına heç də yenidən hakimiyyətə gəlmək üçün, kimdənsə qisas almaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm. Məni bir azərbaycanlı kimi bu hüquqdan heç kəs məhrum edə bilməz. Sovet İttifaqında, Azərbaycanda mövcud olan vəziyyət haqqında bəzi fikirlərimi və təkliflərimi Ali Məclisə çatdırmaq istəyirəm.

**Birincisi.** Ölkə – sovet cəmiyyəti, dövlət üsul-idarəsi artıq bir neçə ildir ki, siyasi və iqtisadi böhran içindədir. Millətlərarası münasibətlər gərginləşib. Sovet İttifaqı dağılmaqdadır.

Buna səbəb nə olmuşdur? Şübhəsiz ki, əmələ gəlmiş vəziyyətə keçmişin ayrı-ayrı mərhələlərində buraxılmış səhvlərin təsirini inkar etmək olmaz. Fəqət əsas səbəblər "perestroyka" adlandırdığımız dövrdə həyatımızın bütün sahələrində buraxılmış ciddi, kobud və bağışlanmaz səhvlərdir.

Təəssüf ki, bunların üstü örtülüb-basdırılır, rəsmi dairələr və kütləvi informasiya orqanları ancaq keçmişi atəşə tuturlar.

Tam qətiyyətlə demək olar ki, 1985-ci ildə ölkəmizdə başlanılmış dəyişikliklərin elmi, siyasi və iqtisadi əsaslarla işlənib hazırlanmış uzunmüddətli strategiyası olmamış və tələm-tələsik şəkildə həyata keçirilmiş, bəzən bir-birinə zidd olan tədbirlər, təbiidir ki, müsbət nəticələr verməmişdir...

Son beş ildə Qorbaçov xalqa çox vədlər verib, lakin onların heç birini həyata keçirə bilməyib. Söz ilə əməl arasında boşluq, siyasi rəhbərlik ilə xalq arasında uçurum yaranıb. Xalqın rəhbərliyə inamsızlığı və gələcəyə ümidsizliyi artıb, Kommunist partiyası nüfuzdan düşüb.

**İkincisi.** Ölkədə yaranmış vəziyyət eyni ilə Azərbaycanda da hökm sürür. Respublikanın rəhbərliyi həmişə olduğu

kimi, mərkəzin xəttini Azərbaycanda kor-koranə tətbiq edir və bütün göstərişlərini həyata keçirməyə cəhd göstərir. Nəticələr göz qabağındadır: Azərbaycanda vəziyyət daha da ağır və dözülməzdir. Bu isə erməni millətçiləri tərəfindən ortaya atılmış Dağlıq Qarabağ məsələsi ilə əlaqədardır. Üç ildən artıqdır ki, respublikamız, Azərbaycan xalqı Ermənistan tərəfindən ardı-arası kəsilməyən təcavüzlərə məruz qalır. Nəticədə Azərbaycanın ərazi bütövlüyü pozulub...

Gərək müəyyən edilsin: harada, kim hansı günahı buraxıb, nə cür olub ki, xalq belə acizlik göstərib, öz torpağını əldən verib. Bunlar gərək hamısı şərh olunsun. Burada Polyaniçko deyir ki, Dağlıq Qarabağın əldən getməsinə Qorbaçov yol verir. Düzdür, mən də bu fıkirdəyəm. Ölkənin rəhbəri Qorbaçovun bu barədə Azərbaycana xəyanət mövqeyi açılıb göstərilsin və tariximizə yazılsın... Ancaq baş vermiş təhlükəli məsələnin qarşısını alıb Ermənistanı Ermənistan kimi, Azərbaycanı da Azərbaycan kimi saxlamaq olardı. Bunu ancaq İttifaqa rəhbərlik edən müdrik adam edə bilərdi. Ancaq Qorbaçovda bu müdriklik çatmadı və Azərbaycan rəhbərlərində də cürət, qeyrət, cəsarət çatmadı ki, öz xalqının mənafeyini, öz xalqının namusunu qorusunlar..."

Heydər Əliyev üçün vətən, torpaq, xalqın şərəf və ləyaqəti anlayışları ayrılmaz idi.

Bir ay sonra. 1991-ci il martın 7-də Azərbaycan Ali Sovetinin sessiyası, Qorbaçovun hazırladığı yeni İttifaq müqaviləsilə bağlı referendumda respublikanın iştirak etməsi məsələsini müzakirə etdi. Müxtəlif rəylər səslənirdi. Deputatların əksəriyyəti referendumda iştirak etməyi, Sovet İttifaqını qorumağı zəruri saydılar.

Deputat Əliyev də söz istədi:

– Azərbaycan xalqının gələcək taleyi həll olunur. Ona görə də mülahizə və təkliflərimi mən də bildirmək istəyirəm. 1922-ci ildən Azərbaycan Sovet İttifaqının tərkibindədir. Bu müddət ərzində xalqımız çox mürəkkəb bir tarixi yol keçib, nailiyyətlər əldə edib. Eyni zamanda çox itkilərə,

çətinliklərə də məruz qalıb. Bunları inkar etmək olmaz. Biz hamımız bu İttifaqın mövcud ölduğu dövrdə dünyaya gəlmişik, təhsil, tərbiyə almış, formalaşmışıq. Biz hamımız, hər halda tam əksəriyyətimiz bu İttifaqa həddindən artıq inanmışıq, sədaqətlə xidmət etmişik, xalqımızın səadətini, xoşbəxt gələcəyini bu İttifaq daxilində görmüşük. Mən və mənimlə birlikdə xeyli müddət respublikaya rəhbərlik edən həmkarlarım İttifaqın möhkəmlənməsi üçün daim çalışmış, Azərbaycan xalqında da bu İttifaqa sadiqlik və məhəbbət hissiyyatları yaratmağa cəhd etmişik. Fəqət son illərdə dünyada, ölkədə gedən ictimai-siyasi proseslər keçmişimizə münasibəti və ümumi dünyagörüşü dəyişdirmişdir.

Bunların ardınca mərkəzlə respublikalar arasında əlaqələri, Qorbaçovun siyasətini təhlil edərək, Əliyev belə qənaətə gəlir: İttifaq dağılmağa başlamışdır. Yeni İttifaq müqaviləsinin layihəsi isə yararsızdır.

– Bir sözlə, mən yeni İttifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm, – deyə H.Əliyev sözünə davam edir. – Bu, bütün seçicilərimin və deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil flkridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan xalqı artıq bu yola çıxmışdır...

Bəziləri respublikamızın müstəqil, İttifaqdan ayrı yaşamağa imkanı olmadığını sübut etməyə çalışırlar. İttifaqda olan respublikalar bir-birilə sıx iqtisadi, texniki əlaqələrlə bağlı olduqlarına görə onların İttifaqdan ayrı yaşamasının mümkün olmadığı fikri də ölkədə geniş yayılmışdır. Bu təbliğatlar əsassızdır. Əvvəla, Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir. İkincisi, dünyanın hər bir dövləti başqa dövlətlərlə istədikləri sahələrdə qarşılıqlı iqtisadi, ticarət, texniki əlaqələr yaradır, ümumdünya inteqrasiya prosesində iştirak edir və bunların heç biri bu dövlətləri müstəqillikdən məhrum etmir.

Ona görə də İttifaqda olan respublikaların iqtisadi əlaqələri onların müstəqilliyinə nail olmasına mane ola bilməz. Fikrimcə, əgər Azərbaycan tam müstəqil dövlət olarsa o, indi İttifaqda olan republikaların hər biri ilə, hətta İttifaq qalarsa, onunla da qarşılıqlı, bəabər hüquqlu, iki tərəfə də faydalı iqtisadi əlaqələr yarada bilər.

Azərbaycan xalqı birləşməli, öz müqəddəs, doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalır.

Xalq deputatlarını, bütün Azərbaycan xalqını bu yola dəvət edirəm və bildirirəm ki, mən bu yoldan dönməyəcəyəm...

17 mart 1991-ci ildə Sovet Sosialist Respublikaları İttifaqının saxlanılmasına dair Ümumittifaq referendumu keçirildi. Sovet Sosialist Respublikaları İttifaqı, o cümlədən də Azərbaycan vətəndaşlarının çoxu İttifaqın saxlanılmasına səs verdi. Moskvadakı avqust hadisələrindən sonra isə respublikaların əhalisi bu dəfə müstəqilliyə səs verdilər.

İndi Bakıda və Moskvada, Tehranda və Parisdə, Ankarada və Nyu-Yorkda siyasətçiləri "Naxçıvanda hansı yeniliklər baş verir?" sualı da düşündürürdü... Naxçıvana, Heydər Əliyevin görüşünə diplomatlar, jurnalistlər, ictimai və dövlət xadimləri gəlirdilər...

Son yetmiş ildə ilk dəfə olaraq Amerika diplomatları – ABŞ-ın Moskvadakı səfirliyinin əməkdaşları xanım Eni Breyger və cənab Obri Karlson Naxçıvana qonaq gəldilər. Qonaqlar muxtar respublikadakı iqtisadi və siyasi islahatlarla, Azərbaycan rəhbərliyi ilə olan münasibətlərlə maraqlanırdılar.

Onların ardınca İran diplomatları təşrif buyurdular – onların yolu yaxın idi, Moskvadan yox, Bakıdan gəlirdilər. Diplomatlar Naxçıvan Ali Məclisinin sədrini inandırırdılar ki, "İran öz millət və din qardaşlarına istənilən köməyi etməyə hazırdır. Zəncanda zəlzələdən sonra Arazın şimalın-

dan qardaşlarımız bizim köməyimizə gəlmişdilər. Biz də sizi ağır vəziyyətdə tək qoymarıq".

İran İslam Respublikası səfirliyinin birinci katibi Mehdi Abbas Paydar Naxçıvanda İran konsulluğunun açılması barədə rəsmi müraciət təqdim etdi. Ali Məclisin mətbuat xidməti bu barədə 1992-ci il yanvarın 21-də yazırdı: "Heydər Əliyev bu təklifı qəbul etdi. O, eyni zamanda, Təbriz şəhərində Naxçıvan Muxtar Respublikasının konsulluğunun açılmasının da vacib olduğunu bildirmişdi".

Naxçıvan Respublikası parlamentinin sədri başqaları ilə yanaşı, Zaqafqaziya sərhəd dairəsi qərargah rəisinin müavini Konstantin Totskini də qəbul etmişdi. Həmin günlərdə Ali Məclis Dünya Azərbaycanlılarının həmrəylik günü haqqında təklifi müzakirə edirdi. Təklif olunurdu ki, bu gün "Sovet-İran dövlət sərhədinin Naxçıvan Muxtar Respublikası ilə Cənubi Azərbaycan hissəsində tikanlı məftillərdən ibarət səddin dağıdıldığı 31 dekabr 1989-cu il tarixinin şərəfinə hər il dekabrın 31-də qeyd edilsin".

Heydər Əliyev sərhəd hərəkatının, vətənpərvər gənclərin fəaliyyətinin böyük əhəmiyyəti olduğunu qeyd edirdi: "Moskvada olduğum vaxt, mən bu hərəkatın necə cinayət aktı kimi qələmə verildiyinin şahidi oldum. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi bu vətənpərvərlik hərəkatına açıq-aşkar böhtan və şər atırdı. Mən, bu hərəkat zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsini zəruri hesab edirəm".

Sərhəd dairəsi qərargahının rəis müavini sərhəddəki özbaşına hərəkətləri təbii ki, tamam başqa cür qiymətləndirirdi. Doqquz il ötəndən sonra Azərbaycan Prezidenti ilə görüşdə Rusiya Federal Sərhəd Xidmətinin direktoru general-polkovnik Totski onların Naxçıvandakı dialoqlarını xatırlayacaq.

– 1991-ci ildə Naxçıvanda sizin tərəfinizdən qəbul olunmaq mənə müyəssər olmuşdu. Siz mənə bir çox dəyərli

məsləhətlər verdiniz. O vaxt vəziyyət çox mürəkkəb idi. Siz buna çox ayıq yanaşır, konkret vəzifələr qoyurdunuz. O vaxt bu kifayət qədər ağır qarşılanırdı. Xeyli zaman ötdü, biz hamımız dərk etdik, yaşadıq, anladıq ki, belə də olmalı idi. Konkret ərazi var, bu xalq var, hakimiyyət var və sərhəddə qayda-qanunu yalnız Moskva qoymalı deyil. Siz bunu çox dürüst müəyyənləşdirdiniz. Ümumdövlət miqyaslı qaydalar var və nəzərə alınmalı yerli problemlər də var...

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsində millətlərarası münasibətlər şöbəsinin məsləhətçisi, 1975-ci ildən üzübəri Mərkəzi Komitə aparatında işləmiş ilk azərbaycanlı, əvvəllər “Komsomolskaya pravda”nın jurnalisti olnıuş Rafael Hüseynov Moskvadan Naxçıvana gəldi. Əliyev onu hələ Bakıdan, “Molodyoj Azerbaycana” qəzetinin redaktoru olduğu dövrdən tanıyırdı. Moskvadan gələn qonağın Liqaçov tərəfindən göndərildiyini eşidən Əliyev təəccübləndi, bir qədər ehtiyatla qarşılaşsa da, göstərilən diqqətə görə təşəkkürünü bildirdi. Dedi ki, ona heç nə lazım deyil, bircə Bakıdakı mənzilinin qaytarılmasını istəyir. Amma rəsmi Bakı üçün Heydər Əliyev “arzuolunmaz şəxs” sayılırdı... Və həm də təhlükəli.

## 19 iyul 1991-ci il, Moskva

Kommunist Heydər Əliyevin İttifaq Nazirlər Sovetinin partiya təşkilatına Sovet İttifaqı Kommunist Partiyasından çıxmağı haqqında göndərdiyi ərizəsinin altında bu tarix göstərilmişdir. Burada ona qarşı yönələn dönüklüyün, satqınlığın acı-ağrısı, xalqın dərdi, bütövlükdə böyük ölkənin faciəsi duyulur. Tarix nəhəng məmləkətin son günlərini saysa da, sükanı idarə edənlərin gözü kor idi. Heydər Əliyev ərizəsini 1982-ci ildən, Moskvaya işə keçdiyi vaxtdan qeydiyyatında olduğu partiya təşkilatına ünvanlamışdı.

“Sizin nəzərinizə çatdırıram ki, Sovet İttifaqı Kommunist Partiyasından çıxmaq qərarına gəlmişəm. Bəri başdan

xəbərdar etmək istəyirəm ki, bu sadəcə “moda”ya uymaq deyil, mənim son illər ərzində keçirdiyim peşmançılıqların və dəyərlərin yenidən qiymətləndirilməsi üzrə ağır yolun yekunudur.

Məni bu addımı almağa vadar edən əsas səbəblər aşağıdakılardan ibarətdir:

**Birinci.** Sovet İttifaqı Kommunist Partiyasından çıxmaq fikri məndə hələ 1990-cı ilin 20 yanvarında, mərkəzin siyasi rəhbərliyi və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən Azərbaycan xalqına qarşı yönəldilmiş hərbi təcavüzlə bağlı yaranmışdır. Yanvar hadisələri nəticəsində aralarında qocalar, qadınlar, uşaqlar olan yüzlərlə günahsız dinc sakin həlak olmuş və yaralanmışdır.

Öz çıxışlarımda bu antihumanist, antikonstitusion, hüquqa zidd aktı pisləyərək, mən Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən bu cinayətin açılmasına, günahkarların üzə çıxarılmasına ümid edirdim. Çətinliklə özümü saxlayaraq, səbrlə gözlədim. Bu çıxışlara cavab olaraq tezliklə öndə “Pravda” qəzeti olmaqla partiya mətbuat orqanlarının mənə qarşı kütləvi basqıları təşkil olundu. Mənə qarşı uydurulmuş faktlar yayan həmin kütləvi informasiya orqanlarında əsaslandırılmış təkziblərlə çıxış etmək cəhdlərim əbəs idi. Yenidənqurmanın əsas nailiyyəti kimi elan edilən aşkarlıq praktikada birtərəfli oldu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin xalq deputatlarının, vətəndaşların müxtəlif qruplarının, ziyalıların görkəmli nümayəndələrinin, yanvar faciəsinin günahkarlarının müəyyənləşdirilməsi və cəzalandırılması haqqında dəfələrlə müraciətləri Azərbaycanın kommunist rəhbərliyi tərəfindən inadla rədd edilir.

İl yarım keçmişdir. Günahkarları çoxdan məlum olan bu dəhşətli cinayətin açılması üçün nəinki heç nə edilməmiş, əksinə bu faciəni unutdurmağa zamanın kömək edəcəyini düşünərək, onun ört-basdır edilməsi üçün bütün lazımi təd-

birlər görülür. Lakin tarix bizə dəfələrlə sübul etmişdir ki, illər də, onilliklər də heç kimi xalqına qarşı törədilmiş qanlı cinayətləri unutmağa və bağışlamağa məcbur edə bilməz.

**İkinci.** Erməni millətçilərinin, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin himayədarlığı və səyilə Azərbaycanın Dağlıq Qarabağ vilayətində yaradılmış kəskin münaqişəli vəziyyət mərkəzin ikiüzlü siyasəti nəticəsində artıq üç ildən çoxdur ki, davam edir. Vilayət, əslində Azərbaycanın dövlət idarəçiliyindən çıxmışdır.

Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü, Konstitusiyaya rəğmən kobudcasına pozulmuşdur. Ermənistan və Azərbaycan arasında elan olunmamış müharibə gedir, demək olar, hər gün bu və digər tərəfdən insanlar həlak olur. Və bütün bunlar "humanist" ideologiyalı sovet dövlətinin hüdudlarında baş verir.

Əminəm ki, partiya rəhbərliyinin istəyi olsaydı, hələ 1987-88-ci illərdə qondarma Dağlıq Qarabağ məsələsilə bağlı yaranmış millətlərarası münaqişənin lap başlanğıcında qarşısı alına bilər, həm Azərbaycan, həm erməni xalqına ağırdan-ağır bəlalar və müsibətlər gətirmiş get-gedə güclənən qarşıdurmaya, qan tökülməsinə yol verilməzdi. Deməli, siyasi mərkəzə bu münaqişə lazım imiş.

**Üçüncü**. Bütün cəmiyyətin demokratikləşməsi, siyasi azadlıqların və plüralizmin elan edilməsi dövründə, respublikanın ərazi bütövlüyünün qorunması naminə 1988-ci ildə Azərbaycanda baş qaldırmış geniş demokratik hərəkat Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi rəhbərliyi altında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən inadla sıxışdırılır. Bu illər ərzində nə qədər adam siyasi motivlərə görə həbs olunub.

İl yarımdır ki, Azərbaycanın iki milyonluq paytaxtı heç bir əsas olmadan fövqəladə vəziyyət rejimində yaşayır. Məhz belə şəraitdə respublika Ali Sovetinə "demokratik" adlanan seçkilər və İltifaqın saxlanılması lehinə müsbət nəticəsi əvvəlcədən bilinən referendum keçirilmişdir. Fövqə-

ladə vəziyyət rejimində hansısa demokratiyaya və xalqın iradəsinin azad ifadə edilməsinə ümid bəsləmək sadəlövlükdür.

Demokralik təşkilatlar seçicilərin mütləq əksəriyyətinin referenduma qatılmaması, onun nəticələrinin saxtalaşdırıldığı haqqında dəfələrlə məsələ qaldırmışdılar. Lakin Azərbaycanın kommunist rəhbərliyi, hətta bu müraciətlərə baxılmasını da mümkün saymadı.

Mən mərkəzin sırıdığı yeni İttifaq müqaviləsinə qarşı çıxmışam və çıxıram. Bir suveren dövlətin tərkibində birləşən bir neçə dövlətin suverenliyi, bu anlayışdan irəli gələn bütün azadlıqları, səlahiyyətləri ilə funksiyaları ola bilməz.

Bütün müttəfiq respublikalara milli-dövlət dirçəlişi naminə həqiqi siyasi, iqtisadi azadlıq və müstəqillik verilməlidir. Bu heç də respublikaların iqtisadi inteqrasiyasına və ənənəvi əlaqələrinə mane olmur, əksinə, onların təkmilləşdirilməsinə və ikitərəfli və çoxtərəfli əsaslarla inkişafına xidmət edəcəkdir.

Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının xalq deputatı olaraq mən öz çıxışlarımda bütün bu məsələləri dəfələrlə qaldırmışam, xalqın qarşısında nüfuzunu tam itirmiş Azərbaycan Kommunist partiyasına hakimiyyət monopoliyasından əl çəkməyi, bütün siyasi qüvvələrin azad və bərabərhüquqlu fəaliyyəti üçün şəraiti təmin etməyi, demokratik cəmiyyətin yetişməsinə, siyasi plüralizmə və riyakarlığa tam ölçüdə şərait yaratmağı təklif etmişəm.

Lakin bütün bu çıxışlar və mənim təkliflərim Azərbaycan kommunist rəhbərliyi tərəfindən nəinki baxılmır, ünvanıma yeni hazırlanmış və təşkil olunmuş hücumlar şəklində cavab reaksiyası doğurur. Mənim çıxışlarımı Azərbaycanda dərc etdiklərinə görə qəzet redaktorları, jurnalistlər işdən çıxarılır, təqiblərə məruz qalırlar.

Bütün yuxanda dediklərim məni son addımı atmağa və Sovet İttifaqı Kommunist Partiyasından çıxmağımı elan etməyə vadar etdi, hərçənd belə bir qərar qəbul etmək həd-

dən artıq çətin idi. Mən kommunistlər ailəsində boya-başa çatmışam və bütün şüurlu həyatım Kommunist partiyası ilə bağlıdır. Öz taleyimi bolşevik partiyası ilə iyirmi yaşımdan – 1943-cü ildən bağlamışdım.

Mən Kommunist partiyasının ideallarına səmimi inam bəsləyirdim və onun planlarının gerçəkləşdirilməsində fəal iştirak edirdim. İndi bu inam büsbütün qırılmışdır.

Yeniləşən partiya, yeniləşən Respublikalar İttifaqı haqqında sonsuz bəyanatlar xalqı növbəti dəfə aldatmaqdır.

Xalqa düz və açıq deyilməldir ki, ölkəmizdə kommunist eksperiment, sosializm seçimi özünü doğrutmamış, zorla yaradılan və dəstəklənən Respublikalar İttifaqı özünün axırına çatmışdır.

Bu ərizədən sonra qarşımda yaranacaq çətinlikləri təsəvvür edir, cürbəcür hücumları və mənəvi təqibləri öncədən görürəm.

Partiyanın keçdiyi yolun ayıq-sayıq təhlili məni açıqladığım hazırkı mövqeyə gətirib çıxarmışdır. Bununla belə öz məsuliyyətimin ölçüsünü də dərk edirəm.

Sovet İttifaqı Kommunist Partiyası sıralarını tərk edərək bütün vicdanlı və əxlaqlı, hələ də bu partiyaya inam və ümid bəsləyən kommunistlərə öz hörmətimi bildirirəm.

*Heydər Əliyev*
*19 iyul 1991-ci il. Moskva şəhəri".*

Heydər Əliyev cəsarətli qərar qəbul etdi. O, iqtidar başında duran cənablardan daha uzaqları görür, hadisələrin hansı məcrada inkişaf etdiyini təsəvvür edirdi. Avqust qiyamına düz bir ay qalırdı.

## Qiyam

İyulun onunda Rusiya Sovet Federativ Sosialist Respublikası Ali Sovetinin təntənəli iclasında Yeltsinin inaqurasiyası keçirildi. O, Rusiya Federasiyasının Prezidenti oldu. İki

hakimiyyət ümumittifaq və ümumrusiya arasında münasibətlər son dərəcə gərginləşdi. Necə deyərlər, bıçaq sümüyə dirəndi.

Ölkənin az qala üçdə iki hissəsini tutan ərazidə ali hakimiyyət kimə mənsub olmalıdır İttifaqa, ya Rusiyaya, konkret olaraq Qorbaçova, yoxsa Yeltsinə? İttifaq parlamenti qanunlar qəbul edir, Rusiya parlamenti isə onlara məhəl qoymurdu.

Yeltsinin ən yaxın məşvərətçisi (o zaman onun baş nazir olacağı gözlənilirdi) Mixail Boçarov böyük bir toplantıda çıxış edərkən nitqində on dəfə "Rusiyanın müstəqilliyi" ifadəsini işlədəndə, keçmişdə Andropovun, Brejnevin məsləhətçisi olmuş, politoloq Fyodor Burlatski ona sadə bir sual verir:

– Yaxşı, siz Sovet Sosialist Respublikaları İttifaqını parçalayırsız, bəs sonrası necə olsun? RF özü necə olacaq? Bəs Tatarıstan, Başqırdıstan, Çeçenistan, İnquşetiya da Rusiya Sovet Federativ Sosialist Respublikasından çıxmalarını bəyan etsələr, siz onda neyləyəcəksiniz?

Boçarov çaşbaş qalıb mızıldayır:

– Biz onlarla danışıqlara girəcəyik.

Əliyev bu əhvalatlara geniş yer ayırmış qəzeti bir kənara qoydu. Burlatskini o çoxdan tanıyırdı, kitablarını əlində qələm mütaliə edirdi. Əlbəttə, Fyodor haqlıdır, di gəl ki o, bu qurd balalarını inandıra bilməyəcək.

1991-ci il avqustun 15-də "Moskovskiye novosti" qəzeti Qorbaçovun hamıdan gizli saxladığı İttifaq müqaviləsinin layihəsini dərc etdi. Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sabiq sədri Kryuçkovun söylədiyinə görə, Krımda istirahət edən Qorbaçov cin atına minir, qəzəblə zəng vurub məlumatın üzə çıxmasına bais olanlan tapıb cəzalandırılmasını tələb edir. Lakin artıq iş işdən keçmişdi. Ölkəni çalxalayacaq siyasi qasırğa yaxınlaşmaqdaydı.

1991-ci il avqustun 19-da Sovet Sosialist Respublikaları İttifaqının ayrı-ayrı yerlərində səhər saat 4-dən etibarən altı

ay müddətinə fövqəladə vəziyyət tətbiq edilməsi haqqında xəbər ölkəyə yayıldı. "Sovet rəhbərliyinin bəyanatı"nda bu tədbirin səbəbləri və məqsədləri açıqlanırdı. Bütün Sovet Sosialist Respublikaları İttifaqı ərazisində Sovet Sosialist Respublikaları İttifaqı Konstitusiyası və Sovet İttifaqı qanunlarının şərtsiz aliliyi vurğulanırdı.

Bu bəyanatın 3-cü maddəsində Sovet Sosialist Respublikaları İttifaqında Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin yaradılması bildirilirdi. FVDK ("QKÇP" red.) "Sovet xalqına müraciət" adlı sənəd qəbul etdi.

Elə həmin günü Prezident Yeltsin də öz müraciətini səsləndirdi. O, Taman diviziyasının 110 saylı tankının üstünə qalxaraq (Rusiya hökuməti binasının qarşısına yeni rəhbərlərin qorunması məqsədilə zirehli texnikanı general Lebed yeritmişdi) Rusiya vətəndaşlarını müqavimətə çağırdı. Ardınca Yeltsinin Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsi təşkilatçılarının hərəkətlərini dövlət çevrilişi adlandıran fərmanı dərc olundu. İki gündən sonra qiyam yatırdıldı. Sonra da növbə Sovet İttifaqı Kommunist Partiyasına çatdı.

Yeltsinin milyonlarla televiziya tamaşaçısının gözü qabağında Sovet İttifaqı Kommunist Partiyası fəaliyyətinin dayandırılması haqqında fərman imzalamasmı Kremldən birbaşa göstərən telereportaja Heydər Əliyev uzaq Naxçıvanda baxırdı. Açıq pəncərə önündə ucalan çinar avqustun bürküsündə üzgün kimi görünürdü. Hardasa qonşu qadınlar uşaqları üçün dəftər-kitab alacaqları haqqında söhbətləşirdilər. O, pəncərəni örtdü.

Yeltsin Qorbaçova söz verdi. Mixail Sergeyeviç danışmağa başlayanda Yeltsinə Moskva meri Qavril Popovdan gələn xəbəri çatdırdılar: Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin binaları ələ keçirilmişdir. Yeltsin Qorbaçovun sözünü kəsdi. Deputatların, milyonlarla televiziya tamaşaçısının gözü qarşısında nümayişkaranə ədayla Sovet İttifaqı Kommunist Partiyası fəaliyyətinin dayandırılması haqqında fərmanı imzaladı...

Gülümsünüb dedi:

– Fərman imzalandığı andan qüvvəyə minir.

Bu, Yeltsinin təntənəsi, bir zamanlar hamının gözü qarşısında "daş-qalağa" tutulduğu Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin oktyabr plenumuna görə, XIX partiya konfransında alçaldılmasına görə onun Qorbaçovdan aldığı qisası idi, özü də hələ bununla haqq-hesab bitmirdi. Yeltsin qələbənin sevincini yaşayırdı və o, öz hərəkətlərini qətiyyən götür-qoy etmək iqtidarında deyildi. Qorbaçov hələ nə baş verdiyini əməlli-başlı anlamırdı, o, kürsüdən taqətsiz halda etiraz etməyə çalışdı ki, bu aksiya antikommunist isteriya dalğasını doğura bilər, təhlükəli olar, haqsızlıq törədər. Yeltsin əlini yellətdi: "Boşla, Mixail Sergeyeviç!" Deputatlardan kimsə mikrofona doğru şığıyıb isterik səslə bağırdı ki, "bütün kommunistləri süpürgəylə ölkədən süpürüb atmaq lazımdır".

Qorbaçov çılğın opponentini ayılmağa çağırır:

– Siz, olmaya, ölkədən 18 milyon kommunisti, ailələrilə ilə 50-70 milyon adamı qovmaq istəyirsiniz? Özünüzü demokrat adlandırırsınızsa, demokrat da olun!

... Heydər Əliyev televizorun səsini azaltdı. Moskvadakı hadisələr, hakimiyyət çəkişmələri onun seçiminin Azərbaycanın müstəqillik yolunun düzgünlüyünə inamını daha da möhkəmlətdi.

Avqustun 24-də Heydər Əliyev "Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyasının çağırılması" təklifi ilə Azərbaycan Ali Sovetinin Rəyasət Heyətinə müraciət etdi.

"Hərbi xunta Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin həyata keçirdiyi dövlət çevrilişi ilə əlaqədar Azərbaycan Prezidenti, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi A.Mütəllibovun mövqeyini və fəaliyyətini obyektiv müzakirə edib qiymət vermək."

*İmzaladı: Azərbaycan Respublikasının xalq deputatı*
*H.Ə.Əliyev.*

Avqustun 29-da Azərbaycan Ali Sovetinin sessiyası başlandı. Həmin həlledici avqust günlərində hər yerdə olduğu kimi salonda da ehtiraslar coşurdu. Nəhayət, kürsüyə xalq deputatı Heydər Əliyev qalxır. Təmkinlə çıxışına başlayır: "Hörmətli millət vəkilləri! Ölkədə, cəmiyyətdə siyasi və iqtisadi böhran, dövlət, hakimiyyət böhranı son dərəcə şiddətlənmişdir...

Bu dövrdə bizim respublikamızın, Azərbaycan xalqının vəziyyəti daha çətin, daha ağırdır. Bunun əsas səbəbi respublikada hökm sürən Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti və buraxdığı kobud, bağışlanmaz səhvlərdir".

Stenoqramın bu yerində belə bir qeyd var: "Salonda etiraz səsləri eşidilir".

Heydər Əliyev təmkinlə həmkarlarına üz tutur:

"– Sessiyada hər bir deputatın sözünü deməyə hüququ var, kiçik pauzadan sonra sözünə davam edir. Belə siyasətin nəticəsində respublikanın kommunist rəhbərliyi avqust ayının 19-22-də ölkədə dövlət çevrilişi və Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsinin fəaliyyətini faktiki olaraq bəyənmiş və beləliklə də, Azərbaycan xalqını çox pis vəziyyətdə qoymuşdur..."

Deputat Əliyev Bakıda il yarım ərzində qüvvədə olan fövqəladə vəziyyətin ləğv edilməsini, Azərbaycan Respublikası rəhbərliyinin FVDK-ya aid mövqeyini aydınlaşdırmasını tələb edir. O deyir: "Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir. Ali Sovetin sədri Elmira Qafarovaya və Prezident Ayaz Mütəllibova sual verirəm: Nə üçün indiyə qədər 20 Yanvar faciəsinə siyasi qiymət verilməyib?"

Stenoqrama nəzər salaq:

**Elmira Qafarova:** Ayın 20-də sessiyada qiymət verilmişdir.

**Heydər Əliyev:** Əgər verilibsə, bu hərbi təcavüzün günahkarı kimdir?

Bu gün deyilir ki, Yazov, Kryuçkov, Bakatin, Girenko, Qorbaçov. Bəli, belədir. Bəs, Azərbaycan rəhbərliyindən kimlər günahkardır? Bəli, bu şəxslər də məlumdur: Vəzirov, Qafarova, Mütəllibov və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin başqa büro üzvləri. Əgər başqa adamlar da günahkardırsa, aydınlaşdırmaq lazımdır. Bunlar aydınlaşdırılana qədər, əgər başqa qüvvələr də, günahkardırlarsa, demokratik qüvvələr, Xalq Cəbhəsi, onlara da siyasi qiymət vermək lazımdır. Bunlar aydınlaşdırılmayana qədər Azərbaycanda siyasi sabitliyi əldə etmək olmaz. Əgər buna siyasi qiymət verilibsə, mən Ayaz Mütəllibovdan xahiş edirəm ki, desin, nə üçün Qorbaçov 9 respublikanın rəhbərləri ilə görüşündə 3 nazirin təyin olunması üçün razılıq alarkən, Ayaz Mütəllibov Bakatinin Dövlət Təhlükəsizlik Komitəsinə sədr təyin olunmasına etiraz etməmişdir? Əgər edibsə, qoy desin. O öz çıxışında demədi. Nə üçün 20 Yanvar faciəsinin əsas günahkarlarından biri olan Vəzirov Azərbaycan Respublikasından xalq deputatlarının qurultayını hazırlayan koraissiyaya seçilibdir? Onu kim təqdim edibdir? Əgər bunu Azərbaycan Respublikasının rəhbərləri ediblərsə, onlar Azərbaycan xalqının qarşısında günah ediblər. Mən bunu tam açıqlığı ilə demək istəyirəm.

Mən də çıxış edən deputatların fikri ilə razıyam ki, bütün bu məsələləri aydınlaşdırmadan Azərbaycanda prezident seçkiləri keçirmək olmaz. Azərbaycan Respublikası Ali Sovetinin deputatlarının tam əksəriyyəti kommunist olduqlarına görə bütün kommunist partiyasının rəhbər orqanlarında fəaliyyət göstərən adamlar parlamentə deputat seçildiklərinə görə və Azərbaycan Kommunist Partiyası çox şeylərdə günahkar olduğuna görə mən hesab edirəm ki, Azərbaycan Respublikasının parlamenti buraxılmalı və yenidən seçkilər aparılmalıdır.

Belə kəskin çıxış edərkən heç də şübhə etmirəm ki, mənim çıxışımdan sonra xüsusi hazırlanmış adamlar çıxıb

mənim əleyhimə sözlər deyəcəklər. Mən bu sözlərə öyrənmişəm. Ona görə heç də narahat deyiləm. Belə xüsusi hazırlanmış çıxışlar mənim iradəmi sarsıda bilməz. Mən öz vicdanım qarşısında tamamilə cavabdeh olaraq çıxış edirəm.

Vladimir Dal vicdanı, insan qəlbinin hər bir əməlini təqdir, ya ittiham edən hakimi adlandırırdı. Bir çox siyasətçilərdə adətən bu hakim olmur. Heydər Əliyev müasir dünyada siyasətçi obrazına xüsusi çalar verən vicdan və mənəviyyat haqqında yüksək kürsülərdən söz açmaqla kifayətlənmir, həm də vicdanla hərəkət edirdi.

Həmin günlərdə yazılmış daha bir diqqətəlayiq sənədə rast gəldik: Heydər Əliyevin Sovet Sosialist Respublikaları İttifaqı Xalq Deputatları Sovetinin qurultayına yazdığı məktub. Bu onun İttifaq hakimiyyətiylə son əlaqəsi idi.

"Moskva. Kreml. Sovet Sosialist Respublikaları İttifaqı Xalq Deputatları Sovetinin qurultayına

Hörmətli deputatlar!

Sizə müraciət etməkdə məqsədim aşağıdakı məsələni nəzərdən keçirib qərar qəbul etməyinizdir.

**Birinci**: Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetinin Rəyasət Heyətinin sərəncamıyla iki dəfə Sosialist Əməyi Qəhrəmanı olduğum üçün 1983-cü il may ayının 7-də doğulduğum Naxçıvan şəhərində mənim bürünc büstüm qoyulmuşdu. Mənə elə gəlir ki, bu büstü götürməyin vaxtı çatıb. Bu büstü ilk dəfə 1990-cı ilin iyulunda Naxçıvana gələrkən görmüşəm. Mən mənəvi iztirablar keçirirəm. Canlı insana qoyulan abidəyə yaxın gedə bilmirəm.

İkinci: Təklif edirəm ki, iki dəfə Sosialist Əməyi Qəhrəmanlarının və Sovet İttifaqı Qəhrəmanlarının bürünc büstlərinin qoyulmasıyla bağlı bütün sərəncamlar ləğv edilsin və canlı insanlara qoyulan büstlər yığışdırılsın.

Bu xüsusda qəbul edilən bütün dövlət aktlanı, sərəncamları 1990-cı ilin 19 iyulunda sıralarını tərk etdiyim Kommu-

nist Partiyasının eybəcər təzahürlərindən biri kimi qəbul edirəm.

*Heydər Əlirza oğlu ƏLİYEV,*
*Azərbaycan Respublikasının xalq deputatı,*
*Naxçıvan Muxtar Respublikasının xalq deputatı,*
*iki dəfə Sosialist Əməyi Qəhrəmanı.*
*Naxçıvan şəhəri. 1 sentyabr 1991-ci il".*

1991-ci il başa çatırdı. Dekabrın səkkizində "Belovejskaya Puşa"da Yeltsin, Ukrayna Prezidenti Kravçuk və Belorusiya Ali Sovetinin sədri Şuşkeviç Sovet İttifaqının buraxılmasına imza atdılar. Təqribən 15 il bundan sonra Ukraynanın ilk prezidenti, ölkə parlamentində sosial-demokrat fraksiyasının lideri Leonid Kravçuk Ali Radanın tribunasından sensasiyalı etirafını bəyan etdi: "Əgər mən 1991-ci ildə bilsəydim ki, belə olacaq, demokratiya əvəzinə anarxiya olacaq, mən Belovej müqaviləsinə imza atmazdım, hər şeydən əvvəl əlimi kəsərdim". 1922-ci ildə həmin İttifaqın yaradılmasına qatılan Zaqafqaziya (Cənubi Qafqaz) respublikanın bu tarixi ayrılma prosesinə dəvət etməyi rəva bilmədlər. Baş verən hadisə daha çox "örtülü bazara" bənzəyirdi... Dekabrın son günlərində gecə vaxtı (gün-düz vicdanları yol vermirdi) Kremlin üzərindən al bayraq endirildi. Kremlin təzə yiyəsi dərhal oradan Qorbaçovu, Sovet Sosialist Respublikaları İttifaqının ilk və son Prezidentini bayıra atdı.

Azərbaycanda isə başqa çəkişmələr baş verirdi. Xalq Cəbhəsi hakimiyyətə gəlirdi. Ölkə prezidenti seçkilərində Xalq Cəbhəsinin lideri Əbülfəz Elçibəy qalib gəldi. Naxçıvan yurdundan olan iki şəxsiyyətin tale yolları qəribə tərzdə çarpazlaşırdı. İyirmi il əvvəl Heydər Əliyev, respublikanın başçısı olaraq, ideoloji ehkamlarla uyuşmayan şərqşünas alim Əbülfəz Əliyevi siyasi ittihamlardan qorumuş, dustaqlıqdan xilas etmişdi...

Bir dəfə hələ sovet dövründə öz azadlıq eşqi və dönməzliyi ilə seçilən şair Xəlil Rza Ulutürk ilə rastlaşan Heydər

Əliyev soruşmuşdu: "Nəyə görə Naxçıvana gəlmirsən? Mən səni dəvət edirəm. Buyur gəl".

Xəlil Rza məşhur ustad şair Cəlaləddin Ruminin sözləriylə cavab verdi:

*Şahın qapısında şair –*
*Nökərdən də ufaqdır.*
*Şair evində isə şah*
*Ən əziz bir qonaqdır.*

– Allaha şükür ki, mən şah deyiləm, sən də saray şairi deyilsən, deyə Heydər Əliyev cavab verdi. On dörd il "şah" olsam da, səni bircə dəfə də şah qapısında, Mərkəzi Komitənin kabinetlərində görmədim. Amma indi mən kiçik bir adacığın başçısıyam və səni səmimi-qəlbdən Naxçıvana dəvət edirəm.

Xəlil Rza bu dialoqu öz gündəliyinə salmışdı. 1992-ci il yanvarın 20-də isə əlavə edir: "Mən Naxçıvana gəldim ki, mənə əziz olan insanı görüm. Gəldim ki, öz xalqını sevən, onun yolunda günəş kimi yanan bir insanın nəfəsini hiss edim".

## Naxçıvan blokadada

Xəritədə də baxsanız, görərsiniz ki, Naxçıvan diyarını ana Azərbaycandan bolşeviklərin Ermənistana verdikləri dəhliz ayırır. Sovet hakimiyyəti illərində bu sərhəd əslində şərti idi. Lakin Sovet İttifaqı dağılandan sonra buradan qatarların, maşınların, insanların yolunu kəsən cəbhə xətti keçdi...

Naxçıvanlılar üçün blokada mücərrəd anlayış deyil. Onların həyat tərzini müəyyənləşdirən acı həqiqətdir.

Elektrik işığına həsrət qalan adamlar yenə "nöyüt" lampalarına qayıtdılar. Hərdən köhnə vərdişlə işıq açarına əl atıb çıqqıldadanda baisləri qarğayırdılar... Qaz da eləcə. Mətbəxlərdə yenə primuslar fısıldayırdı.

Hələ üçüncü, beşinci, yeddinci mərtəbədə yaşayanların uşaqlı-böyüklü sudaşıyan maşından vedrə-vedrə su doldurub evə qaldırmaqlarını demirik... İsinmək üçün köhnə dəmir "soba"ları bu insanlar taxta-tuxta ilə qalayırdılar...

Naxçıvanın blokada günlərinin xronikasını ağrıyla, həyəcanla, ancaq xeyirxahlığa, mərhəmətə, həmrəyliyə böyük inamla təkrar-təkrar oxuyursan. Budur, ucqar bir kəndin sakinləri öz azuqələrini uşaq evi ilə bölüşdürürlər. İranın Qırmızı Aypara Cəmiyyəti min ton kartof göndərib. Və daha 4 elektrik generatoru və 500 elektrik sobası. Dərhal onları uşaq evlərinə və məktəblərə yola salırlar. Qonşu İran əyalətlərindən 100 ton ərzaq payı gəlib: Heydər Əliyevin sərəncamı ilə hamısını uşaqlara və qocalara verirlər. Türkiyə hökuməti Naxçıvan Respublikasına 100 milyon dollar kredit ayırır. Türkiyə 100 naxçı-vanlı tələbəni təhsil almaq üçün ali məktəblərinə dəvət edir və bütün xərcləri öz üzərinə götürür.

O günləri yada salan Heydər Əliyev söyləyirdi:

"Bizi ərzaq, neft təminatından məhrum etmişdilər. Bütün energetikanı kəsdirmişdilər. Bizlərdə sərt soyuqlarla yanaşı aclıq başladı. Körpələr xəstəxanalarda ölürdü. İnsanlar bağları odun üçün qırmağa başladılar. Ocaqlan isitmək üçün meyvə ağaclarının 70 faizi baltalanıb kəsilmişdi. Amma mən də sağ qaldım, xalqda...

Mən də xalqım kimi ağır məişət şəraitində yaşayırdım. Ancaq biz sağ qaldıq və əmin-amanlığı qoruduq. Mənim yanıma Bakıdan tez-tez gəlirdilər, siyasətə qayıtmağımı xahiş edirdilər. Amma mən Xalq Cəbhəsinin uçuruma aparan siyasətinə baş qoşmaq istəmirdim..."

Naxçıvanın blokadasını yarmaq olardı. Amma Bakıdakı iqtidar ayrı cür köklənmişdi: nə qədər pis olsa, o qədər yaxşıdır...

Belə bir şəraitdə o, Naxçıvanın blokadasını qırmağa çalışır, mühasirə məngənəsini sındırırdı. Başqa siyasətçi üçün bəlkə də bu müşkül məsələ idi. Bax, burada Əliyevin beynəlxalq aləmdəki nüfuzu kara gəldi:

“İran və Türkiyə rəhbərlərilə şəxsi dostluq münasibətlərim vardı. İran prezidenti Naxçıvana öz təyyarəsini göndərdi, mən Tehrana uçdum və yardım haqqında danışdım. Biz ötürücü elektrik xətlərini qurduq və enerjini İrandan almağa başladıq. Yanacaq da, ərzaq da beləcə. Türkiyənin Prezidenti Dəmirəl özü mənə 100 milyon dolarlıq kredit təklif etdi. O da öz prezident təyyarəsini göndərdi və mən Ankarada onun yanında oldum. Türkiyəyə yol saldırdım, çay üzərindən körpü çəkdirdim və ərzaq təchizatını yaratdım. Amma əsas nailiyyətim Ermənistanla silahlı münaqişədən yayınmaq oldu. Çox gərgin vəziyyət idi, hətta son həddə çatan məqamlar vardı, lakin mən çıxış yolu tapdım və bizim torpaqda qan tökülmədi...”

Televiziyanın o ağır günlərdə çəkdiyi kadrlar saxlanılır: Araz üzərindən körpü ilə İranın humanitar yardımı un, şəkər, quru süd, ət daşıyan ağır yük maşınları keçir. Azərbaycanın dar günündə qonşu ölkənin nəcib həyanlığı yeni istiqbaldan, uzun illər boyu bağlı qalan yolların açılmasından, o taylı-bu taylı bacı-qardaşlarımızın ayrılıq həsrətini ovunduracağından xəbər verirdi... Vaxtilə, 1948-ci ildə xalqın həsrətini düşünən Səməd Vurğunun rübabından görün necə yanıqlı misralar qopmuşdur:

*... Çatıb qaşlarını körpüyə baxır,*
*Qəlbində dağ boyda sözümü vardır?*
*Başından tüstülər, dumanlar qalxır,*
*Cansız əlləri də qabar-qabardır...*
*Bildim, o memardır... O yaradandır.*
*Yaxın gəl, oxucum! Bax əllərinə!*
*O, Araz üstündə xeyli zamandır*
*Ağlayır xar olmuş əməllərinə...*

... Naxçıvanın özündə və muxtar respublikanın ayrı-ayrı şəhərlərində hələ 20-ci illərdən sovet ordusunun, sərhəd qoşunlarının hərbi hissələri yerləşirdi. Bəs onların aqibəti, statusu necə olacaq? Ümumiyyətlə, onlar respublikada qala-

caq, yoxsa çıxacaqlar? Əgər gedəcəklərsə, silah-sursatlarını da özləriylə aparacaqlar, yoxsa yox? Suallar çox idi. Bu sualların cavablarını muxtar respublikanın Ali Məclisinin sədri Moskva və Bakı ilə, muxtar respublikadakı hərbi hissələrin rəisləri ilə danışıqlar prosesində axtarırdı. Nəhayətdə, belə bir qərar qəbul edildi: 75-ci motoatıcı diviziya öz silah-sursatının hamısını Naxçıvanda yerləşən Azərbaycan milli ordusunun 5-ci motoatıcı briqadasına təhvil verir. 1991-ci il avqustun ortalarında bü-tün hərbi hissələrdə təhvil-təslim prosesi aktlaşdırıldı. Avqustun 18-də naxçıvanlılar rus qoşunlarının muxtar respublikanı tərk edən son qruplarını da yola saldılar. Vidalaşma mərasimi 75-ci motoatıcı diviziyanın qərargahının qarşısında keçirilirdi.

Heydər Əliyev xatırlatdı ki, bu diviziya Naxçıvanda 1946-cı ildə yerləşdirilib, ümumilikdə isə rus qoşunları Naxçıvana yüz əlli il əvvəl gəliblər.

– Hal-hazırda, – deyə Heydər Əliyev həyəcanla sözünə davam etdi, – Azərbaycan öz müstəqilliyinə, milli azadlığına nail olub və öz ərazisində öz hərbi hissələrini yaratmaq niyyətindədir. Sovet Sosialist Respublikaları İttifaqı yarananda bəri onun ordusunda, əmlakında, silah-sursatında bütün respublikaların öz payı olub. Sovet Sosialist Respublikaları İttifaqı dağılandan sonra da Azərbaycan bu ordudan öz payını almaq fikrindədir və 75-ci motoatıcı diviziyası bu payın bir hissəsidir.

Onu da qeyd edim ki, 75-ci motoatıcı diviziya Naxçıvanda qərarlaşandan sonra onun köməyi ilə çoxsaylı müasir hərbi tikililər istifadəyə verilib, hərbi təsərrüfat obyektləri yaradılıb. Həm də bu hərbi hissə Naxçıvanda yerləşdirilən kimi onun hərbi qulluqçuları ilə naxçıvanlılar arasında dostluq münasibətləri yaradılıb. Buna görə də vidalaşarkən bizim naxçıvanlılarla illər uzunu çiyin-çiyinə, dostcasına yaşadığına görə onlara səmimi-qəlbdən təşəkkür edirəm. Ələlxüsus, çox ağır və mürəkkəb keçən son illərdə diviziyanın rəhbərliyi, o cümlədən də onun komandiri general-ma-

yor Rastislav Slaboşeviç Naxçıvan Muxtar Respublikasının əhalisi ilə dostluq münasibətlərinin qorunub saxlanılması üçün əllərindən gələni ediblər.

Əlbəttə, Xalq Cəbhəsi bu ordu hissələrini tamam başqa cür yola salmaq istərdi. Səmimiyyətsiz, gül-çiçəksiz. Moldaviyada, yaxud başqa yerlərdə olduğu kimi, hay-küylə, "İvan, çamadan, vakzal" qışqırıqlarıyla.

– Çox keçmədi ki, məni iki tərəfdən sıxışdırmağa başladılar, – Heydər Əliyev Naxçıvan süjetini davam etdirir. – Bir tərəfdən Xalq Cəbhəsi, digər tərəfdən də Mütəllibovun kommunist rejimi məni sıxırdı. Onu da qeyd edim ki, Xalq Cəbhəsinin nümayəndələrini ilk dəfə Naxçıvanda hakimiyyətə mən gətirmişəm. Cəbhənin iki aktiv üzvünü özümə müavin götürmüşəm. Bundan savayı, baş nazir vəzifəsinə də cəbhəçi şəxsi təyin etdim. Düzdür, bir müddət sonra məlum oldu ki, o fırıldaqçıdır. Ona görə də işdən çıxartmalı oldum. Bundan sonra mənimlə Xalq Cəbhəsi arasında münasibətlər pozuldu. Onlar belə düşünürdüiər ki, əgər sən cəbhəçisənsə, deməli, hər şey edə bilərsən. O da belə güman edirdi və onu sıxışdırmağa başlayanda, mənə qarşı aksiyalar təşkil etməyə səy göstərdi. Amma Naxçıvanda belə addımlar intihara bərabər idi. Xalq az qala özu onunla hesablaşacaqdı. O, yük qatarında qaçmağa məcbur oldu (o vaxt sərnişin qatarları Ermənistan ərazisindən keçmirdi).

1992-ci ilin oktyabrında Xalq Cəbhəsi Naxçıvanda hətta dövlət çevrilişi etməyə səy göstərdi. Amma bu barədə biz ayrıca danışacağıq.

### 24-26 oktyabr 1992-ci il, Naxçıvan

Naxçıvan qiyamına səbəb Azərbaycan daxili işlər nazirinin 1992-ci il avqustun 18-də imzaladığı 1718 nömrəli sərəncam olmuşdu. Bu sərəncama əsasən nazir AXC üzvlərindən birini Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri təyin etmişdi. Hamının bir-birini tanıdığı Naxçıvanda söh-

bət yayıldı ki, yeni nazir hər yerə öz adamlarını qoyur. Doğrudan da, Bədən Tərbiyəsi İnstitutunun 24 yaşlı məzunu yalnız cəbhənin mitinqlərində çıxış etməklə özünü göstərmişdi və heç vaxt daxili işlər orqanlarında işləməmişdi. İndi isə budur – birbaşa nazir.

Eyni zamanda Ordubad rayon daxili işlər şöbəsinin rəisi, təcrübəli peşəkar bir polis zabitini işdən çıxarıb onun yerinə daxili işlər orqanlarında heç bir təcrübəsi olmayan, uzun müddət Rusiyanın şəhərlərində alverlə məşğul olan birini təyin etmişdi.

Bu təyinatlardan xəbər tutan Naxçıvan Daxili İşlər Nazirliyinin əməkdaşları polis və zabitlərin hüquqlarının müdafiə komitəsini yaratdılar. Komitə muxtar respublikanın daxili işlər əməkdaşlarının ümumi iclasını keçirtdi və Azərbaycan Daxili İşlər Nazirliyinə müraciət qəbul etdi. Sənədin altında 1500 nəfər Daxili İşlər Nazirliyi əməkdaşının imzası vardı. Sənədin müəllifləri qeyd edirdilər ki, "daxili işlər orqanlarının siyasətə tabe olmasına yol verə bilməzlər. Bu orqanlar Daxili İşlər Nazirliyinin yalnız cinayətkarlıqla mübarizəyə dair sərəncamlarını yerinə yetirəcəklər. Azərbaycan DİN-in siyasi məqsəd daşıyan əmr və sərəncamlarına isə riayət olunmayacaq".

15 sentyabrda muxtar respublikanın Nazirlər Kabineti Ali Məclisə daxili işlər naziri postuna polis polkovniki Əsgər Ələkbərovun təyin edilməsini tövsiyə etdi. Namizəd uğurlu idi. Ələkbərov daxili işlər orqanlarında uzun müddət işləmiş, nazir müavini postuna qədər yüksəlmişdi. Naxçıvan Ali Məclisinin növbəti sessiyasında Konstitusiyaya uyğun olaraq, daxili işlər nazirinin məsələsi həll olunurdu. İki namizəd vardı: Respublika daxili işlər nazirinin, daha dəqiq desək, Prezident Elçibəyin kadrı və Əsgər Ələkbərov. Polkovnik Ələkbərov 86 səsdən 69-nu yığdı, onun rəqibi isə cəmi üç səs toplaya bildi.

İlk baxışdan elə görünür ki, məsələ artıq həll olunub. Amma əsas problemlər hələ irəlidəymiş. AXC iqtidarının

daxili işlər naziri öz sərəncamıyla Əsgər Ələkbərovu və Naxçıvan Daxili İşlər Nazirliyi rəhbər işçilərinin böyük bir qrupunu orqanlardan qovdu. Bütün Azərbaycana onun təhdidləri yayıldı: əgər əmr icra olunmasa, o, şəxsən Naxçıvana gəlib zor- gücünə buna nail olacaq.

Belə bir vəziyyətdə Naxçıvan Ali Məclisi və Nazirlər Kabineti "Naxçıvan Muxtar Respublikası DİN-də yaranmış vəziyyət haqqında" birgə qərar qəbul etdilər. Qərarda deyilirdi: "Son iki ay ərzində muxtar respublikanın Daxili İşlər Nazirliyində yaranmış çətin vəziyyət cinayətkarlığa qarşı mübarizə aparan polis işçilərinin fəaliyyətinə mənfı təsir göstərmiş, respublikada ictimai-siyasi vəziyyəti gərginləşdirmişdir. Belə vəziyyətin yaranmasına əsasən Azərbaycan Respublikası daxili işlər naziri İsgəndər Həmidovun Konstitusiyaya zidd qanunsuz əmrləri səbəb olmuşdur.

Naxçıvan Respublikasının Ali Məclisi və Nazirlər Kabineti Azərbaycan daxili işlər naziri tərəfindən edilən hədə-qorxuya qətiyyətlə etiraz edir və bildirir ki, onlar Naxçıvan Respublikasının qanunları və qanun orqanları tərəfindən müdafiə olunaraq heç kəsin bu qanunları pozmasma icazə verməyəcəklər". Yaranmış problemin əsaslı izahını vermiş bu sənəd Azərbaycan Respublikasnın Ali Sovetinə və Prezidentinə müraciətlə başa çatırdı: "Ümid edirik ki, qeyd olunanları nəzərə alıb, Naxçıvan Muxtar Respublikasının konstitusion hüquqlarını bərpa edəcəksiniz".

Sənədin altında iki şəxsin: Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevin və Baş nazir Ş.Xanbabayevin imzaları və tarix – 15 oktyabr 1992-ci il – vardı.

"– Bakıdan, şəxsən daxili işlər nazirinin təzyiq və hədə-qorxuları səbəbsiz deyildi, – deyə Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Kərim Kərimov paytaxtda cərəyan edən gərginliyin səbəblərini açıqlayır. – 90-cı illərin əvvəllərində Heydər Əliyevi ali hakimiyyət kürsüsünə çağırmaq ideyası ortaya çıxanda ziyalıların qabaqcıl hissəsi onun hüquqlarını müdafiə etmək məqsədilə bir komitə

yaratdılar və Ali Sovetin qarşısında mitinq təşkil etdilər. O vaxtlar Heydər Əliyevin prezident seçkilərində iştirakına mane olmaq məqsədilə namizədliyə yaş həddi qoyulmuşdu. Yaşı 65-i keçmiş şəxs prezident seçkilərində namizədliyini irəli sürə bilməzdi. Heydər Əliyevin yaşı bu həddi keçmişdi, amma bu ədalətsiz qərar əhali arasında çox ciddi narazılıqla qarşılanırdı. Qəribə idi ki, A. Mütəllibovun hakimiyyəti dövründə Konstitusiyaya salınmış bu ədalətsiz maddə, AXC hakimiyyətə gələndən sonra da dəyişməz olaraq qalırdı.

Qəribə bir vəziyyət yaranmışdı. Əhalinin tam əksəriyyətinin Heydər Əliyevə rəğbət bəsləməsinə baxmayaraq, onun hüquqlarının müdafiəsi məqsədilə keçirdiyimiz mitinqlərin kütləviliyinə nail ola bilmirdik. Mitinqlərə minə yaxın adam gəlirdi. Sonradan təhlillər aparıb aydınlaşdırdıq ki, kütləvi mitinqləri mütəşəkkil təşkilat təşkil edə bilər. Belə bir təşkilat isə yox idi. Yeni Azərbaycan Partiyasını yaratmaq zərurəti buradan doğdu və çox sürətlə reallaşmağa başladı".

Bu xəbər ildırım sürətilə bütün Azərbaycana yayıldı. Hamı yeni yaranacaq partiyanın rəhbəri rolunda Heydər Əliyevi görür və bu səbəbdən də onu dəstəkləyirdi. Xalq Cəbhəsi əslində 1992-ci ildə hakimiyyətə yiyələnərkən Heydər Əliyevə olan xalq sevgisini görmüşdü. Mayın 18-də parlamentə sədr seçkisi zamanı bir qrup deputat Heydər Əliycvin namizədliyini irəli sürdü. Bundan qorxuya düşən cəbhəçilər müxtəlif bəhanələrlə, xüsusilə, guya Naxçıvanda "onu tapa bilmədik"lərini bəhanə edib, öz namizədlərinin seçilməsinə nail oldular. Ancaq Heydər Əliyevin hakimiyyətə gəlmək şansları Xalq Cəbhəsinin hakimiyyətdə olan nümayəndələrini bir an belə rahat buraxmırdı. Bu narahatlığın əlamətləri özünü Naxçıvanda göstərirdi.

24 oktyabr 1992-ci ildə isə Azərbaycan Xalq Cəbhəsi Naxçıvan şöbəsinin silahlı dəstələri muxtar respublikanın televiziyasını, Enerji mərkəzini və DİN-i ələ keçirdilər. Nazirin yerində İsgəndər Həmidovun təyin etdiyi adam əyləşdi.

İsgəndər Məcid oğlu Həmidovun rəsmi tərcümeyi-halında qeyd olunur ki, o, Bakı orta ümumtəhsil milis məktəbini və Sovet Sosialist Respublikaları İttifaqı DİN-in akademiyasını bitirib. İki dəfə – 1980 və 1990-cı ildə daxili işlər orqanlarının sıralarından kənarlaşdırılmış və sonralar yenidən işə bərpa olunmuşdur. Onu yaxşı tanıyanlar qeyd edirlər ki, o, siyasi motivlərə görə yox, iqtisadi və açıq-aşkar "əl-əli yuyar" prinsipi ilə işlədiyinə görə orqanlardan xaric edilmişdir. Onu da deyirlər ki, İsgəndər çılğındır və tez-tez xidməti vəzifə səlahiyyətlərini aşır. DİN-ə rəhbərlik edərkən, özünü mübariz göstərmək üçün bir sıra reklam xarakterli əməliyyatlar həyata keçirmişdir.

Prezident Elçibəyin açıq razılığı ilə onun daxili işlər naziri öz qayda-qanunlarının Naxçıvanda da bərqərar etmək istəyirdi. Muxtar respublikadakı hadisələrdən əvvəl, o, Bakıda mətbuat konfransı çağırıb hədə-qorxu gələrək demişdi ki, əgər lazım olsa, şəxsən Heydər Əliyevin də başına güllə çaxacaq. Bu sözlər dünya mətbuatına yayıldı. Əlbəttə ki, bundan xəbər tutan Əliyev şəxsən nazirə zəng vurdu:

"Mən ona dedim ki, sən bu sözləri mətbuat konfransında demisən. Əgər bacarırsansa, buyur gəl, dediyini elə. Aləmə car çəkmək nəyə lazım. O dedi ki, siz nə danışırsız, mən və uşaqlarım sizə qurban olsun. Siz güclü siyasətçi, böyük şəxsiyyətsiniz. Mən heç belə söz deyərəm? Mən cavab verdim ki, demisən və bunu çox adam eşidib. Bakıdan bura gələn mətbuat işçiləri də o konfransda olublar. Onlar da sənin belə dediyini təsdiq elədilər".

İndi, görünür, onlar sözlərinin dalınca işə keçmişdilər. Axşam saat səkkizə yaxın muxtar respublikanın Daxili İşlər Nazirliyinin qarşısına xeyli sıravi vətəndaş və Xalq Cəbhəsinin iş yerinə buraxmadığı nazirliyin əməkdaşları toplaşdılar. Nazirliyin pəncərələrindən onlara atəş açdılar, insanlar isə Ali Məclisin binasına üz tutdular. Heydər Əliyev oradaydı.

Sonralar Heydər Əliyev bu həyəcanlı günləri belə xatırlayırdı: "Mən yubanmadan Bakıya, daxili işlər nazirinə zəng

vurdum. Onun Mərdan adlı köməkçisi bildirdi ki, gözləyin, indi sizi onunla birləşdirəcəm. Amma bir az keçməmiş o dedi ki, sizinlə danışdığım müddətdə nazir otaqdan harasa çıxıb.

Sonra Prezident Elçibəyə zəng vurdum. Yaranan vəziyyət barədə ona məlumat verdim. O isə öz növbəsində soruşdu: "Bəs mən neyləyə bilərəm?" Cavab verdim ki, siz ölkə prezidentisiniz, eyni zamanda Xalq Cəbhəsinin başçısısınız. Bu cinayəti də Xalq Cəbhəsinin Naxçıvan şöbəsinin üzvləri və onların əlində olan silahlı dəstələr törədib. Hal-hazırda onlar Daxili İşlər Nazirliyinin binasını zəbt ediblər. Onlara binanı tərk ctmək əmrini verin, belə olarsa, hər şey sakitliklə həll olunar, əks halda vəziyyət bir az da gərginləşəcək.

Əfsuslar olsun ki, bunun nəticəsi olmadı. Mən ikinci dəfə zəng vurdum. Bu vaxt Qafar Məmmədli və Asif Kələntərli də yanımdaydılar. Elçibəyə dedim ki, vəziyyət gərginləşir, qan tökülə bilər. Təcili tədbirlər görmək lazımdır. Mənim yanımda olan şəxslər də onunla telefonda danışdılar. Amma Prezident onlara da konkret bir söz demədi. Bircə onu bildirdi ki, o, yoldaşlarla məsləhətləşəcək".

Həmin vaxt Ali Məclis binasının qarşısına daha çox insan kütləsi toplaşmaqdaydı. Kortəbii yaranan mitinqdə "Hamı Heydər Əliyevin müdafiəsinə" şüarları səslənirdi. Bu hadisələr zamanı Xalq Cəbhəsinin bəzi üzvləri bədən xəsarəti aldılar. Oktyabrın 24-də təxminən saat 22-də Xalq Cəbhəsinin üzvləri nazirliyin binasını tərk etdilər və Xalq Cəbhəsinin qərargahında toplaşdılar.

Hakimiyyəti ələ keçirmək cəhdi bu dəfə baş tutmadı, amma vəziyyət təhlükəli olaraq qalırdı.

Oktyabrın 25-də Heydər Əliyev radio vasitəsi ilə naxçıvanlılara müraciət etdi:

– Xalq Cəbhəsinin liderləri bura silahlı qüvvələr göndərərək Naxçıvanda hərbi çevriliş etməyə cəhd göstərmişlər. Bizə həyəcanlı xəbərlər gəlir. İsgəndər Həmidov daha bir silahlı tədbir keçirməyi planlaşdırır. O, silahlı dəstəylə buraya gəlib, əməliyyat keçirmək istəyir. Müstəqil Azər-

baycanda Xalq Cəbhəsi silahlı qüvvələri xalqa qarşı istifadə edir. Bu vəziyyət kimin üçün əlverişlidir? Burada ən güclü mafiya öz şəxsi məqsədlərini güdən Xalq Cəbhəsidir. Mən xalqım naminə həyatımdan keçməyə hazıram. Xalq Cəbhəsində Heydər Əliyevi aradan götürmək istəyənlər çoxdur.

Mən istəyirəm ki, xalq buradakı vəziyyəti başa düşsün, bilsin. İndi Azərbaycanda bəzi qüvvələr Naxçıvan Muxtar Respublikasının konstitusion hüquqlarını pozub muxtariyyəti ləğv etmək istəyirlər. Bunu Bakıda yaşayan bir qrup nüfuzlu naxçıvanlılar da dəstəkləyir (Bakıdakı ən nüfuzlu naxçıvanlı o vaxt Prezident Elçibəy idi. Bunu Əliyevə qulaq asanlar gözəl başa düşürdülər).

– Amma Naxçıvan Muxtar Respublikasının Konstitusiyası əbədidir, o həmişə dəyişilməz qalacaq",- deyə Heydər Əliyev sözünə davam edir.

Daha sonra o, vətəndaşlardan xahiş etdi ki, Naxçıvan Xalq Cəbhəsinin sədri Asəf Quliyevin, Ordubad Xalq Cəbhəsinin sədri Fərəc Quliyevin, qanunsuz təyin olunmuş daxili işlər naziri Siyavuş Mustafayevin, Ordubad Xalq Cəbhəsinin irticaçı hərəkətlərinə qiymət versinlər.

– Bizim müstəqilliyimiz bütün Azərbaycan xalqının nailiy-yətidir. Azərbaycanın bütövlüyünü təmin etmək lazımdır. Hamı birləşməlidir. Mən ölməyə razı olaram, amma Naxçıvanın Azərbaycandan ayrı düşməsinə razı ola bilmərəm.

Oktyabrın 25-də muxtar respublikanın Ali Məclisinin fövqəladə sessiyası işinə başladı. Deputatlar Xalq Cəbhəsinin silahlı qüvvələrinin üç gün ərzində tərk-silah olunması barədə qərar qəbul etdilər. Elə həmin gün "Naxçıvan" qəzetində Murtuz Ələsgərovun kəskin bir məqaləsi dərc olundu. O, Azərbaycan daxili işlər nazirini tənqid etmişdi. Hüquqşünas alim qeyd edirdi ki, Naxçıvandakı hadisələr əsl terrorizmdir. Əks tərəfin cavabı özünü çox gözlətmədi.

Bu hadisə Bakıda iş gününün sonuna yaxın baş verdi. Ələsgərov ADU-nun hüquq fakültəsindəki işlərini yekunlaşdırıb köhnə "Moskviç"inə yaxınlaşdı. O, sonralar bu

hadisələri xatırlayarkən qeyd edirdi ki, iki nəfər naməlum oğlan kafedranın qarşısında vurnuxaraq onun nə vaxt işdən çıxacağı ilə maraqlanırmış.

– Mən onları görməmişdim. Evimə gəlib maşını saxladım, mağazadan çörək alıb yuxarı qalxmaq istəyirdim ki, üstümə düşdülər. Əvvəlcə elə bildim ki, yeniyetmələrdir, xuliqanlıq edirlər, ya da zarafatlaşırlar. Amma sonra gördüm ki, hücum edənlərin əlində bıçaq var. Onlardan biri mənim üzümdən bir neçə zərbə endirdi, digəri isə linglə ayağıma vurdu və mən yerə yıxıldım. Yaralarımdan qan axırdı. Qonşulardan biri milis çağırdı, biri ailəmə xəbər verdi. Həkim çağırıb məni xəstəxanaya apardılar. Murtuz müəllim xəstəxanada altı ay yatmalı oldu. Hücum barədə eşidən kimi Heydər Əliyev Naxçıvandan zəng vurdu:

– Murtuz müəllim, təəssüf edirəm ki, mənə görə təzyiqə məruz qaldnız.

– Heydər Əliyevi müdafiə edərkən xəsarət almaq şərəfdir,- deyə Murtuz Ələsgərov cavab verdi.

## "Azərbaycan sizin sözünüzü gözləyir"

1995-2005-ci illərdə parlamentin sədri olan Murtuz Ələsgərov o günləri nadir hallarda xatırlayır. Lakin bu gün əlamətdar gündür. İndicə bizim ilk kitabımızın təqdimatı oldu. Siyasətçilər, mədəniyyət xadimləri, sənət adamları kitab və Heydər Əliyev haqqında təəssüratlarını bölüşürdülər... Atatürk adına Mədəniyyət Mərkəzinin böyük zalında mehriban atmosfer yaranmışdı. Görüş başa çatandan sonra Murtuz Ələsgərov bizi Milli Məclisə dəvət etdi. Şənbə günüydü, böyük zalda yalnız növbətçilər vardı. Ələsgorov parlamenti bizə göstərdikdən sonra öz kabinetinə dəvət etdi. Orada hər şey Hcydər Əliyevin parlamcnt sədri olduğu vaxtdakı kimi qalmışdı. Yalnız divarda Heydər Əliyevin şəkilləriylə zəngin olan təqvim asılmışdı (bu təqvim Heydər Əliyev Fondunun nəşri idi).

Bir pəncərədən teleqüllə, digərindən isə Bakı buxtası görünür.

– Bəs bu nədir? – pəncərədən azca aralıdakı deşiyi göstəririk.

– Güllə izləridir, – Murtuz Ələsgərov cavab verir. 1993-cü ilin oktyabr hadisələri zamanı cəbhəçilər atəş açırdılar. Heydər Əliyev onları yadigar kimi saxladı və əl vurmamağı tapşırdı.

Bəs bizim həmsöhbətin Heydər Əliyevlə ilk görüşü necə baş verib?

O vaxt – 1978-ci ildə respublikada Azərbaycanın yeni konstitusiyasının layihəsini müzakirə edirdilər. Birinci katib bir neçə məşhur hüquqşünası Mərkəzi Komitəyə dəvət etdi. Murtuz Ələsgərov da onların arasındaydı.

Neçə illər öncə o, Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirib, Moskvada Sovet Sosialist Respublikaları İttifaqı EA-nın Dövlət və Hüquq İnstitutunun aspiranturasına qəbul olunmuşdu. İstedadlı gənc alim vaxtından əvvəl yazdığı dissertasiyanı müdafiə edib hüquq elmləri namizədi, sonra doktor və professor olmuşdu. Murtuz müəllim doğma universitctdə beynəlxalq hüquq kafedrasına, dövlət hüququ kafedrasına rəhbərlik etmişdir. 1993-96-cı illərdə Bakı Dövlət Universitetinin rektoru olmuşdur. 200-dən artıq elmi işin, bir çox monoqrafiya və dərs vəsaitinin müəllifidir.

– Heydər Əliyev bir sıra tanınmış hüquqşünası, o cümlədən də məni öz yanına dəvət etdi, – deyə Ələsgərov xatırlayır. Azərbaycan dilinin dövlət dili elan olunması təklifi səsləndi.

– Siz buna necə baxırsınız?- Əliyevin bu sualı dəvət olunmuş mütəxəssislərə yönəlmişdi.

– Mən cavab verdim ki, Azərbaycan dili bizim respublikada rus diliylə bərabər dövlət dili olmalıdır. Bu, bizim ilk görüşümüz oldu.

Qeyd edək ki, axırıncı olmadı.

1992-ci ildə Naxçıvan hadisələri ərəfəsində cəmiyyətdə qarşıdurma yaranacağını hiss edən bir qrup alim Heydər Əliyevə açıq məktub imzaladı. "Azərbaycan sizin sözünüzü gözləyir. Heydər Əliyevə müraciət" adlı məktubun altında 91 imza vardı: Ziya Bünyadov, Ömər Eldarov, Fərəməz Maqsudov, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvləri İqrar Əliyev, Kərim Kərimov, Məmmədtağı Cəfərov, Sabir Hacıyev, xalq şairi Xəlil Rza Ulutürk, xalq artisti Zeynəb Xanlarova, professorlar Əli Ömərov, Eldar İbrahimov, İsgəndər Quliyev, Elfəddin Abdullayev, əməkdar hüquqşünas Murtuz Ələsgərov, alimlər, laureatlar, idarə rəhbərləri. Cəmi, təkrar edirik – 91 imza. Belə sənədlər tarixdə insanların seçiminin və zamanın keşməkeşlərinin göstəricisi kimi qalır.

"Hörmətli Heydər Əliyev! Biz görürük ki, respublikamızın şəraiti, xalqımızın vəziyyəti gündən-günə pisləşməkdədir. Azərbaycan sözün həqiqi mənasında mənəvi və siyasi böhran içindədir. Bunun səbəbi isə son dövrlərdə daha da genişlənən hakimiyyət böhranıdır. Dövlətin ali hakimiyyət orqanları iflic vəziyyətindədir. Bir çox dövlət orqanları heç bir hüquqi əsası olmadan yaradılıb fəaliyyət göstərir.

Bir sözlə, indiki hakimiyyət ölkədəki ictimai-siyasi hadisələri idarə etmək iqtidarında deyil. İctimaiyyət obyektiv hüquqi aktlara əsasən yox şəxsi subyektiv rəylərə əsasən idarə olunur. Ən dəhşətlisi isə odur ki, nə siyasətdə, nə də iqtisadiyyatda heç bir köklü dəyişikliklər aparılmır. Azərbaycan dövlət müstəqilliyinin təsbit olunduğu konstitusiya aktlarına müvafıq olan hakimiyyət bölgüsü aparılmır, hüquqi dövlət qurulmasına dair heç bir iş görülmür. Təcrübə, bacarıq olmayanda isə hakimiyyət qüvvələri zor tətbiqetməyə əl atırlar. Prezidentdən tutmuş müxtəlif vəzifəli şoxslərə qədər hamısı öz müsahibələrində bildirirlər ki, heç kim bizi hakimiyyətdən məhrum edə bilməz, çünki polis və ordu bizim əlimizdədir.

Görünür ki, dünənə qədər küçə və meydanlarda demokratiyadan dəm vuranlar onun əsl mahiyyətindən bixəbər-

dirlər. Bütün demokratik hüquqi dövlətlərdə ordu, polis siyasətdən kənar olur, yalnız dövlətçiliyə və xalqa xidmət edir. Əgər dünənə qədər Azərbaycanın sərvətləri yalnız bir istiqamətdə aparılırdısa, indi hər yerə daşınır. Bir çox Qərb ölkələrindən qovulmuş Qərb inhisarçıları indi asanlıqla Bakı neftini ələ keçirmək üzrədirlər. Əgər bir az da bclə davam edərsə, siyasi boyunduruqdan qurtulub iqtisadi boyunduruq altına düşəcəyik. Çünki ölkənin salamat qalmış iqtisadi potensialı da dağılmaq üzrədir, təbii sərvətlər talan edilir.

Ağır maddi vəziyyət, bədbinlik, gələcəyə ümidsizlik ucbatından yüzlərlə, minlərlə ziyalı həmvətənlimiz, ixtisaslı kadrlar respublikamızı tərk edirlər. Sözsüz ki, ən ağır zərbə cəmiyyətin aşağı təbəqələrinə, geniş xalq kütlələrinə dəyir. Bütün bunlar onu göstərir ki, bir azdan sosial ədalət prinsipindən əsər-əlamət qalmayacaq. Rcspublikanın ağır vəziyyəti hakimiyyətin müasir epoxanın inkişaf tendensiyasını düzgün müəyyən edə bilməməsi, uğursuz kadr siyasəti nəticəsində bir az da ağırlaşır. Minlərlə insanın həyatına bais olan, minlərlə ailəni öz ev-eşiyindən məhrum edən və sonu görünməyən Qarabağ faciəsi bir çox qüvvələr tərəfindən siyasi oyun kimi, yeni vəzifələr və maddi gəlir əldə etmək üçün vasitə kimi istifadə olunur. Azərbaycanda sürətli inkişaf yalnız siyasi arenada müşahidə olunur, onlarla təzə partiya meydana gəlir. Amma bu partiya liderləri arasında xalqın etimadını qazanmış, öz nüfuzu və istedadı ilə xalqı birləşdirə bilən şəxs yoxdur.

Hörmətli Heydər Əliyev! Siz respublikada bu missiyanı boynuna götürə biləcək yeganə şəxsiyyətsiniz. Uzun illik idarəçilik təcrübənizə əsaslanaraq, siz Azərbaycanda qısa zaman ərzində əhalinin, ictimaiyyətin böyük hissəsini birləşdirə biləcək güclü, qüvvətli siyasi partiya yaratmağa qadirsiniz. Ona görə də Azərbaycanın müxtəlif bölgələrində apardığımız sorğulara əsasən müəyyən etmişik ki, bizim yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına yalnız Siz rəhbərlik edə bilərsiniz. Yalnız belə partiya qarşıya qo-

yulmuş məqsədlərə çatmağa, böyük xalq kütlələrini birləşdirməyə, Azərbaycanın ictimai və siyasi həyatındakı çatları doldurmağa, dövlət quruculuğu işinə layiqli töhfəsini verməyə qadirdir. Əminik ki, yaradılmaq üzrə olan Yeni Azərbaycan Partiyası dərin düşüncəli, ağıllı, savadlı, milli qürura malik, mədəni şəxslərin müdrik ağsaqqal Heydər Əliyev ətrafında birləşdiyi bir partiya olacaq. Biz Yeni Azərbaycan Partiyasını yeni fikirli insanlan öz ətrafında birləşdirən bir partiya kimi görürük.

Əziz və hörmətli Heydər Əliyev!

Bizim müraciətimizə minlərlə Azərbaycan sakini qoşulmağa hazırdır. Hələliksə, biz bu addımı bir qrup ziyalı şəxsin adından atırıq. Öz adımızdan və minlərlə Azərbaycan sakini adından Sizdən xahiş edirik ki, Yeni Azərbaycan Partiyasına rəhbərliyi öz üzərinizə götürəsiniz.

Azərbaycan sizin qərarınızı və son sözünüzü gözləyir”.

Murtuz müəllimdən soruşuruq:

– Bəs Heydər Əliyev sizə nə cavab verdi?

– O, məsləhət gördü ki, tələsməyək, düşünüb-daşınaq, əvvəlcə partiyanın məramnaməsini, nizamnaməsini hazırlayaq. 24 oktyabrda o, məhz bizə – “91-lər qrupu”na daxil olan şəxslərə cavab məktubu yazdı. Gəlin, bu tarixi sənədi oxuyaq, – deyə Murtuz Ələsgərov bizə təklif etdi:

“Əziz ziyalılar! Sizin 16 oktyabr 1992-ci ildə “Səs” qəzetində dərc olunmuş müraciətinizi oxudum. Həm sizin müraciətiniz, televiziyada, qəzetlərdə gedən informasiyalar, həm də Azərbaycanın müxtəlif əyalətlərindən gələn məktublara əsasən görürəm ki, Azərbaycan son dərəcə ağır vəziyyətdədir. Belə bir vəziyyətdə ziyalıların narahatlığı başa düşüləndir.

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının əldə etdiyi böyük tarixi nailiyyətdir və bütün Azərbaycan vətəndaşları bununla fəxr edirlər. Amma bu hadisələr Azərbaycan xalqının çox ağır, çətin məsələləri həll etməli olduğunu göstərir. İndi qarşıda duran əsas məsələ dövlətçili-

yin formalaşdırılması, müstəqilliyin möhkəmləndirilməsi, vətəndaşların azad, sərbəst yaşamasına şəraitin yaradılmasıdır. Hər bir vətənpərvər şəxs bu yolda əlindən gələn köməyi göstərməlidir. Buna görə mən də sizin müraciətinizə cavab olaraq, bəzi fıkirlərimi sizinlə bölüşmək istərdim.

Birinci onu qeyd edim ki, Azərbaycanın müstəqillik əldə etməsi 80-ci illərin əvvəllərində başlamışdı və bu, həm Sovet Sosialist Respublikaları İttifaqında, həm də bütün dünyada cərəyan edən ictimai-siyasi proseslərin təbii nəticəsiydi. Bu obyektiv səbəblər Sovet Sosialist Respublikaları İttifaqının dağılması, Sovet İttifaqı Kommunist Partiyasının tarix səhnəsindən silinməsi və on beş müttəfıq respublikanın müstəqillik əldə etməsiylə nəticələndi. Bunun ardınca baş verən hadisələr yəni həm Azərbaycanın, həm də o biri respublikaların bütün dünya, BMT və başqa beynəlxalq təşkilatlar tərəfindən tanınması beynəlxalq hüquq normalarına uyğun idi. Azərbaycanın müstəqillik əldə ctməsində, əlbəttə ki, müəyyən ictimai – siyasi qüvvələrin, təşkilatların, konkret şəxslərin, o cümlədən də Xalq Cəbhəsinin böyük əməyi olub. Həm də bu, obyektiv tarixi proseslərin nəticəsi və zamanın Azərbaycan xalqına, digər müttəfıq respublikalara bəxş etdiyi bir hədiyyədir.

Beləliklə, dövlət müstəqilliyi Azərbaycan xalqının mənəvi sərvətidir və onun ayrı-ayrı siyasi qüvvələrin, partiya strukturlarının, şəxslərin inhisarına keçməsinə imkan vermək olmaz.

Azərbaycanda hüquqi, demokratik, müstəqil dövlətin yaranması ictimai-siyasi, sosial-iqtisadi potensialın tam səfərbər edilməsiylə müşayiət olunan ağır, uzun əmək tələb edir. Əgər xalq ayağa qalxıb öz hüquqlarını tələb edirsə, qısa zaman ərzində on kiçik dövlət də böyük dövlətə çevrilir. Mənə elə gəlir ki, bu yolda aşağıdakı məsələləri həll ctməliyik:

**Birinci:** Qarabağ məsələsinin həll olunması və Azərbaycanın müharibə vəziyyətindən çıxması. Artıq beş ildir ki, Azərbaycanla Ermənistan arasında elan olunmamış mü-

haribə gedir. Azərbaycan öz ərazisinin bir hissəsini itirib, Ermənistanla sərhəd zonalarında yüzlərlə yaşayış məskəni dağıdılıb, minlərlə insan şəhid olub, əlil qalıb. Yüz minlərlə insan doğma ev-eşiklərindən qaçqın düşüb, səfil vəziyytində yaşayır. Respublikaya görünməmiş maddi və mənəvi ziyan dəyib. Ən dəhşətlisi odur ki, bu faciələrin sonu görünmür. Bir il əvvəl olduğu kimi indi də Azərbaycanın rəhbər orqanlarında Qarabağ məsələsinə dair dəqiq, düşünülmüş siyasi-hərbi strategiyanın konsepsiyası yoxdur. Elə təsəvvür yaranır ki, Qarabağda və sərhədyanı zonalarda hərbi əməliyyatlar özbaşına aparılır.

**İkinci:** Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi və əhalinin həyat səviyyəsinin aşağı düşməsi böyük narahatlıq doğurur. Son doqquz ay ərzində respublikanın iqtisadi vəziyyətinin statistik göstəriciləri adamı dəhşətə gətirir. Kənd təsərrüfatında və inşaatda vəziyyət daha da ağırdır. Son altı ildə respublikanın ümumi iqtisadi vəziyyətinin aşağı düşməsini nəzərə alanda, respublikanın hansı problcmlərlə üz-üzə gəldiyini təsəvvür etmək çətin deyil.

Azərbaycan tükənməz təbii sərvətlərə, böyük iqtisadiyyata, kənd təsərrüfatı və intellektual potensiala malikdir. Təkcə aqrar sektorda istehsalın artırılması vasitəsilə kənd təsərrüfatı məhsullarının artımını təşkil etmək olar. Amma əfsuslar olsun ki, respublikada bu resurslardan qətiyyən istifadə olunmur.

Belə görünür ki, dövlət idarələrində respublikanı bu iqtisadi böhrandan çıxarmaq üçün heç bir dəqiq proqram yoxdur; əhalinin ağır vəziyyətdən çıxarılması üçün heç bir addım atılmır. Analizlər göstərir ki, bu sahədə yalnız qarışıq, düşünülməmiş addımlar atılır.

**Üçüncü:** Hökumətin kadr siyasəti həm ziyalıların, həm də geniş xalq kütlələrinin haqlı narazılığına səbəb olub. Rəhbər vəzifələrə heç bir savadı, təsərrüfat təcrübəsi, bacarığı olmayan cəbhəçilərin təyin edilməsi bütün hüquqi normaları pozur və bu da ağır nəticələrə gətirib çıxara bilər. Xalq heç

vaxt Xalq Cəbhəsinə belə fövqəladə hüquq və səlahiyyətlər verməyib. Ötən onilliklər ərzində respublikada həm iqtisadi, həm siyasi, həm ictimai, həm də idarəçilik sahəsində kifayət qədər istedadlı, bacarıqlı, yüksək səviyyəli, mədəni və ixtisaslı milli kadrlar yetişdirilib. Bütün bu kadrlara, hansı partiyaya aid ol-masından asılı olmayaraq, özlərinə, ixtisaslarına uyğun fəaliyyətlə məşğul olmaq üçün şərait yaradılmalıdır.

Respublikadan kənara, Rusiyada, Ukraynada, başqa ölkələrdə bir çox ixtisaslı, bacarıqlı, təcrübəli kadrlar çalışır. Onların buraya gəlib öz xalqına xidmət etməsinə şərait yaradılmalıdır. Öz səmərəli işləriylə onlar vətənlərinə, müstəqil Azərbaycana böyük xidmətlər göstərə bilərlər.

**Dördüncü:** Azərbaycanın dövlət müstəqilliyinin möhkələnməsi ilk növbədə qanunların aliliyinin təmin edilməsindən başlanır. Totalitarizmdən xilas yolu yalnız demokratiyanın inkişafında, siyasi plüralizmin, insan hüquqlarının təmin olunmasındadır. Söhbət söz azadlığından, sahibkarlığa yardımdan, şəxsi mülkiyyətin müdafiəsindən, seçmək və seçilmək hüququnun təminatından gedir.

Azərbaycanın hər bir vətəndaşı milliyyətindən, əqidəsindən, dilindən və siyasi görüşlərindən asılı olmayaraq bu hüquqlara malik olmalıdır. Məncə, müstəqil dövlət quruculuğu prosesinə Azərbaycan cəmiyyətinin bütün təbəqələrindən olan insanlar qoşulmalıdır. Yeni, müstəqil Azərbaycan bizim hamımıza məxsusdur.

**Beşinci:** Son dövrlər Azərbaycanı parçalamaq kimi təhlükəli tendensiyalar müşahidə olunur. Bu cəhdlərin qarşısı qəti şəkildə alınmalıdır. Yaranan narazılıqları isə sivil və demokratik şəkildə həll etmək lazımdır.

Azərbaycan əsrlər boyu öz ərazisində yaşayan insanların doğma vətəni olub. Azərbaycanın demokratik əsaslarla mövcudluğu onun dövlət müstəqilliyinin təminatının əsas şərtidir. Azərbaycanın bu günü və gələcəyi ilə bağlı başqa problemlər də məni narahat edir. Amma sizin təklifmizə cavab verməmişdən əvvəl qeyd etdiyim problemləri sizin

diqqətinizə çatdırmaq istəyirdim. Hesab cdirəm ki, müstəqil Azərbaycanda bu problemlər qısa zamanda həll edilməlidir. Azərbaycanın bu günü və gələcəyi ilə bağlı problemlərin həllinə heç bir vətəndaş biganə qalmamalıdır.

Hesab edirəm ki, sizin təklifinizdə yazıldığı kimi, Yeni Azərbaycan Partiyasının yaradılması müstəqil, demokratik Azərbaycanın əsası olan siyasi plüralizmi təmin etmək istəyindən doğub. Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak edən belə bir partiya müstəqil Azərbaycanın inkişafında və möhkəmlənməsində böyük rol oynaya bilər.

Əgər belə bir partiya yaranarsa, mən onun fəaliyyətində yaxından iştirak etməyə hazıram.

*Böyük hörmətlə,*
*Heydər Əliyev*
*24 oktyabr, 1992-ci il. Naxçıvan".*

Həmin günlər respublika qəzetləri Ağstafa, Tovuz, Gədəbəy rayonlarının sərhədyanı bölgələrindəki atışmalardan, erməni silahlı qüvvələrinin Ağdama arasıkəsilməz hücumlarından yazırdı: "Onlarla ev dağıdılıb. Yaralananlar var". Bakıda isə çörək, ət, yağ növbələri böyüyür, insanlar hətta talonla da bu ərzaqları vaxtlı-vaxtında ala bilmirdi. Vətəndaşlar kütləvi şəkildə iş yerlərini itirirdi. Blokada vəziyyətində olan Naxçıvanda isə bu problemlər üç dəfə, beş dəfə artıq özünü büruzə verirdi. Amma artıq Arazın üstündəki körpü vasitəsilə İrandan maddi yardım gəlməyə başlamışdı və naxçıvanlılar çətinliklə də olsa, iradələrini toplayıb muxtar respublikanı normal vəziyyətdə saxlamağa müvəffəq olurdu.

1992-ci il oktyabrm 27-də Azərbaycanın daxili işlər naziri öz şəxsi qvardiyası olan "Boz qurd"ları – 350-yə qədər hərbçini Bakıda topladı. Nazir "dikbaş" Naxçıvana yürüşə şəxsən rəhbərlik etmək istəyirdi. Amma ən son anda bu yürüş təxirə salındı. Heydər Əliyevin igidliyi, onun tərəfində olan muxtar respublikanın Ali Məclisinin, hökumətinin iradəsi öz sözünü demişdi. Azərbaycan Prezidenti bununla

hesablaşmaya bilməzdi. Həm də konflikt artıq beynəlxalq səviyyəyə qalxmaq üzrəydi. Məclisin iclasında Heydər Əliyev sensasiyalı açıqlama verdi: "Mən kömək üçün Rusiya Prezidenti Boris Yeltsinə müraciət etmişəm". Deputatlar bu açıqlamanı alqışlarla qarşıladılar. Bakıda Kreml sahibinin gözlənilməz qərarlarından qorxub Naxçıvandan əl çəkdilər. Amma qısa müddətə.

İndi Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılması ilə bilavasitə məşğul ola bilərdi. Partiyanın təsis konfransı keçirildi, idarə heyəti, siyasi şurası seçildi. Partiyaya rəhbərlik isə Heydər Əliyevə həvalə edildi. Təsis konfransından sonrakı on gün ərzində partiyaya 30 minə qədər insan üzv yazıldı.

"Yeni Azərbaycan Partiyasının gücü və əzəməti, – deyə Murtuz Ələsgərov qeyd edir, – onun başında Heydər Əliyev kimi məşhur siyasətçinin, idarəçilik işində böyük təcrübəsi olan bir şəxsin dayanmasındaydı.

Tanınmış qədim yunan tarixçisi Plutarx "Həyatın müqayisəli təsviri" əsərində yazır ki, xalqın lideri özünün ağlı və düşüncəsi, əxlaqi-mənəvi təmizliyi, cəsarəti və uzaqgörənliyi ilə başqaları üçün nümunə olmalıdır. Düşünürük, bu sadə həqiqəti isbat etməyə lüzum yoxdur. Amerikanın dahi dövlət xadimi Franklin Ruzvelti dörd dəfə ABŞ-ın prezidenti seçmişdilər. Fransanın nəhəng dövlət xadimi de Qoll iki dəfə öz xalqını və ölkəsini xilas etmişdi. Ondan soruşanda ki, o, Fransanı mümkün ola biləcək faciələrdən xilas edə bilərmi? General de Qoll cavab verdi: "Mən – fransız xalqının oğluyam, əgər xalq müraciət edərsə, iki dəfə yox, 100 dəfə köməyə gəlməyə hazıram". Böyük Atatürk Türkiyəni parçalanıb məhv olmaqdan qoruyub saxladı.

Həyat göstərir ki, böyük dövlət xadimləri və siyasətçilər, güclü şəxsiyyətlər, xalqına sədaqətli insanlar VƏTƏN qarşısında məsuliyyətlərini hiss edirlər. Bəli, Yeni Azərbaycan Partiyasının lideri Heydər Əliyev də bu cür insanlardan idi. Muxtar respublika Ali Məclisinin sədri kimi o, gündə on

dörd, on beş saat işləyirdi. İş günü səhər saat onda başlanır, axşam saat altıya qədər davam edirdi, sonra bir saatlıq nahar, daha sonra isə gecə saat ikiyə qədər yenidən gərgin iş və bu iş rejimi üç gün, bcş gün yox, uzun müddət belə davam edir. Yeni Azərbaycan Partiyasının təsis konfransı keçiriləndə nümayəndələr özləri bunun şahidi oldular. Onlar əmin idilər ki, belə şəxsin rəhbərlik etdiyi partiya, həqiqətən də, xalqı öz ətrafında birləşdirməyə qadirdir. Mən də buna əmindim".

21 noyabr 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Bu konfransın iştirakçısı YAP idarə heyətinin üzvü Kərim Kərimov o günü belə xatırlayır:

– Həmin gün Naxçıvanda vəziyyət çox ağır idi. Qar yağmışdı. Güclü şaxta adamın iliyinə işləyirdi. Nəqliyyat demək olar gözə dəymirdi. Konfrans Cəlil Məmmədquluzadə adına Dövlət Dram Teatrının binasında kcçirildi. Zal çox soyuq olduğundan hamı paltoda oturmuşdu. Çoxları papağını belə çıxartmamışdı. Heydər Əliycv yenə özünəməxsus tərzdə kostyumda, başıaçıq salona daxil olub rəyasət heyətinə qalxdı. Tək oturmuşdu və sanki bu sərt şaxta ona zərrə qədər də təsir etmirdi.

Konfransda Azərbaycanın bütün bölgələrini əhatə edən 550 nümayəndə iştirak edirdi.

Kərim Kərimov məramnamə və nizamnamə ilə bağlı belə bir məqamı da açıqladı:

– Təsis konfransına hazırlıq dövründə Bakıda bir qrup ziyalı tərəfindən nizamnamə və proqramın layihələri hazırlanmışdı. Bu işdə təcrübəsi olan yoldaşlar layihələrlə tanış olub, təkliflərini hazırlamışdılar. Sözügedən sənədlərin layihələri çox iri həcmli idi. Azərbaycanın müstəqillik əldə etməsilə əlaqədar qarşıda duran vəzifələr – dövlət müstəqilliyinin möhkəmləndirilməsi, sabit və sosial yönümlü iqtisadiyyatın yaradılması, müstəqil, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, milli maraqlarımıza uyğun olaraq Dağlıq Qarabağ probleminin həlli kimi məsələlər, o cümlədən qanun-

çuluq, azərbaycançılıq, varislik, vətəndaş həmrəyliyi, sosial ədalət kimi partiyanın əsas ideoloji prinsipləri bu sənədlərdə öz əksini layiqincə tapmamışdı. Konfransdakı çıxışında bu məsələlərə aydınlıq gətirməyi nəzərdə tutmuşdum. Lakin konfransın gedişində müzakirəyə Bakıdakından tamamilə fərqli, yeni, yığcam, dolğun layihələrin çıxarılmasının şahidi oldum. Maraqlandım, məlum oldu ki, yeni layihələr Heydər Əliyev əməyinin nəticəsidir. Heydər Əliyev əvvəlcə köhnə layihələrin üzərində düzəlişlər etməyə cəhd göstərib, ancaq sənədlər çox iri həcmli olduğundan, bir şey alınmayıb. O, partiyanın Nizamnamə və Proqramını öz dəst-xəttilə yenidən yazmaq məcburiyyətində qalıb. Təsis konfransının bəyanatı bir daha elan etdi ki, bu partiyanın proqramının mahiyyətini müəyyən edən məqsədlər Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaqdan, onu daha da möhkəmləndirməkdən, ölkədə güclü, sivil, demokratik, dünyəvi dövlət və mülki cəmiyyət qurmaqdan, sosial yönümlü sabit iqtisadiyyat yaratmaqdan, hüquqi-siyasi islahatları həyata keçirməkdən, bir sözlə yeniləşmiş və qüdrətli Azərbaycan yaratmaqdan ibarətdir.

YAP Azərbaycanın müasir tarixində yeganə partiyadır ki, o yaranarkən öz qarşısına siyasi hakimiyyətə gəlmək, hakimiyyət uğrunda mübarizə aparmaq yox, ölkəni mövcud böhrandan çıxarmaq məqsədi qoymuşdu. Heydər Əliyev həmin məqsədləri belə şərh edirdi: "Bu partiya hakimiyyət uğrunda mübarizə aparan partiya kimi yaranmadı. Biz partiyanın nizamnaməsində yazırıq ki, partiya Azərbaycanın bu ağır dövründə, ölkəmizin ictimai-siyasi həyatında iştirak etmək və Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq üçün yaranır. Bu partiya parlament tipli partiyadır. Partiya yaranarkən heç kəs qarşıya məqsəd qoymurdu ki, biz hakimiyyəti devirəcəyik. Necə ki, indi ayrı-ayrı müxalifət qüvvələri hakimiyyəti devirmək haqqında, yaxud da hakimiyyət uğrunda mübarizə aparacaqları barədə ayda bir dəfə bəyanatlar verirlər. Bizim partiya xalqı birləşdirmək və Azərbaycanın o vaxtkı

mürəkkəb həyatında ölkənin problemlərinin həll olunmasında iştirak etmək, öz xidmətlərini göstərmək məqsədilə yarandı. Mən məmnunam ki, 1992-ci ildə çox ağır şəraitdə Naxçıvanda bizim yazdığımız və qəbul etdiyimiz proqram bu gün də öz aktuallığını saxlayıbdır. Demək, biz o vaxt nə qədər uzaqgörənlik etmişik, ölkəmizdə olan vəziyyəti nə qədər düzgün qiymətləndirmişik və partiyamızın gələcək yolunu, istiqamətini nə qədər düzgün müəyyən ctmişik".

Respublikanın müxtəlif bölgələrindən gələn təşəbbüs qruplarının üzvləri partiyanın məramnaməsini və nizamnaməsini təsdiq etdilər. Açıq səsvermə zamanı Heydər Əlirza oğlu Əliyev yekdilliklə partiyanın sədri seçildi.

Bakıdakı hakimiyyət isə Naxçıvandan əl çəkmək istəmirdi. 1993-cü ildə Prezident Elçibəy Naxçıvan Muxtar Respublikasında "Xüsusi komendaturaların təsis olunmasına dair" sərəncam imzaladı. Komendaturalar Azərbaycanın başqa əyalətlərində də fövqəladə vəziyyət elan olunmasıyla bağlı təsis olunurdu.

Heydər Əliyev aprelin 12-də Muxtar Respublikanın Ali Məclisini topladı. Gündəlikdə iki məsələ vardı:

1. Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasında komendaturların təsis olunmasına dair sərəncamına münasibət.

2. Naxçıvan Muxtar Respublikasının əhalisinin çörək təminatına dair.

Ali Məclisin sədri Heydər Əliyevin fıkrincə, "Naxçıvanın coğrafı mövqeyini nəzərə alaraq, burada fövqəladə vəziyyət tətbiq etmək olmaz".

Amma məlum olduğu kimi, Naxçıvan Xalq Cəbhəsi burada da fövqəladə vəziyyət tətbiq olunmasını tələb etmişdi. Prezident də bu tələblə razılaşmış və buraya komendantlar təyin edilmişdi. Fövqəladə vəziyyət şəraitində bütün hakimiyyət onların əlində cəmləşirdi.

"Nəhayət, mən Prezidentlə əlaqə saxladım, – deyə Heydər Əliyev davam edir, – və onun nəzərinə çatdırdım ki,

Naxçıvan Muxtar Respublikasında fövqəladə vəziyyət tətbiq etməyə ehtiyac yoxdur. Hələlik, burada sakitlikdir. Biz onsuz da blokada şəraitində yaşayırıq. Axı, nəyə görə belə qərarlar Naxçıvan rəhbərliyi ilə razılaşdırılmır? Heç nədən başı çıxmayan adamların təhrikiylə fövqəladə vəziyyət tətbiq etmək nəyə lazımdır? Mən Elçibəyə dedim ki, bu qərarı qanunsuz hesab edirəm və burada heç bir fövqəladə vəziyyət ola bilməz. Naxçıvan əhalisini şəxsən mən özüm müdafıə edirəm. Biz əməkdaşlıq yolu tutmuşuq, sizsə komendant təyin edirsiniz. Qanun qanundur. Muxtar respublikanın komendantı ola bilməz. Bu fıkri ortaya atanlar Prezidenti pis vəziyyətdə qoyurlar. Prezident cavab verdi: "bu ola bilməz". Gəlin, baxaq görək kimi komendant təyin cdiblər. Əvvəlcə dedilər ki, müdafıə naziri komendant olmalıdır. Amma indi polis rəislərini bölgə komendantları təyin ediblər".

Ali Məclis sədrinin yanında keçirilən iclasa nazirlər və deputatlar, Naxçıvanın və onun altı rayonunun – Sədərək, Şərur, Babək, Şahbuz, Culfa və Ordubad – başçıları dəvət olunmuşdu. "Mən bütün ömrüm boyu qanuna uyğun yaşamışam, – Heydər Əliyev çox qətiyyətlə danışırdı. – Qanun pozuntusuna heç vaxt yol verməyəcəm. Gəlin, mövqelərimizi müəyyənləşdirək. Zəngilandan gələnlər dcyir ki, orada heç kim qalmayıb. Ağdamda, Füzulidə də vəziyyət eynidir və əgər bizim səylərimiz nəticəsində Naxçıvanda camaat işləyib yaşamaqda davam edirsə, bunun nəyi pisdi ki? Nəyə görə burada fövqəladə vəziyyət tətbiq olunmalıdır? Bu qərar ləğv edilməlidir. Mən böyük narahatlıq hissi keçirirəm. Naxçıvan onsuz da fövqəladə vəziyyətdə yaşayır. Əgər İsgəndər Həmidov burada qarışıqlıq salmaq istəyirsə, mən buna yol verə bilmərəm. Mən burada qarışıqlıq salmaq istəyənlərin hamısını xəbərdar edirəm: xalqı bu vəziyyətə salmaq sizə kifayət etmirmi? Həmidova satılmış bəzi xainlər burada aranı qarışdırırlar. Prezidentin ətrafında olan adamlar ona pis xidmət göstərirlər. Bura mənim doğma torpağımdır, bu torpağın yolunda canımdan da keçərəm. Məndə olan

məlumatlara görə, ermənilər bizim kəndlərə buldozer salıb dağınıqlıq yaradırlar. Mən buna dözə bilmərəm. Qeyrət hissi olan azərbaycanlı necə razı ola bilər ki, bu torpaqlar ermənilərin əlinə keçsin. Biz Naxçıvanı qorumalıyıq. Prezidentin qulağını doldurmaq lazım deyil. Mən burada əyləşənləri və bütün naxçıvanlıları birliyə çağırıram. Bu yolda əlimdən gələni edəcəyəm. Mənim tələbim odur ki, kiminsə siyasi maraqları naminə Naxçıvanı ermənilərə satmasınlar".

Əliyev zala göz gəzdirdi: "Sualı, təklifi olan varmı?" – deyə soruşdu. Vardı. O zaman yayılan şayiələrlə bağlı soruşurdular:

– Kəndlərdə söhbət gəzir ki, Siz Ter-Petrosyanla danışıqlar aparmısınız və Naxçıvanın boşaldılmasına dair razılığa gəlmisiniz. Xahiş edirik ki, təhlükəsizlik orqanları bu şayiələri yayanları tapıb cəzalandırsın.

– Artıq neçə aydır ki, mən Ter-Petrosyanla əlaqə saxlamıram, – deyə Əliyev cavab verdi. – 1992-ci ilin oktyabrından əlaqəmiz olmayıb. Mən Naxçıvanın müdafiəsini öz üzərimə götürmüşəm. Bu müdafiəni bizim hərbi hissələrimiz həyata keçirir. Mən bir nəfər naxçıvanlının da buradan çıxmasına yol verməyəcəyəm. Əgər vətən xainləri imkan versələr, biz sona qədər respublikanı qoruyacağıq".

Sonra isə iclas iştirakçıları ikinci məsələni – çörək problemini müzakirə etməyə başladılar. Heydər Əliyev bildirdi:

– Hər iki gündən bir çörəklə bağlı böhran yaranır. Qoy Abbasov bu barədə müşavirə iştirakçılarına qısa məlumat versin. "Dünən biz İran İslam Respublikası ilə danışıqlar apardıq, – muxtar respublika baş nazirinin birinci müavini məruzəsinə bu sözlərlə başladı. – Un və buğdanı artıq yola salıblar. Şəhər Polis İdarəsinə sərəncamı verilib ki, çörək zavodunun mühafizəsini təşkil etsin".

Müşavirənin sonunda Əliyev həmişəki kimi, bütün rəhbər işçilərə öz tapşırıqlarını verdi. Abbasov isə belə tapşırıq aldı: "İran İslam Respublikasıyla daimi əlaqələr saxlasın və bu barədə Ali Məclisə mütəmadi informasiyalar versin".

10 may 1993-cü il. Heydər Əliyev yetmişilliyi münasibətilə təbrikləri qəbul edir. Qəzetlər Azərbaycan Prezidenti Əbülfəz Elçibəyin təbrikini dərc etmişdi:

"Hörmətli Heydər bəy!

Sizi yetmiş illik yubileyiniz münasibətiylə təbrik edir, Sizə uzun ömür, cansağlığı arzu edirəm.

Yüz illərdir ki, bizim xalqmız azadlıq eşqi ilə yaşayır, bizim bir çox siyasətçilərimiz, hərbçilərimiz, incəsənət xadimlərimiz, ədiblərimiz milli dövlətçiliyin və müstəqilliyin əldə olunması naminə öz həyatlarını fəda edib. Bu gün bu arzuların həyata keçirilməsi, bu ideyaların reallaşması missiyası bizim boynumuza düşüb.

Sizinlə səmimilik şəraitində keçən ilk görüşüm zamanı ümumi işimizdə həmrəy olduğumuza, həqiqətən də, çox sevindim.

Sizə uzun ömür və zəhmətinizin bəhrəsini görməyi arzulayıram".

Böyük siyasətdə hər bir sözün əhəmiyyəti var. "Bu missiya bizim boynumuza düşüb"... Deməli, Prezidentin teleqramını oxuyanların çoxu elə hesab edəcək ki, Əliyevlə Elçibəy artıq müttəfiqdirlər. Yox! Prezidentin mətbuat xidmətinin ardınca Heydər Əliyev o görüş barədə öz informasiyasını hazırlamaq əmrini verdi. Qeyd edildi: ki, görüşdə blokadada yaşayan Naxçıvandakı ağır iqtisadi-sosial vəziyyət müzakirə edilmiş, çıxış yolları barədə fikir mübadiləsi aparılmışdır. Rəsmi informasiyada qeyd edilirdi: "Azərbaycanın daxili və xarici siyasətiylə bağlı fikir mübadiləsi aparılıb. Bu görüşün səmərəsi barədə danışan ölkə prezidenti qeyd edib ki, Azərbaycanın dövlət əhə-miyyətli məsələlərinin ölkənin tanınmış ictimai-siyasi xadimləriylə müzakirə olunması, bu problemlərin həllində öz müsbət təsirini göstərəcək".

Bir sözlə, başqa görüşlərdən seçilməyən növbəti bir görüş... Amma görəsən, bundan əvvəl Azərbaycan Prezidenti öz bir həftəlik qrafikini pozaraq, kiminlə səkkiz saat fasilə vermədən söhbət etmişdi?

Ara-sıra mübahisə həddinə qalxan həmin görüşdən çıxan Heydər Əliyev birbaşa öz tərəfdarlarının yanına – Yeni Azərbaycan Partiyasının Bakıdakı qərargahına gəldi. Bunu "Bakinski raboçi" qəzeti yazırdı. Qərargah Nərimanov rayonundakı "Elektrotexnika" İnstitutunda yerləşirdi.

"Mənim Azərbaycan Prezidenti ilə əsaslı söhbətim oldu, o vaxt Hcydər Əliyev deyirdi. Görüş səkkiz saata qədər davam etdi".

Müxbir daha sonra yazırdı: "Şəxsi məsələlərə görə Bakıya gələn Heydər Əliyevin sözlərinə görə, Prezident Elçibəylə söhbət zamanı Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi məsələsi, respublikadakı ictimai-siyasi vəziyyət, Naxçıvanın blokada şəraiti müzakirə olunmuşdur. Yeni yaranmış partiyanın rəhbəri qeyd etmişdir ki, onun partiyası, Azərbaycanın dövlət quruculuğu ili adlandırılan 1993-cü ildə keçiriləcək bütün tədbirlərdə yaxından iştirak etməlidir. Bakıdakı qərərgahda görüş zamanı o, partiya üzvlərini Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə çağırmışdır".

Bəli, böyük siyasətdə hər kiçik sözün də xüsusi çəkisi var və Heydər Əliyev bunu hamıdan yaxşı bilirdi. O, gurultulu, təntənəli yubiley məclisi həvəsində deyildi, bu günü öz qohumlarının əhatəsində keçirmək istəyirdi. Bu ərəfədə Türkiyədən oğlu gəldi... Bəs bir-iki günə hərbi mövqelərindən ayrılıb onun görüşünə gələn əsgərlər necə olsunlar? Yaxud Bakıdan gələn Böyük Vətən müharibəsi veteranları? Məgər onların müqəddəs saydıqları 9 May gününü Elçibəy bayramlar sırasından pozub atdığı bir zamanda veteranların sözünü yerə salmaq olardımı?! İlham diqqətlə atasını dinləyir.

– Bizlərdə, Naxçıvanda Qələbə gününü əvvəlki tək bayram edirlər, deyə muxtar respublika Ali Məclisinin sədri öz qərarını verdi.

– Sizinlə, Heydər müəllim, bu bayram Bakıya qayıdacaq, o, bütün xalqa əzizdir.

Bakıdan gələn jurnalist Svetlana Mirzəyeva özüylə bir töhfə də gətirib, – köhnə, azca soluxmuş fotoşəkildə məşhur

balerina Qəmər Almaszadə, çox gənc Zərifə və qardaşı Tamerlan əks olunmuşlar.

Heydər Əliyevin gözləri yaşarır:

– Mən ömrüm boyu Zərifəyə vurğun idim... Sonra, o öz gündəlik qayğılarını bir qədər unudaraq, həyatda rast gəldiyi, ünsiyyət bağladığı böyük sənətkarlardan söz açır.

– Poeziya, teatr, musiqi, rəssamlıq, heykəltəraşlıq mənim üçün sadəcə maraqlı, cazibədar bir dünya ilə təmas, sadəcə təəssürat dəyişməsi və istirahət deyil. İncəsənətdən qüvvə almışam, ondan optimizm, həyat eşqi duyğusu əxz edirəm. İncəsənət adamlarıyla ünsiyyətdən geniş biliklər alıram, həyatda, insan münasibətlərində gözəlliyi dərindən duyuram.

Görkəmli sənətkarlar Heydər Əliyevi özlərinin həssas zövqlü sənət yoldaşı kimi qəbul edirdilər. Ailə şənliyində Heydər Əliyevin nəğmə oxumasını dinləyən məşhur müğənni Müslüm Maqomayev onun zəngin çalarlı, fitrətdən gələn səsinə heyranlığını bildirmişdi.

Naxçıvanda yaşlı adamlar Heydəri görmək üçün şəhər teatrına necə getdiklərini indi də yaxşı xatırlayırlar. Bəli, o gözəl rəssam, aktyor, memar ola bilərdi. Amma həyat başqa seçimə üstünlük vcrdi. Siyasət sahəsində də o öz xalqı üçün çox iş görməyə qadir idi. Ancaq xalq da, onu parlamentə seçən insanlar da hələ bunu dərk edəcəkdilər.

1992-ci ildə Azərbaycan fırtınalı dənizdə kapitansız üzən gəmini xatırladırdı. Rcspublika parçalanmaq və dövlət müstəqilliyini itirmək təhlükəsi qarşısında idi.

1992-ci il mayın 18-də, ölkənin Ali Sovetinin sessiyasında deputat Eldar İbrahimov xalqı bu bəladan xilas edə biləcək adamın parlamentin sədri seçilməsini təklif etdi. O bildirdi ki, bu mürəkkəb və ağır işin öhdəsindən dövlət idarəçiliyi sahəsində böyük təcrübəsi olan siyasətçi Heydər Əliyev gələ bilər. Təəssüf ki, o zaman həmkarları Eldar İbrahimovun təklifini müdafiə etmədilər.

## IX fəsil

# QAYIDIŞ

*May-iyun, 1993-cü il, Naxçıvan-Bakı*

İxtisasca jurnalist olan, bu kitab yazılan zaman isə Naxçıvanda Ali Məclis aparatının başçısı işləyən Əli Həsənovun günbəgün apardığı xronikaya bu epizod düşməmişdir: Mətbuat katibinin tapşırığı ilə ağ neft lampası Əliyevin kabinetindən götürülərək onun otağına aparılır və açarla bağlanmış dolabda saxlanılır. Əlbəttə, mətbuat katibinin niyyəti növbəti dəfə işıq kəsiləndə şefin çırağından faydalanmaq deyildi. Bu qədirbilən insan xəyalən həmin çırağı gələcək Əliyev muzeyində görürmüş... Yeri gəlmişkən, deyək ki, elə-belə də oldu...

Xronikada başqa bir önəmli hadisə öz əksini tapmışdır: 1993-cü ilin iyun ayında Naxçıvan İran enerji şəbəkəsinə qoşuldu. Blokada məngənəsində qalmış muxtar respublikaya oradan, Təbrizdən qaz kəməri də çəkilirdi. Bu yeniliklər, ilk növbədə Naxçıvan bazarının nırxına təsir göstərdi: neft çıraqları ucuzlaşdı, müştəriləri də azaldı, alanlar da tək-tük bədgüman, inamsız bəndələr idi. Heydər Əliyevin yetmişilliyi ərəfəsində "Bakinski raboçi"dən bir jurnalist müsahibə almaq üçün onun razılığını almağa nail oldu. Əliyev juralisti qəbul etdi, suallarına həvəslə cavab versə də, ayrılanda bildirdi ki, onların müsahibəsi çətin ki, işıq üzü görsün.

Elə bil ürəyinə danmışdı. Mayın onu, iyirmisi ötdü, iyun gəlib çıxdı, "Bakinski raboçi"dən səs çıxmadı. Haçandan-haçana, iyunun 10-da "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram" başlığı ilə müsahibə dərc olundu.

Kənardan baxana yazının qəzetdə yubanması adi hal kimi görünə bilər. Əyalətdə oturmuş bir muxtariyyət rəhbərinin müsahibəsinin bir ay tez, ya gec çıxmasının nə fərqi... Amma 1993-cü ilin may ayındakı Azərbaycanla iyun ayındakı Azərbaycan bir-birindən fərqlənirdi. Onları Gəncə hadisələri ayırırdı.

Qədim Gəncə əsrlər boyu çox sınaqlardan keçmiş, çox bəlalar görmüşdür. Əhalisinin sayına görə bu Bakıdan sonra Azərbaycanın ikinci böyük şəhəridir, böyük sənaye, elm və mədəniyyət mərkəzidir. Rusiyaya birləşənə qədər bu şəhər Gəncə xanlığnın paytaxtı olmuşdur.

Buranın mərd əhalisi xanlığı mühasirəyə alan yadelli işğalçılara qarşı inadla mübarizə aparmışdır. Öz qəhrəman əcdadını, 1803-cü ildə rus təbəəliyini qəbul etmək barədə Qafqaz ordusunun komandanı general Sisyanovun təklifini rədd edən Cavad xanı da xalq heç vaxt unutmamışdır. Bəli, Gəncə çox şey görmüşdü, amma həmyerlilərinin bir-birinə güllə atdığını görməmişdi.

## Polkovnik Hüseynovun tankları

İyunun 4-də, səhər saat 6-da rəsmi məlumatlarda deyildiyi kimi, polkovnik Surət Hüseynovun başçılıq etdiyi "7097 saylı hərbi hissənin zərərsizləşdirilməsi üzrə əməliyyat başlandı". Bu hissəyə qarşı prezident qvardiyasının, Milli Təhlükəsizlik Nazirliyinin, daxili qoşunların bölümləri hücuma keçdilər. 68 nəfər hərbi qulluqçu və mülki şəxs həlak oldu. Müqavimət göstərən on iki əsgər tankların tırtılları altında məhv oldu. Hökumət qüvvələri darmadağın edildi – 1200 nəfər əsir düşdü, onlardan 180-i zabit idi. Ola bilsin, onlar özləri Surət Hüseynovun tərəfinə keçmişdilər. Çünki onlar

da, S.Hüseynovla kirli korrupsiya azarına düçar olan rejim uğrunda döyüşmək istəməmişdilər.

Gəncədən qayıdan parlament komissiyasının hesabatından sonra deputatlar iki saat yarım milli televiziya ilə birbaşa yayım aparılmasınm zəruriliyini çək-çevir edirdi. Prezident Əbülfəz Elçibəy və Milli Məclisin sədri İsa Qəmbər translyasiyanın respublikada onsuz da gərgin vəziyyəti daha da kəskinləşdirəcəyini bildirirdilər. Deputatların əksəriyyəti onlarla razılaşmırdı. İyunun sukkizində, saat 19.30-dan birbaşa yayım başlandı.

Bu tarixi hadisələrə bir qədər ətraflı diqqət yetirək. Heydər Əliyev hələ Naxçıvandadır. Elçibəy ona gündə iki-üç dəfə telefon açıb Bakıya gəlməsini, ölkəni xaosdan qurtarmasını təvəqqe edir.

Polkovnik Hüseynovun tankları camaatın canına vəlvələ sala-sala Bakıya doğru şütüyür.

Elçibəy iki dəfə Heydər Əliyevi gətirmək üçün öz təyyarəsini göndərir – ekipaj dəvət olunan şəxssiz geri qayıdır.

İyunun 7-də Heydər Əliyev muxtar respublikanın Ali Məclisini və Nazirlər Kabinetini təcili iclasa yığır. Bakıdan və Gəncədən qarışıq informasiyalar gəlir (Azərbaycan Milli Məclisindən canlı yayıma hələ axşam saat səkkizdə başlanacaq).

– Mən Prezident Elçibəylə telefonda danışdım, – deyə Heydər Əliyev öz həmkarlarına bəyan edir. O mənə dedi ki, Surət Hüseynov qiyam qaldıraraq dövlətin əleyhinə çıxıb. Bizim bildiyimizə görə, bir neçə nüfuzlu ağsaqqal onunla danışıqlar aparmaq üçün Gəncəyə gedib. Bu danışıqların nəticələri barədə hələlik heç bir məlumat yoxdur. Buna baxmayaraq, təklif var ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu məsələyə öz münasibətini bildirərək bəyanat qəbul etsin.

Bəyanat layihəsini hazırlayanlar hamını barışığa və Prezidentin ətrafında birləşməyə çağırırdılar.

– Biz yekun qərar qəbul edə bilmərik, çünki hələ çox şey bizə aydın deyil, – deyə Heydər Əliyev məsələyə aydınlıq gətirdi. Ona görə də mən boynuma məsuliyyət götürüb konkret fikir bildirə bilmərəm.

O, həmkarlarına diqqətlə qulaq asır, kiməsə etiraz edir, kiminləsə razılaşır – təbəssümlə, jestlə, replika ilə – "bizim bəyanatımız xalqı birləşməyə çağırmalıdır, xalq vətəndaş müharibəsi təhlükəsi qarşısındadır. Buna yol vermək olmaz".

Naxçıvanın səsi bütün dünyaya yayıldı:

"Biz bütün həmvətənlilərimizi birliyə və milli həmrəyliyə çağırırıq. Əminik ki, Gəncə hadisələri diqqətlə araşdırılacaq, mübahisəli məsələlər bütün Azərbaycan xalqının mənafeyi, müstəqil dövlət quruculuğu naminə danışıqlar vasitəsilə sülh ilə həll ediləcəkdir".

## "Xilaskar gələcəkmi?"

Hakimiyyətsizliyin və xaosun arxada buraxdığı izlər təlaş və vahimə doğururdu. Ermənistanın təcavüzü genişlənir, Azərbaycan strateji mövqelərini bir-bir əldən verirdi. Müharibə aparan ölkənin nizamlı ordusu yox idi. Siyasiləşdirilmiş ordu hissələrində intizamsızlıq, qarşıdurma əhval-ruhiyyəsi onun düşmənə qarşı döyüş qabiliyyətini heçə endirmişdi. Hakimiyyət kürsüsü uğrunda gedən çəkişmələr, qruplararası ziddiyyətlər, tayfa münasibətlərini kəskinləşdirən ədavət hissləri, xəyanət və satqınlıqlar dövlət idarəçiliyini heçə endirmişdi. Əbülfəz Elçibəy Bakıda prezident idi, Surət Hüseynov isə Gəncədə hakimi-mütləq. Ölkədə anarxiya hökm sürürdü.

Dövlətin sabit xarici siyasət kursu olmadığından ölkənin beynəlxalq aləmdə nüfuzu heçə endirilmiş, strateji baxımdan mühüm əhəmiyyət daşıyan qonşu ölkələrlə münasibətlərdə soyuqluq yaranmışdı. Müharibə aparan ölkənin iqtisadi durumu böhran həddinə çatmış, xarici iqtisadi əlaqələr pozulmuş və nəhəng sənaye müəssisələri dayanmışdı.

Aparılan səriştəsiz daxili siyasətin nəticələri daha ağır idi. Milli münasibətlər bilərəkdən kəskinləşdirilmiş və Azərbaycan parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Ölkə həqiqi mənada vətəndaş müharibəsinin astanasında idi. Hakimiyyət ermənilərin işğalçı hücumlarının qarşısını almaq əvəzinə, Gəncəyə hücum planı hazırlayırdı... 1993-cü ilin iyun günləri belə idi...

İllərlə küçə və meydanlarda "Azadlıq", "Müstəqillik" hayqıran milləti bu günlərin məşəqqəti necə sıxmış, necə karıxdırmışdısa, azadlığı da, müstəqilliyi də qarğımaq və lənətləmək günahına batmaq onu qorxutmurdu. Azərbaycan dizüstə çöküb, can üstə olan balasına göylərdən şəfa diləyən ağbirçək nənəni xatırladırdı.

Bu millətin əsgərləri torpağına yeriyən düşməndən yox, kürəyinə açıla biləcək "qardaş" gülləsindən ehtiyatlanırdı.

Amma təlatüm və fırtınalar xalqın öz qəlbində yandırdığı ümid şamını söndürə bilmirdi. Ölümün təkidləri nə qədər sərt olsa da, "olum" intihara tələsmirdi. Çünki böyük Azərbaycan ulu Naxçıvandan xəbər gözləyir, Azərbaycan xalqı öz əzəmətli sərkərdəsini soraqlayırdı...

..."Gələcək, gəlməyəcək?" Onu az-çox tanıyanlar bu taleyüklü suala birmənalı cavab verirdilər: Heydər Əliyev canını qurban verər, ancaq Vətənini, torpağını, xalqını fəlakətdə qoymaz! Bu cavabın qarşısında cavabsız qalan sonsuz suallar dursa da, onun gətirdiyi təskinlik, toxtaqlıq ümidləri daha da alovlandırırdı. Yuxusu ərşə çəkilmiş millətin əsgəri də, fəhləsi də, ağbirçəyi də sabahı bu ümidlə açırdı.

Elçibəyin zəngləri isə Heydər Əliyevə nə işdə, nə də evdə rahatlıq vermirdi.

Heydər Əliyev sonralar xatırlayırdı:

– Mən telefonla Elçibəylə danışdım və Bakıya gəlməkdən imtina etdim. İyunun doqquzunda Surətin qoşunları Bakının 100 kilometrliyində idi. Onun adamları təhqir olunmuşdular, deyirdilər: "Bakıya gəlsək, cinayətkarları fənərlərdən asacağıq!" Elçibəy yenə dalınca təyyarə göndərdi, yalvardı ki, gəlim.

Ən çətin və mürəkkəb məqamlarda belə xalqına sədaqətli olan, Vətəni Azərbaycanın və doğma xalqının taleyini öz taleyində yaşayan VƏTƏNDAŞ nəhayət ki, qayıtdı, özünü yetirdi. Onu qarşılayan izdihamı görmədən, bəlkə də, bu dahi şəxsiyyətin xalq arasında hansı hüsn-rəğbətə, hansı məhəbbətə sahib olduğunun gerçək mənzərəsini təsəvvürə gətirmək və dərk etmək çətin olardı. Sevincindən ağlayanların sayı-hesabı yoxdur. Əlləri göylərdən asılmış minlərlə insan Tanrının bu səxavətinə, onun göndərdiyi xilaskara alqışlar yağdırırlar. Bu tükürpərdən səhnənin canlı şahidi kimi, həm də bu kitabın müəlliflərindən biri kimi mən də, elə bil yüz ilin ağırlığını, qəm-kədərini bir andaca üstümdən atıb yüngülləşirəm. İzdihamdan dualar, alqışlar kəsilmək bilmir. Yerbəyerdən eşidilirdi: "Azərbaycan qurtuldu", "Millətin atası gəldi", «Azərbaycanın yiyəsi qayıtdı". Bu ifadələrin hər biri canında illərin təlaş və qorxusunu yaşadan milyonların ürəyinə sərin bir toxtaqlıq gətirirdi.

Millət atası nə qədər qamətli, vüqarlı, əzəmətli görünsə də, xalqın baxışlarındakı sevincdən daxilən kövrəlmişdi. Amma bunu çox az adam görə bildi. Onun baxışları izdihama böyük bir toxtaqlıq verdi. Çöhrələr açıldı, alqış sədaları zilə qalxdı. Böyük qayıdışdan QURTULUŞA yol başladı.

Zaman göstərdi ki, bu gəliş bütün mənalı ömrünü Azərbaycanın işıqlı sabahına həsr edən Heydər Əliyevin hakimiyyətə yeni gəlişi yox, hakimiyyətə qayıdışıdır. Ancaq nə Azərbaycan onun qoyub getdiyi Azərbaycan idi, nə də hakimiyyət. Viranə qoyulmuş, tar-mar edilmiş məmləkətdə hər şey yenidən, bünövrədən başlanmalı idi.

Dahi alman filosofu Fridrix Nitsşe əsərlərinin birində yazırdı ki, "insan üçün həyatda özü öz yükünü daşımaq çətindir, o da qalmışdı başqalarının yükünü çiyninə alasan". Əlbəttə, belə bir şəraitdə viranə bir məmləkətin ağır və son dərəcə məsuliyyətli vəzifələrini üzərinə götürmək Heydər Əliyev dəyanətinin, iradə və cəsarətinin, hər şeydən əvvəl

isə Azərbaycana, xalqına olan sonsuz məhəbbətin və sevginin möcüzəsi ola bilərdi.

Maraqlı idi ki, Azərbaycanın sağlam siyasi qüvvələri, xalqın böyük əksəriyyəti kimi, ölkəni uçuruma aparmış kcçmiş iqtidar nümayəndələri, digər müxalif siyasi qüvvələr də məhz Heydər Əliyevin hakimiyyətə dəvət olunması zərurətini dərk etmişdilər. Onlar başa düşürdülər ki, Azərbaycanın indiki vəziyyətdə xilaskarı yalnız Heydər Əliyev ola bilər. Çünki qarşıda həllini gözləyən çox mürəkkəb, eyni zamanda, olduqca vacib və mühüm problemlər dururdu. Digər tərəfdən, istər AXC iqtidarı, istərsə hakimiyyət eşqində olan digər müxalifət qüvvələrinin bir qismi güman edirdi ki, indiki şəraitdə çox ola bilsin ki, Heydər Əliyev bu problemlərin öhdəsindən gələ bilməsin və siyasi səhnəni birdəfəlik onlara saxlasın. Çünki qarşıda duran problemlər həqiqətən ağır və üzücü problemlər idi.

Lakin siyasət – istiqaməti müəyyənləşdirmək, düzgün yol seçmək, vəziyyəti qiymətləndirmək, uzağı görmək sənətidir. Bu sənətin həqiqi və son dərəcə dərin bilicisi olan Heydər Əliyevi hakimiyyətdə nəyi necə etmək, nədən başlamaq kimi mühüm suallar heç zaman tərəddüd qarşısında qoymayıb. Azərbaycan reallıqlarına dərindən bələd olan bu dahi siyasətçi ona göstərilən müxalifət səmimiyyətinin də arxasmda hansı planların necə çəkildiyini yaxşı bilirdi. Ancaq bunların heç biri onun iradəsini, səriştəsini, siyasi uzaqgörənliyini irəliyə çəkmək iqtidarında deyildi.

– Mən razılıq verdim, – deyə Heydər Əliyev sözünə davam cdir. – Etiraf edirəm ki, fəlakətə doğru uçmaq qorxulu idi, amma mən anlayırdım ki, Bakıya uçmalıyam, çünki xalqın taleyi həll olunurdu. Uçub gəldim və biz Elçibəylə bir neçə saat söhbət ctdik. O, hələ də mənə silahdaşı Pənah Hüseynovun tutduğu baş nazir vəzifəsini təklif edirdi. İmtina etdim. Onlar hamısı Elçibəyin yanına yığışıb mənə qulaq asırdılar. Mən onların cinayətkar idarəçiliyi barədə bütün düşündüklərimi dedim. İsa Qəmbərov dözməyib dedi: “Biz

düşünürdük ki, siz bizə məsləhət verəcəksiniz, siz isə bizə ittihamnamə söylədiniz!" Əslində də bu, belə idi.

Bu görüş onların ilk görüşü deyildi. Bizim yazdığımız kimi hələ fevralda onların arasında səkkiz saat davam edən söhbət olmuşdu. O vaxt Heydər Əliyev "bu siyasət iflasa məhkumdur" demişdi. – "Biz idarə etməyi öyrənirik. Qoy səriştəsizlər təcrübə qazansınlar. Qazanmasalar, biz onları kənarlaşdırıb əvəz edərik", – deyə Elçibəy bildirir – "Xalqın üzərində təcrübə aparmaq olarmı?" – ağsaqqal siyasətçi iqtidar sahibinə haqlı irad tutur.

Xatırladaq ki, "Bakinski raboçi"də iyunun 10-da çıxan müsahibə bu dialoqun davamı kimi səslənir. Respublikada çox populyar olan qəzetlərdən birinin səhifələrindən yalnız muxtar respublikanın başçısı deyil, həmişə olduğu kimi, bütövlükdə Azərbaycanın taleyini düşünən, cavabdehliyini duyan bir siyasətçi həmvətənlilərinə üz tuturdu. Heydər Əliyev ən başlıca, ən təxirəsalınmaz məsələlərdən – müharibəyə necə son qoymaqdan, dağılmış iqtisadiyyatı necə dirçəltməkdən söz açır.

"Suverenlik, milli müstəqillik Azərbaycanın ən böyük nailiyyətidir. Lakin onların möhkəmləndirilməsi – qonşu dövlətlərlə, yaxın və uzaq xarici ölkələrlə işgüzar, iqtisadi, mədəni əlaqələrin yaradılmasına əsla zidd deyil. Təsərrüfat əlaqələrinin kəsilməsi kimə fayda verdi? Sabiq Sovet Sosialist Respublikaları İttifaqının heç bir respublikasına! Hətta Rusiya, Ukrayna, Belarus kimi qüdrətli ölkələrə də bunun heç bir faydası olmadı. Bəs yeni əlaqələr qurulması üçün nə qədər vaxt keçməlidir? Bəzən kor-koranə, necə gəldi, çox vaxt da öz-özünə ziyan gətirəcək axtarışlar hər bir ölkəyə, o cümlədən Azərbaycana da nə qədər bəlalar gətirdi.

Əhalinin müəyyən hissəsi Azərbaycandan çıxıb gedir. Bir qismi sabiq Sovet Sosialist Respublikaları İttifaqı şəhərlərinə, o biriləri daha uzaqlara – ABŞ-a, İsrailə, Almaniyaya və s. ölkələrə köçürlər. Bakı burada yaşayanlar üçün daima əziz olan beynəlmiləl mədəniyyət şəhəri iqlimini itirir.

Tam aydınlığı ilə deyim ki, Azərbaycan həyatın ən müxtəlif sahələrindəki nailiyyətlərini az qala bir əsr ərzində yaranan həmin çoxmillətli mədəni-sosial mühit sayəsində qazanmışdır. O da tamamilə bağışlanmazdır ki, Azərbaycanı azərbaycanlılar, əsasən, rusdilli olanlar tərk edirlər. Bunlar, bir qayda olaraq, Moskva, Leninqrad ali məktəblərində təhsil almış əla mütəxəssislərdir.

Yeri gəlmişkən, mən başçılıq etdiyim Yeni Azərbaycan Partiyası, müxtəlif milliyyətli insanlar arasında əvvəlki etimad, dostluq, qarşılıqlı əlaqələr şəraitinin dirçəldilməsi naminə fəal çıxış edir. Söhbətin bu yerində jurnalist müsahibinə Kommunist partiyasını tərk edərkən daha heç bir partiyaya qoşulmayacağını söz verdiyini xatırladır.

"Bunlar doğrudur, – deyə Heydər Əliyev sualı cavabsız qoymur. – Lakin Yeni Azərbaycan Partiyası mənim həyati təsəvvürlərimlə səsləşən o qədər ideyalar irəli sürdü ki, mən onun sıralarına sadəcə daxil olmağı yox, onun sədri olmağı qət etdim. Bu partiya, həqiqətən, demokratik amalları sayəsində get-gedə daha çox üzvləri – yaradıcı, elmi və texniki işçiləri – ziyalıları, kəndliləri və fəhlə sinfinin nümayəndələrini cəlb edirdi.

Və Yeni Azərbaycan Partiyasının ən başlıca vəzifəsi düşmənin, Qarabağ müharibəsinin, onunla bağlı qaçqınlığın kəsb etdiyi nəhəng təhlükənin qarşısında ən müxtəlif insanları birləşdirməkdir.

Bəli, mən böyük, çətin, lakin hesab edirəm, xoşbəxt bir ömür yaşamışam. Ömrümdə hər nə olmuşsa yaxşı da, yaman da, sevinclər də, peşmançılıqlar da mənim varım, sərvətimdir. Mən siyasətə yamanlıqları xatırlamaq, ya kiminləsə haqq-hesab çürütmək üçün deyil, insanlar üçün, Azərbaycan üçün əlimdən gələni etməyə qayıtmışam.

Mən realistəm və Azərbaycanda yaranmış vəziyyətin bütün ağırlığını görürəm. Lakin mən irəliyə baxmağı bacarıram və hətta bu şəraitdə duruş gətirə bilən xalqın qüdrətinə inanıram; o, dağılanları bərpa etməyə, yeni həyat qurmağa

qadir olacaq. Axı bu məmləkət yüzminlərlə cavan insanın ömrünə son qoymuş Vətən müharibəsindən sonra da yaralarını sağaldıb, yaşayışını bərpa etməyi bacarmışdı. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram".

Qəzetin sözügedən sayında, müsahibə başlanan həmin səhifədə Gəncədə gedən döyüşlərdən, oraya yollanan və vəziyyəti araşdıran hökumət komissiyasının hesabatından da xəbər verilirdi. Bu araşdırmalar parlamentin fövqəladə sessiyasında davam etmiş, nazirlərin istefası və gecə vaxtı Prezidentin "qeyb olması" ilə sonuclanmışdır...

Lakin gəlin, hər şeyi ardıcıllıqla izləyək. İyunun 11-də Ali Sovetin sədri İsa Qombərov istefaya çıxmasını bildirir. Deputatlardan bir qrupu Heydər Əliyevin sədr seçilməsini təklif edir. O, imtina edərək sessiyanın bir neçə gün təxirə salmağı təklif edir ki, Surət Hüseynovla görüşə bilsin.

"Mən onunla əvvəllər tanış olmasam da, Gəncəyə uçub onunla görüşdüm. Biz bütün gecəni danışdıq. Səhər o məni şəhər boyu gəzdirdi və mən döyüşlərin izlərini, dağılmış tikililəri, yanmış evləri gördüm. Orada həm də cinayətin izlərini gördüm. Bakıya qayıtdım, Ali Sovetin təklifini qəbul etdim və iyunun 15-də sədr vəzifəsinə seçildim. Mən bunu yalnız bir məqsədlə – vətəndaş müharibəsinin qarşısını almaq üçün etdim.

İyunun 16-da Surətin qoşunları Xalq Cəbhəsinin hərbi dəstələrilə üzləşdi. Döyüş baş verdi, ölənlər oldu. Mən qardaş qırğınına yol verə bilməzdim, onsuz da bu illər ərzində xalqın qanı su yerinə axıdılmışdı. Surətlə şərtləşdim ki, onun qoşunları Bakıya girməyəcək, paytaxtda döyüşlər olmayacaq. Sonra nələr olduğunu siz blirsiniz. Yekunu Gəncə hadisələrinin araşdırılması üzrə komissiya verdi. Komissiyanın gəldiyi nəticə belə oldu: Xalq Cəbhəsi, öz liderlərinin timsalında cinayət törətmişdilər. Ardınca – Məclisin sessiyası oldu. Sonra əsas səbəbkarların deputat immunitetindən məhrum edilməsi və həbs edilməsi. Bakıya qayıtmağım, bax, belə oldu".

## Qayıdış

Xatırladaq ki, Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikası Ali Soveti sədrliyinə gizli səsvermə yolu ilə seçilmişdi. Onun lehinə deputatlardan çoxu səs vermişdi.

Sonra onun xalqa və deputatlara ilk müraciəti – göstərilən etimada görə təşəkkür çıxışı oldu. Bu çıxışda o, öz əsas məqsədlərini açıqladı: bu, Azərbaycan xalqının tarixi nailiyyəti olan dövlət müstəqilliyinin müdafiəsi və inkişafıdır. Azərbaycan Respublikasının milli müstəqilliyi 1918-ci ildə yaranmış ilk müstəqil Azərbaycan Demokratik Respublikasının ənənələrinə və müasir dünyada baş verən ictimai-siyasi hadisələrə uyğun təmin olunmalıdır.

Artıq müxalifət lideri yox, bütün dövlət üçün, xalq üçün məsuliyyət daşıyan parlament rəhbəri çıxış edirdi. Düzdür, bir il əvvəl prezident seçilən Elçibəy hələ də iş başındaydı, amma nüfuzunu sürətlə itirməkdəydi. Heydər Əliyevin bir siyasətçi və dövlət xadimi kimi uzaqgörənliyi, zəngin bilik ehtiyatı özünü daha çox büruzə verdi: vəziyyətin dəqiq qiymətləndirilməsi, perspektivlərin düzgün müəyyənləşdirilməsi, cəsarət və qarşıya qoyulan məqsədə doğru inamla addımlamaq.

O günlərin dəyişən, rəngdən-rəngə keçən gah tragik, gah da tragikomik mahiyyət alan hadisələrinin fonunda Heydər Əliyevin bu çıxışı Azərbaycanın hüdudlarından kənarda demək olar ki, naməlum qaldı. Amma məhz bu çıxışda o özünün əsas məqsədlərini, prinsipial mövqeyini qısa şəkildə açıqlamışdı. Çıxışın bu hissəsini stenoqramdan olduğu kimi oxucuya təqdim edirik:

“...Mən ömrümün qalan hissəsini, harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişafına həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, Azərbaycan Respublikası bundan sonra heç vaxt müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olunmayacaq və heç bir başqa döv-

lətin əsarəti altına düşməyəcək. Bəzən belə şayiələr gəzir ki, guya, keçmiş Sovetlər İttifaqının bərpa olunması və Azərbaycan Respublikasının da oraya daxil olması ehtimalı var. Bu, boş xülyadan başqa bir şey deyil. Mən bu fikirləri qətiyyətlə rədd edirəm və bütün Azərbaycan vətəndaşlarını da bu fıkirləri rədd etməyə çağırıram”.

Xatırladaq ki, həmin günlərdə Ermənistanın Azərbaycana qarşı apardığı müharibə davam edirdi. Hcydər Əliyevin Ali Sovetin sədri seçilməsi ərəfəsində – 14 iyun 1993-cü ildə Rusiyanın, ABŞ-ın və Türkiyənin təklifıylə Azərbaycanla Ermənistan silahlı qarşıdurmanın dayandırılmasına dair “atəşkəs” sənədi imzaladılar.

“Müstəqilliyi və suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır”, – Əliyev parlament sədri kimi ilk çıxışında bunu xüsusi vurğulayırdı. O əmin idi ki, Azərbaycan öz torpaqlarının sahibi olmalıdır.

Ən qaynar nöqtə isə hələlik Gəncədir. Orada baş verənlər Azərbaycanda parçalanma və vətəndaş müharibəsi yarada bilər.

“Dünən (14 iyun 1993-cü il) Prezidcnt Əbülfəz Elçibəylə bizim çox geniş söhbətimiz olub, – deyə Heydər Əliycv parlament tribunasından çıxışına davam edir. – Gəncədə də mən S.Hüseynovla təkbətək və mənimlə gedən şəxslərlə birlikdə danışıqlar aparmışam. Ona görə də güman edirəm ki, bizim bütün səylərimiz bu gərginliyi, qarşıdurmanı aradan götürməyi təmin edəcəkdir. Ancaq mən demişəm və bir də deyirəm ki, heç bir vəchlə silah işlədilməsinin tərəfdarı ola bilmərəm. Bu gərginlik, bu qarşıdurma yalnız sülh yolu ilə, barışıq yolu ilə, qarşılıqlı anlaşma yolu ilə, danışıqlar yolu ilə həll olunmalıdır”.

Heydər Əliyev xalqın müdrikliyinə, ölkənin nüfuzlu adamlarının, ziyalılarının birgə səylərinə ümid bağladığını bildirdi. Onu həmçinin hazırda uzun illər Azərbaycanda yaşamış xalqlara, etnik qruplara olan münasibətin düzgün olmaması da

narahat edirdi: “Azərbaycan burada yaşayan xalqların vətəni olub və bundan sonra da belə olacaq. Milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan hər bir vətəndaş bərabər hüquqa malik olmalıdır. Əgər biz bu prinsipi rəhbər tutsaq və bu prinsipə həyatda əməl etsək, onda biz respublikada yaşayan bütün xalqların, bütün etnik qrupların birliyinə nail olarıq və şübhəsiz, biz belə də etməliyik”.

Bəs Ali Sovet sədrinin xarici siyasəti necə olacaq? Hansı prioritetlərə xüsusi diqqət yetirəcək? Əliyev xarici əlaqələrdən danışanda bütün diplomatlar və jurnalistlər diqqət kəsildilər.

“Mən hesab edirəm ki, Azərbaycan Respublikası bir demokratik respublika kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Birinci növbədə bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi və dövlət münasibətləri yaradılmalıdır. Bu baxımdan, Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr, şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bütövlüklə bəyənilir. Qonşu İran Respublikası ilə bizim münasibətlərimiz daha da yaxşılaşdırılmalı və inkişaf etdirilməlidir. Rusiya çox böyük dövlətdir, bizim şimalda olan qonşumuzdur. Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra da inkişaf etdirilməlidir. Keçmiş Sovetlər İttifaqına daxil olan və indi müstəqillik əldə etmiş bütün dövlətlərlə qarşılıqlı əlaqələr yaratmalıyıq. Bizim iqtisadi, mədəni əlaqələrimiz bu dövlətlərlə uzun illər yüzilliklərlə çox yaxın olubdur. Bu əlaqələri qırmaq olmaz. Onların inkişaf etdirilməsi şübhəsiz ki, Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasına və inkişaf etməsinə kömək edəcəkdir. Azərbaycan Respublikası artıq ümumdünya miqyasına çıxmışdır. Amerika Birləşmiş Ştatları tərəfindən respublikamıza olan münasibət hamımızı sevindirir və mən belə hesab edirəm ki, bu münasibətlər daha da genişləndirilib inkişaf etdirilməlidir”.

Heydər Əliyev sükut içində olan zala baxdı. Milli Məclis deputatlarının nəzərləri ona zillənmişdi. Ona bütün Azər-

baycan qulaq asırdı. Operatorlar kameralarından bir an da ayrılmırdılar. Parlament laqqırtılarına o qədər də əhəmiyyət verməməyi adət edən bu adamlar özləri də hiss etmədən bu şəxsin – öz övladlarına müraciət edirmiş kimi danışan Heydər Əliyevin nitqinin cazibəsinə düşmüşdülər.

"Buradan, bu tribunadan üzümü bütün Azərbaycan vətən-daşlarına, bizim qardaşlanmıza, bacılarımıza, övladlarımıza tutaraq deyirəm ki, bizim respublika indi ağır vəziyyətdədir. Hal-hazırda bizim ən mühüm vəzifəmiz, bir daha təkrar edirəm, işğal olunmuş torpaqlarımızı geri qaytarıb, Azərbaycanın ərazi bütövlüyünü təmin etməkdən ibarətdir. Ona görə də bütün daxili ixtişaşlara, didişmələrə son qoyulmalıdır. Mən bütün Azərbaycan xalqına müraciət edirəm, Gəncə əhalisinə müraciət edirəm, Azərbaycan Respublikasının xalq deputatı Surət Hüseynova, onun silahdaşlarına müraciət edirəm, buradan onların hamısını müdrikliyə, insani münasibətlərə dəvət edirəm. İndi biz hamımız bir olmalıyıq. Ona görə də indi, Azərbaycanın bu faciəli dövründə bütün qüvvələr, bütün siyasi partiyalar, siyasi qurumlar, bütün siyasi və ictimai təşkilatlar hamısı birləşməli, hamı kin-küdurəti kənara qoymalıdır. Hamımız birləşib Azərbaycanı bu ağır vəziyyətdən çıxartmalıyıq".

## Prezident Elçibəyin qaçması

Üç gün keçdi. İyunun 18-də sübh çağında Əbülfəz Elçibəy, böyük siyasət naminə qədim əlyazmaları, elmi araşdırmalarını bir yana qoyan alim, paytaxtı təyyarə ilə tərk etdi. Doğrudan da, Allahın işini bilmək olmaz! Çaş-baş qalan vətəndaşlar Prezidentin qaçmasını səhər xəbərləri buraxılışından bildilər. Prezident Naxçıvana, öz yurduna getməsini paytaxtda qardaş qırğınının qarşısını almaq və respublikada vəziyyəti sabitləşdirmək istəyilə izah edirdi.

Azərbaycan Konstitusiyasına uyğun olaraq dövlət başçısının bütün səlahiyyətlərinin icra edilməsini parlament

sədri öz öhdəsinə götürdü. Bunu Milli televiziya ilə bildirən Heydər Əliyev, vurğuladı ki, heç vəchlə Əbülfəz Elçibəyin hərəkətinə bəraət qazandırmır, çünki Prezident hətta ən dar gündə də xalqının mənafeyini sonadək qorumalıdır.

İyunun 21-də Milli Məclis növbədənkənar iclasına yığışdı. Heydər Əliyev iclası açaraq bildirdi ki, heç bir kadr dəyişməsi olmayacaq, çünki Prezident Əbülfəz Elçibəy olmadan bunu etmək olmaz. Lakin Prezident də Surət Hüseynovun qiyamçı dəstələri Bakıdan uzaqlaşmayınca, qayıtmaq fikrində deyildi. “Biz bu gün Elçibəyin respublikanı idarə etmək iqtidarında olub-olmadığını müzakirə etməliyik. Əgər idarə edə bilmirsə, biz hansısa tədbir görməliyik”.

Daxili işlər naziri vəzifəsini icra edən Rövşən Cavadov deputatlara məlumat verir ki, Surət Hüseynovun silahlı dəstələri maneəsiz Bakıya yaxınlaşmışlar. Lökbatan qəsəbəsi ətrafında və Şamaxı yolunun 75-ci kilometrində danışıqlar nəticəsində onları dayandıraraq mümkün olmuşdur. Nazir əvəzinin səsində sərt çalarlar artır: “Qiyamçılar cinayətkar ünsürlərlə əlaqəyə girirlər, bu isə paytaxtın ətrafında yaranmış vəziyyətin nəzarət altından çıxması təhlükəsini yaradır. İstisna edilmir ki, sabah parlament artıq yığışa bilməyəcək”.

– Bəs Prezident neyləyir? – deputatlar həyəcanlanır.

– O mənə zəng vurmuşdu, – nazir əvəzi cavab verir, – dedi ki, Bakıya gəlməyəcək, bütün lazımi sərəncamları Naxçıvandan verəcək.

– Prezident Əbülfəz Elçibəyi xalqını özbaşına qoyub təhlükəsizliyi naminə Naxçıvana getdiyinə görə ittiham etmək olmaz, – deyə dövlət katibi Əli Kərimov dövlət başçısına həyan durur. Prezident qan tökülməsinin qarşısını almaq üçün paytaxtı tərk etmişdir.

Kimsə onun sözünü kəsir, kimsə Elçibəyi qorxaqlıqda günahlandırır, digərləri israrla Ali Baş Komandanın Bakıda olmaya-olmaya kənardan öz vəzifələrini necə icra edəcəyini, hərbi strategiya və taktika məsələlərinə necə nəzarət edəcəyini bilmək istəyir.

Dövlət katibi şefini güdaza vermək istəmir:

– Prezident çoxdan strategiyanı işləyib hazırlamış və bu gün onu yalnız yerinə yetirmək lazımdır, – natiqin fikrincə, bəzi millət vəkilləri Elçibəyi Naxçıvandan yalnız ona görə çəkib gətirmək istəyirlər ki, dərhal "istefaya yollasınlar".

Ali Sovetin sədri Heydər Əliyev MTN sərhəd qoşunları idarəsinin rəisi İsgəndər Allahverdiyevin məlumatını səsləndirir: Cənub bölgəsində separatçı Əlikram Hümbətəv "Müstəqil Talış respublikası" qurmaq istəyir... Hümbətəv da Surət Hüseynov kimi "göydəndüşmə" polkovnik idi. Dinc dövrdə Lənkəranda bir qarajda çalışmış, Xalq Cəbhəsi hakimiyyətə gəldikdə Müdafiə Nazirliyinə yol tapıb özünə yer eləsə də, tezliklə oradan mürəxxəs olur. Bekarçılıqdan bezərək Lənkəranda silahlı dəstə yaradır. Onun dərəbəyliyinə ömürlük həbs cəzası vcrən məhkəmə son qoyur (2004-cü ildə AR Prezidenti İlham Əliyevin fərmanıyla əfv edilmişdir).

## Prezident səlahiyyətləri Heydər Əliyevə verilsin

Milli Məclisin 21 iyun tarixli iclasında yekdilliklə Prezident Əbülfəz Elçibəyə Bakıya qayıtması və öz vəzifələrini icra etməyə başlaması haqqında müraciət qəbul olunur. Bu müraciətin layihəsi bir gün öncə müdafıə, milli təhlükəsizlik, daxili işlər nazirləri, parlamcnt başçısı Heydər Əliyev və onun müavinləri Tamerlan Qarayev və Afıyəddin Cəlilovun iştirakıyla hazırlanmışdı. Polkovnik Surət Hüseynova da müraciət qəbul edilmiş, qarşıdurmaya son qoymaq və iqtidarla danışıqlara başlamaq xahiş olunmuşdu. Bu addımlar artıq vətəndaş müharibəsinin astanasında yox, gedişatında atılırdı və müharibə alovları Azərbaycanın hər yerini bürüyürdü... Allah bilir, o günlərdə Heydər Əliyev Bakıda olmasaydı, nələr baş verər, respublikanın aqibəti necə olardı.

İyunun 24-də Milli Məclis, mübaliğəsiz dcmək olar ki, tarixi qərar qəbul edir:

1. Əbülfəz Qədirqulu oğlu Əliyevin (Elçibəy) hazırda Azərbaycan Respublikası Prezideneinin vəzifələrini icra edə bilməməsi təsdiqlənsin.

2. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əlirza oğlu Əliyevə həvalə edilsin".

Heydər Əliyev kürsüyə qalxır. Qarşısında çıxışın tezisləri yazılmış vərəqlər olsa da, o, adətincə, necə deyərlər, "sinədən" danışır.

– Mən Azərbaycan xalqı üçün bu çətin sınaqlar zamanı – respublikada ictimai-siyasi vəziyyətin gərginləşdiyi dövrdə üzərinə düşən məsuliyyətin ağırlığını tam dərk edirəm... Bir dövlət xadimi və siyasət adamı kimi bütün təcrübəmi ölkəni, bir çox sahələrdə yaranmış böhrandan çıxarmağa sərf edəcəyəm. Bununla bərabər, biz Azərbaycanın seçdiyi demokratik kursa sadiq qalırıq...

1969-cu ildə olduğu kimi, bu dəfə də o, Azərbaycanın rəhbəri olaraq, ömür kitabının yeni səhifəsini, vətənin varlığı ilə qovuşmuş səhifəsini başlamalı idi. Səsində tərəddüd və inamsızlıqdan əsər-əlamət yox idi. Gəmi kapitanı ycrinə qayıtmışdı. Nə etmək lazım olduğunu bilirdi, seçiləcək yolu görürdü. Belə şəxsiyyətlər haqqında deyirlər ki, onlan hakimiyyət qidalandrır. Bu, həqiqət olsa da, düzəlişə ehtiyacı var. Hakimiyyət o zaman siyasətçiyə güc və təpər verir ki, onun dözümü, zəngin bilik ehtiyatı, intellektual potensialı olsun. Cılız hisslərə, təmənnalı niyyətlərə qapılan, yaxud səriştəsi ilə iddiası, amalı ilə əməli uyğun gəlməyən ixtiyar sahibi uğursuzluğa məhkumdur.

Azərbaycanda baş verən hadisələri dünyanın bir çox paytaxtlarında diqqətlə izləyirdilər. Heydər Əliyevin qəbuluna bir-birinin ardınca səfirlər təşrif buyurur, aparıcı qəzet və jurnalların baş redaktorları, müxbirləri, müxtəlif ölkələrin televiziya və radio şirkətlərinin nümayəndələri onunla

görüşə can atırdılar. Çoxsaylı müşahidəçilərdən rus yazıçısı Aleksandr Proxanovun təəssüratını xatırladırıq.

"Mən Bakıya gəldim və hakimiyyət texnologiyasıyla məşğul olan Heydər Əliyevlə üç gün görüşə bilmədim. Məclisin sessiyası gedirdi. Gəncə hadisələrini araşdıran komissiyanın məruzəsi dinlənirdi. Əliyev sədrlik edirdi. Televiziyada onun hərəkətlərini müşahidə edirdim. Kürsüyə, qan tökülməsinin səbəbkarları, il yarım televiziya ekranlarından düşməyən, öyrədən, dil tökən, ifşa edəd, damğalayan dünənki kumirlər, söz qəhrəmanları qalxırdılar. İndi onlar özlərini itirmiş və çox məyusdular. Kəkələyir, mızıldayır, zorla, şahidlərin təzyiqi altında günahlarını boyunlarına alırdılar. Baş günahkarın – Elçibəyin adını çəkirdilər.

Əliyev, mahir psixoloq olaraq, hər kəsi özünüifşaya gətirib çıxarır, hər kəsdən hakimlik potensialını alır, səviyyəsini aşağı salır, hakimlik mifindən məhrum edir, məddah televiziyanın yaratdığı surəti faş edirdi. O, bu kəsləri iqtidar mərkəzilə bağlayan telləri bir-bir qırır, bu telləri öz üzərinə qapayırdı, çünki indi bu mərkəzdə duran özüydü, dağılmış idarəetmənin ilk kövrək strukturunu qururdu. Necə çətin bir şəraitdə işlədiyi, yetmiş yaşlı siyasətçidən necə səbr və təmkin tələb olunduğu görünürdü.

Bu məqamda onu mütəhərrik edən qalibanəlik, revanş hissi yox, vurulmuş, alovlanan təyyarənin sükanını ələ almış pilotun sərrast ölçülüb-biçilmiş səriştəsi idi.

Dörd əsas "cəbhəçi" – az əvvəl Ali Sovetin sədri İsa Qəmbərov, baş nazir Pənah Hüseynov, DİN və təhlükəsizlik xidmətinin məmurları həbs edilmişdi...

Hakimiyyət sürətlə dəyişirdi... Bezikmiş, ruhdan düşmüş, ümidlərini itirmiş, təsadüflərin ardınca sürünən cəmiyyətin özü də dəyişirdi".

Əliyev Proxanovu gecə vaxtı, hələ də tərk etmədiyi iş yerində, Ali Sovetin sədrinə mənsub olan kabinetdə qəbul etdi.

"Onun arxasında respublika dövlət bayrağı dururdu. Masa üzərində isə qızılı naxışlı Quran surələrindən ibarət

kəlamlar vardı. Burdaca, üzərində Sovet Sosialist Respublikaları İttifaqının gerbi ilə bəzənmiş şirmayı rəngli hökumət telefonları düzülmüşdü.

Bilirdim ki, bir həftədir gündə dörd saatdan artıq yatmır. Qarşıma çıxan çevik cüssəli adamın yorğunluğundan əsər-əlamət sezilmirdi. Əl tutanda quru ovucu ilıq və möhkəm idi. Günəşdən yanmış uzunsov üzü qoca sifətinə oxşamırdı. Əynində gözəl biçimli kostyum. Məmurlara xas olmayan, quru rəsmilikdən xali, yaraşıqlı qalstuku iri düyünlə bağlanmışdı. Gözləri parlaq, iti, cəld hərəkətli, bir an içində alışan zəhmli baxışları. Bütün görkəmində artistizm – müsahibin kimliyini dərhal aşkarlamaq, onun ovqatını və niyyətlərini ayırd etmək fəhmi duyulurdu. Bir də kabinetindən tütün iyi yox, çətin sezilə biləcək zərif, bahalı odekalon ətri duyulurdu”.

Mənim müsahibəmdən bir neçə parça.

**“Aleksandr Proxanov:** Heydər Əliyeviç, indi artıq aydındır ki, Azərbaycanın ən yeni tarixində daha bir dövr başa çatmışdır. Xalq Cəbhəsinin il yarımlıq “şahlığı” sanki bir saat ərzində sona yetmişdir. O tüstü kimi sovuşub getdi. Siz bunu necə izah edirsiniz? Bu dövr Azərbaycan üçün nə demək idi?

**Heydər Əliyev:** Bu, respublikanın dağıdılması idi. Onlar hər şeyi – təsərrüfatı, əxlaqı, psixologiyanı – dağıtmışdılar. Ən dəhşətlisi – insanlar işləməkdən əl çəkmişdilər. İşləmək imkanının özü yoxa çıxmışdı. Siz bilirsiniz, Lənkəranda, boş çöllərdə, biyabanlıqda biz gözəl tərəvəz plantasiyaları yaratmışdıq. Bunlar “ümumittifaq bostan”ı adlandırılırdı. Orada tez yetişən əla pomidor, xiyar, bostan bitkiləri becərilirdi, bütün bunlar Norilsko, Urala, Moskvaya göndərilirdi. Respublika nəhəng gəlir, Rusiyanın sənaye mərkəzlərisə əla tərəvəz alırdılar. Yadımdadır, Finlandiya Prezidenti Urxo Kekkonen bu yerlərə istirahətə gəlmiş və plantasiyalara baxıb valeh olmuşdu. Hanı onlar? Hər şey atılıb qalıb, yenə çöllük, biyabanlıq. Adamlar da işsiz...

Yaxud – üzüm. Aleksey Nikolayeviç Kosıgin üzümçülərə çox kömək edirdi. Biz Azərbaycan üzrə üzüm yığımını ildə 2 milyon tona çatdırdıq. Abşeronun şanı üzümü bildiyim növlərdən ən şirinidir. Abşeronda quru, qızmar qumsal torpaqlar var, meynə bu qızmar torpaqlara döşənir və onların hərarətini, şirəsini içir. Hər şey tələf oldu! Bu il biz olsa-olsa, 400 min ton üzüm yığacağıq...

İnsanlar işləməyi yadırğayıb, dolanmaq üçün xırda alverə qurşanıblar. İran yaxın, Türkiyə yaxın. Hansısa xarab bir malı xırda-xırda hissələrlə alıb satırlar. Amma hasil etmirlər! Sumqayıt kimya kombinatı yarı gücü ilə işləyir! Neft hasilatı kəskin şəkildə aşağı düşüb!.. Hakimiyyətə gələnlər nə təsərrüfatçı, nə idarəçi, nə də siyasətçidirlər! Kiçik elmi işçilər, yazıçılardı.

Onlar dövlətin nə olduğunu anlamırlar! Özü də azadlıq, haqq-ədalət sözlərindən başlayıb kütləvi oğurluqla qurtardılar! Xalq onlardan cana doyub! Yalnız bahalı "Mersedes"lərdə cövlan edib elə hey qırıldadırlar! Əxlaqsız çoxdur, aşkar oğrular çoxdur!..

Və əlbəttə, Qarabağ! Onlar bu müharibəni udmadılar, münaqişəni siyasi yolla söndürmədilər! Biz çoxsaylı kəndləri, çox torpaqları itirdik! Dünən bir kolxoz sədri yanıma gəlmişdi. "Əlbəttə, – deyir, – dəhşətdir ki, biz orada minlərlə mal-qara, min hektarlarla torpaq itirdik, amma ən dəhşətlisi odur ki, atalarımızın qəbirlərini itirmişik! O qəbirlərin üstündə düşmən öz qələbəsini bayram eləyir!"

**Aleksandr Proxanov:** Bəs indən belə necə hərəkət etməli? Ölkə talan olub, cəmiyyət parçalanıb, ruhdan düşüb. Hansı ideya xalqı birləşdirəcək? Hansı fəlsəfə, hansı ideologiya üzülmüş cəmiyyəti birləşdirəcək? Siz yaxın keçmişdə kommunist ideologiyasının daşıyıcısıydınız, lakin artıq o yoxdur. İndisə Xalq Cəbhəsinin hallandırdığı liberal ideya süquta uğradı. Bəs insanlar tərəfindən hansı ideya qəbul ediləcək?

**Heydər Əliyev:** Yalnız milli barışıq ideyası, ayrı heç bir ideya yox! Daha fərqi yoxdur – sən hansı partiyaya mənsub-

san, neçə yaşın var, hal-əhvalın necədir. Bizi dəhşətli bəlanın kandarından yalnız ümummilli barışıq uzaqlaşdıra bilər. Bunu xalq başa düşür, hərbçilər, kommersantlar, müəssisə direktorları başa düşürlər. Biz heç kəsi təqib etməyəcək, gözümçıxdıya salmayacağıq. Əgər sən liberalsansa, əgər sən Xalq Cəbhəsinin üzvüsənsə, səni heç kəs təqib etməyəcək, sənə gözün üstə qaşın var, deməyəcəklər. Xalqa xidmət elə, xalqın yolunda özünü fəda elə. Bax, budur ideya, budur fəlsəfə! Belə düşünürəm ki, bu ideologiyanı ədəbiyyat və incəsənət xadimləri, din xadimləri formalaşdıracaqlar!

**Aleksandr Proxanov:** Bəs rəsmi Rusiya Bakıda baş vermiş hadisələrə, Sizin siyasətə qayıtmağınıza necə münasibət göstərdi?

**Heydər Əliyev:** Hələlik heç cür. Təkcə Ruslan Xasbulatov məni Ali Sovetin sədri seçilməyim münasibətilə təbrik edib. Rəsmi Moskva susur. Xalq Cəbhəsi Rusiya əleyhinə siyasət aparır, hər şey cdirdi ki, Rusiya ilə Azərbaycan yaxınlaşmasınlar. Deyəsən, bu, Moskvanı da qane edirdi. Siz Rusiyaya olan münasibətimi bilirsiniz. Azərbaycan Rusiya ilə iqtisadi, mədəni, coğrafı, siyasi cəhətdən bağlıdır. Biz sadəcə qonşu deyilik, bizim eyni tariximiz var. Təkrar edirəm: Rusiya ilə bugünkü münasibətlər məni razı salmır, lakin mən qəti əminəm ki, münasibətlərimiz hökmən inkişaf etdiriləcəkdir".

90-cı illərin əvvəllərində Azərbaycanın siyasi üfüqlərində ulduzu parlayan, sonralar isə tezliklə soluxub batan bir şəxsiyyət haqqında söz açmaq ümumi mənzərəni tamamlamaq baxımından yerinə düşərdi.

Surət Hüseynov əvvəllər, sovet illərində mühəndis olmuş, yun emalı fabrikinə başçılıq etmişdi. Ermənistanla müharibə başlayanda özünün söylədiyinə görə, "cəbhəyə əlindən gələn yardımı göstərmişdi. Tədricən hərbi işlərdən başqa bütün işlərini atmışdır". Rusiyada vətəndaş müharibəsi tarixilə tanış olan oxucular oxşar taleləri də xatırlaya bilərlər. Məsələn, gah ağlar, gah qırmızılar tərəfində, gah da öz məqsədlərinə görə vuruşan Nester Maxnonun qoşunları

yada düşür. Surəti döyüş meydanında görənlərin fıkrincə, o, rəşadətlə vuruşurmuş. Ona polkovnik rütbəsi verilir; Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülür; Elçibəy onu Qarabağda özünün şəxsi nümayəndəsi, korpus komandiri təyin edir. Komandirin tabeliyində, nizami qoşun hissələrindən başqa, "şəxsi ehtiyat qüvvələri" də vardı.

Onların köməyilə iddialı polkovnik nəyə nail olmaq istəyirmiş? Öz şəxsi niyyətləri haqqında birbaşa verilən sualları o, dolayısı ilə cavablandırırdı. 1993-cü ildə, iyunun sonunda Gəncə hadisələrindən sonra jurnalist Elmira Axundova ilə müsahibəsində olduğu kimi.

– İndi vəzifə bölüşdürmək vaxtı deyil. İndi bütün nüfuzlu siyasi qüvvələr və liderlər birləşməli və müharibəyə tezliklə necə son qoymaq, xalqın həyat səviyyəsini qaldırmaq haqqında birgə düşünməlidirlər. Məni ən çox narahat edən bu iki problemdir. Xalq, düşünürəm ki, artıq kimin kim olduğunu ayırd edib. Boş söhbətlərdən işə keçməyin vaxtı çatıb. Kim xalqa, cəbhəyə kömək etməyə qadirdisə, o da ön plana çıxmalıdır.

İnadkar jurnalist xanım soruşur ki, bəs indi nə etmək lazımdır? Yeni prezident seçməkmi? Ya bu vəzifəni qeyri-stabillik doğuran amil kimi ləğv etməkmi?

Açıq rəngli, əla tikilmiş kostyum geymiş cavan siyasətçi, əlində təsbeh dənələrini çözələyə-çözələyə xoşladığı fikri təkrarlayır ki, vəzifə bölüşdürmək vaxtı deyil. Çıxış yolu millətin bütün qeyrətli oğullarının səylərini birləşdirməkdədir.

– Bəs siz özünüzə yeni iqtidar strukturlannda hansı rolu ayırırsınız?

– Mən xalqın iradəsinə uyğun olaraq hərəkət edəcəm. Əgər xalq istəsə, özü məni irəli çəkəcək. Və mən onun istəyinə tabe olacam.

A.Proxanovun suallarını cavablandıran Surət Hüseynov Xalq Cəbhəsinin çiy hərəkətləri və səhvlərindən danışır: "Cəbhə hakimiyyətə miskin bir komanda gətirdi. Onlar heç nə bacarmır, yalnız talançılıq edirdilər. Və yalan satır, rüşvət

alır, çirkin siyasət aparırdılar”. Qiyamçı polkovnikin sözünə görə, bu rüşvətxorlar diktaturası, mafiya diktaturası idi.

Heydər Əliyev haqqında çox ehtiramla danışır: “Dünyagörmüş insan, böyük təcrübəyə malik müdrik siyasətçidir. Mən nisbətən cavan adamam, gələcəyi fəhmən duyuram, zənnimcə, biz bir-birimizi tamamlayacağıq”.

... Hakimiyyətə qayıdandan sonra Heydər Əliyevin ilk sərəncamlarından biri xarici şirkətlərlə müqavilələrin dayandırılması oldu. “İzvestiya” qəzetinin yazdığı kimi, bu addım “dünyanın bəzi ən böyük neft şirkətlərini şoka saldı». Lakin Əliyev özü belə hesab etmirdi. O, 1993-cü ilin avqustunda öz mövqeyini açıqlayaraq, deyirdi:

– Burada heç bir sirr yoxdur. Bəli, mən Nazirlər Kabinetinə bu prosesi dayandırmaq barədə göstəriş vermişəm, xüsusən ona görə ki, orada hələ hər şey bəyannamə səviyyəsindədir, onsuz da qarşıda hökumət və parlamentdə sənədlər üzərində iş aparılmalıdır. Məsələ bundadır ki, mən bu problemlərdə naşı deyiləm. Azərbaycanın rəhbəri olarkən onlara yetərincə dərindən nüfuz edirdim. Burada isə bir çox məsələlər mənə dərhal şübhəli göründü. Özünüz müşahidə edin. İyunun 6-da Pənah Hüseynov baş nazir vəzifəsindən istefaya çıxır, iyunun 11-də isə bəyannaməni imzalamağa icazə verən hökumət qərarına qol çəkir; iyunun 12-də Dövlət Neft Şirkətinə başçılıq etmiş Xalq Cəbhəsindən olan Sabit Bağırov bəyannaməni imzalayır. Lakin bir neçə gündən sonra, mən Ali Sovetin sədri olan kimi, mənim yanıma Nazirlər Kabinetindən gəlib bildirdilər ki, bu sazişlərlə bağlı nəsə natəmizlik var.

Elə ondaca mən bu işin dayandırılmasına sərəncam verdim. Bax, buna görə də xaricdə hay-küy qalxdı. Dərhal AMOKO şirkətinin prezidenti, ardınca «Britiş petrolium»un aparıcı əməkdaşları yanıma gəldilər. Mən hər şeyi izah etdim: heç bir qorxulu şey olmamışdır. Yalnız araşdırma aparmaq lazımdır. Əgər hər şey təmizdirsə, daha niyə siz həyəcanlanasınız? Axı, bu elə məsələ deyil ki, əvvəl bir cürə həll edib, sonra da başqa cürə həll edəsən. Neft Azərbaycanın

milli sərvəti olaraq qalır və o yalnız bizim nəslimizə deyil, 100-200 ildən sonrakı nəsillərə də lazım olacaq. Lakin elə variantlar da var ki, bizim tərəfdaşlarımız 10-15 ilə yataqların «axırına çıxıb» sonraya heç nə qoymaya bilərlər. Yeri gəlmişkən, belə tədbirli variantlar hesabına kimlərinsə faydalanmaq və ciblərini doldurmaq niyyətində olduqlarını güman etməyə ciddi əsaslar var.

Yeri gəlmişkən, onu da qeyd edək ki, çağdaş Rusiyada da məhz belə hallar baş verir. Burada akademik Prirmakovun mülahizəsinə görə, «yataqların ən məhsuldar sahələrində seçimli neftçıxarma praktikası davam edir. Hesab etmək olar ki, təbii ehtiyatların tükənməsi və neft buruqları fondunun ixtisar olunması prosesləri üzərində dövlət öz nəzarətini itirmişdir»[1]. Azərbaycanda, Əliyevin səyləri sayəsində, belə vəziyyətin yaranmasına yol verilmədi.

Gündəlik işlər sıralanırdı. Ümdə qayğı kadrlar məsələsi idi. Əliyev özü hələ heç kəsi vəzifəyə təyin edə bilməzdi – təqdim etdiyi hər namizədə parlamentin razılığı gərək idi. İyulun 3-də milli təhlükəsizlik, daxili işlər nazirləri, baş prokuror, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı təyin olundular... «Kadr məsələlərini» Heydər Əliyev iş gününün axırına planlaşdırırdı, bu minvalla onun işi adətən axşama, bəzən də gecə vaxtına qədər uzanırdı. Gecəyə qədər davam edən bu söhbətlərdə Heydər Əliyev komandasına yeni cavanları da cəlb edir və lazım bildiyini ayırıb seçirdi.

Onların sıralarında vaxtilə Moskvaya təhsilini davam etdirməyə göndərdiyi ziyalılar da, o cümlədən fizika-riyaziyyat elmləri doktoru Fatma Abdullazadə də vardı.

Bəs Xalq Cəbhəsinin irəli sürdüyü təmsilçiləri necə? Başlarını aşağı salıb kirimişcə oturdularmı? Elə şey olar?! Bakı rayonlarının on bir rəhbərindən doqquzu «Elçibəyin prezident səlahiyyətlərindən məhrum edilməsinə qarşı etiraz

---

[1] «Rossiyskaya qazeta», 15 yanvar 2005

əlaməti olaraq öz fəaliyyətlərinin dondurulmasını» elan etdilər. Necə deyərlər, Allah amanında! Onlar yeni adamlarla əvəz olundular.

1993-cü il iyulun 4-də Heydər Əliyev «Ostankino» (hazırda Rusiya TV-nin Birinci kanalı) teleşirkətinə geniş müsahibə verdi. Ölkənin vəziyyəti haqqında sualı cavablandıraraq, o söylədi: «Respublikamızı ciddi təhdid edən vətəndaş müharibəsinin qarşısı alındı, qarşıdurma müəyyən dərəcədə zəiflədi. Buna baxmayaraq, vəziyyət hələ də mürəkkəb olaraq qalır, bu çətinliklər son üç gün ərzində Azərbaycan ərazisinə qarşı erməni hərbi qüvvələrinin genişlənən hücumu ilə kəskinləşir».

Həmin yay Moskvada da qarşıdurma gərginləşməkdə idi. Boris Yeltsin sabiq silahdaşı Ruslan Xasbulatovun başçılıq etdiyi «dikbaş» parlamenti dağıtmağa hazırlaşırdı... Moskva müxbirləri yaralı yerə duz səpməkdən çəkinmirdilər:

*– Cənab Əliyev, Sizin hakimiyyətə qayıdışınızı bir çox müşahidəçilər «Qeyri-konstitusion» kimi dəyərləndirmişlər. Lütfən söyləyin, Sizin fıkrinizcə, siyasətdə elə məqsədlər varmı ki, onlann naminə qanunla hesablaşmamaq mümkün olsun? Və bununla bağlı ikinci sual: Prezident Əbülfəz Elçibəyin aqibəti necə oldu, bu gün onunla bağlı nə baş verir və perspektivlər necədir; o, özünün istefası ilə razılaşacaqmı?*

– Əvvəla, mən deməliyəm ki, tutduğum vəzifəyə gəlməyimi qeyri-konstitusion saymıram, – deyə Heydər Əliyev təmkinini pozmadan cavab verir. – İyunun on beşində bir çox parlament deputatının, eləcə də Prezident Əbülfəz Elçibəyin özünün zəmanətilə mən Azərbaycan Ali Sovetinin sədri seçilmişəm. Bu, tamamilə konstitusion qərardır. Bundan bir neçə gün əvvəl, sizə məlum olduğu kimi, Ali Sovetin sədri İsa Qəmbərov istefa vermişdir... Ikincisi, hakimiyyətə gəlməmişdən məni təkidlə dilə tuturdular, Gəncə hadisələrindən sonra bir neçə gün ərzində Azərbaycan əhalisinin müxtəlif qruplarının, ziyalıların təmsilçiləri, nüfuzlu ağsaqqallar mənə müraciət ünvanlamışdılar. Azərbaycanın

Prezidenti Əbülfəz Elçibəy də mənə israrla müraciət etmişdir. O, üç dəfə – iyunun 7, 8, 9-da Naxçıvana xüsusi təyyarə göndərmiş və telefon danışıqlarında təkidlə Bakıya gəlməyimi xahiş etdi. Mən ayın 7-də də, 8-də də imtina etmişdim. Nəhayət, iyunun 9-da, vəziyyətin getdikcə kəskinləşəcəyini duyaraq, bu dəvəti qəbul etdim və Bakıya gəldim.

Burada mən Əbülfəz Elçibəylə və digər siyasi xadimlərlə birlikdə gərgin vəziyyətin sovuşdurulmasında iştirak etdim və iyunun 15-də, təkrar edirəm, parlamentin sədri seçildim. Burada antikonstitusion, hüquqazidd olan heç bir şey yoxdur. O ki qaldı iyunun 24-dən etibarən prezident səlahiyyətlərinin mənim öhdəmə qoyulmasına, bu, izah oluna bilər,

Prezident Əbülfəz Elçibəy iyunun 17-dən 18-nə keçən gecə gizlin olaraq, heç kimə, o cümlədən mənə də xəbər vermədən, baxmayaraq ki, uçuşuna bir saat qalmış biz bir yerdəydik, Bakıdan uçub getmişdir. Yalnız səhərə yaxın bizə məlum oldu ki, onun təyyarəsi Naxçıvanda yerə enmiş, Prezident oradan Xalq Cəbhəsi üzvləri tərəfindən indiyədək qaldığı dağ kəndi Kələkiyə aparılmışdır.

İyunun 18-dən 24-dək mən Əbülfəz Elçibəylə daima telefon danışıqları aparmışam, oraya mənim təşəbbüsümlə Azərbaycan Elmlər Akademiyasının prezidenti başda olmaqla ziyalıların nümayəndələrinin böyük bir dəstəsi – akademiklər, professorlar, yazıçılar, ağsaqqallar – yollanmışlar.

Onlar Elçibəylə görüşmüş, Bakıya qayıtması üçün ona dil-ağız etmişlər. Mən onu təkidlə dəvət edirdim. O, dəvətimizi qəbul etmədi, razılıq vermədi və indiyədək Kələki kəndində qalmaqdadır. Və özü də Prezident səlahiyyətlərinin, demək olar hamısının – yalnız vətəndaşlığa qəbul edilməsini və qanunların imzalanmasını özünə saxlayaraq, – Ali Sovet sədrinə həvalə edilməsi haqqında fərman çıxarmışdır...

...Eyni zamanda, bu vəziyyət bir neçə gün dalbadal Azərbaycan parlamentinin[1] iclasında müzakirə olunmuş və parlament üzvləri mənə bu səlahiyyətləri öhdəmə götürməyi təkidlə təklif etmişlər. Mən razılıq vermirdim, lakin Əbülfəz Elçibəy özü[2] belə bir fərman imzaladıqdan sonra razı oldum. Respublika əslində demək olar ki, idarə olunmurdu, çünki Prezident yox, baş nazir yox idi (o çoxdan istefaya getmişdi), mən tək qalmışdım, bir çox məsələləri isə Prezident səlahiyyətlərini icra edərkən həll etmək olardı. Bax, belə bir vəziyyətdə bu vəzifələri öz öhdəmə götürdüm. Təkrar edirəm, mən buna can atmırdım, mən bunu istəmirdim. Və Əbülfəz Elçibəy buraya qayıtsa, o öz Prezident vəzifəsini icra edə bilər.

O ki qaldı ikinci suala, Əbülfəz Elçibəyin taleyinin necəliyinə, o, Kələki kəndində yaşamaqda davam edir, onu Xalq Cəbhəsindən olan bir qrup silahlı şəxs mühafizə edir. O, indi də oradadır, zənnimcə, heç nə ilə məşğul olmur. Bəlkə, istirahət edir, ya nəsə edir, mənə məlum deyil.

– *Siz Elçibəyin komandasına, özünə və onun kursuna qarşı sərt müxalifətdə qərarlaşmışdınız. Bəs Elçibəy Sizi Ali Sovetin sədrliyinə dəvət edəndə nəyə ümid bəsləyirdi və Sizi buna razılıq verməyə nə təhrik etmişdi?*

– Siz sualı bir qədər düzgün formalaşdırmırsınız. Mən Əbülfəz Elçibəyə sərt müxalifətdə və ümumiyyətlə, müxalifətdə olmamışam. Mən sadəcə Naxçıvanda yaşayır, Ali Məclis sədri vəzifəsini icra edirdim. Əbülfəz Elçibəylə hərdənbir telefon danışıqlarım olurdu. Əlbəttə, Əbülfəz Elçibəy Prezident olaraq, blokada ilə bağlı ağır vəziyyətdə qalmış və bu gün də qalan Naxçıvan Muxtar Respublikasına lazımi diqqət yetirmirdi. Və əlbəttə, mənə də Ali Məclisin sədri kimi lazımi diqqət göstərmirdi. Odur ki, bizim münasibətlərimiz, əslində, hansısa sərt qarşıdurma ilə deyil, belə

---

[1] Yəni: Milli Məclisinin

[2] Məlumatlı oxucuya aydındır ki, söhbət H.Əliyevin öz təşəbbüsü olmamasından gedir (müəlliflər).

tərzdə səciyyələnirdi. (Hansısa səbəblərə görə bəlkə də hələ hüquqi baxımdan ölkə prezidenti vəzifəsini daşıyan şəxsin hörmətini saxlayaraq, Heydər Əliyev Rusiya televiziya tamaşaçılarına Elçibəylə münasibətlərinin bütün incəliklərini ağartmamışdı. Deməmişdi ki, Naxçıvanda Xalq Cəbhəsi DİN və televiziya binasını zəbt edəndə Elçibəyə zəng çalmış, Prezident müdaxilə edəcəyinə söz vermiş, sonralar isə onun çevriliş cəhdindən xəbərdar olduğu aşkarlanmışdır...

1993-cü ilin fevral ayında Heydər Əliyev Naxçıvandan Bakıya, böyük qardaşı Həsənin dəfninə gəlmişdi. Hüzr yerində ilk dəfə Əbülfəz Elçibəylə şəxsən görüşmüş və Prezident belə kədərli hadisəyə münasib səmimi sözlər izhar etmiş, başsağlığı vermiş, xüsusi diqqət yetirdiyini nümayiş etdirmişdi.)

– Biz onunla görüşdük, – deyə Əliyev epizodun ardını söyləyir, – olduqca çox məsələləri müzakirə etdik, deyəsən, bir çox məsələlərdə anlaşma tapırdıq. Mən ona öz məsləhətlərimi də, arzularımı da, tövsiyələrimi də söylədim. Elçibəy onlardan faydalana da, faydalanmaya da bilərdi – bu, öz işi idi və bundan sonra da münasibətlərimiz normal idi. Burada belə bir mövqedən çıxış etmək lazımdır ki, sualın birinci qoyuluşu – guya bizim aramızda kəskin qarşıdurma olub – bu düz deyil, o olmayıb.

Əbülfəz Elçibəy məni Bakıya dəvət edərkən nəyə ümid bəsləyirdi?.. Azərbaycanda vəziyyət olduqca mürəkkəbləşəndə, artıq dediyim kimi, bir çox bölgələrdən və əhalinin bir çox təbəqələrinin nümayəndələri arasından «Əliyev dəvət olunmalıdır» səsləri yayılanda, görünür, Əbülfəz Elçibəy burada, bu çətin şəraitdə mənim köməyimin zəruri olması fıkrinə gəlibmiş. Telefonla mənə zəng vuranda da o bunu belə izah edirdi: vəziyyət mürəkkəbdir, xahiş edirəm Bakıya gələsiniz, gəlin, vəziyyəti birlikdə müzakirə edək və çıxış yolu tapaq...

1993-cü il avqustun 29-da Azərbaycanda Respublika Prezidenti Əbülfəz Elçibəyə etimad haqqında referendum keçi-

rildi. Cəmi il yarım əvvəl o, bir milyon səkkiz yüz mindən artıq səs toplamışdı; seçicilərin altmış faizi hamıya firavanlıq vəd edən tarixçi alimə inanmışdı.

Bu etimad kapitalını, göydəndüşmə sərvəti sovurub talan etməkçün nə qədər səy göstərmək gərəkmiş? İndi isə Elçibəyə etimad göstərilməsinin lehinə yalnız 77 min nəfər səs verdi. Azərbaycan mifologiyasında uğurlu sayılan «yeddilər» burada «nəhs» çıxdı. 3673978 nəfər ona etimad göstərməkdən imtina etdi, hakimiyyətinə «yox» dedi. Azərbaycan xalqı öz seçimini bildirdi.

Məşhur qazax şairi, yazıçı və ictimai xadim Oljas Süleymenovun maraqlı şahidliyi bu hadisələrə güzgü tutur:

«1993-cü il iyunun 1-də, Uşaqların Beynəlxalq Müdafiəsi Günündə, mən Bakıya humanitar yardım – 40 ton uşaq qidası gətirdim. Bizim yük daşıyan İL-76 təyyarəsinin bortunda «Uşaqların günahı yoxdur» şüarını yazdırdıq. Mən diqqət yetirirdim ki, uşaq qidası olan bütün bankalar ünvanına – uşaq xəstəxanalarına, uşaq evlərinə çatdırılsın. Bu işdə mənə dostlarım Elçin, Anar, Polad Bülbüloğlu, Fərhad Bədəlbəyli kömək etdilər.

Elçibəylə onun iqamətgahında görüşdüm. Onu bir neçə il idi ki, tanıyırdım. Dinc zamanlarda da, bir filoloq kimi, 90-cı ilin yanvarında da, Xalq Cəbhəsinin rəhbərlərindən biri kimi, görüşmüşdüm. O vaxt Y.Primakovun və A.Mütəllibovun qarşısında çıxış edərək onu müdafiə etdim. Bakıda Sovet Sosialist Respublikaları İttifaqı Ali Sovetindən yeganə müşahidəçi olduğum üçün mənim rəyim nəzərə alınırdı.

Lakin Prezidentlə Uşaqların Beynəlxalq Müdafiəsi Günü görüşüm və söhbətim xüsusən yadımda qaldı. Yapışıqlı, ziyalı bir insan olsa da, rəhbər deyil. Siyasətçi də deyil. Qısa müddətdə iki böyük qonşu – Rusiya və İranla münasibətləri korlamışdı. Və onları heç vəchlə bərpa etmək niyyətində deyildi.

Mən əminəm ki, həmin iyun ayında bir neçə gündən sonra xalq Heydər Əliyevi çağırmasaydı, ölkə qat-qat çox in-

san həyatı və əraziləri itirə bilərdi. BMT və Qərbin azman demokratik dövlətlərinin vecsizliyi ilə o zaman Tacikistanda da qırğın törədilir, Yuqoslaviyanın, Gürcüstanın, Moldaviyanın da qanlı parçalanması baş verirdi...»

Həmin aylarda xəbərlər buraxılışı cəbhə məlumatlarıyla başlayırdı. Azərbaycanın ordu hissələri mətanətlə öz mövqelərini müdafiə edirdilər. Vəziyyətin son dərəcə kəskinləşdiyi Ermənistan-Azərbaycan münaqişəsi zonasına Surət Hüseynovun hissələri yollanmışdı, – deyə rəsmi məlumatların birində xəbər verilirdi.

Heydər Əliyev ABŞ Prezidenti Bill Klintona, vitse-prezident Albert Qora, Konqresin spikeri Tomas Foliyə açıq məktubla müraciət etdi:

«Hazırda məktubla sizlərə müraciət etdiyim məqamda erməni silahlı qüvvələri Azərbaycanın yeni, Cəbrayıl və Qubadlı rayonlarını zəbt etmək üçün hücumlarını davam etdirir, yeni-yeni yaşayış məntəqələri işğal olunur, yandırılır və vəhşicəsinə qarətə məruz qalırlar.

Demokratiya və azadlıq ideyaları, insan hüquqlarına hörmət və insanın başlıca yaşamaq haqqı naminə sizdən qan tökülməsinin qarşısını almaq və özünün günahı olmadan barbarcasına təcavüz qarşısında aciz qalan Azərbaycan xalqının qorunması üçün əlinizdən gələni etməyinizi rica edirəm».

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən H.Əliyevin ilk fərmanı Moskvaya səfir təyin edilməsi haqqında oldu. O, Ramiz Rizayevin iti zəkasını, təşəbbüskarlığını, dialoqa hazırlığını, diplomat üçün heç də faydasız olmayan qeyri-standart vəziyyətlərdə qətiyyətini dəyərləndirərək onu bu məsul vəzifəyə layiq gördü.

Gecə yarısı hələ də kabinetini tərk etməmiş Əliyev yeni səfirə uğurlar arzuladı:

– Bu işi indi səndən başqa heç kimə həvalə edə bilmərəm. Bu, çox mühüm bir sahədir. İki aylığa oraya getməyini xahiş edirəm. Institutu təhvil vermə. Əminəm ki, öhdəsindən gələcəksən.

Sentyabrın 5-də H.Əliyev Rusiya Federasiyasının rəhbərliyilə danışıqlar aparmaq üçün Moskvaya uçur. Dördgünlük səfər ərzində Prezident Yeltsinlə, Ali Sovetin sədri Ruslan Xasbulatovla, Baş nazir Viktor Çernomırdinlə, Moskvanın meri Yuri Lujkovla görüşür.

Danışıqlara yekun vuraraq, Heydər Əliyev bildirir:

– İndiki təmaslar respublikanın əvvəlki rəhbərliyinin yanlışlıqları və səhvləri ucbatından ikitərəfli münasibətləri əngəlləyən etimadsızlıq buzunu qırmağa imkan verdi. Azərbaycan – Rusiya əlaqələrində belə bir dönüş tarixi inkişafın məntiqilə diqtə olunmur, çünki iki əsr ərzində bu iki dövləti bir-birinə sıx əməkdaşlıq əlaqələri bağlamışdır və onları qırmaq olmaz.

Yeri gəlmişkən, «Tapşırılan mövzuda etiraf» kitabını yenidən nəşr etdirərkən, Boris Yeltsin Əliyevə aid incikli və haqsız mülahizələrini mətndən çıxartmışdır.

Səfirin Rusiyaya iki aylıq ezamiyyəti on üç il davam etdi. R.Rizayev səfir kimi Azərbaycan Respublikasını Rusiyada uğurla təmsil etdi. 2005-ci ildə veteran diplomatın yerini səfir vəzifəsində görkəmli mədəniyyət xadimi, Sovet Sosialist Respublikaları İttifaqı xalq artisti Polad Bülbüloğlu tutdu.

## Separatçılar susduruldu

Respublikada vəziyyəti gərginləşdirən amillərdən biri də Gəncə hadisələri səngiməmiş, müəyyən mafioz qüvvələr tərəfindən cənub bölgəsində məqsədli şəkildə qızışdırılan separatçılıq meyilləri idi. Xalq Cəbhəsinin hakimiyyəti dövründə Qarabağın müdafıəsi naminə yaradılmış Lənkəranın könüllü silahlı dəstələri 1993-cü ilin iyulunda cəbhə xəttindən çıxarılaraq Lənkəran bölgəsinə aparılmışdı. Silahlı dəstələrə və separatçı qüvvələrə rəhbərlik edən Ə.Hümbətov bütün bölgəni təzyiq altında saxlayırdı. Onun qanunsuz əmrləri ilə yaradılmış silahlı dəstələr bu regionun qanuni dövlət qurumlarının fəaliyyətini iflic etmişdi. Xalq Cəbhəsi

hakimiyyətindən, onun rəhbər kadrlarının bölgədə həyata keçirdikləri amansız polis basqınlarından məharətlə istifadə edən separatçılar Heydər Əliyev hakimiyyətə gələndən sonra sürətlə öz nüfuzlarını itirməyə başladılar.

1993-cü il avqustun 13-də Ali Sovetin sədri, prezident səlahiyyətlərini həyata keçirən Heydər Əliyev Biləsuvar, Cəlilabad, Lerik, Lənkəran, Astara və Yardımlı rayonlarından olan millət vəkilləri və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüş keçirdi. Hələ 70-ci illərdə Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə onun diqqət və qayğısını görmüş, müxtəlif vəzifələrə irəli çəkilmiş və özünü bu nəhəng siyasətçinin yetirmələrindən sayan Milli Məclisin deputatı Hadi Rəcəbli o görüşü indi də unutmur:

– Siyasət ustası bu görüşü regiondakı real vəziyyəti və ümumi əhval-ruhiyyəni öyrənmək üçün çağırmışdı, – deyə H.Rəcəbli danışır. – Çox diqqətlə hər birimizi dinlədikdən sonra mövqeyini açıqladı: «Siz bilirsiniz ki, 14 ilə yaxın Azərbaycana rəhbərlik etmişəm. Azərbaycanda birinci katib işlədiyim dövrdə respublikanın ən hörmətli bölgəsi Lənkəran zonası idi... Mən zona deyəndə, bütün o rayonları deyirəm, – oranın folkloru, mədəniyyəti, oranın ayrı-ayrı mədəniyyət nümunələri dünyanın böyük-böyük ölkələrində nümayiş etdirilirdi. O zaman biz Lənkəran teatrını yaratdıq».

Bu yığıncaqdan əvvəl avqustun 3-də Heydər Əliyevin xalqa, xüsusilə bölgə əhalisinə müraciəti oldu: «Ə.Hümbətov və onun ətrafındakı mafioz dəstələr öz çirkin niyyətlərini həyata keçirmək üçün bir məsələni ortaya atmışlar: guya Talış Muğan Respublikasını yaratmaq istəyirlər.

Azərbaycan Respublikasının o rayonlarında tarixən çox ziyalı, mötəbər adamlar yaşayıb. Bu rayonlar, xüsusən Lənkəran və onun ətrafında olan rayonlar Azərbaycanda ağayana bölgələr sayılıblar. Orada həmişə qanun-qayda, nizam-intizam olubdur və həm orada, həm də Azərbaycanın başqa yerlərində, xüsusən respublikanın paytaxtı Bakıda bu rayonlardan çox mötəbər adamlar yaşayır, yüksək dövlət

vəzifələri tutur, elmdə, təhsildə, mədəniyyətdə böyük rol oynayırlar...»

Onlardan birinə – Hadi Rəcəbliyə Heydər Əliyev çox məsul, həm də mürəkkəb bir işin icrasını tapşırdı. Hadi Rəcəbli 1993-cü ildə Ə.Hümbətovu icra hakimiyyəti binasından çıxarmaq, ona qarşı etiraz mitinqinə toplaşan lənkəranlıları qanlı silahlı toqquşmadan xilas etmək üçün Lənkərana yola düşdü. O, H.Əliyevin tapşırığın necə yerinə yetirdiyini belə xatırlayır:

– Mənə bəlli idi ki, Lənkəranda baş verən proseslərdən Heydər Əliyev bərk narahatdır.

1993-cü il avqustun 21-də A.Cəlilov mənə zəng çaldı və dedi ki, Heydər Əliyev Lənkərandan olan, Bakıda vəzifədə çalışan bir neçə şəxsi qəbul etmək, onlara tapşırıq vermək istəyir. Mən tez bir zamanda bu qrupu təşkil etdim. Biz bir yerdə onun qəbuluna getdik. Bu görüşdə cənub bölgəsində baş verən hadisələr müzakirə olundu. Ortaya çıxan bu ağır bəlanın aradan qaldırılması üçün təcili və ciddi tədbirlərin görülməsi planlaşdırıldı. Rəhbər bizə rayona getməyi, bu işlərin həllinə yerində kömək etməyi tapşırdı. Biz elə həmin gün gecə saat 4-də Lənkərana yola düşdük...

Ə.Hümbətov mitinqin başlanması ərəfəsində Bakıdan gələn, əslən yerli hörmətli şəxsləri də qəbul etmək istəmirdi. Bütün cəhdlərimiz boşa çıxırdı. Nəhayət, o, məni qəbul edəcəyi barədə bizə xəbər göndərdi. Bir qədər sonra mən və Milli Məclisin deputatı Tapdıq Kamalov onun «qəbuluna» düşə bildik. O bizə bildirdi ki, lənkəranlılar arasında mənə qarşı əks-təbliğat aparılır. Lənkəran əhalisi binanın qarşısındakı meydanda mitinq keçirmək istəyir. Mən buna imkan verməyəcəyəm. Silahlı mühafizəçilərim onların öhdəsindən asanlıqla gələcəklər.

Mən dedim ki, bunu eləmək olmaz. Dinc əhaliyə ediləcək silahlı həmlələr çox ağır nəticələr verə bilər. Bu insanlar yaşadığın torpağın övladlarıdır, səni, ətrafdakıları tanıyan adamlardır. Hələ biz onun otağında olarkən izdihamın güc-

lənməsi, silahlı əsgərlərin izdihamın önündə tab gətirə bilməmələri barədə ona tez-tez xəbərlər gəlirdi. O, əsəbi halda dedi: «Mən izdihamın qabağına tank çıxaracağam, nəyin bahasına olursa olsun onları geri oturdacağam».

Mən və Tapdıq Kamalov Ə.Hümbətovu binadan çıxarmağa, gələn ziyalılarla «Meşəçi» qonaq evində görüş keçirməyə çox böyük çətinliklə razı saldıq. Ə.Hümbətov 12 nəfər cangüdəni ilə birlikdə binadan çıxaraq həmin ünvana yönəldi. Elə bununla da məsələ həll olundu. Mitinq iştirakçıları icra hakimiyyətinin binasını silahlı dəstələrdən təmizləyib qanuni orqanın fəaliyyətini bərpa etdilər. Amma qansız ötüşmədi. Şəhidlər oldu.

Azərbaycan xalqının sarsılmaz birliyinə zərbə vura biləcək təhlükəli sindroma bu cür son qoyuldu. Heydər Əliyevin xalqa müraciəti və xalqın ona dəstəyi öz sözünü dedi. Sonradan Azərbaycanın bütövlüyü və müstəqilliyi naminə Lənkəran hadisələrində şəhid olanlara Prezident Heydər Əliyevin fərmanı ilə «Milli Qəhrəman» adı verildi.

Oktyabrın 3-nə Azərbaycanda prezident seçkiləri elan edildi. Bu ərəfədə 1993-cü il sentyabrın 20-də Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev «Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə qoşulması haqqında» qərarı imzaladı. Bu çox vacib siyasi sənədi – Heydər Əliyevin muncuq kimi düzülmüş öz xəttilə yazdığı lakonik ifadəli mətni xatırladaq:

«Azərbaycan xalqının ali mənafelərini rəhbər tutaraq, eləcə də Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyi iştirakçıları dövlətlərilə tarixi əlaqələrini nəzərə alaraq, bu dövlətlərlə siyasi, iqtisadi, elmi-texniki, mədəni və digər əlaqələrin inkişafı məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinə qoşulsun.

2. Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinin kollektiv təhlükəsizlik haqqında müqaviləsinə qoşulsun.

3. Azərbaycan Respublikası Prezidentinə tövsiyə edilsin ki, bu qərardan irəli gələn lazımi tədbirləri həyata keçirsin».

Sentyabrın 24-də Moskvada MDB dövlət və hökumət başçılarının görüşü planlaşdırılırdı. Amma nəhəng ölkənin paytaxtında hakimiyyət çəkişmələri səngimirdi. Prezident – parlament qarşıdurması kəskin həddə çatmışdı, necə deyərlər, bıçaq sümüyə dirənmişdi. Sentyabrın 21-də Yeltsin Rusiya Federasiyası Xalq Deputatları Qurultayının və Ali Sovetinin fəaliyyətinin dayandırılması haqqında fərman imzalayır.

Eyni zamanda Yeltsin Konstitusiyanı dəyişmək səlahiyyətlərini öz üzərinə götürür. Hökumət evində işıq, rabitə kəsdirilir, su, kanalizasiya xətləri bağlanır. Müasir tarixdə bir ölkənin öz parlamentinin misli görünməmiş blokadası başlanır; Moskva çayı sahilində ucalan nəhəng binaya qarşı hücum hazırlanır.

Təbii ki, belə bir şəraitdə Boris Yeltsin MDB təmsilçilərinin Moskvaya gəlməyəcəyini, sammitin pozulacağını və bunun «prezidentin nüfuzuna bərk zərbə vuracağını» düşünərək təşviş keçirirdi.

Lakin hamı uçub gəldi. Sentyabrın 24-də Heydər Əliyev Kremldə Azərbaycanın MDB-yə daxil olması haqqında sənədləri imzaladı. Yeltsin onu təbrik etdi, dostcasına gülümsündü: «Heydər Əliyeviç, siz elə bil Kremldən heç getməmisiniz». Amma duyulurdu ki, Boris Nikolayeviçin fikri-zikri qonaqlarda deyil, daha çox ayrı qayğılarla yüklənib. «Gəliblər – xoş gəliblər, sağ olsunlar». Belarus Ali Sovetinin sədri Stanislav Şuşkeviç həmkarlarının adından ev yiyəsinə bəyan edir ki, «MDB dövlət və hökumət başçıları Prezident Yeltsin tərəfindən keçirilən konstitusion islahatları dəstəkləmiş və ona islahatların keçirilməsində uğurlar arzulamışlar».

Rusiya Sovet Federativ Sosialist Respublikası Ali Soveti son saatlarını yaşayırdı. Bu dəqiqələrdə Kremldə artıq heç

kim Konstitusiya haqqında düşünmürdü. Tutçev demişkən, bu iqtidar öz haqqından savayı haqq tanımırdı... Onu belə şəklə salan «öz keçmişi, ölkə və onun tarixi keçmişilə tam üzülüşməsi» olmuşdu.

## Azərbaycan Heydəri seçir

1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı Heydər Əlirza oğlu Əliyevi Prezident seçdi.

Oktyabrın 4-də Moskvada isə bambaşqa «seçkilər» keçirildi – Rusiya ordusunun tankları Rusiya Ali Sovetinin binasına atəş açdı... Amerika televiziyası paytaxtın mərkəzində baş verən qırğından bütün dünyaya reportaj yayımladı...

Yeltsin Əliyevdən fərqli olaraq, dövlət böhranından dinc, konstitusiyaya uyğun çıxış yolu tapa bilmədi.

Təntənəli andiçmə mərasimi. Prezident Heydər Əliyev həmvətənlərinə təşəkkürünü bildirir, xalqın qarşısında öz böyük məsuliyyətindən danışır:

– Azərbaycan Respublikası müstəqilliyini olduqca mürəkkəb bir şəraitdə əldə etmişdir. Bizim üçün ən ağırı – Azərbaycanın beş ildən artıq yaşadığı müharibə şəraiti, erməni silahlı qüvvələrinin bizim ərazilərimizə qarşı təcavüzü, bu təcavüzün nəticəsində Azərbaycan xalqının üzərinə düşən bəlalardır. Buna görə qarşımızda duran əsas məsələ respublikanı muharibə vəziyyətindən çıxarmaq və vətəndaşların həyatı üçün dinc şərait yaratmaqdır.

... Azərbaycanın dövlət rəhbərləri tərəfindən yol verilmiş kobud səhvlər nəticəsində iyun ayında respublika vətəndaş müharibəsi həddinə gəlib çatmış və bəzi bölgələrin ayrılmasının real təhlükəsi yaranmışdır. Allaha şükür ki, bütün bu hadisələrin qarşısı alınmış, bir sıra cinayətkar dəstələr ləğv edilmiş və respublika daxilində ictimai-siyasi sabitliyin təmin edilməsi üçün şərait yaranmışdır.

Heydər Əliyev addım-addım Azərbaycanın yeni kursunu müəyyənləşdirirdi. Qarabağda sülh yolunun axtarışları...

Neft sazişləri – gələn fəsildə bəhs edəcəyimiz «Əsrin müqaviləsi», xarici səfərlər – Türkiyə, İngiltərə, Çin, Türkmənistan...

Xarici tərəfdaşları qarşılarında xilasedici kredit dalınca gəlmiş minnətçi yox, bərabərhüquqlu müsahib görürdülər. Heydər Əliyev Türkiyə parlamentində parlaq nitq söyləyir. Prezident Azərbaycanın ötən yetmiş il ərzində elm, təhsil, mədəniyyət sahələrində əldə etdiyi danılmaz nailiyyətlərdən söz açır, «Biz öz simasını, öz dilini, öz milli ənənələrini qoruyub saxlamış bir ölkəyik», – deyə vurğulayırdı. Türkiyənin Azərbaycan Respublikasının əsas iqtisadi tərəfdaşlarından olduğunu bildirən Heydər Əliyev bununla yanaşı, Azərbaycanı Rusiya və sabiq Sovet Sosialist Respublikaları İttifaqının digər respublikaları ilə bağlayan çoxəsrlik siyasi və iqtisadi əlaqələrin qırılmasının yolverilməzliyini də nəzərə çatdırırdı. Onun fikrincə, söhbət eyni prioritetlərin o birilərlə əvəz edilməsindən deyil, onların tarazlı uzlaşmasından gedə bilər.

Az qala 10 ilə bərabər olan, aramsız toqquşmalarla, çarpışmalarla müşayiət olunan bu bir il Türkmənistana – MDB ölkələri başçılarının Aşqabadda keçirilən iclasına səfərlə başa çatdı. Dekabrın 24-də şuranın qapalı iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bəyanatla çıxış etdi:

– Ermənistan Respublikasının Azərbaycana qarşı az qala altı il davam edən təcavüzü Azərbaycan xalqına saysız-hesabsız əzablar gətirmişdir...

Prezident Dağlıq Qarabağ ərazisini tam nəzarət altına alan erməni silahlı birləşmələrinin ardıcıl olaraq əməliyyatlarını genişləndirərək muxtar vilayətin hüdudlarından kənarda Azərbaycanın bir sıra başqa rayonlarını da işğal etdiyini nəzərə çatdırır. Milyona qədər azərbaycanlı öz doğma ocaqlarından didərgin salınmışdır. İşğal olunmuş ərazilərdən Ermənistana yüz milyonlarla dollar həcmində ölçülən dövlət və özəl əmlak daşınır.

– Böyük təəssüflə qeyd etmək lazım gəlir ki, Azərbaycan Respublikası 1993-cü ilin sentyabrında Müstəqil Dövlətlər Birliyinin tamhüquqlu üzvü olandan və Kollektiv Təhlükəsizlik müqaviləsinə qoşulandan sonra Ermənistan Respublikası nəinki öz təcavüzünü dayandırmamış, əksinə, hərbi əməliyyatların eskalasiyası daha geniş miqyas almışdır.

Azərbaycan Prezidenti bütün MDB məkanında siyasi vəziyyətin sabitləşdirilməsinə yönəldilmiş ikitərəfli və çoxtərəfli razılaşmalar sistemi yaratmağı təklif etmişdir.

O, dövlət başçılarına üz tutaraq təkidlə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə siyasi qiymət verməyə; təcavüzkar Ermənistanı Azərbaycana qarşı hərbi əməliyyatlara son qoymağa; Ermənistanın silahlı qüvvələrinin bütün bölmələrini Azərbaycan Respublikası ərazisindən dərhal çıxarılmasını qətiyyətlə tələb etməyə çağırır...

**30 sentyabr 1994-cü il, Nyu-York**

Azərbaycan Prezidenti BMT Baş Məclisində çıxış etməlidir. Birləşmiş Millətlər Təşkilatının baş katibi Butros Qali Heydər Əliyevi bütün dünyanın tanıdığı göydələn binanın giriş salonunda qarşılayır; protokol qaydalarına müvafiq olaraq BMT və Azərbaycan bayraqları önündə fotoşəkillər çəkdirilir; Baş katib qonağı iclas salonuna ötürür. Müstəqil Azərbaycanın tarixində onun başçısı ilk dəfə olaraq belə yüksək kürsüdən çıxış edir...

Onun vətəndə baş verən qanlı hadisədən hələ xəbəri yoxdur. Bakıda respublika Ali Məclisinin sədr müavini Afiyəddin Cəlil oğlu Cəlilov və AR Prezidenti yanında Xüsusi Mühafizə İdarəsinin rəisi, təhlükəsizlik xidmətinin veteranı, polkovnik Şəmsi Nuru oğlu Rəhimov muzdlu qatillərin hədəfinə çevrilərək vəhşicəsinə qətlə yetirilmişlər.

Oktyabrın birində onları son mənzilə yola salırlar... Fəxri qarovul, dövlət və hökumət təmsilçiləri, insan axını. Kədər-

li baxışlar, ağır itkinin acısı içində, təmkinin üstələdiyi bir qəzəb işartısı da közərir – Azərbaycanı ağ günlərə çıxarmaq istəyən insanlara qənim kəsilən qara qüvvələrə qarşı qəzəb...

Heydər Əliyev uzaq Nyu-Yorkdan zəng vurub həlak olanların qohumlarına, yaxınlarına, bütün Azərbaycan xalqına başsağlığını çatdırmağı xahiş edir, matəm mərasimində iştirak edə bilmədiyinə görə çox təəssüfləndiyini bildirir. Dövlət başçısı Amerika səfərində olduğu zaman daha bir qanqaraldan, düşünülmüş təxribata dəlalət edən hadisə də baş verir – MTN təcridxanasından dustaqlar qaçırlar (ya qaçırdılırlar)... Bütün bunlar onu göstərir ki, Azərbaycana yönəlmiş düşmən qüvvələr hələ mövcuddur və onlara qarşı ciddi mübarizə aparmaq lazımdır.

## «Mən xalqa arxalanıram»

Bəli, bu iki qətl də, dustaqların qaçması da Azərbaycanı qarşıda gözləyən «silsilə» bəlaların başlanğıcı idi. Bu hadisəyə seyrçi qalmaq olmaz, ciddi və düşünülmüş tədbirlər görülməli, təxribatların qarşısını almaq üçün müvafıq və təxirəsalınmaz əməliyyatlar həyata keçirməlidir.

Oktyabrın 3-də vətənə qayıdan Prezident Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. O da bəlli oldu ki, Heydər Əliyevin özünə qarşı da sui-qəsd hazırlanırmış. Azadlıq meydanına mitinqə yığışan yüzminlərlə bakılı, başqa şəhər və qəsəbələrdən gələn sakinlər Prezidentin dilindən bu acı həqiqəti də eşitdilər. Onun həmişəki kimi qətiyyətli, sərrast, təmkinli nitqində daxili təlatümdən, ürək yanğısından irəli gələn kövrək, məhrəmanə çalarlar da vardı.

– Hörmətli həmvətənlilər, əziz bacılar və qardaşlar! Sevimli Azərbaycan xalqı!

Son günlər Azərbaycanın həyatında mürəkkəb hadisələr baş vermiş, cəmiyyətimiz çox gərgin vəziyyətə düşmüşdür. Bununla əlaqədar olaraq mən Azərbaycan xalqına dəfələrlə müraciət etmişəm. Müstəqil Azərbaycan dövlətinin qo-

runması üçün Azərbaycan xalqından ayağa qalxmağı rica etmişəm. Mən xalqa həmişə ümid bəsləmişəm, həmişə də xalqa güvənmişəm. Odur ki, bu günlərdə Azərbaycan xalqı öz sıx birliyini, həmrəyliyini bir daha nümayiş etdirib, bir daha bildirib ki, milli azadlığa nail olan Azərbaycan xalqı yenilməzdir, mətindir, cəsarətlidir...

Üç gün bundan qabaq Azərbaycan polisinin Xüsusi Təyinatlı Dəstəsinin bəzi qrupları tərəfindən qanunsuz hərəkətlər nəticəsində törədilmiş silahlı qarşıdurma sülh yolu ilə dayandırıldı. Halbuki vəziyyət son dərəcə gərgin idi. Mən başa düşürdüm ki, bu cavanları çaşdıran, yanlış yola sürükləyən qüvvələr var, onları öz əllərində alətə çevirib idarə edərək, bədxah və düşmən məqsədlərini güdən qüvvələr var. Biz hər şeyi qaydaya salmaq üçün xeyli səylər göstərdik, çox vaxt sərf etdik. Və qaydaya qoyduq!

... Sizə məlumdur ki, ötən ilin payızında Bakıda mənim həyatıma sui-qəsd hazırlayan terrorçu qruplaşma yaxalanmışdır. Bu qruplaşmanın üzvləri cinayət törətdikləri məqamda yaxalanmışlar. Xalq Cəbhəsindən bəzi adamlar, Türkiyə vətəndaşı Həsən Tokunu aldadaraq, buraya gətirmişdilər ki, mənim həyatıma sui-qəsd etsin. Lakin müəyyən qüvvələr bu terrorçuların mühakimə edilməsindən nəticə çıxarmamış və buna görə də yenə terrora əl atmaq istəyirlər. Şübhə etmirəm ki, xalqımız buna yol verməyəcək. Lakin qoy xalq onu da bilsin: mən var qüvvəmlə Azərbaycanın müstəqilliyi, vətənimizin suverenliyi, torpaqlarımızın bütövlüyü naminə çalışmışam və məni terrorla qorxutmaq və geriyə çəkilməyə məcbur etmək olmaz.

Bu gün böyük təəssüf hissilə demək istəyirəm ki, həyatıma qəsd edən terrorçulardan bəziləri Kələki kəndində gizlənirlər. Onlar sabiq prezident Əbülfəz Elçibəyin ətrafına toplaşıblar. Mən Əbülfəz Elçibəyin Azərbaycanın milli azadlığı uğrunda mübarizəsində xidmətlərini yüksək qiymətləndirirəm. Lakin təkrar edirəm, heç kim silaha, terrora əl atmamalıdır. Bütün silahlı dəstələr tərksilah olunmalıdır. Buna

görə mən bu gün siyasi terror yolunu seçmiş insanlara nifrətimi bildirirəm və bütün xalqı onları ifşa etməyə çağırıram.

Bu həyəcanlı dövrdə Prezident iki dəfə Gəncə haqqında danışmalı oldu. Birinci dəfə səhərə yaxın Prezident Sarayı qarşısında toplaşan on minlərlə həmvətənlərinə üz tutanda ona həyan duran xalqa minnətdarlığını bildirdi:

– Bir müdrik atalar sözü var: güc birlikdədir. Heç kim, heç bir qüvvə xalqın gücünə qarsı dura bilməz. Və mən xalqa sizə arxalanıram, əziz Azərbaycan vətəndaşları! Sağ olun!..

Və sonra Gəncədə silahlı dəstələr tərəfindən şəhər və rayon icra hakimiyyətinin binalarının, hava limanının, dəmiryol vağzalının, MTN idarəsinin zəbt edildiyini söyləyib, qeyd etdi:

– Lakin onlar xalqın və dövlətin qarşısında böyük səhv etmişlər. Onların himayədarı da günah işlətmişdir. O anlamalıydı ki, Azərbaycanın belə ağır günlərində bunu etmək olmazdı.

O, indiyədək ona göstərilən hörməti başa düşmədi. Lakin sizə məlumat verə bilərəm ki, Gəncədə sağlam qüvvələr ayağa qalxıblar. Onlar Azərbaycan dövlətçiliyinə qəsd edən hər bir kəsi cilovlayır, yaxalayırlar. Yəqin, indi Gəncə əhalisi məni televiziya ilə dinləyir. Mən onları Bakıdan salamlayıram, gəncəlilərə öz hörmət və ehtiramımı ifadə edirəm. Onların düşmən qüvvələrini dəf edəcəyinə inamımı bildirmək istəyirəm.

Qiyamçıların havadarlarının kimliyini Prezident hələ ki açıqlamamışdı.

Onun xalqa daha bir müraciətindən:

– Gəncə ilə əlaqə yaratmaq çox çətin idi, çünki bütün xətlər zədələnmişdi. Mən baş nazir Surət Hüseynova zəng vurdum. Bildiyiniz kimi, o, əslən gəncəlidir, orada onun tərəfdarları, ona tabe olan silahlı qüvvələr var (təəssüf ki, bu qeyri-qanuni silahlı qüvvələrdir). Gəncədə baş verənləri dedim. Surət cavab verdi ki, ona bu barədə heç nə məlum deyil, araşdıracağına söz verdi. Bir müddət sonra mən yenə

ondan bu məsələ ilə məşğul olmağı xahiş etdim. O cavab verdi ki, Gəncədə baş verən pozğunluqlar Xüsusi Təyinatlı Polis Dəstəsi tərəfmdən törədilib.

Daha sonra mən məlumat aldım ki, bu, XTPD deyil, qeyri-qanuni silahlı dəstələrdi və onlara Surət Hüseynova yaxın ayrı-ayrı şəxslər rəhbərlik edir. Həmçinin məlumat gəldi ki, Nazirlər Kabinetində Surət Hüseynovun yanında işləyən adamlar, Gəncəyə yollanıb, baş verən hadisələrə rəhbərlik edirlər. Bunu öyrənib mən Surət Hüseynovu çağırdım ki, birlikdə hər şeyi aydınlaşdıraq. Lakin əfsus ki, o gəlmədi.

Sonra onunla telefonla əlaqə saxlaya bilmədim. O, mənə artıq televiziyada çıxışımdan sonra zəng vurdu. Mən ona bildirdim ki, belə hərəkətlər yolverilməzdir. Axı, bir yerdə, bir dövlətdə işləyirik. Dövlətdə rəhbər vəzifə tutan şəxs dövlət çevrilişində iştirak edə bilməz. Buna görə də onu yenə yanıma dəvət etdim. Amma o bu dəfə də gəlmədi. İndi o mənim yanımdadır.

Mən hər şeyi açıq deyirəm. Heç nəyi gizlətmirəm, belə hərəkətləri pisləyirəm. Belə şey aramızda olmamalıdır.

Gəncədə baş verən hadisələrin davamının qarşısını almaq üçün dünən axşam əməliyyata başlayan ordunun qüvvəsindən istifadə etməli olduq. Nəticədə, cinayətkarlar tutulmuşlar...

Məhkəmə oldu, Surət Hüseynova ömürlük həbs cəzası verildi. Hadisələri qabaqlayaraq məlumat verək: 2004-cü il martın 17-də Prezident İlham Əliyev onu əfv etdi. Azadlığa çıxan Surət Hüseynov Heydər Əliyevin məzarını ziyarət edərək onun ruhu qarşısında üç dəfə baş əydi. Həyatda belə tövbələr də olur...

Yuri Konstantinoviç Şafranik 1993-1996-cı illərdə Rusiyanın yanacaq və energetika naziri olmuş, son illərdə dövlətlərarası «Soyuz nefteqaz» şirkətinə və Rusiyanın Ali Mədənçilik Şurasına başçılıq etmişdir. Onun Heydər Əliyevlə yaxın ünsiyyəti Azərbaycanın o böhranlı, taleyüklü illərinə təsadüf edir.

– Bu səviyyəli dövlət xadimləri, – deyə Yuri Şafranik Əliyev haqda öz mülahizələrini söyləyir, – ölkəsinin ali mənafelərini üstün tutaraq hərəkət edirlər. Müasirlərinə nələrsə səhv görünür, o isə illəri qabaqlayıb gələcəyə baxaraq, yeganə düzgün yolu seçir. Bir çox tarixi paralellər gətirmək olar... Den Syaopin deyirdi ki, Çində yenidənqurma yüz il sürəcək. Bununla belə, siyasi struktur, siyasi seçim şübhə altına qoyulmur. İqtisadiyyatda isə neyləyirsən elə, təki rifah olsun. Müdrik Den obrazlı düşünürdü: pişiyin nə rəngdə olduğu vacib deyil, təki siçan tuta bilsin. Mən bir cavan adam kimi çiyinlərimi qısıb fikirləşirdim: yenə bu çinlilər bir hoqqa çıxarıblar. Amma müəyyən zaman ötdükdən sonra necə müdrik hərəkət etdikləri aydın olur. Onlar öz «böyük sıçrayış»larından ibrət dərsi almışlar, biz isə – yox. Biz iqtisadiyyatın 500 günə dəyişiləcəyinə inandıq. Mən burada Əliyevin fövqəladə şəraitdə necə ölçülüb-biçilmiş, tarazlı, düşünülmüş hərəkət etdiyini göstərmək üçün Azərbaycanla paralel aparıram. Kənardan bu şəraiti təsəvvür etmək mümkün deyil. Onun yanında olmaq gərəkdir ki, hansı zamanda necə siyasətçi olduğunu dəyərləndirəsən. Və bu gün də bu hələ dərk edilməyib. Sizi inandırıram, o zamanlar – 93-cü, 94-cü illərdə çətin ki, Rusiya nazirlərindən biri Bakıya gələydi.

Olsa-olsa, hərbçilər gələ bilərdilər. Əgər gəlməmişdilərsə, bəs Moskvada oturub Bakıda, Azərbaycanda nə etmək lazım gəldiyi barədə necə hökm çıxara bilərdilər?

On ildən çox vaxt keçdi. Adama elə gəlir, lap az müddətdir, amma bu böyük bir dövrdür; zaman hər halda hadisələri kölgədə qoyur. Yada salın: Azərbaycanla Ermənistan arasında sadəcə münaqişə deyil, müharibə gedir. İnsanlar amansızcasına vuruşurlar. Hissələr hücum edir, geriyə çəkilir. Bakıda bir milyondan çox qaçqın. Əsasən şəhər yaşayışına öyrəşməmiş dağ rayonlarının kəndliləri. Külfətlərin dolanışığı yoxdur. Zavodların hamısı dayanıb. Sovet dövründə ölkə üçün neft-qaz avadanlığının yetmiş faizi Azərbaycanda istehsal olunurdu. 1992-1993-cü ildə bu, sıfıra endi. Neft

hasilatı səngidi. Müharibənin ucbatından ölkə tam təcrid olundu. Daxildə – Xalq Cəbhəsi, bir-biri ilə çəkişən partiyalar. Prezident qaçıb, küçələrdə ara qarışıb, məzhəb itib. Mən özümü Heydər Əliyevin yerində təsəvvür edirdim. Bəs mən olsam necə hərəkət edərdim? Onda da, indi də deyə bilərəm: Əliyev o vəziyyətdə 100-dən 100-ü «vururdu». Bax, gərək, olanda da belə siyasi snayper olasan! Mən sonralar diqqətlə izləyirdim və fikirləşirdim ki: əcəba, görəsən o, hər şeyi doğrudanmı bunca sərrast hesablaya bilir? Həsəd apararaq izləyirdim. Və deyə bilərəm: onun hərəkətlərində bircə səhv də tapmadım. Mən Bakıya gəlirdim, özümə qarşı səmimiyyət və etibarla rastlaşırdım, sadəcə Şafranik kimi yox, Rusiya naziri kimi. O, əlbəttə, mənim vasitəmlə Rusiya rəhbərliyinə bəzi mətləbləri dolayı yolla çatdırmağa çalışırdı: bax, mən bir qəsdin üstünü açdım, o birisinin də... Bəli, bunları cürbəcür qavramaq olar. Siyasi mübarizə kimi də, rəqibləri sıxışdırmaq kimi də... Yaxşı sual olunur, məqsəd nədir? Bu, sabitliyə gətirib çıxardımı? Bunun sayəsində müharibə sona yetdimi? Bakı iki ildən sonra başqalaşdımı, dəyişdimi? Bəli.

... O vaxtlar, əgər Əliyevin yerində başqası olsaydı, mənə elə gəlir ki, ümumiyyətlə, ölkədə fovqəladə vəziyyət tətbiq edərdi. Və necə deyərlər, hərbi dövrün qanunlarıyla hərəkət edərdi ki, Azərbaycan qorunub saxlanılsın, müharibə dayandırılsın, sabahkı günə inam qaytarılsın, iqtisadiyyat dirçəldilsin. Əliyev bunları iki-üç ilə yoluna qoymağa nail oldu. Özü də, vurğulayıram, siyasi vasitələrlə.

İlk görüşlərimizi xatırlayıram. Heydər Əliyeviç Xalq Cəbhəsinin təmsilçilərini də, başqa siyasi təşkilat və hərəkatların liderlərini də yanında otuzdururdu. Mən bu insanlara baxırdım və anlayırdım ki, onlar Əliyevlə müqayisədə, Azərbaycanın qarşısında duran vəzifələrlə müqayisədə – heç kimdirlər. Onlar «mitinq adamlarıdır!»[1] O isə onları mə-

---

[1] Əlbəttə, Y.Şafranikin emosional təsvirindən çıxış edərək «mitinq adamları» üzərindən qara xətt çəkmək haqsızlıq olardı və yüzminlərlə

nimlə apardığı bütün danışıqlara dəvət edir, onların rəyini soruşurdu... Mən onda Surət Hüseynovu da görürdüm, heç kəsi qaralamaq istəmirəm, amma sadəcə olaraq, bu, tərbiyə, düşüncə səviyyəsi baxımından iki tamamilə fərqli dünya idi... O ən mürəkkəb dövrün içindən keçirdi, cəmiyyətdə hansısa bir dayaq yaradırdı.

... Mən heç kimi idealizə etmək niyyətində deyiləm, ümumiyyətlə, mənim uşaqlıqdan kumirlərim olmayıb. Lakin belə miqyaslı şəxsiyyətlər qarşısında müəyyən mənada baş əyirəm. Heydər Əliyev onların sırasındandır. O, tarixin ən çətin sınaq dönəmində ən mühüm işləri görmüşdü. Belə ki, yaradanın özü onu məsləhət bilib Azərbaycana bəxş etmişdir.

Rusiya naziri Şafranik, o zaman – Azərbaycanın öz vəziyyətini kökündən dəyişmək üçün nə kimi ehtiyatları var? – sualıma belə cavab verir: – Neft! Deməli, tərəfdaşlar tapılmalı və neft layihələrinə başlanılmalıdır.

Şafranik düşünür:

– Bəs Rusiyanın mənafeyi nədən ibarətdir? – Bu layihəyə qadağa qoymaqmı? Əlbətə, yox. Məsləhətləşərək birgə işləmək. Boru kəmərləri bizim ölkəmizdən keçir, Azərbaycan neftçiləri çoxdandır bizdə çalışırlar. Bizimkilər də orada fəaliyyət göstərirlər. Yəni burada anlaşılmayan nə məsələ var ki?

Məsələ bizcə, siyasi iradədədir. Azərbaycana və özümüzə pay müəyyənləşdirmək üçün yardım göstərməkdə. Mən başqa, daha ali mətləblərdən danışmıram. Hətta bircə elə bu vektor yetər ki, çözümə başlanılsın. Zaman göstərdi ki, Rusiyanın milli maraqlarını qoruyan bir nazir kimi mən haqlı idim. Və bilirsinizmi, bu, qəlbimi isindirir. Mənə bütün sabiq müttəfıq respublikalar, o cümlədən Ermənistan

---

soydaşımızın qoşulduğu toplantılarda, yanlış, kortəbii, siyasi cəhətdən çiy çağırışlarla yanaşı, xalqımızın məlum zamandakı ovqatı, istəyi haqlı etiraz tələbləri və qəzəbi ifadə olunurdu (müəlliflər).

da əzizdir... Biz bir böyük ölkədə tərbiyə almışıq, boya-başa çatmışıq... Mən necə Ermənistanı sevməyə bilərəm?![1]

Orada zəlzələ baş verəndə neçə-neçə neft-qaz inşaatçımız orada olmuş, bəlaya düçar olanlara kömək etmişdi.

Amma Rusiya maraqları nisbətində danışsaq, mən ictimai rəyə baxmayaraq, Rusiya xarici işlər naziri Kozırevin mövqeyinə baxmayaraq, hərəkət etmişdim. Zaman ötəndən sonra deyə bilərəm ki, Əliyevin və bir nazir kimi mənim hərəkətlərim ziddiyyət təşkil etmirdi. Mən yeni şəraitdə Rusiya maraqlarına aid öz düşüncəmdən çıxış edirdim.

Yuri Konstantinoviç Şafranik Azərbaycanda, Xəzərdə, Cənubi Qafqazda Rusiya maraqları ilə bağlı müxtəlif yanaşmaları səciyyələndirmişdir.

Bu barədə gələn fəsildə daha ətraflı danışacağıq.

---

[1] Y.Şafranik burada çox yaralı, çox incə mətləbə toxunur və yeri gəlmişkən, qeyd edək ki, daşnak ideologiyasına uyan, millətçilik azarına düçar olmuş və xalyımıza qarşı XX əsrin sonlarında növbəti dəfə saysız fəlakətlər gətirən yaxın qonşumuz olan millətə Azərbaycan xalqının tarixən bəslədiyi münasibətdə, bütün qan-qadalara baxmayaraq, daima barış, əmin-amanlıq, dinc yaşam istəyi, insani dəyərlər üstün olmuşdur və indi də belədir; Azərbaycan xalqının mentalitetinə hər hansı milli ayrıseçkilik yaddır; bu cəhət qədim «Əsli və Kərəm» dastanlarımızda, Mirzə Cəlilin «Kamança» əsərində də, M.Ə.Sabirin «Beynəlmiləl» şeirində, N.Nərimanovun «Bahadır və Sona» romanında C.Cabbarlının «1905-ci ildə» pyesində də öz parlaq əksini tapmışdır (H.Mirələmov).

## X fəsil

# AZƏRBAYCAN NEFTİ DÜNYA SİYASƏTİNDƏ

*Əgər neft kraliçadırsa...*

Etiraf edək ki, biz bu fəslin başlığında Heydər Əliyevin formulunu təkrarlamışıq. Hələ 1994-cü ildə o, Odlar Yurdunun neft sənayesinin ən qədim zamanlardan bu günədək tarixini onun ibrətlərini və perspektivlərini əhatə edən çoxcildli «Azərbaycan nefti dünya siyasətində» adlı toplu haqqında düşünürdü. Bu əsərin buraxılması o zaman Azərbaycan Dövlət Neft Şirkəti sədrinin birinci müavini İlham Əliyevə tapşırılmışdı. Bu gün demək olar ki, Azərbaycanın yeni neft siyasəti və onun tarixən araşdırılması paralel aparılmışdır. Və bu, Prezidentin siyasi, iqtisadi və sosial baxımdan heyrətamiz dərəcədə dəqiq düşünülmüş kəşfidir.

Keçmiş zamanlarda atəşpərəstlər Bakı neftinə səcdə etmişlər. XIX əsrin sonlarında bir naməlum uzaqgörən yazırdı: «Kiçicik məbədi işıqlandıran neft indi bütöv bir imperiyanın hüdudlarını işıqlandırır və vaxt gələcək ki, o, dünyanın yarısını işıqla və istiliklə təmin edəcək». Krallar və çarlar, prezidentlər və şeyxlər, bankirlər və avantüristlər neftə pərəstiş edirlər. Neftdən ötrü dövlətlər və siyasətçilər çarpışmış və çarpışmaqdadırlar.

1918-ci ildə Britaniyada çıxan «Yaxın Şərq» adlı iqtisadi dərgı yazırdı: «Bakının neft aləminin tayı-bərabəri yoxdur. Əgər neft kraliçadırsa, Bakı onun taxtıdır». Taxta yiyələnmək iddiasında olanlar çox idi – İngiltərə, Almaniya, Türkiyə 1920-cı ıldə Qızıl Ordu hamısını qabaqladı.

... 1942-ci il aprelin 20-də alman generalları Adolf Hitlerə Xəzər dənizi və Bakının mənzərəsini əks etdirən bir tort təqdim etmişdilər. Həmin günlərdə Almaniya silahlı qüvvələri sovet-alman cəbhəsinin cənub cinahında həlledici hücuma hazırlaşırdılar.

Mayın ortalarından Sovet informasiya bürosu xəbərlərini Xarkov və Kerç istiqamətlərində gedən döyüşlərdən başlayırdı. Sonra Kerç xəbərlərdə səslənmədi. Neçə il ötəndən sonra Acımuşkayda katakombalarda zəhərləyici qazlardan boğulan, aclıqdan, susuzluqdan üzülərək son nəfəsinədək vuruşan yeraltı qarnizonun hünərindən xəbər tutduq. İyunun 3-də, 250 gün davam edən qəhrəmancasına müdafiədən sonra sovet qoşunları Sevastopolu tərk etdilər. Müharibə tədricən cənuba doğru irəliləyirdi.

Rostov, Bataysk, Krasnodar istiqamətləri... Dünya sovet Şərqindən gələn məlumatları intizarla izləyirdi. Amerikanın «Assoşieyted press» agentliyinin Moskvadakı müxbiri cənab Kessidi Sovet Sosialist Respublikaları İttifaqı Xalq Komissarları Sovetinin sədri İ.V.Stalinə müraciət edir:

*– Sovetlərin müqavimət qabiliyyətini necə qiymətləndirirsiniz?*

– Mən düşünürəm ki, alman quldurlarına qarşı sovetlərin müqavimət qabiliyyəti öz gücü etibarilə faşist Almaniyası, yaxud hansısa digər təcavüzkar dövlətin özünün dünyaya ağalığını təmin etmək qabiliyyətindən heç də az deyil, bəlkə də üstündür.

Cəbhə geriləyirdi. Sovet İttifaqı marşalı K.Ş.Moskalenko xatirələrində qeyd etdiyi kimi, «döyüşçü qrupları deyil, batalyonlar, alaylar, diviziyalar, yəni komandirlərlə və qərargahlarla idarə olunan ordular geriyə çəkilirdilər... Ağır düşüncələr ürəyi yandırırdı. Amma acizlik, ya da məhkumluq

hisslərindən əsər-əlamət yox idi. Əvvəlki tək düşmənin darmadağın ediləcəyinə, qələbəmizə möhkəm, sarsılmaz inam yaşayırdı».

1942-ci il, avqustun 1-i. 383-cü atıcı şaxtaçı diviziyasının hərbi əməliyyatlar jurnalından: «... komendant rotasınadək bütün ehtiyat qüvvələr döyüşə atılıb». Avqustun 2-si. «Düşmənin müdafiəni yarmaq cəhdi baş tutmadı. 16.00-da düşmən sağdan 691-ci atıcı alayı yanlayıb, iki batalyona qədər qüvvəylə üçüncü batalyonun müqavimətini qırmışdı. Adamlar ölümdirim savaşına girişmişdilər. Şəxsi heyətin əksəriyyəti qəhrəmancasına həlak oldu. Baş pulemyotçu dəstəsi tamamilə qırıldı. Pulemyotların arxasına keçən komanda heyətinin aqibəti də elə oldu. Batalyondan tək-tük adam qaldı».

Həmin cəbhə xəttində əsasən Azərbaycan döyüşçülərindən təşkil olunmuş 416-cı atıcı diviziya da vuruşurdu. Bir il sonra, müharibə Qərbə doğru istiqamətlənəndə, bu diviziya Taqanroqun azad olunması uğrunda gedən döyüşlərdə fərqlənəcək və Taqanroq atıcı diviziyası adlandırılacaq. Müharibədən çox-çox sonra bir zamanlar Böyük Pyotrun göstərişi ilə Azov dənizi sahilində salınmış bu şəhərdə H.Əliyevin təşəbbüsü ilə qəhrəman döyüşçülərin şərəfinə möhtəşəm bir abidə ucaldıldı. Və o həmin abidənin açılışında iştirak etdi.

Qırx ikinci ilin yayında isə, əslən bakılı olan İttifaq Neft Sənayesi Xalq Komissarının müavini Nikolay Baybakov Kubanda neft buruqlarının partladılması ilə məşğul olurdu.

– Yoldaş Baybakov, – ona bu tapşırığı verən Stalin deyirdi, – Hitler Qafqaza can atır. O elan edib ki, Qafqaz neftini ələ keçirməsə müharibəni uduzacaq, almanların əlinə bir damla da neft keçməməsi üçün hər şey edilməlidir, – və daha sərt səslə vurğulayırdı, – nəzərə alın ki, almanlara bircə ton neft də qoyub getsəniz, biz sizi güllələyəcəyik.

Bir qədər susub əlavə etdi:

– Amma mədənləri vaxtından əvvəl ləğv etsəniz və onları almanlar ələ keçirməsə, biz yanacaqsız qalsaq, onda yenə də sizi güllələyəcəyik.

Cavan narkom müavininin onda 30-dan azca artıq yaşı vardı. Özündə cürət tapıb yavaşdan:

– Axı siz mənə heç bir seçim qoymursunuz, yoldaş Stalin, – deyir.

İosif Vissarionoviç var-gəl edərək, onun yanında dayanıb əlini qaldırır, barmağıyla gicgahını yüngülcə döyəcləyir...

Kuban ərazisindəki neft buruqları ən son saatlaradək işlədilirdi. Bakı həndəvərində isə elliklə müdafiə xətləri qurulurdu, ağır iş növbəsindən sonra neftçilər, tələbələr, məktəblilər, evdar qadınlar gəlirdilər və beldən, külüngdən yapışırdılar. Xoşbəxtlikdən, bu istehkam xətti döyüş meydanına çevrilmədi. Atəş açan yalnız mədənləri qoruyan zenit topları idi.

İllər ötdü. Haçansa məxfi olan əmrlər arxiv sənədlərinə çevrildilər. Faşist direktivləri qalaqlarında 45 saylı, 1942-ci il, 23 iyul tarixli bir sənəd də tapıldı:

«A» qrupu ordularının ən yaxın vəzifəsi Don çayının o tayına keçərək, Rostovdan cənub və cənub şərq tərəfdəki rayonda düşmən qüvvələrinin mühasirəyə alınması və məhv edilməsidir». «A» ordular qrupu «ən yaxın vəzifəsini» yerinə yetirə bilmədi. Bizim hissələr Şimali Qafqaza doğru çəkildilər.

Bir maraqlı detal, 1942-ci il sentyabrın 9-da «A» ordular qrupuna komandanlığı Adolf Hitler öz üzərinə götürdü. Əvvəlki komandanı, general-feldmarşal Listi kənarlaşdırıb «A» qrupunun Qafqaz əməliyyatlarının Stalino (indiki Donetsk) şəhərində yerləşən qərargahı vasitəsilə idarə etməyə başladı. Ertəsi günü Vinnitsa yaxınlığındakı «Vervolf» qərargahından Hitler Tuapse istiqamətində hücuma keçmək, Qara dəniz sahilini tutmaq haqqında əmr verir. Lakin artıq hadisələr dəyişirdi. Stalinqrad ətrafında da, Qafqazda da hadisələr başqa planda cərəyan edirdi. Berlində şirniyyatçılara tortun üzərində Xəzərin və Bakının cizgilərini həkk etməyi tapşırmış cənablar tələsmişdilər...

Böyük Vətən müharibəsi illərində Azərbaycan neftçiləri 75 milyon tona yaxın neft çıxarmış, 22 milyon ton benzin hasil etmişdilər. Azərbaycanın ümumittifaq hasilatında payı 71,4 faiz təşkil etmişdir, o cümlədən aviasiya benzini 80 faiz, avto-nəqliyyat yağları 95 faiz nisbətində olmuşdur. Sovet tankları qələbəyə doğru cəbhə yollarını Bakı yanacağı vasitəsilə qət edirdilər.

## 21 aprel 1971-ci il, Bakı

Həmin gün paytaxtda, mübaliğəsiz demək olar ki, «Azərbaycanın tarixində, Sovet İttifaqının neft sənayesinin tarixində baş vermiş əlamətdar hadisəyə respublika mədənlərində neftin milyardıncı tonunun hasil olunmasına həsr edilmiş təntənəli yığıncaq keçirilirdi. Fotoşəkillərə baxırıq: salonda ön cərgələrdə – sinəsi qızıl ulduzlu, ordenli, medallı neftçilər; kürsüdə çıxış edən Heydər Əliyev; səhnə üzərini bəzəyən kompozisiya; neft buruğu; «qara qızıl» hasilatının mübarək həddini göstərən nəhəng rəqəm.

Aydındır ki, «milyard» bir qədər şərti rəqəm idi. Hasilatın dəqiq qeydiyyatına yüz il öncə, yataqların sənaye üsulu ilə işlədilməsinə keçəndən etibarən başlanmışdır. Lakin ondan əvvəllər, ötən əsrlər boyu nə qədər neft çıxarıldığını kim bilir; axı Xəzər sahillərində – Bakıda hələ eramızdan çox-çox əvvəl də «qara qızıl» çıxarılmışdır.

«Qara» deyəndə, bu əlamətə görə yeraltı sərvətin dəyəri kiçilmir. Tacirlər, səyyahlar çoxdan bəri «ağ neft»dən söz açır və onu yüksək dəyərləndirirdilər. Öz məşhur lüğətində Vladimir Dal qeyd edirdi: neft müxtəlif rənglərdə olur: ağ rəngdə – ağ neft, çox duru olur; tünd qonur, qara rəngdə, qətran kimi qatı, nəhayət, bərk şist (lay-lay quruluşlu süxur – müəlliflər) halında. Neft qaynaqları (Dal necə dəqiq ifadə seçib – yenə müəlliflər) vulkanik süxurlar olan torpaqlarda, məsələn, Bakı ətrafında tapılır və orada «axıdılıb yığılması üçün neft quyuları qazılır».

1880-ci ildə Dmitri İvanoviç Mendeleyev Bakıdan yazırdı: «... İndiyədək burada olduğu qədər zəngin neft heç yerdə yoxdur. Mən Pensilvaniyada olmuşam və oradakı mədənləri görmüşəm. Tam əminliklə deyə bilərəm ki, burda şübhəsiz, neft qat-qat çoxdur və onu çıxarmaq xeyli asandır».

## Əliyevin dərsləri

Heydər Əliyev də Azərbaycanın yeni neft strategiyasını düşünərkən işgüzar, təcrübəli adamlara ümid bəsləyirdi. Belələrinin arasında öncə Natiq Ağaəmi oğlu Əliyevin, Azərbaycanın indiki sənaye və energetika nazirinin adını çəkə bilərik. Əliyev Azərbaycanda çox yayılmış soyaddır. Natiq Əliyev Azərbaycanın Neft Şirkətinə 1993-cü ildən yaxın zamana kimi rəhbərlik edirdi.

O, həkim ailəsində böyüsə də, tibb onu çox da cəlb etmirdi. O illərdə bütün ölkədə Bakı, Tümen neftçilərinin adları dillərdə gəzirdi. Donbass şaxtaçıları, Sibir elektrik stansiyalarının inşaatçıları ölkənin ən hörmətli insanları idi. Azərbaycanda ən populyar peşə sahiblərinin – neftçilərin, buruq ustalarının adları qəzetlərin baş səhifələrindən düşmürdü. Onlara müxtəlif mükafatlar verilir, təltif edilirdilər. Natiq Əliyev deyirdi:

– Etiraf edim ki, məndə, məktəbli vaxtlarımda bir az şöhrətpərəstlik hissi olub. Ona görə də məktəbi bitirən kimi sənədlərimi Neft və Kimya İnstitutuna verdim. Bu ali məktəb o vaxt çox nüfuzlu hesab olunurdu.

Sonra bütün gənc mütəxəssislər kimi, o da zəngin təcrübəyə malik böyük yol keçdi: qazmaçı köməkçisi, qazmaçı, texnik-geoloq, mühəndis-geoloq, aspirantura, elm, sonra yenə istehsalat... Natiq Azərbaycanın ən gənc elmlər namizədi oldu, onu Komsomolun Mərkəzi Komitəsində gənc alimlər şurasına dəvət etdilər. «Çalışırdım ki, həm istehsalatla məşğul olum, həm də ictimai işlərdə fəal olum». Bu sözləri də Natiq Əliyev o illəri xatırlayarkən deyir.

Onun karyerası uğurla inkişaf edirdi: istehsalat birliyinə yeni təyinat, partkom katibi seçilməyi... Bunun ardınca onu Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin neft və kimya sənayesi şöbəsinə təlimatçı vəzifəsinə təyin etdilər.

Bu hadisə 1984-cü ildə baş verdi. Heydər Əliyev onda məlum olduğu kimi, Moskvada, Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetində işləyirdi. Gənc mütəxəssis-təlimatçı onunla şəxsən tanış deyildi: «Yollarımız, heç vaxt kəsişməmişdi. Amma məlum oldu ki, bu heç də belə deyil». Mərkəzi Komitənin sosial-iqtisad şöbəsinin təlimatçısı və sonradan bölmə müdiri oldu. Heydər Əliyevin Mərkəzi Komitədə apardığı və məşhur neftçilərin, alimlərin – Qurban Abbasovun, Bəhmən Hacıyevin, Əli Əmirovun, akademik Əlizadənin iştirak etdiyi müşavirələrin stenoqramları cəsarətli fikirlərin, elmi yanaşmanın və böyük təcrübənin mənbəyi kimi ona çox kömək edirdi.

– Mən bu iclasların, müşavirələrin stenoqramlarını təkrar-təkrar oxuyur və birinci katibin verdiyi suallardan onun bu sahəni nə qədər dərindən bildiyini görürdüm, – deyə Natiq Əliyev xatırlayır. – Bu materiallar mənə yeni tapşırıqların öhdəsindən gəlməkdə yardımçı olurdu. Ümumiyyətlə, Mərkəzi Komitədəki işim mənə böyük təcrübə toplamağa, böyük şəxsiyyətlərlə tanış olmağa imkan verdi.

1991-ci ilin avqustunda Bakıdakı ingilis neft şirkətlərindən biri Natiq Əliyevi işə dəvət etdi. Beləliklə, sovet neftçisinin, aliminin və partiya xadiminin iş təcrübəsinə menecerlik də əlavə olundu. Həmin ərəfədə Azərbaycanda yenə də hakimiyyət dəyişdi. Və bir gün Natiq Əliyevin ofisində telefon zəng çaldı: «Sizinlə Heydər Əliyev danışmaq istəyir».

– Heydər Əliyevlə ilk görüşümü çox yaxşı xatırlayıram, – deyə Natiq Əliyev bildirir. – Belə hadisələr uzun müddət insanın yaddaşından silinmir. Təyin olunan vaxtda parlamentə gəldim və məni onun kabinetinə apardılar. Kabinet uzun idi – gərək ki, elə indiyəcən əvvəlki kimi qalıb. Uzun

stolun arxasında Heydər Əliyev oturmuşdu. Mənə dedi ki, sənin şəxsi işini diqqətlə gözdən keçirmişəm, indi də şəxsən tanış olmaq istəyirəm. Valideynlərim, dostlarım və işlədiyim yerlər barədə məni sorğu-suala çəkdi. O, öz suallarını elə verirdi ki, aramızda çox səmimi söhbət alınırdı. Amma sonra anladım ki, bu , həmsöhbətimin dərin analizi imiş. O, mənim şəxsiyyət olaraq, kim olduğumu öyrənınək istəyirdi. Ən çox onu maraqlandıran respublikamızın böhran vəziyyətində olan neft sənayesi barədə fikirlərim idi.

Əlbəttə, respublika iqtisadiyyatında son illərdə yaranmış vəziyyəti Heydər Əliyev özü də çox gözəl bilirdi. Sovet hakimiyyətinin son illərində idarəçiliyin itirilməsi, Xalq Cəbhəsinin hakimiyyətə gəlməsindən sonra artan dağınıqlıq ölkənin sənayesinin nəfəsini kəsməkdəydi. Yeni sahiblər peşəkar kadrları çölə tullamaqla məşğul idilər və açıqca: «Sən hakimiyyətdə olmusan, indi isə başqalarına imkan ver», deyirdilər. «AzNİPİneft» elmi-tədqiqat institunun direktoru, bütün İttifaq qazmaçıları üçün nüfuz sahibi olan Seyidrzanı işdən çıxardılar və s.

Neft-qaz hasilatı idarələrindən demək olar ki, bütün mütəxəssisləri qovmuşdular. Savadsız «mübarizlər» elə hesab edirdilər ki, kabinetdə kresloya əyləşməklə, telefonla danışmaqla hər şey həll olunacaq, neft özü borularla axıb gələcək, onlar isə yalnız pul qazanacaqlar.

– Əgər respublika məhv olmaq istəmirsə, bu vəziyyəti yalnız neft sənayesinin köməyi ilə düzəltmək olar, – Heydər Əliyev mənə dedi.

Sonradan Azərbaycanın neft strategiyası adlandırılan planın ümumi cizgiləri yəqin ki, artıq onun fikrində hazır idi. İndi də həmsöhbətinin bu problemlər barədə nə düşündüyünü, xarici şirkətlərlə birgə müəssisələrin fəaliyyəti ilə birğə nə fıkirləşdiyini öyrənmək istəyirdi.

– Mən ona dedim ki, – həmin yaddaqalan günün söhbətini bütün detallarına qədər Natiq Əliyev xatirinə gətirir, – bizim neft strategiyası məncə, iki istiqamətdə getməlidir. Bi-

rincisi: daxili rezervlər hesabına hasilatın aşağı düşməsinin qarşısını almaq, nizam-intizamı bərpa etmək, kadr siyasətini düzgün aparmaq. İkincisi: məlumdur ki, Azərbaycan öz qüvvəsiylə bu problemlərin çoxunun öhdəsindən gəlməyəcək. Bu təkcə texniki yox, həm də siyasi, mənəvi-psixoloji bir məqamdır.

Həqiqətən də, Azərbaycanı Sovet Sosialist Respublikaları İttifaqını "Neft akademiyası" adlandırırdılar. Bakı mütəxəssisləri Volqaboyunda, Sibirdə, Tatarıstan və Başqırdıstanda neft yataqlarının istismarına yardım edir, Bakı zavodları bütün İttifaqın neft sənayesi üçün avadanlıq istehsal edirdi. Amma indi özümüz kimdənsə kömək umurduq. Dünya neft hasilatı sənayesi xeyli inkişaf edib irəli getmiş, yeni texnologiyalar kəşf edilmişdi. Görəsən, Azərbaycan mütəxəssisləri onlardan öyrənməyə hazırdılarmı?

– Bəlkə, kimsə bunun əleyhinə olacaq, – deyə Natiq Əliyev qeyd edir, – amma bu, qaçılmaz addımdır.

Elə də oldu. İlkin mərhələlərdə Azərbaycan neftçiləri gözəgörünməz sədlə iki cəbhəyə ayrılmışdı. Bir qrup mütəxəssis deyirdi ki, öz qüvvəmizlə keçinə bilərik, ABŞ-ın, İngiltərənin, Norveçin, yaxud Türkiyənin köməyinə ehtiyac yoxdur. İkinci qrup mütəxəssislərsə belə hesab edirdi ki, Qərbin köməyindən mütləq istifadə etmək lazımdır.

– Həmin ərəfədə respublika maliyyə cəhətdən böhran keçirirdi, – deyə o davam edir. – Xarici yardım olmadan biz yeni yataqlarını istismarına yalnız 15-20 il sonra başlaya bilərdik.

Bu qədər vaxt ehtiyatı isə yox idi. Çıxış yolu qarşılıqlı, sərfəli şərtlərlə əməkdaşlıq idi. Əlbəttə ki, Bakıya can atan bütün şirkətlərlə yox, yalnız ən böyük, dünya şöhrətli şirkətlərlə danışıqlara başlamaq lazım idi.

Söhbət gözlənilməz şəkildə qurtardı.

– Artıq gecdir, – Heydər Əliyev qeyd etdi, – sən evə get, mənsə səni bizim işimizə necə cəlb etmək barədə düşünərəm.

Qərarımı sənə bildirəcəklər.

Növbəti zəng Natiq Əliyevi bacısının bağında haqladı. Ondan xahiş etdilər ki, on beş dəqiqədən sonra Prezidentin yanında olsun, o isə etiraz edib bildirdi ki, əvvəlcə gərək evə gedib paltarını dəyişsin.

– Azərbaycan Neft Şirkətinin prezidenti vəzifəsinə bir neçə namizəd var, – Heydər Əliyev ona demişdi. – Mən çox fikirləşəndən sonra sənin namıizədliyinin üstündə dayandım. Sən gəncsən və əminəm ki, işin öhdəsindən gələcəksən. Sabah, avqustun 9-da mən parlamentə dəvət etdiyim xarici şirkətlərin nümayəndələri qarşısında çıxış etməlisən. Onlar başa düşməlidirlər ki, neft bizim mlli sərvətimizdir və biz əvvəlcə bağlanan müqavilələrin sərfəli olub-olmadığını yoxlamalıyıq.

Bu gecənin Natiq Əliyev üçün necə ağır keçdiyini təsəvvür etmək çətin deyil. Demək olar ki, səhərə qədər o öz çıxışının tezislərini yazır, qeydlər edir, yazdıqlarının üzünü köçürürdü.

Səhər saat onda parlamentin böyük zalında hörmətli qonaqlar toplanmışdı. Bunlar Azərbaycanda işləməyə başlayan neft şirkətlərinin nümayəndələri idi. Heydər Əliyev onları salamladı və danışıqlar prosesi başlandı. Bu, Azərbaycanın yeni neft strategiyasında atılmış ilk real addım idi.

Əlbəttə ki, biz Natiq Əliyevi təkcə bu neft strategiyası barədə yox, onu düşünən və dəyərləndirən insan barədə də sorğu-suala çəkdik.

*– Siz Heydər Əliyevlə çox görüşmüsünüz. O sizin yaddaşınızda necə qalıb?*

– İstəyirsiniz, Heydər Əliyevin mənə necə tərbiyə dərsi verdiyi barədə danışım.

*– Bundan kim imtina edər ki...*

– Bir-iki gün idi ki, işə başlamışdım, – Natiq Əliyev aramla söhbətinə başlayır. – Xatırladım ki, Bakıda o vaxt komendant saatı rejimi idi. Mənə isə hələ nə vəsiqə, nə də buraxılış

vərəqi verilməmişdi. Gecə saat on ikidən sonra küçədə patrul hər kəsi saxlayırdı... Axşam saat səkkizdə Heydər Əliyevin katibliyindən mənə zəng vurub dedilər ki, o, bir azdan sizinlə danışacaq.

Mən heç nə demədim. Gözlədim. Saat doqquz oldu, on oldu, zəng edən olmadı. Saat onu keçəndən sonra özüm zəng vurdum. «O, hələ məşğuldur, gözləyin», – dedilər.

Saat on biri keçdi. Artıq on iki yaxınlaşırdı. Nəsə etmək lazımdır. Düzdür, mən yaxınlıqda yaşayırdım, evə piyada da gedə bilərdim, amma sürücüm şəhərin o biri başında yaşayırdı.... Qısası, sürücünü də buraxıb evə getdim.

Səhər saat 9.00-da işdə idim. 9.05-də isə Heydər Əliyevin katibliyindən zəng vurdular:

– Siz neyləmisiz?!

– Neyləmişəm ki?

– Heydər Əliyev səni axtarırdı, sənsə çıxıb evə getmisən.

Mən gedişimin səbəbini izah etdim.

Axşam yenə katiblikdən zəng vurub dedilər ki, Heydər Əliyev səninlə danışacaq. Gözləyirəm. On bir, on iki…saat üçə beş dəqiqə qalmış telefon zəng çaldı. Yenə katiblikdən idi: «Sən evə gedə bilərsən. O, səninlə başqa vaxt söhbət edəcək».

Ertəsi gün vəziyyət təkrar olundu. Yalnız üçüncü gün Heydər Əliyev özü telefonu götürdü. Əlbəttə ki, məni danlamadı. Bircə onu dedi ki, mənim zəngimi gözləməyib evə getdiyin üçün xəcalət çəkmirsən? Vəziyyəti ona başa saldım. Cavabı belə oldu: «Mən indi bu barədə sərəncam verərəm». Sonra mənə başa saldı ki, harada olmağımdan asılı olmayaraq, mən istənilən vaxt səninlə əlaqə saxlaya bilərəm. Mən işdən çıxıb getməyincə sən də işdə olmalısan. Siz gəncsiniz, əslində məndən də çox işləməlisiniz. «Başa düşdüm, cənab Prezident».

Bu, birinci dərs idi. Sonra isə ikinci dərs oldu. Mən Bakıdan kənarda yerləşən müəssisələrdən birinə getmişdim. Heydər Əliyevin zəngi məni orada haqladı: «Bundan sonra

məndən icazəsiz Bakıdan kənara çıxma». «Baş üstə, cənab Prezident».

## Neft əsrinin müqaviləsi

Heydər Əliyevin böyük siyasətdəki möcüzələrindən biri, artıq bütün dünyada əfsanəyə çevrilmiş neft strategiyasıdır. Həqiqət naminə qeyd olunmalıdır ki, məhz Heydər Əliyevin reallaşdırdığı bu strategiya sayəsində müstəqil Azərbaycan beynəlxalq enerji siyasətini müəyyənləşdirən qabaqcıl ölkələr sırasında öz yerini tutdu. Bu uğurun hansı mürəkkəb və çətin sədlərin, xarici və daxili təzyiqlərin dəf edilməsindən sonra əldə olunması indi müstəqil Azərbaycan tarixinin şərəfli səhifələrindən hesab olunur.

Dövrün gerçəkliyi ondan ibarət idi ki, dünyanın bütün qabaqcıl ölkələri, onların nəhəng neft şirkətləri Azərbaycan neftini ələ keçirməkdə maraqlı idilər. „Qara qızıl“ uğrunda kəskin və ciddi mübarizə gedirdi. Azərbaycanda isə Heydər Əliyevin gəlişi ilə nisbi sabitlik yaransa da, silahlı çevrilişlər yolu ilə hakimiyyətə yiyələnmək arzusunda olanlar hələ çox idi. Heydər Əliyevi isə daha qlobal və ciddi məsələ düşündürürdü: Xəzər hövzəsində təsir gücünə yiyələnmək uğrunda gedən mübarizədə gənc, müstəqil dövlətin milli maraqlarını qorumaq və siyasəti elə qurmaq lazımdır ki, bu ancaq cari maraq üçün yox, həm də gələcəyin əsaslarını qoymuş olsun.

## 20 sentyabr 1994-cü il, Bakı

İndi isə təqvimdə 1994-cü ilin sentyabr ayını açaq. Məhz o zaman Azərbaycanda, başqa ölkələrin siyasi və işgüzar dairələrində Heydər Əliyevin irəli sürdüyü sərrast və yığcam «Əsrin müqaviləsi» ifadəsi işlədilməyə başlandı. Bu formulun məzmunu nə idi? Söhbət genişmiqyaslı beynəlxalq işbirliyindən, nəhəng neft layihəsindən gedirdi. Azərbaycan

Dövlət Neft Şirkəti ilə beynəlxalq şirkətlər konsorsiumu arasında Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının müştərək işlədilməsi üzrə müqavilə bağlanırdı. Diqqət yetirək: «Əsrin müqaviləsi»nin təntənəli imzalanma mərasimi 1994-cü il sentyabrın 20-də keçirildi, Heydər Əliyevin hakimiyyətə qayıdışından bir il sonra. Kontraktın ilkin imzalanma tarixi 1993-cü il iyulun 21-nə nəzərdə tuturdu və o zaman prezident vəzifəsində olan Elçibəy artıq İngiltərə səfərinə hazırlaşırdı. Xatırladığımız kimi, gözlənilmədən o, marşrutunu dəyişməli olmuşdur.

Bəli, danışıqları Əliyevin sələfləri səriştəsiz və təmənnalı başlamışdılar. Onlar xarici şirkətlərlə ölkə üçün çox ağır, özləri üçünsə görünür «sərfəli» şərtlərlə sövdələşməyə hazırlaşırdılar. Bərbəzəkli sözlərlə «naxışlanmış» həmin variantların məğzini «topdansatış» adlandırmaq olardı. Amma unutmaq olmaz ki, söhbət müştərisi olmayan, kiflənmiş ayın-oyundan, cır-cındırdan yox, torpağın sərvətindən gedirdi. Bir fəndgir əcnəbi «Çıraq» yatağının mənimsənilməsinə altı il ərzində 21 milyon dollar sərmayə qoymağı vəd edirdi. Bu şərtlə ki, çıxarılacaq neftdən əlavə, o, «səmt qazı»na da yiyə duracaq və həmin qazı Azərbaycana bazar qiymətləriylə satacaq.

«Çırağ»ın neft qaynaqları hazırlıq işləri başlandıqdan üç il sonra istismara verildi və hasil olunan «qara qızıl»ın həcmi milyon tonlarla hesablanır.

Ölkənin 1993-cü ildən sonrakı ağır sosial-iqtisadi və siyasi vəziyyətində müstəqilliyin qorunması üçün dövlət quruculuğu məsələləri ilə eyni vaxtda danışıqlar aparmaq diqqəti əsas məsələlərdən yayındırırdı. Neft müqavilələri sahəsində danışıqlar aparmaq üçün səlahiyyət almış şəxslər isə, qeyd edildiyi kimi, şəxsi mənafeyi dövlətçilikdən də, milli mənafedən də üstün tutur, xarici şirkət rəhbərlərindən rüşvət tələb edir, ölkənin nüfuzunu və „əsrin müqaviləsi"ni təhlükə altında qoyurdular. Xarici şirkətlərin nümayəndələrindən diplomatlar və siyasətçilər vasitəsilə Prezident Hey-

dər Əliyevə şikayətlər daxil olmağa başlamışdı. Məhz belə bir vaxtda, ölkənin, dövlətin nüfuzu təhlükə altına alınanda Prezident Heydər Əliyev ən etibarlı silahdaşına, oğlu, ARDNŞ-in vitse-prezidenti İlham Əliyevə danışıqlar aparmaq vəzifəsini tapşırdı.

İlham Əliyev ölkənin iqtisadi, eyni zamanda siyasi taleyində mühüm rol oynayacaq neft müqavilələrinin hazırlanması üçün faktiki olaraq yenidən danışıqlara başladı, köhnə müqavilələrə tamamilə yenidən baxdı, demək olar ki, onları xilas etdi. Bu sahədəki danışıqları xatırlayaraq İ.Əliyev sonralar deyir: „Qısa müddətdə, dünyanın müxtəlif guşələrində aparıcı siyasətçilər, nazirlər, konqresmenlərlə görüşüb dünyada neft biznesinin müxtəlif aspektlərini, bizim regionun inkişaf perspektivlərini müzakirə edərkən, neft müqavilələrini imzalayarkən mən ilk növbədə geosiyasi məsələləri qaldırır, yalnız bu sahədə anlaşma əldə olunandan sonra, texniki-iqtisadi problemlərin təhlilinə keçir, hər bir məsələni konkretləşdirməyə başlayıram“.

O, xarici həmkarlarını sakitləşdirir və inandırır, şübhəli partnyorlarla xudahafızləşir və yenilərini tapır, sürətlə və məqsədyönlü şəkildə problemləri həll edirdi.

Xəzər şelfində yataqları işlənməsi, neft və qaz kəmərlərinin çəkilməsi, Böyük İpək yolu kimi layihələr İlham Əliyevin Klinton, Mitteran, Şirak, Xasimoto, Kol, Meycor, Bleyer kimi dünya siyasətinin liderləri ilə şəxsi görüşləri zamanı müzakirə olunurdu. Dünyanın 14 ölkəsinin 19 şirkəti ilə danışıqlar aparır, Vaşinqtonda, Nyu-Yorkda, Londonda, dünyanın aparıcı universitetləri olan Harvardda, Stenfordda beynəlxalq iqtisadi forumlarda dünya biznesinin elitası qarşısında çıxışlar edirdi. Beləliklə, İlham Əliyev ölkəsinin iqtisadi nüfuzunu qorumaq uğrunda mübarizədə həm güclü bir iqtisadçı, həm də dünya səviyyəli bir siyasətçi kimi formalaşırdı.

Ölkənin rəhbərinə etibar edən, Heydər Əliyevi investisiyaların qarantı hesab edən sərmayəçilər və partnyorlar

onun oğluna, yüksək dərəcəli iqtisadçı mütəxəssisə, çevik diplomata inanırdılar, etibar edirdilər. Bununla da qısa bir zamanda çox da böyük olmayan Azərbaycan sürətlə dünyanın iqtisadi siyasət mərkəzlərindən birinə çevrilirdi.

İlham Əliyev danışıqların gedişatını xatırlayır: «...Hər bir tərəf, təbii ki, öz maraqlarını yüksək dərəcədə qorumağa çalışırdı. Bəzən işlər çıxılmaz vəziyyətə düşürdü. Xüsusən, 1994-cü ilin yazında və yayında – İstanbul və Hyustonda danışıqların son mərhələləri çətin keçirdi. Danışıqların gedişatında gərgin məqamlar da olurdu və Azərbaycan tərəfı danışıqları dayandırmaq həddinə yaxın olurdu, çünki bəzi şərtləri milli mənafelər üçün qəbuledilməz sayaraq, onlarla razılaşa bilmirdik. Biz xarici şirkətlərə deyirdik: «Siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafıə edirsiniz, biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafıə edirik. Siz səhvə yol verirsizsə, bu, şirkətinizin bir layihəsinə təsir göstərəcək. Biz isə səhv etsək, bu səhv bütün Azərbaycan xalqının maraqlarına ziyan vuracaq. Başqa sözlə, biz heç vəchlə heç bir səhvə yol verə bilmərik».

Opponentlər iddia edirdilər ki, bütün gəlirlər xarici sahibkarların ciblərinə axacaq. İlham Əliyev tutarlı cavab verirdi: «Əsrin müqaviləsi»ndən bütün gəlirin otuz il ərzində 80 faizini Azərbaycan, xarici şirkətlərin hamısı isə cəm halında yalnız iyirmi faizini alacaqlar».

«Əsrin müqaviləsi» Azərbaycanın XXI əsrə siyasi və iqtisadi sıçrayışı oldu. Şübhəsiz ki, bu, ilk növbədə Heydər Əliyevin xidməti, onun zəkasının, iradəsinin, enerjisinin nəticəsi, məhsuludur. Buna görə də bütün dünyada əks-səda doğurmuş həmin cahanşümul hadisədən daha ətraflı bəhs edəcəyik.

1994-cü il fevralın 4-də Prezident Heydər Əliyev «Azərbaycanda dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında» sərəncam imzaladı. Bu strateji sənəd ARDNŞ-in dünyanın ən iri şirkətlərinin konsorsiumu ilə danışıqlarının əsasını təşkil etdi. 1995-ci ilin oktyabrında İlham

Əliyev bu danışıqlar barədə «Günay» qəzetinin əməkdaşına müsahibəsində ətraflı məlumat verdi. Bu müsahibədə neft layihələrindən bir az kənara çıxan maraqlı detallar da öz əksini tapmışdı: «1994-cü il may ayının ikisində, mənim bu vəzifəyə (Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti müəlliflər) təyinatımdan iki gün sonra bizim nümayəndə heyəti danışıqlar aparmaq üçün İstanbula yola düşdü, – deyə İlham Əliyev xatırlayır. – İstanbulda biz iki dəfə olmuşuq. Birinci dəfə iyirmi gün, ikinci dəfə isə bir ay qaldıq. Danışıqlardan sonra elə güman edirdik ki, bütün məsələlər artıq yoluna qoyulub. Həqiqətən də, 1994-cü ildə Hyustona, danışıqların son mərhələsini aparmağa gedəndə biz elə fikirləşirdik ki, burada bir həftə, ən uzağı on gün qalacağıq, müqavilədəki bəzi xırda detallara əl gəzdirəcək, bir neçə həll olunmamış məsələni yoluna qoyacaq və Bakıya qayıdacağıq. Amma mənim gözlədiyim kimi olmadı, danışıqlar vaxtı o qədər həll olunmamış məsələ ortaya çıxdı ki, biz Hyustonda düz qırx beş gün qaldıq. Bəzən mübahisələr elə gərgin həddə çatırdı ki, hər iki tərəf danışıqları yarıda kəsmək istəyirdi.

ARDNŞ-in vitse-prezidenti kimi mən başa düşürdüm ki, bu müqavilə mütləq bağlanmalıdır, amma eyni zamanda anlayırdım ki, müqavilə bizimçün sərfəli şərtlərlə imzalanmışdır. Çünki on il, on beş il sonra heç kim bizi Azərbaycanın maraqlarına zidd olan müqavilə imzalamaqda təqsirləndirməməliydi. Bu iki hiss həmin vaxt nümayəndə heyətinin hər bir üzvünün ürəyində vardı. Mən problemdən çıxış yolunu məsələnin yalnız siyasi həllində görürdüm.

Ağ evdə, Dövlət departamentində çıxışlarım zamanı mən bildirirdim ki, Azərbaycan bu müqaviləni bağlamağı çox arzulayır, amma bu şərtlər bizi qətiyyən qane etmir.

Amerikanın energetika naziri ilə görüşüb onunla da danışıq apardım. Əsas problem Xəzərin statusu məsələsi idi. O vaxt konsorsiuma daxil olan kompaniyalar müqavilədə belə qeyd edirdilər ki, işə Xəzərin statusu müəyyən ediləndən sonra başlanmalıdır. Yəni bir kontrakt bağlanır, qanuni

qüvvəyə minir, amma Xəzərin statusu məsələsi açıq qalır. Siz, hər halda, bilirsiniz, bəzi ölkələr Xəzərin statusu məsələsinin açıq qalmasının tərəfdarıdırlar. Onda mən israr etdim: bu ifadə müqavilədən çıxarılmayınca onu imzalamayacam. Amerikanın energetika naziri mənə tərəfdar çıxdı və bu ifadə müqavilədən çıxarıldı. Müqavilənin bağlanmasında mənim əziyyətim çox olub, amma indi bunu şişirtmək fikrim yoxdur.

*– Əgər sabah, Allah eləməsin, ARDNŞ-in vitse-prezidenti İlham Əliyev işində nəsə səhv buraxsa, Azərbaycan Prezidenti onu bağışlayacaqmı? – deyə müxbir maraqlanır.*

– Məncə, bir oğul kimi bağışlayar, amma vitse-prezident kimi yox. Həm də məsələ onun bağışlayıb-bağışlamayacağında deyil. Mən bunu özüm-özümə bağışlamaram. Belə bir hadisə olarsa, könüllü şəkildə işdən gedərəm.

*– ARDNŞ-in vitse-prezidenti ilə Azərbaycan Prezidentinin fikirləri həmişə üst –üstə düşürmü? Moskvada və sonrakı ağır günlərdə Siz həmişə atanızın mövqeyində dayanmısınız?*

– Əlbəttə, mən həmişə onun mövqeyini müdafiə etmişəm. Çünki bilirdim ki, o, həmişə haqlıdır. İndi də onun mövqeyindəyəm. Bir tərəfdən bu, bir oğul kimi mənim borcumdur, ikinci tərəfdən onun mövqeyi indiki vəziyyətdə düzgündür və Azərbaycanın müstəqilliyinə xidmət edir.

*– Onda sualı başqa cür qoyum. Aranızda hətta xırda məsələlərdə də fikir ayrılığı olmur?*

– Siyasi məsələlərdə yox. Azərbaycanda geosiyasi vəziyyət elədir ki, bizim bir neçə əsas prinsipimiz olmalıdır. Ən əsas isə müstəqilliyimizin qorunmasıdır. Prezidentin bu sahədə apardığı iş alqışa layiqdir. Mən bu addımların həmişə tərəfdarı olmuşam. Düzdür, bəzi məsələlərdə mənim öz şəxsi fikrim var, amma indi vəziyyət gərgindir, diskussiyalar aparmağa lüzum yoxdur. İndi bütün xalq, bütün rəhbərlik eyni nöqtəyə vurmalıdır.

*– Azərbaycan Prezidenti ilə tez-tezmi görüşürsünüz?*

– Bəli.

*– Neft işlərindən əlavə, o öz oğlunun ailə məsələləri ilə, nəvələriylə məşğul olurmu?*

– Hə, çox maraqlanır. Nəvələri üçün çox darıxır. Bizim ailəmiz bir neçə il ayrılıqda yaşayıb. Mən 1977-ci ildə Moskvaya köçmüşəm. Sonra bacım da oraya gəldi. 1983-cü il-də bizim hamımız Moskvada toplaşdıq. Sonra atam Naxçıvana getdi. Biz yenə də ayrı düşdük. İndi bacım xaricdədir. Əlbəttə, atam uşaqlar üçün darıxır, onlarla birlikdə daha çox vaxt keçirmək istəyir. Onları özü böyütmək, tərbiyə vermək arzusundadır.

– İlham müəllim, ata məsləhətinə ehtiyac duyursunuzmu?

– Əlbəttə, amma məncə, əgər insan özünü yetkin hesab edirsə, qərarları da özü qəbul etməlidir, məsuliyyəti də özü daşımalıdır. Şübhəsiz ki, mən atama məsləhət üçün müraciət edirəm. Amma öz problemlərimi özüm həll etməyə çalışıram.

Mən sərbəst həyata çoxdan alışmışam. Prezidentin onsuz da işi başından aşır, hansısa xırda problemlərlə onun vaxtını almaq istəmirəm».

Danışıqların yekunlarını dərindən öyrəndikdən sonra Prezidentin sentyabrın 4-də imzaladığı fərmanda layihənin iqtisadi, siyasi, sosial əhəmiyyəti dəyərləndirilir. ARDNŞ prezidenti Natiq Əliyevə «Azəri», «Çıraq» və «Günəşli» yatağının dərin sularda yerləşən hissəsinin müştərək işlənilməsi, ARDNŞ və doqquz xarici şirkət arasında neft məhsulunun paylaşdırılması haqqında müqavilənin imzalanması həvalə edilirdi. Həmin xarici şirkətlərə əvvəllər Azərbaycanın «qəribliyə saldığı» Rusiyanın «LUKoyl» şirkəti, həmçinin İran və Fransa şirkətləri qoşulmuşdular.

Müqavilənin təntənəli imzalanma mərasimi 1994-cü il, sentyabrın 20-də «Gülüstan» sarayında keçirildi. Bakıya Birləşmiş Ştatlardan, Rusiyadan, Böyük Britaniyadan, Türkiyədən, Norveçdən nazirlər, parlament təmsilçiləri, sahibkarlar təşrif buyurdular.

Heydər Əliyev möhtərəm qonaqlara üz tutaraq:

– Neft – Azərbaycan Respublikasının və Azərbaycan xalqının ən böyük milli sərvətidir, – dedi. – Buna görə də Azərbaycanı «Odlar Yurdu» adlandırırlar.

O, çıxışında fərəhlə respublikada neft hasilatı tarixini xatırladır, Azərbaycan neftçilərinin İkinci Dünya müharibəsi illərində faşizm üzərində qələbə yolunda verdiyi töhfəni qeyd edir.

– Bizim neftçilərimiz Sovet İttifaqının hər hansı nöqtəsində yeni neft yataqlarının inkişaf etdirilməsi və işlədilməsində fəal iştirak etmişlər. Təsadüfi deyil ki, onların səyləri və zəhməti sayəsində kəşf edilmiş və işə salınmış yeni neft yataqları «İkinci Bakı», «Üçüncü Bakı», «Dördüncü Bakı» adlandırılırdı. Azərbaycan neftçilərinin Rusiyada ən böyük Sibir, Tümen yataqlarının inkişaf və istismar edilməsində, orada qüdrətli neft və qaz komplekslərinin yaradılmasında xidmətləri çox böyükdür.

Mən bunları qonaqlarımızın nəzərinə çatdırmağı, Azərbaycan xalqının da yadına salmağı lazım bilirəm. Çünki bütün bunlar Azərbaycan xalqının iftixarı və qürurudur, xalqımızın, neftçilərimizin dünya iqtisadiyyatında böyük xidmətlərindən xəbər verir.

Prezident məclis iştirakçılarına üz tutub danışır və onun sözləri gözəl, çilçıraqlı «Gülüstan» sarayının hüdudlarını aşıb bütün Azərbaycana yayılır, hər bir ailə ocağında fərəh doğururdu. Çünki söhbət xalq sərvətinin taleyindən gedirdi.

– Açığını demək istəyirəm ki, Azərbaycan tərəfinin heç də bütün istəkləri müqavilədə öz əksini tapmamışdır. Lakin biz başa düşürük ki, hər hansı müqavilədə hər iki tərəfin maraqları nəzərə alınmalıdır. Qərbin neft şirkətləri konsorsiumu öz maraqlarını təmin etməyə çalışır, Azərbaycan Dövlət Neft Şirkəti isə Azərbaycan Respublikasının milli maraqlarını təmin etməyə səy göstərir. Deyə bilərəm ki, böyük və gərgin zəhmət nəticəsində, tərəflərin işə yüksək

dərəcədə məsuliyyətlə yanaşması sonucunda hər iki tərəfın maraqlarına cavab verən müqavilə hazırlanmışdır.

1994-cü il dekabrın 2-də razılaşma qanun qüvvəsinə mindi. Dəniz neft buruqlarında və laboratoriyalarda, idarə kabinetlərində və Rusiyadan, Gürcüstandan keçən neft boru kəmərləri boyu işlər başlayır, daha doğrusu, davam edirdi...

«Əsrin müqaviləsi» imzalanıb həyata vəsiqə alandan sonra xüsusilə Rusiya mətbuatında Heydər Əliyevin neft strategiyası ilə bağlı müxtəlif yazılar dərc olunmağa başlandı. Yazıların böyük bir qismində müəlliflər Azərbaycanda, yerli mütəxəssislərin göstərdiyi qədər neft və qaz ehtiyatlarının olmadığını israrla sübut etməyə çalışsalar da, qatar artıq getmişdi. Bir qism jurnalistlər isə neft yataqları ilə bağlı Heydər Əliyevdə hələ sovet dövründən dəqiq məlumat olduğu, ancaq bunu Moskvadan gizlətməsi barədə versiyalar irəli sürürdülər. Məsələn, rus jurnalisti A.Qruşin yazırdı: «Xəzər dənizində neft yataqları Heydər Əliyevin Azərbaycana ilk rəhbərliyi dövründə kəşf olunmuşdu. O, bu yataqlardakı «qara qızıl» ehtiyatlarının miqdarını Moskvadan gizlətmişdi. Moskvada da həmişə belə hesab edirdilər ki, Xəzərdəki yataqlar perspektivli deyil. Zaman göstərdi ki, onlar yanılıblar».

«Maraqlıdır ki, Xəzərin neft ehtiyatları Heydər Əliyevi hətta o zaman, Azərbaycan Kommunist Partiyası birinci katibi işləyəndə də narahat edirdi. Biz Moskvada yaşayarkən o mənə deyirdi: «Mən inanıram, dəqiq bilirəm ki, Xəzərdə böyük neft və qaz ehtiyatları var. Əgər biz Azərbaycana qayıtsaq, o zaman bu məsələ ilə ciddi məşğul olarıq». O həmişə deyirdi ki, Azərbaycanın böyük nefti dünya bazarlarına Gürcüstanın ərazisindən çıxacaq. Səmimi etiraf edim ki, mən o zaman hələ Xəzərdə belə nəhəng yataqların olduğuna inanmırdım. Ancaq xatırlayırm ki, Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Plan Komitəsinin sədri Baybakov bu işdə Heydər Əliyevə kömək etdi. Çünki Rusiya Xəzər nefti-

nin daşınmasında maraqlı idi…» Eduard Ambrosyeviç Şevardnadze bu fikirləri çox-çox sonralar, artıq Heydər Əliyev həyatdan köçəndən sonar söyləyəcəkdi. Amma, həqiqətən, Əliyevin hələ respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olduğu dövrdən Azərbaycanda böyük neft-qaz ehtiyatlarının olmasından geniş məlumatı var idi.

Heydər Əliyev isə 2001-ci il avqustun 26-da ABŞ-ın dövlət katibinin Avropa və Avrasiya ölkələri üzrə köməkçisi Elizabet Consun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən deyirdi: «Bu gün Xəzər dənizində mövcud olan və istifadə edilən neft yataqları həm Azərbaycan sektorunda, həm də Türkmənistan, Qazaxıstan, Rusiya sektorlarında, onların hamısı Azərbaycan geoloqları tərəfindən kəşf edilmişdir. Bu geoloqlardan biri Xoşbəxt Yusifzadədir. O, uzun illərdir bu işlə məşğul olur. Təbii ki, o vaxt kəşf olunan yataqların hamısında iş görmək mümkün deyildi. Amma Sovet Sosialist Respublikaları İttifaqı dövləti tərəfindən bu işlər Azərbaycanın üzərinə qoyulmuşdu».

Başqa bir rus publisisti O.Çıqanov isə yazır: «...Yeri gəlmişkən indi gerçəkləşən layihələr üzrə Xəzərin neft yataqları vaxtilə sovet mütəxəssisləri tərəfindən kəşf olunmuşdu. Əliyev o mütəxəssislərlə çox yaxından tanış idi. Bilmirəm, ancaq mənə elə gəlir ki, hələ o zaman Heydər Əliyev düşüncələrində nəinki Azərbaycanın müstəqil inkişafını istisna edir, əksinə bir çox hallarda bunu planlaşdırırdı».

Müəllifin nə qədər haqlı olduğunu zaman göstərdi. Zaman göstərdi ki, Heydər Əliyev siyasi fəlsəfəsinin əsas qayəsi bütün dövrlərdə müstəqil Azərbaycan quruculuğu olmuşdur. Bu qayə onu bütün həyatı boyu düşündürdüyündən, yaratdığı, sovet dönəmində çalışıb qurduğu nə varsa, bir qərinə sonra belə müstəqillikdən, ona xidmətdən xəbər verirdi. İndi bu gerçəklik Azərbaycanda, müstəqil ölkənin vətəndaşı olan hər bir insanda qürur doğurur.

## Yaxşı yol, «Dədə Qorqud»!

1995-ci il oktyabrın 9-da «Gülüstan» sarayındakı təntənəli mərasimdən 1 il sonra Heydər Əliyev neft konsorsiumunun Beynəlxalq Rəhbər Komitəsi üzvlərini qəbul edir. Layihə iştirakçılarının yekdil rəyinə görə, ötən il uğurlu olmuşdur.

İlkin neftin 1996-cı ildə çıxarılması və işlədilməsi reallığa çevrilməkdədir.

Azərbaycan neftçiləri, sovet dövründə yaradılmış güclü infrastruktura, qazanılmış təcrübəyə əsaslanaraq, dənizin böyük dərinliklərində yerləşən yataqlara doğru irəliləyirdilər.

Dəniz neftçıxarması tarixinə 7 noyabr 1949-cu il qızıl hərflərlə yazılmışdır. Həmin gün indi məşhur olan Neft Daşlarında ilk neft quyusu fontan vurmuşdur. Daha sonra üzən qazma qurğuları – «Şelf-l», «Şelf-2», «Şelf-3», yaradılmış; Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin təşəbbüsü ilə əvvəlcə Həştərxanda qurulması nəzərdə tutulan Dərin özüllər zavodu Bakıda tikilmişdir; bu inşaat ittifaq planlarında ayrıca maddə kimi yer alırdı – axı, 500 milyon dollarlıq nəhəng iş zarafat deyil!

1996-cı il iyulun 4-də Azərbaycan xarici tərəfdaşlarla «Şahdəniz» yatağının işlənilməsi haqqında daha bir müqavilə bağladı – orada, yarım kilometr su qatının altında geoloqlar təbii qaz xəzinəsi kəşf etmişdilər. Bir trilyon kubmetrə qədər qaz! «Şahdəniz» yatağının tədqiqatı nəticələrindən söz açaraq, Heydər Əliyev qeyd etmişdir: «İndiyədək bu işimizə maneçilik törətməyə cəhd edənlər var. Lakin heç kim heç nəyə nail ola bilməyəcək. Azərbaycan dövlətinin yeni neft strategiyası müəyyənləşdirilmişdir. Biz indən belə də bu strategiyanı qətiyyətlə gerçəkləşdirəcəyik».

Hazırda Xəzər dənizində bütöv bir donanma çalışır: bu sırada «İstiqlal» qurğusu, vaxtilə «Xəzərdənizneft» adlanan «Dədə Qorqud» da var.

Bütöv bir zavod timsalında olan bu üzən yarımdalma qurğusu 1981-ci ildən neft və qaz axtarışlarına qoşulmuşdur. Onun hesabında onlarla qazılmış quyu və yeni açılmış neft-qaz layları var. Bu üzən zavodun rekonstruksiya vaxtı gəlib çatanda Azərbaycan mütəxəssisləri və ustalarının iştirakıyla həmin işi Amerikanın «Santa-Fe» şirkəti apardı.

Nəhəng qurğunun üst göyərtəsinə yüz pilləli trapla qalxırlar. Hətta təcrübəli neftçilər də pilləkəndə nəfəs dərməli olurlar. 74 yaşlı Heydər Əliycv inamlı addımlarla yuxarıya qalxır. 1986-cı ildə ona diaqnoz qoyan Kreml xəstəxanasının «xüsusi» həkimləri öz pasientlərini indi görəydilər! O, fəxri qonaqlar kitabında yadigar olaraq bu sözləri yazır:

«Bugün Azərbaycan neft sənayesinin həyatında əlamətdar hadisə baş verir». «Əsrin müqaviləsi»nin reallaşdırılması nəticəsində ilk yarımdalma qazma qurğusu işə salınır. Bu qurğuya xalqımız üçün əziz və müqəddəs olan «Dədə Qorqud» adı verilir. Qurğuya uzun ömür, yaxşı yol arzulayıram. Bu qurğunu yenidən quraşdıran və müasir səviyyəyə çatdıran hər bir insana təşəkkürümü bildirirəm. Böyük neft müqaviləsini həyata keçirən Beynəlxalq konsorsiuma uğurlar diləyirəm.

*Azərbaycan Respublikasının Prezidenti*
*Heydər Əliyev*
*Bakı şəhəri, 24 avqust 1996-cı il.*

Yeri gəlmişkən, düz on yeddi il öncə, həmin gün Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibinə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdi. Neftçilər bu əlamətdar hadisəni unutmamışdılar. Hiss olunurdu ki, Heydər Əliyevin özü də o mükafatı, daha dəqiq desək, ömrünü həsr etdiyi əməyinə verilən qiyməti xatirində saxlayırdı.

İndi isə keçmişlərə nəzər salaraq deyirdi:

– Respublikamızda neft sənayesinin inkişafı, Xəzərin Azərbaycan sektorunda neft yataqlarının rasional istifadə

olunması üçün biz 1970-ci illərdə burada, sizinlə dayandığımız bu yerdə böyük dərin özüllər zavodunun tikintisi haqqında qərar qəbul etdik... İndi böyük iftixar hissilə bu nəhəng zavodun burada yaradılmış istehsalat sahələrini görürük.

Bu gün, buraya gəlib bu böyük zavodun korpuslarına və qüdrətli qurğulara, sahildə və bu sahənin ətrafımda boy atmış ağaclara baxdıqca, mən bir daha iftixar hissi keçirirəm – hər şey vaxtilə Xəzər sahilinin bomboş yerində yaranmışdır. Mən bu gün çox xoşbəxtəm, çox şadam. Xoşbəxtəm və şadam ona görə ki, indi burada gördükləriniz hər şeyin əsasını qoyanlardan biri, təşəbbüskarıyam. İllər boyu çalışmışam ki, bu işlər yerinə yetirilsin, illər boyu zəhmət çəkmişəm ki, bütün bunlar realığa çevrilsin...

(Bəli, öz arzusunun çin olduğunu görən, kamına yetən insan məsuddur. Başqa insanları, gələcək nəsilləri düşünən, nəcib arzularla yaşayan və onları uca əməllərə çevirən insanlar ikiqat xoşbəxtdir. Baykal-Amur magistralının sonuncu, «qızıl» relsini qaynaq edən inşaatçıların sevincdən yaşaran gözlərini yada salaq... Uzun axtarışlardan, çətin sınaqlardan sonra qoca Xəzərin gizlətdiyi zəngin sərvətlərinə yol açan, suların, yerin altından üzə çıxan ilk neft şırnaqlarını görən, yanaqlarına mübarək «qara qızıl» damlalarını yaxan geoloqların, neftçilərin kövrək şadlığını yada salaq... Heydər Əliyev bu sevincin Xəzərin yeni fatehlərinə müyəssər olacağına inanırdı).

– Qurğu yenidən doğuldu. Buna görə də onun yeni adı olmalıdır. Deyə bilərəm ki, Azərbaycan xalqının tarixi, ənənələri və müxtəlif tarixi yerlərilə bağlı ona qədər ad təklif edilmişdir. Bütün təklif edilən adlar həqiqətən dəyərli idi. Lakin mən bu qurğunu «Dədə Qorqud» adlandırmaq qərarına gəldim. Hesab edirəm ki, hər bir azərbaycanlı üçün əziz olan bu ad – bu qurğuya yaraşan ən dəyərli, ən görkəmli addır.

Mən «Dədə Qorqud» qurğusuna böyük, uğurlu yol arzulayıram!

Azərbaycan xalqının «Kitabi-Dədə Qorqud» dastanının yaranma tarixi VIII yüzilliyin əvvəllərinə gedib çıxır. 2000-ci ildə UNESCO-nun qərarıyla məşhur eposun 1300 illiyi dünya miqyasında qeyd olundu. Təbii ki, möhtəşəm bayram tədbirləri Azərbaycanda keçirildi. Dastan XX əsrdə sovet ideologiyasının qondarma və haqsız hökmlərinə məruz qalsa da, bu ölməz abidə qeyrətli elm adamlarının səyləri sayəsində yaşamış və yeni nəsillərə çatdırılmış, xalqın mənəvi irsində təkrarsız və layiqli yerini tutmuşdur. Bu cəsarətli alimlər sırasında görkəmli rus şərqşünası Vasili Vladimiroviç Bartoldun xidmətləri yubiley günlərində xüsusi ehtiramla yad edilirdi.

«Kitabi – Dədə Qorqud» orta əsrlər türk dastan ədəbiyyatının yeganə yazılı əsəridir. Əlyazma Drezdendə saxlanılır (onun Almaniyaya hansı yolla gedib çıxması məlum deyil). Böyük rus şərqşünası Vasili Bartold bu çox qiymətli əlyazmanı ilk dəfə 1891-ci ildə, hələ iyirmi yaşı olanda, Peterburq Universitetinin tələbəsi ikən görmüşdü. Elə həmin vaxt da əlyazmanın üzünü köçürməyə və hissə-hissə tərcümə etməyə başlamışdı. On il ərzində – 1893-cü ildən 1903-cü ilə qədər bu əlyazmanın dörd cildi işıq üzü görmüşdür. Beləliklə, Bartoldun da maraq dairəsi genişlənirdi: Şərq xalqlarının tarixi, mədəniyyəti, Xəzəryanı bölgələrin müsəlman dünyasında yeri. Məşhur alim məhz bu mövzuda 1924-cü ilin dekabrında Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində silsilə mühazirələr oxumuşdur. Amma onun üçün əsas maraqlı mövzu XV əsrdə Azərbaycanda yazıya alınmış bu epos olmuşdur. 1930-cu ildə vəfat edən akademik Bartold ömrünün sonuna qədər «Kitabi-Dədə Qorqud»u öyrənmiş və tərcüməsi üzərində işləmişdir:

«Oğuzların arasında o, birinci adam idi. O, hər şeyi bilirdi, nə desə olurdu».

Dədə Qorqud deyirdi: «Çətin yollarda Qaf dağında atıyla gedə bilməyən igid ata minməsə yaxşıdır».

Yenə Dədə Qorqud deyirdi: «Heç vaxt qonaq üzü görməyən qara evlər dağılsalar yaxşıdır. Atın yemədiyi acı otlar qurusalar yaxşıdır. Adamın içmədiyi acı sular axmasalar yaxşıdır».

Akademik Bartoldun tərcümə etdiyi «Kitabi – Dədə Qorqud»u onun tələbələri «Ədəbi abidələr» adlı akademik silsiləyə daxil edərək 1962-ci ildə nəşr etdirdilər. Beləliklə, ruslara «İqor polku haqqında dastan» dəyərli olduğu qədər, fransızlara «Roland haqqında əfsanə» əziz olduğu qədər azərbaycanlılara, ümumən bütün türklərə əziz olan bu kitab yenidən oxucuların ixtiyarına verildi.

## Böyük neftə aparan yol

Böyük neftə aparan yol hamar olmur, tək ona görə yox ki, «qara qızıl»ın hasilatı ağır zəhmət bahasına başa gəlir.

Bir məşhur bankir yığcam və qısaca demişdir: «Neft puldur. Böyük neft böyük puldur...» Bir başqası əlavə etmişdir: «... və böyük siyasətdir». Azərbaycan nefti, yeni yataqların mənimsənilməsi, nəql istiqamətləri ətrafında ən fərqli maraq – şirkətlərin, bankların, dövlətlərin maraqları toqquşurdu.

Təbü ki, əvvələr bölgənin tamhüquqlu ağası olan Rusiya öz mövqelərinin itirilməsilə barışmaq istəmirdi. RF Xarici İşlər Nazirliyində çalışan bir nüfuzlu diplomatın fikrincə, «Rusiyanı yalnız bir qərar – Xəzərdə üstünlük qane edə bilər, onun buna hüququ və imkanları var. Hər hansı bir alternativ variant Moskvanın bölgədə siyasi təsirinin itirilməsinə gətirib çıxaracaq...» Çox qorxunc ritorikadır. I Pyotrun Konstantinopolda (İstanbulda) Rusiya təmsilçisi Neplyuyevə verdiyi tapşırıq ruhundadır: «Kim olur olsun, fərqi yoxdur, bizim maraqlarmıız əsla yol vermir ki, başqa bir dövlət, Xəzər dənizində bərqərar olsun...»

Təkrarən deyirik ki, bu ritorik hədə zəhmlidir, ancaq əfsus, gecikmişdir. Bunu Moskvada bir çox iş adamları anla-

yırdılar. Məsələn, 1995-ci ilin may ayında Rusiyanın yanacaq və energetika naziri Yuri Şafranik Bakıda çıxış edərkən bildirmişdir ki, «Əsrin müqaviləsi»nə müsbət yanaşır və Xəzərin statusu haqqında söhbətləri «əsassız» sayır. Nazirin bəyanatı cəsarət tələb edirdi. O vaxt Rusiya XİN-də artıq qəribə bir nota verməklə Böyük Britaniya səfiri B.Follu heyrətləndirdilər. Diplomatik praktikada bu nadir, bəlkə də, ən nadir hadisə 1994-cü il aprelin 27-nə təsadüf edirdi.

Notada, Böyük Britaniya və Azərbaycan arasında imzalanmış «Energetika sahəsində əməkdaşlıq haqqında» memorandumda «Xəzər dənizinin Azərbaycan sektoru» anlayışının işlədilməsinə qarşı etiraz bildirilir. Vurğulanırdı ki, əvvəlcədən Xəzər hövzəsindəki bütün ölkələrlə razılaşma olmadan, Xəzər neft yataqlarının işlədilməsinə və neftin Avropa ölkələrinə nəql edilməsinə aid hər hansı layihə hüquqi qüvvəyə malik olmayacaq. Bu hökm Rusiya maraqlarının üzdəniraq «müdafiəçisi», xarici işlər naziri Andrey Kozırevdən gəlirdi. ABŞ dövlət katibinin müavini Stroub Telbott Kozırevi «Rusiyanın ən qərbpərəst siyasi xadimlərindən biri» adlandırmışdır. Həmin illərdə Rusiya Azərbaycana qarşı nəqliyyat blokadasını tətbiq etmişdir. Rəsmi dəlil, guya, «Çeçenistana silah daşıyan kanalları kəsmək» olmuşdur. Blokada Dağıstana da, elə bütün Rusiyaya da ziyan vurdu. Rusiyanın 1994-1995-ci illərdə çəkdiyi zərər 6,1 milyard dollar məbləğində dəyərləndirilirdi. Dövlət Dumasında çıxış edən (sonralar faciəvi şəkildə həlak olan) general Roxlin Rusiyanın Azərbaycana qarşı siyasətini Rusiyanın milli maraqlarınna qarşı xəyanət kimi qiymətləndirmişdi.

Rusiyanın o vaxtkı hakimiyyət dairələrində bu mövqedə olanlar və Azərbaycana hələ də öz vassalları kimi baxanlar kifayət qədər idi. Eduard Şevardnadzenin söylədikləri bunu daha bariz şəkildə göstərir:

– Bakı-Supsa neft kəməri istismara veriləndə mənə qarşı terror aktı törədildi. Mən Svanetidə idim və çıxış edərkən mənə xəbər verdilər ki, Boris Yeltsin (Rusiya Prezidenti)

məni xətdə gözləyir. Mən dəstəyi qaldıran kimi, o məni terror aktından sonra sağ qalmağım münasibətilə təbrik etdi. Biz çox mətləblərdən danışdıq və mən söhbəti bitirmək istəyərkən, o dedi ki, mənimlə çox vacib bir mövzu haqqında danışmaq istəyir. O çox qısaca söylədi: «Xahiş edirəm, Xəzər neftinin Gürcüstan ərazisindən keçməsinə razılıq verməyəsiniz. Burada Rusiyanın maraqları var». Yeltsin mənimlə Rusiyanın vilayət partiya komitəsinin katibi kimi danışdı və bu mənə toxundu. Mən dedim: «Mən söz vermişəm və sözümü tutacağam. Bakı- Supsa neft kəməri artıq fəaliyyət göstərir, ikinci layihənin reallaşdırılmasına başlanır və mən bu işdən imtina edə bilmərəm. Bu işdən ancaq kütbeyin adam imtina edə bilər». Onda mən başa düşdüm ki, əgər Heydər Əliyevin prinsipiallığı olmasaydı, o zaman Azərbaycan bu neftin sahibi ola bilməzdi.

O zaman Xəzər neft və qazının Gürcüstan üçün böyük əhəmiyyəti vardı. Məhz buna görə indi də Gürcüstanda Heydər Əliyevə sevimli adam kimi hörmət və ehtiram göstərirlər. Demək istəyirəm ki, əgər Heydər Əliyev olmasaydı, ola bilsin heç böyük neft layihələri də olmayacaqdı. Bunlar Heydər Əliyevin layihələridir və bunu heç kim dana bilməz. Mən bu proseslərin şahidiyəm. Bu layihələrin reallaşması nəticəsində Gürcüstana 60 milyon dollar vəsait köçürüləcək, nəql edilən qazın 6 faizi bizə pulsuz veriləcək, 12 faiz güzəştli qiymətlərlə satılacaq, əgər lazım gəlsə, Gürcüstan dünya qiymətlərinə istənilən qədər qaz ala bilər».

Xəzərin statusu haqqında söhbətlər, danışıqlar, çəkişmələr hələ bir neçə il davam etdi. İlham Əliyevin nüfuzlu mülahizəsinə görə, Rusiya tərəfindən Azərbaycanın mövqeyinin tanınması, RF Prezidenti Vladimir Putinin 2001-ci ilin yanvarında Bakıya rəsmi səfərindən sonra qərarlaşdı.

Məsələnin «müqəddiməsinə», Rusiya XİN-in xatırlatdığımız notasına qayıtmağa, zənnimizcə, dəyər. O qalmaqallı günlərdə RF yanacaq və energetika naziri Yuri Şafranik özünü necə hiss edirdi? Bəlkə, o da nota hazırlamaq fikrindəydi?

Yaxud «dəli şeytan deyir...» kimi düşünənlərlə sərhədçiləri dilə tutub Xəzərin Rusiya sektorunun mühafizəsi üçün patrul yerləşdirməyə çağırırdı?.. Bu sualları onun özünə veririk. Uçurulmağa məhkum olan «Minsk» mehmanxanasının arxasında, qədim mülkdə yerləşən «SoyuzNefteQaz» şirkətinin idarə heyəti sədrinin rahat kabinetindəyik. Yuri Konstantinoviç stolüstü lampanı özündən azca kənarlaşdırır:

– Siz sualları verincə, mən konfliktin konseptual, sistemli mahiyyətini ifadə edə biləcək sözləri axtarırdım. Və tapdım: bizim fikir ixtilaflarımız dünyagörüşü müstəvisindəydi. Bu sözdə, bu mövqedə israrlıyam.

Nümunə kimi müsahibimiz öz təcrübəsindən bir hadisəni danışır. Nazir olmamışdan, Tümen vilayətinə başçılıq etdiyi dövrün əhvalatıdır. O vaxtlar, Sovet İttifaqının yaşadığı son aylarda, Latviya hakimiyyəti respublikadan Riqa «OMON»unu, xüsusi təyinatlı milis dəstəsini çıxartdı.

– Hamı onları qəbul etməkdən imtina etsə də, mən qəbul etdim, yerləşdirdim. Yaşayır, işləyirdilər və birdən, 1991-ci ilin axırında, ezamiyyətdə olduğum zaman Latviyadan Tümenə prokurorluq və DİN nümayəndələri gəlib bizim vətəndaşı tutub aparırlar. Mən ezamiyyətdən qayıdıb hamını ayağa qaldırdım. «Necə yəni, – dedim, – onlar öz müstəqilliyini elan edib, hamı müstəqilliyə səs verib – Rusiya, Ukrayna, Latviya...

Məsələn, tutaq ki, fransız polisi bizə uçub gəlib vətəndaşımızı həbs edə bilərmi? Nə üzlə Latviyadan durub gəliblər ki, Rusiya vətəndaşını tutsunlar?» Mən bu əhvalatı Xəzərə və Bakıya sarı yönəldirəm. Madam ki, biz özümüz vahid bir ölkəni parçalamışıq, – Əliyev ki parçalamayıb, – onda hansı ağılla hesab edirik ki, münasibətləri təzyiq üzərində qurmalıyıq? Bu dünyagörüşü ziddiyyətlidir. Tamamilə! Mənim, yanacaq və energetika nazirinin arxasında və Kozırevin – xarici işlər nazirinin arxasında müəyyən mövqelər və baxışlar durur. Amma şəxsən özüm-özümdən, Rusiya vətəndaşı Şafranik olaraq soruşuram: biz Azərbaycanla münasibətlə-

ri necə qurmalıyıq? Birinci variant: onların problemlərini, öz problemlərimizi anlamalıyıq. Ümumi məxrəc tapıb birləşərək irəliləməliyik. İkinci variant: onların problemlərini anlamalıyıq və bu problemləri həll etməkdə onlara mane olmamalıyıq. Və üçüncü variant: Aha, siz ayrıldınızmı, di buyurun, gedin!

Üç variantdan ən pisi üçüncüsüdür. Nə tarixi, nə siyasi, nə iqtisadi baxımdan məqbul deyil. Təsəvvur edin ki, Dağıstanla Çeçenistanın yaxınlığında, daha bir qeyri-sabit, qaynar ölkə ... Axı özünə gərək belə sualları da verəsən. Ən yaxşısı birinci yoldur. Amma bunun üçün onların problemlərini yaxşı başa düşməli və özününkülərindən də baş açmalısan. Mən Bakı səfərinə hazırlaşırdım, götür-qoy edirdim, təkid edirdim. Və indi, zaman ötəndən sonra, şadam ki, mənim konsepsiyam doğru oldu. Ölkələrimizin prezidentləri Xəzər üzrə sənədləri imzaladılar. Lakin hətta danışıqlar hələ davam etsəydi də, belə əlbir hərəkətlərə doğru kurs yenə də düzgün çıxacaqdı.

Biz dərhal «Azəri-Çıraq»dan faiz aldıq və «LUKoyl»a verdik. Bu, o zaman dövlət şirkəti idi. Mən onda sərəncam verdim ki, Rusiya tərəfindən Xəzərə «Rosneft» cavabdehdir; o, indi də dövlət şirkətidir. Nə isə, bu, başqa bir söhbətdir...

Yuri Konstantinoviç Heydər Əliyevlə ətraflı və uzun sürən söhbətlərini xatırlayır. Əliyev moskvalı qonağa deyirmiş: «Yuri Konstantinoviç, Prezidenti bir təhər inandır, qoy lap bircə saatlığa uçub gəlsin. Birgə çıxaq, dolanaq. Meydana baş çəkək. Bundan artıq heç nə lazım deyil». O isə uçub gəlmədi...

– Başqa yanaşmalar üstün gəldi, – deyə Şafranik sözünə davam edir, – deyirdim: mən də Ermənistanı sevirəm. Ona qalsa mənim erməni dostlarım azərbaycanlı dostlarımdan çoxdur[1]. Amma Rusiyanın birbaşa marağı – Xəzər və neft-

[1] Bu kontekstdə «başqa yanaşmalar»ın kimlər tərəfindən dəstəkləndiyi aydın olur (müəlliflər).

dir. Azərbaycan və Bakı geosiyasi və strateji mərkəz olmuş və olacaqdır.

Odur ki, gəlin, burada işləyək və bölgənin bütün ölkələrilə münasibətləri inkişaf etdirək.

Yanacaq və Energetika Nazirliyində diplomatların, başqa idarələrin əməkdaşlarının köməyilə bu xətti işləyib hazırladıqdan sonra mən Prezident Yeltsinə məlumat verdim ki, «uçuram». O da razılıq verdi.

– Razılığını şəxsi görüş zamanı verdi?

– Əlbəttə. O başqa məsələdir ki, bu, hökumətlə razılaşdırılıb hazırlanmış direktiv deyildi. Əgər biz bununla məşğul olsaydıq, çək-çevirlərdə ilişib qalacaqdıq. Ona görə də müəyyən risk var idi. Mən riski öz üzərimə götürdüm. Daha sonra Prezidentə məruzələr edərkən, onu Rusiya və Azərbaycanın dövlətlərarası münasibətləri ilə daha çox ciddi məşğul olmağa inandıra bildim.

Mən güzəştlər siyasətinin qəti əleyhinəyəm. Hesab edirəm ki, biz onsuz da çox güzəştə getmişik. Güzəştlərə yox, birləşməyə, qarşılıqlı faydalı qərarların axtarışına getmək lazımdır. Odur ki, konflikti bəsitləşdirməyək. Mən onu dünyagörüşlərin ziddiyyəti kimi dəyərləndirirəm. Rusiya məgər ləyaqətli və möhkəm olmalı deyilmi? Bax, Xəzərdə biz – Yanacaq və Energetika Nazirliyi olaraq – bunları müdafiə edirdik. Mən bizim milli maraqlarımızdan danışıram. Eləcə də, ardıcıl olaraq Heydər Əliyev Azərbaycanın milli maraqlanın müdafiə edirdi.

– Sizi isə Rusiyanın milli maraqlarını müdafiə etdiyinizə görə işdən kənarlaşdırmaq istəyirdilər...

– Bu, yeganə hal deyil. Ən azı üç dəfə elə olub ki, baş nazirin müavinləri Prezidentə yazmışlar ki, Şafranik işdən azad edilməlidir.

– Bu, nə ilə bağlı idi?

– Yanacaq-energetika və iqtisadi problemlərlə, belə deyək... Mən şüurlu hərəkət edirdim. Güman etmirdim ki, iş nota səviyyəsinə gəlib çatacaq... Şüurlu şəkildə Azərbaycan-

la əməkdaşlığm düşüncəmə uyğun realizə edilməsinə gedirdim... Və söhbətimizi Heydər Əliyev haqqında bu sözlərlə bitirirəm. Mən Heydər Əliyevi böyük insan, çox görkəmli dövlət xadimi hesab edirəm. Azərbaycan xalqının bəxti onda gətirdi ki, məhz o zaman Heydər Əliyeviç sükan arxasında oldu. O sınmamış, o qalxmğa özündə qüvvə tapmışdı... O kəs ki qalxmamışdır, qalxmağın nə demək olduğu barədə heç mülahizə söyləyə bilməz...

Siz istefadan sonra qalxa bilən adamları çoxmu görmüsünüz? O isə qalxmağı, respublikasına, xalqına fayda verməyi bacardı... Mən bir çox görüslərin, söhbətlərin, hətta gecələr saatlarla davam edən danışıqların, diskussiyaların iştirakçısı olmuşam. Bu, bir növ Əliyev məktəbi idi. Mən görürdüm ki, bu insan müşavirəni, konfransı, görüşü necə düşünür, düzüb-qoşur. Özü diqqət yetirirdi ki, masalar necə qoyulub, kim harda əyləşəcək; başa düşürdü ki, siyasətçi üçün xırda sayılan şey yoxdur. Nazir vəzifəsində olmayanda mən Əliyevin dəvətilə Azərbaycana onun prezidentlərlə görüşlərinə gedirdim. İlahi, o görüşləri o, necə aparırdı, rəhbərlik etmirdi, yox, aparırdı, çünki yığışanlar hamısı eyni səviyyəli idilər, o isə sanki dirijorluq edirdi, sizə deyim ki, bu, çox böyük məharətdir. Həm də böyük bir siyasətçinin dərsləridir.

Sizə, yəqin ki, çoxları onun fantastik yaddaşından danışıb. Mən belə insanlara daha rast gəlməmişəm, O, birbaşa, hansısa məlumatı əzbərdən misal gətirir. Güman edilə bilər ki, müzakirəyə hazırlaşıb. Amma mövzu dəyişir və o, yenə də nəhəng faktiki material haqqında eyni bələdçiliklə danışır – bu, heyrətamiz bir haldır!

## Yeltsin Bakıya gəlib çıxmadı

Həmin ərəfədə şəxsi təşəbbüsləri ilə bir çox şəxslər – məşhur siyasətçilər, dövlət xadimləri, alimlər Boris Nikolayeviç Yeltsinin diqqətini Azərbaycanla Rusiya arasındakı

əlaqələrin arzuolunan səviyyədə olmamasına yönəldirdi. Onların sırasında Ramazan Abdullatipov və Vyaçeslav Mixaylov da vardı. Fəlsəfə elmləri doktoru, Rusiyanın tanınmış ictimai-siyasi xadimi Ramazan Abdullatipov xatırlayır:

«Mən həmişə Boris Nikolayeviçi inandırmağa çalışırdım ki, Bakıya gedib Heydər Əliyeviçlə şəxsən görüşmək prinsipial olaraq vacibdir. Amma hər dəfə araya xoşagəlməz hadisələr girirdi. Gah İran, gah Türkiyə, gah Ermənistan, gah radiolakasiya stansiyası, gah başqa problemlər...»

Tarix elmləri doktoru Vyaçeslav Aleksandroviç Mixaylov Rusiyanın Milli Məsələlər Nazirliyinə (bu nazirlik sonralar prezident tərəfindən ixtisara salınmışdı) başçılıq edərkən Rusiya prezidentinə ölkənin xarici siyasi prioritetləri ilə bağlı məktub yazmışdı.

«Bu, elə bir dövr idi ki, Rusiya öz xarici əlaqələrinin əsas məqamlarını hələ təzə müəyyən etməyə başlayırdı, – deyə professor Mixaylov xatırlayır. – Ölkə sanki onilliklər, yüzilliklər ərzində formalaşmış tarixi təcrübəni nəzərə almaq istəmirdi. Əsas problem – etno-milli amillərin anlaşılmamasıyla, başa düşülməməsiylə bağlı bəzi köhnəlmiş stereotiplərdən qurtulmaq idi.

Bəzi siyasətçilər Prezidentin qulağını doldururdular ki, pravoslavlar pravoslavlarla, müsəlmanlarsa müsəlmanlarla bir yerdə olmalıdır. Və ölkənin xarici siyasi əlaqələri də məhz bu prinsiplər əsasında qurulmalıdır, müttəfiqlər də bu cür seçilmədir. Mən bu söhbətləri heç də o vaxtın siyasətçilərinin səviyyəsiz olduğunu sübut etmək üçün demirəm. Bu, sadəcə «yeni siyasət», «yeni ictimai təfəkkür» formalaşdırdıqlarını düşünən bəzi gənc siyasətçilərin xəyalları idi. Əfsuslar olsun ki, bu zaman əsas məsləhətçi olan tarixi təcrübə bir fundamental prinsip kimi nəzərə alınmırdı.

Tarixi təcrübə elə bir müdriklik mənbəyidir ki, onsuz heç bir diplomatiya mövcud ola bilməz. Bu cəhətdən, həm

də geosiyasi, strateji, iqtisadi və bir çox başqa amilləri nəzərə alaraq anlamaq olar ki, Azərbaycan Rusiyanın ən yaxın müttəfiqlərindən biridir. Buna görə də nəticə çıxarmaq olar ki, Azərbaycan bir müstəqil respublika olaraq bizim əsas partnyorumuz olmalıdır. Xarici siyasətin prioritetində milli maraqlara əsaslanmaq kimi fundamental prinsipə söykənən Rusiya siyasəti hələ Birinci Pyotrun vaxtından xarici siyasətdə uğurlar qazanmışdı, Amma bu prinsiplərdən geri çəkilən kimi iflasa uğrayırdı. Mən xarici səyasətimizin Azərbaycan istiqamətinə xüsusi diqqət verməsinin tərəfdarıyam: məsəl üçün, Dağıstanın taleyi burada həll olunur, burada bizim Türkiyə, İranla olan əlaqələrimiz kəsişir».

«Rusiya-Azərbaycan münasibətləri: təcrübə, imkanlar, perspektivlər» adlı elmi konfransda da Vyaçeslav Mixayloviç bu fıkirlərini açıqlamışdı (bu tədbiri Dövlət Xidməti Akademiyasının xarici əlaqələr kafedrası və Rusiya Azərbaycanlıları Konqresi Azərbaycanla Rusiya arasında diplomatik əlaqələrin qurulmasının on illiyi münasibətilə təşkil etmişdi). Konfransda çıxış edən Azərbaycanın Rusiyadakı o vaxtkı səfiri Ramiz Rizayev professor Mixaylovun Prezident Yeltsinə yazdığı məktubu xatırladı: «...o vaxtlar heç də bütün siyasi xadimlərin hünəri deyildi ki, belə cəsarətli addım ataraq Rusiya rəhbərliyini nədəsə təqsirləndirsin, prezidentin siyasətində qüsurlar olduğunu açıq bildirsin».

Sonradan hər iki tərəf bu siyasətə müəyyən düzəlişlər etdilər. Həmin konfransda Azərbaycanın Rusiyadakı o vaxtkı fövqəladə və səlahiyyətli səfiri Ramiz Rizayevin şəninə çoxsaylı təriflər söyləndi. Məhz onun bilavasitə iştirakı ilə Azərbaycanla Rusiya arasında yeganə düzgün münasibətlər variantı – qarşılıqlı hörmət əsasında qurulan münasibətlər formalaşdırıldı.

Səfiri isə oxucunun xatirindədirsə, özünün ilk Prezident fərmanıyla məhz Heydər Əliyev təyin etmişdi.

## Prezident çekist olanda

Heydər Əliyev müstəqil dövlətin əsas dayaqlarından olan güc strukturlarının, xüsusilə bir vaxtlar özünün çalışdığı Dövlət Təhlükəsizlik Komitəsinin fəaliyyətinə böyük diqqət və qayğı ilə yanaşırdı. Amma yenidən hakimiyyətə qayıdandan sonra aydın oldu ki, digər dövlət strukturları kimi, bu qurumun üstündən də qara yellər əsib...

Keçmiş Sovetlər Birliyində yüksək peşəkar çekist heyəti və səmərəli fəaliyyəti ilə həmişə öndə olan Azərbaycan Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin qara günləri Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra, 1992-ci ilin martından başlamışdı. O ərəfədə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin adı dəyişdirilib Milli Təhlükəsizlik Nazirliyi (MTN – red.) oldu. Amma yaxşı mənada dəyişiklik təkcə adda idi. Digər dövlət qurumlarında olduğu kimi, burada da bolşeviksayağı kadr dəyişiklikləri başlandı. Cəbhəçi rəhbərlərin qəzəbinə ilk tuş gələnlər təcrübəli, səriştəli, yüksək ixtisaslı köhnə kadrlar, xüsusilə də rusdillilər oldu. Həmin günlərdə Rusiya Federal Təhlükəsizlik Xidməti ilə MTN arasında, arzu edənlərin Azərbaycandan Rusiyaya xidmətə keçirilməsi barədə razılaşma var idi. Altı ayda, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin dağıdılması demək olar ki, baş tutdu.

1992-ci ildə MTN-də bütün kadrlar məcburi olaraq Azərbaycan dilindən imtahan verməli oldular. İmtahandan keçməyənləri kadrlar idarəsinin sərəncamına göndərirdilər. Bu hal bir ilə yaxın, Heydər Əliyev hakimiyyətə gələnə qədər davam etdi. Bu bir ildə Xalq Cəbhəsi yüksək ixtisaslı kadrların yerinə öz tərəfdarlarını təyin edir, işə qəbul heç bir xüsusi yoxlama aparılmadan həyata keçirilirdi. MTN-ə Xalq Cəbhəsində yüksək vəzifə tutanların qohumları daha çox işə götürülürdü.

Agentura və kəşfiyyat şəbəkəsi demək olar ki, dağılmışdı. MTN-in çox mühüm bir funksiyası – terrorizmlə mübarizə ondan alınıb DİN-ə verildi. Nəticədə 1993-94-cü illərdə Azər-

baycan praktik olaraq xarici və daxili düşmən qarşısında müdafiəsiz qaldı. Bu özünü dərhal göstərdi, Azərbaycanda bir-birinin ardınca terror və təxribat aktları törədilməyə başlandı. Məsələn, 1994-cü il martın 19-da «Sadval» ləzgi milli hərəkatının üzvlərindən biri Bakı metropoliteninin «20 Yanvar» stansiyasında partlayış törətdi. Nəticədə 14 nəfər öldü, 52 nəfər yaralandı. İstintaq müəyyən etdi ki, bu terror aktnın törədilməsində «Sadval» milli hərəkatının rəhbərliyinin də əli var.

Dövlət təhlükəsizlik orqanlarını dirçəlişi yalnız 1993-cü ildə, vaxtilə bu sahənin peşəkar əməkdaşı olmuş, bu təsisatın milli dövlətçiliyin müdafiəsindəki yerini və rolunu çox gözəl başa düşən Heydər Əliyev hakimiyyətə gələndən sonra başladı. Xidmət tədricən öz fəaliyyətini bərpa etməkdə idi və 1993-96-cı illərdə bir sıra böyük və səs-küylü cinayətlərin üstünün açılması da məhz bunu göstərirdi. Həmin cinayətlər sırasına terror aktları və təxribatlar, «islam inqilabı» hazırlamaq cəhdləri və s. daxil idi. Dövlətə deyil, bir sıra qurumların liderlərinə tabe olan silahlı dəstələrin tərk-silah edilməsi istiqamətində də əhəmiyyətli işlər görüldü.

Dövlət başçısının tapşırığı ilə təhlükəsizlik orqanlarının sıralarını təsadüfi adamlardan təmizləməklə yanaşı, nazirlikdə bir sıra struktur islahatları da həyata keçirildi. Bir qədər qabağa gedib qeyd edək ki, 2001-ci il avqustun 1-də Prezident Heydər Əliyevin fərmanı ilə Hərbi Əks-Kəşfiyyat Xidməti MTN-in tərkibinə verildi. Bununla eyni vaxtda Sərhəd Qoşunları İdarəsi MTN-in tərkibindən çıxarılaraq, onun bazasında Dövlət Sərhəd Xidməti təsisatı yaradıldı.

XX əsrin sonunda təbii ki, Heydər Əliyevin tövsiyə və tapşırıqları ilə respublikanın xüsusi xidmət orqanları bir sıra xarici ölkələrin, o cümlədən ABŞ-ın kəşfiyyat xidməti ilə əməkdaşlıq əlaqələri qurmağa başladılar. Məhz Azərbaycan-Amerika xüsusi xidmət orqanlarının birgə səyi ilə 1999-cu ildə ABŞ səfirliyinin Bakıdakı binasının partladılmasının qarşısı alındı. Bu münasibətlə Birləşmiş Ştatların Prezidenti Bill Klinton azərbaycanlı həmkarına – Heydər Əliyevə min-

nətdarlıq məktubu göndərdi. Elə o vaxtlardan rəsmi Bakı ABŞ-ın antiterror əməliyyatlarını yaxından dəstəkləməyə başladı.

## «Əsrin müqaviləsi» haqqında

**1996-cı ilin oktyabrı.** Heydər Əliyevin keçirdiyi müşavirədə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) iki illik fəaliyyətinin yekunları müzakirə olunur. Stenoqramı maraqlı detektiv əsər kimi birnəfəsə oxuyursan. Budur, neft boru kəmərlərinin tikintisi müzakirə olunur:

**Heydər Əliyev:** Siz dediniz ki, Qərb boru kəmərinin çəkilməsinə gələn ilin martında başlayacaqsınız və tikintini 1998-ci ilin sonunda başa çatdırmağa söz verirsiniz. Sual doğur: bəs niyə belə gec? Axı sizin yadınızdadır ki, bu ilin martında biz cənab Şevardnadze ilə Qərb boru kəməri haqqında müqavilə bağladıq. Hansı səbəblərə görə işə başlamaq üçün bir il lazım olub? Niyə işlərin başlanması gecikdirilir?

**ABƏŞ-in vitse-prezidenti Veyn Volts:** Cənab Prezident, Qərb marşrutu üzrə inşaat işlərinin smetasını tərtib etmək, icra olunacaq işlərin xərcini müəyyənləşdirmək üçün gərgin iş aparılır. Supsada terminal tikilməsi üçün nəzərdə tutulmuş sahə, belə iş üçün dənizdə ən pis yer kimi səciyyələndirilir. Gürcüstan Beynəxalq TSIeft Korporasiyası və «Con Braun injinirinq» firması bu sahədə ətraflı texniki, mühəndis, geotexniki araşdırmalar aparırlar. İşləri başlamağa yetərincə əmin olmaq üçün lazımi dəqiq məlumatı və zəruri işlərin dəqiq smetasını biz yalnız 1997-ci ilin martında alacağıq...

Tikintiyə hazırlıqla və onun aparılması ilə bağlı 33 milyon dollar məbləğində aralıq büdcə tərtib olunmalıdır ki, mövcud olan boru kəmərlərinin təftişi, boru kəmər yatağı sahələrinin, dəniz dibinin öyrənilməsi, yerüstü terminal inşaatının alternativ variantı kimi «orqanik terminaldan istifadə olunma imkanlarının aşkarlanması» və sairə tədbirləri həyata keçirə bilək. Layihəni idarə etmək üçün mühəndis

işlərinin aparılması və bütövlükdə layihənin hazırlanması ilə bağlı «Con Braun injinirinq» firması ilə müqavilə imzalanmışdır.

Gələn ay tikinti işlərinə tender elan etmək istəyirik. Hesab edirəm ki, bizim hesablamalara və rəqəmlərə arxayın olub, gələn ilin əvvəlində tikinti layihəsini təqdim edə və 1997-ci ilin martında tikintiyə başlaya bilərik.

Layihəni 1998-ci ilin sonuna başa çatdırmaq üçün biz işlərin çox dəqiq, intensiv qrafikini tərtib edəcəyik.

**Heydər Əliyev:** Sağ olun. Lakin istənilən halda hesab edirəm ki, Qərb boru kəmərinin inşasında böyük gecikmə var. Əgər Supsa limanının belə səciyyələndirilməsi varsa, əgər o, deyilənə görə, dünya təcrübəsində bu məqsədlər baxmından ən pis yerdirsə, hesab edirəm ki, orada, Gürcüstan ərazisində başqa bir liman seçmək olardı. Lakin bu Supsa limanı lap əvvəldən seçilmişdir. Görünür, bilirmişlər ki, əlverişli limandır. Ümumiyyətlə, biz artıq bir ildir ki, Qərb boru kəmərindən danışırıq. İndi isə məlum olur ki, Supsa limanı yaramır və hətta başqa terminallar haqqında düşünürlər. Açığını deyim ki, bu məni çox təəccübləndirir».

Prezidentin yanında keçirilmiş digər müşavirələrin stenoqramları da eynilə bu cür konkret və kəskindir. Ümumi səciyyəli, «daha yaxşı işləmək lazımdır» kimi çağırışlar, göstərişlər yox, vəziyyətin sərrast təhlili var. İstər söhbət qazma qurğularının istifadəsindən, istərsə də yerli kadrların cəlb olunmasından getsin, fərqi yoxdur.

«Qarabağ» neft yatağının işlənilməsinə həsr olunmuş (1997-ci il, 5 aprel tarixli) müşavirədə Heydər Əliyevin çıxışından:

– Hərdən eşidirəm ki, bu kompaniyalar buraya, hətta fəhlə gətizdirmək istəyirlər. Mən əvvəlcədən xəbərdarlıq edirəm və Azərbaycan Dövlət Neft Şirkətinə sərəncam verirəm ki, buna nəzarət etsinlər, biz bununla razı deyilik. Siz bilirsiniz ki, Azərbaycan neftçiləri yüksək səriştəyə malikdirlər. Azərbaycanın neft sahəsində məşhur alimləri, mü-

həndisləri, yüksək ixtisaslı fəhlələri var. Bütün bunlar reallıqdır. Neft sazişləri bağlanmış bütün yataqlar Azərbaycan mütəxəssisləri, alimləri tərəfindən kəşf edilmişdir. Azərbaycan artıq 50 ildən çoxdur ki, nefti dərin dəniz qatlarından hasil edir. Azərbaycan neftçiləri neftçıxarma ilə yalnız vətənlərində yox, vaxtı ilə Vyetnamda da məşğul olmuşlar. Bildiyiniz kimi, Vyetnanın cənubunda, dənizdə Vunqtau adlanan yer var. Orada neftin kəşfiyyatı və hasil edilməsilə ilk dəfə məhz Azərbaycan neftçiləri özlərini sınağa çəkmişlər. Mən 1983-cü ildə Vyetnamda olduğum zaman Azərbaycan neftçilərinin işlədikləri yerlərə getdim və bütün bunları gördüm. İndi Vyetnam orada bol neft çıxarır.

Azərbaycan neftçiləri Kubada, Rumıniyada, Hindistanda neft hasilatı sahəsində çalışmışlar. Və buna görə də Azərbaycan neftçiləri yüksək səriştəli mütəxəssislər sayılırdılar. Hesab edirəm ki, istər Azərbaycan mühəndisləri, istərsə də texnikləri, fəhlələri bu işlərə geniş cəlb olunmalıdırlar.

Məsələn, «Dədə Qorqud» qazma qurğusunda olarkən, mən orada gördüm ki, Qərb ölkələrindən gələn yüksək ixtisaslı mütəxəssislərlə yanaşı Azərbaycan Respublikasının yüksək hazırlıqlı mütəxəssisləri də çalışır və öz yaxşı işləriylə fərqlənirlər. Buna görə sizdən belə bir xahişim var ki, mənim bu fıkrimi gələcək fəaliyyətinizdə, ştatların tərtib edilməsində nəzərə alasınız. Mən Azərbaycan Dövlət Neft Şirkətinə və onun prezidentinə tapşırıram ki, onlar bizim tərəfdən bu məsələlərə nəzarəti təmin etsinlər.

Biz bütün imzalanmış sazişlərin həyata keçirilməsinə çalışırıq və bundan sonra da çalışacağıq. Mən şadam ki, siz yaradılmış iş şəraitindən razısınız. Biz bundan sonra da xaricdən gələn şirkətlər, mütəxəssislər üçün yaxşı iş şəraiti yaratmaq istiqamətində lazimi tədblrlər görəcəyik.

Bizim dünyanın məşhur neft şirkətlərilə əməkdaşlığımız uzunmüddətli səciyyə daşıyır. İmzaladığımız bütün sazişlərin müddəti otuz ildir. Lakin ümidvaram ki, nəticə əldə ediləndən sonra otuz ilə hələ çox illər əlavə ediləcək.

## 3 iyul 1997-ci il, Moskva

Prezident Heydər Əliyevin Rusiya Federasiyasına ilk rəsmi səfəri və Kremldə Prezident Yeltsinlə danışıqlara başladığı gün. On il əvvəl Heydər Əliyev sənədlərini yığışdırıb Kremli tərk etmişdi. Olsun ki, bir başqasının qəlbində indi xudpəsəndlik hissi baş qaldırardı: Buyurun, baxın. Görürsünüz, gəldim. Mənə qarşı haqsız olanlara göstərdim ki... Təbii ki, Əliyevə də adi insani yaşantılar yad deyildi; Rusiya Prezidentinin onu qəbul etdiyi Kreml palatalarının yeni interyerlərinə maraqla göz gəzdirdi, «ev yiyəsi»nin özünün, ömür yoldaşının, qızlarının, nəvələrinin hal-əhvalıyla maraqlandı... Yeltsin ürəyində aparılmış cərrahiyyə əməliyyatından sonra özünə gəlmişdi; Kremlin xidmətlərini, hökuməti o ki var qınayırdı; Nijni Novqoroddan yenicə cavan adaşı Boris Nemtsovu irəli çəkib hökumətin ikinci pilləsinə qaldırmışdı.

Görüşdən rəsmi məlumatlar yayan reportyorlar qeyd edirdilər ki, görüş «səmimiyyət və qarşılıqlı hörmət şəraitində» keçmişdir. Ayrı cür də ola bilməzdi axı; vaxtilə Siyasi Büro iclaslarında birgə iştirak etdiyi azərbaycanlı həmkarını Rusiya Prezidenti dörd il idi ki, dəvət etmək niyyətində idi. Daha əvvəl, görünür, heç bir imkan tapa bilməmişdi...

İndi onlar dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə və beş saziş imzalamalı, o cümlədən Xəzər dənizində Azərbaycanın perspektivli «D-222» blokunun kəşfiyyatı, işə salınması və hasilatın paylaşdırılması haqqında razılaşmalı idilər.

İlkin gözəlliyinə uyğun olaraq bərpa edilmiş Kremlin Vladimir zalında Rusiya və Azərbaycan himnləri səslənir. Boris Yeltsin öz nitqini kağızdan oxuyur:

– Rusiya və Azərbaycanı çoxəsrlik tarix, ən zəngin ənənələr və müxtəlif əlaqələr birləşdirib. Biz onları qıra bilmərik. Biz onların inkişaf etməsi üçün əlimizdən gələni etməliyik...

Heydər Əliyev yazılı mətnə (vardısa da) əl atmadı:

– Mən Sizi, Boris Nikolayeviç, bütün burada iştirak edənləri bu əlamətdar hadisə – Rusiya Federasiyası və Azərbaycan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında sənədin imzalanması münasibətilə ürəkdən təbrik edirəm... Mən bu gün böyük iqtisadi sənədlər paketinin imzalanmasından son dərəcə məmnunam. Onlar bizim əməkdaşlığımızın bütün sahələrdə gələcək inkişafı və dərinləşdirilməsi üçün yaxşı hüquqi anlaşmanın əsasını yaradırlar...

Az sonra jurnalistlərin suallarına cavab verən Heydər Əliyev bildirmişdi ki, Xəzər nefti məsələsi də müzakirə olunmuş və biz Boris Nikolayeviçlə geniş fikir mübadiləsi aparmışıq... Rusiyanın «LUKoyl» şirkəti indiyədək Azərbaycan neft şirkətinin transmilli şirkətlərlə imzaladığı müqavilələrin üçündə iştirak etmiş və bu gün «LUKoyl» şirkəti və Azərbaycan neft şirkəti arasında dördüncü müqavilə imzalanmışdır».

İyulun 4-də Rusiyanın maliyyə və işgüzar dairələrinin təmsilçilərilə keçirilən görüşdə də Heydər Əliyev bu mövzuya qayıdır. 1994-cü ildə imzalanan ilk müqaviləni xatırladaraq qeyd edir ki, həmin müqavilə Rusiyanın bəzi dairələrində, «LUKoyl»un iştirak etməsinə baxmayaraq, nədənsə bədxahlıqla qarşılanmışdı.

– İndi «LUKoyl» dörd müqavilədə iştirak edir. Bunu ona görə deyirəm ki, bəzən burada, Rusiyada, müxtəlif dairələrdə, təəssüf ki, dövlət dairələrində də söz-söhbət gedir ki, Azərbaycan Rusiyadan uzaqlaşır, daha çox Qərb şirkətlərilə ünsiyyətdə olur və sairə. Respublikamızın bədxahları süni olaraq qeyri-sağlam iqlim yaratmaq istəyir, mətbuatda şayiələr yayır, cürbəcür məqalələr yazırlar və sairə. Açığını deyim ki, bu bizlərdə çox böyük narazılıq doğurur, çünki biz birgə işləyirik...

Azərbaycanın dövlət başçısı bu gileyləri Rusiyanın dostu kimi bildirirdi. İnanırdı ki, «Moskvada dünənki, srağagünkü, bugünkü görüşlərdən sonra arada olan və bəlkə, sabah

da olacaq qeyri-sağlam söhbətlərin qarşısını siz alacaqsınız...»

Xatırladırdı ki, uzun illər məhz Azərbaycan Sibirə, Tatarıstana, Başqırdıstana lazım olan neft-mədən avadanlığının 70 faizini təmin edirdi. «Lakin bu əlaqəmizi qapatdılar, bizim maşınqayırma zavodlarımız ağır vəziyyətdə qaldı. Amma iş yalnız bunda deyil, biz onları bu vəziyyətdən çıxaracağıq.

Əgər hazır şəkildə, yaxşı avadanlıq buraxan istehsalat varsa, niyə də ondan istifadə olunmasın?»

## İradə mümkün olmayanı da gerçəkləşdirir

Nəticə işin tacıdır. Müxtəlif xalqların bu cür və ya buna oxşar deyimləri var. Geoloq əməyinin tacı yerin alt qatlarında gizlənən sərvətlərin kəşfidir. Kəşfiyyat buruğundan göyə fışqıran neft fəvvarəsidir. Ardınca neftçi baba bu təsərrüfatda öz işini ağıllı və səmərəli qurmalıdır. «Əsrin müqaviləsi»nin üç yaşı tamam olandan sonra ilkin neftin çıxarılması əlamətdar hadisə kimi qeyd olunur.

Bakı bayram edir. Yeni yataqdan çıxan «qara qızıl» ağ günlərdən xəbər verir. Ənənəyə görə, bu təbii sərvətdən azca üzə yaxmaqla bayramlaşırlar. Heydər Əliyev də, o zaman ARDNŞ-in vitse-prezidenti İlham Əliyev də, fəxri qonaqlar da bu neftçi adətinə əməl edirlər...

Yeni neft strategiyasının parlaq göstəricisi yüz milyonlarla dollar vəsaitin toplandığı Neft Fondudur. Bu vəsait sosial problemlərin həllinə, bütün respublika vətəndaşlarının yaşayışının yaxşılaşdırılmasına sərf ediləcək.

Azərbaycana gələn sərmayələrin məbləği bir çox MDB ölkələrinin göstəricilərini qabaqlayır. Bu yalnız iqtisadi sərfəliliklə deyil, həm də respublikadakı sabit iqlimlə, demokratik və hüquqi əsasların bərqərar olunmasıyla şərtlənir. Xarici mütəxəssislər, tərəfdaşlar bu cəhəti xüsusi vurğulayırlar. ABƏŞ şirkətinin prezidenti Devid Vudvord qeyd

etmişdir: «İqtisadi və ictimai sabitlik, xarici neft şirkətlərinin ARDNŞ və Azərbaycan hökumətilə beynəlxalq neft sənayesinin standartlarına uyğun tərəfdaşlıq əsaslarında əməkdaşlığı ölkəyə sərmayə cəlb etməkdə davam edəcək».

«Azəri-Çıraq-Günəşli» yataqlarının işlədilməsinin yalnız birinci mərhələsi respublikaya əlavə olaraq üç min iş yeri yaratmağa imkan vermişdir.

İki yeni neft kəməri işə salınmış, Səngəçalda böyük terminal tikilmişdir.

Böyük idarəçilik təcrübəsinə və reallığa söykənən iradə, – Heydər Əliyevin məhz bu məziyyətləri neft strategiyasının uğurla gerçəkləşdirilməsini şərtləndirmişdir.

Müxtəlif zamanlarda filosoflar, yazıçılar, siyasətçilər insan iradəsinin təbiəti haqqında düşünmüşlər. Cek London iradəni "sehrkar vasitə" adlandırmışdır. Hansı daşlardan hörülmüş olsa da, «dünyada elə bir möhkəm divar tapılmaz ki, insan iradəsi və düşüncəsinin yolunu kəsə bilsin», – bu, Braziliya yazıçısı Jorji Amadunun kəlamıdır.

Azərbaycan Prezidentinin iş masası üstündə bir çox görkəmli mütəfəkkir və sənətkarların əsərlərini də görmək olardı – Dostoyevski, Karleyl, Nizami, Sartr... Kim bilir, onları mütalə edən insanın qəlbində məhz hansı fikir, mülahizə əks-səda doğurmuşdur. Heydər Əliyev kitablara elə sevgiylə, qədirbilənliklə yanaşırdı ki, demək olar, səhifələrin kənarında da qeyd, işarə cizgiləməyə qıymırdı. Çox vaxt oğluna, ya qızına bu və ya digər əsəri oxumağı məsləhət görər, ayrı-ayrı nəşrlərə öz köməkçilərinin diqqətini yönəldərdi. Məsələn, qarşınızdakı kitabın müəlliflərindən biri, Hüseynbala Mirələmovun «Xəcalət» adlı Qarabağ faciəsindən bəhs edən toplusuna belə bir təqdir müyəssər olmuşdur...

Heydər Əliyev Emersonun bir kəlamını çox güman ki, təsdiq edərdi: «Mümkün olmayanı yalnız insan mümkün etməyə qadirdir... Xarakter – mükəmməl tərbiyə edilmiş iradədir...» İradə sərkərdənin də, dövlət xadiminin də, alimin

də amalını əmələ çevirən qüvvədir, qüdrətdir. İradə – Suvorov və Jukov, de Qoll və Ruzvelt, Korolyov və Mendeleyev kimi şəxsiyyətlərin, xarakterlərin özəyi, özülüdür. Ağıllı, zəkalı iradə! Ardınca Nekrasovun misraları yada düşür:

*İnsan iradəsi, insan zəhməti*
*Böyük möcüzələr yarada bilər.*

Azərbaycan üçün belə «möcüzələr» sırasında «Əsrin müqaviləsi» durur. Həm də bu, sonuncu deyil...

**«Biz bir millət, iki dövlətik»**

Azərbaycan-Türkiyə münasibətlərinin bütün dövrləri üçün aktuallığını heç zaman itirməyəcək bu deyim də Heydər Əliyevə məxsusdur. İki qardaş ölkə arasında münasibətlərin məğzini bu qədər müfəssəl və bitkin bəyan edən ikinci bir ifadə tapmaq çətin ki, kimsəyə müyəssər olsun. Heç şübhəsiz, Heydər Əliyevin bu qənaəti, onun Türkiyə-Azərbaycan əlaqələrini, qərinələrdən keçən tarixi münasibətlərini, bu ölkənin Azərbaycan dövlətinin, xalqının yaşamında nə kimi rol oynadığını və oynayacağını çox dərindən və mükəmməl bildiyindən irəli gəlir.

Heydər Əliyevin Türkiyəyə, bu ölkədə gedən ictimai-siyasi proseslərə diqqəti heç də Azərbaycanın müstəqilliyə qovuşduğu, Sovetlər Birliyinin dağıldığı dövrdən başlamır. O özü bunu Azərbaycan Respublikasının Prezidenti kimi Türkiyəyə ilk səfəri zamanı, Türkiyə Böyük Millət Məclisindəki çıxışında belə ifadə etmişdir: «Hələ gənclik illərində mən kitablarda, qəzetlərdə Türkiyə haqqında, türk xalqı haqqında oxuyanda daim Türkiyənin həsrətini çəkmiş, onun ictimai-siyasi həyatına böyük diqqət yetirmiş, Böyük Millət Məclisinin işi, onun qəbul etdiyi qərarlar haqqında xəbərləri diqqətlə izləmişəm».

Heydər Əliyevin Sovet dövrü fəaliyyəti də göstərir ki, o təkcə Azərbaycan üçün yox, eləcə də Türkiyə və bütövlük-

də türk-müsəlman dünyası üçün önəmli bir siyasi xadim olmuşdur. Kommunist ideologiyasının şüurlara hakim kəsildiyi nəhəng Sovet imperiyasında hakimiyyəti təmsil edən əsas simalardan biri olduğu dövrlərdə Heydər Əliyev çox böyük cəsarətlə imperiya tərəfindən daim ədalətsizliklərə məruz qalan, ikili standartlardan əziyyət çəkən, dövlət rəhbərlərinin biganəlikləri ilə üzləşən türkdilli müsəlman respublikaların xalqlarının hüquqlarını müdafiə etmiş və bir çox mühüm məsələlərdə öz mövqeyini ortaya qoymaqdan çəkinməmişdir. Heydər Əliyevin Bolqarıstanda yaşayan etnik türklərə qarşı yeridilən ayrı-seçkilik məsələsində Kremlin münasibətinə kəskin etirazı bu mövqeyi göstərən faktlardandır.

O zaman Bolqarıstandakı vəziyyətdən narahat olan Türkiyə hökuməti Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosuna məktub yazıb, hadisələrin qarşısını almaq üçün rəsmi Moskvanın öz imkanlarından istifadə etməsini xahiş etmişdi. Baş katib Mixail Qorbaçov məsələnin müzakirəsindən boyun qaçırır və bunun Bolqarıstanın daxili işi olduğunu, rəsmi Moskvanın buna qarışmağa hüququ olmadığını bəhanə gətirir. Heydər Əliyev Baş katibin fikrilə razılaşmayıb, kəskin etirazını bildirir: «Macarıstan və Çexoslovakiyada baş verən hadisələri biz onların daxili işi hesab etmədik. Bolqarıstan türklərinə qarşı zorakılıqdan söhbət gedəndə isə biz bunu onların daxili işi hesab edirik. Bu gün ikili standartlar bizə yaraşmaz». O vaxt Siyasi Büro Heydər Əliyevin bu qəzəbli etirazını ölü bir sükutla qarşıladı. Amma unutmadı...

Həmin illərdə məhz belə xəbərlər ölkəyə, sonra isə xaricə sızır və elə buna görə də ərəb ölkələrinin mətbuat səhifələrində Heydər Əliyevi «Sovetlərin dəmir xarakterli rəhbəri», türkdilli mətbuatda isə «Kremldəki böyük türk» kimi qələmə verirdilər.

Heydər Əliyev nə qədər beynəlmiləlçi olur-olsun, sovet rəhbərliyinin türkdilli xalqların taleyinə biganəliyi ilə on-

ların kadr məsələlərinə yanaşma tərziylə razılaşa bilmirdi. Beynəlmiləlçiliyi şüar edib millətçilik nümayiş etdirən dövlət başçısının qəbul etdiyi qərarlarla heç cür barışa bilmir və bunu çəkinmədən bildirirdi. Əvvəldə qeyd etdiyimiz kimi, Qazaxıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katib təyinatında da belə olmuşdu. Heydər Əliyev hadisələrin gələcək inkişafını görürmüş kimi, qəti şəkildə M.Qorbaçova demişdi: «Kunayev yaşlı olsa da, işin öhdəsindən gəlir, yox əgər onu dəyişimək lazımdırsa, yerinə Kolbini (milliyyətcə rus – müəl.) yox, qazax, məsələn, Nazirlər Sovetinin sədri, cavan və enerjili Nursultan Nazarbayevi təyin etmək gərəkdir. Əks halda, bu təyinat Qazaxıstanda milli zəmində böyük narazılıq doğuracaq». Zaman H.Əliyevin haqlı olduğunu təsdiqlədi.

Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə gələndə onun Türkiyə və bütövlükdə türk dünyası ilə təmasları, türk birliyinin təşəkkülü və möhkəmlənməsi uğrunda sistemli fəaliyyəti genişlənməyə başladı. Heydər Əliyevin yaxın dostu, Türkiyənin 9-cu prezidenti, böyük dövlət xadimi Süleyman Dəmirəl məhz bu xidmətlərini nəzərə alıb demişdir: «Mənim tanıdığım Heydər Əliyev nə qədər Azərbaycan vətənpərvəridirsə, bir o qədər də türk vətənpərvəridir. Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu məşhur dövlət xadimlərindən biridir».

Süleyman Dəmirəl sözün həqiqi mənasında Heydər Əliyev haqqında yetərincə söz deməyə haqqı çatan kişilərdəndir və Azərbaycan-Türkiyə münasibətlərinin «bir millət, iki dövlət» səviyyəsində qurulmasında ən azı Heydər Əliyev qədər xidmətləri var. Tarixə nəzər salaq, həm də ən yeni tarixə.

Sovet İttifaqı dağılandan və Azərbaycan müstəqillik əldə etdikdən sonra Türkiyə ilə münasibətlər qurmaq, əlaqələr yaratmaq üçün çox əlverişli fürsət yaranmışdı. Rusiya Cənubi Qafqazdakı mövqelərini əldən verməmək üçün Azərbay-

can üzərində təsirini qorumağa çalışırdı. Azərbaycanda isə dünya siyasətinin incəliklərindən bixəbər olan Əbülfəz Elçibəy hökuməti gənc, müstəqil dövlətin qarşılaşdığı problemləri nəzərə almadan, təkidlə Qərbi, Türkiyəni xarici siyasətin prioriteti hesab edir, İran, xüsusilə Rusiya kimi bölgədə güclü təsir vasitələrinə malik olan ölkələrlə münasibətlərdən açıq-aşkar imtina edirdi. Bu münasibətlər onsuz da cəbhədə vəziyyəti heç də yaxşı olmayan Azərbaycam daha çətin duruma salır. Ermənistanın təcavüzü getdikcə daha geniş xarakter alırdı. Açığını demək lazımdır ki, belə vəziyyətdə Türkiyə dost və qardaş ölkə kimi nə qədər narahat olsa belə, sərt və kəskin bəyanatlar verməkdən uzağa gedə bilmirdi və bilməzdi də. Əks halda, çox geniş qarşıdurma meydana çıxar və bunun nələrlə bitəcəyi bəlli olmazdı.

1993-cü ildə Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə gəlməsi ilə istər Azərbaycan-Türkiyə, istərsə də Azərbaycanla türkdilli dövlətlər arasında münasibətlərin yeni və əsas mərhələsi başladı. Heydər Əliyevin balanslaşdırılmış siyasəti gənc, müstəqil ölkəyə çox vacib olan siyasi sabitlik, atəşkəs gətirdi. Ölkə tədricən informasiya blokadasını yarmağa, beynəlxalq aləmdə tanınmağa və müstəqil dövlət kimi qəbul olunmağa başladı.

Heydər Əliyev müstəqil Azərbaycanın prezidenti kimi Fransaya ilk rəsmi səfərindən dərhal sonra, 1994-cü ilin fevralında qardaş Türkiyə Respublikasına səfər etdi. Türkiyə Prezidentinin iqamətgahı – Çankaya köşkündə Azərbaycan Prezidentinin yaylım atəşilə müşayiət olunan rəsmi qarşılanma mərasimindən start götürən görüşlər və danışıqlar dörd gün davam etdi. Görüşləri yaxından izləyən türk jurnalisti, «Sabah» qəzetinin əməkdaşı Məhəmmədəli Viron azərbaycanlı həmkarına verdiyi müsahibədə bildirir: «Heydər Əliyevin burada keçirdiyi görüşlərdən heyrətə gəldim. Türkiyə indiyə qədər kimsəyə bu qədər hörmət və iltifat göstərməmişdir. Bu, Əliyevə verilən dəstəyin ən parlaq nişanəsi idi. Məncə, Heydər Əliyev Ankaradakı görüşlərində

istədiyi köməyi əldə etdi. Ankara da bu görüşlərdən son dərəcə məmnundur».

Bu səfərin ən yaddaqalan görüşü Türkiyə Böyük Millət Məclisində oldu. Millət vəkilləri ilə görüşü zamanı çox geniş və məzmunlu nitqində Heydər Əliyev Türkiyə dövlətinin tarixi missiyasmı onlara xatırladırmış kimi dedi: «Mən istərdim sizə Mustafa Kamal Atatürkün bir kəlamını xatırladım, çünki bu kəlam Türkiyənin üzərinə düşən məsuliyyətin nə qədər böyük olduğunu və Mustafa Kamal Atatürkün nə qədər uzaqgörən olduğunu nümayiş etdirir. Türkiyə Respublikasının 10 illiyi münasibətilə söylədiyi çıxışında o deyir: «Sovet İttifaqı bu gün bizim dostumuz, qonşumuz, müttəfiqimizdir. Bu dostluq bizə zəruridir. Lakin bu gün heç kim görə bilməz ki, sabah nə baş verəcək. Ola bilər, sabah onlar osmanlılar kimi parçalansınlar, Avstriya-Macarıstan kimi bölünsünlər. İndi biri-birindən möhkəm yapışan millətlər, sabah hərəsi bir yana qaça bilər. Dünyanın balansı dəyişər. Türkiyə bilməlidir ki, belə olan halda o nə etməlidir. Bizimlə bir dildə danışan, bir dində birləşən, mahiyyətcə bizimlə bir olan qardaşlarımızı bizim dostumuz idarə edir. Biz onları öz himayəmizə götürməyə hazır olmalıyıq. Sakitcə oturub bu günü gözləməməli, buna hazır olmalıyıq. Millətlər buna necə hazırlaşır, mənəvi körpülər möhkəmləndirilirmi? Bizi körpülər kimi etiqad, tarix birləşdirir. Biz hadisələrin ayırdığı köklərimizə, öz tariximizə qayıtmalıyıq. Biz tarixi köklərimizə yaxınlaşmalıyıq».

60 il əvvəl Mustafa Kamal Atatürk bu günü görüb, bu vəsiyyəti etmişdi. İndi bu vaxt yetişmişdir. Türkiyəyə dost və qardaş ölkələr, millətlər öz müstəqilliklərinə nail olmuşlar. Türkiyənin ən yaxın dostu və qardaşı olan Azərbaycan da müstəqil olmuşdur. Azərbaycan bundan sonra Türkiyə ilə dostluq və qardaşlıq münasibətlərinə daha böyük ehtiyac duyur»...

Heydər Əliyevin bu səfəri zamanı dövlət başçıları və hökumət nümayəndələrinin imzaladıqları 16 sənəd arasında

yüksək siyasi əhəmiyyət daşıyan dostluq və əməkdaşlıq, siyasi məsləhətləşmələr haqqında müqavilələrlə yanaşı, iki dövlət arasında iqtisadi münasibətləri tənzimləyəcək bir sıra digər sənədlər də var idi. Bu sənədlər Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrində, xüsusilə Türkiyənin Azərbaycandakı enerji layihələrində yaxından iştirak etməsinə, «Əsrin müqaviləsi»nə qoşulmasına yol açdı. Ancaq bu Heydər Əliyevin Türkiyəyə hələ ilk səfəri idi. Bundan sonra Türkiyəyə Heydər Əliyevin rəsmi və işgüzar səfərləri daha müntəzəm xarakter aldı. Lakin Azərbaycan-Türkiyə yaxınlaşmasının belə bir müstəvidə olması bir çox dövlətləri o qədər də qane etmirdi. Səbəblər müxtəlif idi.

Ən əsası isə Azərbaycanın Türkiyə ilə münasibətlərinin strateji müttəfiqlik səviyyəsinə qalxması idi.

**1 noyabr 1999-cu il**. Ankarada Heydər Əliyevə Beynəlxalq Atatürk sülh mükafatının təqdimetmə mərasimi keçirilir.

Mərasimdə Heydər Əliyev həmişə olduğu kimi qeydsiz-filansız mükəmməl və geniş nitq söyləyir. Ən uzaq keçmişdən ən son tarixə səyahətlə yanaşı Atatürk irsinə dərin hörmət ifadə olunur. Bununla belə, Azərbaycan-Türkiyə münasibətlərinin qardaş ölkəyə dəyərli xidmətlərindən də bəhs olunur. Heydər Əliyev yenə öz ampluasındadır: «1994-cü ildə imzalanan «Əsrin müqavilə»si adlanan ilk neft müqaviləsi artıq özünün böyük nəticələrini verir. Siz bilirsiniz ki, bu müqavilədə ilk dəfə olaraq Türkiyə də iştirak edir və Türkiyənin payı 1,75 faizdir. Ancaq müqavilə imzalanandan sonra mən xüsusi sərəncamımla Azərbaycana düşən hissədən ona 5 faiz də əlavə etdim. Bundan sonrakı müqavilələrdə Türkiyə daha 5 və 10 faiz aldı. İndi Türkiyə neft ölkəsi kimidir, yəni «Türk petrolları» şirkəti Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz yataqlarının birgə işlənməsində xarici ölkələrin şirkətləri ilə yanaşı çalışır».

Amma görülən və görüləcək işlər bununla bitmirdi. Heydər Əliyev Azərbaycanın geostrateji imkanlarından Tür-

kiyənin də bəhrələnəcəyini və nəzərdə tutulan layihələrdə onun mütləq iştirakını qətiyyətlə bəyan edir. Bu onun təkcə Azərbaycan üçün deyil, eyni istəklə Türkiyə üçün də çalışdığını ortaya qoyur.

– Mən qeyd etmək istəyirəm ki, – deyə o sözünə davam edir, – 1994-cü ildə «Əsrin müqaviləsi»ni imzalayarkən biz müqavilədə böyük neft kəmərinin çəkilməsini də əks etdirdik və nəzərdə tutduq ki, bu Bakı- Ceyhan neft kəməri olacaq.

Bir sıra ölkələr bu məsələdə bizə təzyiq göstərməyə başladılar. Onlar bu müqavilənin həyata keçirilməsinin qarşısını almağa səy göstərdilər. Bəzi Xəzəryanı ölkələr «Xəzər dənizinin statusu müəyyənləşməyib» deyərək, bu müqavilənin reallaşmasına mane olmağa çalışdılar. Onların başlıca məqsədi ondan ibarət idi ki, bu böyük neft kəməri Bakı-Ceyhan marşurutu üzrə keçməsin, yəni Türkiyə ərazisindən deyil, Rusiyadan keçsin. Ancaq biz bütün təzyiqləri arxada qoyduq, ildən-ilə Bakı-Ceyhan boru kəmərinin yaradılması istiqamətində addım-addım irəlilədik. Bir il əvvəl Ankarada biz çox mühüm bir bəyanat imzaladıq. Onu Türkiyənin, Azərbaycanın, Gürcüstanın, Qazaxıstanın, Özbəkistanın dövlət başçıları imzaladılar. Sənədi həmçinin Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Riçardson imzaladı...»

Lakin bu da son olmadı. Layihə həqiqətən ciddi maneələrlə qarşılaşır, müxtəlif sərsəm ideyalar və hesablamalar ortaya qoyulur, hər vasitəylə buna mane olmağa çalışırdılar. Yalnız Heydər Əliyevin prinsipial mövqeyi, partnyorları inandırmaq bacarığı hər şeyi yoluna qoydu...

Bu mənada, Azərbaycanla Türkiyəni daha da yaxınlaşdıran Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Şərq-Qərb nəqliyyat dəhlizi və bunlar reallaşandan sonra ortaya qoyulacaq Bakı-Axalkalaki-Qars dəmiryolu layihəsi məhz Heydər Əliyevin müstəsna xidmətləri kimi qeyd olunmalıdır.

## Kim kimə daha çox lazımdır?

ABŞ – Azərbaycan münasibətləri Heydər Əliyevin daim xüsusi diqqət yetirdiyi, xarici siyasətdə əsas prioritet hesab etdiyi sahələrdən idi. Ölkəsinin əsas təbii sərvətlərindən olan neftdən siyasi kapital kimi istifadə edib dünyanın hegemon dövləti ilə münasibətləri qaydaya salmaq və istər siyasi, istər iqtisadi sahədə Azərbaycanın əleyhinə işləyən bədnam 907-ci maddəni neytrallaşdırmaq mühüm vəzifələrdən biri kimi qarşıya qoyulmuşdu.

1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi" imzalanandan sonra ABŞ-Azərbaycan münasibətlərində müəyyən yaxınlaşma yarandı və diplomatik vakuum tədricən aradan qalxmağa başladı. Amma Heydər Əliyevin istədiyi bu deyildi. Əslində Birləşmiş Ştatlar da bu ölkənin yeni dünyada hansı geosiyasi əhəmiyyət daşıdığını hələ tam dəyərləndirə bilməmişdi.

1997-ci ildə Heydər Əliyevin bu ölkəyə səfəri qarşısında ABŞ-ın siyasi dairələrində, Dövlət Departamentində, Konqresdə və Senatda Azərbaycanın liderə çevrilməkdə olduğu Xəzər hövzəsi qızğın müzakirələr mövzusuna çevrildi. ABŞ Müdafiə Nazirliyinin analitiklərindən biri Ceyms Mak Duqall yazırdı: «Çox yəqin ki, tarixçilər 1997-ci ili Birləşmiş Ştatların Xəzər hövzəsinin geosiyasi əhəmiyyətini dərk etdiyi və bu regionda müvafiq xarici siyasət kursunu həyata keçirməyə başladığı mərhələ kimi qeyd edəcəklər...

ABŞ-ın regiona geosiyasi maraqlarını daha əyani şəkildə nümayiş etdirən əsas faktlardan biri onun Azərbaycanla münasibətlərinin sürətlə yaxınlaşması idi. Bunun səbəbini həm coğrafiyada, həm də siyasətdə axtarmaq lazımdır. Hər şeydən əvvəl, Azərbaycanda kəşf olunmuş və ehtimal olunan neft ehtiyatları həqiqətən XXI əsrdə dünyanın neft bazarında mühüm rol oynayacaq. İkincisi, Azərbaycan tarixən dəniz və karvan yollarının kəsişdiyi məkanda qərarlaşıb. Bugünkü reallıqlardan çıxış etsək görərik ki, Azərbaycanın ərazisin-

dən keçən və Asiya ilə Avropanı birləşdirən çoxsaylı nəqliyyat və kommunikasiya qovşaqları, Azərbaycanı regionun coğrafi cəhətdən çox mühüm ölkəsinə çevirir. Azərbaycan artıq Qərb-Şərq münasibətlərində çox mühüm amildir və Şimal-Cənub münasi-bətlərində də mühüm rol oynaya bilər».

Müdrik siyasətçi üçün mühüm amillərdən biri o idi ki, onun ölkəsi ABŞ üçün iqtisadi maraqlar çərçivəsini aşaraq "milli maraqlar» sahəsinə daxil oldu.

Heydər Əliyevin ABŞ-a səfərindən əvvəl, onun oğlu – «Əsrin müqaviləsi»nin reallaşmasında çox mühüm rol oynamış, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevin 1997-ci ilin fevral aymda Hyustonda və Vaşinqtonda keçirdiyi görüşlər iki ölkə arasında münasibətlərin yaxınlaşmasında az rol oynamadı.

1997-ci il fevralın 10-12-də energetika tədqiqatçılarının Kembric Assosiasiyasının sponsorluğu ilə Texas ştatının Hyuston şəhərində keçirilən konfransda dünyanın müxtəlif ölkələrinin hökumət və sənaye qruplarının 1500 nümayəndəsi iştirak edirdi. Amerika mətbuatının çox geniş işıqlandırdığı konfransda İlham Əliyev iki ölkənin iqtisadi münasibətlərinin inkişaf perspektivlərindən parlaq nitq söylədi. Məhz bu konfransdan sonra fevralın 18-də «Azərbaycan: kommunizmdən demokratiyaya və neftə doğru» mövzusunda daha bir konfrans keçirildi. Amerika-Azərbaycan Ticarət Palatasnın maliyyə dəstəyilə keçirilən və Amerikanın 400-dən çox nəhəng şirkətinin nümayən-dələrinin iştirak etdiyi konfransda «dünyanın ən nəhəng dövləti ABŞ Azərbaycana çox böyük maraq göstərir» sözləri səsləndi. İlham Əliyevin çıxış etdiyi bu konfransda ABŞ-ın keçmiş müdafiə naziri, ticarət palatasının fəxri müşaviri Riçard Çeyni «Azadlığı müdafiə» mükafatını aldı. Onun konfransda iştirakı çox şeydən xəbər verirdi və bu işdə iştirak edən ABŞ-ın digər keçmiş yüksək çinli məmurlarını, xüsusilə konqresin mövqeyinin və ictimai rəyin formalaşmasında əsas rol oynayan xarici siyasət elitasını bir qədər də ruhlandırdı.

Heydər Əliyevin məhz bu günə hesablanmış xarici siyasət kursu öz nəticələrini verməkdə idi. Konfranslarda səslənən bəyanatların ardınca ABŞ Dövlət Departamentinin rəsmiləri bu qəbildən olan bəyanatlar verməyə başladılar. Məsələn, 1997-ci il martın 27-də Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Sandi Berger bəyan etdi ki, «Bill Klintonun ikinci prezidentlik müddətində Xəzər hövzəsi ABŞ-ın xarici siyasətində prioritet yer tutacaq». O, həmçinin bəyan etdi ki, «Çin, Türkiyə və Qafqaz xüsusi maraq göstərdiyimiz regionlardır' və Birləşmiş Ştatlar Mərkəzi Asiyada və Qafqazda öz mövqelərini genişləndirmək niyyətindədir».

Açıq-aydın hiss olunur ki, Xəzər hövzəsi regionuna yüksək diqqət yetirən ABŞ-ın xarici siyasət rəsmiləri nəhəng neft şirkətləri rəhbərlərinin bu regionun vacibliyi fikrinə şərikdirlər. Dövlət administrasiyasnın və neft şirkətlərinin regionun vacibliyi haqqında bəyanat verməsinin müxtəlif səbəbləri olsa da (birincilər üçün bu siyasət və biznes məsələsidir, ikincilər üçün neft satışından gələn gəlirdir), onların əməkdaşlığı göz qabağındadır. Hər iki tərəfin siyasəti bir-birini tamamlayır.

Heydər Əliyev «Əsrin müqaviləsi»nin imzalanmasını sürətləndirərkən böyük siyasi intuisiya ilə məhz bunu yüzə – yüz hesablamışdı. Prezidentin hesablamaları, məntiqi heç vaxt onu çətin vəziyyətdə qoymurdu. Budur, elə ki, ABŞ administrasiyası öz siyasi nəzər-diqqətini Qafqazdakı siyasətə yönəltdi, milli mətbuat da bu istiqamətdə siyasi və iqtisadi məsələlərin işıqlandırılmasını prioritet elan etdi. Bu bəyanatlardan az müddət sonra «Uoll Strit Cornel» Azərbaycanda neft bumunun hansı nəticələr verəcəyinin mənfi və müsbət tərəflərini xırdalıqları ilə təhlil etməyə başladı. Bundan sonra «Nyu-York Tayms» qəzeti keçmiş müdafiə naziri Kaspar Uayrıbergerin «Rusiyanın neft ağuşu» məqaləsini çap etdi. Uayrıberger Xəzər neftinin istismarı və nəqlini Rusiyanın öz nəzarəti altına almaq cəhdlərindən bəhs edirdi. Müəllif Rusi-

yanın Ermənistana genişmiqyaslı hərbi dəstəyini (1 milyard dollarlıq Rusiya silahının təmənnasız Ermənistana ötürülməsi- red.) xüsusi qeyd edərək, Klinton administrasiyasını «Azərbaycanla daha yaxın münasibətlər qurmağı stimullaşdırmaq və Konqresi bu ölkəyə yardım göstərməyə münasibətdə öz prioritetini dəyişməyə inandırmağa» çağırmışdır.

Mətbuatda ABŞ-ın Azərbaycana və Xəzər neftinə marağına həsr edilmiş məqalələrindən daha çox seçiləni «Vaşinqton Post» qəzetində çap olunmuş «Keçmiş Amerika elitası Xəzər quyularını ələ keçirməyə çalışan» məqaləsi idi. ABŞ-ın xarici siyasət ehtasının fəaliyyətindən bəhs edən məqalədə qeyd edilir ki, «bu insanlar ABŞ administrasiyasını və müxtəlif siyasi partiyaları təmsil edirlər. Ancaq hamısı çalışır ki, ümumi səylə regiondakı siyasi xətti dəyişsin. Onların dediyinə görə, bu Amerika şirkətlərini digər xarici şirkətlərlə bərabər vəziyyətdə qoymaq üçün çox zəruridir». Məqalədə xüsusilə, iki keçmiş milli təhlükəsizlik məsələləri üzrə köməkçilər – Brent Skoukrofot və Zbiqnev Bjezinski, Ağ ev administrasiyasnın keçmiş rəhbəri Con Sunun, keçmiş müdafiə naziri Riçard Ceyni, keçmiş dövlət katibi Ül Ceyms Beyker və keçmiş mahyyə naziri Loyd Bentsenin bu istiqamətdəki fəaliyyətlərinə toxunulur. Bu xadimlərin Amerikanın Azərbaycandakı xarici siyasətinə lobbiçilik etmələri və açıq-açığına intensiv dəstəkləmələrini, bu regiondakı siyasətçilərin rəyinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərdiyini açıqlayirlar.

Həqiqət belə idi. Məhz bu ərəfədə ABŞ-ın alimləri və «beyin mərkəzləri» (analitikləri və politoloqları – red.) Xəzər hövzəsini, Qafqazı və xüsusilə Bakını öz fəaliyyətlərinin prioritet istiqamətlərinə çevirdilər. Bunlardan konservativ «beyin mərkəzi» ABŞ Konqresinə xarici siyasət rəyləri hazırlayan Heritec Fondunu xatırlatmaq istərdik. Xəzər regionu üzrə siyasi təhlillərin nəticələrini müntəzəm dərc etməklə yanaşı, Fond ARDNŞ-in vitse-prezidenti İlham Əliyevin 1997-ci ilin fevralında Vaşinqtona səfəri zamanı onun şərəfinə banket də təşkil etmişdi.

1997-ci il iyulun 21-də ABŞ-ın dövlət katibinin müavini Stroub Telebottun Mərkəzi Asiya Universitetində Qafqazın və Mərkəzi Asiyanın problemləri üzrə geniş məruzəsi hökumət məmurları ilə elmi cəmiyyətlərin nümayəndələri arasında ABŞ-ın xarici siyasətinə münasibətdə müəyyən konsensusun işlənib hazırlandığını göstərdi. Telbott çıxışında artıq Sandi Bergerin mart ayında söylədiyi, ABŞ-ın Mərkəzi Asiyada və Qafqazda öz siyasətini gücləndirmək fikrini yenidən gündəmə gətirdi. Heydər Əliyevin Vaşinqtona səfərindən bir həftə əvvəl səslənən bu çıxış, ABŞ-ın region ölkələri ilə, xüsusilə Azərbaycanla münasibətlərinin yeni mərhələyə qədəm qoyması faktının təsdiqi idi.

Heydər Əliyevin iyulun 31-i və avqustun 1-də Vaşinqtona səfəri iki ölkə arasında formalaşan münasibətlərin yeni mərhələsinin zirvəsi oldu. Ağ Evin press – relizində yazılırdı: «Prezident Əliyevin səfəri iki ölkənin əməkdaşlıq əlaqələrində təməl daşıdır və əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayacağını vəd edir».

Beləliklə, tam yəqinliklə demək olardı ki, Birləşmiş Ştatlar xüsusilə Azərbaycanın simasında region ölkələri ilə əlaqələrə, həqiqətən, böyük əhəmiyyət verirdi. Diqqət çəkən məqam ondan ibarətdir ki, Azərbaycan da, ABŞ da münasibətlərin, məhz Prezident Heydər Əliyevin istədiyi kimi, yeni mərhələyə daxil olması fikrində yekdil idilər.

### 1 avqust 1997-ci il, Vaşinqton

Heydər Əliyevin ABŞ-a rəsmi səfəri gedişatında Ağ evdə ARDNŞ və Amerikanın dörd şirkəti – «Şevron», «Eksson», «Mobil», «Amoko» – arasında müqavilələr imzalanmışdır. Hər iki ölkənin dövlət başçısı bu sənədləri belə dəyərləndirmişdi: «Bill Klinton: Xəzər hövzəsi yeni neft və qaz layihələrinin həyata keçirilməsi üçün həyati önəmə malik olan bölgədir. Bu günlərdə enerji ehtiyatlarının istismarı üzrə qəbul edilmiş razılaşmalar gələcək nəsillərə fayda verəcəkdir.

Azərbaycanla birgə Xəzər sərvətlərinin istismarı üzrə əməkdaşlıq edərək, biz bununla nəinki Azərbaycanın çiçəklənməsinə yardım göstərir, həmçinin müxtəlif yollarla öz ölkəmizi enerji məhsulları ilə təmin edir və dövlətimizin təhlükəsizliyini möhkəmləndirib).

«Heydər Əliyev: İndiyədək Xəzərin Azərbaycan sektorunda enerji ehtiyatlarnın istifadəsi sahəsində Amerika və Azərbaycan arasında əməkdaşlıqda yaxşı nailiyyətlər əldə edilmişdir. Biz bu əməkdaşlığı davam etdirir və etdirəcəyik.

Bu gün burada, bu salonda imzalanmış dörd müqavilə buna əyani sübutdur. Qarşımızda bir sıra, o cümlədən Orta Asiya və Mərkəzi Asiyadan enerji ehtiyatlarının Xəzərdən keçmək şərti ilə dünya bazarma daşnınası, Qərbə neft ixracı üçün boru kəmərlərinin çəkilmə məsələsi durur. Biz sizinlə bu sahədə daima əməkdaşlıq edəcəyik».

Sənədlər Ağ evdə, Franklin Ruzveltin adını daşıyan otaqda imzalanırdı.

ABŞ-ın vitse-prezidenti Albert Qor bu mərasimi «Xəzər sərvətlərinin istifadəsinə bəslədiyimiz ümumi ümidlərimizə ciddiyyətlə yanaşmağımızı» əks etdirən Amerika və Azərbaycan arasında «enerji dialoqu»nun başlanğıcı kimi dəyərləndirmişdir.

«Heydər Əliyev: Qürur hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycan neftçiləri hələ 50 il bundan əvvəl ilk dəfə dənizdə neft yataqları aşkar etmiş və onun istismarına başlamışlar. XX əsrin sonunda Azərbaycan bütün dünyaya Xəzər dənizindəki neft yataqlarını təqdim etdi.

Bu gün burada Vaşinqtonda, Ağ Evdə böyük məmnuniyyətlə qeyd edirəm ki, bu işlərdə Amerika Birləşmiş Ştatlarının azman şirkətləri fəal iştirak edirlər. Biz dərk edirik ki, xarici sərmayələrin Azərbaycana axını, iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiyası, o cümlədən Amerika Birləşmiş Ştatları ilə möhkəm iqtisadi əlaqələrin yaradılması Azərbaycan xalqının gözəl gələcəyinə xidmət edir».

Yeri gəlmişkən, bu əlaqələr uzaq zamanlardan başlayır. Hələ 1923-cü ilin may ayında «Azneft» Amerika korporasiyalarının biri ilə neftqazma və neftçıxarma üzrə müqavilə bağlamışdı. Həmin ilin iyul ayında Bakıya neft sənayesinin müxtəlif sahələri üzrə ekspert olan 11 amerikalı mütəxəssis gəlmişdir.

«Bakinski raboçi» qəzetinin 17 iyul 1923-cü il tarixli sayında onların adları bir-bir çəkilir, 18 qazma ustasının yolda olduğu bildirilirdi.

Amerikaya səfəri zamanı Heydər Əliyev Ağ Evdəki tədbirlə yanaşı, daha 75 işgüzar danışıq aparmışdır.

Onun müsahibləri sırasında «BP-Amerika», «Frontera resursez», «Şevron», «Penzoyl», «YunokaI», «Konoko», «Eksson» və «Şell» kimi ən böyük şirkətlərin başçıları olmuşdur.

Prezidentin qrafiki bu görüşlərlə də məhdudlaşmırdı. O, konqresmenlərlə, senatorlarla, Beynəlxalq Əlaqələr Komitəsinin sədri Gilmanla, Nümayəndələr Palatasnın spikeri Qinqriçlə söhbətlər aparmışdır. Bu danışıqlar ayrıca mövzu olaraq Azərbaycanın milli maraqlarının beynəlxalq meydanda inadkar və ardıcıl müdafiəsinə, ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək Aktı"na bədnam 907-ci əlavənin aradan götürülməsi uğrunda mübarizəyə yönəldilmişdir.

Yəqin ki, Azərbaycandan kənardakı oxucularımızın çoxuna «907-ci əlavə» adlı sənəd heç nə deməyəcək. İzah edək: 1992-ci ildə ABŞ konqresi «Azadlığı müdafiə aktı»nı müzakirə edirdi. Böyük Amerika sahibkarı R.Bernsin sözlərilə desək, həmin günlərdə ermənilər təkcə Azərbaycanın döyüş meydanlarında deyil, həm də ABŞ Konqresinin kabinetlərində və zallarında mübarizə aparırdılar. Sonunda, erməni lobbisi bu sənədə 907 saylı əlavənin yazılmasına nail ola bildi. Bu düzəlişdə, «Ermənistanı blokadada saxladığına görə Azərbaycana heç bir maddi kömək edilməyəcəyi» qeyd olunurdu. Ermənistan-Azərbaycan müharibəsi bitənə qədər bu düzəliş qüvvədə qalmalı idi. Heydər Əliyev məhz bu ədalətsizliyə qarşı, təcavüzün qurbanı olduğu halda, Azərbayca-

nın bütün dünyaya təcavüzkar kimi təqdim olunmasıyla mübarizə aparırdı.

Əliyevin okeanın o tayına səfəri ilə bağlı daha bir neçə epizoda nəzər salaq:

Fikir verin, o, necə gərginliklə işləyir, öz müsahiblərini necə nəzakətlə və təmkinlə öz tərəfinə çəkib «maarifləndirir».

İyulun 28-də Nyu-Yorkda «BP-Amerika» neft şirkətinin təmsilçiləri Stiv Persi, Edd Uayhet və Maykl Taunshetlə görüş keçirilir,

H.Əliyev deyir:

– Azərbaycanda dünyanın müxtəlif ölkələrinin, o cümlədən Amerika Birləşmiş Ştatlarmın şirkətləri ilə, həmçinin neft mədənlərində fəaliyyət göstərən şirkətlərlə müştərək işlərin geniş aparılması üçün hər bir şərait yaradılmışdır. Ölkəmizə qoyulan xarici sərmayələrin qorunması qanunvericiliklə təsdiqlənmişdir. Azərbaycan öz iqtisadiyyatını bazar münasibətləri əsasında qurur və öz qapılarını dünyanın üzünə açıb.

Avqustun 2-də Heydər Əliyev Hyustonda «Pennzoyl» şirkətinin prezidenti Ceyms Peytlə görüşür:

– «Pennzoyl» Azərbaycana gələn ilk xarici şirkətlərdən biridir. Mən «Pennzoyl»un ölkəmizdə qaz-kompressor stansiyasının yaradılmasında və Azərbaycanda qaz hasilatının artırılmasında xidmətlərini yüksək qiymətləndirirəm. «Pennzoyl»un «Əsrin müqaviləsi»ndə öz payı var, «Qarabağ» yatağının müştərək işlənilməsi üzrə müqavilənin həyata keçirilməsində isə sizin şirkət aparıcı rol oynayır. Mən bilirəm ki, Azərbaycanın maraqlarını Birləşmiş Ştatlarda təqdim və təbliğ etməklə, siz böyük iş aparırsınız.

Avqustun 3-də yenə Hyustonda o, «Eksson» şirkətinin prezidenti Tenni Kuntsla danışıqlar aparır:

– 1994-cü ildə «Əsrin müqaviləsi» imzalandıqdan sonra qalan kiçik hissənin bölüşdürülməsi böyük çətinlik törədirdi, yadınızda qalmış olar, o vaxt sizin kimi, bir çox iri kompa-

niyalar bu hissəni almaq istəyirdi. Həmin şirkətlər arasında sizin ölkənizin təmsilçiləri kimi, Avropanın da, qonşularımızın da şirkətləri vardı. Siz bunu bilirsiniz, mən də bilirəm, adlar çəkmək istəmirəm, bu artıq tarixdə qalmışdır.

Onda mənə də qərar qəbul etmək çətin idi, çünki sizin şirkətlə yanaşı başqaları da, eynilə belə sanballı olanlar bizimlə həqiqətən, yaxşı münasibətlər qurmaq istəyirdilər.

Uzun götür-qoydan sonra qərara gəldim. Bu qərar «Eksson»a «Əsrin müqaviləsi» imzalandıqdan sonra ona qoşulmağa imkan verdi. Və bundan sonra sizinlə bir neçə görüşüm oldu. Mən istəyirdim ki, siz ayrıca bir yataqda işləyəsiniz. Yaxşı ki, nəhayət, bu baş tutdu. Yatağın adı «Naxçıvan»dır, mənim doğulduğum yer belə adlanır. Və bu, üzərinizə daha böyük məsuliyyət qoyur...

– Bəli, – cənab Kunts dillənir, – «Eksson» bununla fəxr edir.

Maraqlıdır, görəsən, bu danışıqlar zamanı Prezidentin qəlbində hansı dərin hisslər baş qaldırırdı. Öz kiçik vətəni Naxçıvana sevgisini dilə gətirməklə, sanki müqəddəs bir etirafı açıqlayırdı.

– Mən doğulduğum yeri bir də ona görə sevirəm ki, 1990-cı ildə, Moskvada yaşadığun zaman, həyatım təhlükəyə məruz qaldığı vaxt, mən təqib olunurdum, çoxlu maneələrlə üzləşirdim və mən Azərbaycana qayıtdım, Bakıda yaşamaq mümkün olmadığından, anadan olduğum yerə – Naxçıvana getdim. Orada çox çətin günlər yaşadım, Amma Naxçıvan məni mehribancasına öz qoynuna aldı və mən əlimdən gələni etdim ki, o yaşasın. Ola bilsin, oraya qayıtmasaydım, bu diyarın sakinlərini böyük təhlükə gözləyərdi. Ona görə mən öz vətənimi – anadan olduğum yeri çox sevirəm. Dar günlərdə o mənə kömək əlini uzatdı, mən bunu çox qiymətləndirirəm. Gözləyirəm ki, siz işə fəal başlayacaqsınız. Bilirəm ki, «Eksson» Amerikanın ən böyük neft şirkətidir. Amma bilmirəm, indiyədək Ağ Evdə müqavilələr imzalamısınızmı?

– Bu ilk dəfə baş verdi! – Görürsünüzmü, biz sizinlə sadəcə müqaviləni imzalamamışıq, həm də onun Ağ evdə imzalanmasına nail olmuşuq! Mən sizinlə bir neçə dəfə Bakıda və Birləşmiş Ştatlarda görüşmüşəm. Ancaq indi Ağ evdə, sizin hökumətin rəhbərlərilə birgə, onların iştirakı ilə müqavilə imzaladıq. Bu, özü-özlüyündə tarixi hadisədir və müqaviləni də siz imzalamısınız. Cənab Kunts bildirir:

– Bizim şirkətimiz Azərbaycanın Dövlət Neft Şirkəti ilə birgə Xəzərdə «B-9» bloku üzərində işləyir. Bu perspektivli struktur dərin su qatlarınm altmda yerləşir. Həmin struktur üzrə də yaxın zamanda müqavilənin imzalanması yaxşı olardı. Bu bizə və ARDNŞ-ə daha böyük dərinliklərə getməyə və oradan neft çıxarmağa imkan verərdi... Şübhəsiz ki, siz bu yatağa ad qoyacaqsınız, çünki «B-9» adı heç nədən xəbər vermir...

– Bəli, bu müvəqqəti addır, müqavilə imzalanandan sonra başqa ad olacaq. Mən Natiq Əliyevə tapşıraram ki, bu barədə mənə məlumat versin.

– Biz Xəzərin iri, dərində yerləşən strukturlarının işlədilməsinə qatılmaq istəyirik və yaxın zamanda öz təkliflərimizi ARDNŞ-ə təqdim edəcəyik. Zənnimcə, Xəzərin Azərbaycan sektorunun dərin laylarında böyük neft ehtiyatları var. «Eksson»un təcrübəsi və imkanları bu yataqların ARDNŞ ilə birgə rasional istifadə ediləcəyi haqqında danışmağa əsas verir.

Cənab Prezident, fürsətdən istifadə edib, əvvəllər sizinlə danışdığım başqa bir məsələyə də toxunmaq istəyirəm. Söhbət Xəzərdəki qaz yataqlarnıın istismarından gedir. O zaman biz elan etdik ki, bu qaz yataqları, onların istismarı və mavi yanacağın nəqli haqqında təklifləri Azərbaycan Dövlət Neft Şirkəti ilə birgə hazırlayacağıq. Bu təkliflər hazırdır və hesab edirəm ki, bizim vitse-prezident və cənab Natiq Əliyev onları bütün müddəalar üzrə razılaşdıracaqlar. Qaz yataqlarımn istismarı üzrə daha fəal hərəkətlərə əl atılmalıdır, çünki bu məhsula müştəri axtarışı neft istehlakçısnın axtarışından fərqlidir, burada rəqabət yüksəkdir. Yaxınlıq amilini nəzərə

alaraq, Azərbaycan qazı üçün ən yaxşı satış bazan Türkiyə ola bilərdi. Sizin şimal qonşunuz «Qazprom» Türkiyə ilə bir neçə müqavilə bağlasa da, Türkiyənin hələ də bu məhsula ehtiyacı var. Buna görə də bu bazarı əldən verməmək üçün, kəşfiyyat işləri sürətləndirilməlidir.

– Əgər məsələ öz həllini tapıbsa, Natiq Əliyevə tapşınq verərəm və siz danışıq aparıb, son layihəni hazırlayarsmız. Mən sizin sözlərinizlə razıyam. Bizim bölgədə də, Türkiyədə də, başqa ölkələrdə də qaza böyük ehtiyac var və buna görə siz bu işə operativ başlasaydınız, sox yaxşı olardı... Bizim dostluğumuz çox etibarlıdır və mən bütün təklifləri nəzərdən keçirəcəyəm. Qaz yataqlarına aid təkliflərin sürətləndirilməsi üzrə sizin fikirlərinizlə tam razıyam.

Avqustun 3-də yenə də «Hyuston»da Heydər Əliyev «Teksako» şirkətinin vitse-prezidenti Robert Blak ilə görüşür:

– «Teksako»nun 95 illik tarixi var və o, 80 ildir ki, dünyanın müxtəlif ölkələrində layihələr həyata keçməkdədir, – deyə Robert Blak söhbətə başlayır. – Amma Azərbaycana gəlməkdə biz gecikmişik. Bir nccə il öncə şirkətin direktorlar şurası qərar qəbul etmişdir ki, biz Xəzər bölgəsinə getməyək və mən indi bu qərara görə çox təəssüflənirəm. Dünyanın bir çox şirkətləri kimi, biz də səhv edirik...

– Kim deyir ki, səhv etmir, demək, həqiqəti söyləmir, – Heydər Əliyevin çöhrəsinə xəfif təbəssüm qonur. – Səhvi başa düşmək, boynuna almaq və səhvə yol verdiyini etiraf etmək lazımdır.

– Şirkət idarə heyətinin yeni rəhbərliyi Azərbaycanın neft yataqlarının işlənməsində uzun müddət iştirak etmək üçün əməkdaşlığa başlamaq arzusundadır...

Prezident buna qısaca cavab verdi:

– Azərbaycanın qapıları bütün dünyaya, bütün şirkətlərə, ələlxüsus, Amerika Birləşmiş Ştatlannm şirkətlərinin üzünə açıqdır və bununla əlaqədar hələ istifadə etməyə imkan var.

Yaxşı ki, siz səhvinizi başa düşmüsünüz.

## Bəs «907» necə olsun?..

Bir dövlət olaraq ABŞ öz xarici siyasətini tənzimləyərkən Konqresin mövqeyi ilə əksər hallarda hesablaşmaq məcburiyyətindədir. Xüsusilə ona görə ki, müvafiq proqramların maliyyələşdirilməsində əsas söz sahibi Konqresdir.

Sovet Sosialist Respublikaları İttifaqı dağılandan sonra, 1992-ci ildə Konqres region ölkələrinə uzunmüddətli yardım proqramını təsdiq etdi.

Proqram «The Freedom Support Akt» (“Azadlığa Dəstək Aktı”) təşkilatı tərəfindən hazırlanmışdı və bu proqramın 907-ci maddəsi, prezident Konqresi əmin etməyənə qədər ki, Azərbaycan Ermənistana düşmənçilik hərəkətlərindən, həmçinin Ermənistan mallarına embarqodan əl çəkib, o vaxta qədər Azərbaycana yardım göstərməyi qadağan edirdi. 907- ci maddəni təhlil edən Amerika analitiklərindən biri onun genezisini «ABŞ-ın Erməni Assambleyası və Erməni Milli Komitəsi tərəfindən uğurlu lobbiçiliyin» nəticəsi kimi şərh edirdi.

Prezident Heydər Əliyevin Vaşinqtona səfərindən əvvəl də, sonra da ABŞ-ın Azərbaycanla münasibətlərini əngəlləyən bu düzəliş haqqında müxtəlif səviyyələrdə, hətta Konqresin özündə də kəskin mübahisələr gedirdi. Müxtəlif qurumlar və fərdi şəxslərdən bu maddənin ləğv edilməsi təklifləri daxil olurdu. Amerikanın keçmiş məşhur siyasi xadimləri (əvvəl adlarını çəkmişdik – müəllif) Konqresdə lobbiçiliklə bu maddənin ləğvinə çalışırdılar. ABŞ Dövlət Departamentinin ciddi səyləri də diqqətdən yayınmırdı. Departamentin Xəzər regionunun enerji inkişafı ilə bağlı Konqresə verdiyi hesabatda bu açıq-aydın göstərilirdi. Bu hesabatda Dövlət Departamenti ABŞ qarşısmda həlli zəruri olan səkkiz vacib məsələnin durduğunu göstərirdi. Siyahıda birinci yerdə müəlliflərin fikrinə görə, təkcə Amerikanın Azərbaycana yardımı deyil, eyni zamanda Birləşmiş Ştatların bu ölkəyə təsirini məhdudlaşdıran 907-ci maddə durur-

du. Heritec Fondu hazırladığı ikinci hesabatda da («ABŞ-ın Qafqazda və Mərkəzi Asiyadakı siyasəti: Yeni , «İpək yolu ilə tərəqqiyə doğru») Respublikaçılar partiyasına yaxın mövqedən çıxış edərək, Azərbaycana qarşı sanksiyaları ləğv etməyi təklif edirdi.

ABŞ administrasiyasnın adından 907-ci maddənin ləğvinə çağırış S.Telbottun Mərkəzi Asiya Universitetindəki çıxışında da səslənmişdi. Bunu «əlaqələrin inkişafı yolunda özümüzün yaratdığı maneə» adlandırılan Telbott administrasiyanın bu maddə ilə razı olmadığını bildirərək deyirdi: «Mən güman edirəm ki, siz bu məsələ ilə baglı gələn həftə Prezident Əliyev Vaşinqtona gələndə daha geniş informasiya alacaqsınız».

Heydər Əliyevin prezident Bill Klintonla və ABŞ-ın qanunvericilik hakimiyyətinin nümayəndələri ilə görüşlərindən geniş informasiya verilmirdi. Azərbaycan Prezidenti Corctaun Universitetindəki çıxışında bu sanksiyanı ədalətsiz adlandırdı və onun ləğvinə çağırdı. Əliyevin çağırışları, sanksiyaya verdiyi qiymət və keçirdiyi görüşlər zamanı ortaya qoyduğu arqumentlər təsirsiz ötmürdü.

Hər iki partiyanın nümayəndələri, təşkilatlar və ayrı-ayrı şəxslər tərəfindən səslənən tənqidlərə cavab olaraq, ABŞ Konqresi bu istiqamətdə ciddi işləməyə başladı. Həmin dövrdə «Azadlıq Azad Avropa» radiostansiyalarının yaydıqları xəbərə görə, Demokratlar partiyasının beynəlxalq münasibətlər komitəsinin rəhbəri, İndiana ştatından olan demokrat konqresmen Li Hamilton «bu qadağanın ləğvinin vaxtının çatması» fikri ilə tamamilə razı olduğunu bildirmişdi. Konqresmen Piter Kinq (Nyu-Yorkdan olan respublikaçı) qanunvericilərə bu qanunun ləğv edilməsini təklif edirdi. Kanzasdan respublikaçı senator Sem Braunbek «ABŞ-ı regionda daha balanslaşdırılmış siyasət aparmağa» çağırırdı.

Bütün bunları dünyaya yayan «Azadlıq/Azad Avropa» radiostansiyası 1997-ci il iyulun 31-də K.Falinin icmalına sadəcə belə bir başlıq vermişdi: «Azərbaycan: Əliyev ABŞ

Konqresində Azərbaycana iqtisadi yardım məsələsində lobbiçilik edir». Bəli, Azərbaycana artan maraq, ABŞ siyasətində bu ölkənin vacibliyinin etirafi, həmçinin Xəzər neftinə çıxmaq zərurəti ilə bağlı milli maraqlar daha əhəmiyyətli idi, nəinki erməniपərəst qrupların lobbiçilik cəhdləri.

Həmişə olduğu kimi, Heydər Əliyevin əvvəlcədən gəldiyi qənaət bu dəfə də özünü doğrultdu. Artıq ABŞ-ın regiondakı siyasətinin qarşısmda duran birinci məsələ – 907-ci maddənin ləğv edilməsi zəruriyyəti əslində onun daxili siyasətinin həll edəcəyi məsələyə çevrildi. İkinci mühüm məsələ isə regional siyasət sahəsinə aid idi – Xəzər hövzəsi regionunda daha fəal Dağlıq Qarabağ ətrafında yaranan Ermənistan-Azərbaycan münaqişəsinin həllinə təsir göstərən siyasət yeritmək.

Telbott əvvəldə göstərdiyimiz çıxışında yəqinliklə deyirdi: «Münaqişəli qətnamə Amerikanın regiondakı siyasəti üçün bir nömrəli problem ola bilər». ABŞ administrasiyası bu problemi üstələmək üçün Prezident Heydər Əliyevin səfərindən dərhal sonra 907-ci maddəyə bir sıra istisnalar etdi ki, o da Azərbaycanla qarşılıqlı əməkdaşlıq münasibətlərinin inkişafına öz təsirini göstərdi. 1998-ci ildən başlayaraq ABŞyönlü xətt Azərbaycan xarici siyasətinin əsas strateji məqsədlərindən birinə çevrildi. 1999-cu ildə Heydər Əliyev NATO-nun 50 illiyi ilə əlaqədar yenidən Vaşinqtona səfər edir. Hətta 2001-ci ildə ABŞ Ermənistan – Azərbaycan münaqişəsi tərəflərinə silah satışına embarqonu da götürürdü.

C.Buşun prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətləri daha da genişlənməyə başladı. Həmkarı Heydər Əliyevlə danışıqlar zamanı ABŞ Prezidenti C.Buş ölkəsinin maraqlarından çıxış edərək bildirdi ki, «Amerika Birləşmiş Ştatları sizinlə sıx işləyərək, qlobal enerji təhlükəsizliyini təmin etməyə və Azərbaycan xalqı üçün daha firavan, dinc gələcək qurmağa yardım etməyə hazırdır». Dünyanın yeganə fövqəldövlətinin gənc, müstəqil Azərbaycana bu diqqəti şübhəsiz Heydər Əliyevin xidmətlərinin çox gərəkli

nəticəsi idi və onu sevindirməyə bilməzdi. Heydər Əliyev əldə edilən siyasi nailiyyətləri qorumağı və ondan ölkəsinin, millətinin mənafeyi naminə yetərincə istifadə etməyi bacaran siyasətçi idi. Digər tərəfdən onun şəxsi keyfiyyətləri müsahiblərinin, dövlət başçılarnın diqqətindən yayınmırdı. Məsələn, ABŞ Prezidenti C.Buş (oğul – müəllif) Heydər Əliyevi belə dəyərləndirirdi: «Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm». Şübhəsiz, kim olursan ol, qarşında belə bir xarizmatik lider, kamil bir şəxsiyyət görəndə onunla dünyanm, ölkələrin münasibətlərini çözməyin nə qədər asan olduğuna bir daha əmin olursan.

## Üç dənizin əfsanəsi və gerçəklikləri

2002-ci il sentyabrın 18-də Bakı-Tbilisi-Ceyhan əsas neft boru kəmərinin təməlqoyma mərasimi keçirildi. Yeni, insan əli ilə yaradılan bu arteriya vasitəsilə Azərbaycanın «qara qızılı» dünya bazarına çıxaraq, respublikaya bolluq və firavanlıq gətirəcəkdi.

Təməlqoyma mərasimi unudulmaz və həyəcanlı bir an idi. Əsas iştirakçılar üç prezident – Heydər Əliyev, Əhməd Necdət Sezər, Eduard Şevardnadze də həyəcanlı idilər. Azərbaycan, Türkiyə, Gürcüstan...

Heydər Əliyev: «Qeyd etmək istərdim ki, vaxtilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsinə qarşı çıxanlar bu layihəni "xülya" adlandırırdılar. Onlar Azərbaycanda heç zaman bu qədər neftin olacağına inanmırdılar. Bu cür danışıqlar çox oldu. ... Amma bütün bunlar əsassız idi, biz bu çətin işin öhdəsindən gələ bildik. «Üç dəniz əfsanəsi» adlanan konfransdakı çıxışımda dedim ki, siz burada əfsanə haqqında danışırsınız. Mən sizə demək istərdim ki, bu, boş xəyal deyil, əfsanə deyil, üç dəniz birləşir. Onları Türkiyə, Gürcüstan və Azərbaycan Amerika Birləşmiş Ştatlarnın daimi dəstəyi ilə qovuşdurub sözügedən layihəni reallığa çe-

virəcək. Ona görə də biz indi arzularımızın reallaşdığı bir anı yaşayırıq».

Əhməd Necdət Sezər: «Mən bir daha başda hörmətli Heydər Əliyev və Şevardnadze olmaqla Şərq-Qərb enerji dəhlizinin reallaşmasında əməyi olan hər bir kəsə öz minnətdarlığımı bildirirəm. Məndən öncə Türkiyə prezidentləri mərhum Turqut Özal və hörmətli Süleyman Dəmirəl cənabları da fəaliyyətlərində siyasi əminlik nümayiş etdirərək, hazırkı uğurlarımızın başlanğıcını yaratdıqlarına görə onlara minnətdarlığımı bildirirəm. Arzu edirəm ki, bu nəhəng layihə Azərbaycan, Türkiyə və Gürcüstan xalqları arasında qarşılıqlı dostluq və qardaşlığın möhkəmlənməsinə, regionda sülh və əmin-amanlığın qorunmasına xidmət etsin».

Eduard Şevardnadze: «Əsası bu gün qoyulan əsrin layihəsi bizim gələcək nəsillərə, nəvələrə və nəticələrə miras qalacaq. Mən fəxr edirəm ki, məhz bizim nəsil onlara bu cür var-dövlət qoyur. Biz birgə səyimiz, qarşılıqlı əməkdaşlığımız və yorulmaz fəaliyyətimiz nəticəsində, kiçik də olsa, möcüzə yaratmaq iqtidarında olduğumuzu dünyaya sübut etdik. Arzu edirəm ki, gələcək işlərimizdə də bu cür qarşılıqlı əməkdaşlığımız nəticəsində yeni möcüzələrin reallaşmasına imza ataq».

25 may 2005-ci il. Bu tarix də Azərbaycanın ən yeni tarixinə daxil ediləcək. Həmin gün Bakı-Tbilisi-Ceyhan neft boru kəməri istifadəyə verilib.

Azərbaycan paytaxtı həmin günlərdə xüsusi bəzədilmişdi. Çoxlu qonaqlar gəlmiş, çoxsaylı təbriklər göndərilmişdi. Ölkə Prezidenti İlham Əliyev də çıxış edərək iqtisadiyyat ilə siyasətin uzlaşdığı bu böyük layihənin necə başlandığmı xatırlatdı, bir çox skeptiklərin fikirlərinə baxmayaraq, Heydər Əliyevin bu layihəyə ürəkdən inandığını söylədi.

– Bir çoxları Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşmasına şübhə ilə yanaşırdı, – borunun neftlə doldurulmasına həsr edilmiş təntənəli mərasimdə İlham Əliyev dedi. – Bəziləri hətta maneçilik də törətdilər, amma bunun xeyri olma-

dı. Azərbaycanın Türkiyə və Gürcüstanla əməkdaşlığı, ABŞ-ın dəstəyi, BP-nin və başqa şirkətlərin maddi-texniki köməyi bu əfsanənin reallaşmasına yardımçı oldu.

ABŞ Prezidenti Corc Buş Azərbaycan Prezidentinə xüsusi təbrik məktubu göndərdi. O yazırdı: «Bu boru kəməri sübut edir ki, Xəzər nefti Avropa və başqa bazarlara iqtisadi cəhətdən səmərəli, ekoloji cəhətdən zərərsiz şəkildə daşma biləcək».

Bakıda həmin gün Rusiyadan da qonaqlar gözləyirdilər. Rusiya Prezidentinin enerji əməkdaşlığı üzrə xüsusi nümayəndəsi İqor Yusupov gəlməliydi. Amma gəlmədi. Dedilər ki, xəstələnib. Olan işdir.

...Əsası Heydər Əliyev tərəfindən qoyulan nəşrə, onun oğlu – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev daha 2 cildin əlavə olunmasını təklif etdi. Materiallar Heydər Əliyevin ABŞ, Rusiya və digər dövlətlərə səfərləri, danışıq və müsahibələri içərisindən seçildi. Kitablar Heydər Əliyevin təklif etdiyi «Azərbaycan nefti dünya siyasətində» adı ilə dərc olundu. Oğul atasının yolunu davam etdirdi.

2004-cü ilin avqust ayında Fransanın «Mond» qəzeti «Niyə neft geosiyasi arenaya qayıtdı?» sərlövhəli məqalə dərc etdi.

Qəzet «Afrikadan Xəzər regionunadək yeni neft yataqlarının meydana çıxmasından» yazırdı.

Xəzər regionu «Geosiyası planda vacib ərazi olması ilə seçilir. Müxtəlif tədqiqatlara əsasən, Azərbaycan, Qazaxıstan və Türkmənistanda kəşf olunmuş neft ehtiyatı 30 milyard barrel təşkil edir. Bu da demək olar ki, Şimal dənizinin neft ehtiyatlarına bərabərdir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası Azərbaycan neftinin Gürcüstandan keçərək Türkiyə hmanı vasitəsilə Aralıq dənizinə çıxmasını təmin edəcək. Bütün bunlar İran, Türkiyə və Çinin gözdən qoymadığı bu rayonda amerikalılarla rusların gizli qarşıdurmasına gətirib çıxarır,- deyə «Mond» bildirir. – Bu ölkələr arasında Rusiya təkcə neft sahəsində deyil (gün ərzində təxminən 8 milyon

barrel neft ixrac edilir ki, bu da Səudiyyə Ərəbistanın potensialı qədərdir), qaz sektorunda da özünün imkanlarından geniş istifadə edilməsini israr edir. Qeyd edək ki, Yaxın Şərq dünya qaz ehtiyatlarının 36%-ni təşkil etdiyi halda, Rusiyada bu rəqəm 45%-ə çatır. Bu iki amil Rusiya Prezidenti Vladimir Putinin Rusiya maraqlarını satmaqda şübhəli bilinən oliqarxların əlində olan enerji siyasətinə nəzarəti öz əlinə almasından xəbər verir».

«Mond» 2004-cü ilin yayında neft birjalarında «qara qızılın» qiymətinin yüksək həddə çatmasını təhlil edərək yazır ki, OPEK və təşkilata üzv olmayan neft hasilatı ölkələrinin kranı daha çox açmağa ünvanlanan çağırışlar nəzərəçarpacaq dəyişiklik və səmərə verməyəcək. OPEK-ə üzv ölkələrin istehsal gücü hazırda 96%-ə qədər yüksəlib, ondan tələb olunan, gündə 2 milyon barrel əlavə neft hasil etmək isə bir o qədər də asan başa gəlməyəcək.

Analitiklərin fıkrincə, yeni enerji partlayışını Çin yaradıb. Beynəlxalq Energetika Agentliyinin verdiyi məlumata görə, 2025-ci ildə bu ölkənin neftə tələbatı gün ərzində 5,5 milyon barreldən 11 milyon barrelə qədər yüksələcək. Təkcə bu ölkənin payına dünya tələbatındakı artımın 40%-i düşür. Tezliklə yüksək istehlakçılar sırasına Çinlə birgə inkişaf etməkdə olan digər Asiya ölkəsi Hindistanın da qatılacağı gözlənilir. 2004-cü ilin iyununda Böyük Britaniyanın son on ildə ilk dəfə olaraq neft idxalına başlaması dünyada yeni dövranın başlandığını xəbər verən bir nişanədir.

Neftə tələbat artır. Bəs bu qədər nefti hardan əldə etmək olar? Nəzəri cəhətdən kəşf edilmiş neft ehtiyatlarına görə Səudiyyə Ərəbistanından sonra dünyada ikinci yeri tutan İraq dövləti təklifın genişləndirilməsində həlledici rol oynamalıdır. Lakin ölkədəki vəziyyətin əlverişsiz olması məsələnin həllinə maneçilik törədir. Bu cür şübhələr qismən bütün ərəb-fars zonasında da mövcuddur. Nəticə etibarilə, yeni təchizat mənbələrinin axtarılmasına ehtiyac duyulur. «Mond»un qənaətinə görə, onlardan biri Xəzərdir.

## Qərbdən Şərqə yol Bakıdan keçəcək

Bəşər tarixi qədim sivilizasiyanın nəhəng dövlətlərindən olan Çinin iqtisadi inkişafı ilə yanaşı, onun bir çox missiyalarının da şahidi olub. Sonra amansız müharibələr, çəkişmələr zaman-zaman bu, Asiya nəhəngini dünya siyasətindən və iqtisadiyyatından kənarda qoyub, şöhrətinə kölgə çəkib. Ancaq XX əsrin son onilliklərindən başlayaraq, qədim sivilizasiyanın bənzərsiz dövləti həm iqtisadi göstəricilərinə, həm hərbi potensialına, həm də siyasi çəkisinə görə özünün tarixi şöhrətinin, nüfuzunun taxtına çıxmağa başladı.

Belə bir dövlətlə çoxdan qırılmış qədim tarixi münasibətləri yeni dövrün tələbləri və şərtləri çərçivəsində bərpa etmək gənc müstəqil Azərbaycan Respublikası üçün çox vacib idi. Çünki uzun əsrlər Çin və Azərbaycan Böyük İpək Yolu ilə tarixə şahidlik etmiş, iqtisadi, mədəni əlaqələrini ticarət diplomatiyası ilə inkişaf etdirmişlər. Bu qədim tarixə rəğmən, Çin Xalq Respublikasının sədri Tszyan Tszemin 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə görüşü zamanı qeyd edirdi ki, "iki ölkə arasında əlaqələrin 2000 ildən çox tarixi var və bu tarixin kökləri "İpək yolu" dövrlərinə gedib çıxır".

Amma bu yol təkcə Azərbaycanla Çinin əlaqələrinin inkişafında mühüm rol oynamamışdı. Bu tarixi yol on səkkiz əsrə yaxın bir dövrdə Qərblə Şərq arasında başlıca transkontinental kommunikasiyaya çevrilmiş, Çin, Yaponiya, Hindistan, Monqolustan, İran, Özbəkistan, Tacikistan, Azərbaycan və digər ölkələrdən keçməklə, bu ölkələrin xalqları arasında münasibətlərin qurulmasına, iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafına xidmət etmişdir. XIX əsrdə "Böyük İpək Yolu" terminini tarix elminə gətirmiş alman səyahətçisi və alimi K.Rixterhofen nahaq demirdi ki, antik və Çin sivilizasiyalarını birləşdirən bu transkontinental yol parlaq fəaliyyəti dövründə Roma, Vizantiya, Ərəb xilafəti, Hindistan, Monqolustan, Çin kimi müxtəlif dövlətlərin maraqlarını

birləşdirirdi. Belə fikirləri bu yolun yolçuları olmuş böyük səyyahlar və tədqiqatçılar çinli Syuan Tsyan, italiyalı Marko Polo, ispaniyalı Klavixo, ərəb İbn Fədlan, rusiyalı Afanasi Nikitin və başqaları öz əsərlərində geniş qeyd edirlər.

Bütün bu tarixi incəliklərinə qədər bilən, Çinlə Azərbaycan əlaqələrinin perspektivlərini görən və yüksək dəyərləndirən ümummilli lider Heydər Əliyev Asiya qitəsinin nəhəngi olan bu ölkə ilə münasibətlərin qurulmasına böyük önəm verirdi.

Bu münasibətlərdə ən maraqlı məqam da elə "Böyük İpək Yolu" layihəsi idi.

Dünyanın siyasi xəritəsi ötən iyirmi əsrdə nə qədər dəyişsə də coğrafi xəritəsi zərrə qədər də dəyişməmişdi və bu yolun, təkcə yeni əsrin iki inkişaf etmiş müstəqil dövlətinə – Çinlə Azərbaycana deyil, bu xətt üzərində qərarlaşmış bütün dövlətlərə böyük faydası olacağını, elə buna görə də dünyanın bu layihəni dəstəkləyəcəyini ümummilli lider Heydər Əliyev hamıdan yaxşı bilirdi.

Heydər Əliyev Azərbaycan Prezidenti postuna seçilən gündən Çini, səfər edəcəyi, prioritet xarakter daşıyan ölkələrdən biri kimi qeyd etdi. Çinin dünya siyasətində rolunu və yerini, iqtisadi inkişaf sürətini və onunla olan tarixi əlaqələri incəliklərinə qədər dəyərləndirən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu ölkəyə səfər ərəfəsində qəbul etdiyi ÇXR-in Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sya Şyuanla söhbət zamanı bildirirdi ki, "Çin nəhəng dövlətdir və BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biridir. Dünyada onun siyasi çəkisi və təsiri çox böyükdür. Mən əminəm ki, bu səfər iki dövlət arasında mədəni və iqtisadi sahələrdə əlaqələrin inkişafında mühüm rol oynayacaq". Tarix müdrik dövlət xadiminin bu proqnozunu da təsdiqlədi.

1994-cü il martın 7-də baş tutan səfər zamanı yüksək səviyyədə qarşılanan Azərbaycan Prezidenti Heydər Əliyevlə danışıqlarda ÇXR sədri Tszyan Tszemin Cənubi Qafqazın

karbohidrogen ehtiyatları ilə zəngin olan gənc müstəqil ölkəyə maraqlarını gizlətmirdi: "Çin Azərbaycanla münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət verir və bütün sahələrdə dostcasına əməkdaşlığın daha da genişləndirilməsi üçün onunla birlikdə səy göstərməyə hazırdır". Bundan məmnunluq ifadə edən Prezident Heydər Əliyev istər ÇXR sədri Tszyan Tszeminlə, istərsə ÇXR Dövlət Şurasının baş naziri Li Penlə görüşlərində ikitərəfli münasibətlərin müxtəlif cəhətlərinə, habelə Azərbaycanda və bütövlükdə bölgədəki vəziyyətlə bağlı fikir mübadiləsi aparmış, Çinin beynəlxalq siyasi və iqtisadi müstəvidə böyük rol oynadığını və islahatlar keçirilməsində Çinin təcrübəsinin öyrənilməsinə Azərbaycanın maraq göstərdiyini xüsusi qeyd etmişdir.

Ulu öndərin Çinlə münasibətlərə böyük önəm verdiyini onun ilk səfərindəcə imzalanan sənədlərin sayı da aydın göstərirdi. İki ölkə arasında münasibətlərin inkişafına impuls vermiş təkcə bu bir səfər çərçivəsində 11 sənəd – dövlət başçılarının Birgə Bəyannaməsi, 8 dövlətlərarası saziş və 2 protokol imzalandı. Elə o zaman imzalanmış hava yolunun açılması, elmi-texniki və mədəni əməkdaşlıq, təbabət, radio və televiziya, turizm sahəsində qarşılıqlı fəaliyyət haqqında sazişlər iki ölkə arasında əməkdaşlığın hüquqi bazasına çevrildi və münasibətlərin inkişafında ilk səhifə açdı.

Bu səfər, eyni zamanda, "Böyük İpək Yolu"nun tarixi təcrübəsi əsas götürülərək işlənən yeni layihə –TRASEKA-nın daha ciddi şəkildə gündəmə gəlməsində mühüm rol oynadı. Çox keçmədi ki, 1998-ci ilin sentyabrında Bakıda "Böyük İpək Yolu"-nun bərpası probleminə həsr olunmuş beynəlxalq konfrans keçirildi və yekunda 32 dövlət Avropa – Qafqaz – Asiya dəhlizinin inkişafı üzrə çoxtərəfli sazişi imzaladı. Çindən Türkmənistana, oradan Azərbaycana və Gürcüstana, sonra Türkiyəyə, oradan isə Avropaya uzanıb getməklə tarixi İpək Yolunu təkrar edəcək TRASEKA artıq neçə illərdir ki, Beynəlxalq Valyuta Fondu və Avropa İnkişaf və Yenidənqurma Bankı tərəfindən fəal maliyyə dəstəyi alır. Bu

layihə çərçivəsində Qara dənizdə və Xəzərdə yük limanları tikilir, dəmir yolları, avtomobil magistralları çəkilir. Transsibir magistralından 2000 kilometr qısa olmasına baxmayaraq, Rusiya yeni layihənin Cənubi Qafqazın və Mərkəzi Asiyanın ondan iqtisadi asılılığını zəiflədəcəyini başa düşərək bütün vasitələrlə TRASEKA-nı əngəlləməyə çalışır.

Bu gün, tam başa çatmasa belə, bu layihənin Azərbaycana gətirdiyi xeyri gördükdə bir daha anlayırsan ki, ümummilli lider Heydər Əliyev nədən bu layihənin reallaşmasına ciddi cəhdlə çalışır və təkcə Çinə yox, Böyük Britaniyaya, Polşaya, İtaliyaya, Moldovaya, Ukraynaya, Yaponiyaya və digər ölkələrə səfərləri zamanı "Böyük İpək Yolu" və ya TRASEKA layihəsi onun danışıqlarının əsas mövzularından biri olurdu.

Amma Çinlə münasibətlər təkcə bu amilin üstündə qurulmurdu. Çinə səfəri zamanı Prezident Heydər Əliyev Pekində Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsində çıxışı zamanı ölkəsinin mövqeyini belə açıqlayır: "Üçüncü gündür ki, ölkənizdə, onun paytaxtı – gözəl şəhər olan Pekindəyik və bu üç gündə bir çox məsələlər barəsində fikir mübadiləsi etməyə və hətta bir sıra mühüm sənədlər imzalamağa macal tapmışıq. Bu sənədlər Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlərin, ən əvvəl ticarət sahəsində və iqtisadiyyatın digər sahələrində əlaqələrin daha da inkişaf etdirilməsinə yönəldilmişdir. Ölkənizə gəldiyimiz andan həm ali dövlət rəhbərliyi tərəfindən, həm də işlə əlaqədar bizimlə ünsiyyətdə olanların hamısı tərəfindən əhatə edildiyimiz səmimi dostluq mühitini ilk növbədə qeyd etmək istərdim. Açığını deyirəm, biz özümüzü evimizdəki kimi hiss edirik. Bu, olduqca vacibdir, çünki biz Çin Xalq Respublikası ilə dostluq münasibətləri yaratmağa çalışırıq. Odur ki, bu səfər, Azərbaycan Prezidentinin Çinə ilk səfəri məhz belə münasibətlər yaradılmasının və bu münasibətlərin inkişaf etdirilməsinin zəruriliyindən irəli gəlir".

Anlaşılan bir gerçəklik var ki, Çin, BMT TŞ-nin daimi üzvü kimi dünya miqyasında, digər aparıcı dövlətlərdən fərqli olan, xüsusi rola və mövqeyə sahibdir. Bu ölkənin özünün planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçidlə bağlı qeyri-standart və əksər hallarda müsbət təcrübəsi var. Bunun özü də bizim ölkə üçün yaxşı nümunə ola bilərdi.

Prezident Heydər Əliyev Çinə səfəri çərçivəsində bu ölkənin ictimai Elmlər Akademiyasının alimləri, mütəxəssisləri və əməkdaşları qarşısında çıxışı zamanı bu iki ölkə arasındakı əlaqələrin tarixindən bəhs edərək bildirdi ki, "Hələ XII-XIII əsrlərdə Çinlə əlaqələr mövcud olmuşdur. Böyük İpək Yolu Azərbaycandan keçmişdir və Çin tacirləri bizə gəlmişlər. Bir sözlə yolların qovşağında yerləşən, Avropa ilə Asiyanı birləşdirən Azərbaycan həm Qərblə, həm də Şərqlə bağlı olmuşdur. Bu bir daha bizim ölkələrin qədim tarixi olduğunu təsdiq edir".

Prezident Heydər Əliyev səfərdən sonra da Çinlə münasibətləri daim diqqətdə saxlayırdı. 2001-ci il dekabrın 7-də Bakıda ÇXR-in səfirliyinin binasının açılışında söylədiyi nitqindən deyirdi: "Biz öz ölkəmizin – Azərbaycanın Çin Xalq Respublikası ilə münasibətlərinə xarici siyasətimizin mühüm istiqaməti kimi baxırıq və çalışacağıq ki, bu münasibətlər Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının maraqları çərçivəsində, dostluq əlaqələrinin gələcəkdə daha da möhkəmlənməsi naminə inkişaf etsin və təkmilləşsin".

Dövlət başçısının Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birini göstərən bu çıxışından illər keçməsinə baxmayaraq, cənub ölkəsinin xarici siyasətində bu istiqamət indi də prioritetlərdən biri olaraq qalmaqdadır. Azərbaycan Respublikası bu gün də xarici siyasətində Çin amilinə xüsusi önəm verir və onun xarici siyasətinin əsas məramlarından biri bu ölkə ilə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi və daha da dərinləşdirilməsidir. Çünki ustad siyasətçinin uzun illərə hesablanmış bu strateji xətti də onun varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Rəsmi Pekinin Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində daim Azərbaycana dəstək verməsi, münaqişənin Azərbaycanın sərhəd toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdar çıxması bir daha göstərir ki, Çin bu məsələdə birmənalı mövqe nümayiş etdirir. Qarşılıqlı olaraq Azərbaycan da Tayvan məsələsinə münasibətdə analoji mövqedən çıxış edir. Çinin BMT Təhlükəsizlik Şurasının veto hüquqlu 5 üzvündən biri olmasını və beynəlxalq məsələlərə geniş təsir imkanlarını nəzərə alsaq, bu cür prinsipial məsələlərdə iki ölkənin rəsmi mövqelərinin üst-üstə düşməsi Azərbaycan üçün çox vacibdir.

... Dahilərin düşüncəsindən hasilə gələn layihələr indi daha tez gerçəyə çevrilir. Əgər onlar bəşəriyyətin inkişafına və insanların rifahına xidmət edəcəksə, onların qarşısını almaq elə də asan olmur. Heydər Əliyevin Qədim İpək Yolunun bərpası ilə bağlı düşüncələri biləvasitə onun rəhbərliyi ilə 1998-ci ilin sentyabrında Bakıda keçirilən "Böyük İpək Yolu"-nun bərpası probleminə həsr olunmuş beynəlxalq konfransdan 19 il sonra – 2017-ci ilin oktyabrında Bakı – Tbilisi – Qars dəmir yolu kimi həyata vəsiqə aldı.

Atası Heydər Əliyevin bütün ideyalarını ən yaxşı şəkildə həyata keçirərək ölkəsinə böyük iqtisadi və siyasi dividentlər qazandıran Azərbaycan Prezidenti İlham Əliyev hələ 2006-ci il martın 16-da Dünya Azərbaycanlıların II Qurultayındakı nitqində deyirdi: "Bakı – Tbilisi – Qars dəmir yolunun tikintisi bizim əsas vəzifələrimizdən biridir və biz buna nail olacağıq".

Bu gün artıq Bakı – Tbilisi – Qars dəmir yolu Çin Xalq Respublikasının sədri Si Sinpinin bu ölkənin əsas beynəlxalq iqtisadi siyasəti kimi Çin Kommunist Partiyasının Nizamnaməsində əksini tapmış "Bir kəmər – bir yol" meqa layihəsinin əsas nəqliyyat dəhlizlərindən biridir. "Bir kəmər- bir yol" strategiyası çərçivəsində 2017-ci il mayın 14-də Pekində keçirilən keçirilən yüksək səviyyəli beynəlxalq forumdakı çıxışında Türkiyə Prezidenti Rəcəb Təyyub Ərdoğan altı ay-

dan sonra açılışı olacaq BTQ dəmir yolunun bu meqalayihədəki yerindən danışarkən bildirmişdi ki, İpək Yolunun bir hissəsi olan Orta Dəhliz layihəsi "Türkiyə, Gürcüstan, Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Əfqanıstan və Pakistanı əhatə etməklə Çində başa çatacaq ticarət yoludur. Dünyada 60-dan çox ölkədən keçən Yeni İpək yolu 40 milyon kvadratkilometrə yaxın ərazini və 4,5 milyard insanı əhatə edən çox önəmli bir layihədir".

Heydər Əliyevin yüksək önəm verdiyi Azərbaycan-Çin münasibətləri məhz belə bir layihənin reallaşmasında son dərəcə mühüm rol oynadı.

## Diqqət "Gündoğar ölkə"yədir

Şərqin inkişaf etmiş qabaqcıl dövlətlərindən biri olan Yaponiya öz milli-mənəvi dəyərləri ilə, yüksək texnoloji inkişafı ilə, hələ Sovet Azərbaycanının tərəqqisinə xidmət etdiyi dövrdən Heydər Əliyevi maraqlandırırdı. Doğrudur, Azərbaycanı sovet dönəminə qədər Yaponiya ilə bağlayan elə bir tarixi məqam yox idi. Lakin XX əsrin 60-cı illərindən başlayaraq sovet Azərbaycanı ilə "Gündoğar ölkə" arasında Sovet İttifaqının müəyyənləşdirdiyi çərçivələrdə bir çox mədəni və iqtisadi sahələrdə əlaqələr yaranmağa başlamışdı.

1956-cı ilin oktyabrında uzun müddət gərgin münasibətlərdə olan Yaponiya ilə Sovet Sosialist Respublikaları İttifaqı arasında diplomatik münasibətlər bərpa edildikdən sonra Azərbaycan və Yaponiya arasında da mədəni əlaqələrin qurulmasına şərait yarandı. Artıq XX əsrin 60-cı illərindən başlayaraq Azərbaycan-Yaponiya əlaqələrində ciddi nəticələr əldə edilmiş, hətta Sovet Sosialist Respublikaları İttifaqı – Yaponiya cəmiyyətinin Sumqayıt şəhəri üzrə şöbəsi də fəaliyyət göstərmişdir. Çünki həmin illərdə Sumqayıt artıq qabaqcıl, müasir kimya şəhəri idi. Məhz həmin cəmiyyətin xətti ilə Azərbaycana gələn Yaponiya nümayəndə heyətləri

Bakı və ölkənin digər regionları, onun tarixi, milli mədəniyyətilə yaxından tanış olurdular.

Ötən əsrin 60-cı illərində bu iki ölkə arasında mədəni, elmi və digər sahələrdə qarşılıqlı səfərlər daha da artmağa başladı. Yaradıcı sənətkarlar, incəsənət adamları arasında əlaqələr də qarşılıqlı şəkildə inkişaf edirdi. Yaponiyaya yaradıcılıq ezamiyyətinə getmiş Azərbaycan rəssamlarından T. Sadıqzadə və E.Rzaquliyev «Gündoğar ölkə»ni əks etdirən silsilə əsərlər yaratmış, 1964-cü ildə yazıçı və kinorejissor Həsən Seyidbəyli də Yaponiyada yaradıcılıq ezamiyyətində olmuşdu. Bu illərdə Yaponiyada Azərbaycan haqqında informasiyalara böyük tələbat vardı. Hətta, 1965-ci ildə Yaponiyada Xəbərlər Mətbuat Agentliyinin nəşr etdirdiyi «Sovet İttifaqı bu gün» jurnalının bir nömrəsi bütünlüklə Azərbaycan Sovet Sosialist Respublikasına həsr edilmişdi. Bunun başlıca səbəbi isə yaponların Bakı, Neft Daşları və Azərbaycan mədəniyyətinə olan böyük marağı idi.

Respublikanın Dövlət Təhlükəsizlik Komitəsinin rəhbəri Heydər Əliyevin «Gündoğar ölkə» ilə münasibətlərin bütün sahələrindən geniş məlumatı var idi və o, 1969-cu ildən sovet Azərbaycanına rəhbərliyə başladığı dövrdən Azərbaycan və Yaponiya əlaqələri daha da genişlənməyə başladı.1973-cü ilin oktyabrında Sovet Sosialist Respublikaları İttifaqı ilə Yaponiya arasında bir sıra sahələrdə əlaqələrin inkişafını nəzərdə tutan sazişlərin imzalanması bu prosesə böyük təkan verdi.

Doğrudur, bu illərdə iki ölkə arasında iqtisadi əməkdaşlıq istiqamətində də bir çox əlaqələr qurulmuşdu. Məsələn, 1967-ci ildə Yaponiya ilə əməkdaşlıq nəticəsində "AZON" zavodu tikilmişdi və texniki təchizatına görə bu müəssisənin keçmiş İttifaqda bənzəri yox idi. 1973-1975-ci illərdə isə, əvvəldə qeyd etdiyimiz kimi, Heydər Əliyevin şəxsi siyasi ustalığı və iradəsi sayəsində Bakıda Yaponiya mütəxəssislərinin iştirakı və yapon texnologiyası əsasında, o dövrlər üçün ultramüasir hesab edilən məişət kondisionerləri za-

vodu – "Bakkondisioner" tikilərək istifadəyə verilmişdi. Bu zavod ildə 400 min ədəd kondisioner istehsal etmək gücünə malik olan Yaponiyanın məşhur "Toşiba" şirkətinin lisenziyası əsasında keçmiş Sovet Sosialist Respublikaları İttifaqı ərazisində qurulan yeganə müəssisə sayılırdı. Bütün bunlar Azərbaycan-Yaponiya əməkdaşlığının təməli, həm də ilk mühüm nailiyyətləri sayıla bilərdi.

Bəlkə elə Sovet dönəmində yaranan bu sıx əlaqələr səbəbindən idi ki, Yaponiya 1991-ci il dekabrın 28-də bəyanatla çıxış edərək Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri oldu. Bir il sonra – 1992-ci il sentyabrın 7-də isə Yaponiya ilə Azərbaycan arasında diplomatik əlaqələr quruldu. Lakin ölkədə cərəyan edən hadisələr böyük siyasi və iqtisadi potensiala və nüfuza malik olan bu dövlətin imkanlarından yararlanmağa imkan vermirdi.

Heydər Əliyevin hakimiyyətə qayıdışı dünyanın böyük güclərindən biri sayılan Yaponiya ilə müstəqil Azərbaycan münasibətlərində də bir canlanma yaratdı. O, bilirdi ki, BMT, G7, G8 və G20 platformalarının üzvü olan bu ölkə istər regionda, istərsə də beynəlxalq siyasətdə söz sahibidir. Digər tərəfdən, Yaponiya həmin dövr üçün ümumdaxili məhsulun həcminə görə dünyanın 4-cü, alıcılıq qabiliyyətinin sabitliyinə görə isə 3-cü ən güclü iqtisadiyyatına malikdir və dünyanın sayca 5-ci ixracatçısı və idxalçısıdır. Konstitusiyasında müharibə elan etmək istəməyən dövlət olduğunu rəsmən bəyan etsə belə, bu ölkə hərbi büdcəsinə görə dünyanın ilk onluğunda 8-ci yerdə qərarlaşıb.

Yaponiya bu gün Asiya-Sakit okean bölgəsinin iqtisadi cəhətdən yeganə superdövlətidir ki, yüksək texnologiya sahəsində ABŞ və Avropa Birliyi ölkələri ilə rəqabət gücünə malikdir. Çox zəif təbii və enerji resurslarına malik olmasına baxmayaraq, bu ölkə XX əsrin ikinci yarısında bütün dünyaya ən yüksək modernləşmə və inkişaf nümunəsi göstərə bilmişdir.

Heydər Əliyevin xarici siyasət istiqamətində atdığı addımlarda az bir zaman sonra Azərbaycan Yaponiyanın Cənubi Qafqaz regionundakı əsas strateji tərəfdaşına çevrildi. Rəsmi Tokionun Azərbaycana olan marağı ölkənin Baş naziri R.Xasimotonun 1997-ci ildə elan etdiyi «Avrasiya diplomatiyası» konsepsiyasında da öz əksini tapmışdı. Bu konsepsiyada qeyd edilirdi ki, «soyuq müharibə»nin başa çatması ilə beynəlxalq münasibətlərdə köklü dəyişikliklər baş verib və belə bir məqamda Yaponiya Asiya və Sakit Okean regionuna istiqamətlənmiş diplomatiyasını fəallaşdırmalıdır. Əlbəttə, burada da söhbət tarixi «İpək Yolu»nun keçdiyi bütün ölkələrdə «Avrasiya siyasəti»nin yeridilməsindən gedir və Azərbaycana xüsusi yer ayrılırdı.

Yaponiyanın yeni xarici siyasət doktrinasında açıqlanan bu münasibət Azərbaycana da Yaponiya kimi ölkə ilə daha sıx münasibətlər qurmağa geniş perspektivlər açırdı. Bu illərdə Yaponiyanın Beynəlxalq İqtisadi Əməkdaşlıq Fondunun Azərbaycanın çətin günlərində ölkəmizə verdiyi dəstək də Heydər Əliyevin diqqətindən yayınmırdı. Ona görə də Prezident Heydər Əliyev 1998-ci il yanvarın 17-də Fondun nümayəndə heyətini qəbul edərkən Azərbaycan və Yaponiyanın bütün fəaliyyət sahələrində yaxşı tərəfdaş olmaq imkanlarını diqqətə çatdırır.

Bundan bir müddət sonra – 1998-ci il fevralın 24-də Azərbaycan Prezident Heydər Əliyevin Yaponiyaya dörd günlük ilk rəsmi səfəri başladı. Bu səfər Baş nazir Haşimotonun qəbulda söylədiyi kimi, təkcə tarixi hadisə olmadı, həm də Azərbaycanın Cənub-Şərqi Asiya dövlətləri ilə siyasi və iqtisadi əlaqələr tarixində də yeni bir səhifə açdı.

Yaponiya imperatoru əlahəzrət Akixito Prezident Heydər Əliyevi qəbul edərkən bildirdi ki, onun ölkəsi müstəqil Azərbaycan Respublikası ilə əməkdaşlığın daha da möhkəmləndirilməsinə xüsusi maraq göstərir. İmperator tarixi məqamlara toxunmaqla bu əlaqələrin indiki vaxtda daha zəruri olduğunu ümumi sözlərlə ifadə etsə də, Baş nazir Haşi-

moto gənclik illərindən Sovetlər İttifaqının tanınmış siyasətçisi Heydər Əliyevə və onun ölkəsinə olan isti münasibəti açıqlayaraq bildirdi ki, hələ gənclik illərində Azərbaycana xüsusi maraq göstərmiş və zəmanəmizin görkəmli dövlət xadimi hesab etdiyi Heydər Əliyevin həyat və fəaliyyəti ilə yaxından tanış olmuşdur.

Baş nazir coğrafi-siyasi cəhətdən çox mühüm bir ərazidə yerləşən Azərbaycanla əməkdaşlığın durmadan inkişaf etdirilməsinə Yaponiyanin xüsusi əhəmiyyət verdiyini bildirərək deyir: "Yaponiya Azərbaycanın dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir, Ermənistan-Azərbaycan münaqişəsinin ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında sülh yolu ilə aradan qaldırılmasına tərəfdardır. Yaponiya Azərbaycanın haqq işini müdafiə edir, bir ölkənin digər ölkənin ərazisini zor gücü ilə ələ keçirməsini qətiyyətlə pisləyir".

Əslində, bu səfərə qədər Yaponiya gənc müstəqil Azərbaycan Respublikasına həm də çox böyük iqtisadi dəstək göstərirdi. Azərbaycan Prezidentinin məhz bu səfəri zamanı, Yaponiya hökuməti Azərbaycanın «Şimal» Buxar-Qaz Elektrik Stansiyasinin tikinti layihəsinə 20,7 165 milyon ABŞ dollar, Etilen-Polietilen Zavodunda EP-300 qurğusunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsinə 75 milyon ABŞ dollar məbləğində ən güzəştli kredit ayrılması haqqında sənədlər imzalandı. Bununla yanaşı ərzaq məhsulları istehsalının artırılması üçün də Azərbaycana 3 milyon 250 min ABŞ dollar əvəzsiz qrant ayrıldı. Elə bu görüşdəcə Azərbaycana vərəm xəstəxanası üçün 1,7 milyon dollar məbləğində tibbi avadanlıq göndəriləcəyini bildirən Baş nazir Haşimoto dedi ki, Yaponiya hökuməti ölkənizə humanitar yardimi daha da artıracaq, o cümlədən Azərbaycan qaçqınlarına BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının xətti ilə təcili yardim göstərməyə başlayacaqdır.

Qısa bir zamanda siyasi və iqtisadi münasibətlərdə özünün gənc müstəqil ölkəyə rəgbətini açıq göstərən Yaponi-

ya əslində Heydər Əliyevin gəlişindən sonra Azərbaycanı Cənubi Qafqazda çox etibarlı tərəfdaş kimi görməyə başlamışdı. Çünki məhz Heydər Əliyevin qərarı ilə Xəzərin Azərbaycan sektorundaki yataqların birgə işlənməsi üçün imzalanmış müqavilələrin həyata keçirilməsində «İtoçu» şirkətinə böyük pay ayrılmışdı. Prezident Heydər Əliyev Yaponiya Milli Neft Korporasiyasinin rəhbərliyinin onun şərəfinə təşkil etdiyi qəbulda bunu özünəməxsus şəkildə qeyd edərək söylədi:

– Yaponiyanin neft şirkətləri Yaponiya-Azərbaycan iqtisadi əlaqələrinin həyata keçirilməsində ilk cığır açanlardır. Yaponiya ilə Azərbaycanı nəinki iqtisadi sahədə, həm də həyatın başqa sahələrində birləşdirən körpünü məhz siz salmısınız. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Yaponiyadan Azərbaycana birinci olaraq Yaponiyanin neft şirkətləri gəldilər. Onlar yaxşi əlaqələr və əməkdaşlıq yaratmişlar. Dünyanin 12 ölkəsinin şirkətlərinin iştirak etdiyi "Əsrin müqaviləsi"ndə, Yaponiyanın «İtoçu» neft şirkəti də var. O, tək deyildir. İndi Yaponiyanın artıq altı iri şirkəti Azərbaycanda öz nümayəndəliklərini açmışdır.

Buna cavab olaraq Yaponiya Milli Neft Korporasiyasının prezidenti Kunio Komatsu dedi: "Uzaq keçmişlərdə bizi «İpək Yolu» birləşdirirdi, indi isə bizi neft bağlayır".

Amma zaman göstərdi ki, neft bu uzaq ölkələri elə uzun vaxta yaxınlaşdırmamışdır. Çünki neft nə zamansa tükənəcək. Bu reallıqdan çıxış etsək, demək, Heydər Əliyevin artıq gerçəkləşən "Qədim İpək Yolu" nun yeni – "Polad İpək Yolu" kimi bərpası isə Azərbaycan – Yaponiya münasibətlərini daha yaxın və daha etibarlı edəcək.

## XI fəsil

# GÜNƏŞ DƏNİZDƏN DOĞUR

*14-15 iyul 2001-ci il, Bakı*

Bir dəfə «qələm ustaları» ilə növbəti görüşdə, 2001-ci ilin iyulunda jurnalistlərdən biri Heydər Əliyevdən xatirə yazıb-yazmadığını soruşdu:

– Xeyr, – dedi, – xatirə yazmıram. Ancaq belə görüşlər zamanı həyatımdan bəzi epizodları danışıram. Yazmağa gəlincə, çox istərdim, sadəcə, buna vaxtım yoxdur.

Görüş, Müslüm Maqomayevin təbirincə desək, Azərbaycan dilində qeyri-adi səslənən Zuğulbadakı dövlət iqamətgahında keçirilirdi. İqamətgah 30-cu illərdə partiya nomenklaturasına görə inşa edilib. Yeni dövrün rus və azərbaycanlıları üçün bu yer bir elə də möhtəşəm deyildi. Çünki standartlara cavab vermir. Ancaq qeyri-adi dadlı quyu suyu insanı cəlb edir.

– Bu ev qədim tikilidir, – Azərbaycan Prezidenti evi qonaqlarına – Rusiyanın kütləvi informasiya rəhbərlərinə təqdim edir.

– O bu günün tələblərinə cavab vermir. Bilirsiniz, mən xaraktercə çox sabit insanam. Öyrəşdiyim şeylərdən asanlıqla ayrıla bilmirəm. Düzdür, hazırda daha çox şəhərdə qalıram. Nadir hallarda, yayda burada oluram. Mənim övladlarım da bu evdə böyüyüblər. Bu yer bizim üçün xatirələr məskənidir.

Jurnalistlər böyük həvəslə, bir-birini ehmallıca sıxışdıra-sıxışdıra qonaqpərvər ev sahibinin ardınca addımlayır, onun bu gözlənilməz etirafının bir sözünü belə qaçırmamaq üçün diktafon kasetlərini tez-tez dəyişir, şəkillər çəkirdilər.

Heydər Əliyev dedi:

– Siz məndən qeyri-rəsmi şəraitdə görüşməyi xahiş etdiniz.

Budur, görüşdük. Baxın... Siz daha çox xiyabana bənzəyən uzun bir yolla gəldiniz. Bu ağacları biz 70-ci illərdə yolu çəkərkən əkmişik. Hər bir fıdanı sevə-sevə böyütmüşük. Bilirsiniz, keçmişdə Bakıda yaşıllıq olmayıb. Qorkinin bu mövzuda dediklərini yəqin ki, xatırlayırsınız...

– Bir parça da yaşıllığı olmayan şəhər... Çox böyük ustalıqla qaranlıq cəhənnəmi tərənnüm edib, – moskvalı reportyorlardan biri proletar ədəbiyyatının başqa bir klassiki ilə tanışlığını nümayiş etdirmək üçün belə bir replika atdı.

– ...Burda olan Mayakovski də bunu qeyd edib, – Heydər Əliyev replikaya reaksiya vermədən davam etdi. – Bizim yerlərdə Rusiyadan fərqli olaraq, ağaclar gec böyüyür. Onlar daimi qulluq tələb edir. Yaxşı ağac yetişdirmək üçün 5-6 il onu sulamaq lazımdır. Sonra bitki öz köklərini torpağa bərkidir.

Səsli-küylü dəstə elə onu bilirdi ki, ətrafa boylansın: inana bilmirdilər ki, bu cənnət guşəsi səhrada boy atıb.

– Təkrar edirəm ki, ağacları biz bu yerləri quranda əkmişik.

Bax, bu nar ağaclarını mən əkmişəm. Azərbaycanda narı çox sevirlər...

Sonra meyvə, Azərbaycan şiniyyatı və qeyri-adi ətri ilə seçilən çay qonaqlığı verildi. Stol arxasında Xəzər dənizinin statusu, respublikada mətbuatla münasibətlərin səviyyəsi, Əliyevin böyük siyasətə qayıdışı və əlbəttə, Dağlıq Qarabağ məsələsi haqqında söhbət aparıldı. Ulu Öndər qeyd etdi ki, 1988-ci ildə bu məsələ gündəmə gəldi. Ancaq Sovet İttifaqının rəhbərliyi nəinki onun tənzimlənməsi üçün tədbirlər gördü, əksinə, hətta buna daha da təkan verdi.

Azərbaycan Prezidenti xalqları ayıran faciə barədə ilk dəfə deyildi ki, danışırdı. Qarabağ – onun ağrısı idi. O, ən müxtəlif auditoriyalarda bu ağrı verən yaraya qayıdır, öz mövqeyini izah edirdi. Əliyev əmin idi: «Əgər Qorbaçov və onun ətrafı 1988-ci ildə düzgün mövqe tutsaydılar, bu münaqişə belə həddə gəlib çatmazdı və bu qədər itki də baş verməzdi. Ermənistanla Azərbaycan da belə düşmən münasibətdə olmazdılar) (2000-ci il iyunun 22-də Moskvada həmvətənliləri qarşısındakı çıxışından).

O, Azərbaycana Rusiya ilə dostluğu vəsiyyət etdi.

1992-ci ildən Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olurdu. 1997-ci ildən etibarən qrupun üç həmsədri – Rusiya, ABŞ və Fransa oldu. Həmin ölkələrin diplomatları Azərbaycanın razılaşdığı təklifləri işləyib hazırlayırdılar.

Heydər Əliyev qonaqlarına məsələnin nə yerdə olduğunu aydınlaşdırdı. Dağlıq Qarabağın Azərbaycanın tərkibində yüksək özünüidarə statusu ilə qalmasını... Yeri gəlmişkən, 1997-ci ilin sonunda Ermənistan prezidenti Ter-Petrosyan münaqişənin həllində bundan optimal çıxış yolunun olmadığı qərarına gəlmişdi. O, açıq şəkildə Dağlıq Qarabağ ətrafında işğal olunmuş 7 rayondan erməni silahlılarının çıxarılması, sonra isə Qarabağın statusunun müəyyənləşdirilməsi təklifı ilə razı olduğunu bildirmişdi... Amma ona mane oldular. 1998-ci ihn fevralında istefa verdi... Danışıqlarda Azərbaycan nümayəndə heyətinin tərkibində artıq bizim tanıdığımız, XİN-in idarə rəisinin müavini, sonra isə rəisi Murad Heydərov da iştirak edirdi. Murad Heydərov qürur hissi keçirir ki, bir dəfə Prezidentə məlumat verərkən ondan lakonik bir qiymət alıb: «Afərin!»

Yevgeni Primakovun nüfuzlu rəyinə görə, Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldınlması sahəsində danışıqlarda məsələnin həllinə çox yaxın idi.

– Mən əminliklə deyə bilərəm ki, ona ölüm mane oldu.

Yevgeni Maksimoviç Primakov təklif olunan layihə ilə bilavasitə əlaqəli idi. Bu səbəbdən onun məsələyə münasibətini öyrənmək maraqlı olardı:

– Ermənistan və Dağlıq Qarabağ tərəfindən Azərbaycanın ərazi bütövlüyünün tanınması, dövlət sərhədinin toxunulmazlığının qəbul edilməsi Dağlıq Qarabağın Azərbaycanın tərkibində yüksək idarəetmə statusunu əldə etməsi demək idi. Hər iki tərəfin maraqları və atacağı addımlar nəzərə alınmışdı...

Bakıya bu təklifi çatdırmaq, o dövrdə xarici işlər nazirinin birinci müavini vəzifəsində çahşan Boris Nikolayeviç Pastuxova həvalə edilmişdi.

– Xahiş etdim ki, Əliyev mənimlə təkbətək görüşsün, – deyə Pastuxov xatırlayır. – O vaxt ilk dəfə idi görürdüm ki, fantastik yaddaşa malik Əliyev artıq köhnəlmiş həftəlik kitabçasına dediklərimi qeyd edir. Bu, Rusiya Prezidentinin şifahi göndərişi idi. «Maraqlıdır, – Əliyev cavab verdi, – çox maraqlıdır».

Pastuxovun fikrincə, Əliyev Qarabağ problemini həll etmək mövqeyindən çıxış edirdi. O hesab edirdi ki, sonra bunu etmək çətin olacaq. – Baxmayaraq ki, daha böyük güzəşti Azərbaycan edirdi. Ermənistan geri çəkildi, – deyə Boris Nikolayeviç öz rəyini bildirir.

Onların saysız-hesabsız görüşləri olmuşdu. Pastuxov həmin görüşlərdən ən əsas bunları yaddaşına həkk etmişdi:

– Heydər Əliyevin ilk növbədə sovet və postsovet dövründə ən parlaq siyasətçilərdən biri olması şübhəsizdir. O, öz ölkəsində sülhün qorunmasına nail oldu. Gürcüstandan fərqli olaraq, iqtisadi durğunluğun qarşısını ala bildi. Rusiya ilə yaxın, mehriban qonşuluq münasibətlərini quraraq çeçenlərlə konfliktdə bizi dəstəklədi. O, Rusiyaya münasibətdə səmimi idi və üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirirdi. MDB ölkələrindən Belarus istisna olmaqla Azərbaycanda olduğu kimi rus dilinin geniş işləndiyi ikinci bir dövlət, məncə, yoxdur. Bilirsiniz, o həm də nəyə görə

dahidir? O, öz oğluna, öz ölkəsinə Rusiya ilə dostluğu vəsiyyət etdi. Əlbəttə, Azərbaycan da başqa dövlətlər kimi ən mənfəətli və uğurlu olanı axtarır... Bu təbiidir. Mən onunla çox söhbət etmişəm. Onunla bir çox problemləri, o cümlədən Xəzər məsələsini müzakirə etmişik. Çox çətin danışıqlar idi. «Mən bu problemi bir anın içində həll edərəm, Amma siz mənə Dağlıq Qarabağ problemlərində bu məsələləri həll edəcəyiniz haqda zəmanət verməlisiniz...» – deyirdi. Siyasi nöqteyi-nəzərdən bu normaldır.

– Yaman yenilməz, möhkəm insan idi! – deyə Pastuxov qeyd edir. – Müxtəlif dövlətlərin maraqlarını nəzərə almaq lazımdır. Bəli, balans... Siyasət yalnız bu yolla apanla bilər. Heydər Əliyev yüksək səviyyəli siyasətçi idi. Bundan əlavə, nadir iradəyə malik insan idi. O, ürəyinin xəstə olduğunu bilirdi, Amma özünü qorumurdu. İradəsi gücünə işini davam etdirirdi. Ləyaqətli ömürdür...

Keçmiş dostunun, həmfıkirinin, yoldaşının fikirlərini Yevgeni Maksimoviç Primakov belə tamamlayır:

– Heydər Əliyev, şübhəsiz, istedadh insan idi. Nadir şəxsiyyət idi. Sözsüz ki, o sovct sisteminin yetirməsi kimi formalaşmışdı. Amma işlərin nə yerdə olduğunu görəndə sistem adamı olmaqdan əl çəkdi. Onun oğlu da atası kimi istedadlıdır. Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyev atası kimi kağızsız çıxış edir. Nitqləri həmişə məzmunlu və ağıllı olur.

Heydər Əliyev hər zaman kompromisə, dialoqlara hazır idi. Ancaq müəyyən həddə qədər. Azərbaycanın milli maraqlarına toxunacaq hər hansı bir məsələni heç kəsə, nə Moskvaya, nə Vaşinqtona, nə də ki, Tehrana güzəştə gedirdi. «Əlbəttə, kimsə Azərbaycana münasibətdə sərt mövqe tuta bilər. Ancaq biz müstəqil dövlətik və heç bir sərt təsir bizi idarə edə bilməz» (1996-cı ilin 9 avqustunda Rusiya Federasiyasına səfəri zamanı mətbuat konfransındakı cavabından).

1998-ci il aprelin 10-da Heydər Əliyev RF hökuməti sədrinin müavini vəzifəsini icra edən İvan Rıbkini qəbul etdi.

Görüş zamanı Azərbaycan-Rusiya münasibətləri, MDB-nin fəaliyyəti haqqında məsələlər müzakirə edildi. Prezident martın 12-də Boris Nikolayeviç Yeltsinə Rusiyadan Ermənistana silah göndərilməsi haqqında məlumatla əlaqədar məktub göndərdiyini bildirdi.

– Artıq aprelin 10-dur, amma hələ də cavab gəlməyib.

Ümumiyyətlə, bu, bizim Rusiya Federasiyasında cavabsız qalan ilk məktubumuz deyil. Biz ki artıq müstəqil, bərabərhüquqlu dövlətlərik. Bu, o dövrlər deyil ki, ölkə Moskvaya, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə, Nazirlər Sovetinə məktub göndərib cavab ala bilməsin. Hazırda hər şey fərqlidir.

– O dövrdə cavabları vaxtında alırdılar, – deyə Rıbkin qeyd etdi.

– Hərdən almırdıq. O vaxt alırdıqsa, indi sözsüz almalıyıq. Bu məsələ bizim üçün prinsipial söhbətdir.

1993-cü ildə artıq Prezident Heydər Əliyevin verdiyi ilk göstərişlərdən biri də vətəndaşların qəbulu məsələsi idi. 80-ci illərin sonunadək qəbullar Kommunist Partiyası Mərkəzi Komitəsinin 4-cü girişində keçirilirdi. Sonra giriş xalq üçün qapalı oldu.

1993-cu ilin oktyabrından əhalinin qəbulunu dövlət müşavirləri, Prezidentin İcra Aparatnın şöbə müdirləri, onun köməkçiləri həyata keçirməyə başladılar. Qəbul vaxtları mütəmadi olaraq mətbuatda dərc olunurdu. Bu qayda indi də qorunub saxlamlır.

Prezidentə saysız-hesabsız məktublar ünvanlanırdı. Əliyevin göstərişi ilə onlar şöbələrə, icraçı işçilərə göndərilirdi. Hərdən geniş, bəzən isə çox qısa şəkildə üstü yazıhrdı: «Baxın».

Əhalinin dənizkənarı bulvarın vəziyyəti ilə bağlı şikayətinə əsasən, Əliyev şəhər icra hakimiyyətinə ərazinin abadlaşdırılması haqqında göstəriş verdi. O, bununla kifayətlənməyərək qədim, neçə-neçə nəsillər üçün əziz və möhtəşəm olan bu bulvara – Milli Park statusu verilməsi haqqında

sərəncam imzaladı. Prezidentə ünvanlanmış məktubla əlaqədar «Azərbalıq» Konserninin işində yoxlama aparıldı. Göstərilən faktlar təsdiqini tapdığına görə, konsernin rəhbəri məsuliyyətə cəlb olundu.

Musiqi aləmində bu gün Surxay Əsgərov məlahətli səsi ilə hamıya yaxşı tanışdır. Hələ yaradıcılığının lap başlanğıcında – İncəsənət Gimnaziyasının 9-cu sinfində təhsil alanda Azərbaycan Prezidenti ona dəstək olmuşdu. Yeniyetmənin atasnıın məktubunu nəzərdən keçirəndən sonra Surxaya maddi yardım edilməsi haqqında göstəriş vermişdi.

Bu cür faktlar saysızdır. Amma bir məsələni xüsusi qeyd etmək lazımdır. 1995-ci ildə ölkə yeni Konstitusiya layihəsini müzakirə edirdi. Noyabrın 12-də qəbul edilən qanunvericilik aktınm 57-ci maddəsində vətəndaşlann şəxsən, həmçinin yazılı fərdi və kollektiv şəkildə dövlət orqanlarına müraciət hüququ əks olunub. Şübhəsiz ki, vətəndaşın təklif, irad və şikayətləri dövlət orqanlarına müraciət hüququ insan hüquqlarnın həyata keçirilməsinin əsas şərtlərindən biridir. Bundan əlavə, hər bir vətəndaşın müraciətinin yazılı şəkildə cavablandırılması da vacibdir. Konstitusiya müddəaları, o cümlədən 57-ci maddə ölkədə qəbul edilən digər qanunvericilik aktlarında da öz əksini tapmışdır. Yeri gəlmişkən, əhalinin dövlət orqanlarına müraciət hüququnun Konstitusiyaya daxil edilməsi haqqında təklifi Heydər Əliyev irəli sürmüşdü.

1997-ci il iyun ayının 10-da «Vətəndaşların müraciətlərinə baxılması qaydaları haqqında» Azərbaycan Respublikasnın Qanunu qəbul edildi. Bu və Prezident tərəfindən qəbul edilən digər bir neçə qərar və göstərişlər ölkədə hüquqi-normativ bazanın yaranmasına gətirib çıxardı. Prezident şəxsən məktubların baxılma müddətini, qanun pozuntusuna yol verən səlahiyyətli şəxslərin məsuliyyətini, hər bir vətəndaşın qəbul qaydalarını müəyyən edirdi. Qanunvericiliyə uyğun olaraq, hərbçilərin və Qarabağ müharibəsi iştirakçılarının, onların ailələrinin ərizələrinə ən az vaxtda – 15 günə qədər baxılmalı idi.

## 21 sentyabr 1999-cu il, Bakı

Azərbaycanın paytaxtında «Əsrin müqaviləsi»nin imzalanmasnın 5 illiyi qeyd edilir. Təntənəli mərasimdə iştirak etmək üçün bir çox xarici ölkələrdən qonaqlar gəlib. Tədbirdə yanacaq və energetika naziri Viktor Kalyujninin rəhbərliyi ilə Rusiya nümayəndə heyəti də iştirak edir. Nazir Heydər Əliyevlə görüşəndə böyük məmnuniyyədə Bakı ilə onu bağlayan xatirələrdən söhbət açır: «Burada babam, nənəm dəfn edilib, valideynlərim burada yaşayıb, bacım 1938-ci ildə bu torpaqda dünyaya göz açıb. Biz Neftçalada Stepan Razin qəsəbəsində yaşayırdıq. Müharibə başlayandan sonra «İkinci Bakı» kəşf olundu, atam ora köçdü. Mən Uralda anadan olmuşam. Tarixi köklər insanı həmişə çəkir. Bu torpaqda olmaq mənə çox xoşdur».

Təbii ki, bütün bunlar lirik notlar üzərində keçən danışıqlar idi. Sonra isə Xəzərin, Şimali Qafqazın problemləri, neft marşrutlarının müəyyən edilməsi kimi ciddi məsələlər müzakirə edildi.

Heydər Əliyev dedi:

«Bizim üçün Şimali Qafqazda sakit şəraitin bərqərar olması Rusiya ilə əlverişli əlaqələrin qurulması deməkdir. Hazırda Rusiya ilə etibarlı əlaqə dedikdə nəqliyyat, digər kommunikasiya sahələrini, ticarət, əmtəə mübadiləsinin aparılmasını nəzərdə tuturam ki, bu da əhalinin maddi rifahının yüksəlməsinə yardımçı ola bilər.

Dağıstan bizimlə yaxın qonşudur. Biz həmişə burada sabit şəraitin bərqərar olmasının tərəfdarı olmuşuq. Hələ 1997-ci ildə Moskvada rəsmi səfərdə olarkən Prezident Boris Nikolayeviç Yeltsinlə görüşdüm və nümayəndə heyətimizin iştirakı ilə keçirilən görüşdə Dağıstandakı şəraitin çox ağır olduğunu, gündən-günə pisləşdiyini və buna diqqət yetirməyin vacibliyini bildirdim. Bu gün həmin faktları mətbuat qarşısında açıqlamaq məcburiyyətindəyəm ki, sonra bizim mövqeyimiz təhrif olunmasın».

Yeltsin buna nə cavab verdü? «Hə, bilirik, məşğuluq».

Nə ilə? Dünya mətbuatından artıq layiqli sərt cavabını alan bir insan nə ilə məşğul ola bilərdi? 1999-cu ilin avqustunda alman qəzeti «Reynişer merkurs» yazırdı: «Yeltsinə hörmətimizə baxmayaraq, onu canlı meyitlə müqayisə etməmək qeyri-mümkündür. Yeltsin sistemini qoruyub saxlamaq üçün vaxtaşırı onu bərpa edirlər. Amma Lenini əbədi saxlamaq mümkün olmadığı kimi, əyani təşviqat vasitəsi olaraq Yeltsin də Rusiyada bütün saatları dayandırsa belə, vaxtı aldatmağa nail olmayacaq».

«...Bu gün orada kimin xoşuna gəlməsə də belə, qeyd etməliyik ki, Rusiya hökuməti Dağıstanın təhlükəsizliyini qorumaq istiqamətində heç bir addım atmır. Mənim oradakı şəraitdən xəbərim olduğuna görə bu mövzuda danışmağa kifayət qədər əsasım var.

Mən mütəmadi olaraq Dağıstan nümayəndəliyi ilə görüşürəm. Onların dediklərinə görə, kimsə ayrıca gəlir, bir-iki adamla görüşür. Sonra da gedib hər şeyin qaydasında olduğunu söyləyir. Hələ Dağıstanda hadisələr inkişaf etməzdən öncə Rusiyanın yüksək vəzifəli şəxslərindən biri burada olub. O, vəhabilərin çox inkişaf etmiş insanlar olduğunu, onlarla qarşılıqlı əməkdaşlığın vacibliyini tövsiyə edib. Bu bəyanat Dağıstanda artıq məlumdur, bu xəbər bizə də gəlib çatıb. Bilirsiniz, Dağıstandakı Rusiya Federasiyasının müxtəlif xidmətlərinin bu cür məntiqsiz mövqe tutmaları Dağıstanın hazırda düşdüyü şəraitin əsasını təşkil edir. Əlbəttə, bütün bunlar Rusiya hökumətinə çox gözəl məlum idi. Niyə heç bir ölçü götürülmədi, bu cür şəraitin qalmasına yol verildi? Biz bundan çox əziyyət çəkirik. Həm qonşu, həm də tərəf-müqabil kimi bu haqda açıq danışmağa əsasım var».

H.Əliyev nəzakət xatirinə o «yüksək vəzifəlinin» adını çəkmədi. Bu FTX-nin sədri, 1999-cu ilin mayından avqust ayınadək baş nazir (Rusiya hökuməti tarixində ən qısa müddətdə cəmi 82 gün) vəzifəsində çalışan Sergey Stepaşin idi.

1999-cu ilin avqustunda Yeltsinin əmri ilə Dağıstana gəlmişdi. Həmin vaxtda Şamil Basayevin başçılıq etdiyi hərbi hissə Çeçenistandakı ərazilərə soxulmuşdu. Çeçen müharibəsi də o dövrdə başlanmışdı.

Avqustun 9-da Yeltsin Stepaşini istefaya göndərdi və bir ildə artıq 3-cü baş naziri – Putini təyin etdi.

«...Rusiya özünün çoxəsrlik tarixində ən çətin mərhələlərdən birini yaşayır. Bəlkə də, son 200-300 ildə o ilk dəfədir ki, dünyanın ikinci, hətta üçüncü dövləti olmaq təhlükəsi ilə üzləşib. Bunun baş verməməsi üçün bütün millətin intellektual, fiziki və əxlaqi gücünün gərilməsi, oyanması vacibdir», – Vladimir Putinin «Rusiya yüzillik ərəfəsində» başlıqlı məqaləsi bu sözlərlə bitirdi. Məqalə Yeltsinin istefasından bir neçə gün əvvəl Nazirlər Kabinetinin saytında dərc olunmuşdu. Sonra isə qəzetlərdə çap edildi. Dekabrın 31-də Boris Yeltsin Patriarx II Aleksinin iştirakı ilə prezident səlahiyyətlərinin simvolu və «Parker» qələmini Putinə təqdim etdi (qeyd edək ki, Patriarx onu Kremlə nədən ötrü çağırdıqlarını bilmirdi). O, bütün qərarları, öz istefasını belə, bu qələmlə yazmışdı.

## Ayrılarmı könül candan...

Siyasi xronikalar Heydər Əliyevin Viktor Kalyujni ilə söhbəti zamanı verdiyi sərt bəyanat kimi bəyanatları qoruyub saxlayır. Vəziyyətdən optimal çıxış yolunu tapmaq, tərəflərin hər birini razı salan qərar qəbul etmək, lazım gələrsə, güzəştə belə getmək bacarığı da ona məxsus cəhətlərdən idi.

Yevgeni Maksimoviç Primakov buna bənzər epizodlardan birini xatırlayır:

– Rusiyanın xarici işlər naziri vəzifəsində çalışan zaman Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti məndən azərbaycanlı və erməni əsirlərinin dəyişdirilməsi işini xahiş etdi. Mübadilə tam aparılmalı idi – hamını hamıya. Qırmızı Xaçın siyahısına görə, Azərbaycanda 100-dən çox əsir qeydə alınmışdı.

Əvvəlcə Bakıya gəldik. «Heydər Əliyeviç, istəyirəm siyahıya əsasən hərbi əsirləri aparam», – dedim. «Yaxşı, üçündən başqa digərlərini buraxaram. Onlar ölüm hökmü alıblar. Adam öldürməkdə günahlandırılırlar», – dedi. «Əgər siz onları buraxmasanız, mən mübadiləni apara bilmərəm. Digər tərəf razı olmaz». Susduq. Bir neçə müddətdən sonra dedi: «Yaxşı, apara bilərsiniz».

Primakov və xarici işlər nazirinin birinci müavini Pastuxov aeroporta gələndə onlara əsirlərdən birinin buraxılmadığı haqqında məlumat verirlər. Heydər Əliyev moskvalıları yola salmağa gəlir. Əsirlərin hamısı Primakovun təyyarəsinə – İL-62-yə yerləşdirilir, Prezidentin göstərişinə baxmayaraq, yalnız bir əsir təhvil verilmir. Nazirin təyyarəsi uçmur. Əliyev öz qərarında qaldığını deyir. Qonaqlar aeroportda dördüncü stəkan çayı boşaltdıqdan sonra nəhayət ki, sonuncu əsiri təhvil almaq mümkün olur.

Əliyev ədliyyə nazirinin müavini Çingiz Əmirova tapşırır ki, əsirləri Yerevana qədər müşayiət edib, siyahıya əsasən təhvil versin. Stepanakertdən qayıdana kimi, o, Primakovu Yerevanda gözləməli idi. Yevgeni Maksimoviç Əmirovun həyatının təhlükəsizliyini təmin etmək məqsədilə rusiyalı diplomatlardan onu səfirlikdə yerləşdirməyi xahiş edir.

Yevgeni Maksimoviç sözünə davam edərək deyir: – Artıq Bakıya dönəndə nazir müavini yüksək əhval-ruhiyyədə idi. Düzdür, əvvəllər içmədiyini iddia etsə də, yolda onunla araq da vurduq. Bir neçə ay sonra bu cür yaxşı və xoşxasiyyət insanın dünyasını dəyişdiyini eşidərkən düzü çox pis oldum.

Xeyriyyə aksiyasınm digər iştirakçısı Boris Nikolayeviç Pastuxov əlavə olaraq bunları da qeyd edir:

– Stepanakertdə də Qırmızı Xaçın siyahısında adı olan üç əsirin verilməsindən imtina edildi. Bəhanə «onların hava hücumundan müdafiə vasitələrinin yeri haqqında məlumatlı» olmaları idi. Onları inandırdıq ki, əgər bu zenitlərdən bir dəfə də olsa atəş açılıbsa, artıq onları müəyyən ediblər.

Nə isə, Bakıda baş verənlər burada da təkrar olundu. Biz hamısını almayınca getməyəcəyimizi dedik. Nəhayət ki, hər birini təhvil aldıq. 200-dən artıq insan həmin gün öz ailəsinə döndü.

– Bu insanların çoxunun üzünə baxmaq olmurdu. Ac, üstü cırıq, döyülmüş, bədbin əhvalda idilər, – deyə Yevgeni Maksimoviç Primakov xatırlayır. – Özümü saxlaya bilmədim, kövrəldim, gözlərim yaşla doldu. Bu mənzərəni görməmək üçür təyyarənin digər tərəfinə keçəndə «Çox sağ ol, Rusiya!» qışqırıqlarını eşitdim. Hərbi əsirlərin içərisində ruslar da var idi, dərhal onlar Bakı və Yerevandakı səfirliyimizə göndərildi. Uşaqlara bilet alınmasını və Rusiyaya evlərinə çatdırılmasını tapşırdıq.

Primakovla Pastuxova Əliyevin son ad günlərindən birində iştirak etmək də nəsib olmuşdu. Böyük ailə bir yerə toplaşmışdı.

– Bax onda mən Əliyevin necə ata, baba olduğunu gördüm, – deyə Pastuxov bir qədər kövrək tərzdə xatırlayır. O, eyni zamanda, həm tanıdığım adam idi, həm də yox. O, başdan-ayağa işıq saçırdı. Əliyevin ailəsi ilə keçirdiyim bu bir neçə saat yaddaşımda ən parlaq günlərdən biri kimi qalıb.

Pastuxov uşaqlıqdan poeziya vurğunu idi və həvəslə sevdiyi şeirləri əzbərdən söyləyirdi. Bu, Əliyevlə onu yaxın edən xarakterlərindən biri idi. Bir dəfə o, Azərbaycan Prezidentinin qəbul otağındakı kitab rəfinə göz gəzdirir.

– Baxıram, Səməd Vurğunun sizdə müxtəlif nəşrləri var.

Ruscası da var, – kitablardan birini götürdüm və Heydər Əliyevdən xahiş etdim ki, qol çəksin.

Qol çəkdi və sonra soruşdu:

– Nəyə görə sizi Səməd Vurğun maraqlandırdı?

– Konstantin Simonovun onu necə qiymətləndirdiyini bildiyimə görə. Çox gözəl lirikası var... «Hərdən olur, bolşevik də Londona ayaq basır...» Sonra o təklif edir: Səməd, onlara bir-iki söz de, yediklərini burunlarından gətir!»

Əliyev ürəkdən güldü.

– Mən elə bilirdim ki, Vurğun yalnız əsl partiya şairi olub, – deyə Pastuxov etiraf etdi. – İnqilabdan, Oktyabrdan, 1 Maydan yazıb.

– Yəqin yalnız belə şeirləri, özü də çox pis tərcümə edib sizə tanıdıblar, – deyə Əliyev cavab verir. – Vurğun üçün Pasternak tapılmadı. Onun çox gözəl lirikası var. Bir qulaq asın...

– Sonra o, bir-birinin ardınca, Azərbaycan dilində S.Vurğunun bir neçə şeirini oxudu. Musiqini hiss edirsiniz? Bəs Azərbaycan haqqındakı misraları necə?

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən.*
*Anam, doğma vətənimsən,*
*Ayrılarmı könül candan,*
*Azərbaycan! Azərbaycan!*

– Mən bu sətirlərin 1998-ci il oktyabrın 18-də necə gözəl səsləndiyini də xatırlayıram, – deyə Pastuxov onun fıkrini sanki təsdiq etdi.

Həmin gün iki hadisə – Dövlət Müstəqilliyinin elan edildiyi və Prezidentin andiçmə mərasimi günü üst-üstə düşmüşdü. Heydər Əliyev and içdi, sonra həmişəki kimi, kağızsız nitq söylədi. Onun nitqi hamını, qəlbinin ən dərin guşəsinədək təsirləndirdi. Azərbaycanın daxili problemlərini, Qafqazın ümumi məsələlərini, Rusiya-Azərbaycan münasibətlərini öz polad məntiqi ilə təhlil etdi və qulaq asanları daxilən silkələdi. Zal yarım saata yaxın bir müddətdə artıq 75 yaşlı, lakin xarici görünüşündə bunu qətiyyən büruzə verməyən bir insanın nitqini dinləyirdi...

Təntənəli mərasimə dünyanın bir çox ölkələrindən, MDB, Yaxın Şərq ölkələrindən, Avropadan dövlət nümayəndələri gəlmişdi. «Bu, Heydər Əliyev avtoritetinin dünya miqyasında qəbul edilməsi demək idi, – Şimali Osetiya Prezidenti Aleksandr Sergeyeviç Dzasoxov deyir:

– Onun dünya miqyaslı, təcrübəli siyasətçi kimi qəbul edildiyi İslam dövlətlərində, ərəb ölkələrində çox populyar olduğunu xüsusi qeyd etmək istəyirəm.

Andiçmə mərasimindən sonra böyük qəbul oldu. Xarici qonaqların təbrikləri, nitqləri, çıxışları dinlənildi.

«Deyirlər, bir çaya iki dəfə girmək mümkün deyil», – Aleksandr Dzasoxov çıxışına bu sözlərlə başladı. – Heydər Əlyeviç isə bu fıkri alt-üst etdi. Biz də çox xoşbəxtik ki, Azərbaycan xalqının belə bir lideri var... Siyasətçilərin münasibəti sıravi insanların qiymətindən fərqli deyil. Heydər Əliyevi bir insan kimi incitdilər, lakin o, antik qəhrəmanlar kimi doğma torpağına qayıtdı, bu yerlərdən yeni güc aldı və öz xalqına sahib çıxdı».

Qəbul zamanı Heydər Əliyevin kövrək duyğuları coşdu və Səməd Vurğunun möhtəşəm sözlərini dilə gətirdi:

*Ayrılarmı könül candan,*
*Azərbaycan! Azərbaycan!*

Yazıçı Elçin Əfəndiyev Türkiyədə Füzulinin 500 illiyinin qeyd olunmasını xatırlayır:

– Dövlət qəbulunda istedadlı Azərbaycan müğənnisi Səkinə İsmayılova «Küçələrə su səpmişəm» mahnısını oxudu. Heydər Əliyevə bu mahnı həddindən artıq təsir eləmişdi. İndiyə qədər bu səhnə gözümün qarşısından getmir. Mən Heydər Əliyevə baxaraq düşünürdüm ki, Azərbaycan mədəniyyətini, Azərbaycan musiqisini bu cür ürəkdən sevən bir şəxs öz Vətənindən uzaqda, ələlxüsus, təcrid olunduğu vaxtlarda, görəsən, necə dözə bilib?»

Ona güc verən doğma mədəniyyətin, milli incəsənətin, elmin pak mənbəyi idi. Biz Heydər Əliyevin böyük Azərbaycan şairi Hüseyn Cavidin yaradıcılığına necə diqqətlə yanaşdığını, onun nəşinin vətənə qaytarılması, əsərlərinin müasir oxucuya çatdırılması üçün nə qədər əziyyət çəkdiyini qeyd etmişdik. Azərbaycan mədəniyyəti və elminin dühaları arasında respublikanın Elmlər Akademiyasının prezidenti,

Azərbaycan Dövlət Universitetinin rektoru, Sovet Sosialist Respublikaları İttifaqı Elmlər Akademiyasınm müxbir üzvü Yusif Heydər oğlu Məmmədəliyev də olmuşdur.

1996-cı ilin sentyabrında Respublika sarayında böyük alimin anadan olmasının 90 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilirdi. Heydər Əliyev deyirdi ki, respublikada geniş qeyd olunan bu yubiley bizim elmimizi dünya səviyyəsində tanıtdıran, öz təkrarolunmaz şəxsiyyətinin böyüklüyü ilə doğma diyarın ürək genişliyini, gözəlliyini göstərən Yusif Məmmədəliyevə hörmət və ehtiramımızın əlamətidir. Yeni ideyaların müəllifi, pedaqoq, böyük nəzəriyyəçi, yorulmaz təşkilatçı, zəhmətsevər insan – akademik Yusif Məmmədəliyev bizim xalqımızın yaddaşında məhz bu cür qalıb.

İki il keçdi və Prezident Heydər Əliyev Bakının ən gözəl guşələrindən birində akademik Yusif Məmmədəliyevin abidəsinin açılışında iştirak etdi. Böyük alim sanki öz düşüncələrinin içində, sadəcə bircə anlıq dincəlməkçün əyləşmişdi. Onun arxasında qala divarları, qarşısında sonsuz insan axını. Sanki bir-birini dəyişən nəsillər onun qarşısından keçib hörmət və ehtiramlarını nümayiş etdirirlər.

Heydər Əliyev həmin açılışda dedi:

– Qədim adət-ənənəyə uyğun olaraq, Azərbaycanda və ümumiyyətlə, bütün Yaxın Şərqdə insana heykəl qoymaq adəti yoxdur. Lakin bizim xalq inkişaf etdi, öz həyatında dünya mədəniyyəti nümunələrini tətbiq etməyə başladı və XX əsrdə Azərbaycanda gözəl və təkrarolunmaz memarlıq abidələriylə yanaşı, heykəltəraşlıq abidələri də qoyulmağa başladı. Bu abidələr bizim ölkəmizin estetik görünüşünü bir az da zənginləşdirmiş oldu...

1996-cı ildə biz akademik Yusif Məmmədəliyevin 90 illik yubileyini böyük ümumxalq bayramı kimi qeyd etdik. Bu, indiki nəslin onun xidmətlərinə ehtiramının əlamətidir. Mən şadam ki, Yusif Məmmədəliyevin abidəsinin qoyulmasıyla bağlı fərman bu gün həyata keçir. Burada alimin qızı çıxış etdi, atasının abidəsinin qoyulmasında iştirak edən hər

kəsə öz dərin minnətdarlığını bildirdi. Mən də Sevda Məmmədəliyevanın bu təşəkkürlərinə qoşuluram. Onun çıxışına qulaq asarkən fikirləşdim ki, həqiqətən də, atasına layiq qızdır. O, çox gözəl çıxış etdi. Yəqin atasının istedadı qanla ona da keçib.

Heydər Əliyev haqlıdır. Sevda Məmmədəliyeva Azərbaycan mədəniyyət nazirinin müavini, tanınmış ictimai xadim və filosofdur. Onun səyi nəticəsində atasının xatirəsinə həsr olunmuş «Akademik» kitabı işıq üzü görmüşdü.

Yusif Məmmədəliyevi doğma diyardan kənarda – Rusiyada, bütün dünyada da xatırlayırlar. UNESCO-nun qərarıyla böyük alimin 100 illik yubileyi qeyd olundu, 2005-ci il Yusif Məmmədəliyev ili elan edildi.

1996-cı ildə Azərbaycanda daha bir yubiley – general Heydərovun 70 illiyi keçirildi. Məlum məsələdir ki, bu, Prezidentin şəxsi təşəbbüsü idi. Adamla dolu olan zala müraciət edən Prezident general Heydərovun şəxsi dəyanətini, mübarizliyini qeyd etmiş, onun böyük dövlət və siyasi xadim olduğunu bildirmişdi. Əfsuslar olsun ki, o, bu günə qədər yaşaya bilmədi, öz oğullarının – Muradın və Maqsudun gələcəyini görmədi, nəvələrini bağrına basmaq ona qismət olmadı...

Murad Heydərov indiyəcən xatırlayır ki, Prezident onun atasının adını çəkərkən səsi titrədi, göz yaşlarını saxlaya bilmədi... Bu çıxışın stenoqramı Heydərovlar ailəsində ən böyük, ən müqəddəs bir xatirə kimi saxlanüır.

Xatırladaq ki, Heydər Əliyev «memuar yazırsınızmı» sualına «hərdən, yeri gələndə bəzi epizodları danışıram» cavabını vermişdi. Bu epizodlarda detallar var ki, onlarsız tarix yoxdur.

... Moskvada böyük iclas gedir. Hesabatla çıxış edən dissidentlər haqqında danışır. «Bizdə dissidentlər yoxdur», – deyə Əliyev yaxınlığındakı yazıçı Anara tərəf əyilir.

... 1999-cu il dekabrın 25-də Heydər Əliyev bir qrup rusiyalı jurnalisti qəbul edirdi. Görüşün sonunda Rusiya

Jurnalistlər İttifaqının katibi Gennadi Maltsev Heydər Əliyevdən onun aforizmlər kitabına avtoqraf yazmasını xahiş etdi.

«Hardan qol çəkim? – Əliyev soruşdu. – Bax, burdan çəkəcəm... Bizdə indi hər şey azərbaycancadır, bircə imza əvvəlki kimi rus dilində qalib».

Görəsən, ilk dəfə o nə vaxt belə qol çəkmişdi? Texnikumda oxuyanda, institut tələbəsi olanda, ya bəlkə Daxili İşlər üzrə Xalq Kommisarlığmda çalışan zaman? Hər halda, bu uzun, sonu qıvrılan imza onunla bir ömür yol gəlmişdi. Bununla belə, Heydər Əliyev müsahiblərində dediyinə görə, o, 15-16 yaşınadək rus dilini bilmirmiş. Biz bu haqda başqa mülahizələr də çox eşitmişik. Görəsən, həmin adamların çoxu özləri rus dilini hansı səviyyədə bildiklərinin fərqinə varıblarmı? Əliyev rus dilini məktəb, texnikum yaşlarmdan öyrənmişdi. Onun təkmilləşməsi ilə məşğul olmuşdu. O, rus dilini nə vaxt öyrənməsinin tarixini damşanda, əlbəttə, məişət səviyyəsində bilməyi nəzərdə tutmurdu. Başqa dili də öz doğma dili kimi bilməyi deyirdi.

80-ci illərin sonu, 90-cı illərin əvvəllərində rus və rusdilli əhali kütləvi surətdə Azərbaycanı tərk edirdi. Rusiya ali məktəblərində təhsil alanlar diplomlarını gizlətmək məcburiyyətində idi. Onların savadından istifadə olunmurdu. Azərbaycanda Xalq (?!) Cəbhəsinin hakimiyyətə gəlişi ilə keçən əsrin ortalarında Çində geniş işlənən terminlə desək, «mədəni inqilab» hərəkətə gəldi. Yeni xunveybinlər professor və akademikləri cəmiyyətdən uzaqlaşdırırdılar. Kəndlərdə özlərinin «universitetlərini» açmağa başlamışdılar. Dunya şöhrətlı Neft Akademiyası yeni dərs ilinə yalnız 1992-ci ilin dekabr ayında start verə bilmişdi.

Heydər Əliyev o illəri yada salarkən deyirdi: «...Özünüreklam kimi başa düşməyin, amma mən Azərbaycanda rəhbərliyə qayıdandan sonra bir çox rus buraya döndü. Bizim üçün, əlbəttə, Rusiya-Azərbaycan qarşılıqlı münasibətləri böyük əhəmiyyət kəsb edir. Sizə deyə bilərəm ki, Azərbay-

can Rusiya ilə dostluq münasibətlərinin möhkəmlənməsi və inkişafında qəti mövqe tutub».

Azərbaycanın ən nüfuzlu mədəniyyət xadimləri, ziyalıların ən görkəmli nümayəndələri də bu mövqeyə şərik idilər. Məsələn, Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin şahidliyinə istinad edək: «Siz bilirsiniz də mən bütün həyatım boyu «türk, türk», – deyə hayqırmışam, lakin həqiqət var. Biz böyük rus dili, rus mədəniyyəti məktəbi keçmişik. Necə ki sovet təhsil sisteminə bərabər təhsil sistemi yoxdur, eləcə də rus təhsil sisteminin də tayı-bərabəri yoxdur. Rus mədəniyyəti isə həqiqətən, dünya mədəniyyətinin zirvələrindən biridir».

### 9 yanvar 2001-ci il, Bakı

Həmin gün Heydər Əliyev Binə hava limanında «Rusiya» təyyarəsinin trapı önündə bu ölkənin Prezidenti Vladimir Vladimiroviç Putini qarşılayırdı... Rəsmi səfər – bayraqlar, himn, milli geyimdə uşaqlar, hərbi qarovul rəisinin raportu... Hər şey yüksək səviyyədə keçirdi.

Bu, 10 illik postsovet dövründə Rusiya Prezidentinin Azərbaycana ilk rəsmi səfəri idi. Bundan əlavə, 2001-ci il yeni əsr və ümumilikdə, Putinin ilk xarici səfəri idi. 10 il ərzində Azərbaycana diqqətsizliyi ilə seçilən sələfindən fərqli olaraq Putin Azərbaycan Respublikası ilə gələcək mehriban qonşuluq münasibətlərinin inkişaf etdirilməsinə hazır olduğunu nümayiş etdirirdi. Əliyev çox az müddət öncə mövcud olan münasibətlərdən incik olduğunu gizlətmirdi. O, Rusiya və Azərbaycan nümayəndə heyətlərinin görüşü zamam bunu açıq şəkildə bildirdi:

– Bu gün Rusiya Federasiyası Prezidentinin Azərbaycana rəsmi səfəri başlandı. Vladimir Vladimiroviç, sizi Bakıya səfəriniz münasibətilə ürəkdən salamlayıram. Mənim və Azərbaycanda əhalinin istəyini nəzərə alıb dəvətimi qəbul edərək gəldiyinizə görə dərin təşəkkürümü bildirirəm.

Bu səfərin tarixi əhəmiyyət daşıdığını desəm, yəqin ki, yanılmaram. Çünki müstəqillik əldə etdikdən sonra Rusiya Federasiyasnın başçısı Azərbaycanda olmayıb. Bəlkə bunun hər hansı bir ciddi səbəbi var, amma bu, bizim üçün vacib amildir və bu cür səfərin baş tutmasmı çox istəyirdik. Hazırda bu görüşü MDB tərkibində, MDB Dövlət Başçıları Şurasında birgə işlərkən, ikitərəfli görüşlər zamanı çox yaxşı tanış olduğumuz, bütün məsələlərdə çox böyük anlaşmaya nail ola bildiyimiz Vladimir Vladimiroviç Putin reallaşdırır.

Danışıqlarınn mövzusu geniş idi: iqtisadi əlaqələr, Xəzər dənizinin statusu, Qarabağ, təşkilatlanmış cinayət və terrorizmlə mübarizə...

Putin Heydər Əliyevə və bütün Azərbaycan rəhbərliyinə, Dağıstandakı yaşayış binalarını partlatmaqda əli olan şəxslərin Rusiyaya təhvil verilməsinə görə öz minnətdarlığını bildirir və deyir: «Biz bilirik ki, həmin cinayətkarları Rusiyaya təhvil verdikdən sonra şəxsən sizin həyatmıza qəsd etmək, terror aktı törətmək hədələri çox olmuşdu. Amma siz qorxmadınız, əsl mübarizlik nümayiş etdirdiniz».

Rusiya Prezidenti Heydər Əliyevə rus dilinə göstərdiyi diqqətə görə də xüsusi minnətdarlığını bildirdi:

– Bildiyimə görə, hazırda Bakıda sovet dövründə fəaliyyət göstərən rus məktəblərinin, demək olar, hamısı işini davam etdirir, rus dili qorunur. Bu bir daha onu göstərir ki, bizim əməkdaşlığımız Azərbaycan rəhbərliyinin göstərdiyi diqqət sayəsində gələcəyə ünvanlanmışdlır.

**Heydər Əliyev:** Təkcə məktəblər deyil, ali məktəblərdə fakültələr də fəaliyyətini davam etdirir.

**Vladimir Putin:** Yəni rus dilinin öyrənilməsi işi hələ də aparılır. Bu, həqiqətən, münasibətlərimizin inkişafında gözəl bazanın olmasından xəbər verir. Hesab edirik ki, mədəniyyət və incəsənət gələcəkdə də əlaqələrimizin möhkəmləndirilməsində başlıca rol oynayacaq».

Rusiya Prezidenti ilə bərabər Azərbaycana Dağıstan, Həştərxan vilayəti, Şimali Osetiya regionları başçıları da gəlmişdilər.

**Vladimir Putin:** Bizim fikrimizcə, Rusiya Federasiyası regionlarının Azərbaycanla əməkdaşlığı qarşılıqlı fəaliyyətimizin vacib sahəsidir.

**Heydər Əliyev:** Qeyd etdiyiniz regionlarla əməkdaşlıq fikri müstəsna əhəmiyyət daşıyır. Bir faktı xatırlatmaq istərdim ki, Azərbaycanla Rusiya Federasiyası regionlarının iqtisadi əməkdaşlıq cəhdləri hələ neçə il əvvəl yaranıb. O dövrdə federasiya subyektlərindən bir neçəsi bu təşəbbüslə çıxış etmiş və tərəfimizdən müsbət qarşılanmışdı, lakin mərkəzi hökumət bu məsələyə əksinə, mənfi münasibət göstərdi.

**Vladimir Putin:** Heydər Əliyeviç, artıq bu xəstəlik arxada qalıb.

**Heydər Əliyev:** Mən bunu ona görə vurğulayıram ki, indi artıq Siz tərəfdən təklif gəlir. Qujvin (o vaxt Astraxan əyalətinin qubernatoru. 2004-cü ildə dünyasını dəyişib – müəlliflər) yəqin ki, bizim dəvətimizi, bura gəlməyini xatırlayır. Artıq razılaşmanı hazırlayırdıq, lakin Moskvadan qərar gəldi ki, icazə verilmir. Buna baxmayaraq, biz razılaşmanı həyata keçirdik. Dağıstan və Rusiya Federasiyasının digər subyektləri ilə də həmçinin. Bu məsələ ilə bağlı sizin rəyiniz bizim fikirlərimizlə tam üst-üstə düşür. Çünki Rusiya böyük ölkədir, bəzən onun subyektləri hətta bizə yaxın olanlar iqtisadi potensialına görə Azərbaycanla bərabər olur».

Azərbaycanın nüfuzlu politoloqları V.V.Putinin 1990-cı ilin yanvarında sovet qoşunlarının dağıdıcı əməliyyatı nəticəsində həlak olan insanların uyuduğu Şəhidlər Xiyabanını ziyarət etməsini səfərin əlamətdar hadisəsi kimi dəyərləndirirlər. Yeni demokratik Rusiya, sovet keçmişinin dramatik səhifələrinin altından sanki xətt çəkirdi və bu, Azərbaycanda böyük məmnuniyyət hissi ilə qəbul edilirdi.

Hər iki ölkə prezidentinin birgə mətbuat konfransından sonra Vladimir Putin qeyd etdi:

– Son 10 ildə Rusiya dövlət başçısının Azərbaycanda olmaması faktı ikitərəfli münasibətlərdə ciddi nöqsan kimi özünü göstərir. Deмək, Qafqazda regional əlaqələrdə də, həmçinin belədir...

10 ilin 9-u Yeltsin dövrünə düşürdü.

Bakıya gələrkən Vladimir Vladimiroviç Putin Azərbaycan Prezidenti üçün qeyri-adi və çox bahalı bir hədiyyə hazırlamışdı və bunu Slavyan Universitetində tələbələrlə görüşü zamanı ona təqdim etdi.

– Heydər Əliyeviç ömrünün çox mühüm illərini mənim doğma şəhərim Peterburqda – Leninqradda keçirib. Orada xüsusi məktəb bitirib, – deyə Rusiya Prezidenti təbəssümlə vurğuladı. – o, hələ bunu bilmir, gözlənilməz bir sürprizdir. Mən həmkarlarımdan xahiş etdim və bir neçə arxiv sənədlərinə baxdıq. Budur, xüsusi məktəbi bitirməsi haqqında şəhadətnamə. Burada qeyd olunub: «Baş leytenant Heydər Əlyevin şəhadətnaməsi. 16 may 1949-cu il». Bu da təhsilin göstəriciləri. Hamısını olmasa da, bir neçəsini, əsasını sizə oxumaq istərdim. Dialektik və tarixi materializm – əla, çekist hazırlığı – əla, Sovet Sosialist Respublikaları İttifaqı və xarici dövlətlərin iqtisadi və siyasi coğrafıyası – əla, cinayət hüququ – əla, ədəbiyyat – yetərli, hərbi iş – yetərli, rus dili – əla. Fikirləşirəm ki, burada başqa qiymət yoxdur. Hamısı əladır... Əgər sizin universitet tələbələri də Azərbaycan Prezidenti kimi oxusa, onda bu ölkənin çiçəklənməsi və inkişafı etibarlı əllərdə olacaq».

Yeri gəlmişkən, Leninqrad Xüsusi Məktəbini bitirəndən 2 il sonra Heydər Əliyev Azərbaycan Universitetinin tarix fakültəsinə daxil olur, müharibənin imkan vermədiyi işi indi həyata keçirmək lazım gəlirdi. Çünki çalışdığı işlə əlaqədar, ona ali təhsil lazım idi. Qiyabi oxumaq məcburiyyətində qalır.

Təsadüfə bax ki, qəbul imtahanlarında Heydər Əliyev öz köhnə sinif yoldaşı, Naxçıvan Pedaqoji Texnikumundan tanıdığı Dövlət Məmmədovla rastlaşır. Dostlar əl-ələ verməyi

qərara aldılar. Məhz bu yaxınlıq 14 avqust 1951-ci ildə rus dili imtahanında Heydərlə baş verən epizodu tarixdə saxlamağa imkan verdi. Dostlar « Sovet Sosialist Respublikaları İttifaqı tarixi» və «Azərbaycan dili»ndən yazılı imtahandan «əla» qiymət almışdılar, indi isə rus dili və ədəbiyyatından birgə imtahan verirdilər. Şifahi imtahandan Heydər «əla», yazılıdan isə «yaxşı» qiymət aldı. Hərçənd ki, o, inşada bircə səhv belə buraxmadığına tam əmin idi.

1951-ci ilin həmin avqust gününü Dövlət Məmmədov belə xatırlayır:

«Müəllim öz dediyindən dönmədi, bildirdi ki, yazı verilən qiymətə layiqdir, hara istəsən, şikayət edə bilərsən. Heydər imtahan vərəqini götürüb universitet rektorunun yanına üz tutdu. Abituriyenti dinləyən rektor bu mübahisəli məsələni baxılmaq üçün komissiyaya göndərdi. Başqa bir versiyaya görə, yeddi nəfərlik komissiya inadkar abituriyenti çox ciddi bir sınağa çəkdi. S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti tarix fakültəsinin abituriyenti Heydər Əlirza oğlu Əliyevin 2659 nömrəli imtahan vərəqi bizim qarşımızdadır. Üçüncü qrafada «Rus dilindən yazılı imtahan»ın qarşısındakı «yaxşı» qiymətinin üstündən xətt çəkilərək «əla» yazılıb. Aşağıda belə bir dərkənar var: yazılmış «əla» nəticəsinə inanmalı. İmza. Komissiyanın sədri öz həmkarına görə üzr istəyir.

Heydər Əliyev universitetin rektoru, professor Hacıyevə ərizəsində yazır:

«Öz ali təhsilimi və tarix sahəsində biliklərimi artırmaq istəyirəm».

O, tarixin ilk imtahanından dəyanətlə çıxdı. Qəbul imtahanı «əla» qiymətlə verilib, diplom da «əla» qiymətlərlə müdafiə olunub.

O dövrlərin bir çox maraqlı epizodları Dövlət Məmmədovun yaddaşında yenidən canlanır. Mühazirələr, zaçot və imtahanlara birgə hazırlaşmaqları... Növbəti zaçotdan sonra Dövlət göz xəstəxanasında müalicə olunan bir qohumlarına

baş çəkmək istəyirdi, Heydərsə öz işləriylə bağlı harasa tələsirdi. Lakin dostunun klinikaya getmək istədiyini biləndə Heydər sevindi və dedi ki, mən də səninlə gedəcəm:

– Niyə zəhmət çəkirsən, sənin öz qayğıların da çoxdur, – deyə Dövlət etiraz etdi.

– Eybi yox...

Köhnə dostumun planlarını nəyə görə dəyişdiyinin səbəbini mən yalnız klinikada anladım. Heydər:

– Burada mənim bir tanışım işləyir, – dedi, – bir dəqiqə ona baş çəkim. Yoxsa bura gəldiyimi eşidər, inciyər ki, ona dəyməmişəm.

Bir neçə dəqiqə sonra o, gözəl bir qızla doktorun kabinetindən çıxdı.

– Tanış ol, Dövlət, bu Zərifə xanımdır, mənim dostum Tamerlanın bacısıdır.

Zərifə öz pasientlərinin yanına qayıdandan sonra mən Heydərlə zarafat etdim:

– Heydər, sən buraya, deyəsən, mənim qohumuma yox, öz qohumuna baş çəkməyə gəlmisən.

– Hə, indi artıq sənin də qohumuna baş çəkmək olar, – deyə Heydər gülümsündü.

Bir müddət sonra isə mən onu və Zərifə xanımı toyları münasibətilə təbrik etdim. Sonra isə Allahın buyurduğu vaxtda, onun qızı Sevil dünyaya gəldi. Heydər Əliyev onu – təhlükəsizlik kapitanını doğum evinə buraxmamaqları epizodunu sonralar tez-tez xatırlayırdı.

O vaxt Bakıdakı 5 nömrəli doğum evinin baş həkimi Şamama Məmmədkərim qızı Ələsgərova idi. O, Əziz Əliyevin doğma bacısı, Zərifə xanımın bibisi idi. İndi bu doğum evi gözəl həkim, Sosialist Əməyi Qəhrəmanı Şamama Ələsgərovanın adını daşıyır.

Şamama xanım Zərifəni xəstəxanaya gətirmiş Heydəri də o biri atalar kimi evə göndərdi.

– Sizə içəri daxil olmaq olmaz. Siz artıq öz işinizi görmüsünüz, qalanı bizlikdir.

Bu hadisənin üstündən illər ötür və Heydər Əliyev Yaponiya səfəri zamanı ölkəyə gətirilən qiymətli avadanlığı bu doğum evinə bağışlayır. Ali qonağı doğum evinin bütün kabinetlərini gəzdirirlər, nəhayət, ən böyük otağa – doğuşların qəbul edildiyi yerə gətirirlər,

– Necə olur ki, bizi buraya buraxırsınız. O vaxt Şamama xanım bizi kandardan içəri buraxmazdı.

– İndi də heç kimi buraxmırıq. Sadəcə, Sizə görə, cənab Prezident, qaydalardan kənara çıxmışıq.

Bu hadisəni bizə öz kiçik kabinetində tibb elmləri doktoru, professor Nailə Musayevna Şəmsəddinskaya danışdı. Mehriban, gözəl tələbə qız əlindəki dəftəri bir kənara qoyub öz müəlliminin söhbətinə qulaq asır.

– Oradan, şkafdan mənə fotoları verin, – deyə Nailə Musayevna müraciət edir.

Köhnə şəkillərdən birində Zərifə xanım gülümsünür. Onlar əvvəl məktəbdə, sonra da Tibb İnstitutunda birlikdə oxumuşdular. Başqa bir fotoda Şamama xanımı görürük.

– Mən şadam ki, onlar həmişə mənimlədir. Fyodor Nikolayeviç İlyin kimi.

Azərbaycan Tibb İnstitutunun mamalıq və ginekologiya kafedrasına uzun müddətdən bəri rəhbərlik edən Nailə Şəmsəddinskaya öz tarixi oçerkini mərhum həmkarlarına və öz müəllimi, istedadlı alim və yazıçı, həkim Fyodor İlyinə həsr edib. Onun adını biz artıq qeyd etmişdik. Nailə xanım oçerkində yazır: «Fyodor Nikolayeviç Azərbaycanda mamalıq və ginekologiya sahəsinin banisi olub».

Nailə xanımın yaddaşına müəllimiylə olan onlarla görüşü əbədi həkk olunub.

Budur, başına qırçınlı şlyapa qoymuş Nailə xanım müəlliminin böyük kabinetinə daxil olur. Hörükləri şlyapanın altından sallanır.

Artıq çoxdandır ki, professorun gözləri görmür.

– Siz birbaşa küçədən gəlirsiniz?

– Bəh, siz hardan bildiniz.

– Təmiz havadan. Hansı mühazirələrdə olmusunuz?

– Diamat, istmat.

– Eh, bu kimə lazımdır ki..

Nailə Leninqraddan, elmi ezamiyyətdən qayıdandan sonra professor onu Leninqrad barədə ətraflı sorğu-suala çəkmişdi. Leninqraddan başqa heç bir şəhər onun üçün doğma olmadı. İnstitutda pıçıldaşırdılar ki, İlyin Oktyabr inqilabının qəhrəmanı və sonralar Stalin tərəfindən «xalq düşməni» elan olunan matros Raskolnikovun qohumudur. EIə Nailənin özünə də «Xalq düşməninin qızı» deyirdilər. Onun atası, AZMİK-nin katibi Musa Məmməd oğlu Şəmsəddinskini 1937-ci ildə on yeddi il cəzaya məhkum etmişdilər.

– Bu hadisə yeni il bayramından dərhal sonra olmuşdu, – Nailə xanım onu belə xatırlayır. – Evdəki «yolka»nı hələ yığışdırmamışdıq. Bir neçə gün sonra anamı da apardılar.

Qızı nənəsi tərbiyə etdi. Məktəbi əla qiymətlərlə bitirdi. Amma arzuladığı Tibb İnstitutuna qəbul etmədilər. Onlar Moskvaya müraciət etdilər. Paytaxtdan cavab çox tez gəldi: «Vətəndaş N.M.Şəmsəddinskaya qəbul imtahanlarına buraxılsın».

İlyinin əsərləri professor Şəmsəddinskayanın stolüstü kitabıdır. Üz qabığında onun sonralar dul qalan xanımının imzası görünür: «Bizim əziz Nailə Musayevna Şəmsəddinskayaya, böyük müəllim və insan F.N.İlyindən bir xatirə».

Çox fərəhli haldır ki, Bakıda Azərbaycanda belə insanları hələ də xatırlayırlar.

Beynəlxalq Valyuta Fondunun prezidenti cənab Kamdessyu xanımı ilə Bakıya gələndə onları Heydər Əliyev qəbul etmişdi. O, xanım Kamdessyuya kiçik bir Azərbaycan xalçası bağışlayır:

– Qoy bu hədiyyə sizə bizim ölkəmizi xatırlatsın.

– Cənab Əliyev, siz sanki mənim fıkrimi oxumusunuz. Məhz bu cür naxış, bu cür rəngli xalçalar zövqümü oxşayır, – deyə xanım Kamdessyu təşəkkür etdi.

Həyat yoldaşı da əlavə etdi:

– Burada olmaqdan artıq qorxuram. Cənab Prezident xanımımın fikirlərini oxuyur. Gülərək deyir: – Görünür, tez getməli olacağıq.

Dostluq şəraitində davam edən söhbət Heydər Əliyevin Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti, Siyasi Bürodakı fəaliyyəti dövrü ətrafında davam etdirildi. Əliyev Kremldəki kabinetində əvvəllər Stalinin Sovet Xalq Komitəsindəki birinci müavini Molotovun çalışdığını xatırladı. O, həm Komitədə katib vəzifəsində, həm də xarici işlər naziri vəzifəsində çalışıb, Stalinin yaxın silahdaşlarından biri olub. Tarixə biganə olmayan Komdessyunu Vyaçeslav Mixayloviç Molotovun şəxsiyyəti çox maraqlandırırdı. Onun fıkrincə, Xruşşovun rəqibi olan bu siyasətçi ədalətsiz olaraq qəbul edilməmişdir. Əliyev mövzu ilə bağlı mövqeyini izah etdi. Siyasi Bürodakı iclaslardan fraqmentlər danışdı. Kamdessyu Əliyevə diqqətlə qulaq asır və heyrətlənirdi: «Axı siz bütün bunları necə yadda saxlayırsınız?»

Əliyevin heyrətamiz yaddaşı əvvəldə qeyd etdiyimiz kimi, bir çoxlarının təəccübünə səbəb olmuşdu. Buna sübut olaraq, Heydər Əliyevi uzun illərdən bəri tanıyan insanların söhbətlərini də misal gətirmək olar.

1968-ci il dekabrın 23-də respublika Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri general Heydər Əliyev öz kabinetində Neft və Kimya İnstitutunun məzunu, gənc mühəndis-energetik Xəqani Bağırovla söhbət edir. Onun atası Azərbaycanın qocaman çekistlərindəndir və oğlu da onun davamçısı olmaq istəyir. Heydər Əliyev mütəxəssisi sahənin texniki yenilikləri barədə sorğu-suala çəkir, teatrda son vaxtlar hansı tamaşalara baxdığıyla, oxuduğu kitablarla, musiqi zövqüylə maraqlanır. Xəqani çox oxumuş, savadlı, rus və xarici ədəbiyyatın klassiklərini bilən, amma Azərbaycan klassiklərindən yalnız Nizami ilə Füzulini yaxşı bilən bir gənc təsiri bağışlayır. Heydər Əliyev bunu ona irad tutaraq bildirir ki, öz milli mədəniyyətimizi də dərindən öyrənmək lazımdır, belə olarsa, dünya ədəbiyyatını daha gözəl mənim-

səmək olar. Söhbətin sonunda Əliyev onların böyük ailəsi ilə, bacı və qardaşlarının nə işlə məşğul olduqlan ilə maraqlanır. Bu hadisədən on dörd il keçir. Bu müddət ərzində həm Hcydər Əliyevin, həm də Xəqani Bağırovun həyatında çoxsaylı dəyişikliklər olur. Azərbaycan Dövlət Sərhədinin Mühafızəsi İdarəsinin sədr müavini olan Xəqani Naxçıvana gəlir. Onu Heydər Əliyev qarşılayır. Amma əsas məsələyə keçməzdən əvvəl onların ailəsi ilə, bacı və qardaşları ilə maraqlanır.

Xəqani müəllim o günləri xatırlayaraq indi də heyrətlə deyir:

– O bizim ailənin neçə üzvü olduğunu da xatırlayırdı. Fatma Abdullazadənin də maraqlı bir xatirəsini danışaq:

– İnsan çox şeyi xatırlaya bilər və çox şeydən məlumatı olar bu mümkündür. Amma Heydər Əliyev informasiyanı məhz lazım olduğu anda xatırlayırdı. O, misal üçün, hansısa bir kəndə gələndə on beş il əvvəl gördüyü adamın adını da xatırlaya bilirdi: «Vaqif, yadındadır, həmin il kolxoz sədri fılankəs idi, fılan sahədə fılan qədər məhsul yetişmişdi və sən mənə şikayət edirdin ki, yığım yaxşı təşkil olunmayıb». Həm də bu, sadəcə ətrafdakılara təsir göstərməkçün deyildi, – deyə Fatma xanım əlavə edir, – bəlkə də, izaholunan bir qürur idi. Öz gücünü göstərən bahadırlar kimi. Onun beyni sanki indiyədək görünməmiş bir kompyuter idi.

Ucqar kənddə və ya müəssisədə təsadüfı bir görüş tamam başqa şəraitdə – məsələn, yazıçılarla görüşdə, böyük partiya yığıncaqlarında yada düşə bilərdi. Heydər Əliyev adətən, bütün siyasi mühitdə «sadələr» kimi qəbul edilən insanlarla – çoban, usta-qazmaçı kimilərlə söhbətlərindən yerli- yataqlı danışa bilərdi.

Maraqlıdır, görəsən, Heydər Əliyev özü bu cür fenomenal yaddaşı haqqında nə deyirdi:

«Bilirsiniz, çox zaman əvvəlcədən heç bir məruzə, çıxış hazırlamıram. Yaddaşımda olanlar bəs edir. Hər hansı bir tamamlayıcı rəqəm və ya materialları isə arayış şəklində əldə

edirəm... Allaha şükür, yaddaşım yaxşıdır, ona görə hər şeyi xatırlayıram. Hələ əvvəllər, sovet dövründə də öz ölkəmdə çıxışım zamanı heç bir mətndən istifadə etmirdim.

Moskvada bir dəfə belə etdim, amma sonra dedilər ki, lazım deyil. Hamı mətnlə çıxış edir, sən seçilmək istəyirsən? Bu, əslində ona görə deyildi. Hər adamın bir vərdişi var, bu da məndə çoxdan yaranıb... Əgər sən bu işlə hər gün məşğul olursansa, baş verənlərin hamısından xəbərdarsansa, onda bütün detallar yaddaşımda həkk olunur. Bütün bunlar bir gündə formalaşmır. Tədricən yaddaşda toplanıb formalaşır, lazım olan anda isə üzə çıxır. Mən belə təsəvvür edirəm» (1999-cu il 25 dekabr. Rusiya jıırnalistləri ilə görüşündən).

## Hətta «səma dəftərxanası» da ona tabe idi

Fenomenal yaddaşla bərabər, Heydər Əliyevi yaxından tanıyanlar ona xas olan xüsusi yumor hissini də qeyd edirlər. O, yumoru qiymətləndirir, zarafatı başa düşürdü. Yəqin ki, oxuculardan çoxu Heydər Əliyevi «Şən və Hazırcavablar KIubu»nun tamaşalarında çox görüblər. Ürəkdən qəhqəhə çəkən Əliyevin kadrlarını Moskva televiziyası da göstərib. Ən çətin anlarda da yumor hissi Heydər Əliyevi tərk etmirdi. Mixail Qusman Heydər Əliyevin işdən uzaqlaşdırıldığı, adi təqaüdçü olduğu vaxtlardan bir epizodu xatırlayır:

«Kino evində məşhur yazıçı Maqsud İbrahimbəyovun oğlu, rejissor Murad İbrahimbəyovun yeni filminə baxış keçirilirdi. Maqsud premyeraya Heydər Əliyevi də dəvət etmişdi. Sadəcə, nəzakət xatirinə çağırmışdı, inanmırdı ki, Heydər Əliyev gələ bilər. Amma qeyd olunan vaxtda Kino evinin qarşısına bahalı xarici maşınlarla bərabər, köhnə bir «Moskviç» də yaxınlaşdı. Bu, Heydər Əliyevin keçmiş mühafizə xidmətinin rəhbəri Saşa İvanov idı. Heydər Əliyevi, onun qızı Sevili premyeraya gətirmişdi.

Film Heydər Əliyevin çox xoşuna gəldi və o, İbrahimbəyovları – həm atanı, həm də oğulu təbrik etdi, yeni yaradı-

cılıq uğurları arzuladı və getməyə hazırlaşdı. Amma premyeradan sonra yüksək qonaqları banket gözləyirdi. Maqsud Heydər Əliyevdən xahiş etdi ki, banketdə də iştirak etsin. Heydər Əliyev məmnuniyyətlə razılaşdı.

Amma bu vaxt qonağının işinin çox olduğuna görə imtina edəcəyini gözləyən Maqsud özünü itirdi. Hörmətli şəxsə, ağsaqqala xüsusi hörmət, diqqət lazım idi. Bəs Əliyevi kimə tapşırsın? Əlbəttə ki, Qusmana.

Beləcə, biz yanaşı oturduq. Onun söhbətlərdə necə maraqla iştirak etdiyini görmək lazım idi. Mənsə hörmətli qonağı əyləndirmək üçün onun Mərkəzi Komitənin birinci katibi olduğu vaxtlarda Bakıda yayılan məzəli lətifələri xatırlamağa başladım. Cəsarətimi toplayıb ona danışdım.

Maraqlı lətifələrdən biri bu idi ki, Bakıda hətta hava da Əliyevə tabedir. Həqiqətən də, bakılılar bir çox maraqlı təsadüflərin şahidi olmuşdular. Tutalım buludlu havadır, günorta isə Heydər Əliyevin mitinqdə və kursantların nümayişində çıxışı gözlənilir. Onun gəlişi ərəfəsində isə hava gözlənilmədən açılır.

Budur, Azərbaycan paytaxtının baş meydanında – Lenin meydanında camaat növbəti tədbirə toplaşıb. Səhərdən pis hava şəraiti var: yağış, külək, soyuq... Saat onda Əliyev öz əməkdaşlarıyla gəlir. O saat yağış kəsir, külək dayanır, günəş çıxır.

– İstəyirsən öl, istəyirsən qal, bu belədir! – deyə Qusman söhbəti davam etdirir.

Biz tədbirdən dağılışırıq, hava məsələsi barədə kimsə ciddi, kimsə zarafatla danışır. Və bu vaxt mən o günlərdə SİTA-nın Azərbaycandakı şöbəsinin rəhbəri, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, Azərbaycan ALİ Sovetinin deputatı və Heydər Əliyevin o vaxtkı spiçrayteri (məruzə yazan – red.), hazırda dünyasını dəyişmiş Yefim Qriqoryeviç Qurviçi görürəm. Yeri gəlmişkən, onun oğlu, o da dünyasını dəyişib, Qrişa Qurviç Moskvada

çox maraqlı, ağıllı və səmimi bir veriliş aparırdı: "Staraya kvartira". Mən ona yaxınlaşıb zarafatla deyirəm:

– Yəqin ki, Heydər Əliyevin "səma dəftərxanası" ilə xüsusi münasibətləri var. Fikir verin, o gələn kimi yağış dayanır, külək kəsir və günəş çıxır.

Müdrik Qurviç mənə belə cavab verir:

– Bilirsən, "səma dərtərxanası"nda da ağıllı adamlar oturub. Nəyə görə onu hirsləndirsinlər ki...

Mən bunu Heydər Əliyevə danışanda, – telviziyada çox maraqlı müəllif proqramının- "Hakimiyyətin formulu"-nun yaradıcısı Mixail Qusman xatirəsini bitirir, – o, elə bir qəhqəhə çəkdi ki, az qala stuldan yıxılacaqdı".

Heydər Əliyevlə söhbətində nəzakətli Mişa bircə sözü dəyişmişdi: Əslində Qurviç belə demişdi: "Onlar niyə onunla kəllə-kəlləyə gəlsinlər ki?"

Əlbəttə ki, bu sözdəyişimi ilə həqiqətin mahiyyəti dəyişmir.

## "Bakının bütün küçələrini yaxşı tanıyıram"

2000-ci ilin iyununda, Bakının isti günlərində Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirilirdi. Dünya şöhrətli kollektivlər, mədəniyyət işçiləri gəlmişdilər. Gələnlərin hamısı Bakı, Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində gülərüzlə, səmimi qonaqpərvərliklə qarşılanırdı.

– Son illərdə burada hər şeyin bu qədər dəyişdiyinə mən özüm də təəccüblənirəm, – Heydər Əliyev görüşlərin birində heyrətini gizlədə bilməmişdi. – Bakı mənim üçün yeni şəhər deyil. 16 yaşımdan Bakıda oxumuşam. Tələbənin də işi nədir?

Oxuyur və küçələri gəzib hər şeylə tanış olur. Özü də ki mən – Azərbaycanın ucqar bölgəsindən gəlmiş bir gənc. Hər şey mənim üçün maraqlı idi. Sonra subay vaxtlarımda da bazar günləri gəzintiyə çıxır, hərdən qızlara da nəzər salırdım. Ona görə də Bakı küçələrinə yaxşı bələd idim...

Nə isə, Heydər Əliyev həmsöhbətlərini bütün Bakıda "gəzdirdi". İçərişəhəri, vaxtilə 40-cı illərdə çimərlik kimi istifadə edilən Dənizkənarı bulvarı, Bakının ən qədim, dağlıq yerlərini...

Heydər Əliyev Bakıya rəssam, memar, qurucu nəzərləri ilə diqqət yetirirdi.

Abşeron yarımadasından danışarkən, hər dəfə onun dənizə daxil olan qartal dimdiyinə bənzədiyini deyirdi: "Abşeron qartalın başıdır. Bənzətməni davam etdirsək, onda Bakını qartalın gözü hesab etmək olar".

Dağlıq ərazidən yuxarı şəhərə qalxan pilləkənlər fayton yoluna, sonra isə şoseyə çevrildi. Ezamiyyətlərdən Bakıya qayıdan Heydər Əliyevin bu yolla getdiyi az olmayıb. Qonaqlarla olanda isə Badamdar silsiləsinin dənizin içinə kimi uzanmasından danışırdı. Silsilənin bitdiyi yerdə isə Şıx kəndi başlayır. Artıq gözəl "Bibiheybət" məscidinin görüntüsü ; şəhərkənarı Bakı qarşısında canlanırdı. Şıx adı "şeyx" sözündən yaranıb. Şeyxlər keçmişdə müqəddəs, ağsaqqal, ruhani insanlar kimi qəbul edilirdilər.

"Qurd qapı"sından bütün Bakı ovuc içi kimi görünür. Aşağıda – dağlıq ərazidən şəhər amfiteatr kimi dənizə yaxınlaşır.

Mərkəzdə dənizə daxil olan qədim qala – İçərişəhər yerləşir. Bakıda daha bir qala – Səbail də olub, indi bu əraziyə Bayıl deyirlər. Səbaili isə Xəzərin suları udub. Hazırda, daş kitabələr, su altından tapılan materiallar İçərişəhərdə, Şirvanşahlar sarayında açıq muzey kompleksində saxlanılır.

İnsanların fikir, arzu və düşüncələrini özündə əks etdirən Azərbaycan muğamı kimi, Bakının quru daşları da xalqın həyatı və istəkləri haqqında öz dilində danışır, lal İçərişəhər özü-özlüyündə bir kitab, canlı salnamədir.

Şairlər tarixi İçərişəhər abidəsinə tez-tez müraciət edirlər. Şair Ə.Xələflinin "İçərişəhər: daşlar, insanlar" poemasından bir parçaya nəzər salaq:

*Saraydan boylanan o türfə gözəl,*
*Memarın daşlaşmış məhəbbətidir.*
*"Rast"ın karvanında oxunan "Uzzal"*
*Bitməyən tarixin hekayətidir.*
*Qarşı yatan Qara dağdan su gəlir,*
*"Şah kəhrizi" aram-aram çağlayır.*
*Bir igidin sinəsini ox dəlir,*
*Sevgisinə için-için ağlayır*
*İnsan əməlinə söykənib yaşar*
*Elə memar özü Qız qalasıdı,*
*Xəzər zaman-zaman kükrəyər, daşar*
*Lal sükut içində daş qalasıdı.*

Heydər Əliyev tarixin, dövrlərin əlaqəsini qoruyub saxlamaq üçün əlindən gələni edib, hətta gücü çatandan da artıq çalışıb. O, Hüseyn Cavidi öz xalqına qaytarıb. Aleksandr Dzasoxov Heydər Əliyevin bir neçə əsr əvvəl Suriyanın Hələb şəhərində dəfn olunmuş Azərbaycanın görkəmli şairi və mütəfəkkiri Nəsiminin nəşini vətənə qaytarmaq üçün göstərdiyi səyləri yaxşı xatırlayır. Biz Nəsiminin 600 illik yubileyini Azərbaycanın necə təntənə ilə qeyd etməsindən artıq yazmışıq. Xatırladaq ki, Nəsiminin adı bütün ərəb və ümumən Şərq dünyasında məşhurdur, əsərləri onlarla dilə tərcümə edilib, onun mənəvi və fəlsəfi ideyaları bu gün də aktualdır. Heydər Əliyevin göstərişi ilə Sovet Sosialist Respublikaları İttifaqı Yazıçılar İttifaqının katibi Alim Keşokovun rəhbərlik etdiyi nümayəndə heyəti Dəməşqə yola düşür. Suriya rəhbərləri Nəsiminin qəbrinin vətəninə köçürülməsinə razılıq vermirlər. Sonra Dzasoxov Sovet İttifaqının bu ölkədəki səfiri vəzifəsində çalışarkən Heydər Əliyevin xahişi ilə məsələyə bir də qayıdır. Amma Suriya rəhbərliyi öz mövqeyində qalır, yox cavabı verir.

– Biz bu haqda Heydər Əliyevlə Moskvada Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Sovetində işlərkən 2-3 dəfə danışmışdıq. Nəsimi qəddarcasına öldürülüb. Onu müstəqil

fikirlərinə, fərqli düşüncələrinə görə cəzalandırıblar. Nəsimiyə və onun həmfikirlərinə görə, insan Allah tərəfindən yaradılan dünyada əsas varlıqdır.

Bir dəfə Prezidentin dəftərxanasından məşhur bəstəkar Arif Məlikova zəng vurub bildirirlər ki, Prezident Səudiyyə Ərəbistanına səfər edəcək. İstəyir ki, onu müşayiət edənlərin arasında siz də olasınız. Əlbəttə ki, sənətkar razılaşır. Müsəlman dünyasının ən böyük mərkəzlərindən olan Məkkəni və Mədinəni ziyarət etmək bütün müsəlmanların ən böyük arzusudur. Amma Sovet Sosialist Respublikaları İttifaqının xalq artisti, Dövlət mükafatı laureatı, məşhur “Məhəbbət əfsanəsi” baletinin müəllifi Arif Məlikov bu dəvətin əsl səbəbini hələ bilmirdi. Yalnız Səudiyyə Ərəbistanında Heydər Əliyev bəstəkara demişdi:

– Mən istəyirdim ki, sən bu müqəddəs yerləri görəsən və yeni böyük simfonik əsərlər yazmağa ruhlanasan.

Arif Məlikov sonralar əbədiyyətlə bağlı iri həcmli simfonik əsər yazmaq fikrinə çoxdan düşdüyünü, Amma heç cür başlaya bilmədiyini etiraf edirdi: “Əvvəllər heç ağlıma da gəlmirdi ki, Məkkə və Mədinə mənə belə bir əsər yazmağa ilham verə bilər. Heydər Əliyev isə böyük fəhmlə hiss etmişdi ki,belə bir əsər yazmaq üçün mən mütləq Məkkəni, Mədinəni görməliyəm, onların tükənməz gücündən daxili enerji almalıyam.

Aylar, illər keçdi, amma mən vəd etdiyim simfoniyanı heç, cür yaza bilmirdim. Görüşlərin birində Prezident soruşdu ki, mənim simfoniyam necə oldu? Bundan əvvəl o, həmişə “simfoniya” deyirdi, Amma bu dəfə “mənim simfoniyam” dedi... Əlbəttə ki, hansı əsərin nə vaxt yaranmasını zaman özü həll edir. Bu simfoniya da vaxtı çatanda yazıldı. Mən onu Heydər Əliyevin 80 illiyinə həsr etdim. Ümid edirdim ki, Prezident mənim səkkizinci simfoniyama – “Əbədiyyət simfoniyası”na qulaq asacaq. Əfsuslar olsun ki, bu arzum ürəyimdə qaldı. Amma bu əsər hər dəfə onun ad günündə – mayın 10-da səsləndirilir”.

General-leytenant Kondraşov Heydər Əliyevlə yaşıddır. Öz peşə seçimini də demək olar ki, onunla eyni vaxtda edib. Sovet Sosialist Respublikaları İttifaqının Vyanada xarici kəşfiyyat rezidenturasının rəhbəridir. Londonda o, Britaniya kəşfiyyatının əməkdaşı və eyni zamanda, Sovet Sosialist Respublikaları İttifaqının agenti olan məşhur Corc Bleyklə görüşüb. Kəşfiyyat idarəsinin rəisi və Sovet Sosialist Respublikaları İttifaqı Dövlət Sərhəd Komitəsinin sədr müavini olarkən Kondraşov dəfələrlə Azərbaycanda olmuşdu, həmişə də Heydər Əliyevlə görüşmüşdü. Amma peşəkar kəşfiyyatçı olsa da, ilk görüşlərini xatırlaya bilmədi. Əliyevi ona təqdim edəndə Kondraşov onunla ilk dəfə görüşürmüş kimi danışdı. Heydər Əliyeviç isə xatırlatdı:

– Yoldaş Kondraşov, biz sizinlə tanışıq.

– Mən istərdim ki, – deyə general-Ieytenant Kondraşov qeyd edir, – oxucular onun şəxsiyyətinin böyüklüyünü hiss etsinlər. Onun vaxtında Bakı Yaxın Şərq ölkələri üçün nümunə kimiydi, o, Sovet Sosialist Respublikaları İttifaqının öz yaxın qonşuları – İran, Türkiyə, Əfqanıstanla münasibətlərinin yaxşılaşdırılmasında əvəzsiz rol oynamışdı. Və nəhayət, müstəqil Azərbaycana rəhbərlik etdi.

Yeniləşmiş Sahil küçəsinə çıxırsan, Dənizkənarı bulvarda gəzirsən və gümrahlaşdığını, bədəninə güc gəldiyini açıq-aşkar hiss edirsən. Görəsən, bu, dağların ritmilə, buxtanın gözəlliyilə, yaxud dəniz havasıylamı bağlıdır? Bunu ayırd etmək xeyli çətindir. Bakıda su ilə alov, dəniz ilə dağ biri-biriylə birləşir. Bakı Xəzər ilə dağın, torpaq ilə dənizin övladıdır. Burada hər şey xüsusi memarlıq istedadına malik Heydər Əliyevi xatırladır.

...Yol kənarlarında elektrik dirəklərinin başında leyləklərin yuvalarını görmək olar. Sular qarışanda, havalar soyuyanda bu quşlar uzaq ölkələrdə yuva qurmağa gedirlər. Köçəri quşların qayıtması xeyirliyə sayılır.

İndi Dənizkənarı bulvarda yenidən insanlar qaynaşır, valideynlər uşaqlarını müxtəlif atraksiyonlara, yelləncəklərə,

karusellərə gətirirlər. Müxtəlif adlar eşidilir. Amma ən çox "Heydər!" çağırırlar...

Başdan-başa yaşıla bürünən, uca binalarla əhatə olunan paytaxtdan Heydər Əliyev həmişə böyük məhəbbətlə danışırdı: "Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Əsrlər boyu bu şəhəri tikib yaradan insanlar bugünkü və sabahkı nəsillər üçün gözəl bir iz qoyublar! Biz Bakı ilə – paytaxtımızla fəxr edirik. Biz təbiətin ona bəxş etdiyi gözəlliklər, memarlıq abidələri ilə qürur duyuruq"

Bakı küləklər şəhəridir. Hərdən elə azğın yellər əsir ki, vıyıltıdan qulaq batır. Amma tez keçir... Səhərə yaxın Qurd qapısından keçən yolçu dəniz tərəfdən günəşin çıxmasını seyr edir. Günəş, sanki, dənizin dibindən çıxır. Bəlkə də, ona görə Qobustan qayalarına rəsm çəkən qədim, müdrik insanlar günəşi dənizin övladı hesab edirdilər?..

## XII fəsil

# PREZİDENT İLİ

*Təqvimin günləri*

İnsanlar həmişə hakimiyyətin zirvəsinə qalxmağa can atıblar. Bəziləri çox çətinliklə, sürünərək buna nail olur, elə buradan da xalqın yaddaşında heç bir iz qoymadan qeybə çəkilirlər. Bir neçə onillikdən sonra Azərbaycanın siyasi tarixinin XX əsrin 90-cı illərinə nəzər salarkən düşünürsən, görəsən orada kimi görmək mümkün olacaq? Heydər Əliyevin siyasi rəqibləri nəyə görə məğlub oldular? Çünki xalq yaxşını pisdən ayıraraq boşboğazların, demoqoqların deyil, məhz Heydər Əliyevin arxasınca getdi. Onun gücü mifik Anteydə olduğu kimi, doğma torpaqda, ona və onun övladlarına olan məhəbbətdə idi. Mükafatı isə xalqın, həmvətənlilərinin ona verdiyi qiymətdir.

Heydər Əliyev ona görə ümummilli liderə çevrildi ki, onun əxlaqi keyfıyyətləri ilə siyasətçi və mütəfəkkir istedadı birləşirdi. “Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, amma xalqına, vətəninə, onun yüksək əxlaqi keyfiyyətlərinə qarşı çıxmaq yoIverilməzdir”, – deyən Heydər Əliyev dəfələrlə bu fikri öz əməlində də təsdiq edirdi. Alman fılosofu Artur Şopenhauer insanın dahiliyini, onun dərketmə imkanlarının lazım olduğundan bir neçə dəfə artıq inkişaf etməsində görürdü. Beləliklə, dahilik intellektin fövqəladə

böyüklüyüdür və böyük intellekt özünün tətbiqini, həqiqətin dərk olunan ümumi qanunlarına xidmət etməkdə görür, bununla da o, özünü bütün bəşəriyyətə xidmətə həsr edir. Normal intellekt isə ayrı-ayrı fərdlərə xidmət edir.

Bəli, Heydər Əliyevin qeyri-adi intellekti bütün xalqa xidmət edirdi. Prezident Şərqin böyük mütəfəkkiri Cəmaləddin əl-Əfqaninin əqidəsini bölüşərək xalqdan ayrı xoşbəxtliyin mövcud olmadığını deyirdi.

Bəziləri bunu böyük siyasətçinin sadəcə borcu kimi, xarakterinin xüsusiyyəti kimi qəbul edə bilər. Elə isə, gəlin, Prezidentin bir illik fəaliyyət dövrünün təqvimini vərəqləyək.

Hansını seçək?

On bir illik prezidentlik dövrü... Bu illərin hər biri digərinə nə qədər bənzəyirsə, bir o qədər də fərqlənir. Ümumi xüsusiyyətləri göz qabağındadır! Təqvim, iş cədvəli – qəbullar, mətbuat konfransları, çıxışlar... Amma bu xarici görünüşdən bir-birinə bənzər formanın hər birinin arxasında ölkə başçısı Heydər Əliyevin şəxsiyyətini müəyyənləşdirən, hər dəfə onun yeni bir keyfiyyətini üzə çıxaran məzmun dayanır. İstənilən bir ili, misal üçün 95 və ya 99-cu ili götürmək olar. Ancaq biz təklif edirik ki, onun son iş ilini – 2002-ci ilin təqvimini vərəqləyək.

2002-ci ildə Heydər Əliyevin imzaladığı ilk sənədlərdən biri "20 Yanvar faciəsinin 12-ci ildönümünün keçirilməsi haqqında" sərəncamı oldu. Xalqların tarixində elə günlər var ki, ilini göstərməsən də yada düşür. İyirmi yanvar... Bakılılar üçün, bütün azərbaycanlılar üçün bu iki söz kifayət edir ki, hər şey anlaşılsın. Ruslar üçün 9 Yanvar – "Qanlı bazar" günü olduğu kimi. O vaxt 1905-ci ildə Peterburqda öz tələblərini çara çatdırmaq üçün nümayişə çıxan fəhlələri güllləbaran etmişdilər.

Prezidentin təşəbbüsü ilə hələ 1994-cü ilin yanvarında Milli Məclisin "1990-cı il yanvarın 20-də Bakıda təşkil edilmiş faciələr haqqında" qərarında 20 Yanvar hadisələrinə müfəssəl hüquqi və siyasi qiymət verilmişdi. Xatırladaq ki,

onda Bakıda, Azərbaycanın bəzi rayonlarında, fövqəladə vəziyyət rejimi elan edilmədən, Qorbaçovun sərəncamı ilə ordu hissələri yeridilmişdi və qan tökülmüşdü...

## 24 yanvar 2002-ci il, Moskva

Yanvarın 24-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri başladı. Həmin günlər "İzvestiya" qəzeti yazırdı: "Rusiya paytaxtına bu cür böyük miqyaslı siyasətçilərin gəlişi özü-özlüyündə vacib hadisədir. Mixail Qorbaçov tərəfindən vaxtilə istefaya göndərilən bu ictimai-siyasi xadim sonradan öz xalqının tələbi ilə böyük siyasətə qayıtdı. Bu gün isə o, Yeltsin Moskvasının saldığı inciklikləri dəf edə bilmişdir".

"İzvestiya"nın qənaətinə görə, "Məharətli və müdrik siyasətçi Əliyevlə cavan Rusiya prezidentinin ilk tanışlığından bu qədər müsbət nəticələr əldə edilməsini" çox az adam gözləyirdi. İlk tanışlıqlarını xatırlayan Əliyev etiraf edirdi ki, o, Putinlə yalnız 30 dəqiqəlik bir görüş nəzərdə tutmuşdu. "Amma biz təxminən 4 saat söhbət etdik". "Belə nəticəyə gəlmək olar ki, onlar bir-birilərində müsbət təəssürat oyadıblar", – deyə "İzvestiya" belə şərh edirdi. "İştirakçıların dediyinə görə, Əliyev Putinlə yenidən görüşmək arzusu ilə ayrıldı. Nəticədə ali qonaq dünən axşam (24 yanvar, 2002-ci il – müəlliflər) xüsusi diqqətə layiq görüldü. Vladimir Putin onu Zavidovdakı bağ evində qəbul etdi. Bu, ailəvi çərçivədə qonaqlıq idi. Mənbələrdən aldığımız məlumata görə, Rusiyanın indiki prezidenti Heydər Əliyevlə müxtəlif beynəlxalq məsələlər üzrə məsləhətləşməni heç də özünə əskiklik hesab etmir".

Dövlət səfəri çoxlu təntənəli protokol mərasimləri, görüş və danışıqlar, dövlət başçılarının təkbətək görüşləri, nümayəndə heyətlərinin iştirakı ilə aparılan danışıqlar, qəbullar, mətbuat konfransları ilə zəngin olur. O vaxt bizlərdən birimizə – "Tribuna" qəzetinin redaktoruna, İTAR TASS-ın baş redaktoru Gennadi İqnatenko tərəfindən Heydər Əliye-

vin KİV nümayəndələri ilə təşkil olunan görüşündə iştirak etmək qismət olmuşdu. Prezidentin səfəri artıq sona yetirdi, bu 3 gərgin gün ərzində keçirilmiş görüşlərdən və böyük mətbuat konfransından sonra axırıncı tədbir idi. Prezidentin bir qədər soyuq görünən üzündə qətiyyən yorğunluq hissi olunmurdu. 80-ə yaxın yaşı olan bir insanın bu qədər təzyiqə tab gətirməsi heyrətamiz bir şey idi.

TASS-ın artıq illərlə qorunub saxlanan ənənələri var. Vitali Nikitiç ilk növbədə qonaqları salamladı, Heydər Əliyevin şərəfinə tost dedi. Prezidentin badəsində qırmızı şərab var idi. O, dodağını yaşlayaraq, istefasından sonra jurnalistlərlə ilk görüşünü xatırladı. Azərbaycanın neft strategiyasından söhbət açdı, mətbuatla münasibətlərdən danışdı... Ayrılan zaman ona keçmiş köməkçisi Aleksandr Timofeyeviç Qavrilovla bu yaxın günlərdə görüşdüyümü dedim.

"Məndən ona çoxlu salam deyin, onu yaxşı xatırlayıram", – deyə Prezident o dəqiqə cavab verdi.

Heydər Əliyev 3 günlük səfərdən sonra həmin gün Bakıda da yerli jurnalistlərlə görüşdü.

– Moskva televiziyaları mənim hazırkı səfərimi, keçirdiyim görüş və danışıqları kifayət qədər işıqlandırıb. Ancaq onu deyə bilərəm ki, bu görüş Azərbaycan üçün olduqca vacib idi. Birincisi, Rusiya hökuməti, prezidenti Azərbaycan Prezidentini dövlət səviyyəsində rəsmi səfərə dəvət etmişdi. Bu status və dəvət dövlət səfərinə aid bütün tələblər və qaydalar çərçivəsində həyata keçirildi. Siz yəqin ki, bütün bunları televiziya vasitəsilə izləyə bildiniz. Əlbəttə, hər şeyi görmək imkanınız olmasa da, seyr etdikləriniz sizdə yəqin ki, müəyyən təsəvvür oyada bildi...

Mən səfərin nəticələrindən çox razıyam. Biz olduqca vacib sənədlər imzaladıq.

Putinlə mən birgə əməkdaşlıq, əlaqələrimizin və bu münasibətlərimizin gələcək məzmunu və prinsiplərini açıqlayan sənəd imzaladıq, sonra Rusiya-Azərbaycan iqtisadi əməkdaşlığının 2010-cuilədək davam etdirilməsini özündə

əks etdirən uzunmüddətli müqavilə və daha 2 sənədə imza atdıq. Nəhayət, Qəbələ Radiolokasiya Stansiyasının fəaliyyəti ilə bağlı razılaşmaya gəldik. Bütün bunlar Azərbaycan üçün çox vacib sənədlərdir. Bundan əlavə, sənədlərin Rusiya-Azərbaycan münasibətlərinə yeni impuls verəcəyinə əminəm.

Xatırladaq ki, bu söhbət şənbə günü, yanvarın 26-da baş vermişdi. Mətbuat xidmətinin məlumatına görə, Azərbaycan Prezidenti artıq həftənin üçüncü günü, ayın 30-da Nyu-Yorkda keçiriləcək Ümumdünya İqtisadi Davos Forumunun iclasında iştirak etmək üçün ABŞ-a getməyə hazırlaşırdı. Yanvarın 29-da Heydər Əliyev səfərdən öncə ABŞ-ın dövlət katibinin müavini Elizabet Consu qəbul etdi.

Xanım Consla söhbət zamanı Azərbaycan Prezidenti beynəlxalq terrorizmlə birgə mübarizə ilə bağlı Moskvada apardığı danışıqlara istinad edirdi.

– Putin mənə ABŞ-la Rusiyanın bu mövzuda kifayət qədər sıx əməkdaşlıq etdiklərini söylədi. Mən Rusiya hökumətinin gələcəkdə də bu istiqamətdə fəaliyyətini davam etdirəcəyini hiss etdim. Cənab Putin bizim də bu alyansda iştirakımızdan xəbərdardır və sizin təyyarələrinizin ərazimiz üzərindən uçması faktı ona bəllidir. Hesab edirəm ki, sizin Rusiya ilə əməkdaşlığınız, Əfqanıstanda keçirəcəyiniz birgə fəaliyyət, bütünlükdə region üçün geniş imkanlar açacaq.

Qonaqla vidalaşarkən Prezident yaxın dostu cənab Armitecə salam göndərdi: "Çatdırın ki, ona Rusiya-Amerika birgə komissiyasındakı işində uğurlar diləyirəm. Düşünürəm ki, nailiyyətlər əldə ediləcək".

Riçard Armitec ABŞ-ın dövlət katibinin birinci müavinidir. Onların 90-cı illərdə baş tutan ilk görüşü hər ikisi üçün qeyri-adi situasiya kimi yadda qalmışdı. Riçard bütün protokol qaydalarını unudub qəflətən çox səmimi şəkildə demişdi: "Cənab Prezident, mənim atam sizə çox bənzəyirdi". Beləcə, mehriban münasibətlər yaranmışdı. Armitec ABŞ-Azərbaycan ticarət palatasına rəhbərlik edirdi və Əli-

yevin ABŞ-a səfəri zamanı keçmiş müdafiə naziri Uaynberqi də Əliyevə o təqdim etdi.

– Əvvəllər sizi efırdən görəndə, siz düşmən hesab olunurdunuz, amma indi sizinlə tanış olmaq necə də xoşdur, – deyə Heydər Əliyev güldü.

Riçard bu sözlərdən fərəhləndi, çünki Uaynberq onun həm müəllimi, həm də yaxın dostu idi.

## 1 fevral 2002-ci il, Nyu-York

Nyu-Yorka gələn Azərbaycan Prezidenti Ümumdünya Ticarət Mərkəzinin dağıntıları qarşısındakı xatirə lövhəsinin önünə əklil qoydu. Bu əklil sanki Xocalının kül olmuş ərazisinə, Şuşanın erməni faşistləri tərəfindən güllələnmiş heykəlləri önünə, Qarabağın talan olunmuş, viranəliyə çevrilmiş torpağına qoyulurdu. Harada həlak olmasına baxmayaraq, günahsız qurbanların dərdi və xatirəsi eynidir.

Növbəti Ümumdünya İqtisadi Forumu "TəhIükəli zamanda liderlik: gələcəyə ümumi baxış" devizi altında keçirilirdi. Forumun yaradıcısı və prezidenti Klaus Svab tədbirin açılışında çıxışı zamanı bildirdi ki, konfrans burada sentyabr 2001-ci ildə faciə ilə üzləşən bu şəhərə – Nyu-Yorka dəstək məqsədilə keçirilir.

Fevralın 1-də Heydər Əliyev "Uodolf-Astoriya" otelində "Mərkəzi Asiyada sabitlilik") mövzusunda keçirilən iclasda çıxış etdi. İlk söz ona verildi. Prezident dünyanın üzləşdiyi problemlərə toxunaraq, Qafqazda baş verən hərbi münaqişə və separatizmdən söhbət açdı: "Separatizm terrorizmə çevrilərək elə bir təhlükə törədir ki, zəbt olunan ərazilər nəzarətsiz zona olur. Misal üçün, Azərbaycanın Daglıq Qarabağ ərazisini götürək. Burada baş verən münaqişə məhz separatçı məqsədlər daşıyırdı və sonra Azərbaycanla Ermənistan arasında müharibəyə çevrildi. Nəticədə, Azərbaycanın 16 min kv.km. ərazisi nəzarətsiz zonaya çevrilib, daha doğrusu, qanunsuz hərbi qüvvələrin

nəzarəti altında qalıb. Bu əraziləri heç bir beynəlxalq qurum və ya dünya ictimaiyyəti idarə etmir. Təbii ki, orada qanunsuz silahların saxlanması, narkotik maddələrin mübadiləsi işi aparılır. Deməli, bu, münaqişələrin yaranma mənbəyidir. Terrorizmin mənbəyidir. Bunun üçün beynəlxalq terrorizmlə mübarizəyə başlamazdan öncə onun yaranması yolları və növləri ətraflı öyrənilməlidir. Hərbi qarşıdurmaların aradan qaldırılması, beynəlxalq terrorizmin meydana çıxmasının qarşısını alan ciddi və vacib tədbirlərdən hesab edilə bilər".

Nyu-Yorkdan Qarabağa qədər olan bu uzun yol həmin anda sanki qısalıb yaxınlaşmışdı. 106 ölkəni təmsil edən 3 min iştirakçı işğal edilib talan olmuş vətən məhfumunun nə demək olduğunu bir daha anladı.

2002-ci il fevralın 27-də İsveçrə qəzeti "Maten" "Tarix unutmayacaq: Azərbaycan xalqı Xocalı soyqırımının 10 illiyini qeyd edir" başlıqlı məqalə dərc etmişdi. Prezidentin təşəbbüsü ilə Xocalı faciəsinin 10 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi bəyanat qəbul etdi. Bəyanatda deyilirdi: "Ermənistan BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsini (№822, 853, 874 və 884), Avropa İttifaqı Parlament Assambleyasının sənədlərini, ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərinin qərarlarını rədd edərək Azərbaycanın ərazi bütövlüyünün qəbulundan imtina edir. Qarabağ ərazisində təkcə Ermənistan deyil, digər ölkələrdən də toplaşan terrorçu qruplaşmaları Azərbaycan xalqına qarşı növbəti cinayət aktlarını planlaşdırırlar. Burada yetişdirilən narkotik maddələrin satışından əldə edilən gəlir terrorçuluq məqsədləri üçün istifadə edilir".

Bir gün gecədən xeyli keçmiş Heydər Əliyevin telefon zəngi Fatma Abdullazadənin yaxşı yadındadır:

– Gecə saat iki idi. Hələ yatmamışdıq, oturub videoda nəyəsə baxırdıq. Heydər Əliyev zəng edib konkret mövzu ilə bağlı nə isə konkret bir şey soruşdu. Cavab verəndən sonra birdən ağlına gəldi: "Mən neylədim, gecə saat 2-dir!"

Dedim ki, hələ yatmamışıq, kinoya baxırıq. "Mən isə sənəd üzərində çalışırdım!" – deyə cavab verdi...

Həmin gecə, bir qədər tez – saat 12-də Əliyev həmin sualla əlaqədar nazirlərdən birinə də zəng edibmiş. Səhər aydın oldu ki, düzgün cavabı Fatma xanım verib. Prezident ona təşəkkür etməyi unutmamışdı.

Fatma xanım öz yubileyində Prezident tərəfindən aldığı heyrətamiz gül buketini də yaxşı xatırlayır:

– Heydər Əliyev zəng vurdu, çox gözəl söhbətimiz oldu. O, insanın səsindən əhval-ruhiyyəsini müəyyən edə bilirdi. O saat soruşdu: "Nəsə bir problem var?" EIə məqamlar olur ki, hətta mənə, fizika-riyaziyyat elmləri doktoruna da bunu izah etmək, məntiqlə əsaslandırmaq çətin olur...

Fatma Abdullazadə Əliyevlə 10 il bir yerdə işləməyi taleyin mükafatı hesab edir. Fatma xanım bir dəfə gecə saat 12-də Əliyevin göstərişinə əsasən onu necə dövlət katibi ilə danışığa çagırmalarını xatırladı. O vaxt, 1993-cü ildə səhərədək işləyirmişlər. – Söhbət edib getdim evə. Əvvəllər çalışdığım Mərkəzi Komitənin binasına qayıtmaq istəmirdim. Sonra yeni hadisələr baş verdi. Məlum oldu ki, qayığı çox möhkəm yırğalayırlar.

O vaxt mən dəniz kənarında yaşayırdım. Tez-tez Surət Hüseynovun silahlarının atəş səslərini eşidirdik. Qonşularımız rusdilli idilər. Heydər Əliyevin canlı efirdəki çıxışını onlar üçün rus dilinə tərcümə edirdim. Bir ifadəni heç vaxt unutmayacağam. "Mənim silahlı dəstələrim yoxdur, yalnız siyasi iradəmə və təcrübəmə güvənirəm". Xalq da ona dəstək oldu.

## Bahar bayramı – Novruz

Martın 13-də Prezident amnistiya haqqında fərman imzaladı. Vətəndaş cəmiyyətində sülhün və qarşılıqlı anlaşmanın möhkəmlənməsi naminə əlindən gələni əsirgəməyən dövlət başçısı tərəfindən bu addım növbəti bir jest idi. Qoy azadlı-

ğa çıxan insanlar onu qiymətləndirsin. Prezident onları əfv etmişdi. Allahın onları bağışlaması isə gələcək əməllərindən asılı idi...

81 nəfər azad edildi, 8 dustağın cəzaçəkmə müddəti isə yarıya kimi azaldıldı. Azadlığa buraxılanların demək olar ki, hamısı Azərbaycan Respubhkasının ərazi bütövlüyünə və dövlətçiliyinə qarşı cinayət törətməkdə iştirakı olanlar idilər. Bəziləri 1994-cü ilin oktyabrında Gəncədə təşkil olunan dövlət çevrilişinə cəhddə, bəziləri isə 1995-ci ilin martında Bakı, Ağstafa və Qazaxda hakimiyyəti ələ keçirməkdə təqsirli bilinən qruplaşmaların tərkibində iştirak etmişdilər. 3 nəfər isə 1993-cü ildə Heydər Əliyevin həyatına qəsd etməyə cəhd göstərmişdi.

Prezident bu xeyirxah aktı Bahar bayramı – Novruz münasibətilə həyata keçirmişdi. Uzun illər boyu Azərbaycanın bu milli, əziz bayramını keçmişin qalığı adlandıraraq təqvimdən silməyə can atmışdılar.

Amma təsir əks təsirə bərabərdir. Xalq öz adət və ənənələrini qoruyub saxlaya bilmişdi. Prczident Novruz bayramı münasibətilə xalqa müraciətində deyirdi: “Azərbaycan xalqı tarix boyu öz qəlbində qoruyub saxladığı, hər bir sınaq və çətinliklərdən keçib bu günədək gətirdiyi bu əziz bayramın gəlişini səbirsizliklə gözləyirdi. Xalqımız bu gün də milli mübarizə simvolumuza çevrilən bahar bayranını böyük sevinc hissi ilə qeyd edir. Mədəniyyətimizin zəngin, qiymətli incilərindən hesab edilən Novruz müstəqilliyimizin bərpasından sonra həmişəlik olaraq Azərbaycan Respublikasının təqviminə rəsmi bayramlardan biri kimi həkk edildi”.

Bayram axşamı Heydər Əliyevi təbrikə bütün qohumlar gəlmişdi. Bacıları, qardaşları, onların həyat yoldaşları, əmiqızı, əmioğlanları. Naxçıvanda, hələ valideynlərinin sağlığında doğma evlərində keçirdikləri Novruzu xatırlayırdılar.

Bayramın gəlişini ilk olaraq evin yanında bitən bədmüşk xəbər verirdi. Kökü hələ də qarın içində idi, amma budaqları artıq tumurcuqlamışdı. İzzət xanım bədmüşkü çox sevirdi.

Ağaclar çiçək açanda uşaq kimi sevinirdi. Bir dəfə Şəfiqə anasından nəyə görə bədmüşkü bu qədər sevdiyini soruşdu. İzzət xanım dedi:

– Ay qızım, bədmüşkü kim sevmir ki. Hər dəfə o gül açanda yadıma Zəngəzurun yazı düşür. Orada həmişə bədmüşkü yığıb ondan gülab hazırlayırdıq.

Uşaqlıq xatirələri əbədi olaraq Şəfıqənin yaddaşında həkk olunmuşdu. Sonra işlədiyi rayonlarda da gözü bədmüşkü axtarırdı. Bu bitkinin başı əyilmiş budaqlarını görən zaman anasının sevincdən parlayan gözlərini xatırlayırdı.

Novruza bir həftə qalmış əsas təmizlik işlərinə başlanırdı. Divarlar ağardılır, pəncərələr silinir, ağaclar budanırdı. Yorğan-döşəklər açılıb çırpılır, yenidən sırınırdı. Kənd əhli döşəməyə həsir salır, üzərinə xalça döşəyirdilər. Xalçanın üstünə yun mütəkkələr düzülürdü. Bu yumşaq döşəkçələr xüsusi olaraq dirsəklənmək üçün qoyulurdu.

Həmişəki kimi ailə süfrəsi arxasında keçmiş günlərin xoş xatirələri yada salındı.

– Yadınızdadı, bir dəfə Novruzqabağı necə qar yağmışdı? – deyə evin kiçiyi Şəfiqə bərkdən soruşdu.

– Bizim yerlər üçün bu, adi haldır, – Cəlal dedi.

Bu mart qarı Şəfiqənin yaddaşında həmişəlik qalmışdı. Atası ilə anası evin xalçasını bayırda qarla yuyurdular. Uşaqlar da xalçanı qartopu atəşinə tutmuşdular. Bu şən, səs-küylü dəstədən kimsə hiyləgərlik edib birinin yaxasına qar atdı. Uşağın qışqırtısından İzzət xanım bərk hirsləndi.

Sonra xalçanın qarını təmizləyib evə gətirdilər. Təmiz xalı ayağa xoş soyuqluq və təravət verirdi.

Bayramqabağı Əliyevlər ailəsində adətə görə hər şey təmizlənir, köhnələr atılır, evin hər tərəfı təzələnirdi. Hamı səməni və bayram şamları ilə bəzədilən süfrənin arxasına toplaşırdı. Adət üzrə süfrəyə səbzili aş və kişmiş, ərik, gavalı ilə doldurulan toyuqlu aş-plov gəlirdi.

Süfrəni ana bəzəyirdi. Qızlar isə fətirləri, külçələri, qoğalları, ailənin sevimli çərəzlərini gətirirdilər. Ana onları

süd, yağ, yumurtadan yoğrulmuş xəmirdən bişirir, içinə hil, mixək, darçın, sarıköklə qarışdırılmış qoz tökürdü. Bu xəmir təndirdə bişirdi.

İzzət xanım plovu çəhrayı şərbət, mürəbbə, gülqənd ilə birgə süfrəyə verirdi. Sonra ən maraqlısı – hədiyyəvermə anı gəlirdi. Valideynlər əvvəlcədən qızlar üçün paltar, oğlanlar üçün ayaqqabı, köynək alırdılar. Oyuncağa pul çatmadığından ən vacib olanlar alınırdı.

İllər, aylar ötdü və vaxt gəldi ki, Heydər də anasına, bacılarına hədiyyələr gətirdi. Leninqraddan aldığı tünd göy güllü parçalar indiyəcən yadlarında qalıb. İzzət xanım onlardan özünə çadra tikdirmişdi.

Bayram axşamı uşaqlar həyətdə tonqal qalayırdılar. Azərbaycan folklorunun sevimli qəhrəmanları Kosa və Keçəl də cavanların müşayiəti ilə qapı-qapı gəzərdilər.

31 mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar xalqa müraciət edən Heydər Əliyev xüsusi olaraq bunları vurğuladı: "Biz tarixdə baş verən hadisələrin – erməni millətçiləri tərəfindən sistematik olaraq eybəcər formada həyata keçirilənlərin bu günümüzə gətirilməsinin, onun insanlar və xalq arasında düşmənçilik yaratmaq üçün istifadə edilməsinin əleyhinəyik.

Müasir dünyada bizim üçün müharibənin təbliği, qeyri-bəşəri ideologiyanın mövcudluğu, digər dövlətlərə qarşı terrorçu iddialar qəti yolverilməz hal hesab olunur. Müstəqilliyimizin bizə verdiyi imkanlardan istifadə edərək ölkəmizin daim inkişafına, vətəndaşlarımızın gələcək rifahına can atırıq".

Təsdiqə ehtiyacı olmayan məlum həqiqətdir ki, qonşunu seçmirlər. Onlarla yalnız sülh və qarşılıqlı anlaşma şəraitində yaşamaq lazım gəlir. Bu, bütünlükdə millətlərə də aiddir. Tale Azərbaycan xalqını müxtəlif mentalitetli, fərqli milli tərkibli, etnik köklü millətlərlə qonşu edib. Onlar da, biz də bir səma altındayıq, ancaq bu səma heç də həmişə aydın olmur.

Prezidentin “Azərhaycanlıların soyqırımı ilə hağlı” fərmanı 1998-ci il martın 26-da dərc edilmişdi. Azərbaycanlıların soyqırımı gününü Heydər Əliyev martın 31-nə elan etdi. Məhz həmin günü 1918-1919-cu illərdə Azərbaycan Demokratik Respublikası ümummilli matəm günündə həlak olanların xatirəsini yad edirdi.

**3 Mart 2002-ci il, Bakı**

Heydər Əliyevdən danışarkən jurnalistlər çox zaman gözəl müqayisələrə müraciət edirlər. Onlardan biri isə Əliyevi kökləri torpağın dərin qatlarına işləmiş, ondan güc, qüvvət alan möhtəşəm çinara bənzədir.

Çinar – İnsan... Çox dəqiq metaforadır. Martın 3-də Heydər Əliyev Prezident Sarayında dünya şöhrətli Mstislav Rostropoviçi və xanımı Qalina Vişnevskayanı qəbul etdi.

– Əziz Slava! – deyə Prezident qonağa üz tutdu. – Mən çox şadam ki, Sizin 75 illik yubileyinizə həsr edilmiş mərasimlərə bizim Vətənimizdə – Azərbaycanda start verilir. 2001-ci il Rostropoviçin 75 illiyi, mart isə Rostropoviç ayı hesab edilir.

Burada artıq həmin günlər başlayıb. Əminəm ki, sizin ad gününüz, şöhrətinizin məlum olduğu dünyanın bir çox ölkəsində də bu cür təntənə ilə qeyd olunacaq. Siz buraya Qlobal Vaksinasiya Fondu ilə gəlmisiniz. Özünüzlə ümumi məbləği 1 milyon dollardan artıq olan vaksin gətirmisiniz. Bu, bizim respublikaya böyük köməkdir, uşaqların sağlamlığının qorunmasına göstərdiyiniz böyük qayğıdır. Eyni zamanda qeyd edilməlidir ki, bu, çox mühüm bir sahəyə – Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafına, Azərbaycan musiqisinin beynəlxalq miqyasda tanınması və inkişafı sahəsində göstərdiyiniz əməyə görə Siz, əziz Slava, Prezidentin fərmanı ilə Azərbaycanın ən yüksək ordeni – “İstiqlal” ordeni ilə təltif olunursunuz.

Özünün uzun və uğurlu yaradıcılıq dövründə görkəmli musiqiçi yəqin ki, çoxlu tərif və kompliment, xoş söz eşitmişdi. Lakin indi sanki bir qədər utandı. O dedi:

– ... Hazırda elə həyəcanlıyam ki, nə deyəcəyimi bilmirəm. İlk olaraq valideynlərimə mənə təhsil verdiklərinə, bu cür yetişdirdiklərinə görə minnətdarlıq etmək istərdim. Məni dünyaya gətirmək üçün dünyanın ən gözəl yerini seçdiyinə görə ən çox anama minnətdaram.

Əlbəttə, Azərbaycana, Bakıya məhəbbət atamdan keçib. Buradan köçəndən sonra atam Moskvada yaşayıb. Bakı şəhərində mənim tanıdığım gözəl bir insanın ev – muzeyi var. Mən uşaq olanda atam məni onunla tanış etmişdi. Bu, Üzeyir Hacıbəyov idi. Moskvada Azərbaycan ongünlüyü olanda atam məni mehmanxanaya gətirib dedi ki, səni şöhrətli bir musiqiçi ilə tanış edəcəyəm. Mən o vaxt atanın tanış etdiyi Üzeyir Hacıbəyovun üzünü ömürlük yadımda saxladım. Muzeydə atamın müharibədən əvvəl Üzeyir Hacıbəyova yazdığı məktub indi də saxlanılır. Məktubda atam yazırdı; "Mən Bakıya qayıtmağı çox arzulayıram".

Müharibə başladığına görə atam Bakıya dönə bilmədi. Sonra məcburi şəkildə Orenburqa evakuasiya edildik və orada 1942-ci ildə dünyasını dəyişdi. Mənim həyatım həmin xatirələrlə doludur. Ona görə Bakıya hər gəlişim mənim üçün böyük hadisədir. Gedəndən sonra bu torpağa nə zaman qayıdacağımı düşünürəm.

Rostropoviç Azərbaycan Prezidentinin qəbulunda Rusiya-Azərbaycan münasibətlərindən də söhbət açdı.

... Son vaxtda, bəlkə də, həyatımda ən xoş gün sizin Putinlə görüşdüyünüz gün olub. Bu, mənim ömrümün ən şən və xoşbəxt məqamları idi. Bilirsiniz, mən Rusiyada təhsil almışam, ömrümün çoxu orada keçib. Hər iki ölkə mənim bir hissəmdir. Bu ölkələr arasındakı mövcud musiqi, mədəniyyət əlaqələrini, yazıçı və rəssamların yaratdığı dostluq münasibətlərini itirmək olmaz. Bu əlaqələr qarşılıqlı çətinliklər sayəsində qazanılıb. Hər şeyə görə sizə minnətdarlıq etmək lazımdır.

Hamı sizin müdrik bir insan olduğunuzu bilir. Bu görüş sizin dahi ölkə başçısı olmağınızla yanaşı, həm də çox uzaqgörən, görkəmli və xoşxasiyyətli bir insan olduğunuzu sübut etdi. Hər şeyə görə sizə dərin minnətdarlığımı bildirirəm.

Axşam Mstislav Rostropoviç Respublika sarayında Üzeyir Hacıbəyov adına Dövlət Simfonik Orkestrinə rəhbərlik edirdi. Həmin gecə Rostropoviçin doğma şəhərə bəxş etdiyi musiqi bayramını qələmlə təsvir etmək çətindir.

1985-ci ilin 15 apreli – Zərifə xanımın dünyasını dəyişdiyi o hüznlü gün Heydər Əliyevin, bütövlükdə Əliyevlər ailəsinin həyatında ən dəhşətli gün kimi xüsusi yer tutur. 2002-ci ilin həmin günü Heydər Əliyev, İlham, onun övladları, yaxınları Zərifə Əliyevanın qəbrini ziyarətə gəlmişdilər. Həmişəki kimi, Zərifə xanımın günəş altında bərq vuran bürünc abidəsinin qarşısında durub heykəlini seyr etməklə sanki onun varlığını duymağa çalışırdılar.

İstedadlı Azərbaycan heykəltəraşı Ömər Eldarovun hazırladığı bu heykəli əvvəlcə Moskvada – Zərifə Əliyevanın qəbri üzərində qoymaq istəyirdilər. Heydər Əliyev üçün o vaxt "Zərifəni Bakıya gətirmək" problem idi...

– Görəsən, gələcəkdə necə olacaq? Bütün bu suallar məni narahat edirdi. Onun üçün də mən Ömər Eldarova gördüyü işə görə təşəkkür edib heykəli hələ ki, özündə saxlamağı tapşırdım. Vəziyyət elə idi ki, bu gündən sabaha ümid yox idi. Fikirləşdim ki, əgər özüm bacarmasam, övladlarımdan biri bu işi görə bilər. Ömər Eldarov 8 il ərzində həmin heykəli emalatxanasında qoruyub saxladı. Bakıya qayıdan kimi emalatxanaya gedib, heykəli böyük qürur hissi ilə seyr elədim. Bilirsiniz, bu hissiyyat bir tərəfdən Zərifə xanımın xatirəsinə, digər tərəfdən heykəltəraşın yaratdığı yüksək sənət əsərinə aid idi. 1994-cü ildə Zərifə xanımın məzarının Moskvadan Bakıya köçürülməsi ilə yeni mərhələ başladı. Bir sual yaranmışdı ki, heykəl harada qoyulsun. Ömər Eldarov məsləhət bildi ki, bu sənət əsərini muzeydə saxlayaq, mən də razılaşdım". Bu söhbət 1994-cü ildə olmuşdu. Qəbrin üzə-

rində isə həmin heykəlin əsasında hazırlanmış bürünc abidə ucaldılıb (1997-ci il aprelin 15-də Heydər Əliyevin Bakı İncəsənət Muzeyində Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş "Elegiya" mərmər heykəlin təqdimat mərasimindəki çıxışı və xatirə kitabçasına yazdıqlarından).

Heydər Əliyevlə Ömər Eldarov ilk dəfə Leninqradda tələbəlik illərində tanış olmuşdular. Onlardan biri, əvvəl qeyd olunduğu kimi, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin xüsusi hazırlıq məktəbində, o birisi isə Repin adına Ali İncəsənət Məktəbində təhsil alırdı (xalq arasında bu məktəbə sadəcə "repa" deyirdilər). Boş vaxtlarında Ömər Leninqradı gəzməyi çox sevirdi. O, repanın yerləşdiyi küçə boyunca Nevanın sahilini gəzir, Dekabristlər meydanına çıxır, "Tunc heykəl"in (Puşkinin eyniadlı poeması yazıldıqdan sonra xalq Birinci Pyotrun heykəlini belə adlandırırdı) qarşısında uzun müddət dayanırdı. Məşhur fransız heykəltəraşı Etyen Moris Falkonenin düzəltdiyi və 1782-ci ildə o vaxt Senat meydanı adlanan yerdə qoyulmuş bu heykəl artıq çoxdan Peterburqun (Petroqrad – Leninqrad) vizit kartına çevrilmişdi.

– Falkonenin bir monumentalist olaraq istedadı məhz Rusiyada olduğu müddətdə özünü büruzə vermişdi, – bələdçisi məktəbdə dərs deyirmiş kimi əzbərlədiyi kəlmələri deyir. – Rus tarixinin dönüş məqamlarındakı dramatik hadisələr çox incə, düşünülmüş ştrixlərlə, mənalı detallarla, rəngarəngliklə, cəsarətli sıçrayışlarla, təntənəli əzəmətlə vəhdətdə təzahür edir...

"Bu quş dili, görəsən, kimə lazımdır? – Ömər heykəlin şəklini çəkən turistlərə baxaraq düşünürdü. – Ən əsası rəssamın belə bir harmoniyaya necə nail olmasıdır.

Peşəkarların dairəsində danışıldığı kimi, Ömər o zamanlar artıq özünü göstərməyə başlamışdı. Bakıdakı respublika sərgilərində onun iki işi – "Pambıqçı" və "Neftçinin portreti" əsərləri sənətsevərlərin diqqətini cəlb etmişdi. Yerli mətbuatda gənc rəssamın uğurlarını xüsusi qeyd edir, onun sadə zəhmətkeş obrazlarına böyük marağından yazırdılar.

Amma Ömər Eldarovun özü çox gözəl bilirdi ki, onun yaradıcılıq yolu hələ indi başlayır. Bəs irəlidə onu nə gözləyir? Görəsən, o da əsrlərdən çapıb gəlmiş bu tunc heykəl kimi öz xalqı ilə, insanlarla əbədi olaraq bir yerdə qala biləcək əsərlər yaratmağa müvəffəq olacaqmı?

Kiminsə tanış olmayan səsi onu düşüncələrindən ayırdı:

– Salam Ömər, – bunu onun qarşısında duran hündür və ciddi görkəmli bir oğlan dedi. – Mənim adım Heydərdir.

Yad adam özü barədə başqa bir söz demədi. Ömər də çox maraqlanmadı. Eldar öz "orepa"sında bu şəxsi görməmişdi, Bakıda görüşdükləri də yadına düşmədi. Görünür, həmyerlisi sadəcə doğma söz eşitməkçün darıxıbmış.

– Mən Bakıdakı sərgilərdə sənin işlərini görmüşəm, – Heydər sözünə davam etdi, – çox xoşuma gəlmişdi.

Amma sənət adamlarının xoşuna gələn komplimentlər bununla bitmirdi. Sənətsevər davam edərək deyirdi: "Neftçinin portreti"ndə dənizdə, Neft daşlarında gecə-gündüz təhlükəli sahələrdə işləyən insanlara xas olan daimi narahatlıq, həyəcan əksini tapsaydı, daha yaxşı olardı. Mənə elə gəlir ki, bu insanlara xas nigarançılığı, tezliklə doğma sahillərlə görüşmək həsrətini yaxşı hiss etdirməmisən. Ömər, əgər xətrinə dəydimsə, bağışla".

O, qəfildən gəldiyi kimi qəfildən də sağollaşıb getdi.

Repin məktəbini bitirən Ömər Eldarov Bakıya qayıtdı. Ö, öz Leninqraddakı tanışını tapmağa çalışsa da, uzun müddət buna nail ola bilmədi.

Amma bir gün Heydər Əliyev özü şəxsən heykəltəraşın emalatxanasında peyda oldu.

Həmin gün "Azərbaycan gəncləri" qəzeti Ömərin yeni işi olan Xurşudbanu Natəvanın heykəli barədə böyük bir yazı dərc etmişdi. Natəvan Qarabağın son xanı olan Mehdiqulu xanın qızı idi və onun qəzəlləri dildən – dilə gəzirdi.

– Yadımdadır, həmin gün mən axşamacan öz emalatxanamda işlədim, – deyə Ömər Eldarov xatırlayır. – Qapı döyüləndə artıq hava qaralmışdı. Uzun plaşlı və şlyapalı bir

kişi içəri daxil oldu. Mən ona oturmağı təklif etdim, Amma o dedi ki, tələsirəm, beş dəqiqəliyə gəlmişəm, sonra əlavə etdi ki, biz Leninqradda, Birinci Pyotrun heykəlinin yanında görüşmüşük. Deyəsən, yadınızdan çıxıb. Mən Leninqradda tanış olduğum oğlanı yalnız indi tanıdım. Həmin monumentin yanındakı görüşü unutmamışdım. Biz qucaqlaşdıq. Heydər dedi ki, Natəvanın heykəli barədə yazını oxumuşam, heykəlin fotoşəkillərini görmüşəm və sənin uğur qazanacağına əminəm. Amma vaxtın varsa, bəzi fikirlərimi səninlə bölüşmək istərdim.

Bunun ardınca Ömər Eldarov Heydər Əliyevin həmin gün xatirə kimi onun dəftərinə köçürtdüyü sözlərini sitat gətirir.

“Bizim XIX əsrdə fəxrimiz olan Natəvan sadəcə qəzəllərilyə yox, bənzərsiz, gözəl ornamentləri, dekorativ tətbiqi sənət nümunələriylə də şöhrət qazanmışdı. Bir zamanlar Rusiyanı səyahətə çıxan və bizim məmləkətdə də olan fransız yazıçısı Aleksandr Düma Natəvandan xahiş etmişdi ki, öz əl işlərindən bir neçəsini xatirə olaraq ona bağışlasın. Amma Natəvan etiraz etmişdi: “Bu işlər mənə yox, xalqıma məxsusdur”. İndi gərək sən də onun obrazını xalqın qızı, vətənpərvər bir insan, gözəl bir rəssam kimi verəsən”.

Ömər Eldarov bu məsləhəti çox səmimiyyətlə qəbul etdi. Natəvanın heykəli 1960-cı ildə Bakıda, “Azərbaycan” kinoteatrının qarşısında qoyuldu. Bu, böyük Azərbaycan memarının ən uğurlu işlərindən hesab edilir. Ünlü Azərbaycan şairəsinin ruhu sanki daşda canlanıb.

– 1963-cü ildə Ömər Eldarova respublikanın əməkdar incəsənət xadimi fəxri adı verildi. Təbrik məktublarının arasında belə bir teleqram da vardı:

“Əzizim Ömər, səni fəxri ad almağın münasibətilə ürəkdən təbrik edirəm. Sənə böyük yaradıcılıq uğurları arzulayıram.

Gərgin iş rejimində işlədiyimə görə səninlə görüşməyə imkan tapa bilmirəm, amma yaradıcılığını həmişə diqqətlə

izləyirəm. Sizin heykəltəraş Tokay Məmmədovla birlikdə işlədiyiniz Füzulinin heykəli, Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovun heykəli məndə böyük iftixar və qürur hissi doğurur. Bir daha təbrik edirəm. Böyük hörmət və ehtiramla, Heydər Əliyev".

Yazıçılar, rəssamlar, musiqiçilər, arxitektorlar, bir sözlə mədəniyyət və incəsənət xadimləri həmişə Heydər Əliyevin diqqət mərkəzində olub. Bəzilərinə ümumittifaq miqyasa çıxmağa kömək edir, yaxud bir-birindən incimiş sənətkarları barışdırır, digərlərinə məişət şəraitini düzəltməyə yardım edirdi. Şair Fikrət Qoca xəstələnəndə respublika həkimləri onu müalicə etməkdən imtina etmişdilər, demişdilər ki, müalicə etmək mümkün deyil. Onda Heydər Əliyev şairi Moskvaya gətirib (o zaman H.Əliyev artıq Moskvada işləyirdi) ən böyük mərkəzi klinikalardan birində yerləşdirmək barədə tapşırıq verdi. Bundan başqa cərrahiyyə əməliyyatından əvvəl özü şəxsən Fikrətə zəng vurub ona təskinlik verdi:

– Qorxma, hər şey yaxşı olacaq, sənin müayinən dünyanın ən yaxşı həkimlərinə tapşırılıb.

Moskva həkimləri o vaxt Fikrət Qocanı xilas edə bildilər.

Nə qədər belə epizodlar var; yazılmış, yazılmamış, məşhur olan, olmayan... Bəziləri barədə memuarlar da yazılıb, bəzi söhbətlər isə kiçik ailələr içərisində qalıb və tez-tez xatırlanır.

Aprelin 25-də Prezident sahibkarlarla görüş keçirdi. Tədbir əvvəlcədən səs-küy doğurmuşdu. Həmin ərəfədə respublika qəzetləri Azərbaycan və rus dillərində görüşə hazırlıqla bağlı məlumatlar dərc edirdilər. Maraqlanan şəxslər İqtisadi İnkişaf Nazirliyinə müraciət etməyə dəvət olunur, əhalinin diqqətinə əlaqə telefonları çatdırılırdı. Auditoriya bu şəkildə toplanmışdı.

– Bugünkü görüşümüzün əsas məqsədi hazırda ölkəmizdəki iqtisadi durum haqqında dolğun, obyektiv, düzgün məlumatı siz sahibkarlardan almaqdır, – deyə Heydər Əliyev yığışanlara müraciət etdi. – Mən bir daha təkrar edirəm,

düzgün və obyektiv məlumat. Yəni siz yalnız həqiqəti danışmalısınız.

Biz bu görüşə yalnız yerli sahibkarları dəvət etmişik. Burada Azərbaycanın bazar iqtisadiyyatında iştirakı olan dövlət orqanlarının rəhbərləri və ya onların nümayəndələrindən də heç kəs iştirak etmir.

Mən, baş nazir, Prezidentin İcra Aparatının rəhbəri, Prezidentin köməkçisi və iqtisadi məsələlər üzrə dövlət müşavirindən başqa hökumət nümayəndəsi yoxdur. Bunları sizin azad olmağınız, rahat danışmağınız üçün etmişəm. Heç bir nazir, vergi orqanı, hüquq mühafızəçisi və digərlərinin təsirinə düşməməyiniz üçün belə addım atdım. Bu gün verəcəyiniz hər hansı bir informasiya dərindən öyrənilib təhlil ediləcək. Onun əsasında yekun qərara gələcəyik.

## Gülnar – sülh elçisi

Mayın 10-u Heydər Əliyevin ad günüdür. Həmin gün saysız-hesabsız rəsmi məktub və teleqram almışdı. Amma ən dəyərlisi S.Məhərrəmov adına 106 saylı orta məktəbin IX sinif şagirdi Gülnar Hüseynovadan aldığı məktub oldu. O, məktəbliyə xas, uşaq səmimiyyətilə Heydər Əliyevi ürəkdən təbrik edib, ondan yaşıdlarını müdafiə etməyi xahiş edirdi: "XX əsr elm və texnika əsri olmaqla yanaşı, həm də müharibə, qan-qada əsridir, elmin inkişafı bir tərəfdən tərəqqiyə, digər tərəfdən isə atom bombasının, termozəhərli silahların kəşf olunmasına təkan verdi. Bu silahlar milyonlarla insanın həyatına son qoydu. Ən çox zərər çəkən isə, əlbəttə ki, uşaqlardır.

Mən öz gözləri ilə müharibənin canlı şahidi olan uşaqlardan biriyəm... Öz doğma yurd-yuvasından didərgin düşmüş digər həmvətənlərim kimi mən də o yerlərin həsrəti ilə yaşayıram.

Mən gələcəyimizi aydın, təmiz, müharibəsiz, uşaqları atalı-analı öz doğma ocaqlarında yaşayan görmək istəyirəm..."

2002-ci il mayın 13-də Prezident Biləsuvar rayon ərazisində məskunlaşan məcburi qaçqın və köçkün ailələrinə yardım edilməsi haqqında fərman imzaladı. Heydər Əliyev çadır şəhərciyində məskunlaşan insanların sosial-maddi vəziyyəti ilə bilavasitə maraqlanırdı. Bu işi başqalarının üzərinə ata bilməzdi. Heç bunu istəmirdi də.

Günahsız insanların həyatını təhlükə altına qoyan bəzi siyasətdənkənar şəxslər müharibənin başlanmasını tələb edirdilər. Görəsən, bu cür çağırışların çox zaman məsuliyyətsizlikdən doğduğunu deməyə ehtiyac varmı? Müharibə həmişə qan tökülməsinə gətirib çıxarır. Ən çox isə günahsız insanlar bundan əziyyət çəkirlər.

Mayın 22-də Vatikan tərəfindən Azərbaycanın müstəqilliyini tanınmasının 10 illiyi ərəfəsində Roma Papası İohan Pavel Bakıya rəsmi səfərə gəldi. İtalyan qəzeti “Stampa”nın apardığı hesablamaya əsasən, həmin vaxtda Azərbaycanda 130 katolik qeydə alınıb. Odur ki, Papanı qarşılayacaq kütlədən heç söz də gedə bilməzdi. Amma “Stampa” ədalətli olaraq, bu hadisəni kifayət qədər əhəmiyyətli olduğunu qeyd edirdi. Heydər Əliyev və Roma Papası da hadisəni belə qiymətləndirirdilər.

– Sizin İslam dininin geniş yayıldığı ölkələrə, o cümlədən Azərbaycan Respublikasına səfəriniz iki sivilizasiya arasında sülhün və qarşılıqlı inamın yaranmasına xidmət edir, – deyə Prezident Roma Papasına müraciət etdi. – Siz insanlar arasında xeyirxahlıq və mehribanlığı təbliğ edir, ağır faciələrlə üzləşənlərə səbr və dözüm arzulayırsınız. Azərbaycanda da bu cür fəlakətlərlə üzləşən insanlar var. Qonşu Ermənistanın Azərbaycan torpaqlarını zəbt etməsi nəticəsində 1 milyondan artıq qaçqın və məcburi köçkün öz doğma yurd-yuvasından didərgin düşüb. Bu insanların Sizin təsəllinizə və xoş sözlərinizə ehtiyacı var. Sülhün bərqərar olmasında Sizin də köməyinizə güvənirlər.

– Mən bu torpağa onun zəngin mədəniyyəti qarşısında qürur hissi duyaraq gəlmişəm, – deyə Roma Papası cavab

verdi. – Müxtəlifliyi və Qafqaz əlamətləri ilə bu ölkə özündə İran, altay-turan mədəniyyətlərinin də ən gözəl xüsusiyyətlərini əxz edib. Bu torpaqda bu gün də dünyanın ən böyük dinləri mövcuddur. Keçmişdə Alban kilsəsinin xristianlığı ilə yanaşı, zoroastrizm də fəaliyyət göstərib. İslam dininin burda meydana çıxması sonralar daha geniş şəkildə yayılmasına gətirib çıxarıb. Bu gün də Azərbaycan xalqının böyük bir hissəsi İslam dinini seçib... Hətta ilkin xristian kilsəsinin təsirinin zəifləməsindən sonra belə, xristianlar digər dinlərin nümayəndələri ilə yanaşı yaşamışlar. Bütün bunlar xalqın səbri və qarşılıqlı anlaşması nəticəsində mümkün olub. Allahdan gərgin zamanlarda sabitliyin bərqərar olmasını, qaçqın və köçkünlərin öz doğma yurd-yuvasına qayıtmasını diləyirəm.

Papa dua mərasimini yenicə təmir olunan İdman və Konsert Kompleksində keçirtdi. Bu, əlbəttə, xırdalıqlardır. Əsas odur ki, Papa Bakıya gəldi. Bu fakt Azərbaycanın, onun liderinin dünyada tanınması demək idi...

## Tarixin dərsləri

Prezident Heydər Əliyev öz əsərlərində və çıxışlarında tez-tez Azərbaycan Demokratik Respublikasının tarixinə müraciət edirdi.

Prezidentin stolu üstündə o respublikanın qısa tarixinə həsr olunmuş sənədləri, müxtəlif nəşrləri görmək olardı.

1919-cu ildə Azərbaycan Demokratik Respublikasının sülhməramlı nümayəndə heyətinin rəhbəri, ADR Parlamentinin sədri Əlimərdan bəy Topçubaşov Parisdən Bakıya göndərdiyi məktubda yazırdı:

"Düzdür, bizi hələ ki, müstəqil dövlət kimi tanımırlar. Amma olduğumuz hər yerdə artıq yarım ildir ki, Azərbaycanın müstəqil dövlət kimi fəaliyyət göstərdiyini, öz parlamentinin, hökumətinin, icra orqanının, məhkəməsinin, məktəbinin, ordusunun olduğunu söyləyirik. Həyatsevər

və dözümlü xalq olan azərbaycanlılar özlərinin azad dövlət qurmaq iqtidarında olduğunu sübut edərək, bolşeviklərin qəddar mübarizəsinə davam gətirdilər. Gücümüz yetdiyi qədər bu şəraiti qoruyub saxlamalıyıq. Çox istərdik ki, xalqımız hazırda bizim siyasi və iqtisadi sahədə müstəqil fəaliyyətimizin imtahan ərəfəsində olduğunu bilsin.

İnanıram ki, bu mübarizəyə gücümüz yetəcək. Xalqımızın işgüzarlığına və təbii ehtiyatlarımızın zənginliyinə güvənirik. Bizim hələ də mənəvi dayaqlara söykənən siyasi məktəbimiz yoxdur. Ölkədə sabitliyin və qayda-qanunun bərqərar olmasına, inzibati strukturun və məhkəmənin qurulmasına, ümumiyyətlə, qanunlara hörmət edilməsinə böyük ehtiyac var. Yalnız bu cür, daxili sabitliyin təmin edilməsi şəraitində Azərbaycan əsl dövlət ola bilər. Belə halda onun heç bir dövlət tərəfindən tanınmasına ehtiyac qalmaz. Daxilən güclü və sabit Azərbaycan özü-özlüyündə real və inkaredilməz fakt olacaq".

Topçubaşov əsl dövlətin yaradılmasında, ilk növbədə daxili sabitliyin olmasını vacib amil kimi qeyd edirdi. Heydər Əliyev öz fəaliyyəti zamanı məhz bu ideyanın reallaşmasına can atırdı.

Heydər Əliyev həmin nəzəriyyənin təşəbbüskarı olaraq bütün xalqı, cəmiyyəti bir yerə toplaya bildi. Bu, azərbaycançılıq məfkurəsi idi. Dünya Azərbaycanlılarının I Qurultayındakı hesabatı zamanı Əliyev dedi:

– Biz azərbaycanlıyıq. Azərbaycan hamımızın vətənidir. Bu torpaq bizi bir millət, bir xalq, bir şəxsiyyət kimi yetişdirib. Ona görə hər birimizin qəlbində azərbaycanlı ruhu var. Məhz bu azərbaycançılıq ruhu, ideyası bizi bir-birimizlə birləşdirən, daha sıx möhkəmlədən amilə çevrilib. Hər bir dövlətdə milli ideologiya mövcuddur. Azorbaycan Müstəqil respublikasının milli ideologiyası – azərbaycançılıq ideologiyasıdır.

28 May – Respublika Günüdür. 1918-ci ilin məhz bu günündə Şərqin ilk müstəqil demokratik dövlətinin əsası qo-

yulub, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Məmməd Əmin Rəsulzadənin birgə səyi nəticəsində Azərbaycan Demokratik Respublikası yaradılıb.

Bütün bunlar canlı tarixdir – mahnı mətni kimi buradan bircə kəlməni də çıxartmaq mümkün deyil. Lakin mahnıların üzü köçürüldüyü kimi, tarixin də bəzi məqamlarına əl gəzdirmək olur. Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə bu barədə çox düşünür. Bizimlə söhbət zamanı, o, həqiqətin ağzının bağlandığı dövrləri xatırlayaraq, Heydər Əliyevin həmişə həqiqətin, ədalətin tərəfində dayandığını bildirir:

– Bir vaxt respublikada Gülüstan sülh müqaviləsinin bağlanmasının (1813-cü il) 150 illiyini qeyd etməyə hazırlaşırdılar. Bu müqaviləyə əsasən böyük, geniş, bərəkətli torpaqlara, tarixi köklərə malik bir xalq İran şahlığı və Çar Rusiyası arasında bölünmüşdü. Bu tədbir mərkəzin təlimatı ilə, yerli yaltaq məmurların əli ilə həyata keçirilməliydi. Xalqın tarixi yaddaşında isə bu hadisə qanlı bir iz buraxmışdı. Lakin həmin dövrün dəmir hökmləri, maddi və mənəvi məhrumiyyətlər kütləvi etiraza imkan vermirdi. İçimdə qaynayan milli qürur, namus və sənətkarın tarix və xalq qarşısındakı məsuliyyət hissi məni vadar etdi ki, fikirlərimi kağıza köçürüm və beləcə “Gülüstan” poeması yarandı.

Qadağalara, senzuraya baxmayaraq, poemanın əlyazma variantı əldən-ələ gəzirdi. Bütün Azərbaycanda ziyalılar, tələbələr bu poemanı oxuyurdular. Mənim doğma şəhərim olan Şəkidə bu poemanı “Nuxa fəhləsi” qəzeti çap etdi. Həmin vaxtdan etibarən mənim iztirablarım başladı. Sorğu-suallar, təqiblər, istintaqIar....Mən artıq həbsxanaya düşəcəyimə əmin idim. Vəziyyət eləydi ki, qapıda maşın dayanan kimi diksinirdim. EIə fikirləşirdim ki, mənim dalımca gəliblər. Düzü, ən çətin vəziyyətlə üzləşəcəyimi gözləyirdim.

O vaxt Dövlət Təhlükəsizlik Komitəsində mənim bir qohumum işləyirdi, amma onun yanında bu barədə bir söz deyə bilmirdim, o da bu xüsusda danışmırdı. Amma bir gün

həmin qohumum mənə yaxınlaşıb pıçıldadı: “Arxayın ol, səni həbs etməyəcəklər. Sənin güclü müdafiəçilərin var”.

Mən bu sözləri sadəcə təskinlik kimi, məni sakitləşdirmək üçün dediyini düşündüm. Yalnız uzun illər keçəndən sonra xəbər tutdum ki, məni bütün təhlükələrdən xilas edən, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi sədrinin birinci müavini Heydər Əliyev olmuşdur.

Nə mən onu özümə dost adlandırırdım, nə də o bunu açıq şəkildə qeyd edirdi. Amma həmişə öz üzərimdə çox səmimi bir dostun diqqətini, qayğısını hiss edirdim.

Doxsanıncı illərin ortalarında ağır xəstələndim. Etiraf edim ki, sağalmaq ümidimi tamam itirmişdim. Yenə də həmin dost yardımı köməyimə çatdı. Heydər Əliycv şəxsən zəng vurub səhhətimlə maraqlandı və dedi: “Hazırlaş, səni Türkiyəyə müalicəyə göndərirəm”.

Ertəsi gün Prezidentin nümayəndəsi gəlib mənim stolumun üstünə onun göndərdiyi otuz min dolları qoydu və dedi ki, sabah siz Türkiyəyə uçursunuz, aviabilet artıq sifariş olunub. Məni Ankaranın ən böyük klinikalarından birində yerləşdirdilər. Orada mənə Türkiyənin Prezidenti Süleyman Dəmirəl də bir gün baş çəkdi. Səhhətimlə maraqlanıb dedi: “Siz iki dövlətin, bütün türk xalqlarının şairisiniz. Sizin müalicənizlə bağlı bütün xərcləri mən öz üzərimə götürürəm. Əminəm ki, tezliklə müalicəniz bitəcək, sağalacaqsınız və Azərbaycana qayıdıb bizə qardaş olan, qanı qanımızdan, canı canımızdan olan, tarix, mədəniyyət, ədəbiyyat baxımından bizə ən yaxın olan bir xalqa lazım olan yeni şeirlər yazacaqsınız”.

Bakıya qayıdandan sonra Heydər Əliyevə zəng vurub onunla görüşmək istədiyimi bildirdim. O, yubanmadan görüş vaxtını təyin etdi. Görüsə gedəndə mən səfərdən əvvəl onun göndərdiyi otuz min dolları özümlə götürdüm. Prezident səhhətimlə maraqlandı və mən cavab verəndən sonra həmin pulları çıxarıb stolun üstünə qoydum.

O, təəccüblənib mənə baxdı:

– Bu nədir?

Açıqladım ki, müalicəmlə bağlı bütün xərci Türkiyənin Prezidenti Süleyman Dəmirəi öz boynuna götürdü və mənə bircə qəpik də xərcləməyə imkan vermədi. Heydər Əliyev gülümsündü: – Götür, öz ehtiyaclarına xərclərsən, – dedi.

Bu pula əsərlərimin səkkiz cildliyini nəşr etdirdim.

Bütün yaradıcılığım boyu bu böyuk şəxsiyyətin himayəsini, qayğısını daim hiss etmişəm.

İyunun 6-da Prezident Heydər Əliyev ABŞ Prezidentinin Xəzər hövzəsinin enerji ehtiyatlarının inkişafı üzrə xüsusi müşaviri, səfir Stivin Mennin başçılığı və nümayəndə heyətini qəbul etdi. Qonaqları salamlayan Prezident onların IX beynəlxalq «Xəzər neft, qaz, neft emalı və neft kimyası» sərgi və konfransındakı əraəklərini yüksək qiymətləndirdiyini dedi:

– Cənab Prezident, səfir kimi çalışdığım dövrdə mənə cəmi iki dəfə Prezlident Buş tərəfindən yazılmış məktubun ünvana çatdırılması tapşırılıb. Hər iki məktub sizin ünvanınıza yazılıb.

Biz amerikalılar Bakı-Ceyhan layihəsindəki dəstəyinizə görə sizə öz minnətdarlığımızı bildiririk. Bundan əlavə, dövlətlərimiz arasında bu səviyyədə münasibətlərin qurulması sahəsində göstərdiyiniz əməyi yüksək qiymətləndiririk.

Heydər Əliyev səfirə öz minnətdarlığını bildirdi:

– Qeyd etdiyiniz məktublar ölkəmiz üçün çox əhəmiyyətlidir. Prezident Buşun məktubunun IX beynəlxalq sərgi və konfransının açılışında oxunması sizin ölkənin və Prezidentinizin Xəzər hövzəsində neft, qaz yataqlarının işlənməsi, enerji resurslarının ixracı işində nə dərəcədə maraqlı olduğunu sübut edən faktlardandır. 1994-cü ildə biz «Əsrin müqaviləsi»nə imza atmışıq və hər bir sonrakı mərhələdə ABŞ hökumətinin dəstəyini hiss etmişik.

1999-cu ildə İstanbulda tərəfimizdən təsdiq olunan Bakı-Tbilisi-Ceyhan layihəsinə ABŞ Prezidentinin də imza atması, ABŞ hökumətinin bu neft kəmərinin fəaliyyətinə

nə dərəcədə əhəmiyyət verməsini göstərir. Biz neft-qaz resursları imkanı hesabına yeni tarix yazırıq, – deyə Heydər Əliyev vurğuladı. – Çox sevinirəm ki, biz də bu tarixi yaradanlar sırasındayıq. İndi başladığımız işin böyük gələcəyi var. Həmin tarix sonrakı nəsillər tərəfindən də davam etdiriləcək.

2002-ci ilin iyununda Azərbaycan Dövlət İqtisad Universitetinin 70 yaşı tamam oldu. «Azərbaycan iqtisadiyyatının dünya miqyasında inkişafı və inteqrasiyası üçün yüksək səviyyəli peşəkarların olmasına böyük ehtiyac var», – bu sözləri Prezident təntənəli yubiley gecəsində demişdi. O, iqtisadiyyatın inkişaf dövründən danışarkən qeyd etdi: «Bilirsiniz, 1994-cü ildən bu günə kimi Azərbaycana 9 milyard dollar investisiya qoyulub. Balaca bir ölkə üçün bu, böyük rəqəmdir. Biz neft müqavilələrindən böyük gəlir alırıq. Artıq Neft Fondu yaradılıb. Hazırda fondun 580 milyon dollara yaxın büdcəsi var. Valyuta ehtiyatlarımızın ümumi məbləği 1 milyard 200 milyon dollar təşkil edir. Amma 9 il bundan əvvəl, 1993-cü il iyunun 12-də Bakıda gərgin vəziyyətin hökm sürdüyü bir dövrdə Azərbaycanın xilası işini öz üzərinə götürəndə bizim heç 1 dollar belə valyuta ehtiyatımız yox idi. Bütün bunlar tərəfimizdən qazanılanların hələ bir hissəsidir. Gələcəkdə ölkənin gəliri artaraq, əhalinin yüksək rifahına və maddi vəziyyətinin yaxşılaşmasına səbəb olacaq. Hazırda büdcəmiz artmaqda davam etdirilir.

Bir neçə gün bundan əvvəl Elmlər Akademiyasının prezidentinə əmək haqlarının qaldırılacağı haqda demişdim. İndi də qeyd etmək istəyirəm ki, yaxın günlərdə Akademiyanın işçilərinin maaşlarının qaldırılması haqda baş nazir və Maliyyə Nazirliyinə göstəriş vermişəm. Onlar təklifi hazırlayırlar və yaxın günlərdə baxacam. Narahat olmayın, əmək haqları digər sahələrdə də qaldırılacaq. Siz bunu hiss edəcəksiniz.

İki gün əvvəl fərman imzalamışam. Azərbaycanın incəsənət, ədəbiyyat və digər sahələrində yaradıcılıqları ilə

seçilən 150 ictimai xadimə ömürlük təqaüd ayırmışam. 5 il əvvəl mənim belə bir imkanım yox idi. İstəyirdim, amma bacarmırdım... İndi isə bunun üçün hər bir vasitə və imkanlarımız mövcuddur.

Bu 150 nəfərin hər biri Azərbaycan incəsənəti, ədəbiyyatı və digər sahələrinin canlı tarixidir.

Bu insanlar tərəfindən yaradılan əsərlər, onların vərəsələri tarix yaradır. Bu insanların hər biri bizim tariximizin yaradıcısıdır».

Azərbaycan yazıçıları, şairləri, incəsənət xadimiəri ilə birgə Prezident təqaüdünü rus yazıçısı İvan Tretyakov da aldı. Bir vaxtlar o, «Literaturnıy Azerbaydjan» jurnalının baş redaktoru vəzifəsində işləmişdi.

## 12 iyun 2002-ci il, Bakı

Rusiya təqvimində bu gün qırmızı hərflərlə bayram kimi qeyd olunur. 12 iyun 1990-cı ildə Rusiya Federasiyasının Xalq Deputatları qurultayı Rusiyanın Dövlət müstəqilliyi barədə Bəyannamə qəbul edib. Dörd il sonra Prezident Yeltsin bu günün bayram kimi – Rusiyanın dövlət müstəqilliyi günü kimi qeyd olunmasına sərəncam verib. O zaman xalq arasında maraqlanırdılar: «Görəsən, biz kimdən qurtulub müstəqil olmuşuq?» Kremldə bu suala da cavab tapdılar: bayramın adını dəyişib «Rusiya günü» qoydular.

Bütün ölkələrdəki Rusiya səfirlikləri həmin gün böyük, təntənəli qəbullar təşkil edir. Ən ali qonaqlar ölkə prezidentləridir. Düzdür, prezidentlərin heç də hamısı Rusiya səfirliklərinə gəlmirdilər. Amma Azərbaycan Prezidenti Heydər Əliyev Rusiya səfirliyindəki «Rusiya günü»nə həsr olunmuş bu qəbullarda həmişə iştirak edərdi. Həm də böyük şimal qonşusuna sadəcə öz hörmət və ehtiramını bildirməkçün yox. Yəqin ki, burada, hələ sovet dövründən tanıdığı rusiyalı dostları, tanışlarıyla görüşmək, söhbət eləmək ona xoş idi. Budur diplomatların, siyasətçilərin, hərbçilərin dəstəsi

arasında Heydər Əliyev sinəsi ordenlərlə dolu olan ortaboylu bir kişini görür. Ona yaxınlaşır:

– Hər vaxtınız xeyir, cənab Tretyakov, özünüzü necə hiss edirsiniz?

İvan Polikarpoviç öz əsasını sol əlinə keçirib sağ əlini Heydər Əliyevə uzatdı, salamlaşdı.

Rusiyanın səfiri Nikolay Timofeyeviç Ryabov Heydər Əliyevlə söhbət edən bu qocaman əsgəri, deyəsən, şəxsən tanımırdı.

Əliyev üzünü səfirə çevirdi:

– Bu cəbhəçi, qocaman yazıçı İvan Polikarpoviç Tretyakovdur. 60-70-ci illərdə biz birlikdə işləmişik. Bu, bizim köhnə qvardiyanın üzvlərindəndir.

– Sağ olun, Heydər Əliyeviç, – bu diqqətdən təsirlənmiş İvan Tretyakov dilləndi, – həm Prezident təqaüdünə görə, həm də zənginizə görə təşəkkür edirəm.

1982-ci il oktyabrın 24-də İvan Tretyakovun altmış illik yubileyi idi və Heydər Əliyev həmin gün zəng vurub onu təbrik etmişdi. Bu barədə onların ikisindən başqa heç kim bilmirdi. Səhər tezdən Mərkəzi Komitənin birinci katibi şəxsən zəng vurub cəbhəçi yazıçını yubileyi münasibəti ilə təbrik etmişdi. Belə zənglər, belə təbriklər heç vaxt yaddan çıxmır.

– Deməli, bu il sənin səksən yaşın tamam olur, – Heydər Əliyeviç gülümsündü. – Mütləq zəng vurub təbrik edəcəm.

Yəqin ki, hörmətli səfir də bu günü yadından çıxartmaz. Heydər Əliyev kimi şax görkəmli səfir Nikolay Timofeyeviç təsdiq əlaməti olaraq başını tərpətdi. Xəzərin sahilində bir yay da keçdi. Payızın 24 oktyabrında İvan Tretyakovun kitablarla dolu kiçik mənzilində qonaqlar, dostlar toplaşdı.

Köhnə dostlar zəng vurdu – Azərbaycan yazıçıları, «Rusiya icması»nın üzvləri və s. Arxangelsk vilayətindəki həmyerliləri teleqram vurub təbrik etdilər: «Sizin adınızla mərkəzi küçələrin birini adlandırmışıq».

Yalnız səfirlik susurdu. Belə diqqətsizliyə nə deyəsən!..

Fövqəladə və səlahiyyətli səfir çox gərgin işləyən adamdır. Bir müddət sonra o, öz diplomatik xidmətinin ünvanını üçüncü dəfə dəyişmişdi: Praqa, Bakı, indi də Kişinyov... Yeltsinin seçkilərinin ikinci turu zamanı mərkəzi seçki komissiyasının sədri olmuş və o, xidmətinin əvəzi olaraq beləcə mükafatlandırıldı. Yəqin ki, layiq idi.

Həmin iyunda, Qara dəniz İqtisadi Əməkdaşlıq Birliyinə üzv ölkələrin rəhbərlərinin iştirakı ilə İstanbul şəhərində «Üç dəniz əfsanəsi» adlı konfrans keçirildi. Elə konfransın adı Qara dəniz ətrafı ölkələrin Azərbaycanla əməkdaşlığına inanmayanlar üçün bir cavab idi. Zaman Azərbaycanın çiçəklənməsi üçün həyata keçirilən planların reallığa çevrildiyini sübut edirdi. Bütün bunlar Heydər Əliyevin sammitdəki çıxışında da öz əksini tapırdı:

– Artıq üç ildir ki, Xəzər, Qara dəniz və Aralıq dənizlərinin birgə «Üç dəniz əfsanəsi» konfransı kcçirilir. Görəsən, nəyə görə əvvəl bu tədbir baş tutmurdu? Çünki əvvəllər bizim indiki kimi sıx əməkdaşlığımız, bu iş haqqında kifayət qədər informasiyamız yox idi. Bundan əlavə, bu layihəyə inananlar da çox az idi. Yalnız 1994-cü ildə «Əsrin müqaviləsi» imzalandıqdan sonra bütün dünyada Xəzərin problemi danışıqlar mövzusuna çevrilməyə başladı. Ola bilər ki, indiyədək Xəzər dənizi haqda, onun bu cür zəngin neft, qaz yataqlarının olması barədə beynəlxalq aləmdə informasiya yox idi. Amma biz Azərbaycanda bu haqda bilirdik.

Sonra Prezident hər bir peşəkar neftçinin qürur duyacağı şəkildə və səviyyədə gözəl mühazirə oxudu:

– Üç dəniz əfsanəsinin bir anası var – Xəzər dənizi. Bu ananın yanında isə Azərbaycan yerləşir, – deyə Heydər Əliyev bir qədər həyəcanlı tərzdə bildirdi.

Azərbaycan türk dünyasının ayrılmaz bir hissəsidir. Sovet hakimiyyəti illərində Azərbaycanın Türkiyə ilə mədəni əlaqələri, mənəvi dəyərlərin mübadiləsi ciddi şəkildə məh-

dudlaşdırılmışdı. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu qadağalar da aradan götürüldü.

Azərbaycanın müstəqilliyini ilk olaraq Türkiyə tanıdı. Heydər Əliyev dəfələrlə bunu xatırladırdı. Qars şəhərində onun adını daşıyan parkın və bulvarın yaradılması Prezidenti çox təsirləndirmişdi.

## 9 iyul 2002-ci il, Peterburq

Rusiya-Azərbaycan mədəniyyəti tarixinə 9 iyul 2002-ci il əbədi olaraq həkk ediləcək. Həmin gün Sankt-Peterburqun Kamennoostrovski prospektində Azərbaycanın görkəmli rəssamı Görüş Babayevin hazırladığı dahi Azərbaycan şairi və mütəffəkiri Nizaminin heykəlinin açılış mərasimi idi.

– Nizami təkcə şair deyil, həm də dahi humanist olmuşdur, – deyə Rusiya Prezidenti Vladimir Putin açılış mərasimindəki çıxışında qeyd etdi. – Ona görə də Nizami yaradıcılığı hamıya, bəşəriyyətə aiddir.

– Keçən il oktyabrın 12-də Bakıda rus poeziyasının dahisi Aleksandr Sergeyeviç Puşkinin heykəli açılmışdı, – deyə Heydər Əliyev xatırlatdı. – Bu gün Puşkinin «Pyotrun əsəri» adlandırdığı bir şəhərdə Nizaminin heykəli ucalır.

Əlavə edərək demək istərdik ki, əgər ölkələr Aleksandr Puşkin və Nizami Gəncəvi kimi nəhəng insanları bir-biri ilə bölüşə bilirlərsə, bu, çox gözəldir.

Azərbaycanda ən populyar romanslardan birinin mətni Nizaminindir. O qəzəl belə adlanır: «Sənsiz». Əsl sənət xiridarlarının çoxu bu romansı unudulmaz Bülbülün ifasında yaxşı xatırlayır. Heydər Əliyevin fikrincə, Azərbaycan mahnı mədəniyyətinin böyük bir epoxası Bülbülün adıyla bağlıdır. Bülbül 1961-ci ildə həyatdan köçdü. Əliyevin təşəbbüsüylə böyük sənətkarın vətəni Şuşada onun ev-müzeyi açılmışdı. Bakıda da onun muzeyi təşkil edilmişdi. Sənətkarın həyat yoldaşı Adilə xanıma səksən yaşı tamam olanda çoxsaylı təbrik məktubları, təbrik teleqramları gəlmiş, çoxlu

zənglər olmuşdu. Amma ən gözlənilməzi Heydər Əliyevin zəngi idi.

– Mən təəccübdən yerimdə donub qaldım, – Adilə Məmmədova əziz xatirələrini bizimlə bölüşür:

– Heydər Əliyev məni yubiley münasibətiylə təbrik etdi. Aman Allah, bu insanda bu qədər həssaslıq, mərhəmət hissi hardandır görəsən? Onunla telefonda danışdığım müddətdə qapımızın zəngi basıldı. Mənə böyük bir gül dəstəsi gətirmişdilər. Güllərin arasında onun vizit vərəqini gördüm: «Prezident Heydər Əliyev».

Adiləyə elə gəldi ki, yenə də «Sənsiz» romansının sədaları eşidilir...

Peterburqu gəzən zaman Heydər Əliyev çətinlik çəkmədən Qoroxov küçəsini tapdı. Vaxtilə burada 6 saylı evdə Dövlət Təhlükəsizlik Nazirliyinin rəhbər kadrlarını hazırlayan xüsusi məktəb fəaliyyət göstərmişdi. Böyük məmnuniyyətlə tanış divarlar, dalanlar arasında şəkil çəkdirdi: «Astoriya» mehmanxanasına gedərkən yolda peterburqlularla, yerlilərlə həvəslə söhbət etdi. Onun bütün səfərləri belə keçirdi. Paris, Berlin, Peterburq, Moskva... fərqi yox idi.

... Leontyev döngəsi ölkənin səs-küysüz, sakit hissəsi. Burada sanki keçmiş dövr hələ də hökm sürür. Divarlarda Leninin rəsmləri ilə dolu lövhələr bu gün də qalmaqdadır. Tver döngəsi alaqapılarına qədər davam edir. Alaqapıların arxasında müxtəlif kontorlar və üç səfirlik yerləşir. Kuba, Ukrayna və Azərbaycan səfirlikləri. Əvvəllər burada İttifaq respublikalarının nümayəndələri otururdular. Bazar günləri ofislərdə iş olmayan, istirahət edilən zaman Leontyev döngəsinə sakitlik çökür. Digər günlər isə insan əlindən tərpənmək olmur. Bu dəfə isə azərbaycanlılar bura hər hansı bir sənədi almaq üçün yox, həmvətənliləri Heydər Əliyevlə görüşmək üçün gəlmişdilər; onları Prezident dəvət etmişdi.

Prezident onlara ana laylası qədər şirin, doğma ana dilində müraciət etdi:

– Əziz həmvətənlərim! Əziz bacılarım, qardaşlarım, əziz dostlar!

Sizinlə bu gün görüşməyimə çox şadam. Hamınızı ürəkdən salamlayıram. Sizin şəxsinizdə Rusiyada yaşayan bütün azərbaycanlıları salamlayır, hər birinizə cansağlığı, işlərinizdə uğurlar arzulayıram. Ailənizə də xoşbəxtlik diləyirəm.

Prezident ucadan danışmasa da, hər bir kəlməsini son cərgədə oturanlar da eşidirdilər.

– Azərbaycan dili müstəqil Azərbaycanın dövlət dilidir, bizim doğma dilimizdir... Mən azərbaycanlıların, xüsusilə, gənclərin rus, ingilis, fransız, alman, ərəb, ispan dillərini mükəmməl bilmələrini istərdim. Amma qoy onlar Azərbaycan dilini mükəmməl bilsinlər, insanın çox dil bilməsi onu zənginləşdirən amillərdəndir. Bir dilə yiyələnən insan üçün bugünkü, müasir həyatda yaşamaq çətin olur.

Bütün bunları nəzərə alıb, sizə hörmət əlaməti olaraq çıxışımı rus dilində davam etdirmək istərdim...

Əliyevi dinləyən hər bir kəs onun digər məşhur qafqazlı siyasilərlə, məsələn, Şevardnadze ilə müqayisədə rus dilində mükəmməl danışdığını qeyd edirdi. Görəsən, bu nə ilə bağlı idi? Məktəblə? Ailə ilə, yoxsa özünütəlimlə?

Əliyevlər ailəsində uşaqlıqdan Azərbaycan dilində danışırdılar. Ümumiyyətlə, 20-ci illərin əvvəllərində Naxçıvan ərazisində rus dilini bilən əhali olduqca az idi. Əliyevin bioqraflarından biri olan Fatma Abdullazadənin də yazdığına əsaslanaraq demək olar ki, «Heydər Əliyev rus dilini böyük yaşlarından öyrənməyə başlamışdı. Naxçıvan məktəbində ilk dəfə olaraq Krılovun təmsillərinə, Puşkinin şeirlərinə qulaq asmışdı».

Başqa bir fərziyyə də irəli sürmək olar. Məktəb illərində Heydər Əliyevin daxili dünyasına dahi rus mütəfəkkirləri Puşkin və Krılovdan daha çox görkəmli satirik, publisist, realist Cəlil Məmmədquluzadə təsir etmişdi. Heydər Əliyevin ana dilinə bu qədər doğma münasibətində milli ədəbiyyatın

klassik nümunələrindən sayılan «Anamın kitabı»nın oyatdığı təəssüratın da rolu var idi.

... Doğma Azərbaycana uzaq ölkədən 3 oğul qayıdır. Onlardan biri dilinə rus sözləri qatır, digəri Azərbaycan-türk ləhcəsində danışır, üçüncüsü də fars sözlərindən geniş istifadə edir. Əsərin süjeti demək olar ki, dağınıqdır. Əsərin qəhrəmanları ilə Qoqolun «Dikanka yaxınlığında xutor axşamları»ndakı məktəbli arasında müəyyən mənada bir oxşarlıq var. Cəmiyyətin yuxarı təbəqələri ilə oturub-duran bu gənc tez bir zamanda «latın dilli»yə çevrilir, öz doğma dilini də unudur. Hər sözə «us» əlavə edilir. «Lopata» «Iopatus»a, «baba» «babus»a çevrilir. Bir gün sahədə dırmığı görüb atasından soruşur: «Ata, bu sizin dildə necə adlanır?» Ayağının altına baxmadan dırmığın dişlərini tapdalayır. Atası cavab verməyə macal tapmamış alətin sapı alnına dəyir. «Zəhrimar dırmıq» qışqıraraq qaçmağa başlayır. «Necə də bərk incidir».

Cavanların hamısı eyni dırmığı tapdalayır. Doğma ata yurduna qayıdan üç qardaş beşikdə laylasına uyuduqları dili unudaraq anaları ilə danışa bilmirlər. «Anamın kitabı» ailənin and yeri idi, çünki onlar «özgə atına minməklə» ana dilini, onun arxasında duran müqəddəs xatirələri unutmuşdular. Bu qəhrəmanlar C.Məmmədquluzadənin «Danabaş kəndinin əhvalatları» əsərindəki obrazlardan bir o qədər də uzağa getməmişlər.

2002-ci ilin iyununda Rusiyadakı Azərbaycan səfirliyində bu ölkədə yaşayan hər bir azərbaycanlı Prezidentlə görüşməkçün, bu binaya toplaşmışdı. Zalda tanış üzlər çox idi. Onlardan bəziləri ilə Heydər Əliyev Moskvada işləyərkən, ezamiyyətdə olarkən tanış olmuşdu. Bəziləri isə onun köməyilə bu ölkəyə təhsil dalınca gəlmişdi.

– Mən hər zaman, keçmişdə də, Azərbaycanda işlədiyim dövrlərdə də demişəm ki, heç bir dövlət qapalı şəraitdə yaşamaqla dünya sivihzasiyasına qoşula bilməz. Mən hər zaman milli məhdudlaşdırma hissinə qarşı olmuşam.

O vaxtlar – Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işlədiyi dövrdə ona qarşı çıxanlar çox olmuşdu. Cavanların təhsil dalınca Rusiyaya, Sovet İttifaqının digər respublikalarına getməsi fikri mənfi qarşılanırdı. Amma o, öz dediyinə nail ola bildi. Həmin dövrdə Azərbaycan sovet respublikaları arasında bu mövzuda yeganə imtiyaz alan ölkə idi. Heydər Əliyev özünün layihəsini böyük qürur hissi ilə xatırlayırdı.

– 1970-ci ildən başlayaraq, azərbaycanlı gənclərin daha çox ölkənin hüdudlarından kənara, xüsusilə Moskva, Leninqrad, digər böyük elm, mədəniyyət və təhsil mərkəzlərinə göndərilməsi tapşırığını verdim.

Bu işi görmək, hətta ona – respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvünə belə çətin oldu. Uzun sürən danışıqlardan sonra yalnız 100 nəfərə xaricdə təhsil almağa icazə verildi. Amma bu 100 nəfər öz istəkləri ilə də gedə bilərdilər; Moskvada da, Leninqradda da, Kiyevdə də, Sverdlovskda da (indiki Yekaterinburq) ümumi əsaslarla ali məktəblərə daxil ola bilərdilər. Amma onlar çox vaxt kəsilirdilər. Çünki azərbaycanlı gənclər, xüsusilə regionlarda böyüyənlər böyük şəhərlərdəki yaşıdları ilə rəqabətə güc gələ bilmirdilər.

Ən sonda Heydər Əliyev gənclərin Sovet İttifaqının müxtəlif ali məktəblərində müsabiqədənkənar təhsil almaq hüququnu qazandı. Əvvəllər cəmi 100 yer ayrılsa da, 1978-79-cu illərdə bu rəqəm 800-ə yüksəldildi (bu, onun Siyasi Büroya üzvlüyə namizəd olduğu vaxta təsadüf edirdi). Əlbəttə, problem təkcə Azərbaycanla bitmirdi. Bütün ölkə miqyasında milli kadrların yetişdirilməsinə ehtiyac duyulurdu. Sovet İttifaqının digər ölkələrindən – Türkmənistan, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Moldova və Tacikistan da bu hüququ əldə etmişdilər. Amma deyəsən, yalnız Heydər Əliyev şəxsən bu məsələ ilə maraqlanırdı.

– Bilirsiniz, bu məsələ ilə əlaqədar materialların bir hissəsini indiyədək qoruyub saxlaya bilməmişəm. Burdan-ora, ordan-bura köçməyimlə əlaqədar itib-batıb. Bəzilərinə yer olmadığından məhv etmişəm, – səfirlikdə 2002-ci ildə görüşü zamanı Heydər Əliyev həmin günləri xatırlayırdı. – Amma gənclərin hər il Sovet İttifaqının şəhərlərinə paylanması haqda jurnallaı qoruyub saxlamışam. İndi də arxivimdən neçənci ildə hansı gəncin hansı şəhərdən, hansı rayondan hansı instituta daxil olması sənədini tapa bilərsiniz. Onların içərisindən bir çox görkəmli şəxslər çıxıb.

Nəyə görə bunları edirdim? Birincisi, səmimi desək, Moskva universitetlərindəki təhsilin səviyyəsi Bakı ali məktəblərindən çox yüksəkdir. O vaxt da elə idi, indi də. İkincisi, bir çox peşələrlə bağlı bizdə ali təhsil yox idi. Demək, hər hansı istiqamətdə peşəkar kadr hazırlamaq üçün digər respublikaların ali məktəblərinə müraciət etmək zəruri idi. Üçüncüsü, mən əhalinin, insanların köhnə qəliblərdən çıxmasını istəyirdim. Bilirsiniz, bu yolla insanlar sərhədləri aşıb daha geniş mühitə çıxar, digər insanlarla münasibət qura bilərdilər. Bu isə istər-istəməz yeni dili, rus dilini öyrənməyə vadar edirdi. Bəziləri əlavə olaraq ingilis və digər xarici dilləri də öyrənə bilmişdi.

Yeri gəlmişkən, bu işlə hər il məşğul olur, hər il bir neçə dəfə Moskvada təhsil alan tələbələri toplayırdım. Sonra onların sayı o qədər artdı ki, burada yer olmadı. Yadımdadır, onda Tver bulvarında yerləşən teatrın binasına toplaşdıq. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin işçiləri, komsomolun Mərkəzi Komitə rəhbərləri, ali təhsil nazirləri və digər Moskva rəhbərlərini də dəvət etmişdik.

Həmin görüş bir çox iştirakçının yaddaşında həmişəlik qalmışdı. Tələbələr arasında MDU-dan bir oğlan çıxış etmişdi. Əliyev uzaq Cəbrayıl rayonundan bura oxumağa gələn tələbəni çox yaxşı xatırlayır. Müəllimlərin dediyinə görə, çox istedadlı idi, lakin rusca çox pis danışırdı. Oxuduğu

məktəbdə rus dili müəllimi olmadığından bütün şagirdlərə «3» verilirdi. Heydər Əliyev onu indi də yaxşı xatırlayır, öz diqqətini gizlətmədən bu oğlanı seyr edirdi. İndi o, əla qiymətlərlə oxuyur, rus dilində isə təmiz danışırdı.

– Mən bu oğlana baxanda sevincimdən kövrəldim, – deyə Prezident etiraf edirdi. Çox sevindim.

### Bu sözləri yalnız ata öz oğlu haqqında deyə bilərdi

Milli Kitabxanada Prezident Əliyevin hədiyyə etdiyi kitabların sərgisi keçirilirdi. Onların arasında məlumat kitabçaları, lüğətlər, Səməd Vurğun, Sergey Yesenin, Bəxtiyar Vahabzadə, Bajov, Nitsşenin cildləri, fantastik əsərlər toplusu var idi. Cəmi 500 kitab.

Heydər Əliyev kitabları çox sevir, onun həyatdakı və cəmiyyətdəki dəyərini yaxşı bilir, kitabxananın rolunu yüksək qiymətləndirirdi. O, 3 dəfə ölkənin əsas kitabxanasında olmuşdu; 1995-ci il 3 iyul, 1996-cı il 4 mart, 1997-ci il 20 noyabr. 1997-ci ildə Prezident «Azərbaycanda kitabxanaçılıq işi» haqqında Azərbaycan Respublikası Qanununu imzaladı. Əlbəttə, bu kitabsevərlər üçün böyük təkan oldu.

Əgər Azərbaycan Respublikası Prezidenti müddəti bitməmişdən istefaya gedərsə, onda 3 ay ərzində vaxtından əvvəl prezident seçkiləri keçirilir. Bu, Konstitusiyanın 105-ci maddəsində öz əksini tapıb. Prezidentin təklif etdiyi dəyişikliklərə əsasən, onun vəzifəsini baş nazir həyata keçirir. Prezident öz vəzifələrini icra etmək iqtidarında olmadıqda, onun səlahiyyətləri baş nazirə verilir.

Bu, Konstitusiyanın 7-ci və 99-cu maddələrinə əsasən «Azərbaycan Respublikasında icraedici hakimiyyət respublika Prezidentinin səlahiyyətləri çərçivəsindədir. Bütün icraedici orqanlar, o cümlədən Nazirlər Kabineti üzərində rəhbərliyi Prezident həyata keçirir. Milli Məclis isə Qanunverici orqandır. Səlahiyyətlərin icraedici orqana keçməsi məsələsi

də, göründüyü kimi, daha məqsədəuyğundur, çünki icraat işləri ilə birbaşa baş nazir məşğul olur».

Avqustun 24-də Azərbaycanda Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsinə dair referendum keçirildi. Beynəlxalq müşahidəçilərin dediyi kimi, referendum xalqın Heydər Əliyevə olan inamının nümayişi idi...

## Generalın ad günü

**2002-ci il, 16 sentyabr.** General-polkovnik Vaqif Axundovun ad günü bazar ertəsinə təsadüf etmişdi. Əlbəttə, bu onun illərlə adət etdiyi işinə heç bir dəyişiklik etmirdi. Həmişəki kimi, artıq saat 9-da iş yerində idi. Əvvəllər Nazirlər Kabineti olan binada, indi Xüsusi Dövlət Mühafizə Xidməti yerləşir. General yüngül qaçışla 2-ci mərtəbəyə qalxdı. Elə bil heç pilləkən çıxmır, sanki düz yol gedirmiş kimi addımlayırdı. Kənardan baxanda qətiyyən 50-dən artıq yaşının olduğuna inanmazsan: çox gümrah və cavan idi. Elə otağa təzəcə girmişdi ki, birbaşa əlaqə telefonu zəng çaldı.

– Eşidirəm, cənab Prezident!

– Sabahın xeyir, Axundov! İndi yanıma gələ bilərsinizmi? Bir neçə dəqiqədən sonra general bütün Bakının yaxşı tanıdığı ağ binanın 5-ci mərtəbəsinə qalxdı. Kabinetə daxil olanda Heydər Əliyev görüşmək üçün ona yaxınlaşdı.

– Ad günün münasibətilə tədrik edirəm!

General-polkovnik həmin günü xatırlayarkən həyəcanını gizlətmir:

– Heydər Əliyev hamının – qohumun da, yadın da qayğısına qalırdı. Heç kəsi yaddan çıxarmırdı.

Onlar ilk dəfə 1978-ci ildə, baş leytenant Axundov DİN-in Komsomol Komitəsinin katibi işləyərkən 9-cuya – partiya və sovet orqanlarının mühafizə idarəsinə, siyasi müavin vəzifəsində çalışmaq təklifi alanda görüşmüşdülər. Mərkəzi Komitənin birinci katibi Heydər Əliyev işə cavan, perspektivli şəxslərin götürülməsini tapşırmışdı. Daxili işlər naziri

Arif Heydərov Axundovun namizədliyini irəli sürmüşdü. Yəqin ki, başqa təkliflər, xüsusilə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsindən da təkliflər olmuşdu. Əliyev Heydərovun təklifinə müsbət cavab vermişdi.

– O, məndən harada, hansı vəzifədə işlədiyimi soruşdu.

Özüm haqqında qısa danışdım. Neft institutunu fərqlənmə ilə bitirmişəm, sonra hərbi xidmətdə olmuşam. Engelsdə aviasiyada əsgərlik çəkmişəm, hərbi aviasiya hissələrinin yanacaq-sürtkü materialları ilə təmin edilməsi işini yerinə yetirmişəm.

28 yaşlı baş leytenantın bioqrafıyasında həmin gündən yeni səhifə açıldı. Əliyev Moskvada çalışdığı müddətdə də Axundov Bakıda xidmət edirdi.

1985-ci ildə idarəyə rəhbərlik etməyə başladı. İndi bu idarə Xüsusi Dövlət Mühafizə Xidməti adlanır.

– Cənab general, bu doğrudur ki, siz Heydər Əliyevə qarşı hazırlanmış bir neçə sui-qəsd cəhdinin qarşısını almısınız? – deyə Axundovdan soruşduq.

– Bu cür cəhdlər, doğrudan da, olmuşdu. 1994-cü ilin oktyabrında, 1995-ci ilin martında və sonra Ukrayna Prezidenti Leonid Kuçmanın səfəri ərəfəsində. Onda terroristlər Bakı aeroportu yolunda yerləşən böyük körpünü partlatmağa cəhd etmişdilər. Körpünün altına 100 kiloqrama yaxın partlayıcı maddə qoymuşdular. Partlayış baş versəydi, yaxın ətrafda heç bir yaşayış evi qalmazdı. Həmin ərəfədə körpünü gözdən keçirən əməkdaşlarımız aşağıda tikintinin özündən əlavə beton lövhənin yerləşdiyini aşkar etmişdilər. Cərəyanı ordan tapdıq, 500-600 metr aralıda isə naqillər yerləşdirilmişdi... Bu cür məqamlar olmuşdu. Prezidenti Allah saxlamışdı, – deyə həmsöhbətimiz gülümsünür.

## «Məni Allah qoruyur»

Azərbaycanda bu gün də Heydər Əliyevdən söz düşəndə hamı onun Allahın sevimli bəndəsi olduğunu söyləyir.

Onun həyatında bu qənaəti təsdiqləyən kifayət qədər faktlar var. Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində fəaliyyət göstərdiyi dövrlərdə də, Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini olduğu çağlarda da, lap elə Qorbaçovun qəzəbinə tuş gəlib Moskvada qürbət həyatı yaşadığı vaxtlarda da Tanrı ondan öz sevgi və mərhəmətini heç zaman əsirgəməmişdir.

Yazdığımız kitabda Tanrının bu sevimli bəndəsini necə hifz etməsindən iki hekayəti oxucularımızm diqqətinə çatdırırıq. Biri keçmiş sovet dönəmində, Heydər Əliyevin dünyanın nəhəng bir ölkəsinin rəhbərlərindən biri kimi fəaliyyət göstərdiyi dövrə, digəri isə onun müstəqil Azərbaycanı bəlalardan qurtardığı illərə təsadüf edir.

23 oktyabr 1983-cü il. Pakistanın paytaxtı İslamabad şəhərindəki Sovet Sosialist Respublikaları İttifaqı səfirliyi. Yerli vaxtla axşam saat yeddidir. Bütün işlərə qol çəkilib, bütün teleqramlar göndərilib.

Əməkdaşlar evə getməyə hazırlaşırlar. Sabah cümə günüdür. Müsəlman Pakistanında bu istirahət günüdür.

Birdən şifrələmə şöbəsinin rəisi deyir: «Vladimir Georgiyeviç, təcili bura gəlin. Oxuyuram. Teleqram. Çox təcili «Üç saatdan sonra Siyasi Büronun üzvü, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibinin rəhbərliyi ilə partiya nümayəndə heyəti Moskvadan təyyarə ilə uçur. Pakistan ərazisi üzərindən uçmaq üçün Pakistanın dövlət orqanlarının icazəsini təmin edin».

Nümayəndə heyəti ərəb ölkələrindən birinə uçurdu. Yol yalnız Pakistanın hava məkanından idi. Teleqramda adı çəkilən nümayəndə heyətinin rəhbəri Siyasi Büronun üzvü, Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev idi. Onun təyyarəsi gündüz saat 3-də Moskvadan uçurdu. İslamabad ilə vaxt fərqi də 3 saat idi.

Sovet Sosialist Respublikaları İttifaqının Pakistandakı səfirliyinin və şəxsən səfir Vladimir Georgiyeviç Belyayevin

əmri yerinə yetirməsinə 6 saat vaxt var idi. Aydın məsələ idi ki, təyyarənin ərazi üzərindən uçuşuna razılıq almaq üçün vaxt demək olar ki, əldən çıxmışdı. Səfirin ağlına gələn ilk fikir Pakistanın aviasiya departamenti ilə əlaqə saxlamaq oldu. Ancaq orada heç kim qalmamışdı, artıq axşam saat 7 idi. Nə etməli? Diplomatik kanalları işə salmaq lazım gəldi.

Belyayev Pakistanın xarici işlər nazirinin müavininə telefon açır. Nazir müavini diqqətlə onu dinlədikdən sonra üzr istəyir, heç cür kömək edə bilməyəcəyini deyib, dəstəyi yerinə qoyur. Sovet diplomatı xarici işlər naziri Aqi Şahı axtarmağa başlayır. Ancaq o da «heç cür kömək edə» bilmir. Heydər Əliyevin təyyarəsinin gəlməsinə dörd saat qalır.

Bu mənzərənin şahidi olanlardan biri deyir:

«Oturmuşuq. Kondisionerlər işləyir, soyuq havanı üstümüzə püskürür. Bizi isə tər aparır. Son dərəcə gərgin vəziyyətdir: aviasiya departamenti bağlı, xarici işlər naziri də gedib. Məsələ müşkülə çevrilib».

Burada vəziyyəti gərginləşdirən daha bir məqam var. Ay yarım bundan əvvəl, 1983-cü il avqustun 31-dən sentyabrın 1-nə keçən gecə Sovet Sosialist Respublikaları İttifaqı Hava Hücumundan Müdafiə Qüvvələrinin uzaq Şərqdəki təyyarələri Cənubi Koreyanın Mülki aviasiyasına məxsus sərnişinlərlə dolu «Boinq»i vurmuşdu. Bütün dünya Reyqanın fitvası ilə sovetlərin qaniçənliyindən danışırdı. Əksər ölkələrdə, o cümlədən Pakistanda da antisovet əhvali-ruhiyyə çox güclü idi. Səfirlikdə hamıya gün kimi aydın idi ki, partiya və hökumət nümayəndə heyətini aparan təyyarə Pakistanın üzərindən icazə alınmadan uçarsa, Pakistanın Hava hücumundan müdafiə qüvvələri düşünüb-daşınmadan onu raketlərlə vuracaqlar. Çox təcili nə isə etmək lazımdır». Artıq yerli vaxtla gecə saat 2-dir.

Şahidlərdən biri deyir:

«Birdən ildırım sürətli bir fikir səsləndi! General! Prezidentin köməkçisi! Xidməti telefonla zəng vururam! Bilirsiniz, az qalırdı qışqıram! O, telefonu götürür! Mən ona və-

ziyyəti izah edirəm. Cavab gəlir: – Cənab Belyayev, mən sizi çox yaxşı başa düşürəm, ancaq bilirsiniz, bu gün Prezident üçün çox ağır iş günü olub. Bağışlayın, mən Prezidenti oyada bilmərəm. Mən otağa qayıtdım. Oturdum və öz-özümə dedim: bizim aqibətimiz necə olacaq? Hamı mənə baxıb susur, amma baxışları ilə sanki nə oldu, nə oldu? – deyə soruşurlar. Mən deyirəm ki, Prezident yatıb, oyada bilmir».

Ziya ül-Həqdən, Pakistanın o vaxtkı Prezidentindən yuxarıda Allahdır. Ancaq Pakistandakı sovet səfirinin ona çıxışı yox idi. Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin müavini, Siyasi Büro üzvü Heydər Əliyevi və nümayəndə heyətini aparan təyyarə isə bütün bunlardan xəbərsiz, düz Pakistan raketlərinə tərəf uçurdu. Xəbərdar etmək, təyyarənin marşrutunu dəyişmək qətiyyən mümkün deyil. Gərginlik durmadan artır. Moskva yüksək məxfi şifrəli teleqramlardan beynəlxalq telefon xəttiylə açıq telefon danışıqlarına keçir. Hər 5-10 dəqiqədən bir sual sual dalınca yağırdı: «Niyə indiyə qədər uçuşa razılıq barədə xəbər vermirsiniz?! Siz hansı məsuliyyətin altma girdiyinizi bilirsinizmi?! Siz xüsusi reysin Pakistan ərazisi üzərindən təhlükəsiz uçuşuna təminat verə bilərsinizmi?! Biz ölkə rəhbərliyinə məlumat verə bilərikmi hər şey normaldı»?!»

Vəziyyətin şahidlərindən biri deyir: «Təzyiq getdikcə artır. Birdən növbətçi aşağıdan qışqırırır: «Vladimir Georgiyeviç, sizi telefona. Yaxınlaşıb, tez dəstəyi qulağıma sıxıram. Adını deyir – general filankəs. İkinci general, ikinci köməkçi. Cənab Belyayev, cənab Prezident filan reysin Pakistan ərazisi üzərindən uçmasına razılıq verilməsi üçün sərəncam verib. Bu haqda Moskvaya xəbər verə bilərsiniz. Təyyarə isə bu dəqiqələrdə Pakistan ərazisinə daxil olacaq".

Yerli vaxtla səhər saat 4.00 Sovet Sosialist Respublikaları İttifaqı səfirinin telefonu zəng çalır. Xarici işlər nazirinin müavini xəbər verir ki, sovet xüsusi xidmət orqanlarının verdiyi məlumata görə, filan xüsusi reys Pakistan üzərindən maneəsiz və rahat uçmuşdur.

Tanrının öz sevimli bəndəsi Heydər Əliyevə göstərdiyi bu mərhəmət nə birinci, nə də sonuncu idi. Allah ömrunu, qismətini və həyatdakı missiyasını yazdığı bu sevimli bəndəsini hələ bir neçə dəfə, bundan da gərgin və ağır, deyərdik ki, daha faciəli ola biləcək təyyarə bəlalarından qurtaracaq. Haqqında danışacağımız növbəti hadisə isə ulu Tanrının Heydərə olan sevgisinə yenə də zərə qədər şübhə yeri qoymur.

## Pakistan olayından 12 il sonra

1995-ci ilin şübhələrlə dolu payız günləri idi. Didişmələrdən, çəkişmələrdən, çevriliş cəhdlərindən yorğun düşmüş Bakı səksəkəli günlərini geridə qoyub azacıq dincəlmək istəyirmiş kimi «mürgüləyirdi». Heydər Əliyevin usta gedişləri ilə müstəqil Azərbaycan özünün ilk kövrək, ancaq qətiyyətli addımlarını atır, dövlətin dayaqları olan təhlükəsizlik strukturları dövlətçiliyə diş qıcıyan xarici və daxili irticaçı qüvvələrə artıq güc göstərməyə başlayırdılar. Əsrin son onilliyində Heydər Əliyevin Azərbaycanın xilası üçün başladığı strategiyanın müddəaları tədricən, pillə-pillə reallaşmağa başlamışdı. Nə qədər acı olsa da, müxtəlif qüvvələr müstəqil dövlətçiliyin inkişafına aparan bu prosesi nə yolla olur-olsun əngəlləmək barədə düşünür, müxtəlif planlar cızırdılar.

1994-cü ildə xəyanətkarcasına MTN-in təcridxanasından qaçırılmış Azərbaycanın keçmiş müdafiə naziri Rəhim Qazıyev, ətrafına istefaya göndərilmiş bir neçə general və yüksək rütbəli zabit toplayıb yeni dövlət çevrilişi planı hazırlayırdı. Dövlət çevrilişi planına rəvac verənlər iflasa uğramış, 1994-cü il oktyabr və 1995-ci il mart çevriliş cəhdlərinin acı dərslərindən nəticə çıxartmışdılar. Yaxşı başa düşürdülər ki, Heydər Əliyev nə qədər hakimiyyət başındadır, onların hakimiyyətə gəlmək arzusu xülya olaraq qalacaq.

Nə etməli? Leninsayağı verilən bu sualın cavabı hələ ötən çevriliş planlarında öz əksini tapmışdı: hansı yolla olur-ol-

sun Prezident Heydər Əliyevi fiziki cəhətdən məhv etmək. Qəddar və amansız qərar bu dəfə çevriliş planının ilk və əsas bəndi idi. Layihəsi Moskvada – Ayaz Mütəllibov, Surət Hüseynov, Rəhim Qazıyev və digərləri tərəfindən işlənib hazırlanmış hərbi dövlət çevrilişi mexanizmi məhz bu vəhşi və amansız plan həyata keçiriləndən sonra işə düşməli, general Şahin Musayevin (keçmiş müdafiə nazirinin müavini – müəlliflər) rəhbərliyi ilə zor işlətməklə hakimiyyət dəyişikliyi həyata keçirilməli idi.

Sui-qəsd planına görə Azərbaycan Prezidenti Heydər Əliyev xarici ölkəyə səfərdən Bakıya dönərkən, onu gətirən təyyarə Binə hava limanına enməmiş zenit raketi ilə vurulmalı idi. 1995-ci il may ayının sonunda terrorçular artıq «İqla-1» tipli 9M313 markalı zenit raketini buraxma qurğusunu, hər birinin dəyəri 12 min ABŞ dolları olan 2 zenit raketi əldə etmişdilər.

Onlar bu kompleksdən təyyarəni vuracaq adamı müəyyən etmiş, ona lazım olan təlimatları vermişdilər. Ş.Musayev Azərbaycan Prezidentinin təyyarəsinin vurulmasını uğurla başa çatdırmaq üçün artıq Bakının Nardaran daş karxanasında və Maştağa qəsəbəsi yaxınlığında raketi buraxmaq üçün meydançalar seçmişdi. Son müzakirələrdə qəsdin icraçıları təyyarənin Maştağa qəsəbəsi yaxın-ğındakı meydançadan vurulmasının daha əlverişli olduğunu söyləyib, bu qərarın üstündə dayandılar. Terrorçular bu versiyanı bir neçə dəfə məşq etmiş, hətta general Ş.Musayevə nümayiş etdirmişdilər. Hər şey hazır idi. Onlar əmr gözləyirdilər.

2 iyul 1995-ci il. Pusquda durmuş qəsdçilərə telefonla Heydər Əliyevin olduğu «TU-154» tipli təyyarənin Azərbaycanın hava məkanına və Bakı hava ərazisinə daxil olması barədə dəqiq məlumatlar verilir. Əvvəldə göstərilən hər iki meydançadan 9M3I3 «İqla-1» tipli zenit raketi ilə «Binə» hava limanına enmə zolağına Maştağa istiqamətindən enən mülki təyyarənin vurulmasının mümkünlüyü tam dəqiqləşdirilmişdi.

Prezidentin təyyarəsi hava limanına istiqamət götürür. Saat 15.09-da yenidən qəsdin icraçılarına Prezident təyyarəsinin gəlməsi barədə məlumat verilir. Terrorçular zenit qurğusunu meydançaya gətirməyə hazırlaşırlar. Elə bu zaman onlar təyyarənin Maştağa istiqamətindən deyil, Hövsan qəsəbəsi istiqamətindən hava limanına endiyini görürlər. Nə yaxşı ki, artıq heç nəyi dəyişmək mümkün deyildi. Bu istiqamətdən «Binə» hava limanına enən Prezident təyyarəsinin vurulması, təyyarənin uçuş boyu raketin uçuş məsafəsindən kənarda olduğundan mümkün deyildi.

Bu nə idi? Azərbaycanın təhlükəsizlik orqanları qəsddən xəbər tutmuşdularmı?! Yox, bu məqamda hələ onlara heç nə bəlli deyildi. Bəs təyyarənin istiqaməti nə üçün dəyişdirilmişdi? Səbəb çox sadədir. İnsanın dəyişməkdə aciz olduğu hava şəraiti.

«AZAL» Azərbaycan Hava Yolları Dövlət Konserninin verdiyi arayışda göstərilir: «Respublika Prezidentinin olduğu «TU-154» tipli təyyarə 1995-ci il iyulun 2-də saat 15:22 dəqiqədə «Binə» hava limanına 355 dərəcə bucaq altında, yəni Hövsan istiqamətindən enmiş, «küləyin istiqaməti 20 dərəcə, sürəti 8 metr olmuşdur».

Bəli, Tanrı yenə də sevimli bəndəsinə mərhəmətini əsirgəmədi, onu qorudu. Qorudu ki, Heydər Əliyev müstəqil Azərbaycan adlı əsərini araya-ərsəyə gətirsin. Amma naqislər və xainlər, iblislər və canilər onun varlığı ilə barışmaq istəmir, yeni-yeni çirkin planlar cızırdılar. O isə hər dəfə bu haqda söz düşəndə təbəssüm və daxili bir inamla deyirdi: «Mən ölümdən qorxmuram. Çünki məni Allah qoruyur».

Ömrünün son illərində Heydər Əliyev Bakını gəzməyi çox xoşlayırdı.

– Onun çox az mühafizəçisi olurdu. Sevdiyi küçələrdə dolaşır, bakılılarla söhbət edir, sadə insanların yaşayışı ilə yaxından tanış olurdu, – deyə general Axundov xatirələrə dalır.

– Deyirlər ki, Heydər Əliyev çox iti ağıla malik olub. Bu haqda hər hansı bir epizodu xatırlaya bilərsiniz?

– Belə hallar o qədərdir ki, bilmirəm hansını danışım. Diqqətinizi başqa məqama çəkmək istərdim. Təbiətən fitri istedada malik bu insan heç vaxt öyrənməkdən, bilmədiyini soruşmaqdan utanmazdı. Dəfələrlə belə halların şahidi olmuşam. O heç vaxt özünü hər şeyi bilən şəxs kimi hiss eləmirdi, bilmədiyini mütəxəssislərdən soruşmağı özünə əskiklik hesab etmirdi.

Öyrənmək istəyəndə hər şeyi yerli-yataqlı, dəqiqliklə bilmək istəyirdi.

General Axundovun kiçik kabinetində hər iki prezidentin – Heydər və İlham Əliyevlərin şəkilləri, çoxlu kitab və suvenirləri düzülüb. Yəqin ki, burada Heydər Əliyevi ona ən çox xatırladan bir əşya var. Bu nə ola bilər? General o dəqiqə cavab verir:

– Bax, bu şəkil. Telefonların arxasında rəfə qoyulan şəkli götürür.

Şəkildə Heydər Əliyev qırmızı rəngli qoruyucu gödəkcədə gülür, bir qədər arxada əynində elə həmin gödəkcədən Axundov dayanıb.

– Bu, Norveçdə, Şimal dənizi üzərində sahildən vertolyotla 300 km məsafədə olmuşdu. Bizə təlimat verildi və biz xüsusi kostyumlar geyindik. Bələdçilərdən biri Əliyevi dəniz üzərində uçuşdan daşındırmaq istədi. O, bunun təhlükəli olduğunu deyirdi. Amma Əliyev heç nədən qorxmurdu. Tez-tez təkrar edirdi: «Mən ölümdən qorxmuram. Qoy düşmənlərim başa düşsünlər ki, mən həmişə hara getdiyimi bilmişəm. Çünki məni Allah qoruyur».

Uçuşdan öncə qaydaya görə könüllü uçmağımızla bağlı sənədə qol çəkmək lazım idi... Xarici işlər naziri Həsən Həsənov qol çəkmədi ki, ölsəm, ailəm heç sığorta da almayacaq. Heydər Əliyev güldü və qol çəkdi. Nə isə, uçduq.

– Bu nə vaxt olmuşdu?

General iş gündəliyini vərəqləyir: «Bu, 1996-cı ilin 24-27 aprelində baş verib. Həmin il Heydər Əliyevin 18 beynəlxalq səfəri olmuşdu. Bir ildən sonra – iyirmi. 1998-ci ildə – on,

1999-cu ildə – on üç, 2000-ci ildə də – yenə də on üç. 2001-ci ildə – doqquz. 2002-ci ildə – on altı: Moskva, ABŞ, Türkmənistan, Türkiyə, İran, Peterburq, İstanbul, Ankara, Yalta...»

Prezidentin şəxsi fotoqrafı, sənədli fotoqrafiya ustası Rafiq Bağırov bu səfərlərin birinə aid çox maraqlı xatirə şəkilləri çəkib. R.Bağırovun xatirələrindən:

«... 1997-ci il avqustun ilk günlərinin birində Prezident ABŞ-da rəsmi səfərdə idi. Bill Klintonla görüşdən sonra Hyustona gəldik. Burada Heydər Əliyevin yenidən baba olması xəbərini aldıq. İlhamın oğlu olmuşdu. Heydər Əliyev çox sevinirdi. Nümayəndə heyətinin hər biri ilə görüşdü, təbriklərimizi çatdırdıq. Son bir neçə ildə onun bu cür sevindiyini görməmişdim. Azərbaycana dönərkən Prezident Londonda yenicə doğulmuş nəvəsini ziyarət etdi.

Heydər Əliyev demək olar, bu görüşə qanadı olsa uçardı. Nəvəsini qucağına alanda gözləri yaşardı. Bir qədər titrək, kövrək səslə təntənəli şəkildə dedi: «Mən bu körpəyə Heydər adı verirəm!» Həmin anda məncə, bir neçə yaddaqalan, təsirli məqamları çəkə bilmişəm. Fəxr edirəm ki, balaca Heydərin ilk şəklini çəkmək mənə qismət olub».

Heydər Əliyev bütün nəvələrini çox sevirdi. Amma balaca Heydərə daha çox bağlı idi. Öz adını daşıyan bu balaca ilə həmişə fəxr edirdi. H.Əliyev bu cür dəhşətli templə işləyirdi... O, ezamiyyətə getməyi xoşlayırdı. Yəqin Azərbaycan xəritəsində elə bir yer, şəhər, qəsəbə, kənd yox idi ki, orada olmasın. Öz kiçik vətəni Naxçıvana xüsusi məhəbbətini gizlətməzdi. Adama elə gəlir ki, yalnız bu cür sərt təbiəti olan bir diyar belə möhkəm xarakterli şəxsiyyəti yetişdirə bilərdi.

10 avqust... Bir saat uçduqdan sonra Prezidentin təyyarəsi Naxçıvan aeroportuna yaxınlaşır. Muxtar Respublikanın əvvəlki kimi quru yolları bağlı olduğundan, hamı təyyarəyə minməyə məcbur olur.

Prezident də, tələbə də, iş dalınca gedən hər bir şəxs də... Yay aylarında böyük təyyarə ilə gündə 10 uçuş var. Amma yenə də çatmır.

Əvvəllər bu aeroport müasir görünsə də, indi köhnəldiyi hiss olunurdu. Prezidentə yeni aerovağzalın layihəsini göstərdilər. Memarları dinləyəndən sonra Heydər Əliyev qeyd etdi:

– Yenə də müvəqqəti bir şey quraşdırırıq?!

Onun təklifinə əsasən, layihədə köklü dəyişikliklər edildi. O, Naxçıvandakı aeroportun açılışını görməyi çox istəyirdi, tikinti də sürətlə gedirdi. İnşaatçılar tələsirdilər... Ancaq yeni tikintinin açılışını etmək İlham Əliyevə qismət oldu.

Avqustun 5 gününü öz doğma şəhərində oldu. Aeroport tikintisində, görkəmli Azərbaycan rəssamı Bəhruz Kəngərlinin ev-muzeyinin açılışında iştirak etdi. Bu muzey Heydər Əliyevin təşəbbüsü ilə, hələ tələbə vaxtı adını ilk dəfə eşitdiyi rəssamın şərəfinə iki mərtəbəli kərpic binada açılmışdı. «Bu insan nadir istedada malik olub. Onun yaradıcılığı, həqiqətən, çox dəyərlidir», – bunları Heydər Əliyev muzeyin açılışında deyirdi.

Vayxır su anbarının layihəsi artıq hazırdır – kanallar çəkilib, cadar-cadar olmuş səhra su gözləyir. Ən son, müasir layihə əsasında yeni məktəbin tikintisi də başa çatdırılıb, kompyuter sinifləri, akt və idman zalları hazırdır. Açılışı isə yeni Azərbaycan Prezidenti etdi...

## 23 sentyabr 2002-ci il, Moskva

Avqustun 23-də Prezident Əliyev il ərzində üçüncü dəfə idi ki, Rusiyaya səfər edirdi. Dünya diplomatiyasında bu, bəlkə də, nadir haldır, amma dost, qonşu ölkələr üçün bu çox normaldır. Yanvar ayında Azərbaycan Prezidenti Moskvada rəsmi səfərdə, iyunun 9-da isə işgüzar səfərdə olmuşdu. Həmin tarixdə Peterburqda Vladimir Putinlə görüşmüş, birlikdə Nizaminin heykəlinin açılış mərasimində iştirak etmişdilər. Prezidentin sentyabr gəlişi isə Rusiya-Azərbaycan sammiti ilə əlaqədar idi.

Bu görüşdə əsas hadisə Xəzərin dibinin sərhədlərinin dəqiqləşdirilməsi işində Rusiya Federasiyası və Azərbaycan Respublikasnın razılığına dair müqavilələrin imzalanması idi.

– Biz uzun müddət idi ki, bu məsələ ətrafında müzakirələr aparırdıq, – deyə H.Əliyev sözünə davam edir: «Hər iki tərəfdən mübahisəli məqamların olmasına baxmayaraq, ölkələr qarşılıqlı maraqlar əsasında çalışırdılar. Mən çox məmnunam, çox sevinirəm ki, bu iş müsbət nəticə ilə başa çatmışdır.

Bundan əvvəl Rusiya ilə Qazaxıstan, həmçinin Azərbaycanla Qazaxıstanın razılığa gəlməsini nəzərə alsaq, əminliklə demək olar ki, Xəzərin şimal və mərkəz hissələrinin dibinin mineral resurslarının mənimsənilməsində bizim üç dövlətin qarşılıqlı anlaşmasında möhkəm beynəlxalq hüquqi baza əldə edilmişdir. Əminəm ki, dənizin dibinin bölünməsi, «ümumi hövzənin isə hamıya aid olması» prinsipi nəticədə bütün Xəzəryanı ölkələrin marağında olan status məsələsinin həllinə gətirib çıxaracaq».

Görüş zamanı digər dövlətlərarası razılaşmalara da imza atıldı. Əsasən təhsil haqqında sənədlərin qarşılıqlı tanınmasına, hərbi təyinatlı məhsullar istehsal edən müəssisə və təşkilatların istehsal yönümlüyünü saxlamağa dair sənədlər imzalanmışdı. Heydər Əliyev onları yenidən sadalamadı: «Vladimir Vladimiroviç imzalanan sənədlər haqqında məlumat verdi. Mən yenidən sizi yorub həmin məsələyə qayıtmaq istəmirəm. Burada vacib məqam odur ki, mən də deyilənlərlə şərikəm. Elə bu da bizim münasibətlərimizin hansı səviyyədə olduğundan xəbər verir.

Bir daha demək istərdim ki, Rusiya-Azərbaycan münasibətləri bizim xarici siyasətimizdə prioritet istiqamətlərdən biridir. Bu ölkələr təxminən iki əsr birlikdə olub, bu birlik onları elə yaxınlaşdırıb ki, həmin əlaqələri bu gün də davam etdirməyə ehtiyac var. Hazırda müstəqil dövlətlər olsaq da, bu bizə uzaqlaşmağa əsas vermir, əksinə əlaqələri

daha da möhkəmlətmək və inkişaf etdirmək lazımdır. Biz öz tərəfimizdən üzərimizə düşən bütün vəzifələri yerinə yetiririk.

Sentyabrın 24-ü Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun kollektivi ilə görüşərkən Heydər Əliyevə təntənəli şəkildə ali məktəbin fəxri doktoru adı verildi. Vaxtilə cavan diplomat İlham Əliyev də bu institutu bitirib, orada müəllim kimi çalışmışdı. Sonra isə yuxarıda sadaladığımız məqamlar meydana çıxdı.

Qəzəbə tuş gəlmiş bir siyasətçinin oğlu tezliklə müəllimlikdən uzaqlaşdırıldı. «Yəni, İlham Heydər oğlu, siz artıq bu institutda çalışa bilməzsiniz».

Rektor Anatoli Torkunov keçmişi yada salmaq istəmədi.

– Biz böyük məmnuniyyətlə qeyd edə bilərik ki, Rusiya və Azərbaycanın elmi nailiyyətlərinin, mədəniyyətinin öyrənilməsi, ədəbiyyatın və dilin inkişafı işini daha da dərinləşdirir və davam etdiririk. Çox hörmətli Prezident, bütün bunlarda şəxsən sizin böyük əməyiniz var.

Sizin 1993-cü ildən başlayaraq bizim ölkəyə yüksək səviyyəli səfərləriniz qarşılıqlı münasibətlərimizə böyük təsir edir. Nəticədə, Prezident Vladimir Vladimiroviç Putinlə bir çox dövlətlərarası razılaşmalar imzalanıb. İmzalanan sənədlər arasında Xəzərin dibinin bölünməsi haqqında razılaşma da var.

Biz bu sənədin ikitərəfli əlaqələrin inkişafında nə dərəcədə əhəmiyyətli olduğunu, Xəzər regionunun sülh və sabitlik şəraitində inkişafına yardımçı olacağını çox gözəl başa düşürük. Ali məktəbin kollektivi kimi bizimçün dünən iki ölkənin təhsil nazirlərinin Azərbaycan Respublikası və Rusiya arasında diplomların, elmi dərəcə və adların qarşılıqlı tanınması haqqında imzaladıqları sənədin böyük əhəmiyyəti var.

Uzağı görməyən opponentlərindən fərqli olaraq Heydər Əliyev şimal qonşusu ilə dost və mehriban əlaqələrin rolunu dərk edirdi.

«Rusiya-Azərbaycan münasibətləri bizim üçün prioritet istiqamətdir, – Heydər Əliyev belə deyirdi. – Bu münasibətlər strateji tərəfdaşlıq və əməkdaşlığa əsaslanır. Sovet İttifaqının süqutundan sonrakı dövrə baxsaq, görərik ki, bu iki ölkə arasındakı münasibətlər heç də birmənalı olmayıb».

Vladimir Vladimiroviç Putinin prezident seçilməsindən sonra dərhal mövcud vəziyyətdə dəyişiklik hiss olunmağa başladı. O, 2001-ci ildə ilk xarici səfərini Azərbaycana etdi. İctimaiyyətimiz bu hadisəni yüksək qiymətləndirdi. Rusiya Prezidenti Azərbaycanı yaxından tanıtmaq və Rusiyaya olan münasibəti öyrənmək imkanı qazandı. Bu dövrdə respublikamızda daxili sabitlik artıq bərpa olmuşdu. Rusiya ilə əlaqələr uğurlu şəkildə inkişaf edirdi. Müstəqilliyimizi qazandıqdan sonra Rusiya-Azərbaycan münasibətlərinin tarixindən danışsaq, onda qətiyyətlə deyə bilərik ki, Putinin bu ölkəyə gəlişindən sonra yeni mərhələnin əsası qoyuldu».

Azərbaycan – Rusiya əlaqələrinin iki əsrlik tarixində müxtəlif məqamlara rast gəlmək olar. Hər bir dövrə aid sənəd tapmaq mümkündür. Misal üçün, keçmiş Rusiyanın Azərbaycana münasibətlərinə aid sənədlərdən: 1 fevral 1727-ci ildə 1 Yekaterinaya yazılmış məlumatda deyilirdi: Bütün əyalətləri, diyarları keçib gəldik, məni böyük sevinc hissi ilə qarşılayırdılar. Hamısı məndən onları Rusiya imperiyasnın himayəsinə almaqlarını xahiş edirdi. «Bu sitat knyaz, general-feldmarşal V.V.Dolqorukovun imperatriçaya verdiyi məlumatdan idi. Yarım əsr əvvəlki məruzədən: «Buradakı xalqların hamısı rus qoşunlarının gəlişini gözləyir, imperiyanın tərkibinə daxil olmağı arzulayırlar». Siyahını davam etdirmək olar. İstinad etdiyimiz başqa sənədlərə əsasən isə belə bir nəticə çıxar ki, şimaldan işğalçı qoşunlar gəlib. Əlbəttə, deyilən fərziyyələrin heç biri tam həqiqətə uyğun gəlməz. Çünki həqiqət təhrif olunmuş şəkildə mövcud ola bilməz.

Heydər Əliyev hər dəfə bu haqda danışarkən təkrar edirdi ki, «tarix gərək bütün həqiqətləri bilsin».

Bütün İslam dünyası üçün müqəddəs olan Ramazan ayı başlamışdı.

Müstəqillik qazandıqdan sonra İslam gizlindən çıxıb, ictimai yerini tutaraq, yenidən xalqın mənəvi varlığına çevrildi. Bu dini inam Azərbaycanın dövlət rəmzi olan bayrağındakı yaşıl rəngdə də öz əksini tapıb. Ramazan bayramı ərəfəsində Azərbaycan Prezidenti xalqa təbriklə müraciət etdi. O, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən oğul və qızları xatırlayıb, onların ruhlarının şad olmasını dilədi. Şəhidlərin ailələrinə, yaxınlarına səbr dilədi. Heydər Əliyev ölkə hüdudlarından kənarda yaşayan həmvətənlilərini də bayram münasibətilə təbrik etdi:

«Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, demokratik cəmiyyətin qurulması, sülhün bərqərar olması istiqamətində xalqımıza uğur arzulayır, işlərinizdə müvəffəqiyyət diləyirəm».

İslamda Ramazan ayında Allah şeytanı insanların qəlbinə girməyə qoymur. Bu ayda insanlar pisliklərdən uzaqlaşır. Ramazan – həyat haqqında düşünmək, yalnız yaxşı əməllər etmək ayıdır.

İnsan yalnız Yaradan haqqında düşünür. Noyabrda bir həftə ərzində Prezident bir neçə fərman və sərəncam imzaladı. Onların arasında görkəmli bəstəkar Fikrət Əmirovun 80 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam da var idi. Sehrli musiqinin yaradıcısının yaşadığı binaya xatirə lövhəsi vurulacaq, əsərlərinin 5 cildliyi işıq üzü görəcək, sənədli film çəkiləcək, respublikanın musiqi məktəblərinin birinə Fikrət Əmirovun adı veriləcəkdi.

Bakı Metropoliteni 35 illiyini qeyd etdi. Prezident bu sahədə çalışan mühəndis və işçilərin böyük bir hissəsini ordenlərlə təltif etdi. Sovet dövründə olduğu kimi, Azərbaycan indi də vətəndaşlarının yorulmaz əməyini yüksək mükafatlarla qiymətləndirir. Dünyada bu cür hallar azdır. Sovet dövründə novatorlar Sosialist Əməyi Qəhrəma-

nı adına, Qırmızı Əmək Bayrağı ordeninə layiq görülür, «Əmək şöhrəti», «Əmək qəhrəmanlığına görə» medalları ilə mükafatlandırılırdılar. Fikir verin, hər bir mükafatda əsas söz «ƏMƏK»dir. İnsanın və xalqın həyatında belə də olmalıdır.

Yeri gəlmişkən, Azərbaycanda bir xeyli Əmək Qəhrəmanları var. Bu cür qəhrəmanlardan biri də Ömər Ağayevdir. Bu insan bütün respublikanın qazandığı uğurların canlı salnaməsidir. 2003-cü il yanvarın 1-də onun 75 yaşı tamam oldu.

– Ad günlərimi qeyd etməyə o qədər də həvəskar olmasam da, yanvarın 2-də Səbail rayon Ağsaqqallar Şurası toplanıb məni təbrik etdilər, – bu veteranın bizə dediyi ürək sözlərindəndir. – Səhəri gün isə hörmətli Prezidentimiz zəng edib yubileyim və Yeni il münasibətilə məni təbrik etdi. Mənə və ailəmə cansağlığı, xoşbəxtlik arzuladı. Çox şad idim... İndiyədək çox mükafatlar almışam. Əməyimin xalq tərəfindən qiymətləndirilməsi, dövlət başçısnın məni təbrik etməsi ən böyük və əvəzolunmaz hədiyyəmdir.

## Əlində respublika bayrağı tutmuş qız

Simvolların, bayraqların tarixi xalqın tarixi deməkdir. 1918-ci ildə ilk Azərbaycan Respublikasının bayrağı qaldırılanda söylənən bir söz dillərdə əzbər olmuşdur: «Bir kərə yüksələn bayraq bir daha enməz».

O vaxt tarixin hökmü başqa cür oldu. 1918-ci il noyabrın 17-də Bakıya ingilis qoşunları soxuldular. Onlara general Tomson başçılıq edirdi. Böyük Britaniya, ABŞ, Fransa, İtaliya bayraqlarının arasında sancılmış Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını görən ingilis onun çıxarılmasını tələb etmişdi. Britaniya bayrağı da Bakıda çox dalğalanmadı. Tezliklə onu qırmızı bayraq əvəz etdi.

Heydər Əliyev Şəki camaatı ilə görüşərkən bu milli müqəddəsliyi bir daha xatırlatdı:

– Mən bayaqdan baxıram, orada balaca bir qız əlində bayraq tutub. Bir diqqət edin, o, bayrağı bir əlində saxlayıb. Külək bayrağı o tərəf-bu tərəfə silkələyir. Amma balaca qız onu qısqanclıqla möhkəm-möhkəm düz tutub. Qızım, səni öpürəm.

Sən bu bayrağı – bizim müstəqilliyimizin rəmzini bu qədər sevdiyinə görə belə möhkəm saxlamısan. Buna görə sənə öz hörmətimi və məhəbbətimi çatdırıram. Bu, bizim xalqımızın müstəqilliyi deməkdir.

18 oktyabr – Azərbaycanın Müstəqillik Günüdür. 1991-ci il oktyabrın 18-də Azərbaycan öz dövlət müstəqilliyini elan etdi. Müstəqilliyi təkcə elan etmək deyil, onu qorumaq lazımdır; bunu tarix öyrədir.

2002-ci ildə bayram ərəfəsində Heydər Əliyev Türkiyədən işgüzar səfərdən qayıdırdı. Binə Hava Limanında jurnalistlər onun başına toplaşdı. H.Əliyev onlara dedi:

– Hesab edirəm ki, görüş Azərbaycan və Türkiyə iş adamlarının fəaliyyətində yeni mərhələ açacaq. Türkiyəli sərmayədarlar Azərbaycana investisiya qoyuluşunu artıracaq. Mən çox məmnun qaldım.

Həmişəki kimi çoxlu suallar verdilər. O, böyük enerji ilə dəqiq, bəzən bir anlıq fikirləşərək cavab verirdi.

– Avropadakı NATO hərbi hissələrinin rəhbəri Bakıdadır. Bu gün onun sizinlə görüşü gözlənilir. Görüş zamanı Azərbaycanın NATO ilə hansı istiqamətlər üzrə əməkdaşlığı müzakirə ediləcək?

Heydər Əliyev gülür:

– Vallah, hamınızı çox sevirəm. İstəyirəm ki, yaxşı jurnalist olasınız. Yaxşı suallar hazırlayasınız. Deyirsən ki, o, Bakıdadır və sizinlə görüşəcək. Amma görüşməyimiz hələ məlum deyil.

Deyirsən, NATO-nun hansı əlaqələrini müzakirə edəcəyik? Əgər bu haqda danışsaq belə, onu sizə demərəm. Nəyə görə bu cür suallarla mənim də, özünüzün də vaxtınızı alırsınız?

Bu yarızarafat ifadəni heç vaxt jurnalistlər üçün vaxtına qənaət etməyən bir insan söyləyirdi. O, mətbuatın gücünü digər rəhbərlərdən daha çox başa düşürdü. Və jurnalistlərin simasında bir əlaltı işçi deyil, ümumi bir işdə çalışan həmkarı görürdü. Bir dəfə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində işləyən zaman rayonlardan birində yerli qəzetin bir nömrəsinin tirajı yandırılmışdı. Rayon komitəsinin katibi hansısa məqaləni bəyənməmişdi və bu göstərişi vermişdi. İş Əliyevə qədər qalxmışdı. O da onda bütün respublikaya yaxşı dərs vermişdi. Bu işdə günahı olanlar vəzifəsindən azad edilərək, partiya səviyyəsində cəzalandırıldı. Mərkəzi Komitənin məsuliyyət daşıyan işçiləri də həmçinin.

Başlıcası, Heydər Əliyev mətbuata yoldaşcasına, hörmətlə yanaşmağın vacib olduğunu hamıya göstərdi.

– Heydər Əliyev şənbə və bazar günləri də həmişə işləyirdi. Bu günlərin digərlərindən fərqi ondaydı ki, bu günlər işi bir qədər tez bitirirdi, – deyə general Axundov xatırlayır.

Tez-tez ya işdən əvvəl, ya da sonra həyat yoldaşının qəbrini ziyarət edirdi. Uzun müddət təkcə heykəlin yanında durub nə isə düşünürdü...

General bilirdi ki, Heydər Əliyev bu xatirə ocağına şəxsən memarlıq etmiş, hər bir ağacın əkilməsinə belə diqqət yetirmişdir. O, nəzakətlə kənarda durub sakitcə seyr edir, bu dəqiqədə yaşananların onun üçün necə əziz olduğunu, onların sözlə ifadəsinin mümkünsüzlüyünü bilirdi.

*Toranlı bir gündə çıxıb gedirsən,*
*Səmada durnalar, quşlar dolaşır.*
*Cənub şəhərinə qarlı qış gəlib,*
*Uzaq sahillərdə kölgən dolaşır,*
*Günəşim, mən səni tapa bilmirəm...*

Bu sətirlər «Qayıt, sevgilim» mahnısındandır. Nikolay Dobronravovun sözlərinə Sevil Əliyevanın bəstələdiyi mahnıdan. Anası ona «Seva» deyə müraciət edərdi...

Elmira Axundovaya verdiyi böyük müsahibədə («İzvestiya». 2005. 15 oktyabr) Sevil Əliyeva bu mahnının yaranması tarixçəsini xatırlayırdı: «Atam hər dəfə bu mahnını dinləyəndə gözlərindən yaş gilələnirdi. Hətta bu melodiyanın sözləri yazılmamışdan əvvəl atam deyirdi ki, bu musiqi parçası onda anamla, onun ölümündən sonrakı əhvalıyla bağlı təəssüratlar yaradır.

Bu melodiyanı Müslüm Maqomayevin yanında ifa edəndə, o, dedi ki, buraya mütləq söz yazmaq lazımdır, söz yazsanız mən onu mütləq ifa edərəm. Mahnının mətnini şəxsən anamı tanıyan və ona çox gözəl münasibət bəsləyən şair Nikolay Dobronravov yazdı. Yadımdadır ki, mətnin bəzi sətirləri bir neçə variantda yazılmışdı və atamla mən ürəyimizə ən çox yaxın olan variantı seçirdik. İndi bu mahnı mənə ikiqat əzizdir, çünki atamı və anamı xatırladır».

Bu təsirli söhbətə Sevil xanımın dilindən çıxan daha bir neçə cizgini də əlavə edək: «Valideynlərim Yevgeni Martınovun və Andrey Dementyevin yazdığı və bənzərsiz Sofıya Rotaurunun ifa etdiyi «Qu quşu sədaqəti» mahnısını çox sevirdilər. Ev sahibəsinin – Zərifə xanımın müşayiətilə Heydər Əliyeviç də çoxlu Azərbaycan, rus mahnıları ifa edərdi – məsələn, «Gecə patrulu» filmindəki mahnını». Film çoxdan yaddan çıxıb, amma mahnı çoxlarının yaddaşına həkk olunub: «Hətta quşlar da doğma vətənsiz yaşaya bilmir»... Bu təsirli detallar Əliyevlər ailəsindəki incə musiqi zövqündən xəbər verir. Amma təkcə bundan yox...

Bakıda «Dinin və etiqadın demokratik cəmiyyətdə rolu: terrorizm və ekstremizmlə mübarizə yollarının axtarışı» adlı beynəlxalq konfrans açıldı. Konfransın açılışında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev çıxış etdi:

– Qloballaşan dünyada hamı bir-birinə yaxınlaşıb. Hazırda dinlər, mədəniyyətlər və xalqlar arasında yaranan dialoq məhz onun nəticəsidir. Bu dialoqu inkişaf etdirib, dəstəkləyərək biz gərək terrorizmi yaradan mənbələri kökündən yox etməyə çalışaq.

Bu gün isə terrorist qüvvələr öz eybəcər niyyətlərinə nail olmaq məqsədilə bəzi hallarda bizim üçün müqəddəs olan, ümumbəşəri dəyərlərdən istifadə edib, bu və ya digər qrupun maraqlarının müdafiəsinə qalxaraq terrora haqq qazandırırlar. Terrorizmə «yox» deyən bəşəriyyət onun dini, iqtisadi, siyasi köklərini məhv etmək üçün bütün qüvvəsini səfərbər etməlidir. Prezident torpaqların 20 faizinin işğalının təkcə Ermənistan-Azərbaycan münaqişəsinin nəticəsi olmadığını qeyd etdi. Onun sözlərinə görə, bu, regionda beynəlxalq terrorizmin fəaliyyətindən irəli gəlir.

«Konstitusiyaya görə Azərbaycan dünyəvi dövlətdir. Biz din fenomenini mədəniyyətimizin ayrılmaz bir hissəsi, milli mentalitetimizin tarixi mirası kimi qəbul edirik", – deyə Heydər Əliyev öz çıxışında bildirdi.

Bu fikri müasir Rusiyanın bir çox böyük siyasət və dövlət xadimləri də bölüşür. Bunların arasında Tatarıstanın Prezidenti Mintimir Şaymiyev də var. O xatırlayır:

– Mən Azərbaycanda olanda Heydər Əliyeviçlə bərabər qaçqınlar düşərgəsinə getmişdim. Belə ağır məişət şəraitində aylarla, illərlə yaşayan insanları təsəvvür edin. Dəhşətdir. Hamımızın yadındadır ki, o məsələlər necə başlamışdı. Milli hüquqların pozulmasından danışırdılar. Amma nəhayətdə milyondan çox azərbaycanlı öz ev-eşiyindən didərgin düşdü. Qaçqınlarla görüşəndə də, evə qayıdandan sonra da mən onlar üçün neyləmək mümkün olduğu barədə düşünürdüm. Nəhayət, Tatarıstandan ərzaqla dolu "KamAZ" karvanı göndərdik.

Noyabrın 21-dən 23-dək Prezident NATO dövlətlərinin Praqa sammitində iştirak etdi. Bu mehriban və qonaqpərvər ölkəyə Heydər Əliyevin ilk gəlişi deyildi. Karl körpüsü, Staromest meydanı, köhnə məhəllələr... Oradan yaşıl damlı evlərə, orta əsrlərə aid küçələrə açılan valehedici mənzərələri dəfələrlə seyr etmişdi. Bu dəfə də görüşlərin və danışıqların sərt qrafikinə baxmayaraq, vaxt tapıb qədim Praqa səddinin divarları önündə bir neçə dəqiqə keçirə bildi.

## 24 noyabr 2002-ci il, Bakı

Bakıya şənbə günü döndülər. Əslində, bazar günü istirahət edib, yeni iş həftəsi üçün qüvvə toplamaq lazım idi. Amma bu qətiyyən Əliyevə xas iş rejimi deyildi. Səhər Axundova zəng vurdu:

– İndi şəhərə getmək istərdim. 10-15 dəqiqədən sonra general artıq rezidensiyada idi.

– Prezident bizi gözləyirdi, sviterlə kostyum geyinmişdi. Mən Heydər Əliyevə dedim ki, son vaxtlar şəhərə çox çıxır, bu təhlükəlidir.

«Narahat olma, hazırlaş Cabbarlının heykəli ətrafına gedək», – dedi. Heydər Əliyev öz təşəbbüsü ilə 1981-ci ildə açılışı olan bu heykəli çox sevirdi. 1934-cü ildə dünyasını dəyişmiş Azərbaycan ədəbiyyatı və milli təfəkkürünün inkişafında böyük rolu olan Cəfər Cabbarlıdan dərin minnətdarlıq hissi ilə danışırdı. Yeri gəlmişkən, heykəl üçün uyğun gələn bütöv qraniti Əliyevin xahişi ilə Ukraynadan gətirmişdilər.

Prezident maşını heykəlin qoyulduğu Neft Akademiyasının yaxınlığındakı meydanda dayandı. Yoldan keçənlər yavaş-yavaş bura toplaşmağa başlayırdı. Prezidentlə görüşüb ona uzun ömür arzulayanların sayı-hesabı yox idi: «Siz bizə insan ləyaqətini qaytardınız».

Onların arasında şəxsi xahişinə görə yaxınlaşanlar da var idi. Bu cür planlaşdırılmamış görüşlər zamanı Heydər Əliyev köməkçilərini aparmırdı. Onların əvəzinə də Axundov işləyirdi. Həmişə üzərində gəzdirdiyi kitabçaya familiya, ünvan, telefon nömrələrini qeyd edirdi. «Sizə mütləq zəng vurulacaq. Qəbul edilən qərar barədə deyiləcək».

Axundovun fıkrincə, Heydər Əliyev xarici səfərlərdən sonra öz həmvətənləri, bakılılarla görüşmək istəyirdi.

– Sonra Prezident 28 May və Bülbül prospektlərinin tinində yerləşən «Portofino» kafesinin qarşısına gəldi. Burada həmişə qələbəlik olur. Cavanlar, ailəli adamlar, uşaqlar...

Heydər Əliyev boş yerlərin birində əyləşib, məni də yanına çağırdı, dondurma sifariş elədi.

Həmin kafedə bu gün də o görüşü əks etdirən fotolar asılıb. Heydər Əliyevin əynində yüngül sviter, gözündə gün eynəyi var. Sonra pulu ödədik («Dondurmanın pulunu general ödəyəcək, mənim pullarım ondadır», – dedi). Nizami küçəsinin 2 kilometrliyindəki Fəvvarələr meydanına gəldik. Yolüstü dükanlara baş çəkib qarşısına çıxanlarla söhbət edirdi.

Uşaq, cavan, qoca ardınca gəlir, şəkil çəkdirmək üçün xahiş edirdilər. Heydər Əliyev etiraz etmirdi. Gəzinti 2 saat davam etdi. Mühafizə üçün bu cür səfərlər baş ağrısı, bakılılar üçün gözlənilməz görüş, Prezident üçünsə, görünür, vətəndaşların arasında olmaq nadir və qiymətli imkan idi.

Noyabrın 28-də Prezident Türkiyə şirkəti «Enka»nın prezidenti Şərik Taranın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi. Qonaq Avropanın ən böyük elektrostansiyasını onların şirkətinin inşa etdiyini dedi. O, rəhbərlik etdiyi müəssisənin Azərbaycan iqtisadiyyatına investisiya yatırmaq, xüsusilə Sumqayıt İES-i bərpa etmək niyyətində olduqlarmı qeyd etdi. Heydər Əliyev qonağa təşəkkürünü bildirərək, onların fəaliyyətindən hələ Moskvada çalışarkən xəbərdar olduğunu bildirdi.

– Siz Petrov pasajını təmir edəndə hamı türklərin necə gözəl inşaatçı olmalarından danışırdı. Amma əvvəllər elə bilirdilər ki, türklər heç bir iş bacarmır. Əlindən bir iş gəlməyənə, adətən, «türksən bəyəm?» deyirdilər. Siz Moskvada çoxlu gözəl binalar inşa etmisiniz. Eşidəndə ki, onları «Enka» tikib çox sevinirdim.

Yəqin çoxlarına Bakı gecələrini seyr etmək nəsib olub. Rəşid Behbudovun ifasında Tofiq Quliyevin məşhur mahnısında vəsf olunan gecələri...

Bakının mərkəzində, qədim binaların birində görkəmli mütəfəkkir Məhəmməd Füzulinin adını daşıyan Əlyazmalar İnstitutu yerləşir. Burada əvəzsiz, qədim mətnlər qo-

runur. Otaqların birində 30-cu illərdə burada yaşayan söz ustadı Hüseyn Cavidin ev-muzeyi var. Muzeyin açılışında ölkə Prezidenti çıxış etdi. O, dahi şairin faciəvi həyatından danışaraq, heç bir qüvvənin xalqın tarixini və mədəniyyətini əlindən almaq iqtidarında olmadığını dedi. Qoy dahi Cavidin ruhu şad olsun...

Moskvada Nazirlər Soveti sədrinin birinci müavininin köməkçiləri işdən tez çıxmaq istəyəndə teatra gedəcəklərini bəhanə edirdilər.

Yəqin Heydər Əliyevin gözəl tamaşa xatirinə onlara icazə verəcəyini bilirdilər. Sonra da tamaşa haqqında rəy soruşacağını da görmüşdülər. Teatra o, hələ gənc yaşlarından mehr salmışdı. Budur, 2002-ci ildə də Milli Akademik Dram Teatrında «Hamlet» tamaşasının premyerasındadır. Tamaşadan sonra Prezident truppa ilə görüşdü, aktyorları yaradıcılıq uğurlarına görə təbrik etdi. Heydər Əliyevin mədəniyyət xadimləri, incəsənət və ədəbiyyat nümayəndələri ilə görüşməsi hələ çoxdan, sovet dövründən ənənəyə çevrilmişdi.

Dekabrın 12-də Heydər Əliyev Prezident Sarayında xalq artistləri, dövlət mükafatı laureatları Fidan və Xuraman Qasımova bacılarını qəbul etdi – onlar ilk dəfə 25 il əvvəl opera səhnəsinə çıxmışdılar. Bu mənalı görüşdən kiçik bir fraqmenti təqdim etmək istərdik.

«Heydər Əliyev: Siz çox şeyə nail olmusunuz. Azərbaycan incəsənəti və musiqisi üçün çox iş görmüsünüz. Sizin hər ikinizdə nadir, qeyri-adi, anadangəlmə fıtri istedad var. Bu neməti Allah hər insana qismət eləmir.

*Fidan Qasımova:* Cənab Prezident, 1975-ci ildə «Koroğlu» operasına qulaq asdığınız yadınızdadır? İkinci hissədən sonra səhnəyə çıxdınız. Mən küncdə valideynlərimlə durmuşdum. Həmin vaxt artıq 2-3 müsabiqənin laureatı idim. Siz yaxınlaşıb mənim valideynlərimlə salamlaşdınız. Məndən soruşdunuz: «Fidan, bəs səni nə vaxt Nigar rolunda görəcəyik?» Siz bunu xatırlayırsınız?

*Heydər Əliyev*: Çox yaxşı xatırlayıram.

*Fidan Qasımova*: İnanın ki, o günü heç unutmuram. Sizdən aldığım güc, məsuliyyət hissi bu gün də məni ruhlandırır. Sizin sözləriniz mənə o qədər təsir etdi ki, tezliklə Nigar partiyasını öyrənib oxudum».

Azərbaycanın görkəmli mədəniyyət ustalarının hər birinin Heydər Əliyevlə bağlı xoş xatirələrinin, minnətdarlıq hissinin olduğunu desək, yəqin ki, yalan danışmarıq. Misal üçün, Müslüm Maqomayev konsertlərinin birinin sonunda Heydər Əliyevin ona dediyi bu sözləri yaxşı xatırlayır:

– Bəlkə, sənin nəyəsə ehtiyacın var?

«Xeyr», – cavan müğənni həmin dövrdə şəraiti olmayan kommunal mənzildə yaşasa da, bu cür cavab vermişdi: «Düşünürəm ki, o mənim səsimi bəyənmişdi. EIə buna görə də mənə qarşı hörmətlə, daha sonra məhəbbətlə yanaşırdı. Bu cür də mən ona yanaşıram», – deyə aradan illər keçdikdən sonra Müslüm Maqomayev özünün «Melodiya- sevgim mənim» kitabında yazırdı.

## «Ətrafımıza bütün azərbaycanlı uşaqlar toplaşıb»

İl qurtarırdı, əhali bayrama hazırlaşırdı. Amma Heydər Əliyev üçün həmişəki kimi bütün günlər iş günü idi.

– Elə gün yox idi ki, Prezident işə gəlməsin. 1993-cü ildən başlayaraq, bircə dəfə də olsun məzuniyyətə çıxmamışdı. Heç vaxt da gününün qaydasını, cədvəlini dəyişməzdi. Saat 8-də səhər yeməyi idi. 10-da işə gəlirdi. Nahar etmirdi. Gün ərzində görüşlər, danışıqlar, sənədlər, telefon zəngləri, məktublar... Saat 8-də yüngül şam yeməyi edirdi. Mən burada işlədiyim 25 il ərzində rejim həmişə belə olub, – deyə general Axundov qeyd edir.

Yeni – 2003-cü ildə də Prezidentin 80 yaşı tamam olanda da hər şeyin bu cür davam edəcəyinə inanırdıq...

Dekabrın 31-də Yeni il münasibətilə uşaq evləri üçün Respublika Sarayında keçirilən tədbirə gəldi. Mahnı səslənir, uşaqlar rəqs edir, oynayır və Heydər babanın onlara dediklərini maraqla dinləyirdilər.

– Sizinlə bir yerdə olanda, elə bilirəm ki, Azərbaycan uşaqlarının, gənclərinin hamısı ətrafımıza toplaşıb. Mənə elə gəlir ki, bütün gəncləri öpüb bağrıma basıram. Sizə xoşbəxtlik arzulayıram!

2002-ci ilin son dəqiqələrində Prezident Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə xalqa müraciət etdi:

– Biz qürur hissi ilə deyə bilərik ki, 2002-ci il Azərbaycan xalqı üçün uğurlu olub, – Heydər Əliyev bunu sübut edən iqtisadi inkişafın bir çox faktlarını sadaladı, pensiya, əmək haqları və büdcənin artımına dair məlumatlar verdi. – Amma problemlər də mövcuddur. Ən böyük ağrılı problemimiz, mən deyərdim ki, əsas dərdimiz bu günədək həllini tapmayan Azərbaycan-Ermənistan münaqişəsidir.

Prezident il ərzində görülən işləri xatırlatdı və Azərbaycanın sonadək sülh yolu ilə məsələnin həllinə üstünlük verəcəyini bildirdi; «Biz əhali üçün sakit yaşamaq imkanı yaratmışıq. Hər bir işimizlə aybaay, ilbəil insanların rifahını yaxşılaşdırmağa çalışacağıq».

## XIII fəsil

# DÜNYANIN GÖZÜNDƏ

Böyük siyasətçilər, dövlət və ictimai xadimlər çox zaman bir-birilərini qiymətləndirməyə çalışırlar. Əgər ancaq rəsmi nitqlər və məktublardan nə isə öyrənmək istəsək, onda yalnız müdrik və qəhrəman obrazlarını görə bilərik. Bəzən xasiyyətnamələr elə yazılır ki, söhbətin tamamilə başqa şəxslərə aid olması təsəvvürü yaranır.

Ən parlaq nümunə kimi, ABŞ Prezidenti ata Corc Buşun Sovet lideri Mixail Qorbaçova olan münasibətini göstərmək olar. 1988-ci ildə Malta danışıqlarından sonra Buş öz köməkçilərinin yanında demişdi: «Ay aman, onun iqtisadiyyatdan heç başı çıxmır ki!» Sonradan Vaşinqton ekspertləri tərəfindən Buşun nəyə işarə etməsini öyrəndikləri isə bizə məlum deyil.

Əlbəttə, dövlət rəhbərləri, ictimai-siyasi xadimlərin hərəkətlərinin çox hissəsi siyasi etiket qaydaları əsasında tənzimlənir. General de Qollun AFR-in kansleri Adenauerə verdiyi dərsi klassik misal kimi göstərmək olar.

1962-ci ilin iyul ayında Parisdə kanslerin şərəfinə möhtəşəm ziyafət düzənlənir. De Qoll onu fəxri legionun Böyük Xaçı ilə təltif edib, xeyli tərifləyir, iki aydan sonra Fransa Prezidenti cavab səfəri ilə Reynə yola düşür. De Qollun həyatını araşdıran Nikolay Molçanovun fıkrincə, bu, çox qəribə, özü də ibrətamiz bir səhnə idi.

Bonndakı hava limanında Fransa Prezidentini Adeanuer qarşılayır. De Qoll heç kəsin gözləmədiyi halda qəflətən qoca kansleri qucaqlayıb, hər iki üzündən öpür. Sonralar kansler danışırdı: «Birinci dəfə idi ki, məni xarici dövlət xadimi, özü də ki, fransız öpürdü!»

Sonra o, 5 gün ən iri şəhərlərdə alman dilində çıxışlar edir. Qərbi Almaniyada – Hamburq, Köln, Münhen, Ştutqart, Düsseldorfda... almanlar az qala onu əllərində gəzdirirdilər.

«Şpigel» jurnalı yazırdı; «De Qoll Almaniyaya Fransanın Prezidenti kimi, Amma fransızların sevmədiyi Prezident kimi gəlsə də, Avropanın imperatoru olaraq geri dönür». Generalın özü isə sonralar yaxın yoldaşlarından birinə etiraf etmişdi: «Mən almanlara dedim ki, siz dahi xalqsınız. Amma bu, düz deyil. Əgər almanlar dahi xalq olsaydılar, məni belə qarşılamazdılar».

General öz oyununa Qərbi Almaniya-Fransa əməkdaşlığı sazişinə bir proloq kimi baxırdı. 1963-cü il yanvarın 22-də Yelisey sarayında de Qoll və Adenauer saziş imzaladılar. Bu, «Avropanın ən böyük toyu» idi. Sonradan Fransa-Almaniya münasibətləri heç də normal davam etmədi. Amma tarixi nöqteyi-nəzərdən baxsaq, de Qollun hər addımını Fransanın milli maraqları naminə atdığının şahidi olarıq.

Aprelin 10-da Heydər Əliyev Avropa Şurası Parlament Assambleyasının Azərbaycan üzrə məruzəçisi, Fransa parlamentinin deputatı Jak Bomeli qəbul etdi. Cənab Bomel Əliyevi keçmiş Fransa Prezidenti general De Qoll ilə müqayisə etdi: «Onun olduğu mövqedəki kimi siz də bütün qruplardan kənar qalaraq siyasət aparırsınız. Məhz buna görə də Azərbaycanla Avropa arasındakı əlaqələrin yaxınlaşması mühüm əhəmiyyət kəsb edir. Avropa sizi demək olar ki, bütün sahələrdə dəstəkləyir. Bu, Azərbaycanın öz müstəqilliyini saxlamasına yardım edir».

Fransız natiq həmsöhbətini kompliment atəşinə tutaraq onun gümrah görünüşündən və sağlamlığından danışdı. Heydər Əliyev də «borclu» qalmadı: «Cənab Bomel, sizə

baxıram, yaxşı görünürsünüz, çox gözəl yaddaşınız var. Dünən axşam bizim milli rəqsləri necə maraqla seyr etdiyinizi görəndə buna bir daha əmin oldum». Sonra isə ciddi şəkildə davam etdi: «Siz hər dəfə general Şarl de Qollun siyasətindən danışırsınız. İndi də bu mövzuya toxundunuz. Təbü ki, Şarl de Qoll dünyada tanınmış şəxsiyyətlərdən biridir, II Dünya müharibəsi zamanı və ondan sonra de Qollun etdikləri əsrlər boyu xatırlanaraq, öz qiymətini itirməyəcək. Mənim üçün general de Qoll həm ideal, həm də bir nümunədir. Mənim bugünkü siyasətimin əsasında Azərbaycan müstəqilliyinin müdafiəsi durur».

Əlavə edək ki, bu siyasət reallığa çevrilə bildi. Əliyev öz ölkəsinin maraqları ilə nəhəng dövlətlərin maraqlarını tarazlaşdırmağı bacardı. Heydər Əlirza oğlu Əliyev, görəsən, digər ölkələrin ictimai və siyasi xadimlərinin gözündə necə görünürdü? Gəlin, onun haqqında yazılan qəzet materiallarını və xatirələri birlikdə vərəqləyək, həmsöhbətlərimizin bu məsələ ilə bağlı münasibətini öyrənək.

Türkiyə Prezidenti Süleyman Dəmirəl Əliyevi şərqlilərə məxsus bəlağətlə «Azərbaycanın demokratik yolla inkişafı naminə sinəsini qalxan edib qəhrəmanlıq göstərən əziz qardaş»ı adlandırır.

UNESCO-nun baş direktoru Federiko Mayor Heydər Əliyevə müraciətlə «Siz dünya miqyasında qəbul edilmiş görkəmli lidersiniz» demişdi.

Bu, doğrudan da, belədir. Etiraflar çoxdur – səmimi olanlar da, xüsusi niyyətlə deyilənlər də. Amerika diplomatiyasnın ekskomandoru xanım Olbrayt Əliyevə kompliment deyərkən özünü də unutmadı. ABŞ dövlət katibi vəzifəsində olduğu müddətdə «bu cür təntənə ilə qarşılanan ikinci bir prezident görmədiyini» demişdi. Yəni, Dövlət Departamenti gör, necə səy göstərib.

Xanım Olbraytın həmkarı Henri Kissincer isə məktubunda böyük bir proqramı əhatə etmişdi: «Öz qarşısında ABŞ və Qərb dövlətləri ilə əlaqələrin gücləndirilməsi məqsədini

qoyan Heydər Əliyevin fəaliyyəti təqdirəlayiqdir. O, bazar iqtisadiyyatının gücləndirilməsi və inkişafı işinə xeyli zəhmət sərf etmişdir. Heydər Əliyev müstəqilliyin qorunması sahəsində inadkarcasına və qətiyyətlə mübarizə aparır».

Fransa Prezidenti Jak Şirakın yaratdığı obraz digərlərindən seçilir: «Bu qeyri-adi insan Azərbaycanın çiçəklənməsinə nail oldu. Mən görüşlərimiz zamanı onda müşahidə etdiyim iradə, mətinlik və uzaqgörənliyi yüksək qiymətləndirirəm. Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli istiqamətində sadaladığım dəyərləri nümayiş etdirdiyini görürəm. Heydər Əliyev kimi zəngin siyasi təcrübəsi, böyük iradəsi, uzaqgörənliyi olan dünya şöhrətli bir dövlət xadiminin Azərbaycanı idarə etməsi bu ölkənin xoşbəxtlyidir».

Çox dəqiq və hərtərəfli bir qiymətləndirmədir. Zəngin idarəçilik təcrübəsini Əliyev hələ sovet dövründə dövlət xadimi kimi formalaşdığı zaman toplamışdı. Rusiya Prezidenti Vladimir Putin Əliyevi Rusiya Federasiyasında təkcə Azərbaycanın deyil, bütün Sovet İttifaqının çox görkəmli ictimai xadimi kimi tanıdığını deyəndə məhz bu keyfiyyətə diqqət etmişdi.

Rusiya Federasiyası Şurasının Federal iclasının sədri Yeqor Stroyev Əliyevin müdrikliyini və optimizmini xüsusi qeyd edərək, onun ən çətin situasiyalarda belə vəziyyətdən çıxış yolu tapmaq iqtidarında olduğunu vurğulayırdı. «Münaqişələrin sülh yolu ilə həllini tapmaq, siyasi təfəkkürün zirvəsində olmaq deməkdir», – deyə Yeqor Sergeyeviç qeyd edirdi.

Rusiya meri Yuri Lujkov bu siyasətçiyə belə qiymət vermişdi: «Heydər Əliyev bütün Sovet Sosialist Respublikaları İttifaqı məkanında, sovet və postsovet dövründə dahi şəxsiyyət olaraq qalmışdı. O, gözəl beynəlmiləlçi idi. Azərbaycanlıların hər zaman Rusiyadan böyük mənfəət əldə edəcəklərini bütün qəlbi və düşüncəsi ilə bilir, bu siyasəti şəxsi maraqları çərçivəsində deyil, ümumi rifah naminə həyata keçirirdi».

Şimali Osetiya – Alaniya Respublikasının Prezidenti Aleksandr Dzasoxov Heydər Əliyevi Azərbaycan xalqının dahi oğlu hesab edirdi. İttifaq dövlətinin dağılmasından sonra zəngin təcrübəsini yalnız Vətəni üçün sərf etdiyini deyirdi.

Azərbaycanın müstəqilliyi uğrunda Əliyevin tarixi xidmətləri ilkin olaraq AFR-in federal kansleri Gerhard Şröder və Yaponiyanın baş naziri Dzünitiro Koidzumi ayrı-ayrılıqda qeyd ediblər.

ABŞ Prezidenti Corc Buşun fikrincə, uzun müddət ərzində Heydər Əliyev Cənubi Qafqazda əsas şəxsiyyət olaraq qalıb. ABŞ və Azərbaycan arasında hazırkı dostluq münasibətləri onun şəxsi səyi nəticəsində yaranıb, Azərbaycan müstəqilliyi qorunub saxlanılıb.

Avropa İttifaqında Ukrayna nümayəndə heyətinin sədri, görkəmli Ukrayna şairi Boris Oleynik Heydər Əliyevi « Əsl xilaskar» adlandırırdı; «Azərbaycanın müstəqilliyi təhlükə altında qaldığı bir vaxtda xalqın sadiq oğlu Heydər Əliyev sükanı əlinə almağı bacardı. Öz iradəsi, aqilliyi və cəsurluğu sayəsində Azərbaycanı ağır vəziyyətdən xilas etdi».

Zənnimcə, müraciət etdiyimiz şəxslərdən gələn ən dolğun cavablardan biri də Qazaxıstan Prezidenti Nursultan Abişeviç Nazarbayevə məxsusdur. O, tamamilə əhatə olunmuş siyasi bir portret cızmışdı: «Həyati, quruculuq, iqtisadi və böyük siyasi təcrübəsi olmaqla yanaşı, səmimi və açıqürəkli bir insanın» portretini. Biz artıq məktubun 1986-cı il Almata hadisələrindən danışan, Qarabağ münaqişəsinə təkan verən bu problemi əhatə edən hissəsinə toxunmuşuq. O vaxt Heydər Əliyev milli siyasətdə yol verilən səhvlər haqqında Qorbaçovu xəbərdar etsə də, ikinci qulaq asmayaraq işin daha asan həllinə üstünlük vermişdi. Öz sözündən dönmədiyinə, fikrində qaldığına görə Heydər Əliyev istefaya göndərilmişdi.

Bu dövrdə gərginlik daha da artır, millətlərin üsyanına doğru inkişaf edərək dərinləşirdi. Azərbaycanda separatçı

və millətçi qüvvələr baş qaldırmışdı. Belə bir şəraitdə məsuliyyətin Heydər Əliyevin üzərinə atıldığı zaman, onun nümayiş etdirdiyi möhkəmlik, dözümlülüyə və şücaətə ancaq təəccüblənmək olar. Bütün qarşılaşdığı çətinliklərə baxmayaraq, sınmadı», – deyə Nursultan Nazarbayev yazır. Onun məktubunda daha maraqlı tarixi məqamlara toxunulur:

«Düşmənlərin hədə-qorxusuna, dostların ehtiyatlı davranma məsləhətinə baxmayaraq, baş verən hadisələrdən kənarda qalıb seyrçi rolunu oynaya bilmədi və vətənə döndü. Bir vətəndaş və vətənpərvər kimi xalqı ilə birgə həmin çətinlikləri yaşamaq istədi. O, təkcə bununla kifayətlənmədi, öz nüfuzundan və təcrübəsindən istifadə edərək situasiyanı düzəltməyə qalxdı.

Bu çətin günlərdə Heydər Əliyevin apardığı düzgün siyasət onu xalqın tələbi ilə yenidən 1993-cü ildə müstəqil Azərbaycanın Prezidenti etdi. Azərbaycan xalqı bununla öz liderinə sonsuz inam və məhəbbətini nümayiş etdirərək vəziyyətdən nicat yolunun yalnız Heydər Əliyevlə bağlı olduğunu bildirirdi.

Əminliklə deyə bilərəm ki, Heydər Əliyev 1982-ci ildə Moskvaya gedərkən respublikanı iqtisadi və siyasi stabillikdə, ölkəni tərəqqidə qoymuşdu. 10 il sonra, 1993-cü ildə isə müstəqil olmasına baxmayaraq, Azərbaycanı tamamilə dağılmış, müxtəlif klanlara bölünmüş, quldur qüvvələr tərəfindən talan edilmiş bir şəkildə təhvil aldı.

Çox az bir müddət ərzində ölkəni yenidən dirçəltmək, siyasi institutların işini bərpa etmək, siyasi vəziyyətin sabitliyinə nail olmaq, qan tökülməsinin qarşısını almaq yeni bazar islahatları həyata keçirmək, xalqın rifahını yüksəltmək, doğrudan da, Heydər Əliyev tərəfindən nümayiş etdirilən əsl qəhrəmanlıq hesab edilə bilər.

Sovet İttifaqında formalaşan, sosializm ideyaları ilə tərbiyə almış bir insan taleyin qisməti ilə yeni bir şəraitdə çalışıb, mümkün olmayanı belə reallaşdırmağa müvəffəq oldu. O öz keçmiş həyatından möhkəm iradə, aydın zəka, xalqın

ağlına və gücünə inam hissini götürərək gənclərə məxsus enerji ilə yeni iqtisadi və ictimai münasibətlər qurmağa başladı. Və buna nail oldu.

O, qloballaşma əsrinin qeyri-humanist olmayan çağırışlarına və hədələrinə uğurla cavab tapdı və doğma xalqnın keçmiş adət və ənənələrini, milli mədəniyyətini qorumaqla yeni dünyaya da inteqrasiya etməyə müvəffəq oldu.

Xüsusilə bir vacib aspekti qeyd etmək istərdim ki, bu xüsusiyyət Heydər Əliyevin dünya miqyaslı bir siyasətçi kimi müdrikliyində və uzaqgörənliyində əks olunub. Xatırladım ki, o dövrdə Azərbaycan faktiki olaraq beynəlxalq aləmdən təcrid olunmuş bir vəziyyətdə idi. Elçibəyin rəhbərliyi altında ölkəni idarə edən müxalifət qonşu və digər xarici dövlətlərlə münasibətləri yalnız milli təcridolunma siyasəti əsasında aparmışdı.

İnteqrasiya və əməkdaşlığın tərəfdarı olan Heydər Əliyev vəziyyəti düzəltmək, əlaqələri yaxşılaşdırmaq sahəsində yorulmadan səy göstərdi. O, xüsusilə MDB dövlətləri ilə münasibətləri bərpa etdi. Xüsusi minnətdarlıqla qeyd etmək istərdim ki, mənim də bu istiqamətdə atdığım hər bir addıma dəstək olmuşdu. Hər zaman onun müdrik məsləhətinə və köməyinə arxalana bilərdim.

Xəzər regionu probleminə dair onunla çox danışıqlarımız olub. Biz bu mövzuda həmfikir idik ki, dənizin resursları heç zaman konfliktli məsələ olmamalıdır. O dövrdə də indiki kimi Xəzərin yalnız dostluq və qarşılıqlı anlaşma, əməkdaşlıq mövzusu olmasma çox çalışırdıq. Bu mövzuda bütün Xəzəryanı dövlətlər və dünyadakı tərəfdaşlarımız həmfıkirdirlər.

Bu ifadəni qorxmadan işlədə bilərəm ki, Rusiya, Azərbaycan və Qazaxıstan liderlərinin səyi nəticəsində Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi gündəmə gətirildi.

Bu gün Azərbaycan artıq yüksələn xətlə inkişaf edir. Əminəm Heydər Əliyevin davamçısı – onun oğlu – ölkə-

nin Prezidenti İlham Əliyev olacaq. Gələcəkdə Qazaxıstanla Azərbaycanın dostluq əlaqələrinin də təkcə Xəzəryanı regionda deyil, hər bir sahədə davam edəcəyinə inanıram».

1986-cı ildə Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin müavini vəzifəsinə Vladimir Kuzmiç Qusev təyin edildi. Buna qədər o, Rusiya Nazirlər Sovetində və Saratov Kommunist Partiyasında birinci katib kimi çalışmışdı. 2 il (Əliyevin istefasına qədər) Qusev onunla bir komandada işləmişdi. Qusev o zamanlan xatırlayaraq qeyd edir:

– Mən onunla tez-tez rastlaşırdım, necə deyərlər, mən onu iş zamanı tanımışam, – Vladimir Kuzmiç xatirələrini bizimlə bölüşür. – Bu insan xüsusi təşkilatlanmış formada idi. Tapşırıqlarını ciddi şəkildə soruşurdu. Hesab edirəm ki, idarəetmə bacarığı, hər şeyə nəzarət rəhbər işçinin əsas vəzifələrindəndir. Bu sahədə bir-birimizə çox oxşayırıq. Bu gün qarşılaşdığım nəzarətsizlik məni özümdən çıxarır. Heydər Əliyevdə bu yox idi.

Baykal-Amur magistralının inşaatçıları bu gün də onun sorğu-sualını xatırlayırlar. Kabinetdən çıxmaq istəməyən rəhbər işçilərdən fərqli olaraq Heydər Əliyev yerlərdə olurdu, işin gedişatı ilə yaxından tanış olmaq, fəhlə və mütəxəssislərlə söhbət aparmaq onun iş üslubu idi. İndi bu cür rəhbərlər görmək çox çətindir.

Heydər Əliyev Moskvada işlədiyi zaman Vladimir Qusev Azərbaycanda çox olmuşdu. Onun qeyd etdiyi aşağıdakı sözlər də bunu bir daha təsdiqləyir:

– Doğma ölkəsində xalqın onun haqqında dedikləri məni çox sevindirirdi. Heydər Əliyev vətəni ilə daim əlaqə saxlayır, ora baş çəkməyə çalışırdı. Onun ailə həyatından da bəzi şeylər mənə məlumdur. Həyat yoldaşı Zərifə Əliyevanı son günlərinədək göz bəbəyi kimi qoruyurdu. O, ömrünün 80-cı ilində də dinamik idi, ölkəsini inamla idarə edirdi. Azərbaycanın əsas gəlir mənbələrini dövlətin əlində saxlayaraq onun inkişafına və idarəsinə nail olurdu. Bü-

tün bunlar mənə tam səmimi şəkildə deməyə imkan verir ki, Heydər Əliyev sözün əsl mənasında Sovet İttifaqının və müstəqil Azərbaycanın böyük miqyaslı siyasət və dövlət xadimidir.

Gürcüstanın, artıq keçmiş Prezidenti, Mixail Saakaşvilinin zorla hakimiyyətdən uzaqlaşdırdığı Eduard Şevardnadze sanki qanadı qırılmış quş kimi deyir:

– Bizim hər ikimizin fəaliyyəti Sovet Sosialist Respublikaları İttifaqı vaxtından başladı və yeni dövrə – bazar iqtisadiyyatı dörünə qədər davam etdi. Biz böyük tarixi hadisələrin və tarixi mərhələlərin şahidi olduq. Heydər Əliyev məndən əvvəl respublika rəhbəri və Siyasi Büronun üzvü oldu, ancaq biz Moskvaya qədər də bir birimizi tanıyırdıq. Moskvada isə bizim dostluq əlaqələrimiz daha da möhkəmləndi. Burada bizim ailələrimiz arasında, xüsusilə Heydər Əliyevin həyat yoldaşı Zərifə xanımla mənim həyat yoldaşım Nanuli xanım arasında səmimi münasibətlər yarandı. Siyasi Büronun başqa üzvlərindən fərqli olaraq biz bir birimizin evinə tez-tez qonaq gedərdik. Zərifə xanımla Nanuli xanım yaxın rəfiqə idilər və bu münasibət bizi daha da yaxınlaşdırırdı. Buna görə də mənim Heydər Əliyevlə bağlı xatirələrim çoxdur...

…Bir dəfə Daşkənddən Bakıya qayıdarkən Heydər Əliyevlə görüşdüm. O zaman Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri idi. Bizim görüşümüz sakit məcrada və reklam edilmədən keçdi. Biz ölkələrimizin müharibəyə cəlb edilməsindən, münaqişədən çıxış yollarından, ölkələrimizin iqtisadiyyatının gücləndirilməsindən danışdıq. Sonra Heydər Əliyev Azərbaycanın rəhbəri oldu və biz daha tez-tez görüşürdük.

Heydər Əliyevin həyatdan getməsi mənim üçün böyük itki oldu. O mənim ən böyük məsləhətçim idi. Bir problem meydana çıxan zaman o mənə məsləhət görərdi ki, ehtiyatlı olum. Heydər Əliyevin vəfatından sonra mən heç kimlə məsləhətləşə bilmədim. Nəticəni görürsünüz…

2003-cü il mayın 10-da bütün Azərbaycan öz Prezidentinin səksən illik yubileyini böyük təntənə ilə qeyd etməyə hazırlaşırdı. Hamı onun müalicə olunduğu Klivlenddən xoş xəbər gözləyir, Prezidentin tezliklə sağ-salamat geri dönəcəyinə ümid bəsləyirdi. Amma yubileydən bir az əvvəl Heydər Əliyev öz köhnə silahdaşı, Milli Məclisin sədri Murtuz Ələsgərova zəng vurdu:

– Murtuz, mənsiz qeyd etməli olacaqsınız....

Doğma və eyni zamanda uzaqdan gələn bu səsdən Murtuz müəllim hiss etdi ki, pəncərələri sakit parka açılan böyük palatadakı bu insanın vəziyyəti necə də ağırdır. Var qüvvəsini toplayıb dilləndi:

– Biz sizin qayıtmağınızı gözləyirik, cənab Prezident.

Ertəsi gün isə təntənəli yığıncaqda Murtuz müəllim yığcam, amma analitik cəhətdən dərin olan məruzəsində böyük siyasətçi, dövlət xadimi, xalqın ümummilli lideri Heydər Əliyevin surətini belə səciyyələndirdi. Parlament sədri deyirdi:

– Keçilən yola nəzər salanda, hər bir azərbaycanlının ürəyi fəxr və qürur hissi ilə dolur. Bütün bu nailiyyətlərdə həyatını xalqına, vətəninə xidmət etməyə həsr edən və bizim tarixə millətin xilaskarı kimi düşən Heydər Əliyevin xidmətləri sonsuzdur.

Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın xatirələrindən: «Sovet dövründə Heydər Əliyev Azərbaycanın əksər rayonlarına qatarla gedirdi. Adətən səfərdə onu mütəxəssislər müşayiət edirdi, bəzən aralarında şairlər, yazıçılar da olurdu. Bir dəfə təsadüfən tanınmış aktyor Nodar Şasıqoğlu da Heydər Əliyevlə yol yoldaşı olur.

Heydər Əliyev ondan soruşur:

– Siz burada neynirsiniz?

– Sizi müşahidə edəcəm. Bəlkə, nə vaxtsa rolunuzu oynadım, – deyə Nodar cavab verir.

Heydər Əliyev düşünmədən, onun sözünü kəsir:

– Məni oynamaq lazım deyil. Özüm elə özümü yaxşı oynayıram.

Bəli, taleyin ona bəxş etdiyi rolu artıqlaması ilə oynaya bildi. Onun bu tarixi məkanda etdiklərini isə təkcə bugünkü deyil, gələcək nəsillər də dönə-dönə qiymətləndirəcək. Bəlkə də, bizdən fərqli olaraq onlara hər şey başqa cür görünəcək. Çox zaman belə də olur. Tarixçilərin və tədqiqatçıların araşdırma apararkən məşhur insanların həyatına şahid olan şəxslərə müraciət etməsi cəhdi aydındır. Biz də bu yolu tutduq, Heydər Əliyev haqqında bu kitabı yazmazdan öncə yüzlərlə, minlərlə insana müraciət etdik. Onlar naxçıvanlı, bakılı, moskvalı, azərbaycanlı, rus olmalarına, müxtəlif yaş, sənət, cinslərə mənsubluqlarına baxmayaraq, onun barəsində sevgiylə danışdılar. Hər biri Heydər Əliyev haqqında xatirələrini bizimlə bölüşdü və biz onların söylədikləri və yazdıqları əsasında böyük, həm də dahi bir şəxsin obrazını yaratmağa çalışdıq.

## SON BORC, SON XİDMƏT

*Oktyabr 2003-cü il, ABŞ- Klivlend*

Dahilərin böyüklüyü ondadır ki, onlar hər şeyin əvvəlini bildikləri kimi, sonunu da görür və dərk edirlər. Heydər Əliyev də məhz belə insanlardandı...

Onun işdən bu qədər ayrıldığı olmamışdı. Həm də belə bir məqamda – Azərbaycan müstəqilliyinin yeni inkişaf mərhələsinə qədəm qoyduğu, onun strateji layihələrinin reallaşmağa başladığı bir dövrdə...

Yox! Yorğun deyildi. O, mübarizəyə ilk atılan sərkərdə kimi həmişə meydanı qalib kimi sonuncu olaraq tərk etməyə adət etmişdi. Amma yaxşı bilirdi ki, bu sonuncu çarpışmadan, bu sonuncu döyüşdən heç bir dahi, heç bir sərkərdə qalib çıxmayıb. Xəstəlik adı ilə qapını kəsdirmiş ölüm artıq öz hökmünü verməkdə çıxarmaqda israrlı idi. Namərd ölüm onun ağlına, iti zəkasına, düşüncəsinə qalib gələ bilməsə də, taqətini üzürdü...

Xəyal onu bir anda doğma Azərbaycana gətirdi. Çöhrəsinə xəfif bir təbəssüm qondu. Budur, yenə iş başındadır. Gecə yarıdan keçir, onun kabinetinin işıqları isə hələ də yanır. Müstəqil Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi, bu istiqamətdə atılacaq növbəti addımları götür-qoy edir. «Zamanın, vaxtın fərqinə varmır», ağlının, zəkasının sürəti ilə zamanı qabaqlamaq istəyir. Sanki sabah olmayacaq, vaxt burda bitəcəkdi.

Bu dahi bütün ömrünü belə yaşamışdı. Onun böyüklüyü, dahiliyi bir də elə bunda idi ki, öz ömrünün bədxər-

ci idi. O, bu ömrü sədaqətlə xidmət etdiyi Vətəninə, işinə xərcləyirdi. Hətta Klivlenddəki, bu ağır dəqiqələrdə də özünü «bütün varlığı qədər sevdiyi Azərbaycan» qarşısında borclu bilirdi.

Axı ölkəsi, Vətəni üçün bu qədər xarüqələr yaradan bir insanın nə borcu ola bilərdi ki?

Filosofların böyük müəllimi Konfutsi vaxtı ilə yazırdı ki, «dahilər ölüm qabağı çox mühüm işlər haqqında düşünürlər». Heydər Əliyevin düşüncəsində də bu məqamda ən mühüm iş müstəqil Azərbaycanın gələcək taleyi idi. Artıq dərk etmişdi ki, düşüncələrində qurduğu əzəmətli, tərəqqi etmiş güclü müstəqil Azərbaycanla bağlı bütün arzularını gerçəkləşdirməyə onun daha vaxtı qalmamışdı». Amma bu ömür indi ona necə də lazım idi.

Düşüncələr onu rahat buraxmırdı. Ölüm zaman fürsətini hər an əlindən ala bilərdi deyə, gözünə yuxu getmirdi. Axı onun, müstəqilliyinə XX əsrin son onilliyində qovuşmuş, dünyanın amansız mübarizəsində azad ölkə adının təsdiqinə yenicə nail olmuş, sağının-solunun diş qıcadığı Azərbaycan adlı müqəddəs məmləkəti başsız qoyub getməyə sadəcə haqqı yox idi. Özü buna belə qərar vermişdi. Çünki bilirdi ki, ona «Baba» deyən millətin, xalqın onun özünə gümanları nə qədər çox olsa da, sözünə ehtiyacı daha böyükdür. O bilirdi ki, Azərbaycanın müstəqilliyi hələ o qədər də möhkəm deyil ki, onun gələcəyi üçün narahat olmayasan. Bəs yarımçıq qoyduğu işlər necə olsun? Azərbaycanın gələcəyinin asılı olduğu bu işləri kim tamamlasın?

Heydər Əliyevin son qərarı əslində Azərbaycana son borcu, son xidməti idi. Bu qərardan Azərbaycan dövlətinin taleyi asılı idi. Heydər Əliyev bu son borcunu da şərəflə yerinə yetirdi. Onun doğma xalqına ünvanladığı son müraciət Vətənə ləyaqətlə xidmətin son nümunəsi idi. Dəbdəbədən, ritorikadan uzaq, xalqın qavradığı dildə, Heydər Əliyevin üslubunda olan son dərəcə səmimi müraciət:

«Əziz həmvələnlər, hörmətli Azərbaycan vətəndaşları!

Bu günlərdə mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə Prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız Sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gıcümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.

Azərbaycan xalqı dünyanın ən qabaqcıl xalqları sırasında öz layiqli yerini tutub. Onun zəngin mənəvi aləmi, dünya mədəniyyət xəzinəsinə bəxş etdiyi özünəməxsus töhfələr, sivil dünya dəyərlərinə yiyələnmək qabiliyyəti artıq hamıya məlumdur. Azərbaycanlıların öz əməyi, istedadı ilə bütün sahələrdə dünya xalqları ailəsinə getdikcə daha sürətlə inteqrasiya olması indi heç kimi təəccübləndirmir.

Müstəqil dövlətimiz bu gün dünya ölkələrinin ən qabaqcıl təcrübələrindən və dəyərlərindən bəhrələnərək inkişaf edir. Demokratik cəmiyyət, hüquqi dövlət, insan və vətəndaş maraqlarının aliliyi, siyasi plüralizm prinsiplərini rəhbər tutaraq, Azərbaycan Avropanın və dünyanın ən qabacıl, qüdrətli dövlətləri ilə çiyin-çiyinə fəaliyyət göstərir. Ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini tutub. İndi dünyanın, regionun və bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələləri bizim rəyimiz, mənafelərimiz nəzərə alınmadan həll edilmir. Bizi tanıyırlar, qəbul edirlər və əsas məsələlərdə bizimlə hesablaşırlar.

Azərbaycanın iqtisadi həyatı yenidən qurulur, yüksək dinamizmlə dirçəlir və inkişaf edir. Ölkə iqtisadiyyatına daxili və xarici kapital qoyuluşu ildən-ilə artır, aqrar sahə, yeyinti və yüngül sənayesi modernləşir, iqtisadiyyatda qeyri-neft

sektorunun payı yüksəlir, manatın sabitliyi qorunur, valyuta ehtiyatları artır, yeni-yeni yüksək maaşlı iş yerləri açılır. Bütün bunlar 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft və iqtisadi inkişaf strategiyasının nəticəsidir. Mən əminəm ki, biz belə davam etsək, qarşıdan gələn bir neçə ildə Azərbaycanda nə bir işsizə, nə bir kasıb insana rast gəlinəcəkdir. Maaşlar, təqaüdlər və insanların ümumi gəlirləri yüksələn sürətlə artacaq. Azərbaycan dövləti, iş adamlarımız təkcə ölkəmizdə deyil, xarici aləmdə də ən perspektivli və gəlirli layihələrdə iştirak etmək, investisiya qoymaq imkanına və gücünə malik olacaqlar.

Dövlətimiz getdikcə öz müdafiə qabiliyyətini artırır, hərbi cəhətdən güclənir. Milli ordumuz qabaqcıl təcrübə və texnologiyalara yiyələnir, gənclərimiz həvəslə xidmətə gedirlər.

Bütün bunlar asan başa gəlməmişdir. Keçən dövrdə biz sizinlə birlikdə həm daxildən, həm də xaricdən qaynaqlanan nə qədər təhlükəli irticanın, təxribatın və digər antiazərbaycan aksiyalarının qarşısını almışıq, nə qədər çətinliklərə sinə gərmişik. Siz bunları çox yaxşı bilirsiniz.

1988-ci ildə ermənilərin Dağlıq Qarabağda başladıqları avantürist millətçi separatizminin qarşısı Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi üzündən vaxtında alınmadı. 1990-1993-cü illərdə respublikamızda yaranmış siyasi və hakimiyyət böhranından, iradəsizlik və qarmaqarışıqlıqdan istifadə edən Ermənistan ordusu Azərbaycanın torpaqlarını işğal etdi, bir milyondan çox soydaşımızı qaçqın və köçkün vəziyyətinə saldı. Daxildə ölkə vətəndaşları bir-birinə qarşı silahlı toqquşmaya, qarşıdurmaya təhrik edildi, dövlətimizi və dövlətçiliyimizi məhv etməyə, dağıtmağa nə qədər səylər göstərildi. Biz bütün bunların qarşısını aldıq. Lakin xaos və anarxiya dövründə Azərbaycanın pozulmuş ərazi bütövlüyünü, qaçqın və köçkünlərin öz yurd-yuvasına qaytarılması problemini hələ də həll edə bilməmişik. Mən əminəm ki, biz bu məsələni də mütləq həll edəcəyik.

Buna baxmayaraq, bu illərdə xalqımız və dövlətimiz üçün taleyüklü əhəmiyyət kəsb edən məsələləri həll edə bilmişik.

İlk növbədə dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olmuş, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməlini qoymuşuq.

İkincisi, hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatını yenidən qurmuşuq, inkişaf yoluna çıxarmışıq.

Üçüncüsü, Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik.

Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik iıtkişaf edən, güclü dövləl təsisatları olan demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən ərazi bütövlüyü və digər məsələləri həll etmək olar. Əminəm ki, bu məhz belə də olacaq.

Əziz Azərbaycan vətəndaşları, əziz xalqım!

Mən öz mənalı həyatımın düz 60 ilini xalqının bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Bu sahədə görülən işlər sizə məlumdur, lakin mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bütün bu başladığımın nəticələrini aydın gördüyüm işləri tamamlayım. Buna baxmayaraq, 2003-cü ilin 15 oktyabrında keçiriləcək prezident seçkilərində iştirak etmək üçün mənim də namizədliyim irəli sürülüb və qeydiyyata alınıb. Yüzminlərlə insan seçki kampaniyasına qoşularaq mənim təbliğatımı aparır. Fürsətdən istifadə edərək bu insanlara, namizədliyimi irəli sürən və dəstəkləyən Yeni Azərbaycan Partiyasının bütün üzvlərinə, digər ictimai-siyasi təşkilatların nümayəndələrinə, elm, təhsil və mədəniyyət xadimlərinə, ziyalılara və mənə dəslək verən bütün Azərbaycan xalqına dərin təşəkkürümü

bildirirəm. Ümidvaram ki, tezliklə səhhətimi bərpa edərək Vətənə dönəcək, xalqımla yenidən birlikdə olacağam. İndi isə öz namizədliyimi İlham Əliyevin xeyrinə geri götürürəm.

Üzümü sizə – həmvətənlilərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektual, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatmı gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızım ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.

Dərin hörmətlə Heydər ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
1 oktyabr 2003-cü il

2003-cü il oktyabrın 3-də respublikanın əksər qəzetləri unudulmaz Prezident Heydər Əliyevin bu müraciətini birinci səhifədə dərc etdilər. İlk təəssürat xalqı kövrəltdi. Onlar müraciəti Ümummilli Liderin vəsiyyəti kimi qəbul edib ona əməl etməyi özlərinə borc bildilər. Bir həqiqəti də anladılar ki, borc bildikləri bu əməl Azərbaycanın müstəqilliyinin əbədiliyinə, iqtisadi tərəqqinin, demokratiyanın dönməzliyinə xidmət edəcək...

## EPİLOQ

*Məndə sığar iki cahan,*
*Mən bu cahana sığmazam.*
*Nəsimi*

Deyirlər, qara xəbər yel qanadlı olur. Bu qara xəbər okeanı aşaraq gəlmişdi:

«Birləşmiş Ştatlardakı Klivlend xəstəxanasında Heydər Əlirza oğlu Əliyev dünyasını dəyişib».

O, dünyaya göz açanda adını Heydər qoymuşdular. Heydər müsəlman Şərqinin güc və qüvvət rəmzi sayılan, düzlük və müdrikliyi ilə seçilən müqəddəs Əlinin adlarından biridir. İnsanların taleyinin müəyyənləşməsində valideynlərin tərbiyəsi danılmazdır. Amma burada ad seçimi də müəyyən yer tutur. İnsanlar bütün ömürləri boyu adları ilə bağlı xüsusiyyətləri öz üzərlərində daşıyırlar.

Görəsən, işıqdan bir iz qalırmı? Əbədi olaraq sönən günəşi təsəvvür etmək çox çətindir, vaxt ötdükcə ulduzlar sönür, amma insanlar onun işığını hələ uzun illər boyu görürlər.

İşıqsız həyat yoxdur.

Heydər Əliyev Azərbaycanın günəşli səması altında dünyaya gəlmişdi. Bu işığı nə vaxsa vətəninə, hər bir insana, doğmalarına paylamaq üçün qəlbini nura qərq etmişdi. Tale ona 80 illik bir ömür qismət etdi. Ancaq Əliyevin ulduzu Azərbaycanda hələ on və yüz illərlə parlayacaq.

*Tanrı öz varını əsirgəmədi...*
*O azman qamətlə yüz yaşa nə var,*

*Olmaya dünyanın dünyaca dərdi*
*Olmaya vurduğu saysız yaralar,*
*Olmaya demokrat donu geyinən*
*Qorbaçov kimilər, çürük zatlılar,*
*Sapı özümüzdən olan baltalar,*
*Olmaya əzilən, inləyən Vətən...*

Şair Siyavuş Məmmədzadənin Prezidentin xatirəsinə yazdığı şeirində belə deyilir. Düzdür, Heydər Əliyevin ömür yolu enişli-yoxuşlu olub. Çoxlu imtahanlardan keçib. Onun həyatı Azərbaycanın müstəqilliyini təhlükə altına qoyan hadisələrlə üzləşib.

Amma əyilməyib, mətinlik göstərib, hər cür ağrı-acıya tab gətirməyi bacarıb.

Hətta rəqibləri belə onun siyasi təcrübəsi, intellekti və möhkəm iradəsi ilə hesablaşırdılar. O, hakimiyyətə 1993-cü ildə Vətəninin düşmənlər tərəfindən dağıdıldığı, daxili qarşıdurmaların mövcud olduğu bir zamanda gəldi. Aşıq Abbas Tufarqanlnın dediyi kimi «El bir olsa, dağ oynadar yerindən!» deyimini əldə hakim tutaraq qayıtdı.

2003-cü il dekabrın 12-dən 13-nə keçən gecə onun xalqı yetim qaldı. Ayın 13-ü səhərdən başlayaraq Bakı və Azərbaycanın digər şəhər və kəndləri başdan-başa qaraya büründülər. Hər yer, o cümlədən avtobuslar, metro stansiyaları qara matəm lenti ilə örtülmüşdü. İnsan kütləsi Prezident Sarayına axışırdı. Gecə yarısı efirdə proqramlar dayandırılır. Heydər Əliyevin ölüm xəbəri çatdırılan kimi xalq Prezident Sarayının qarşısına yanan şamlar və qərənfillər düzməyə başladı. Heydər Əliyev bu gülləri çox sevirdi, elə ona görə də insanlar Prezident Sarayının ətrafını qərənfil yağışına tutmuşdular.

...Hələ bir qədər əvvəl o, bu pilləkənlərlə qalxırdı. Ömrünün son günlərində belə onun əldən düşmüş, yorğun qoca görkəmi yox idi. O, şuxluğu çox sevərdi. Bakıda Prezidentin bir nəfəri nazir vəzifəsinə təyin etmədiyi barədə gedən söh-

bət tez-tez təkrarlanırdı. O demişdi: «Savadlı oğlandı, amma çox kökdü. Əvvəl arıqlasın, sonra». Namizəd də tezliklə özünü arıqlatmışdı. Prezident də həmişəki kimi öz sözündə durmuşdu.

Efirdə matəm musiqisi səslənir. Ekranda Heydər Əliyevin həyatından bəhs edən fraqmentlər təqdim olunur. Respublikada Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi dövrlərdən parçalar canlandırılır.

*«– Biz XXI əsrə daha güclü və müstəqil bir Azərbaycan aparmaq istəyirik. Gələcək nəsillər üçün daha firavan həyat qurmağa çalışırıq. Azərbaycanın imkanlarından səmərəli şəkildə istifadə edərək, iqtisadi vəziyyəti gücləndirərək xalqımızın maddi rifahının yüksəldilməsinə can atırıq.*

*Azərbaycan azad və demokratik bir dövlət kimi inkişaf edərək Avropa və Asiyada öz tarixi nailiyyətlərini nümayiş etdirəcək.*

*Əziz həmvətənlər! Siz mənə bu cür çətin və məsuliyyətli bir vəzifəni etibar etdiyinizə görə sizə dərindən minnətdaram. Mən bu inama böyük məsuliyyət hissi ilə yanaşıram. Sizi əmin edirəm ki, ömrünün qalan hissəsini yalnız Azərbaycanın inkişafına və çiçəklənməsinə həsr edəcəyəm».*

İnsan selinin ardı-arası kəsilmir. Bu, ümumxalq matəmi idi. Qocalığına, yaşlanmasına baxmayaraq, ağbirçək qadın bu dərdi bölüşmək üçün həmvətənləri ilə birlikdədir. Qucağında südəmər körpəsi ilə axına qoşulan cavan ana da göz yaşlarına qərq olub. Ayaqüstə çətinliklə duran veteran da bu sıranın içindədir. Azərbaycan xalqı öz səmimiyyəti ilə onun qarşısında dağ kimi duran ağsaqqal – Heydər baba ilə vidalaşmağa gəlib.

*«– Biz müstəqil respublika kimi fəaliyyət göstəririk və bu müstəqilliyimizin əbədi olacağına əminik. Bundan sonra heç bir boyunduruq altında yaşamayacağıq. Bu azadlıq təkcə mənəvi, siyasi deyil, həm də maddi nəticəsi ilə seçilməli, xalqın rifahının güclənməsinə xidmət etməlidir.*

*Sovet İttifaqı dağılan zaman iqtisadçılar belə qənaətə gəlmişdilər ki, 15 ölkə arasında özünü tamamilə təmin edən 2-3 dövlət varsa, onlardan biri də Azərbaycandır. Bu haqda hələ sovet alimləri və Qərb şərhçiləri danışırdılar. Həmin fikir göydəndüşmə deyil. O, Azərbaycanın iqtisadi potensialına, təbii sərvətlərinə görə müəyyənləşdirilib».*

Heydər Əliyev bu sözləri necə də ürəkdən və böyük inamla deyirdi...

Xəzərin sahilindəki şəhərin payına az ağrı-acı düşməyib. Zaman-zaman yanar neftinə görə üzərinə yad əllər uzanıb.

Ölkənin təlatümlü vaxtlarında, ağır zamanlarda Prezident bir neçə dəfə xalqa müraciət etmişdi. Bu, o demək deyildi ki, Prezident özü hər şeyi həll edə bilmir. Yox, qanun ona belə bir hüququ vermişdi. Amma o, hər zaman haqqın gücünü daha üstün tutmuşdu. Xalqını, həmvətənlərini məsləhətə çağırırdı.

*«– Azərbaycanı parçalamaq istəyən qüvvələr çoxdur. Bəziləri daxildən, bəziləri isə xaricdən təzyiq göstərirlər. Bir çox məsələlərdə kompromisə gedib bağışlamaq lazımdır. Bu gün sizə yenə də deyirəm ki, mən çox şeyi bağışlamışam. Bəziləri deyir, guya, 70- ci illərin Heydər Əliyevi ilə indikinin arasında böyük fərq var. Yeganə fərq odur ki, əvvəllər çox sərt və kəskin idi. İndi isə daha yumşaqdır və bəzi şeyləri bağışlayır.*

*Bütün bunların səbəbi var. Əsas səbəb odur ki, hazırda demokratik şərtlər əsasında yaşayırıq. Həmin dövrlə indiki dövlər arasında da kəskin fərqlər var. Mən demokratik yolla gedirəm. Azərbaycanda demokratik prinsipləri dəstəkləyən bir adam kimi çox işdə kompromisə gedirəm. Demokratik yolu seçməklə, təhlükəsiz, vətəndaş cəmiyyəti qurmaq lazımdır».*

Heydər Əliyev ən dəqiq seysmoqraf kimi zamanın siyasi cərəyanını tuta bilir, onları öz ürəyinə salırdı. Elə buna görə də yazdığımız kimi, 1987-ci ildə onu infarkt vurdu. «Dəhşətli bir infarkt idi», – söhbətlərimizin birində Yevgeni Maksimoviç Primakov da dəqiqləşdirdi. O vaxt ona da mərhum həyat yoldaşı – həkim-kardioloq Laura Vasilyevna demişdi.

«Onda Əliyevi təqaüdə yazmışdılar. Amma o, infarktdan sonra özünü möhkəmlədə bildi. Bütün bunlar onun həyati gücünün nə dərəcədə çox olduğundan xəbər verir», – deyə Yevgeni Maksimoviç əlavə etdi.

13 dekabr 2003-cü ilin qara şənbə günü Moskvadakı Azərbaycan səfirliyinə öz yaxın dostunun vəfatı münasibətilə başsağlığı verməyə gələnlərin içində Yevgeni Maksimoviç da var idi. «O, tarix yaradan bir şəxsiyyət idi», – deyə Heydər Əliyevin haqqında başsağlığı kitabına yazmışdı.

«O, hər bir millətin yalnız fəxr edə biləcəyi bir oğul idi», – Dövlət Dumasının deputatı Sergey Baburin belə yazırdı. Bu matəm kitabında ən çox «dahi», «Azərbaycan xalqının böyük oğlu» ifadələri işlənirdi.

Azərbaycanda Heydər Əliyev haqqında deyilən bəzi söz-söhbətlər indi də xatırlanır. Guya, o, hakimiyyətə gələn kimi ədavətdə olduğu insanlardan intiqam alacaqdı. Amma belə şeylər dahilərin xarakterinə zidd olur.

*«– Bu gün, əlbəttə, ədalətsizlikdən, insanlara qarşı göstərilən pisliklərdən, keçmiş dövrün repressiyasından danışmaq olar... Bütün bunlar bizim tariximizdir. Tarixi həqiqətləri hər zaman demək lazımdır. Amma bütün bunlarla yanaşı, qazanılan uğurları da unutmaq olmaz. Bu nailiyyətlər arasında Azərbaycan dili də var. Necə istəyirsiniz, o cür adlandırın, amma bu son 60 ildə Azərbaycan dili hədsiz dərəcədə zənginləşib. Heç vaxt Azərbaycanda bu qədər kitab, roman, şeir, hekayə yazılmayıb. Bu, bizim tarixi yolumuz, nailiyyətlərimizdir.*

*Gərək hər zaman milli özünüdərk hissini yüksək tutaq. Bu hissiyyat hər zaman köməyim olub, çətin situasiyalardan məni çıxarıb. Milli özünüdərk hissinin köməyi ilə istədiyim məqsədə doğru irəliləyib, xalqıma xidmət edə bümişəm».*

Prezident Heydər Əliyev son günlərində Bakı küçələrinə gəzməyə çıxmağı çox sevirdi. «İzvestiya» qəzetinin müxbiri yazırdı: «O, çox rahat şəkildə bəyəndiyi adi restoranların birində otura bilərdi». Mühafizəçiləri çox narahat olurdular: «Biz yeməyi yoxlamamışıq». O isə gülüb zarafatla restoran

rəhbərinə deyirdi; «Heç nə olmaz. Olsa da günahkar sənsən ha».

Dahi olduğu qədər də sadə bir insan idi. Səmimi və mehriban idi. Heydər Əliyev öz səmimiyyəti ilə insanı cəlb edirdi.

O, incəsənət adamlarına, ən çox da yazıçı, bəstəkar və rəssamlara xüsusi rəğbət bəsləyirdi. Bu insanlar da onun timsalında özlərinə mənəvi dayaq görürdülər. Hər dəfə də bunu qeyd edirdilər. Yazıçı Anar, Məmməd Araz, Vaqif Səmədoğlu, Elçin, onlarla yanaşı, rusiyalı silahdaşlarından Böyük Vətən müharibəsi veteranı İvan Polikarpoviç Tretyakovu bu sıradan göstərmək olar. Yeri gəlmişkən, sonuncuya böyük ədəbiyyatçılarla birgə Prezident təqaüdü verilmişdi. «Mən bütün ömrüm boyu Heydər Əliyevi unutmayacağam», – İvan Tretyakov yazırdı. – O, insanların əməyinə qiymət verməyi bacarırdı, ona görə də bütün gücümlə çalışmaq istəyirdim».

Əliyev dostluğu yüksək qiymətləndirir, satqınları bağışlamırdı. Qəzəbə tuş gəldiyi ən çətin, ağır günlərdə onunla birgə olan, sınaq günlərində ondan qaçıb daha perspektivli sayılan insanlara əyilməyənləri heç vaxt unutmamışdı. Minnətdar olmağı bacarırdı və başqalarında da bu xüsusiyyəti yüksək qiymətləndirirdi.

1995-ci il dekabrın 19-u: Heydər Əliyev «Gülüstan» sarayında görkəmli yazıçı, ictimai xadim mərhum Yusif Səmədoğlunun 60 illik yubileyinə həsr olunmuş mərasimdə çıxış edir:

*«– Bu gün çıxışında maraqlı bir məqama toxunmaq istərdim. 1990-cı ildə Moskvadan Azərbaycana gəldim. Burada (Bakıda-müəlliflər) yaşamaq mümkün olmadığından Naxçıvana getdim. Həmin dövrdə əgər bir tərəfdən ədalətsizlik görür və cəmiyyətdən təcrid olunurdusa, digər tərəfdən xalqın məhəbbəti və hörməti ilə qarşılaşırdım.*

*Naxçıvanda blokada şəraitində yaşadığım zaman mənimlə görüşə gələn insanları heç vaxt unutmayacağam. Bu, o dövrdə, o*

*qədər də asan deyildi. 2-3 saatlıq mənimlə görüşməyə, baş verən hadisələri müzakirə etməyə gəlir, sonra yenidən Bakıya, Gəncəyə və digər şəhərlərə qayıdırdılar.*

*Bir dəfə mənim üçün gözlənilməz olan bir hadisə baş verdi. Birdən qapı açıldı, Aybəniz xanım içəri girdi. Elə bildim o, Naxçıvana kiminləsə görüşmək üçün gəlib... Eşidib ki, mən də burdayam, ona görə maraqlanıb. Sonra məlum oldu ki, Bakıdan Naxçıvana yalnız bir məqsədlə- məni görmək üçün gəlib. Təkrar edirəm, həmin vaxt çox adam mənimlə görüşməyə gəlirdi, Amma bu görüş çox qiymətli idi. Çünki bu xanım Səməd Vurğunun ailəsini təmsil edirdi. Həm də ki, o vaxt Naxçıvana gediş-gəliş çox çətin idi. Təsəvvür edin, bütün bunlara baxmayaraq, Aybəniz xanun məhz məni görmək üçün o cür çətinliyə razı olmuşdu. Bu, məni çox təsirləndirdi və eyni zamanda sevindirdi. Həmin görüş cəmiyyətimizdə yaxşı insanların hələ də mövcud olduğunu bir daha mənə sübut etdi...»*

O özü də belə yaxşı, qəlbi təmiz insanlardan idi.

Allah ondan heç nəyi əsirgəməmişdi. Xoşbəxtlik, yüksək intellekt, fenomenal yaddaş, natiqlik bacarığı, yaradıcılıq qabiliyyəti, fiziki və mənəvi gözəllik bəxş etmişdi.

2003-cü ilin martında tale onu ağır imtahana çəkdi. Hələ sovet dövründən onun təşəbbüsü ilə yaradılan Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin müdavimlərilə görüşə gəlmişdi. Görüş Respublika sarayında keçirilirdi. Çıxışı zamanı qəflətən Prezident ürəyini tutdu... Bu anı, birbaşa teleyayımda bütün ölkə gördü. 5-10 dəqiqə gərginlik yarandı və sakitlik çökdü. 20 dəqiqədən sonra həkimlərin səyinə, göstərişlərinə baxmayaraq, Prezident tribunaya qayıdıb müstəqil Azərbaycanın gələcək zabitləri ilə sağolaşdı. O başqa cür addım ata bilməzdi. Yalnız Əliyevə məxsus məğrur, iradəli bir adam zala qayıdıb bu vəziyyətdə cavanlarla vidalaşa bilərdi.

Tam məsuliyyətlə demək olar ki, həmin vaxt döyüş meydanına öz şöhrətli sələfləri Koroğlunun, Babəkin, əfsanəvi generallar – Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Həzi Aslanov və başqalarının qəhrəmanlıq salnamələrinə

layiq bir sərkərdə, cəsur döyüşçü, baş komandan, igid general qayıtmışdı.

Son günlərində də o, özü barədə yox, silahdaşları, onlara tapşırdığı vətəni, xalqı barədə düşünürdü.

20 sentyabr axşamçağı Milli Məclis sədrinin kabinetində telefon zəng çaldı. Klivlenddən zəng vururdular: «– Murtuz, salam, mənəm, – parlament sədri tanış səs eşitdi. Əlbəttə ki, o, Heydər Əliyevin səsini tanımışdı, amma səs o qədər uzaqdan gəlirdi ki, Murtuz müəllimin həyəcandan ürəyi qısılmışdı. – Ad gününü təbrik edirəm. Hələlik yalnız telefonla təbrik edə bilirəm»... Sonra daha bir neçə qısa kəlmələr və əlaqə kəsilir. Amma spikerin heç ağlına da gəlməzdi ki, bu, onların son söhbəti olacaq.

Bakılıların dediyinə görə, XX əsrin əvvəllərində inqilabçı Xanlar Səfərəliyevi son mənzilə yola salarkən minlərlə insan küçələrə axışıbmış... Başqa bir vaxt bütün şəhər qəhrəman general Həzi Aslanovla vidalaşmağa gəlibmiş. Dahi Üzeyir Hacıbəyovun dəfn mərasimində də insan selindən tərpənmək mümkün deyilmiş. Belə dərin hüznlə, sonsuz kədər hissi ilə xalq öz şairi Səməd Vurğunu, sonra Qara Qarayevi dəfn etmişdi... Qara Qarayevlə vidalaşma Filarmoniyada oldu və onu da Fəxri Xiyabanda torpağa tapşırmışdılar. Xiyabana gedən yol uzun və çətindir. Həmin yolda insan selinin çiyinlərində dahi bəstəkar aparılırdı. Çiynini tabutun altına verənlər sırasında birinci Heydər Əliyev oldu. Bütün yolu sonadək, dayanmadan getdi. «Mənim fikrimcə, dünyada belə hadisələr çox nadir hallarda olur», – Qara Qarayevin tələbəsi, görkəmli Azərbaycan bəstəkarı Arif Məlikov deyir. – Bu, bir daha Heydər Əliyevin incəsənət adamlarına, görkəmli istedadlara, respublikanın adını göylərə ucaldan şəxslərə bəslədiyi münasibətdən xəbər verir». Üçüncü minilliyin üçüncü ilində milyonlarla həmvətəni Heydər Əliyevin xatirəsinə ehtiramını bildirdi.

14 dekabr. Prezident Sarayına axışan insanların ardı-arası kəsilmir. İnsan seli, bu şəhərin divarları arasına sığmır.

Kütlə şəhərin mərkəzindən Prezident Sarayınadək, Binə hava limanınadək axışır. Azərbaycan öz oğlunun qayıdışını gözləyir. Qara lentlər bağlanmış, aşağı endirilmiş bayraqlar küləyin altında sağa-sola yellənir. Sanki bu hərəkətlə demək istəyir: «Bir kərə yüksələn bayraq, bir daha enməz. Biz sənin xatirən qarşısında baş əyirik... Biz sənə son borcumuzu ödəyirik».

O, Azərbaycan xalqının lideri kimi vətənə qayıtdı. Qayıtdı ki, doğma torpağının qoynunda sakitlik tapsın.

Açıq səma altında mürgüləyən Xəzər narahat-narahat dalğalanır.

Matəm içində olan əsgərlər Qafqaz dağları qədər ağır bir yükü çiyinlərində daşıyırlar.

Dağlar qədər ağır dərd...

İlahi, kədərin işığı necə gözqamaşdıran olurmuş... Xalq bu kədərin işığına toplaşır.

Dekabr küləyi ağacların saralmış yarpaqlarını qoparıb yollara tökür. Ağaclar çox şey deyə bilərdilər. Danışa bilməsələr də, güclü yaddaşları var. Abşeron çölləri boz şoranlı torpaqları ilə, dəvə güvəni ilə, topa-topa qumsallıqları ilə fərqlənir. Burada kiçik gölməçələrdə yığılan sular sanki ilahidən göndərilən bir hədiyyədir.

Abşeron təbiətində boz rəngi sıxışdırıb çıxaran yaşıllığın yaranmasında Heydər Əliyevin böyük əməyi olmuşdu. Azərbaycanın üçrəngli bayrağında yaşıl rəng İslamın mənəvi gücünü əks etdirir. Bu rəng həm də Azərbaycan təbiətindəki yaşıllığın göstəricisidir. Heydər Əliyevin yorulmaz əməyi və zəhməti sayəsində yaradılan yaşıllıq... Kaş o, bu gün öz doğma şəhərini seyr edib, onun keçmiş boz daşlarla əhatə olunmuş, yalnız asfaltlanmış, düz daşlarla örtülmüş şəhərdən necə fərqləndiyini görə biləydi.

...Hava limanından Bakıyadək olan yol iki tərəfdən yaşıl zolaqla əhatə olunmuşdu.

Düzdür, çox zaman insan seli bu yola toplaşır, onu səfərlərə yola salıb qarşılayır, gül-çiçəklə, xoş sözlərlə qarşısına

çıxır, onunla hər görüşdə sevinirdilər. İndi o, yenə Bakı aeroportuna dönürdü. Minlərlə insan eyni vaxtda saatlarına baxdı – 13:55. Ancaq təyyarədən o özü düşməyəcəkdi... Zəif yel acı yovşan iyini gətirir. Araya çökən sakitlik sözsüz rekviyemi xatırladır.

İndi hər kəs duyduğu bu rekviyemin sözlərini, musiqisini öz qəlbində özü yazır. Bu kədər faciəyə qarışıb ümumxalq matəminə çevrilir.

Xalq öz rəhbərini, başçısını, ümummilli liderini itirmişdi. İlham Əliyev isə həm də atasını itirmişdi. Kədərli xəbər ona Ümumdünya İnformasiya Cəmiyyətinin Sammitində olarkən çatdırılmışdı.

İndi o, təyyarəyə yaxınlaşıb yuxarı – atasının yanına qalxmalı idi. Son 15 dəqiqə ərzində onlar təkbətək qaldılar. Kim bilir, İlham bu dəqiqələr ərzində nə düşünürdü, oğul kimi qəlbindən hansı hisslər keçirdi. Bunu yalnız öz doğma ata-anasını son mənzilə yola salan övladlar başa düşə bilər...

«Təzəpir» məscidində Yasin oxunurdu. İslam adət-ənənəsinə uyğun ayinlər icra edildi, dualar oxundu.

Məhəmməd peyğəmbər deyirdi ki, dünyadan köçənlərə ağlamayın, çünki hamı bu yolun yolçusudur. Gedişi ilə çox şey itirdiyiniz insanlar üçün ağlamayın... Amma bu, mümkündürmü?!

Heydər Əliyevi ən çox narahat edən məsələ ölkənin kimə etibar edilməsi idi. Görəsən, ölkədə cavan demokratiya qalib gələ biləcəkmi? Yalnız öz mənafeyi naminə siyasi oyunlara qoşulan «ustalar» bu məqamdan istifadə etməyəcəklər ki?

O, öz məktəbinin yetirmələrini, yeni işlərə layiq olan siyasətçiləri də görürdü. Bir müəllim, tərbiyəçi, bir ata kimi İlhamın qazandığı uğurları, xalqın ona qarşı olan rəğbətini görür və bundan çox fərəhlənirdi. Ürəyi ona deyirdi ki, bu, məhz oğlu olmalıdır. Amma təcrübəsindən bilirdi ki, radikal müxalifət tərəfindən onun qərarı «valideyn himayədarlığı», «vərəsəliyə səy» kimi qiymətləndiriləcək. Bununla belə, namizədinin bütün keyfiyyətləri ilə rəhbərliyə layiq olduğuna

əmin idi. Qan vərəsəsi həm də ruhən varislik qazanmışdı. Heydər Əliyev bunu bilirdi və xalq da ona dəstək verdi.

Onun seçimi bütün dünyada qiymətləndirildi. 15 dekabr dəfn günü Moskvanın «Xəbər vaxtı» qəzeti belə yazırdı: «Heydər Əliyev əsl Şərq dövlət xadiminə layiq bir şəkildə dünyadan köçdü. O, ölkədə hakimiyyət sülaləsini yarada bildi. Onun siyasi rəqiblərinin etirazına baxmayaraq, bu, Azərbaycanın hazırkı imkanları çərçivəsində qanuni yolla edildi. MDB və bütün Avropa üçün nadir hadisə hesab edilən bu sülalənin davamlı olacağı oğlu İlhamdan asılıdır, Yeri gəlmişkən, bu ailədə ikinci balaca Heydər də böyüyür».

Sülalə məsələsi ilə bağlı yersiz söz-söhbətlərə münasibət bildirib, mübahisə etmək istəməzdik. Əsas məsələ bu deyil. İlham Əliyev atasının tabutu arxasınca gedəndə xalq onun Heydər Əliyevə necə oxşadığının bir daha şahidi oldu. Bu oxşarlıq təkcə xarici görünüşdə deyildi.

«O, atasının xarakterindən çox gözəl xüsusiyyətləri mənimsəyib və xoş təəssürat oyadır», – deyə Yevgeni Maksimoviç Primakov qeyd edirdi. – İlham Əliyev geniş düşüncəli, intellektual bir insandır. Mən inanıram ki, o, atası kimi Azərbaycan Respublikasına layiqli Prezident olacaq».

Aeroport yolundan şəhərin mərkəzinə kimi düzülən insanların üzündə dərin bir hüzn, qəm, kədər hiss olunurdu. Bununla belə ümidsizlik yox idi bu üzlərdə; hardasa bir ümid qığılcımı vardı.

15 dekabr. Heydər Əliyevin tabutu 70-ci illərdə onun təşəbbüsü və bilavasitə iştirakı ilə tikilən Respublika sarayında qoyulub. O, müstəqil Azərbaycanın dahi memarı, yaradıcısı idi. Onun yaradıcı məsləhətləri ilə tikilən binalar Bakının simvollarına çevrilmişdi.

Respublika sarayı, Prezident sarayı, «Gülüstan», mədəniyyət evləri, zavodlar, şahmat məktəbləri, klublar, təhsil müəssisələri, yaşayış evləri onun zəhmətinin məhsulu idi.

Ardı-arası kəsilməyən insan axını respublika bayrağı ilə örtülmüş tabutun qarşısından keçir, Azərbaycan vətəndaş-

ları, qonaqlar onunla vidalaşırlar. Kimi ağlayır, kimi isə dualar edir. Hər kəsin qəlbində öz Əliyevi var. Bəziləri onu yalnız telekanallardan tanıyır, bəzilərinə isə onunla görüşmək xoşbəxtliyi nəsib olub. Bəziləri isə hər gün general Vaqif Axundov kimi Əliyevlə birgə işləyib.

Sentyabrın 16-da general-leytenantın ad günüdür. Hər ilin bu günü Prezident onu çağırıb səmimi qəlbdən təbrik edərdi. 2003-cü ilin sentyabrında Klivlenddə idilər. Bir palatada Prezident, digərində isə şəxsi mühafızəsi və amerikalı mühafizəçiləri qalırdı. Həmin gün, o nə haqda desən düşünə bilərdi, amma Prezidentin onu yanına çağırıb təbrik edəcəyini heç ağlına da gətirməzdi.

– Mən Heydər Əliyevlə sentyabrın 27-də vidalaşdım, – deyə xeyli sonra söhbət əsnasında Vaqif Axundov bəzi incə məqamlara toxundu. – O, yaxşı görünürdü, əhvali-ruhiyyəsi də əla idi. Sağ əlini öpdüm, sol əli sistemdə idi. Məni özünə tərəf çəkib öpdü. Dedi: «Hələlik!» – «Seçkilər bitən kimi gələcəm və birlikdə Bakıya qayıdarıq», – deyə cavab verdim.

Mən İlham Əliyevin təhlükəsizliyini təmin etməli idim. O vaxt o, hökumət başçısı idi. Sonra mən burdan Klivlendə zəng vurdum, hesabat verdim, danışdıq... Amma 12 dekabrda bu bədbəxt hadisə baş verdi.

Son vida anları... Tabutun yanında ən doğma adamları – dayanıb. Onların arasında general Vaqif Axundov da var.

– Heydər Əliyevin nəşinə baxsam da, onun ölümünü qəbul edə bilmirdim. Mənə elə gəlirdi ki, o sağdır. Hətta cavan, 60-65 yaşında görünürdü. «Sizi niyə bura qoyublar», – deyə fikirləşdim. Hospitalda son aylarda bir qədər kökəlmişdi, onunla ayrılanda isə arıqlamışdı. Burada isə yanaqları çəhrayı, üzündə isə çox xoş bir görkəm var idi. Sanki dünyanın bütün işığı çöhrəsinə çökmüşdü.

Xarici qonaqlar – Türkiyə Prezidenti Əhməd Necdət Sezər, baş nazir Rəcəb Tayyib Ərdoğan da vidalaşmağa gəliblər. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tabutun önündə ehtiram əlaməti olaraq baş əyir.

Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putin də Bakıya gəlməyi özünə borc bilib. O, görkəmli siyasətçinin xatirəsinə baş əyməklə bütün Rusiya xalqının, rusiyalıların başsağlığını çatdırdı.

Bakını tərk edərkən Putin jurnalistlərə müsahibəsində deyəcəkdi: «Mən Heydər Əliyevə çox hörmət edirdim. Ona təkcə hörmətlə deyil, həm də dərin məhəbbətlə yanaşırdım. O, nəhəng bir dövlət xadimi idi. Heç bir şişirtmə etmədən demək istərdim ki, siyasi nəhəng idi».

Bütün dünyadan – Berlin, Vaşinqton, Tokio, Pekin və digər yerlərdən gələn başsağlığı məktublarının ardı-arası kəsilmirdi.

Matəm karvanı Prezident sarayının yanından ötür...

Yəqin ki, okeanın o tayında olan Əliyev dövlətin başına kimin keçməsindən xəbər tutmuşdu və onun narahat, çox əziyyət çəkmiş vücudu nəhayət ki, rahatlıq tapmışdı.

Dahi Sabirin belə bir gözəl şeiri var:

– *Görmə! – Baş üstə yumaram gözlərim.*
*– Dinmə! – Mütiyəm, kəsərəm sözlərim.*
*– Bir söz eşitmə! Qulağım bağlaram.*
*– Gülmə! – Pəkey, şamü səhər ağlaram.*
*– Qanma! Bacarmam! Məni məzur tut.*
*– Böyləcə təklifi-məalı unut!*

*Qabili imkanmı olur qanmamaq?*
*Məcməri-nar içrə olub yanmamaq?*
*Eylə xəmiş atəşi – suzanımı.*
*Qıl məni asudə, həm öz canım!*

Bəli, insan düşüncəsinin xisləti belədir, həmişə zombiləşməyə qarşı çıxır.

...Əliyevin qayıdışından sonra siyasətdən uzaq diletantlar rahatlıqlarını itirdilər. Onları dövlətin yenidən möhkəmlənməsi qane etmirdi. Hər bir vasitə ilə onu vəzifədən uzaqlaşdırmaq, nə yolla olur-olsun hakimiyyəti ələ keçirmək istəyirdilər.

Matəm karvanı millətin qiymətli insanlarının məzarları önündən ötüb keçir. Küləyin tərpətdiyi daimi yanar alov sanki öz əllərini bütün ömrünü Azərbaycana sərf edən insana sarı uzadır. Bayraqlar qızarır. Respublikanın üçrəngli bayrağındakı qırmızı rəng azadlıq uğrunda tökülən qanları xatırladır.

*Bayraqları bayraq yapan üstündəki qandır,*
*Torpaq əgər uğrunda ölən varsa, Vatandır!*

...Heydər Əliyev topların yaylım atəşləri altında Fəxri Xiyabanda torpağa tapşırılır. Doğma torpağa, artıq onun son məkanına çevrilən müqəddəs torpağa. O torpağa ki, bundan sonra Azərbaycan xalqının ehtiram və ziyarət yeri olacaq.

O öz Zərifəsi ilə əbədi sakitlik tapdı. İki qəlb yenidən daimi olaraq qovuşdu. Zərifə xanımın ruhu kədər içində olan övladlarının başı üzərində dolaşır, onlara Yaradandan xoşbəxtlik diləyir.

Xalq öz liderini, ağsaqqalını dəfn etdi. Amma, görəsən, məhəbbəti basdırmaq olarmı?

«Torpaq əgər uğrunda ölən varsa, Vatandır» bu sətirlərin müəllifi böyük türk şairi Namiq Kamal çox haqlıdır.

Kitabda haqqında söhbət açdığımız insan – bizim qəhrəmanımız xoşbəxt həyat yaşadı. O, hamını yalnız xoş əməllərə dəvət edən peyğəmbər xasiyyətli bir şəxsiyyət idi. Heydər Əliyev Quranın, İncilin qadağan edildiyi günlərdə də, sonra da bu cür yaşamışdı. O öz yaxşı əməllərinin, pak niyyətlərinin nəticəsini gördü. Allahın onun qarşısında qoyduğu müqəddəs vəzifəni həyata keçirdiyini bilərək dünyasını dəyişdi.

... Boş vaxtlarında Səməd Vurğunu oxumağı çox sevirdi:

*Ölüm sevinməsin qoy, ömrünü vermir bada,*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirədək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*

...2004-cü il fevralın 6-da Azərbaycan Respublikasnın Prezidenti İlham Əliyev Moskvaya ilk səfərə yola düşür. O, rusiyalı həmkarı ilə Xəzəryanı ölkələrin dövlət başçılarının növbəti görüşünə hazırlığı, yanacaq-enerji kompleksinin birgə layihələrini müzakirə edir...

Görüşdən əvvəl isə Rusiya Prezidenti Heydər Əliyevi təltif etdiyi Rusiyanın Andrey Pervozvannıy ordenini İlham Əliyevə təqdim edir. Putin ölkənin ali mükafatı olan bu ordeni Azərbaycan Prezidentinə onun 80 illik yubileyində, 2003-cü il mayın 10-da təqdim etmək istəyirdi. Qismət olmadı...

– Heydər Əliyev bizim ölkədə böyük nüfuza malik idi, – daha sonra Putin deyir, – mən bu ordeni Sizin ailəyə xatirə olaraq təqdim edirəm.

Əlində qopuz eldən-elə, əsrdən-əsrə, nəsildən-nəsilə yol gedən müdrik Dədə Qorqud hər şeyi bilir: kimin cəsur kişi, kimin yaramaz olduğunu – o nə deyirsə, çin olur.

*– Hanı dediyim bəy ərənlər,*
*Dünya mənim deyənlər?*
*Əcəl aldı, yer gizlətdi,*
*Fani dünya kimə qaldı?*
*Gəlimli, gedimli dünya,*
*Son ucu ölümlü dünya!*

Mən gələcəyini soraq verərəm, mənim xanım; ölüm anı gələndə Tanrı səni pak imandan ayırmaz. Sənin ağsaqqal atanın yeri – cənnət olacaq; sənin ağbirçək ananın yeri – uca göylərdir!

*Bakı-Moskva-Bakı,*
*2003-2006-cı illər.*

# H.Ə.ƏLİYEVİN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS MƏQAMLARI

**10 may 1923-cü il –** Heydər Əlirza oglu Əliyev Naxçıvanda anadan olub;

**1936-1938 –** Naxçıvan Pedaqoji Texnikumunun tələbəsi;

**1938-1941** – Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsinin tələbəsi;

**1941-1943 –** Naxçıvan MSSR-in Daxili İşlər Xalq Komissarları Sovetində məxfı arxiv şöbəsinin müdiri;

**1943-1944 –** Naxçıvan MSSR Xalq Komissarları Sovetinin ümumi şöbəsinin müdiri;

**1945 –** Sov. İKP üzvlüyünə qəbul edilib;

**1944-1949 –** Naxçıvan MSSR Dövlət Təhlükəsizliyi orqanlarında əməliyyat müvəkkili, baş əməliyyat müvəkkili – Naxçıvan Dövlət Təhlükəsizlik Komissarlığı-DTN-də şöbə rəisi;

**1949-1950 –** Sovet Sosialist Respublikaları İttifaqı DTN-nin Rəhbər kadrların hazırlanması üzrə Leninqraddakı xüsusi məktəbin dinləyicisi;

**1951-1969 –** Azərbaycan SSR Dövlət Təhlükəsizlik orqanlarında fəaliyyət göstərmişdir: DTN-də sahə rəisi; Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində şöbə rəisi, sədr müavini, Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədri;

**1951-1957** – Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində qiyabi şöbənin tələbəsi;

**1954 –** Zərifə Əliyeva ilə ailə həyatı qurub; 18 oktyabr

**1955-ci il** – Heydər və Zərifə Əliyevlərin qızları Sevil dünyaya gəlib;

**24 dekabr 1961-ci il –** Heydər və Zərifə Əliyevlərin oğlu İlham anadan olub;

**14 iyul 1969 –** Azərbaycan KP MK-nın I katibi seçilib;

**1971** – Partiyanın XXIV qurultayında ilk dəfə Sov.İKP MK-nın üzvü seçilib. Sonrakı illərdə də XXV (1976), XXVI (I981) və XXVI (1986) qurultaylarda Sov.İKP MK-nın üzvü seçilib;

**1976,** mart – Sov. İKP MK-nın Siyasi Bürosunun üzvlüyünə namizəd seçilib;

**1976-1987** – SSRİ Müdafiə Şurası yanında Baş Hərbi Şuranın üzvü;

**24 avqust 1979 –** Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb;

**22 noyabr 1982 –** Sov. İKP MK-nın Siyasi Büro üzvü seçilib;

**24 noyabr 1982 –** Sovet Sosialist Respublikalar İttifaqının Ali Soveti Heydər Əliyevi SSR Nazirlər Soveti sədrinin I müavini təyin edib;

**1983 –** İkinci dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb və Qızıl Ulduzla təltif edilir, SSRİ Ali Soveti Rəyasət Heyəti vətəni Naxçıvanda Heydər Əliyevin bürüncdən büstünün ucaldılması qərarını verir;

**15 aprel 1985 –** Həyat yoldaşı Zərifə Əziz qızı Əliyeva vəfat edib;

**1986 –** Yenidən Sov. İKP MK-nın Siyasi Bürosuna üzv seçilib;

**1986 –** SSR Nazirlər Soveti Milli İnkişaf Bürosunun sədri əvəzi vəzifəsinə təsdiq edilib;

**Avqust 1986 –** «AdmiraI Naximov» teploxodunda baş verən faciəni tədqiq edən Dövlət Komissiyasının sədri təyin edilib;

**Oktyabr 1987 –** Təqaüdə çıxması ilə əlaqədar Sov. İKP MK Siyasi Bürosuna üzvlükdən və SSRİ Nazirlər Soveti sədrinin I müavini vəzifəsindən azad olunub. SSRİ Nazirlər Soveti yanında dövlət müşaviri vəzifəsinə təyin edilib;

**Noyabr 1988 –** SSRİ Nazirlər Soveti yanında dövlət müşaviri vəzifəsindən azad edilib;

**24 aprel 1989 –** Təqaüd yaşına çatmış bir qrup şəxslə Sov. İKP MK üzvlüyü sıralarını tərk edib;

**21 yanvar 1990 –** Sovet ordusunun Bakıya yeridilməsi ilə əlaqədar Moskvada bəyanatla çıxış edib;

**20 iyul 1990 –** Bakıya qayıdıb;

**22 iyul 1990 –** Naxçıvana dönüb;

**30 sentyabr 1990 –** Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə deputat seçilib;

**19 iyul 1991 –** Sov. İKP sıralarını tərk edib;

**3 sentyabr 1991 –** Naxçıvan MSSR Ali Məclisinin sədri seçilib;

**1992 –** Yeni Azərbaycan Partiyasının sədri seçilib;

**10 iyun 1993 –** Dövlət daxilində baş verən qarşıdurmanı aradan qaldırmaq üçün Azərbaycan Respublikasının Prezidenti Elçibəyin təkidilə Bakıya gəlib;

**15 iyun 1993 –** Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilən Heydər Əliyevə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri də tapşırılıb;

**20 sentyabr 1993 –** «Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə qoşulmasına dair» qərarı imzalayıb;

**24 sentyabr 1993 –** MDB dövlət və hökumət başçılarının Moskva görüşündə iştirak edib;

**3 oktyabr 1993 –** Azərbaycan Respublikasnın Prezidenti seçilib;

**10 oktyabr 1993 –** Bakı şəhəri Respublika sarayında yeni Prezidentin andiçmə mərasimi keçirilib;

**24 noyabr 1993 –** Azərbaycan xalqına televiziya vasitəsilə ilk müraciətini edib;

**11-12 dekabr 1993** – Cəbhə bölgəsinə yaxın rayonlarda olub;

**19 dekabr 1993** – Azərbaycan Respublikası Prezidenti kimi ilk rəsmi səfərini Fransaya edib. Qarşılıqlı dostluq və qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında sənəd imzalayıb;

**May 1994** – Azərbaycanla – Ermənistan arasında atəşkəs elan edilib;

**20 sentyabr 1994** – Bakıda «Əsrin müqaviləsi»nin imzalanma mərasimi;

**30 sentyabr 1994** – Nyu-Yorkda BMT Baş Assambleyasının qurultayında çıxışı;

**İyul 1997** – Rusiyaya ilk rəsmi səfərə yollanıb;

**Avqust 1997** – ABŞ-a ilk rəsmi səfərə gedib;

**Fevral 1998** – Heydər Əliyevə və Türkiyə Prezidenti Süleyman Dəmirələ İstanbulda «İlin adamı» mükafatı verilib;

**11 oktyabr 1998** – İkinci müddətə Azərbaycan Respublikasının Prezidenti seçilib;

**18 oktyabr 1998 –** Bakıda Respublika sarayında andiçmə mərasimi olub; yanvar 2001 – Bakıya rəsmi səfərə gəlmiş Rusiya Prezidenti V.V.Putinlə danışıqlar aparıb;

**28 may 2001** – Ümumrusiya və Moskva Patriarxı II Alekseylə görüşüb;

**9-10 noyabr 2001** – Prezidentin təşəbbüsü ilə Bakıda Dünya Azərbaycanlılarının I qurultayı açılıb;

**24-26 yanvar 2002** – RF-ə dövlət səfəri;

**30 yanvar – 3 fevral 2002** – Nyu-Yorkda keçirilən Ümumdünya İqtisadi Forumunun işində iştirak edib;

**19-20 may 2002** – İrana rəsmi səfər edib;

**22 may 2002** – Bakıda Roma Papası II İohann Pavellə görüşüb;

**9 iyun 2002** – Prezident Əliyev və Putin Peterburqda Nizaminin abidəsinin açılışında iştirak ediblər;

**23-24 sentyabr 2002** – RF-də işgüzar səfərdə olub;

**30 iyul 2003** – İlham Əliyevin Azərbaycan hökumətinin başçısı vəzifəsinə təqdim olunması barədə məktuba qol çəkib;

**Sentyabr 2003** – Azərbaycan Respublikası Prezidentliyinə namizədliyini geri götürüb;

**12 dekabr 2003** – H.Əliyev vəfat edib;

**15 dekabr 2003** – H.Əliyev Bakıda Fəxri Xiyabanda dəfn edilib.

***Heydər Əlirza oğlu Əliyev – 2 dəfə Sosialist Əməyi Qəhrəmanı, 5 dəfə Lenin, Oktyabr İnqilabı, Birinci dərəcəli Vətən Müharibəsi və Qırmızı Ulduz ordenləri və digər 13 medalla təltif edilib. O, həmçinin Azərbaycan, Rusiya, Gürcüstan, Qazaxıstan, Türkiyə, Ukrayna və digər dövlətlərin orden və fəxri adları ilə mükafatlandırılıb.***

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATIN XÜLASƏSİ

H.Əliyev. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanat, müsahibə və məktublar toplusu. 13-cü cild, Bakı, 1993-2005 (azərbaycanca).

H.Əliyev. Şəxsi mövqe. Bakı, 1996.

H.Əliyev. Rusiya – möhtəşəm ölkə. Bakı, 1997.

Akademik Zərifə xanım Əliyeva. Elmi işlərin toplusu. Bakı,1999.

Zərifə xanın Əliyeva. Bakı, 1998.

İ.Əliyev. Azərbaycan nefti dünya siyasətində. 5-ci cild. Bakı, 1997-1998.

İ.Əliyev. Azərbaycanın Xəzər nefti. M-2003.

S.Əliyeva. Mənim anam (Azərbaycan dilində). Bakı, 2000.

Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyində. Bakı, 2001.

Azərbaycan-Rusiya. Yeni qarşılıqlı əlaqələr, perspektivlər. Bakı,2002.

Azərbaycan tarixi. Stenoqrafik oçerk. Bakı,1998.

Sovet İttifaqı Kommunist Partiyasının XXIV qurultayı. Stenoqrafik hesabat. 2-ci cild. Moskva, 1971.

Sovet İttifaqı Kommunist Partiyasının XXV qurultayı. Stenoqrafik hesabat. 3-cü cild. Moskva, 1976.

Sovet İttifaqı Konınunist Partiyasının XXVI qurultayı. Stenoqrafik hesabat. 2-ci cild. 1981.

Sovet İKP-nin Ümumittifaq XIX konfransı. Stenoqrafık hesabat. 2-ci cild, 1988.

D.Əliyev. Tarixi həqiqət. Bakı, 1999.

V.Andriyanov, A.Çernyak. Kremldə yalqız hökmdar. Moskva, 1999.

V.Andriyanov, A.Çernyak. Yalqız hökmdar prezident rolunda. Moskva, 2000.

V.Andriyanov, A.Çernyak. Yalqız hökmdar gedir. Moskva, 2000.

E.Axundova. Həqiqətin bir anı. Bakı, 2003.

N.Baybakov. Stalindən Brejnevədək. Moskva, 1998.

V.Biryukov. Digərlərindən seçilən həyat. Moskva, 2004.

F.Bobkov. Dövlət Təhlükəsizlik Komitəsi və hakimiyyət. Moskva, 1995.

V.Boldin. Pyedestalın süqutu. Moskva, 1995.

K.Hacıyev. Qafqazın geosiyasəti. Moskva, 2003.

Azərbaycan tarixi. Bakı,1 995.

Azərbaycan tarixi. 3-cü cild. Bakı, 1958-1963.

M.Maqomayev. Musiqi – sevgim mənim. Moskva, 1999.

H.Mirələmov. Zəfər yolu. Bakı, 2003.

S.Mirzəyeva. Heydər Əliyev: incəsənət mənim bütün həyatımdan keçib. Bakı, 2004.

N.Molçanov. General de Qoll. Moskva,1973.

Y.Primakov. Böyük siyasətdə keçən illər. Moskva,1999.

N.Rtjkov.10 il davam edən böyük sarsıntılar. Moskva. 1996.

Z.Səmədzadə. Böyük yolun mərhələləri. Yarıməsrlik tarixdə Azərbaycanın iqtisadiyyatı: reallıq və perspektivlər. Bakı, 2004.

F.Salmanov. Kəşfə bənzər bir həyat. Moskva, 2003.

Azərbaycan çekistləri. Bakı,1981.

Q.Şahnəzərov. Azadlığın qiyməti. Moskva,1993.

# MİNNƏTDARLIQ

*Müəlliflər Heydər Əliyev haqqında kitabın ərsəyə gəlməsinə kömək göstərən insanların hər birinə öz minnətdarlıqlarını bildirirlər.*

*İlk növbədə:*

**Əliyev İlham Heydər oğlu** – Azərbaycan Respublikasının Prezidenti;

**Əliyeva Mehriban Arif qızı** – Azərbaycan Respublikası Prezidentinin xanımı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESKO-nun xoşməramlı səfiri;

**Əliyeva Sevil Heydər qızı** – Heydər Əliyevin qızı;

**Əliyeva Leyla İlham qızı** – Heydər Əliyev Fondunun vitse-prezidenti, Heydər Əliyevin nəvəsi

**Əliyev Cəlal Əlirza oğlu** – AMEA-nın akademiki, Heydər Əliyevin qardaşı;

*Həmçinin:*

**Mehdiyev Ramiz Ənvər oğlu** – Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri, fəlsəfə elmləri doktoru, akademik;

**Həsənov Əli Məhəmmədəli oğlu** – Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor;

**Əsədov Əli Hidayət oğlu** – Azərbaycan Respublikası Prezidentinin köməkçisi;

**Nağdəliyev Zeynal Səfər oğlu** – Azərbaycan Respublikası Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi, tarix elmləri doktoru;

**Ələsgərov Fuad Murtuz oğlu –** Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi, 1-ci dərəcəli dövlət müşaviri;

**Əhmədov Əli Cavad oğlu** – Azərbaycan Respublikası baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini – İcra katibi;

**Əzizov Fikrət Nəhməd oğlu** – Azərbaycan Respublikası Prezident Administrasiyasının ümumi şöbəsinin müdir müavini, "Əməkdar Dövlət Qulluqçusu";

**Talıbov Vasif Yusif oğlu** – Naxçıvan MR Ali Məclisinin sədri;

**Qarayev Əbülfəs Mürsəl oğlu** – Azərbaycan Respublikasının mədəniyyət naziri;

**Axundov Vaqif Əlibala oğlu** – Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi, general-polkovnik;

**Həbibbəyli İsa Əkbər oğlu** – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik;

**Bülbüloğlu Polad Murtuza oğlu** – Azərbaycan Respublikasının Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri, tanınmış bəstəkar və müğənni;

**Ələkbərov Anar Sahib oğlu** – Heydər Əliyev Mərkəzinin direktoru, Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi;

**Vəliyev İsmayıl Məhərrəm oğlu** – Neftçala Rayon İcra Hakimiyyətinin başçısı

**Yusifzadə Ziya Məmmədiyyə oğlu** – general-leytenant, Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi Akademiyasının rəisi;

**Hüseynzadə Lətif Talıb oğlu** – tarix elmləri namizədi, H.Ə.Əliyevin müəllimi;

**Mustafayev Vaqif Behbud oğlu** – «Space» teleşirkətinin prezidenti;

**Vəkilov Telman Hüseyn oğlu** – SSRİ qaz sənayesi nazirinin müavini (1979-1982);

**Hüseynov Rəfael Cahid oğlu** – Moskva Jurnalistlər İttifaqının katibi;

**Bağırov Rafiq Hidayət oğlu** – fotoqraf-rəssam;

**Nazarbayev Nursultan Abişeviç** – Qazaxıstan Respublikasının Prezidenti;

**Dzasoxov Aleksandr Sergeyeviç** – Şimali Osetiya – Alaniya Respublikasının Prezidenti;

**Çingiz Aytmatov Torekuloviç** – böyük qırğız yazıçısı;

**Rıjkov Nikolay İvanoviç** – RF Federasiya Şurasının Federal Məclisinin üzvü, Rusiya Əmtəə İstehsalı Birliyinin prezidenti, SSRİ Nazirlər Sovetinin sədri (1985-1990);

**Qusev Vladimir Kuzmiç** – RF Şurası Federal Məclisinin mülkiyyət və sahibkarlıq üzrə iqtisadi siyasət Komitəsi sədrinin I müavini, SSRİ Nazirlər Soveti sədrinin I müavini (1986-1991);

**Baybakov Nikolay Konstantinoviç** – SSRİ Nazirlər Soveti sədrinin müavini, SSRİ Dövlət Plan Komitəsinin sədri (1965-1985);

**Batalin Yuri Petroviç** – Rusiya Neft-Qaz İnşaat Birliyinin prezidenti, SSRİ Nazirlər Soveti sədrinin müavini (1985-1990);

**Biryukov Viktor Yefimoviç** – SSRİ Dövlət Plan Komitəsinin sədr müavini (1977-1990);

**Pastuxov Boris Nikolayeviç** – RF Ticarət Sənaye Palatasının vitse-prezidenti, ÜLKGİ MK-nın birinci katibi (1977-1982), SSRİ Dövlət Nəşriyyat Komitəsinin sədri (1982-1986), RF-nin MDB işləri üzrə naziri (1998-1999);

**Qavrilov Aleksandr Timofeyeviç** – tarix elmləri namizədi, SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavininin köməkçisi;

**Uxov Oleq Sergeyeviç** – SSRİ Nazirlər Soveti sədrinin I müavininin köməkçisi (1983-1987);

**Şafranik Yuri Konstantinoviç** – Neft-Qaz Sənayeçiləri Birliyinin prezidenti, RF – yanacaq və energetika naziri (1993-1996);

**Konarev Nikolay Semyonoviç** – «İnter Trans» QSC-nin baş direktoru, SSRİ nəqliyyat naziri (1982-1989);

**Bobkov Filipp Denisoviç** – RİA «Novosti» idarə heyəti sədrinin müşaviri, ordu generalı, SSRİ Dövlət Təhlükəsizlik Komitəsi sədrinin birinci müavini (1986-1990);

**Tomilina Natalya Georgiyevna** – Rusiya Dövlət Yeni Tarix Arxivinin direktoru;

**Qusman Mixail Salamonoviç** – İTAR-TASS-ın baş direktorunun birinci müavini;

**Morozkov Vladimir Nikolayeviç** – «Bakinski raboçi» qəzetinin baş redaktoru;

**Lixanov Albert Anatoliyeviç** – yazıçı, Rusiya Uşaq Fondunun sədri;

**Tretyakov İvan Polikarpoviç** – yazıçı, Bakı şəhəri;

***Azərbaycan Milli Arxiv İdarəsi; M.F.Axundov adına Milli Kitabxanası; H.Ə.Əliyev adına Naxçıvan Muzeyi; Rusiya Dövlət Yeni Tarix Arxivi; Rusiya Dövlət Kitabxanasına da öz dərin təşəkkürümüzü bildiririk. Bu işdə xoş sözləri, səmimi münasibəti ilə bizə yardımçı olan hər kəsə minnətdarıq.***

# MÜNDƏRİCAT


Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5
I fəsil: «Mən Naxçıvanda doğulmuşam...» . . . . . . . . . . 14
II fəsil: Bura da cəbhədir . . . . . . . . . . . . . . . . . 36
III fəsil: Heydər və Zərifə . . . . . . . . . . . . . . . . . 57
IV fəsil: "Bu peşəni gəncliyimdən seçmişəm" . . . . . . . 76
V fəsil: Respublika rəhbərliyində . . . . . . . . . . . . . 109
VI fəsil: «Sən bütün Sovet İttifaqına lazımsan, Heydər» 177
VII fəsil: «Mən daş, dəmir deyiləm, insanam» . . . . . . 299
VIII fəsil: Öz xalqınla birlikdə olmaq haqqı . . . . . . . . 339
IX fəsil: Qayıdış . . . . . . . . . . . . . . . . . . . . . . 405
X fəsil: Azərbaycan nefti dünya siyasətində . . . . . . . 451
XI fəsil: Günəş dənizdən doğur . . . . . . . . . . . . . . 531
XII fəsil: Prezident ili . . . . . . . . . . . . . . . . . . . 566
XIII fəsil: Dünyanın gözündə . . . . . . . . . . . . . . . . 627
Son borc, son xidmət. . . . . . . . . . . . . . . . . . . . . 638
Epiloq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 644
H.Ə.Əliyevin həyat və fəaliyyətinin əsas məqamları . . 659
İstifadə olunmuş ədəbiyyatın xülasəsi. . . . . . . . . . . 664
Minnətdarlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . 666

Гусейнбала Мираламов
Виктор Андриянов

# ГЕЙДАР АЛИЕВ

МОСКВА
МОЛОДАЯ ГВАРДИЯ
2006

Görkəmli adamların həyatı ®

*Biografiya seriyası*

Hüseynbala Mirələmov
Viktor Andriyanov

# HEYDƏR ƏLİYEV

Redaktor:
Sevinc Mürvətqızı

Texniki redaktor:
Rauf Kərimli

Korrektor:
Sevinc Abdullayeva

Yığılmağa verilmişdir: 18.10.2018. Çapa imzalanmışdır: 28.11.2018.
Ölçü: 84x108 1/32. Çap vərəqi: 46. Sifariş: 269/18. Say: 2000 ədəd.

**NURLAR**
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, Zərdabi pr. 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az

9789952508932









Heydər Əliyevin valideynləri İzzət xanım və Əlirza Əliyev.

Heydər Əliyevin uşaqlığı Naxçıvanda Puşkin küçəsində keçmişdir, Moskva təqibindən sonra o buraya döndü.





Böyük Əliyevlər ailəsi birlikdə. H.Əliyev soldan ikinci.



1938-ci ildə o, Naxçıvan Pedoqoji Texnikumunu fərqlənmə diplomu ilə bitirdi.



Tələbələrin səhnələşdirdiyi S.Vurğunun "Vaqif" tamaşası. Solda H.Əliyev.

Heydər Əliyev dostları ilə.



Qarşıda böyük
bir ömür var...



Rəfiqə, Aqil və
Heydər Əliyevlər
anaları İzzət xanımla.
*Bakı 1952.*





Zərifə Əziz qızı Əliyeva ailə qurandan sonra
soyadını dəyişməli olmadı.



Heydər Əliyev və Zərifə xanım dəfələrlə Bakının bu guşəsində, məşhur Qız qalasının qarşısında görüşmüşlər.



Zərifə xanım atası Əziz Əliyevlə, *1948-ci il.*



Dostlarla.

Leninqrad 1950-ci illərin əvvəllərində.



Təhlükəsizlik orqanları kapitanı.



Dövlət Təhlükəsizlik Nazirliyinin Ali məktəbinin dinləyiciləri sırasında. *Leninqrad, 1949-cu il.*







Zərifə xanım və
Heydər Əliyev
gənclik çağlarında...

Heydər Əliyev
sevimli qızı Sevillə
birgə.



Zərifə xanım və Heydər Əliyev övladları Sevil və İlhamla birlikdə.

Bakıdakı Dzerjinski adına Mədəniyyət Sarayı (indiki Bakı Bələdiyyə Teatrı). Heydər Əliyev burada dəfələrlə çıxış etmişdir.





Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi N.V.Podqornıy Bakıda. Onun sağ tərəfində Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi V.Y.Axundov, solunda respublika DTK-nın rəisinin birinci müavini H.Ə.Əliyev. *1964-cü il.*

Təhlükəsizlik
orqanları
polkovniki.





Heydər Əliyev
Azərbaycan Kommunist
Partiyası MK-nın birinci
katibi seçilənədək
burada Az.SSR Dövlət
Təhlükəsizlik
Nazirliyində işləmişdir.



O, şəkil çəkməyi çox sevirdi.



Və sevimli Bakısına rəssam və memar gözü ilə baxırdı.



Təhlükəsizlik orqanları general-mayoru.



Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi
H.Ə.Əliyev.



Respublikada aparılan inşaat işlərindən birinin meydançasında.

Ümumittifaq iməcilik. *17 aprel 1976.*





Pambıq tarlasında.



O, iş otağında çox oturmağı sevməzdi...



SSRİ Kommunist Partiyasının XIV qurultayında. *Moskva, 1971.*

Sovet və Amerika kosmonavtları ilə görüş. *8 oktyabr 1973.*





Aleksey Batalov...

... və Arkadiy Raykinlə görüş. 1975.





Zərifə və Heydər Əliyevlər övladları Sevil və İlhamla fəxr edir, nəvələri ilə fərəhlənirdilər.





Zərifə xanım və Heydər Əliyev ömür yolunu
birgə keçməyi arzulayırdılar.



Zərifə xanım Əliyeva ilə vida mərasimi. *17 aprel 1985.*

Zərifə xanımın məzarı qarşısında. *Bakı, Fəxri Xiyaban.*





M.S.Qorbaçov və H.Ə.Əliyev Lenin Mavzoleyinin tribunasında.

Heydər Əliyev və Qazaxıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Dinmuxamed Kunayev Kremlin Qeorqiyev zalında.





Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Ə.Əliyev Kremldə iş otağında.



Heydər Əliyev bilavasitə rəhbərlik etdiyi
Baykal-Amur magistralının tikintisində. *Şərqi Sibir, 1984.*



Nikaraquanın lideri Daniel Orteqa...

... və Çili kommunistlərinin lideri Luis Korvalan ilə.






Heydər Əliyevin rəhbərliyi ilə Sovet İttifaqı nümayəndələr heyəti Meksikada. *1982.*



SSRİ Dövlət Plan Komitəsinin sədri Nikolay Baybakovla.

SSRİ Tibb Elmləri Akademiyasının
rəsmi iclasının prezidiumunda. *Moskva, 1984.*





İkiqat Sosialist Əməyi Qəhrəmanı Heydər Əliyev.



Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyev.
*Tahir Salahovun rəsm əsəri.*



Vətənə sədaqət andı. *Bakı, 1993.*



Naxçıvana döndükdən
sonra ağrılı görüşlər:
qaçqınların yaşadığı
çadır şəhərciyində;
Şəhidlərin
məzarı önündə.





Ata evinin kandarında; həmyerlilərlə görüşlər.
*Naxçıvan, 1990.*





Yüz minlərlə Azəbaycan vətəndaşı öz Prezidentini qorumaq üçün meydana axışdı. *Bakı, 1994.*



Akademik Yevgeni Primakov ilə.

Moskva və bütün Rusiyanın patriarxı II Aleksi ilə.





Heydər Əliyev, Nursultan Nazarbayev və Vladimir Putin.

Rusiya Federasiyası yanacaq və energetika naziri Yuriy Şafranik ilə.





Heydər Əliyev Azərbaycan neft strategiyasının əsaslarını işləyib hazırlamışdır...



... və bu işi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müvəffəqiyyətlə davam etdirir. Yeni yatağın ilk nefti. *Bakı, 1997.*






Heydər Əliyev görkəmli Azərbaycan şairi Hüseyn Cavidin məqbərəsinin açılış mərasimində. *Naxçıvan, 1996.*



Mstislav Rastrapoviç...

... Müslüm Maqomayev və Tamara Sinyavskaya ilə.





Azərbaycan Prezidenti dünya siyasətinin birinci şəxsləri ilə uğurla danışıqlar aparırdı. Papa II İohan Pavellə ...

… ABŞ Prezidenti Corc Buşla....





... Rusiya Prezidenti Vladimir Putinlə....

... Fransa Prezidenti Jak Şirakla....





O, könlünü Azərbaycan uşaqlarına bağlamışdı.

Nəvələri Leyla və Heydərlə.



Doğma
Naxçıvanda.
*Avqust 2002.*



Ata və oğul.
*Bakı, 2000.*





Dağ idin, çiynimi dağlara verdim,
Dağların dərdini çəksə, dağ çəkər.
Sənə məhəbbətim dağlar qədərdir,
Yerini dağlardan soruşum bəlkə.

*Leyla Əliyeva*



Heydər Əliyev: “Mən ona özüm qədər inanıram ...”



Vətənə sədaqət andı...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev.



Ulu Öndərin yoluyla:  Bir millət, iki dövlət – Azərbaycan, Türkiyə!



Azərbaycan, İran və Rusiya prezidentlərinin üçtərəfli zirvə görüşü.



Rusiya Prezidenti Vladimir Putinlə çay süfrəsində.



İlham Əliyev və Barak Obama-iki liderin səmimi görüşü.




Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılışında.




Azərbaycan Prezidenti İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimində.



Prezident İlham Əliyev Ağdam rayonunda "Bənövşələr" qəsəbəsində.



Ali Baş Komandan: "Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək ki, onun əzəli torpağında ikinci qondarma erməni dövləti yaradılsın".




Prezident ölkəmizdəki müxtəlif müəssisələrin açılışında...





20 Yanvar şəhidlərinin əziz xatirəsi daim yad edilir.




Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar
ümumxalq yürüşü.



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva.



Parisdə Heydər Əliyev Fondunun prezidenti
Mehriban Əliyevaya UNESCO-nun xoşməramlı səfiri adı verilməsinə həsr olunmuş mərasimdə.



Mehriban Əliyeva Xətai rayonundakı 3 nömrəli uşaq evində.



Mehriban Əliyeva "Profilaktika! Müdafiə! İmmunlaşma!" həftəsində.




Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən Qala festivalında.



“Гейдар Алиев” kitabının Moskvada keçirilən təqdimat mərasimində...



Tanınmış yazıçı Hüseynbala Mirələmov “Görkəmli adamların həyatı” seriyasından olan “Heydər Əliyev” kitabına görə nüfuzlu “Qızıl kəlmə” ədəbi mükafatının ilk qalibidir. Müəllifin qürur dolu anları…



Bir ömür çiyin-çiyinə...




Əliyevlər ailəsi müxtəlif zaman rakursundan...









Heydər Əliyev Vətənin keşiyində...